AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

Tahir Əli oğlu Sadıqov
İmran Mirzə oğlu Rzayev

VERGİ UÇOTU VƏ AUDİTİ

Dərslik

Azərbaycan Respublikası Təhsil Nazirliyinin
952 saylı 04.09.2014 tarixli əmri ilə dərslik hüququ verilmişdir.

Bakı – "Elm" – 2014

Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə fakültəsinin Elmi Şurasının 05 saylı 14 fevral 2014-cü il tarixli iclasının qərarı ilə cap olunur.

Elmi redaktor: Q.N.Manafov - Azərbaycan Dövlət İqtisad Universitetinin magistr mərkəzinin direktoru, iqtisad elmləri doktoru, professor, əməkdar müəllim.

Rəyçilər: A.M.Kərimov - Azərbaycan Dövlət İdtisad Universitetinin "Maliyyə" kafedrasının professoru.
N.N.Xudiyev - Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə" kafedrasının professoru, iqtisad elmləri doktoru.

T.Ə. Sadıqov, İ.M. Rzayev. Vergi uçotu və auditi. "Elm" nəşriyyatı, Bakı - 2014, 556 s.

ISBN 978-9952-495-23-2

İndiki bazar iqtisadiyyatı şəraitində vergitutma mexanizmi ilə mühasibat uçotu arasında qarşılıqlı əlaqənin yaranması ən mühüm problemlərdən biridir. Qüvvədə olan vergi qanunvericiliyi müəssisələrdə ayrıca vergi uçotunun aparılmasını tələb edir. Yəni mülkiyyət formasından və tabeçiliyindən asılı olmayaraq istənilən təsərrüfat subyekti vergitutma məqsədləri üçün öz gəlir və xərclərinin uçotunu aparmalıdır. Bu isə əsasən mənfəət vergisi üzrə vergitutma bazasının formalaşması ilə şərtləndirilir və yalnız vergitutma məqsədləri üçün tətbiq olunur.

Dərslik təsərrüfat subyektlərində vergi uçotunun təşkili problemlərinə həsr olunub. Dərslikdə vergi uçotunun təşkilinin əsasları, müəssisələrin gəlir və xərclərinin tərkibi, formalaşması və onların mühasibat uçotunda əks etdirilməsi qaydası, məsrəflər və maliyyə nəticələrinin uçotu, eləcə də vergi orqanları tərəfindən ayn-ayrı vergilər üzrə audit yoxlamasının aparılması metodikası nəzərdən keçirilmişdir.

Dərslikdə verilmiş materialların sistemləşdirilmiş ardıcıllığı, diqqəti nəzərdən keçirilən məsələlərin iqtisadi mahiyyəti üzərində cəmləşdirməyə imkan verir ki, bu da onların mənimsənilməsinə sərf edilən vaxta qənaət etmək deməkdir. Kifayət sayda əlavə edilmiş şəkil, cədvəl və mühasibat uçotu hesablarında mühasibat yazılışlarının sxemləri isə buna lazımi yardım göstərir.

Kitab tİ-012100 "Vergilər və vergiqoyraa" ixtisası üzrə bakalavr təhsili alan ali məktəb tələbələri üçün "Vergi uçotu, hesabatı və audit" fənn proqramına uyğun olaraq yazılmışdır.

Dərslik ali məktəblərin bakalavr səviyyəsində təhsil alan tələbələr, magistrlər və ali və orta ixtisas müəssisələrinin müəllimləri üçün nəzərdə tutulmuşdur.

Kitabdan həmçinin mülkiyyət və tabeçiliyindən asılı olmayaraq bütün müəssisə və təşkilatların mühasibləri, idarəetmə və maliyyə-iqtisad xidməti sahəsində çalışan digər mütəxəssisləri də istifadə edə bilərlər.

0605010407

655(07)-2014

© "Elm" nəşriyyatı, 2014

MLNDƏRICAT

Fəsil 1: Azərbaycan Respublikasının vergi sistemi

1.1. Vergilərin iqtisadi mahiyyəti, onların növləri və təsnifatı 5-11
1.2. Vergi siyasəti və vergi sistemi 11-19
1.3. Vergi öhdəlikləri və vergilərin müəyyənedilməsinin əsas şərtləri 19-26
1.4. Vergi münasibəti İştirakçılarının hüquq və vəzifələri 26-33
1.5. Vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət 33-38
1.6. Vergi nəzarəti və onun formaları 38-46
1.7. Hüquqi şəxslərin mənfəət vergisi 47-54
1.8. Fiziki şəxslərin gəlir vergisi 55-63
1.9. Əlavə dəyər vergisi 63-78
1.10. Aksizlər 78-84
1.11. Yol vergisi 84-88
1.12. Sadələşdirilmiş vergi 88-94
1.13. Omlak vergisi 94-99
1.14. Torpaq vergisi 99-102
1.15. Mədən vergisi 102-104
1.16. Gömrük və dövlət rüsumları 104
1.16.1. Gömrük rüsumlarının vergitutma elementlərinin xarakteristikası 104-107
1.16.2. Dövlət rüsumlannin vergitutma elementlərinin xarakteristikası 107-109

Fəsil 2: Vergi uçotunun təşkili

2.1. Vergi uçotunun mahiyyəti 110-113
2.2. Vergi uçotunun predmeti və metodu 113-115
2.3. Vergi uçotunun məqsəd və vəzifələri 115-117
2.4. Vergi uçotunun prinsipləri 117-121
2.5. Vergi və mühasibat uçotunun fərqli cəhətləri 121-134
2.6. Vergi uçotunun aparılması üsulları 134-140
2.7. Mühasibat uçotu registrləri - vergi uçotunun informasiya bazası kimi 140
2.7.1. Vergi uçotu registrlərinin tərtib edilməsi qaydası 140-141
2.7.2. Mühasibat uçotu registrləri 141-145
2.7.3. İlkin uçot sənədləri və onların tərkibi 145-147
2.7.4. Analitik vergi uçotu registrləri 147-148
2.8. Gəlir və xərclərin uçotu 148
2.8.1. Gəlir və xərclərin uçotunun təşkili prinsipləri 148-150
2.8.2. Hesablama metodu ilə gəlir və xərclərin uçotu 151-158
2.8.3. Kassa metodu ilə gəlir və xərclərin uçot prinsipləri 158-161
2.9. Müəssisə gəlirlərinin tərkibi və maliyyə nəticələrinin formalaşması (müəyyən edilməsi) qaydası 161
2.9.1. Müəssisə gəlirlərinin müəyyən edilməsi və təsnifləşdirilməsi 161-165
2.9.2. Müəssisənin əsas fəaliyyətdən olan gəlirləri 165-169
2.9.3. Satışdan kənar əməliyyatlardan əldə edilən gəlirlər 169-170
2.9.4. Veritutma məqsədləri üçün nəzərə alınmayan gəlirlər 170-174
2.10. Vergitutulan gəlirdən çıxılan xərclərin tərkibi və qruplaşdırılması 174
2.10.1. Xərclərin iqtisadi mahiyyəti vəqruplaşdırılması 174-177

2.10.3. Müəssisənin kommersiya fəaliyyəti ilə bağlı olan xərcləri 182-200
2.10.4. İstehsal və satışla bağlı olmayan (satışdankənar) xərclər 200-204

Fəsil 3. Vergi öhdəlikləri üzrə büdcə ilə hesablaşmaların uçotunun təşkili

3.1. Vergi öhdəlikləri üzrə büdcə ilə hesablaşmaların uçotunun məqsəd və vəzifələri 205-210
3.2. Vergi öhdəlikləri üzrə mühasibat uçotunun təşkili prinsipləri 210-215
3.3. Maliyyə nəticələri və mənfəətdən istifadənin uçotu 215
3.3.1. Satışdan olan maliyyə nəticələrinin uçotu 215-221
3.3.2. Məhsul satışının uçotu 221-224
3.3.3. Müəssisənin sərəncamında qalan mənfəətdən istifadənin uçotu 224-233
3.4. Mənfəət vergisi üzrə büdcə ilə hesablaşmaların uçotu 233-241
3.5. Fiziki şəxslərin gəlir vergisinin uçotu 242-264
3.6. Əlavə dəyər vergisi üzrə büdcə ilə hesablaşmaların uçotu 264-295
3.7. Aksiz vergisi və aksiz markalarının uçotu 296-308
3.8. Gömrük vergi, rüsum və yığımların uçotu 308-312

Fəsil 4. Vergi auditi

4. l. Vergi auditinin mahiyyəti, vəzifələri və əmələgəlmə zəruriliyi 313-316
4.2. Vergi auditinin məqsəd və vəzifələri 316-318
4.3. Vergi auditinin mərhələləri 318-319
4.4. Vergi auditinin təşkili prinsipləri 319-320
4.5. Vergi öhdəlikləri üzrə büdcə ilə heablaşmaların auditinin məqsəd və vəzifələri 320-327
4.6. Büdcə ilə hesablaşmaların auditinin təşkili prinsipləri 327-339
4.7. Vergi auditi prosesslər metodikası 339
4.7.1. Vergi auditi prosesslər metodikası ilə tənzimlənən münasibətlər 339-341
4.7.2. Vergi auditinin əhatə etdiyi elementlər və onun təşkili prinsipləri 341-343
4.7.3. Vergi auditi ilə əhatə edilən dövr və müddətlərin müəyyən edilməsi 343-345
4.7.4. Yoxlamada iştirak edən şəxslərin müəyyən edilməsi, vergi ödəyiciləri ilə yazışma və vergi auditi zamanı tövsiyyə olunan xüsusiyyətlər 345-347
4.7.5. Vergi auditinin mərhələləri 348-372
4.8. Vergi auditinin forma və üsulları 372-381
Əlavələr 382-431
4.9. Məhsulun maya dəyərinin və məsrəflərin uçotunun auditi 432-444
4.10. Maliyyə nəticələrinin auditi 444-469
4.11. Hüquqi şəxslərin mənfəət vergisi üzrə büdcə ilə hesablaşmalann auditi 469-492
4.12. Fiziki şəxslərin gəlir vergisinin auditi 492-505
4.13. Əlavə dəyər vergisi üzrə ayflHX yoxlamasının apanıması metodikası 505-536
4.14. Aksiz vergisinin auditi 536-543
4.15. Əmlak vergisinin yoxlanması 543-544
4.16. Torpaq vergisinin yoxlanması 544
4.17. Yol vergisinin yoxlanması 544-545
4.18. Sadələşdirilmiş verginin yoxlanması 545-548
4.19. Mədən vergisinin yoxlaması 548-549
İstifadə olunmuş ədəbiyyatların siyahısı 550-553

FƏSIL 1. AZƏRBAYCAN RESPUBLİKASININ VERGİ SİSTEMİ

1.1. Vergilərin iqtisadi mahiyyəti, onların növləri və təsnifatı

Effektiv vergitutma sistemi qurulmasının ən mühüm şərti qüvvədə olan vergi qanunvericiliyinin vergilərin iqtisadi mahiyyətinə uyğunlaşdırılmasıdır. Ona görə vergitutma sisteminin qurulmasını vergilərin mahiyyəti və onların bazar iqtisadiyyatı şəraitində yerinə yetirə biləcəyi funksiyaların müəyyən edilməsindən başlamaq lazımdır.

Dövlətin öz iqtisadi, sosial və siyasi sahələrdəki iqtisadi vəzifələrinin yerinə yetirilməsi üçün çoxlu maliyyə vəsaiti tələb olunur. Məhz buna görə dövlət pul vəsaitləri fondlarını yaratmaq məcburiy>ətində qalır. Bu baxımdan dövlət büdcəsi onun möhkəm maliyyə dayağıdır.

Büdcə gəlirlərində mərkəzi yeri vergilər tutur, çünki dövlətin maliyyə resursları əsasən vergi, rüsum, yığım və digər məcburi ödənişlər hesabına formalaşır. İndiki bazar iqtisadiyyatına keçid şəraitində məhz vergilər büdcə və büdcədənkənar fondlann əsas maliyyələşmə mənbəyi olmaqla büdcə-maliyyə sisteminin *"qan damarını* " təşkil edir.

Vergilər - dövlət və bələdiyyələrin maliyyə təminatı məqsədilə vergi ödəyicilərinin mülkiyy'ətində, istifadəsində və operativ idarəçiliyində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində tutulan məcburi, fərdi, əvəzsiz ödənişdir.

Vergilər dövlət büdcə gəlirlərini təmin etməklə yanaşı, sosial-iqtisadi proseslərə təsir göstərən başlıca vasitədir. Belə ki, vergilər iqtisadi fəallığı stimullaşdırmaq, ayrı-ayrı sənaye sahələrinin inkişafı və sahibkarlıq fəaliyyətinə təsir göstərmək, tələblə təklif arasındakı tarazlığı təmin etmək və gəlirləri yenidən bölüşdürmək imkanına malikdir.

Vergilər bazar iqtisadiyyatına keçid şəraitində iqtisadi proseslərin tənzimləyicisi və istiqamətləndiricisi kimi dövlətin əsas iqtisadi aləti rolunu oynayır. Ölkədə dövlətçiliyin qorunub saxlanması, onun sərhədlərinin müdafiəsi, ordu quruculuğunun möhkəmlənməsi, ictimai asayişin qorunması və dövlət idarəetmə aparatının saxlanması üzrə xərclərin ödənilməsi vergi daxilolmalan hesabına həyata keçirilir.

Bundan başqa, vergilər sahibkarlıq fəaliyyətinə birbaşa təsir göstərən əsas amillərdən biridir. Belə ki, sahibkar həyata keçirəcəyi kommersiya fəaliyyətinin biznes-planını hazırlayarkən mütləq hansı vergilərin ödəniləcəyini, onlann dərəcə və ödəmə müddətlərini nəzərə almalı, məhsulların qiymətinə (maya dəyərinə) və tələbata, məsrəf və kommersiya fəaliyyətinin maliyyə nəticələrinə təsirini geniş tədqiq etməlidir.

Vergilərin səciyyəvi xüsusiyyətləri. Vergi növlərinin öyrənilməsi onların çoxsaylı olması, dövlət büdcəsinə daxil digər ödənişlər arasında dəqiq sərhəddin olmaması səbəbindən çətinləşir. Bu isə vergilərin təsnifləşdirilməsi üçün lazımı əsasların düzgün seçilməsi qarşısında yüksək tələblər qoyur. İstənilən verginin müəyyən növə aid edilməsi, həmin verginin məzmun və iqtisadi mahiyyətini daha dəqiq mənimsəmək imkanı verir.

Bütün növdən olan vergilərin qruplara ayrılması isə obyektiv təsnifləşdirmə əlamətlərinə müvafiq olaraq həyata keçirilir.

İqtisadi kateqoriya kimi vergi müəyyən səci>7əvi əlamətlərə malikdir. İlk dəfə olaraq verginin hüquqi anlayışı Vergi Məcəlləsində verilmişdir. Bu anlayışa görə vergi aşağıdakı səciyyəvi əlamətlərə malikdir.

Vergi dövlətin fəaliyyətinin maliyyə təminatı məqsədi ilə köçürülür. Belə ki, *"Büdcə sistemi haqqında"* Qanununa müvafiq olaraq - Azərbaycan Respublikasının müvafiq dövlət hakimiyyəti və özünüidarəetmə orqanları vasitəsi ilə dövlətə və bələdiyyələrə məxsus vəzifə və funksiyaları yerinə yetirmək üçün lazım olan pul vəsaitinin əsas mənbələrindən biri məhz vergilərdir.

Verginin mühüm səciyyəvi xüsusiyyəti onun təyin və tətbiq edilməsinin qanuni olmasıdır, yəni vergi yalnız qanunverici aktlarla müəyyən edilmiş qaydada təyin edilir və tutulur. Belə ki, heç kəsin üzərinə Vergi Məcəlləsində müəyyən edilməmiş, yaxud digər qaydada müəyyən edilmiş vergilərin ödənilməsi öhdəliyi qoyula bilməz. Bu qanuverici normanın mahiyyəti ondan ibarətdir ki, ödəniş onun adından aslı olmayaraq verginin iqtisadi xassələri nəzərə alınmaqla mahiyyətinə görə qiymətləndirilməlidir.

Verginin əsas səciyyəvi xüsusiyyəti onun tutulması zamanı ödəyici mülkiyyətinin müəyyən hissəsinin dövlətin xeyrinə *özgoninkiləşdirilməsidir.* Yəni vergi yalnız özgəninkiləşdirmə formasında, yəni pul vəsaitini ödəyicilərinin mülkiyyətindən dövlət və ya bələdiyyənin mülkiyyətinə ödəmək (köçürmək) yolu ilə həyata keçirilir. Qeyd etmək lazımdır ki, özgəninkiləşdirmə yalnız hüquqi və fiziki şəxslərin öz mülkiyyətinə deyil, həm də onların təsərrüfat idarəçiliyi və ya operativ idarəçiliyində olan mülkiyyətlərinə də şamil olunur.

Nəzərə almaq lazımdır ki, vergi yalnız ödəyicilərinin mülkiyyətində olan pul vəsaiti hesabına ödənilə bilər. Bu və ya digər əsasla vergi ödəyicisində olan, lakin ona mülkiyyət hüququ ilə mənsub olmayan pul vəsaitlərindən vergi ödənilməsi formal baxımdan qanuna uyğun sayılmır.

Verginin digər səciyyəvi xüsusiyyəti onun ödənişi üçün vəsaitlərin *məcburi qaydada tutulmasıdır* - imperativ-məcburi xarakter daşımasıdır. Dövlət və bələdiyyələrin maliyyə təminatı məqsədilə vergi ödəyiciləri tərəfindən vergilərin ödənilməsi (tutulması) və vaxtında büdcəyə köçürülməsi vergi, gömrük və digər səlahiyyətli orqanlar vasitəsi ilə həyata keçirilir ki, bu da onun ödənişinin könüllü deyil, məcburi xarakter daşıdığını göstərir.

Verginin ödənilməsi xeyriyyəçilik ödənişi deyil, konstitision-hüquqi öhdəlikdir və vergi ödəyicisinin bu vergi öhdəliyinin yerinə yetirilməsindən imtina etmək hüququ yoxdur. Vergi ödənişləri məhz bu əlamətinə görə əvəzsiz köçürmələr kimi büdcə gəlirlərindən fərqlənir.

Əksər hallarda dövlətə verginin ödənilməsini məcbur etməyə ehtiyac qalmır, çünki vergi ödəyicisi təqdim edilmiş bəyannamələrə əsasən onu özü ödəyir. Təcrübədə vergi ödəyicilərinə qarşı sanksiya, onlar tərəfindən qanunvericilikdə müəyyən edilmiş vergitutma qaydaları pozulduğu zaman tətbiq olunur.

Dövlət təkcə vergi ödəyicilərinin deyil, həm də cəmiyyətin digər üzvlərinin hüquq və qanuni maraqlarını müdafiə etmək məqsədilə vergi münasibətlərinin tən

zimlənməsi üzrə tədbirlər görmək hüququna malikdir və onları həyata keçirməlidir. Buna görə də vergilərin ödənilməsinin məcburiliyi hər kəs üçün konstitusion vəzifə səviyyəsinə qaldırılmış və bu vəzifənin icrası dövlətin məcburedici tədbirləri ilə (maddi, intizam, inzibati və hətta cinayət məsuliyyəti təhdidi) təmin edilir.

Vergi fərdi ödənişdir. Vergi Məcəlləsinin 78-ci maddəsinin tələbinə görə vergi öhdəliklərinin yerinə yetirilməsi bilavasitə vergi ödəyicisi tərəfindən həyata keçirilir və onların yerinə yetirilməsi digər şəxsin üzərinə qoyula bilməz (verginin hesablanması və tutulmasının vergi agentlərinin üzərinə qoyulması, nümayəndələr vasitəsi ilə ödəmələrin həyata keçirilməsi, vergi ödəyicisi vəfat etdikdə və ya Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyən edilmiş qaydada Ölmüş hesab edildikdə, onun əmlak vergiləri üzrə borclarının vərəsəlik əmlakının dəyəri hədlərində vərəsə tərəfindən ödənilməsi (sadalanan hallarda vergilər vergi ödəyici- sinin əmlakı hesabına ödənilir) və bilavasitə məcəllədə nəzərdə tutulmuş digər hallar istisna olmaqla).

Vergi əvəzsiz ödənişdir. Verginin ödənilməsi dövlət tərəfindən onun müqabilində fərdi olaraq müvafiq vergi ödəyicisinin xeyrinə hər hansı hərəkət etmək öhdəliyi yaratmır. Vergi ödəyərkən vergi ödəyicisi heç bir maddi gəlir və əlavə olaraq hər hansı subyektiv hüquq əldə etmir.

Vergi ödəyicisi köçürdüyü vəsaitin qarşılığında dövlət və ya yerli özünüidarəetmə orqanı tərəfindən konkret olaraq bu və ya digər hərəkətin edilməsini tələb edə bilməz. Doğrudur, hər bir vətəndaş kimi vergi ödəyicisi olan fiziki şəxslərin (fərdi sahibkarların) bütövlükdə dövlət və ya bələdiyyələrdən, habelə onların vəzifəli şəxslərindən onların öhdəsinə düşən vəzifələrin yerinə yetirilməsini tələb etmək hüququ vardır. Lakin bu hüququ hər hansı konkret verginin ödənilməsi ilə əlaqələndirmək baxımından dəyərləndirmək məntiqsizlik olardı.

Vergi büdcəyə vergi ödəyicisinin mülkiyyətində olan *pul formasında ödənilir* (köçürülür), yəni verginin natura şəklində ödənilməsinə yol verilmir. Bu əlamət obyektiv olaraq müvafiq pul münasibətlərini ifadə edən iqtisadi kateqoriya kimi vergilərin mahiyyətindən irəli gəlir. Vergi Məcəlləsinə uyğun olaraq vergi hüquqi və fiziki şəxslər tərəfindən nağd və nağdsız formada yalnız pul formasında ödənilə bilər.

Doğrudur, Vergi Məcəlləsinin 89-90-cu maddələrində vergi öhdəliyinin yerinə yetirilməsinin təmin edilməsi məqsədilə vergi ödəyicisinin əmlakının siyahıya alınması və ixtisaslaşdırılmış açıq hərracda satılmasının mümkünlüyü təsbit edilmişdir. Lakin bu halda da vergilər əmlakın satılmasından əldə edilmiş pul vəsaiti hesabına ödənilir.

Sonda qeyd etmək lazımdır ki, *vergilər məqsədsiz xarakter daşıyır.* Vergi ödənişləri - dövlətin mühüm atributlarından biri olmaqla, dövlət və bələdiyyələrin gəlir mənbələrinin əhəmiyyətli hissəsini təşkil edir.

Verginin funksiyaları. Vergilər öz iqtisadi mahiyyətini funksiyaları vasitəsilə büruzə verir. Verginin yerinə yetirdiyi hər bir funksiya iqtisadi kateqoriya kimi onun daxili xassə və əlamətlərini, onlar isə öz növbəsində konkret verginin öz təyinatı üzrə necə realizə olunduğunu göstərir. Verginin yerinə yetirdiyi funksiyalar birlikdə büdcə-maliyyə münasibətləri və vergi siyasətinin effektivliyini göstərir.

Vergilər əsasən aşağıdakı funksiyaian yerinə yetirir: fıskal, bölüşdürücü, tənzimləyici, stimullaşdırıcı və nəzarət.

Fiskal funksiya verginin əsas funksiyası olmaqla bütün dövlətlərin vergi sistemi üçün xarakterik olmuşdur. Onun köməkliyi ilə dövlətin fəaliyyət göstərməsi üçün lazım olan maliyyə resursları formalaşır. Bu funksiyanın əsas mahiyyət və vəzifəsi dövlət xərclərinin maliyyələşdirilməsini təmin etmək üçün vergi ödəyicilərinin gəlirlərinin müəyyən hissəsinin büdcəyə cəlb edilməsidir.

Verginin iqtisadi mahiyyətini ifadə edən *bölüşdürücü funksiyası* onun fiskal funksiyası ilə daha çox bağlıdır. Bu hər şeydən əvvəl vergilərin əzəldən bölüşdürücü funksiyasının fiskal xarakter daşıması olmuşdur. Bölüşdürücü funksiyanın mahiyyəti ondan ibarətdir ki, dövlət vergilərin köməkliyi ilə büdcə və büdcədənkənar fondlar vasitəsilə maliyyə resurslarını yenidən bölüşdürərək ümumdövlət əhəmiyyətli məqsədli proqramlann maliyyələşdirilməsini həyata keçirir.

Tənzimləmə funksiyası vergi mexanizmi vasitəsi ilə dövlətin qarşıya qoyduğu müəyyən məqsədlərə nail olunmasına xidmət edir. Vergilər özünün bu funksiyası vasitəsilə stimullaşdırmaq və ya ləngitmək yolu ilə istehsal prosesinə əhəmiyyətli dərəcədə təsir göstərir, kapital yığımını gücləndirir və ya zəiflədir.

Dövlət dolayı vergi dərəcələrini dəyişməklə qiymətlərin səviyyəsinə təsir göstərir, ixracata vergi güzəştləri tətbiq etməklə onu stimullaşdırır, yerli istehsalı stimullaşdınnaq üçün isə analoji malların idxalına əlavə vergilər tətbiq edilir. Müəyyən fəaliyyət növlərinin həddən artıq yüksək sürətlə inkişafını ləngitmək üçün isə dövlət tərəfindən yüksək vergi dərəcələri müəyyən edilir.

Dövlət *stimullaşdırıcı funksiyanın* köməkliyi ilə əmtəə istehsalçıları və istehlakçılara vergi yükünü azaltmaqla daha prioritet fəaliyyət növlərini yaratmaq, bu və digər iqtisadi fəaliyyət subyektinə təsir etmək imkanı əldə edir. Bu isə güzəşt, istisna, pereferensiyalar vasitəsilə həyata keçirilir və özünü vergitutma obyektinin dəyişməsində, vergitutma bazası və vergi dərəcələrinin azalmasında büruzə verir.

Stimullaşdırıcı funksiyanın həyata keçirilməsində vergi sisteminin özü də böyük rol oynayır. Belə ki, dövlət bir vergini tətbiq edib digərini ləğv etməklə başqa sahələri qorumaqla yanaşı, eyni zamanda müəyyən istehsal sahələri və regionların inkişafını stimullaşdırır. Vergilərin tənzimləyici və stimullaşdırıcı funksiyaian arasındakı sıx əlaqə məhz özünü burada büruzə verir.

Verginin tənzimləmə funksiyasının sonuncu aynimaz hissəsi *nəzarətdir.* Dövlət yalnız məhsuldar qüvvələrin inkişafının stimullaşdırılması və ya məhdud- laşdınlması deyil, həmçinin baş verən dəyişikliklərin qiymətləndirilməsi üçün vergi tənzimlənməsinin icrası üzərində daim nəz.arət həyata keçirməlidir. Nəzəra almaq lazımdır ki, bu vergidən yayınma hallarını aşkara çıxaran (fiskal funksiyanın icrasını müşayiət edən) deyil, daha çox dövlətin iqtisadi və maliyyə vəziyyətinin əsaslı təhlilinə yönəldilmiş nəzarət olmalıdır. Qeyd etmək lazımdır ki, nəzarət funksiyası olmadan iqtisadi inkişafın səmərəli tənzimlənməsi qeyri-mümkündür.

Dövlət vergilər vasitəsi ilə təsərrüfat subyektləri və fərdi sahibkarlann maliyyə-təsərrüfat fəaliyyətinə, onların gəlir mənbələrinə və vəsaitlərin xərclənməsi istiqamətlərinə nəzarət edir. Son nəticədə verginin bu funksiyası dövlətin öz konsti

tusiya funksiyasım yerinə yetirməsi üçün lazım olan vəsaitlərin vergi daxilolmaları formasında büdcəyə daxil olmasım təmin edir.

Vergilərin təsnifləşdirici əlamətləri. Vergilərin müxtəlifliyi onların müəyyən əsaslarla növlərə bölünməsi zərurətini yaradaır. Vergilərin təsnifləşdirilməsinin vacibliyi vergi formaları və tətbiq olunan vergi rejimlərinin müxtəlifliyindən irəli gəlir. Bütün növdən olan vergilərin qruplara ayrılması isə obyektiv təsnifləşdirmə əlamətlərinə müvafiq olaraq həyata keçirilir. Belə ki, bu əlamətlər öz növbəsində vergilərin hesablanması, ödənilməsi, məsrəflərə və ya istehsal fəaliyyətinin maliyyə nəticələrinə aid edilməsindən, xarici kontragentin hesabına ödənilməsindən (verginin başqasının üzərinə qoyulması) və digər xüsusiyyətlərindən asılı olaraq onlar arasındakı mövcud fərqləri nəzərə alır.

Təsnifləşdirici əlamətlər (verginin yaxın qruplara ayrılması kriteriyaları) - vergi elminin ayrılmaz atributudur və onların möcudluğu labüddür. Vergilərin təsnifləşdirici əlamətləri, iqtisadi kateqoriya kimi verginin öz mahiyyətindən irəli gələn və vergilərin dürüst müəyyən edilməsi üçün lazım olan obyektiv kriteriyadır. Bu kriteriya dövlətin birtərəfli istəyindən (iradəsindən) asılı olmayaraq, bir qayda olaraq dünya ölkələrinin vergi sisteminin bütün inkişaf tarixi dövründə formalaşır.

İqtisadi cəhətdən inkişaf etmiş istənilən dövlət iqtisadiyyatına və öz gəlirlərinin formalaşmasına dolayı təsir vasitəsi kimi çoxsaylı vergilərdən istifadə edir. Vergilərin təsnifləşdirilməsi onlar arasındakı oxşar (fərqli) cəhətləri müəyyən etməyə və qruplaşdırmağa imkan verir. Bu isə onların dərindən öyrənilməsini və praktiki tətbiqini asanlaşdırır.

Bütün vergilər müxtəlif əlamətlərinə görə aşağıdakı qruplar üzrə təsnifləşdirilir;

- *verginin tutulması üsuluna (verginin tutulması xarakterinə) görə* - birbaşa və dolayı;
- *vergi ödəmələrinin köçürüldüyü büdcənin səviyyəsinə görə* - dövlət, muxtar respublika və bələdiyyə (yerli);
- *istifadə edilməsi qaydasından asılı olaraq (məqsədli təyinatına görə)* - ümumi və xüsusi;
- *vergitutma subyektlərinə görə* - fiziki və hüquqi şəxslərdən tutulan vergilər;
- *vergitutma obyektinə görə;*
- *vergi daxilolmalarından istifadə etmək hüququna görə* - təhkim edilmiş və tənzimlənən;
- *istifadə olunması qaydasına görə* - ümumi və xüsusi;
- *məqsədli təyinatına görə* - universal və məqsədli.

Tutulması xarakterinə (vergitutma üsuluna) görə vergilərin birbaşa və dolayı kimi təsnifləşdirilməsi vergi yükünün mal və xidmətlərin istehlakçıları üzərinə qoyulması dərəcəsini qiymətləndirmək üçün istifadə olunur.

Birbaşa vergilər bilavasitə vergi ödəyicilərinin gəlir və əmlakından tutulur (müəyyən edilir). Birbaşa vergilər hər bir əmlak üçün ayrıca alınır. Gəlirlər (əmək haqqı, mənfəət, faiz, divident) və vergi ödəyicilərinin əmlakının (torpaq, bağ, maşın, qaraj, mənzil) dəyəri vergitutma obyekti kimi çıxış edir. Birbaşa vergilər bilavasitə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrindən, kapitalın dövriyyəsindən, əmlak dəyərinin və mənfəətin artımından asılıdır. Birbaşa vergilərə aşağıdakıları

aid etmək olar: mənfəət vergisi, fiziki şəxslərin gəlir vergisi, fiziki və hüquqi şəxslərdən əmlak vergisi, torpaq vergisi və b.

Birbaşa vergilərdən fərqli olaraq *dolayı vergilər* əmtəələrin qiymətinə (xidmətlərin tarifinə) əlavələr şəklində müəyyən edilir və malların satışı (istehlakı) sferasında tutulur. Dolayı vergilər əlavə olunmuş dəyərin həcmindən, dövriyyədən və yaxud malların (məhsulların, işlərin, xidmətlərin) satışından asılı olaraq müəyyən edilir.

Dolayı vergitutmada malsalanlar malın qiyməti ilə yanaşı, eyni zamanda alıcılardan vergi məbləğini də alırlar. Yəni malsatanın satılmış mallara (görülmüş işlərə və göstərilmiş xidmətlərə) görə alıcılardan aldığı pul vəsaitlərinin tərkibinə dolayı vergilərin məbləği də daxildir. Başqa sözlə, vergi yükü istehlakçıların üzərinə düşür, yəni son nəticədə alıcılar tərəfindən ödənilir. Məhz bu səbəbdən dolayı vergilər bir çox hallarda *istehlak vergiləri* də adlandırılır. Dolayı vergilərə aşağıdakıları aid etmək olar: əlavə dəyər vergisi (ƏDV), aksizlər, gömrük rüsumları, qiymətli kağızlarla əməli>7atlar üzrə vergilər, yol vergisi.

Vergi ödəmələrinin köçürüldüyü büdcənin səviyyəsinə görə (vergi ödənişlərinin daxil olduğu büdcə səviyyəsinə görə) vergilər aşağıdakı kimi təsnifləşdirilir: dövlət, muxtar respublika və bələdiyyə.

Vergitutma subyektinə görə vergilər üç qrupa bölünür:

- yalnız hüquqi şəxslərdən tutulan vergilər (mənfəət vergisi, mədən vergisi);
- yalnız fiziki şəxslərdən tutulan vergilər (gəlir vergisi);
- həm hüquqi, həm də fiziki şəxslərdən tutulan vergilər (əmlak vergisi, torpaq vergisi, yol vergisi).

Vergitutma obyektinə görə vergilər aşağıdakı kimi təsnifləşdirilə bilər:

- mənfəətdən ödənilən vergilər (mənfəət vergisi), dividentlərdən ödənilən vergilər, digər müəssisələrdə pay iştirakından əldə edilən gəlirlərdən ödənilən vergilər;
- məhsulların satışından əldə edilən pul vəsaitlərindən ödənilən vergilər (ƏDV, aksizlər);
- əməyin ödəniş fondundan tutulan vergilər (sosial sığortaya ödəmələr və ya sosial vergi);
- istehsal məsrəflərinə aid edilən vergilər (torpaq vergisi, reklam xərcləri, əmlak vergisi).

Vergi daxilolmalanndan istifadə etmək hüququna görə vergilər iki qrupa bölünür: təhkim edilmiş və tənzimləyici. Ardıcıl olaraq bir neçə il ərzində daimi faiz dərəcələri ilə müxtəlif səviyyəli büdcələrə (dövlət, regional, yerli) daxil olan vergilər *təhkim edilmiş^* il ərzində faiz dərəcələrinin dəyişdiyi vergilər isə *tənzimlənən* adlanır.

Dövlət büdcəsinin quruluşu bütün səviyyələrdən olan büdcələrin məcmusu olmaqla ölkənin büdcə sistemini təşkil edir. Özündə dövlətin vergi gəlirlərini toplayan büdcə sisteminin çoxsəviyyəlilik kriteriyası nəzərə alınaraq, vergi qanunvericiliyində vergilərin statuslu təsnifləşdirilməsi geniş yayılmışdır.

istifadə olunması qaydasından asılı olaraq vergilər ümumi və xüsusi olmaqla iki yerə bölünür. *Ümumi vergilər* təyinatsızdır və bir qayda olaraq ümum- dövlət tədbirlərinə sərf edilir.

Xüsusi vergilər ciddi müəyyən edilmiş məqsədlər üçün istifadə edilir. Məsələn, hüquqi və fiziki şəxslərin dövlət sosial sığortası üzrə ödənişlər şəklində alınmış vəsaitlər (sosial vergi) işsizlərə və əmək qabiliyyəti olmayan şəxslərə pensiya və müavinətlərin verilməsi üçün istifadə olunur.

Məqsədli təyinatından asılı olaraq vergilər iki qrupa bölünür: universal və məqsədli. Konkret istifadə olunma istiqaməti olmayan məcburi, ekvivalentsiz ödənişlər *universal vergilər* adlanır.

Qeyd etdiyimiz kimi hər bir ölkənin vergi sisteminin strukturunda vergilərlə yanaşı rüsum və yığımlarda əhəmiyyətli yer tutur. Məhz həmin yığım və rüsumlar *məqsədli vergilər* kateqoriyasına aid edilir.

Rüsum - müvafiq səlahiyyətli dövlət orqanları tərəfindən hüquqi əhəmiyyətli əməliyyatların aparılmasına və hüquqi əhəmiyyət kəsb edən sənədlərin verilməsinə görə hüquqi və fiziki şəxslərdən alınan məcburi ödənişdir. Rüsumların vergilərlə oxşar cəhəti ondan ibarətdir ki, onlar da məcburi tutulmaqla dövlət büdcəsinə köçürülür. Öz xarakterinə və qarşılıqlı (ovəzli) olmasına görə isə dövlət rüsumları vergilərdən fərqlənir.

Yığım - ödəyici tərəfindən ona göstərilən xidmətə görə dövlətə ödənilən məqsədyönlü ödənişdir. Yığımlar müvafiq ərazilərin inkişaf etdirilməsi və bələdiyyə proqramlarının maliyyələşdirilməsi üçün bələdiyyə büdcəsinə köçürülür.

1.2. Vergi siyasəti və vergi sistemi

Milli iqtisadiyyatın inkişafı ölkədə həyata keçirilən vergi siyasətindən əhəmiyyətli dərəcədə asılıdır. Qeyd etmək lazımdır ki, vergi siyasəti büdcə-maliyyə siyasətinin aynimaz tərkib hissəsi olmaqla dövlət büdcəsinin gəlir hissəsinin formalaşmasına xidmət edir. Dövlət ölkənin vergi sistemini yaradarkən ondan müəyyən maliyyə siyasətinin məqsədləri üçün istifadə etməyə çalışır.

Vergi siyasəti - vergitutma sahəsində müvəkkil edilmiş dövlət hakimiyyət və idarəetmə orqanlan tərəfindən ölkənin vergi sistemində qanuni əsaslarla qüvvədə olan vergilərin təsnifləşdirilməsi, vergitutmanın metod və prinsiplərinin müəyyən edilməsi, vergi nəzarəti formasında həyata keçirilən tədbirlər kompleksidir.

Məlum olduğu kimi, vergilər dövlətin fəaliyyətinin bütün istiqamətlərini maliyyələşdirən mənbələrdən biri və cəmiyyətin maraqlarının həyata keçirilməsinin iqtisadi alətlərindən biridir. Vergilər istənilən dövlətin suverenliyini göstərən atributlardan biridir və məhz bununla onlar dövlət əmlakı və borclann verilməsindən olan gəlirlərdən fərqlənir.

Vergilərin tutulması hüququ mis pulların kəsilməsi və ədalətin icra edilməsi kimi hər zaman dövlətin suveren hüquqlarından biri olub. Deməli, vergilər birtərəfli qaydada təyin edilir, vergilərin təyin edilməsinə razılıq və onlann tutulmasının məcburi olması üzrə ziddiyyətlər isə zahiri xarakter daşıyır.

Vergilər və onun funksiyaları onun real bazisini əks etdirir, yəni dövlətin vergi siyasətində istifadə etdiyi vergi münasibətlərinin obyektiv hərəkət qanunauyğunluqlarıdır.

Vergi hüququ vergi siyasətinin həyata keçirilməsində icraedici rol oynayır. Buna əsaslanaraq deyə bilərik ki, vergi siyasəti - dövlət hakimiyyət və idarəetmə orqanlarının vergi qanunvericiliyinin məqsədyönlü tətbiq edilməsini müəyyən edən kompleks hüquqi hərəkətlərdir.

Vergi siyasəti - mali>7ə siyasətinin tərkib hissəsi olmaqla, hüquqi və fiziki şəxslərlə vergi münasibətləri sahəsində dövlət hakimiyyət və yerli özünüidarəetmə orqanları (bələdiyyələr) tərəfindən qəbul edilmiş və həyata keçirilən tənzimləyici xarakterli hüquqi norma və iqtisadi-təşkilati tədbirlər sistemidir.

Beləliklə, vergi siyasəti - dövlət tərəfindən işlənib hazırlanmış və vergitutma sahəsində vəzifələrin həyata keçirilməsinə yönəldilmiş tədbirlər sistemidir. Vergi siyasəti dövlət tərəfindən vergi tənzimlənməsi sahəsində həyata keçirilən kompleks tədbirlərdir və makroiqtisadi proporsiyaların tənzimlənməsi alətindən ibarət olan iqtisadi siyasətin həlledici hissəsidir.

Vergi siyasətinin məqsəd və vəzifələri cəmiyyətin iqtisadi-sosial qutuluşun- dan, iqtisadiyyat və dövlətin maliyyə vəziyyətindən asılı olaraq müəyyən edilir. Bundan başqa, müasir şəraitdə vergi siyasətinin mövcud vəziyyətində dövlət hakimiyyətində olan sosial qruplar da mühüm rol oynayır.

Vergi siya.səti dövlətin cari iqtisadi məqsəd və vəzifələrinə deyil, iqtisadiyyatın perspektiv inkişafına xidmət etməlidir. Bu məqsədlə vergi siyasətinin strategiyası hazırlanır. *Vergi strategiyası* vergi sistemində həyata keçiriləcək tədbirlərin istiqamət və ümumi qaydalarını müəyyən edir. Vergi strategiyası işlənərkən ölkənin iqtisadi inkişaf reallıqları, dövlətin qarşıya qoyduğu makroiqtisadi məqsədlər, iqtisadiyyatın prioritet sahələrinin vəziy>'əti və əhalinin həyat səviyyəsi nəzərə alınır.

İqtisadi cəhətdən əsaslandırılmış *vergi siyasətinin əsas məqsədi* vergi sistemi vasitəsilə mərkəzləşdirilən vəsaitlərin optimallaşdırılmasıdır. Yüksək dərəcədə inkişaf etmiş bazar münasibətləri şəraitində dövlət tərəfindən vergi siyasəti istehsalın quruluşunun, iqtisadiyyatın sahələr üzrə inkişafının, əhalinin gəlirlərinin səviyyəsinin dəyişməsi məqsədi ilə milli gəlirin yenidən bölüşdürülməsi üçün istifadə olunur.

Vergi siyasətinin məqsəd və vəzifələri kimi aşağıdakıları qeyd etmək olar: öz səlahiyyət və funksiyalarının həyata keçirilməsi üzrə dövlət hakimiyyət və yerli özünüidarəetmə orqanlarının fəaliyyətlərinin maliyyələşdirilməsi üçün büdcə sisteminin lazım olan gəlirlərlə tam formalaşmasını təmin etmək; iqtisadiyyatın, prioritet sahələrin və fəaliyyət növlərinin, ayrı-ayrı ərazilərin, kiçik sahibkarlığın dayanıqlı inkişafına köməklik etmək; fiziki şəxslərin vergiyə cəlb edilməsi zamanı sosial ədalətliliyin təmin edilməsi; dövləti maliyyə resursları ilə təmin etmək;

^ bütövlükdə ölkə təsərrüfatının tənzimlənməsi üçün şəraitin yaradılması;

^ bazar münasibətləri şəraitində əhali gəlirlərinin səviyyəsində meydana çıxan qeyri-bərabərliyin aradan qaldırılması.

Dövlət, vergi siyasətinin məqsəd və vəzifələrini müəyyən etdikdən sonra onun həyata keçirilməsi üsullarını işləyib hazırlayır. Bu və digər üsullardan istifadə olunması həmçinin konkret şəraitdən asılıdır. Vergi siyasəti müvafiq normativ aktların qəbul edilməsi yolu ilə həyata keçirilir.

Dövlətin vergi siyasətinin səmərəliliyi vergitutma sistemində tətbiq edilən prinsiplərdən əhəmiyyətli dərəcədə asılıdır. *Vergitutmanın prinsipləri* - vergi sahəsində mövcud olan başlıca ideya və qaydaların məcmusundan ibarətdir. Vergilut- ma sistemləri yaradılarkən meydana çıxan əsas məsələlərdən biri də onun qurulması və fəaliyyət göstərməsi üçün lazım olan prinsiplərin düzgün müəyyən edilməsidir. Bu məsələni düzgün müəyyən elmədən effektiv vergi sistemi və dövlətin vergi siyasətinin planlaşdırılması mümkün deyil.

İstənilən inkişaf etmiş dövlətin vergitutma sistemi onun əsas ideya və qaydalarının əsasını təşkil edən müəyyən prinsiplərə əsaslanır. Əhalinin sosial-iqtisadi vəziyyəti və əmin-amanlığı onlardan çox asılı olduğundan bu prinsiplər həmişə ictimaiyyətin diqqət mərkəzində olmuşdur. İlk dəfə bu prinsiplər hələ 1776-cı ildə ingilis alimi Adam Smit tərəfindən işlənib hazırlanmışdır. O, vergitutmanın dörd prinsipini qeyd etmişdir: ədalətlilik, müəyyənlik, əlverişlilik və səmərəlilik.

Ədalətlilik prinsipinə əsasən bütün vergi ödəyidlərindən vergi tutulmalıdır, yəni ölkənin hər bir vətəndaşı dövlət xərclərinin maliyyələşdirilməsində öz gəlir və imkanlarına uyğun olaraq iştirak etməlidir.

Sosial ədalətlilik prinsipi vergitutmanın ümumiliyini və vergilərin vətəndaşların gəlirləri ilə müqayisədə onlar arasında bərabər ölçülərlə bölüşdürülməsini nəzərdə tutur. Vergitutmanın bu prinsipinə əsasən vergilər dövlət xərclərinin müvafiq hissəsinin maliyyələşdirilməsində iştirak etməli olan vergi ödəyicilərindən onların imkanları nəzərə alınmaqla tutulmalıdır.

Müəyyənlilik prinsipinə əsasən vergilərin məbləği onların hesablanması, tutulması və ödənilməsi üsulları vergi ödəyicisinə əvvəlcədən məlum olmalıdır. Bu dəyişən sosial-iqtisadi şəraitdən asılı olaraq vergi sistemində müəyyən dəyişikliklər edilməklə əsas vergi növləri və onlann dərəcələrinin uzun müddət ərzində sabit qalması deməkdir. Vergitutmada müəyyənlik prinsipi vergilərin ödəniş müddətinin, onların hesablanması üsullarının və ödəniş məbləğinin dəqiq müəyyən edilməsi üçün lazımdır. Vergilərin hesablanması metodu vergi ödəyicisi üçün sadə və aydın olmalıdır.

Əlverişlilik prinsipinin mahiyyəti ondan ibarətdir ki, vergilər vergi ödəyicisi üçün əlverişli olan vaxtda və üsulla tutulmalıdır. Vergilərin ödənilmə sistemi və üsulu vergi ödəyicisi üçün aydın və əlverişli olmalıdır. Burada onu da qeyd etmək lazımdır ki, vergitutmanın bu prinsipi yalnız vergi ödəyicilərinin qanuna riayət etdiyi hallarda effektiv olar.

Vergitutmanın ən mühüm prinsiplərindən biri səmərəlilik prinsipidir. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, hər bir vergi iqtisadi cəhətdən məqsədyönlü olmalıdır. Yəni hər hansı verginin tətbiqi neqativ nəticə verməsin və dövlətin onun tutulmasına sərf etdiyi vəsaitlər minimal olsun. Ona görə də bu və ya digər vergi növünü (növlərinin) tətbiq edərkən mütləq ölkənin iqtisadi vəziyyətini, milli ənənə

lərini, ictimai psixologiyanı və vergilərin yığılması üzrə vergi orqanlarının imkanlarını nəzərə almaq lazımdır.

Vergibrin müəyyən edilməsinin və tutulmasımn əsas prinsipləri aşağıdakılardır:

- ❖ vergilər haqqındakı qanunvericilik vergitutmanın ümumi, bərabər və ədalətli olmasına əsaslanmalıdır;
- ❖ hər kəsin konstitusiya hüquq və azadlığının həyata keçirilməsinə maneçilik törədən vergilərin müəyyən edilməsinə yol verilmir;
- ❖ vergilər iqtisadi cəhətdən əsaslandırılmalıdır;
- ❖ Azərbaycan Respublikasının vahid iqtisadi məkanını pozan, xüsusilə malların (işlərin, xidmətlərin) və ya pul vəsaitlərinin respublikanın hüdudlarında azad yerləşdirilməsini birbaşa (dolayı) yolla məhdudlaşdıran, yaxud digər yolla vergi ödəyicilərinin qanuni fəaliyyətini məhdudlaşdıran və ya maneçilik törədən vergilərin müəyyən edilməsinə yol verilmir;
- ❖ heç bir şəxs əldə etdiyi mənfəətdən (gəlirdən) eyni növ vergini bir dəfədən artıq ödəməyə məcbur edilə bilməz;
- ♦t* vergilər siyasi, ideoloji, etnik, konfessional (dini) və vergi ödəyiciləri arasında mövcud olan digər xüsusiyyətlər əsas götürülməklə müəyyən edilə və diskriminasiya xarakteri daşıya bilməz;
- ❖ mülkiyyət formasından, fiziki şəxslərin vətəndaşlığından və ya kapitalın əmələgəlmə mənbəyindən asılı olaraq diferensial (müxtəlif, fərqli) vergi dərəcələri müəyyən edilə bilməz;
- ❖ Azərbaycan Respublikasının vergi və gömrük qanunvericiliyinə uyğun olaraq malların hansı ölkədən gətirilməsindən (mənşəyindən) asılı olaraq müxtəlif (diferensiyalaşdırılmış) gömrük rüsumu dərəcələri müəyyən edilə bilər;
- ❖ tətbiq edilən bütün vergilər yalnız Vergi Məcəlləsi ilə müəyyən edilir və onların dəyişdirilməsi və ya ləğv edilməsi yalnız həmin məcəlləyə müvafiq dəyişiklik edilməsi yolu ilə həyata keçirilə bilər;
- ♦> heç bir şəxs Vergi Məcəlləsində müəyyən edilmiş vergilərin xüsusiyyətlərinə malik olan, lakin həmin məcəllədə nəzərdə tutulmayan, yaxud vergi qanunvericiliyində müəyyən edilmiş qaydalardan fərqli olaraq tətbiq edilmiş vergilərin ödənilməsinə məcbur edilə bilməz.

Hazırda bazar iqtisadiyyatı inkişaf etmiş ölkələrdə vergi siyasəti nisbətən iki yeni problemin həllinə: *iqtisadi artımın stimullaşdırılmasma və tədavülün antiinfd- yasiya tənzimlənməsinə* yönəlmişdir. Keçid iqtisadiyyatlı ölkələrin, o cümlədən ölkəmizin vergi sistemi qarşısında duran vəzifələr, əslində elə həmin problemlərin həllini nəzərdə tutur. Müvafiq vergi siyasətinin yaradılması müstəqillik qazanmış respublikamız üçün olduqca böyük əhəmiyyət kəsb edir. Son zamanlar bu istiqamətdə aparılan işlər mütəşəkkil hal almış, bu sahədə yol verilmiş strateji və taktiki səhvlərin ardıcıl olaraq aradan qaldırılması işinə başlanmışdır.

İndiki bazar iqtisadiyyatına keçid şəraitində ölkəmizdə baş verən radikal iqtisadi dəyişikliklər dövlətin iqtisadiyyata təsir alətlərinə də toxunmuşdur. Dövlətin təsir alətləri dedikdə, ilk növbədə dövlət büdcəsi və onunla bilavasitə bağlı olan vergi sistemi nəzərdə tutulur. İstənilən dövlət bazar iqtisadiyyatının neqativ nəticə

lərinə təsir və iqtisadiyyatın idarə edilməsi aləti kimi vergilərdən, vergi siyasətindən və bütövlükdə vergi sistemindən istifadə edir.

Vergi sistemi - istənilən dövlətin ərazisində toplanan vergi, rüsum, yığım və digər məcburi ödənişlərin məcmusundan, eləcə də vergilərin hesablanması, tutulması və ödənilməsi qaydasından, vergi münasibəti iştirakçılarının hüquq, vəzifə və məsuliyyətlərindən, vergi nəzarəti sistemindən və digər məsələlərdən ibarətdir.

Hər bir ölkədə vergilərin tutulma məqsədi dövləti, dövlətin tənzimlənməsini və sosial təminatın fəaliyyətini pul vəsaitləri ilə təmin etməkdən ibarətdir. Dövlətin maliyyə resursları ilə təmin edilməsi ölkədə dövlətçiliyin qorunub saxlanması, onun sərhədlərinin qorunması, ictimai asayişin mühafizəsi, dövlət idarəetmə orqanlarının saxlanması üzrə xərclərin ödənilməsi zərurəti deməkdir. Dövlət tənzimlənməsi, idarəetmə orqanlarının öz funksiyalarını yerinə yetirməzdən əvvəl sabit iqtisadi artıma nail olması deməkdir. Dövlət sosial təminatı isə cəmiyətin işləməyən üzvlərinin himayə və bütün vətəndaşlar üçün məqbul həyat şəraitinin təmin edilməsidir.

Vergi sistemi bir sıra iqtisadi göstəricilərlə xarakterizə olunur. Bu göstəricilərə ilk növbədə vergi yükü aid edilir. Qeyd etmək lazımdır ki, optimal vergi sistemi bir tərəfdən dövlətin maliyyə resurslarına olan tələbatını ödəməli, digər tərəfdən isə vergi ödəyicilərinin sahibkarlıq fəaliyyətinə olan maraqlarını stimullaşdırmalıdır. Ona görə vergi yükü istənilən ölkənin vergi sisteminin keyfiyyət göstəricisidir (ölçüsüdür). Dövlət vergi sistemi vasitəsilə müəssisə və təşkilatların (sahibkarların) maliyyə-təsərrüfat fəaliyyətinə nəzarət edir. Bu nəzarət vasitəsilə dövlət, büdcə və vergi sisteminə bu və ya digər dəyişikliklər edilməsi zərurətini müəyyən edir.

Azərbaycan Respublikasının vergi qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Vergi ıMəcəlləsindən və ona uyğun olaraq qəbul edilmiş Azərbaycan Respublikasının qanunvericilik aktlarından ibarətdir.

Məcəllə əsasında və ya onun icrası məqsədi ilə qəbul edilmiş normativ-hüquqi aktlar onun müddəalanna zidd olmamalıdır.

Vergi qanunvericiliyi aktları ilə digər sahə qanunvericilik aktlan arasında vergitutma və vergi nəzarəti məsələləri üzrə ziddiyyət yarandıqda vergi qanunvericiliyinin aktları tətbiq edilir (ixrac məqsədli neft-qaz fəaliyyəti və xüsusi iqtisadi zonalar haqqında qanunlarda nəzərdə tutulan müddəalar istisna olmaqla).

Aşağıdakılar istisna olmaqla, vergi qanunvericiliyindən başqa digər qanunvericilik aktlarına vergitutma və vergi nəzarəti məsələləri daxil edilə bilməz;

- Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulan vergi münasibətlərinə aid inzibati xətalar haqqında müddəalar;
- Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan vergi cinayətləri haqqında müddəalar;
- vergi öhdəliklərinin üstünlüyü haqqında müflisləşmə və iflas haqqında qanunvericilikdə nə7.ərdə tutulan müddəalar;
- büdcə qanunvericiliyində vergilərlə bağlı müddəalar;
- vergilər üzrə dövlət təminatlarının və müddətli güzəştlərin verilməsi ilə bağlı müddəalar;
- hasilatın pay bölgüsü haqqında, əsas boru kəməri haqqında və digər bu qəbildən olan sazişlərdə və ya qanunlarda nəzərdə tutulan müddəalar;

• ixrac məqsədli neft-qaz fəaliyyəti və xüsusi iqtisadi zonalar haqqında qanunlarda nəzərdə tutulan müddəalar.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə vergilər haqqında məcəllə və ona müvafiq olaraq qəbul edilmiş normativ-hüquqi aktlarla nəzərdə tutulmuş müddəalardan fərqli müddəalar müəyyən edildikdə, həmin beynəlxalq müqavilələrin müddəaları tətbiq edilir.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı ikiqat vergitutmanm aradan qaldırılması haqqında beynəlxalq müqavilə ilə bu müqavilə bağlanan dövlətin rezidentinə verilən vergi güzəştləri və üstünlüklərinə münasibətdə, həmin müqavilə onu bağlamış dövlətin rezidenti olmayan şəxs tərəfindən qeyd edilən güzəşt və üstünlüklərin alınması üçün istifadə edilirsə, məcəllənin 2.5-ci maddəsinin müddəaları tətbiq olunmur.

Məcəllə qüvvəyə minənədək (qüvvəyə mindikdən sonra) qanunla təsdiq olunmuş hasilatın pay bölgüsü haqqında, əsas boru kəməri haqqında və digər bu qəbildən olan sazişlərdə və ya qanunlarda, o cümlədən neft və qaz haqqında, ixrac məqsədli neft-qaz fəaliyyəti və xüsusi iqtisadi zonalar haqqında qanunlarda məcəllədə və vergilər haqqında digər normativ-hüquqi aktlarda nəzərdə tutulmuş müddəalardan fərqli müddəalar müəyyən edildikdə, həmin saziş və ya qanunların müddəaları tətbiq edilir.

Növbəti ilin dövlət büdcəsi layihəsi çərçivəsində vergi siyasəti, vergi inzibatçılığı və vergi dərəcələrinin müəyyən edilməsi ilə bağlı Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər edilməsi zərurəti yarandıqda həmin qanun layihələri Azərbaycan Respublikası Maliyyə Nazirliyinə cari ilin may ayının 1-dək, o isə öz növbəsində Azərbaycan Respublikasının Milli Məclisinə cari ilin may ayının 15-dən gec olmayaraq təqdim edilir.

Hər bir ölkədə onun konkret şəraitinə, inkişaf səviyyəsinə və yaranmış real iqtisadi vəziyyətinə uyğun vergi sistemi qurulmalıdır. Bununla yanaşı vergi sistemində ən aktual, faydalı, səmərəli prinsiplər seçilərək istifadə olunmalıdır. Vergi sistemi bir tərəfdən vergi ödəyicilərinin mənafeyini, digər tərəfdən isə dövləti artan gəlirlərlə təmin etməlidir. Lakin praktikada bu vəzifəyə yüksək səviyyədə nail olmaq mümkün olmur. Məhz bu səbəbdən istənilən dövlət özünün vergi sistemində tez-tez dəyişikliklər etmək məcburiyyətində qalır.

Optimal vergi sistemi dövlətin maliyyə resurslarına olan tələbatını ödəməklə yanaşı, vergi ödəyicilərinin sahibkarlıq fəaliyyətinə olan maraqlarını stimullaşdırmalıdır. Ona görə vergi yükü istənilən ölkənin vergi sisteminin keyfiyyət göstəricisidir. Dövlət vergi sistemi vasitəsilə müəssisə və təşkilatların (sahibkarlann) maliyyə-təsərrüfat fəaliyyətinə nəzarət, eləcə də dövlət büdcəsinə, vergi sisteminə dəyişikliklər edilməsi zərurətini müəyyən edir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, vergilərin sayını və vergi dərəcələrini artırmaqla dövlət gəlirlərini artırmaq mümkün deyil. Çünki vergi yükü artdıqca işgüzar fəallıq və iqtisadiyyatda qazanılan gəlirlərin səviyyəsi aşağı düşür və son nəticədə yığılan vergilərin həcmi müəyyən müddətdən sonra azalmış olur.

Onu da qeyd etmək lazımdır ki, indiki bazar iqtisadiyyatına keçid şəraitində maliyyə sabitliyinin təmin edilməsində və dövlət büdcəsinin formalaşmasında elmi cəhətdən əsaslandırılmış vergi sisteminin yaradılması böyük əhəmiyyətə malikdir.

Düzgün vergi siyasəti nəinki dövlət ehtiyaclarının ödənilməsi üçün pul vəsaiti toplamağa imkan verir, həm də əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün mühüm şərtdir. Dövlət iqtisadi cəhətdən o zaman güclü olur ki, onunla vergi ödəyiciləri arasında bir-birinin hüquq və məsuliyyətini gözləyən qarşılıqlı münasibətlərin yüksək səviyyəsinə nail olunmuş olsun. Bu isə yalnız dövlətlə vergi ödəyiciləri arasındakı qarşılıqlı münasibətləri tənzimləyən qanunvericilik bazasının mövcudluğu şəraitində mümkündür.

Müasir vergi sistemi sosial-iqtisadi inkişaf perspektivləri nəzərə alınmaqla bazar münasibətləri tələblərinə əsaslanmalıdır. O büdcə gəlirlərini təmin etməli, əhalinin müxtəlif təbəqələrinin gəlirlərinin formalaşması və yenidən bölüşdürülməsi xüsusiyyətlərini nəzərə almaqla, makro və mikro səviyyədə istehsalın tənzimlənməsi üçün lazımi şərait yaratmalıdır.

Vergi sisteminin strukturu. Hal-hazırda Azərbaycan Respublikasında aşağıdakı vergilər müəyyən edilir və ödənilir:

- dövlət vergiləri;
- muxtar respublika vergiləri;
- yerli vergilər (bələdiyyə vergiləri).

Dövlət vergiləri - vergi qanunvericiliyi ilə müəyyən edilən və Azərbaycan Respublikasının bütün ərazisində ödənilməli olan vergilərdir.

Dövlət vergilərinə aşağıdakılar daxildir:

fiziki şəxslərin gəlir vergisi;

hüquqi şəxslərin mənfəət vergisi (bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan başqa);

əlavə dəyər vergisi;

•e* aksizlər;

»» hüquqi şəxslərin əmlak vergisi;

hüquqi şəxslərin torpaq vergisi;

^ yol vergisi;

^ mədən vergisi;

•&> sadələşdirilmiş vergi.

Bütün dövlət vergilərinin dərəcələrinin ən yüksək hədləri vergi məcəlləsi ilə müəyyən edilir. Dövlət vergilərinin hər il üçün tətbiq olunan dərəcələri məcəllədə müəyyən edilən dərəcələrdən yüksək ola bilməz və hər il dövlət büdcəsi haqqında qanunu qəbul edilən zaman həmin dərəcələrə yenidən baxıla bilər.

Muxtar respublika vergiləri - Vergi Məcəlləsinə müvafiq olaraq Naxçıvan Muxtar Respublikasının qanunları ilə müəyyən edilən və onun ərazisində ödənilən vergilərdir. Bütün dövlət vergiləri muxtar respublika vergilərinə aiddir.

Yerli vergilər (bələdiyyə vergiləri) dedikdə, vergi qanunvericiliyi və müvafiq qanunla müəyyən olunan, bələdiyyələrin qərarlarına əsasən tətbiq edilən və onların ərazilərində ödənilən vergilər nəzərdə tutulur. Bələdiyyələr tərəfindən tətbiq edilən digər məcburi ödənişlər müvafiq qanunla müəyyən edilir.

Yerli vergilər (bələdiyyə vergiləri) aşağıdakılardır:

- ❖ fiziki şəxslərin torpaq vergisi;
- ❖ fiziki şəxslərin əmlak vergisi;
- ❖ yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi;

*> bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi.

Yerli vergilərin hesablanması və ödənilməsi qaydaları, vergi ödəyicilərinin və bələdiyyələrin vergi xidməti orqanlarının hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət, bələdiyyələrin vergi xidməti orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydaları müvafiq qanunvericiliklə müəyyən edilir.

Yerli vergilərin (bələdiyyə vergilərinin) dərəcələri vergi qanunvericiliyində təsbit edilmiş hədlər daxilində müəyyən edilir. Vergi qanunvericiliyinə uyğun olaraq, bələdiyyələr öz ərazilərində vergi ödəyicilərinin ayrı-ayn kateqoriyalarını yerli vergilərdən tam və ya qismən azad etmək, vergi dərəcəsini azaltmaq barədə qərar qəbul edə bilərlər.

Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq yerli özünüidarəni həyata keçirən bələdiyyələr öz üzərilərinə düşən vəzifələrin icrası üçün müxtəlif maliyyə mənbələrindən istifadə edirlər. Bunların içərisində həlledici yeri bələdiyyə büdcələrinin əsasını təşkil edən yerli vergilər tutur.

Vergi Məcəlləsinin 8-ci maddəsi yerli vergilərin siyahısını müəyyən edir. Göründüyü kimi, bələdiyyələrə ödənilən torpaq, əmlak və mənfəət vergisi dövlət vergilərindən ödəyicilərin statusuna görə fərqlənir. Belə ki, fiziki şəxs tərəfindən ödənilən torpaq və əmlak vergisi, habelə bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar tərəfindən ödənilən mənfəət vergisi yerli vergilər hesab olunur. Halbuki bütün digər vergi ödəyicilərinin torpaq, əmlak və mənfəət vergiləri dövlət vergiləri hesab edilir. Bunlardan başqa yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi də yerli vergilər kateqoriyasına daxildir. (16.11.2001-ci il tarixli Qanun yerli əhəmiyyətli tikinti materiallarının bitmiş siyahısını müəyyən edərək oraya kərpic- kirəmit gillərini, tikinti qumlarını, çınqıl xammalını daxil etmiş və bu siyahını Vergi Məcəlləsinin 217.5-ci maddəsinə əlavə etmişdir).

Vergi Məcəlləsinə uyğun olaraq Azərbaycan Respublikasında xüsusi vergi rejimi tətbiq edilə bilər. Xüsusi vergi rejimi dedikdə, müəyyən dövr ərzində vergilərin hesablanması və ödənilməsinin xüsusi qaydası nəzərdə tutulur.

Vergi Məcəlləsinin 2.7-ci maddəsinə uyğun olaraq qanunla təsdiq edilmiş hasilatın pay bölgüsü haqqında, əsas boru kəməri haqqında və digər bu qəbildən olan sazişlərdə, neft və qaz haqqında Qanunda nəzərdə tutulmuş vergilər barədə fərqli müddəalar da xüsusi vergi rejimini müəyyən edirlər. Belə ki, hal-hazırda qüvvədə olan hasilatın pay bölgüsü və əsas boru kəməri haqqında sazişlərdə vergilərin, xüsusilə mənfəət vergisinin, gəlir vergisinin ödənilməsinin, vergi nəzarətinin həyata keçirilməsinin, maliyyə sanksiyalarının və faizlərin tətbiq edilməsinin Vergi Məcəlləsinin fərqli qaydaları nəzərdə tutulmuşdur.

Hüquq ədəbiyyatında azad iqtisadi zonalarda, bəzi əlamətlərinə görə fərqlənən inzibati-ərazi vahidlərində tətbiq edilən vergi sistemləri də xüsusi vergi rejiminə aid edilir.

Azərbaycan Respublikasının dövlət vergi orqanları Vergilər Nazirliyindən və bilavasitə ona tabe olan Departamentlərdən, ərazi vergi idarələrindən ibarətdir. Vergilər Nazirliyinin strukturuna Naxçıvan Respublikasının Vergilər Nazirliyi, Vergilər Nazirliyinin Tədris Mərkəzi, İri vergi ödəyiciləri və xüsusi vergi rejimli müəssisələr ilə iş üzrə Departament, Vergi cinayətlərinin ibtidai araşdırması Depar- tamenti, Bakı şəhəri Vergilər Departamenti, Ərazi Vergi İdarələri daxildir.

Dövlət vergi xidməti orqanları şaquli tabeçilik prinsipi əsasında fəaliyyət göstərir. Bu o deməkdir ki, şaquli tabeçiliyin birinci pilləsində Vergilər Nazirliyi, sonra ona tabe olan Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi, Bakı şəhəri Vergilər Departamenti və Ərazi Vergi İdarələridir.

Beləliklə, təsərrüfat subyektləri və dövlət arasındakı iqtisadi münasibətləri tənzimləyən əsas alətlərdən biri vergi sistemidir və bu sistem elə qurulmalıdır ki, bazar iqtisadiyyatının əlverişli inkişaf tələblərinə cavab versin. Bundan başqa, iqtisadi artım tempi bu sistemin proqressivliyindən, onun sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə dəqiq yönəldilməsindən əhəmiyyətli dərəcədə asılıdır.

13. Verçi öhdəlikləri və vergilərin müəyyən edilməsinin əsas şərtləri

Vergi öhdəliyi - hüquqi və fiziki şəxslərin vergi qanunvericiliyində müəyyən edilmiş vergiləri (o cümlədən cari vergi ödəmələrini) ödəmək vəzifəsidir. Vergi öhdəliyinin yaranması, dəyişdirilməsi, ləğv edilməsi, yerinə yetirilməsi qaydası və şərtləri vergi məcəlləsi ilə müəyyən edilir.

Vergi ödəyicisi qanunvericiliyin tələblərinə uyğun olaraq verginin ödənilməsini nəzərdə tutan şəraitin yarandığı andan vergi öhdəliyinin yerinə yetirilməsinə görə məsuliyyət daşıyır. Şəxsin vergi qanunvericiliyində müəyyən edilmiş vergiləri ödəmək öhdəliyinin yaranması üçün iki əsas şərtin olması lazımdır: sözügedən şəxs vergi ödəyicisi olmalıdır və bu şəxsin vergi öhdəliklərinin elementləri müəyyən edilməlidir.

Vergi öhdəliyi vergi məbləğinin müəyyən edilmiş müddətlərdə və qaydada ödənildiyi halda yerinə yetirilmiş hesab edilir. Vergi ödəyicisinin bank müəssisə- sindəki hesablaşma hesabında (kassasında) pul vəsaitinin olub-olmamasından asılı olmayaraq vergi öhdəliklərinin yerinə yetirilməsi məcburidir. Vergi öhdəliklərinin yerinə yetirilməsi Mülki Məcəllədə nəzərdə tutulmuş ardıcıllıqla həyata keçirilir. Vergi öhdəliklərinin yerinə yetirilməsi bilavasitə vergi ödəyicisi tərəfindən həyata keçirilir və digər şəxsin üzərinə qoyula bilməz.

Vergi ödəyicisi hesabat dövrü ərzində ödəniləcək vergi məbləğini vergi bazası, vergi dərəcəsi və vergi güzəştləri nəzərə alınmaqla müstəqil şəkildə hesablayır Vergi Məcəlləsinə uyğun olaraq ödənilməli olan vergi məbləğini hesablamaq vəzifəsi vergi agentinə həvalə oluna bilər.

Vergi ödəyicisi vergi qanunvericiliyində müəyyən edilmiş qaydada ödəmə müddəti çatanadək vergi məbləğini hesablamaq və ya əvvəllər hesablanmış vergi məbləğinə dəyişikliklər etmək hüququna malikdir.

Büdcəyə ödəniləcək vergi məbləği Vergi Məcəlləsi ilə hər bir vergi növü üzrə müəyyən edilmiş qaydada hesablanır. Müəyyən edilmiş müddətlərdə ödənilməli olan vergi məbləği vergi ödəyicisi və ya qanunla müəyyən edilmiş hallarda digər şəxs tərəfindən ödənilir.

Qanunvericilikdə nəzərdə tutulmuş hallarda vergilərin hesablanması vəzifəsi vergi orqanlarının üzərinə qoyulur. Vergi orqanları tərəfindən vergi məbləğinin hesablanması dedikdə, konkret hesabat dövrü üçün vergi ödəyicisinin ödəməli olduğu vergi məbləğinin vergi orqanlarının uçot sənədlərində qeyd edilməsi nəzərdə tutulur. Hesablanmış vergi məbləğinin vergi orqanlan tərəfindən yenidən hesablanması, uçot sənədlərində qeyd edilməsi, həmçinin vergilərin hesablanması kimi qiymətləndirilir.

Vergi Məcəlləsinə uyğun olaraq vergi orqanları vergi ödəyicisinin öhdəliklərini aşağıdakı məlumat mənbələrindən birinə (bir neçəsinə) əsasən hesablayır:

- vergi ödəyicisinin vergi bəyannaməsində olan məlumatlara;
- görülmüş işlərin və göstərilmiş xidmətlərin haqqını ödəyən, yaxud hər hansı ödəmələr aparan şəxsin, qanunla müəyyən edilmiş hallarda və qaydada ödənilmiş məbləğlər haqqında vergi orqanına verdiyi məlumatlara;
- vergi yoxlaması materiallarına;
- vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı digər məlumata.

Vergi orqanı səyyar və kameral vergi yoxlamalarının nəticələrinə görə hesablanmış vergi, faiz və maliyyə sanksiyalarını hesabat dövrü qurtardıqdan sonra 3 il ərzində yenidən hesablamaq hüququna malikdir.

Vergi ödəyicisi verginin hesablanması üçün zəruri olan hesabat məlumatlarını vermədiyi hallarda, vergi orqanı vergini əlaqəli məlumatlara əsasən hesablayır. "Əlaqəli məlumat" dedikdə, verginin hesablanması ilə bağlı vergi ödəyicisi və analoji fəaliyyətlə məşğul olan digər vergi ödəyiciləri barədə vergi orqanlarında olan məlumatlar, müvafiq icra hakimiyyəti orqanlarmın məlumatlan, hüquqi və fiziki şəxslərdən, eləcə də digər informasiya mənbələrindən alınan və istifadə üçün yararlı olan məlumatlar nəzərdə tutulur.

Vergi orqanı əlaqəli məlumata əsasən hesablanmış vergilərin növü və məbləği, onların hesablanması üçün istifadə edilmiş məlumatların mənbəyi barədə vergi ödəyicisinə məlumat verməlidir. Vergilər bildirişdə göstərilən, vergi ödəyicisinin uçota alındığı, verginin ödənildiyi yer müəyyən edilmədiyi hallarda vergi ödəyicisi olan fiziki şəxsin yaşadığı, hüquqi şəxsin isə idarə olunduğu yerdə ödənilir.

Vergi Məcəlləsinə müvafiq olaraq bəzi hallarda vergi öhdəlikləri həm vergi orqanları, həm də vergi ödəyiciləri tərəfindən yenidən hesablana bilər. Məsələn, vergi bəyannaməsini vermək şərtilə ödənilməsində, yaxud əvvəllər verginin hesablanmasında səhvlər aşkar edildiyi hallarda, vergi orqanları qanunvericiliyin tələblərinə uyğun olaraq vergiləri yenidən hesablayır və bu barədə 5 gün müddətində vergi Ödəyicisinə bildiriş göndərir.

Verginin vergi bəyannaməsini vermək şərtilə ödənildiyi hallarda, verginin ödənilməsinə dair öhdəliyin əks etdirildiyi bəyannamənin tərtib edilməsi müvafiq verginin hesablanması və ödənilməsinə dair bildiriş funksiyasını yerinə yetirir.

Vergi bəyannaməsi təqdim etmədən vergi bilavasitə ödəmə mənbəyində tutulduqda, fiziki şəxslər tərəfindən yol vergisi avtomobillərin texniki baxışı zamanı ödənildikdə, sərnişin və yük daşınması həyata keçirən vergi ödəyiciləri tərəfindən sadələşdirilmiş vergi ödənildiyi hallarda, vergi ödəyicisinin illik vergi öhdəliyinin vergi orqanları tərəfindən hesablanması və vergi məbləği barədə vergi ödəyicisinə bildirişin göndərilməsi kimi qiymətləndirilir.

Əgər vergi orqanında vergi ödəyicisinin vergini ödəməkdən yayınmaq niyyətində olduğunu təsdiq edən əsaslandırılmış konkret məlumat varsa və verginin tutulmasının təmin edilməsi zəruridirsə, onda vergi orqanının həmin vergini onun ödənildiyi tarixədək hesablamaq hüququ var. Bu halda vergi orqanı əsaslandırılmış qərar çıxarmalıdır.

Vergi ödəyicisinin əldə eldiyi mənfəəti bilavasitə müəyyən etmək mümkün olmadığı hallarda, həmin mənfəət Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş qaydalara ə.sasən müəyyən edilir, və bu halda vergi ödəyicisinə verginin hesablanması haqqında bildiriş göndərilir.

Vergi orqanları vergiyə cəlb olunan hesabat dövrü qurtardıqdan sonra 3 il ərzində vergi ödəyicisinin vergi, faiz və maliyyə sanksiyalarını hesablamaq, yenidən hesablamaq və hesablanmış (yenidən hesablanmış) vergi məbləğini hesabat dövründən sonrakı 5 il ərzində tutmaq hüququna malikdir.

Eyni zamanda vergi ödəyicisi hesabat dövründən sonrakı 5 il ərzində düzgün tutulmayan və ya artıq ödənilmiş vergi, faiz və maliyyə sanksiyaları məbləğinin qaytarılmasını (əvəzləşdirilməsini) vergi orqanlarından tələb edə bilər.

Vergilərin ödənilmə müddəti hər bir vergiyə münasibətdə müəyyən edilir və onun dəyişdirilməsi yalnız Vergi Məcəlləsində müəyyən edilmiş qaydada həyata keçirilə bilər. Vergilərin ödənilmə müddəti pozulmaqla ödənilməsinə görə vergi ödəyicisi qanunvericilikdə müəyyən edilmiş qaydada və şərtlərlə faiz ödəyir.

Vergi öhdəliklərinin yerinə yetirilməsi müddəti aşağıda göstərilən hallardan biri olduqda daha gec müddətə dəyişdirilə bilər:

təbii fəlakət və digər qarşısı alınmaz qüvvə nəticəsində vergi ödəyicisinə zərər dəydikdə;

^ vergini bir dəfəyə ödədiyi təqdirdə vergi ödəyicisinin iflasa uğramaq təhlükəsi olduqda.

Qeyd etmək lazımdır ki, vergilərin ödəmə müddətinin dəyişdirilməsi həmin öhdəliyin ləğv edilməsi deyil və bu akt yeni vergi öhdəliyi yaratmır. Əgər vergi qanunvericiliyinin pozulması ilə əlaqədar vergi ödəyicisinə qarşı cinayət işi qaldırı- lıbsa, onda vergi öhdəliyinin yerinə yetirilmə müddəti uzadıla bilməz.

Vergi öhdəliyinin yerinə yetirilmə müddətinin uzadılması üçün vergi ödəyicisi yazılı şəkildə əsaslandırılmış və onun tərəfindən vergi öhdəliyinin yerinə yetirilməsi üçün müvafiq girovun (zəmanətin) verildiyini əks etdirən müracİəl- naməni vergi orqanına göndərir. Vergi orqanı 30 gün müddətində bu müraciətə

baxır vo müvafiq əsaslar olduğu halda verginin ödəmə müddətinin uzadılması barədə qərar qəbul edir.

Lazımi əsaslar olduqda vergi öhdəliyinin yerinə yetirilmə müddəti təqvim ili ərzində bir aydan doqquz ayadək uzadıla bilər. Həmin müddət ərzində vergi ödəyicisinə faizlər hesablanılmır. Vergini bir dəfəyə ödəyəcəyi təqdirdə vergi ödəyicisinin iflasa uğramaq təhlükəsi olduğu hallarda isə ödənilməmiş vergi məbləğinin 0,01 faizi miqdarında faiz tutulur.

Vergi öhdəliyinin yerinə yetirilməsinin uzadılmış müddətinə xitam verildiyi hallarda, qərar vermiş orqan 5 gün müddətində vergi ödəyicisinə bu barədə məlumat verməlidir. Vergi ödəyicisi məlumatı aldığı tarixdən sonrakı 30 gün ərzində borc məbləğini və ödəmə gününədək həmin məbləğə görə hesablanmış faizi büdcəyə ödəməlidir.

Vergi hüququ bir sıra prinsiplərə əsaslanır ki, onlardan da biri *vergitutma elementldrinin məcburiliyidir.* Yəni hər bir vergi o halda müəyyən edilmiş hesab olunur ki, vergitutmanın bütün elementləri müəyyənləşdirilmiş olsun. Çünki qanunda məcburi vergi elementlərinin dəqiq müəyyən edilməməsi o deməkdir ki, həmin vergi müəyyən edilməmişdir, onu ödəməmək olar. Vergilər haqqında qanunverici aktlar elə formalaşmalıdır ki, hər bir şəxs hansı vergiləri, nə vaxt və hansı qaydada ödəməli olduğunu dəqiq bilməlidir.

Vergi sistemi qurulmasının ümumi prinsipləri onun formalaşması zamanı özünü vergi elementlərində əks etdirir. Vergi elementləri bütün vergi və yığımlar üçün ümumiləşdirici başlanğıcdır. Məhz onlar vasitəsilə vergilər haqqında qanunda vergi proseduru, yəni vergitutma bazası və vergi məbləğinin hesablanması qaydası və şərtləri, vergi dərəcələri, onların ödənilməsi müddəti və vergitutmanın digər şərtləri müəyyən edilir.

Beləliklə, vergi sisteminin ümumi prinsipləri onun formalaşması zamanı özünü vergi elementlərində əks etdirir və onlar bütün vergi və yığımlar üçün xarakterikdir. Vergi elementləri vergilərin hesablanması, toplanması və yığılması üsullan, yəni vergitutma sisteminin metodlarıdır.

Vergi o halda müəyyən edilmiş hesab olunur ki, bu zaman vergi ödəyicisi və aşağıdakı vergitutma elementləri müəyyən edilmiş olsun:

- vergitutma obyekti;
- vergitutma bazası;
- vergi dövrü;
- vergi dərəcəsi;
- vergi güzəşti;
- vergilərin hesablanması qaydası;
- vergilərin ödənilməsi qaydası və müddəti.

Vergitutma obyekti - vergilərin hesablanması üçün baza rolunu oynayan və kəmiyyətcə ölçülə bilən iqtisadi göstəricisidir və ödəyicinin vergi ödəmə öhdəliyini şərtləndirən hüquqi faktdır. Qanunvericiliklə vergitutma obyektləri kimi aşağıdakılar müəyyən edilmişdir: əmlak, mənfəət, gəlir; malların (işlərin, xidmətlərin) satışı üzrə əməliyyatlar; satılmış malların (görülmüş işlərin, göstərilmiş xidmətlərin) də

yəri; məhsulların əlavə olunmuş dəyəri; əmlakın başqasına verilməsi (bağışlanması, miras); qiymətli kağızlarla əməliyyatlar və s.. Hər bir vergi müstəqil vergitutma obyektinə malikdir. Bununla yanaşı onu da nəzərə almaq lazımdır ki, eyni obyekt hər hansı bir vergi növünə qanunla müəyyən edilmiş vergitutma dövründə (ay, rüb, il) yalnız bir dəfə cəlb oluna bilər.

Vergitutma bazası - vergitutma obyektinin vergi dərəcəsi tətbiq edilən, yəni vergi güzəşt və çıxı İmaları nəzərə alınmayan hissəsidir. Ona görə də vergitutma bazası vergi məbləğinin hasablanması üçün əsas kimi çıxış edir və vergi dərəcəsi ona tətbiq olunur.

Vergi dövrü - vergi bazasının formalaşdığı və vergi öhdəliklərinin həcminin tam müəyyən edildiyi müddətdir. Başqa sözlə, ödənilməli olan vergi məbləğinin hesablandığı hesabat dövrü (ay, rüb, il) vergi dövrü hesab edilir. Müxtəlif vergitutma obyektlərinin bu və ya digər hesabat dövrünə aid edilməsi problemi vergitutma bazası uçotunun konkret metodunu müəyyən etməklə həll olunur.

Vergi dərəcəsi - vergitutma bazasının ölçü vahidinə düşən vergi həcmidir (vergitutma normasıdır). Vergilərin növündən və aparılan vergi siyasətinin məqsədindən asılı olaraq vergi praktikasında müxtəlif vergi dərəcələri tətbiq olunur. Mə- .sələn, vergitutma predmetindən asılı olaraq vergitutma sistemində spesifik (möhkəm), faizli (advalor), proqressiv, reqressiv, proporsional vergi dərəcələri tətbiq olunur.

Möhkəm (spesifik) dərəcələr gəlirin (mənfəətin) həcmindən asılı olmayaraq vergitutma bazasına görə mütləq məbləğdə müəyyən edilir. Bu dərəcələr adətən torpaq və əmlak vergisinin tutulması zamanı tətbiq olunur.

FaizH dərəcələr vergitutma obyektinin dəyərinə görə müəyyən edilir və proporsional, proqressiv, reqressiv ola bilər.

Proporsional dərəcələr vergitutma obyektinə eyni faizlə təsir göstərir, yəni vergitulmanın proporsional metodunda ödəyicinin gəlirinin həcmindən asılı olmayaraq bütün vergi ödəyicilərinə eyni vergi dərəcəsi tətbiq olunur.

Proqressiv dərəcələr elə qurulub ki, vergitutma obyektinin dəyəri artdıqca vergi dərəcələri də artır. Bu zaman yalnız vergilərin mütləq məbləği deyil, eləcə də vergi yükü, yəni tutulan gəlirin payı da artır.

Reqressiv dərəcələr gəlirlər artdıqca azalır. Yəni reqressiv vergilər gəlirlərin artması ilə yanaşı orta vergi dərəcəsinin aşağı düşməsini, həmçinin vergi yükünün zəifləməsini nəzərdə tutur. Reqressiv dərəcələr əsasən dolayı vergilər üçün xarakterikdir.

Vergi güzəştləri - qüvvədə olan qanunvericiliyə müvafiq olaraq vergi subyektlərinin vergi ödənişindən tam və ya qismən azad edilməsidir. Hal-hazırda vergi qanunvericiliyində aşağıdakı vergi güzəştləri nəzərdə tutulmuşdur:

- vergi tutulmayan minimum;
- vergitutma obyektinin müəyyən elementlərinin vergi bazasından çıxarılması;
- müəyyən ödəyici kateqoriyalarının vergi ödənişindən azad edilməsi;
- vergi dərəcəsinin aşağı .salınması; investisiya kreditləri də daxil olmaqla, məqsədli vergi güzəştləri:
- digər vergi güzəştləri.

Qeyd etmək lazımdır ki, əgər müvafiq vergi ödəyicisinə münasibətdə qanunda güzəşt nəzərdə tutulmuşdursa, onda vergi ödəyicisi yalnız əvvəlcədən özünün bu hüququnu sənədlərlə təsdiq eldikdən sonra həmin güzəştdən istifadə etmək hüququna malik olur.

Müxtəlif mərhələlərdən ibarət olan vergi prosesinin hüquqi mahiyyət baxımından ən mühüm tərkib hissəsi verginin hesablanmasıdır. *Verginin hesablanması* dedikdə, büdcə və büdcədənkənar fondlara ödəniləcək vergi məbləğinin müəyyən edilməsi başa düşülür. Vergilərin hesablanması prosesində konkret vergi ödəyicisi- nin hər hansı vergi öhdəliyinin həcmi müəyyənləşdirilir.

Vergilərin hesablanması qaydası hər bir vergi üçün ayrıca müəyyən edilir və bu zaman hesablama əməliyyatları fərdi xarakter daşıyır. Hesablama əməliyyatının əsasını təşkil edən qanun isə fərdi deyil, ümumi və obyektiv xarakter daşıyır. Vergilər hesablanarkən vergi ödəyicisi ilə vergi orqanı arasında subyektiv münasibət yaranır, çünki hər ödəyicinin vergi öhdəliyinin məbləği fərqlidir.

Təsərrüfat subyektləri tərəfindən vergilər hesablanarkən zəruri vergi sənədləri tərtib edilir. Vergi sənədləri - vergilərin hesablanmasını, vergi məbləğini və vergi öhdəliyinin həcmini əks etdirən sənədlərdir. Vergi sənədlərinə aşağıdakılar daxildir:

- uçot-hesabat sənədləri;
- müşayiətedici sənədlər;
- vergi uçotu registrləri;
- bildiriş.

Uçot-hesabat sənədləri - vergi öhdəliyinin məbləğini əks etdirən sənədlərdir. Hər bir vergi növü üçün ayrıca bəyannamə forması müəyyən edilmişdir. Uçot- hesabat sənədləri funksiyasını yerinə yetirən vergi bəyannamələri tərtib edildikdən, müəssisənin rəhbəri və baş mühasibi tərəfindən imzalandıqdan sonra vergi ödəyi- cisinin qeydiyyata alındığı vergi orqanına təqdim olunur.

Müşayiətedici sənədlər - *\QX%\\^x\n* hesablanması üçün zəruri olan, vergi he~ sabatlarındakı məlumatları əsaslandıran, şərh edən arayış materialı rolunu oynayan sənədlərdir. Onlara alınmış mallara (işlərə, xidmətlərə) görə malsatanların təqdim etdikləri vergi hesab-fakturalarını misal göstərmək olar.

Vergi uçotu registrləri - müəssisələrdə vergi uçotunun aparılması üçün nəzərdə tutulmuş ümumi registr və ilkin uçot formalarıdır. Belə ki, vergi uçotunda əks olunması üçün zəruri olan və ilkin mühasibat uçotu sənədlərində əks olunan informasiya, vergi uçotu registrlərində toplanmalı və sistemləşdirilməlidir. Müəyyən hesabat dövrü üçün tərtib edilmiş vergi registrlərindəki informasiya ümumiləşdirildikdən sonra, həmin məlumatlar bəyannamələrə köçürülür.

Bildiriş - vergi orqanları tərəfindən vergi ödəyicilərinə təqdim edilən və özündə ödənilməsi zəruri olan vergi məbləğini, onun ödənilmə müddətini əks etdirən sənəddir. Bu sənədlərə fiziki şəxslərin torpaq və əmlak vergilərinin hesablanması barədə tədiyyə bildirişini misal göstərmək olar.

Vergilərin ödənilməsi - hesablanmış verginin vergi ödəyicisi (agenti) tərəfindən müvafiq büdcəyə (büdcədənkənar fonda) köçürülməsi (ödənilməsi) üzrə həyata keçirilən texniki əməliyyatdır. *Ümumi vergi məbləği (vergi okladı)* - vergi

ödəyicisinin bir vergitutma obyektindən ödədiyi vergi məbləğidir və o vergitutma bazasının vergi dərəcəsinə olan hasili kimi müəyyən edilir.

Vergi məbləğləri aşağıdakı formalarda tutulur:

- bilavasitə mənbədən (verginin gəlir və ya mənfəət əldə edilməsinədək tutulması);
- bəyannamə üzrə (verginin gəlir və ya mənfəət əldə edilməsindən sonra tutulması);
- bildiriş üzrə (vergitutma obyektinin dəyəri və sahəsinə əsasən vergi orqanının və ya bələdiyyənin hesabladığı məbləğ üçün təqdim etdiyi tədiyyə bildirişinə əsasən vergi ödəyicisi tərəfindən verginin ödənilməsi).

Verginin *"ödənw mənbəyində" X\xX\x\rms,* zamanı vergi ödəyicisi gəliri vergi məbləği çıxıldıqdan sonra əldə edir. Vergi gəlirin ödənilməsini həyata keçirən və vergi agenti funksiyasını yerinə yetirən müəssisənin mühasibatlığı (sahibkar) tərəfindən hesablanır və tutulur.

Verginin ödəmə mənbəyində tutulması metodundan əsasən muzdlu işlə məşğul olan şəxslərin gəlirlərinin (əmək haqqının) vergiyə cəlb edilməsi zamanı istifadə olunur. Müəssisənin mühasibatlığı gəlir vergisini işçilər gəlirlərini əldə edənədək hesablayır və tutur.

Bəyannamə üzrə vergitutma üsulu gəlir əldə edildikdən sonra onun bir hissəsinin tutulmasını nəzərdə tutur. Bu üsula əsasən vergi ödəyicisi müəyyən edilmiş müddətlərdə qeydiyyatda olduğu vergi orqanına özünün vergi öhdəlikləri, başqa sözlə hesabat dövrü ərzində əldə etdiyi gəlirləri haqqında rəsmi ərizə (bəyannamə) verməlidir. Vergitutmanın bu üsulu bir qayda olaraq dəqiq müəyyən olunmayan gəlirlərin vergiyə cəlb edilməsi zamanı, həmçinin vergi ödəyicisi gəlirlərinin çoxsaylı mənbələrdən formalaşdığı hallarda tətbiq olunur. Mövcud qanunvericiliyə uyğun olaraq *bəyannamə metodu hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki* şəxslər tərəfindən gəlir vergisi, hüquqi şəxslər tərəfindən isə mənfəət vergisi, aksiz və əlavə dəyər vergiləri üzrə tətbiq olunur.

Bildiriş (kadastr) metodu kadastrlardan istifadə olunmasını nəzərdə tutur. Vergitutmanın kadastr üsulunun tətbiqi zamanı bəzi xarici (gəlir, əmlak) və vergitutma obyektinin orta gəlirliliyini müəyyən edən əlamətlər üzrə vergitutma obyektinin təsnifatını müəyyən etmək imkanı verən reyestr-kadastr tərtib edilir.

Kadastr - spesifik vergitutma obyektlərini (torpaq və sahənin həcmi, mühərrikin gücü) təsnifləşdirən və onların orta gəlirliliyini müəyyən edən siyahıdır. Kadastr tərtib edərkən vergitutma obyektinin istənilən səciyyəvi cəhəti əsas götürülür. Məsələn, torpaq kadastrı tərtib edilərkən torpağın növü (əkin, çəmənlik, meşə və onun yerləşdiyi coğrafi mövqe) əsas kimi götürülür.

Vergitutmanın bu üsulu bir qayda olaraq torpaq vergisinin tutulması zamanı tətbiq olunur.

Vergi ödəyiciləri tərəfindən hesablanmış vergilər aşağıdakı üsullarla ödənilir:

- köçürmə yolu ilə (nağdsız);
- nağd qaydada;
- vergi borcunun əmlaka yönəldilməsi.

Əsasən vergilərin ödənilməsi müəssisələr tərəfindən nağdsız qaydada həyata

rülməsi üçün ödəniş tapşırığı tərtib edərək müvəkkil banka təqdim edir. Bank ödəniş tapşırığını qəbul etdiyi gün icra etməlidir.

Vergilər nağd qaydada əsasən fiziki şəxslərin əmlak və torpaq vergisinin ödəyiciləri tərəfindən ödənilir. Bundan başqa, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslər (fərdi sahibkarlar) həmçinin gəlir vergisini tərtib etdikləri bəyannaməyə əsasən nağd qaydada ödəyirlər.

Vergilərin büdcəyə müntəzəm daxil olmasını təmin etmək məqsədilə vergi qanunvericiliyində bəzi vergilər (mənfəət vergisi, əmlak vergisi) üzrə cari (avans) vergi ödəmələri nəzərdə tutulmuşdur. *Avans vergi ödəmələri* vergilərin ödənilmə vaxtının gəlirlərin alınma vaxtına yaxınlaşdırılması məqsədilə müəyyən edilir.

Nəzərə almaq lazımdır ki, təqvim ili ərzində həyata keçirilmiş avans vergi ödəmələri faktiki ödənilmiş vergi məbləği kimi uçota alınır. Hesabat dövrünün sonunda vergi ödəyicisinin maliyyə-təsərrüfat fəaliyyətinin yekununa görə faktiki vergi məbləği hesablanılır. Əgər bu zaman faktiki əldə edilmiş gəlir (mənfəət) üzrə hesablanmış vergi məbləği cari vergi ödəmələrinin məbləğindən çox olarsa, onda çatışmayan vergi məbləği əlavə olaraq büdcəyə köçürülür. Əksinə olduqda isə artıq ödənilmiş vergi məbləği büdcədən geri qaytarılır və ya müvafiq vergi üzrə gələcək dövrlərin avans vergi ödəmələri kimi uçota alınır.

1.4. Vergi münasibəti iştirakçılarının hüquq və vəzifələri

Vergi qanunvericiliyi ilə tənzimlənən münasibətlərin iştirakçıları aşağıdakılardır:

- vergi qanunvericiliyinə uyğun olaraq vergi ödəyicisi hesab edilən hüquqi və fiziki şəxslər;
- vergi qanunvericiliyinə uyğun olaraq vergi agenti hesab edilən hüquqi və fiziki şəxslər;
- dövlət vergi orqanları;
- gömrük orqanları;
- vergi qanunvericiliyində nəzərdə tutulan məsələlərin həlli ilə bağlı Azərbaycan Respublikasının maliyyə orqanları;
- vergi və gömrük orqanlarından başqa vergi qanunvericiliyində nəzərdə tutulan hallarda vergi ödəyicilərindən vergilərin ödənilməsi üçün vəsaitlərin alınması və onların büdcəyə köçürülməsini, müəyyən edilmiş qaydada həyata keçirən dövlət hakimiyyət, yerli özünüidarəetmə və digər səlahiyyətli orqanlar (onların vəzifəli şəxsləri).

Vergi Məcəlləsi ayrı-ayrılıqda hər bir vergi hüquq münasibətləri iştirakçılarının hüquq, vəzifə və səlahiyyətlərini müəyyən etmişdir. Qeyd etdiyimiz kimi, vergi qanunvericiliyi ilə tənzimlənən münasibət iştirakçılardan biri vergi ödəyicilərdir. *Vergi ödəyicisinin aşağıdakı hüquqları vardır:*

- qeydiyyat (uçot) yeri üzrə vergi orqanlarından qüvvədə olan vergilər, onların ödənilməsi qaydası və şərtlərini tənzimləyən normativ-hüquqi aktlar, vergi ödəyicilərinin hüquq və vəzifələri, vergi orqanları və onların vəzifəli şəxslərinin səlahiyyətləri haqqında əvəzsiz olaraq yazılı məlumat almaq;

- vergi orqanlarından vergi qanunvericiliyinin tətbiq edilməsi məsələlərinə dair yazılı izahatlar almaq;
- vergi qanunları ilə müəyyən edilmiş hallarda və qaydada vergi güzəştlərindən istifadə etmək;
- artıq ödənilmiş və ya artıq tutulmuş vergilərin vaxtında geri qaytarılmasını və ya əvəzləşdirilməsini tələb etmək;
- vergi münasibətlərində bilavasitə və ya öz nümayəndəsi vasitəsi ilə iştirak etmək;
- vergi yoxlaması ilə bağlı tərtib edilən aktların (protokolların) və vergi orqanlarının qərarlarının surətini almaq;
- vergi orqanlarından və onların vəzifəli şəxslərindən vergi ödəyicisinə münasibətdə vergilər haqqında qanunvericiliyə riayət olunmasını tələb etmək;
- vergi orqanları və onlann vəzifəli şəxslərinin Vergi Məcəlləsi və digər normativ-hüquqi aktlara uyğun olmayan qərarlar və tələblərini yerinə yetirməmək;
- müəyyən edilmiş qaydada vergi orqanları və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) inzibati qaydada məhkəməyə şikayət etmək;
- qanunvericiliklə müəyyən edilmiş qaydada kommersiya (vergi) sirrinin qorunmasını tələb etmək;
- vergi orqanları və ya onlann vəzifəli şəxslərinin qeyri-qanuni aktları (qərarları) və hərəkətləri (hərəkətsizliyi) nəticəsində dəymiş zərərin tam ödənilməsini qanunvericiliklə müəyyən edilmiş qaydada tələb etmək;
- vergi yoxlamalarının aktlan və digər materialları ilə tanış olmaq, vergi orqanları və onlann vəzifəli şəxslərinə vergilərin hesablanması və ödənilməsi, habelə keçirilən vergi yoxlamalarının aktları üzrə öz rəyini bildirmək;
- xronometraj metodu ilə aparılan sonuncu müşahidədən sonra Vergi Məcəlləsinin 50-1.2-ci maddəsində göstərilən müddətlərə riayət olunmaqla istehsal həcminin və ya satış dövriyyəsinin dəyişməsi ilə əlaqədar xronometraj metodu ilə yeni müşahidənin aparılmasını vergi orqanlarından tələb etmək;
- vergi orqanlarında müəyyən edilmiş qaydada qeydiyyatdan keçirilməsi üçün nəzarət-kassa aparatının müəyyən olunmuş modelini sifariş vermək;
- məcəllədə nəzərdə tutulan fəaliyyət növləri (maddə 16.1.8) ilə məşğul olan vergi ödəyicisi tərəfindən nağd pul hesablaşmalarım nəzarət-kassa aparatları vasitəsilə həyata keçirmək;
- vergi risklərinin minimallaşdırılması məqsədi ilə «Vergi partnyorluğu sazişi» bağlamaq üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada ərizə ilə vergi orqanlarına müraciət etmək;
- Vergi Məcəlləsi və qanunlarla müəyyən edilmiş digər hüquqlardan istifadə etmək.

Vergi ödəyicisinin hüquq və qanuni maraqlan qanunvericilik normaları ilə təmin edilir, onların müdafiəsi qaydası Vergi Məcəlləsi və digər qanunlarla müəyyən edilir.

Vergi ödəyicisinin hüquq və qanuni maraqları vergi orqanları və onların vəzifəli

qanuni maraqlarının təmin olunmaması (lazımınca təmin olunmaması) qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Vergi ödəyicisi vergi münasibətlərində bilavasitə və öz qanuni və ya səlahiyyətli nümayəndəsi vasitəsi ilə iştirak edə bilər.

Vergi ödəyicisinm aşağıdakı vəzifələri vardır:

£3qanunla müəyyən edilmiş vergiləri, habelə bu Məcəllə ilə müəyyən edilmiş qaydada hesablanmış faizləri, tətbiq edilmiş maliyyə sanksiyalarını və digər məcburi ödənişləri ödəmək;

K vergi orqanlarından vergi ödəyicisinin eyniləşdirmə nömrəsini (VÖEN) almaq;

tJqanunvericiliklə nəzərdə tutulmuş qaydada gəlirlərinin (xərclərinin) və vergi- tutma obyektlərinin uçotunu aparmaq;

C3 vergi orqanlarına qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada, auditor tərəfindən yoxlanılması nəzərdə tutulduğu hallarda isə, auditor rəyi əlavə edilməklə vergi hesabatını təqdim etmək;

K vergi orqanlarının vergi qanunvericiliyinin aşkar edilmiş pozuntularının aradan qaldırılması haqqında qanuni tələblərini icra etmək, habelə vergi orqanlarının vəzifəli şəxslərinin qanuni fəaliyyətinin icra edilməsinə maneçilik törətməmək; £3vergi orqanlarına və onların vəzifəli şəxslərinə zəruri olan məlumatları və sənədləri, habelə mühasibat uçotu elektron formatda aparıldığı halda, özünün və filiallarının elektron daşıyıcılarında olan məlumatlara birbaşa və ya məsafədən çıxış imkanı yaratmaqla, həmin məlumatları vergi orqanının tələbi ilə təqdim etmək;

K qanunvericiliklə müəyyən edilmiş müddətdə mühasibat sənədlərinin, vergilərin hesablanması və ödənilməsi üçün zəruri olan digər sənədlərin, habelə alınan gəlirləri (çəkilən xərcləri) və ödənilən (tutulan) vergiləri təsdiq edən sənədlərin saxlanılmasını təmin etmək;

K aşağıdakı fəaliyyət növləri istisna olmaqla, nağd pul hesablaşmalarını nəzarət- kassa aparatları vasitəsilə həyata keçirmək:

- qəzet və jurnalların satışı (belə satış dövri>'yəsinin ümumi dövriyyədəki payı 50 faizdən çox olduqda);
- qiymətli kağızların satışı;
- lotereya biletlərinin satışı, idman mərc oyunları üzrə operator və satıcı tərəfindən həyata keçirilən fəaliyyət;
- sərnişin və yük daşıma (dəmir yolu, hava, su və avtomobil nəqli>yatı vasitəsilə) fəaliyyəti (oturacaq yerlərinin sayı 6-dan az olan qanunvericiliyə uyğun olaraq taksometr tətbiq edilməli taksilərdən başqa);
- kənd təsərrüfatı məhsullarının bazarlarda, yarmarkalarda və səyyar qaydada satışı;
- şüşə qablar və dəmir tullantılarının qəbul məntəqələrinin fəaliyyəti;
- rabitə xidməti (İnternet klubların fəaliyyəti istisna olmaqla);
- reklam xidməti;
- mənzil təsərrüfatı obyektlərinin fəaliyyəti;
- yaşayış və qeyri-yaşayış obyektlərinin kirayəyə verilməsi;
- mehmanxana, motel, kempinq və yataqxana xidmətləri;

- elektrik enerjisi, qaz, su, isti su təchizatı və mərkəzi qızdırma sistemi obyektlərinin fəaliyyəti, lift və təhlükəsizlik xidməti;
- kanalizasiya və sanitar təmizləmə xidməti;
- turizm-ekskursiya, sanatoriya-kurort və sağlamlaşdırma xidmətləri;
- bədən tərbiyəsi və idman xidməti;
- səhiyyə xidməti;
- vəkillik və digər hüquq xidmətləri;
- avtomobil dayanacaqlarının fəaliyyəti;
- paltarların kimyəvi təmizlənməsi və boyanması, yuyulması;
- mənzillərin təmiri və tikintisi;
- stasionar olmayan məntəqələrdə mərasim xidmətləri və bununla əlaqədar kirayə və s.

M nağd pul hesablaşmaları aparılan zaman alıcıya çek, qəbz, bank çıxarışları və digər ciddi hesabat blanklarmı təqdim etmək və həmin çek, bank çıxarışları və ya ciddi hesabat blanklannda qanunvericiliklə müəyyən edilmiş məlumatların əks etdirilməsini təmin etmək;

K istismar zamanı nəzarət-kassa aparatının plombu pozulduqda və ya başqa nasazlıqlar yarandıqda vergi orqanlarına dərhal məlumat verməklə, nəzarət-kassa aparatından istifadəni müvəqqəti dayandırmaq və həmin müddətdə nağd pul hesablaşmalannın qeydiyyatının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada aparılmasını təmin etmək;

K sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident bank idarələrində və digər qeyri-rezident kredit təşkilatlannda hesabların açılması üçün vergi orqanlarından alınmış şəhadətnamə-dublikatların bildiriş hissəsində müvafiq qeydlər etməklə, bu hesablar üzrə əməliyyatlar apanidığı tarixədək vergi orqanına təqdim etmək;

«İstehlakçılann hüquqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə uyğun olaraq nağdsız ödənişlərin aparılması üçün POS-terminallann quraşdırılmasını və istifadəsini təmin etmək;

22 vergi orqanı tərəfindən kameral və səyyar vergi yoxlamaları zamanı hesablanmış və ya yenidən hesablanmış vergilər, faizlər, habelə tətbiq edilmiş maliyyə sanksiyalanndan verilmiş şikayətə məhkəmədə baxıldığı dövrdə və həmin şikayət üzrə məhkəmənin çıxardığı qərar qanuni qüvvəyə minənədək (vergi ödəyicisinin həmin vəsaitləri öz razılığı ilə ödədiyi hallar istisna olmaqla) əlavə hesablanmış məbləğin 105 faizi həcmində pul vəsaitinin milli və ya xarici valyutada cari və digər hesablarında məxaric əməliyyatları üzrə dondurulmasını təmin etmək.

Vergi ödəyicisinin hesabat dövründə sahibkarlıq fəaliyyəti və ya digər vergi tutulan əməliyyatı olmadığı halda, vergi hesabatının əvəzinə vergi orqanına, hesabatın təqdim edilməsi üçün müəyyən edilmiş müddətdən gec olmayaraq arayış təqdim edilir.

Vergi ödəyicisi təqvim ilində sahibkarlıq fəaliyyətini (digər vergi tutulan əməliyyatlarını) müvəqqəti dayandırdıqda, həmin fəaliyyətin (əməliyyatların) dayandırılması günündən gec olmayaraq vergi orqanına müvafiq arayış təqdim edil

məlidir. Arayışda sahibkarlıq fəaliyyətinin və ya digər vergi tutulan əməliyyatların dayandırılmasının müddəti göstərilməlidir.

Vergi ödəyicisinin sahibkarlıq fəaliyyətini və ya digər vergi tutulan əməliyyatlarını müvəqqəti dayandırdığı dövrdə faktiki olaraq fəaliyyət göstərməsi müəyyən edildikdə vergi ödəyicisinə bildiriş göndərilməklə sahibkarlıq fəaliyyətini və ya digər vergi tutulan əməliyyatlarını müvəqqəti dayandırdığı dövrlər üzrə vergi orqanına hesabatlar təqdim etməsi tələb olunur.

Arayış təqdim edən vergi ödəyicilərinin əmlakı (torpağı) olduqda, əmlak və torpaq vergisinin hesabatları müəyyən olunmuş qaydada və müddətlərdə vergi orqanına təqdim edilir. Arayışlar vergi hesabatlarının verilməsi üzrə öhdəlik yarandığı gündən qüvvəsini itirir.

Vergi agenti - vergini hesablamağa, onu vergi ödəyicisindən tutmağa və təyinatı üzrə köçürməyə borclu olan şəxsdir. Vergi agentinin vergi ödəyicisi ilə eyni hüquqları vardır.

Vergi agentinin vəzifələri aşağıdakılardan ibarətdir:

- müvafiq vergiləri düzgün və vaxtında hesablamağa, onları vergi ödəyicisindən tutmağa və təyinatı üzrə köçürməyə;
- vergi ödəyicilərinə Ödənilən gəlirlərin, onlardan tutulan və təyinatı üzrə köçürülən vergilərin, o cümlədən hər vergi ödəyicisi üzrə aynca uçotunu aparmağa;
- vergilərin hesablanmasının, tutulmasının və ödənilməsinin düzgünlüyünə nəzarət etmək üçün zəruri sənədləri dövlət vergi orqanlarına verməyə;
- vergi ödəyicisindən verginin tutulmasının mümkün olmadığı hallarda, bu barədə və vergi ödəyicisinin vergi borcunun məbləği barədə vergi orqanlarına 30 gün müddətində öz qeydiyyat (uçot) yeri üzrə yazılı məlumat verməyə və s. Vergi agenti qanunla ona həvalə edilmiş vəzifələri yerinə yetirməməyə və ya lazımınca yerinə yetirməməyə görə qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

Vergi agenti birbaşa (dolayı) yolla tabe olduğu şəxsin təqsiri üzündən ona həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsinə (lazımınca yerinə yetiriİməməsinə) görə vergi agentinin bilavasitə (dolayısı) ilə tabe olduğu şəxs məsuliyyət daşıyır.

Azərbaycan Respublikasında dövlət vergi orqanlannı müvafiq Vergilər Nazirliyi və bilavasitə ona tabe olan vergi orqanları təşkil edir. Vergi orqanlan öz səlahiyyətləri çərçivəsində hüquq mühafizə orqanlanmn səlahiyyətlərini həyata keçirirlər.

Vergi orqanları öz fəaliyyətini yerli dövlət hakimiyyəti orqanlarından asılı olmayaraq müstəqil həyata keçirirlər. Vergi orqanları tərəfindən onların səlahiyyətləri daxilində qəbul edilən qərarlar bütün hüquqi və fiziki şəxslər üçün məcburidir.

Vergi orqanlan məhkəmələrə iddia ərizələrinin verilməsi üçün dövlət rüsumunu ödəməkdən azaddırlar.

Vergi orqanları vergilərin tam və vaxtında ödənilməsinə nəzarəti həyata keçirirlər (bələdiyyə vergiləri, habelə tutulması dövlət gömrük orqanlarının səlahiyyətlərinə aid edilmiş yol vergisi, ƏDV və aksiz istisna olmaqla).

Qanunla müəyyən edilmiş hallarda və qaydada yol vergisi və idxal-ixrac əməliyyatları sahəsində vergi orqanlarının səlahiyyətlərini gömrük orqanlan həyata

öz səlahiyyətlorini yerinə yetirmək üçün *vergi orqanlarına aşağıdakı hüquqlar verilmişdir:*

K kameral və səyyar vergi yoxlamalarını, operativ vergi nəzarətini keçirmək;

H vergi ödəyicilərində bütün maliyyə sənədlərini, mühasibat kitablarını, hesabatları, smetaları, nağd vəsaitləri, qiymətli kağızları və başqa qiymətliləri, bəyannamələri və vergilərin hesablanması və ödənilməsi ilə bağlı olan digər sənədləri yoxlamaq, habelə yoxlamaların keçirilməsi zamanı yoxlamaya aid olan məsələlərlə bağlı vergi ödəyicilərindən (onun vəzifəli şəxslərindən) lazımi izahatlar, arayışlar və məlumat almaq, habelə mühasibat uçotu elektron formatda aparıldığı halda elektron auditin məqsədləri üçün vergi ödəyicisi- nin və onun filiallarının elektron daşıyıcılarındakı məlumatlannın verilməsini, həmin məlumatlara birbaşa və ya məsafədən çıxış imkanının yaradılmasını tələb etmək;

K vergi ödəyicilərinin gəlir götürmək üçün istifadə etdikləri, yaxud vergi tutulan obyektlərin saxlanılması ilə bağlı olan istehsal, anbar, ticarət və digər binalann-da (ərazilərində) istehsal həcminin və ya satış dövriyyəsinin müəyyənləşdirilməsi məqsədilə Vergi Məcəlləsinin 50-1-ci maddəsində müəyyən edilmiş hallarda və qaydada xronometraj metodu ilə müşahidə aparmaq və baxış keçirmək, bu Məcəllə ilə müəyyən edilmiş qaydada elektron və (və ya) kağız formatda aparılan sənədləri və əşyaları götürmək, mülkiyyətində və ya istifadəsində olan əmlakın (yaşayış sahələri istisna olmaqla) bu Məcəllədə müəyyən edilmiş hallarda Vergilər Nazirliyi http://vescc.azA^iewDoc.aspx?did=5496 tərəfindən təsdiq edilmiş qaydada inventarizasiyasını aparmaq;

H vergi ödəyicilərindən vergi qanunvericiliyinin pozulması hallarının aradan qaldırılmasını və auditor rəyini (vergi ödəyicisinin auditor tərəfindən yoxlanılmalı olduğu halda) tələb etmək;

K qanunla müəyyən edilmiş qaydada vergi qanunvericiliyinin pozulması ilə bağlı işlərə baxmaq, hüquqi və fiziki şəxslərin vergi borclarına faizlər hesablamaq, maliyyə sanksiyaları və inzibati cərimələr tətbiq etmək;

K müəyyən edilmiş müddətlərdə ödənilməmiş vergi, faiz, maliyyə sanksiyaları və inzibati cərimələrin qanunla müəyyən edilmiş qaydada dövlət büdcəsinə ödənilməsini təmin etmək;

c-3 vergi ödəyicilərinin hesablaşma, valyuta və digər hesablarından qanunvericiliyə müvafiq olaraq hesablanmış vergilər üzrə borc və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalannm dövlət büdcəsinə alınması üçün bank və digər kredit təşkilatlarına icra (ödəniş) sənədi olan sərəncam vermək, inzibati cərimələrin alınmasını təşkil etmək;

B vergi ödəyicisinin hesablaşma, valyuta və digər hesablarına həbs qoyulması barədə məhkəmədə iddia qaldırmaq, vergi ödəyicisinin əmlakının siyahıya alınması üçün tədbirlər görmək;

B «Əməliyyat-axtanş fəaliyyəti haqqmda» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş hallarda və qaydada vətəndaşların vergi məsələləri ilə bağlı sorğusunu həyata keçirtmək;

£3 «Əməliyyat-axtanş fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş hallarda və qaydada binalara (yaşayış sahələri istisna olmaqla), qurğulara vo torpaq sahələrinə daxil olmaq və baxış keçirtmək;

H «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunla müəyyən olunmuş hallarda və qaydada nəzarət qaydasında mal alqışını həyata keçirtmək;

£3 Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada təhqiqat aparmaq;

£3 aksiz markası ilə markalanmalı olan malların markalanmadan satışının həyata keçirilməsi aşkar edildikdə, həmin malları siyahıya almaq və vergi ödəyi- cisində (onun razılığı ilə vergi orqanlarının vəzifəli şəxsləri tərəfindən müəyyən edilən yerlərdə) məsul saxlamaya qoymaq;

£3 müəyyən edilmiş qaydada mütəxəssisləri, ekspertləri, tərcüməçiləri, müşahidəçiləri cəlb etmək;

£3 məhkəmənin qərarı ilə müsadirə edilmiş aksiz markası olmayan və ya saxta aksiz markaları ilə markalanmış malların satışını qanunvericiliyə uyğun olaraq təşkil etmək;

£3 hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması barədə məhkəmədə iddia qaldırmaq;

£3 vergi risklərinin minimallaşdınıması məqsədi ilə vergi ödəyiciləri ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada və formada «Vergi partnyorluğu sazişi» bağlamaq.

Yuxan vergi orqanları tabeliyində olan vergi orqanlarının və onların vəzifəli şəxslərinin qeyri-qanuni aktlarını və qərarlarını ləğv edə bilərlər.

Qanunvericilik çərçivəsində öz səlahiyyətlərini yerinə yetirmək üçün vergi orqanlarının qarşısında aşağıdakı vəzifələr durur:

- vergilərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət, vergi qanunvericiliyinə tam və dəqiq riayət etmək;
- vergi ödəyicilərinin hüquq və qanuni mənafelərini gözləmək və müdafiə etmək;
- **vergi qanunvericiliyi və ona edilən dəyişikliklər barədə vergi ödəyicilərinə kütləvi informasiya vasitələri və ya fərdi qaydada əvəzsiz olaraq məlumat verməк, müəyyən edilmiş hesabat formalarının doldurulması qaydalarını izah etmək, vergilərin hesablanması və ödənilməsi barədə izahatlar verməк, vergi ödəyicilərinə onların hüquq və vəzifələrini izah etmək;**
- hesablanmış və təyinatı üzrə daxil olmuş vergilərin uçotunu aparmağa və bu barədə müvafiq icra hakimiyyəti orqanlarına (ölkə Prezidentinə, Nazirlər Kabinetinə, Mali>'yə Nazirliyinə) məlumat verməк;
- **vergi qanunvericiliyinin pozulması hallarına dair məlumatları toplamaq, təhlil etmək və qiymətləndirmək, belə halların baş verməsinə gətirib çıxaran səbəblərin və şəraitin aradan qaldırılması üçün müvafiq dövlət orqanlarına təkliflər verməк;**
- **vergi ödəyicilərinin vergidən yayınması və vergi qanunvericiliyinin pozulması faktları barədə şəxslərdən müraciət daxil olduqda, müraciətdə qeyd edilən faktları həmin vergi ödəyicilərində keçiriləcək növbəti operativ vergi nə/.arəti tədbiri və ya növbəti səyyar vergi yoxlaması zamanı araşdırmağa və**

vergi nəzarəti başa çatdıqdan sonra nəticələri barədə müraciət edən şəxslərə məlumat verməyə:

- ❖ vergi ödəyicilərinin, onların filiallarının, nümayəndəliklərinin və ya digər bölmələrinin (obyektlərinin), habelə nəzarət-kassa aparatlarının uçotunu aparmağa;
- ❖ kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatını və dövlət reyestrini aparmağa və bununla bağlı məlumatları (kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçılan) və onlann nizamnamə kapitalmdakı payları barədə məlumatlar istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətlərdə müvafiq icra hakimiyyəti orqanlarına göndərməyə;
- ❖ vergi ödəyicilərinin, onların filiallarının, nümayəndəliklərinin və ya digər təsərrüfat subyektlərinin (obyektlərinin), habelə nəzarət-kassa aparatlarının uçotunu aparmaq;
- ❖ vergi ödəyiciləri haqqında məlumatın, o cümlədən vergi və kommersiya sirrinin qorunması qaydalarına riayət etməyə və onu təmin etmək;
- ❖ vergi ödəyicilərinə vergi yoxlamalarının nəticələri haqqında aktın, habelə qanunvericiliklə müəyyən edilmiş hallarda vergi orqanının qərarının surətini vermək;
- ❖ vergi ödəyiciləri tərəfindən artıq ödənilmiş vergi məbləğlərinin əvəzləşdiril- məsi (geri qaytarılması), habelə vergi ödəyicilərindən düzgün tutulmayan vergi məbləğləri, mali>'yə sanksiyaları, faizlər və inzibati cərimələrin geri qaytarılması üçün qanunvericiliklə müəyyən edilmiş tədbirləri görmək;
- ❖ tabeliyində olan vergi orqanlarının fəaliy>'ətinə nəzarəti həyata keçirtmək.

Dövlət gömrük orqanları mallar Azərbaycan Respublikasının gömrük sərhədindən keçirildikdə, vergilərin tutulması sahəsində Vergi Məcəlləsi, Gömrük Məcəlləsi və digər qanunları ilə müəyyən edilmiş hüquq və vəzifələri həyata keçirirlər.

Vergi orqanları öz vəzifələrini mərkəzi və yerli icra hakimiyyəti orqanları, hüquq-mühafizə, maliyyə və digər dövlət hakimiyyəti orqanları ilə qarşılıqlı əlaqədə həyata keçirirlə bilər.

1.5. Vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət

Vergi məsuliyyəti - səlahiyyətli dövlət orqanları tərəfindən vergi ödəyicilərinə (agentlərinə) qarşı vergi hüquq pozuntularına görə maliyyə sanksiyalarının tətbiq edilməsidir.

Vergi sistemi məsuliyyət daşıma halları olmadan mümkün deyil. Vergi ödəyiciləri tərəfindən öz. vəzifələrinin yerinə yetirilməməsi inzibati və cinayət məsuliyyəti, həmçinin maliyyə sanksiyaları kimi tədbirlərlə müşahidə olunur.

Belə ki, Vergi Məcəlləsinin 53-cü maddəsinə uyğun vergi ödəyiciləri, vergi agentləri və onların nümayəndələri, habelə vergi orqanlarının vəzifəli şəxsləri vergi qanunvericiliyinin pozulmasına görə Azərbaycan Respublikasının Vergi Məcəlləsi, İnzibati Xətalar MəcəlKəsi, Cinayət Məcəlləsi və digər qanunları ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Vergi qanunvericiliyinin pozulmasına görə vergi ödəyicilərinə və vergi agentlərinə Vergi Məcəlləsi ilə müəyyən edilmiş maliy>'ə. sanksiyaları və faizlər tətbiq edilir.

«

Heç bir kəs vergi qanunvericiliyinin pozuntusu olan eyni hərəkətə (hərəkətsizliyə) görə təkrarən məsuliyyətə cəlb oluna bilməz.

Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada və ya məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təqsiri təsdiq edilməyənədək hər bir vergi ödəyicisi vergi qanunvericiliyinin pozulmasında təqsirsiz hesab edilir.

Vergi ödəyicisi vergi qanunvericiliyinin pozulmasında özünün təqsirsiz olmasını sübut etməyə borclu deyildir. Vergi qanunvericiliyinin pozulması faktını təsdiq edən halların və vergi ödəyicisinin təqsirinin sübut edilməsi vergi orqanlarının üzərinə qoyulur.

Vergi qanunvericiliyinin pozulmasında vergi ödəyicisinin təqsirinin olmasında aradan qaldırılmaz şübhələr olduqda, onlar vergi ödəyicisinin xeyrinə şərh olunur.

Vergi ödəyicisinin (agentinin) vergitutma obyektinin uçotunda, vergilərin hesablanmasında və ödənilməsində yol verdiyi səhvləri müstəqil düzəltmək hüququ vardır.

Vergi qanunvericiliyinin pozulması halları nəzərdən keçirildikdə, onun bilərəkdən və ya ehtiyatsızlıq nəticəsində törədilməsi, inzibati məsuliyyətin tətbiq edilməsi üçün təqsirkar şəxsin müəyyən yaşa çatması, yüngülləşdirici və ya ağırlaşdırıcı hallar və Vergi Məcəlləsi və İnzibati Xətalar Məcəlləsinin müddəaları müəyyən edilməlidir.

Vergi qanunvericiliyinin pozulması malların Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi ilə bağlı olduqda, həmin işlərə Azərbaycan Respublikasının Gömrük Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır.

Vergi ödəyicisi tərəfindən vergi qanunvericiliyinin bir neçə pozuntusuna yol verildikdə, maliyyə sanksiyaları hər pozuntuya münasibətdə ayrıca tətbiq edilir.

Vergi ödəyicisinin və ya vergi agentinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi, onları vergi öhdəliklərinin və vergi orqanlarının vəzifəli şəxslərinin qanuni tələblərinin yerinə yetirilməsindən azad etmir.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə, qanunla təsdiq olunmuş hasilatm pay bölgüsü haqqında, əsas ixrac boru kəməri haqqında və digər bu qəbildən olan sazişlərdə başqa qaydalar nəzərdə tutulmadığı hallarda, bu sazişlər çərçivəsində fəaliyyət üzrə vergi hesabatını əsas olmadan müəyyən edilən müddətdə təqdim edilməməsinə görə vergi ödəyicisinin vəzifəli şəxsinin (şəxslərinin) həmin hərəkətə görə inzibati məsuliyyətə cəlb edilməsi İnzibati Xətalar Məcəlləsinə müvafiq olaraq həyata keçirilir.

Şəxs aşağıda müəyyən olunmuş hallardan ən azı biri olduqda, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilə bilməz:

y vergi qanunvericiliyi ilə bağlı hüquqpozuntusu hadisəsinin olmaması;

> vergi qanunvericiliyi ilə bağlı hüquqpozuntusunda şəxsin təqsirinin olmaması;

> vergi qanunvericiliyi ilə bağlı hüquqpozuntusunu törədən fiziki şəxsin həmin əməl törədildiyi ana məsuliyyətə cəlb edilmə yaşına çatmaması;

> vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlbetmə müddətinin qurtarması.

Vergi qanunvericiliyinin pozulmasında şəxsin təqsirini istisna edən hallar aşağıdakılardır:

vergi qanunvericiliyi ilə bağlı hüquqpozuntusunun təbii fəlakət, yaxud digər fövqəladə və qarşısıalınmaz hadisələr nəticəsində törədilməsi;

♦t* vergi qanunvericiliyi ilə bağlı hüquqpozuntusunun vergi ödəyicisi - fiziki şəxs tərəfindən xəstə halı ilə əlaqədar olaraq öz hərəkətlərinə nəzarət (özünə hesabat verməyi) və rəhbərlik etməyi bacarmadığı vəziyyətdə törədilməsi;

l vergi ödəyicisi və ya vergi agenti tərəfindən vergi orqanının və ya digər səlahiyyətli dövlət orqanının, yaxud onların vəzifəli şəxslərinin öz səlahiyyətləri daxilində verdikləri yazılı göstərişlərinin və ya i/.ahatlarının yerinə yetirilməsi; vergi orqanlarının qərarlarına yenidən baxıldıqda vergi ödəyicisinin hərəkətləri üçün hüquqi əsaslar olmasının aşkar edilməsi;

♦t*hər hansı vergilər, o cümlədən vergi agentləri tərəfindən ödənilən vergilər üzrə artıq ödənilmiş məbləğlərin hesabına digər vergilər üzrə borcların nəzərə alınması;

♦i** vergilərin düzgün hesablanmaması və vergi öhdəliklərinin yerinə yetirilməməsi ilə bağlı vergi qanunvericiliyinin pozulmasının vergi orqanının yoxlamasına qədərki dövrdə vergi ödəyicisinin özü tərəfindən aradan qaldınıması. Yuxarıda sadalanana hallar olduqda, şəxs vergi qanunvericiliyi ilə bağlı hü- quqpozuntusuna görə, məcəllənin 55.1,6-cı maddəsində göstərilən hallarda faizlərin ödənilməsi istisna olmaqla, məsuliyyət daşımır.

Vergi qanunvericiliyinin pozulması anından 3 il keçmişdirsə, şəxs həmin qanunvericiliklə bağlı hüquq pozuntusunun törədilməsinə görə məsuliyyətə cəlb edilə bilməz və vergi öhdəlikləri yarana bilməz.

Sahibkarlıq fəaliyyətinin (vergitutulan əməliyyatların) olmaması haqqında arayış olmadan *vergi hesabatını müəyyən edilən müddətdə təqdim etməyən* vergi ödəyicisinə qarşı *40 manat* məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Aktivləri haqqında məlumatı əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən *100 manat* məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Vergi Məcəlləsinin 23.1.2-ci maddəsində göstərilən sənədlərin (o cümlədən elektron formatda məlumatların) müəyyən edilmiş müddətlərdə təqdim edilməməsinə və ya bilərəkdən təhrif olunmaqla təqdim edilməsinə, habelə sənədlərin və ya məlumatların məcəllənin 71.4-cü maddəsi ilə müəyyən edilmiş müddətdə üzrlü səbəb olmadan saxlanılmamasına görə vergi ödəyicisinə 100 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Əgər verginin (o cümlədən ödəmə mənbəyində) hesabatda göstərilən məbləği hesabatda göstərilməli olan məbləğinə nisbətən azaldılmışdırsa, habelə büdcəyə çatası vergi məbləği hesabat təqdim etməməklə yayındırılmışdırsa, onda vergi ödəyicisinə qarşı *azaldılmış (yayındırılmış) vergi məbləğinin* (kameral vergi yoxlaması nəticəsində hesablanmış əlavə vergi məbləği istisna olmaqla) *50 faizi* miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Vergi orqanmda uçota alınmaq üçün ərizənin verilməməsinə, digər uçot məlumatlarında (vergi ödəyicisinin vergi uçotuna alınma haqqında ərizədə qeyd olunan rekvizitlər) *dəyişiklik haqqında məlumatın təqdim edilməməsinə,* habelə *«Fərq- lənmə nişanı» olmadan avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və ya yük daşınmasına görə 40 manat* məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Vergilər üzrə borc, faiz və maliyyə sanksiyalannın dövlət büdcəsinə alınması üçün bank və digər kredit təşkilatına sərəncamın verildiyi tarixdən vergi ödəyici- si tərəfindən onun hesabından (kassasından) *pul vəsaitinin silinməsi növbəliliyi pozulmaqla nağd qaydada məxaric əməliyyatları aparıldıqda* - aparılmış məxaric əməliyyatlarının *50 faizi* miqdarında maliyyə sanksiyası tətbiq edilir.

ƏDV üzrə qeydiyyat olmadan fəaliyyət göstərilməsinə görə vergi ödəyicisinə ƏDV üzrə qeydiyyat olmadan fəaliyyət göstərdiyi bütün dövr ərzində büdcəyə ödənilməli olan ƏDV məbləğinin *50faizi* miqdarında maliyyə sanksiyası tətbiq edilir.

ƏDV məqsədləri üçün qeydiyyat qüvvəyə minmədən (ləğv edildiyi halda) ƏDV üzrə elektron vergi hesab-fakturasmın təqdim edilməsinə görə vergi ödəyicisinə təqdim edilmiş vergi hesab-fakturasında göstərilmiş vergi məbləğinin *100 faizi* miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Elektron vergi-hesab fakturası üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən, ƏDV məbləğinin ödənilməməsinə görə vergi ödəyicisinə ödənilməmiş ƏDV məbləğinin *50 faizi* miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Məcəllənin 175.1.3-cü maddəsinə müvafiq olaraq ƏDV-nin məqsədləri üçün qeydiyyatda olmayan səhmlərinin və paylarının 50 faizindən çoxu dövlətə məxsus olan hüquqi şəxslər və büdcə təşkilatları tərəfindən mallann (iş və xidmətlərin) dəyəri ödənilən gündən gec ƏDV məbləğinin ödənilməsinə görə vergi ödəyicisinə vaxtında ödənilməmiş ƏDV məbləğinin *50 faizi* miqdannda maliyyə sanksiyası tətbiq edilir.

Nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına, yəni nəzarət-kassa aparatlan və ya ciddi hesabat blankları tətbiq edilmədən (nəzarət-kassa aparatları quraşdınİmadan, qanunvericiliklə müəyyən edilmiş formalara uyğun ciddi hesabat blanklan olmadan və ya nağd ödənilmiş məbləği mədaxil etmədən), vergi orqanlarında qeydiyyatdan keçirilməmiş və ya texniki tələblərə cavab verməyən nəzarət-kassa aparatlarmdem istifadə etməklə, qanunvericiliklə müəyyən olunmuş ciddi hesabat blanklanndan istifadə etmədən və ya müəyyən olunmuş qaydada təsdiq olunmuş formalara uyğun olmayan ciddi hesabat blanklanndan istifadə etməklə, əhali ilə pul hesablaşmalarının aparılmasına, alıcıya təqdim edilməli olan çekin, banklann valyuta mübadilə şöbələri tərəfindən müştəriyə təqdim edilməli olan bank çıxanşlannm və ya digər ciddi hesabat blanklannın və ya ödənilmiş məbləğdən aşağı məbləğ göstərilməklə verilməsinə, nəzarət-kassa aparatlarından istifadə edilməsi dayandırıldıqda əhali ilə pul hesablaşmalarının qeydiyyatının aparılması qaydalannın pozulmasına görə vergi ödəyicisinə;

> təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə - 400 manat məbləğində;

> təqvim ili ərzində belə hallara ikinci dəfə yol verildikdə - 800 manat məbləğində;

> təqvim ili ərzində belə hallara üç və daha çox dəfə yol verildikdə - 1200 manat

Xammal, material, yarımfabrikat, hazır məhsul və digər sərvətlərin, habelə pul vəsaitinin 1000 manatdan çox olan məbləğdə uçotdan gizlədilməsinə (uçota alınmamasına) görə vergi ödəyicisinə:

y gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin ümumi məbləğinin 1000 manatdan çox olan hissəsinə 5 faiz miqdarında; il ərzində belə hallara təkrar yol verildikdə, gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin ümumi məbləğinin 1000 manatdan çox olan hissəsinə 10 faizi miqdannda maliyyə sanksiyası tətbiq edilir.

Plombların vurulması və açılması arasındakı müddətdə nəzarət-ölçü cihazlarının göstəricilərində dəyişikliklərin edilməsinə, texnoloji avadanlıqlardakı plomb- ların zədələnməsinə, istehsal olunmuş məhsulların aksiz markası ilə markalarıma- masına, tam uçota alınmamasına, aksiz markalarının inventarizasiyasında kənarlaşmalara yol verilməsinə, eləcə də hazır məhsulun istehsal sahəsindən kənara çıxarılmasına görə vergi ödəyicisinə 5000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) bağlamadan işə götürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə işəgötürənə hər bir belə şəxs üzrə 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Vergi orqanından şəhadətnamə-dublikat alınmadan sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident bank və kredit təşkilatlarında açılmış hesaba (rezident banklar tərəfindən qeyri-rezident banklarda açılmış müxbir hesablar istisna olmaqla) mədaxil edilmiş pul vəsaitinin 100 faiz miqdarında vergi ödəyicisinə maliyyə sanksiyası tətbiq edilir.

Vergi və ya cari vergi ödəməsi müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən və ya vergi agentindən ödənilməmiş vergi və ya cari vergi ödəməsi məbləğinin *0,1 faizi* məbləğində faiz tutulur. Faiz cari vergi ödənişlərinə münasibətdə bütün ötmüş müddətə, ancaq bir ildən çox olmamaq şərti ilə tətbiq edilir. Bu faiz səyyar vergi yoxlaması nəticəsində aşkar edilmiş vaxtında ödənilməmiş vergi məbləğlərinə həmin vergi məbləğlərinin vergi ödəyicisinə hesablandığı gündən tətbiq edilir.

Müəyyən edilmiş vergi məbləğindən artıq ödənilmiş məbləğ və ya düzgün tutulmayan vergi məbləği ödənildikdə, vergi ödəyicisinin ərizəsinin verildiyi tarixdən həmin məbləğlər geri qaytarılanadək gecikdirilən hər bir gün üçün (ödəmə günü də daxil olmaqla) vergi ödəyicisinə müvafiq məbləğlərin 0,1 faizi məbləğində faiz ödənilir.

Vergi ödəyicisinin artıq ödənilmiş məbləğlərin qaytanimasına dair ərizə verdiyi müddətdən 45 gün ərzində məbləğ qaytarılarsa, faizlər vergi ödəyicisinə qaytarılmır.
Bank və digər kredit təşkilatlarına aşağıdakı maliyyə sanksiyaları tətbiq edilir:

^ vergi orqanı tərəfindən hüquqi şəxsə, fərdi sahibkara, filiala və nümayəndəliyə vergi orqanı tərəfindən verilən şəhadətnamə-dublikat olmadan hesablaş

ma hesabı və ya digər hesablar açdığına görə - hər açılmış hesab üçün 400 manat məbləğində;

> sahibkarlıq fəaliyyətini göstərən hüquqi və fiziki şəxslərin milli (xarici) valyutada cari və ya digər hesablarında vəsait olduqda, onun vergilərin ödənilməsinə dair tapşırıqlarını, habelə vergilər üzrə borc, faiz və maliyyə sanksiyalarının vergi ödəyicisinin hesabından Mülki Məcəllədə nəzərdə tutulmuş ödənişlərin növbəliyinə uyğun tutulması haqqında vergi orqanlarının sərəncamlarını icra etmədiyinə görə - icra edilməmiş həmin ödəmə tapşırıqlarında və ya sərəncamlarda göstərilən məbləğin 50 faizi.

Vergi ödəyicisinin valyuta hesabından vəsait mübahisəsiz qaydada tutulduğu halda, bank həmin gün Mərkəzi Bankın müəyyən etdiyi rəsmi məzənnə ilə sərəncamda göstərilən məbləğin 105 faizinədək hesabdakı valyuta vəsaitini dondurur. Valyuta vəsaiti vergi ödəyicisi tərəfindən manata konvertasiya edildikdən sonra sərəncam icra olunur;

Vergi ödəyicisindən bank və kredit təşkilatına müvafiq tapşırıq (sərəncam) daxil olduğu gündən həmin günlər üçün vergi ödəyicisinə faiz hesablanmır.

Vergi orqanlarının hüquqa zidd hərəkətləri (qərarları) və ya hərəkətsizliyi, habelə vergi orqanlarının vəzifəli şəxslərinin və digər işçilərinin öz vəzifələrini icra etdikdə, onların hüquqa zidd hərəkətləri (qərarları) və ya hərəkətsizliyinə, həmçinin bunların nəticəsində vergi ödəyidlərinə dəymiş zərərə görə vergi orqanları və vergi orqanlarının vəzifəli şəxsləri qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Vergi ödəyicilərinə yuxanda göstərilən hərəkətlər (qərarlar) və ya hərəkətsizlik nəticəsində dəymiş zərər məhkəmənin qərarına əsasən ödənilir.

Vergi orqanları tərəfindən düzgün tutulmayan vergi, maliyyə sanksiyaları, faizlər və inzibati cərimələrin məbləğləri, vergilər üzrə borclar olmadıqda, bu Məcəllədə başqa hallar nəzərdə tutulmadıqda vergi ödəyicisinin müraciətinə əsasən 45 gün müddətində geri qaytarılmalıdır və ya gələcək ödənişlərin hesabına aid edilə bilər.

Vergi orqanlanmn vəzifəli şəxsləri və digər işçiləri özlərinin hüquqa zidd hərəkətlərinə (qərarlarına) və ya hərəkətsizliyinə, o cümlədən öz xidməti vəzifələrini yerinə yetirmədiyinə və ya lazımınca yerinə yetirmədiyinə görə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

1.6. Veı^ nəzarəti və onun formaları

İstənilən ölkənin maliyyə-büdcə sisteminin formalaşması üçün əsas şərt maliyyə vəsaitlərinin formalaşmasıdır. Dövlət büdcəsinin formalaşmasının əsas mənbəyi vergilərdir və onların yığılması vergi ödəyicilərinin nə dərəcədə intizamlı olmasından əhəmiyyətli dərəcədə asılıdır. Məhz bu məqsədlə vergi orqanları vergilərin tam və vaxtında yığılmasım təmin etmək məqsədilə vergi nəzarətini həyata keçirirlər.

Vergi nəzarəti — vergi ödəyiciləri və vergitutma obyektlərinin uçotu, vergi qanunvericiliyinə riayət olunması üzərində həyata keçirilən vahid nəzarət sistemidir. Vergi nəzarətini Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Dövlət

Gömrük Komitəsi həyata keçirir. Yerli vergilərin (bələdiyyə vergilərinin) qanunvericiliyə uyğun olaraq hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət bələdiyyələrin vergi xidməti orqanları tərəfindən həyata keçirilir.

Vergi nəzarəti vergi və gömrük orqanları, onların vəzifəli şəxslərinin səlahiyyətləri çərçivəsində müvafiq qanunvericilik aktlarına uyğun olaraq həyata keçirilir.

Vergi orqanları tərəfindən vergi nəzarəti vergi ödəyicilərinin uçotunu aparmaqla, vergi yoxlamaları keçirməklə, vergi ödəyiciləri və digər şəxslər arasında sorğu aparmaqla, xronometraj və gəlir əldə etmək üçün istifadə olunan binalara baxış keçirməklə, inventarizasiya aparmaqla və vergi qanunvericiliyində müəyyən edilmiş digər formalarda həyata keçirilir.

Qanunvericilikdə nəzərdə tutulmuş vergilərin tam və vaxtında ödənilməsinə nəzarət vergi ödəyicilərinin uçotundan başlanır. Vergi nəzarətinin həyata keçirilməsini təmin etmək məqsədilə vergi ödəyiciləri aşağıda göstərilən yerlərdə vergi orqanlarında uçota alınır:

- *hüquqi şəxslər* - olduqları hüquqi ünvanda (dövlət qeydiyyatı haqqında sənədlərdə qeyd olunmuş);
- *vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirdən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər* - Azərbaycan mənbəyindən gəlirin alındığı yer üzrə;
- *fərdi sahibkarlar və bəyannamə verməli olan rezident fiziki şəxslər* - yaşadıqlan yer üzrə;
- *xüsusi notariuslar* ~ fəaliyyət göstərdiyi yer üzrə.

Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini fiziki şəxs kimi həyata keçirmək istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən vəsiqə əsasında vergi orqanlarında vergi ödəyicisi kimi uçota alınırlar.

Vergi orqanlarında uçota alınmaq üçün vergi ödəyiciləri tərəfindən (kommersiya hüquqi şəxsləri, habelə xarici kommersiya hüquqi şəxsinin nümayəndəlik və filialları istisna olmaqla) - onların olduğu və ya yaşadığı yer üzrə vergi orqanına ərizə verilir. Vergi orqanına ərizə qeyri-kommersiya - hüquqi şəxsin dövlət qeydiyyatına alındığı gündən, Azərbaycan Respublikasında filial və nümayəndəlik vasitəsi ilə sahibkarlıq fəaliyyəti həyata keçirildikdə isə filialın və ya nümayəndəliyin yaradılmasından sonra 30 gün müddətində verilməlidir.

Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslər (fərdi sahibkarlar) ərizəni sahibkarlıq fəaliyyətini başladığı günədək vergi orqanına təqdim etməlidir. Fərdi sahibkarlar ərizə ilə birgə vergi orqanına yaşadığı yer haqqında məlumat və onun şəxsiyyətini təsdiq edən sənədin surətini təqdim edir.

Vergi orqanı ərizə və digər müvafiq sənədlərin daxil olduğu gündən sonrakı 2 gün ərzində vergi ödəyicisinin uçota alınmasını həyata keçirməli və ona müvafiq şəhadətnamə verməlidir. *Şəhadətnamə* vergi ödəyicisinin uçota alınmasını təsdiq edən əsas sənəd olmaqla, vergi ödəyicisinə bir dəfə verilir və onda saxlanılır. Şəhadətnamə itdikdə (yararsız hala düşdükdə), vergi ödəyicisinin müraciətinə əsasən ona şəhadətnamənin yeni nüsxəsi verilir. Bu zaman verilən nüsxənin üzərində şəhadərnamənin yeni nüsxə olması barədə müvafiq qeyd edilir.

Uçota alındıqdan sonra hər bir vergi ödəyicisinə bütün vergi və gömrük ödənişləri üzrə Azərbaycan Respublikasının bütün ərazisində eyni olan *vergi ödəyicihrinin eyniləşdirmə nömrəsi (VÖEN)* verilir.

Vergilər Nazirliyi uçot məlumatlarına əsasən *vergi ödəyicilərinin vahid dövlət reyestrini* aparır. Vergi ödəyiciləri vahid dövlət reyestrinə daxil edilərkən, onların vergi orqanına təqdim etdikləri ərizədəki məlumatlardan istifadə olunur. Vahid dövlət reyestri kağız və elektron yazıları formasında aparılır.

Vergi orqanları tərəfindən fiziki şəxslərin vergi uçotuna alınması elektron və (və ya) kağız formatda aparılır. Onların uçota alınması, yenidən uçota alınması və uçotdan çıxarılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Vergi ödəyicisi uçota alınması haqqında şəhadətnaməni aldıqdan sonra, bank və kredit təşkilatlarında hesab açmaq üçün vergi orqanına ərizə verir. Vergi orqanı həmin ərizəyə əsasən 2 gündən gec olmayaraq vergi ödəyicisinə *şəhadətna- mə-dublikat* verir (büdcəyə vergi, faiz və maliyyə sanksiyaları üzrə borc olmadıqda).

Vergi ödəyicisinin olduğu yer və ya yaşadığı yer dəyişdikdə, vergi orqanına bu cür dəyişiklik baş verdiyi gündən 40 gün müddətində ərizə verməlidir. Vergi ödəyicisinin vergi uçotunda olduğu vergi orqanına olduğu yer və ya yaşadığı yer dəyişdiyi barədə ərizə ilə müraciət etdiyi gündən sonra 15 gün müddətində həmin vergi orqanı vergi ödəyicisinin yenidən uçota alınmasını (yəni əvvəlki vergi orqanından uçotdan çıxarılması və yeni vergi orqanında uçota alınması) həyata keçirməlidir.

Vergi ödəyicisi vergi orqanında uçota alınmaq üçün verdiyi ərizə formasında olan məlumatlarda hər hansı dəyişiklik baş verdikdə, dəyişiklik baş verən gündən 40 gün müddətində vergi orqanına məlumat verməlidir.

Banklar hüquqi və fərdi sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərə bank hesabını, yalnız vergi orqanı tərəfindən onlara verilən şəhadətnamə-dublikat təqdim edildikdən sonra açırlar. Şəhadətnamə-dublikat alındığı tarixdən sonrakı 10 gün müddətində hesabın açılması üçün istifadə olunmadıqda qüvvədən düşmüş hesab edilir.

Vergi orqanı şəhadətnamə-dublikatı vergi ödəyicisinə verdikdən sonra 1 gün müddətində Dövlət Sosial Müdafiə Fonduna elektron və ya kağız daşıyıcılar vasitəsilə müəyyən edilmiş formada məlumat göndərir.

Bank və kredit təşkilatlan vergi ödəyicilərinə hesablaşma (cari), ssuda, depozit, valyuta hesabı açdıqdan sonra 5 gün ərzində həmin vergi ödəyicisinin uçota alındığı vergi orqanına və Dövlət Sosial Müdafiə Fonduna bank hesabının açılması barədə bildiriş göndərir.

Vergi orqanı bank idarəsindən bildirişi aldıqdan sonra bildirişdə göstərilən məlumatları vergi uçotu məlumatlanna daxil edir və 1 gün müddətində həmin məlumatlan elektron (kağız) daşıyıcılar vasitəsilə Dövlət Sosial Müdafiə Fonduna göndərir.

Şəhadətnamə-dublikatla yalnız onda göstərilmiş bankda (bankın filialında) hesab açmaq olar.

Əgər vergi orqanları bank və digər kredit təşkilatları tərəfindən onlara xəbər verilmədən vergi ödəyicisinə bank hesabı açılması faktını aşkar edərsə, onda həmin hüquqi və fiziki şəxslərə qarşı maliyyə sanksiyası tətbiq edilir. Bununla yanaşı ver

gi orqanları bu barədə Mərkəzi Banka məlumat verir. Əgər belə hallar gələcəkdə də təkrar olunarsa, onda Mərkəzi Bank vergi orqanlarının məlumatına əsasən həmin bank müəssisəsinə inzibati qaydada nəzarət edir və lazım gəldikdə bank əməliyyatlarının aparılmasına görə onlara verdiyi lisenziyanı geri alır.

Vergi nəzarəti sistemində vergi yoxlamaları əsas yer tutur. Vergi yoxlaması vergi ödəyicilərinin fəaliyyətinə dövlət nəzarətinin əsas üsuludur. Vergi yoxlamalarının keçirilməsində əsas məqsəd vergi ödəyicisinin hesabat məlumatları ilə vergi orqanlarında olan məlumatların tutuşdurulması yolu ilə vergi qanunvericiliyinə əməl edilməsinə, vergilərin tam və vaxtında ödənilməsinə nəzarət etməklə vergidən yayınma hallarının qarşısının alınmasıdır.

Vergi yoxlamaları vergilərin hesablanmasının düzgünlüyünə, vaxtında və tam ödənilməsinə bilavasitə nəzarət etmək imkanı verir. Vergi yoxlaması vergi ödəyicilərinin ilkin mühasibat və digər sənədlərinə əsasən verginin hesablanması və vaxtında ödənilməsini təyin etmək üçün həyata keçirilən aktdır.

Keçirilməsi yerinə görə vergi yoxlamaları kameral və səyyar olmaqla iki cür olur. *Kameral yoxlama* vergi orqanı tərəfindən yerlərə getmədən vergilərin hesablanmasını və ödənilməsini özündə əks etdirən və vergi ödəyicisinin fəaliyyəti haqqında vergi orqanında olan sənədlər və mənbəyi məlum olan məlumatlar əsasında keçirilir. Kameral vergi yoxlamasının keçirilməsi üçün xüsusi qərarın çıxarılması məcburi deyil, çünki o vergi orqanının cari fəaliyyəti prosesində həyata keçirilir. Yoxlama vergi orqanlarında olan sənədlərə, vergi ödəyicisi tərəfindən təqdim edilən hesabatlara (bəyannamələrə), vergilərin hesablanması və ödənilməsini özündə əks etdirən vergi ödəyicisinin fəaliyyəti haqqında vergi orqanında olan digər sənədlərə (müxtəlif təsərrüfat müqavilələrinə, ödəmə sənədlərinə, bank əməliyyatlan ilə bağlı sənədlərə, təsis sənədlərinə və s.) və üçüncü şəxslərdən alınmış sənədlərə əsasən aparılır.

Vergi orqanlarına təqdim edilmiş vergi hesabatlanna əsasən vergi ödəyicisinin maliyyə-təsərrüfat fəaliyyətinin qiymətləndirilməsində əsas məqsəd, onun səyyar vergi yoxlaması planına daxil edilib-edilməməyinin məqsədəuyğunluğunu müəyyənləşdirməkdən ibarətdir.

Kameral vergi yoxlaması zamanı vergi orqanı (onun vəzifəli şəxsləri) vergi ödəyicisi haqqında əldə edilmiş hər hansı məlumatın məxfiliyini qorumağa borcludur (vergi qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla).

Kameral vergi yoxlaması vergi ödəyicisi tərəfindən vergilərin hesablanması və ödənilməsi üçün əsas olan sənədlərin vergi orqanına təqdim edildiyi gündən sonrakı 30 gün müddətində həyata keçirilir. Həmin müddət bitdikdən sonra kameral vergi yoxlaması keçirilməsi qeyri-mümkündür və bu halda nəzarət digər formalarda, **o** cümlədən səyyar vergi yoxlamalarına uyğun həyata keçirilə bilər.

Yoxlamanı aparmaq üçün vergi ödəyicisi tərəfindən təqdim edilmiş bəyannamə ilə sənədlərdə olan məlumatlar arasında ziddiyyət (səhv) aşkar edildikdə, vergi orqanı vergi ödəyicisindən əlavə məlumat, sənəd və izahat tələb edə bilər.

Kameral yoxlama zamanı vergi bəyannaməsində vergilərin düzgün hesablan-mamağı (vergi məbləğinin az və ya çox göstərilməsi) aşkar edildikdə vergi ödə- yicisinə 5 gün müddətində Vergilər Nazirliyinin müəyyən etdiyi formada *vergi or*

qanının qərarı göndərilir. Vergi orqanının qərarında yenidən aparılmış hesablamanın səbəbləri və vergi Ödəyicisinin şikayət etmək hüququ göstərilməlidir.

Vergi bəyannaməsində vergilərin düzgün hesablanmamadığı hallarda və kameral yoxlama aparmaq üçün vergi bəyannaməsi, sənədlər və məlumatlar üzrlü əsas olmadan təqdim edilmədikdə, vergi orqanının Vergi .Məcəlləsinin 67-ci maddəsinə müvafiq olaraq vergiləri əlaqəli məlumatlardan istifadə etməklə hesablamaq hüququ vardır.

Məcəllənin 15.1.13-cü maddəsinə əsasən vergi ödəyicisindən xronometraj metodu ilə yeni müşahidə keçirilməsi barədə müraciət daxil olan dövrədək (vergi ödəyicisinin bu Məcəllədə nəzərdə tutulmuş qaydada fəaliyyətini dayandırdığı, xronometrajın keçirildiyi dövrü əhatə edən səyyar vergi yoxlamasının keçirildiyi hallar istisna olmaqla), xronometraj metodu ilə sonuncu müşahidənin nəticələri vergilərin hesablanması üçün əsas götürülə bilər.

Kameral vergi yoxlaması zamanı vergi orqanı məcəllənin 37.3-cü və 37.4-cü maddələrində müəyyən edilmiş qaydalara riayət etmədikdə, vergi ödəyicisinin səyyar vergi yoxlaması keçirilən zaman vergi orqanının təklifi əsasında həmin yoxlamanın keçirildiyi vaxta qədər yol verdiyi səhvləri (o cümlədən vergi məbləğlərinin düzgün hesablanmaması, vergi məbləğlərinin azaldılması və sair) 30 gün müddətində düzəltmək (aradan qaldırmaq) hüququ vardır və o, həmin müddət bitənədək, yol verdiyi və kameral yoxlama zamanı müəyyən edilə bilən vergi qanunvericiliyinin pozulmasına görə (faizlərin ödənilməsi istisna olmaqla) məsuliyyət daşımır.

Səyyar vergi yoxlaması vergi nəzarətinin daha səmərəli formasıdır, çünki vergi qanunvericiliyinin pozulması hallan yalnız belə yoxlamaların aparılması zamanı aşkar edilə bilər. Lakin qeyd etmək lazımdır ki, vergi nəzarətinin bu forması çox zəhmət, vaxt və peşəkarlıq tələb edir.

Səyyar vergi yoxlaması adından da göründüyü kimi vergi orqanının vəzifəli şəxsləri tərəfindən bilavasitə vergi ödəyicisinin yerləşdiyi yerdə həyata keçirilir. Səyyar vergi yoxlaması həm vergi ödəyicisi olan hüquqi və sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərdə aparıla bilər.

Kameral yoxlamadan fərqli olaraq, səyyar vergi yoxlaması vergi orqanının qərarına əsasən həyata keçirilir və bu cür qərarın olması zəruridir. Yoxlamanın keçirilməsi üçün əsas olan qərar vergi orqanının rəhbəri və ya onun müavini tərəfindən verilir. Belə qərar olmadan və xidməti vəsiqəsini təqdim etmədən səyyar vergi yoxlaması keçirən vergi orqanının vəzifəli şəxslərinin vergi ödəyicisinin sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün istifadə etdiyi bina və ya əraziyə daxil olmasına yol verilmir (məhkəmənin qərarı olan hallar istisna olmaqla).

Səyyar vergi yoxlaması növbəti və növbədənkənar ola bilər. *Növbəti səyyar vergi yoxlaması* ildə bir dəfədən çox olmayaraq keçirilir və bir aydan artıq davam edə bilməz. Müstəsna hallarda (məsələn, vergi ödəyicisinin apardığı maliyyə əməliyyatlarının son dərəcə çox olduqda, çoxsaylı filial və nümayəndəliklərə malik olduqda, çoxsaylı eksperti/.a və baxış aparılması zəruri olduqda, vergi ödəyicisi tərəfindən sənədlər vaxtında təqdim edilmədikdə və s.) yuxarı vergi orqanının qərarına əsasən onun müddəti üç aya qədər artırıla bilər. Səyyar vergi yoxlaması iş günü və vergi ödəyicisinin iş vaxtı ərzində apanlır.

Növbəti səyyar vergi yoxlaması keçirildikdə, ödəyicinin hüquqlarının təmin edilməsi üçün vergi orqanı tərəfindən vergi yoxlamasının başlamasından azı 15 gün əvvəl vergi ödəyicisinə yazılı bildiriş göndərilir. Bu vergi ödəyicisinə göstərilmiş müddət ərzində öz sənədlərini bir daha daxili təftiş etmək, habelə vergi yoxlaması üçün digər hazırlıq tədbirləri (yoxlayıcılar üçün yer ayırmaq, zəruri əməkdaşların olmasını təmin etmək və s) görmək imkanı verir. Bildirişdə vergi yoxlamasının əsası və tarixi, eləcə də vergi ödəyicisi və vergi orqanlarının hüquq və vəzifələri göstərilir. Növbədənkənar vergi yoxlamaları həyata keçirildikdə belə bildirişin göndərilməsi zərurəti vergi qanunvericiliyində nəzərdə tutulmamışdır.

Növbədənkənar vergi yoxlaması vergi orqanları tərəfindən aşağıdakı hallarda həyata keçirilə bilər:

^ verginin hesablanması və ödənilməsi üçün zəruri olan vergi hesabatı sənədləri müəyyən edilmiş müddətdə və bu barədə vergi orqanlannın yazılı xəbərdarlığından sonra da təqdim edilmədikdə;

> vergi yoxlamasının nəticələri üzrə tərtib edilmiş aktda dürüst olmayan və ya təhrif olunmuş məlumatlar aşkar edildikdə;

> ƏDV üzrə artıq ödənilmiş vergi, faiz və maliyyə sanksiyalarının geri qaytarılması haqqında vergi orqanlarına müraciət və ya onların sonrakı vergi öhdəliklər üzrə ödəmələr hesabına aid edildikdə. Bu halda növbədənkənar vergi yoxlaması yalnız vergi ödəyicisinin əlavə dəyər vergisinə cəlb olunan əməliyyatları üzrə apanla bilər;

> artıq ödənilmiş vergi, faiz və maliyyə sanksiyalarının qaytarılması barədə vergi ödəyicisinin ərizəsi daxil olduqda;

y vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı məlumat əsasında vergi ödəyicisinin gəlirlərinin və ya vergitutma obyektinin gizlədilməsinin (azaldılmasının) əlamətləri müəyyən edildikdə;

^ vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı məlumat əsasında vergi ödəyicisinin gəlirlərinin gizlədildiyi (azaldıldığı) aşkar edildikdə;

> ƏDV məqsədləri üçün qeydiyyatdan keçmiş vergi ödəyicisinin vergi hüquq pozuntusuna yol verməsi barədə mənbəyi bəlli olan məlumatlar olduqda;

^ cinayət-prosessual qanunvericiliyinə uyğun olaraq məhkəmə və hüquq-mühafizə orqanlannın vergi yoxlamalannın keçirilməsi barədə müvafiq qərarı olduqda;

> vergi nəzarətinin həyata keçirilməsi və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən daxil olmuş sorğuların icrası ilə bağlı zəruri olan sənədlər (onlann lazımi qaydada təsdiq edilmiş surətləri) vergi orqanınm müraciətinə əsasən 20 gün müddətində təqdim edilmədikdə və ya dürüst olmayan (təhrif olunmuş) məlumatlar təqdim edildikdə.

Səyyar vergi yoxlaması iş günü və vergi ödəyicisinin iş vaxtı həyata keçirilir. Səyyar vergi yoxlamasının apaniması qaydası Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Səyyar vergi auditi aparılarkən, onun daha dolğun və səmərəli keçirilməsi məqsədilə, vergi orqanının vəzifəli şəxslərinə bir çox audit prosedurları həyata keçirmək səlahiyyəti verilmişdir. Onlardan biri də inventarizasiyadır.

İnventarizasiya Vergilər Nazirliyinin əsaslandırılmış qərarına əsasən aşağıda göstərilən hallarda aparıla bilər:

52 vergi ödəyicisində vergi yoxlaması zamanı vergi ödəyicisi tərəfindən bilərəkdən hesabat sənədlərinin aparıİmaması aşkar edildikdə;

52 vergi ödəyicisində sonuncu vergi yoxlaması zamanı vergi ödəyicisi tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydalara uyğun olaraq hesabat sənədlərinin aparılmaması aşkar edildikdə və bununla əlaqədar vergi orqanının xəbərdarlığından sonra yol verilmiş dəqiqsizliklər aradan qaldırılmadıqda və hesabat müəyyən edilmiş qaydalara uyğun olaraq aparılmadıqda; vergi ödəyicisində səyyar vergi yoxlaması zamanı aksiz markaları ilə marka- lanmalı olan, ancaq markalanmamış mallar aşkar edildikdə;

E2 vergi ödəyicisində əmlak vergisinin hesablanmasının və ödənilməsinin düzgünlüyü yoxlanıldıqda.

Səyyar vergi yoxlaması zamanı inventarizasiyanın aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Yoxlama barədə qərar qəbul etmiş vergi orqanının əsaslandırılmış qərarına əsasən növbəti və ya növbədənkənar səyyar vergi yoxlaması aşağıda göstərilən hallarda və müddətlərdə, lakin 9 aydan çox olmamaqla dayandırılır (təxirə salınır):

♦t* vergi ödəyicisində aparılan səyyar vergi yoxlaması zamanı şəxs vergi orqanında qeydiyyatda olan ünvanlarda olmadıqda və ya şəxsin olduğu yerin müəyyən edilməsi və digər səbəblərdən tapılması mümkün olmadıqda - həmin şəxsin olduğu yer müəyyən olunana qədər;

l səyyar vergi yoxlaması aparılan vergi ödəyicisinin rəhbəri (onu əvəz edən şəxs) və ya fərdi sahibkar müvəqqəti olaraq əmək qabiliyyətini itirdikdə - əmək qabiliyyəti bərpa olunanadək;

vergi orqanının təşəbbüsü ilə mütəxəssis dəvət edildikdə və ya ekspertiza keçirildikdə - mütəxəssisin və ya ekspertin rəyi yoxlamaya təqdim edilənədək;

səyyar vergi yoxlamasının obyektiv və dolğun keçirilməsi üçün zəruri olan sənədlər, o cümlədən vergi orqanının sorğusuna cavab xarici ölkədən alındıqda - xarici ölkədən cavab alınanadək;

məcəllənin 43.11-ci maddəsi ilə müəyyən edilmiş hallarda - məhkəmənin qərarı qanuni qüvvəyə minənədək.

Səyyar vergi yoxlaması nəticələri üzrə vergi orqanının vəzifəli şəxsləri tərəfindən müəyyən edilmiş formada akt tərtib edilir. Vergi qanunvericiliyinin pozulması hallarının olub-olmamağından asılı olmayaraq aktda aşağıdakılar əks etdirilir; müəssisənin adı; yoxlamanın tarixi; yoxlanılan müəssisələrin siyahısı; yoxlamanın əhatə etdiyi dövr.

Vergi yoxlaması aktının tərtib edilməsi üçün vergi məcəlləsində konkret müddət müəyyən edilmədiyinə görə, aktın yoxlamanın nəticələrinə görə tərtib edildiyini nəzərə alsaq, onda akt vergi yoxlaması üçün müəyyən edilmiş müddətdə tərtib olunmalıdır. Vergilər Nazirliyinin əsaslandırılmış qərarına əsasən səyyar vergi yoxlamasının nəticələri üzrə aktın tərtib edilmə müddəti 30 gündən çox olmayan müddətə qədər uzadıla bilər.

Bundan başqa, *"miistasna hallarda"* vergi yoxlamasının müddəti üç aya qədər uzadıldığı hallarda təbiidir ki, vergi yoxlaması aktının tərtib olunma müddəti də həmin müddətə uzadılır.

Vergi yoxlaması aktında yoxlama zamanı aşkar edilmiş və sənədlərlə təsdiqlənmiş vergi qanunvericiliyinin pozuntusu halları və həmin pozuntulara görə məsuliyyət nəzərdə tutan AR Vergi Məcəlləsi və digər qanunların konkret maddələri, yaxud vergi qanunvericiliyinin pozuntusu hallarının olmamağı göstərilməlidir.

Aşkar edilmiş qanun pozuntusu hər bir vergi növü üzrə ayrıca qeyd olunur. Adətən yoxlayıcı aktın sonunda aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması üçün təkliflər verir və ödənilməmiş verginin ödənilmə müddətini müəyyən edir. Akt bir qayda olaraq iki nüsxədə tərtib olunur. Onun bir nüsxəsi yoxlamanı aparan vergi orqanında qalır, digəri isə aktın tərtib olunduğu tarixdən sonrakı 5 gün ərzində audit vergi yoxlamasının keçirildiyi təsərrüfat subyektinə verilir (göndərilir).

Əgər vergi ödəyicisi yoxlama aktı və ya onun hər hansı bir hissəsi ilə razılaş-madıqda, onda aktın verildiyi gündən sonra 30 gün ərzində aktı imzalamamağının səbəbini izah, yaxud akta və ya onun ayrı-ayrı hissəsinə öz etirazını yazılı surətdə bəyan edə bilər. Bu halda vergi ödəyicisi yoxlama aktına razılaşmamağının səbəblərini təsdiq edən sənədlərin surətini əlavə edərək özünün yazılı izahatını (etirazını) vergi orqanına təqdim etməlidir.

Həmin müddət bitdikdən sonra 15 gündən gec olmayaraq vergi orqanının rəhbəri (onun müavini) vergi ödəyicisindən götürülmüş (onun tərəfindən təqdim edilmiş) sənədlərə və vergi yoxlaması aktına, vergi qanunvericiliyinin pozulması hallarına, onların aradan qaldırılması və müvafiq sanksiyaların (cərimələrin) tətbiq edilməsi məsələsinə baxır.

Operativ vergi nəzarəti sahibkarlıq fəaliyyəti ilə məşğul olan təsərrüfat subyektlərinin və fərdi sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərin gəlir götürmək və əmtəə-material ehtiyatlarının saxlanması üçün istifadə etdikləri anbar, ticarət və bu qəbildən olan digər binalarında (yaşayış binaları istisna olmaqla), nəqliyyat vasitələrində (sahibkarlıq fəaliyyəti üçün istifadə edilməyən şəxsi nəqliyyat vasitələri istisna olmaqla) həyata keçirilən nəzarət formasıdır. Operativ vergi nəzarəti aşağıdakı məsələləri əhatə edir:

- qanunvericilikdə müəyyən edilmiş qaydada vergi orqanlannda uçota alınmayan və ya "Fərqlənmə nişanı" almayan vergi ödəyicilərinin aşkar edilməsi;
- aksiz markaları ilə markalanmalı olan malların markalanmadan və ya saxta aksİz markaları ilə markalanaraq satılması, satış məqsədi ilə saxlanılması, eləcə də istehsal binasının hüdudlarından kənara çıxarılması faktının aşkar edilməsi;
- əhali ilə pul hesablaşmalannın apaniması qaydalarına riayət edilməsi;
- xarici valyuta sərvətlərinin ödəniş kimi qəbul edilməsi, onların ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla alınıb-satılması və ya dəyişdirilməsi faktlarının aşkar edilməsi;
- xüsusi razılıq (lisenziya) tələb edən fəaliyyət növləri ilə belə razılıq olmadan məşğul olan şəxslərin aşkar edilməsi;

- işəgötürən tərəfdən Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) bağlamadan fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi hallarının aşkar edilməsi;
- istehsal həcminin və ya satış dövriyyəsinin müəyyənləşdirilməsi və dəqiqləşdirilməsi.

Operativ vergi nəzarətinin həyata keçirilməsi ücün əsaslar aşağıdakılardır: vergi orqanı tərəfindən keçirilən səyyar vergi yoxlaması zamanı aşkar edilmiş faktlar; vergi orqanları tərəfindən mənbəyi bəlli mənbələrdən əldə etdikləri məlumatlar;

- vergi ödəyicisi tərəfindən vergi qanunvericiliyinin pozulması hallarının aradan qaldınlması barədə vergi orqanlarının tələblərini Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə;
- vergi orqanlannın Vergi Məcəlləsinin 50.1-ci maddədə göstərilən məsələlər barədə qanunvericiliyin sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslər tərəfindən pozulması barədə kifayət qədər əsası olduqda.

Operativ vergi nəzarəti vergi orqanının əsaslandırılmış qəranna əsasən həyata keçirilir. Həmin qərarda vergi ödəyicilərinin yerləşdiyi ərazi, habelə operativ vergi nəzarəti ilə əhatə olunmalı olan məsələ (məsələlər), operativ vergi nəzarətinin müddəti və operativ vergi nəzarətini həyata keçirən vergi orqanının vəzifəli şəxsi (şəxsləri) göstərilir.

Operativ vergi nəzarəti vergi ödəyicisinə əvvəlcədən xəbərdarlıq edilmədən başlanır və vergi ödəyicilərinin faktiki iş vaxtı həyata keçirilir. Operativ vergi nəzarətini həyata keçirən vergi orqanının vəzifəli şəxsi nəzarətə başladıqdan sonra Vergi Məcəlləsinin 50.3-cü maddəsində nəzərdə tutulmuş vergi orqanının qərarını vergi ödəyicisinə dərhal təqdim etməlidir.

Operativ vergi nəzarətini həyata keçirən vergi orqanının vəzifəli şəxsləri tərəfindən Öz səlahiyyətləri çərçivəsində vergi ödəyicilərinin ərazilərinə və ya binalarına (yaşayış binaları (sahələri) istisna olmaqla) daxil olması, ərazilərinə, binalarına (yaşayış binaları (sahələri) istisna olmaqla), habelə sənədlərinə və əşyalarına baxış keçirilməsi, sənədlərin tələb edilməsi, sənədləri və nümunə kimi əşyaları götürməsi, ekspert cəlb edilməsi, mütəxəssis, tərcüməçi və müşahidəçi dəvət edilməsi və aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış malların siyahıya alınması Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

Operativ vergi nəzarətinin nəticələri üzrə vergi orqanının vəzifəli şəxsləri tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada akt tərtib edilir. Operativ vergi nəzarəti tədbirlərinin keçirilməsi zamanı Vergi Məcəlləsinin 39- 43-cü və 46-49-cu maddələrinin müddəaları tətbiq edilir.

Azərbaycan Respublikasının ərazisində nağd pul hesablaşmaları aparan vergi ödəyiciləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada nəzarət- kassa aparatları vasitəsilə belə hesablaşmalan həyata keçirirlər.

1.7. Hüquqi şəxslərin mənfəət vergisi ^

Sahibkarlıq fəaliyyəti göstərən hər bir hüquqi şəxs əldə etdiyi mənfəətdən mənfəət vergisi ödəməlidir. Mənfəət vergisinə müəssisənin kommersiya fəaliy>'əti- nin əsas məqsəd və vergilərin ödənmə mənbəyi olan mənfəət cəlb edilir. Ona görə bu verginin məbləği iqtisadi subyektlərin təsərrüfat (kommersiya) fəaliyyətinin son mali>7ə nəticələrindən birbaşa asılıdır. Dövlət bu vergi vasitəsilə iqtisadi prosesləri tənzimləməklə yanaşı, iqtisadiyyatın inkişafına daha effektiv təsir göstərə bilir.

Vergi məbləğinin təsərrüfat subyektlərinin ümumi gəlirinin həcmindən bilavasitə asılı olması dövlətə vergi dərəcələrinin tənzimlənməsi, müəyyən güzəştlərin verilməsi və ya ləğv edilməsi mexanizmi vasitəsilə iqtisadiyyatın müxtəlif sahələrində investisiya fəaliyyətini stimullaşdırmaq (məhdudlaşdırmaq) imkanı verir.

Mənfəət vergisi bazar iqtisadiyyatlı ölkələrin vergitutma praktikasında geniş tətbiq olunur və dövlətin inkişafında mühüm rol oynayır. Dövlət bu vergini tətbiq və vergi alətlrindən səmərəli istifadə etməklə iqtisadi proseslərə aktiv surətdə təsir edir. Mənfəət vergisindən müəssisələrin investisiya aktivliyinin artınimasında, kiçik biznesin inkişafında, dövlət tərəfindən müxtəlif vergi güzəştləri və vergi dərəcələri tətbiq etmək yolu ilə ölkəyə xarici kapitalın cəlb edilməsində effektif istifadə olunur.

Mənfəət vergisi eyni zamanda dövlət büdcəsinin əsas gəlir mənbəyidir. Ölkəmizin vergi sistemini əsas növlərindən biri olmaqla vergi daxilolmaları arasında öz xüsusi çəkisinə görə mənfəət vergisi birinci yer tutur.

Azərbaycan Respublikasında rezident və qeyri-rczident müəssisələr (sərbəst balansı, cari və digər hesabları olan filial və struktur bölmələri istisna olmaqla) *mənfəət vergisinin ödəyicilərid*ir.

Hüquqi şəxs yaratmadan birgə sahibkarlıq fəaliyyəti ilə məşğul olan hər hansı xarici şəxs birgə sahibkarlıq fəaliyyətinin obyekti kimi baxılmalı olmadığını sübut etməyincə vergi ödəyicisi hesab olunur.

Mənfəət vergisinin *vergitutma obyekti* müəssisənin mənfəətidir. Mənfəət - vergi ödəyicisinin bütün gəlirləri ilə (vergidən azad edilən gəlirdən başqa) Vergi Məcəlləsinin X fəslində göstərilən gəlirdən çıxılan xərcləri arasındakı fərqdən ibarətdir.

Rezident müəssisələr üçün vergitutma obyekti onların həm ölkəmizdə, həm də onun hüdudlanndan kənarda, qeyri-rezident müəssisələr üçün isə yalnız onların Azərbaycan Respublikasındakı mənbələrdən əldə etdikləri mənfəət hesab olunur.

Qeyri-rezident müəssisənin daimi nümayəndəliyilə bağlı Azərbaycan mənbəyindən əldə etdiyi ümumi gəlirinin həmin gəlirin əldə edilməsinə çəkilən xərclər çıxıldıqdan sonra qalan məbləği vergitutma obyektidir.

Azərbaycan Respublikasındakı daimi nümayəndəliklə bağlı olmayan əmlak təqdim edilməsindən gəlir əldə edən qeyri-rezident müəssisəsinin təqvim ili ərzində Azərbaycan mənbəyindən əldə etdiyi bu növ ümumi gəlirindən həmin dövrdə bu cür gəlirə aid olan məcəllədə göstərilən xərclər çıxıldıqdan sonra vergi tutulur.

Qeyri-rezident müəssisəsinin daimi nümayəndəliyi ilə bağlı olmayan ümumi gəliri xərclər çıxılmadan ödəmə mənbəyində vergiyə cəlb olunur.

Əsas vəsaitlərin (vəsaitin) yenidən qiymətləndirilməsindən yaranan artım (yenidən qiymətləndirilmə nəticəsində yaranan müsbət fərq) mənfəət vergisinin vergitutma obyekti deyildir.

Vergitutma bazası. Vergitutulan mənfəəti müəyyən etmək üçün müəssisələrin əldə etdikləri ümumi gəlirdən (vergidən azad edilən gəlirdən başqa) həmin gəlirlərin əldə edilməsi ilə bağlı gəlirdən çıxılan xərcləri çıxmaq lazımdır. Nəzərə almaq lazımdır ki, gəlirdən yalnız onun əldə edilməsi məqsədilə çəkilmiş, iqtisadi cəhətdən əsaslandırılmış və müvafiq sənədlərlə təsdiqlənmiş xərclər çıxılır. Gəlirdən Vergi Məcəlləsinin 109-cu maddəsində göstərilən xərclər istisna olmaqla gəlirlərin əldə edilməsi ilə bağlı olan bütün xərclər çıxılır.

Vergiyə cəlb olunan mənfəətin, yəni vergitutma məqsədləri üçün müvafiq surətdə korrektə edilmiş ümumi gəlir göstəricisinin güzgün müəyyən edilməsində Vergi Məcəlləsnin X fəsli mühüm rol oynayır. Belə ki, vergi ödəyicisi məcəllənin məhz bu fəslinin tələbləri nəzərə alınmaqla vergitutulan gəlirini mühasibat uçotunda istifadə etdiyi metodla hesablamalıdır.

Ümumi gəlir - məhsulların (işlərin, xidmətlərin), əsas vəsaitlərin (torpaq sahələri də daxil olmaqla), müəssisənin digər əmlakının satışından olan mənfəətdən, eləcə də satışdankənar əməliyyatlardan olan və bu əməliyyatlar üzrə xərclərin məbləği qədər azaldılmış gəlirlərdən ibarətdir.

Vergi bazası müəyyənləşdirilərkən vergiyə cəlb edilən mənfəət ilin əvvəlindən başlayaraq artan yekunla müəyyən edilir. Əgər vergi ödəyicisi hesabat dövründə təsərrüfat fəaliyyətini zərərlə başa vurarsa, onda həmin hesabat dövrünün vergitutma bazası sıfıra bərabər olacaq. Bu zaman əldə edilmiş zərər məbləği növbəti hesabat dövrünə keçir. Mövcud qanunvericiliyə uyğun olaraq müəssisə gəlirlərindən çıxılmalı olan xərclərin gəlirlərdən artıq olan hissəsi beş ilədək davam edən sonrakı hesabat dövrlərinə keçirilir və gələcək dövrlərin mənfəəti hesabına kompensasiya edilir.

Qeyd etmək lazımdır ki, müəssisələr əsas fəaliyyətdən əldə etdikləri gəlirlərdən başqa, bilavasitə istehsal və satışla bağlı olmayan qeyri-sahibkarlıq fəaliyyətindən də gəlirlər (dividendlər, iearə haqqı, pay iştirakından olan gəlir, royalti) əldə edirlər. Standart vergi vergi dərəcəsindən fərqli olan dərəcələrlə vergiyə cəlb olunan həmin gəlirlər üzrə vergi bazası müəssisələr tərəfindən aynca müəyyənləşdirilir.

Mənfəət vergisi üzrə vergi bazası müəyyən edilərkən ən mühüm şərt gəlirlərin əldə edilmə və xərclərin çəkilmə vaxtının düzgün müəyyən edilməsidir. Yəni müəssisələr özlərinin hesabat dövrü ərzində əldə etdikləri gəlir və çəkdikləri xərclərinin ayrıca uçotunu aparmalıdırlar. Bu isə vergi ödəyidlərinin üzərinə müxtəlif fəali>yət növləri üzrə gəlir və xərclərin ayrıca uçotunu aparmaq vəzifəsi qoyur.

Gəlir və xərclərin uçotu. Mənfəət vergisi üzrə vergitutma bazasının düzgün hesablanması üçün gəlir və xərclərin müvafiq hesabat dövrlərinin maliyyə nəticələrinə aid edilməsi mühüm əhəmiyyət kəsb edir. Vergi qanunvericiliyinə uyğun olaraq mənfəət vergisinin ödəyiciləri mənfəət vergisinin vergitutma bazasım hesablamaq üçün öz gəlir və xərclərinin aynca uçotunu aparmalıdır. Vergi Məcəlləsinin 130-cu maddəsinə əsasən vergi ödəyiciləri hesabat (vergi) ili ərzində eyni uçot metodunu tətbiq etmək şərti ilə gəlir və xərclərinin uçotunu kassa və ya hesablama metodu ilə apara bilərlər.

Hesablama metodu ilə vergi uçotu aparan müəssisələr (sahibkarlar) gəlirin faktiki əldə edilməsi vaxtından asılı olmayaraq, gəlir və xərclərini müvafiq olaraq gəlir almaq hüququnun əldə edildiyi və ya xərcin çəkilməsi öhdəliyinin yarandığı andan (vaxtdan) uçota alınmalıdır.

Hesablama metodu ilə uçotun mahiyyəti ondan ibarətdir ki, gəlirlər pul vəsaitlərinin, əmlakın (işlərin, xidmətlərin) və ya əmlak hüququnun faktiki daxil olub-olmamağından asılı olmayaraq, onların mövcud olduqları hesabat (vergi) dövrlərinin gəlirləri kimi hesab olunur.

Hesablama metodunda pul vəsaitlərinin faktiki ödənilməsi vaxtından asılı olmayaraq, xərclər onların aid olduqları hesabat (vergi) dövründə müəyyən edilir. Xərclər konkret icra müddəti göstərilmiş müqavilənin şərtləri, həmçinin gəlir və xərclərin bərabər ölçülərlə, proporsional formalaşdırılması prinsipi nəzərə alınmaqla, onların meydana çıxdığı hesabat (vergi) dövründə müəyyən edilir.

Kassa metodunun mahiyyəti ondan ibarətdir ki, pul vəsaitlərinin bankdakı hesaba (müəssisənin kassasına) daxil olduğu, malların (işlərin, xidmətlərin) daxil olduğu, əmlak hüququnun keçdiyi və debitor borclarının başqa üsullarla ödənildiyi gün gəlirlərin əldə olunma tarixi hesab olunur.

Qarşılıqlı hesablaşmalar zamanı vergi ödəyicisinin maliyyə öhdəliyinin ləğv edilmə və ya ödənilmə vaxtı gəlirin əldə olunma vaxtı sayılır.

Malların dəyərinin alıcılar tərəfindən ödənilməsi onlann malsatanlar qarşısındakı öhdəliklərinin (borclarının) yerinə yetirilməsi (ödənilməsi) kimi qiymətləndirilir.

Vergi uçotu məqsədləri üçün kassa metodundan istifadə edildikdə, məsrəflərin faktiki çəkildiyi vaxt xərclərin çəkilmə vaxtı hesab olunur. Başqa sözlə, müəssisələr çəkilmiş məsrəflərin dəyərini faktiki olaraq ödədikdən sonra onun xərcləri sayılır. Əgər vergi ödəyicisi pul vəsaitini ödəyirsə, onda nağd pulların ödənildiyi an, nağdsız ödəmələr zamanı isə pul vəsaitlərinin köçürülməsi haqqında ödəniş tapşırığının banka daxil olduğu tarix xərclərin çəkilmə vaxtı sayılır.

Gəlirin əldə edilməsi ilə bağlı xərclər. Vergitutulan mənfəətin müəyyən edilməsində gəlirdən çıxılan xərclərin düzgün müəyyən olunması mühüm əhəmiyyət kəsb edir. Vergi qanunvericiliyinə uyğun olaraq gəlirdən çıxılmayan xərclərdən başqa gəlirin əldə edilməsi ilə bağlı olan aşağıda göstərilən bütün xərclər, həmçinin qanunla nəzərdə tutulmuş icbari ödənişlər gəlirdən çıxılır:

- borca görə ödənilmiş faizlər və onunla bağlı olan xərclər;
- ümidsiz borclar üzrə ehtiyatın məbləği;
- sığorta, bank və kredit təşkilatlarında ehtiyat fondunun yaradılmasına edilmiş ayırmaların məbləği;
- elmi-tədqiqat, layihə axtarış və təcrübə-konstruksiya işlərinə çəkilmiş xərclərin məbləği;
- əsas vəsaitlər üzrə amortizasiya ayırmaları;
- qalıq dəyəri 500 manatdan az olan əsas vəsaitlərin dəyəri;
- təqdim (ləğv) edilmiş əsas vəsaitlərin qalıq dəyəri;
- təmirlə bağlı xərclər;
- həyat sığortası müqaviləsi üzrə sığorta ödəmələrinin məbləği;

- geoloji-kəşfiyyat və təbii ehtiyatların hasilatına hazırlıq işlərinə çəkilən xərclər üzrə hesablanmış amortizasiya məbləği; _
- qeyri-maddi aktivlər üzrə amortizaisiya məbləği;
- torpaq, mədən, əmlak və yol vergilərinin məbləği;
- istehsal təyinatlı kapital qoyuluşunun maliyyələşdirilməsinə və istifadə edilmiş bank kreditlərinin ödənilməsi üzrə çəkilmiş faktiki xərclərin məbləği;
- səhmlər üzrə alınmış divident və dövlət qiymətli kağızları üzrə faiz gəlirlərinin məbləği;
- amortizasiya olunmayan aktivlərin təqdim olunmasından əldə edilmiş pul vəsaitlərinin məbləği və onların qalıq dəyəri arasındakı fərq məbləği;
- ilin sonuna olan mənfi məzənnə fərqinin məbləği;
- investorun məhsul bölgüsü müqaviləsi üzrə aldığı mənfəət məbləği (çünki həmin mənfəət məbləği xüsusi vergi rejimi üzrə vergiyə cəlb olunur).

Verçi dərəcəsi. Mülkiyyət formasından və tabeçiliyindən asılı olmayaraq bütün müəssisə və təşkilatların mənfəətindən 20 faiz dərəcəsi ilə vergi tutulur.

Qeyd etdiyimiz kimi müəssisələr əsas fəaliyyətdən olan gəlirlərdən başqa qeyri-sahibkarlıq fəaliyyətindən passiv gəlirlər də əldə edirlər. Müəssisənin bilavasitə əsas fəaliyyəti ilə bağlı olmayan satışdänkənar əməliyyatlardan olan gəlirləri *passiv galirbr* adlanır. Daşınan və daşmmaz əmlakın icarəyə verilməsinə görə alınan icarə haqlan, intellektual mülkiyyət hüququnun verilməsindən əldə olunan gəlirlər (royalti), dividendlər, faizlər və digər bu qəbildən olan gəlirlər passiv gəlirlərə aid edilir.

Passiv gəlirlərdən vergitutma mexanizmi müəssisələrin əsas fəaliyyətdən əldə etdikləri gəlirlərinin vergiyə cəlb olunması mexanizmindən fərqlidir. Çünki satışdankənar gəlirlər heç bir xərc çıxılmadan ödəmə mənbəyində müvafiq dərəcələrlə vergiyə cəlb olunur.

Vergiyə cəlb olunan passiv gəlirlərdən ödəmə mənbəyində xərclər çıxılmadan aşağıdakı dərəcələrlə vergi tutulur:

- *dividentlərdən* - 10%. Bu verginin ödəniş mənbəyində tutulduğunu təsdiq edən sənədlər olduqda, hüquqi şəxsin həmin gəlirlərindən bir daha vergi tutulmur. Həmin gəlir yenidən divident şəklində verilərkən vergiyə cəlb olunmur;
- *faidərddn* (maliyyə lizinqi ssuda faizləri də daxil olmaqla) - 10 %. Müəssisə və təşkilatlar balans mənfəəti üzrə hesabladığı vergi məbləğini ödəmə mənbəyində ödənilmiş vergi məbləği qədər azaldır (verginin tutulduğunu təsdiq edən sənədləri təqdim etmək şərti ilə);
- *həyatın yığım sığortası üzrə* sığorta olunanın ödədiyi (onun xeyrinə ödənilən) sığorta haqlan ilə sığorta ödənişləri arasındakı fərq kimi alman gəlirdən - 10%;
- daşınan (daşınmaz) əmlaka görə *icarə haqqından* - 14 %;
- *royaltidən* - \A
- rezident müəssisənin (sahibkarın) riskin sığortasına (təkrar sığortasına) dair müqaviləyə uyğun olaraq qeyri-rezidentə ödədiyi *sığorta ödəmələri* - 4% ;
- Azərbaycan Respublikası ilə digər dövlətlər arasında beynəlxalq rabitə və daşımalar həyata keçirərkən, bu xidmətlər üçün rezident müəssisənin (sahibkarın) ödəmələri - 6%.

Qeyri-rezidentin Azərbaycan mənbəyindən əldə olunan və daimi nümayəndəliyinə aid olmayan ümumi gəlirindən ödəmə mənbəyində xərclər çıxılmadan aşağıdakı dərəcələrlə vergi tutulur:

- dividend - 10%;
- faizlər - 10%;
- rezident müəssisənin (sahibkarın) riskin sığortasına (təkrar sığortasına) dair müqaviləyə uyğun olaraq sığorta ödəmələri - 4%;
- Azərbaycan Respublikası ilə digər dövlətlər arasında beynəlxalq rabitə (daşımalar) həyata keçirilərkən rabitə (nəqliyyat) xidmətləri üçün rezident müəssisəsinin (sahibkarın) ödəmələri ~ 6 %;
- rezident müəssisəsinin (sahibkarın) aşağıdakı ödəmələrindən:
  muzdlu işlə əlaqədar alınan gəlirlər istisna olmaqla, işlərin görülməsindən və ya xidmətlərin göstərilməsindən əldə edilən gəlirlər - 10 faiz; icarə haqları və royalti - 14 faiz

Qeyri-rezidentin daimi nümayəndəliyindən mənfəət vergisindən əlavə onun xalis mənfəətdən həmin qeyri-rezidentə köçürdüyü (verdiyi) hər hansı məbləğdən 10% dərəcəsi ilə vergi tutulur.

Vergi güzəşti və azadolmalar. Vergi qanunvericiliyinə uyğun olaraq aşağıdakı təşkilatların gəlirləri mənfəət vergisindən azaddır:

- xeyriyyə təşkilatlarının gəliri (sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirdən başqa);
- qeyri-kommersiya təşkilatlarının aldıqları əvəzsiz köçürmələr, üzvlük haqları və ianələr;
- beynəlxalq, dövlətlər və hökumətlərarası təşkilatların gəlirləri (sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirdən başqa);
- dövlət hakimiyyəti orqanları, büdcə təşkilatlan və yerli özünüidarəetmə orqanlarının gəlirləri (sahibkarlıq fəaliyyətindən gəlir istisna olmaqla);
- Azərbaycan Respublikasının Mərkəzi Bankı və onun qurumlarının, Dövlət Neft Fondunun, habelə Əmanətlərin Sığortalanması Fondunun gəlirləri;
- alınmış sığorta ödənişləri (həmin sığorta hadisəsi ilə əlaqədar zərərə aid edilən məbləğlərdən başqa);
- sağlamlıq imkanları məhdud şəxslərin təhsil alması üçün yaradılmış xüsusi təhsil müəssisələrinin gəliri (sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirdən başqa);
- Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq dövlət büdcəsinə olan vergi borclarının silinməsindən əldə olunan gəlir;
- müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş hallarda hüquqi şəxsin qərarı ilə onun özünün və onun tam mülkiyyətində olan rezident törəmə müəssisələrinin birinin balansından digərinin balansına əvəzsiz olaraq verilən aktivlərin dəyəri;
- müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən bir hüquqi şəxsin balansından əvəzsiz olaraq digər şəxsin balansına verilmiş əsas vəsaitlərin dəyəri;
- neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü, ixrac boru kəmərləri haqqında və bu qəbildən olan digər sazişlərə uyğun olaraq əsas

fondlann, daşınan əmlakın və digər aktivlərin hər hansı şəkildə həmin sazişlərdə Azərbaycan Respublikasını təmsil edən tərəfə təqdim edilməsi üzrə əməliyyatlar;

- müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye və texnologiyalar parkının idarəedici təşkilatının və ya operatorunun mənfəətinin sənaye və texnologiyalar parkının infrastrukturunun tikintisinə və saxlanılmasına yönəldilmiş hissəsi;
- müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye və texnologiyalar parkının rezidenti olan hüquqi şəxslərin sənaye və texnologiyalar parkındakı fəaliyyətdən əldə etdikləri gəlir - qanunvericiliyə uyğun olaraq sənaye və texnologiyalar parkında qeydiyyata alındıqları hesabat ilindən başlayaraq - 7 il müddətinə.

Əlillərin ictimai təşkilatlarına məxsus olan işçilərinin ümumi sayının azı 50 faizi əlillərdən ibarət olan istehsal müəssisələrinin mənfəət vergisinin dərəcəsi 50 faiz azaldılır. Bu güzəştlərin alınması hüququ müəyyən edilərkən işçilərin orta siyahı sayına əvəzçilik, podrat müqavilələri və mülki-hüquqi xarakterli digər müqavilələr üzrə işləyən əlillər daxil edilmir.

Verginin hesablanması və ödənilməsi. Təsərrüfat subyektləri vergi məbləğini mühasibat uçotu və hesabatının məlumatlanna əsasən müstəqil olaraq hesablayırlar. Mənfəət vergisi üçün hesabat dövrü təqvim ili olmasına baxmayaraq Vergi Məcəlləsində vergi ödəyiciləri tərəfindən hər rüb üçün cari (avans) vergi ödəmələrinin apanimması nəzərdə tutulmuşdur. Cari vergi ödəmələri təqvim ili üçün vergi ödəyicisindən tutulan vergi məbləğinə aid edilir. Avans vergi ödəmələri iki üsulla hesablanılır.

Birinci üsula əsasən hüquqi şəxslər vergi qanunvericiliyinə uyğun olaraq rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq dövlət büdcəsinə cari vergi ödəmələri köçürməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisələr mənfəət vergisini yerli büdcəyə ödəyirlər. Vergi Məcəlləsinə əsasən avans (cari) vergi ödəmələrinin məbləği əvvəlki hesabat ilində ödənilmiş vergi məbləğinin 25 faizini təşkil edir.

İkinci metodun tətbiqi zamanı, müəssisələr avans vergi ödəmələrinin məbləğini özünün cari hesabat rübündə əldə etdiyi faktiki gəlirinin (gəlirdən çıxılan xərclər nəzərə alınmadan) həcmini verginin keçən ilin ümumi gəlirindəki xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edirlər.

Onu da qeyd etmək lazımdır ki, vergi ödəyicisi hesabat ili ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün yuxanda gösterilən iki mümkün metoddan yalnız birini seçməli və hər il aprel ayının 15-dək bu barədə uçota alındığı vergi orqanma məlumat verməlidir. Vergi ödəyicisi ikinci metodu tətbiq etdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində əldə etdiyi mənfəətdən (gəlirdən) hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir. Əks halda vergi orqanı birinci metodu tətbiq etməklə vergini özü hesablayır. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi hallarda, həmçinin vergi orqanları birinci metodu tətbiq edirlər.

Əvvəllər fəaliyyəti olmayan hüquqi şəxslər tərəfindən cari vergi ödəmələri aşağıda gösterilən qaydada həyata keçirilir. Mənfəət vergisi üzrə cari vergi ödəmələri təqvim ili ərzində rüblər üzrə artan yekunla müvafiq vergi dərəcəsinə əsasən hesablanılır.

ƏvvəDər fəaliyyəti olmayan vergi ödəyiciləri rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələri aparmalı və rüb ərzində cari vergi ödəmələrinin məbləği barədə müvafiq vergi orqanına arayış təqdim etməlidirlər.

Cari vergi ödəmələri vaxtında ödənilmədiyi hallarda, vergi ödəyicisindən ödəmə müddətindən sonrakı hər bir təqvim günü üçün ödənilməmiş vergi məbləğinin 0,1 faizi tutulur. Əgər cari vergi ödəmələrinin vaxtında ödənilməməsi faktı vergi yoxlaması zamanı aşkar edilərsə, onda cari vergi ödəmələrinə münasibətdə faiz yalnız bir il müddətinə tətbiq edilir.

Müəssisələr ilin sonunda vergi ili üçün bəyannamənin verilməsi üçün müəyyən edilmiş vaxtadək faktiki əldə etdikləri mənfəət üzrə son hesablamanı apararaq mənfəət vergini hesablayırlar. Əgər cari vergi ili ərzində hesablanmış və dövlət (bələdiyyə) büdcəsinə köçürülmüş avans vergi ödəmələrinin məbləği faktiki mənfəət üzrə hesablanmış vergi məbləğindən az olarsa, onda yaranmış mənfi fərq büdcəyə köçürülür. Dövlət büdcəsinə köçürülmüş avans vergi ödəmələrinin məbləği hesabat üzrə vergi məbləğindən çox olduqda isə artıq hesablanmış vergi məbləği növbəti vergi ilinin cari vergi ödəmələri kimi uçota alınır və ya vergi ödəyicisinin vergi orqanına verdiyi yazılı ərizəsinə əsasən 45 gün ərzində ona qaytarılır.

Ödəmələrin büdcəyə tam və vaxtmda daxil olmasmı təmin etmək məqsədilə müəssisələr mənfəət vergisinin ödəniş müddəti çatanadək, vergi ödəmələrinin büdcəyə köçürülməsi üçün tərtib etdikləri ödəniş tapşınqlarmı hər rübdən sonrakı ayın 15-dən gec olmayaraq müvəkkil banka təqdim edirlər. Ödəniş tapşınqlan bank tərəfindən təxirə salınmadan həmin gün icra olunmalıdır. Ödəniş tapşınğı vergi ödəyicisinin hesablaşma hesabında pul vəsaitlərinin olub-olmamağından asılı olmayaraq icra üçün qəbul olunmalıdır.

Hüquqi şəxslər hesabat ilindən sonrakı təqvim ilinin mart ayınm 31- dən gec olmayaraq vergi orqanına bəyannamə verməlidir. Əgər vergi ödəyicisi Azərbaycan Respublikasında öz sahibkarlıq fəaliyyətini dayandırarsa, onda 30 gün müddətində vergi orqanına bəyannamə verməlidir.

Bütün dünya ölkələrində fiziki şəxslərdən tutulan gəlir vergisi əhali tərəfindən ödənilən vergilər arasında mühüm yer tutur. Çünki bu vergi növünün əsas üstünlüyü ondadır ki, ölkənin bütün əmək qabiliyyətli əhalisi gəlir vergisinin ödəyici- sidir. Digər vergilərə nisbətən bu verginin hesablanması və tutulmasına vergi orqanları tərəfindən nəzarət edilməsi daha asandır və ondan yayınmaq olduqca çətindir.

Gəlir vergisinin səciyyəvi xüsusiyyətlərindən biri verginin bir vergi ödəyicisi əvəzinə başqası tərəfindən ödənilməsinin yolverilməzliyidir. Yəni bu vergi ödəyicisinin şəxsi gəlirlərinə görə hesablanır və həmin gəlir hesabma ödənilir. Mülkiyyət formasmdan asılı olmayaraq müəssisə və təşkilatlar gəlir vergisini öz vəsaitləri hesabına ödəyə bilməz.

Hesabat dövründə vergiyə cəlb edilən, gəlir əldə edən rezident və qeyri-rezi- dent fiziki şəxslər *g^lir vergisinin ödəyidləridir.* Gəlir vergisinin Ödəyiciləri üç kateqoriyaya ayrılır: muzdlu işdən gəlir əldə edən şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslər (fərdi sahibkarlar).

Rezident fiziki şəxslərin Azərbaycan Respublikasında və onun hüdudlarından kənarda, qeyri-rezident fiziki şəxslərin isə yalnız Azərbaycan Respublikasındakı



Şəkil 1. Mənfəət vergisinin formalaşması sxemi

1.8. Fiziki şəxslərin gəlir vergisi

Muzdlu işdən gəlir əldə edən şəxslərin gəlirləri üzrə vergitutma obyekti onların vergiyə cəlb olunan aylıq gəlirləridir.

Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərin gəlirləri üzrə vergitutma obyekti, onların vergi ili ərzində əldə etdikləri gəliri ilə gəlirdən çıxılan xərcləri arasındakı fərqdən ibarətdir.

Azərbaycan Respublikasında daimi nümayəndəlik vasitəsilə fəaliyyət göstərən qeyri-rezidentlərin daimi nümayəndəliyi ilə əlaqədar olan vergiyə cəlb olunan gəlirləri vergitutma obyektidir.

Qeyri-rezidentlərin *vergiyə cəlb olunan gəliri* - konkret dövrdə Azərbaycan mənbələrindən daimi nümayəndəliklə bağlı əldə edilən ümumi gəlirlə, həmin dövrdə bu gəlirlərin əldə edilməsi ilə əlaqədar çəkilən gəlirdən çıxılan xərclər arasındakı məbləğ fərqidir. Qeyri-rezidentin daimi nümayəndəliyinə aid olmayan ümumi gəliri, gəlirdən çıxılan məbləğ nəzərə alınmadan ödəniş yerində vergitutma obyektidir.

Məşğulluqdan və ya əmlakın təqdim edilməsindən gəlir əldə edən qeyri-rezident fiziki şəxsin Azərbaycan mənbəyindən təqvim ili ərzində əldə etdiyi bu növ ümumi gəlirinin, həmin dövrdə gəlirdən çıxılan xərclər qədər azaldılan məbləği vergitutma obyektidir.

Vergitutma bazası müəyyənləşdirilərkən vergi ödəyicisinin istər pul, istənsə də natural formada aldığı bütün gəlirlər nəzərə alınır. Bundan başqa, vergitutma bazasına vergi ödəyicisinin malik olduğu sərəncam hüququ və maddi fayda şəklində olan gəlirləri də daxil edilir. Vergitutma bazası müxtəlif dərəcələrlə vergiyə cəlb olunan hər bir gəlir növü üzrə ayrıca müəyyən edilir.

Vergi qanunvericiliyinə əsəsən fiziki şəxslərin natural formada əldə etdikləri gəlirlərinə aşağıdakılar aid edilir: vergi ödəyicisinin xeyrinə iş və xidmətlərin (ka- munal xidmətlər də daxil olmaqla), qidanın, istirahət və təhsilin dəyərinin ödənişi. Fiziki şəxsin əvəzsiz olaraq aldığı mallar və onun xeyrinə yerinə yetirilmiş işlərin dəyəri həmçinin bu kateqoriyadan olan gəlirlərə daxil edilir.

Fiziki şəxslərin 14-25% dərəcələri ilə vergiyə cəlb edilən gəlirlərə münasibətdə vergitutma bazası vergi çıxılmalarının məbləği qədər azaldılmış gəlirlərdən ibarətdir. Əgər vergi çıxılmalarının məbləği vergiyə cəlb olunan gəlirlərdən çox olarsa, onda həmin dövrdə vergi bazası sıfra bərabər olur və yaranmış mənfi fərq sonrakı vergi dövrlərinə keçirilir.

Vergi ödəyicisinin dividend, faiz, icarə haqqı və royalti kimi gəlirlərindən ödəmə mənbəyində fərqli dərəcələrlə vergi tutulduğu üçün həmin gəlirlər onun ver- gitutulan gəlirlərindən çıxılır.

Fiziki şəxslərin əldə etdikləri qəlirlər aşağıdakı kimi təsnifləşdirilir:

> muzdlu işlə əlaqədar əldə edilən gəlir;
> muzdlu işə aid olmayan fəaliyyətdən əldə edilən gəlir;
y vergilərdən azad edilən və əsas vəsaitlərin (vəsaitin) yenidən qiymətləndirilməsindən yaranan artımdan başqa bütün digər gəlirlər.

Fiziki şəxsin **muzdlu işlə əlaqədar alınan gəlirlərinə** aiddir: əmək haqqı, bu işdən alınan hər hansı ödəmə, fayda, o cümlədən əvvəlki iş yerindən, yaxud gələcək muzdlu işdən alınan gəlirlər. ^

Fiziki şəxslərin muzdlu işlə əlaqədar aldıqları aşağıdakı gəlirləri, həmçinin vergitutulan gəlirlərə aid edilir:

- ❖ *fiziki şəxsə banklararası kredit hərracında olan faiz dərəcəsindən aşağı faiz dərəcəsi ilə ssuda verildiyi halda* - bu tipli ssudalar üzrə banklararası kredit hərracında olan faiz dərəcəsinə uyğun faizlə ödənməli olan məbləğlə aşağı faiz dərəcəsinə uyğun ödənməli ol^n məbləğ arasındakı fərq;
- ❖ *işəgötürənin öz işçisinə mal, iş və xidmət təqdim etdiyi, yaxud hədiyyə verdiyi halda* - bu cür mal, iş və xidmətlərin bazar qiyməti ilə dəyəri;
- ❖ *işçinin xərclərinin əvəzi ödənildiyi halda* - ödənən vəsaitin məbləği;
- ❖ *işçinin işəgötürənə olan borcunun və ya öhdəliyinin bağışlanıldığı halda* - həmin borcun və ya öhdəliyin məbləği;
- ❖ *işəgötürən tərəfindən ödənilən sığorta haqları;*
- <♦ *hər hansı digər halda* - normativ-hüquqi aktlarda başqa qiymətləndirmə metodu göstərilmirsə. Vergi Məcəlləsinin 14-cü maddəsinə uyğun olaraq müəyyən edilən dəyər.

Yuxarıda göstərilən məbləğlərə aksizlər, əlavə dəyər vergisi və qiymətləndirilən əqdiə əlaqədar işəgötürənin ödəməli olduğu hər hansı digər vergi daxildir.

Qeyd etmək lazımdır ki. Nazirlər Kabinetinin təsdiq etdiyi normalar həddində işçilərə ödənilən faktiki ezamiyyə xərcləri, habelə dəniz nəqliyyatında ezamiyyə xərcləri əvəzinə üzücü heyətin üzvlərinə verilən sutkalıq ödənişlər və digər işgüzar xərclər gəlirə daxil deyildir.

Muzdlu işə aid olmayan fəaliyyətdən olan gəlirlər iki qrupa ayrılır: sahibkarlıq və qeyri-sahibkarlıq fəaliyyətindən gəlirlərdən ibarətdir.

Sahibkarlıq fəaliyyətindən gəlirə aşağıdakılar aiddir:

- > sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunan aktivlərin təqdim edilməsindən olan gəlir;
- > sahibkarlıq fəaliyyətinin məhdudlaşdınimasına və ya müəssisənin bağlanmasına razılıq verilməsinə görə alınan gəlir;
- ^ əsas vəsaitlərin təqdim edilməsindən alınan gəlir;
- > gəlirdən çıxılan kompensasiya edilən məbləğlərin (ehtiyatların) azalmasından olan gəlir.

Qeyri-sahibkarlıq fəaliyyətindən gəlirlərə aiddir:

- ■ faiz gəliri;
- ■ dividend;
- ■ əmlakın icarəyə verilməsindən gəlir;
- ■ royalti;
- ■ vergi ödəyicisinə bağışlanmış borcun məbləği (işçinin işəgötürənə olan borc və ya öhdəliyinin bağışlanıldığı hallar istisna olmaqla);
- ■ sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunmayan aktivlərin təqdim edilməsindən olan gəlir;

- təqvim ili ərzində alınan hədiyyə və miraslah'n məbləği (işəgötürənin öz işçisinə mal, iş və xidmət formasında təqdim etdiyi hədiyyələr istisna olmaqla);
- vergi ödəyicisinin aktivlərinin ilkin qiymətinin artdığını göstərən hər hansı digər gəlir (təqdim olunduğu və ya vergitutma məqsədləri üçün amortizasiya hesablandığı təqdirdə) - əmək haqqından başqa.
- həyatın yığım sığortası üzrə sığorta olunanın ödədiyi və ya onun xeyrinə ödənilən sığorta haqları ilə sığorta ödənişləri arasındakı fərq;
- xüsusi notarius tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlar;
- vəkillik fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən bu fəaliyyətlə bağlı göstərilən xidmətə görə alınan haqq.

Qeyd etdiyimiz kimi gəlir vergisinin ödəyiciləri üç kateqoriyaya aynlır: muzdlu işdən gəlir əldə edən fiziki şəxslər, qeyri-sahibkarliq fəaliyyəti göstərən fiziki şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslər (fərdi sahibkarlar).

Muzdlu işdən gəlir əldə edən fiziki şəxslərin muzdlu işdən əldə etdikləri gəlirlərindən heç bir xərc çıxılmadan hər ay ödəmə mənbəyində 1 saylı cədvəldə göstərilən dərəcələrlə vergi tutulur.

Cədvəl 1

Aylıq gəlirdən tutulan vergi dərəcələri

Vergi tutulan aylıq gəlirin məbləği	**Vergi dərəcəsi**
2500 manatadək	14%
2500 manatdan çox olduqda	350 manat +2500 manatdan çox olan məbləğin 25 faizi

Qeyri-sahibkarliq fəaliyyəti göstərən fiziki şəxslərin illik gəlirlərindən 2 saylı cədvəldə göstərilən dərəcələrlə vergi tutulur.

Cədvəl 2

Qeyri-sahibkarlıq fəaliyyəti üzrə illik gəlirdən aşağıdakı dərəcələrlə vergi tutulur

Vergi tutulan illik gəlirin məbləği	**Vergi dərəcəsi**
30000 manatadək	14%
30000 manatdan çox olduqda	4200 manat + 30000 manatdan çox olan məbləğin 25 faizi

Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərin vergiyə cəlb edilən gəlirlərindən 20 faiz dərəcə ilə vergi tutulur.

Xüsusi notarius üçün məcəllənin 96.1-ci maddəsinin ikinci bəndi ilə müəyyən edilmiş vergitutma obyektindən 10 faiz dərəcə ilə vergi tutulur.

Gəlirlərin təsnifatında qeyd etdiyimiz kimi fiziki şəxslərin əldə etdikləri gəlir növlərindən biri də onların qeyri-sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirlərdir. Fiziki şəxslərin *qeyri-sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlir növləri* və onlara tətbiq edilən vergi dərəcələri aşağıdakı kimidir:

- dividend - 10% ;
- rezident və qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən (onun adından) ödənilən faizlərə - 10%;
- həyatın yığım sığortası üzrə sığorta olunanın ödədiyi (onun xeyrinə ödənilən) sığorta haqları ilə sığorta ödənişləri arasındakı fərq kimi alınan gəlir- 10% ;
- daşman (daşınmaz) əmlaka görə icarə haqqı, həmçinin rezident və ya qeyri-rezidentin Azərbaycandakı daimi nümayəndəliyinin ödədiyi royalti - 14% ;
- rezident müəssisənin (sahibkarın) riskin sığortasına (təkrar sığortasına) dair müqaviləyə uyğun olaraq sığorta ödəmələri - 4%;
- Azərbaycan Respublikası ilə digər dövlətlər arasında beynəlxalq rabitə və daşımalar həyata keçirərkən bu xidmətlər üçün rezident müəssisənin (sahibkarın) ödəmələri - 6%.

İcarə haqqı vergi ödəyicisi kimi uçota alınmayan fərdi sahibkar tərəfindən ödənildikdə, vergini icarəyə verən özü ödəyir və o vergi uçotuna alınaraq vergi orqanlarına bəyannamə verməlidir.

Əgər dividend, faiz, icarə haqqı və royaltidən gəlir əldə edən fiziki şəxslərdən ödəmə mənbəyində vergi tutulmuşdursa (onun tərəfindən ödənilmişdirsə), onda həmin gəlirlərdən bir daha vergi tutulmur.

Vergi güzəştləri və **azadolmalar.** Azadolma formasında verilmiş vergi güzəşti gəlirlərin vergidən tam azad edilməsini nəzərdə tutur. Bu güzəşt növü bilavasitə vergitutma obyektinə təsir etməklə vergi ödəyicisinin ümumi gəlirini azaldır. Vergi Məcəlləsinə əsasən fiziki şəxslərin aşağıdakı gəlirləri vergidən azad edilir:

♦t* rotasiya qaydasında xaricə ezamiyyətə göndərilən diplomatik xidmət əməkdaşlannın (orqanlarının) inzibati-lexniki xidmətini həyata keçirən şəxslərin xarici ölkədə aldığı əmək haqqı, ölkə vətəndaşı olmayan diplomatik və ya konsulluq əməkdaşının rəsmi məşğuliyyətindən əldə etdiyi gəlir;

♦t* qeyri-rezident işəgötürən tərəfindən (onun adından) Azərbaycan vətəndaşı olmayan fiziki şəxsə iş yeri üzrə ödənilən gəlir (qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən ödənilmiş gəlirlər istisna olmaqla); təqvim ili ərzində ailə üz\'ləri tərəfindən alınmış hədiyyə, maddi yardım və miraslar;
dövlət müavinətləri, əvəzsiz dövlət köçürmələri, dövlət pensiyaları, dövlət təqaüdləri, işçilərin sayının (ştatların) ixtisar edilməsi ilə əlaqədar olaraq əmək müqaviləsinə xitam verilməsi ilə əlaqədar İşçilərə ödənilən kompensasiyalar, habelə ölkə Prezidentinin qərarına əsasən dövlət büdcəsinin vəsaiti hesabına verilən fərdi birdəfəlik ödəmələr və ya maddi yardımlar (əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə ödənilən müavinətlər istisna olmaqla);

♦t^alimentlər;

♦t* qiymətli daşlardan və metallardan (onların məmulatlarından), incəsənət əsərlərindən, əntiq əşyalardan, daşınan maddi əmlakdan (sahibkarlıq fəaliyyətində istifadə edilən və ya edilmiş əmlakdan başqa);

♦♦♦vergi ödəyicisinin azı üç il ərzində əsas yaşayış yeri olduğu daşınmaz əmlakının təqdim edilməsindən olan gəlir;

bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalından olan gəlir;

♦!♦ sənətkarlığın misgərlik, qalayçılıq, saxsı məmulatlarının, bağçılıq-bostançı- lıq və xalq musiqi alətlərinin, oyuncaqların, suvenirlərin, qamışdan və qarğıdan məişət əşyalarının düzəldilməsi, keramika məmulatlarının bədii işlənməsi, bədii tikmə, ağac məmulatlarından məişət alətlərinin hazırlanması sahəsində fəaliyyət göstərən fiziki şəxslərin gəlirləri;

♦> müvafiq qaydada Qiymətli Kağızlar üzrə Dövlət Komitəsində qeydiyyatdan keçmiş lotereyalardan, habelə dövlət daxili istiqrazlardan əldə olunan uduşların dəyəri;

♦t^ fiziki şəxslərə verilən kompensasiya xarakterli ödənişlər;

♦t^ yarışlarda və müsabiqələrdə əşya şəklində alınan mükafatların tam dəyəri;

*K** dövlət qulluqçusuna pensiya yaşına çatmasına görə könüllü işdən çıxması ilə əlaqədar verilən birdəfəlik haqq.

Fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) hər hansı muzdlu işlə əlaqədar əldə edilən aylıq gəliri 250 manatadək olduqda, *əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumunun 1 misli (136 manat),* illik gəliri 3000 manatadək olduqda, *əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumunun 12 misli (1632)* məbləğində olan hissəsi vergidən azad edilir.

Bundan başqa, fiziki şəxslərə verilmiş hədiyyələrin, təhsil və müalicə haqqını ödəmək üçün verilmiş maddi yardımın 1000 manatı, xaricdə müalicə haqqını ödəmək üçün verilmiş maddi yardımın 2000 manatı, mirasların dəyərinin 20 000 nianatadək olan hissəsi vergidən azad edilir. Təhsil və müalicə haqqı almış şəxslərə bu güzəşt o halda verilir ki, həmin məbləğlərin təyinatı üzrə ödənildiyini təsdiq edən müvafiq sənədlər təqdim edilmiş olsun.

Fiziki şəxslər tərəfindən beynəlxalq yarış və müsabiqələrdə pul şəklində alınan mükafatların dəyəri 4000 manatadək, şəhər və rayon müsabiqələrində (yarışlarında) alınan mükafatların dəyəri isə 200 manatadək gəlir vergisindən azad edilir.

Aşağıdakı fiziki şəxslərin hər hansı muzdlu işdən əldə etdiyi vergi tutulan aylıq gəliri 400 manat məbləğində azaldılır:

- Azərbaycan Respublikası Milli Qəhrəmanlarının;
- Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanlarının;
- Şöhrət ordeninin hər üç dərəcəsi ilə təltif edilmiş şəxslərin;
- müharibə əlillərinin;
- •' həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadlannm (ərlərinin);
- 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallar ilə təltif edilmiş şəxslərin;
- qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslərin;

• Çemobıl AES-da qəza, mülki və ya hərbi təyinatlı atom obyektlərində digər radiasiya qəzaları nəticəsində, habelə nüvə qurğularının hər hansı növü, o cümlədən nüvə silahı və kosmik texnika ilə bağlı olan sınaqlar, təlimlər və başqa işlər nəticəsində şüa xəstəliyinə (şüa yükü ilə əlaqədar xəstəliyə) tutulmuş (xəstəlikləri keçirmiş) şəxslərin.

Əlillərin (müharibə əlillərindən başqa) hər hansı muzdlu işdən vergi tutulan aylıq gəliri 200 manat məbləğində azaldılır.

Aşağıdakı fiziki şəxslərin hər hansı muzdlu işdən vergi tutulan aylıq gəliri 100 manat məbləğində azaldılır:

- həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin valideynləri, habelə vəzifələrinin icrası zamanı həlak olmuş dövlət qulluqçularının valideynləri və arvadları (ərləri). Bu şəxslərin arvadlarına (ərlərinə) güzəşt o halda verilir ki, onlar təkrar nigaha girmiş olmasınlar;
- 1990-cı il yanvarın 20-də SSRİ qoşunlarının müdaxiləsi nəticəsində, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi zamanı həlak olmuş şəxslərin valideynləri və arvadları (ərləri). Bu şəxslərin arvadlarına (ərlərinə) güzəşt **o** halda verilir ki, onlar təkrar nigaha girmiş olmasınlar;
- Əfqanıstana və döyüş əməliyyatı aparılan digər bölmələrə göndərilmiş hərbi qulluqçuların və təlim-toplama yoxianışlarına çağırılmış hərbi vəzifəlilər;
- daimi qulluq tələb edən uşaqlara və ya birinci qrup əlilə baxan və onunla birlikdə yaşayan valideynlərdən biri (özlərinin istəyi ilə), arvad (ər), himayəçi və ya qəyyum;
- məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər. Bu güzəşt mənzil qanunvericiliyinə və ya mülki-hüquqi müqavilələrə əsasən ayrıca mənzil sahəsi əldə edilməsi nəticəsində daimi məskunlaşmış şəxslərə şamİl edilmir. Qohumluq dərəcəsindən asılı olmayaraq himayəsində azı üç nəfər (o cümlədən gündüz təhsil alan 23 yaşınadək şagird və tələbələr) olan ər və ya arvadın birinin vergi tutulan aylıq gəliri 50 manat məbləğində azaldılır. Fiziki şəxslərin vergi tutulan gəliri uşağın doğulduğu və himayədə olanın himayəyə götürüldüyü aydan başlayaraq azaldılır. Bu qayda uşaqların 18 yaşa, tələbə və şagirdlərin isə 23 yaşa çatdığı, uşaqların və himayəçilərin öldüyü hallarda isə onların öldüyü ilin sonunadək saxlanılır.

Himayədə olanların sayı il ərzində azaldıqda (uşaqların ölüm halı istisna olmaqla), himayədə olanların sayının azaldığı aydan sonrakı təqvim ayından başlayaraq onların saxlanması üçün məbləğin çıxı İmasına xitam verilir.

Qeyd etmək lazımdu- ki, əgər vergi ödəyicisinə bir neçə maddə üzrə vergi güzəşti hüququ verilirsə, onda ona bu güzəştlərdən yalnız biri (məbləğcə ən böyük olanı) verilir.

Fiziki şəxs sadalanan vergi güzəştləri hüququnu Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilmiş sənədlərin təsdiq edildiyi andan əldə edir və yalnız onun əmək kitabçasının olduğu əsas iş yerində təqdim edilir.

Vergitutma praktikasında vergi tutulan gəlirin və vergi məbləğinin müəyyən edilməsinin iki əsas forması tətbiq olunur: uçot və bəyannamə. Hər bir metodun özünəməxsus sənəd dövriyyəsi, ödənilmə müddəti, hesablanma xüsusiyyətləri və öz icraçılan var.

Uçot metodu verginin gəlirin ödənilmə mənbəyində tutulması deməkdir. Ver-

mülki-hüquqi müqavilələr üzrə əldə edilən gəlirlərddri vergilərin hesablanması zamanı tətbiq olunur. Verginin hesablanması və büdcəyə köçürülməsi üzrə bütün hərəkətləri mühasibin timsalında işəgötürən (gəlirlərin ödənmə mənbəyi) həyata keçirir.

Əsas iş yeri üzrə çalışan işçilərin bütün gəlirlərindən gəlir vergisi ödəmə mənbəyində tutulur. Gəlir vergisinin vergi agentləri funksiyasını müəssisə və təşkilatlann mühasibat- lığı (sahibkarlar) yerinə yetirir. Vergi hər ayın sonunda fiziki şəxslərin ümumi gəlirindən hesablanaraq tutulur. Aylıq gəlirdən 1 saylı cədvəldə göstərilən dərəcələrlə vergi tutulur.

İşçi məzuniyyətə gedərkən mühasibatlıq tərəfindən gəlir vergisi onun keçən ay-dakı əmək haqqından və məzuniyyət günlərinin şamil edildiyi tam ay üçün hesablanmış gəlirlərindən tutulur. Tam olmayan və növbəti təqvim ayına düşən məzuniyyət haqqı məbləğindən vergi yalnız həmin işçi məzuniyyətdən qayıtdıqdan sonra tutulur.

Müəssisənin işçiləri işdən çıxan zaman gəlir vergisi keçən ayın və işdən çıxdığı ayın əmək haqqları üzrə ayrılıqda tutulur. Verqi ganunvericiliyinə uyğun olaraq əmək qanunvericiliyinə əsasən işçilər işdən çıxarkən onlara faktiki işlənmiş dövr üçün istifadə edilməmiş məzuniyyət günlərinə görə verilən kompensasiya məbləği vergi tutulan gəlirlərin tərkibinə daxil edilir.

Əgər işdən çıxan işçiyə bir neçə təqvim ili üçün istifadə olunmamış məzuniyyət günlərinə görə kompensasiya ödənilərsə, onda gəlir vergisi cari il də daxil olmaqla müvafiq illərə düşən məzuniyyət məbləğləri üzrə aynca tutulur.

Müəssisə ləğv edilərkən işçilərin aldığı gəlirin bütün məbləği (həmin müəssisənin əmlakının satılmasından əldə edilmiş vəsait hesabına işçilərə verilmiş əlavə gəlir məbləği də daxil olmaqla) aylara bölünmədən həmin gəlirin ödənildiyi ayın digər gəlirləri ilə toplanaraq vergiyə cəlb edilir.

Bu metod üzrə əsas vergi hesabatı sənədləri bunlardır: vergi kartoçkası; gəlirlərdən və əmək haqqından tutulan vergi məbləğləri haqqında məlumat (gəlirlər haqqında arayış); yekun gəlir məbləği haqqında hesabat; il ərzində gəlirlər haqqın- də məlumatlın reyestri.

Vətəndaşlara muzdlu işlə əlaqədar gəlir ödəyən təsərrüfat subyektləri və sahibkarlar gəlir əldə edən işçilərin tələbi ilə onlara, özündə həmin işçinin vergi ödə-yicisinin eyniləşdirmə nömrəsini, gəlirin növünü və məbləğini, tutulmuş vergi məbləğini əks etdirən arayış verməyə borcludurlar. Bununla yanaşı, müəssisələr vergi ili başa çatdıqdan sonra 20 gün ərzində vergi orqanına özündə vergi ödəyicisinin adını, atasının adını və soyadını, vergi ödəyicisinin eyniləşdirmə nömrəsini, onun yaşadığı ünvanı, gəlirin ümumi məbləğini, təqvim ili ərzində tutulmuş verginin ümumi məbləğini əks etdirən arayış təqdim etməlidirlər.

Bəyannamə metodu hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərdən (fərdi sahibkarlardan) gəlir vergisinin tutulması üçün nəzərdə tutulmuşdur. Sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslər tərəfindən gəlir vergisinin ödənilməsi qaydası, ödəmə mənbəyində muzdlu işdən əldə edilən gəlirlərdən tutu- lah vergilərin ödənilməsi qaydasından tamamilə fərqlənir.

Belə ki, gəlir vergisi üçün hesabat dörü təqvim ili olmasına baxmayaraq fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq dövlət büdcəsinə cari ödəmələri ödəməlidirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisin- dən tutulan

Fərdi sahibkarlar cari vergi ödəmələrini iki metodla hesablamaq hüququna malikdir. Birinci metoda əsasən hər ödəmənin məbləği əvvəlki vergi ilində hesablanmış vergi məbləğinin 1/4 hissəsini təşkil edir.

İkinci metodd əsasən fərdi sahibkar cari vergi ödəmələrinin məbləğini bu rübdəki gəlirinin həcmini verginin keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyənləşdirə bilər.



Şəkil 2. Gəlir vergisinin formalaşması sxemi

Qeyd etmək lazımdır ki, vergi ödəyicisi iT ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dək bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda vergi orqanı birinci metodu tətbiq edir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir və həmin metod vergi ilinin sonu- nadək dəyişdirilmir.

Sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxs vergi ilinin sonunda gəlir vergisini ödəmək üçün özünün təqvim ili ərzində əldə etdiyi gəlirlərini və vergi qanunvericiliyinə uyğun olaraq həmin gəlirlərdən çıxılması nəzərdə tutulan xərclərini dəqiqləşdirməlidir.

Vergi ödəyicisi əldə etdiyi ümumi gəlirindən onun əldə edilməsilə bağlı çəkilən xərclərin məbləğini çıxmaqla vergi tutulan gəlir məbləğini müəyyən edir. Bundan sonra vergi tutulan gəlirdən vergi qanunvericiliyində nəzərdə tutulmuş güzəşt və azadolmaların məbləğini çıxmaqla vergitutma bazasını müəyyənləşdirir.

Gəlir vergisinin müəyyən edilməsinin ikinci mərhələsində hesablanmış vergi məbləğindən fərdi sahibkarın vergi ili ərzində ödədiyi cari vergi ödəmələrinin və ödəmə mənbəyində tutulmuş vergilərin məbləği çıxılmaqla, faktiki olaraq büdcəyə ödəniləcək vergi məbləği dəqiqləşdirilir.

1.9. Əlavə dəyər vergisi

Əlavə dəyər vergisi vergi tutulan dövriyyədən hesablanan verginin məbləği ilə verilən elektron vergi hesab-fakturalara və ya idxalda ƏDV-nin ödənildiyini göstərən sənədlərə müvafiq surətdə əvəzləşdirilməli olan verginin məbləği arasındakı fərqdir.

ƏDV məhsul istehsalının, işlər görülməsinin və xidmətlər göstərilməsinin bütün mərhələlərində tutulur ki, bu da dövlətə bu mərhələlərin hər birində yaradılmış əlavə dəyərin bir hissəsini dövlət büdcəsinə tutmaq imkanı verir. Məhz bu səbəbdən onun hesablanması, vergitutulan dövriyyənin müəyyən eddilməsi və büdcəyə ödənilməsi qaydası özünəməxsus xüsusiyyətlərə malikdir.

Əlavə dəyər vergisi məhsul istehsalı və satışının bütün mərhələlərində yaradılan qiymət artımının bir hissəsi olmaqla, faktiki olaraq istehlakçılar tərəfindən ödənilən dolayı vergi növüdür. Bu verginin məbləği məhsulun qiymətinə əlavə edilir və son nəticədə istehlakçılar tərəfindən əmtəənin qiymətində ödənilir.

İxrac malları əlavə dəyər vergisinə sıfır dərəcəsi ilə cəlb olunduğundan, bu vergi növü ixrac malları istehsalının artırılmasını .stimullaşdırır. ƏDV məhsul istehsalının, işlər görülməsinin və xidmətlər göstərilməsinin bütün mərhələsində ödənildiyindən, dövlətə bu mərhələlərin hər birində gəlirin müəyyən hissəsini əldə etmək imkanı verir.

Əlavə dəyər vergisinin ödəyicisi kimi qeydiyyatdan keçən və qeydiyyatdan keçməli olan şəxslər ƏDV-nin ödəyiciləridir. Qeydiyyatdan keçən şəxs qeydiyyatın

qüvvəyə mindiyi andan vergi ödəyicisi statusu alır. Qeydiyyata dair ərizə verməli olan, lakin qeydiyyatdan keçməmiş şəxslər isə qeydiyyata dair ərizə vermək Öhdəliyinin yarandığı dövrdən sonrakı hesabat ayının əvvəlindən etibarən vergi ödəyiei- si sayılır.

Bundan başqa, aşağıda göstərilənlər ƏDV ödəyiciləri sayılır:

- Azərbaycan Respublikasına ƏDV tutulan malları idxal edən şəxslər (idxal malları üzrə);
- ƏDV məqsədləri üçün qeydiyyatdan keçmədən iş görən və ya xidmət göstərən qeyri-rezident şəxslər;
- hüquqi şəxs yaratmadan birgə sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslər;
- aksizli malların istehsalçıları və mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər.

Sahibkarlıq fəaliyyəti göstərən və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi 120.000 manatdan artıq olan şəxslər (sərnişin və yük daşımalarını həyata keçirən şəxslər istisna olmaqla) Vergi Məcəlləsinin 157.3.1-ci maddəsində göstərilən tarixdən 10 gün ərzində ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur.

Qeyri-rezidentin mallar göndərməsi, işlər görməsi və xidmətlər göstərməsi vergi tutulan əməliyyatların ümumi dəyəri müəyyən edilərkən yalnız o zaman nəzərə alınır ki, onlar Azərbaycan Respublikasındakı daimi nümayəndəlik vasitəsilə həyata keçirilmiş olsun.

Bir əqd və ya müqavilə üzrə əməliyyatın ümumi dəyəri 120.000 manatdan artıq olduqda, bu əməliyyat ƏDV tutulan əməliyyat sayılır və həmin əməliyyatı həyata keçirən şəxs bu əməliyyatın aparıldığı günədək ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur.

Qeydi>7atdan keçməli olmayan sahibkarlıq fəaliyyəti göstərən şəxs vergi orqanına ƏDV-nin məqsədləri üçün qeydiyyat haqqında könüllü ərizə verə bilər.

ƏDV-nin məqsədləri üçün məcburi və ya könüllü qeydiyyat haqqında ərizə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi forma üzrə verilməlidir.

Şəxs ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçərkən, vergi orqanı həmin şəxsi ƏDV ödəyicilərinin dövlət reyestrində qeydə almağa və ərizə verildikdən sonra 5 iş günündən gec olmayaraq, ona müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi forma üzrə qeydiyyat *bildirişi* verməyə, həmin bildirişdə vergi ödəyicisinin adını və ona aid olan digər məlumatı, qeydiyyatın qüvvəyə mindiyi tarixi və VÖEN-i göstərməyə borcludur.

ƏDV ödəyicisinin qeydiyyat bildirişi ƏDV ödəyicisinə bir dəfə verilir və onda saxlanılır. ƏDV ödəyicisinin qeydiyyat bildirişi itirildikdə və ya yararsız hala düşdükdə vergi ödəyicisinin müraciəti əsasında ona *bildirişin surəti* verilir.

Qeydiyyat hansı tarixin əvvəl başlanmasından asılı olaraq aşağıdakı tarixlərin birində qüvvəyə minir:

X məcburi qeydiyyat zamanı:

- ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatların həcmi 120.000 manatdan artıq olduqda — növbəti ayın birinci günündə;

" bir əqd və ya müqavilə üzrə ƏDV-yə cəlb olunan əməliyyatın ümumi dəyəri 120.000 manatdan artıq olduqda — əməliyyatın aparıldığı günədək.

l könüllü qeydiyyat zamanı — qeydi^'j'at haqqında ərizənin verildiyi aydan sonrakı hesabat dövrünün birinci günündə;

*K** məcəllənin 85.4-cü maddəsi ilə müəyyən edilmiş 3 il müddətindən çox olmamaqla, vergi ödəyicisinin qeydiyyat haqqındakı ərizəsində göstərilən tarixdə;

❖ məcəllənin 85.4-cü maddəsində göstərilən 3 illik dövr bitdikdən sonra vergi ödəyicisi tərəfindən ƏDV-nin dəqiqləşdirilməsinə və əvəzləşdirilməsinə yol verilmir.

Vergi orqanı *ƏDV-nin ödəyicihrinin reyestrini* aparmağa borcludur. Vergi ödəyiciləri ƏDV-nin reyestrinə daxil edilərkən onların uçota alınması haqqında vergi orqanına təqdim etdikləri ərizədəki məlumatlardan istifadə olunur.

ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçməyə borclu olan, lakin qeydiyyat üçün ərizə verməyən vergi ödəyicisini vergi orqanı öz təşəbbüsü ilə qeydiyyata alır və ona müvafiq qeydiyyat bildirişi göndərir.

ƏDV ödəyicilərinin məlumatlarında dəyişikliklər baş verdikdə ƏDV ödəyicilərinin dövlət reyestrində müvafiq düzəlişlər edilməlidir.

Məcəllə ilə müəyyən olunmuş hallarda rəsmi sorğulara əsasən sorğu edənə «ƏDV ödəyicilərinin reyestrindən çıxanş» verilir.

Vergi ödəyicisi ƏDV-yə cəlb olunan əməliyyatlar aparmağı dayandırırsa, ƏDV-nin məqsədləri üçün *qeydiyyatın ləğv olunmasına dair ərizə* verməyə borcludur. Bu halda, ƏDV-nin məqsədləri üçün qeydiyyatın ləğv olunması vergi ödəyicisinin vergi tutulan əməliyyatları tam dayandırdığı gün qüvvəyə minir.

Vergi ödəyicisinin vergiyə cəlb olunan əməliyyatlarının ümumi məbləği əvvəlki tam 12 təqvim ayı ərzində 60000 manatdan çox deyilsə, məeəllənin 158.1-ci maddəsində nəzərdə tutulan hallar istisna edilməklə, vergi ödəyicisi ƏDV-nin məqsədləri üçün son qeydiyyatın qüvvəyə mindiyi tarixdən etibarən bir il keçdikdən sonrakı istənilən va.xt qeydiyyatın ləğv olunmasına dair ərizə verə bilər. ƏDV-nin məqsədləri üçün qeydiyyatın ləğv olunması vergi orqanına qeydiyyatın ləğv edilməsinə dair ərizənin verildiyi gün qüvvəyə minir.

Vergi orqanı şəxsin ƏDV qeydiyyatının ləğv edilməsi barədə məlumatı *bir iş günü* ərzində müvafiq icra hakimiyyəti orqanına göndərməlidir.

Vergi orqanı ƏDV-nin məqsədləri üçün qeydiyyatı ləğv edilən şəxsin adını, onun haqqında digər məlumatları *ƏDV-nin ödəyicilərinin reyestrindən silməli və verilmiş qeydiyyat bildirişini geri almalıdır.*

Malların təqdim edilməsi, işlərin görülməsi, xidmətlərin göstərilməsi və vergi tutulan idxal vergitutma obyektidir.

Vergidən azad edilən malların göndərilməsindən, işlərin görülməsindən və xidmətlərin göstərilməsindən başqa, Azərbaycan Respublikasının ərazisində müstəqil sahibkarlıq fəaliyyəti və ya hüquqi şəxs yaratmadan birgə sahibkarlıq fəaliyyəti çərçivəsində malların göndərilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi *vergi tutulan əməliyyatlar sayılır.* Azərbaycan Respublikasının hüdudlarından kənarda xidmətlər göstərilməsi və ya işlər görülməsi vergi tutulan əməliyyatlara daxil edilmir.

Vergidən azad edilən idxal istisna edilməklə, malların idxalı vergi tutulan idxal sayılır. *Tranzit yük daşınması qaydasında, müvəqqəti idxal şəklində Azdrbay- can Respublikası ərazisinə buraxılan mallar və ya gömrük qanunvericiliyinə uyğun olaraq daxili istehlak üçün idxal edilmiş və ya qəbul olunmuş sayılmayan mallar ƏDV-nin məqsədləri üçün idxal malları hesab edilmir.*

Vergi ödəyicisinin haqqı ödənilməklə və ya əvəzsiz qaydada öz işçilərinə və digər şəxslərə mal verməsi, iş görməsi və ya xidmət göstərməsi, habelə barter əməliyyatı vergi tutulan əməliyyat sayılır.

Vergi ödəyicisi malları (işləri, xidmətləri) ƏDV-ni ödəməklə əldə edirsə və müvafiq əvəzləşdirmə alırsa və ya almaq hüququna malikdirsə, belə mallardan (işlərdən, xidmətlərdən) qeyri-kommersiya məqsədləri üçün istifadə edilməsi, fövqəladə hallardan başqa malların itməsi, əskik gəlməsi, xarab olması və ya amortizasiya olunmadan uçotdan silinməsi və ya oğurlanması vergi tutulan əməliyyat sayılır.

Vergi ödəyicisinin qeydiyyatı ləğv edilirsə, ləğvetmə vaxtı onun sahibliyində qalan mallar həmin vaxt və vergi tutulan əməliyyat çərçivəsində təqdim edilən mallar kimi qiymətləndirilir.

Malları ƏDV-yə cəlb edilən əməliyyatlar nəticəsində əldə edən, lakin bu malları əldə edərkən ƏDV-ni əvəzləşdirməyə hüququ olmayan şəxsin, həmin malları göndərməsinə vergi tutulan əməliyyat kimi baxılmır. Əgər mallar əldə edilərkən əvəzləşdirilməsinə qismən yol verilməmişdirsə, vergi tutulan əməliyyatın məbləği əvəzləşdirmənin qismən yol verilməmiş payına mütənasib olaraq azaldılır.

ƏDV ödəyicisi kimi qeydiyyatdan keçməyən şəxslərin ƏDV tətbiq etməklə aparılan əməliyyatları, habelə ƏDV-dən azad edilən və ya sıfır (0) dərəcə ilə ƏDV-yə cəlb edilən, lakin ƏDV tətbiq etməklə aparılan əməliyyatlan vergitutma obyektidir.

Mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən ƏDV-nin məqsədləri üçün vergi tutulan minimum dövriyyə vergitutma obyektinin hər kvadrat metri üçün 225 manat məbləğinə ölkənin şəhər və rayonlarının ərazilərinin zonalar üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi əmsallar tətbiq edilməklə hesablanır.

Məcəllənin 164.1.15, 164.1.16 və 164.2-ci maddələrinə uyğun olaraq ƏDV- dən azad edilən idxal mallarının Azərbaycan Respublikasının ərazisində təqdim edilməsi vergi tutulan əməliyyat sayılır.

Müəssisənin bir əməliyyat çərçivəsində bir vergi ödəyicisi tərəfindən digər vergi ödəyicisinə təqdim edilməsi vergi tutulan əməliyyat sayılmır. Bu halda müəssisəni alan və ya qəbul edən şəxs təqdim edənin bu fəsildə göstərilən və təqdim edilən müəssisəyə aid hüquq və öhdəliklərini öz üzərinə götürür. Bu müddəa müəssisəni təqdim edən şəxsi əvvəlki vergi dövrləri üçün vergiləri, faizləri və ya maliyyə sanksiyalarını ödəməkdən azad etmir.

Bu zaman nəzərə almaq lazımdır ki, müəssisənin təqdim edən və alan (qəbul edən) tərəflər təqdim edilmədən sonra 10 gündən gec olmayaraq bu maddənin müddəalarınm tətbiq edilməsi üçün vergi orqanına yazılı məlumat verməlidir.

Gömrük qanunvericiliyinə uyğun olaraq mallara gömrük rüsumları tutulduğu vaxt mallann idxal edilməsi vaxtı sayılır. Əgər idxal olunan mallar gömrük rüsum-

lanndan azad edilirsə, malların idxal edilməsi vaxtı onların gömrük xidmətinin nəzarətindən çıxdığı vaxt sayılır.

Mallar göndərilməsinə, işlər görülməsinə və ya xidmətlər göstərilməsinə yardımçı xarakter daşıyan mallar göndərilməsi, işlər görülməsi, xidmətlər göstərilməsi onların bir hissəsi sayılır.

İxracatçının malların idxalına yardımçı xarakter daşıyan işlər görməsi və ya xidmətlər göstərməsi malların idxalının bir hissəsi sayılır.

Müstəqil elementlərdən ibarət əməliyyat bölünərkən vergiyə cəlb edilən və ƏDV-dən azad olan əməliyyatlara ayrılırsa, onlara ayrı-ayn əməliyyatlar kimi baxılır.

Əlavə dəyər vergisinin *vergitutma bazası* satılmış malların (aksizli mallar üçün aksizlər də nəzərə alınmaqla) Vergi Məcəlləsinin 14 maddəsinə müvafiq olaraq müəyyən edilmiş qiymətlərə əsasən hesablanmış dəyərindən ibarətdir (əlavə dəyər vergisiz). Malların (işlərin, xidmətlərin) satışı zamanı vergi ödəyicisi tərəfindən müxtəlif vergi dərəcələri təqdim edildiyi hallarda, vergi bazası müxtəlif dərəcələrlə vergiyə cəlb olunan mal növləri üzrə ayrıca hesablanılır.

Vergi bazası müəyyən edilərkən aşağıdakılar nəzərə almır:

- göndəriləcək mallara, yerinə yetiriləcək işlərə və göstəriləcək xidmətlərə görə alıcılardan (sifarişçilərdən) daxil olmuş avans ödənişləri;
- xüsusi təyinatlı fondların artırılmasına görə maliyyə yardımı şəklində, yaxud malların (işlərin, xidmətlərin) satışı ilə əlaqədar digər ödəniş formasında alınmış məbləğlər;
- satılmış mallara (işlərə, xidmətlərə) görə ödəniş hesabına alınmış veksel və istiqrazlar, eləcə də kommersiya kreditləri üzrə faiz şəklində alınmış məbləğlər;
- kontragent rolunda çıxış edən sığorta olunan kreditor tərəfindən müqavilə öhdəliklərinin yerinə yetirilməməyinin risk sığortası üzrə alınmış sığorta ödənişlərinin məbləği (əgər müqavilə öhdəlikləri sığorta olunan tərəfindən vergitutulan malların satışını nəzərdə tutursa).

Vergi tutulan əməliyyatın dəyəri vergi ödəyicisinin müştəridən və ya hər hansı digər şəxsdən aldığı, yaxud almağa hüququ olduğu haqqın ƏDV nəzərə alınmadan məbləği (hər hansı rüsumlar, vergilər və ya başqa yığımlar da daxil olmaqla) əsasında müəyyən edilir.

Əgər vergi ödəyicisi vergi tutulan əməliyyatın əvəzində mal, iş və ya xidmət alırsa, yaxud almağa hüququ varsa, bu malların, işlərin və ya xidmətlərin ƏDV nəzərə alınmadan bazar dəyəri (hər hansı rüsumlar, vergilər və ya başqa yığımlar da daxil olmaqla) vergi tutulan əməliyyatın dəyərinə daxil edilir.

Vergi Məcəlləsinin 159.4, 159.5 və 159.6-cı maddələrində göstərilən hallarda (vergi ödəyicisinin haqqı ödənilməklə və ya əvəzsiz qaydada öz işçilərinə və digər şəxslərə mal verdikdə, iş gördükdə və ya xidmət göstərdikdə, habelə barter əməliyyatları apardıqda, vergi ödəyicisinin malları (işləri, xidmətləri) ƏDV-ni ödəməklə əldə etdiyi və müvafiq əvəzləşdirmə aldığı və ya almaq hüququna malik olduqda, eləcə də vergi ödəyicisinin qeydiyyatı ləğv edildikdə vergi tutulan əməliyyatın dəyəri təqdim edilmiş malların, görülmüş işlərin və ya göstərilmiş xidmətlərin ƏDV nəzərə alınmadan formalaşan dəyərindən (hər hansı rüsumlar, vergilər

və ya başqa yığımlar da daxil olmaqla) ibarət olur. Vergi tutulan əməliyyatın dəyəri Vergi Məcəlləsinin 159-cu maddəsində göstərilən qaydada müəyyən edilir..

Vergi tutulan idxalın dəyəri malların Azərb^can Respublikasının gömrük qanunvericiliyinə uyğun olaraq müəyyən edilən gömrük dəyərindən və mallar Azərbaycan Respublikasına gətirilərkən ödənilməli olan rüsumlardan və vergilərdən (ƏDV nəzərə alınmadan) ibarətdir.

İdxalın bir hissəsi kimi sayılan ixracatçının malların idxalına yardımçı xarakter daşıyan işlər görməsi və ya xidmətlər göstərildikdə, onun ƏDV nəzərə alınmadan dəyəri onların gömrük dəyərinə əlavə edilir.

Aşağıda göstərilən hallarda vergi tutulan əməliyyatların dəyəri dəqiqləşdirilir:

- əməliyyat tam və ya qismən ləğv edildikdə, o cümlədən mal tam və qismən geri qaytanidıqda;
- əməliyyatın xarakteri dəyişdikdə;
- qiymətlərin aşağı düşməsi və ya hər hansı digər səbəbdən əməliyyat üçün razılaşdırılmış kompensasiya dəyişdikdə;
- vergi ödəyicisi elektron vergi hesab-faktura verdikdən sonra vergi tutulan dövriyyənin dəqiqləşdirilməsi üçün əsas verən hallar üzə çıxdıqda və bu cür dəqiqləşdirmə qanunvericiliyə müvafiq olaraq aparıldıqda.

Əgər vergi ödəyicisi yuxarıda göstərilən hallardan birinin nəticəsində ƏDV üçün elektron hesab-fakturanı vermiş və ƏDV-nin məbləğini fakturada düzgün göstərməmişdirsə, yaxud ƏDV-nin bəyannaməsində verginin məbləğini düzgün göstərməmişdirsə, onda dəqiqləşdirmə Vergi Məcəlləsininl74.2-cİ və ya 175.5-ci maddəsinə müvafiq surətdə aparılır. Dəqiqləşdirmə qiymətləndirmə bazasında dəyişikliyin baş verdiyi hesabat dövründə aparılır.

Malların ixracından başqa, malların təqdim edilməsinin, işlər görülməsinin və xidmətlər göstərilməsinin aşağıdakı növlərindən, habelə idxalın aşağıdakı növlərindən ƏDV tutulmur:

- özəlləşdirilmə qaydasında dövlət müəssisəsindən satın alman əmlakın dəyəri, habelə dövlət əmlakının icarəyə verilməsindən alınan icarə haqqının büdcəyə ödənilməli olan hissəsi;
- maliyyə xidmətlərinin göstərilməsi;
- milli və ya xarici valyutanın (numizmatika məqsədlərindən başqa), həmçinin qiymətli kağızlann göndərilməsi və ya idxal edilməsi;
- Azərbaycan Respublikasının Mərkəzi Bankının və Azərbaycan Respublikasının Dövlət Neft Fondunun aktivlərində yerləşdirilməsi üçün nəzərdə tutulan qızılın, habelə Azərbaycan Respublikasının Mərkəzi Bankının valyuta sərvətlərinin, xaricdə istehsal edilmiş Azərbaycan Respublikası pul nişanlarının, yubiley sikkələrinin və digər bu qəbildən olan qiymətlilərin idxalı;
- idxal olunan əmlak istisna olmaqla müəssisənin Nizamnamə fonduna (kapitalına) pay şəklində hər hansı əmlakın qoyulması (əmlakın pay şəklində qoyuluşu, onun müqabilində bilavasitə digər əmlakın əldə edilməsi ilə əlaqədar olmadıqda);

- tutulan məbləğlər hədlərində dövlət hakimiyyəti, yerli özünüidarəetmə və digər səlahiyyətli orqanların tutduğu dövlət rüsumu, icazə haqları, yığımlar və onların tutulması müqabilində göstərdiyi xidmətlər;
- kütləvi informasiya vasitələri məhsullarının alqı-satqısının bütün növləri üzrə dövriyyələr, mətbu kütləvi informasiya vasitələri məhsulları istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti (reklam xidmətləri istisna olmaqla);
- orta məktəb dərslikləri, uşaq ədəbiyyatının və büdcədən maliyyələşdirilən müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş dövlət əhəmiyyətli nəşrlərin istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti;
- dəfn və qəbiristanlığın mərasim xidmətləri;
- Azərbaycan Respublikası Mərkəzi Bankının və Azərbaycan Respublikası Dövlət Neft Fondunun qanunvericiliklə nəzərdə tutulmuş vəzifələrinin yerinə yetirilməsi ilə bağlı mal idxalı, iş görülməsi və xidmət göstərilməsi;
- Azərbaycan Respublikasına, o cümlədən onu təmsil edən hüquqi şəxslərə neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü, ixrac boru kəmərləri haqqında və bu qəbildən olan digər sazişlərə uyğun olaraq verilməsi nəzərdə tutulan əsas fondların, daşınan əmlakın və digər aktivlərin Azərbaycan Respublikası Dövlət Neft Fonduna hər hansı şəkildə təqdim edilməsi üzrə əməliy>'atlar;
- metropolitenlə sərnişindaşıma xidmətləri;
- ödənişli təhsil xidmətlərinin göstərilməsi (digər fəaliyyətləri ilə bağlı xidmətlərin göstərilməsi istisna olmaqla).

Bundan başqa, müvafiq icra hakimiyyəti orqanı konkret sahənin inkişafını təmin etməklə konkret dövr üçün nəzərdə tutulan, istehsal ehtiyaclarını yerli xammal hesabına ödəmək mümkün olmadıqda, istehsal təyinatlı xammal və müasir texnologiyanı təmin edən avadanlıqların idxalını ƏDV-dən azad edə bilər.

Verginin sıfır (0) dərəcəsi ilə tutulması. Aşağıdakı işlərin görülməsinə, xidmətlərin göstərilməsinə və əməliyyatların aparılmasına görə **ƏDV** sıfır **(0)** dərəcəsi ilə tutulur:

1) Azərbaycan Respublikasında akkreditə edilmiş beynəlxalq təşkilatların və xarici ölkələrin diplomatik və konsulluq nümayəndəliklərinin rəsmi istifadəsi, həmçinin, bu nümayəndəliklərin müvafiq statuslu Azərbaycan Respublikasının vətəndaşı olmayan diplomatik və inzibati-texniki işçilərinin, o cümlədən onlarla yaşayan ailə üzvlərinin şəxsi istifadəsi üçün nəzərdə tutulan mallar və xidmətlər;

Bu halda sıfır (0) dərəcəsi ilə ƏDV o ölkələrə münasibətdə tətbiq edilir ki, həmin ölkələr tərəfindən göstərilən işlərə, xidmətlərə və əməli>7atlara görə ƏDV sıfır (0) dərəcəsi ilə tətbiq edilsin.

2) xaricdən alınan əvəzsiz maliyyə yardımları (qrantlar) hesabına malların idxalı, qrant üzrə resipiyentlərə malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi;
3) Azərbaycan Respublikasının Mərkəzi Bankına qızıl və digər qiymətlilərin ixracı;

4) beynəlxalq poçt xidmətləri istisna olmaqla, beynəlxalq və tranzit yük və sər nişin daşınması. Beynəlxalq və tranzit uçuşlarla bilavasitə bağlı olan işlərin görülməsi, xidmətlərin göstərilməsi; - -
5) Azərbaycan Respublikasının Mərkəzi Bankına qızıl və digər qiymətlilərin göndərilməsi;

Vergi tutulan əməliyyatın vaxtı həmin əməliyyat üçün ödəmə 30 gün müddətində həyata keçirildikdə ödəmənin həyata keçirildiyi, ödəmə 30 gündən sonra həyata keçirildikdə isə ƏDV-nin elektron vergi hesab-fakturasının verildiyi vaxt sayılır. Vergi Məcəlləsinin 166.1.1-ci və 166.1.2-ci maddələrində göstərilən müddətlərdən sonrakı 5 gün ərzində ƏDV-nin elektron vergi hesab-fakturası verilmirsə, vergi tutulan əməliyyat aşağıdakı vaxtlarda aparılmış sayılır:

malların təqdim edilməsindən, işlərin görülməsindən və xidmətlərin göstərilməsindən ödəmə 30 gün müddətində həyata keçirildikdə ödəmənin həyata keçirildiyi vaxtda, 30 gündən sonra həyata keçirildikdə isə malların göndərildiyi və ya təqdim edildiyi, işlərin görüldüyü və xidmətlərin göstərildiyi vaxtda;

❖ malların göndərilməsi onların daşınmasını nəzərdə tutursa, Ödəmə 30 gün müddətində həyata keçirildikdə ödəmənin həyata keçirildiyi vaxtda, 30 gündən sonra həyata keçirildikdə isə daşınmanın başlandığı vaxtda.

Ödəmə yuxarıda göstərilən müddət başlananadək həyata keçirildikdə, ödəmədən sonrakı 5 gün ərzində ƏDV-nin elektron vergi hesab-fakturası verilmirsə, vergi tutulan əməliyyat ödəmə həyata keçirildikdə aparılmış sayılır. Vergi tutulan əməliyyat üçün iki və ya daha çox ödəmə aparılırsa, hər ödəmə ödəniş miqdarında ayrıca əməliyyat üçün həyata keçirilmiş sayılır.

Xidmətlər müntəzəm və ya daimi əsasda göstərilirsə, xidmətlərin göstərilməsi vaxtı bu əməliyyatın hər hansı hissəsi üçün hər dəfə ƏDV-nin elektron vergi he-sab-fakturasının verildiyi vaxt, yaxud ödəmə əvvəl həyata keçirilmişsə, əməliyyatın hər hansı hissəsinin ödənildiyi vaxt sayılır.

Azərbaycan Respublikasına ƏDV tutulan mallar idxal edildikdə^ vergi tutulan əməliyyatın aparılması vaxtı mallardan, işlərdən və ya xidmətlərdən istifadə edilməsinə, yaxud onların istehlakına başlandığı vaxt sayılır. ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçmədən iş görən və ya xidmət göstərən və müvafiq sumtdə vergiyə cəlb edilməli olan qeyri-rezident şəxs həmin işlər və ya xidmətlər göstərdikdə, vergi tutulan əməliyyatın apaniması vaxtı işçilər üçün mallar göndərildiyi, işlər görüldüyü, xidmətlər göstərildiyi vaxt sayılır. Vergi ödəyicisinin qeydiyyatı ləğv edildikdə, ləğvetmənin qüvvəyə minməsindən bilavasitə əvvəlki vaxt (gün) malların göndərilməsi vaxtı sayılır.

Malların təqdim edilməsi onların verildiyi yerdə həyata keçirilir. Malların göndərilməsi şərtlərində malların yola salınması və ya nəql edilməsi nəzərdə tutulursa, təqdim edildiyi yer onların yola salınmasına və ya nəql edilməsinə başlandığı yer sayılır. Lakin mallan göndərən tərəf onları qurursa və ya quraşdırırsa, təqdim edilmə mallann qurulduğu və ya quraşdırıldığı yer sayılır.

ƏDV-nin məqsədləri üçün qeydiyyata alınan hər hansı şəxs vergi agenti sayılır. ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezident Azərbaycan

Respublikasının ərazisində vergi agenti üçün xidmət göstərirsə və ya iş görürsə, işlərin görülməsi və ya xidmətlərin göstərilməsi vergiyə cəlb olunur.

Bu zaman vergi agenti qeyri-rezidentə ödənməli olan məbləğə ƏDV hesablamalı və ödəməlidir. Verginin məbləği vergi dərəcəsinin qeyri-rezidentə ödənməli olan məbləğə (ƏDV nəzərə alınmadan) tətbiq edilməsi yolu ilə müəyyənləşdirilir.

Vergi agenti ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçmişdirsə, hesablanan vergi, əməliyyatın aparıldığı ay üçün ƏDV-nin bəyannaməsi verilərkən ödənilir. Hesablanan verginin ödənilməsini təsdiq edən ödəmə sənədi vergi agentinə ƏDV-nin məbləğini əvəzləşdirmək hüququnu verən hesab-fakturadır.

Vergi agenti ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçməmişdirsə, o, hesablanan vergini bu maddəyə uyğun olaraq qeyri-rezidentə ödəmə verildikdən sonra 7 gün ərzində ödəməyə və növbəti ayın 20-dək müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş formada ƏDV bəyannaməsi verməyə borcludur. Məcəlləyə uyğun olaraq vergi agentinin qeyri-rezidentə ödənilməli olan məbləğ ƏDV- nin hesablanması üzrə əməli>7atları vergi agentinin ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmasına görə müəyyənləşdirilən vergi tutulan əməliyyatlarına aid edilmir.

Vergi agenti qeyri-rezidentə ödənilməli olan məbləğə ƏDV-ni hesablayaraq büdcəyə ödədikdə, ödəniş sənədlərində vergini qeyri-rezidentdə ödədiyi məbləğdən hesabladığı barədə müvafiq qeyd aparmalıdır.

Qeyri-rezidentə məxsus əmlak vergi agentinə icarəyə verilmək üçün idxal edildikdə, əmlakın sahibi olan qeyri-rezidentin icazəsi ilə vergi agenti idxaldan ödənilmiş vergidən ƏDV-nin məbləğinin əvəzləşdirilməsini tələb edə bilər. Bu halda vergi agenti vergi ödəyicisi sayılır və sonradan əmlakı təqdim edərkən (onun ixracı istisna edilməklə) ƏDV-nin ödənilməsi üçün cavabdehdir.

Vergi agenti qeyri-rezidentə ödəmə verilən aydan sonrakı ayın 20-dən gec olmayaraq ƏDV-nin hesablanması barədə vergi orqanına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada bəyannamə təqdim etməlidir.

Aşağıda göstərilənlər istisna olmaqla digər şəxsin (vəkalət verən) agenti (və- kalət alan) olan şəxs tərəfindən mallar göndərilməsi, işlər görülməsi və ya xidmətlər göstərilməsi vəkalət verənin həyata keçirdiyi əməliyyat sayılır:

- agentin vəkalət verənə göstərdiyi xidmətlər;
- rezident olmayan və Azərbaycan Respublikasında ƏDV-nin ödəyicisi kimi qeydiyyatdan keçməmiş şəxsin rezident agentinin Azərbaycan Respublikasına mallar göndərməsi.

Rezident olmayan və Azərbaycan Respublikasında ƏDV-nin ödəyicisi kimi qeydiyyatdan keçməmiş şəxs rezident agentinin Azərbaycan Respublikasına mallar göndərdiyi hallarda, ƏDV-nin məqsədləri üçün malların göndərilməsi agent tərəfindən həyata keçirilən əməliyyat sayılır.

Lotereyalar, turist agentlərinin xidmətləri, komisyon qaydada satış, işlənmiş malların satışı və ümumi qaydalara əsasən vergitutma bazasının müəyyənləşdirilməsi çətin olan digər sahələr üzrə ödənilməli olan ƏDV-nin məbləği analoji qaydada müəyyənləşdirilir.

Digər şəxsin agent vasitəsi ilə həyata keçirdiyi əməliyyatlar üzrə ƏDV-nin vergitvtma bazası aşağıdakı kimi müəyyənləşdirilir: ^

1. Digər şəxs agent vasitəsi ilə malları təqdim eldikdə, işlər gördükdə və ya xidmətlər göstərdikdə, həmin malların (işlərin, xidmətlərin) dəyəri vergi tutulan əməliyyatların dəyəri və vergitutma bazası hesab edilir.

Agent tərəfindən göstərilən xidmətlərə görə ona ödənilən haqlar (mükafatlar) agentin vergi tutulan əməliyyatlarına daxil edilməklə yanaşı, digər şəxsin gəlirdən çıxılan xərclərinə aid edilir.

Agentin digər şəxsdən aldığı elektron vergi hesab-fakturası ona ƏDV məbləğini əvəzləşdirmək hüququ vermir.

2. Digər şəxs üçün vergi tutulan əməliyyatların vaxtı malların (işlərin, xidmətlərin) agentə verildiyi vaxt sayılır. Mallar (işlər, xidmətlər) hissə-hissə (qismən) verildikdə, vergi tutulan əməliyyatların vaxtı hər hissə üçün aynlıqda müəyyən edilir.
3. Agent ƏDV üzrə vergi ödəyicisi olduqda, yalnız digər şəxsə göstərdiyi xidmətlərə görə elektron vergi hesab-fakturası verir. Elektron vergi hesab-fakturası ƏDV ödəyicisi olan digər şəxs tərəfindən agentə ödənilmiş ƏDV-ni əvəzləşdirmək hüququ verir.

Digər şəxs tərəfindən agentə verilmiş malların (işlərin, xidmətlərin) dəyərinə ƏDV daxil edilib-edilməməsindən asılı olmayaraq, agent malların (işlərin, xidmətlərin) alıcısına (sifarişçisinə) vergi hesab-fakturası verə bilməz.

4. Agent üçün vergitutma bazası onun digər şəxslərə malların təqdim edilməsi (işlərin görülməsi, xidmətlərin göstərilməsi) üzrə göstərdiyi xidmətlərin dəyəri, vergi tutulan əməliyyatlann vaxtı bu xidmətlərin faktiki göstərildiyi vaxt, vergi tutulan əməliy- yatlann dəyəri isə onun digər şəxsdən almalı olduğu (aldığı) haqdır (mükafatdır).

5. Digər şəxsin agent vasitəsi ilə həyata keçirdiyi əməliyyatlarda ƏDV hesablanmasının sahəvi xüsusiyyətləri aşağıdakı qaydada müəyyənləşdirilir:

- lotereya keçirən şəxs üçün vergi tutulan əməliyyatların dəyəri lotereyaların satışından əldə olunan məbləğdən uduş fondunun məbləği çıxıldıqdan sonra qalan məbləğ hesab edilir;
- lotereyalann keçirilməsi şərtlərinə uyğun olaraq uduş fondu tam və ya qismən mallardan ibarət olduqda, lotereya keçirən şəxs tərəfindən uduş fondu üçün alınmış mallara görə ödənilmiş ƏDV məbləği əvəzləşdirilmir;
- Azərbaycan Respublikası ərazisindən digər ölkələrə keçən marşrutlar üzrə turist xidmətləri göstərən şəxslər üçün turist xidmətlərinin (Azərbaycan Respublikası ərazisindən kənarda göstərilən xidmətlər istisna olmaqla) dəyəri, turist vərəqələrini təqdim edən şəxslər (agentlər) üçün isə bu təqdimetmə üzrə göstərilən xidmətlərin dəyəri vergitutma bazası hesab edilir;
- malların komisyon qaydada satışı zamanı komitent üçün vergitutma bazası komisyonçuya verilmiş malların dəyəridir (komisyon haqları çıxılmadan);
- komisyonçunun komitentdən aldığı elektron vergi hesab-fakturası komisyonçuya ƏDV məbləğini əvəzləşdirmək hüququ vermir;
- komisyonçu komissiyaya götürdüyü malların dəyərinə ƏDV daxil edilib-

■ komitent qeyri-rezident olduqda. Vergi >Jləcəlləsininl72.3-cü maddəsinə əsasən malların komissiya qaydasında satışı üzrə əməliyyatlar agentin, yəni komisyonçunun apardığı əməliyyatlar hesab edilir.

Bu halda komisyonçu üçün vergitutma bazası komisyon qaydasında satdığı malların dəyəri, habelə komitentə göstərdiyi xidmətlərin dəyəri hesab edilir. Komisyonçunun vergi tutulan əməliyyatının dəyəri komisyon qaydasında satılan mallar üzrə komitentin müəyyən etdiyi satış qiyməti (ƏDV-siz) və komitentə göstərdiyi xidmətlər üzrə komitentdən almalı olduğu (aldığı) xidmət haqqıdır (mükafatdır).

Komisyonçu üçün vergi tutulan əməliyyatın vaxtı malların (işlərin, xidmətlərin) alıcılara (sifarişçilərə) təqdim etdiyi vaxt sayılır. Mallar (işlər, xidmətlər) hissə- hissə (qismən) təqdim edildikdə, vergi tutulan əməliyyatın vaxtı malların (işlərin, xidmətlərin) hər hissəsi üçün ayrılıqda müəyyən edilir.

Komisyonçu idxal olunmuş mallara görə gömrük orqanlarına ƏDV ödəmişdirsə, bu ödəmənin yerinə yetirildiyini təsdiq edən sənədlər ƏDV ödəyicisi olan komisyonçuya, həmin ƏDV məbləğini əvəzləşdirmək hüququ verir. Komisyonçu vergi ödəyicisi olduqda, komissiya qaydasında təqdim etdiyi mallara ümumi qaydada ƏDV tətbiq etməlidir.

Komisyon qaydasında idxal olunmuş mallar ƏDV ödəyicisi olan komisyonçu tərəfindən satılmadan tam və ya qismən komitentin tapşırığı ilə Azərbaycan Respublikası ərazisində başqa şəxsə verildikdə, gömrük orqanlarına ödənilmiş ƏDV- nin əvəzləşdirilən məbləğinin malların satılmayan hissəsinə düşən məbləği komisyonçu tərəfindən büdcəyə hesablanmalıdır.

8. Digər şəxsin agent vasitəsi ilə həyata keçirdiyi əməliyyatlar üzrə vergi tutulan əməliyyatların aparıldığı vaxt, büdcəyə ƏDV-nin hesablanması, büdcəyə ödəmələr müəyyən edilərkən ƏDV-nin əvəzləşdirilməsi və elektron vergi hesab- fakturalarmın tətbiqi, bu maddənin müddəaları nəzərə alınmaqla, bu Məcəlləyə / uyğun olaraq ümumi qaydada müəyyənləşdirilir.

ƏDV ödəyicisi olan şəxslər tərəfindən bu maddədə göstərilən əməliyyatlardan başqa digər əməliyyatlar da həyata keçirildikdə, həmin əməliyyatlann uçotu aynca apanlır.

ƏDV-nin dərəcəsi hər vergi tutulan əməliyyatın və hər vergi tutulan idxalın dəyərinin 18 faizidir. Vergi tutulan dövriyyə, hesabat dövri ərzində vergi tutulan əməliyyatların ümumi dəyərindən ibarətdir.

Hesabat dövri ərzində vergi tutulan dövriyyədən büdcəyə ödənilməli olan ƏDV-nin məbləği vergi tutulan dövriyyədən hesablanan verginin məbləği ilə əvəzləşdirilməli olan verginin məbləği arasındakı fərqlə müəyyən olunur.

Vergi tutulan dövriyyənin dəqiqləşdirildiyi hallarda ödənilməli olan ƏDV- nin məbləği vergi ödəyicisinin bəyannamədə göstərdiyi ƏDV-nin məbləğindən artıq olduqda, artıq məbləğ hesabat dövri ərzində ödənilməli olan ƏDV sayılır və hesabat dövri ərzində ödənilməli olan verginin məbləğinə əlavə edilir.

Əvəzləşdirilən ƏDV-nin məbləği vergi ödəyicisinə verilmiş elektron vergi he-sab-fakturalan üzrə nağdsız qaydada (mal, iş və xidmət təqdim edənin bank hesabına birbaşa nağd qaydada ödənişlər istisna edilməklə) Ödəmələr üzrə ƏDV-nin depozit hesabına və bu hesab daxilində apanlan əməliyyatlarda ödənilən vergi məbləği sayılır və

- ❖ hesabat dövri ərzində həyata keçirilmiş sayılan mal göndərilməsini, iş görülməsini, yaxud xidmət göstərilməsini nəzərdə tutan əməliyyatlar üzrə Vergi Məcəlləsinin!76-cı maddəsinə uyğun olaraq;
- ❖ hesabat dövri ərzində malların idxalı üzrə - Vergi Məcəlləsinin 170-ci maddəsinə uyğun olaraq;
- ❖ vergi ödəyicisinə verilmiş vergi hesab-fakturası üzrə iki və ya daha çox ödəmə aparılarsa, hər ödəmə ödəniş miqdarında ayrıca əməliyyat üçün həyata keçirilmiş sayılır.

Vergi ödəyicisinə verilmiş elektron vergi-hesab fakturası üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilən gündən gec olmayaraq, ƏDV-nin məbləği məcəllə ilə və müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada ödənilməlidir. Bu zaman malların (iş və xidmətlərin) dəyəri üzrə iki və ya daha çox ödəmə aparılarsa, ƏDV-nin məbləği aparılmış ödəniş məbləğinə uyğun olaraq ƏDV-nin depozit hesabı vasitəsilə ödənilməlidir.

Mal, iş və xidmətlərlə bağlı xərclər istehsal məsrəflərinə aid edilmirsə, belə mal, iş və xidmətlər vergi Ödəyicisinin kommersiya fəaliyyəti üçün istifadə edilməli olduqda və ya istifadə edildikdə analoji qayda tətbiq olunur.

Bir hissəsi vergi ödəyicisinin sahibkarlıq fəaliyyəti, digər hissəsi isə başqa məqsədlər üçün nəzərdə tutulan vergiyə cəlb edilən əməliyyatlara görə nağdsız qaydada ƏDV-nin depozit hesabı vasitəsilə ödənilmiş (mal, iş və xidmət təqdim edənin bank hesabına birbaşa nağd qaydada ödənişlər istisna edilməklə) və malların idxalı üçün vergi ödəyieisinə verilmiş elektron vergi hesab fakturaları üzrə onun tərəfindən ödənilmiş ƏDV-nin məbləği sahibkarlıq fəaliyyəti üçün istifadə olunan malların (işlərin, xidmətlərin) xüsusi çəkisinə görə müəyyənləşdirilən ƏDV-nin məbləği qədər əvəzləşdirilir.

Məcəllənin 109.4-cü maddəsində göstərilən xərclər istisna olmaqla, sahibkarlıq fəaliyyəti əyləncə və ya sosial xarakteri daşıyan vergi ödəyicisinin xərcləri bu cür fəali)7ət çərçivəsində çəkiləndə, ƏDV-nin əvəzləşdirilməsinə yol verilmir.

Vergi ödəyicisi vergi tutulan və ƏDV-dən azad edilmiş əməliyyatlar aparırsa, ƏDV üzrə əvəzləşdirmə üçün vergi tutulan dövriyyənin ümumi dövriyyədəki xüsusi çəkisinə uyğun olaraq müəyyən edilən ƏDV-nin məbləği qəbul olunur.

Vergi tutulan dövriyyənin dəqiqləşdirildiyi hallarda bəyannamədə büdcəyə çatası ƏDV-nin məbləği düzgün göstərilməmişdirsə, büdcəyə ödənilməli olan ƏDV-nin məbləği həmin halların yarandığı hesabat dövri üzrə vergi ödəyicisi tərəfindən təqdim edilmiş bəyannamədə dəqiqləşdirilir.

ƏDV-dən azad olunan, yaxud ƏDV-yə cəlb edilməyən əməliyyatlar aparan şəxslər tərəfindən mallar (işlər, xidmətlər) alınarkən bu maddə ilə müəyyən edilmiş qaydada ödənilmiş ƏDV məbləği əvəzləşdirilmir. «Büdcə sistemi haqqında» Azərbaycan Respublikası Qanununun 1.1.17-ci maddəsində nəzərdə tutulmuş subsidiyalar istisna olmaqla, dövlət büdcəsindən müxtəlif mənbələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) hesabına mallar (işlər, xidmətlər) alınarkən, ödənilmiş ƏDV-nin məbləği əvəzləşdirilmir.

Sıfır (0) dərəcəsi ilə ƏDV tutulan əməliyyatlar, ƏDV cəlb olunan əməliyyatlar hesab edilir və belə əməliyyatlar aparan şəxslər tərəfindən mallar (işlər, xidmətlər)

alınarkən nağdsız qaydada (mal, iş və xidmət təqcfİm edənin bank hesabına birbaşa nağd qaydada ödənişlər istisna edilməklə) ƏDV-nin depozit hesabı vasitəsilə ödənilmiş ƏDV məbləği əvəzləşdirilir,

ƏDV ödəyiciləri, habelə ƏDV-nin məqsədləri üçün qeydiyyatda olmayan səhmlərinin və paylarının 50 faizindən çoxu dövlətə məxsus olan hüquqi şəxslər və büdcə təşkilatlan tərəfindən mallar (işlər, xidmətlər) alınarkən onlara verilmiş elektron vergi hesab-fakturaları üzrə ƏDV-nin məbləği ƏDV-nin depozit hesabına köçürülməlidir. ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə apanlan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Vergi məbləği vergitutma obyekti olan hər bir əməli>7ata münasibətdə müvafiq vergi dövrlərinin yekunu üzrə hesablanılır. Bu zaman, müvafiq hesabat dövrlərində vergi bazasını artıran və ya azaldan bütün dəyişikliklər nəzərə alınmaqla, malların (işlərin, xidmətlərin) satış tarixi müvafiq hesabat dövrlərinə aid edilir. Sıfır (O) dərəcə ilə vergiyə cəlb olunan malların (işlərin, xidmətlərin) satışı əməliyyatları üzrə vergi məbləği bu əməliyyatların hər biri üzrə ayrıca hesablanılır. Bundan başqa, həmin əməliyyatlar üzrə ayrıca vergi bəyannaməsi təqdim edilir.

Beləliklə, vergi ödəyicisi büdcəyə ödəniləcək vergi məbləğini müəyyən etmək üçün ilk növbədə vergitutma obyekti olan əməliyyatların ümumi dəyərini müəyyənləşdirir. Bundan sonra, vergitutulan əməliyyatların ümumi dəyərindən ƏDV azad edilən və ƏDV sıfır dərəcə ilə cəlb edilən əməliyyatların dəyərini çıxmaqla vergitutulan əməliyyatların dəyəri müəyyən edilir. Sonrakı mərhələdə vergi dərəcəsini vergitutulan əməliyyatların dəyərinə (vergitutma bazasına) vurmaqla vergi -məbləği müəyyən edilir. Sonda hesablanmış vergi məbləğindən əvəzləşdirilmiş vergi məbləğini çıxmaqla büdcəyə ödənilməli olan vergi məbləği müəyyən edilir.

Hesabat dövründə vergi tutulan dövriyyəsinin azı 50 faizi sıfır dərəcəsi ilə ve^rgiyə cəlb olunan vergi ödəyicisinə, hesabat dövründə əvəzləşdirilən vergi məbləğinin hesablanmış vergidən artıq olan hissəsi onun vergi və ya gömrük orqanlarına ərizəsini verdiyi vaxtdan 45 gün ərzində qaytarılır.

Digər vergi ödəyiciləri üçün əvəzləşdirilən vergi məbləğinin hesabat dövri ərzində hesablanmış vergi məbləğindən artıq olan hissəsi növbəti 3 aya keçirilir və bu ayların ödəmələrinə aid edilir, artıq ödəmənin hər hansı qalığı isə bu 3 ay bitdikdən sonra vergi ödəyicisinin ərizəsinə əsasən 45 gün ərzində büdcədən qaytarılır.

Müəyyən məbləğlərin vergi ödəyicisinə səhvən qaytarıldığı bütün hallarda vergi və ya gömrük orqanları həmin məbləğlərin vergilərin tutulması üçün müəyyən edilmiş qaydada qaytarılmasını tələb etməlidir.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqaviləyə uyğun olaraq beynəlxalq təşkilatın, yaxud xarici hüquqi və ya fiziki şəxsin *əvəzsiz köçürmələri ilə ödənilmiş malları alan və yaxud işlərin və ya xidmətlərin* nəticələrini həmin əsaslarla əldə edən şəxs vergi orqanına elektron vergi hesab-fakturaları verərkən, həmin mallara, işlərə və ya xidmətlərə görə ödənilmiş ƏDV-ni vergi orqanına ərizə verdiyi vaxtdan 45 gün ərzində geri almaq hüququna malikdir.

ƏDV-nin ödəyiciləri olmayan alıcılara pərakəndə mal göndərildiyi (xidmətlər göstərildiyi) hallar istisna olmaqla, ƏDV ödəyicisi kimi qeydiyyatdan keçən və

vergi tutulan əməliyyat aparan şəxs malları, işləri və ya xidmətləri qəbul edən şəxsə *elektron vergi hesab-fakturasmı* verməyə borcludur. ƏDV məqsədləri üçün qeydiyyatdan keçməyən şəxsin vergi hesab-fakturası verməyə hüququ yoxdur.

Elektron vergi hesab-fakturası müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi forma üzrə hazırlanan və özündə aşağıdakı məlumatları əks etdirən sənəddir:

- vergi ödəyicisinin və alıcının (sifarişçinin) adı;
- vergi ödəyicisinin və alıcının (sifarişçinin) eyniləşdirmə nömrəsi;
- yola salınmış malların, görülmüş işlərin və ya göstərilmiş xidmətlərin adı;
- vergi tutulan əməliyyatın haqqının məbləği, həmçinin vergi tutulan əməliyyatın həcmi;

* aksizli mallarda aksizin məbləği;

- vergi tutulan əməliyyatdan ödənilməli olan verginin məbləği;
- elektron vergi hesab-faklurasınm verilmə tarixi;
- elektron hesab-fakturanın sıra nömrəsi;
- ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyicisinin qeydiyyat bildirişini vermiş vergi orqanının adı, bildirişin verilmə tarixi və nömrəsi;
- elektron vergi hesab-fakturasmı imza etmiş məsul şəxsin vəzifəsi, soyadı, adı, atasının adı.

Vergi ödəyicisi malın alıcısına (işlərin, xidmətlərin sifarişçisinə) elektron vergi hesab-fakturasmı mal göndəriləndən (iş görüləndən, xidmət göstəriləndən) sonra 5 gündən gec olmayaraq verməyə borcludur.

Elektron vergi hesab-fakturalarının tətbiqi, uçotu və istifadə qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

*ƏDV-nin ödəyicihri olmayan alıcılara pərakəncb mal göndərildikdə və ya xidmət göstərildikdə^* elektron vergi hesab-fakturası əvəzinə qəbz və ya çek verilə bilər. Qəbzlər, çeklər, müəyyən edilmiş qaydada sifariş edilməyən, çap edilməyən və tərtib edilməyən vergi hesab-fakturalan, nağd aparılan əməliyyatların rəsmiləşdirildiyi sənədlər verginin əvəzləşdirilməsinə əsas vermir və Vergi Məcəlləsinin digər maddələrində göstərilən müddəalardan asılı olmayaraq aparılan əvəzləşdirilmə etibarsız hesab edilir.

Gömrük orqanları tərəfindən verilmiş idxalda ƏDV-nin ödənildiyini göstərən idxal sənədləri ödənişin formasından asılı olmayaraq verginin əvəzləşdirilməsinə əsas verir.

ƏDV üzrə hesabat dövri təqvim ayı sayılır. ƏDV-nin bəyannaməsi hər hesabat dövri üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq verilir.

Mövcud qanunvericiliyə uyğun olaraq vergi ödəyicisi vergi orqanına hər hesabat dövri üçün ƏDV-nin bəyannaməsini verməyə və bəyannamənin verilməsi üçün müəyyən edilən müddətdə hər hesabat dövri üzrə vergini büdcəyə ödəməyə borcludur (yalnız malların idxalı üzrə vergi ödəyicisi olan şəxslər istisna olmaqla).

Vergi ödəyicisi olan hüquqi şəxs ləğv edildikdə və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxsin fəaliyyətinə xitam verildikdə, ƏDV bəyannaməsi müəyyən edilmiş müddətdən gec olmamaq şərti ilə 30 gün müddətində vergi orqanına təqdim edilməlidir. Bu zaman vergi dövrü hesabat dövrü sayılan müddətin əvvəlindən vergi ödəyicisi fəaliyyətini dayandırdığı günə qədər olan dövrü əhatə edir.



Şəkil 3. Əlavə dəyər vergisinin formalaşması sxemi

Vergi tutulan idxal üzrə ƏDV Vergi Məcəlləsi və gömrük qanunvericiliyinə uyğun olaraq gömrük rüsumlarının ödənilməsi üçün nəzərdə tutulan qaydada gömrük orqanları tərəfindən hesablanır və alınır.

Qeydiyyat keçmiş tarixlə apanidıqda, vergi ödəyicisi qeydiyyatın qüvvəyə mindiyi tarixdən etibarən vergiyə cəlb edilən əməliyyatlar üzrə ƏDV ödəməlidir və vergi ödə- yiciləri üçün müəyyən edilmiş qaydada vergi məbləğlərini əvəzləşdirmək hüququna malikdir. Müvafiq əməliyyatlar vergi ödəyicisi tərəfindən verilən birinci bəyannamədə əks etdirilməlidir. Bu əməliyyatlar bəyannamənin verildiyi ay ərzində baş vermiş əməliyyatlar sayılır. Bu halda vergi ödəyicisi bəyannamədə əks etdirilmiş əməliyyatlar üçün ƏDV üzrə hesab-fakturalan təqdim etmək hüququna malikdir.

ƏDV dövlət büdcəsinə ödənilir.

ƏDV-nin düzgün hesablanması və vaxtında büdcəyə ödənilməsi üçün, həmçinin bəyannamələrin vergi orqanlarına müəyyən edilmiş müddətlərdə verilməsi üçün vergi ödəyiciləri və onların vəzifəli şəxsləri Azərbaycan Respublikasının vergi qanunvericiliyinə uyğun olaraq, ƏDV-nin tutulması gömrük orqanlarının səlahiyyətinə aid olduqda isə Azərbaycan Respublikasının gömrük qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

Vergitutmanın idarə edilməsi Vergi Məcəlləsi və Azərbaycan Respublikasının gömrük qanunvericiliyinə uyğun olaraq vergi orqanlan və gömrük orqanları tərəfindən öz səlahiyyətləri daxilində həyata keçirilir.

1.10. Aksizbr

Aksiz - aksizli malların satış qiymətinə daxil edilən dolayı vergi növüdür. Aksiz məbləği malların qiymətinə (xidmətlərin tarifinə) əlavə olunur. Hal-hazırda aksizlər bazar iqtisadiyyatlı bütün ölkələrdə tətbiq olunur. Azərbaycan Respublikasının ərazisində istehsal edilən, yaxud onun ərazisinə idxal olunan aksizli mallardan aksiz tutulur (vergidən azad edilən mallar istisna olmaqla). Aksizlər məhdud mallara görə müəyyən edilir və büdcə gəlirlərinin əsas mənbələrindən biridir.

Çoxmərhələli əlavə dəyər vergisindən fərqli olaraq aksiz vergisi aksizli malların istehsalçısı və aksizli malların respublika ərazisinə idxal edən şəxs tərəfindən bir dəfə ödənilir. Əhalinin aztəminatlı təbəqəsinə aksizlərin neqativ təsirini azaltmaq üçün bu vergi növü adətən istehsalına az xərc çəkilən və yüksək tələbata malik olan mallara (spirtli içkilərə, tütün məmulatlarına, benzinə) tətbiq edilir. Dövlət ak- sizlərdən, dəyişən iqtisadi şəraitə uyğun şəkildə iqtisadi tənzimləmə və fiskal alət kimi istifadə edir.

Bütün dolayı vergilər kimi aksizlər də əmtəənin qiymətini formalaşdırır və faktiki olaraq onun ödənilməsi vəzifəsi alıcının üzərinə keçirilir. Formal olaraq bu verginin ödəyiciləri aksizli məhsul istehsal edən və satan müəssisələrdir. Lakin aksiz məbləği əmtəənin qiymətinə daxil edildiyindən, faktiki olaraq onun ödəyiciləri həmin malların istehlakçıları kimi çıxış edir. Lakin əlavə dəyər vergisindən fərqli olaraq aksiz vergisinə malın dəyərinin bir hissəsi deyil, onun tam dəyəri cəlb olunur.

Azərbaycan Respublikası ərazisində aksizliVha!larin istehsalı və ya idxalı ilə məşğul olan bütün hüquqi və fiziki şəxslər, habelə Azərbaycan Respublikasının hüdudlarından kənarda bilavasitə özü və ya podratçı vasitəsilə aksizli mallar istehsal edən və istehsal etdiyi yerdə vergi ödəyicisi kimi uçotda olmayan Azərbaycan Respublikasının rezidentləri *aksizin ödəyicihridirhr.*

Sifarişçinin göndərdiyi xammaldan Azərbaycan Respublikası ərazisində mallar istehsal edildiyi hallarda, malların istehsalçısı (podratçı) aksizin ödəyicisi- dir. Bu halda istehsalçı (podratçı) aksiz məbləğlərini sifarişçidən almalıdır.

Azərbaycan Respublikasının ərazisində istehsal edilən aksizli malların istehsal binasının hüdudlarından kənara buraxılması və idxal mallarının gömrük xidməti nəzarətindən çıxması üzrə əməliyyatlar aksizlərin *vergitutma obyektidir,*

Azərbaycan Respublikası ərazisində istehsal olunan neft məhsulları və tütün məmulatları üçün vergi tutulan əməliyyatın məbləği - vergi ödəyicisinin müştəridən və ya hər hansı digər şəxsdən (o cümlədən barter əsasında) aldığı (almalı olduğu) haqqın topdansatış bazar qiymətindən (aksiz və ƏDV çıxılmaqla) aşağı olmayan məbləğidir. Azərbaycan Respublikası ərazisində istehsal olunan digər aksizli mallar üçün vergi tutulan əməliyyat istehsal olunan malların miqdarı hesab olunur.

İdxal malları üçün (minik avtomobilləri, istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr istisna olmaqla) vergi tutulan əməliyyatın məbləği - Gömrük Məcəlləsinə uyğun olaraq müəyyən edilən, lakin topdansatış bazar qiymətindən aşağı olmayan malların gömrük dəyəridir (aksiz və ƏDV çıxılmaqla).

İdxal olunan minik avtomobilləri, istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrə görə vergi tutulan əməliyyat - onların mühərrikinin həcmidir.

/ Azərbaycan Respublikası ərazisində istehsal olunan mallar üçün mallann istehsal binasının hüdudlarından kənara buraxıldığı vaxt vergi tutulan əməliyyatın vaxtıdır.

Malların idxalı üçün A/.ərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq aksizli malların gömrük xidmətinin nəzarətindən çıxdığı vaxt, vergi tutulan əməliyyatın vaxtıdır.

Vergi Məcəlləsinə əsasən aşağıdakılar *aksiz vergisindən azad edilir: y* fiziki şəxsin fərdi istehlakı üçün 3 litr alkoqollu içkinin və 600 ədəd siqaretin idxalı, həmçinin Azərbaycan Respublikasına avtomobillərlə gələn şəxslər üçün həmin avtomobilin texniki pasportu ilə nəzərdə tutulmuş bakındakı yanacaq; ^ Azərbaycan Respublikası ərazisindən tranzitlə daşınan mallar;

^ malların Azərbaycan Respublikası ərazisinə müvəqqəti idxalı; təkrar ixrac üçün nəzərdə tutulan və girovla təminat verilən mallar.

Vergi ödəyicilərinə sözügedən güzəştlər o halda verilir ki gömrük rüsumlarından azad olmaların şərtlərinə əməl edilmiş olsun. Əgər azadolmanın şərtləri pozulduğu üçün gömrük rüsumunun ödənilməsi tələb edilərsə, onda həmən rejim aksizin tutulmasına da tətbiq olunur.

İxrac olunan aksizli mallar sıfır (O) dərəcə ilə vergiyə cəlb olunur.

Aşağıdakı mallar aksizli mallara aid edilir: içməli
spirt, pivə və spirtli içkilərin bütün növləri; tütün
məmulatları; neft məhsulları;
minik avtomobilləri (xüsusi nişan və avadanlıqlarla təchiz olunmuş xüsusi təyinatlı avtonəqliyyat vasitələri istisna olmaqla);

^ istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr.

Azərbaycan Respublikasına idxal edilən aksizli mallara (minik avtomobilləri, istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr istisna olmaqla) aksizlərin dərəcələri Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Azərbaycan Respublikasında istehsal olunan içməli spirtə, pivəyə, spirtli içkilərə və tütün məmulatlarına aşağıdakı aksiz dərəcələri tətbiq edilir:

> içməli spirt (o cümlədən tərkibində 80 faizdən az spirt olmayan denaturlaşdırılmamış etil spirti; tərkibində 80 faizdən az spirt olan denaturlaşdınimamış etil spirti) - hər litrinə 0,8 manat;
> araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, lik- yor və likyor məmulatları - hər litrinə 0,5 manat;
> konyak və konyak materialları - hər litrinə 0,2 manat;
> şampan şərabı - hər litrinə 0,2 manat;
> şərablar vo şərab materialları - hər litrinə 0,1 manat;
> pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilər - hər litrinə 0,08 manat;
> bütün növ tütün məmulatları - 12,5 faiz.

Azərbaycan Respublikasına idxal olunan minik avtomobillərinə, istirahət və ya idman üçün yaxtalara və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrə 1 saylı cədvəldə göstəriləni aksiz dərəcələri tətbiq edilir.

Azərbaycan Respublikasında istehsal olunan neft məhsullarına, minik avtomobillərinə və istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr aksiz dərəcələri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Aksizli malları (xammal və materialları) alan və onları vergi tutulan digər aksizli malların istehsalı üçün istifadə edən şəxs, malları alarkən ödənilmiş aksiz məbləğini əvəzləşdirmək və ya geri almaq hüququna malikdir.

Aksizin məbləği yalnız xammal və materiallann istehsalçısı tərəfindən aksi- zin ödənildiyini təsdiq edən hesab-faktura, idxal zamanı isə - müvafiq sənədlər vergi orqanına verildiyi zaman əvəzləşdirilir (geri qaytarılır). Tutulmuş aksiz məbləği sənədlər vergi orqanına verildikdən sonra 45 gün ərzində vergi ödəyicisinə qaytarılır.

Sonradan təkrar ixrac məqsədi ilə idxal olunan mallar (vergidən azad edilən idxal malları istisna olmaqla) üçün aksiz vergisi malların idxalı vaxtı ödənilir və sonradan təkrar ixracın faktiki həcminə müvafiq məbləğdə vergini almış gömrük orqanları tərəfindən 15 gün ərzində geri qaytarılır.

Cədvəl 3

Vergitutma obyektinin adı	Vergi dərəcəsi
Minik avtomobilləri:	
■ mühərrikin həcmi 2000 kub santimetrədək olduqda	Mühərrikin həcminin hər kub santimetrinə görə - 0,15 manat
■ mühərrikin həcmi 3000 kub santimetrədək olduqda	300 manat + mühərrikin həcminin 2001-3000 kub santimetr hissəsi üçün hər kub santimetrə görə-1 manat
■ mühərrikin həcmi 4000 kub santimetrədək olduqda	1300 manat + mühərrikin həcminin 3001-4000 kub santimetr hissəsi üçün hər kub santimetrə görə - 2 manat
■ mühərrikin həcmi 4000 kub santimetrdən çox olduqda	3300 manat » mühərrikin həcminin 4000 kub santimetrindən çox hissəsi üçün hər kub santimetrə görə 4 manat
Lstirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr	Mühərrikin həcminin hər kub santimetrinə görə 1 manat

Aksizhr üzrə hesabat dövri təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövri üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməlidir.

Vergi ödəyicisinin aksizin ödənişi üzrə borcu varsa, həmin borc yaranandan ödənilənədək həyata keçirilən vergi tutulan əməliyyatlar üzrə aksizlər həmin əməliyyatların aparıldığı vaxt ödənilir və vergi ödəyicisinin həmin malları bu mallar üzrə aksizi ödəyənədək istehsal binasının hüdudlarından kənara çıxartmağa hüququ yoxdur.

Aksizli mallar idxal edildikdə, aksiz gömrük orqanları tərəfindən gömrük rüsumlarının tutulduğu qaydada tutulur.

Aksizlər dövlət büdcəsinə ödənilir.

Vergi ödəyicisi verginin ödənilməsi üçün nəzərdə tutulmuş müddətlərdə, hesabat dövri ərzində vergi tutulan əməliyyatlarını göstərməklə bəyannamə verməlidir.

Vergi ödəyicisi olan hüquqi şəxs ləğv edildikdə və sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxsin fəaliyyətinə xitam verildikdə, aksiz bəyannaməsi nəzərdə tutulmuş müddətdən gec olmamaq şərti ilə 30 gün müddətində vergi orqanına təqdim edilməlidir. Bu zaman vergi dövrü hesabat dövrü sayılan müddətin əvvəlindən vergi ödəyicisi fəaliyyətini dayandırdığı günə qədər olan dövrü əhatə edir.

Aksizin ödəyicisi əvəzləşdirmə üçün ərizəni aksizin ödənilməsinə dair bəyannamə ilə birlikdə vergi orqanına verir.

Aksizli mallara (o cümlədən idxal mallarına) aksiz markalarının tətbiqi qaydaları Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Aksizli malları markasjz idxal etmək, saxlamaq (şəxsi məqsədlər üçün istisna olmaqla) və ya satmaq qadağandır və qanunvericilikdə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Vergi orqanları markalanmalı olan aksizli'malları i.stehsal edən vergi ödəyiciləri tərəfindən müəyyən edilmiş tələblərin pozulması hallarını müəyyən etdikdə, vergi ödəyicilərinin müvafiq bina və anbarlarında (şəxsi istehlak üçün anbarlar istisna olmaqla) nəzarət postları, ölçü cihazları, plomblar qurmaqla və digər tədbirləri görməklə aksizli malların uçota alınmadan, markalanmadan, aksizlər üzrə vergi borcu olduğu hallarda və müəyyən edilmiş prosedura uyğun olaraq aksizləri ödəmədən istehsal binasının hüdudlarından kənara çıxarılmasının qarşısının alınmasını təmin etməyə səlahiyyətlidirlər.

Nəzarət postları Vergilər Nazirliyinin qərarına əsasən telefon və digər zəruri avadanlıqla təchiz edilməklə, markalanmalı olan aksizli mallan istehsal edən vergi ödəyicilərinin istehsal sahələrinin əsas giriş və çıxış qapısının yaxınlığında yaradılır.

Nəzarət postları yaradıldıqda, markalanmalı olan aksizli malları istehsal edən vergi ödəyicilərinin texnoloji avadanlıqlarının, ölçü vasitələrinin və laboratoriya cihazlarının texniki sazlığının, standartlara uyğunluğunun yoxlanılması və həmin cihazların plomblanması müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

Nəzarət postlarının işçiləri aksiz markalarının qalıqlannı inventarizasiya etməklə, istehsal həcmi üzrə nəzarət-ölçü cihazlarını, xammal, material və hazır məhsul anbarlarını, istehsal sahələrindəki texnoloji avadanlıqları plomblamaqla eləcə də hazır məhsul satılarkən mallann ilkin təsdiqedici sənədlərinə (qaiməsinə, mal-nəqliyyat qaiməsinə, vergi hesab-fakturasına və s.) baxış keçirməklə markalan- malı olan malların markalanmaqla istehsal sahələrindən kənara çıxarılmasına, hazır məhsulun anbara və oradan alıcılara buraxılmasına, markalarının yapışdırılması qaydalarına riayət olunmasına nəzarət edirlər.

İstehsal həcmi üzrə nəzarət-ölçü cihazlarının, xammal, material və hazır məhsul anbarlannın, istehsal sahələrindəki texnoloji avadanlıqların plomblanması nəzarət postlannın işçiləri tərəfindən istehsalçının nümayəndəsi ilə birlikdə vergi orqanının təsdiq etdiyi forma üzrə kitabda müvafiq qeydlər, o cümlədən istehsal həcmi üzrə nəzarət-ölçü cihazlarının göstəriciləri barədə qeydlər aparmaqla, iş gününün sonunda, növbələrarası fasilədə, həmçinin lisenziyalann qüvvədə olma müddətinin dayandınıması və ya onlann ləğv edilməsi, hazır məhsulun markalanması üçün aksiz markalarının, istehsal üçün xammalın, yardımçı və qabaşdıncı materialların olmaması, habelə texniki səbəblərdən avadanlığın daha uzun müddət dayanması zamanı həyata keçirilir.

Avadanlığın dayandırılması zamanı istehsal güclərinin qapanması istehsal üzrə texnoloji xətlərin və avadanlığın elə yerlərdə plomblanması vasitəsilə həyata keçirilməlidir ki, onlardan istifadə edilməsi mümkün olmasın.

Plomblann vurulması və çıxaniması nəzarət postunun işçiləri və istehsalçının nümayəndəsinin iştirakı ilə müvafiq aktla rəsmiləşdirilməlidir.

Nəzarət postlarının işçiləri işə başladığı vaxtda nəzarət postlarında olmadıq- da, istehsalçının məsul şəxsləri tərəfindən vergi orqanına məlumat verilməklə, səbəbi və vaxtı göstərilməklə müvafiq akt tərtib edilərək, plomblar açıla bilər.



Şəkil 4. Aksiz vergisinin formalaşması sxemi

Nəzarət postlarının işçiləri satışa buraxılan hazır məhsulların sənədlərində göstərilən sayının, həcminin, çəkisinin onların faktiki sayı, həcmi və çəkisi ilə düzgünlüyünü yoxlamalı və sənədlərdəki göstəriciləri xüsusi jurnalda qeyd etməlidirlər. Bundan sonra nəzarət postlarının işçiləri malların ilkin təsdiqedici sənədlərində (qaimə, mal-nəqliyyat qaiməsi, vergi hesab-faktura və s.) «buraxılışa icazə verilin) qeydini aparmalıdırlar.

Plomblarm vurulması və çıxarılması arasındakı müddətdə nəzarət-ölçü cihazlarının göstəricilərində dəyişikliklər edildikdə, texnoloji avadanlıqlardakı plomblar zədələndikdə, istehsal olunmuş məhsulların aksiz markası ilə markalan- masmda, tam uçota alınmasında, aksiz markalarının inventarizasiyasında kənarlaşma aşkar edildikdə, eləcə də Vergi Məcəlləsinin 191.2-ci maddəsinin tələblərini pozmaqla hazır məhsulun istehsal sahəsindən kənara çıxarılması müəyyən edildikdə, nəzarət postunun işçiləri müvafiq akt tərtib etməli, bu barədə dərhal vergi orqanına məlumat verməlidirlər.

1.11. Yol vergisi

Yol vergisinin tətbiq edilməsində əsas məqsəd avtomobil yollarından istifadəyə görə Azərbaycan Respublikasının ərazisinə daxil olan və ölkə ərazisindəki av-tonəqli>7at vasitələri sahiblərinin vergiyə cəlb edilməsidir.

Azərbaycan Respublikasının ərazisinə daxil olan və həmin ərazidən sərnişin və yük daşınması üçün istifadə edən avtomobil nəqliyyatı vasitələrinin sahibləri olan qeyri-rezident müəssisələri və qeyri-rezident fiziki şəxslər, habelə Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində minik avtomobilləri, avtobuslar və digər avtomobil nəqliyyatı vasitələri (avtomobil nəqliyyatı vasitələri) olan şəxslər Azərbaycan Respublikasının avtomobil yollarından istifadəyə görə yol vergisinin ödəyiciləridir.

Azərbaycan Respublikasının ərazisinə daxil olan və Vergi Məcəlləsinin 211.1.1-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının ərazisini tərk edən /.aman yol vergisinə cəlb olunmalı hallarda xarici dövlətlərin, habelə Azərbaycan Respublikasının ərazisində şəxslərin mülkiyyətində və ya istifadəsində olan avtonəqliy>'at vasitələri vergitutma obyektidir.

Avtonəqliyyat vasitələrinin növündən, oluracaqlarının sayından, yük götürmə qabiliyyətindən və avtonəqliyyat vasitəsinin yüklə birlikdə ümumi çəkisindən, oxa düşən ağırlığından, Azərbaycan Respublikası ərazisində qət edilən məsafədən, təhlükəli yüklərin daşınmasından asılı olaraq, Azərbaycan Respublikasının əraz.isi- nə daxil olan xarici dövlətlərin avtonəqliyyat vasitələrindən, habelə Azərbaycan Respublikasının ərazisində şəxslərin mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələrinin mühərriklərinin həcmindən asılı olaraq, avtonəqliyyat vasitələrindən vergi aşağıdakı dərəcələrlə hesablanır:

Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin avtomobil nəqliyyatı vasitələrindən:

■Ceminik avtomobilləri üçün mühərriklərinin həcmindən və Azərbaycan Respublikasının ərazisində qaldığı müddətdən asılı olaraq:

Cədvəl 4

ölkə əra/lsində ; qaldığı müddət	Mühərrikin həcmi 2000 kub santimetrədək olduqda	I Mühərrikin həcmi 2000- j 4000 kub santimetrədək olduqda	Mühərrikin həcmi 4000 j kub santimetrdən çox olduqda
1 aya qədər	15 ABŞ dolları	20 ABŞ dolları	40 ABŞ dollan
3 aya qədər	30 ABŞ dolları	40 ABŞ dollan	60 ABŞ dolları
1 ilə qədər	40 ABŞ dolları	80 ABŞ dollan	120 ABŞ dollan
1 ildən yuxan	40 ABŞ dollan -• 1 İldən artıq qalan hər gün üçün 0,5 ABŞ dollan	80 ABŞ dolları + 1 ildən artıq qalan hər gün üçün 0,6 ABŞ dollan	120 ABŞ dollan -^1 ildən artıq qalan hər gün üçün 1,2 ABŞ dollan

avtobuslar üçün oturacaq yerlərinin sayından və Azərbaycan Respublikasının ərazisində qaldığı müddətdən asılı olaraq:

Cədvəl 5

Ölkə ərazisində qaldığı müddət	Oturacaq yerlərinin sayı 12-dək olanda	Oturacaq yerlərinin sayı 13-dən 30-dək olanda	Oturacaq yerlərinin sayı 31 və çox olanda
1 gün üçün	15 ABŞ dolları	20 ABŞ dollan	25 ABŞ dolları
1 həftəyədək	30 ABŞ dollan	40 ABŞ dolları	50 ABŞ dolları
1 aya qədər	100 ABŞ dollan	140 ABŞ dollan	175 ABŞ dolları
3 aya qədər	300 ABŞ dollan	400 ABŞ dollan	500 ABŞ dollan
1 ilə qədər	1050 ABŞ dolları	1400 ABŞ dollan	1750 ABŞ dolları
1 ildən yuxan	1050 ABŞ dollan + 1 ildən artıq qaldığı hər gün üçün 12 ABŞ dolları	1400 ABŞ dollan ? lildən artıq qaldığı hər gün üçün 15 ABŞ dolları	1750 ABŞ dollan + 1 ildən artıq qaldığı hər gün üçün 20 ABŞ dolları

yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri üçün oxların sayından və Azərbaycan Respublikasının ərazisində qaldığı müddətdən asılı olaraq:

Cədvəl 6

Ölkə ərazisində qaldığı müddət	⌈■ ---------- i **4** (dörd) oxa 'qədər olanda ;" **4** (dörd) ox və çox olanda |	
1 gün üçün	20 ABŞ dolları j" 30 ABŞ dolları ;	
2 həftəyədək	40ABŞdollan i 80 ABŞ dolları	
i aya qədər	140 ABŞ dolları	280 ABŞ dolları
3 aya qədər	400 ABŞ dolları	800 ABŞ dolları
1 ilə qədər	1400 ABŞ dolları	2800 ABŞ dolları
1 ildən yuxarı L	1400 ABŞ dolları + 1 ildən artıq qaldığı hər gün üçün 15 ABŞ dolları	2800 ABŞ dolları -ı- 1 ildən artıq qaldığı hər gün üçün 30 ABŞ dolları

6 caylı cədvəldə göstərilən verginin məbləği ağır çəkili avtonəqliyyat vasitələri ilə yüklərin daşınmasına görə Azərbaycan Respublikasının ərazisində qət edilən yolun hər kilometri üçün aşağıdakı qədər artınlır:

nəqliyyat vasitələrinin yüklə birlikdə ümumi çəkisi:

- 37 tondan 41 tonadək olduqda - 0,15 ABŞ dolları;
- 41 tondan 51 tonadək olduqda - 0,30 ABŞ dolları;
- 51 tondan 61 tonadək olduqda-0,45 ABŞ dolları;
- 61 tondan 71 tonadək olduqda - 0,60 ABŞ dolları;
- 71 tondan 81 tonadək olduqda - 0,75 ABŞ dolları;
- 81 tondan çox olduqda - 1,8 ABŞ dolları.

Təhlükəli yüklərin daşınmasına görə 6 saylı cədvəldə göstərilən verginin məbləği aşağıdakı qədər artırılır:

Cədvəl 7

Ölkə ərazisində qaldığı müddət	4(dörd)1 oxa qədər olduqda			4(dörd) ox və çox olduqda		
	az təhlükəli yüklər üçün	təhlükəli yüklər üçün	xüsusi təhlükəli yüklər üçün	az təhlükəli yüklər üçün	təhlükəli yüklər üçün	xüsusi təhlükəli yüklər üçün
1 gün üçün	20 ABŞ dolları	40 ABŞ dolları	80 ABŞ dollan	30 ABŞ dollan	60 ABŞ dollan	120 ABŞ dollan
2 həftəyədək	40 ABŞ dolları	80 ABŞ dolları	160 ABŞ dolları	80 ABŞ dollan	160 ABŞ dolları	320 ABŞ dollan
1 aya qədər	140 ABŞ dolları	280 ABŞ dolları	560 ABŞ dollan	280 ABŞ dolları	560 ABŞ dollan	1120 ABŞ dollan
3 aya qədər	400 ABŞ dollan	800 ABŞ dolları	1600 ABŞ dollan	800 ABŞ dollan	1600 ABŞ dollan	3200 ABŞ dollan
1 ilə qədər	1400 ABŞ dolları	2800 ABŞ dollan	5600 ABŞ dolları	2800 ABŞ dollan	5600 ABŞ dollan	11200 ABŞ dollan
I ildən yuxan	1400 ABŞ dollan+ 1 ildən artıq qaldığı hər gün üçün 15 ABŞ dolları	2800 ABŞ dollan+ 1 İldən artıq qaldığı hər gün üçün 30 ABŞ dolları	5600 ABŞ dollan + 1 ildən artıq qaldığı hər gün üçün 60 ABŞ dolları	2800 ABŞ dolları+ 1 ildən artıq qaldığı hər gün üçün 30 ABŞ dolları	5600 ABŞ dollan+ 1 ildən artıq qaldığı hər gün üçün 60 ABŞ dolları	11200 ABŞ dolları+ 1 ildən artıq qaldığı hər gün üçün 120 ABŞ dolları

Azərbaycan Respublikasının ərazisinə daxil olan və bəyan edilmiş müddətdən artıq ölkə ərazisində qalan xarici dövlətlərin avtonəqliyyat vasitələri üçün Azərbaycan Respublikasının ərazisini tərk edən zaman ölkə ərazisində artıq qaldığı müddətdən asılı olaraq ödənilməli olan yol vergisinin yekun məbləği hesablanmış yol vergisinin məbləğindən ölkə ərazisinə daxil olarkən ödənilmiş yol vergisinin məbləği çıxılmaqla hesablanır.

Azərbaycan Respublikası ilə xarici dövlətlər arasında qüvvədə olan beynəlxalq avtomobil əlaqələri haqqında hökumətlərarası sazişlərə əsasən kvotalar çərçivəsində mübadilə edilmiş «İcazə» blanklan ilə Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici ölkələrin avtonəqliyyat vasitələri üçün yol vergisi ödəmələrində azadolmalar nəzərdə tutulduğu hallarda daxil olduqları andan 30 gün sonra ölkədə əlavə qaldıqları müddətdən asılı olaraq, 2 və 3 saylı cədvəllərdə göstərilən dərəcələrlə (məcəllənin 211.1.1.2-ci və 211.1.1.3-cü maddələrinə uyğun olaraq) yol vergisinə cəlb edilirlər.

Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan şəxslər (kənd təsərrüfatı məhsullarının istehsalında istifadə olunan kənd təsərrüfatı texnikası (traktorlar, kombayn və yığım maşınları, pambıq yığan maşınlar) və büdcə təşkilatlarının avtomobil nəqliyyatı vasitələri istisna olmaqla) illik yol vergisini həmin avtonəqliyyat vasitələrinin mühərrikinin həcminə görə 4 saylı cədvəldə göstərilən dərəcələrlə ödəyirlər.

Xarici dövlətlərin avtonəqliyyat vasitələrindən Vergi Məcəlləsinin 211.1.-ci maddəsində müəyyən edilmiş vergini həmin avtonəqliyyat vasitələri Azərbaycan Respublikasının gömrük ərazisinə daxil olan zaman və Vergi Məcəlləsinin21 l.I.l- ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının ərazisini tərk edərkən yol vergisinə cəlb olunmalı hallarda gömrük orqanları tuturlar və bir bank günü ərzində dövlət büdcəsinə keçirirlər.

Cədvəl 8

Vergitutma obyektinin adı	Vergi dərəcəsi
Minik avtomobilləri, avtobuslar və digər avtomobil nəqliyyatı vasitələri	
■ mühərrikin həcmi 2000 kub santimetrədək olduqda	20 manat
• mühərrikin həcmi 2000-3000 kub santimetrədək olduqda	20 manat + mühərrikin həcminin 2000 kub santimetrdən çox olan hissəsinin hər kub santimetrə görə - 0,02 manat
■ mühərrikin həcmi 3000-4000 kub santimetrədək olduqda	40 manat + mühərrikin həcminin 3000 kub santimetrdən çox olan hissəsinin hər kub santimetrə görə - 0,03 manat
■ mühərrikin həcmi 4000-5000 kub santimetrədək olduqda	70 manat + mühərrikin həcminin 4000 kub santimetrdən çox olan hissəsinin hər kub santimetrə görə 0,04 manat
" mühərrikin həcmi 5000 kub santimetrdən çox olduqda	110 manat + mühərrikin həcminin 5000 kub santimetrdən çox olan hissəsinin hər kub santimetrə görə - 0,05 manat

Müəyyən edilmiş qaydada yol vergisinin ödənilməsini təsdiq edən müvafiq sənədlər təqdim edilmədiyi hallarda, avtonəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparan Daxili İşlər Nazirliyinin Dövlət Avtomobil Müfəttişliyi tərəfindən həmin avtonəqliyyat vasitələrinin qeydiyyatı, yenidən qeydiyyatı və texniki baxışı keçirilmir.

Azərbaycan Respublikasının ərazisinə təqvim ilinin sonu vəziyyətinə mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitəsi olan hüquqi şəxslər, yol vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edir və həmin müddətədək yol vergisini dövlət büdcəsinə ödəyirlər.

Azərbaycan Respublikasının ərazisinə təqvim ilinin sonu vəziyyətinə mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitəsi olan fiziki şəxslər illik yol vergisini avtomobillər texniki baxışdan keçən zaman ödəyirlər.

Avtonəqliyyat vasitələrinin dövlət qeydiyyatını keçirən Dövlət Avtomobil Müfəttişliyi hər hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq yeni qeydiyyata alınmış və qeydiyyatdan çıxarılmış avtonəqliyyat vasitələri barədə məlumatı Daxili İşlər Nazirliyinin müəyyən etdiyi formada Vergilər Nazirliyinə təqdim edir.

1.12. Sadələşdirilmiş vergi

Sadələşdirilmiş vergitutma sisteminin tətbiq edilməsində əsas məqsəd, ilk növbədə kiçik sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər üçün "vergilərin hesablanması, bununla əlaqədar mühasibat uçotunun aparılması və müvafiq olaraq vergilərin hesablanıb tam və vaxtında büdcəyə ödənilməsi üzərində dövlət nəzarətinin həyata keçirilməsi prosedurunu mümkün qədər sadələşdirmək və kiçik biznesin inkişafı üçün lazımı şərait yaratmaqdır. Çünki kiçik sahibkarlıqla məşğul olan vergi ödəyicilərinin iri şirkətlərdə olduğu kimi mühasibat və vergi uçotunun aparılmasını təşkil etmək imkanı yoxdur.

Aşağıda göstərilən şəxslər sadələşdirilmiş verginin ödəyiciləridirlər:

1. Vergi Məcəlləsinin XI fəslinin müddəaları nəzərə alınmaqla, ƏDV məqsədləri üçün qeydiyyata alınmamış və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlann həcmi 120.000 manat və ondan az olan şəxslər.
2. Mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər (mülkiyyətində və ya icarəsində olan, habelə məqsədli şəkildə ayrılan ərazidə (torpaq sahəsində) özünəməxsus və ya cəlb edilən vəsait hesabına əhalinin fərdi (şəxsi) ehtiyaclarını ödəmək və ya kommersiya məqsədləri üçün öz gücü ilə və yaxud müvafiq ixtisaslı peşəkar sifarişçi və ya podratçı cəlb etməklə bina tikdirən, habelə bu tikintinin və ya başa çatmış obyektin mülkiyyətçisi olan hüquqi və ya fiziki şəxslər.
3. Mülkiyyətində (istifadəsində) olan avtonəqliyyat vasitələri ilə (o cümlədən taksi ilə) Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) və yaxud həmin daşımalan müqavilə əsasında digər şəxslər vasitəsi ilə həyata keçirən şəxslər.
4. İdman mərc oyunlarının operatoru və satıcıları olan şəxslər.

2 və 3-cü bənddə göstərilən vergi ödəyiciləri istisna olmaqla, digər sadələşdirilmiş verginin ödəyiciləri hər il aprel ayının 20-dən gec olmayaraq, müvafiq bəyannaməni və ya bu hüquqdan istifadə etməyəcəyi barədə yazılı məlumatı uçotda olduqları vergi orqanına təqdim edirlər. Vergi ödəyicisinin təqvim ilinin sonunadək seçdiyi metodu dəyişdirmək hüququ yoxdur. Vergi ödəyicisi qeyd olunan müddətdə bəyannaməni və ya yazılı məlumatı təqdim etmədikdə, vergi orqanı vergi ödəyicisinin əvvəlki vergi ilində seçdiyi metodu tətbiq edir. İl ərzində yeni fəaliyyətə başlayan vergi ödəyicisi vergi uçotuna durmaq üçün ərizədə qeyd etdiyi metodu tətbiq edir.

Aşağıda göstərilən şəxslərin sadələşdirilmiş vcrgitutma sistemini tətbiq etmək hüququ yoxdur:

^ aksizli mallar istehsal edən şəxslər;

kredit və sığorta təşkilatlan, investisiya fondları, qiymətli kağızlar bazarının peşəkar iştirakçıları, lombardlar; qeyri-dövlət pensiya fondları;

əmlakın icarəyə verilməsindən və royaltidən gəlir əldə edənlər;

* müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş təbii inhisar subyektləri;

mülkiyyətində olan əsas vəsaitlərin ilin əvvəlinə (sərnişin və yük daşımalannı həyata keçirən şəxslər istisna olmaqla) qalıq dəyəri 1000000 manatdan artıq olanlar.

Hesabat dövri ərzində vergi ödəyicisi tərəfindən təqdim edilmiş mallara (işlərə, xidmətlərə) və əmlaka görə əldə edilmiş ümumi hasilatın, habelə satışdankə- mar gəlirlərin həcmi (ödəmə mənbəyində vergi tutulmuş gəlirlər istisna edilməklə) vergitutma obyektidir.

Mülkiyyətində (istifadəsində) olan avtonəqliyyat vasitələri ilə (o cümlədən taksi ilə) Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalannı (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) həyata keçirən vergi ödəyiciləri- nin mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri vergitutma obyektidir.

Mənzil tikintisi fəaliyyətini həyata keçirən şəxslər üçün zirzəmilər, mərtəbələr və çardaqlar daxil olmaqla, tikilən binanın ümumi sahəsi (dövlətə ayrılan hissə, dövlət büdcəsi, büdcədənkənar fondlar, dövlət zəmanəti və dövlətə ayrılan yardımlar hesabına tikilən yaşayış sahəsi, başqa tikintilərlə təmasda olmayan ayrıca tikilən fərdi şəxsi yaşayış və ya bağ evlərinin, yaxud tikililərinin sahəsi istisna olmaqla) vergitutma obyektidir.

İdman mərc oyunlarının operatoru üçün oyun iştirakçılarından qəbul edilmiş pul vəsaiti, idman mərc oyunlarının satıcısı üçün isə operatorun ona verdiyi komisyon haqq sadələşdirilmiş verginin vergitutma obyektidir.

Sadələşdirilmiş vergini ödəyən (avtonəqliyyat vasitələri sərnişin və yük daşımalarını həyata keçirən şəxslər istisna olmaqla) hüquqi şəxslər ƏDV-nin, mənfəət vergisinin və əmlak vergisinin, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər bu fəaliyyət üzrə gəlir vergisinin və ƏDV-nin ödəyicisi deyildirlər.

Mənzil tikintisi fəaliyyəti ilə məşğul olan sadələşdirilmiş vergi ödəyicisi olan hüquqi şəxslər mənfəət vergisinin və əmlak vergisinin, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər bu fəaliyyət üzrə gəlir vergisinin ödəyicisi deyildirlər.

Sadələşdirilmiş vergi malların təqdim edilməsindən, işlərin görülməsindən, xidmətlərin göstərilməsindən əldə etdiyi vəsaitin məbləğindən (ümumi hasilatının həcmindən) və satışdankənar gəlirlərdən aşağıdakı dərəcə ilə hesablanır:

Bakı şəhəri üzrə	4 faiz
Digər şəhər və rayonlarda, Naxçıvan Muxtar Respublikasında	2 faiz

Bakı şəhəri istisna olmaqla, Azərbaycan Respublikasının digər şəhər və rayonlarında, **o** cümlədən Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən vergi ödəyicilərinə həmin regionlar üzrə müəyyən edilmiş vergi dərəcəsi o halda tətbiq edilir ki, vergi ödəyiciləri özünün istehsal sahəsi, daşınmaz əmlakı və işçi qüvvəsi ilə həmin ərazilərdə fəaliyyət göstərmiş olsun.

Azərbaycan Respublikasının şəhər və rayonlarında, Naxçıvan Muxtar Respublikasında vergi uçotuna alınmış, lakin Bakı şəhərində fəaliyyət göstərən vergi ödəyiciləri vergini Bakı şəhəri üzrə müəyyən olunmuş vergi dərəcəsi ilə ödəyirlər.

Müxtəlif vergi dərəcələri ilə vergiyə cəlb edilən gəlirlər üzrə uçot ayrı-ayrılıqda aparılmalıdır. Belə uçot apanlmadıqda ən yüksək vergi dərəcəsi tətbiq edilir.

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri üçün sadələşdirilmiş vergi aşağıdakı kimi müəyyən edilir:

Daşınma növü	Sadələşdirilmiş verginin tətbiq edildiyi ölçü vahidi	Sadələşdirilmiş verginin aylıq məbləği (manatla)
Sərnişin daşınması (taksi istisna olmaqla), oturacaq yerlərinin sayına görə	1 oturacaq yeri	1,8 manat
Taksi ilə sərnişin daşınması	1 ədəd nəqliyyat vasitəsi	9 manat
Yük daşınması	/ükgötürmə qabiliyyəti üçün (hər tona)	1 manat

Yük və sərnişin daşınmasının növündən və həyata keçirildiyi ərazidən asılı olaraq, sərnişin və yük daşıyan vergi ödəyiciləri üçün sadələşdirilmiş məbləğinə aşağıdakı əmsallar tətbiq edilməklə müəyyən edilir:

- Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) və Bakı şəhəri ilə ölkənin digər yaşayış məntəqələri arasında - 2,0;

- Abşeron rayonu, Sumqayıt, Gəncə şəhərlərimdə və həmin rayon və şəhərlərlə digər yaşayış məntəqələri arasında - 1,5;
- digər şəhər və rayonlarda və həmin şəhər və rayonlarla digər yaşayış məntəqələri arasında -1,0.

Avtomobil nəqliyyatı vasitələrində (taksi istisna olmaqla) oturacaq yerlərinin sayı və ya yük götürmə qabiliyyəti avtomobil nəqliyyatı vasitələrinin qeydiyyat şəhadətnaməsinə əsasən müəyyən edilir.

Avtomobil nəqliyyatı vasitələrindəki (taksi istisna olmaqla) oturacaq yerlərinin sayı və ya yükgötürmə qabiliyyəti avtomobil nəqliyyatı vasitələrinin qeydiyyat şəhadətnaməsində göstərilmədikdə, həmin göstəricilər müvafiq icra hakimiyyəti orqanı tərəfindən vergi orqanlarına verilmiş arayışlar əsasında müəyyən edilir. Oturacaq yerlərinin sayını avtomobil nəqliyyatı vasitələrinin qeydiyyat şəhadətnaməsi və ya Daxili İşlər Nazirliyi tərəfindən verilmiş arayışlar əsasında müəyyən etmək mümkün olmadıqda, sadələşdirilmiş verginin məbləği yerlərin faktiki sayma görə müəyyən edilir.

Mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən sadələşdirilmiş vergi vergitutma obyektinin hər kvadrat metri üçün 10 manat məbləğinə ölkənin şəhər və rayonlarının ərazilərinin zonalar üzrə Nazirlər Kabinetinin müəyyən etdiyi əmsallar tətbiq edilməklə hesablanır.

İdman mərc oyunlarının operatoru tərəfindən oyun iştirakçılarından qəbul edilmiş vəsaitdən 6 faiz dərəcəsi ilə, idman mərc oyunlarının satıcısı tərəfindən isə operatorun ona verdiyi komisyon haqdan 4 faiz dərəcəsi ilə sadələşdirilmiş vergi hesablanır.

' Sadələşdirilmiş vergi üçün hesabat dövri rübdür. Sadələşdirilmiş verginin məbləği müəyyən edilmiş vergi dərəcəsini hesabat dövrünün ümumi hasilatının həcminə tətbiq etməklə hesablanır.

/ Sadələşdirilmiş verginin ödəyiciləri hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli olan verginin məbləği haqqında vergi orqanlarına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyirlər.

Vergi ödəyicisi fəaliyyətini dayandırdıqda, habelə vergi ödəyicisi olan hüquqi şəxs ləğv edildikdə və ya fərdi sahibkann fəaliyyətinə xitam verildikdə, müəyyən olunmuş müddətdən gec olmamaq şərtilə vergi orqanına bəyannamə təqdim edilməlidir. Bu zaman vergi dövrü hesabat dövrü sayılan müddətin əvvəlindən vergi ödəyicisi fəaliyyətini dayandırdığı, habelə vergi ödəyicisi olan hüquqi şəxs ləğv edildiyi və ya fərdi sahibkann fəaliyyətinə xitam verildiyi günə qədər olan dövrü əhatə edir.

İdman mərc oyunlarının operatoru və satıcdan olan şəxslər hesabat rübü üçün sadələşdirilmiş vergini Vergi Məcəlləsinin 220.9-cu maddəsində nəzərdə tutulmuş qaydada hesablayır və həmin rübdən sonrakı ayın 20-dən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi forma üzrə vergi orqanına bəyannamə təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə sadələşdirilmiş vergi aşağıdakı qaydada hesablanır:

Sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyicisinin hər bir avtomobil nəqliyyatı vasitəsi üçün sadələşdirilmiş vergi, verginin tətbiq edildiyi ölçü

vahidini həmin maddədə qeyd olunan sadələşdirilmiş verginin aylıq məbləğinə, habelə müvafiq əmsallara vurularaq hesablanır və dövlət büdcəsinə ödənilir.

Sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri avtomobil nəqliyyatı vasitələrinin qeydiyyata alındığı yerdən asılı olmayaraq, sərnişin və yük daşımalarının faktiki həyata keçirildiyi ərazi üçün müəyyən edilən sadələşdirilmiş vergini ödəyirlər.

Vəkalətnamə (etibarnamə) və ya icarə müqaviləsi əsasında istifadə edilən avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımaları həyata keçirildikdə, sadələşdirilmiş verginin ödənilməsinə nəqliyyat vasitəsini vəkalətnamə (etibarnamə) və ya icarə müqaviləsi ilə idarə edən şəxslər məsuliyyət daşıyırlar. Bütün digər hallarda sadələşdirilmiş verginin ödənilməsinə avtomobil nəqliyyatı vasitəsinin sahibi məsuliyyət daşıyır.

Hüquqi şəxsin balansında olan avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımaları hüquqi şəxsin özü tərəfindən həyata keçirildikdə, sadələşdirilmiş vergini həmin hüquqi şəxs ödəyir.

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri vergi orqanlanna bəyannamə vermirlər.

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri tərəfindən sadələşdirilmiş verginin düzgün hesablanmasına və vaxtında dövlət büdcəsinə ödənilməsinə müvafiq icra hakimiyyəti orqanı nəzarət edir.

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər hər bir avtomobil nəqliyyatı vasitəsi üçün müvafiq icra hakimiyyəti orqanından təqvim ayının sonunadək öz istəklərinə uyğun olaraq növbəti ay, rüb, yarım il və ya il üçün ciddi hesabat blankı olan «Fərqlənmə nişanı» almalıdırlar.

(iFərqhnmə mşam» vergi ödəyicisinin ərizəsinə əsasən iki iş günündən gec olmayaraq verilir. «Fərqlənmə nişanı» almaq üçün vergi ödəyicisinin ərizəsinə həmin fəaliyyət üçün sadələşdirilmiş verginin ödənilməsini təsdiq edən bank ödəniş sənədi əlavə edilməlidir. Bank ödəniş sənədində avtomobil nəqliyyatı vasitəsinin dövlət qeydiyyat nişanının seriya və nömrəsi aydın göstərilməlidir.

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər hesablanmış vergini tam məbləğdə dövlət büdcəsinə ödədikdən sonra onlara «Fərqlənmə nişanı» verilir. Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalannı həyata keçirən şəxslər tərəfindən ödənilmiş vergi onların həmin ayda fəaliyyət göstərib-göstərməməsindən asılı olmayaraq geri qaytarılmır və növbəti ayın vergiləri ilə əvəzləşdirilmir.

Avtonəqliyyat vasitəsinin sahibi və ya istifadəçisi dəyişdikdə, həmin nəqliyyat vasitəsinə sonrakı aylar üçün əvvəlki sahib və ya istifadəçi tərəfindən qabaqcadan ödənilmiş vergilər nəzərə alınır və verginin ödənildiyini təsdiq edən «Fərqlənmə nişanı»nın yenidən rəsmiləşdirilməsi tələb olunmur.

«Fərqlənmə nişanı» və «Xüsusi fərqlənmə nişanı»nm formaları Nəqliyyat Nazirliyi tərəfindən müəyyən edilir və aşağıdakı məlumatları özündə əks etdirir:

- vergi ödəyicisi olan hüquqi şəxsin tam adı və ya fiziki şəxsin adı, atasının adı, soyadı;

- vergi ödəyicisinin VÖEN-i;
- nişanın qüvvədə olma müddəti;
- avtonəqli>'>'at vasitəsinin markası və dövlət qeydiyyatı nişanı;
- avtomobil nəqliyyatı vasitələrində oturacaq yerlərinin sayı və ya yükgötürmə qabiliyyəti;
- daşımanın həyala keçirildiyi ərazi;
- ödənilmiş verginin məbləği.

Vergi ödəyicilərinin balansında olan avtomobil nəqliyyatı vasitələri ilə öz istehsal fəaliyyətini təmin etmək üçün işçilərinin və özünə məxsus yüklərin daşınmasında istifadə olunan avtomobil nəqliyyat vasitələri sadələşdirilmiş vergiyə cəlb edilmir və bu nəqliyyat vasitələri üçün «Xüsusi fərqlənmə nişanı» alınır.

((Xüsusifərqlənmə mşam» avtomobil nəqliyyatı vasitələri sahiblərinin müraciətindən sonra 5 iş günü ərzində Nəqliyyat Nazirliyi tərəfindən verilir. «Xüsusi fərqlənmə nişanı»nın alınması üçün hər hansı haqq ödənilmir.

«Xüsusi fərqlənmə nişanı» almış vergi ödəyiciləri avtomobil nəqliyyatı vasitələrini salarkən və ya icarəyə verərkən, habelə bu maddədə nəzərdə tutulmayan digər məqsədlər üçün istifadə edərkən, ən azı bir iş günü əvvəl «Xüsusi fərqlənmə nişanı»nı onu vermiş orqana geri qaytarmalıdır.

Vergi ödəyicisinin işçi heyəti və özünə məxsus yüklərin daşınmasında istifadə edilən yeni avtomobil nəqliyyatı vasitələri müvafiq qaydada qeydiyyata alındıqdan sonra həmin avtomobil nəqliyyatı vasitələrinin sahibləri 5 gün ərzində Nəqliyyat Nazirliyinə bu barədə Vergilər Nazirliyi tərəfindən təsdiq edilmiş formada məlumat təqdim edirlər.

Xüsusi nişan və avadanlıqlarla təchiz olunmuş xüsusi təyinatlı (sahibkarlıq fəaliyyəti çərçivəsində onlara digər vergi ödəyiciləri tərəfindən göstərilən bu cür xidmətlər istisna olmaqla), habelə dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının. Mərkəzi Bankın, hasilatın pay bölgüsü, əsas ixrac boru kəməri haqqında və bu qəbildən olan digər sazişlər çərçivəsində fəaliyyət göstərən xarici podratçıların və subpodratçılarin, dövlət fondlarının, xarici ölkələrin diplomatik və konsulluq nümayəndəliklərinin, beynəlxalq təşkilatların nümayəndəliklərinin rəsmi istifadəsi üçün nəzərdə tutulan avtomobil nəqlijyatı vasitələri üçün «Fərqlənmə nişanı» və ya «Xüsusi fərqlənmə nişanı» alınmır və bu cür avtomobil nəqliyyatı vasitələrinin sahibləri həmin avtomobil nəqli>'yatı vasitələri barədə müvafiq icra hakimiyyəti orqanına məlumat verirlər.

Nəqliyyat Nazirliyi növbəti ayın 1 O-dək əvvəlki ay ərzində verilmiş nişanlar barədə Vergilər Nazirliyinə məlumat verir.

Mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər hər bir tikinti sahəsi üçün sadələşdirilmiş vergini tikintinin təməl işlərinin başlandığı rübdə hesablayır və həmin rübdən sonrakı ayın 20-dən gec olmayaraq müəyyən etdiyi forma üzrə vergi orqanına bəyannamə təqdim edirlər.

Vergi ödəyiciləri uçota alındıqları yerdən asılı olmayaraq, mənzil tikintisi fəaliyyətinin faktiki həyata keçirildiyi (mənzil tikintisi meydançasının faktiki yerləşdiyi) ərazi (zona) üçün müəyyən edilən sadələşdirilmiş vergini ödəyirlər.

Bəyannamə vergi orqanına təqdim edildikdən sonra hesablanmış vergi bərabər hissələrlə 12,5 faiz həcmində hər rübdən sonrakı ayın 20-dən gec olmayaraq öhdəlik tam yerinə yetirilənədək dövlət büdcəsinə öd^ənilir. -

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımaları və mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər digər fəaliyyət növü üzrə əldə etdikləri gəlir və xərclərinin uçotunu hər bir fəaliyyət növü üzrə ayrılıqda aparırlar. Həmin şəxslərin bu fəaliyyət növləri üzrə mənfəəti (zərəri) digər fəaliyyət növündən əldə edilmiş mənfəətə (zərərə) aid edilmir.

Əmlakın icarəyə verilməsindən və royaltidən gəlir əldə edən şəxslər bu fəaliyyətlə yanaşı, digər fəaliyyət növləri ilə məşğul olduqda. Vergi Məcəlləsinin 218.1-ci maddəsinin müddəaları nəzərə alınmaqla, digər fəaliyyətdən əldə etdiyi gəlirlərə sadələşdirilmiş vergini tətbiq etmək hüququna malikdirlər. Bu halda əmlakın icarəyə verilməsi, royalti və digər fəaliyyət növləri üzrə əldə edilən gəlirlərin və xərclərin uçotu hər bir fəaliyyət növü üzrə ayrılıqda aparılır.

1.13. Əmlak vergisi

Müxtəlif mülkiyyət formalı müəssisələr arasındakı rəqabət yalnız onların gəlirlərindən deyil, həmçinin birbaşa və ya dolayı surətdə onların gəlirlərinin artımına təsir göstərən əmlaklarından da vergi tutulmasını şərtləndirir.

Əmlak vergisi tutularkən verginin iki funksiyası realizə olunur: fiskal və iqtisadi. Bu verginin fiskal funksiyası sayəsində dövlət büdcəsi az da olsa stabil gəlirlərlə təmin olunur. İkinci funksiya isə müəssisələri artıq, istifadə olunmayan və gəlir gətirməyən əmlakdan imtina etməklə əmlak vergisi məbləğini azaltmağa sövq edir. Belə ki, əmlak vergisinin tutulmasında əsas məqsəd müəssisələri onlara məxsus əmlakdan səmərəli istifadə etməyə və istifadə olunmayan əsas vəsaitlərin alınmasına çəkilən xərclərin azaldılmasına stimullaşdırmaqdır. Bundan başqa, bu verginin tətbiqi dövlət üçün əlverişlidir, çünki müəssisələrin əmlakı əşyalaşmış gəlirdir və onun vergitutmadan gizlədilməsi olduqca çətindir.

Əsas vəsaitlərdən istifadənin səmərəliliyinin yüksəldilməsi üçün lazımi şəraitin yaradılmasında əmlak vergisi çox əhəmiyyətli rol oynayır Vəsaitlərin istismar olunmayan və ya tam istifadə olunmayan əsas vəsaitlərdə dondurulması yalnız müəssisəyə deyil, eləcə də bütövlükdə cəmiyyətə zərər vurur.

Müəssisələr tərəfindən ödənilən əmlak vergisinin məbləği onların maliyyə nəticələrinə aid edilir və mənfəət vergisinin vergitutma bazası əmlak vergisinin məbləği qədər azaldılır.

Azərbaycan Respublikasının ərazisində vergitutulan obyekti olan hüquqi və əmlak vergisinin ödəyiciləridir.

Xüsusi mülkiyyətində vergitutma obyekti olan rezident və qeyri-rezident fiziki şəxslər əmlak vergisinin ödəyiciləridir. Onlara Azərbaycan Respublikasının ərazisində əmlakı olan ölkə vətəndaşları, xarici ölkə vətəndaşları yə vətəndaşlığı olmayan şəxslər daxildir.

Aşağıdakılar müəssisələrin əmlak vergisinin\ergitutma obyekti sayılır:

^ rezident və qeyri-rezident fiziki şəxslərin xüsusi mülkiyyətində olan və Azərbaycan Respublikasının ərazisində yerləşən tikililər və ya onların hissələri (binalar), həmçinin yerindən və istifadə edilib-edilməməsindən asılı olmayaraq rezident fiziki şəxslərə məxsus su və hava nəqliyyatı vasitələri; müəssisələrin balansında olan əsas vəsaitlərin orta illik dəyəri;

^ Azərbaycan Respublikasında özünün daimi nümayəndəliyi vasitəsi ilə sahibkarlıq fəaliyyəti həyata keçirən qeyri-rezident müəssisələrin yalnız daimi nümayəndəliklə bağlı olan əsas vəsaitlərinin orta illik dəyəri.

Vergitutma obyekti olan və müəssisələr tərəfindən hüquqi şəxs yaratmadan birgə fəaliyyət aparmaq üçün birləşdirilən əsas vəsaitlərin dəyəri, bu əsas vəsaitləri birləşdirən birgə fəaliyyət iştirakçıları tərəfindən vergiyə cəlb edilməsi məqsədləri üçün bəyannaməyə daxil olunur. Birgə fəaliyyət nəticəsində yaradılmış (alınmış) əsas vəsaitlərin dəyəri isə birgə fəaliyyətin iştirakçıları tərəfindən müqavilə üzrə mülkiyyətdə müəyyən olunmuş pay haqqına müvafiq olaraq bəyannaməyə daxil edilir.

Azərbaycan Respublikasının ərazisində rezident və qeyri-rezident fiziki şəxslərin xüsusi mülkiyyətində olan binalar (yaşayış evləri, mənzillər, bağlar, qaraj və digər tikililər), həmçinin yerindən və istifadə edilib-edilməməyindən asılı olmayaraq rezident fiziki şəxslərə məxsus olan su və hava nəqliyyatı vasitələri əmlak vergisinin vergitutma obyektidir.

Hüquqi şəxslərin əmlak vergisinin vergitutma bazası əsas vəsaitlərin orta illik balans dəyərindən ibarətdir.

Vergitutma məqsədləri üçün müəssisənin əmlakının orta illik qalıq dəyəri götürülür. Müəssisənin əmlakının (avtonəqliyyat vasitələri i.stisna olmaqla) orta il- lil^ qalıq dəyəri aşağıdakı qaydada hesablanır:

Müəssisənin əmlakının (avtonəqliy>'at vasitələri istisna olmaqla) hesabat ilinin əvvəlinə (əvvəlki vergi ilinin sonuna müəyyən edilən qalıq dəyərindən həmin il üçün hesablanmış amortizasiya məbləği çıxıldıqdan sonra qalan dəyər) və sonuna qalıq dəyəri toplanıb ikiyə bölünür. Müəssisənin əmlakının orta illik qalıq dəyəri hesablanarkən, əsas vəsaitlərin (vəsaitin) yenidən qiymətləndirilməsindən yaranan artım (yenidən qiymətləndirilmə nəticəsində yaranan müsbət fərq) nəzərə alınmır.

Müəssisə hesabat ili ərzində yaradıldıqda və ya əmlak vergisi ödəyicisi olduqda, onun əmlakının (avtonəqliyyat vasitələri istisna olmaqla) yaradıldığı və ya əmlak vergisi ödəyicisi olduğu tarixə və ilin sonuna qalıq dəyəri toplanaraq 24-ə bölünür və müəssisənin yaradıldığı və ya əmlak vergisi ödəyicisi olduğu aydan sonra, ilin sonuna qədər olan ayların sayma vurulur.

, Müəssisə hesabat ili ərzində ləğv edildikdə və ya sadələşdirilmiş verginin ödəyicisi olduqda, onun əmlakının (avtonəqliyyat vasitələri istisna olmaqla) ilin əvvəlinə və ləğv edildiyi və ya sadələşdirilmiş verginin ödəyicisi olduğu tarixə qalıq dəyəri toplanaraq 24-ə bölünür və ilin əvvəlindən müəssisənin ləğv edildiyi və ya sadələşdirilmiş verginin ödəyicisi olduğu aya qədər olan aylann sayına vurulur.

Fiziki şəxslər əmlak vergisinin vergitutma bazası onların xüsusi mülkiyyətində olan binaların inventarlaşdırılmış dəyərindən, həmçinin yerindən və istifadə edilib-edilməməsindən asılı olmayaraq rezident fiziki şəxslərə məxsus olan su və hava nəqliyyatı vasitələrinin dəyərindən ibarətdir.

Müəssisələr əsas vəsaitlərin orta illik qalıq dəyərindən 1 faiz dərəcəsi ilə vergi ödəyirlər.

Fiziki şəxslər əmlak vergisini aşağıdakı qaydada və dərəcələrlə ödəyirlər;

^ onların xüsusi mülkiyyətində olan binaların inventarlaşdırılmış dəyərinin 5000 manatdan çox olan məbləğinin 0,1 faizi;

> su və hava nəqliyyatı vasitələrinə görə;

- su və hava nəqliyyatı vasitələrinin mühərrikinin 1 kub santimetri üçün - 0,02 manat;
- mühərriki olmayan su və hava nəqliy>'atı vasitələri üçün - onların bazar qiymətinin 1 faizi.

Dövlət hakimiyyəti orqanları, büdcə təşkilatları və yerli özünü idarəetmə orqanları, Azərbaycan Respublikasının Mərkəzi Bankı və onun qurumları, dövlət fondları və əlillərin ictimai təşkilatları əmlak vergisini ödəməkdən azaddır.

Misgərlik, qalayçılıq, dulusçuluq və saxsı məmulatlarının, təsərrüfat müxəl-ləfatının, bağçılıq-bostançılıq alətlərinin, xalq musiqi alətlərinin, oyuncaqların, suvenirlərin, qamışdan və qarğıdan məişət əşyalarının düzəldilməsi, keramika məmulatlarının bədii işlənməsi, bədii tikmə, ağac materiallardan məişət alətlərinin hazırlanması sahəsində hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sənətkarlıq emalatxanalarının binaları və ya binaların bu emalatxanalar yerləşən hissələri əmlak vergisinə cəlb edilmir.

Aşağıda göstərilənlərin binalara görə ödəməli olduqları əmlak vergisininin məbləği 30 manat qədər azaldılır (binaların icarəyə, kirayəyə verildiyi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla);

Azərbaycan Respublikasının Milli Qəhrəmanlarının;

Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanlarının;

Şöhrət ordeninin hər üç dərəcəsi ilə təltif edilmiş şəxslərin;

qrup müharibə əlillərinin;

həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadlannın (ərlərinin);

1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallar ilə təltif edilmiş şəxslərin;

qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslərin; Çemobil AES-də qəza, mülki və ya hərbi təyinatlı atom obyektlərində digər radiasiya qəzaları nəticəsində, habelə nüvə qurğularının hər hansı növləri, o cümlədən nüvə silahı və kosmik texnika ilə bağlı olan sınaqlar, təlimlər və başqa işlər nəticəsində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tu-

tulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslərin, habelə pensiyaçıların və müddətli hərbi xidmət dövründə hərbi qulluqçular və onların ailə üzvlərinin. Vergitutma məqsədləri üçün müəssisənin əmlakının dəyəri aşağıdakı əmlakların dəyərində azaldılır;

ekologiya, yanğından mühafizə və ya mülki müdafiə üçün istifadə edilən obyektlərin;

məhsul ötürən kəmərlərin, dəmir və avtomobil yollarının, rabitə və enerji ötürücü xətlərinin, meliorasiya və suvarma sistemi obyektlərinin;

İ0İ avtonəqliyyat vasitələrinin;

^ təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələrinin yalnız bu sahələrin təyinatı üzrə istifadə etdiyi obyektlərinin.

Şəhərlərdə sərnişin daşımaları üçün istifadə olunan trolleybuslar və tramvaylar əmlak vergisindən azaddır.

Fiziki şəxslərin xüsusi mülkiyyətində olan binaların inventarlaşdırılmış dəyəri 5000 manatadək olduqda vergi tutulmur.

Müvafiq icra hakimiyyəti orqanının qəranna əsasən yaradılan sənaye və texnologiyalar parkının rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər qanunvericiliyə uyğun olaraq, sənaye və texnologiyalar parkında qeydiyyata alındıqları hesabat ilindən başlayaraq, 7 il müddətinə sənaye və texnologiyalar parkındakı əmlaklarına görə əmlak vergisini ödəməkdən azaddırlar.

Müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye və texnologiyalar parkının idarəedici təşkilatı və ya operatoru sənaye və texnologiyalar parkının ərazisində yerləşən əmlaklarına görə əmlak vergisini ödəməkdən azaddır.

Müəssisənin əmlakı qalıq dəyərindən artıq qiymətə sığortalandığı halda əmlak vergisi Vergi Məcəlləsinin 14.3.4-cü maddəsinə əsasən müəyyən edilmiş dəyərə əmlak vergisinin dərəcəsi tətbiq edilməklə hesablanır. Sığortalanan əmlakın dəyəri bazar qiyməti nəzərə alınmaqla müəyy'ən edildiyi halda məcəllənin 202-ci maddəsinin müddəaları tətbiq edilmir.

Müəssisənin əmlak vergisi üçün vergi dövri təqvim ili sayılır.

Əmlak vergisi ödəyiciləri cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin məbləğinin 20 faizi həcmində vergi ödəyir.

Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti üdə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq, həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər.

Əmlak vergisi üzrə cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Dövlət büdcəsinə hesabat dövri üçün ödənilməli olan verginin məbləği hesabat dövri ərzində əvvəllər hesablanmış ödəmələr nəzərə alınmaqla müəyyən edilir.

Cari vergi ödəmələri vaxljnda ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən cari vergi məbləğinin 0,1 faizL məbləğində faiz tutulur. ^ -

Əmlak vergisi üzrə cari vergi ödəmələri hesabat ili başa çatdıqdan sonra yenidən haqq-hesab edilir və bu zaman hesablanmış cari vergi məbləği hesabat üzrə vergi məbləğindən çox olduğu halda, artıq hesablanmış cari vergi və ona uyğun faiz məbləğləri azaldılır.

Müəssisə əmlak vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına verir.

Vergi ödəyicisi olan hüquqi şəxs onun ləğv edilməsi haqqında qərarının qəbul edilməsi tarixindən, qeyri-rezidentin daimi nümayəndəliyi üçün bu tarix göstərilmədikdə isə qərarın Azərbaycan Respublikasının xarici dövlətlərdəki nümayəndəlikləri (Azərbaycan Respublikasının mənafeyini təmsil edən digər ölkənin konsulluq idarələrində) leqallaşdırıldığı tarixindən sonra 30 gün müddətində vergi orqanına əmlak vergisinin bəyannaməsini verməlidir və bu halda hesabat dövrü vergi ilinin əvvəlindən vergi ödəyicisinin sahibkarlıq fəaliyyətini dayandırdığı günə qədər olan dövrü əhatə edir.

İllik bəyannamələr üzrə vergilər həmin bəyannamələrin verilməsi üçün müəyyən edilmiş müddətlərədək ödənilir. Hesablanmış verginin məbləği Vergi Məcəlləsinin 119-cu maddəsi ilə məhdudlaşdırılmayan gəlirdən çıxılmalara aid edilir.

Müəssisələrin əmlak vergisi dövlət büdcəsinə ödənilir.

Binalar üzrə əmlak vergisi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada binaların inventar dəyərinə əsasən hesablanılır. Bir neçə sahibi olan bina üzrə əmlak vergisi həmin binanın hər sahibi üçün onun binanın dəyərindəki payına uyğun olaraq, analoji qaydada hesablanır.

Fiziki şəxslərin xüsusi mülkiyyətində olan binalara görə əmlak vergisi onla- nn yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən hesablanır.

Su və hava nəqliyyatı vasitələrinə görə vergi onların qeydiyyatını həyata keçirən təşkilatlar tərəfindən verilən məlumatlar əsasında hər il yanvarın 1-i vəziyyətinə hesablanılır. Belə qeydiyyatın olmadığı hallarda, həmin əmlakın sahibi mülkiyyətində olan su və hava nəqliyyatı vasitələri barədə lazımi məlumatları (buraxılış ili, alış qiyməti və texniki xarakteristikası) əks etdirən sənədləri hər il yanvar ayının 1-dək müvafiq orqana təqdim edir.

Bir neçə fiziki şəxsə məxsus olan su və hava nəqliyyatı vasitəsinə görə vergi həmin nəqliyyat vasitəsini öz adına qeydiyyatdan keçirmiş şəxsdən tutulur.

Bələdiyyələr verginin ödənilməsi barədə tədiyə bildirişini vergi ödəyicilərinə avqustun 1-dən gec olmayaraq verməlidirlər.

Cari il üçün verginin məbləği bərabər hissələrlə - həmin il avqustun 15-dək və noyabrın 15-dək ödənilir. Əmlak vergisi əmlakın əvvəlki sahibi tərəfindən ödənilmədiyi hallarda, vergi bu maddə ilə müəyyən edilmiş ödəmə vaxtında həmin əmlakın sahibi tərəfindən ödənilir.

Fiziki şəxslərdən əmlak vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir.



Şəkil 5. Hüquqi şəxslərin əmlak vergisinin formalaşması sxemi

1.14. Torpaq vergisi

Torpaq vergisi ənənəvi olaraq yerli əmlak vergilərinə aid edilib. Bütün əmlak vergiləri kimi o müəssisələrin (sahibkarların) təsərrüfat-kommersiya fəaliyyətindən asılı deyil. Lakin digər əmlak vergilərindən fərqli olaraq bu verginin dərəcəsi bütün vergi ödəyiciləri (fiziki və hüquqi şəxslər) üçün eynidir və bu səbəbdən qanşıq vergilərə aid edilir. Bundan başqa, bu verginin toplanmasından əldə edilən

vəsaitlərin məqsədyönlü istifadə olunması səbəbindən onların yerinə yetirdiyi fıs- kal funksiya arxa plana çəkilir.

Torpaq vergisi torpaq mülkiyyətçilərinin (istifadəçilərinin) təsərrüfat fəaliyyətinin maliyyə nəticələrindən asılı olmayaraq, hər il torpaq sahəsinə görə sabit tə- diyyə şəklində ödənilir.

Vergi qanunvericiliyinə uyğun olaraq mülkiyyətində (istifadəsində) torpaq sahəsi olan rezident və qeyri-rezident fiziki və hüquqi şəxslər torpaq sahəsi barədə özlərinin mülkiyyət və istifadə hüquqlarını təsdiq edən müvafiq sənədləri aldıqdan sonra, bir ay ərzində fiziki şəxslər və bələdiyyə mülkiyyətində olan müəssisələr bələdiyyələrdə, digər təsərrüfat subyektləri isə vergi orqanlarında uçota alınmalıdır.

Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində torpaq sahəsi olan fiziki şəxslər və müəssisələr torpaq vergisinin ödəyicilərıdir.

Torpaq vergisi ödəyicilərinin ölkə ərazisində mülkiyyətində və ya istifadəsində olan torpaq sahəsi torpaq vergisinin vergitutma obyektidir.

Torpaq vergisi vergi Ödəyicilərindən onların mülkiyyətində və istifadəsində olan torpaq sahələrinə (o cümlədən tikinti və qurğulann tutduğu torpaq sahələrinə), habelə tikinti və qurğulann saxlanması üçün zəruri olan torpaq sahələrinə görə tutulur.

Kənd təsərrüfatı torpaqları- üzrə vergi dərəcələri hər hektara görə şərti ballarla ifadə edilir. Bir şərti bal üçün vergi dərəcəsi 0,06 manat müəyyən edilmişdir.

Şərti ballar kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Torpaq sahəsinin hər 100 kvadrat metrinə görə 9 saylı cədvəldə göstərilən dərəcələr tətbiq olunur.

Cədvəl 9

Yaşayış məntəqələri	Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət, məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar (manatla)	Yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar (manatla)
Bakı	10	0,6
Gəncə, Sumqayıt və Abşeron rayonu	8	0,5
Digər şəhərlər (rayon tabeçiliyində olan şəhərlər istisna olmaqla), rayon mərkəzləri	4	0,3
Rayon tabeçiliyində olan şəhər, qəsəbə və kəndlərdə (Bakı və Sumqayıt şəhərlərinin qəsəbə və kəndləri istisna olmaqla)	2	0,1

Aşağıdakı torpaqlar torpaq vergisinə cəlb edilmir:

> yaşayış məntəqələrinin ümumi istifadədə olan torpaqları;

y dövlət hakimiy}'oti və yerli özünü idarəetmə orqanlarının, büdcə təşkilatlarının, Mərkəzi Bank və onun qurumlarının, habelə Dövlət Neft Fondunun mülkiyyətində və ya istifadəsində olan torpaqlar;

istehsal fəaliyyətinə cəlb edilməmiş dövlət, meşə və su fondu torpaqları. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına məxsus olan sektorunun altında yerləşən torpaqlar;

> dövlət sərhəd zolaqları və müdafiə təyinatlı torpaqlar.

Aşağıda göstərilən şəxslərin mülkiyyətində olan torpaqlara görə torpaq vergisinin məbləği 10 manat azaldılır:

igi Azərbaycan Respublikasının Milli Qəhrəmanlarının;

ı®i Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanlarının;

ı®i Şöhrət ordeninin hər üç dərəcəsi ilə təltif edilmiş şəxslərin;

^ müharibə əlillərinin;

həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadlannm (ərlərinin); 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallar ilə təltif edilmiş şəxslərin;

^ qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslərin; Çemobil AES-də qəza, mülki və ya hərbi təyinatlı atom obyektlərində digər radiasiya qəzaları nəticəsində, habelə nüvə qurğularının hər hansı növləri, o cümlədən nüvə silahı və kosmik texnika ilə bağlı olan sınaqlar, təlimlər və başqa işlər nəticəsində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslərin.

^ müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye və texnologiyalar parkının rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər qanunvericiliyə uyğun olaraq, sənaye və texnologiyalar parkında qeydiyyata alındıqlan hesabat ilindən başlayaraq, sənaye və texnologiyalar parkında istifadə etdikləri torpaqlara görə 7 il müddətinə torpaq vergisini ödəməkdən azaddırlar, müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye və texnologiyalar parkının idarəcdici təşkilatı və ya operatoru sənaye və texnologiyalar parkının ərazisində istifadə etdiyi torpaqlara görə torpaq vergisini ödəməkdən azaddır.

Torpaq vergisi torpaq barəsində mülki>7ət və ya istifadə hüququnu təsdiq edən sənədlər əsasında müəyyənləşdirilir. Binaların altında olan torpaqlara, həmçinin obyektlərin sanitariya mühafizəsi üçün zəruri olan torpaq sahələrinə görə torpaq vergisi tutulur.

Torpaq vergisini, müəssisələr torpaq sahələrinin ölçüsünə və torpaq vergisinin dərəcələrinə əsasən illik olaraq hesablayır və mayın 15-dən gec olmayaraq hesablamaları vergi orqanına verirlər.

Bələdiyyələr tərəfindən hər il iyulun 1-dək fiziki şəxslərə torpaq vergisi hesablanılır və tədiyə bildirişləri avqustun 1-dən gec olmayaraq onlara çatdırılır.

Ayrılıqda bir neçə hüquqi və ya fiziki şəxsin mülkiyyətində və ya istifadəsində olan tikililərin altında qalan və ya onlara xidmət üçün ayrılmış torpaq sahələrinə görə vergi onlara məxsus tikili sahələrinə‘mütənasib surətdə hesablanır.

Torpaq vergisi bərabər məbləğlərdə 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq ödənilir. Torpaq vergisi torpağın əvvəlki sahibi tərəfindən ödənilmədiyi halda, vergi bu maddə ilə müəyyən edilmiş ödəmə vaxtına həmin torpağın sahibi tərəfindən ödənilir.

Müəssisələrin torpaq vergisi dövlət büdcəsinə, fiziki şəxslərin torpaq vergisi isə yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödənilir.

Fiziki şəxslərin sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə etdikləri və hüquqi şəxslərə məxsus olan torpaqlara görə hesablanmış vergi məbləği məhdudlaşdırılmayan gəlirdən çıxılmalara aid edilir.

1.15. Mədən vergisi

Mədən vergisi Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycana mənsub olan sektorunda faydalı qazıntıların çıxarılmasına görə tutulur. Mədən vergisi yeraltı sərvətlərdən səmərəli istifadə etmək və onlar çıxarılarkən ayrı-ayrı sahələr arasında rentabellik səviyyəsi ilə əlaqədar rəqabət münasibətlərini tənzimləmək məqsədi ilə ödənilir. Mədən vergisinin əsas funksiyalarından biri yeraltı sərvət olan faydalı qazıntılardan səmərəli istifadə olunmasının stimullaşdırılmasıdır.

Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycana mənsub olan sektorunda yerin təkindən faydalı qazıntılar çıxaran rezident və qeyri-rezident fiziki şəxslər, rezident müəssisələr (onların sərbəst balans və cari hesabı olan filialları), eləcə də Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi vasitəsi ilə sahibkarlıq fəaliyyəti göstərən qeyri-rezident müəssisələr *mədən vergisinin ödəyicilərid*ir.

Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycana mənsub olan sektorunda yerin təkindən çıxanlan faydalı qazıntılar mədən vergisinin *vergitutma obyektidir.*

Mədən vergisinin vergitutma obyekti çıxanlan faydalı qazıntılann təyinatından, istifadə edilib-edilməməyindən, satılıb-satılmamağından və digər səbəblərdən asılı olmayaraq müəyyən edilir.

Hasil edilmiş neft və qazın texnoloji proseslə əlaqədar Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş normativlər həddində quyuya geri vurulan hissəsi vergitutma obyekti hesab edilmir.

Yerin təkindən çıxarılan aşağıdakı faydalı qazıntıların növündən asılı olaraq, mədən vergisi onların topdansatış qiymətinə tətbiq edilməklə aşağıdakı kimi müəyyənləşdirilir:

Yerin təkindən çıxarılan aşağıdakı faydalı qazıntıların növündən asılı olaraq, mədən vergisi hər kubmetr üçün 11 saylı cədvəldə göstərilən dərəcələrlə hesablanır.

Cədvəl 10

Mədən vergisinə cəlb olunan faydalı qazıntıların adı	1 .Mədən vergisinin dərəcələri ! (faizlə)
Xam neft	26
Təbii qaz	I 20
Filiz faydalı qazıntılar (bütün növ metallar)	_J _____ 3 _____

Mədon vergisi 10 saylı cədvəldə göstərilən faydalı qazıntılar üzrə yerin təkindən çıxarılmış faydalı qazıntıların topdansatış qiymətinə, 11 saylı cədvəldə göstərilən faydalı qazıntılar üzrə isə yerin təkindən çıxarılmış faydalı qazıntıların hər kubmetrinə müvafiq vergi dərəcələri tətbiq etməklə hesablanır. Mədən vergisi vergi dərəcələrini yerin təkindən çıxarılmış faydalı qazıntıların ayrı-ayrı növləri üzrə ver- gitutma bazasına tətbiq etməklə hesablanır. Hesablanmış vergi məbləği məhdudlaşdırılmayan gəlirdən çıxılan xərclərə aid edilir.

Mədən vergisi üzrə hesabat dövrü təqvim ayıdır. Hesabat ayı üçün mədən vergisi faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq Ödənilir. Mədən vergisinin ödəyiciləri hər hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq vergi orqanına, yerli əhəmiyyətli tikinti materialları üzrə vergi ödəyiciləri isə bələdiyyələrə vergi bəyannaməsi təqdim edirlər.

Mədən vergisi hesablanarkən hasil edilmiş neft və qazın ümumi həcmi texnoloji proseslərlə əlaqədar quyuya geri vurulan neft və qazın Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş normativlərə əsasən müəyyən edilmiş miqdarı qədər azaldılır.

Cədvəl 11

Ədən veı^isinə cəlb olunan faydalı qazıntıların adı	Mədən vergisinin dərəcələri (manatla)
Qeyri-filiz faydalı qazıntıları:	0,5
seolit, barit, mişar daşları, çınqıl xammalı, yüngül dol- durucular (keramzit, aqloporit) istehsalı üçün gillər, bentonit gilləri, kərpic-kirəmit gilləri, vulkan külü və pemza, kvars qumları, tikinti qumları, sement xammalı (əhəng daşı, mergcl, gil, vulkan külü)	0,5
üzlük daşlan (mərmər, qabbro, tuflar. traverlin, mərmərləşmiş əhəng daşı)	1
qiymətli və yanm qiymətli bəzək daşlan	4
duz	4
mineral sular	6
! • yodlu-bromlu sular	0,02

"Bələdiyyələrin maliyyələşməsi əsaslan haqqında" Qanuna və Vergi Məcəlləsinə əsasən yerli vergilərin tətbiqi ilə əlaqədar olaraq yerli əhəmiyyətli tikinti materialları (kərpic-kiramid gilləri, tikinti qumları və çınqıl xammalı) üzrə miədən vergisi bələdiyyə büdcəsinə ödənilir.

Mədən vergisinin hesablanmamasına, vaxtında ödənilməməsinə, bəyannamələrin vergi orqanlarına vaxtında verilməməsinə görə vergi ödəyiciləri və onun vəzifəli şəxsləri mövcud qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyırlar.

1.16. Gömrük və dövlət rüsumları

1.16.1. Gömrük rüsumlannın vergitutma elementlərinin xarakteristikası

Gömrük rüsumları - dolayı vergisi olmaqla Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən mallann Azərbaycan Respublikasının gömrük ərazisinə gəlirilməsi və ya bu ərazidən aparılması zamanı tutulan ödənişdir.

Gömrük rüsumları müəssisələrin xarici iqtisadi fəaliyyətinin tənzimlənməsində mühüm əhəmiyyət kəsb etməklə yanaşı, o əhəmiyyətli dövlət gəlirlərindən biridir. Gömrük rüsumları dövlətin xarici-iqtisadi fəaliyyətində əhəmiyyətli rol oynayır.

Öz mahiyyətinə görə gömrük rüsumlan xarici ticarətin vergiyə cəlb edilməsi alətidir. İstənilən dolayı vergi kimi gömrük rüsumları iqtisadi baxımdan malın qiymətinə daxil edilmək yolu ilə tutulur. Verginin son ödəyicisi kimi rüsumlarında daxil olduğu qiymətlər üzrə malları alan istehlakçılardır (alıcılardır). Beləliklə, gömrük rüsumları malın qiymətini artırmaqla onun rəqabət qabiliyyətini aşağı salır ki, bununla da daxili bazarın və milli istehsalçıların (sahibkarların) müdafiəsinə nail olunur.

Dünya praktikasında *mallann hərəkət istiqamətindən asılı olaraq* gömrük rüsumları dörd yerə bölünür: idxal, ixrac, tranzit və mövsümi.

idxal rüsumları ölkəyə gətirilən mallardan tutulur. Qeyd etmək lazımdır ki, idxal rüsumları praktiki olaraq gömrük rüsumlarının əsas hissəsini təşkil edir. İdxal rüsumları ölkənin gömrük ərazisinə gətirilən malların bahalaşmasına səbəb olur ki, bununla da onların daxili bazara daxil olmasını məhdudlaşdırmaqla yanaşı, milli istehsalçıları (sahibkarları) xarici rəqabətin arzuedilməz mənfi təsirindən qorumuş olur.

İxrac rüsumları Azərbaycan respublikasında istehsal olunan və onun hüdudlarından kənara çıxarılan mallardan tutulur. İxrac rüsumları milli iqtisadiyyatın inkişafı və yerli bazarın zənginləşdirilməsi üçün lazım olan malların ölkədən çıxarılmasını məhdudlaşdırmaqla yanaşı, dövlət büdcəsinin əlavə gəlir mənbəyi kimi çıxış edir.

Tranzit rüsumlar Azərbaycan Respublikasının ərazisindən tranzit qaydasında bütün ölkələrə daşınan mallardan tutulur. Tranzit rüsumları istifadə olunmuş infrastruktur və nəqliyyat kommunikasiyasına görə itkilərin kompensasiyası rolunu oynayır.

Mövsümi idxal və ixrac gömrük rüsumları^ malların idxal və ixracının müvəqqəti məhdudlaşdırılması və ya stimullaşdırılması məqsədilə (ildə altı aydan çox olmamaqla) tətbiq edilir. Mövsümi rüsumlar istehsal və satışının həcmi il ərzində birdən-birə dəyişən ayrı-ayrı mal qrupları üzrə müəyyən edilir. .Mövsümi rüsum dərəcələrinin tətbiqi dövlətə ilin müəyyən dövrü ərzində belə malların idxal və ixracını daha səmərəli tənzimləmək imkanı verir. Nəzərə almaq lazımdır ki, bu halda gömrük tarifində nəzərdə tutulmuş gömrük rüsum dərəcəsi tətbiq olunmur.

Tətbiq olunması məqsədindən asılı olaraq müstəsna gömrük rüsumları dörd qrupa bölünür: xüsusi, antidempinq, kompensasiya və pereferensial.

Xüsusi gömrük rüsumları aşağıdakı hallarda tətbiq olunur:

- ölkənin gömrük ərazisinə milli istehsalçılara zərər vuran və ya zərər vura biləcək miqdarda və ya şərtlərlə, eyni qəbildən olan mallar gətirilən zaman (müdafiə tədbiri kimi);
- digər ölkələrin (ölkələr ittifaqının) Azərbaycan Respublikasının maraqlarını məhdudlaşdıra biləcək diskriminasiya fəaliyyətinə qarşı cavab tədbiri kimi;
- qeyri-sağlam rəqabətin qarşısının alınması üsulu kimi.

Antidempinq rüsumları daxili bazarı dempinq qiymətləri üzrə malların ölkəyə gətirilməsindən qoruyur. Dempinq dedikdə, daxili bazardakı qiymətlərdən əhəmiyyətli dərəcədə aşağı olan malların ölkəyə gətirilməsi nəzərdə tutulur. Məhz bu qiymətlər arasındakı fərq dempinq məbləğini xarakterizə edir və antidempinq rüsumunun formalaşması üçün əsas sayılır.

Kompensasiya rüsumları - istehsalına və gətirilməsinə birbaşa (dolayı) olaraq subsidiyalardan istifadə olunmuş idxal mallarına tətbiq edilir. Subsidiyanın tət- 'biq olunması məsrəflərin süni olaraq azaldılması, deməli ixrac olunan malların qiymətinin aşağı düşməsinə səbəb olur. Deməli, bu cür subsidiyalaşdırılmış malların süni surətdə aşağı salınmış qiymətlərlə idxalı milli istehsalçılara zərər gətirməklə yanaşı, onun inkişafına əhəmiyyətli dərəcədə mənfi təsir göstərə bilər. Belə hallarda yerli sahibkarların göstərilən mənfi hallardan qorunması məqsədilə məhz kompensasiya gömrük rüsumları tətbiq olunur. Kompensasiya rüsumlarının dərəcəsi subsidiyanın həcmi ilə müəyyən edilir.

Müəyyən malların idxalının genişləndirilməsi üçün bir və ya bir neçə ölkəyə münasibətdə aşağı ölçülərdə tətbiq edilən güzəştli rüsumlar *pereferensial rüsumlar* adlanır. Dünya praktikasında inkişaf etməkdə olan ölkələr üçün pereferensial sistemindən istifadə edilir ki, bu da idxalçı dövlətlərin bazarında onların mallarının rəqabət qabiliyyətinin artmasına şərait yaradır.

Gömrük rüsumlannın hesablandığı valyuta vergitutulan malın gömrük dəyərində göstərilən valyutaya uyğun olmalıdır. Gömrük rüsumundan azad edilən mal kateqoriyaları, eləcə də gömrük rüsumunun ödənişi üzrə güzəştlər və onların veril-məslqaydası "Gömrük tarifi haqqında" qanunda müəyyən edilmişdir.

Hesablanması üsulundan asılı olaraq gömrük rüsum dərəcələri aşağıdakı növlərə bölünür: spesifik, advalor, kombinə edilmiş və alternativ.

Spesifik (möhkəm) gömrük rüsum dərəcələri vergitutulan malların ölçü vahidinə əsasən müəyyən pul məbləğində müəyyən edilir.

Advalor rüsumlar vergitutulan mallann gömrük dəyərinə görə faizlə hesablanır.

Kombinə edilmiş gömrük rüsum dərəcələri isə spesifik və advalor dərəcələrini özündə birləşdirməklə hesablanır.

Bəzi mal qrupları üçün spesifik və advalor dərəcələri tətbiq edilir. Lakin elə hallar da olur ki, həmin mallar bu vergi dərəcələrinin ən yüksəyi ilə vergiyə cəlb olunur. Belə gömrük vergi dərəcələri *alternativ* adlanır.

Mal sahibləri, onların alıcıları, mal və nəqliyyat vasitələrini Azərbaycan Respublikasının gömrük sərhədlərindən keçirən şəxslər gömrük rüsumlarının ödəyicilərıdir. Gömrük rəsmiləşdirilməsi məqsədilə malların dəyərini bəyan (təqdim) edən *deklarantlar* həmçinin vergi ödəyiciləri hesab edilir.

Mal, əmlak və valyuta qiymətlilərinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi üzrə əməliyyatlar vergitutma obyektidir.

Malların bəyan edilmiş dəyəri gömrük ödənişlərinin hesablanması üçün vergi bazası. *Gömrük dəyəri* malları gömrük sərhədindən keçirən və gömrük rəsmiləşdirilməsi üçün təqdim edən deklarant tərəfindən bəyan edilir.

Gömrük rüsumlarının məbləğini hesablamaq üçün gömrük tarifində nəzərdə tutulmuş gömrük rüsum dərəcələrindən istifadə olunur. Gömrük rüsum dərəcələri gömrük tarifinə əsasən müəyyən edilir.

Gömrük tarifi - Azərbaycan Respublikasının gömrük sərhədlərindən keçirilən mallara tətbiq edilən və xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturasına uyğun olaraq sistemləşdirilmiş gömrük rüsum dərəcələrinin məcmusudur.

Gömrük rüsum dərəcələri MDB Xarici İqtisadi Fəaliyyətdə Əmtəə Nomenklaturası üzrə malların kodundan və mənşəyindən (istehsal olunduğu ölkədən) asılı olaraq *diferensiallaşdırılır.* Gömrük rüsum dərəcələri xarici iqtisadi münasibətlərin operativ tənzimlənmə aləti olduğu üçün olduqca tez-tez dəyişdirilə bilər.

Gömrük rüsumlarının *baza dərəcələri:* Azərbaycanın əmtəə-siyasi münasibətdə daha əlverişli rejim tətbiq etdiyi ölkələrdən gətirilən mallara tətbiq edilir.

İnkişaf etmiş ölkələrdən gətirilən mallar üçün *pereferensial* vergi dərəcələri tətbiq olunur. Hal-hazırda onlar baza gömrük dərəcələrinin 75 faizini təşkil edir.

İqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələrdən eləcə də MDB ölkələrindən gətirilən mallara *sıfır(o) gömrük dərəcəsi* tətbiq olunur.

Əgər mallar Azərbaycanın əlverişli vergi rejimi tətbiq etmədiyi ölkələrdən gəlirilərsə, yaxud malın istehsal edildiyi ölkə məlum deyilsə, bu halda *maksimal gömrük dərəcələri* (iki dəfə artınımış baza dərəcələri) tətbiq edilir.

Daxili bazarı və milli istehsalçıları müəyyən malların idxalından qorumaq üçün özündə xüsusi proseduranın aparılmasını nəzərdə tutan *müstəsna gömrük rüsumlarından* istifadə olunur.

Gömrük rüsumları, mallar Azərbaycan Respublikasının gömrük sərhədini keçərkən gömrük rəsmiləşdirilməsi zamanı ödənilir:

- idxal malları üzrə - ƏDV, aksizli mallar üzrə aksizlər, idxal gömrük rüsumları, gömrük yığımları;
- ixrac malları üzrə - ixrac gömrük rüsumları, gömrük yığımları;

Gömrük rüsumları gömrük bəyannaməsi qəbul edilərkən və ya ondan əvvəl malların gömrük rəsmiləşdirilməsini həyata keçirən gömrük orqanlarına ödənilir.

Gömrük rüsumları həm milli, həm də xarici valyutada gömrük orqanlarının kassasına nağd və ya köçürmə yolu ilə ödənilə bilər.

1.16.2. Dövlət rüsumlarının vergitutma elementlərinin xarakteristikası

Qanunvericilikdə nəzərdə tutulmuş ödənişlərdən biri də dövlət rüsumlandır. Dövlət rüsumlannin vergilərə oxşar cəhəti ondan ibarətdir ki, rüsumlarda məcburi olmaqla dövrlər büdcəsinə keçirilir. Öz xarakterinə və qarşılıqlı (əvəzli) olmasına görə isə o vergilərdən fərqlənir. Qanun dövlət rüsumunu hüquqi əhəmiyyətli əməliyyatların aparılmasına, yaxud müvafiq sənədlərin müvəkkil edilmiş orqanlar və ya onun vəzifəli şəxsləri tərəfindən verilməsinə görə tutulan məcburi ödəniş kimi müəyyən edilmişdir.

Azərbaycan Respublikasının vətəndaşları, xarici vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər və mülkiyyət formasından asılı olmayan bütün hüquqi şəxslər *dövlət rüsumunun ödəyicilərıdir.*

Dövlət rüsumu hüquqi baxımdan əhəmiyyətli olan hərəkətlərin həyata keçirilməsi və ya sənədlərin alınması üçün müraciət edən fiziki şəxslər (rezident və qeyri-rezident) tərəfindən ödənilir. Hər hansı konkret hüquqi əhəmiyyətli hərəkətin həyata keçirilməsi üçün bir neçə şəxs müraciət etdiyi hallarda, rüsum onlardan bİri tərəfindən tam həcmdə, yaxud razılaşdırılmış məbləğlərdə ödənilir. Əgər bu şəxslər arasında güzəşt hüququ olan varsa, onda güzəşti olmayan şəxslər rüsumu onların payına düşən məbləğ həcmində ödəyirlər.

Dövlət hakimiyyət orqanlarının xidmətləri dövlət rüsumlannin *vergitutma obyektidir.* Dövlət rüsumu aşağıdakı hallarda tutulur:

- məhkəməyə verilən iddia ərizəsi və şikayətlərin, hüquqi əhəmiyyət kəsb edən faktların müəyyən edilməsi barədə ərizələrin və məhkəmə qərarları ba-

' rəsində şikayətlərin verilməsi; məhkəmə tərəfindən sənədlərin surətinin təkrar verilməsi;

- notarial kontorlan və dövlət orqanlan tərəfindən notarial hərəkətlərin aparılması;
- vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı;
- AR vətəndaşlarına və onun ərazisində daimi və 30 gündən artıq yaşayan əcnəbilərə qeydiyyat vərəqəsinin verilməsi; AR vətəndaşlığına qəbul və ya vətəndaşlığından çıxma;
- AR və onun xarici ölkələrdəki diplomatik nümayəndəliklərində konsul əməliyyatlarının aparılması;
- sənaye mülkiyyəti obyektlərinin qeydə alınması, müvafiq mühafizə sənədlərinin verilməsi və onlarla bağlı digər hüquqi hərəkətlər, habelə icazələrin bəzi növlərinin verilməsi;
  xüsusi razılıq (lisenziya) alınması tələb olunan sahibkarlıq fəaliyyəti növlərinə görə xüsusi razılıq (lisenziya) verilməsi;
- hüquqi şəxslərin dövlət qeydiyyatı və təkrar qeydiyyatı;
- qiymətli kağızların qeydiyyata alınması (özəlləşdirmə qaydasında qeydə alınma halları istisna olmaqla) və dövlət reyestrinə daxil edilməsi;
- AR ərazisində beynəlxalq avtomobil daşınmalannı tənzimləyən icazənin verilməsi;

• əmlaka, o cümlədən torpağa görə mülkiyyət, icarə və istifadə hüququna dair sənədlərin verilməsi və girovun dövlət qeydiyyatı.

Dövlət rüsumları müvafiq orqanlar tərəfindən göstərilən xidmətlər üzrə təsnifləşdirilir. Dövlət rüsumları aşağıdakı kimi qruplaşdırılır: məhkəmə, natarial, qeydiyyat və inzibati.

Dövlət rüsum dərəcələri dəyəri ödənilən (göstərilən) xidmətlərin xarakterindən və dövlət tərəfindən onlara çəkilən xərclərin dəyərindən, eləcə də müvafiq dövlət orqanına müraciət etmiş şəxsin vergi güzəştinə malik olub-olmamasından asılıdır. Dərəcələr proporsional və proqressiv olmaqla iki cür olur. *Proporsional dərəcələr* şərti maliyyə vahidinə və ya iddia olunan sazişin məbləğinə göro faizlə müəyyən edilir. *Proqressiv dərəcələr* müqavilədə göstərilən iddia məbləğinə görə faizlə müəyyən edilir. Proqressiv dərəcələr tətbiq edilərkən vergi bazası vergi bölmələrinə bölür, lakin bu zaman hər bölmə ümumi vergi bazasının həcmindən asılı olmayaraq müvafiq dərəcə ilə vergiyə cəlb olunur. Bu kaskad dərəcələri adlanır. Proporsional (proqressiv) dövlət rüsumlarının miqdarı əlavə olaraq minimal (əmlakın özgəninkiləşdirilməsi) və maksimal hədlərdə (əmlak xarakterli iddia ərizəsi) məhdudlaşdırıla bilər.

Dövlət rüsum dərəcələri şərti maliyyə vahidinin misli ilə, mütləq məbləğdə və müvafiq məbləğə görə faiz dərəcəsi ilə müəyyən edilir. Dövlət rüsumu nağd və ya köçürmə yolu ilə büdcəyə köçürülür.

Vergi güzəştləri və azadolmalar. Dövlət rüsumlannı qurulması prinsipləri vergilərdən fərqli olaraq birbaşa vergitutma subyektinin ödəmə qabiliyyətini nəzərə almağa imkan vermir ki, bu da vergitutmada bərabərlik prinsiplərinin pozulmasına səbəb olur (eyni xidmətə görə eyni ödəniş). Əhalinin sosial vəziyyəti güzəştlər vasitəsilə nəzərə alınır.

Aşağıdakılar dövlət rüsumu ödəməkdən azad olunurlar:

- əməyin ödənilməsi və əmək fəaliyyəti ilə bağlı digər tələblər üzrə iddiaçılar;
- aliment alınması barədə iddialar;
- şikəstlik, səhhətə digər xəsarətlər yetirilməsinə və ya ailə başçısının ölümü nəticəsində dəyən ziyanın ödənilməsi barəsində iddialar üzrə iddiaçılar;
- məhkəmədə verilən iddialar üzrə - şəhid ailələri, müharibə veteranları, qaçqınlar və məcburi köçkünlər, habelə Çemobil AES-də qəza nəticəsində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslər və s.

Notarial əməliyyatların aparılmasına görə aşağıdakı hallarda dövlət rüsumu ödənilmir:

B doğumu, ölümü, övladlığa götürülməni və atalığı (analığı) təsdiqləyən sənədləri almaq üçün;

B mənzil və ya ev (evin bir hissəsi) alqı-satqı və dəyişdirilməsi ilə bağlı notarial hərəkətləri üzrə - birinci qrup işləməyən əlillər, qaçqınlar və məcburi köçkünlər;

B pensiya, müavinət, yardım və alimentin alınması üçün verilən etibarnamələr üçün və s.

Aşağıdakı hallarda dövlət rüsumu alınmır:

diplomatik pasport almaq üçün ;

<«■ dövlət nümayəndə heyətinin tərkibində xaric'i ölkələrə ezam olunan şəxslərin pasport və digər gediş sənədləri rəsmiləşdirildikdə;

Azərbaycan Respublikasının xeyrinə əmlak bağışlanmasına dair müqavilələrin və xasiyyətnamələrin təsdiq edilməsinə görə və s.

Dövlət rüsumlarının ödəyicilərinə verilən güzəştlər şərtli, qeyri-şərtsiz, qismən və tam ola bilər.

Notarial hərəkətlərin apanimasına, beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsinə, habelə sənaye mülkiyyəti obyektlərinin qeydə alınmasına, müvafiq mühafizə sənədlərinin verilməsinə və onlarla bağlı digər hüquqi hərəkətlərə görə tutulan dövlət rüsumunun 15% dövlət rüsumu tutulan orqanların xüsusi hesabına, 85 faizi isə dövlət büdcəsinə keçirilir. Bütün digər hallarda isə dövlət rüsumu tam məbləğdə bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

Qanunda nəzərdə tutulmuş dövlət rüsumlannı tutulmasını həyata keçirən dövlət orqanlan hesabat rübündən sonrakı ayın 20-dək Vergilər Nazirliyi tərəfindən müəyyən edilmiş formada hesabat təqdim etməlidir.

FƏSİL 2. VERGİ UÇOTUıNUN TƏŞKİLİ

2.1. Vergi uçotunun mahiyyəti

"Mühasibat uçotu haqqında" Qanuna uyğun olaraq tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq mənfəət əldə etmək (etməmək) məqsədilə sahibkarlıq və digər fəaliyyət növü ilə məşğul olan bütün təsərrüfat subyektləri (sahibkarlar) mühasibat (maliyyə) uçotu aparmadan fəaliyyət göstərə bilməz. Belə ki, mühasibat uçotu müəssisənin idarəetmə və informasiya sisteminin tərkib hissəsidir və yalnız onun göstəriciləri müəssisənin əmlak və maliyyə resurslarının vəziyyəti, investisiya, kredit siyasəti, məsrəflər və istehsalın səmərəliliyi haqqında tam informasiyanı təmin edir. Bununla yanaşı, uçot məlumatları təsərrüfat fəaliyyətini idarə etmək, mənfəət üzrə planın yerinə yetirilməsinə nəzarət etmək və perspektiv istehsal proqramları hazırlamaq imkanı verir.

Digər tərəfdən bu sahibkarlıq fəaliyyəti göstərən müəssisələrin bazar subyektləri ilə təsərrüfat əlaqələrinə girməsilə şərtləndirilir. Bundan başqa, mühasibat uçotu informasiyasının əldə edilməsində kənar (xarici) istifadəçilər kimi vergi orqanları, auditor firmaları, investorlar maraqlıdır. Burada vergi orqanlannı xüsusi qeyd etmək lazımdır, çünki onlar digər informasiya istifadəçilərindən fərqli olaraq yalnız hesabat deyil, həm də vergilərin ödənilməsinin düzgünlüyünü yoxlamaq üçün lazım olan digər uçot informasiyasından da istifadə etmək hüququna malikdir.

Belə ki, vergi qanunvericiliyinə uyğun olaraq istənilən təsərrüfat subyekti vergi orqanlan və onun vəzifəli şəxslərinə müəyyən edilmiş hallarda və qaydada vergilərin hesablanması üçün lazım olan bütün mühasibat sənədlərini təqdim etməyə və gəlirlərin alınmasını, xərclərin çəkilməsini və vergilərin ödənilməsini (tutulmasını) təsdiq edən sənədlərin qorunub saxlanmasını təmin etməyə borcludur.

Vergi orqanlarının mühasibat uçotu məlumatları ilə tanış olmasında əsas məqsəd vergitutma bazasının formalaşmasının qanuniliyinin, vergi hesablamalarının düzgünlüyünün, hesablaşma intizamına riayət olunmasının və təsərrüfat subyektlərinin fəaliyyətinin nizamnamədə göstərilən fəaliyyət növlərinə uyğunluğunun müəyyən edilməsidir.

Vergi orqanlan qanunvericilikdə müəyyən edilmiş qaydada təsərrüfat subyektlərində bütün maliyyə sənədlərini, mühasibat kitablarını, hesabatları, smetaları, nağd pul vəsaitlərini, qiymətli kağızları və digər qiymətliləri, bəyannamə və vergilərin hesablanması (ödənilməsi) ilə bağlı olan digər sənədləri yoxlamaq, eləcə də səyyar yoxlama zamanı vergi ödəyiciləri və onun vəzifəli şəxslərindən məlumat, arayış və yoxlama ilə əlaqədar digər lazımi izahatlar almaq hüququna malikdir.

Planlı iqtisadiyyat şəraitində mühasibat uçotu sistemi dövlətin vergi məsələlərinə tam nəzarət etməyə imkan yaradan şəkildə təşkil olunurdu və həmin dövdə vergi sistemi vergiyə cəlbetmə məqsədilə uçotun aparılması üzrə heç bir xüsusi tələbat qoymurdu. Uçot prosesinin sonrakı inkişafı "vergi bloku"nun ayrı altsistemə (vergi registrlərinin, vergi hesabatının, vergi nəzarəti aparmaq məqsədilə ayrı-ayrı uçot sənədlərinin aparılması) ayrılması istiqamətində olmuşdur. Bu addım mühasi-

batlığın işini xeyli çətinləşdirmiş və onları ilkin uçot informasiyalarını iki istiqamətdə - mühasibat uçotu və vergitutma məqsədilə işləməyə məcbur etmişdir.

Bazar iqtisadiyyatının mühasibat uçotunun qarşısında qoyduğu tələblər olduqca sərtdir və onun əhatəsi genişdir. Bu isə hər şeydən əvvəl idarəetmənin əsas məqsədinin müəssisə fəaliyyətinin son nəticəsi olan mənfəətin alınmasına yönəldilməsi ilə əlaqədardır. Müasir uçot sistemi elmi nailiyyətlərə, praktikaya və dünya standartlarına əsaslanmalıdır. Müəssisənin mühasibat uçotu sistemində həm daxili, həm də xarici (kənar) istifadəçilər üçün lazım olan etibarlı informasiya formalaşmalıdır.

Mühasibat və vergi uçotunun aparılmasını reqlamentləşdirən əsas sərəncamverici sənəd olan uçot siyasəti hazırlanarkən ən mürəkkəb məsələlərdən biri hər iki uçot növü üçün ümumi olan elementlərinin seçilməsidir. Çünki bəzi vergilərin (xüsusilə mənfəət vergisinin) hesablanması üçün mühasibat uçotu məlumatlan kifayət etmir.

İndiki bazar iqtisadiyyatı şəraitində vergitutma mexanizmi ilə mühasibat uçotu arasında qarşılıqlı əlaqənin yaranması ən mühüm problemlərdən biridir. Qüvvədə olan vergi qanunvericiliyi müəssisələrdə ayrıca vergi uçotunun aparılmasını tələb edir. Yəni mülkiyyət formasından və tabeçiliyindən asılı olmayaraq istənilən təsərrüfat subyekti vergitutma məqsədləri üçün öz gəlir və xərclərinin uçotunu aparılmalıdır, Bu isə əsasən mənfəət vergisi üzrə vergitutma bazasının formalaşması ilə şərtləndirilir və yalnız vergitutma məqsədləri üçün tətbiq olunur.

Mənfəət vergisinin hesablanması üçün mühasibat uçotunun məlumatlarına əsasən alınmış mənfəət məbləğinin korrektə edilməsi deyil, mühasibat uçotu ilə yanaşı vergi uçotunun apaniması tələb olunur. Çünki vergi uçotunun başlıca prinsipi mənfəət vergisi üzrə vergi bazasının formalaşması üçün ilkin uçot sənədlərindəki məlumatlann yalnız vergi qanunvericiliyinin tələblərinə uyğun analitik registrlərdə qruplaşdınimasıdır.

Vergi qanunvericiliyi müəssisələrdə ayrıca vergi uçotunun aparılmasını tələb eçlir. Mənfəət vergisi üzrə vergi bazasının düzgün, müəyyən edilməsi və bu vergi növü üzrə hesablaşmaların vaxtında aparılmasını təmin etmək məqsədilə, vergi ödəyicilərindən mühasibat uçotu ilə yanaşı gəlir (məhsul və digər aktivlərin satışından olan pul vəsaitləri, satışdankənar gəlirlər) və xərclərinin (məhsulun maya dəyəri və satışdankənar xərclərin) uçotu aynca aparılmalıdır.

"Vergi uçotu" anlayışı Vergi Məcəlləsinin X fəslinin normalanna əsasən daxil edilmişdir və yalnız vergi qanunvericiliyi hüququ sahəsində tətbiq olunur. Nəzərə almaq lazımdır ki, vergi uçotu göstəricilərinin mühasibat uçotu məlumatlan əsasında formalaşmasına baxmayaraq yalnız vergitutma məqsədləri üçün istifadə olunur. Ümumiyyətlə vergi uçotu sistemi və onun məlumatları qətiyyən maliyyə və idarəetmə uçotunun informasiya təminatı üçün tətbiq edilə bilməz. Çünki, vergi uçotundan fərqli olaraq maliyyə və idarəetmə uçotu tamamilə başqa məqsədlə apa- nlır yə müəssisədə baş verən eyni təsərrüfat proseslərini müxtəlif cür xarakterizə edir. Məsələn, vergi uçotunda hesablanmış vergitutulan mənfəətin məbləği, mühasibat uçotunun göstəricilərinə əsasən hesablanmış balans mənfəətindən tamamilə fərqlənir.

Vergi uçotu - ilkin sənədlərin məlumatlarına əsasən mənfəət vergisi üzrə cari və gələcək dövrlərin vergitutma bazasının müəyyən edilməsi üçün vergi qanunverici

liyi ilə müəyyən edilmiş qaydada uçota alınan gəlir və xərclərin yaranmasına səbəb olan təsərrüfat əməliyyatları haqqında informasiyanın qeyd edilməsi və ümumiləşdirilməsi sistemidir.

Vergi uçotu təsərrüfat subyektinin vergi öhdəliklərinin tam və düzgün hesablanması üçün zəruri olan informasiyanın yığılması və qeydə alınması sistemi olmaqla, vergitutma sahəsində mühasibat uçotunun alternativi və ona əlavə kimi çıxış edir.

Vergi uçotu mühasibat uçotunun tərkib hissəsi olmaqla təsərrüfat subyektlərinin vergi öhdəliklərinin (vergi bəyannamələrinin) düzgün və obyektiv hesablanması (tərtib edilməsi) üçün lazım olan işgüzar (maliyyə) informasiyasının toplanması, qeyd edilməsi və işlənməsi sistemidir.

Hal-hazırda ölkəmizin müəssisə və təşkilatlarında mühasibat uçotu ilə yanaşı vergi uçotu aparılmır. Lakin qüvvədə olan Vergi Məcəlləsinin layihəsi bilavasitə Beynəlxalq Valyuta Fondu nümayəndələrinin iştirakı ilə hazırlandığı üçün vergi uçotunun mühasibat uçotundan ayrılmasının əsası qoyulmuşdur. Məsələn, məcəllədə "maya dəyərinə aid edilən xərclər" anlayışının əvəzinə "gəlirdən çıxılan xərclər", "gəlirdən çıxılmayan xərclər" və "gəlirdən çıxılması məhdudlaşdırılan xərclər" kimi anlayışlar daxil edilmiş və onlardan yalnız vergitutma məqsədləri üçün istifadə olunur. "Vergi uçotu" anlayışı ölkəmizin vergi sisteminə Vergi Məcəlləsinin 130-cu maddəsinə əsasən daxil edilmişdir. Bu isə Vergi Məcəlləsinin mühasibat və vergi uçotlarının fərqli uçot sistemləri olduğunu təsdiq edən ilk normativ-hüquqi sənəd olduğunu göstərir.

Vergi uçotu obyektiv vergitutmanın təmin və vergi bəyannamələrinin düzgün tərtib edilməsi məqsədilə vergilərin uçotunu təmin edən informasiyasının toplanması üçün nəzərdə tutulmuşdur. Eyni /.amanda, vergi uçotu vergitutma bazasının düzgün müəyyən edilməsi məqsədilə müstəqil, yaxud mühasibat uçotu məlumatlarında korreklə xarakterli hesablamalann aparılması sistemidir.

Korrektə xarakterli hesablamalar sistemdənkənar, yəni alınmış məlumatlar mühasibat uçotunda əks etdirilmədən aparılır. Bu məqsədlə müəssisələr tərəfindən müstəqil vergi hesablamaları, informasiyanın toplanması və sistemləşdirilməsi üçün nəzərdə tutulmuş cədvəl və ya vergi kartoçkaları şəklində vergi registrləri işlənib hazırlanır.

Vergi uçotu əsasən aşağıdakı funksiyaları yerinə yetirir:

təsərrüfat subyektinin (sahibkarın) vergi öhdəliklərinin düzgün müəyyən edilməsi üçün lazım olan ilkin informasiyanın toplanması və qeyd edilməsi; ^ ilkin vergi informasiyasının vergi (mühasibat) registrlərində və mühasibat uçotu hesablarında vaxtında əks etdirilməsi;

^ müəssisələrin vergi öhdəliklərinin güzgün müəyyən edilməsi;

etibarlı vergi hesabatının (bəyannaməsinin) formalaşması;

* vergi informasiyasının formalaşması və vergi hesabatının güzgün tərtib olunması üzərində nəzarətin təşkili.

Beləliklə, vergi uçotu - vergi qanunvericiliyində nəzərdə tutulmuş qaydada qruplaşdırılmış ilkin sənədlərin məlumatlarına əsasən cari və gələcək dövrlərdə mənfəət vergisi üzrə vergitutma bazasının müəyyən edilməsi (hesablanması) üçün

təsərrüfat subyektləri (sahibkarlar) tərəfindən həyata keçirilən, vergi qanunvericiliyi ilə müəyyən edilmiş qaydada uçota alman gəlir və xərclərin yaranmasına səbəb olan əməliyyatlar haqqında informasiyanın qeyd edilməsi və ümumiləşdirilməsi sistemidir.

Vergi uçotunun mahiyyətini və yaranma səbəbini müəyyən etdikdən sonra, digər uçot növləri kimi bu uçot növünün obyektlərini (predmetini) və onların öyrənilməsi metodlarını nəzərdən keçirək.

2.2. Vergi uçotunun predmeti və metodu

İqtisadi subyektin vergiləri hesablamaq və ödəmək öhdəliyi yaradan istehsal və qeyri-istehsal fəaliyyəti üzrə həyata keçirdiyi bütün təsərrüfat əməliyyatları vergi uçotunun **predmetini (obyektdir)** təşkil edir. Başqa sözlə, müə.ssisənin əmlakı, öhdəlikləri və həyata keçirdiyi bütün təsərrüfat əməliyyatları vergi uçotunun obyektidir və onların qiymətləndirilmiş dəyəri cari və sonrakı hesabat dövrlərinin vergi bazasının həcmini müəyyən edir.

Tövsiyə olunan vergi uçotu registrlərinin aparılması məqsədilə aşağıdakı anlayışlardan istifadə olunur:

- **vergi uçotu vahidləri** - məlumatları bir neçə hesabat dövründə istifadə olunan vergi uçotu obyektləri;
- vergi **uçotu** göstəriciləri - vergi uçotu obyektləri üçün xarakterik olan xassələrin siyahısı;
- **vergi uçotu məlumatları** - uçot obyektinin həcmi və onun mahiyyəti haqqında işləmə cədvəllərində, mühasibat arayışlarında və vergitutma obyekti haqqında məlumatları qruplaşdıran digər sənədlərdə əks olunan informasiya;
- **analitik vergi uçotu registrləri** - mühasibat uçotu hesablarında əks olunmadan, vergi qanunvericiliyinin tələblərinə uyğun olaraq qruplaşdınlmış hesabat (vergi) dövrünün vergi uçotu məlumatlarının sistemləşdirilməsi üçün tətbiq olunan icmal sənəd formalarıdır.

Vergi uçotunun qarşısında duran vəzifələri həll etmək üçün aşağıdakı **metodlardan (üsullardan)** istifadə olunur:

- vergi uçotu göstəricilərinin müəyyən edilməsi;
- "vergi maya dəyərinin" hesablanması;
- vergitutma bazasının formalaşması üsulunun müəyyən edilməsi;
- vergi dlskontunun müəyyən edilməsi;
- vergi dövrünün müəyyən edilməsi;
- xüsusi vergi sənədlərinin aparılması (hesablanması).

Vergi uçotu göstəricilərinin müəyyən edilməsi mühasibat uçotunun məlumatlarına əsasən həyata keçirilir və yalnız vergitutma məqsədləri üçün istifadə olunur. Məsələn, vergitutma məqsədləri üçün müəyyən edilmiş mənfəət məbləği mühasibat uçotu hesabatında göstərilən balans mənfəəti ilə üst-üstə düşmür.

"Vergi maya dəyəri" - vergi uçotu göstəricisinin mühasibat uçotu metodikasından fərqli qaydada müəyyən edilməsidir. Yəni müəssisənin çəkdiyi xərclər

vergitutma məqsədləri üçün müəyyən edilmiş limit,"norma və normativlər nəzərə alınmaqla müəyyən edilir. Məsələn, müəssisənin tənirlə bağlı çəkdiyi xərclər mühasibat uçotunda bütövlükdə xərclərin tərkibinə daxil edildiyi halda, vergitutma məqsədləri üçün bu xərclərin məbləği məhdudlaşdırılır.

Vergitutma bazasının formalaşması üsulunun müəyyən edilməsi vergi öhdəliyinin yarandığı anın düzgün təyin edilməsi üçün lazımdır. Bu iki üsulla həyala keçirilir: kassa üsulu və hesablama üsulu.

Birinci üsula görə müəssisənin vergi öhdəliyi vəsaitlərin alındığı və ödənişlərin həyata keçirildiyi an yaranır. Məsələn, pul vəsaitlərinin bankdakı hesablaşma hesabına daxil olduğu və ya kassaya ödənildiyi an vergi ödəyicisinin gəlirin əldə olunma vaxtı sayılır.

İkinci üsulun tətbiqi zamanı isə mülkiyyət hüququnun və borc öhdəliyinin yarandığı (hesablandığı) an vergi öhdəliyinin yaranma vaxtı hesab olunur. Məsələn, gəlir əldə edilməsinin faktiki vaxtından asılı olmayaraq yalnız gəlir əldə etmək hüququnun yarandığı an gəlirin əldə edilmə vaxtı kimi qəbul olunur.

Vergitutma nəzəriyyəsində vergitutma bazasının təyin edilməsinin bir neçə üsulu mövcuddur. Bunlardan ən əsası birbaşa və dolayı üsullardır. Birbaşa üsulun tətbiqi zamanı vergitutma bazası vergi ödəyicisinin sənədlərlə təsdiq edilmiş göstəricilərinə əsasən müəyyən edilir. Məsələn, vergi Ödəyicisi mənfəət vergisini hesablayarkən uçot və vergi-hesabat sənədlərində (bəyannamələrdə) müəyyən dövr ərzində əldə etdiyi bütün gəlirlərini əks etdirir. Sonra ilkin sənədlərlə təsdiq edilmiş xərcləri həmin gəlirdən çıxmaqla vergiyə cəlb olunan mənfəət məbləğini müəyyən edir. Dolayı üsul isə vergitutma bazasının əlaqəli və analoji vergi ödəyicisi barədə məlumatlara əsasən hesablanmasını nəzərdə tutur.

Vergi diskontu - vergitutma məqsədləri üçün vergi ödəyicisinin əldə etdiyi gəlirləri artıran məbləğdir. Məsələn, Vergi Məcəlləsinə əsasən malların təqdim edilməsi əlavə dəyər vergisi üçün vergitutma obyektidir. Vergitutulan dövriyyə malların mövcud qiymət və tariflər nəzərə alınmaqla hesablanmış dəyərinə əsasən müəyyən edilir. Əgər mallar maya dəyərindən aşağı qiymətə satılırsa və onlar alınarkən əvəzləşdirmə hüququ əldə edilmişdirsə, onda vergitutulan dövriyyə həmin malların təqdim edilmə anında mövcud olan bazar qiyməti ilə (maya dəyərindən aşağı olmayan) müəyyənləşdirilir. Bu zaman malların faktiki təqdim olunduğu və onun mövcud bazar qiymətləri arasında yaranmış fərq məbləği mühasibat uçotunda öz əksini tapmır.

Hər bir vergi növü üzrə vergi dövrünün müəyyən edilməsi vergitutma bazası üçün prinsipial əhəmiyyət kəsb edir və vergi qanun pozuntularına görə sanksiyaların tətbiqi zamanı böyük rol oynayır.

Xüsusi vergi sənədlərinin aparılması vergi uçotunun texniki üsul udur .Vergi sənədləri - vergilərin hesablanmasını, vergi məbləğini və vergi öhdəliyinin həcmini əks etdirən uçot reqistrləridir. Vergi sənədlərinə aşağıdakılar daxildir:

- uçot-hesabat sənədləri;
- müşayiətedici sənədlər;
- vergi uçotu registrləri;

• bildiriş.

Uçot-hesabat sənədləri - vergi öhdəliyinin məbləğini əks etdirən sənədlərdir. Hər bir vergi növü üçün ayrıca bəyannamə forması müəyyən edilmişdir və onlar qanunvericiliklə müəyyən edilmiş qaydada və vaxtda vergi orqanlarına təqdim olunur. Bu sənədlər tərtib edildikdən, müəssisənin rəhbəri və baş mühasibi tərəfindən imzalandıqdan sonra vergi ödəyicisinin qeydiyyata alındığı vergi orqanına təqdim olunur. Müvafiq sənədlərin tərtib edilməsinə və qanunvericiliklə müəyyən edilmiş müddətdə verilməməyinə görə vergi ödəyicisinə qarşı maliyyə sanksiyası tətbiq olunur.

Müşayiətedici sənədlər - vergilərin hesablanması üçün zəruri olan, vergi hesabatlanndakı (bəyannamələrdəki) məlumatları əsaslandıran, şərh edən arayış materialı rolunu oynayan sənədlərdir. Onlara alınmış mallara (işlərə, xidmətlərə) görə malsatanlarm təqdim etdikləri vergi hesab-fakturalarını misal göstərmək olar.

Vergi uçotu registrləri - müəssisələrdə vergi uçotunun aparılması üçün nəzərdə tutulmuş ümumi registr və ilkin uçot formalarıdır. Belə ki, vergi uçotunda əks olunması üçün zəruri olan və ilkin mühasibat uçotu sənədlərində əks olunan informasiya, vergi uçotu registrlərində toplanmalı və sistemləşdirilməlidir. Müəyyən hesabat dövrü üçün tərtib edilmiş vergi registrlərindəki informasiya ümumiləşdirildikdən sonra, həmin məlumatlar bəyannamələrə köçürülür.

Bildiriş - vergi orqanları tərəfindən vergi ödəyieilərinə təqdim edilən və özündə ödənilməsi zəruri olan vergi məbləğini, onun ödənilmə müddətini əks etdirən sənəddir. Bu sənədlərə fiziki şəxslərin torpaq və əmlak vergilərinin hesablanması barədə tədiyyə bildirişini misal göstərmək olar.

2.3. Vergi uçotunun məqsəd və vəzifələri

Mühasibat və vergi uçotlarının aparılma məqsədləri fərqli olduğu kimi onların qarşısında duran vəzifələr də fərqlidir. Mühasibat uçotunun məqsəd və vəzifələri vergi uçotundan əhəmiyyətli dərəcədə fərqlənir (bax şəkil 1). Mühasibat uçotu müəssisənin təsərrüfat fəaliyyəti və onun maliyyə nəticələrinin maksimum iqtisadi mahiyyətinin tam və dəqiq əks etdirilməsi məqsədi ilə aparılır. Əks halda potensial investor qoyduğu sərmayənin sərfəli olub-olmaması və özünün sahibkarlıq riskinin dərəcəsi haqqında qərar qəbul edə bilməz.

Təsərrüfat subyektlərində vergi uçotu ilə paralel aparılan mühasibat (maliyyə) uçotu qarşısında duran məqsəd və vəzifələr aşağıdakılardır:

> müəssisənin maliyyə-təsərrüfat fəaliyyəti, təsərrüfat prosesləri və onun əmlak vəziyyəti haqqında daxili (rəhbərlər, təsisçilər, iştirakçılar və müəssisə əmlakının mülkiyyətçiləri) və xarici (investorlar, kreditorlar, bank, maliyyə və vergi orqanları) istifadəçilər üçün zəruri lazım olan tam (dolğun) və düzgün informasiya formalaşdırmaq;
> material, əmək və maliyyə resurslarından qanunvericilikdə təsdiq edilmiş norma, normativ, smetalara uyğun istifadə və əmlakın hərəkəti üzərində nəzarət edilməsi;

- təsərrüfat fəaliyyətinin mənfi nəticələrinin aradan qaldırılması və onun maliyyə sabitliyinin təmin edilməsi üçün təsərrüfatdaxili ehtiyatların aşkar və səfərbər edilməsi;
- müəssisə əmlakının, öhdəliklərinin və bütün təsərrüfat əməliyyatlarının mövcud standartlara, mühasibat uçotunun hesablar planına və başqa normativ sənədlərə uyğun olaraq hesablarda qarşılıqlı əlaqədə ikili yazılış üsulu ilə əks etdirmək.

Bundan başqa, müəssisələrdə aparılan mühasibat uçotu aşağıdakıları təmin etməlidir:

- ❖ hesabat dövrü ərzində ayrı-ayrı təsərrüfat əməliyyatlarının uçotda düzgün əks etdirilməsini;
- ❖ əmlakın qiymətləndirməsi zamanı təsərrüfatçılıq şəraitindən asılı olaraq qəbul edilmiş uçot siyasətinə və qanuna uyğun hazırlanmış mühasibat uçotu standartları və digər normativ sənədlərin tələblərinə əməl olunmasını;
- ❖ keçən dövr ilə müqayisədə uçot siyasətindəki dəyişikliklərin mühasibat hesabatında izah edilməsini.

Bununla yanaşı, hesabat dövründəki (ay, rüb, il) mövcud əmlakın, öhdəliklərin, kapitalın, hesablaşmaların'və digər qiymətlilərin inventarizasiyasının nəticələri uçotda tam düzgün əks etdirilməlidir. Bütün təsərrüfat əməliyyatlarının ardıcıl olaraq uçot registrində düzgün, xronoloji qeydiyyatı təmin edilməlidir.

Gəlir və xərclər hesabat dövrünə düzgün aid edilməlidir. Qəbul edilmiş uçot siyasətinə hesabat ili ərzində riayət olunmalıdır.



Şəkil 6. Mühasibat və vergi uçot sistemlərinin məqsədi

Uçotda cari xərclərin istehsal (tədavül) xərclərinə və kapital qoyuluşlarına ayrılması dürüst müəyyənləşdirilməlidir. Hər ayın biri tarixinə analitik uçot hesablarının məlumatları dövriyyə və qalıqlar üzrə sintetik uçot hesablarının məlumatları ilə tutuşdurularaq onların eyniliyi və düzgünlüyü müəyyənləşdirilməlidir.

Vergi uçotu dövlət büdcəsinə tutulan gəlir məbləğinin müəyyən edilməsi məqsədilə mühasibat uçotu prinsiplərinə əsasən formalaşan müəssisənin iqtisadi-maliyyə fəaliyyəti haqqında informasiya sisteminin aparıcı tərkib hissələrindən biridir.

Vergi uçotu büdcə və büdcədənkənar fondlara ödəniləcək verginin hesablanması üçün lazım olan optimal gəlirlilik səviyyəsinə uyğun müəyyən edilmiş inzibati normalara uyğun təsərrüfat fəaliyyətinin həyata keçirilməsini nəzərdə tutur. Əks halda vergi orqanları hətta hüquqi şəxslərin müflisləşməsi haqqında tələblər kimi sanksiyalar tətbiq edə bilər.

Vergi uçotu vergitutma sahəsində mühasibat uçotunun alternativi və ona əlavə kimi çıxış etməklə, təsərrüfat subyektlərinin (sahibkarların) vergi öhdəliklərinin tam və düzgün hesablanması üçün zəruri olan informasiyanın yığılması və qeydə alınmasına xidmət edir.

Vergi uçotunun məqsədi aşağıdakılardan ibarətdir:

- ❖ mənfəətin vergiyə cəlb olunması məqsədilə müəssisələrin (sahibkarların) hesabat dövrü ərzində həyata keçirdiyi təsərrüfat əməliyyatlarının uçotu qaydası haqqında tam (düzgün) və dürüst informasiyanın formalaşması;
- ❖ vergilərin hesablanmasının düzgünlüyü, dövlət büdcəsinə vaxtında və tam keçirilməsi üzərində nəzarət edilməsi üçün daxili və xarici istifadəçilərin tam (düzgün) və dürüst informasiya ilə təmin edilməsi.

Göründüyü kimi, vergi uçotu digər uçot növlərindən fərqli məqsədlər güdür və iqtisadi qanunlarla yanaşı əsasən vergi sisteminin fıskal funksiyasının təsiri altında formalaşan mənfəətə görə verginin hesablanması üçün vergi bazasının müəyyən edilməsinə yönəlmişdir.

Həm də nəzərə almaq lazımdır ki, vergi uçotu yalnız müə.ssisə mənfəətinin vergiyə cəlb edilməsi məqsədilə aparılır. Digər vergilər isə ancaq mühasibat uçotunun məlumatlarına əsasən hesablanır və bunun üçün vergi uçotu sisteminin tətbiq olunmasına icazə verilmir və onun aparılması tələb olunmur.

Vergi uçotunun əsas vəzifəsi vergi qanunvericiliyində nəzərdə tutulmuş qaydada hesabat dövrünün vergi bazasını müəyyən edilməsi üçün lazım olan gəlir və xərclərin formalaşması qaydası haqqında tam və dürüst informasiya toplamaqdan, eləcə də hesablanmış mənfəət vergisinin düzgünlüyü, tam və vaxtında büdcəyə köçürülməsi üzərində nəzarətin həyata keçirilməsi üçün müəssisə rəhbərliyini və vergi orqanlarını həmin informasiya ilə təmin etməkdən ibarətdir.

2.4. Ver^i uçotunun prinsipləri

Vergi uçotunun məqsəd və vəzifələrini müəyyən etdikdən sonra vergi uçotunun hansı prinsiplər əsasında qurulduğunu nəzərdən keçirək. Qeyd etmək lazımdır ki, təsərrüfat subyektləri tərəfindən mühasibat uçotu ilə yanaşı onun məlumatlarına

əsasən vergi uçotu özünəməxsus xüsusiyyətlərə malikdir və onun nəticələri mühasibat uçotunun nəticələrindən əhəmiyyətli dərəcədə fərqlənə bilər.

Vergi uçotunun təşkili dedikdə, vergi bazasının həcminə birbaşa və dolayı təsir edən bütün göstəricilərin, onların vergi uçotu registrlərində sistemləşdirilməsi kriteriyalarının, eləcə də uçot obyektləri haqqında məlumatların registrlərdə əks olunması, formalaşması və uçotu qaydasının müəyyən edilməsi nəzərdə tutulur.

Əgər başqa hallar nəzərdə tutulmamışdırsa, onda vergitutulan gəlir vergi qanunvericiliyinin tələbləri nəzərə alınmaqla zəruri düzəlişlər aparmaq şərti ilə vergi ödəyicisinin öz mühasibat uçotunda istifadə etdiyi metodla hesablamalıdır. Vergi bazasının müəyyən edilməsi üçün mühasibat uçotu registrlərində lazımı informasiya olmadıqda isə vergi ödəyicisi tətbiq edilən mühasibat uçotu registrlərinə əlavə rck-vizitlər əlavə etməklə, yaxud müstəqil vergi uçotu registrləri formalaşdıra bilərlər.

Vergitutma məqsədləri üçün müəssisə əmlakının, təsərrüfat əməliyyatlarının qruplaşdırılması və uçotu qaydası, mühasibat uçotunun qaydalanndan fərqli olduğu hallarda, təsərrüfat subyekti hesabat (vergi) dövrünün yekunlarına görə vergitutulan mənfəət məbləğini vergi uçotunun məlumatlarına əsasən hesablayır.

Vergi uçotunun aparılması qaydası vergitutma məqsədləri üçün müəssisə rəhbərinin əmrinə (sərəncamına) əsasən təsdiq edilmiş uçot siyasəti ilə müəyyən edilir. Qəbul olunmuş uçot qaydası vergi uçotunun norma və qaydalarının ardıcıl tətbiq edilməsi prinsipi nəzərə alınmaqla uzun müddət ərzində bir hesabat dövründən digərinə kimi ardıcıllıqla tətbiq olunmalıdır. Təsərrüfat subyektləri (sahibkarlar) tərəfindən aparılan vergi uçotu təsərrüfat-kommersiya fəaliyyəti ilə bağlı olan bütün əməliyyatların başlanğıc, gedişat və qurtarmasını müəyyənləşdirmək imkanını təmin etməlidir.

Təsərrüfat subyektlərinə vergi uçotunun aparılması qaydasına aşağıdakı hallarda dəyişiklik etməyə icazə verilir:

> qanunvericilikdə dəyişiklik edildikdə;
> tətbiq edilən uçot metodu dəyişildikdə;
> müəssisə yeni fəaliyyət növünə başladıqda.

İstənilən halda, dəyişiklik edilməsi haqqında qəbul edilmiş qərar müəssisənin uçot siyasətində əks olunmalı və yalnız yeni vergi (hesabat) dövrünün əvvəlindən, vergilər haqqında qanunvericilikdə dəyişikliklər edildiyi hallada isə - qanunvericilikdə edilmiş dəyişikliklərin qüvvəyə mindiyi andan tətbiq olunmalıdır. Vergi ödəyicisinin yeni fəaliyyət növünü həyata keçirdiyi hallarda, vergitutma məqsədləri üçün bu fəaliyyət növlərinin əks olunması prinsip və qaydaları həmçinin vergi siyasətində əks etdirməlidir.

Vergi uçotunun məlumatları sənədlərlə təsdiqlənməli və özündə aşağıdakı məlumatları əks etdirməlidir:

M gəlir və xərclərin formalaşmasını;

H cari vergi (hesabat) dövründə uçota alınan xərclərin və növbəti hesabat (vergi) dövrlərinə aid ediləcək xərclərin (zərərin) müəyyən edilməsi qaydasını;

K yaradılacaq ehtiyat məbləğlərinin formalaşması qaydasını;

a mənfəət vergisi üzrə büdcəyə olan borc məbləğini.

Yuxanda sadalananlar vergitutma bazasının müəyyən edilməsi üçün tərtib olunan və vergi uçotu sənədləri rolunu oynayan analitik registr formaları (mühasibat arayışları da daxil olmaqla ilkin uçot sənədləri, analitik vergi uçotu registrləri və vergi bazasının haqq-hesabı) ilə təsdiq edilir,

Registr formaları, onlarda ilkin uçot sənəd və vergi uçotunun analitik məlumatlarının əks etdirilməsi, vergi uçotu göstəricilərinin formalaşması üzrə əməliyyatların yerinə yetirilmə ardıcıllığı və kağız daşıyıcılarında məlumatların təqdim edilməsi qaydası təsərrüfat subyektləri tərəfindən müstəqil işlənib hazırlanır. Vergi və digər dövlət orqanları vergi ödəyiciləri üçün vergi uçotu sənədlərinin məcburi formalarını müəyyən edə bilməz.

Təsərrüfat subyektləri tərəfindən təşkil edilmiş vergi uçotu sistemi aşağıdakı əsas prinsiplər nəzərə alınmaqla təşkil olunmalıdır:

ardıcıllıq - vergi uçotunun norma və qaydalarının bir hesabat dövründən digərinə ardıcıl olaraq tətbiq edilməsi;

fasiləsizlik - uçot obyektlərinin xronoloji qaydada ardıcıl olaraq əks etdirilməsi;

tamlıq - analitik uçot məlumatlarının vergitutma bazasının formalaşması qaydasının tam açıqlaması.

Vergi uçotu elə təşkil edilməlidir ki, müəssisə fəaliyyətinin vergitutma bazasına təsir edən (edə biləcək) təsərrüfat əməliyyatları faktını fasiləsiz olaraq xronoloji qaydada əks etdirmiş olsun.

Vergi qanunvericiliyinə uyğun olaraq təsərrüfat subyektləri vergitutulan gəlirlərin (mənfəətin) dəqiq müəyyən edilməsi üçün sənədləşdirilmiş məlumata əsasən öz gəlir və xərclərinin uçotunu vaxtlı-vaxtında aparmalı, tətbiq edilən uçot metodundan asılı olaraq, onları əldə edildiyi və çəkildiyi müvafiq hesabat (vergi) dövrlərinə aid etməlidir. Vergi ödəyicisinin tətbiq etdiyi uçot metodunda gəlirlərin əldə edilmə və xərclərin çəkilmə müddətinə, həmçinin onların uçotu qaydasına dair bütün tələblər nəzərə alınmalıdır. Müəssisələr (fərdi sahibkarlar) tərəfindən aparılan vergi uçotu onların fəaliyyəti ilə bağlı olan bütün əməliyyatlann başlanğıc, gedişat və qurtarmasını müəyyənləşdirmək imkanını təmin etməlidir.

Vergi ödəyicisi hesabat ili ərzində eyni metod tətbiq etmək şərti ilə gəlir və xərclərinin uçotunu kassa və hesablama metodu ilə apara bilər. Vergi ödəyicisinin tətbiq etdiyi uçot metodu dəyişdirildiyi hallarda, əməliyyatlann nəzərdən qaçırılmaması və ya təkrar olaraq hesaba alınmaması üçün vergi məbləğinə təsir göstərən əməliyyatlara edilən düzəlişlər uçot metodunun dəyişdirildiyi hesabat (vergi) ilində aparılmalıdır.

Vergiyə cəlb edilməsi onun idarəetmə sisteminin ayrılmaz hissəsidir. Savadlı və mütəşəkkil formada qurulmuş vergi uçotu sisteminin köməyilə vergi planlaşdır- ması sisteminin tətbiqi biznesin inkişafına təkan verir. Səmərəli vergiqoyma prosesinin təşkili müəssisələrin işində ən yaxşı nəticələrin əldə edilməsinin optimal üsullarından biridir.

Vergi uçotunu qurmaqda məqsəd təşkilatın vergi Öhdəlikləri üzrə büdcə və büdcədənkənar fondlar ilə hesablaşmaların vəziyyətinə operativ nəzarəti təmin etməkdir. Sənəd dövriyyəsi (vergi registrlərinin işlənməsi) baxımından vergi uçotunun optimal təşkili sizin büdcəyə və büdcədənkənar fondlara olan borcunuzu səmə-

rəii şəkildə tənzimləmək, vergi risklərinin və arzuolunmayan maliyyə nəticələrinin qarşısını almaq imkanı yaradacaqdır.

Vergi uçotunun düzgün qurulması istənilən təşkilatda yergi planlaşdırması- nın əsasını təşkil edir, dərin peşə bilikləri və təcrübə tələb edir. Vergi uçotunun düzgün təşkili təsərrüfat subyektlərinə büdcə və büdcədənkənar fondlar ilə hesablaşmaların vəziyyəti haqqında məlumat almaq üçün vaxta qənaət, düzgün idarəetmə qərarlarını vaxtında qəbul etmək imkanı verməklə yanaşı, onların vergi riskləri minimuma endiriləcək.

Beləlilkə, vergi uçotunun məqsəd və prinsiplərini müəyyən etdikdən sonra, onun praktiki olaraq müəssisədə həyata keçirilməsini təşkil etmək lazımdır. Yəni vergi uçotunun məlumat mənbələri, analitik registrlərinin forması, informasiyanın vergi uçotu sisteminə daxil edilməsi ardıcıllığı, mexanizmi və müddətləri, onun sistemləşdirilməsi və ümumiləşdirilməsi üsulları, sənəd dövriyyəsi qaydası, vergi uçotu göstəricilərinin formalaşması üzrə əməliyyatların yerinə yetirilməsi ardıcıllığı, məlumatların maşın daşıyıcılarına verilməsi forması müəyyənləşdirilməlidir.

Qeyd etdiyimiz kimi, vergi uçotunun aparılması qaydası təsərrüfat subyektləri (sahibkarlar) tərəfindən müstəqil və müəssisə rəhbərinin sərəncamı ilə təsdiqlənmiş uçot siyasəti ilə müəyyən edilir. Təsərrüfat subyektləri tərəfindən aparılan vergi uçotunun məlumatları vergitutma bazasının formalaşması üçün lazım olan informasiyanı təmin etməlidir.

Vergi uçotunun məlumat mənbələri kimi aşağıdakıları göstərmək olar:

4 ilkin uçot sənədləri;

4 mühasibat uçotu registrlərinin əsasında formalaşdırılmış vergi uçotu registr- ləri (əgər bu registrlərdə Vergi Məcəlləsinin tələblərinə uyğun olaraq vergi bazasının müəyyən edilməsi üçün lazımi informasiya olmazsa, onda vergi ödəyicisi müstəqil olaraq tərtib edilən mühasibat uçotu registrlərinə əlavə rekvizitlər daxil etməklə yeni vergi uçotu registri formalaşdıra bilər);

4 müstəqil analitik vergi uçotu registrləri;

4 cari və gələcək hesabat dövrləri üçün mənfəət vergisi üzrə vergi bazasının haqq-hesabı.

Bundan başqa işləmə cədvəlləri, mühasibat arayışları və vergitutma obyektləri haqqında informasiyanı qruplaşdıran digər sənədlərdə uçota alınan məlumatlar həmçinin vergi uçotunun məlumat mənbəyi hesab olunur.

2>f2 li "Mənfəət və zərərlər haqqında" hesabat formasındakı mühasibat (maliyyə) uçotu məlumatlarına əsasən formalaşmış mənfəət (zərər), vergi uçotu məlumatlarına əsasən hesablanmış vergi bazasına qismən uyğun gəlir. Bu uyğunsuzluq heç də mühasibat uçotu islahatlarının aparıldığı bugünkü mərhələdə mühasibin səhvə yol verməsini göstərmir.

İlkin uçot sənədləri iqtisadi subyektin apardığı bütün təsərrüfat əməliyyatlarının rəsmiləşdirildiyini təsdiq edən sənədlərdir.

Analitik vergi uçotu registrləri yalnız vergitutma məqsədləri üçün tətbiq olunan xüsusi sənədlərdir.

Vergitutma bazasının haqq>hesabı vergi uçotu məlumatlarmın ümumiləşdirilməsi üçün istifadə olunan sənəd formasıdır.

Vergi uçotu özündə aşağıdakı məlumatları əks etdirməlidir:

- gəlir və xərc məbləğlərinin formalaşması qaydasını;
- cari hesabat (vergi) dövründə vergitutma məqsədləri üçün uçota alınan xərclərin (zərərin) xüsusi çəkisinin müəyyən edilməsi qaydasını;
- növbəti hesabat dövrlərinin xərclərinə daxil ediləcək xərclərin qalıq məbləğini;
- yaradılmış ehtiyat məbləğinin formalaşması qaydasını;
- mənfəət vergisi üzrə büdcəyə olan borc məbləğini.

Qeyd etmək lazımdır ki, vergi qanunvericiliyinə uyğun olaraq vergi uçotu məlumatlarının məzmunu vergi (kommersiya) sirri hesab olunur. Vergi uçotu məlumatlarında olan informasiya ilə tanış olmaq səlahiyyəti olan şəxslər vergi sirrini saxlamağa borcludur və onun yayılmasına görə qüvvədə olan qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyırlar.

2.5. Vergi və mühasibat uçotunun fərqli cəhətləri

İqtisadi münasibətlərin dəyişdiyi, uçot sahəsində yeni beynəlxalq standartların mövcud olduğu indiki bazar iqtisadiyyatına keçid şəraitində vahid uçot sisteminin formalaşması üçün lazım olan qanunverici əsaslar yeni qəbul ediləcək aktlarda öz əksini tapmalıdır. Digər tərəfdən mövcud Vergi Məcəlləsi proqressiv vergi sisteminin formalaşmasında irəliyə atılan mühüm addım olmaqla yanaşı, beynəlxalq standartlara əhəmiyyətli dərəcədə yaxınlaşdın İm işdir. Qeyd etmək lazımdır ki, hal- hazırda ölkəmizdə mühasibat uçotu vergi sistemindən əhəmiyyətli dərəcədə asılıdır. Vergitutma sahəsində mütəmadi olaraq edilən dəyişikliklər öz növbəsində mü- h^ibat uçotu sistemində də müvafiq dəyişikliklərin edilməsini tələb edir.

Respublikamızda mövcud iqtisadi şəraitə uyğun daha təkmil uçot sisteminin yaradılması, uçot siyasətinin iqtisadiyyatm inkişafına yönəldilməsi, maliyyə əməliyyatlan və digər informasiyanm şəffaflığınm təmin edilməsi, vergi daxilolmalı mənbələrinin, uçot və hesabat işlərinin vahid istiqamətinin düzgün müəyyən edilməsi məqsədilə Maliyyə Nazirliyi tərəfindən mühasibat uçotu və milli mühasibat uçotu standartlarmm hazırlanması sahəsində dövlət proqramı hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilmişdir.

Planlı iqtisadiyyat şəraitində mühasibat uçotu sistemi dövlətin vergi məsələlərinə tam nəzarət etməyə imkan yaradan şəkildə təşkil olunurdu. Belə bir şəraitdə vergi sistemi vergiyə cəlbetmə məqsədilə uçotun aparılması üzrə heç bir xüsusi tə- ' ləbat qoymurdu. Uçot prosesinin sonrakı inkişafı "vergi bloku"nun ayrı altsistemə (vergi registrlərinin, vergi hesabatının, vergi nəzarəti aparmaq məqsədilə ayrı-ayrı uçot sənədlərinin apanlması) ayrılması istiqamətində olmuşdur. Bu addım mühasi- batlığın işini xeyli çətinləşdirmiş və onları ilk uçot informasiyalarını iki istiqamətdə - mühasibat uçotu və vergitutma məqsədilə işləməyə məcbur etmişdir.

Bu mövzuda maliyyə sahəsində mütəxəssislər qarşısında duran maliyyə və vergi uçotunun təşkili problemlərinə çalışmışıq. Çoxsaylı müəlliflər, eləcə də Vergi Məcəlləsini tərtib edənlər vergi ucotunu mühasibat ucotundan əhəmivvətli dərəcə

də fərqli uçot növü kimi qəbul edirlər. Onların fikrincə, vergi Ödəyicisinin vergitut- ma ilə bağlı əməliyyatlarının uçotu sistemini heç bir halda mühasibat uçotunda qurmaq mümkün deyil. Təəssüflər olsun ki, qüvvədə olan Vergi Məcəlləsi vergi uçotunu mühasibat uçotundan ayrıca və müstəqil uçot növü kimi deyil, yalnız maliyyə uçotunu tamamlayan yardımçı uçot növü kimi təqdim edir.

Fikrimizcə, problem ondan ibarətdir ki, mühasibat və vergi uçotları bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir və bu səbəbdən müəssisələr ikili mühasibat aparmaq məcburiyyətində qalır. Bu isə səmərəli deyil, çünki uçotun bu qaydada təşkili əlavə vaxt və maddi məsrəf tələb edir.

İlk öncə maliyyə və vergi uçotlarının əsas ümumi cəhətlərini qeyd etmək istərdik. Bunlar əsasən aşağıdakılardan ibarətdir:

- uçotun aparılmasının hüquqi əsasları: mühasibat uçotu - "Mühasibat uçotu haqqında" qanunla, vergi uçotu - Vergi Məcəlləsi;
- istifadə olunan ölçü vahidləri - pul (manat);
- uçotun obyekti (predmeti) - bütövlükdə müəssisə (daha dəqiq desək, vergi uçotu üçün vergi ödəyicisinin hesabat dövrü ərzində həyata keçirdiyi təsərrüfat əməliyyatları);
- hesabatın dövrü olaraq tərtib və təqdim edilməsi;
- təsərrüfat əməliyyatlarının sənədlərlə təsdiq edilməsinin məcburiliyi;
- hesabat (keçmiş) dövrləri nəticələrinin əks olunması;
- daxili və xarici informasiya istifadəçilərinin olması.

Göründüyü kimi hər iki uçotun aparılma məqsədi təxminən eynidir - daxili və xarici istifadəçilər üçün tam və etibarlı informasiya formalaşdırmaq. Lakin bununla yanaşı, bu uçotların aparılması metodikası tamamilə fərqlidir.

Cədvəl 12

Mühasibat və vergi uçotları arasındakı əsas fərqli cəhətlər

Mühasibat uçotu	Vergi uçotu
Variant	Variant
I	2
Əsas vosait obyektlərinə amortizasiyanın hesablanması üsulu	
Xətti üsul	Xətti üsul
Qalığın azaldılması üsulu. Dəyərin İstifadə olunma illərinin say məbləğləri üzrə silinməsi üsulu. Dəyərin məhsulların (işlərin) həcminə mütənasib silinməsi üsulu. Eyni qrupa daxil olan əsas vəsait obyektləri üzrə amortizasiya hesablanması üsullarından biri bu qrupa daxil olan obyektlərin faydalı istifadə olunma müddəti ərzində tətbiq edilir.	Qeyri-xətti metod (müvafiq əsas vəsait obyektlərinin daxil olduğu qruplar üzrə). Amortizasiya hesablanmasınm seçilmiş metodu əsas vəsait obyektləri üzrə amortizasiya hesablandığı bütün dövr ərzində dəyişdirilə bilməz. Amortizasiya ayırmaları müvafiq qruplara daxil olan əsas vəsaitlərin faydalı istifadə olunma müddətlərinə görə müəjyən edilmiş amortizasiya normalanna əsasən hesablanılır.

Əsas vəsait obyektlərinin təmirinə çəkilən məsrəflərin uçotu qaydası i

Həmin an məhsulların (işlərin, xidmətlərin) maya dəyərinə daxil edilir. Əvvəlcə gələcək dövrlərin xərclərinin tərkibində uçota almır, sonradan müəyyən vaxt dövrü ərzində (rüb, yarım il, il) bərabər ölçülərlə məhsul- lann (işlərin, xidmətlərin) maya dəyərinə daxil edilir. Təmir fondu yaratmaqla gələcək dövrlərin xərclərinin tərkibində uçota alınır.	Faktiki çəkilmiş məsrəflər həcmində xərclərin çəkildiyi müvafiq hesabat dövrünün xərclərinə daxil edilir. Gələcəkdə onların təmirinə çəkiləcək xərclər üçün yaradılmış ehtiyatın tərkibində uçota alınır.
İstehsalata (satışa) buraxılarkən (silinərkən) və hesabat dövrünün sonunda material- istehsalat ehtiyatlarının qiymətləndirilməsi üsulları (metodları)	
Material vahidinin maya dəyəri üzrə: ■ materialların əldə edilməsi (tədarükü) ilə balı bütün xərclər də daxil olmaqla; ■ yalmz materiallarm müqavilə üzrə qiyməti daxil olmaqla (sadələşdirilmiş variant). Orta maya dəyəri üzrə Hər bir istehsalat ehtiyatının qrupu (növü) üzrə hesabat ili ərzində eyni üsul tətbiq olunur: ■ çəki qiyməti üzrə ■ sürüşkən qiymət üzrə	Material (ehtiyat) vahidinin dəyəri üzrə. Orta dəyəri üzrə FİFO LİFO
İdarəetmə (umumtəsərrüfat) xərclərinin uçota alınması (silinməsi) qaydası	
Adi fəaliyyət növü üzrə xərclər kimi hesabat dövründə satılmış məhsullann (işlərin, xidmətlərin) maya dəyərinə daxil edilir. Adi fəaliyyət növü üzrə xərclər kimi hesabat dövründə satılmış məhsullann (işlərin, xidmətlərin) maya dəyərinə qismən daxil edilir.	Hər hansı variant mövcud deyil. Hesabat dövründə həyata keçirilmiş idarəetmə xərcləri tam həcmdə cari hesabat (vergi) dövrünün xərclərinə aid edilir.
Kommersiya xərclərinin uçota alınması (silinməsi) qaydası	
Adi fəaliyyət növü üzrə xərclər kimi tam həcmdə hesabat dövründə satılmış məhsullann (işlərin, xidmətlərin) maya dəyərinə daxil edilir Adi fəaliyyət növü üzrə xərclər kimi hesabat dövründə satılmış məhsullann (işlərin, xidmətlərin) maya dəyərinə qismən daxil edilir.	Hər hansı variant mövcud deyil. Ticarət fəaliyyəti göstərməyən təşkilatlar üçün hesabat dövründə həyata keçirilmiş kommersiya xərcləri tam həcmdə cari hesabat dövrünün xərclərinə aid edilir. Ticarət fəaliyyəti göstərən təşkilatlar üçün hesabat dövründə həyata keçirilmiş kommersiya xərcləri (nəqliyyat xərcləri istisna olmaqla) cari ayda satışdan olan gəlir məbləğini azaldır (əgər müqavilədə nəqliyyat xərclərinin satılmış mallann qiymətinə daxil edilməməsi nəzərdə tutulmuşdursa).

Bitməmiş istehsalatın uçotda əks etdirilməsi qaydası

Kütləvi və seriyalı istehsalatlarda; • faktiki istehsalat maya dəyəri üzrə; • normativ (plan) maya dəyəri üzrə; • birbaşa məsrəf maddələri üzrə; • xammal, material və yanmfabrikatların dəyəri üzrə. Azsaylı məhsul istehsal edən müəssisələrdə: • faktiki istehsalat məsrəfləri üzrə.	Hər hansı variant mövcud deyil Xammalın emalı və yenidən emalı ilə məşğul olan müəssisələrdə - texnoloji itkilər çıxılmaqla, birbaşa (müstəqim) xərclərin məbləği, bitməmiş istehsalatın ilkin xammaldakı qabğındakı payına mütənasib olaraq, bitməmiş istehsalatın hesabat dövrünün sonuna olan qalıqları üzrə bölüşdürülür. İşlərin yerinə yetirən və xidmətlər göstərən müəssisələrdə - birbaşa (müsteqim) xərclərin məbləği, ümumilikdə işlərin yerinə yetirilməsi üzrə bitməmiş (yaxud başa çatmış, lakin cari aym sonuna təhvil aimmamış) siferişlərin, cari ayda yerinə yetirilmiş sifarişlərin həcmindəki payına mütənasib olaraq, bitməmiş istehsalatın qalıqları üzrə bölüşdürülür.
	müəssisənin sexləri (struktur bölmələri) üzrə xammal, material və hazır məhsullarm hərəkəti və qahqlan (kəmiyyət ifadəsində) haqqmda ilkin uçot sənədlərinin və cari ayda çəkilmiş birbaşa xərclər haqqmda vergi uçotunun məlumatlarma əsasən qiymətləndirilir.

Hazır məhsulun uçotda əks etdirilməsi qaydası

Faktiki istehsalat maya dəyəri üzrə - bir və kiçik seriyalı istehsalatlarda, həmçinin kiçik nomenklaturalı hazır məhsul istehsal edən kütləvi istehsalatlarda. Normativ (plan) istehsalat maya dəyəri üzrə (o cümlədən, birbaşa məsrəf maddələri üzrə) - kiçik nomenklaturalı hazır məhsul istehsal edən kütləvi və seriyalı istehsalatlarda Müqavilə qi>anətləri üzrə - bu qiymətlərin stabil olduğu zaman. Digər qiymət növləri üzrə.	Hər hansı variant mövcud deyil Anbardakı hazır məhsul, vergi ödəyicisi tərəfindən, cari aym əvvəlinə hazır məhsul qalığma düşən və həmin ayda buraxılmış məhsullara düşən birbaşa məsrəflərin məbləği (bitməmiş istehsalat qalığına düşən birbaşa məsrəflər çıxılmaqla) qədər artırılmış birbaşa məsrəflərin məbləği ilə, cari ayda yüklənmiş məhsullara düşən birbaşa məsrəflərin məbləği arasmdakı fərq kimi qiymətləndirilir. Cari aym sonunda anbarda olan hazır məhsul, hazır məhsullarm hərəkəti və anbarda olan qalığı (kəmiyyət ifadəsində) haqqmda ilkin uçot sənədlərinin məlumatlarma və cari ayda həyata keçirilmiş birbaşa məsrəflərin məbləğinə (ayın sonuna olan bitməmiş istehsalat qalığına düşən birbaşa məsrəflərin məbləği qədər azaldılmış) əsasən

_____ 1 _____ ^ _____ ;; _____ 2 _____

Yüklənmiş məhsulların (yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin) __ uçotda əks etdirilməsi qaydası

Tam faktiki maya dəyəri üzrə	Tam normativ (plan) maya dəyəri üzrə
İstehsalat maya dəyəri ilə yanaşı, tam maya dəyərinə məhsul lann (işlərin, xidmətlərin) satışı ilə bağlı olan və müqavilə (kontrakt) qiymətində ödənilən məsrəflər də daxil edilir	Yüklənmiş, lakin cari ay m sonuna dəyəri ödənilməmiş (satılmamış) məhsulların dəyəri, vergi ödəyiciləri tərəfindən həmin məhsullann cari ayın əvvəlinə olan qalığına düşən və cari ayda yüklənmiş məhsullara düşən müstəqim məsrəflərin məbləği qədər artınımış müstəqim (birbaşa) məsrəflərin məbləği ilə (anbarda olan hazır məhsullara düşən birbaşa məsrəflər çıxılmaqla), cari ayda satılmış məhsullara düşən müstəqim məsrəflərin məbləği arasmdakı fərq kimi müəyyən edilir.

Cari ayın sonunda anbarda qalan hazır məhsullar, həmin məhsullann hərəkəti və anbarda olan qalığı (kəmiyyət ifadəsində) _____ haqqında ilkin uçot məlumatlarına və cari ayda həyata keçirilmiş müstəqim xərclərə (bitməmiş istehsalat qalığına düşən müstəqim xərclərin məbləği qədər azaldılmış) əsasən qiymətləndirilir. _____

12 saylı cədvəldən göründüyü kimi mühasibat və vergi uçotlarında aktivlərin ilkin dəyərlərinin müəyyən edilməsi qaydası fərqlidir. Bundan başqa, hər iki uçot sistemində istifadə olunan "birbaşa məsrəflər (xərclər)" və "dolayı məsrəflər (xərclər)" anlayışları əhəmiyyətli dərəcədə fərqlənir. Hətta elə hallar olur ki, nə mühasibat və vergi uçotlarının uyğun gələn üsulları seçmək, nə də vergi qanunvericiliyin- dö nəzərdə tutulmuş üsullardan istifadə etmək mümkün olmur.

Məsələn, bitməmiş istehsalat qalığının qiymətləndirilməsini misal göstərək. Qeyd etmək lazımdır ki. Vergi Məeəlləsində birbaşa xərclərin bitməmiş istehsalat qalığı üzrə bölüşdürülməsinin iqtisadi cəhətdən əsaslandırılmış aiqoritmi mövcud deyil. Bundan başqa, məcəllədə ümumiyyətlə maya dəyəri anlayışından istifadə olunmamışdır. Belə olan halda isə vergi ödəyicisi üçün vergitutma məqsədləri üçün normativ, faktiki və tam maya dəyərlərinin müəyyən edilməsi qaydası qaranlıq qalır. Bu baxımdan, praktikada vergi uçotu məqsədləri üçün bitməmiş istehsalat qalığının hansı üsulla qiymətləndirilməsi məsələsi problem olaraq qalır.

Qeyd etdiyimiz kimi, vergi və mühasibat uçotları arasında çoxsaylı anlaşılmazlıqlar mövcuddur ki, bu da müəssisənin maliyyə xidməti qarşısında problemlər yaradır. Sözsüz ki, bu problemlərin həlli yolları da mövcuddur. Bunun üçün isə fıkrimizcə, müəssisələrdə maliyyə-mühasibat xidmətinin tərkibində vergi uçotunun aparılmasını həyata keçirən xüsusi bölmə yaradılmalı, yaxud uçotun bu sahəsinə görə mühasibat xidmətinin müvafiq mütəxəssisləri cavabdeh olmalıdır. Lakin bütövlükdə iki uçot sisteminin qarşılıqlı fəaliyyəti səmərəli deyil, çünki uçotun bu qaydada təşkili mütləq əlavə xərclərə səbəb olacaq.

Bu vəziyyətdən digər çıxış yolu isə vergi uçotunun mühasibat uçotu sisteminə maksimum uyğunlaşdırılmasıdır. Bu halda elə təşkilati və metodoloji əsas lazımdır ki, daha az vaxt və maliyyə məsrəfləri sərf etməklə hər iki uçot sistemini aparmağa imkan versin. Bunun üçün isə Vergi Məcəlləsinin mühasibat uçotu ilə ziddiyyət təşkil edən bəzi maddələrində müvafiq dəyişikliklər edilməlidir.

Mühasibat uçotu və vergi uçotu iki yol yoldaşına bənzəyir: onlar gah birlikdə gedir, gah da müxtəlif yollarla, lakin əks istiqamətlərdə hərəkət edirlər. Ona görə ki, onların məqsədləri müxtəlifdir: mühasibat uçotu təşkilatın maliyyə vəziyyətinin dəqiq və obyektiv mənzərəsini verməli, müstəsna olaraq vergi uçotu isə vergi qanunvericiliyində nəzərdə tutulmuş qaydada ilkin sənədlərin məlumatlarına əsaslanır və mənfəət vergisi üzrə vergitutma bazasının müəyyənləşdirilməsi üçün lazım olan informasiyanı ümumiləşdirməlidir. Vergi uçotu anlayışı qanunvericiliklə öz təsdiqini 2001-ci ildə qüvvəyə minən, BVF nümayəndələrinin iştirakı ilə hazırlanan Vergi Məcəlləsində tapmışdır. Bu da mühasibat və vergi uçotunun ayrılıqda tətbiq edilməsi üçün ilk normativ-hüquqi baza rolunu oynamışdır.

Hal-hazırda müəssisələrdə mühasibat uçotu ilə yanaşı ayrıca vergi uçotu aparılmır. Qeyd etmək lazımdır ki, mövcud Vergi Məcəlləsi vergi ödəyicilərindən ayrıca vergi uçotunun aparılmasını tələb edir. Məsələn, məcəllədə "maya dəyərinə aid edilən xərclər" anlayışının əvəzinə, vergitutma məqsədləri üçün "gəlirdən çıxılan xoclər", "gəlirdən çıxılmayan xərclər" və "gəlirdən çıxılması məhdudlaşdırılan xərclər" kimi anlayışlardan istifadə olunur.Vergi Məcəlləsi ölkədə mühasibat və vergi uçotlannın iki müxtəlif uçot növü olduğunu təsdiq edən ilk normativ-hüquqi aktdır.

Bundan əlavə "mühasibat uçotu" ifadəsindən məcəllədə cəmi iki yerdə istifadə olunur: 67-ci maddənin ikinci və 130-cu maddənin üçüncü abzasında. Birinci halda, müəssisələr tərəfindən mühasibat uçotu aparılmadığı, yaxud mühasibat və hesabat sənədlərinin məhv edildiyi (itirildiyi) hallarda vergi orqanlarına müvafiq məlumatlardan istifadə etməklə ödənməli olan vergi məbləğini hesablamaq hüququ verilir.

Yuxarıda qeyd edilənlərdən belə bir nəticəyə gəlmək olur ki, vergi ödəyicisi "Mühasibat uçotu haqqında" qanunun müəyyən etdiyi prinsip və qaydaları əsas götürməklə müəyyən edilmiş qaydada özünün mühasibat uçotunu aparmalıdır.

İkinci halda qeyd edilir ki, vergi ödəyicisi məcəllənin tələblərinə riayət etmək məqsədilə müvafiq korrektələr etmək şərtilə özünün mühasibat uçotunda istifadə eldiyi metoddan istifadə etməklə vergitutulan gəlirlərini hesablaya bilər. Bu da onu göstərir ki, hətta eyni metod tətbiq edildiyi hallarda belə uyğunsuzluqların aradan qaldırılması üçün vergi ödəyicisi müvafiq korrektələr etməlidir, çünki mühasibat və vergi uçotları başqa məqsədlərlə apanlır. Məşəllənin digər maddəsində qeyq edilir ki, hesabat ili ərzində eyni metod tətbiq etmək şərtilə vergi ödəyicisi öz gəlir və xərclərini hesabalma və ya kassa metodu ilə apara bilər. Beləliklə, mühasibat və vergi uçotlarının fərqli uçot növləri olduğunu təsdiq edən digər faktor ortaya çıxır. Belə ki, Mülki Məcəllənin 122-ci maddəsinə əsasən ödənişin aparılması faktından asılı olmayaraq gəlir və xərclərin uçotu hesablama metodu ("yükləmə üzrə") ilə apanimahdır.

Eyni zamanda. Vergi Məcəlləsində aydın şəkildə göstərilir ki, məcəllə mühasibat uçotunu deyil, vergitutma məqsədilə aparılan vergi uçotunu tənzimləyir. Qeyd etmək lazımdır ki, "vergi uçotu" ifadəsi məcəllədə iki mənada istifadə olunur - vergi ödəyicilərinin gəlir və xərclərinin uçota alınması. Digər hallarda məcəllədə yalnız uçot sözündən istifadə olunur.

Nəhayət, beynəlxalq praktikaya əsaslanaraq deyə bilərik ki, mühasibat və vergi uçotlarının qurulması və aparılması prinsipləri əhəmiyyətli dərəcədə fərqlidir. Mühasibat və vergi uçot formaları arasındakı fərqləri daha da genişləndirmək olar. Lakin yuxarıda qeyd olunanlar belə bir nəticəyə gəlməyə əsas verir ki, bu iki uçot tamamilə fərqlidir və müxtəlif məqsədlər üçün aparılır.

Digər maraqlı məsələ müstəqil iki uçot sisteminin eyni zamanda aparılmasının müəssisələr üçün nə qədər məqsədyönlü olmasıdır. Vcrgitutulan mənfəətin hesablanması qaydalarını müəyyən edən vergi qanunvericiliyinin qaydalarından və bu uçot sistemlərinin praktikada həyata keçirilməsi üçün tətbiq olunan prinsip və metodlarından asılı olmayaraq, bütün ölkələrin uçot sistemlərində mühasibat və vergi-tutulan mənfət məbləğləri tamamilə fərqlidir.



Şəkil 2.2. Mühasibat-uçot və onların tərkibində vergi-hesablama əməliyyatlannin həyata keçirilməsi modeli

Bir mühüm cəhəti də qeyd etmək lazımdır ki, "biznes" sferası subyektlərinin təsərrüfat fəaliyyəti nəticələrinin vergi tənzimlənməsi praktikası olduqca vacibdir, çünki bu mühasibat uçotunun beynəlxalq standartlarında qəbul olunmuşdur. Lakin bu **o** demək deyil ki, ölkədə maliyyə-təsərrüfat proseslərinin hüquqi tənzimlənməsi, eləcə də "biznes" sferası subyektlərinin təsərrüfat fəaliyyəti nəticələrinə nəzarət edilməsi yeni uçot sisteminin aparılmasını tələb edir. Təsərrüfat fəaliyyəti nəticələrinin əlavə korrektə edilməsi praktikası vergitutma məqsədilə informasiyanın işlənməsi və vergi öhdəlikləri üzrə xüsusi hesablamaların aparılması (bəyannamələrin tərtib edilməsi) üçün mühasibdən çoxlu əmək məsrəfi tələb edir.

Müxtəlif istifadəçilər üçün mühasibat və vergi uçotlarının paralel apanlması üçün məlumatlann işlənməsi, sistemləşdirilməsi, təyinatı üzrə verilməsi proseslərinin kompyuterləşdirilməsinə əhəmiyyətli pul məsrəfləri tələb olunur və fikrimizcə, buna heç ehtiyac da yoxdur. Metodoloji planda "vergitutma məqsədləri üçün" mövcud uçot praktikası yalnız "Mühasibat uçotu" sisteminin uçot hərəkətlərinin yerinə yetiril

məsi metodologiya və prinsipləri ilə müəyyənləşdirilmiş ixtisaslaşdırılmış uçot funksiyasını yerinə yetirir. Həmin əsaslarla mühasibat-uçot və vergi-hesablama əməliyyatlarının həyata keçirilməsi modelini qanunauyğun hesab etmək olar.

Hal-hazırda iqtisadi mühitdə beynəlxalq hüquq standartlarının uçot hərəkətləri sistemi əsasında qurulmuş vahid "Mühasibat uçotu" sistemi fəaliyyət göstərir. Bu sistem eyni dərəcədə həm daxili, həm də xarici mühasibat informasiya istifadəçilərinin maraqlarını ədalətli şəkildə həyata keçirmək imkanına malikdir. Artıq bu gün mühasibat uçotu hesablarında vergi ödəyicilərinin vergi öhdəliklərinin müəyyən edilməsi üçün vergi administrasiyasına lazım olan informasiya bazası formalaşır. Lakin buna baxmayaraq mühasibat və vergi proseslərinin beynəlxalq standartlara, "biznes" və "büdcə" sfera subyektlərinin qarşılıqlı iqtisadi-maliyyə maraqlarına müvafiq unifikasiya olunması tələb olunur. Bu baxımdan mövcud mühasibat uçotunun beynəlxalq uçot sisteminə keçməməsi təsərrüfat fəaliyyətini, o cümlədən maliyyə hesabatı və idarəetmə sisteminin beynəlxalq standartlarına uyğun tətbiqini çətinləşdirə bilər.

Bazar iqtisadiyyatının mühasibat uçotunun qarşısında qoyduğu tələblər olduqca sərt, onun əhatəsi isə olduqca genişdir. Bu isə hər şeydən əvvəl idarəetmənin məqsədlərinin müəssisə fəaliyyətinin son nəticəsi olan mənfəətin alınmasına yönəldilməsi ilə əlaqədardır. Çünki ölkəmizdə uçot siyasəti bazar münasibətlərinə keçid dövrünün tələblərinə müvafiq olaraq formalaşmışdır.

Mühasibat uçotunun təkmilləşdirilməsi üzrə iş elə aparılmalıdır ki, nəticədə yeni qanunun qəbul edilməsinə lüzum qalmasın, çünki mühasibat uçotu haqqında sonuncu qanunun qəbul edilməsindən cəmi bir neçə il keçib. Bu səbəbdən mühasibat uçotunun beynəlxalq prinsiplərə keçməsini daha məqsədəuyğun hesab edirik.

Təəssüflər olsun ki, ölkəmizdəki mövcud mühasibat uçotu sistemi müasir tələblərə cavab vermir. Çünki uçot sisteminin əsasını ictimai mülkiyy'əl xarakterli mərkəzləşdirilmiş planlı iqtisadiyyat şəraiti və əsasən inzibati idarəetmə metodları ilə idarə olunan cəmiyyət üçün xarakterik olan uçot elementləri təşkil edir. Qeyd etmək lazımdır ki, sovetlər dövründə mühasibat uçotu sistemində formalaşan informasiyanın istifadəçiləri kimi idarə və nazirliklərin timsalında dövlət çıxış edirdi. Nəzarət sistemi isə təsərrüfat subyektlərinin fəaliyyətinin təqdim edilmiş modeldən kənarlaşmaların aşkar olunması vəzifəsini yerinə yetirirdi. Müasir uçot sistemi isə elmi nailiyyətlərə, praktikaya və dünya standartlarına əsaslanmalıdır. Müəssisənin mühasibat uçotu sistemində həm daxili, həm də xarici (kənar) istifadəçilər üçün lazım olan etibarlı informasiya formalaşmalıdır.

İqtisadi subyektin uçot siyasəti mühasibat və vergi uçotunun aparılmasını reqlamentləşdirən əsas sərəncamverici sənəddir. Təcrübə göstərir ki, uçot siyasəti hazırlanarkən ən mürəkkəb məsələlərdən biri mühasibat və vergi uçotları üçün ümumi olan uçot elementlərinin seçilməsidir. Çünki vergitutma məqsədilə bəzi vergilərin hesablanması üçün mühasibat uçotu məlumatları kifayət etmir ki, bu da vergi agenti funksiyasını yerinə yetirən müəssisə mühasiblərinin işini çətinləşdirir.

Mühasibat və vergi uçotu sisteminin yaranması və inkişafı müxtəlif iqtisadi-siyasi reallıqların təsiri altında baş vermişdir. Mühasibat uçotunun yaranmasına səbəb təsərrüfat subyektlərinin fəaliyyəti olmuşdursa, vergi uçotunun yaranması dövlətin ictimai həyata olan marağından irəli gəlir. Vergitutmanın inkişafı ilə əlaqədar

bəzi vergi növlərinin hesablanmasında çətinlik yaranır və bunun üçün sadəcə olaraq mühasibat uçotu məlumatları kifayət etmir.

Vergi uçotu ölkə mühasibləri üçün yeni olduğuna görə onun qurulması prosesi çox çətin prosesdir və bilavasitə onunla məşğul olan mütəxəssislərdə çoxlu suallar doğurur. Bu uçot sistemi yeni olduğu və sınaq mərhələsindən keçdiyi üçün onun təkmilləşdirilməsindən söhbət gedə bilməz. Buna baxmayaraq qanunvericilik mənfəət vergisi üzrə vergi bazasının formalaşması məqsədilə təsərrüfat subyektlərinin üzərinə vergi uçotunun aparılması öhdəliyini qoymaqla onları çətin vəziyyətdə qoymuşdur.

Vergi Məcəlləsi mühasibat və vergi uçotunu müxtəlif uçot növləri kimi təsbit edən ilk normativ aktdır. Lakin məcəllənin qüvvəyə minməsindən kifayət qədər vaxt keçməsinə baxmayaraq mühasibat uçotunun vergi uçotundan fərqli olması bəzi iqtisadçı mütəxəssislər tərəfindən birmənalı qəbul olunmur. Belə ki, hal-hazırda bir çoxları vergi uçotu ilə mühasibat uçotunun eyni olması fikrindədir. Lakin qeyd etdiyimiz kimi mühasibat və vergi uçotlarının fərqli olması artıq ölkəmizin qanunvericiliyində də təsbit edilmişdir. Bunu nəzərə alaraq Vergi Məcəlləsinin müddəaları və vergi uçotu ilə bağlı ümumi xarakter daşıyan bəzi məsələləri işıqlandıraq.

İlk növbədə qeyd edək ki, Vergi Məcəlləsinin 130-cu maddəsinə uyğun olaraq təsərrüfat subyektləri (sahibkarlar) vergitutma məqsədləri üçün gəlir və xərclərinin uçotunu aparmalıdırlar. Göründüyü kimi, məcəllə gəlir və xərclərin uçotunun paralel olaraq həm ümumi qaydalara, həm də vergi qanunvericiliyinə uyğun olaraq aparılmasını təsvir edir ki, bununla da mühasibat uçotu ilə paralel vergi uçotunun, yəni eyni zamanda iki müxtəlif uçot növünün aparılmasını şərtləndirir. Eyni zamanda məcəllədə aydın göstərilir ki, bu normativ sənəd yalnız vergi məsələlərini tənzimləyir.

Digər tərəfdən, Vergi Məcəlləsinə əsasən vergi qanunvericiliyinin tələblərinə əməl etmək üçün vergitutulan gəlir zəruri düzəlişlər aparmaq şərti ilə vergi ödəyici- sinin mühasibat uçotunda istifadə etdiyi metodla hesablanmalıdır. Göründüyü kimi bu maddə də təsdiq edir ki, hətta mühasibat (maliyyə) və vergi uçotunda gəlir və xərclərin eyni metodundan istifadə edildiyi hallarda belə bu uçot növləri arasında fərqlər mövcuddur. Məhz buna görə də həmin fərqləri aradan qaldırmaq məqsədi ilə vergi ödəyicisindən zəruri düzəlişlərin aparılması tələb olunur.

Əgər vergitutma məqsədləri üçün təsərrüfat əməliyyatlarının (obyektlərin) uçotu və qruplaşdınlması qaydası mühasibat uçotu qaydalarından fərqlidirsə, onda vergi ödəyicisi mənfəət vergisi üzrə vergitutma bazasını vergi uçotunun məlumatlarına əsasən hər hesabat (vergi) dövrünün yekununa görə hesablayır.

Vergi Məcəlləsinin qeyd olunan maddəsinin digər bəndində göstərilir ki, "vergi ödəyicisi vergi ili ər/ində eyni metodu tətbiq etmək şərti ilə vergilərin uçotunu kassa və ya hesablama metodu ilə apara bilər". Beləliklə, mühasibat (maliyyə) uçotu ilə vergi uçotunun fərqli olmasını təsdiq edən növbəti amil ortalığa çıxır. Çünki Mülki Məcəllənin 122-ci maddəsinə uyğun olaraq gəlir və xərclərinin uçotu ödənişin aparılması faktından asılı olmayaraq hesablama metodu ilə aparılmalıdır.

Ölkəmizin vergi sistemində islahatların aparıldığı dövrdə vergi uçotu mühasibat uçotunun təkmilləşdirilməsi ilə yanaşı tətbiq edilir. İslahatların indiki mərhə

ləsində informasiyanın verilməsi və ayn-ayn göstəricilərin hesablanması baxımından bu iki uçot formasının yaxınlaşması müşahidə olunur. Məsələn, konkret vergi uçotu registrlər formaları işlənib hazırlanir və lazım olan informasiyalar mühasibat uçotu registrlərindən götürülür. Lakin buna baxmayaraq indiki dövrdə onlar bir-birindən çox fərqlənir.

Həmçinin qeyd etmək yerinə düşərdi ki, mühasibat (maliyyə) uçotu ilə vergi uçotu onların məqsədləri (istifadəçiləri) baxımından da fərqlənirlər. Mühasibat uçotunun əsas məqsədlərindən biri səhmdarlar və potensial investorlar üçün dürüst, dolğun məlumatların hazırlanmasından ibarətdir. Çünki, mühasibat (maliyyə) uçotunun istifadəçilərini müəssisənin real maliyyə vəziyyəti, təsərrüfat (kommersiya) fəaliyyətinin faktiki nəticələri maraqlandırır. Bu baxımdan şübhəsiz ki, vergi məqsədləri üçün gəlirdən çıxılmayan xərclər hesabına artınimış vergitutulan mənfəət (balans mənfəəti) istənilən müəssisənin təsərrüfat (kommersiya) fəaliyyətinin real nəticələrini əks etdirə bilməz. Bu isə öz növbəsində, istifadəçidə tam və dolğun məlumatın olmaması səbəbindən, onun gələcək investisiya (biznes) planlan ilə bağlı səhv qərarlar qəbul etməsinə səbəb ola bilər. Ona görə də Mülki Məcəllədə müəssisənin çəkdiyi xərclərin (o cümlədən Vergi Məcəlləsinə əsasən gəlirdən çıxılmayan xərclərin) mühasibat uçotu məqsədləri üçün gəlirdən çıxılması ilə bağlı oxşar məhdudiyyətlər qoyulmur.

Nəhayət praktikaya əsaslanaraq qeyd etmək istərdik ki, mühasibat və vergi uçotlannm qurulmasında (aparılmasında) böyük fərqlər mövcuddur. Yəni mühasibat uçotunun əsasını ikili yazılış (provotkalar) təşkil edirsə, vergi uçotu sadəcə olaraq vergi məqsədləri üçün mühasibat uçotu məlumatlarına edilən düzəlişlərin müəyyən bir sistem şəklində formalaşdırılmasıdır.

Mühasibat uçotu ilə vergi uçotu arasındakı fərqlərin mövcud olması, bu uçot növləri əsasında hazırlanan hesabatlardakı (müvafiq olaraq maliyyə hesabatı və vergi bəyannaməsindəki) məlumatlann (xüsusilə mənfəətin məbləği haqqında) fərqli olmasını zəruri edir. Ona görə də, vergi ödəyiciləri tərəfindən bu iki uçot formasının səhvən eyni olaraq qəbul etmələri və xüsusilə yalnız vergi məqsədləri üçün apar- malan onlarm maliyyə və vergi hesabatlarının eyniləşdirilməsinə gətirib çıxarır. Bu isə öz növbəsində maliyyə hesabatlanna məlumatların daxil edilməsinə səbəb olur.

Mülki Məcəllənin müddəalanna görə auditin keçirilməsi tələb olunan hesabatlann vergi bəyannaməsi deyil, məhz mühasibat uçotunun məlumatlan əsasmda tərtib edilən maliyyə hesabatlan olmasmı nəzərə alsaq, mühasibat uçotunu xüsusi olaraq vergi məqsədləri üçün aparan müəssisələrin maliyyə hesabatlarmı yoxlayaraq rəy verməli olan auditorlar həmin səbəblər üzündən müəyyən çətinliklərlə üzləşməli olurlar.

Qeyd etdiyimiz kimi, mühasibat və vergi uçotları arasında çoxsaylı fərqlər mövcuddur. Belə fərqlər başlıca olaraq gəlir və xərclərin müəyyən edilməsi metodu, vergi məqsədləri üçün gəlirdən çıxılmayan xərclər, əsas vəsaitlərə görə hesablanan amortizasiya ayırmaları, gəlirdən çıxılan təmir xərcləri, gəlirdən məhdud məbləğlərlə çıxılan digər xərclər və s. ilə bağlıdır. Məhz bu səbəbdən praktiki nöqteyi- nəzərdən vergi məqsədləri üçün gəlir və xərclərin qeydiyyatının mühasibat uçotundan aynca aparılması zəruriyyəti yaranır. Digər tərəfdən belə bir zərurət, həm də vergi qanunvericiliyi ilə təsbit olunmuşdur.

Qanunvericilikdə vergi uçotunun aparılmaar ilə bağlı konkret prosedur və qaydalar nəzərdə tutulmadığı üçün demək mümkündür ki, vergi ödəyiciləri belə bir uçot sisteminin təşkil edilməsində sərbəstdirlər. Düzdür, ilk baxışdan bəzilərində belə bir təəssürat yarana bilər ki, vergi uçotu deyiləndə vergi ödəyicisinin həyata keçirdiyi təsərrüfat əməliyyatlarının mühasibat uçotunda olduğu kimi ikili mühasibat yazılışları vasitəsi ilə qeydə alınması yolu ilə təşkil edilən uçot sistemi nəzərdə tutulur. Lakin bu qətiyyən belə deyil.

Vergi uçotunun əsasını mühasibat uçotundan götürülmüş məlumatlar və bu vergi məqsədləri üçün onlara edilən düzəlişlərin müəyyən bir sistem şəklində sənədləşdirilməsi təşkil edir, l'əsərrüfat əməliyyatları artıq mühasibat uçotunda ikili yazılış metodu ilə uçota alındığı üçün onların vergi məqsədləri üçün təkrarən bu yolla qeydə alınmasına heç bir lüzum yoxdur.

Bundan başqa qeyd etmək lazımdır ki, mühasibat uçotunu kompiyuter proqramı tətbiq etməklə aparan vergi ödəyiciləri, həmin proqramın imkanlarından istifadə etməklə vergi uçotu sisteminin də bu yolla təşkil olunmasını təmin edə bilərlər. Belə bir imkan vergi uçotu məlumatlarının avtomatik yolla əldə edilməsinə yardım etmiş olar ki, bu da vergi ödəyicisinin işini əhəmiyyətli dərəcədə asanlaşdırmış olar. Lakin yaddan çıxarmaq lazım deyil ki, bu zaman vergi uçotuna mühasibat uçotunun yalnız o məlumatları daxil edilməlidir ki, qanunvericiliklə həmin məlumatlar vergi məqsədləri üçün heç bir düzəlişə məruz qalmasın (məsələn, əgər vergi məqsədləri üçün mühasibat uçotunda olduğu kimi hesablama metodu tətbiq edilərsə aydındır ki, bəzi istisnalar olmaqla mühasibat uçotunda gəlir kimi qəbul edilmiş bütün məbləğlər vergi uçotunda da gəlir kimi əks etdirilməlidir). Bu halda gəlirdən .çıxılmayan xərclər, amortizasiya ayırmaları, təmir xərcləri və digər xərclər üzrə isə ayrıca qeydiyyat aparılmalıdır. Eyni qayda mühasibat uçotu ilə vergi uçotunda gəlir və xərclər müxtəlif metodlarla (kassa və ya hesablama) müəyyən edildikdə də tət- bjq olunmalıdır. Bu məqsədlər üçün özündə bütün lazımi məlumatları əks etdirən xüsusi cədvəllər (registrlər) tərtib edilə bilər.

Sonda beynəlxalq praktikaya əsasən qeyd etmək istərdik ki, xüsusi olaraq həm vergi uçotunun təşkili və aparılması, həm də ümumiyyətlə bütün vergi məsələləri ilə məşğul olmaq üçün xarici ölkələrin iri şirkət və müəssisələrində yüksək peşəkar və təcrübəli vergi mütəxəssislərindən ibarət ayrıca şöbə (qrup) fəaliyyət göstərir. Təbii ki, həmin şirkət və müəssisələrin eyni zamanda kənar vergi məsləhətçiləri ilə əməkdaşlığı istisna olunmur. İşin belə təşkili öz növbəsində həmin vergi ödəyicisində mühüm sahə olan vergi işinin yüksək səviyyədə təşkil olunmasını təmin etmiş olur. Hesab edirik ki, yaxın gələcəkdə respublikamızda da belə bir praktikanın geniş tətbiq edilməsinə başlanılması məqsədəuyğun olardı. Bu da ölkəmizdə fəaliyyət göstərən təsərrüfat subyektlərinin (sahibkarların) vergi işinin daha da təkmilləşdirilməsinə xidmət etmiş olar. Vergi və mühasibat uçotu arasındakı fərqin sayını bir qədər də artırmaq mümkündür. Lakin hesab edirik ki, yuxanda qeyd edilənlər bu uçot növlərini müxtəlif uçot növləri kimi qəbul etməyə kifayət qədər əsas verir.

Yuxarıda şərh edilənləri nəzərə alaraq demək istərdik ki, zənnimizcə vergi orqanları tərəfindən vergi uçotunun təşkili sahəsində vergi ödəyiciləri arasında geniş təbliğat-izahat işləri aparılmalı və ən başlıcası isə Vergilər Nazirliyi tərəfindən

vergi uçotunun aparılması haqqında xüsusi metodik göstəriş işlənib hazırlanmalıdır. Bu mühasiblər tərəfindən vergi uçotunun aparılması üçün əyani vəsait olmaqla yanaşı, həm də kənar istifadəçilər üçün mühasibat uçotunun başa düşüləcək şəkildə tərtib edilməsinə və beynəlxalq praktikaya uyğunlaşdırılmasına yardım edəcək.

Cədvəl 13

Vergitutma və mühasibat uçotu məqsədləri üçün uçot siyasətinin əsas elementləri

Uçot siyasətinin elementləri Qçün	Mühasibat uçotu məqsədləri üçün	Vergi uçotu məqsədləri üçün
1	2	3
Uçotun aparılması forması	Mühasibat uçotu hesablannda ikili yazılış qaydasının yerinə yetirilməsini təmin edən sintetik və analitik uçot	Müəssisələrin müstəqil olaraq işləyib hazırladıqları analitik registr formaları
İkili yazılış qaydası	Məcburi	Könüllü
Gəlir və xərclərin müəyyən edilməsi metodu	Bütün müəssisələr üçün hesablama metodu Kiçik bizneslə məşğul olan müəssisələr üçün kassa metodu.	Bütün müəssisələr üçün hesablama metodu Satış pulunun həcmindən asılı olaraq kassa metodu.
Gəlir və xərclərin təsnifatı	Adi fəaliyyət növləri üzrə gəlir və xərclər Əməliyyat gəlirləri (xərcləri) Satışdankənar gəlir və xərclər Fövqəladə gəlirlər (xərclər)	İstehsal və malların (işlərin, xidmətlərin),əmlakın, əmlak hüququnun satışı ilə bağlı gəlir və xərclər Satışdankənar xərclər
Gəlir və xərclərin müəyyən (qəbul) edilməsi qaydası	Bütün qruplar üzrə vahid kriteriya müəyyən edilmişdir	Satışdan olan gəlirlər, satış-dankənar gəlirlər və müxtəlif gəlirlər üçün ayrıca kriteriya müəyyən edilmişdir
Məsrəflərin qruplaşdırılması	Elementlər üzrə Fəaliyyətin istiqamətindən, xarakterindən və həyata keçirilməsi şəraitindən asılı olaraq Texnoloji prosesə münasibətdə Maya dəyərinə daxil edilməsi üsuluna görə vəs.	Elementlər üzrə(istehsal və satışla əlaqədar olan xərclər üçün) Müstəqim və qeyri-müstəqim xərclər
Müstəqim xərclərin tərkibi	Məhsulun (işin, xidmətin) növündən asılıdır	Qruplaşdırılma kriterİyası müəyyən edilməmişdir
Qeyri-müstəqim xərclərin təyinat və təsnifatı	Məhsulun maya dəyərinə daxil edilə bilməz, istehsalın quruluşundan və texnoloji prosesin xüsusiyyətlərindən asılıdır. İstehsalın idarə edilməsi və təşkili üzrə xərclərə daxil edilməklə ümumistchsalai və ümum-	Qruplaşdırma kriteriyası müəyyən edilməmişdir və müstəqim xərclərə aid edilməyən bütün xərclər onlara aid edilir

Qeyri-müstaqim xərclərin silinməsi qaydası	**Cmumistehsalat xərcləri məhsulların növləri üzrə bölüşdürmək yolu ilə onların maya dəyərinə daxil edilir Omumtəsərrüfat xərcləri məhsul növləri üzrə bölüşdürmək yolu ilə tam həcmdə satılmış məhsulların maya dəyərinə daxil edilir**	**I Müvafiq hesabat (vergi) dövrü üçün gəlirlərinin azalmasına aid edilir**
Bitməmiş istehsalın qiymətləndirilməsi	**Faktiki maya dəyəri üzrə Normativ (plan) maya dəyəri üzrə Müstəqim (birbaşa) xərc maddələri üzrə Xammal, material və yanm-fabrikatların dəyəri üzrə**	**Texnoloji itkilər nəzərə alınmadan ilkin xammal üzrə bitməmiş istehsalın müvafiq payının plan maya dəyərindəki xüsusi çəkisi nəzərə alınmaqla, cari dövrdə çəkilmiş müstəqim xərclərin məbləği üzrə**
Hazır məhsulun qiymətləndirilməsi	**Faktiki maya dəyəri üzrə Normativ (plan) maya dəyəri üzrə Müstəqim məsrəf maddələri üzrə**	**Hazır məhsulun hərəkəti və anbardakı qalığı haqqında ilkin uçot sənədlərinin məlumatlarına və bitməmiş istehsal qalığına düşən müstəqim xərclərin məbləği qədər azaldılmış carı ayda çəkilmiş müstəqim xərclərin məbləğinə əsasən həyata keçirilir**
Yüklənmiş, lakin dəyəri ödənilməmiş (satılmamış) məhsulun qiymətləndirilməsi	**İstehsal maya dəyəri ilə yanaşı məhsul lann, işlərin, xidmətlərin satışı ilə əlaqədar olan və müqavilə (kontrakt) qiyməti ilə ödənilən (onlara daxil edilən) məsrəflərin də daxil edildiyi faktiki (plan, normativ) tam maya dəyəri üzrə**	**Qiymətləndirmə, yüklənmə haqqında məlumatlara (natural ölçülərdə) və bitməmiş istehsal qalığına, həmçinin anbardakı hazır məhsul qalığına bölüşdürülən müstəqim xərclərin məbləği qədər azaldılmış cari ayda çəkilmiş müstəqim xərclərə əsasən həyata keçirilir. Bu zaman müstəqim xərclərin məbləği bitməmiş istehsal qalığının ay ərzində buraxılmış məhsullann ümumi həcmindəki (natural ölçülərdə) xüsusi çəkisinə mütənasib olaraq, plan (normativ) maya dəyəri hesabı ilə anbardakı hazır məhsullar üzrə bölüşdürülür**
Şübhəli (ümidsiz) borclar üzrə ehtiyatların yaradılması	**Debitor borcları inventarizasiyasının nəticələrinə əsasən hesabat dövrünün sonunda yaradılır**	**Əvvəlki hesabat (vergi) dövrünün axırında aparılmış inventarizasiyanın nəticələrinə əsasən, hesabat dövrü ərzində bərabər ölçülərdə ayırmalar aparmaqla**

1	2	3
Təminatlı təmir və xidmətlərə görə ehtiyatların yaradılması	Qobul edilmiş uçot siyasətinə əsasən hər ay yaratmaq olar	Təminatlı malların satıldığı tarixə siyasətinə ehtiyatlara edilmiş ayırmaların məbləği xərclər kimi qəbul olunur. Bu zaman yaradılmış ehtiyatın həcmi vergi ödəyicisinin təminatlı təmir və xidmətlər üzrə çəkdiyi faktiki xərclərin əvvəlki üç il ərzində həmin malların satışından əldə edilmiş pul vəsaitlərinin həcmindəki xüsusi çəkisi kimi müəyyən edilmiş həddən çox
Əsas vəsaitlərin amortizasiyası	Amortizasiya hesablanmasının dörd metodu	Amortizasiya hesablanmasının iki metodu
Əsas vəsaitlərin təmiri	Qəbul olunmuş uçot siyasətindən asılı olaraq	Xüsusi qaydada
Qeyri-maddi aktivlər	Müsbət işgüzar aktivlik Təşkilati xərclər, nizamnamə kapitalına maliyyə qoyuluşunun bir hissəsi Nou-Hau, məxfi düstur və ya prosesə, sənaye, kommersiya və ya elmi sınaqlara aid informasiyadan başqa	"Nou-Hau", məxfi düstura, sənaye kommersiya və ya elmi sınağa aid informasiyaya malik olmaq Müsbət işgüzar aktivlik, təşkilati xərclər (nizamnamə kapitalına qoyuluşun bir hissəsi istisna olmaqla)
Qeyri-maddi aktivlərin amortizasiyası	Amortizasiya hesablanmasının üç metodu Faydalı istifadə müddətini müəyyən etmək mümkün olmadıqda -10 il	Amortizasiya hesablanmasının iki metodu Faydalı istifadə olunma müddətinin müəyyən edilməsi mümkün olmadıqda-10 il
Əmtəənin qiymətləndirilməsi	Tədarükat xərcləri də daxil olmaqla faktiki maya dəyəri ilə	Alış dəyəri ilə

2.6. **Vergi uçotunun aparılması üsullan**

Vergi uçotu konsepsiyası vergi uçotunun aparılması və hesabatının tərtib edilməsinin əsas nəzəri prinsiplərindən ibarətdir. Müəssisənin vergi uçotu konsepsiyasına onun təşkili üzrə ümumi qaydalar, eləcə də gəlir və xərclərin uçota alınmasının, onların qəbul edilməsinin müəssisə tərəfindən seçilmiş konkret forma və üsulları daxildir.

Vergi uçotu konsepsiyası həm də müəssisənin təsərrüfat fəaliyyəti və uçot siyasəti nəzərə alınmaqla işlənib hazırlanır. Konsepsiyanın hazırlanması kənar mütəxəssislər və ya müəssisənin özü tərəfindən həyata keçirilə bilər.

Konkret müəssisənin vergi uçotu konsepsiyası hazırlanarkən ayrı-ayrı vergi-tutma obyektlərinin nəzərə alınmaması, yaxud mövcud vergitutma bazalarından müəyyən variantının seçilməsi mümkündür.

Vergi uçotu aparılmasının forma və üsullan aşağıdakılardan asılıdır:

> mühasibat uçotunun aparılması metodundan (üsulundan);

> uçot məlumatlannın işlənməsi sistemindən və informasiya sisteminin təşkilindən;
> vergi uçotuna cəlb olunan təsərrüfat əməliyyatlarının sayından;
> müəssisə fəaliyyətinin xarakterindən.

Vergi uçotu sisteminin işlənməsi mühasibat uçotu sistemi ilə qarşılıqlı surətdə həyata keçirilməlidir. Çünki mühasibat uçotu sistemini təhlil və lazımı korrektə- lər etmədən vergi uçotu sistemini qurmaq mümkün deyil.

Vergi Məcəlləsində satışdan və satışdankənar əməliyyatlardan olan gəlirlərin, amortizasiya olunan əmlakın, əsas vəsaitlərlə əməliyyatlann, əsas vəsaitlərin təmirinə çəkilən xərclərin, təbii resursların mənimsənilməsinə çəkilən xərclərin vergi uçotunun aparılması qaydası açıqlanmamışdır. Eyni zamanda məcəllədə vergi uçotunun konkret metodikası göstərilməmişdir. Belə olan halda vergi uçotunun ikili yazılış (bu halda işçi hesablar planı işləyib hazırlamaq lazımdır), yaxud "məda- xil-məxaric" prinsipi (sadələşdirilmiş uçot sistemi üzrə) üzrə aparıb-aparmayacağı- nı vergi ödəyicisi müstəqil həll edir.

Vergi qanunvericiliyi hər iki variantın tətbiqinə icazə verir. Belə ki. Vergi Məcəlləsinə əsasən təsərrüfat subyektləri hər hesabat dövrünün yekunlarına görə vergi bazasını mühasibat uçotu registrlərinin məlumatlarına, yaxud vergitutma obyektləri və ya vergitutma ilə əlaqəli obyektlər haqqında sənədlərlə təsdiq olunmuş məlumatlara əsasən hesablaya bilərlər.

İkinci variantın məhdud saylı təsərrüfat əməliyyatları həyata keçirən, həmçinin gəlir və xərclərinin uçotunu kassa metodu ilə aparan kiçik müəssisələrdə tətbiqi daha optimaldır. Digər müəssisələrə gəldikdə isə onlara çox əməktutumlu da olsa birinci variantın tətbiqi daha məqsədyönlüdür.

Vergi uçotu təşkilinin üçüncü variantını da seçmək olar. Onun mahi>7əti isə qüvvədə olan hesablar planını və mühasibat uçotunun sintetik hesablannın subhe- sablarında uçota alınan gəlir və xərclərin analitik uçotunun vergi uçotuna uyğunlaşdırmaqdan, vahid he.sablar planında həm mühasibat, həm də vergi uçotunun aparılmasından ibarətdir. Lakin nəzərə alsaq ki, mühasibat və vergi uçotunda müə.ssisə- nin gəlir və xərclərinin məbləği eynilik təşkil etmir (onların əldə edilmə və çəkilməsi vaxtı müxtəlifdir), onda bu iki uçot sisteminin vahid sistemdə birləşdirilməsi olduqca çətindir.

İlk baxışdan mühasibat uçotunun vergi uçotu ilə əvəz olunması, yəni mövcud hesablar planından istifadə etməklə və vergi qanunvericiliyinin tələblərini nəzərə almaqla vergi uçotunun apaniması variantı da cəlbedicidir. Bu cür yanaşmaya əsasən mühasibat uçotunu yalnız vergilərin hesablanması üçün aparan müəssisələrin mühasibləri üstünlük verir. Onlar öz mövqelərini bununla əsaslandırırlar ki, həmin müəssisələrin fəaliyyətinə yalnız vergi orqanları tərəfindən nəzarət olunur və onları vergilərin hesablanmasının düzgünlüyäi maraqlandırır. Bu səbəbdən lazımsız olan klassik uçotun aparılması ilə mühasibatlıq əməkdaşlarının işini çətinləşdirmək lazım deyil.

Lakin "Mühasibat uçotu haqqında" Qanuna əsasən mülkiyyət formasından və tabeçiliyindən asılı olmayaraq bütün təsərrüfat subyektləri (sahibkarlar) mühasibat uçotunun məlumatlarına əsasən mali>yə hesabatı tərtib edərək müəssisənin təsisçilərinə, iştirakçılarına və ya onun əmlakının mülkiyyətçilərinə, həmçinin onla

rın qeydiyyat yerləri üzrə müvafiq dövlət orqanlarına təqdim etməlidirlər. Eyni zamanda mühasibat uçotu müəssisənin (sahibkarın) real maliyyə vəziyyətini, də əks etdirməlidir. Çünki bu yalnız menecerlər deyil, həm də səhmdarlar və mühasibat hesabatı göstəricilərinin digər istifadəçiləri üçün maraq doğurur.

Bəzi müəlliflər kompromis variant - vergi qanunvericiliyinə uyğun olaraq gəlir və xərclərin uçotunu aparmaq üçün mövcud hesablar planına əlavə "vergi" hesablan daxil etməklə vergi uçotunun aparılmasını təklif edirlər. Bu halda hesabların dövriyyə və qalıqları ümumi müəyyən edilmiş qaydada mühasibat uçotu və hesabatlarında əks olunacaq. Müəssisənin mühasibi hər hansı əməliyyat aparılarkən eyni zamanda həm mühasibat uçotunda, həm də vergi uçotunun müvafiq subhesa- bında yazılışlar edə bilər.
.

Vergi uçotunun bu variantı mühasibat proqramlarından (1-C "Mühasibat") istifadə etməklə kompyuterlərdə uçot aparan mühasiblər üçün daha əlverişlidir. Çünki onlar yalnız bəzi təsərrüfat əməliyyatlarının aparılması aiqoritminə vergi uçotu hesabları üzrə əlavə yazılışlar aparacaq və eyni əməliyyatın mühasibat və vergi uçotlannda müxtəlif cür aparıldığı hallarda isə yeni aiqoritmiər tərtib edəcəklər.

Beləliklə, hal-hazırda vergi uçotunun aparılmasına aşağıdakı üç yanaşma formalaşmışdır (şəkil 7.):

1. Vergi uçotu məlumatlannm mühasibat uçotu hesablarında formalaşdırılması.
2. Vergi və mühasibat uçotlarının paralel aparılması.
3. Uçotun yalnız vergi uçotunun prinsiplərinə əsasən aparılması.



Şəkil 7. Vergi uçotu konsepsiyalannm sxemi

Veı^i uçotu məlumatlarının mühasibat uçotu hesablarında formalaşdırılması (şəkil 8.) ona əsaslanır ki, vergi uçotunun məlumatları mühasibat uçotu registrləri və ilkin uçot sənədlərinə, eləcə də vergi uçotunun tələblərinə uyğun gəlir və xərclərin əlavə hesablamalanna əsasən formalaşır. Bu yanaşma az əmək- tutumludur və vergi qanunvericiliyinin daima dəyişdiyi şəraitdə daha əlverişlidir.



Şəkil 8. Mühasibat uçotu hesablarında vergi uçotunun təşkili sxemi

Vergi uçotunun mühasibat uçotunun tərkibində "qurulması" ideyası əsasən mühasibat və vergi uçotlarında uçot obyektlərinin qnıplaşdınlmasındakı oxşar və fərqli cəhətlərin aşkar edilməsinə əsaslanır. Mühasibat və vergi uçotlannda uçot obyektlərinin qruplaşdırılması (təsnifləşdirilməsi) və qiymətləndirilməsinin eyni (fərqli) metodları tətbiq oluna bilər. Bundan başqa, mühasibat və vergi uçotlannda gəlirlərin alınma və xərclərin çəkilmə tarixlərinin müəyyən edilməsi qaydası da eyni və fərqli ola bilər.

Məsələn, məzənnə fərqləri, cərimə, peniya, silinmiş debitor və kreditor borcları həm mühasibat, həm də vergi uçotunda satışdankənar gəlirlərin (xərclərin) tərkibində uçota alınır, həmin gəlirlərin əldə edilmə və xərclərin çəkilmə tarixləri üst- üstə düşür. Vergi və mühasibat uçotları baxımından əsas vəsaitlərin amortizasiyası metodları fərqlidir. Məhz bu və digər səbəbdən müəssisələr mühasibat uçotu re- gistrlərinə əlavə rekvizitlər vermək, yaxud əlavə olaraq vergi uçotu cədvəlləri və hesablamalar aparmaq zərurətində qalırlar.

Göründüyü kimi, birinci metodun (yanaşmanın) tətbiqi bu gün daha əlverişlidir, çünki uçotun bu cür təşkili az əmək və pul vəsaiti məsrəfi tələb edir. Eyni zamanda hər bir təsərrüfat subyekti təsərrüfat əməliyyatları və müəssisə əmlakının mühasibat və vergi uçotu məqsədləri üçün əks etdirilməsi qaydasındakı əsas fərqləri dəqiq müəyyən etməli və mühasibat uçotu registrlərindəki məlumatlara korrektə edilməsi, yaxud əlavə vergi uçotu registr formalarının hazırlanması üsullarını işləyib hazırlamalıdır. Kiçik müəssisələr, eləcə də mühasibat uçotunu jurnal-orderlərdə əl ilə və ya "Excel" proqramı üzrə elektron cədvəllərdə aparan müəssisələrdə vergi uçotunu bu yanaşma əsasında daimi əsaslarla qurmaq olar. Vergi uçotunun birinci üsulu istənilən müəssisədə vergi uçotu apaniması üçün ilkin mərhələ ola bilər.

Vergi və mühasibat uçotlarının paralel aparılması ilkin sənədlərə əsasən mühasibat və vergi uçotlarının eyni zamanda aparılmasına əsaslanır (şəkil 9.). Vergi uçotunun bu qaydada təşkili zamanı ayrıca olaraq həm mühasibat uçotu qaydalarına əsasən mühasibat uçotu registrləri və maliyyə hesabatı, həm də vergi qanunvericiliyinə uyğun olaraq vergi uçotu registrləri və mənfəət vergisi üzrə bəyannamə formalaşdırılır.

Şəkil 9. Mühasibat və vergi uçotlarının paralel aparılması zamanı vergi uçotunun təşkili sxemi

Vergi uçotunun aparılması qarşısında duran tələblər və hesabatların tərtib edilməsi qaydaları aşağıdakılara əsasən müəyyən edilir:

- uçot obyektlərinə;
- gəlir və xərclərin qruplaşdınlması qaydasına;
- ayrı-ayrı vergiödəyici kateqoriyaları üçün gəlir və xərclərin qəbul edilməsi qaydasına;
- vergi uçotu metodlarına;
- vergi registrlərinin tərtib edilməsi üzrə tələblərə.
- vergi və hesabat dövrlərinə;
- vergi dərəcəsinə;
- vergi bazasının hesablanması aiqorilminə.

Aydındır ki, ikinci üsulla vergi uçotunun təşkili yalnız məlumatların kompyuter işlənməsi sistemində mümkündür. Ona görə proqram məhsulları bazarında konkret müəssisə üçün adaptasiya edilmiş vergi uçotu sistemləri təklif olunur. Kompyuter uçot proqramlarını tətbiq edərkən vergi uçotunun aparılması üçün texniki məsələnin quruluşuna diqqət yetirmək lazımdır. Bu məqsədlə əvvəlcə mühasibat uçotu sistemi və müəssisənin uçot siyasəti təhlil edilməlidir. Mühasibat və vergi uçotları arasındakı oxşar və fərqli cəhətlər, həmçinin vcrgitutmanın optimallaşdırıl- ması vəzifələri nəzərə alındıqdan sonra vergi uçotu konsepsiyası və vergitutma məqsədləri üçün uçot siyasəti hazırlanır. Hazırlanmış konsepsiya və uçot siyasəti seçilmiş proqram məhsulunun həyata keçirilməsi üçün texniki məsələ olan vergi uçotu standartlarının hazırlanması üçün əsas sayılır. Bu yanaşmanın praktiki həyata keçirilməsi müəssisədən uzun zaman və vəsait məsrəfi tələb edir.

Müxtəlif istifadəçilər üçün (bu halda əsasən vergi orqanları üçün) paralel olaraq iki uçotun aparılması uçot proseslərinin kompiyuterləşdirilməsi, məlumatların işlənməsi, sistemləşdirilməsi və təyinatı üzrə verilməsi üçün çoxlu pul vəsaiti tələb edir. Fikrimizcə, heç buna ehtiyac da yoxdur. Çünki, metodiki planda göstərilən "vergitutma məqsədləri üçün" mövcud uçot praktikası yalnız mühasibat uçotu

nun metodologiyasını və uçot hərəkətlərinin realizə edilməsi prinsiplərini müəyyən edən xüsusi uçot funksiyalarını əks etdirir. Bunun əsasında onların tərkibində formalaşan mühasibat-uçot və vergi-hesablama əməliyyatlarının həyata keçirilməsi daha məqsədəuyğundur.

Ənənəvi olaraq dünya təcrübəsində mühasibat və vergi uçotları arasındakı əlaqənin iki modelindən istifadə olunur: kontinental (Avropa) və ingilis-sakson (ingilis-amerikan). Qeyd etmək lazımdır ki, bu iki modelin özü də şərtidir, çünki praktikada onları birmənalı şəkildə tətbiq etmək mümkün deyil.

Kontinental modeldə mühasibat uçotu sisteminin formalaşması və realizə edilməsinə vergitutma qaydaları əhəmiyyətli dərəcədə təsir göstərir. Bu model çərçivəsində mühasibat və vergi uçotu faktüci olaraq üst-üstə düşür. Lakin təsərrüfat subyektləri vergi qanunvericiliyində nəzərdə tutulmuş xüsusi metodikaya əsasən vergitutma məqsədləri üçün mühasibat uçotu məlumatlarında düzəlişlər apanr. Yəni bu modeldə belə bir qayda formalaşmışdır ki, balans mənfəətinin məbləği mənfəət vergisi üzrə vergitutma bazasına bərabər olmalıdır. Kontinental (Avropa) modeli tətbiq edən ölkələrə- Almaniya, Fransa, İspaniya, İtaliya, Argentina, Braziliya, Çili, Peru, Cənubi Afrikanın bir sıra ölkələrini misal göstərmək olar. Bu ölkələr üçün xarakterik cəhət ondan ibarətdir ki, dövlətin fiskal siyasətinin təmin edilməsi üçün mühasibat uçotu



Şəkil 10. Vergi uçotu sistemini tətbiq etmədən vergitutma bazasının formalaşması



Şəkil 11. Vergi uçotu sistemini tətbiq etməklə vergitutma bazasının formalaşması

ingilis-amerikan modelinin əsas prinsipi ondan ibarətdir ki, balans mənfəəti vergitutma məqsədləri üçün hesablanmış mənfəətdən-fərqlənə bilər. Bu isə .mühasibat və vergi uçotunun paralel aparılmasına imkan verm Lakin bu zaman vergi orqanları müəssisələrdən mühasibat mənfəəti ilə vergiyə cəlb olunan mənfəət arasında yaranmış fərqi izah etməyi tələb edir. Eyni zamanda bu modeldə hər iki uçot növü arasında dayanıqlı əlaqə mövcuddur. Bu modeli tətbiq edən ölkələrə Böyük Britaniya, ABŞ, Niderland, Avstraliya, Kanada və digər ölkələri aid etmək olar.

Mühasibat uçotunun vergi uçotu prinsiplərinə əsasən aparılması vergi uçotunun yalnız vergi qanunvericiliyinin, xüsusilə Vergi Məcəlləsinin X fəslinin tələblərinə uyğun apanimasını nəzərdə tutur. Bu halda vergi uçotu məlumatlanmn mühasibat uçotu və maliyyə hesabatının tərtib edilməsi qaydalanna uyğunlaşdın İması üçün kor- rektə edilməsi tələb olunur. Vergi uçotunun bu yanaşmada tətbiqi mühasibat (maliyyə) hesabatmm auditor qiymətləndirilməsinə neqativ təsir göstəra bilər.

2.7. Mühasibat uçotu registrləri - vergi uçotunun informasiya bazası kimi

2.7.1. Vergi uçotu registrlərinin tərtib edilməsi qaydası

Verçi uçotu registrləri - təsərrüfat subyekti tərəfindən vergi uçotunun aparılması üçün tətbiq edilən ilkin uçot formalarıdır. Burada sənədlərdə vergitutma məqsədləri üçün mühasibat uçotunun ilkin sənədlərdə olan məlumatlar yığılaraq sistemləşdirilir. İlkin vergi uçotu registrlərindəki məlumatlan əsasında vergi bəyannamələri tərtib olunur.

Vergi Məcəlləsinə uyğun olaraq istənilən təsərrüfat subyekti müstəqil olaraq vergi uçotu registrlərini formalaşdıra bilər. Bununla yanaşı, əgər mühasibat (maliyyə) uçotunun məlumatları vergi uçotunun aparılması üçün lazım olan tələbləri ödəyirsə, onda həmin registrlər formal olaraq dəyişdirilməyə də bilər. Əgər mühasibat uçotu registrlərindəki mövcud informasiya vergi bazasının müəyyənləşdirilməsi üçün kifayət deyilsə, onda vergi ödəyicisi müstəqil olaraq tətbiq olunan mühasibat uçotu registrlərinə lazımi rekvizitlər əlavə etməklə yeni vergi uçotu registri formalaşdıra bilər.

Bunun üçün, müəssisənin mühasibi istifadə etdiyi mühasibat uçotu registrlərini vergi uçotunun tələblərinə uyğun gəlməsi baxımından nəzərdən keçirməlidir. Əgər imkan daxilində müstəqil vergi uçotu registrləri sistemindən imtina edilməsi haqqında qərar qəbul edilərsə, onda mövcud mühasibat uçotu registrləri elə şəkildə modernləşdirilməlidir ki, onlardakı məlumatlarda heç bir düzəliş etmədən və asanlıqla həm mühasibat (maliyyə), həm də vergi uçotu məqsədləri üçün istifadə etmək mümkün olsun. Bu halda bir sənəd iki funksiyanı yerinə yetirmiş olacaq. Eyni zamanda nəzərə almaq lazımdır ki, bu dəyişikliklər mühasibat (maliyyə) uçotunun informasiya təminatına təsir etməməlidir. Çünki vergi uçotu məlumatları mühasibat uçotu hesablarında və maliyyə hesabatlarında əks olunur.

Mühasibat (maliyyə) uçotu registrlərinə əsasən formalaşmış vergi uçotu məlumatları, vergitutma məqsədləri üçün uçot obyektlərinin (o cümlədən, nəticələri bir neçə hesabat dövründə uçota alman, yaxud bir sıra illərə keçirilən əməliyyatların) xronoloji qaydada fasiləsiz olaraq əks etdirilməsi tələblərinə cavab verməlidir.

2.7.2. **Mühasibat uçotu registrləri**

Mühasibat (maliyyə) uçotunun aparılma formasından asılı olaraq uçot registrlərinin məzmunu (göstəriciləri) bir-birindən fərqlənir. Bu səbəbdən mühasib vergitutma məqsədləri üçün mühasibat uçotu registrlərinİ vergi uçotuna adaptasiya etmək üçün müxtəlif imkanlara malikdir.

Material məsrəfləri az tələb edən məhsul istehsalı (işlərin görülməsi) ilə məşğul olan və azsaylı təsərrüfat əməliyyatları (bir qayda olaraq ayda otuzdan çox olmayan) həyata keçirən kiçik müəssisələrdə mühasibat uçotunun sadə forması tətbiq olunur. Mühasibat uçotunun sadə formasında bütün təsərrüfat əməliyyatları yalnız təsərrüfat fəaliyyəti faktlarının uçotu kitabında (K-lJSfo-li forma) qeydiyyatdan keçirilməklə uçota alınır. Kiçik müəssisələr bu kitabdan başqa, həmçinin işçilərlə əməyin ödənişi üzrə hesablaşmaların və gəlir vergisi üzrə büdcə ilə hesablaşmaların uçotu üçün V-Ko 2 forma üzrə əmək haqqının uçotu cədvəlini aparmalıdır.

Mühasibat uçotunun sadələşdirilmiş formasının kiçik müəssisələrdə tətbiqi daha məqsədəuyğundur. Sadələşdirilmiş mühasibat uçotu formasında aşağıdakı re- gistr formaları tətbiq olunur:

- əsas vəsaitlərin və amortizasiya ayırmalarının uçotu cədvəli (C-1 M-li forma);
- istehsal ehtiyatlarının (malların) və həmin qiymətlilər üzrə ödənilmiş ƏDV- nin uçotu cədvəli (C- 2 Jf**2**-li forma);
- istehsal məsrəflərinin uçotu cədvəli (C- 3 JVb li forma);
- pul vəsaitlərinin uçotu cədvəli (C- 4 Jfeli forma);
- hesablaşmaların və sair əməliyyatların uçotu cədvəli (C- SJfsli forma);
- məhsul satışının uçotu cədvəli (C- **6**X**2**İ forma);
- hesablaşmaların və sair əməliyyatların uçotu cədvəli (yüklənmə) (C-7 X**2**İ forma);
- əmək ödənişinin uçotu cədvəli (C- **8** X**2**İ forma);
- şahmat dövriyyə cədvəli (C- **9**X**2** li forma).

Hər bir cədvəl bir qayda olaraq istifadə olunan sintetik mühasibat hesablarından biri üzrə əməliyyatların uçota alınması üçün tətbiq olunur. Jurnal-order formasının tətbiq olunan nümunəvi formaları 14 saylı cədvəldə verilmişdir. Uçot regisl- rindən başqa müəssisələrdə 15 saylı cədvəldə göstərilən işləmə cədvəllərinin tətbiq edilməsi tövsiyə olunur.

Sıra jY®-si	Registrlar: Jurnal-orderin	Registrlar: Cədvəlin 1	Adı və təyinatı	Registrin tərtib: açıldığı hesabat dövrü	>x ş ö cn	C ıs	E	.1 's- £ 'S (/) h >
l	2	3	4	5	6	7	8	9
l	1	-	50 J'is li hesabın krediti üzrə	ay	*	*	>» >	♦
2	-	1	50 -Ns li hesab üzrə cədvəl	ay	*	♦	*	♦
3	2	-	51 J^2 li hesabın krediti Qzrə	-W-	♦	*	♦	4c
4	-	2	51 li hesab Qzrə cədvəl	-W-	*	♦	*	♦
5	3	-	55,57 ali hesabların krediti üzrə	-W-	*	*	*	*
6	4	-	66,67 Xs li hesabların krediti üzrə	·W·	♦	♦	*	♦
7	6	-	60 ali hesabın krediti üzrə (hər 50-60 hesab-faktura üçün əlavə qoyulmuş vərəqlə)	·W·	*	*	*	*
8	-	5	Planlı ödənişlər qaydasında mal satanlarla hesablaşmaların analitik uçot cədvəli (hər ay üçün əlavə qoyulmuş vərəqlə)	rüb, yarım il, il	*	■	-	
9	-	5-s	Yerinə yetirilmiş işlərə görə sifarişçilərlə (baş podratçı ilə) hesablaşmaların uçotu cədvəli (hər 50-60 hesab- faktura üçün əlavə qoyulmuş vərəqlərlə)	ay	-	*	*	'
10	-	6-s	Fakturalaşdınimayan daşınmaların uçotu cədvəli (hər 50-60 hesab- faktura üçün əlavə qoyulmuş vərəqlərlə)	yanm il	-	*	-	
11	-	6a-s	Yolda olan materialların uçotu cədvəli (hər 50-60 hesab faktura üçün əlavə qoyulmuş vərəqlərlə)	il	-	*	-	-
12	7	-	71 Xa li hesabın krediti üzrə	il	*	*	♦	
13	8	-	58, 73, 75, 76 Xs li hesabların krediti üzrə	-W-	*	*		♦
14	-	7	Müxtəlif debitor və kreditorlarla hesablaşmaların uçotu cədvəli (hər 20 debitor və kreditor üçün nəzərdə tutulmuş əlavə vərəqlə)	-W-	*	*	*	*
15	-	8	Deponentləşdirilmiş əmək haqqının uçotu kitabı	·W·	*	♦	♦	*
16	-	9	Mənzil və yataqxananın sakinləri ilə hesablaşmaların uçotu cədvəli (iri müəssisələr	·W·	*	♦		*
17	9	-	79 Xs li hesabın krediti üzrə	ay	*	*	*	*
18	10	-	02,05, 10,20,21,23,25,26,28, 29, 70,94 ,97. Xa li hesabların krediti üzrə	-W-	*	-	-	-

1 i (	2 1	3	1 ■	5		8		
19	;	10	Anbardakı materialların uçotu cədvəli (beşdən çox anbarı olan müəssisələr üçün)	-w-	♦			j i
20	-	. lOa	Anbardakı materialların uçotu cədvəli (beşdən çox anbarı olan müəssisələr üçün)		♦	-		-
21	-	11	Sexlərdəki materialların uçotu cədvəli	·w·	*	-	-	-
22	-	12	Sexlərdəki məsrəflərin uçotu cədvəli (yalnız 10 Kali jurnal-order üçün, hər sex üçün əlavə qoyulmuş vərəqlə)	·w·	*	-	-	-
23	-	13	Xidmətedici istehsalat və təsərrüfatların məsrəfinin uçotu cədvəli	·w·	*	-	-	-
24	-	14	tstehsalatdakı itkilərin uçotu cədvəli	·w·	*	-	-	-
25	-	15	Ümumistehsalat və ümumtəsərrüfat xərcləri, eləcə də gələcək dövrlərin xərclərinin uçotu cədvəli	·w·	♦	-	-	-
26	-	10-s	Pul istifadəsində materialların hərəkətinin uçotu cədvəli (hər 20 maddi-məsul şəxs üçün nəzərdə tutulmuş əlavə qoyulmuş vərəqlə)	ay	'	♦	*	-
27	-	15-s	Müvəqqəti binaların, qurğuların və tikililərin analitik uçot cədvəli (hər 50 obyekt adına görə əlavə	il	-		♦	-
28	11	-	40,41,43,44,45,62. 90 hesabların krediti üzrə	ay	*	♦	-	-
'19	-	16	Məhsulların (işlərin, xidmətlərin) satışının uçotu cədvəli (hər 50 - 60 hesab-faktura üçün əlavə qoyulmuş vərəqələrlə	-W-		*	*	
30	12	-	63, 80, 81,82, 83,86,96 hesabların krediti üzrə	-W-	*	*	♦	♦
31	13	-	01,91 hesabın krediti üzrə	-W-	*	♦	*	*
32	-	17	Qeyri-maddi aktivlərin və amortizasiya ayırmalarının uçotu cədvəli (hər 50 obyekt üçün əlavə qoyulmuş	il	*		♦	*
33	14		14 *Kali* hesabın krediti üzrə	lazım olduqda	*		♦	
34	15	-	84,98,99 hesabların krediti üzrə	ay	*	*	♦	
35	16	-	07, 08, 11 hesabların krediti üzrə					
36	-	18	Dövriyyədən kənar aktivlərə maliyyə qoyuluşları üzrə məsrəflərin uçotu cədvəli (hər 50 obyekt üçün əlavə qoyulmuş vərəqlə)	rüb, yanm il	*			*

— *i* CQ U cJ5	C M S C u C ö o u. e	İşləmə cədvəllərinin adı və təyinatı	---------- r Registrin açıldığı uçot dövrü	Registrlərin tətbiq olunduğu | fəaliyyət növü !			
				Sənaye	Tikinti	Elm	Təchizat və satış
1	2	3	4	5	6	7	8
1	İC-1	Əmək haqqının və material məsrəfinin bölüşdürülməsi	ay		-	-	-
2	lC-2	Əmək haqqının bölüşdürülməsi	-W-	-	♦	*	-
3	İC-3	Fəhlə və qulluqçularla hesablaşmalar üzrə məlumatların icmalı	-W-	♦	-	-	-
4	lC-4	İşçilərin tərkibi və kateqoriyalar üzrə hesablanmış əmək haqqının yekunu	-W-		-	-	-
5	lC-5	Fəhlə və qulluqçularla hesablaşmalar üzrə məlumatların, işçilərin tərkib və kateqoriyaları üzrə hesablanmış əmək haqqının yekunu	-W-		*	-	-
6	IC-Ss	Əmək haqqının bölüşdürülməsi və sığortası üzrə işçilərlə hesablaşmaların uçotu, işçilərin tərkibi və kateqoriyaları üzrə hesablanmış məcmu əmək haqqı	-W-	♦	-	-	-
7	lC-6	Əsas vəsaitlərin amortizasiyasının haqq-hesabı	-W-	♦	-	-	-
8	lC-7	Əsas vəsaitlərin amortizasiyasının haqq-hesabı	-W-	-	♦		-
9	lC-8	Köməkçi istehsalat və təsərrüfatların xidmətlərinin bölüşdüılməsi	-W-		-	-	-
10	lC-11	ödənilmiş əmək haqqının reyestri	Ay üçün 8-10 nüsxə			-	♦
11	IC-12	Debitor və kreditorlarla hesablaşmaların analitik uçot kartoçkası	Onların şəxsi hesablarının sayı üzrə	♦	♦		♦
12	lC-13	Açıqlama vərəqəsi	Aylıq 25-30 nüsxə	♦	♦	♦	*

14 və 15 saylı cədvəllərdə göstərilən mühasibat uçotu registrləri bu və ya digər dərəcədə vergi uçotu məqsədləri üçün modifikasiya oluna bilər. Lakin nəzərə almaq lazımdır ki, qanunvericiliyə uyğun olaraq mühasibat (maliyyə) və vergi uçotunun formalaşması qarşısında qoyulan tələblər əhəmiyyətli dərəcədə fərqlidir. Bəzi mühasibat (maliyyə) uçotu registrinin vergi uçotunun tələblərinə uyğunlaşdı- rılması olduqca əməktutumlu işdir. Ona görə mühasib analitik vergi uçotu registrlə- rini tərtib edərkən registr formalarının dəyişdirilməsinin nə dərəcədə məqsədəuyğun olub-olmadığını müəyyənləşdirməlidir.

2.7.3. **İlkin uçot sənədləri və onların tərkibi**

Vergi uçotunun məlumatlarını təsdiq edən əsas sənədlər ilkin uçot sənədləri (mühasibat arayışı da daxil olmaqla), analitik mühasibat uçotu registrləri və vergi bəyannamələridir. Vergi Məcəlləsində ilkin uçot sənədlərinin mənası açıqlanmadığı üçün bu termin qanunvericiliyin digər sahələrində istifadə olunan mənada tətbiq olunur.

Təsərrüfat əməliyyatlarının əks etdirilməsi üçün istifadə olunan və eyni mühasibat prosedur üsullanndan istifadə edilməklə işlənmiş ilkin sənədlər vahid informasiya massivini təşkil edir. Vergi uçotu məqsədləri üçün istifadə olunan ilkin uçot sənədlərinə düzəlişlər edilməsi nəzərdə tutulmamışdır. Əgər qanunvericilik vergi- tutma məqsədləri üçün ayn-ayn obyektlərin uçotunun qismən aparılmasını, yaxud onların daha sonra uçota alınmasını müəyyən edirsə, onda müvafiq düzəlişlər ilkin sənədlərdə deyil, modifikasiya edilmiş mühasibat uçotu və ya analitik vergi uçotu registrlərində informasiyanın formalaşması mərhələsində edilir.

Bütün ilkin uçot sənədləri yalnız vergi uçotu çərçivəsində hüquqi qüvvəyə malikdir. Vergitutma məqsədləri üçün ayrı-ayrı təsərrüfat əməliyyatlarının qeyd edilməsi əlavə ilkin sənədlərin tərtib olunmasını tələb etmir. İlkin sənədlərin bir qismi sahəvi səviyyədə formalaşdırılır. Bu sənədlər nazirliklərin (idarələrin) təsdiq etdiyi unifikasiya edilmiş formalarda tərtib olunur.

Hal-hazırda aşağıda göstərilən unifikasiya edilmiş ilkin sənəd formalan təsdiq olunmuşdur:

- əsas vəsaitlərin uçotu üzrə;
- qeyri- maddi aktivlərin uçotu üzrə;
- materiallann uçotu üzrə;
- əsaslı tikintidəki işlərin uçotu üzrə;
- kənd təsərrüfatı məhsulları və xammalının uçotu üzrə;
- kassa əməliyyatlarının uçotu üzrə;
- inventarizasiya nəticələrinin uçotu üzrə;
- tikinti maşın və mexanizmlərinin işinin uçotu üzrə;
- avtomobil nəqliyyatında işlərin uçotu üzrə;
- ictimai iaşədəki əməliyyatların uçotu üzrə;
- saxlanma yerlərindəki məhsulların (mal-material qiymətlilərinin) uçotu üzrə;
- ticarət əməliyyatlarının uçotu üzrə;
- əmək və onun ödənişinin uçotu üzrə.

Göstərilən ilkin sənəd formaları mülkiyyət formasından asılı olmayaraq bütün müəssisələrdə tətbiq olunmalıdır. Hər hansı müəssisənin ilkin uçot sənədləri yalnız həmin müəssisənin struktur bölmələrində (filiallarında) tətbiq olunmalıdır. Lakin buna baxmayaraq, əgər bu və ya digər sənəd forması başqa təşkilatın tələblərinə cavab verirsə, onda həmin sənədlər onlar tərəfindən istifadə edilə bilər.

Digər hallarda isə müəssisələr müstəqil olaraq təsərrüfat fəaliyyətinin əks etdirilməsi üçün lazım olan şəkildə və sayda ilkin uçot sənəd formaları işləyib hazırlaya bilərlər. Bu zaman müəssisədə yaradılan sənəd formaları elə formalaşdırılmalıdır ki, onların məzmunu vergi uçotunu lazımi informasiya ilə tam təmin etmiş olsun. İlkin uçot sənəd formaları əsasən aşağıdakı tələblərə cavab verməlidir:

- ilkin uçot sənəd forması müəssisənin ayrı-ayrı təsərrüfat fəaliyyəti faktlarını müfəssəl və dürüst əks etdirməli;
- əgər müəssisənin fəaliyyəti nisbətən stabildirsə, ilkin uçot sənədlərinin quruluşu uzun müddət ərzində dəyişməz qalmalı;
- ilkin uçot sənədlərindəki mövcud informasiyanın izahı ikili məna kəsb etməməli;
- informasiyanın təhlükəsizliyinin təmin edilməsi və istifadənin əlverişli olması üçün məlumatlar kodlaşdınlmalı;
- ilkin uçot sənədlərindəki mövcud informasiyanın ölçü vahidi (pul və ya natural) məlumatlann lazımi dərəcədə dürüst, dəqiq və aydın olmasını təmin etməli;
- bir uçot sənədi digərini təkrarlamamalı, əksinə onu tamamlamalıdır;
- ilkin uçot sənədləri özündə adətən istifadə olunmayan artıq informasiyanı əks etdirməməli;
- ilkin uçot sənəd formalan totbiq olunan mühasibat uçotu formasında istifadə üçün əlverişli olmalı;
- ilkin uçot sənəd formalan EHM verilməsi və işlənməsi üçün əlverişli olmalı;
- müəssisənin müxtəlif struktur bölmələrinin (xüsusiləşdirilmiş bölmələr də daxil olmaqla) eyni qəbildən olan təsərrüfat fəaliyyəti faktlarını əks etdirən ilkin sənəd formaları eyni olmalı;
- ilkin uçot sənədləri vaxth-vaxtında tərtib edilməli.

Aydındır ki, müəssisənin ayrıca fəaliyyət göstərən struktur bölməsi üçün spesifik ilkin uçot sənədlərinin normativ tənzimlənməsi mümkün deyil. Bu istiqamətdə müəssisələrə ilkin uçot sənədlərinin işlənməsi və tətbiq olunmasında əhəmiyyətli dərəcədə sərbəstlik verilmişdir. Bundan başqa əsas vəsaitlərin, qeyri-maddi aktivlərin, material (istehsal) ehtiyatlarının unifikasiya edilmiş ilkin uçot formaları uçotun tələblərinə cavab verməddikdə, müəssisədə əlavə ilkin uçot sənədləri işlənib hazırlana bilər.

Unifikasiya edilmiş ilkin uçot sənəd formaları özündə aşağıdakı məcburi rekvizitləri əks etdirməlidir: sənədin adı;

^ sənədin tərtib olunduğu tarix (tarixsiz sənəd hüquqi qüvvəyə malik deyil və bu halda maliyyə və vergi uçotu məqsədləri üçün təsərrüfat fəaliyyəti faktını konkret hesabat dövrünə aid etmək mümkün deyil);

^ sənədi tərtib edən müəssisənin adı;

*e» təsərrüfat əməliyyatının məzmunu (təsərrüfat fəaliyyətinin düzgün əks etdirilməməsi vergi mübahisələrinə səbəb olur);

^ ölçü vahidləri (pul və natural ifadədə);

təsərrüfat əməliyyatlarının aparılması və onun düzgün tərtib edilməsinə görə cavabdeh olan məsul şəxslərin adı; cavabdeh vəzifəli şəxslərin imzası.

İlkin sənədləri imza etmək hüququna malik olan şəxslərin siyahısı baş mühasiblə razılaşdırılmaqla müəssisənin rəhbəri tərəfindən təsdiq edilir. Bundan başqa, pul vəsaitləri üzrə təsərrüfat əməliyyatlarını rəsmiləşdirən sənədlər müəssisənin rəhbəri və baş mühasibi, yaxud onların həvalə etdiyi şəxslər tərəfindən imzalanır.

2.7.4. Analitik vergi uçotu rcgistrləri

İstənilən vergi uçotu forması modifikasiya edilmiş mühasibat registrləri ilə əvəz olunmayan bir neçə müstəqil uçot registrlərinə malikdir. Bu rcgistrlər müəssisə fəaliyyətinin xüsusiyyətləri, mühasibat (maliyyə) və vergi uçotları üzrə normativ bazalar arasındakı fərqlər, müəssisənin uçot siyasətinin məzmunu və digər faktorlar nəzərə alınmaqla müəyyənləşdirilir.

Analitik vergi uçotu registrləri - mühasibat uçotu hesablarında əks etdirilmədən vergi qanunvericiliyinin tələblərinə uyğun olaraq hesabat (vergi) dövrü üçün mənfəət vergisinin vergitutma obyektləri haqqında vergi uçotu məlumatlarını qruplaşdıran və sistemləşdirən icmal sənəd formalarıdır.

Vergi uçotu məlumatlarınm formalaşması dedikdə, vergitutma məqsədləri üçün uçot obyektlərinin (o cümlədən, nəticələri bir neçə hesabat ilində uçota alınan, yaxud bir neçə növbəti ilə keçirilən əməliyyatların) xronoloji qaydada fasiləsiz olaraq əks etdirilməsi nəzərdə tutulur. Bütün müstəqil vergi uçotu registrləri bu tələblərə cavab verməlidir.

Analitik uçot registrləri, vergi bəyannaməsində əks etdirmək üçün lazım olan vergi uçotu göstəriciləri və ilkin sənədlərdəki mövcud informasiyanın toplanması və sistemləşdirilməsi üçün nəzərdə tutulmuşdur. Analitik uçotu registrləri müəssisələr tərəfindən elə təşkil olunmalıdır ki, vergi bazasının formalaşması qaydasını açıqlaması ilə özündə əks etdirmiş olsun.

Vergi uçotu registrləri xüsusi formalar şəklində kağız informasiya, EHM və istənilən maşın daşıyıcılarında aparılır. Vergi uçotu rcgistrlərinin forması, ilkin uçot sənədləri və analitik uçot məlumatlarının həmin registrlərdə əks etdirilməsi qaydası vergi ödəyiciləri tərəfindən müstəqil işlənib hazırlanır və vergitutma məqsədləri üçün müəssisənin uçot siyasəti ilə müəyyən edilir.

Vergi bazasının müəyyən edilməsi üçün tərtib edilən analitik vergi uçotu re- gistr formaları özündə mütləq aşağıdakı rekvizitləri əks etdirməlidir: registrin adı; tərtib olunma tarixi; əməliyyatların natural (əgər bu mümkündürsə) və pul ifadəsində ölçü vahidləri; təsərrüfat əməliyyatlarının məzmunu; bu registrin tərtib edilməsinə görə cavabdeh olan şəxsin adı, soyadı, atasının adı və imzası.

Saxlanılan vergi uçotu registrlərində icazəsiz düzəlişlərin aparılmasına icazə verilmir. Əgər bu registrlərdə müəyyən düzəlişlər edilərsə, onda düzəliş aparan şəxs onun hansı əsasla edildiyini və düzəlişin aparılma tarixini göstərməklə həmin sənədi imzalamalıdır. Təsərrüfat əməliyyatlarının vergi uçotu registrlərində əks etdirilməsinin düzgünlüyü onları tərtib edən və inizalayan şəxslər tərəfindən təmin edilir.

2.8. Gəlir və xərclərin uçotu

2.8.1. Gəlir və xərclərin uçotunun təşkili prinsipləri

Hüquqi şəxslərin (fərdi sahibkarların) mənfəət (gəlir vergisi) konkret vergi dövrü üçün hesablanılır və vergiyə məhz həmin dövr ərziiidə əldə edilmiş mənfəət (gəlir) cəlb olunur. Bu səbəbdən vergitutulan mənfəət hesablanarkən, məhz həmin hesabat dövrünə aid olan gəlir və xərclər nəzərə alınmalıdır. Çünki müxtəlif vergi dövrlərinin gəlir və xərclərinin tutuşdurulması vergitutma bazasını təhrif etməklə yanaşı, eyni obyektin təkrarən vergiyə cəlb olunması ilə nəticələnə bilər.

Bu baxımdan vergitutma məqsədləri üçün gəlir və xərclərin uçotu qaydası hüquqi şəxslərin mənfəət və sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərin gəlir vergisinin müəyyənləşdirilməsində həlledici amildir. Qeyd etmək lazımdır ki, gəlir və xərclərin uçotu vergi uçotunun əsasını təşkil edir.

Hazırda bir çox dünya dövlətlərinin vergi qanunvericiliyində vergi uçotunun prinsipləri və aparılması qaydaları müfəssəl şəkildə verilmişdir. Azərbaycan Respublikasında Vergi Məcəlləsi qəbul edilənədək vergi uçotu, gəlir və xərclərin uçotu məsələləri vergi qanunvericiliyində çox ümumi şəkildə göstərilmişdir. Yəni yeni qəbul edilmiş məcəlləyədək bu məsələ mühasibat qanunvericiliyi ilə tənzimlənirdi. Lakin qəbul olunmuş "Mühasibat uçotu haqqmda" Qanun zaman keçdikcə vergi uçotuna dair məsələlərin tənzimlənməsi üçün kifayət etmirdi. Bu da təbiidir, çünki keçid iqtisadiyyatı mütəmadi islahatlar qanunvericiliyə nisbətən daha sürətlə dəyişir ki, bu da qanunvericilikdə yeniləşmə tələb edir. Ümumiyyətlə, hətta dünyanın inkişaf etmiş dövlətlərində belə qanunvericiliyin dəyişdirilməsi çox ləng bir prosesdir. Aydındır ki, istənilən sənəd ali qanunverici orqanda müzakirəyə çıxarılanadək müxtəlif instansiyalardan keçməli, hər dəfə müəyyən müddət və növbəlilik gözlənilməlidir.

Hazırda gəlir və xərclərin uçotu "Mühasibat uçotu haqqında" Qanun və Vergi Məcəlləsi ilə tənzimlənir. Lakin vergi uçotunun apanlması baxımından Vergi Məcəlləsinin müddəalan daha üstün hüquqi qüvvəyə malikdir. Çünki mühasibat və vergi uçotlan başqa-başqa məqsədlərə xidmət edir. Ona görə bütün ziddiyyətli məqamlarda hökmən Vergi Məcəlləsinin müddəalan əsas götürülməlidir.

Hüquqi şəxslər (sahibkarlar) tərəfindən gəlir və xərclərin, əmtəə-material ehtiyatlanma uçotunun aparılması qaydası Vergi Məcəlləsinin "Fiziki şəxslərin gəlir vergisinə və hüquqi şəxslərin mənfəət vergisinə aid olan maddələr" adlanan fəsildə əks olunmuşdur (maddə 130-136; 139). Bu fəsildə həmçinin vergi ödəyici- sinin gəlirlərindən çıxılan və çıxılmayan, həmçinin gəlirdən çıxılması məhdudlaşdırılan xərclər göstərilmişdir.

Vergi Məcəlləsinə uyğun olaraq müəssisələr (sahibkarlar) vergi uçotunun təşkili məqsədilə vergitutulan mənfəətin (gəlirin) dəqiq əks etdirilməsi üçün sənədləşdirilmiş məlumatlara əsasən özünün gəlir və xərclərini onların əldə edildiyi (çəkildiyi) müvafiq hesabat dövrlərinə aid elməlidir. Vergi Ödəyicisinin istifadə etdiyi uçot metodunda gəlir və xərclərin əldə edilməsi (çəkilməsi) və uçotu qaydasına dair bütün tələblər nəzərə alınmalıdır.

Hüquqi şəxslərin (fərdi sahibkarların) apardığı vergi uçotu onun fəaliyyətləri ilə bağlı olan bütün əməliyyatların başlanğıc, gedişat və qurtarmasını müəyyənləşdirmək imkanını təmin etməlidir. Vergi Məcəlləsinin tələblərini təmin etmək üçün vergitutulan gəlir zəruri düzəlişlər aparmaq şərti ilə vergi ödəyicisinin mühasibat uçotunda istifadə etdiyi metodla hesablanmalıdır.

Qeyd etmək lazımdır ki, Vergi Məcəlləsinə uyğun olaraq vergi ödəyicisi hesabat ili ərzində eyni metod tətbiq etmək şərti ilə öz gəlir və xərclərinin uçotunu kassa və ya hesablama metodu ilə apara bilər. Bu məqsədlə vergi ödəyicisi mənfəət vergisi bəyannaməsinin titul hissəsində gəlir və xərclərini hansı metodla uçota aldığını bildirmək üçün müvafiq kvadratı qaralamalıdır. Bu gəlir və xərclərin uçota alınması üçün olduqca vacibdir. Kassa və hesablama metodları arasındakı fərq 2.7 saylı cədvəldə verilmişdir.

Vergi ödəyicisinin tətbiq etdiyi uçot metodu dəyişdirildiyi hallarda təsərrüfat əməliyyatlarından heç birinin nəzərdən qaçırıİmaması və ya təkrarən hesaba alınmaması məqsədilə, vergi məbləğinə təsir göstərən əməliyyatlarda edilən dəyişikliklər uçot metodunun dəyişdirildiyi cari hesabat ilində aparılır.

Qeyd etmək lazımdır ki, hal-hazırda mühasibat uçotu məqsədləri üçün yalnız hesablama metodundan istifadə olunur. Belə ki, son zamanlar kassa metodundan istifadənin məhdudlaşması və vergitutma məqsədləri üçün məhz bu metoda keçilmə tendensiyaları müşahidə olunur. Gəlirin (xərclərin) alınmasının (çəkilməsinin) və müəyyən edilməsinin kassa metodunun əsasən sadələşdirilmiş sistem üzrə vergi ödəyən vergi ödəyiciləri tətbiq edirlər.

Vergi Məcəlləsinin 130-136-cı maddələrində gəlir və xərclərinin uçotunun aparılması üçün iki alternativ variantlara icazə verilməklə, bu metodların tətbiqi zamanı gəlirin və xərcin uçotu prinsipləri müəyyənləşdirilir. Bu prinsiplər "Mühasibat uçotu haqqında" qanunda nəzərdə tutulan prinsiplərdən fərqlənir.

Gəlir və xərclərinin uçotunu Vergi Məcəlləsində nəzərdə tutulan kassa və hesablama metodlarını mühasibat uçotunda tətbiq olunan satış pulunun müəyyən edilməsi qaydaları ilə ("yükləmə üzrə"; "ödəmə üzrə") eyniləşdirmək düzgün deyil. Belə ki, satışdan əldə edilən gəlir müəssisənin təsərrüfat fəaliyyətindən və başlanmış müqavilələrin şərtindən asılı olaraq ya satılmış və dəyəri ödənilmiş (yəni nağd- sız hesablaşma zamanı müəssisənin bankdakı he.sablaşma, yaxud cari hesabına ödəniş sənədlərinə əsasən daxil olan məbləğlər üzrə) məhsullara (mallara, işlərə, xidmətlərə) görə ya da yüklənib göndərilmiş məhsullara (mallara, təhvil verilmiş işlərə və göstərilmiş xidmətlərə) görə ödəniş sənədləri alıcıya (sifarişçiyə) təqdim edildikdə müəyyən edilir.



Şəkil 12. Gəlir və xərclərin müəyyən edilməsi metodlan

"Mühasibat uçotu haqqında" Qanun gəlirlərin əldə edilməsi ilə əlaqədar xərclərin müəyyən edilməsi prinsiplərini dəqiqləşdirmədiyindən, iqtisadi subyekt özünün mənfəətini (gəlirini) istehsal etdiyi məhsulun istehsalına (işlərin görülməsinə, xidmətlərin göstərilməsinə) və satışına çəkilən xərcləri qüvvədə olan qiymətlərlə məhsulların (işlərin, xidmətlərin) satışından gələn gəlirdən çıxmaqla müəyyən edir. Xərcin çəkilməsi ödənişin həyata keçirilib-keçirilməməyindən asılı olmayaraq etiraf edilir.

Dünyanın aparıcı dövlətlərində mütəxəssislər belə bir qənaətə gəlmişlər ki, mühasibat uçotu heç də bütün hallarda vergitutmanın qarşıya qoyduğu tələblərə cavab vermir. Bu səbəbdən hər bir təsərrüfat subyekti mühasibat uçotu ilə yanaşı vergi uçotunu da aparmalıdır. Məhz ona görə də iri transmilli şirkətlərdə mühasi- batlıqla yanaşı, vergi xidməti və ya vergilər üzrə menecerlər (mütəxəsislər) fəaliyyət göstərir. Kiçik və orta müəssisələrdə isə mühasibatlıq özü bu işin öhdəsindən gəlir.

Cədvəl 13

Metod	Gdlirin müəyyən edildiyi tarix	Xərclərin çəkiidiyi (qəbul edildiyi) vaxt
Hesablama metodu	**Mülkiyyət hüququnun yaranma tarixi Faktiki alınıb-alınmamağından asılı olaraq, müvafiq hesabat dövrlərində vergi ödəyicisində almaq hüququ yaranmış bütün məbləğlər onun gəliri hesab olunur.**	**Ödənilib-ödənilməməsindən asılı olmayaraq müvafiq hesabat dövrlərində əmlak öhdəliklərinin yaranma tarixi**
Kassa metodu	**Digər şəxslərdən nağd (kassaya) və ya qeyri-nağd (bank hesabına), yaxud natural-əşyavi formada vəsaitlərin vergi ödəyicisi tərəfindən alındığı tarix**	**Nağd (kassadan) və ya qeyri-nağd (bank hesabından) formada vəsaitlərin köçürüldüyü (ödənildiyi), yaxud natural-əşyavi formada mallann (işlərin, xidmətlərin) vergi ödəyicisi tərəfindən başqa şəxslərə fiziki formada verildiyi**

2.8.2. Hesablama metodu ilə gəlir və xərclərin uçotu

Hesablama metodu ilə vergi uçotu aparan müəssisələr (sahibkarlar) gəlirin (zərərin) faktiki əldə edilməsi (çəkilməsi) vaxtından asılı olmayaraq, özünün gəlir və xərclərini müvafiq olaraq gəlir almaq hüququnun əldə edildiyi və ya xərcin çəkilməsi öhdəliyinin yarandığı andan (vaxtdan) uçota alınmalıdır.

Hesablama metodu ilə uçotun mahiyyəti ondan ibarətdir ki, gəlirlər pul vəsaitlərinin, əmlakın (işlərin, xidmətlərin) və ya əmlak hüququnun faktiki daxil olub-olmamasından asılı olmayaraq, onların mövcud olduqları hesabat (vergi) dövrlərinin gəlirləri kimi uçota alınır. Əgər əldə edilmiş gəlir bir neçə hesabat dövrünə aid edilərsə, yaxud gəlir və xərclər arasındakı əlaqəni dəqiq müəyyənləşdirmək mümkün deyilsə (dolayı yolla müəyyən edilirsə), onda gəlir və xərclərin bərabər ölçülərdə qəbul edilməsi prinsipi nəzərə alınmaqla gəlirlər vergi ödəyicisi tərəfindən müstəqil olaraq bölüşdürülür.

Hesablama metodundan istifadə edilərkən gəlir və xərclərin uçotu qaydası, gəlir əldə edilməsi və xərc çəkilməsinin faktiki vaxtından asılı olmayaraq gəlir almaq hüququnun əldə edildiyi və xərc çəkilməsi barədə öhdəliyin yarandığı vaxtla müəyyən edilir.

Hesablama metodunda gəlirin əldə edilməsi vaxtı aşağıdakı kimi müəyyənləşdirilir:

^ müvafiq məbləğ vergi ödəyicisinə qeyri-şərtsiz ödənməlidirsə, yaxud nağd və ya müqavilə üzrə bütün öhdəlikləri yerinə yetirmişdirsə, həmin vaxt gəliri almaq hüququ əldə edilmiş sayılır;

4^ vergi Ödəyicisi müqavilə üzrə iş görürsə və ya xidmət göstərirsə - gəlir müqavilədə nəzərdə tutulan işlərin görülməsinin (xidmət göstərməsinin) tam başa çatdığı vaxtda əldə edilmiş sayılır;

4- vergi ödəyicisi gəlir əldə edirsə və ya onun faiz gəliri, yaxud əmlakın icarəyə verilməsindən gəlir əldə etmək hüququ vardırsa, onda borc öhdəliklərinin və ya icarə müqaviləsi üzrə ödəmə müddətinin qurtardığı vaxt, gəlir almaq hüququnun əldə edildiyi vaxt sayılır. Borc öhdəliyinin və ya icarə müqaviləsi üzrə ödəmənin müddəti bir neçə hesabat dövrünü əhatə edirsə, onda gəlir onun hesablanması qaydasına müvafiq surətdə həmin hesabat dövrləri üzrə bölüşdürülür;

4^ vergi ödəyicisi birmənalı olaraq maliyyə öhdəliklərini qəbul edir;
maliyyə öhdəliklərinin məbləğini dəqiq qiymətləndirir;

•4^ müqavilədə iştirak edən bütün tərəflər müqavilə üzrə özlərinin bütün öhdəliklərini yerinə yetirir.

Borc öhdəlikləri üzrə faizlər və ya əmlaka görə icarə haqqı ödənilərkən, borc öhdəliyi (icarə müqaviləsi) üzrə ödənişin müddəti bir neçə hesabat dövrünü əhatə edirsə, onda xərc həmin hesabat dövrləri üzrə onun hesablama qaydasına müvafiq surətdə bölüşdürülür.

Əgər müvafiq məbləğ vergi ödəyicisinə qeyri-şərtsiz ödənilməlidirsə, yaxud müqavilə üzrə bütün öhdəliklər vergi ödəyicisi tərəfindən yerinə yetirilmişdirsə, bu halda gəlir əldə etmək hüququ alınmış hesab olunur. Vergi ödəyicisinin müqavilə üzrə iş

gördüyü hallarda, müqavilədə nəzərdə tutulmuş işlərin görülməsi və xidmətlərin göstərilməsinin tam başa çatma müddəti gəlirin əldə edilmə vaxtı kimi qəbul edilir.

Əgər vergi ödəyicisi gəlir əldə edirsə, yaxud faizlərdən və ya əmlakın icarəyə verilməsindən gəlir əldə etmək hüququna malikdirsə, onda icarə müqavilələri üzrə borcların ödəmə müddətinin qurtarma tarixi, gəlir əldə etmək hüququnun müəyyən olunma vaxtı hesab olunur. Borc öhdəlilikləri və ya icarə müqaviləsi üzrə ödənişlərin müddəti bir neçə hesabat dövrünü əhatə etdiyi hallarda, hesablama qaydasına müvafiq olaraq gəlir müvafiq hesabat dövrləri üzrə bölüşdürülür.

Gəlirlərin növündən asılı olaraq vergitutma məqsədləri üçün onların müəyyən edilməsi bəzi xüsusiyyətlərə malikdir (cədvəl 16.).

Vergi ödəyicisinin xarici valyutada əldə etdiyi gəlirlər Milli Bankın həmin gəlirlərin əldə (müəyyən) edildiyi tarixə olan rəsmi məzənnəsi üzrə milli valyutaya çevrilir. Xarici valyutada müəyyən olunmuş öhdəliklər (tələblər) və valyuta qiymətliləri şəklində olan əmlak öhdəlik və tələblərin icra olunduğu günə, yaxud əvvəllər nə baş verməsindən asılı olmayaraq, hesabat (vergi) dövrünün sonuncu, əmlakla aparılan əməliyyatlar üzrə isə mülkiyyət hüququnun keçdiyi günə mövcud olan rəsmi məzənnə üzrə manata çevrilir.

Cədvəl 16

Vergitutma məqsədləri üçün gəlirlərin müəyyən edilməsi xüsusiyyəti

	Gəlir növləri	Gəlirin müəyyən (qəbul) edilmə tarixi
1	2	3
1.	Satışdan olan gəlirlər	Malların (işlərin, xidmətlərin, əmlak hüququnun satılma (verilmə) tarixi
I.l	Komİtent vergi ödoyicisi komissiya (agent) müqaviləsi üzrə satış həyata keçirdikdə	Komissionerlərin (agentlik) hesabatında göstərilən tarix
2. 2.1	Satışdankənar gəlirlər, o cümlədən; əvəzsiz olaraq alınmış əmlak (iş, xidmət) şəklində olan gəlirlər	Əmlakın (işlərin, xidmətlərin) təhvil-təslim aktının tərəflər tərəfindən imzalandığı tarix
2.2	• başqa müəssisələrin fəaliyyətindəki iştirak payından olan dividentlər; • əvəzsiz olaraq alınmış pul vəsaitləri; • əvvəllər qeyri-kommersiya təşkilatlarına ödənilmiş və xərclərin tərkibinə daxil edilmiş ödəmələrin geri qaytarılmış məbləğləri; • sair analoji gəlirlər	Pul vəsaitlərinin ödəyicinin bankdakı hesabına və ya kassasına daxil olduğu (ödənildiyi) tarix
2.3	• əmlakın icarəyə verilməsindən, intellektual mülkiyyət obyektlərindən istifadəyə görə lisenziya ödənişləri şəklində əldə edilən gəlirlər	Bağlanmış müqavilənin şərtlərinə uyğun olaraq sənədlərin ödəyicİ tərəfindən banka təqdim edildiyi və ya hesablaşmaların aparıldığı tarix
2.4	• kreditlər, borc və borc öhdəlikləri üzrə faiz (kupon) gəlirləri; • müqavilə və borc öhdəliklərinin pozulmasına görə vergi ödəyicisinə ödənilmiş cərimə, peniya, maliyyə sanksiyaları və zərərlərin (dəymiş ziyanın) məbləğləri	Borclunun etiraf etdiyİ, yaxud məhkəmənin qanunu qərarının qüvvəyə mindiyi gün

2.5	• bərpa edilmiş ehtiyatların məbləği və digər analoji gəlirlər: • yoldaşlıq cəmiyyətində iştirak zamanı bölüş-dürülmüş gəlirin vergi ödəyicisinə çatan hissəsi: • əmlakın etibarlı idarə olunmasından	Hesabat (vergi) dövrünün sonuncu günü

2.6	keçmiş illərin gəlirləri !	Gəlirin aşkar edildiyi tarix (mövcud gəlirlərin alınmasını təsdiq edən sənədlərin alınması (aşkar edilməsi)
2.7	dəyəri xarici valyutada işarə olmuş əmlak və öhdəliklər (tələblər) üzrə müsbət məzənnə fərqləri və qiymətli malların dəyərinin yenidən qiymətləndirilməsindən olan gəlirlər	Xarici valyuta və qiymətli mallarla aparılan əməliyyatlar zamanı, xarici valyuta və qiymətli kağızlara görə mülkiyyət hüququnun keçdiyi tarix və cari ayın sonuncu günü
2.8	amortizasiya olunan istismardan çıxan əmlakın ləğv edilməsi zamanı alınan material və ya digər əmlakın dəyəri	Amortizasiya olunan əmlakın ləğv edilməsi haqqında aktın tərtib olunma tarixi
2.9	büdcə vəsaitləri istisna olmaqla məqsədli daxilolmalar və maliyyələşmələr; xeyriyyə vəsaitləri çərçivəsində (o cümlədən xeyriyyə yardımı, ianələr) alınmış və məqsədli təyinatı üzrə istifadə edilməmiş əmlakın (o cümlədən pul vəsaitlərinin), iş və xidmətlərin dəyəri	Əmlak və ya pul vəsaitlərini alan vergi ödəyicisi tərəfindən, həmin vəsaitlərdən faktiki olaraq qeyri- təyinatları üzrə istifadə olunduğu tarix, yaxud alınma şərtlərinin pozulduğu tarix
2.10	xarici valyutanın satışından (alışından) olan gəlirlər üçün	Xarici valyutaya görə mülkiyyət hüququnun keçdiyi tarix
3.	Öhdəliklərin verilməsi (satılması) zamanı	
3.1 /	pul öhdəliyini (tələbini) başqasına verməklə maliyyə agenti tərəfindən maliyyə xidməti göstərilərkən, eləcə do yeni kreditor tərəfindən həmin öhdəliyin (tələb) və maliyyə xidmətləri satılarkən əldə edilən gəlir üçün	Bu öhdəliyin (tələbin) başqasına verildiyi, və ya onun icra olunduğu sonrakı gün
3.2	ödəyicinin (malların satıcısının) borcu tələb etmək hüququnu üçüncü şəxsə verilməsindən, yəni faktorinq əməliyyatlarının əldə etdiyi gəlirlər üçün	Tələb etmək hüququnun verilməsi haqqında tərtib edilmiş aktın tərəflər tərəfindən imzalandığı gün
4.	QQwədə olan müddəti bir neçə hesabat dövrünə aid olan borc müqavilələri (qiymətli kağızlar da daxil olmaqla) üzrə əldə edilən gəlirlər üçün	Gəlir müvafiq hesabat dövrünün sonunda alınmış hesab olunur və müvafiq gəlirlərin tərkibinə daxil edilir
5.	Məbləğ fərqi aşkar edildikdə	
5.1.	vergi ödəyicisi olan satıcıda	Satılmış mallara (işlərə, xidmətlərə) və əmlak hüququna görə debitor borcunun ödənildiyi tarix; qabaqcadan ödəniş zamanı isə malların satılma tarixi
5.2.	vergi ödəyicisi olan alıcıda	Alınmış mallara (işlərə, xidmətlərə) və əmlak hüququna görə kreditor borcunun ödənildiyi tarix; qabaqcadan ödəniş hallarında isə mallann, əmlak və əmlak hüququnun əldə olunma tarixi

Hesablama metodunda pul vəsaitlərinin (digər ödəniş formasının) faktiki ödənilməsi vaxtından asılı olmayaraq xərclər onların aid olduqları hesabat (vergi) dövründə müəyyən edilir. Xərclər konkret icra müddəti göstərilmiş müqavilənin şərtləri, həmçinin gəlir və xərclərin bərabər ölçülərlə, proporsional formalaşdırılması prinsipi nəzərə alınmaqla, onların meydana çıxdığı hesabat dövründə müəyyən edilir. Gəlirlərdə olduğu kimi xərclərin növündən asılı olaraq vergitutma məqsədləri üçün xərclərin çəkilmə (qəbul edilmə) tarixinin müəyyən edilməsi bəzi xüsusiyyətlərə malikdir (cədvəl 17).

Əgər müqavilədə bir neçə hesabat dövrü ərzində gəlir əldə edilməsi və malların (işlərin, xidmətlərin) mərhələlərlə verilməsi nəzərdə tutulmuşdursa, onda xərclər, gəlir və xərclərin bərabər ölçülərlə müəyyən edilməsi prinsipi üzrə bölüşdürülür. Xərclərin konkret olaraq hər hansı fəaliyyət növü üzrə çəkilmiş məsrəflərə bilavasitə aid edilməsi mümkün olmadığı hallarda, xərclər onların vergi ödəyicisi- nin bütün xərclərinin ümumi həcmindəki xüsusi çəkisinə mütənasib olaraq bölüşdürülür.

Cədvəl 17

	XƏRCLƏRİN NÖVÜ	XƏRCLƏRİN QƏBUL EDİLMƏ TARİXİ
1	2	3
1.	.Material xərcləri:	
l.I	Mallann (işlərin xidmollorin) istehsalına sərf edilmiş xammal və materiallar	Xammal və materialların istehsala verilmə tarixi
1.2	Xidmətlərin (İşlərin) təhvil verilməsi (istehsal xarakterli iş və xidmətlər üçün)	Ödəyici tərəfindən qəbul aktının imz.alandığı tarix
2.	Amortizasiya ayırmaları	Hesablanmış amortizasiya məbləği nəzərə alınmaqla hər ay xərc kimi qəbul edilir
3.	Əməyin ödənişi Q/rə xərclər	Əməyin ödənişinə çəkilmiş xərclərin hesablanmış məbləği nəzərə alınmaqla, hər ay
4.	Əsas vəsaitlərin təmirinə çəkilən xərclər	Xərclərin ödənilməsindən asılı olmayaraq, onların həyata keçirildiyi hesabat dövründə qəbul edilir
5	Sığorta müqavilələri üzrə xərclər	
5.1	Məcburi və könüllü sığorta (qeyri-dövlət pensiya təminatı) üzrə xərclər	Müqavilənin şərtlərinə görə vergi ödəyici si tərəfindən sığorta (pensiya) ödənişlərinin ödənilməsi üçün vəsaitlərin köçürüldüyü (kassadan ödənildiyi) hesabat dövründə qəbul
5.2	Əgər bir ildən çox olan vergi dövrünə görə bağlanmış müqavilədə sığorta (pensiya) ödənişinin bir dəfəyə ödənilməsi nəzərdə tutulmuşdursa, məcburi və könüllü sığorta (qeyri-dövlət pensiya təminatı) üzrə xərclər	Müqavilənin qüvvədə olduğu dövr ərzində xərclər bərabər ölçülərlə qəbul olunur
6.	Satışdankənar xərclər:	
6.1	vergi məbləğləri (vergi üzrə avans ödəmələri), yığımlar və digər məcburi ödənişlər şəklində olan xərclər üzrə	Vergilərin (yığımların) hesablandığı tarix
6.2	ehtiyatlara edilən ayırmaların məbləği şəklində olan xərclər üçün	Hesablanma tarixi

1 1	2	’■ 3
6.3	komisyon yığımlarının məbləği; yerinə yetirdikləri işlərə (xidmətlərə) görə kənar təşkilatlara ödəmələr üzrə xərclər; icarəyə götürülmüş əmlaka görə icarə haqları və sair bu kimi xərclər üçün	.Müqavilə şərtlərinə uyğun olaraq hesablaşmaların aparılma tarixi və ya hesablaşmaların aparılması üçün xidmət edən sənədlərin vergi ödəyicisinə təqdim edilmə tarixi, yaxud hesabat dövrünün sonuncu günü
6.4	xidməti məqsədlər üçün şəxsi minik avtomobillərindən istifadəyə görə ödənilən kompensasiyalar və yol xərcləri üçün	Pul vəsaitlərinin hesablaşma hesabından (kassadan) köçürüldüyü tarix
6.5	ezamiyyət xərcləri; xidməti nəqliyyatın saxlanılmasına çəkilən xərclər; nümayəndəlik xərcləri üçün	Avans hesabatının təsdiq olunduğu tarİx
6.6	dəyəri xarici valyuta ilə ifadə olunmuş əmlak və öhdəliklər (tələblər) üzrə mənfi məzənnə fərqləri və qiymətli metalların dəyərinin yenidən qiymətləndirilməsinin mənfi nəticələri üzrə xərclər üçün	Valyuta və qiymətli metallarla əməliyyatlar apanlarkən, valyuta və qiymətli metallara görə mülkiyyət hüququnun keçdiyi tarix yaxud cari ayın axırıncı günü
6.7	qiymətli kağızların dəyəri də daxil olmaqla, onların əldə edilməsi ilə bağlı olan xərclər	Qiymətli kağızların satıldığı (istismardan) tarix
6.8	xarici valyutanın satışından (alışından) olan xərclər üçün	Valyutaya görə mülkiyyət hüququnun keçdiyi tarix
6.9	cərimə, peniya və müqavilə (borc) öhdəliklərinin pozulmasına görə ödənilmiş digər sanksiyalar, həmçinin ödənilmiş zərərin məbləği şəklində xərclər üçün	Borcunun etiraf eldiyi, yaxud məhkəmənin qərarının qüvvəyə mindiyi tarix
7.	Məbləğ fərqi əmələ gəldikdə	
. 7.1	vergi ödəyicisi olan satıcıda	Satılmış mallara (işlərə, xidmətlərə) görə debitor borclarının, əmlak hüququnun ödənildiyi, əvvəlcədən ödəniş zamanı isə əldə edilmə tarixi
r.2	vergi ödəyicisi olan alıcıda	Əldə edilmiş mallara (işlərə, xidmətlərə) əmlaka və əmlak hüququna görə kreditor borcunun ödənildiyi tarix, əvvəlcədən ödəniş hallarında isə əldə edilmə tarixi;

Vergi uçotunun hesablama metodundan istifadə zamanı müqavilə üzrə xərclərin çəkilmə vaxtı aşağıdakı şərtlərin yerinə yetirildiyi gün hesab olunur:

- vergi ödəyicisi birmənalı olaraq bütün maliyyə öhdəliklərini qəbul edir;
- maliyyə öhdəliklərinin məbləği dəqiq müəyyən edilir;
- saziş iştirakçıları müqavilə üzrə bütün öhdəlikləri yerinə yetirir, yaxud müvafiq məbləğlər qeyri-şərtsiz ödənilir.

Maliyyə öhdəliyi - icra olunması üçün digər müqavilə iştirakçısının pul və ya digər vəsait ödəmək öhdəliyidir.

Əgər borc öhdəliyi (icarə müqaviləsi) üzrə faizlərin (icarə haqqının) verilməsi bir neçə hesabat dövrünü əhatə edərsə, onda xərclər onlann hesablanma qaydasına uyğun olaraq müvafiq hesabat dövrləri üzrə bərabər ölçülərlə bölüşdürülür.

Qüvvədə olma müddəti bir neçə hesabat dövrünü əhatə edən borc müqavilələri (qiymətli kağızlar üzrə müqavilələr daxil olmaqla) üzrə xərclər, müvafiq hesabat dövrünün sonuna çəkilmiş hesab olunur və xərclərin tərkibinə həmin vaxt daxil

edilir. Hesabat dövrünün sonuna qədər müqavilələrin qüvvədən düşdüyü (borc öhdəliyinin ödənildiyi) hallarda, xərclər həmin tarixdə çəkilmiş hesab olunur və müvafiq hesabat dövrünün xərclərinə aid edilir.

Xarici valyutada ifadə olunmuş xərclər, müvafiq xərcin qəbul (müəyyən) edildiyi tarixə Milli Bankın rəsmi məzənnəsi üzrə manata çevrilir. Xarici valyuta ilə ifadə olunmuş öhdəliklər (maliyyə tələbləri) və valyuta qiymətliləri şəklində olan əmlak həmin əməliyyatlar aparılarkən mülkiyyət hüququnun keçdiyi, öhdəliyin (tələblərin) isə Ödənildiyi (dayandırıldığı) tarixə, yaxud əvvəllər nə baş verməsindən asılı olaraq hesabat dövrünün sonuncu gününə Milli Bankın rasmi məzənnəsi üzrə manatla hesablanılır.

Hesablama metodunu tətbiq edən vergi ödəyicisi özünün xərclərini müvafiq olaraq xərci ödəmək öhdəliyinin yarandığı anda uçota alınmalıdır. Xərclərin uçota alınması üçün aşağıdakı prinsiplər rəhbər tutula bilər:

- **material xərcləri** - materiallar istehsala verildikdə;
- **istehsal xarakterli materialların dəyəri** - təhvil-təslim aktının imzalandığı tarixdə, davamlı xarakter daşıyan xidmətlər üzrə isə hesabat qəbul edildiyi tarixdə;
- **amortizasiya xərcləri** - əvəzi ödənilmədən daxil olan əsas vəsaitlər istisna olmaqla, əsas vəsaitlərin ilin sonuna olan balans dəyərinə görə hesablanmış amortizasiya məbləğləri;
- **əməyin ödənişi üzrə xərclər** - vergi ili ərzində hesablanmış xərclər məbləğində;
- **əmək haqqına mütənasib olaraq hesablanan sosial ayırmalar** - hesablama aparılan dövrdə;
- **xərcə aid edilən vergilər** - vergilərin hesablandığı dövrdə;
- **digər xərclər** - analoji prinsiplərə əməl olunmaqla.

Belə bir misalı nəzərdən keçirək: dekabrın 25-də ezamiyyətə göndərilən işçiyə müəssisənin hesabından təhtəlhesab olaraq 200 manat verilib. Ezamiyyətdən qayıdan həmin işçi dekabrın 28-də müvafiq təsdiqedici sənədləri əlavə etməklə 250 manat məbləğində avans hesabatını təqdim edib və həmin avans hesabatı təsdiq edilib. Kassada nağd pul vəsaiti olmadığı üçün fərq məbləğini ezamiyyətə göndərilən şəxsə növbəti ildə verilməsi planlaşdırılıb. Bu zaman gəlir və xərclərin kassa metodunu tətbiq edən vergi ödəyicisi təhtəlhesab şəxsə verilmiş məbləği (200 man.) xərclərə aid edir.

Gəlir və xərclərin hesablama metodunu tətbiq edən vergi Ödəyicisi isə avans hesabatında göstərilən və səlahiyyətli şəxs tərəfindən təsdiq edilən məbləği gəlirdən çıxılan xərclərə aid edir. Bu zaman nəzərə almaq lazımdır ki, avans hesabatında göstərilən məbləğlər Maliyyə Nazirliyinin 18 yanvar 2012-ci il tarixli Q-01 saylı əmri ilə təsdiq edilən **"İşçilərin ezamiyyə qaydaları"** nda nəzərdə tutulan normalar daxilində həyata keçirilib.

Vergi qanunvericiliyi **əmtəə-material ehtiyatlarının uçotu qaydalarını da** müəyyən etmişdir. Belə ki, Vergi Məcəlləsinin 139-cu maddəsinə uyğun olaraq vergi ödəyicisinin mülkiyyətində olan, sonradan satın alınmış, yaxud məhsul isteh

salı (işlər, görülməsi, xidmətlər göstərilməsi) üçün'nəzərdə tutulmuş hər hansı mah əmtəə-material ehtiyatlarına aid edilir.

Vergi ödəyicisi əmtəə-material ehtiyatlarının uçotunu istehsal etdiyi (satın aldığı) malların istehsal xərclərinə (satınalma qiymətinə) əsasən müəyyənləşdirilən dəyəri ilə aparmalıdır. Bu malların saxlanmasına və nəql edilməsinə çəkilən xərclər, həmçinin onların dəyərinə daxil edilir.

Bundan başqa, əmtəə-material qiymətlilərinin uçotunu apararkən vergi ödəyicisi mənəvi cəhətdən köhnəlmiş və ya dəbdən düşmüş qüsurlu malların, yaxud digər səbəblər üzündən istehsalına çəkilmiş xərclərdən (alış qiymətindən) artıq qiymətə satıla bilməyən malın (məhsulun) dəyərini onların mümkün olan satıla biləcəyi qiyməti əsas götürülməklə qiymətləndirə bilər.

Əgər vergi ödəyicisi mülkiyyətində olan mallann fərdi uçotunu aparmırsa, onda mal-material qiymətləri ehtiyatlarının uçotu orta maya dəyəri ilə qiymətləndirmə metodundan istifadə etməklə aparılmalıdır.

Qeyd etdiyimiz kimi Vergi Məcəlləsində gəlir və xərclərin uçota alınmasında vergi ödəyicisinə qanunla müəyyən edilmiş iki metoddan hər hansı birinin seçilməsində sərbəstlik verilib. Yəni vergi ödəyicisi il ərzində eyni uçot metodunu tətbiq etmək şərti ilə öz gəlir və xərclərinin uçotunu kassa və ya hesablama metodu ilə apara bilər.

Hər hansı bir metodun seçilməsi həm uçot işlərinin təşkilinə, həm də mühasibat yazılışlarının tərtibinə və əməliyyatlann uçotda əks etdirilməsinə öz təsirini göstərmiş olur. Odur ki, uçot metodu seçərkən istifadə ediləcək hesablar, onların müxabirləşməsi və təyinatını nəzərə almaq lazımdır. Çünki hər iki metodda gəlir və xərclərin uçota alınması vaxtı fərqlənir.

Burada diqqəti cəlb edən məsələlərdən biri də hansı metodun tətbiq edilməsindən asılı olaraq məhsul satışı üzrə əməliyyatlann uçotda əks etdirilməsi qaydası- nm fərqli olmasıdır. Belə ki, hesablama metodundan istifadə olunarkən gəlirin əldə edilməsi vaxtı onun əldə edilmə hüququnun yarandığı vaxt hesab olunur. Yəni vergi ödəyicisi müqavilə üzrə bütün Öhdəliklərini yerinə yetirmişdirsə və müvafiq məbləğ vergi ödəyicisinə qeyri-şərtsiz ödənilmişdirsə, onda gəlir almaq hüququ əldə edilmiş sayılır. Bu halda malların satışını həyata keçirən müəssisə alıcılara (sifarişçilərə) göndərdiyi malların (göstərdiyi xidmətlərin, yerinə yetirdiyi işlərin) faktiki maya dəyərini 40 Jf**2**-li "Hazır məhsul" hesabın krediti ilə müxabirləşməklə 46 JS**2**-İİ "Məhsul satışı" hesabın debetinə silir. Eyni zamanda satılmış mallara görə alıcılardan daxil olacaq məbləğə (debitor borcuna) aşağıdakı müxabirləşmə tərtib edilir:

Dt 62 "Alıcılar və sifarişçilərlə hesablaşmalar";

Kt 46 "Məhsul (iş, xidmət) satışı".

Nəzərə almaq lazımdır ki, əgər müəssisə əlavə dəyər vergisinin ödəyicisidir- sə, onda satılmış mallar üzrə hesablanmış vergi məbləğinə aşağıdakı mühasibat yazılışı tərtib edilir:

Dt 46 "Məhsul (iş, xidmət) satışı";

Kt 68, subhesab "ƏDV üzrə büdcə ilə hesablaşmalar".

Sonra ümumi qaydada 46 saylı hesabın debet və kredit dövriyyələri müqayisə edilərək maliyyə nəticələri 80 saylı hesaba silinir. Gəlirlərin hesablama metodu

ilə uçota alınması, satış pulunun (debitor borcunun) faktiki olaraq hesablaşma hesabına (kassaya) daxil olmadığı halda belə, maliyyə nəticələrinin müəyyən edilməsi və vergiyə cəlb edilməsinə gətirib çıxarır.

2.83. Kassa metodu ilə gəlir və xərclərin uçot prinsipləri

Qeyd etmək lazımdır ki, hal-hazırda təsərrüfat subyektləri mühasibat uçotunun beynəlxalq uçot prinsiplərinə uyğun qurulmasını nəzərə alaraq, vergitutulan gəlirinin (mənfəətinin) ilkin mühasibat sənədlərində daha da dəqiq və şəffaf əks etdirilməsi məqsədilə, beynəlxalq standartı kimi dünya praktikasında qəbul edilmiş hesablama metodundan istifadə edirlər.

Lakin iqtisadiyyatımızın indiki inkişaf mərhələsində təsərrüfat subyektləri arasında qlobal şəkil almış qarşılıqlı ödəmələr probleminin mövcudluğunu nəzərə alaraq, kassa metodundan istifadə zərurəti yaranmışdır.

Məhz bu baxımdan ölkə prezidentinin müvafiq fərmanlarının icrasını təmin etmək məqsədi ilə hazırlanmış və müəyyən olunmuş müddətdə Nazirlər Kabinetinə təqdim olunmuş *"Azərbaycan Respublikasında mühasibat uçotu sahəsində aparılacaq islahatların dövlət proqramı üzrə tədbirlər"* də kassa metodu ilə gəlir və xərclərin uçotunun milli mühasibat uçotu standartlarının hazırlanması nəzərdə tutulmuşdur.

Qeyd etmək lazımdır ki, Vergi Məcəlləsinin bir sıra maddələri «Mühasibat uçotu haqqında» qanunun müvafiq maddələrinə ziddir. Belə ki, mühasibat uçotu haqqında qanuna əsasən məhsulların (işlərin, xidmətlərin, malların) satışından olan mənfəət (zərər), vergi və digər məcburi ödənişlər nəzərə alınmadan qüvvədə olan qiymətlərlə məhsulların satışından olan gəlirlə onların istehsalına və satışına çəkilən xərclər arasındakı fərq kimi müəyyən edilir.

Satışdan olan gəlir müəssisənin təsərrüfat xüsusiyyətindən və bağlanmış müqavilələrin şərtindən asılı olaraq "ödəmə " və ya "yükləmə " metodları üzrə müəyyən edilir. Birinci metoda əsasən məhsullar onların dəyəri alıcılar (sifarişçilər) tərəfindən hesablaşma hesabına (nağdsız hesablaşmalar zamanı) və ya kassaya (nağd hesablaşmalar zamanı) daxil olduğu an satılmış hesab olunur. İkinci metoda əsasən isə məhsullar yükləndiyi və onlara görə ödəniş sənədləri alıcılara təqdim edildiyi andan satılmış hesab olunur.

Beləliklə, yuxarıda qeyd olunan satış pulunun müəyyən edilməsi metodları, gəlir və xərclərin uçotunun Vergi Məcəlləsində müəyyən edilmiş "kassa" və "hesablama" metodları ilə demək olar ki eynilik təşkil edir. Lakin mühasibat uçotu qanunvericiliyinə uyğun olaraq məhsulların satışından əldə edilən maliyyə nəticələrini vergi qanunvericiliyinə uyğun olaraq müəyyən edilən gəlirlərlə eyniləşdirmək düzgün deyil.

İndi isə vergi qanunvericiliyinə uyğun olaraq kassa metodu ilə gəlir və xərclərin uçota alınması qaydasını nəzərdən keçirək.

Kassa metodu ilə gəlir və xərclərin uçotu prinsipləri hesablama metoduna nisbətən sadədir. Kassa metodu ilə uçot aparan vergi ödəyicisi öz gəlirlərini faktiki əldə etdikdə və ya gəlirlər onun sərəncamına daxil olduqda, xərclərini isə yalnız onların faktiki çəkildiyi zaman uçota almalıdır. Ümumiyyətlə istər kassa, istərsə də

hesablama metodundan istifadə etməklə gəlir və xərclərin uçotunda ən önəmli məsələ gəlirlərin əldə edilməsi və xərclərin isə çəkilməsi vaxtının düzgün müəyyən edilməsidir. Çünki məhz həmin vaxtın müəyyən edilməsi anından başlayaraq vergi ödəyicisinin mənfəət (gəlir) vergisi üzrə öhdəlikləri yaranır.

Kassa metodunun mahiyyəti ondan ibarətdir ki, satılmış mallara (iş və xidmətlərə) görə pul vəsaitlərinin (əmlak və əmlak hüququnun) müəssisənin bankdakı hesablaşma hesabına (kassasına) daxil olduğu, eləcə də digər debitor borclarının başqa üsullarla ödənildiyi gün gəlirlərin əldə olunma tarixi hesab olunur.

Vergi ödəyicisinin maliyyə öhdəliyinin ləğv edildiyi (ödənildiyi) hallarda (qarşılıqlı hesablaşmalar aparıldıqda) isə öhdəliyin ləğv edildiyi gün gəlirin əldə edildiyi vaxt sayılır.

Malların (işlərin, xidmətlərin, əmlak hüququnun) dəyərinin alıcılar (sifarişçilər) tərəfindən ödənilməsi, bilavasitə bu malların gətirilməsi, işlərin yerinə yetirilməsi, xidmətlərin göstərilməsi və əmlak hüququnun verilməsi ilə bağlı onların mal- satanlar qarşısındakı öhdəliklərinin (borclarının) yerinə yetirilməsi (ödənilməsi) kimi qiymətləndirilir.

Beləliklə, kassa metodunun tətbiqi zamanı gəlirlər aşağıdakı hallarda çəkilmiş hesab olunur və uçota alınır:

- nağd pul vəsaiti kassaya daxil olduqda və ya vergi ödəyicisinin vəkil etdiyi şəxsə təhvil verildikdə;
- pul vəsaiti bank hesabına daxil olduqda;
- pul vəsaiti vergi ödəyicisinin sərbəst şəkildə sərəncam verə biləcəyi hər hansı digər hesaba daxil olduqda;
- vergi ödəyicisinin maliyyə öhdəliyinin ləğ%' edildiyi və ödənildiyi halda. Vergi uçotu məqsədləri üçün kassa metodundan istifadə edildikdə, məsrəflərin faktiki həyata keçirildiyi gün **xərclərin** çəkilmə vaxtı hesab olunur. Başqa sözlə; müəssisələr çəkilmiş məsrəflərin dəyərini faktiki olaraq ödədikdən sonra bu onun xərcləri sayılır. Bu zaman xərclərin çəkilmə vaxtı aşağıdakı kimi müəyyən edilir:
- **nağd hesablaşmalar zamanı** - pul vəsaitləri ödənildikdə;
- **nağdsız ödəmələr zamanı** - vergi ödəyicisinin pul vəsaitlərinin köçürülməsi haqqında ödəniş tapşırığı banka verildikdə.

Vergi uçotu məqsədləri xərclər çəkilmiş hesab olunduqda aşağıdakı prinsiplər rəhbər tutula bilər:

- **material xərcləri** - onların dəyəri ödənildiyi zaman;
- **əmək haqqı xərcləri** - əmək haqqı kassadan ödənildiyi və ya işçinin bank hesabına keçirildiyi, natural ödəmə zamanı isə işçiyə təhvil verildiyi zaman;
- **kənar təşkilatların xidməti** - həmin xidmətlərin dəyəri ödənildiyi və ya həmin xidmətə görə yaranmış öhdəlik ləğv edildiyi zaman;
- **amortizasiya xərcləri** - dəyəri ödənilmiş əsas vəsaitlərə hesablanmış amortizasiya məbləğləri həcmində;
- **xərclərin tərkibinə daxil edilən vergilər** - bu vergilər faktiki olaraq ödənildiyi zaman;

• digər xərclər də oxşar prinsiplərə riayət edilməklə etiraf edilə və uçota alına bilər.

Qarşılıqlı hesablaşmalar zamanı vergi ödəyicisi qarşısındakı maliyyə öhdəliklərinin ödənildiyi və ya ləğv edildiyi vaxt xərclərin çəkilməsi vaxtı hesab edilir. Əgər borc öhdəliyinin (icarə müqaviləsinin) müddəti və həmin öhdəliklər üzrə ödənilən faizlər bir neçə hesabat (vergi) dövrünü əhatə edərsə, onda hesabat ilində faktiki ödənilən faizlərin (icarə haqqının) məbləği, həmin il üçün hesablanan gəlirdən çıxılan xərclərin tərkibinə daxil edilir.

Çəkilmiş məsrəflər ödəyicilər tərəfindən xərclərin tərkibində aşağıdakj hallarda uçota almır:

Sıra Xssi	Xərc növləri	Xərcin müəyyən edilmə tarixi
1.	Material xərcləri Əməyin ödənişi üzrə xərclər Borc vəsaitlərindən (bank kreditləri də daxil olmaqla) istifadəyə görə faizlərin ödənişi Üçüncü şəxslərin göstərdiyi xidmətlərin ödənişi	Ödəyicinin hesablaşma hesabından pul vəsaitlərinin silindiyi, kassadan isə ödənildiyi borcların digər üsullarla ödənildiyi hallarda isə bu ödənişin aparıldığı gün (vaxt)
2.	Xammal və materialların əldə edilməsi üzrə xərclər	Həmin xammal və materiallar istehsalata silindikdə
3.	Amortizasiya (istehsalatda İstifadə olunan və dəyəri ödəyici tərəfindən ödənilmiş amortizasiya edilən əmlak)	Hesabat (vergi) dövrü ərzində hesablanır
4.	Vergi və rüsumların ödənişi üzrə xərclər (vergi və ödəmələrin ödənişi üzrə borclar olduqda, onun ödənilməsinə çəkilən xərclər, Ödəyicinin həmin borcu ödədiyi hesabat dövründə və faktiki ödənilmiş borc məbləği həddində xərclərin tərkibində uçota almır).	Ödəyici tərəfindən faktiki ödənilmiş məbləğlərin həcmində xərclərin tərkibində uçota alınır

Qeyd etmək lazımdır ki, əgər gəlir və xərclərin müəyyən edilməsinin kassa metodunu tətbiq edən vergi ödəyicisinin hesabat dövrü ərzində satışdan əldə etdiyi pul vəsaitinin məbləği sadələşdirilmiş vergi üçün müəyyən edilmiş həddən çox olarsa, bu zaman o həmin vergi dövrünün əvvəlindən başlayaraq gəlir və xərclərin müəyyən edilməsinin hesablama metoduna keçməlidir.

Əgər öhdəlik (tələbnamə) müqaviləsinin şərtlərinə görə məbləğlər arasındakı fərq şərti pul vahidi ilə ifadə olunmuşdursa, onda gəlir və xərclərin kassa metodu ilə müəyyən edən ödəyicilər vergitutma məqsədi üçün onu gəlir və xərclərin tərkibində uçota almırlar.

Gəlirlərin uçotunun kassa metodunun tətbiq edən müəssisələr 45 JVb-li "Yüklənmiş mallar" adlı hesabdan istifadə edirlər. Bu zaman alıcılara göndərilmiş malların dəyəri 40 "Hazır məhsul" hesabın krediti ilə müxabirləşməklə 45 saylı hesabının debetinə əks olunur. Nəzərə almaq lazımdır ki, "kassa" metodunun tətbiqi za-

manı yüklənmiş malların dəyəri alıcılar tərəfindən ödənildiyi gün onlar satılmış hesab olunur.

Alıcılar tərəfindən göndərilmiş malların dəyəri ödənildikdən sonra, yəni pul vəsaitləri müəssisənin kassa və ya hesablaşma hesabına daxil olduqda aşağıdakı mühasibat yazılışları tərtib edilir:

1) Dt 51 "Hesablaşma hesabı" (50)

Kt 46 "Məhsul (iş və xidmətlər) satışı" - satılmış malların tam maya dəyəri;

2) Dt 46 "Məhsul (iş və xidmətlər) satışı" hesabı

Kt 45 "Yüklənmiş mallar" hesabı - satılmış malların faktiki maya dəyəri.

Əgər təsərrüfat subyekti əlavə dəyər vergisi ödəyicisidirsə, onda yüklənmiş malların dəyəri alıcılar tərəfindən ödənildikdən sonra satılmış mallar üzrə vergi hesablanır və bu aşağıdakı mühasibat yazılışı tərtib etməklə rəsmiləşdirilir:

Dt 46 "Məhsul (iş, xidmət) satışı";

Kt 68, subhesab "ƏDV üzrə büdcə ilə hesablaşmalar".

Sonra 46 JNs-li hesabın debet və kredit dövriyyəsi tutuşdurularaq hesabat dövrünü maliyyə nəticəsi müə>7ən edildikdən sonra 80 saylı hesaba silinir.

2.9. Müəssisə gəlirlərinin tərkibi və maliyyə nəticələrinin formalaşması (müəyyən edilməsi) qaydası

2.9.1. Müəssisə gəlirlərinin müəyyən edilməsi və təsnifləşdirilməsi

Bazar iqtisadiyyatının ən başlıca prinsiplərindən biri də müəssisənin İşinin rentabelliyidir. Mənfəət müəssisənin təsərrüfat fəaliyyətinin səmərəliliyini xarakterizə edir. Müəssisələr təsərrüfat fəaliyyəti prosesində maliyyə nəticələri əldə edirlər ki, bu da mənfəət və ya zərərlə ifadə olunur. Son maliyyə nəticələri dedikdə məhsulların (işlərin, xidmətlərin, malların), əsas vəsaitlərin, material qiymətlərinin, qeyri-maddi aktivlərin satışından, eləcə də satışdankənar əməliyyatlardan olan və bu əməliyyatlar üzrə xərclərin məbləği qədər azaldılmış gəlirlər nəzərdə tutulur. Adətən müəssisənin istehsal-təsərrüfat fəaliyyətinin son maliyyə nəticəsi bir qayda olaraq mənfəətdən ibarət olur. Lakin iş prosesində bəzi təsərrüfat əməliyyatlan üzrə müəssisə zərər əldə edir ki, bu da alınmış mənfəəti azaldır və rentabelliyin səviyyəsini aşağı salır.

Müasir təsərrüfatçılıq şəraitində mənfəətin rolu əhəmiyyətli dərəcədə artmışdır. Mənfəət müəssisə fəaliyyətinin başlıca ümumiləşdirici (qiymətləndirici) göstəricisi olmaqla yanaşı, indiki bazar iqtisadiyyatı şəraitində kommersiya hesabı ilə işləyən müəssisələrin əsas özünümaliyyələşdirmə mənbəyidir. Çünki mənfəət müəssisədə istehsalın genişləndirilməsi, sosial tələbatın ödənilməsi, büdcənin təşkili ilə əlaqədar xərclərin əsas maliyyələşmə mənbəyidir.

Beləliklə, indiki şəraitdə mənfəət müəssisənin təsərrüfat-kommersiya fəaliyyətinin (biznesin) səmərəliliyini xarakterizə edən ən mühüm iqtisadi göstəricilərdən biridir. Mənfəət iqtisadi kateqoriya kimi ümumiləşdirilmiş şəkildə təsərrüfatçılığın, həmçinin canlı və maddiləşmiş əmək məsrəflərinin məhsuldarlığını əks etdirir.

Müəssisənin böyük məbləğdə mənfəət əldə etməsi istehsal məsrəflərinin azalmasını və onun rentabellik səviyyəsinin yüksəlməsini göstəri/.

Mənfəət, həm də büdcə gəlirlərinin formalaşmasının ıpühüm mənbələrindən biri olmaqla ölkəmizin vergi sisteminin əsas elementi kimi çıxış edir. Belə ki, istənilən təsərrüfat subyekti vergi ödəyicisi kimi əldə etdiyi mənfəətin bir hissəsini dövlət büdcəsinə ödəyir. Mənfəət vergisi birbaşa vergi olduğu üçün onun məbləği təsərrüfat subyektinin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrindən bilavasitə asılıdır.

Müəssisənin son maliyyə nəticələrinin formalaşması çoxsaylı təsərrüfat amillərinin, o cümlədən qanunverici aktların təsiri altında yaranan mürəkkəb və iri miqyaslı prosesdir. Müəssisə mənfəətini formalaşdıran əsas göstəricilərdən biri "gəlirdir". Müəssisələr təsərrüfat-kommersiya fəaliy>'əti prosesində müxtəlif mənbələrdən gəlirlər əldə edirlər. Bu gəlirlər müəssisə fəaliyyətinin istiqamətindən (əsas, investisiya, maliyyə) asılı olaraq müxtəlif əlamətlər üzrə təsnifləşdirilir.

Fəaliyyət sahələrinə görə gəlirlər aşağıdakı kimi qruplaşdırılır:

- istehsalat fəaliyyətindən olan gəlirlər;
- ticarət fəaliyyətindən olan gəlirlər;
- xidmətlərin göstərilməsindən olan gəlirlər və s.

Gəlirlərin bu cür bölgüsü ondan irəli gəlir ki, müasir şəraitdə istənilən müəssisə əsas fəaliyyətlə yanaşı digər fəaliyyət növləri ilə də məşğul olur.

Fəaliyyət növlərinə görə gəlirlər aşağıdakı mənbələrdən daxil olur:

- əsas fəaliyyətdən;
- investisiya fəaliyyətindən;
- maliyyə fəaliyyətindən;

Əsas fəaliyyətdən olan gəlir müəssisənin əsas istehsalat fəaliyyətinin nəticəsidir. Əsas fəaliyyətdən olan gəlir məhsulların (işlərin, xidmətlərin) satışından daxil olan pul vəsaitlərindən formalaşır

İnvestisiya fəaliyyətindən olan gəlir qismən əməliyyat gəlirləri (birgə müəssisələrdə iştirakdan olan gəlirlər; qiymətli kağızlardan və əmanət depozitlərindən olan gəlirlər), qismən isə əsas vəsaitlərin və digər aktivlərin satışından olan gəlirlər şəklində əks olunur.

Maliyyə fəaliyyətindən olan gəlir - müəssisənin kənar maliyyələşmə mənbələri ilə (əlavə səhmdarın (pay kapitalının) cəlb edilməsi, səhm, istiqraz və digər qiymətli borc kağızlannm emissiyası, müxtəlif formalı kreditlərin cəlb edilməsi) təmin edilməsinə yönəldilmiş pul axınının nəticəsidir. Bu cür maliyyə qoyuluşu müəssisəni birbaşa gəlirlərlə təmin edə bilməz, çünki qaytarılan pul vəsaiti əldə edilən gəlirdən çox olur. Bundan başqa, maliyyə fəaliyyəti prosesində həm xüsusi, həm də borc alınmış kapital müəssisə üçün çox və ya az sərfəli olan şərtlərlə alına bilər ki, bu da əsas investisiya fəaliyyətinin nəticələrinə təsir etmiş olacaq. Ona görə maliyyə fəaliyyətindən olan gəlirlər dedikdə, bazardakından daha sərfəli olan şərtlərlə kənar mənbələrdən kapitalın cəlb edilməsindən olan dolayı səmərə nəzərdə tutulur. Bununla yanaşı, maliyyə fəaliyyəti prosesində qoyulmuş xüsusi kapitaldan (hesablaşma və ya valyuta hesablanndakı pul vəsaitlərinin orta qalığı üzrə depozit faizinin alınması yolu ilə) birbaşa gəlir də əldə etmək olar.

Əmələgəlmə mənbəyinə görə gəlirlər iki qrupa bölünür:

- məhsulların (işlərin, xidmətlərin) satışından olan gəlirlər;
- sair daxilolmalar.

Məhsulların (işlərin, xidmətlərin) satışından olan gəlirlər bilavasitə müəssisənin sahəvi xüsusiyyəti ilə əlaqədar olan əsas gəlir növüdür. Bu terminin analoqu kimi "əsas fəaliyyətdən olan gəlirlər" terminindən də istifadə olunur. Hər iki halda əsas fəaliyyətdən olan gəlirlər dedikdə, müəssisənin əsas istehsalat-kommersiya fəaliyyətindən olan maliyyə nəticələri nəzərdə tutulur.

Sair daxilolmalar aşağıdakı gəlirlərdən formalaşır: əməliyyat; satışdankə- nar; fövqəladə.

Əməliyyat gəlirinə aşağıdakılar daxildir:

müəssisə aktivlərinin ödənişli əsaslarla müvəqqəti istifadəyə verilməsindən olan gəlirlər;

ödənişli əsaslarla ixtira, müəssisə nümunəsinə görə patent və digər intellektual mülki>'yətə görə hüququn verilməsindən olan daxilolmalar; digər müəssisələrin nizamnamə kapitalında iştirakla əlaqədar daxilolmalar (faiz və qiymətli kağızlar üzrə gəlirlər də daxil olmaqla); birgə fəaliyyətdən olan gəlirlər (sadə yoldaşlıq müqaviləsi üzrə); pul vəsaitləri (xarici valyutadan başqa) və məhsullar istisna olmaqla, əsas vəsaitlər və digər aktivlərin satışından olan gəlirlər; müəssisənin pul vəsaitlərinin istifadəyə verilməsindən və onun hesablaşma hesabında olan pul vəsaitlərindən bank tərəfindən istifadə olunmasına görə alınan faizlər.

Satışdankənar gəlirlərə aşağıdakılar aiddir:

"4 müqavilə şərtlərinin pozulmasına görə daxil olmuş cərimə, peniya və dəbbə məbləğləri;

4- müəssisəyə dəymiş zərərin ödənişi kimi daxil olmuş ödəmələr;

4 hesabat ilində aşkar edilmiş keçmiş illərin gəlirləri;

4 iddia müddəti başa çatmış kreditor və deponent borcları;

4 məzənnə fərqləri;

4 aktivlərin yenidən qiymətləndirilməsindən olan gəlirlər (dövriyyədənkənar aktivlər istisna olmaqla).

Təsərrüfat fəaliyyəti prosesində fövqəladə hallar (təbii fəlakət, yanğın, qəza) nəticəsində yaranmış daxilolmalar (məsələn, sığorta ödəmələri, sonrakı istifadə üçün yararlı və bərpası mümkün olmayan müəssisə əmlakının silinməsi zamanı alınmış material qiymətlilərinin dəyəri) fövqəladə gəlirlər adlanır.

Vergiyə cəlb olunma xarakterinə görə gəlirlər iki cür olur: vergiyə cəlb olunanlar və vergiyə cəlb olunmayanlar. Gəlirlərin bu cür qruplaşdırılması müəssisənin vergi siyasətinin formalaşmasında mühüm rol oynayır. Belə ki, bu son effekti baxımından alternativ təsərrüfat əməliyyatlarını qiymətləndirmək imkanı verir. Vergi tutulmayan gəlirlərin tərkibi Vergi Məcəlləsi ilə tənzimlənir.

İnflyasiya prosesinin təsirinə görə gəlirlər normal və real olmaqla iki yerə bölünür. Real gəlİr müvafiq hesabat dövründəki inflyasiya tempi qədər korrektə edilmiş normal gəlirin həcmini xarakterizə edir.

Formalaşma dövrünə görə gəlirlər üç qrupa ayrılır: əvvəlki dövrün gəlirləri, hesabat dövrünün gəlirləri və planlaşdırılmış dövrün gəlirləri (planlaşdırılan gəlir). Gəlirlərin bu təsnifatından gəlir və mənfəətin planlaşdırılması və təhlili üçün istifadə etmək olar.

Bazar münasibətləri şəraitində iqtisadi (təmiz) və gözlənilən (perspektiv) mənfəət kimi kateqoriyalardan da istifadə olunur. İqtisadi (təmiz) mənfəət - müəssisənin ümumi gəlir və planlaşdırılmış xərcləri arasındakı fərq kimi müəyyən edilir. İşgüzar gəlirin tərkib hissəsi kimi normal mənfəət də iqtisadi mənfəətin tərkib hissəsidir. Sahibkarın hər hansı istehsal sferasında daimi fəaliyyət göstərməsi üçün lazım olan minimal gəlir (ödəniş) müəssisənin normal mənfəətini təşkil edir. Sahibkarın mənfəəti iqtisadi resurs və yeniliklərin idarə edilməsi ilə bağlı sığortalanmış risklər hesabına da arta bilər.



Şəkil 14. Müəssisə gəlirlərinin təsnifləşdirilməsi

Gözlənilən mənfəət - yeniliklərin tətbiqi nəticəsində əldə edilən mənfəətdir. Bu mənfəətin əldə edilməsi istəyi (meyli) firmanı yeni, daha məhsuldar texnika və texnologiyaların tətbiqini və istehsalın yenidən təşkilini həyata keçirməyə məcbur edir. Lakin bu da öz növbəsində yeni investisiyaların qoyulmasına, məhsul buraxılışını artırmağa və məşğulluğun təmin edilməsinə stimul yaradır. Bu baxımdan yeni qaydalann tətbiqi mənfəət əldə edilməsi ilə yanaşı, iqtisadi inkişafa təsir göstərən amillərdən biridir.

Bundan başqa yeniliklər iqtisadi artımın əsas faktorudur, çünki mənfəət almaq istəyi texniki tərəqqinin əsasını təşkil edir. Lakin gözlənilən mənfəət investisiya, məşğulluq, artım tempi və bir sıra digər faktorlardan asılıdır. Bununla yanaşı onu da nəzərə alınaq lazımdır ki, mənfəət yeniliklərin tətbiqi üçün yeganə stimul deyil.

Sonda qeyd etmək istərdik ki, təsərrüfat subyektlərinin əldə etdiyi bütün gəlirlər vergitutma məqsədləri üçün ümumilikdə üç qrupa ayrılır: satışdan olan gəlirlər, satışdankənar gəlirlər və vergitutma məqsədləri üçün nəzərə alınmayan gəlirlər. Növbəti paraqraflarda biz onları müfəssəl olaraq nəzərdən keçirməyə çalışacağıq.

2.9.2. Müəssisənin əsas fəaliyyətdən olan gəlirləri

Məhsulların (işlərin, xidmətlərin) satışından olan gəlirlər bilavasitə müəssisə fəaliyyətinin sahəvi xüsusiyyəti ilə bağlıdır və bu səbəbdən belə gəlirlər çox vaxt "əsas fəaliyyətdən olan gəlirlər" adlandırılır. Əsas fəaliyyətdən olan gəlirlər məhsulların (işlərin, xidmətlərin), dövriyyədənkənar aktivlərin (əsas vəsaitlərin, qeyri- maddi aktivlərin) və digər aktivlərin satışından olan gəlirlərdən (satışdan olan gəlirlərdən) formalaşır (şəkil 2.10).

İndi isə müəssisənin əsas fəaliyyətdən olan gəlirlərinin tərkib elementlərinin formalaşması qaydasım ayrı-ayrılıqda nəzərdən keçirək.

Satışdan olan gəlirlər - satılmış məhsullara (mallara, işlərə, xidmətlərə) görə alıcılardan (sifarişçilərdən) daxil olmuş pul vəsaitlərindən formalaşır. Gəlirlərin həcmi, vergi ödəyicisinin alıcılara (sifarişçilərə) təqdim etdikləri və vergi hesab- fakturalarmda ayrıca göstərilmiş dolayı vergilərin (ƏDV, aksizlər) məbləği istisna olmaqla, məhsulların (malların, işlərin, xidmətlərin) satışı üzrə ilkin sənədlərə əsasən müəyyən edilir.

Vergi qanunvericiliyinə əsasən əvəzi ödənilməklə və ya əvəzsiz olaraq mallara görə mülkiyyət hüququnun bir şəxs tərəfindən digərinə verilməsi, bir şəxs tərəfindən digəri üçün işlərin görülməsi və ya xidmətlərin göstərilməsi (o cümlədən mal, iş və xidmətlərin mübadiləsi) mal, iş və xidmətlərin satışı kimi qiymətləndirilir. Mallann (məhsullann, işlərin, xidmətlərin) dəyərinin real olaraq ödənilməsi faktı isə ikinci dərəcəli əhəmiyyətə malikdir.

Qeyd etmək lazımdır ki, əmlak (mal, məhsul, iş, xidmət) və əmlak hüququ o halda əvəzsiz olaraq alınmış hesab olunur ki, həmin əmlakın alınması onu alan tərəfdə onu geri qaytarmaq və ya onun dəyərini ödəmək, yaxud onu verən tərəf üçün iş görmək (xidmət göstərmək) öhdəliyi yaratmasın.

Son maliyyə nəticələri

Məhsulların satışından olan maliyyə nəticələri	Əsas vəsaitlərin və digər əmlakın satışından olan maliyyə nəticələri		Qeyri-maddi aktivlərin satışından olan maliyyə nəticələri

Satışdankənar əməliyyatlardan olan və bu əməliyyatlar üzrə xərclərin məbləği qədər azaldılmış maliyyə nəticələri

Şəkil 15. Son maliyyə nəticələrinin formalaşması

Əgər şəxsi istehlak üçün müəssisə daxilində isifadə edilmiş mal, iş və xidmətlərin dəyəri istehsal (tədavül) xərclərinə daxil edilməmişdirsə, onda həmin əmlakın dəyəri həmçinin mal, iş və xidmətlərin satışı kimi uçota alınır.

Məhsulların (işlərin, xidmətlərin) satışından olan gəlirlər müəssisəyə gələn maliyyə axınının, yəni müəssisə mənfəətinin əsas hissəsini təşkil edir. Məhsulların və digər aktivlərin satışından daxil olmuş pul vəsaitləri müəssisənin ümumi gəlirini formalaşdırır. Vergitutma sistemində ümumi gəlir deyil, balans mənfəəti anlayışından istifadə olunur.

Satışdan olan gəlirlərin (satış pulunun) müəyyən edilməsi metodları maliyyə göstəricilərinin hesablanması üçün mühüm əhəmiyyət kəsb edir. Respublikamızın uçot praktikasında satış anının (vaxtının) müəyyən edilməsinin aşağıdakı iki metodu tətbiq olunur:

- "yükləmə üzrə" (hesablama metodu);
- "ödəmə üzrə" (kassa metodu).

Əksər müəssisələr hesablama metodunu tətbiq edir və bu zaman onlar məhsulların satışından olan gəlirləri malların yüklənməsi, işlərin yerinə yetirilməsi və xidmətlərin göstərilməsi faktı üzrə uçota alırlar. Qeyd etmək lazımdır ki, tikinti müəssisələrində, elmi-tədqiqat və sınaq-konstruksiya işləri ilə məşğul olan sahələrdə yerinə yetirilmiş işlər bir neçə mərhələdən ibarət olduğu üçün, hər bir mərhələ üzrə yerinə yetirilmiş işin ödənişi satış pulu kimi qəbul edilir.

Satış pulunun "ödəmə üzrə", yəni kassa metodu ilə uçota alınması bir qayda olaraq kiçik müəssisələrdə tətbiq olunur.

Əgər müəssisə satış pulunu, yəni satışdan olan gəlirləri məhsulların yüklənməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi faktı üzrə müəyyən edərsə,

onda bu halda vergilərin ödənilməsi üzrə öhdəlik alıcılardan (debitorlardan) pul vəsaitlərinin alınması faktından asılı olmayaraq yaranır. Satış pulunun "yükləmə üzrə" metodu ilə uçota alındığı hallarda müəssisələr şübhəli borclar üzrə ehtiyat yaratmaq hüququna malikdirlər. Şübhəli borclar üzrə ehtiyat vergi ödənilməmiş mənfəət hesabına yaradılır. Ödəmə müddəti başa çatmış və zəmanətlə təmin olunmamış debitor borcları şübhəli borclar hesab olunur.

Müəssisənin maliyyə vəziy>'ətinin qiymətləndirilməsi üçün satış pulunun hansı metodla müəyyən edilməsinin böyük əhəmiyyəti var. Belə ki, hesablama (yükləmə üzrə) metodunu seçdiyi halda müəssisə nəzərə almalıdır ki, hesablanmış vergiləri satılmış məhsullara görə alıcılardan (sifarişçilərdən) pul vəsaitləri daxil olanadək ödəməlidir. Kassa (ödəmə üzrə) metodu isə bu problemi aradan qaldırır. Lakin nəzərə almaq lazımdır ki, müəssisə bu metodu tətbiq edərkən şübhəli borclar üzrə ehtiyat yarada bilməz.

Satışdan olan gəlir məbləğinə satılmış məhsulların qiyməti, satışın natural ifadədə həcmi kimi amillər təsir edir. Satışdan olan gəlirin planlaşdırılması aşağıdakı metodlardan biri ilə həyata keçirilir.

Birbaşa hesablama metodu. Bu metodun tətbiqi zamanı satışdan olan gəlir satılmış məhsulun (yerinə yetirilmiş işin, göstərilmiş xidmətin) qiymətinin (dolayı vergilərsiz) onun natural ifadədə həcminə olan hasili kimi müəyyən edilir. Bu aşağıdakı üsulla hesablanır:

$$\mathbf{Sn \sim Sh \times Q} \qquad (1)$$

burada Sg - satışdan olan gəlir;
Sh - satışın həcmi;
Q - qiymət.

Hesablama metodu. Bu metod zamanı əmtəəlik məhsul buraxılışı (Əm), planlaşdırılan ilin əvvəlinə (Qə) və axırına (Qa) anbarda olan məhsulların və yüklənmiş malların qalığı nəzərə alınır:

$$\mathbf{Sn \text{ ” } Qa\ Əm — Qa} \qquad (2)$$

Hesablama satış qiyməti ilə həyata keçirilir. Bu zaman planlaşdırılan ilin əvvəlinə olan qalıq əvvəlki ilin qiyməti ilə, əmtəəlik məhsul satış qiyməti ilə və plan- laşdınlan ilin sonuna qalıq isə plan qiyməti ilə qiymətləndirilir. Satılmış məhsulların maya dəyərinin müəyyən edilməsi də planlaşdırma zamanı az əhəmiyyət kəsb etmir. Belə ki, məhsulların satışından olan pul vəsaiti və onların faktiki tam maya dəyəri arasındakı fərq satışdan olan mənfəət məbləğini təşkil edir.

Müəssisəyə daxil olmuş satış pulu (satışdan olan gəlir) istifadə edilmiş istehsal vəsaitlərinin ödənilməsinə yönəldildikdən .sonra, ümumi və xalis gəlir formalaşır. Satışdan olan gəlir müəssisənin bütün məsrəflərini örtməklə yanaşı ona mənfəət gətirməlidir. Satışdan olan gəlirin cəmi məsrəflərə (maya dəyərinə) bərabər olan hissəsi "satışın kritik həcmi" (kritik nöqtə, ölü nöqtə) adlanır. Əgər müəssisə kritik

həcmdən aşağı gəlir əldə edərsə, onda bu zərərin alınmasına səbəb olacaq. Əksinə, kritik həddən çox olduqda isə müəssisəyə mənfəət gətirəcək.

Məhsul satışının kritik həcmi məsrəflərin müstəqim və.qeyri-müstəqim kimi təsnifləşdirilməsindən istifadə etməklə müəyyənləşdirilir. Orta dəyişən məsrəflər (Dm), daimi xərcləri (Dx) və satış qiymətini (Q) müəyyən etdikdən sonra satışın kritik həcmini (Kh) aşağıdakı düsturla müəyyən etmək olar:

$$KH = D\,x / Q - a \qquad (3)$$

Satış pulunun müəssisənin bankdakı hesablaşma hesabına (nağdsız hesablaşmalar zamanı) və ya kassaya (nağd hesablaşmalar zamanı) daxil olduğu andan vəsaitlərin dövriyyəsi başa çatır. Daxil olmuş vəsaitlərin sonrakı istifadəsi yeni dövriyyənin başlanğıcıdır. Eyni zamanda müəssisə, fiziki şəxslər və dövlətin maraqları üçün xalis gəlirin bölüşdürülməsi prosesi baş verir.

Satışdan olan gəlirlər ilk növbədə malsatanlara olan borcların və əmək haqqının ödənilməsi, dövriyyədənkənar aktivlərin köhnəlməsinin örtülməsi üçün istifadə olunur və nəhayət müəssisənin mənfəəti formalaşır.

Təsərrüfat subyektlərinin əldə etdikləri mənfəətin əsas hissəsi məhsulların (işlərin, xidmətlərin) satışı prosesində formalaşır. Məhsulların satışından olan mənfəət - mövcud bazar qiymətləri ilə (ƏDV və aksiz xaric) məhsul satışından əldə edilmiş pul vəsaitləri və onun istehsalına (satışına) çəkilmiş məsrəflər (onların maya dəyəri) arasındakı fərqdən ibarətdir. Yəni, məhsul satışmdan olan mənfəəti müəyyən etmək üçün məhsulların satışından əldə edilən gəlirlərdən onların əldə edilməsi ilə bağlı olan xərcləri və dolayı vergilərin (ƏDV, aksizlər) məbləğini çıxmaq lazımdır.

Məhsulların, işlərin, xidmətlərin satışından olan mənfəət aşağıdakı formula üzrə müəyyən edilir:

$$M = Sp - Md - Kx - AK \qquad (4)$$

burada Sp - məhsulların (işlərin, xidmətlərin) satışından olan vəsait;
Md - məhsulun maya dəyəri;
Kx - kommersiya xərcləri;
ƏDV - əlavə dəyər vergisi;
Ak - aksizli mallar üzrə aksiz vergisi.

Əmlakın satışından (əsas vəsaitlərin, qeri-maddi aktivlərin və s.) olan gəlirlər də müəssisə mənfəətinin formalaşmasında az əhəmiyyət kəsb etmir. Əmlak satışından olan gəlirlər əməliyyat gəlirləri kimi əks olunur. Əməliyyat gəlirlərinə aşağıdakılar daxildir: müəssisə aktivlərinin ödənişlə müvəqqəti istifadəyə təqdim edilməsindən alınan gəlirlər; ixtiraya görə patentin, sənaye nümunələri və digər intellektual mülkiyyət nümunələrinə görə hüququn təqdim edilməsindən olan gəlirlər (royalti); digər müəssisələrin nizamnamə kapitalında iştirakdan olan gəlirlər (qiymətli kağızlar üzrə faiz gəlirləri də daxil olmaqla); birgə fəaliyyətdən olan mənfəət və müəssisənin pul vəsaitlərinin istifadəyə verilməsindən alınmış faizlər.

Dövriyyədənkənar aktivlərin (əsas vəsaitləriYi, qeyri-maddi aktivlərin) satışından əldə edilən mənfəət (zərər) məbləğini hesablamaq üçün həmin qiymətlilərin satışından olan gəlirlərdən onların qalıq dəyərini, kommersiya xərclərini və ƏDV məbləğini çıxmaq lazımdır.

Material qiymətliləri və digər aktivlərin satışından olan mənfəət (zərər), onların satışından olan (buraxılış qiyməti ilə) pul vəsaitləri ilə həmin qiymətlilərin əldə edilməsinə, satışına çəkilmiş məsrəflər və dolayı vergilər (ƏDV, aksizlər) arasındakı fərq kimi müəyyən edilir.

Keçmiş illərə aid olan, lakin cari ildə aşkar edilmiş mənfəət (zərər) hesabat ilinin maliyyə nəticələrinə aid edilir. Hesabat dövründə əldə edilmiş, lakin növbəti hesabat dövrlərinə aid olan gəlirlər isə gələcək dövrlərin gəlirləri kimi uçot və hesabatda ayrıca maddə kimi əks etdirilir.

Təsərrüfat fəaliyyətində fövqəladə vəziyyət nəticəsində (təbii fəlakət, yanğın, qəza, daşqın) daxil olmuş sığorta ödənişləri, bərpa olunması və sonrakı istifadə üçün yararlı olmayan aktivlərin silinməsindən alınan material qiymətlilərinin dəyəri fövqəladə gəlirlərə aid edilir.

Sənaye müəssisələrində üç cür mənfəət formalaşır: əməliyyat mənfəəti, balans mənfəəti və müəssisənin sərəncamında qalan xalis mənfəət.

Əməliyyat mənfəətini hesablamaq üçün məhsul satışından əldə edilmiş ümumi gəlirdən istehsal və digər planlaşdınimayan xərcləri çıxmaq lazımdır.

Balans mənfəəti - məhsulun, əsas vəsaitlərin, material qiymətlilərinin və digər aktivlərin satışından və satışdankənar əməliyyatlardan olan mənfəətdən ibarətdir. Balans mənfəətinin əsas hissəsini (90%) məhsulların, iş və xidmətlərin satışından olan mənfəət təşkil edir. Balans mənfəətini hesablamaq üçün ümumi gəlirdən (satış pulundan) həmin gəlirlərin əldə edilməsi ilə bağlı və Vergi Məcəlləsində nəzərdə tutulmuş xərcləri, satışdankənar əməliyyatlardan olan zərəri və dolayı vergiləri (ƏDV və aksizlər) çıxmaq lazımdır.

Hesabat dövrünün balans mənfəəti (zərəri) və onun istifadə edilməsi müəssisə balansının passivində (alınmış mənfəət və onun avans olaraq istifadəsi, bölüşdürülməmiş mənfəət), faktiki alınmış zərər isə aktivində əks etdirilir. Balansın valyutasına (yekununa) yalnız hesabat dövrünün və keçmiş illərin bölüşdürülməmiş mənfəəti, yaxud ödənilməmiş zərəri daxil edilir.

Müəssisənin sərəncamında qalan xalis mənfəət - balans mənfəəti və onun hesabına ödənilən vergi məbləği arasındakı fərq kimi müəyyən edilir. Müəssisənin sərəncamında qalan mənfəət onun nizamnaməsinə və təsisedici sənədlərə uyğun olaraq ehtiyat, yığım, istehlak və digər xüsusi təyinatlı fondlara yönəldilə bilər.

2.93. Satışdan kənar əməliyyatlardan əldə edilən gəlirlər

Müəssisələr təsərrüfat-kommersiya fəaliyyəti prosesində məhsul satışından başqa, satışdankənar əməliyyatlardan da mənfəət (zərər) əldə edirlər. Müəssisənin bilavasitə əsas fəaliyyəti ilə bağlı olmayan gəlirləri satışdankənar gəlirlər adlanır. Satışdan- kənar əməliyyatlardan əldə edilən gəlirlər - həmin əməliyyatlar üzrə çəkilmiş xərclərin məbləği qədər azaldılmış mənfəətdən ibarətdir. Satışdankənar əməliyyatlardan əldə

edilən gəlirləri müəyyən etmək üçün əvvəlcə satışdankənar əməliyyatlardan əldə edilən gəlirləri və bu əməliyyatlar üzrə çəkilmiş xərcləri müəyyən etmək lazımdır.

Müəssisələrin satışdankənar əməliyyatlardan əldə edilən gəlirləri ümumilikdə aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Maliyyə əməliyyatlanndan olan gəlirlər:

a) alınası faizlər:
- icarəyə verilmiş vəsaitlərdən;
- başqa müəssisələrə verilən kreditlərdən (borclardan);
- veksellərdən;
- kommersiya kreditlərindən (kreditə satılmış mallara görə).

b) qiymətli kağızlardan əldə edilən gəlirlər:
a səhmlərdən;
a istiqrazlardan.

c) valyuta hesablanmn məzənnə fərqi və xarici valyuta əməliyyatlarından olan gəlirlər;

d) xarici valyutaların satışından olan gəlirlər;

e) başqa müəssisələrdə pay iştirakından olan gəlirlər.

2. Əmlak əməliyyatlanndan olan gəlirlər:

^ tara əməliyyatlarından olan gəlirlər;
qiymət fərqindən yaranan gəlirlər;

^ mal-material qiymətlilərinin artıq gəlməsindən olan gəlirlər.

3. Sair gəlirlər:
- alınmış cərimə, peniya və dəbbələmə məbləğləri;
- ümidsiz borcların daxil olmasından gəlirlər;
- keçmiş illərin gəlirləri;
- digər gəlirlər.

Yuxarıda sadalananlardan başqa satışdankənar gəlirlərə həmçinin aşağıdakılar aid edilir: istismardan çıxmış əsas vəsaitlərin sökülməsi və yenidən quraşdırılması zamanı alınmış materialların dəyəri; xeyriyyə fəaliyyəti çərçivəsində alınmış və məqsədli təyinatı üzrə istifadə olunmamış əmlak (o cümlədən pul vəsaitləri), iş və xidmətlərin dəyəri; hesabat (vergi) dövründə müəssisənin Nizamnamə (Yığım) kapitalının azaldılmasından yaranmış məbləğ (əgər səhmdar və iştirakçılar yaranmış məbləğdəki paylarını almaqdan imtina edərlərsə).

İddia müddətinin bitməsi ilə əlaqədar və digər əsaslarla silinmiş kreditor (de-ponent) borclarının (kreditorlar qarşısındakı öhdəliyin) məbləği, təcili sövdələşmənin maliyyə alətləri ilə aparılan əməli>'yatlardan olan gəlirlər həmçinin satışdankə- nar gəlirlərə daxil edilir.

2.9.4. Vergitutma məqsədləri üçün nəzərə alınmayan gəlirlər

Qeyd etmək lazımdır ki, müəssisələrin hesablaşma hesabına və anbarına mədaxil edilmiş bir sıra vəsaitlər, yaxud əmlak mənfəət vergisi hesablanarkən vergitutma bazasına daxil edilmir. Müəssisə, aktivlərini artırmasına baxmayaraq onlar

vergitutma bazası hesablanarkən nəzərə alınmırlar. Fikrimizcə, praktiki baxımdan ən əhəmiyyətli olan vergitutulmayan gəlir növlərinə aşağıdakıları aid etmək olar:

4^ öhdəliklərin təmin edilməsi kimi girov (zəmanət) formasında daxil olmuş əmlak və əmlak hüququ;

4- müəsisənin Nizamnamə kapitalına ödəniş kimi daxil olmuş əmlak;

4-yoldaşlıq (təsərrüfat) cəmiyyətindən çıxarkən ilkin ödəniş həddində geri alınmış əmlak;



Şəkil 16. Satışdankənar əməliyyatlardan olan gəlirlərin tərkibi



Şəkil 17. Satışdan olan mənfəət və onun istifadə olunma istiqamətləri

4 əvəzsiz yardım şəklində alınmış vəsaitlər; ı ■

4 bütün səviyyələrdən olan icra hakimiyyəti orqanlarının qərarına əsasən büdcə müəssisələrinin aldıqları əmlak;

4- komitentin xeyrinə komissionerə daxil olmuş vəsaitlər;

i- kredit (borc) müqaviləsi üzrə alınmış vəsaitlər (borevermənin rəsmiləşdirilməsi qaydasından asılı olmayaraq, borc qiymətli kağızları da daxil olmaqla digər analoji vəsaitlər), eləcə də bu borcların ödənişi kimi daxil olmuş məbləğlər;

4^ aşağıda göstərilən şərtlərlə müəssisənin ana kompaniyadan, yaxud təsisçidən aldığı əmlak: əmlakı alan tərəfin Nizamnamə kapitalındakı payının yandan çoxu əmlakı təqdim edən tərəfə malikdir və alınmış əmlak onun alındığı gündən sonrakı bir il ərzində üçüncü şəxsə verilmir;

4- müəssisə səhmlərinin (paylarının) nominal dəyərlərinin əvvəllər onlann faktiki satışı zamanı qiymətləndirilən dəyərlərindən artıq olan hissəsi;

4 məqsədli maliyyələşmələr çərçivəsində alınmış əmlak. Bu zaman, vəsaitləri alan müəssisələr məqsədli maliyyələşmələr çərçivəsində alınmış (çəkilmiş) gəlir və xərclərin uçotunu ayrıca aparmalıdır.

Vergi ödəyicisi tərəfindən alınmış və məqsədil maliyyələşmə mənbəyinin müəyyən etdiyi təyinat üzrə xərclənmiş əmlak (vəsait) məqsədli maliyyələşmə adlanır. Məqsədli maliyyələşmələrə aşağıdakıları aid etmək olar:

- alınmış qrantlar;
- qanunvericilikdə müəyyən edilmiş qaydada investisiya müsabiqələrinin keçirilməsi zamanı alınmış investisiyalar;
- istehsal təyinatlı kapital qoyuluşlarının maliyyələşdirilməsi üçün xarici investorlardan alınmış vəsaitlər (həmin vəsaitlərin alındığı gündən sonrakı bir təqvim ili ərzində istifadə olunması şərtilə);
- payçıların sifarişçinin hesabında toplanmış vəsaitlər;
- qarşılıqlı sığorta cəmiyyətinin həmin cəmiyyətin üzvlərindən aldığı vəsaitlər;
- əsaslı tədqiqatlar fondundan, hunamitar elmi fondundan, elmi-texniki sfera- dakı kiçik müəssisələrin inkişafına yardım fondundan və digər dövlət fondlarından alınmış vəsaitlər;
- səhmdar cəmiyyətin nizamnamə kapitalının artırılması məqsədilə müəssisə tərəfindən əlavə olaraq alınmış və ümumi iclasın qərarına əsasən onlann malik olduqları səhm paylarına mütənasib olaraq səhmdarlar arasında bölüşdürülmüş səhmlərin dəyəri;
- müəyyən edilmiş qaydada qiymətli daşlar üzrə preyskurantlarda dəyişikliklər edilərkən, qiymətli daşların yenidən qiymətləndirilməsi zamanı yaranmış müsbət fərq;
- mövcud qanunvericiliyə uyğun olaraq, hesabat dövründə müəssisənin Nizamnamə (Yığım) kapitalının azaldılması nəticəsində yaranmış məbləğ;
- kənd təsərrüfatı məhsulları emal edən müəssisələrin büdcə vəsaitləri hesabına aldıqları meliorasiya və digər kənd təsərrüfatı təyinatlı obyektlərin dəyəri;
- vergi ödəyicisinin müxtəlif səviyyəli büdcələr qarşısında olan kreditor borclarının hökumətin qəranna əsasən silinmiş (azaldılmış) məbləği;

- dövlət və bələdiyyə təhsil müəssisələrinin əvəzsiz olaraq aldıqları avadanlıqların dəyəri;
- qiymətli kağızların bazar qiymətləri üzrə yenidən qiymətləndirilməsi zamanı alınmış müsbət fərq;
- qiymətli kağızların qiymətdən düşməməsinin təmin edilməsi üçün yaradılmış ehtiyatların bərpasına yönəldilmiş məbləğ.

Qeyri-kommersiya müəssisələrinin saxlanması və onlar tərəfindən nizamnamə fəaliyyətinin həyata keçirilməsi üçün digər hüquqi və fiziki şəxslərdən daxil olmuş və öz təyinatları üzrə istifadə olunmuş məqsədli daxilolmalar həmçinin vergi- tutma bazasına daxil edilmir (aksizli mallar şəklində həyata keçirilən məqsədli daxilolmalar istisna olmaqla). Qeyri-kommersiya müəssisələrinin saxlanması və onlar tərəfindən nizamnamə fəaliyyətinin həyata keçirilməsi üçün daxil olan məqsədli daxilolmalara həmçinin aşağıdakılar aid edilir:

- üzvülük haqqları, peşəkar birliklərə ayırmalar;
- məcburi üzvülük prinsipləri əsasında daxil olmuş pay qoyuluşlan;
- varislik qaydasında vəsiyyətnamə əsasında qeyri-kommersiya müəssisəsinə verilmiş əmlak;
- qeyri-kommersiya müəssisələrinin nizamnamə fəaliyyətinin həyata keçirilməsi üçün dövlət büdcəsindən və digər fondlardan daxil olan vəsaitlər;
- xeyriyyə fəaliyyəti çərçivəsində alınmış vəsaitlər;
- qeyri-dövlət pensiya fondu təsisçilərinin qoyuluşları;
- qeyri- dövlət pensiya fonduna ödənilən sığorta ödəmələri (əgər onlar tam həcmdə qeyri- dövlət pensiya fondunun pensiya ehtiyatlarının formalaşmasına yönəldilmişdirsə);
- müəssisənin təsisçiləri tərəfindən daxil olmuş və öz təyinatı üzrə istifadə olunmuş vəsaitlər;
- vəkillər kollegiyasının saxlanması üçün ayırmalar;
- sosial-mədəni tədbirlərin həyata keçirilməsi üçün həmkarlar təşkilatına daxil olmuş vəsaitlər.

Qeyd etmək lazımdır ki, müəssisələr yuxanda sadaladığımız məqsədli daxilolmalar və bu vəsaitlər hesabına həyata keçirilmiş xərclərin uçotunu aynca aparmalıdır.

2.10. Vergitutulan gəlirdən çıxılan xərclərin tərkibi və qruplaşdınıması

2.10.1. Xərclərin iqtisadi mahiyyəti və qruplaşdınıması

İndiki bazar iqtisadiyyatı şəraitində kommersiya fəaliyyəti ilə məşğul olan istənilən təsərrüfat subyekti elə idarəetmə qərarları qəbul etməyə çalışır ki, maliyyə-təsərrüfat fəaliyyətinin sonunda maksimum mənfəət əldə edilmiş olsun. Mənfəət əsasən müəssisənin satdığı məhsulun qiymətindən, deməli onun istehsalı və satışına çəkilən məsrəflərdən asılıdır.

Məhsulun maya dəyərini formalaşdıran məsrəflər sərf olunan əmək və material resurslarının həcmindən, texnikanın səviyyəsindən, istehsalın təşkilindən və digər amillərdən asılı olaraq arta və ya azala bilər. Deməli, istehsalçı müəssisələr

məsrəfləri aşağı salmaq üçün çoxsaylı rıçaqlara malikdir və bacarıqlı rəhbərlik sayəsində onlardan səmərəli istifadə edə bilərlər.

İqtisadi ədəbiyyat və normativ sənədlərdə "xərclər", "məsrəflər" kimi terminlərdən istifadə olunur. Bu anlayışların düzgün müəyyən edilməməsi onların iqtisadi mənasını təhrif edə bilər. Bu terminlərin mahiyyəti ilə diqqətlə tanışlıq belə bir nəticə çıxarmağa əsas verir ki, onlar eyni məna kəsb edir - müəyyən əməliyyatların həyata keçirilməsi ilə bağlı müəssisənin çəkdiyi məsrəflər.

"Xərclər" terminindən bir qayda olaraq iqtisadi nəzəriyyədə istifadə olunur və müəssisənin müəyyən əməliyyatın yerinə yetirilməsi ilə bağlı itkilərinin məbləğ ifadəsidir. Vergi ödəyicisinin həyata keçirdiyi əsaslandırılmış (pul formasında ifadə olunan və iqtisadi,cəhətdən özünü doğruldan məsrəflər) və sənədlərlə təsdiqlənən məsrəfləri (zərərləri) onun xərcləri, faktiki çəkdiyi xərcləri isə məsrəfləri kimi qəbul edilir.

Əsaslandırılmış xərclər dedikdə, pul formasında ifadə olunan və iqtisadi cəhətdən özünü doğruldan, sənədlərlə təsdiq edilmiş xərclər dedikdə isə müvafiq qanunvericiliyə uyğun olaraq rəsmiləşdirilmiş məsrəflər nəzərdə tutulur. İstənilən məsrəf bir şərtlə xərc kimi qəbul edilir ki, onlar gəlirlərin əldə edilməsinə yönəldilmiş təsərrüfat-kommersiya fəaliyyətinin həyata keçirilməsinə sərf edilsin.

Aktivlərin (pul vəsaitlərinin, digər əmlakın) çıxması və müəssisə kapitalının azalmasına səbəb olan öhdəliklərin yaranması (müəssisə mülkiyyətçiləri və iştirakçılarının qərarına əsasən maliyyə qoyuluşlarının azalması istisna olmaqla) müəssisənin xərcləri kimi qiymətləndirilir.

Aşağıda göstərilən hallarda aktivlərin çıxması (ödənişi) xərclər kimi qəbul .edilmir:

ii dövriyyədənkənar aktivlərin alınması (yaradılması) ilə əlaqədar (əsas vəsaitlərin başa çatmamış tikintinin, qeyri-maddi aktivlərin və s.,);

S3 digər müəssisələrin nizamnamə (yığım) kapitalına qoyuluşlar, satılmamaq (yenidən satılmaq) məqsədilə səhmdar cəmiyyətlərin səhmlərinin və digər qiymətli kağızların alınması;

K komissiya, agent və digər analoji müqavilələr üzrə komitentin xeyrinə verilməsi;

K material-istehsal ehtiyatları, işlər, xidmətlər və digər qiymətlilərin əvvəlcədən ödəniş qaydasında verilməsi;

£3 material-istehsal ehtiyatları, işlər, xidmətlər və digər qiymətlilərin dəyərinin avans və beh kimi verilməsi;

£3 müəssisənin aldığı borcun (kreditin) ödənilməsi.

Xərclərin mühasibat uçotunda qəbul edilməsi öçun lazımi şərtlər

-n xərc konkret müqaviləyə, qanunverici və normativ aktların tələblərinə və işgüzar gövriyyənin ənənələrinə müvafiq oİaraq çəkilir;

_n xərcin məbləğin müəyyən etmək mümkündür;

_ü konkret əməliyyat nəticəsində müəssisənin iqtisadi gəlirinin azalmasına əmin olmaq.

Sxem 1: Xərclərin qəbul edilməsi üçün lazım olan şərtlər

Əgər istənilən xərcə münasibətdə yuxarıda 1 salı sxemdə göstərilən şərtlərdən biri yerinə yetirilməzsə, onda müəssisənin mühasibat uçotunda onlar debitor borcları kimi uçota almır.

Qeyd etmək lazımdır ki, burada yalnız amortizasiya ayırmaları istisna təşkil edir. Amortizasiya olunan aktivlərin faydalı istifadə olunma müddətinə və müəssisədə qəbul edilmiş amortizasiyanın hesablanması üsuluna əsasən müəyyən edilmiş amortizasiya ayırmalarının həcmi mühasibat uçotunda xərclər kimi qəbul olunur.

Aşağıda göstərilən hallarda xərclər mühasibat uçotunda qəbul olunmalıdır:

H satış pulu (əməliyyat və ya digər gəlirlər) almaq niyyətindən asılı olmayaraq;

K xərclərin çəkilmə formasından (pul, natural) asılı olmayaraq;

ss pul vəsaitləri və digər ödəniş formalarının faktiki ödənilmə vaxtından asılı olmayaraq (onlann həyata keçirildiyi hesabat dövründə).

Əgər müəssisədə icarə verilmiş hallarda məhsulların (malların) satışından olan gəlirlərin daşınmış məhsullara, buraxılmış mallara, yerinə yetirilmiş işlərə və göstərilmiş xidmətlərə görə mülkiyyət, istifadə etmək və sərəncam vermək hüququ verildikcə deyil, onlara görə pul vəsaitləri və digər ödəniş forması daxil olduqdan sonra müəyyən edilməsi qaydası qəbul edilmişsə, onda xərclər debitor borcları ödənildikdən sonra çəkilmiş hesab olunur.

Lakin vergitutma məqsədləri üçün məhsulların (işlərin, xidmətlərin) satışından olan gəlirləri kassa metodu üzrə ("ödəmə üzrə") müəyyən edən müəssisələrdə (kiçik müəssisələr istisna olmaqla), xərclərin debitor borclarının ödənişindən sonra qəbul edilməsi variantı tətbiq olunmur.

Bununla yanaşı, uçotda istehsal məsrəfləri, istehsalın saxlanması və idarə edilməsi üzrə xərclərin vahid nomenklaturası, kalkulyasiya obyekti və kalkulyasiya vahidinin kompleks məsrəf maddələrinin qruplaşdın İması və bölüşdürülməsi, eləcə də məhsul vahidinin kalkulyasiya edilməsi prinsipləri təmin olunmalıdır.

Xərclər xammal, material və xidmətlərdən istifadə olunması faktını göstərir. Xərclər dedikdə təsərrüfat fəaliyyəti prosesində müəssisə vəsaitlərinin azalması və borc öhdəliklərinin artması nəzərdə tutulur. Mənfəətin əldə edilməsinə yönəldilmiş təsərrüfat-kommersiya fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olan istənilən məsrəf xərc kimi dəyərləndirilir. Bəzi hallarda vergi ödəyicisinə dəymiş zərərlər həmçinin onun xərcləri kimi qəbul olunur. İstənilən məsrəf bir şərtlə xərclər kimi qəbul edilir ki, onlar gəlirin əldə edilməsinə yönəldilmiş maliyyə-təsərrüfat fəaliyyətinin həyata keçirilməsinə çəkilmiş olsun.

Mövcud vergi qanunvericiliyinə uyğun olaraq müəssisənin mənfəəti vergiyə cəlb olunur. Deməli mənfəət məbləği no qədər çox olarsa müəssisələr tərəfindən büdcəyə ödəniləcək vergi məbləği do çox olacaq. Mənfəət məbləği isə istehsal məsrəflərinin səviyyəsindən çox asılıdır. Bu səbəbdən məhsulun maya dəyərinə daxil edilən xərclərin tərkib və səviyyəsi dövlət tərəfindən reqlamentləşdirilir. Deməli, istehsal məsrəflərinin necə uçota alındığını və maya dəyərinin necə müəyyən edildiyini öyrənməmişdən əvvəl, hansı xərclərin məhsulun maya dəyərinə daxil edildiyini müəyyən etmək lazımdır.

Ona görə istənilən mühasib məhsulun maya dəyərinə daxil edilən məsrəflərin tərkibi haqqında qaydanı əsas götürərək, maya dəyərinin formalaşması prinsip

lərini və ona daxil edilən məsrəf növlərini mənimsəməklə məsrəflərin əsaslı uçotunu təşkil etməlidir.

Vergi Ödəyicisi olan istənilən hüquqi şəxs mənfəət vergisi üzrə vergitutma bazasını hesablamaq üçün əldə etdiyi gəlirlərini çəkilmiş xərclərin məbləği qədər azaldır. Məhsulun maya dəyərinin düzgün müəyyən edilməsi mənfəət vergisinin dəqiq hesablanması üçün mühüm amillərdən biri hesab olunur. Belə ki, məhsulun (işlərin, xidmətlərin) maya dəyəri artdıqca vergitutma bazası və müvafiq olaraq mənfəət vergisinin məbləği azalır. Digər tərəfdən müəssisə maya dəyərinin aşağı salınmasında maraqlı deyil, çünki bu halda büdcəyə ödəniləcək mənfəət vergisinin məbləği artır, müəssisənin sərəncamında qalan xalis mənfəət isə azalır. Bundan başqa, müəssisə amortizasiya ayırmalarını tam hesablamaya, təmirə çəkilən məsrəfləri azalda bilər ki, bu da əsas vəsaitlərin bütün növdən olan təmiri və tam bərpası üçün lazım olan vəsaitlərin çatışmamazlığına səbəb olacaq.

İstənilən müəssisə rentabclli olmağa çalışır. Bu isə sistematik olaraq istehsal xərclərinə nəzarət edilməsini tələb edir. Xərclərə nəzarət edilməsi üçün onların əmələgəlmə yerləri, məhsul növləri və bütövlükdə müəssisə üzrə məsrəflər haqqında informasiya lazımdır. Yalnız sözügedən məsələlərin ilkin həlli istehsal məsrəflərinin əsaslandınimış uçotunu təşkil etmək və istənilən müəssisədə real maliyyə nəticələrini aşkar etmək imkanı verir. Gündəlik idarəetmə ehtiyacları üçün lazım olan əsas informasiya məhz məsrəflərin uçotunda formalaşır. Ona görə məsrəflərin uçotu müəssisənin idarəetmə uçotu sistemində mərkəsi yer tutur.

Mövcud vergi qanunvericiliyinə uyğun olaraq müəssisənin mənfəəti vergiyə cəlb olunur. Deməli mənfəət məbləği nə qədər çox olarsa müəssisələr tərəfindən büdcəyə ödəniləcək vergi məbləği də çox olacaq. Mənfəət məbləği isə istehsal məsrəflərinin səviyyəsindən çox asılıdır. Bu səbəbdən məhsulun maya dəyərinə daxil edilən xərclərin tərkib və səviyyəsi dövlət tərəfindən reqlamentləşdirilir. İstehsal məsrəflərinin necə uçota alındığını və maya dəyərinin necə müəyyən edildiyini öyrənməmişdən əvvəl, hansı xərclərin məhsulun maya dəyərinə daxil edildiyini müəyyən etmək lazımdır. Ona görə istənilən mühasib məhsulun maya dəyərinə daxil edilən məsrəflərin tərkibi haqqında qaydanı əsas götürərək, maya dəyərinin formalaşması prinsiplərini və ona daxil edilən məsrəf növlərini mənimsəməklə məsrəflərin əsaslı uçotunu təşkil etməlidir.

2.10.2. **Məsrəflərin təsnifləşdirilməsi**

Məsrəflərin necə uçota alındığını və məhsulun maya dəyərinin müəyyən edildiyini nəzərdən keçirməzdən əvvəl, hansı xərclərin məhsulun maya dəyərinə daxil edildiyini bilmək lazımdır. Bununla yanaşı, mühasibat və vergi uçotlarının səmərəli təşkili üçün müəyyən əlamətlər üzrə məsrəflərin iqtisadi cəhətdən əsaslandırılmış təsnifatından istifadə etmək lazımdır. Bu yalnız məsrəflərin daha yaxşı planlaşdırmaq və uçota almaq deyil, həmçinin onları dəqiq təhlil etmək, eləcə də ayrı- ayrı məsrəf növləri arasındakı nisbətləri müəyyən etmək, onlann maya dəyərinə və istehsalın rentabellik səviyyəsinə təsir dərəcəsini hesablamaq imkanı verir.

Məsrəflərin istənilən təsnifləşdirilməsində əsas məqsəd müəssisə rəhbərinə düzgün, səmərəli və əsaslandırılmış qərarların qəbul edilməsində köməklik etməkdən ibarətdir. Çünki, menecer qərar qəbul edərkən bilməlidirjci, həmin məsrəflərin çəkilməsi müəssisə üçün nə ilə nəticələnə bilər. Ona'^görə məsrəflərin təsnifləşdirilməsində əsas məqsəd məsrəflərin müəssisə rəhbərinin təsir edə biləcək hissəsinin müəyyən edilməsidir.

Məsrəflərin təsnifləşdirilməsi xərclərin idarə edilməsinin inzibati və iqtisadi metodlarından istifadə etməyə imkan verir. İnzibati metodlarla əsassız xərclərin, oğurluq, sui-istifadə hallarının qarşısını almaq olar. Xərclərin idarə edilməsinin iqtisadi metodlarına isə büdcə və planlaşdırmanı misal göstərmək olar.

Məsrəflərin tərkibində əsas yeri məhsul istehsalı və satışına çəkilən xərclər tutur. Bu məsrəflər öz növbəsində məsrəflərin idarə edilməsi üçün lazım olan çoxsaylı təsnifləşdirici əlamətlərə malikdir. Maliyyəçilərin vəzifələrindən biri də məhz məsrəflərin idarə edilməsi üçün lazım olan təsnifatlann mənimsənilməsidir. Məsrəflərin təsnifləşdirilməsi ilk növbədə mühasibat (idarəetmə) uçotunun təşkil edilməsi, operativ təhlil və maliyyə planlaşdıniması üçün lazımdır.

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə idarəetmə uçotunun təşkili praktikası məsrəflərin müəyyən edilməsr məqsədindən və uçotu istiqamətindən asılı olaraq məsrəflərin müxtəlif təsnifat variantlannı nəzərdə tutur.

İdarəetmə qərarlannın qəbul edilməsi üçün hər şeydən əvvəl məsrəflərin aşkar və alternativ olaraq iki yerə bölünməsi mühüm əhəmiyyət kəsb edir. İstehsalat və kommersiya fəaliyyətinin yerinə yetirilməsi zamanı müəssisə tərəfindən çəkilməsi nəzərdə tutulan xərclər real, bir maldan digər malın xeyrinə imtina edilməsi ilə şərtləndirilənlər isə alternativ məsrəflər adlanır.

Qəbul edilən qərarların xüsusiyyətindən asılı olaraq məsrəflərin relevant (əsaslı, əhəmiyyətli) və qeyri-relevant olaraq qruplaşdıniması məqsədəuyğundur. Nəzərdən keçirilən idarəetmə qərarından asılı olan məsrəflər relevant adlanır. Qeyri-relevant məsrəflərə keçmiş dövrlərin xərclərini aid etmək olar, çünki artıq onlara heç bir idarəetmə qərarı ilə təsir etmək mümkün deyil. İtirilmiş xeyir (alternativ məsrəflər) həmçinin qeyri-relevant məsrəflərə aid edilir.

Məsrəflərin səmərəli və səmərəsiz kimi qruplaşdıniması qəbul edilmiş qərarların nəticələrinə əhəmiyyətli dərəcədə təsir edə bilər.

Satışından gəlir əldə edilən məhsul növlərinin istehsalına çəkilən məhsuldar xərclər səmərəli məsrəflər hesab olunur. Səmərəsiz məsrəflər qeyri-məhsuldar xərclərdən ibarətdir, yəni onların çəkilməsinə baxmayaraq məhsul istehsalı baş tut-mamağı səbəbindən gəlir əldə edilmir. Səmərəsiz məsrəflər əsasən istehsalatda olan itkilərdən (zay məhsuldan, boş dayanmadan və mal-material qiymətlilərinin xarab olmasından olan itkilər) formalaşır.

Əgər qəbul edilən qərarlar bilavasitə planlaşdırma prosesi ilə əlaqədar deyilsə, onda onların həyata keçirilməsi mümkün deyil. Çünki, istehsalat və kommersiya fəaliyyətinin yerinə yetirilməsi ilə əlaqədar nəzərdə tutulmuş məsrəflər, onların planla əhatə olunması baxımından məhz planlaşdırma prosesində nəzərdən keçirilir. Bu məqsədlə müəssisəni iki yerə ayırmaq lazundır: planlaşdırılan və planlaşdırılmayan.

Planlaşdırılan məsrəflar - müəssisənin təsərrüfat fəaliyyəti ilə əsaslandırılan və istehsal məsrəflərinin smetasında nəzərdə tutulan məhsuldar xərclərdir. Onlar müəyyən edilmiş norma, normativ, limit və smetalara uyğun olaraq məhsulun plan maya dəyərinə daxil edilir.

Planlaşdınlmayan məsrəflər - müəssisənin normal təsərrüfat fəaliyyətindən irəli gələn və qaçılmaz olan qeyri-məhsuldar xərclərdən (zay məhsuldan, boş dayanmadan və mal-material qiymətlilərinin xarab olmasından olan itkilər) ibarətdir. Bu xərclər birbaşa itki hesab olunduğundan istehsala çəkilən məsrəflərin smetasına daxil edilmir və yalnız əmtəəlik məhsulun faktiki maya dəyərində əks etdirilir.

Tərkibinə görə məsrəflər birelementli və kompleks olmaqla iki yerə ayrılır. Yalnız bir elementdən (materiallar, əmək haqqı, amortizasiya və s.) ibarət olan məsrəflər birelementli adlanır. Onlar əmələgəlmə yerindən və məqsədli təyinatından asılı olaraq müxtəlif komponentlərə bölünmür.

Kompleks məsrəflər bir neçə elementdən (məsələn, tərkibinə müvafiq heyətin əmək haqqı və binanın amortizasiyası da daxil olan ümumistehsalat və ümumtə- sərrüfat xərcləri) ibarət olur.

İqtisadi məzmununa görə məsrəflər iqtisadi elementlər və kalkulyasiya maddələri üzrə təsnifləşdirilir.

Məhsul istehsalı və satışma çəkilən eyni növdən olan və tərkib hissələrinə aynimayan məsrəflər xərc elementləri adlanır. Məhsulların maya dəyərinə daxil edilən məsrəflərin tərkibi haqqında qaydaya uyğun olaraq bütün müəssisələr üçün aşağıdakı vahid xərc elementləri müəyyən edilmişdir:

I'] material məsrəfləri;

S3 əməyin ödənişi üzrə məsrəflər;

K sosial ehtiyaclara ayırmalar;

H amortizasiya ayırmaları;

ss sair məsrəflər.

Məsrəflərin elementlər üzrə qruplaşdırılması, onların əmələgəlmə yerindən və konkret olaraq hansı məmulatın istehsalına sərf olunmasından asılı olmayaraq, müəyyən dövr ərzində bütövlükdə müəssisə də bu və ya digər məsrəf növü üzrə çəkilən xərcləri müəyyən etmək imkanı verir.

Lakin iqtisadi elementlər üzrə məsrəflərin təsnifləşdirilməsi ayrı-ayrı məhsul növlərinin maya dəyərini hesablamağa, müəssisənin konkret struktur bölməsində məsrəflərin həcmini müəyyən etməyə imkan vermir.

Bu problemin həll edilməsi üçün məsrəflərin kalkulyasiya maddələri üzrə təsnifatından istifadə olunur. Məsrəflərin bu qaydada təsnifatı xərclərin təyinatı və onların rolunu müəyyən və onlar üzərində nəzarət etmək, həm bütövlükdə müəssisə, həm də onun struktur bölmələri üzrə keyfiy>'ət göstəricilərini aşkar etmək, istehsal xərclərinin aşağı salınmasının hansı istiqamətlər üzrə aparılmasını müəyyən etmək imkanı verir.

Hal-hazırda aşağıdakı kalkulyasiya maddələri müəyyənləşdirilmişdir:

1. Xammal və materiallar
2. Geri qaj'tarılan tullantılar (çıxılır)

3. Satın alınmış yarımfabrikatlar
4. İstehsalat fəhlələrinin əsas əmək haqqı
5. İstehsalat fəhlələrinin əlavə əmək haqqı
6. Sosial ehtiyaclara ayırmalar
7. İstehsalın hazırlanması və mənimsənilməsinə çəkilən xərclər
8. Ümumistehsalat xərcləri
9. Ümumtəsərrüfat xərcləri
10. Zay məhsuldan olan itkilər
11. Sair istehsalat xərcləri
12. Kommersiya (istehsalatdankənar) xərcləri

Müəssisələr öz fəaliyyət xüsusiyyətlərinə uyğunlaşdırmaq məqsədilə məsrəflərin sahəvi nomenklaturasına dəyişikliklər edə bilərlər. Bir şərtlə ki, tətbiq edilən məsrəf maddələri məhsulun maya dəyərinin quruluşunu aydın əks etdirsin və hər bir məsrəf maddəsinin reallığını yoxlamaq imkanı versin.

Bu qruplaşdırmaya əsasən istehsal məsrəflərinin analitik uçotu qurulur, ayrı- ayrı məhsul növlərinin plan və faktiki kalkulyasiyası tərtib edilir.

Təyinatından asılı olaraq istehsal məsrəfləri əsas (texnoloji) və əlavə (istehsal və idarəetməyə xidmət üzrə x&rclər) olmaqla iki yerə bölünür.

İstehsalın həcminə münasibətdə məsrəfləri iki yerə aynlır: daimi və dəyişən. İstehsalın həcminin dəyişməsindən asılı olaraq dəyişməyən və ya cüzi dəyişən məsrəflər (ümumtəsərrüfat xərcləri) daimi, dəyişənlər isə dəyişən məsrəflər (xammal və materiallar, texnoloji məqsədlər üçün yanacaq və eneıji, istehsal fəhlələrinin əmək haqqı) adlanır.

Məsrəflərin maya dəyərinə aid edilməsi üsulu idarəetmə uçotu üçün xüsusi əhəmiyyət kəsb edir. Müəssisənin məsrəfləri bu əlamət üzrə müstəqim (birbaşa) və qeyri-müstəqim (dolayı) olmaqla iki yerə bölünür.

Konkret məhsul növünün istehsalı üzrə xərclər müstəqim adlanır. Onlar müstəqil kalkulyasiya maddəsi olduğu üçün ilkin uçot sənədlərinə əsasən birbaşa məmulat vahidinin maya dəyərinə daxil edilir. Xammal, material, istehsalat fəhlələrinin əmək haqqı üzrə məsrəflər müstəqim xərclərə aid edilir.

Yaranma anında konkret məmulatın maya dəyərinə aid edilməsi mümkün olmayan məsrəflər isə qeyri-müstəqim xərclər adlanır. Qeyri-müstəqim xərclər bir neçə məhsul növünün istehsalı ilə bağlı olan məsrəflərdir (məsələn, istehsala xidmət və onun idarə edilməsi üzrə məsrəflər). Bu xərclər əvvəlcə ayrı-ayrı hesablarda toplanır və sonra isə seçilmiş bazaya (məsələn, işçilərin əsas əmək haqqına və ya birbaşa material məsrəflərinə) mütənasib olaraq bölüşdürülərək (xüsusi hesablamalarının köməkliyi ilə) konkret məmulatın maya dəyərinə daxil edilir.

Məsələn, ümumistehsalat və ümumtəsərrüfat xərcləri əvvəlcə onlann əmələgəlmə yerləri və yalnız bundan sonra ayın sonunda ayrı-ayrı kalkulyasiya maddələrində əks olunmaqla məhsul növləri üzrə uçota alınırl. Bu zaman qeyri-müstəqim xərclər hər hansı bölüşdürmə bazasına (məsələn, əsas istehsalat fəhlələrinin əmək haqqı və ya müstəqim xərclər) mütənasib olaraq konkret məhsul (iş, xidmət) növünün maya dəyərinə daxil edilir.



Şəkil 18. Məsrəflərin təsnifləşdirilməsinin sxemi

Birbaşa (müstəqim) xərclər məhsulun istehsalat maya dəyərini formalaşdırır və hazır məhsul və bitməmiş istehsalat qalığı arasında bölüşdürülür. Dolayı (qeyri-müstəqim) xərclər isə məhsulların maya dəyərinə hesabat dövrünün sonunda daxil edilir. Nəzərə almaq lazımdır ki, məhsul vahidinin maya dəyərinin uçota alınması qaydası göstərilməmişdir. Bu səbəbdən verilmiş təsnifatdan maliyyə planlaşdırılması və müəssisənin idarə edilməsi məqsədləri üçün istifadə etmək olmaz. Onlardan yalnız mənfəət vergisi üzrə vergi bazasının hesablanması üçün istifadə etmək olar.

Xərclər onların xarakterindən, həyata keçirilməsi şərtindən və müəssisə fəaliyyətinin istiqamətindən asılı olaraq (gəlirlərdə olduğu kimi) aşağıdakı əlamətlər üzrə qruplaşdırılır:

- ❖ kommersiya fəaliyyəti, yəni mənfəətin əldə edilməsi ilə bağlı olan xərclər (istehsalı və satış ilə bağlı olan xərclər);
- ❖ kommersiya fəaliyyəti ilə bağlı olmayan satışdankənar xərclər;
- ❖ müəssisə məsrəflərini formalaşdırmayan (vergitutulan gəlirdən çıxılmayan) xərclər.

Uçot əlamətinə görə məsrəflər aşağıdakı kimi təsnifləşdirilir:

- ■ adi fəaliyyət növləri üzrə xərclər;
- ■ əməliyyat xərcləri;
- ■ satışdankənar xərclər.

İstehsal proseslərinin idarə edilməsi ilə bağlı məsrəflərə (üstəlik xərclərə) aşağıdakılar daxil edilir:

- ❖ inzibati-idarəetmə xərcləri;

SÇ icarə haqqı;

-Ä ezamiyyə xərcləri;

ss xidməti avtomaşınların saxlanması üzrə xərclər;

« köməkçi istehsalat sexlərinin xərcləri və s.

İstehsal prosesində istifadə olunan dövriyyədənkənar aktivlərin dəyəri (əsas vəsaitlərin və qeyri-maddi aktivlərin dəyəri) məsrəflərə amortizasiya mexanizmi vasitəsilə keçirilir.

Əgər vergi ödəyicisi bəzi məsrəfləri bərabər əsaslarla eyni zamanda bir neçə xərc qrupuna aid edə bilərsə, onda həmin xərclərin hansı qrupa aid edilməsini ödə- yici müstəqil həll edir.

Vergi ödəyicisinin dəyəri xarici valyuta və ya şərti vahidlə ifadə olunmuş xərcləri, dəyəri manatla ifadə olunmuş xərclərlə birgə uçota alınır. Xarici valyuta xərclərinin manata çevrilməsi ödoyici tərəfindən uçot siyasətində seçilmiş metoddan (kassa və ya hesablama) asılı olaraq həyata keçirilir.

2.10.3. Müəssisənin kommersiya fəaliyyəti ilə bağlı olan xərcləri

Məlumdur ki, hər bir müəssisə rentabelli olmağa çalışır, çünki bunu indiki bazar iqtisadiyyatı şəraitindəki rəqabət tələb edir. Bu isə istehsal xərclərinə sistematik nəzarət edilməsini tələb edir. İstehsal xərclərinə nəzarət etmək üçün isə istifadə olunma yerləri, məhsul növləri və bütövlükdə müəssisə üzrə məsrəflər haqqında lazımı informasiyaya malik olmaq lazımdır. Qeyd etmək lazımdır ki, gündəlik

idarəetmə ehtiyacları üçün lazım olan informasiya məhz məsrəflərin uçotunda formalaşır. Məhz bu səbəbdən müəssisənin idarəetmə uçotu sistemində məsrəflərin uçotu mərkəzi yeri tutur.

Təsərrüfat-kommersiya fəali>7əti göstərən istənilən hüquqi şəxsin əsas məqsədi mənfəət əldə etməkdir. Mənfəət əldə etmək üçün isə həmin təsərrüfat subyektləri öz nizamnamə fəaliyyətləri ilə məşğul olurlar. Başqa sözlə məhsul istehsal edir, işlər görür və xidmətlər göstərirlər. Məhsul istehsalı və satışına müəssisənin konkret növ resurs və vəsaitləri sərf olunur. İstehsala çəkilən hər bir məsrəf növü iqtisadi elementdir və onların hər biri ayrıca və ya elementlər qrupu üzrə uçota alına bilər.

İstənilən müəssisənin öz nizamnamə fəaliyyətinin həyata keçirilməsi üçün çəkdiyi məsrəflər arasında istehsal və satışla, yəni kommersiya fəaliyyəti ilə bağlı olan xərclər əsas yer tutur. Məhsul istehsalı (işlərin görülməsi, xidmətlərin göstərilməsi) prosesində istifadə edilməsi üçün istifadə edilmiş material ehtiyatlarının dəyəri (material məsrəfləri), əməyin ödənişi üzrə məsrəflər, istehsal proseslərinin idarə edilməsi ilə əlaqədar xərclər, istehsal prosesində istifadə olunmuş dövriyyədən- kənar aktivlərin (əsas vəsaitlərin, qeyri-maddi aktivlərin) dəyəri kommersiya fəaliyyəti ilə bağlı olan xərclərə aid edilir.

Mənfəət vergisi üzrə vergitutma bazasının hesablanması üçün vergi ödəyicisi əldə etdiyi gəlirlərini çəkilmiş xərclərin məbləği qədər azaldır. Yəni vergitutma bazasının hesablanması üçün vergi ödəyicisi alınmış gəlirlərini çəkilmiş xərclərin məbləği qədər azaldır. Bu xərclərin tərkibində əsas yeri müəssisənin kommersiya fəali>'yətinin ə.sas məqsədini təşkil edən məhsul istehsalı və satışına çəkilən məsrəflər tutur. Məhsul istehsalı və satışına çəkilən məsrəflər bir sıra təsnifləşdirici əlamətlərə malikdir.

Lakin qeyd etmək lazımdır ki, müəssisənin bütün faktiki məsrəfləri məhsulun maya dəyərinə daxil edilə bilməz. Maya dəyərinə yalnız bilavasitə məhsul istehsalı və satışı ilə bağlı olan məsrəflər daxil edilə bilər. Məhz bu səbəbdən məhsulun maya dəyərinə daxil edilən məsrəflər dövlət tərəfindən tənzimlənir. Bu səbəbdən mühasib hər bir xərc elementinə hansı məsrəflərin aid edildiyini yaxşı bilməlidir.

Hal-hazırda müəssisənin kommersiya fəaliyyəti ilə bağlı olan və məhsulun maya dəyərinə daxil olan xərclər aşağıdakı elementlər üzrə qruplaşdırılır:

1. Material xərcləri
2. Əməyin ödənişi üzrə xərclər
3. Sosial ehtiyaclara ayırmalar
4. Amortizasiya ayırmaları
5. Sair xərclər

Yuxanda göstərilən xərc elementləri bütün müəssisələr üçün məcburidir. Mənfəətin vergiyə cəlb edilməsi məqsədilə bakların, sığorta təşkilatlarının, qeyri-dövlət fondlarının, qiymətli kağızlar bazannın peşəkar iştirakçılannın, istehlak kooperasiyası təşkilatlannın və xarici təşkilatlann xərcləri xüsusi qaydada müəyyən edilir.

Konkret xərc elementlərinin tərkibi məsrəflərin tərkibi haqqında qayda ilə müəy>'ən edilir. Hər bir elementin eyni məzmunlu xərclərdən formalaşmasına baxmayaraq, onların tərkibinə daxil olan məsrəflərin siyahısı olduqca genişdir. İndi isə hər bir xərc elementinin əsas xüsusiyyətlərini nəzərdən keçirək.

“Material xərcləri” elementinin tərkibinə daxil olan material resurslarının əhatəsi olduqca genişdir və bu səbəbdən biz onlardan əsaslarını nəzərdən keçirməyə çalışacağıq.

Material xərclərinə daxil edilən məsrəflərə aşağıdakılar aid edilir:

- malların istehsalında (işlərin görülməsində, xidmətlərin göstərilməsində) istifadə olunan və onlann maya dəyərinin əsasını təşkil edən, yaxud onların istehsalı zamanı ən mühüm komponent olan xammal və materialların əldə edilməsinə çəkilən xərclər;

Bura həmçinin istehsal olunmuş və satılmaq üçün nəzərdə tutulmuş mallann qablaşdırılması və sair hazırlanması, eləcə də digər istehsalat və təsərrüfat ehtiyacları üçün (əsas vəsaitlərin sınaqdan keçirilməsi, saxlanması, istismarı üçün istifadə olunan ehtiyat hissələri və komplektləşdirici materiallar, yanacaq və bütün növdən olan enerji) istifadə olunan materialların əldə edilməsi üzrə məsrəflər daxildir;

- alətlərin, ləvazimatların, inventarların, cihazlann, laboratoriya avadanlıqlarının, xüsusi geyimlərin və amortizasiya olunmayan digər əmlakın əldə edilməsi üzrə məsrəflər;
- quraşdırılmaya məruz qalan komplektləşdirici məmulatların və ödəyicidə əlavə emal olunan yanmfabrikatların əldə edilməsi üzrə məsrəflər;
- texnoloji məqsədlərə, eneıji və istilik istehsalına, eləcə də enerjinin transformasiya edilməsinə və verilməsinə sərf edilən yanacaq, su və bütün növdən olan enerjinin əldə edilməsinə çəkilən məsrəflər;
- kənar təşkilatlar, eləcə də müəssisənin öz struktur bölmələri tərəfindən yerinə yetirilən istehsal xarakterli iş və xidmətlərin əldə edilməsinə (görülməsinə) çəkilən məsrəflər;
- əsas vəsaitlərin və təbiəti mühafizə xarakterli digər əmlakın saxlanması və istismarı ilə əlaqədar məsrəflər. Əsas vəsaitlərin saxlanması və istismarı üçün lazım olan materiallara aşağıdakılar aiddir: ehtiyat hissələri, avadanlığın təmiri üçün istifadə olunan komplektləşdirici materialla, yanacaq, bütün növdən olan eneıji (o cümlədən binanın qızdırılması üçün istifadə olunan). Vergitutma məqsədləri üçün material xərclərinin tərkibinə həmçinin aşağıdakılar daxil edilir:
- torpağın işlənməsinə və digər təbiəti mühafizə tədbirlərinin həyata keçirilməsinə çəkilən xərclər;
- mal-material qiymətlərinin saxlanması və daşınması zamanı təbii itki normasında onların xarab olması və çatışmamazlığından olan itkilər;
- istehsal və daşınma zamanı olan texnoloji itkilər;
- faydalı qazıntıların əldə edilməsi zamanı dağ-mədən işlərinin hazırlanmasına, yeraltı qazma işləri və daş karxanalarındakı istismar işləri üzrə çəkilən xərclər.

Material məsrəfləri müəyyən edilərkən istifadə olunmuş material resurslarının qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Material xərclərinə daxil edilən material resurslannn dəyəri onlann alış qiyməti (dolayı vergilər xaric) və aşağıdakı tərkib elementlərindən formalaşır:

> ticarət əlavəsi;

> vasitəçi təşkilatların komissiyon mükafatlandjFilması;
> idxal gömrük rüsum və yığımları;
> əmtəə birjaları xidmətlərinin (broker xidmətləri də daxil olmaqla) dəyəri;
> kommersiya xərcləri.

Xammal və materiallar istehsalata aşağıdakı qiymətləndirmə metodlarından biri ilə silinir (vergitutma məqsədləri üçün müəssisənin uçot siyasətində qəbul edilmiş metoda uyğun olaraq):

- ehtiyatlar vahidinin dəyəri üzrə qiymətləndirmə metodu;
- orta dəyər üzrə qiymətləndirmə metodu;
- əldə edilmə vaxtına görə birinci alınmış partiyanın dəyəri üzrə qiymətləndirmə metodu (FİFO);
- əldə edilmə vaxtına görə axırıncı alınmış partiyanın dəyəri üzrə qiymətləndirmə üsulu (LİFO).

Vergitutma məqsədləri üçün satışın müəyyən edilməsi məsələsi üzrə qeyd etmək lazımdır ki, mühasibat uçotunda tətbiq olunan "ödəniş üzrə" və "yükləmə üzrə" metodları Vergi Məcəlləsində müvafiq olaraq "kassa" və "hesablama" metodu ilə əvəz olunmuşdur.

Əgər vergi ödəyicisi əvvəllər bu metodlardan birini öz qərarına əsasən seçə bilirdisə, yeni qanunda bu və ya digər metodun hansı hallarda qəbul olunması, istifadə olunması dəqiq müəyyən edilmişdir. Beləliklə, hal-hazırda kassa metodu üzrə gəlirin alınma (xərclərin çəkilmə) tarixinin müəyyən edilməsi metodundan adətən kiçik sahibkarlıqla məşğul olan müəssisələr istifadə edir. Digər müəssisələr isə vergi öhdəliyinin optimallaşdırılması baxımından daha əlverişsiz olan hesablama metodunu tətbiq etməlidir.

Əgər ödəyici xammal, ehtiyat hissəsi, komplektləşdirici məmulatlar, yarım-fabrikat və digər material xərcləri kimi öz istehsal məhsullarından istifadə edərsə, eləcə də öz istehsalı olan iş və xidmətlərin nəticələrini material xərclərinin tərkibinə daxil edərsə, bu halda onlann qiymətləndirilməsi hazır məhsulların (işlərin, xidmətlərin) qiymətləndirilməsi qaydasına əsasən həyata keçirilir.

Hesabat dövrünün material məsrəflərinin məbləği istehsalata verilmiş, lakin ayın sonuna istifadə olunmamış mal-material qiymətlilərinin dəyəri qədər azaldılır. Material resurslarının qiymətləndirilməsi onların silinməsi zamanı tətbiq olunan qiymətləndirilmə sisteminə uyğun olmalıdır.

Bundan başqa, istehsal prosesində material resurslarından istifadə zamanı tullantılar əmələ gələ bilər. Mövcud qanunvericiliyə uyğun olaraq material resurslarına çəkilən məsrəflərdən geri qaytarılan tullantıların dəyəri çıxılır.

^^Əməyin ödənişi üzrə məsrəflər" elementinə həm ştatda olan əməkdaşlara, həm də mülki-hüquqi müqavilələr üzrə işlər yerinə yetirən işçilərə pul və ya natural formada hesablanmış istənilən ödəniş əməyin ödənişi üzrə xərclər daxil edilir. Qeyd etmək lazımdır ki, bütün növdən olan ödəniş hesablandığı andan bu xərc elementinə daxil edilir, onların faktiki ödənilməsi isə ikinci dərəcəli əhəmiyyətə malikdir.

Əməyin ödənişi üzrə məsrəflərə daxil edilən xərcləri ümumilikdə aşağıdakı kimi qruplaşdırmaq olar:

1. **Pul və natural formada işçilərə hesablanmış istənilən ödəmə:**

Ä tarif dərəcələri, vəzifə maaşları, işəmuzd taariflər və əməyin ödənişinin digər formaları üzrə hesablanmış məbləğlər;

* qanunvericilikdə nəzərdə tutulmuş məzuniyyət vaxtına görə işçilərə hesablanmış əmək haqqı üzrə xərclər;

« işçilərə pulsuz olaraq verilmiş və onların şəxsi istifadəsində qalan əşyaların (o cümlədən uniformaların) dəyəri (onların aşağı qiymətlər üzrə satışı ilə əlaqədar güzəştlərin məbləği).

2. **Stimullaşdıncı hesablama və əlavələr:**

istehsal nəticələrinə görə mükafatlar, peşəkar ustalığa görə və əməkdə əldə etdiyi yüksək nailiyyətlərə görə vəzifə maaşları və tarif dərəcələrinə əlavələr;

'4- əməyin ödənişinin regionlar və coğrafi mövqeyə görə tənzimlənməsi ilo şərtləndirilən əlavələr (o cümlədən rayon əmsalları və ağır təbii-iqlim şəraitində işlərə görə müəyyən edilmiş əmsallar üzrə hesablamalar;

4- qanunvericiliyə əsasən çoxillik xidmətə görə verilən birdəfəlik mükafatlar (iş stajına görə əlavələr).

3. **İş rejimi və əmək şəraiti ilə əlaqədar kompensasiya hesablamaları:**

s: qanunvericiliyə uyğun olaraq çətin, zərərli və xüsusilə zərərli əmək şəraitində, müəyyən edilmiş vaxtdan əlavə, eləcə də istirahət və bayram günləri, gecə vaxtı, çoxnövbəli iş rejimində işləməyə və əvəzçiliyə görə vəzifə maaşları və tarif dərəcələrinə edilmiş əlavələr;

B mövcud qanunvericiliyə uyğun olaraq bəzi işçi kateqoriyalarına əvəzsiz olaraq göstərilmiş kommunal xidmətləri, verilmiş qida və ərzaq məhsullarının dəyəri;

B əvəzsiz olaraq işçilərə verilən və onların daimi şəxsi istifadəsində qalan formalı geyimlərin dəyəri (yaxud onların aşağı qiymətlər üzrə satışı ilə əlaqədar verilmiş güzəşt məbləği);

a işçilər işdən çıxarkən onlara istifadə olunmamış məzuniyyət günlərinə görə ödənilən pul kompensasiyaları;

a ixtisasın artırılması və kadrların yenidən hazırlanması sistemi üzrə işdən ayrılmaq şərti ilə tədris müddətində olduqları dövr ərzində işçilərə hesablanmış əmək haqqı məbləği;

B müəssisənin yenidən təşkili və ya ləğv olunması ilə əlaqədar, işçilərin və ştatın ixtisar edilməsi ilə əlaqədar işçilərə verilən təzminatlar;

a mövcud qanunvericiliyə uyğun olaraq tədris məzuniyyəti dövründə işçiyə hesablanmış əmək haqqı;

a işəgötürənlərin işçilərin xeyrinə məcburi və könüllü sığortaya görə sığorta edənlərlə bağladığı müqavilələr üzrə həyata keçirdiyi ödənişlərin məbləği;

a müayinədən keçdiyi, qan verdiyi və istirahət etdiyi günlər ərzində işçilərə hesablanmış əmək haqqının məbləği;

3 iş vaxtı uşaqlann əmizdirilməsi üçün analara verilmiş fasilələrin ödənişi üzrə xərclər;

a qanunvericilikdə nəzərdə tutulmuş hallarda məcburi boşdayanmalara və ya

az ödənişli işlərin yerinə yetirilməsinə görə ödənişlər;

« mövcud qanunvericiliyə uyğun olaraq müvəqqəti əmək qabiliyyətini itirdiyi hallarda faktiki əmək haqqına qədər verilən əlavələr;

K dövlət və ictimai vəzifələri yerinə yetirildiyi dövr ərzində işçiyə hesablanmış orta əmək haqqı.

4. Mükafat və birdəfəlik həvəsləndirici hesablamalar;
5. İşçilərin saxlanması ilə bağlı əmək müqaviləsində nəzərdə tutulmuş xərclər:
   - mülki-hüquqi (o cümlədən podrat) müqavilələri üzrə ştatdankənar işçilərin yerinə yetirdikləri işlərə görə əməyin ödənişi üzrə xərclər (fərdi sahibkarlarla bağlanmış müqavilələr üzrə əməyin ödənişi istisna olmaqla);
6. Kollektiv müqavilədə nəzərdə tutulmuş işçilərin saxlanması ilə əlaqədar xərclər:
   - müəssisənin olduğu yerdən (toplanış məntəqəsindən) vaxtadakı iş qrafikində nəzərdə tutulmuş iş yerinə və geriyə qədər yolda olduğu günlərə görə, müqavilədə nəzərdə tutulmuş vəzifə maaşı (işlər vaxta metodu ilə yerinə yetirildikdə) və ya tarif dərəcəsi həcmində hesablanmış ödəniş məbləği.

Əməyin ödənişi üzrə xərclərə, həmçinin işəgötürənlərin işçilərin xeyrinə məcburi və könüllü sığortaya (qeyri-dövlət pensiya təminatı müqavilələri) görə sığorta edənlərlə (dövlət pensiya fondları) bağladığı müqavilələr üzrə həyata keçirdiyi ödənişlərin məbləği də daxil edilir. Həmin ödəniş məbləğləri əməyin ödənişi üzrə xərclərə tam deyil, müəyyən həddə daxil edilir.

Aşağıdakı ödənişlər (natural və pul formasında) məhsulun maya dəyərinə daxil edilmir:

- baş vermiş təbii fəlakət, əmlakın oğurlanması və dəfn ilə əlaqədar işçilərə verilmiş maddi yardımlar;
- təqaüdə çıxması ilə əlaqədar işçiyə verilən birdəfəlik müavinət;
- səhmlər üzrə gəlirlər (dividentlər), pay iştirakı üzrə ödəmələr;
- digər Ödəmələr.

"Sosial ehtiyaclara ayırmalar" elementinə qanunla müəyyən edilmiş normalar üzrə əməyin Ödənişinə çəkilən məbləğdən (sığorta ödəmələri hesablanmayan ödəniş növlərindən başqa) sosial sığorta orqanlarına hesablanmış məcburi ödəmələr daxil edilir.

Bu xərc elementində "Əməyin ödənişi üzrə xərclər" elementinə daxil olan əməyin ödənişi üzrə məsrəflərdən müəyyən edilmiş tarifə (22) əsasən büdcədənkənar fonda köçürülən sığorta ödəmələri əks olunur. Bundan başqa, büdcədənkənar fondlara hər bir işçilərin əmək haqqından 3% həcmində məcburi qaydada pensiya fonduna tutulan pul vəsaitləri köçürülür. İşçilərin əmək haqqından tutulan sığorta haqqı birincidən fərqli olaraq məhsulun maya dəyərinə daxil edilmir. Deməli, müəssisənin işçiləri özlərinin şəxsi vəsaitləri ilə pensiya fondunun formalaşmasında iştirak etməlidirlər.

"Amortizasiya ayırmaları" elementində istehsal fondlarının tam bərpası üçün hesablanmış amortizasiya ayırmalarının məbləği əks olunur. Amortizasiya ayırmaları amortizasiya olunan əmlaka görə hesablanılır. Vergi ödəyicisinin mül

kiyyətində olan və onlar tərəfindən gəlir əldə edilməsi üçün istifadə olunan əsas vəsaitlər və qeyri-maddi aktivlər amortizasiya olunan əmlak hesab olunur.

Əsas vəsaitlər - ilkin dəyəri 50O manatdan, faydalı jstifadə olunma (istismar) müddəti isə bir ildən yuxarı olan malların istelısalı (işlərin görülməsi, xidmətlərin göstərilməsi), yaxud müəssisənin idarə edilnfıəsində istifadə olunan və istismar müddəti ərzində öz dəyərini hissə-hissə istehsal olunan məhsulun üzərinə keçirən əmək vasitələridir.

Qeyri-maddi aktivlər - uzun müddət ərzində (bir ildən yuxan) məhsul istehsalı (işlərin görülməsi, xidmətlərin göstərilməsi), həmçinin idarəetmə ehtiyacları üçün istifadə edilən və gəlir gətirən vergi ödəyicisi tərəfindən əldə edilmiş (yaradılmış) intellektual fəaliyyətin nəticələrindən və digər intellektual mülkiyyət obyektlərindən ibarətdir. Bu aktivlər müəssisəyə iqtisadi səmərə gətirmək bacarığına malik olmalı, onlann mövcud olmasını təsdiq edən və yalnız müvafiq qaydada rə.smi- ləşdirilmiş sənədlər (patentlərin, şəhadətnamələrin, digər mühafizə sənədlərinin, patentin əldə edilməsi barədə müqavilənin, əmtəə nişanının) olduqdan sonra qeyri- maddi aktiv statusu alırlar.

Beləliklə, müəssisənin təsərrüfat-kommersiya fəaliyyətində uzun müddət istifadə edilən, ona gəlir əldə etmək imkanı verən, fiziki xassəsi olmayan, lakin müəyyən obyektlər üzərində istifadə hüququ və imtiyazlar verən mülkiyyət obyektləri qeyri-maddi aktivlər adlanır. Bir sözlə, qeyri-maddi aktivlərin məbləği özündə obyektlər üzərində istifadə hüququnu və imtiyazların dəyərini əks etdirir. Qeyri- maddi aktivlərə aiddir: torpaq sahəsindən və təbii ehtiyatlardan istifadə hüququ, patentlər, lisenziyalar, "nou-hau", proqram məhsulları, xüsusi imtiyaz hüquqları, təşkilat! xərclər, ticarət nişanı, əmtəə nişanı, broker yeri və s. Müsbət nəticə verməyən elmi-tədqiqat, smaq-layihə və texnoloji işlər qeyri-maddi aktivlərə aid edilmir.

Amortizasiya - sonradan kompensasiya edilməsi məqsədilə əsas istehsalat fondlarının köhnəldikcə öz dəyərini qismən istehsal olunan məhsulun (görülən işin, göstərilən xidmətin) üzərinə keçməsi və sonradan əsas fondların tam bərpası üçün pul vəsaitlərinin yığılması prosesidir.

Amortizasiya olunan əmlakın müəyyənedici əlamətləri bunlardır:

- müəssisənin (ödəyicinin) mülkiyyət hüququ;
- istifadə olunma xarakteri (gəlir əldə edilməsi);
- onun dəyərinin istehsal olunmuş malların (görülmüş işlərin, göstərilmiş xidmətlərin) dəyərinə keçirilməsi üsulu (amortizasiya ayırmaları hesablanması yolu ilə);
- onun natural-əşyavi formada olması.

Lakin bəzi hallarda, istisna olaraq bu əlamətlərə uyğun gəlməyən əmlak amortizasiya olunan əmlakın tərkibinə daxil edilir, uyğun gələnlər isə əksinə daxil edilmir. Məsələn, vergi ödəyicisi olan birgə müəssisələr onun əmlakının mülkiyyətçilərindən operativ idarəetmə və ya təsərrüfatın idarə edilməsi üçün aldığı amortizasiya olunan əmlak həmin bircə müəssisədə amortizasiya olunmur.

Beləlilklə, Vergi Məcəlləsinin 99-cu maddəsində müəyyən edilmiş sahibkarlıq və qeyri-sahibkarlıq fəaliyyətində istifadə edilən əsas vəsaitlər üa^ amortizasiya ayırmalan bu maddənin müddəalanna uyğun olaraq gəlirdən çıxılır.

Aşağıdakı amortizasiya olunan əmlak növlər? amortizasiyaya məruz qalmır:

- torpaq, eləcə də digər torpaqdan istifadə obyektləri (su, yerin təki, digər təbii resurslar), istehsal (mal) ehtiyatlan, mallar, başa çatmamış əsaslı tikinti obyektləri, qiymətli kağızlar, təcili sövdələşmənin maliyyə alətləri (forvard, lyuçers və opsion kontraktları);
- incəsənət əsərləri, nadir tarixi və memarlıq abidələri olan binalar, qurğular (tikililər);
- elmi-tədqiqat, tədris və təcrübə məqsədi üçün xüsusi kabinet və laboratoriyalarda istifadə edilən avadanlıqlar, eksponatlar, nümunələr, fəaliyyətdə olan və olmayan modellər, maketlər və digər əyani vəsaitlər;
- büdcə təşkilatlarının əmlakı;
- məqsədli daxilolmalar kimi alınmış və ya məqsədli daxilolma vəsaitləri hesabına əldə edilmiş və qeyri-kommersiya fəaliyyəti üçün istifadə olunan əmlak;
- məqsədli büdcə maliyyə vəsaitlərindən istifadə etməklə əldə edilmiş (yaradılmış) əmlak (özəlləşdirmə qaydasında əldə edilmiş əmlakdan başqa);
- xarici avadanlıq obyektləri (qurulmasına büdcə və ya analoji maliyyələşmə mənbələri cəlb olunmuş meşə və yol təsərrüfatı obyektləri);
- işçi mal-qaradan başqa bütün məhsuldar heyvanlar (damazlıq inəklər, camış- lar, madyanlar, dəvələr, marallar, donuzlar, qoyunlar, keçilər, döllük buğalar, kəllər, ayğırlar, nərlər, qabanlar, qoçlar, təkələr və bunlar kimi digər məhsuldar heyvanlar);
- heyvanxanalarda və digər analoji müəssisələrdə olan heyvanat aləminin eksponatları;
- istismar vaxtı çatmayan çoxillik əkililər;
- , • kitabxana fondları, kinofondlar (video, audio, foto), səhnə rckvizitləri, muzey eksponatları;
- tam amortizasiya olunmuş əsas vəsaitlər (istismara yararlı olduğu hallarda);
- konservasiya edilmiş əsas vəsaitlər;
- ümumi istifadədə olan avtomobil yolları;
- ümumi istifadədə olan parklardakı avadanlıqlar;
- istismara verilməmiş anbarda olan əsas vəsaitlər;
- məqsədli maliyyələşmə çərçivəsində daxil olmuş vəsaitlər hesabına əldə edilmiş (yaradılmış) əmlak;
- intellektual fəaliyyətin və digər intellektual mülkiyyət obyektlərinin nəticələrinə görə əldə edilmiş hüquqlar (əgər həmin hüquqların əldə edilməsi üzrə müqavilədə onun qüvvədə olduğu müddət ərzində ödəniş fasilələrlə həyata keçiriləcəksə).

Əvəzsiz istifadə müqaviləsi üzrə alınmış, müəssisə rəhbərinin qərarına əsasən 3 aydan yuxan müddətə konservasiyaya keçirilmiş, 12 aydan yuxarı müddətə rekonstruksiya və modemizə edilmiş əsas vəsaitlər həmçinin amortizasiya olunmuş əmlakın tərkibinə daxil edilmir.

Amortizasiya məbləğinin hesablanması üçün amortizasiya olunan əmlakın ilkin və qalıq dəyərlərinin müəyyən edilməsi həlledici amillərdən biridir. Çünki amortizasiya olunan əmlak ilkin dəyəri ilə uçota alınır.

İlkin dəyərin müəyyən edilməsi müxtəlif əmlak növləri üçün fərqli qaydada həyata keçirilir.

Əldə edilmiş əsas vəsaitlərin ilkin dəyəri - xərclərin tərkibində uçota alınan vergi məbləğləri istisna olmaqla onların əldə edilməsinə, qurulmasına, daşınmasına və onun istifadə üçün hazır (yararlı) vəziyyətə gətirilməsinə çəkilən xərclərin məbləğindən ibarətdir.

Öz istehsalı olan əsas vəsait obyektlərinin ilkin dəyəri - əsas vəsait obyektlərinin tikilməsinə (istehsalına) çəkilmiş faktiki xərclərdən ibarətdir.

Lizinq verənin əmlakın əldə edilməsinə, qurulmasına, gətirilməsinə, hazırlanmasına və istifadə üçün hazır (yararlı) vəziyyətə gətirilməsinə çəkdiyi xərclərin məbləği (vergi məbləğləri istisna olmaqla) - lizinq predmeti olan əmlakın ilkin dəyərini təşkil edir.

Əsas vəsaitlərin ilkin dəyəri həmin obyektlərin yenidən tikilməsi, yeni avadanlıqla təchiz edilməsi, rekonstruksiyası, modernləşdirilməsi, texniki cəhətdən yenidən silahlanması, qismən ləğv edilməsi nəticəsində dəyişə bilər. Bu halda onların yeni formalaşmış dəyəri bərpa dəyəri adlanır.

Əsas vəsaitlərin qalıq dəyəri, onların ilkin (bərpa) dəyəri və istismar dövrü ərzində hesablanmış amortizasiya məbləği arasındakı fərqdən ibarətdir.

Əldə edilmiş qeyri-maddi aktivlərin ilkin dəyəri - vergi məbləğləri istisna olmaqla, onların əldə edilməsinə və istifadə üçün yararlı vəziyyətə gətirilməsinə çəkilən faktiki xərclərin məbləğindən ibarətdir.

Müəssisənin özündə yaradılan qeyri-maddi aktivlərin ilkin dəyəri - vergi məbləğləri istisna olmaqla, onlann yaradılmasına çəkilən faktiki xərc məbləğlərindən (o cümlədən material xərcləri, əməyin ödənişi üzrə xərclər, kənar təşkilatların xidmətləri üzrə xərclər, patent və şəhadətnamələrin alınması ilə bağlı patent rüsumları) formalaşır.

Amortiz.asiya ayırmaları hər kateqoriyaya üçün müəyyən edilmiş amortizasiya normalarını həmin kateqoriyadan olan əsas vəsaitlərin təqvim ilinin sonuna olan qalıq dəyərinə vurmaqla müəyyən edilir. Binalar, tikililər və qurğular üzrə amortizasiya ayırmalan hər tikili üçün ayrıca hesablanılır.

Amortizasiya ayırmalarının hesablanması qaydası və əsas vəsaitlər üzrə gəlirdən çıxılan məbləğlər Vergi Məcəlləsinin 114-cü maddəsində müəyyən edilmişdir. Bu maddədə əsas vəsaitlərm kateqoriyalar üzrə aşağıdakı amortizasiya normaları müəyyən edilmişdir:

- bina, tikili və qurğular - 7 faizədək;
- hesablama texnikası maşın və avadanlıqlar - 25 faizədək;
- nəqliyyat vasitələri - 25 faizədək;
- iş heyvanları - 20 faizədək;
- geoloji-kəşfiyyat və təbii ehtiyatların hasilatına hazırlıq işlərinə çəkilən xərclər-25 faizədək;
- qeyri-maddi aktivlər:

- istifadə müddəti məlum olmayanlar üçün - 10 faizədək;
- istifadə müddəti məlum olanlar üçün isə - illər üzrə istifadə müddətinə mütənasib olaraq;
- digər əsas vəsaitlər - 20 faizədək.

Hər hansı kateqoriyaya aid olan əsas vəsaitlər üzrə təqvim (vergi) ili üçün müəyyən edilmiş amortizasiya normalarından aşağı norma tətbiq olunduğu hallarda, bunun nəticəsində yaranmış fərq məbləği növbəti təqvim ilində gəlirdən çıxılan amortizasiya məbləğinə aid edilir.

Əsas vəsaitlərin kateqoriyaları üzrə amortizasiya ayırmaları Vergi Məcəlləsinin 114.3-cü maddəsi ilə hər kateqoriyaya aid olan əsas vəsaitlər üçün müəyyənləşdirilmiş amortizasiya normasını həmin kateqoriyaya aid əsas vəsaitlərin vergi ilinin sonuna qalıq dəyərinə tətbiq etməklə hesablanır.

Amortizasiya hesablanması məqsədləri üçün əsas vəsaitlər (vəsait) üzrə vergi ilinin sonuna qalıq dəyəri aşağıdakı qaydada müəyyənləşdirilən (lakin sıfırdan aşağı olmayan) məbləğdən ibarət olur. Əsas vəsaitlərin (vəsaitin) əvvəlki ilin sonuna qalıq dəyərinə (həmin il üçün hesablanmış amortizasiya məbləği çıxıldıqdan sonra qalan dəyər) Vergi Məcəlləsinin 143-cü maddəsinə uyğun olaraq cari ildə daxil olmuş əsas vəsaitlərin (vəsaitin) dəyəri, habelə cari ildə Vergi Məcəlləsinin 115- ci maddəsinə əsasən müəyyən edilən təmir xərclərinin məhdudlaşdırmadan artıq olan hissəsi əlavə edilir, vergi ilində təqdim edilmiş, ləğv edilmiş və ya qalıq dəyəri 500 manatdan və ya ilkin dəyərin 5 faizindən az olduqda əsas vəsaitlərin qalıq dəyəri çıxılır. Əsas vəsaitlərin (vəsaitin) yenidən qiymətləndirilməsindən yaranan artım (yenidən qiymətləndirilmə nəticəsində yaranan müsbət fərq) amortizasiya he- -sablanması məqsədləri üçün əsas vəsaitlərin (vəsaitin) vergi ilinin sonuna qalıq dəyərinə əlavə olunmur.

Əgər əsas vəsaitlərin satışından əldə edilmiş vəsait onların qalıq dəyərindən çox olarsa, onda yaranmış fərq məbləği gəlirə daxil edilir, az olduqda isə gəlirdən çıxılır.

Binalar, tikililər və qurğular (bundan sonra tikililər) üçün amortizasiya ayır-malan hər tikili üzrə ayrılıqda aparılır.

İlin sonuna əsas vəsaitin qalıq dəyəri 500 manatdan və ya ilkin dəyərinin 5 faizindən az olduqda, qalıq dəyərinin məbləği gəlirdən çıxılır.

Əgər əsas vəsait obyektləri yeni avadanlıqla təchiz və ya rekonstruksiya edilərsə, modernizə olunarsa, texniki cəhətdən yenidən silahlandırılarsa, qismən ləğv edilərsə və digər analoji hallar baş verərsə, onda müvafiq olaraq onlann ilkin dəyəri dəyişir.

Bəzi hallarda amortizasiya məbləği amortizasiya olunan əmlakın faydalı istifadə olunma müddəti nəzərə alınmaqla hesablanır. Bu kriteriya konkret əmlakın bu və ya digər amortizasiya olunan qrupa aid edilməsinin əsasını təşkil edir. Bu halda, əsas vəsait və qeyri-maddi aktivlərin ödəyicinin (müəssisənin, təşkilatın, fərdi sahibkarın) təsərrüfat-kommersiya fəaliyyətini həyata keçirmək üçün xidmət etdiyi dövr onların faydalı istifadə olunma dövrü kimi qiymətləndirilir. Faydalı istifadə olunma dövrü müvafiq obyekt istismara verilərkən ödəyici tərəfindən müstəqil olaraq müəyyən edilir.

Qeyri-maddi aktivlərin səmərəli (faydalı) istifadə olunma müddəti patentin, şəhadətnamənin və qanunvericiliyə uyğun olaraq intellektual mülkiyyət obyektlərinin istifadə olunma müddətini məhdudlaşdıran digər sənədlər, eləcə də müvafiq müqavilələrlə şərtləndirilən faydalı istifadə olunma müddəti nəzərə alınmaqla müəyyənləşdirilir. Əgər qeyri-maddi aktivlərin səmərəli (faydalı) istifadə olunma müddətini müəyyən etmək mümkün deyilsə, onda amortizasiya normaları 10 il üçün hesablanılır (vergi ödəyicisinin fəaliyyət müddətindən çox olmamaq şərti ilə).

Fikrimizcə, faydalı istifadə müddətinə görə amortizasiya qruplarını aşağıdakı kimi təsnifləşdirmək olar:

- I qrup - faydalı istifadə müddəti 1-2 il olan əmlak;
- II qrup - faydalı istifadə müddəti 2-3 ildən yuxarı olan əmlak;
- III qrup - faydalı istifadə müddəti 3-5 il;
- IV qrup - faydalı istifadə müddəti 5-7 il;
- V qrup - faydalı istifadə müddəti 7-10 il;
- VI qrup-faydalı istifadə müddəti 10-15 il;
- VII qrup-faydalı istifadə müddəti 15-20 il;
- VIII qrup - faydalı istifadə müddəti 20-25 il;
- IX qrup - faydalı istifadə müddəti 25-30 il;
- X qrup - faydalı istifadə müddəti 30 ildən yuxarı olan əmlak.

Göstərilən qruplarda əks olunmayan əsas vəsaitlər üçün faydalı istifadə olunma müddəti vergi ödəyicisi tərəfindən texniki şərtlər və ya istehsalçı müəssisənin tövsiyələri üzrə müəyyən edilir.

Qeyd etmək lazımdır ki, amortizasiya olunan əmlak ilkin dəyəri üzrə uçota alınır.

Amortizasiya aşağıdakı metodlardan biri ilə hesablanır:

- ❖ xətti metod;
- ❖ qeyri-xətti metod.

İstismara verilmə müddətindən asılı olmayaraq VIII-X qruplara daxil olan binalara, ötürücü qurğulara, tikililərə münasibətdə yalnız xətti metod tətbiq edilir.

Vergi ödəyicisi tərəfindən seçilmiş metod təqvim (vergi) ili ərzində dəyişdirilə bilməz.

Amortizasiya məbləği hər ay hər bir obyekt üzrə ayrıca hesablanılır:

$$A = O\,i \times K, \qquad (5)$$

burada A - amortizasiya məbləği;

0, - obyektin ilkin (bərpa) dəyəri;

K - obyektin ilkin (bərpa) və ya qalıq dəyərinə görə amortizasiya norması (xətti metod zamanı).

Müvafiq obyekt üçün amortizasiya norması onun faydalı istifadə olunma müddəti nəzərə alınmaqla müəyyən edilir.

Xətti metod tətbiq edilərkən, aylıq amortizasiya məbləğini hesablamaq üçün obyektin ilkin (bərpa) dəyərini müvafiq obyektin amortizasiya normasına vurmaq lazımdır. Bu zaman hər bir obyekt üzrə amortizasiya norması aşağıdakı düstur üzrə müəyyən edilir:

$$K = 1/n \times 1O \quad (6)$$

burada n - obyektin aylarla ifadə olunan faydalı istifadə olunma müddətidir.

Qeyri-xətti metod zamanı isə aylıq amortizasiya məbləğini müəyyən etmək üçün obyektin qalıq dəyərini müvafiq obyektin amortizasiya normasına vurmaq lazımdır. Hər bir obyekt üzrə amortizasiya norması isə aşağıdakı düstur üzrə müəyyən edilir:

$$K = 2/n \times 100, \quad (7)$$

Bu zaman amortizasiya hesablanarkən, qalıq dəyəri ilkin dəyərin 20 faizinə çatdığı təqvim ayından sonrakı aydan başlayaraq, həmin obyekt üzrə amortizasiya aşağıdakı qaydada hesablanılır:

^ obyektin qalıq dəyəri sonrakı hesablamalar üçün onun baza dəyəri kimi götürülür; müvafiq obyektə münasibətdə aylıq amortizasiya məbləği, baza dəyərini obyektin istismar müddətinin sonuna qədər qalmış təqvim aylarının sayına vurmaqla müəyyən edilir.

Köhnəlmiş avadanlıqlar üzrə amortizasiyanın hesablanması xüsusiyyətlərini də qeyd etmək lazımdır. Məsələn, amortizasiya olunan obyektin qalıq dəyəri onun ilkin dəyərinin **20** faizinə çatmışsa, onda amortizasiya norması dəyişir və aşağıdakı qaydada hesablanılır. Amortizasiyanın hesablanması üçün qalıq dəyəri baza kimi götürülür və bu obyekt üzrə hesablanmış köhnəlmə məbləği, həmin baza dəyərinin müvafiq obyektin faydalı istifadə müddətinin başa çalmasına qədər olan təqvim aylarının sayına bölməklə müəyyən edilir.



Şəkil 19. Amortizasiya ayırmalarının hesablanması metodları

istismarda olmuş əsas vəsait obyektləri əldə etmiş müəssisə həmin obyektlərin əvvəlki sahibində istismarda olduğu illərin (ayların) sayı qədər azaldılmış faydalı istismar müddəti nəzərə alınmaqla amortizasiya norması müəyyən edə bilər (əgər həmin əmlak üzrə xətti metodla amortizasiyff hesablanması haqqında qərar qəbul edilmişdirsə).

Vergi ödəyicisi əsas amortizasiya normasına görə xüsusi əmsal tətbiq edə bilər. Aqressiv mühitdə və yüksək növbəlilik şəraitində işləmək üçün istifadə edilən əsas vəsaitlərə münasibətdə bu əmsal iki dəfə artırıla bilər. Aqressiv mühit_dedikdə, əsas vəsaitlərin istismarı prosesində onların yüksək dərəcədə köhnəlməsinə təsir göstərən təbii və süni amillərin cəmi nəzərdə tutulur. Maliyyə lizinqi müqaviləsinin parametri olan əsas vəsaitlər üçün 3-dən çox olmayan xüsusi əmsal tətbiq oluna bilər. Bu qayda faydalı istifadə olunma müddəti 5 ilə qədər olan və xətti metodla amortizasiya olunan əsas vəsaitlərə şamil olunmur.

Müəyyən edilmiş normalardan aşağı amortizasiya hesablanmasına icazə verilir (əgər bu qərar vergitutma məqsədləri üçün uçot siyasətində öz əksini tapmışdırsa).

Məhsulun maya dəyərinə daxil edilən **sair xərclərin** siyahısı olduqca genişdir və bu səbəbdən onların qruplaşdınıması olduqca çətindir. Lakin buna baxmayaraq vergitutma məqsədləri üçün onların məsrəflərə düzgün daxil edilməsi baxımından bu olduqca vacibdir. Xüsusilə bu xərclərə məhsulun maya dəyərinə aid edilən vergi (sosial ehtiyaclara ayırmalar) və yığımlar aid edilir. Kənar təşkilatların yerinə yetirdiyi işlərə (göstərdiyi xidmətlərə) görə ödənilən komissiyon yığımları üzrə xərclər, əmlakın mühafizəsi, mühafizə siqnalizasiyası və yanğından mühafizə xidmətləri üzrə məsrəflər həmçinin bu xərclərə aid edilir.

"Sair xərclər" elementinə daxil edilən əsas məsrəflər aşağıdakılardır:

- borca görə ödənilmiş faizlər və onunla bağlı olan xərclər;
- ümidsiz və şübhəli borclar üzrə ehtiyatın məbləği;
- sığorta, bank və kredit təşkilatlannda ehtiyat sığorta fonduna ayırmaların məbləği;
- elmi-tədqiqat, layihə axtarış və təcrübə-konstruksiya işlərinə çəkilmiş xərclərin məbləği;
- şərti maliyyə vahidinin **100** mislindən az olan əsas vəsaitlərin qalıq dəyəri;
- təqdim (ləğv) edilmiş əsas vəsaitlərin qalıq dəyəri;
- əmlakın təqdim edilməsindən yaranmış zərər; təmirlə bağlı xərclər.
- həyat sığortası müqaviləsi üzrə sığorta ödəmələrinin məbləği;
- geoloji-kəşfiyyat və təbii ehtiyatların hasilatına hazırlıq işlərinə çəkilən xərclər üzrə hesablanmış amortizasiya məbləği;
- qeyri-maddi aktivlərə çəkilən xərclər və s.

İndi isə yuxarıda göstərilən sair xərc maddələrini müfəssəl nəzərdən keçirək.

Borca görə ödənilmiş faizlər və onunla bağlı olan xərclər. Xaricdən alınmış borclar üzrə ödənilmiş, habelə qarşılıqlı surətdə asılı olan şəxslərin bir birinə ödədikləri faizlərin faktiki məbləği (hesablama metodundan istifadə etdikdə - ödənilməli olan faizlərin məbləği), faizlərin aid olduğu müvafiq dövrdə eyni valyuta ilə oxşar müddətə verilmiş banklararası kredit hərracında olan, hərraclar

keçirilmədiyi təqdirdə isə Mərkəzi Bankın dərc etdiyi banklararası kreditlər üzrə faizlərin orta səviyyəsinin 125 faizindən artıq olmamaqla gəlirdən çıxılır.

Aşağıda sadalanan kreditlər üzrə faizlərin maya dəyərinə daxil edilməsinə icazə verilmir:

- əsas vəsaitlərin, qeyri-maddi aktivlərin və dövriyyə vəsaitlərinin əldə edilməsi üçün alınmış kreditlər üzrə faizlərin;
- verilmiş mal-material qiymətlilərinə görə malsatanların alıcılara təqdim etdikləri kommersiya kreditləri üzrə faizlərin.

Ümidsiz borclar üzrə xərclər. Əgər malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə əməliyyatlardan olan gəlir əvvəllər sahibkarlıq fəaliyyətindən əldə edilən ümumi gəlirə daxil edilmişdirsə, onda vergi ödəyicisi onlarla bağlı olan ümidsiz borc məbləğini gəlirdən çıxmaq hüququna malikdir.

Ümidsiz borc məbləğinin gəlirdən çıxılmasına yalnız vergi ödəyicisinin mühasibat kitablarında ümidsiz borc məbləğinin dəyəri olmayan borc kimi silindiyi hallarda yol verilir.

Əgər borclar müqavilədə müəyyən edilmiş müddətdə ödənilməyibsə və girov, zəmanət, bank təminatı ilə təmin edilməmişdirsə, onda üçüncü şəxsin vergi ödəyicisi qarşısında olan istənilən borcu şübhəli kimi qəbul edilir.

Banklar və bank fəaliyyətinin ayrı-ayrı növlərini həyata keçirən kredit təşkilatları qanunvericiliyə müvafiq qaydada aktivlərin təsnifatından asılı olaraq xüsusi ehtiyat fondlarının yaradılmasına aid edilən məbləğləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada gəlirdən çıxmaq hüququna malikdirlər.

Vergi ödəyicisi qarşısında olan o borclar ümidsiz adlanır ki, onlar üzrə iddia müddəti qurtarmış olsun və mülki qanunvericiliyə uyğun olaraq onun tutulmasının mümkün olmaması səbəbindən öhdəliyin yerinə yetirilməsi dayandırılsın. Qeyd etmək lazımdır ki, sözügedən ehtiyatları yalnız özünün uçot siyasətində hesablanma metodunu əks etdirən müəssisələr yarada bilər.

Şübhəli borclar üzrə yaradılan ehtiyat məbləği əvvəlki hesabat dövrünün sonuna olan debitor borclarının nəticələrinə əsasən müəyyən edilir və müvafiq alqo- ritm üzrə hesablanılır (şəkil **1**).

Ehtiyat sığorta fondlarına ayırmalar üzrə xərclər. Bank və digər kredit təşkilatları qanunvericiliyə müvafiq qaydada, aktivlərin təsnifatından asılı olaraq, xüsusi ehtiyat fondlannın yaradılmasına yönəldilmiş məbləğləri Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş qaydada gəlirdən çıxmaq hüququna malikdirlər.

Sığorta fəaliyyəti ilə məşğul olan hüquqi şəxslər, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş normalara uyğun olaraq, ehtiyat sığorta fondlarına ayırma məbləğlərini gəlirdən çıxırlar.

Elmi-tədqiqat, layihə-axtarış və təcrübə-konstruksiya işlərinə çəkilən xərclər. Gəlir götürmək məqsədi ilə aparılan elmi-tədqiqat, layihə-axtarış və təcrübə-konstruksiya işlərinə çəkilən xərclər (əsas vəsaitlərin alınması və quraşdırılması ilə bağlı olan xərclər, eləcə də kapital xarakterli digər xərclər istisna olmaqla) gəlirdən çıxılır.



Şəkil 20. Ehtiyat fondunun hesablanması və istifadə olunması aiqoritmi

Yeni məhsulun yaradılmasına (istehsalına) və ya istehsal olunan məhsulun təkmilləşdirilməsinə çəkilən xərclər elmi-tədqiqat və layihə-axtarış işlərinə çəkilən xərclər hesab olunur. Onlar digər müəssisələrlə birgə müstəqil həyata keçirilə və ya kənar təşkilata sifariş oluna bilər. Elmi-tədqiqat və layihə-axtarış işlərindən real istifadə olunması şərti ilə və işlərin təhvil-təslim aktı imzalandıqdan sonra həmin xərclər vergi ödəyicisi tərəfindən bərabər ölçülərlə 3 il ərzində material xərclərinin tərkibinə daxil edilir. Qeyd etmək lazımdır ki, əgər sözügedən xərclər yeni nümunənin və ya texnologiyanın yaradılması ilə nəticələnibsə, onda həmin 3 illik müddət ərzində 0,7 az olan əmsalla məsrəflərin tərkibinə daxil edilə bilər.

Təmirlə bağlı xərclər. Hər il üçün gəlirdən çıxılmalı olan təmir xərclərinin məbləği, əsas vəsaitlərin hər bir kateqoriyasının əvvəlki ilin sonuna olan qalıq dəyərinə müvafiq olaraq aşağıdakı faizlərlə müəyyən edilir:

- binalar, tikililər və qurğular üzrə - **2**% ;
- maşın, avadanlıq və hesablama texnikası üzrə - 5% ;
- digər əsas vəsaitlər üzrə - 3% ;
- köhnəlmə (amortizasiya) hesablanmayan əsas vəsaitlər üzrə sıfır (**0**) faizi.

Təmir xərclərinin faktiki məbləği müəyyən edilmiş normadan az olduqda, gəlirdən yalnız təmir xərclərinin faktiki məbləği çıxılır. Bu halda növbəti təqvim illərində təmir xərclərinin gəlirdən çıxılan məbləği istifadə olunmamış limit qalığının məbləği qədər artırılır.

Təmir xərclərinin faktiki məbləği bu həddi ilə müəyyənləşdirilən məbləğdən az olduqda, gəlirdən təmir xərclərinin faktiki məbləği çıxılır. Bu halda növbəti vergi illərində təmir xərclərinin gəlirdən çıxılan məbləğ həddi təmir xərclərinin faktiki məbləği ilə müəyyənləşdirilmiş hədd üzrə hesablanmış məbləği arasındakı fərq qədər artırılır.

Təmir xərclərinin müəyyən edilmiş normadan artıq olan hissəsi əsas vəsaitlərin cari vergi ilinin sonuna olan qalıq dəyərinə əlavə edilir. Amortizasiya olunmayan əsas vəsaitlərin təmirinə çəkilən xərclər gəlirdən çıxılmır və onlar həmin obyektlərin balans dəyərinə əlavə edilir.

Amortizasiya olunmayan, köhnəlmə (amortizasiya) hesablanmayan əsas vəsaitlərin təmirinə çəkilmiş xərclər gəlirdən çıxılmır və onların balans dəyərini artırır.

İcarəyə götürülmüş əsas vəsaitlərin təmiri üzrə xərclərin gəlirdən çıxılan məbləği əsas vəsaitlərin hər bir kateqoriyasının əvvəlki ilin sonuna olan dəyərinin müəyyən edilmiş faiz həddi ilə məhdudlaşdırılır.

Əsas vəsaitlərin icarəyə götürülməsi müddəti, şərtləri, habelə onların təmiri üzrə xərclər qanunvericilikdə nəzərdə tutulmuş qaydada icarəyə verənlə icarədar arasında bağlanan müqavilədə razılaşdırılır.

Təmir işləri icarəyə verənin hesabına aparıldıqda, yaxud icarədarm hesabına aparılaraq icarə haqqı ilə əvəzləşdirildikdə. Vergi Məcəlləsinin 115-ci maddəsinin müddəaları icarədara tətbiq edilmir.

Əsas vəsaitlərin hər bir kateqoriyasının ilin sonuna olan qalıq dəyəri sıfıra bərabər olduqda, təmir xərclərinin faktiki məbləği müvafiq kateqoriyalara aid olan əsas vəsaitlərin qalıq dəyərinə aid edilir və müvafiq qaydada amortizasiya hesablanılır.

Qeyd etmək lazımdır ki. Vergi Məcəlləsinin müddəaları yalnız təmir xərclərinin gəlirdən çıxılan məbləğini məhdudlaşdırır və vergi ödəyicilərinin digər mənbələr hesabına təmir işlərini həyata keçirməsini qadağan etmir.

Sığorta xərcləri. Öz işçisinin xeyrinə əmlakın zərərdən sığortalanması, habelə sığortalının ödədiyi sığorta haqları gəlirdən çıxılır (xarici sığorta təşkilatları ilə bağlanmış həyat sığortası müqavilələri üzrə sığorta haqları istisna olmaqla).

Geoloji-kəşfiyyat işlərinə və təbii ehtiyatların hasilatına hazırlıq işlərinə çəkilən xərclər. Geoloji-kəşfiyyat işlərinə və təbii ehtiyatların hasilatına hazırlıq işlərinə çəkilən xərclər əsas vəsaitlər üzrə müəyyən edilmiş amortizasiya dərəcələri ilə hesablanan ayırmalar şəklində ümumi gəlirdən çıxılır. Bu həmçinin vergi ödəyi- cisinin geoloji-kəşfiyyat işlərini aparmaq və təbii ehtiyatlan emal (istismar) etmək hüquqlarını əldə etmək üçün qeyri-maddi aktivlərə çəkdiyi xərclərə də şamil edilir.

Qeyri-maddi aktivlərə çəkilən xərclər. Hüquqi və fiziki şəxslərin bir ildən artıq müddətə təsərrüfat fəaliyyətində istifadə etdikləri qeyri-maddi obyektlər üzrə çəkdikləri xərclər qeyri-maddi aktivlərə aid edilir. Qeyri-maddi aktivlərə çəkilən xərclər müəyyən edilmiş amortizasiya dərəcələri ilə hesablanmış amortizasiya ayırmaları şəklində gəlirdən çıxılır.

Əgər qeyri-maddi aktivlərin alınmasına və ya istehsalına çəkilən xərclər vergi ödəyicisinin vergiyə cəlb olunan gəlirinin hesablanması zamanı gəlirdən çıxılmışdırsa, onda həmin xərclər amortizasiya olunan qeyri-maddi aktivlərin dəyərinə aid edilmir.

Normalaşdırılan xərclər. Bəzi xərc növlərinin məhsul istehsalına çəkilən məsrəflərlə bilavasitə bağlı olmasına baxmayaraq, onlar vergitutma məqsədləri üçün istehsal (tədavül) xərclərinə yalnız müəyyən edilmiş limit, norma və normativlər həddində daxil edilə bilər. Bu qəbildən olan xərclərə ezamiyyə, nümayəndəlik, reklam xərclərini aid etmək olar

Məsələn, işçiyə verilən ezamiyyə xərclərinin kompensasiya edilməsi üzrə xərcləri bu qəbildən olan xərclərə aid etmək olar. Vergitutma məqsədləri üçün maya dəyərinə daxil edilən ezamiyyə xərcləri qiymət artımı iləjəlaqədar tez-tez dəyişən normalara əsasən müəyyən edilir. Ona görə ezamiyyə xərclərinin Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş normalarını dəqiq bilmək lazımdır.

Ezamiyyə xərclərinin (qidaya görə sutkalıq, mehmanxanada yaşayış və yol pulunun) Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş müvafiq normalarından artıq olan hissəsi yalnız müəssisənin sərəncamında qalan (vergi ödənildikdən sonra) mənfəət hesabına kompensasiya edilir. Eyni qayda müəssisə əməkdaşlarının fərdi minik avtomobillərinin xidməti məqsədlər üçün istifadə olunmasına görə ödənilən kompensasiya məbləğinə də şamil edilir.

Kommersiya fəaliyyəti ilə bağlı olan nümayəndəlik xərcləri - qarşılıqlı əməkdaşlığın müəyyən edilməsi və saxlanması məqsədilə danışıqlara gəlmiş digər müəssisə, təşkilat və şirkət (o cümlədən xarici) nümayəndələrinin, eləcə də müəssisənin idarə heyəti və təftiş komissiyası iclasına gəlmiş iştirakçılann qəbulu və onlara xidmət edilməsi üzrə məsrəflərdir. Nahar (şam) yeməyinin təşkilinə, onların tədbir yerinə nəqliyyatla daşınmasına, danışıqlar zamanı bufet təminatına və tərcüməçilərin xidmətlərinin ödənişinə çəkilən məsrəflər nümayəndəlik xərcləri hesab olunur.

Nümayəndəlik xərcləri yalnız işgüzar görüşün tarixi və yerini, proqramını və onun nəticələrini, onun iştirakçılannı və xərclərin məbləğini özündə əks etdirən müvafiq sənədlərin olduğu hallarda maya dəyərinə daxil edilir. Nümayəndəlik xərclərinin silinməsi üçün tərtib edilmiş akt (heç bir əsas olmadan, özbaşına) ilkin təsdiqedici sənəd sayılır.

Qeyd etmək lazımdır ki, danışıqların aparılması ilə bağlı olmayan xərclər vergitutma məqsədləri üçün məhsulun maya dəyərinə daxil edilmir və bu tədbirlərin həyata keçirilməsi üzrə xərclər müəssisənin sərəncamında qalan mənfəət hesabına maliyyələşdirilir.

Reklam xərcləri - məhsulun satış bazarına çıxanimaşı məqsədilə müəssisənin istehlakçıya məqsədyönümlü informasiya vasitəsi ilə təsir etmək üçün həyata keçirdiyi tədbirlər üzrə məsrəfləridir.

Reklam məmulatlarının (bukletlərin, prospektlərin, reklam disklərinin, afişaların, audio və video disklərinin, firma paketlərinin), reklam suvenirlərinin (diyircəkli qələmlərin, qovluqların, qeydiyyat kitabçalarının, döş nişanlarının) əldə edilməsi və hazırlanması üzrə məsrəflər reklam xərclərinə daxil edilir. Bu zaman reklam xərcləri vergiqoyma məqsədləri üçün tam həcmdə maya dəyərinə daxil edilir.

Kütləvi informasiya vasitələri ilə reklam tədbirlərinin keçirilməsi, işıqlı reklam vitrinlərin, satış-sərgilərinin təşkili və kütləvi reklam kompaniyalarının keçirilməsi zamanı oynanılan prizlərin hazırlanması ilə bağlı məsrəflərin gəlirdən çıxıl- masına icazə verilmir.

İstehsal prosesinin idarə edilməsi ilə əlaqədar xərclər (əlavə xərclər). Bu kateqoriyadan olan xərclərə inzibati-idarəetmə xərcləri, xidməti nəqliyyat vasitələrinin saxlanması üzrə xərclər, icarə haqları, köməkçi istehsalatın məsrəfləri daxildir.

Hüquq, informasiya və məsləhət xidmətlərinin, bazar konyukturasının cari öyrənilməsi, bilavasitə mallann istehsal və satışı ilə əlaqədar informasiyanın toplanması



Şakil 21. Məsrəf elementləri tərkibinin sxemi

Beləliklə, sair məsrəflərə müəssisənin həm bilavasitə istehsal prosesi, həm də onun təşkili ilə bağlı müxtəlif xərcləri daxildir. Yuxarıda sadalanan xərclər üzrə çoxsaylı norma və normativlərin müəyyən edilməsi ilə əlaqədar, istehsal xərclərinə aid edilən məsrəfləri daha müfəssəl müəyyənləşdirmək məqsədilə, normativ bazada baş verən dəyişiklikləri diqqətlə izləmək lazımdır.

Qeyd etmək lazımdır ki, müəssisələr tərəfindən ödənilmiş torpaq, mədən, əmlak və yol vergilərinin məbləği, eləcə də ixrac mallarının ölkədaxili topdansatış və bazar (satış) qiymətləri arasındakı fərq ödənişlərinin məbləği vergitutulan mənfəətdən çıxılır.

Bundan başqa, mənfəət vergisi hesablanarkən vergitutulan mənfəət istehsal təyinatlı kapital qoyuluşunun maliyyələşdirilməsinə və istifadə edilmiş bank kreditlərinin ödənilməsi üzrə çəkilmiş faktiki xərclərin və səhmlər üzrə alınmış divident və dövlət qiymətli kağızları üzrə faiz gəlirlərinin məbləği qədər azaldılır.

Amortizasiya olunmayan aktivlərin təqdim olunmasından əldə edilmiş pul vəsaitlərinin məbləği və onların qalıq dəyəri arasındakı fərq məbləği, eləcə də ilin sonuna olan mənfi məzənnə fərq məbləği ümumi gəlirdən çıxılır.

Ümumi mənfəət həmçinin investorun məhsul bölgüsü müqaviləsi üzrə aldığı mənfəət məbləği qədər azaldılır. Çünki həmin mənfəət məbləği xüsusi vergi rejimi üzrə vergiyə cəlb olunur.

Qeyd etmək lazımdır ki, müəssisə gəlirlərindən çıxılmalı olan xərclərin gəlirlərdən artıq olan hissəsi üç ilədək davam edən sonrakı hesabat dövrlərinə keçirilir və gələcək dövrlərin mənfəəti hesabına kompensasiya edilir.

2.10.4. İstehsal və satışla bağlı olmayan (satışdankənar) xərclər

Vergi Məcəlləsi vergitutma məqsədləri üçün nəzərə alınmayan xərclərin siyahısını müəyyən etmişdir. Gəlirdən çıxılmayan xərclər məhsulun maya dəyərinə daxil edilmir və vergitutulan mənfəət hesablanarkən vergitutma bazasından çıxılmır. Bu qəbildən olan xərclər müəssisənin sərəncamında qalan xalis mənfəət hesabına ödənilir.

Müəssisənin bilavasitə istehsal və satışla bağlı olmayan fəaliyyətinin həyata keçirilməsinə çəkdiyi əsaslandırılmış məsrəfləri satışdankənar xərclər kimi qəbul olunur. Xatırladaq ki, satışdankənar xərclərin tərkibinə malların (işlərin, xidmətlərin) istehsal və satışı, başqa sözlə əsas fəaliyyətlə bağlı olmayan xərclər daxildir. Bu xərclərə labüd və əsaslandırılmış məsrəflər, xüsusilə icai'ə (lizinq) müqaviləsi üzrə verilmiş əmlakın saxlanması üzrə xərclər (həmin əmlak üzrə hesablanmış amortizasiya ayırmaları da daxil olmaqla) daxildir. Lakin daimi əsaslarla öz əmlakını ödənişli əsaslarla i.stifadəyə vermiş müəssisələr, onların saxlanması üzrə xərcləri əsas fəaliyyət üzrə xərclərə aid etməlidir. Müəssisələrin borc və kreditlər üzrə ödədikləri faizlər, qiymətli kağızlar və müəssisənin buraxdığı digər öhdəliklər üzrə faizlər həmçinin satışdankənar xərclərə aid edilir.

Qeyd etmək lazımdır ki, yalnız borc vəsaitlərindən faktiki istifadə olunan gə-lirlilik dövrü (həmin qiymətli kağızların üçüncü şəxsdə olduğu faktiki vaxt) ərzində ödənilmiş faizlər xərc kimi qəbul edilir. Bundan başqa, buraya həmçinin müəssisə

nin öz qiymətli kağızlarının buraxılışının təşkili və xidmət edilməsi, saxlanması və satışı üzrə xərcləri də (məsələn, emissiya prospektinin hazırlanması, qeydiyyatı, qiymətli kağız blanklamn hazırlanması və ya əldə edilməsi üzrə xərclər) daxil etmək lazımdır.

Vergitutma bazası hesablanarkən nəzərə alınmayan xərclər aşağıdakılardır:

- ❖ əsas vəsaitlərin alınması və quraşdırıİmasına çəkilən xərclər (kapital xarakterli digər xərclər);
- ❖ qeyri-kommersiya fəaliyyəti ilə bağlı olan xərclər;
- ❖ ehtiyat fondlarına ayırmaların məbləği (müəyyən edilmiş normalar həddində;
- ❖ əyləncə və yemək xərcləri (müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş normalar daxilində müalicə-profilaktik yeməklərə, süd və ona bərabər tutulan digər məhsullara və vasitələrə sərf olunan xərclər, həmçinin dəniz nəqliyyatında üzücü heyətə verilən yemək xərcləri istisna olmaqla), eləcə də işçilərin mənzil və digər sosial xarakterli xərcləri.

Qeyd etmək lazımdır ki, sahibkarlıq fəaliyyəti əyləncə və ya sosial xarakteri daşıyan vergi ödəyicisinin xərcləri bu cür fəaliyyət çərçivəsində çəkilirsə, müvafiq olaraq əyləncə və sosial xərclər gəlirdən çıxılır.

- ❖ faktiki ezamiyyə xərclərinin normadan artıq olan hissəsi;
- ❖ vergilərin vaxtında ödənilməməsinə görə hesablanmış pensiya, cərimə, faiz və maliyyə sanksiyaları;
- ❖ ölkə və onun hüdudlarından kənarda ödənilmiş mənfəət vergisi və gəlirdən hesablanmış digər verginin;
- ❖ hesablanmış dividentlərin məbləği;
- ❖ nizamnamə kapitalına qoyuluşlar;
- ❖ könüllü sığorta və qeyri-dövlət pensiya təminatına ödənişlər (əməyin ödənişi üzrə xərclərdən başqa);
- ❖ xərclərdən əlavə borc alan müəssisənin kreditora hesabladığı faizlər;
- ❖ komissiya müqaviləsi üzrə öhdəliklərin icrası ilə əlaqədar komissionerin (agentin) pul vəsaitləri də daxil olmaqla verdiyi əmlak (əgər bu məsrəflər müqavilə şərtlərinə görə komissionerin xərclərinə daxil deyildirsə);
- ❖ mallann (işlərin, xidmətlərin) işçilərə güzəştli qiymətlər və tariflərlə (bazar qiymətlərindən aşağı) satışı zamanı yaranmış qiymət fərqi;
- ❖ girov qismində verilmiş əmlak (əmlak hüququ).

Vergitutma məqsədləri üçün nəzərə alınmayan xərclərə həmçinin aşağıdakılar daxildir:

- ■ borc və girovların geri qaytarılması;
- ■ müəssisə işçilərinin şəxsi istehlakına yönəldilmiş xərclər;
- ■ normadan artıq istehsal xərcləri üzrə müəssisə işçilərinə verilən kompensasiya ödənişləri;
- ■ özünü doğrultmayan Elmi-'fədqiqat və Smaq-Layihə işlərinə çəkilmiş xərclər;
- ■ müxtəlif kənar fondlara, o cümlədən qiymətli kağızlarla iş riskinin aşağı salınması üçün ayırmalar;
- ■ normalaşdırılan xərclər üzrə kənar müəssisələrə ödəmələr (məsələn, borc və kreditlər üzrə faizlər);

■ **bölüşdürülən gəlir şəklində ödəmələr (dividcntlər);**

■ icarəyə götürülmüş əmlakın saxlanmasına-çəkilən xərclər (onun amortizasiyası da daxil olmaqla);

■ istənilən növ borc öhdəliyi üzrə faizlər (yalnız borc vəsaitlərindən faktiki istifadə olunma dövrü ərzində hesablanmış faiz məbləğləri);

■ qiymətli kağızların buraxılışının təşkili üzrə xərclər;

■ malların (işlərin, xidmətlərin), əmlak hüququnun satıldığı (mədaxil edildiyi) tarixə tərəflərin razılığına əsasən müəyyən edilmiş şərti pul vahidlərinin məzənnəsi üzrə hesablanmış öhdəlik məbləğinin manatla faktiki daxil olmuş (ödənilmiş) məbləğə uyğun gəlmədiyi hallarda, ödəyicidə mənfi məbləğ şəklində əmələ gəlmiş xərclər;

■ hesablama metodunu tətbiq edən vergi ödəyicində ümidsiz borclar üzrə ehtiyatın yaradılmasına çəkilən xərclərin məbləği;

■ müəyyən edilmiş faydalı istifadə olunma müddətinə uyğun olaraq hesablanmış amortizasiya məbləği də daxil olmaqla, istismardan çıxmış əsas vəsaitlərin ləğvinə, eləcə də bitməmiş tikinti obyektlərinin və quraşdınıması başa çatmamış digər əmlakın ləğvinə (sökülməsinə, doğranmasına, sökülmüş əmlakın daşınmasına) çəkilmiş xərclər;

■ icarə (lizinq) müqaviləsi üzrə verilmiş əmlakın (bu əmlak üzrə amortizasiya hesablamaları da daxil olmaqla) saxlanması üzrə xərclər. Lakin daimi əsaslarla öz əmlakını ödənişli istifadəyə (icarəyə) təqdim edən müəssisələr, onların saxlanması üzrə xərcləri əsas fəaliyyət üzrə xərclərinə aid etməlidir;

■ istehsal güclərinin (obyektlərinin) konservasiyası və yenidən işə salınması ilə əlaqədar çəkilən xərclər, eləcə də onlann saxlanmasına çəkilən xərclər;

■ ləğv edilmiş, eləcə də məhsul verməyən sifarişlərə çəkilmiş xərclər. Bu xərclər ödəyicinin aktına əsasən müstəqim xərclər həcmində müəyyən edilir;

■ kredit və borclar, qiymətli kağızlar üzrə faizlər. Yalnız borc vəsaitlərinin faktiki istifadə olunduğu (bu qiymətli kağızların üçüncü şəxsdə olduğu faktiki vaxt) və emitentin (ssuda verənin) müəyyən etdiyi gəlirlilik dövrü ərzində hesablanmış faizlərin məbləği xərc kimi qəbul edilir. Bundan başqa, öz qiymətli kağızlannm buraxılışının təşkili, buraxılışı, saxlanması və satışı, daha doğrusu emissiya prospektinin hazırlanması, qeydiyyatı, qiymətli kağızların hazırlanması və ya alınması üzrə xərcləri, qeydiyyat və depozitar xidmətlərin ödənişi bu cür xərclərə aid edilir;

■ komissiya müqaviləsi, agentlik müqaviləsi və ya digər analoji müqavilələr üzrə öhdəliklərin yerinə yetirilməsi ilə əlaqədar, eləcə də komissionerin çəkdiyi məsrəflərin ödənilməsi hesabına (əgər məsrəflər komissionerin, agentin və ya müvəkkil edilmiş şəxsin xərclərinin tərkibinə daxil edilməmişdirsə) agent və ya komi- tentin müvəkkil etdiyi şəxs tərəfindən verilmiş əmlak (pul vəsaiti də daxil olmaqla);

■ qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının apardığı ayırmalar istisna olmaqla, qiymətli kağızların qiymətdən düşməsinin təmin edilməsi üçün yaradılmış ehtiyatlara edilmiş ayırmaların məbləği;

■ qeyri-kommersiya fəaliyyəti ilə bağlı olan xərclər;

■ mənzil-kommunal və sosial-mədəni sfera obyektləri də daxil olmaqla (normadan artıq hissəsi), xidmətedici istehsalat və təsərrüfat obyektlərinin zərərləri;

■ gəlir və xərclərin uçolunu hesablama melbdu ilə müəyyən edən vergİ ödəyicilərinin qabaqcadan ödəniş qaydasında əmlak (iş, xidmət) və əmlak hüququnun dəyəri;

■ əvəzsiz olaraq verilmiş əmlakın (işlərin, xidmətlərin, əmlak hüququnun) dəyəri;

■ məqsədli maliyyələşmə çərçivəsində verilmiş əmlakın dəyəri;

■ vergi ödəyicisi tərəfindən malların (işlərin, xidmətlərin, əmlak hüququnun) alıcılarına təqdim edilmiş vergilərin məbləği;

■ əmək müqaviləsinə əsasən ödənilmiş mükafatlardan başqa, rəhbərliyə və işçilərə verilmiş istənilən mükafat məbləği;

■ xüsusi təyinatlı vəsaitlər və ya məqsədli daxilolmalar hesabına işçilərə verilmiş mükafatlar;

■ işçilərə verilmiş maddi yardımların məbləği;

■ tara əməliy>'atları üzrə xərclər;

■ kollektiv müqavilə üzrə qanunvericilikdə nəzərdə tutulduğundan artıq işçilərə əlavə verilmiş məzuniyyət haqqı;

■ pensiyaya gedən əmək veteranlarına verilən birdəfəlik müavinətlər;

■ səhmlər üzrə verilən gəlirlər (dividentlər);

■ işçilərə malların (işlərin, xidmətlərin) bazar qiymətindən aşağı olan qiymətlər (tariflər) üzrə satışı zamanı qiymət fərqindən olan zərər;

■ girov kimi verilmiş əmlak və əmlak hüququnun dəyəri;

Satışdankənar xərclərə həmçinin aşağıdakılar aid edilir:

- aktivlərin Nizamnamə kapitalına (yoldaşlıq cəmiyyətinə) qoyuluş (pay) kimi verilməsi;
- xarici valyuta öhdəlikləri və qiymətli kağızların, xarici valyutanın manata olan rəsmi məzənnəsinin dəyişməsi ilə əlaqədar aparılmış yenidənqiymət- ləndirmə zamanı yaranmış mənfi məzənnə fərqi üzrə xərclər. Valyuta qiymətliləri və öhdəliklər şəklində əmlakın qiymətinin aşağı salınması və ya xarici valyuta öhdəliklərinin artırılması zamanı əmələ gəlmiş məzənnə fərqi, mənfi məzənnə fərqi kimi qəbul olunur;
- valyutanın alış (satış) məzənnəsinin Milli Bankın rəsmi məzənnəsindən kənarlaşmalar şəklində əmələ gəlmiş mənfi fərq;
- qiymətli metal və daşların müəyyən edilmiş qaydada qiymətləndirilməsi zamanı yaranmış mənfi fərq;
- faktiki sövdələşmənin mütəşəkkil bazarda tədavül etməyən maliyyə alətlərinin əldə edilməsi üzrə xərclər;
- şübhəli və ümidsiz borcların silinməsinə görə ehtiyatların yaradılması üzrə məbləğlər (kassa metodundan istifadə edən vergi ödəyiciləri borclar üzrə ehtiyatların formalaşdınimasını həyata keçirə bilməz);
- əmlakın sökülməsi, daşınması üzrə xərclər də daxil olmaqla, istismardan çıxarılmış əsas vəsaitlərin ləğv edilməsi üzrə xərclər;
- müvəqqəti dayandırılmış (konservasiya edilmiş) istehsal obyektlərinin (güclərinin) saxlanmasına çəkilən xərclər;

- məhkəmə xərcləri;
- ləğv edilmiş istehsalat sifarişləri, eləcə də məhsul verməyən istehsala çəkilmiş məsrəflər;
- bank xidmətlərinin ödənişi üzrə xərclər;
- müqavilə və borc öhdəliklərinin pozulmasına görə cərimə, peniya və maliyyə sanksiyaları, eləcə də dəymiş zərərin ödənilməsi üzrə xərclər.

Vergi ödəyicisinin hesabat (vergi) dövründə aldığı zərərləri həmçinin satış-dankənar xərclərə bərabər götürülür. Bunlara aşağıdakılar aiddir:

i keçmiş hesabat dövrlərinin cari hesabat dövründə aşkar edilmiş zərərləri;

i. iddia müddəti qurtarmış debitor borcların məbləği;

4- zay məhsuldan olan zərər;

4- istehsalatdaxili səbəblər üzrə boşdayanmalardan olan itkilər;

4u daxili səbəblər üzrə boşdayanmalardan olan itkilərin günahkarlar tərəfindən kompensasiya edilməmiş hissəsi;

4. tələb etmək hüququnun verilməsindən olan itkilər;

4- günahkarları müəyyən edilmədiyi hallarda istehsalatda, anbarlarda və ticarət müəssisələrində material qiymətlilərinin çatışmamazlıq və oğurluqdan olan zərərlər;

i. təbii fəlakət və fövqəladə halların qarşısının alınması və ya onun nəticələrinin ləğv edilməsi üzrə məsrəflər də daxil olmaqla təbii fəlakətdən, yanğından, qəzadan və digər fövqəladə hallardan olan itkilər və s.

FƏSİL 3. VERGI ÖHDƏLİKLƏRİ ÜZRƏ BÜDCƏ İLƏ HESABLAŞMALARIN UÇOTUNUN TƏŞKİLİ

3.1. Vergi öhdəlikləri üzrə büdcə ilə hesablaşmaların uçotunun məqsəd və vəzifələri

Bildiyimiz kimi Azərbaycan Respublikasında iqtisadi siyasətin əsasını bazar iqtisadiyyatı prinsipləri təşkil edir. Ölkədə irimiqyaslı iqtisadi, siyasi və hüquqi islahatlar apnlır ki, onların da əsas məqsədi demokratik, müstəqil və bazar iqtisadiyyatı inkişaf etniş dövlət qurmaqdan ibarətdir. Keçid dövründəki mövcud problem və çətinliklərə baxmayaraq, azad bazar iqtisadi>'yalı yolunu seçmiş Azərbaycan iqtisadi inkişaf yolunda əminliklə irəliləyir. Ölkədə rəqabətli bazar mühitinin formalaşması, fərdi sektor və sahibkarlığın inkişafı aparılan islahatlar kursu kimi artıq qaçılmaz xarakter daşıyır.

Şəxsi mülkiyyətin müəyyənedici rolu ilə xarakterizə olunan bazar iqtisadiyyatı şəraitində dövlətdən öz funksiyalarını yerinə yetirmək üçün lazım olan xərclərini müəyyənləşdirməyi tələb edir. İrimiqyaslı özəlləşdirmə proqramının həyata keçirilməsi nəticəsində dövlətin sərəncamında qalan mülkiyyətin xüsusi çəkisinin az olduğu, cəmiyyətin iqtisadi bazası və idarə edilməsinin əsaslı şəkildə yenidən təşkil olunduğu indiki yeni şəraitdə ölkənin maliyyə sisteminin fəaliyyəti və onun inkişafının, iqtisadi islahatların aparılması və əhalinin həyat səviyyəsinin yüksəldilməsinin ən etibarlı mənbəyi məhz vergilərdir.

Dövlət tənzimlənməsinin tərkib hissəsi kimi vergi tənzimlənməsi ilk baxışdan büdcə-maliyyə fəaliyyəti sferasında ilk öncə dövlətin maraqlarını güdməlidir. Bu maraqlar isə ictimai tələbatların təmin edilməsindən və onlann maliyyə ödənişindən ibarətdir. Lakin unutmaq olmaz ki, dünyanın vergi sistemləri dövlət büdcəsinin əsas formalaşma kanalı kimi xidmət etməsinə baxmayaraq, təkrar istehsalı strukturları üçün böyük iqtisadi əhəmiyyət kəsb edir. Optimal vergi sistemi fərdi tə- sərrrüfat, korporativ kapital və vətəndaşların gəlirlərinin artırılması üçün real şərait yaratmaq imkanına malikdir. Son nəticədə onların artırılması ictimai sərvətin artımı üçün real imkan yaradır. Bu məsələlərin həlli müxtəlif vergi tənzimlənməsi və iqtisadiyyatın dövlət tənzimlənməsinin mümkün olan metodlarının uyğunlaşması ilə təmin edilə bilər. Vergi tənzimlənməsinin son məqsədi ictimai, korporativ və fərdi iqtisadi metodlann tarazlaşdınimasından ibarətdir.

Vergi öhdəliklərinin əsasını təşkil edən göstəricilərin əksəriyyəti (o cümlədən onların ən əsası sayılan məhsulların, işlərin, xidmətlərin satışı və alınmış mənfəət məbləği) müəssisənin mühasibat uçotunda əks olunur.

Qanunvericiliyə uyğun olaraq müəssisələrin vergiyə cəlb olunması aşağıdakıları nəzərdə tutur:

- vergitutma obyekti həcminin müəyyən edilməsi;
- uçotda formalaşmış vergitutma bazası göstəricilərinə və müəyyən edilmiş vergi dərəcələrinə əsasən müəssisə tərəfindən ödəniləcək vergi məbləğinin hesablanması;

• hesablanmış vergi ödəmələri üzrə büdcə ilə hesablaşmaların həyata keçirilməsi, vergi bəyannamələrinin tərtibi və vergi orqanlarına təqdim edilməsi.

Beləliklə, tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq heç bir müəssisə mühasibat (maliyyə) uçotu aparmadan fəaliyyət göstərə bilməz. Mühasibat uçotu müəssisənin idarəetmə və informasiya sisteminin tərkib hissəsidir. Belə ki, yalnız mühasibat uçotu göstəriciləri müəssisənin əmlak və maliyyə vəziyyəti, material, əmək və maliyyə resurslarının vəziyyəti, investisiya və kredit siyasətinin nəticəliliyi, məsrəflər və istehsalın səmərəliliyi haqqında tam informasiyanı təmin edir. Bununla yanaşı uçot məlumatları təsərrüfat fəaliyyətini idarə etmək və mənfəət üzrə planın yerinə yetirilməsinə nəzarət etmək, perspektiv istehsal proqramlan hazırlamaq imkanı verir.

Digər tərəfdən dolayı maliyyə marağı olan vergi orqanları, auditor firmaları, investorlar, eləcə də digər müəssisələr mühasibat uçotunun kənar (xarici) istifadəçilərinə aid edilir. Vergi orqanları digər kənar informasiya istifadəçilərindən fərqli olaraq nəinki yalnız hesabat, eləcə də dövlət (bələdiyyə) vergilərinin ödənilməsinin düzgünlüyünün yoxlanması üçün lazım olan bütün digər uçot informasiyası ilə tanış ola bilər. Vergi Məcəlləsinin 16-cı maddəsinə uyğun olaraq vergi ödəyicisi aşağıdakıları etməyə, yəni vergi orqanları və onun vəzifəli şəxslərinə Vergi Məcəlləsinin müəyyən etdiyi hallarda və qaydada lazımi sənəd və məlumatları təqdim etməyə, qanunvericilikdə müəyyən edilmiş müddət ərzində vergilərin hesablanması və ödənilməsi üçün lazım olan bütün mühasibat və digər sənədləri, eləcə də gəlirlərin alınmasını, hüquqi şəxslər üçün isə xərclərin çəkilməsini və vergilərin ödənilməsini (tutulmasını) təsdiq edən sənədlərin qorunub saxlanmasını təmin etməyə borcludur.

Vergi orqanları qanunvericilikdə müəyyən edilmiş qaydada vergi öhdəçiliyində mühasibat kitablarını, hesabatları, sxemləri, nağd pul vəsaitlərini, qiymətli kağızları və vergilərin hesablanması və ödənilməsi ilə bağlı olan digər sənədləri yoxlaya, eləcə də səyyar yoxlama zamanı vergi ödəyicilərindən və onun vəzifəli şəxslərindən məlumatları, arayışları və yoxlama ilə əlaqədar lazımi izahatları ala bilər.

Mühasibat uçotunda hesablaşmların ən mühüm sahəsi vergilərin hesablanması və ödənilməsidir. Vergilərin hesablanmasının düzgünlüyünə və büdcəyə vaxtında köçürülməsinə görə şəxsən baş mühasib məsuliyyət daşıyır. Mühasibat uçotunda formalaşan bəzi göstəricilərin vergiqoyma məqsədləri üçün müxtəlif düzəlişlərə məruz qalmasına baxmayaraq, vergilərin hesablanması və ödənilməsi prosesi mühasibat uçotunun bütün sahələrini əhatə edir.

Vergi ödəyiciləri "Mühasibat uçotu haqqında" qanuna əsasən müəyyən edilmiş qaydada uçot sənədlərini aparmağa borcludurlar. Belə ki, vergi ödəyicisi olan istənilən şəxs həmin şəxsdə vergi öhdəliyi, vergilərin tutulması. Vergi Məcəlləsinə uyğun olaraq məlumatların verilməsi üzrə öhdəliklərin yaranmasına səbəb olan əməliyyatları mütləq sənədlərlə rəsmiyyətə salmalıdır.

Bazar iqtisadiyyatının mühasibat uçotunun qarşısında qoyduğu tələblər olduqca sərtdir və onun əhatəsi genişdir. Bu isə hər şeydən əvvəl idarəetmənin əsas məqsədinin müəssisə fəaliyyətinin son nəticəsi olan mənfəətin alınmasına yönəldilməsi ilə əlaqədardır.

Müasir uçot sistemi elmi nailiyyətlərə və {vaktikaya, eləcə də dünya standartlarına əsaslanmalıdır. Müəssisəmin mühasibat uçotu sistemində həm daxili, həm də xarici (kənar) istifadəçilər üçün lazım olan etibarlı informasiya formalaşmalıdır.

Hal-hazırda müəssisələr özünün istehsal, kommersiya, vasitəçilik və digər fəaliyyəti prosesi zamanı çoxsaylı hesablaşmalar həyata keçirirlər ki, bunların da arasında ən önəmli yeri büdcə ilə hesablaşmalar tutur. Belə ki, qanunvericiliyə uyğun olaraq müəyyən fəaliyyət növü ilə məşğul olan və qanunla nəzərədə tutulmuş qaydada gəlir əldə edən istənilən şəxs vergi ödəməli və müvafiq surətdə vergi öhdəlikləri üzrə büdcə ilə hesablaşmalar aparmalıdır. Mühasibat uçotunun ən mühüm sahəsi vergi öhdəliklərinin hesablanması və büdcəyə köçürülməsidir. Müəssisə tərəfindən bütün öhdəliklərin yerinə yetirilməsi, satılmış malların (işləırin, xidmətlərin) dəyərinin alıcılar (sifarişçilər) tərəfindən ardıcıl və tam şəkildə ödənilməsi həm təsərrüfat subyektinə, həm də bütövlükdə iqtisadiyyata münasibətdə effektiv təsər- rüfatçıhğın ayrılmaz və mühüm şərtidir. Büdcə qarşısında vergi öhdəliklərinin tam və vaxtında ödənilməsi vergi ödəyicisinin birinci dərəcəli vəzifəsidir.

Bazar iqtisadiyyatının mühasibat uçotunun qarşısında qoyduğu tələblər olduqca sərtdir və onun əhatəsi genişdir. Bu isə hər şeydən əvvəl idarəetmənin əsas məqsədinin müəssisə fəaliyyətinin son nəticəsi olan mənfəətin alınmasına yönəldilməsi ilə əlaqədardır. Müasir uçot sistemi elmi nailiyyətlərə, praktikaya və dünya standartlarına əsaslanmalıdır. Müəssisənin mühasibat uçotu sistemində həm daxili, həm də xarici (kənar) istifadəçilər üçün lazım olan etibarlı informasiya formalaşmalıdır.

Düzgün təşkil olunmuş və vaxtında aparılmış hesablaşmalar (o cümlədən büdcə ilə) son nəticədə geniş təkrar istehsalının fasiləsizliyini, dövriyyə vəsaitlərinin, təsərrüfat subyektlərinin müstəqilliyini təmin edir.

Baş mühasib və hesablaşma şöbəsinin mühasibi bütün hüquqi və fiziki şəxslərlə aparılan hesablaşmaların uçotunu dəqiq və vaxtında aparmalı, eləcə də hesablaşma əməliyyatlannın sənədlərlə rəsmiləşdirilməsini düzgün aparmalı, böyük de- bitor və kreditor borclarının yaranmasına yol verməməli və ardıcıl olaraq hesablaşmaların qarşılıqlı yoxlanmasını təmin etməlidir. Baş mühasib vergilərin düzgün hesablanmasına və büdcəyə vaxtında köçürülməsinə görə bilavasitə məsuliyyət daşıyır.

Ölkə iqtisadiyyatının sürətli inkişafı, əsas məsələlərin müsbət həlli, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, ölkənin müdafiə qabiliyyətinin güclənməsi və digər strateji məsələlərin müvəffəqiyyətlə həll edilməsi dövlət büdcəsinin ödəmə imkanlarından çox asılıdır. Respublikamızın bazar iqtisadiyyatına keçdiyi indiki şəraitdə dövlət büdcəsinə daxil olan vəsaitlərin əsasmı hüquqi və fiziki şəxslərdən alınan vergi, rüsum, yığım və digər məcburi ödəmələr təşkil edir. Ödənilən vergilərin əhəmiyyətli hissəsi hüquqi şəxslərin payına düşür.

Məlum olduğu kimi təsərrüfat subyektləri olan müəssisə və təşkilatlar vergi ödəyicisi kimi müstəqil sahibkarlıq fəaliyyəti göstərirlər ki, bununla da dövlətin mərkəzləşdirilmiş pul vəsaitləri fondlarının yaranmasında bilavasitə iştirak etmiş olurlar. Dövlət isə öz növbəsində həmin fondları stabil iqtisadi artıma yönəldir. Son nəticədə vergilər iqtisadi inkişafın əsasını təşkil etməklə yanaşı, əhalinin həyat səviyyəsinin yüksəldilməsinin ən etibarlı mənbəyi rolunu oynayır.

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan təsərrüfat subyektlərinin öhdəlikləri arasında onların dövlət büdcəsi qarşısında vergi ödəmələri üzrə öhdəlikləri xüsusi əhəmiyyət kəsb edir. Çünki vergi öhdəliklərinin düzgün hesablanması, tam və vaxtında ödənilməsi son nəticədə maliyyə vəziyyətinə və sabitliyinə birbaşa təsir edir. Məhz bu səbəbdən tam kommersiya hesabı ilə fəaliyyət göstərən müəssisələrdə vergi öhdəlikləri üzrə büdcə ilə hesablaşmaların uçot və auditi diqqəti cəlb edən aktual məsələlərdən birinə çevrilmişdir.

Vergi öhdəlikləri üzrə büdcə ilə hesablaşmalar mühasibat uçotunda mühüm yer tutur. Onu da qeyd etmək lazımdır ki, vergi və məcburi ödəmələr üzrə büdcə ilə hesablaşmalann mövcud metodikası, müəssisələrdə idarəetmənin effektliyinin yüksəldilməsi və maliyyə resurslarından səmərəli istifadə olunmasının təmin edilməsi kimi tələblərə cavab vermir. Ona görə büdcə ilə hesablaşmaların uçot və auditi metodologiyasının daimi təkmilləşdirilməsi problemi, onun operativliyinin artırılması və beynəlxalq standartlara uyğunlaşdırılması mühüm əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, vergilərin hesablanması və büdcəyə köçürülməsi mühasibatlıq işinin ən mühüm sahəsidir. Vergilərin hesablanmasının düzgünlüyünə və büdcəyə vaxtında köçürülməsinə görə şəxsən baş mühasib məsuliyyət daşıyır. Mühasibat uçotunda formalaşan bəzi göstəricilərin vergitutma məqsədləri üçün korrektə olunmasına baxmayaraq, vergi öhdəliklərinin hesablanması və yerinə yetirilməsi üzrə yerinə yetirilən işlər mühasibatlığın bütün sahələrini əhatə edir.

Müəssisə tərəfindən bütün öhdəliklərin müntəzəm olaraq yerinə yetirilməsi, alınmış malların (işlərin, xidmətlərin) dəyərinin ardıcıl və tam şəkildə ödənilməsi həm təsərrüfat subyektinə, həm də bütövlükdə iqtisadiyyata münasibətdə effektiv təsərrüfatçılığın mühüm əlaməti və vacib şərtidir. Büdcə qarşısında vergi öhdəliklərinin tam və vaxtında ödənilməsi isə vergi ödəyicisinin birinci dərəcəli vəzifəsidir.

Düzgün təşkil olunmuş və vaxtında aparılmış hesablaşmalar (o cümlədən büdcə ilə) son nəticədə geniş təkrar istehsalının fasiləsizliyini, dövriyyə vəsaitlərinin dövriyyə qabiliyyətini və təsərrüfat subyektlərinin müstəqilliyini təmin edir.

Baş mühasib və hesablaşma şöbəsinin mühasibi təşkilatlarla apanlan hesablaşmaların uçotunu dəqiq və vaxtında aparmaqla yanaşı, həm də hesablaşma əməliyyatlarının sənədlərlə rəsmiləşdirilməsini düzgün həyata keçirməli, böyük həcmdə debitor və kreditor borclarının yaranmasına, onların iddia müddətlərinin keçməsinə yol verməməli və mütəmadi olaraq hesablaşmaların qarşılıqlı yoxlanmasını aparmalıdır.

Büdcə ilə hesablaşmalann uçotunun məqsədi - iqtisadi subyektlərin (sahibkarların) cari hesabat dövrü ərzində həyata keçirdiyi təsərrüfat əməliyyatlarının vergiyə cəlb edilməsindən, vergilərin düzgün hesablanması, tam və vaxtında büdcəyə ödənilməsi üzrə nəzarətdən, daxili və xarici istifadəçilərin tam, etibarlı informasiya ilə təmin edilməsindən ibarətdir.

Vergi öhdəliyi üzrə büdcə ilə hesablaşmalann uçotunun apanlma məqsədləri kimi onların qarşısında duran vəzifələr də fərqlidir. Vergilər üzrə büdcə ilə hesablaşmaların uçotunun əsas vəzifəsi vergi qanunvericiliyində nəzərdə tutulmuş qaydada hesabat dövrünün vergitutma bazasının müəyən edilməsi üçün lazım olan gəlir və xərclərin formalaşması qaydası haqqında tam və dürüst informasiya topla

maqdan və hesablanmış verginin tam və vaxtında büdcəyə köçürülməsi üzərində nəzarətin həyata keçirilməsindən ibarətdir.

Ölkə iqtisadiyyatında baş verən dəyişikliklər beynəlxalq standartlara əsaslanan milli sistemin yaradılması ilə əlaqədar mühasibat uçotunda əhəmiyyətli dəyişikliklərin aparılmasını tələb edir. Müəssisələrdə büdcə ilə hesablaşmaların uçot və auditinin təşkili iqtisadi işin tələb və vəzifələrinə cavab vermir, bir çox hallarda vergi uçotu və operativ rəhbərlik üçün lazım olan informasiyanın alınması təmin olunmur.

Beləliklə, yuxarıda deyilənləri ümumiləşdirərək büdcə ilə hesablaşmaların məqsəd və vəzifələri kimi aşağıdakıları göstərmək olar:

- pul vəsaitlərinin hərəkəti və hesablaşmalar üzrə əməliyyatların vaxtında və düzgün sənədləşdirilməsi;
- büdcə ilə hesablaşmaların tamlığı, düzgünlüyü və vaxtında həyata keçirilməsi üzərində nəzarət edilməsi;
- büdcə ilə hesablaşmalann müəyyən edilmiş formalarına riayət edilməsi üzərində nəzarət edilməısi;
- vaxtı keçmiş borcların olmaması məqsədilə büdcə ilə hesablaşmalann vaxtında yoxlanılması;
- vergi bazasının tam və düzgün müəyyən edilməsi;
- vergi dərəcələrinin düzgün tətbiq edilməsi, ödəmələr hesablanarkan riyazi hesablaşmalann və onlann uçotda əks etdirilməsi üzərində nəzarətin gücləndirilməsi;
- müvafiq hesabat formalarının düzgün tərtibi və vergi orqanlarına vaxtında təqdim edilməsi;
- **68** "Büdcə ilə hesablaşmalar" hesabı üzrə sintetik və analitik hesabın düzgün aparılması.

Büdcə ilə hesablaşmalann başlıca məqsədi qanunvericiliyin tələblərinə müvafiq olaraq müəssisənin büdcə qarşısında olan vergi öhdəliklərinin vaxtında və tam həcmdə ödənilmısinin təmin edilməsindən ibarətdir.

Beləliklə, indiki bazar iqtisadiyyatı şəraitində büdcədə nəzərdə tutulmuş tədbirlərin fasiləsiz olaraq həyata keçirilməsi yolu ilə aparılan islahatların əsas maliyyələşmə mənbəyi vergilərdir. Çünki bazar iqtisadiyyatı şəraitində dövlət büdcə gəlirlərinin əsas hisəsini məhz vergilər təşkil edir. İndiki keçid iqtisadiyyatı şəraitində vergilərin rolu və əhəmiyyəti daha da artır və demək olar ki, əvəzedilməzdir.

Vergilərin ölkənin sosial-iqtisadi inkişafının stabilliyinin təmin edilməsin- dəki rolu yalnız onlann fiskal funksiyasının yerinə yetirilməsi ilə məhdudlaşmır. İndiki bazar iqtisadiyyatı şəraitində vergilərin ödənilməsi mexanizmini müfəssəl bilməyən müasir müəssisə (firma) rəhbəri, sahibkar və aparıcı mütə.xəssisləri, o cümlədən bilavasitə vergi agenti funksiyasını yerinə yetirən mühasibləri təsəvvür etmək mümkün deyil. Bütün qeyd edilənlər dövlət vergi orqanları tərəfindən vergilərin hesablanmasının düzgünlüyü, vaxtında və tam olaraq dövlət büdcəsinə köçürməsi üzərində aparılan nəzarətin daha da gücləndirilməsini tələb edir.

Mövcud qanunvericiliyə uyğun olaraq vergi ödəyiciləri olan hüquqi və fiziki şəxslər əldə etdikləri gəlirlərindən (əmlakından) vergi formasında büdcəyə ödəmə

lər həyata keçirirlər. Vergi ödəyiciləri tərəfindən büdcəyə ödənilən vergilər üzrə vergitutma bazasının düzgün müəyyən edilməsi, ayrı-ayn vergi növlərinin düzgün hesablanması, onların mühasibat və vergi uçotunun düzgün aparılması üzərində nəzarət sisteminin gücləndirilməsi olduqca böyük əhəmiyyət kəsb edir.

Məlumdur ki, mühasibat uçotunun lazımı qaydada aparılması, vergi qanunvericiliyinin yaxşı mənimsənilməsi təsərrüfat subyektləri və fərdi sahibkarlar tərəfindən büdcə qarşısındakı öhdəliklərinin vaxtında və tam yerinə yetirilməsi üşün əsas kimi xidmət edir.

Müəssisələr tərəfindən büdcəyə ödənilən vergilərin çoxsaylı olması hər bir müəssisənin mühasibatlığı qarşısında ciddi və məsuliyyətli vəzifələr qoyur. Bu səbəbdən müəssisələr hər bir vergi növü üzrə düzgün hesablama əməliyyatı aparmalı, büdcəyə çatası məbləği dəqiq müəyyən və həmin məbləğin büdcəyə tam və vaxtında ödənilməsini təmin etməlidirlər.

Müəssisənin digər struktur bölmələrindən fərqli olaraq onun ürəyi olan mühasibatlıq vergi qanunvericiliyində edilən dəyişikliklərə münasibətdə daha həssasdır. Düzgünlüyü, tezliyi və vaxtında apaniması baxımından, müəssisələrdə aparılan planlaşdırma və proqnozlaşdırma, büdcə ilə qarşılıqlı hesablaşmaların uçotu qaydası vergi sisteminin dəqiq və qeyri-dəqiq olasından birbaşa asılıdır.

Müəssisələrdə büdcə ilə hesablaşmaların uçotunun təşkili iqtisadi işin tələb və vəzifələrinə cavab vermir, bir çox hallarda isə vergi uçotu və operativ rəhbərlik üçün lazım olan informasiyanın alınması təmin edilmir. Məhz bu səbəbdən Azərbaycan Respublikasının vergi sistemində mövcud olan əsas vergi növlərinin hesablanması, ödənilmıəsi və büdcəyə köçürülməsi üzrə təsərrüfat əməliyyatlarının mühasibat uçotu qaydasının aparılması metodikasının daha geniş formada şərh edilməsinə çalışmışıq.

3.2. Vergi öhdəlikləri üzrə mühasibat uçotunun təşkili prinsipləri

}Ial-hazırda müəssisələr özünün istehsal, kommersiya, vasitəçilik və digər fəaliyyəti prosesi zamanı çoxsaylı təşkilatlarla müxtəlif hesablaşmalar həyata keçirirlər. Müəssisələrin apardıqları hesablaşma əməliyyatları arasında ən önəmli yeri vergi öhdəlikləri üzrə büdcə ilə hesablaşmalar tutur. Çünki, qanunvericiliyə uyğun olaraq gəlir əldə etmək məqsədilə müəyyən fəaliyyət növü ilə məşğul olan istənilən şəxs vergi ödəməli və deməli müvafiq olaraq özünün vergi öhdəlikləri üzrə büdcə ilə hesablaşmalar aparmalıdır.

Mövcud qanunvericiliyə uyğun olaraq müəssisələrin vergiyə cəlb edilməsi aşağıdakı lan nəzərdə tutur:

- vergitutma obyektinin həcminin müəyyən edilməsi;
- uçot göstəricilərinə əsasən formalaşmış vergitutma bazası və müəyyən edilmiş vergi dərəcəsinə əsasən büdcəyə ödəniləsi vergi məbləğinin hesablanması;
- hesablanmış vergi ödənişləri üzrə büdcə ilə hesablaşmalann həyata keçirilməsi;
- vergi bəyannamələrinin tərtibi və vergi orqanlarına təqdim edilməsi.

Vergitutma bazasını təşkil edən əsas göstəricilər, o cümlədən məhsul satışı və alınmış mənfəətin həcmi müəssisənin mühasibat uçotu sistemində əks olunur.

Mühasibat uçotu vo hesabatı haqqında qaydaya əsasən hesabatda əks olunuş vergi məbləğləri vergi orqanları və büdcədənkənar dövlət fondlanndakı məbləğlərlə eynilik təşkil etməli və razılaşdırılmalıdır. Müəssisənin balansında vergi öhdəlikləri üzrə hesablaşmalarda tənzimlənməyən məbləğlərin əks olunmasına icazə verilmir.

Vergi öhdəlikləri yalnız ödənilməli olan vergi məbləğinin müəyyən edilmiş müddətlərdə və qaydada Ödənildikdən sonra yerinə yetirilmiş hesab olunur. Vergi ödəyicisinin bank müəssisəsindəki hesablaşma və digər hesablarında və ya kassasında pul vəsaitinin, eləcə də əmlakının olub-olmamasından asılı olmayaraq vergi öhdəliklərinin yerinə yetirilməsi məcburidir.

Vergi öhdəliklərinin yerinə yetirilməsi Mülki Məcəllədə nəzərdə tutulmuş ardıcıllıqla həyata keçirilir. Vergi öhdəliyinin yaranması, dəyişdirilməsi və ya ləğv edilməsi üçün əsaslar, eləcə də vergi öhdəliyinin yerinə yetirilməsi qaydası və şərtləri yalnız Vergi Məcəlləsi ilə müəyyən edilir və başqa şəxsin üzərinə qoyula bilməz. Vergi öhdəliyinin yaranması, dəyişdirilməsi və ya ləğv edilməsi üçün əsaslar, eləcə də vergi öhdəliyinin yerinə yetirilməsi qaydası və şərtləri yalnız Vergi Məcəlləsi ilə müəyyən edilir.

Büdcə ilə hesablaşmalann əsasını təsərrüfat subyektlərinin vergi öhdəlikləri təşkil edir. Vergi öhdəliyi müəssisələrin (vergi agentlərinin, fərdi sahibkarların) qanunvericilikdə müəyyən edilmiş qaydada vo hallarda müəyyən edilən vergiləri (o cümlədən cari vergi ödəmələrini) ödəmək vəzifəsidir. Vergi qanunvericiliyində müəyyən edilmiş vergiləri ödəmək öhdəliyinin yaranması üçün iki əsas şərtin olması lazımdır: sözügedən şəxs vergi ödəyicisi olmalıdır və bu şəxsin vergi öhdəliklərinin elementləri müəyyən edilməlidir.

Vergi öhdəliyinin uçotunun mühasibat uçotu standartlarından nisbətən fərqli şəkildə, yəni vergi qanunvericiliyi çərçivəsində vergi öhdəliyi yaradan təsərrüfat əməliyyatlarını əks etdirməsi, təsərrüfat subyektlərinin büdcə ilə hesablaşmalarının tam və vaxtında aparılması üçün zəruridir.

Ölkəmizdə büdcə ilə hesblaşmaların həyata keçirilməsi məqsədilə vergilərin ödənilməsi üzrə öhdəliyin olub-olmamasından asılı olmayaraq hər bir təsərrüfat subyekti (sahibkar) fəaliyyət göslərdiri (yaşadaığı) ərazidəki vergi orqanında uçota alınmalıdır. Eyni zamanda vergi orqanları qanunvericilikdə nəzərdə tutulmuş qaydada vergi ödəyicilərinin uçotunu aparmalıdır.

Təsərrüfat subyektlərində həyata keçirilən əməliyyatların rəsmiləşdirilməsi, onun maliyyə vəziyyətində baş verən dəyişikliklərin əks etdirilməsi məqsədilə vergi ödəyicisinin mühasibat uçotunda qəbul edilmiş qaydaya müvafiq olaraq lazımi ilkin uçot sənədləri tətbiq edilir. Mövcud qanunvericiliyə uyğun olaraq təsərrüfat əməliyyatlarının xarakterindən və uçot əməliyyatlarının işlənməsi texnologiyasından asılı olaraq, vergitutma məqsədləri üçün ilkin sənədlərə əlavə rekvizitlər daxil etmək olar.

Vergi öhdəliklərinin yerinə yetirilməsi, yəni büdcəyə ödəniləcək vergilərin hesablanması və ödənilməsi üzrə əməliyyatlar elə təşkil olunmalıdır ki, hesabat (vergi) dövrü ərzində vergitutma obyektlərinin tam uçotu, vergitutma bazasının düzgün hesablanması, vergi bəyannamələrinin güzgün tərtib edilməsi və vergilərin vaxtında ödənilməsi təmin edilmiş olsun. Bu isə öz növbəsində vergi ödəyicilərin-

dən vergi qanunvericiliyinin tələblərinə uyğun vergi uçotunun təşkili üçün müvafiq uçot registr formalarının tətbiq olunmasını tələb edir.,

Mühasibat uçotu hesablarında əks etdirilməsi üçün qəbyl edilmiş ilkin sənədlərdə olan lazımi informasiya uçot registrlərində topfanmlı və sistemləşdirilməlidir. Vergi uçotunun aparılması üçün həmin uçot registrlərində müvafiq rekvizitlər nəzərdə tutulmalıdır və həmin registrin məlumatları vergi bazasının formalaşması prosedurunu tam əks etdirməlidir. Ona görə vergi ödəyiciləri uçot registrlərinin aparılması üzrə tələblərə riayət etmək şərtilə vergi uçotunu aparmaq məqsədilə əlavə registrlər tətbiq edə bilərlər.

Vergi Məcəlləsinin qəbul edilməsi və onun ölkə ərazisində fəaliyyət göstərən bütün müəssisələrdə eyni səviyyədə və istiqamətdə tətbiq edilməsi, mühasibat uçotunun digər bölmələri kimi büdcə ilə hesablaşma əməliyyatlannın uçotunun təkmil-ləşdirilməsini, vahid bir istiqamətə yönəldilməsini tələb edir.

Vergi öhdəliklərinin siyahısı olduqca geniş olmaqla yanaşı, büdcəyə köçürülən vergi ödəmələrinin mənbələri də müxtəlifdir. Ödənilmə mənbələrindən asılı olaraq müəssisələrin vergi öhdəliklərini aşağıdakı qruplara ayırmaq olar: işçilərin əmək haqqından tutulan vergilər (gəlir vergisi); məhsulun maya dəyərinə daxil edilən Vergilər (gömrük rüsumları); satışa aid edilən vergilər (ƏDV, aksizlər, mədən vergisi); müəssisənin mənfəətindən ödənilən vergilər (əmlak vergisi, torpaq vergisi, mənfəət vergisi); maliyyə nəticələrinə aid edilənlər (cərimələr, iqtisadi sanksiyalar).

Vergilər üzrə büdcə ilə hesablaşmalar haqqında məlumatları ümumiləşdirmək üçün mühasibat uçotunun hesablar planında **68** K**2**İ "Büdcə ilə hesablaşmalar" hesabı nəzərdə tutulmuşdur. Bu hesabın krediti üzrə büdcəyə ödəniləcək, debeti üzrə isə faktiki olaraq büdcəyə köçürülmüş (ödənilmiş) vergi məbləği, yaxud büdcənin müəssisəyə olan borcu (əvəzləşdiriləcək vergi məbləği) əks olunur. Hesablar planı və onun tətbiqinə dair təlimatda **68**>f**2**İi "Büdcə ilə hesablaşmalar" hesabına ayrı-ayrı vergi növləri üzrə subhesablann açılması təklif edilir. Hesabat dövrünün sonuna bu hesabın həm debet, həm də kredit qalığı ola bilər. Balans tərtib edilərkən **68** saylı hesabın debet qalığı balansın aktivində, kredit qalığı isə passivində əks olunur.

68 saylı hesabın eyni zamanda debet və kredit qalıqları olduğu hallarda, onlar arasındakı fərqi həmin hesabın yalnız bir tərəfində əks etmək olmaz. Məsələn, əgər baş kitabda **68** saylı hesabın debeti üzrə 5000 manat, krediti üzrə isə 8000 manat əks olunubsa, onda balansın aktivində 5000 manat, passivində isə 8000 manat əks olunmalıdır. Bu halda yalnız balansın passivində **68** saylı hesabın krediti üzrə 3000 manatın (8000-5000) əks olunması kobud səhv olar.

Dövlət büdcəsi və büdcədənkənar fondlarla pul hesablaşmaları müəssisənin qarşılıqlı hesablaşmalar sistemində xüsusi yer tutur. Büdcə ilə hesablaşmaların analitik uçotu elə qurulmalıdır ki, büdcəyə ödənilən hər bir vergi növü üzrə informasiya almaq mümkün olsun. Ona görə müəssisənin mühasibatlığmda müvafiq sintetik hesablar üzrə subhesablar açılır.

68Jf**2**İi "Büdcə ilə hesablamalar" hesabının sintetik və analitik uçotu ödənişlərin növü üzrə **8**X**2**İ jurnal-orderdə aparılır. **68** saylı hesab üzrə analitik uçot hər bir vergi növləri üzrə ayrıca aparılır. Hər bir ödəniş növü üçün onların ödənilməsi

və hesabatın (vergi bəyannaməsinin) vergi orqanına təqdim edilməsi müddəti müəyyən edilmişdir. Hər rübün sonunda vergi hesablamaları (haqq-hesablar) dəqiqləşdirilir. Bu zaman artıq ödənilmiş məbləğlər gələcək ödəmələr kimi uçota alınır, çatışmayan məbləğ isə tamamilə büdcəyə köçürülür.

İndi isə büdcəyə ödəniləcək vergi və yığımların hesablanması və ödənilməsi üzrə təsərrüfat əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi qaydasını nəzərdən keçirək.

Müəssisə və təşkilatlarda müvafiq vergi növləri üzrə vergilərin hesablanması və bununla da büdcəyə olan borcun yaranması üzrə əməliyyatlar **68**JST**2**İİ "Büdcə ilə hesablaşmalar" hesabının müvafiq subhesabları ilə müxabirləşməklə aşağıdakı hesabların debetində əks etdirilir:

20 Jfoli "Əsas istehsalat" (20, 25, 26, 29, 30) - məhsulun maya dəyərinə daxil edilən vergi və ödənişlərin məbləği;

70 Xfili "Əməyin ödənişi üzrə hesablaşmalar"- əmək haqqından tutulmuş gəlir vergisinin hesablanmış məbləği;

46 Xsli "Məhsulların (işlərin, xidmətlərin) satışı", **47**X**2**İİ "0sas vəsaitlərin satışı və sair xaric olması", 48 JV**2**İİ "Sair aktivlərin satışı"- satışa aid edilən vergilərin (mədən vergisi, aksiz vergisi, əlavə dəyər vergisi) məbləği;

42 JV**2**İİ "Ticarət əlavəsi (güzəşt)"- ticarət, ictimai iaşə və tədarük müəssisələrində satılmış mallara aid edilən dəyər vergisinin hesablanmış məbləği;

43 X**2**İİ "Kommersiya xərcləri"- kommersiya xərclərinin tərkibinə daxil edilən vergilərin məbləği;

44 X**2**İİ "Tədavül xərcləri"- ticarət, ictimai iaşə və tədarük müəssisələrində tədavül xərclərinin tərkibinə daxil edilən vergilərin məbləği;

75 X**2**İİ "Təsisçilərlə hesablaşmalar"- başqa müssisələrin nizamnamə kapitalında pay iştirakından əldə edilən gəlirlərdən hesablanmış vergi məbləği;

80 JV**2**İİ "Mənfəət və zərərlər"- maliyyə nəticələri hesabına ödənilən vergilər (əmlak vergisi, torpaq vergisi;

80 (81,88) X**2**İİ "Mənfəət və zərərlər" - xalis mənfəət hesabına ödənilən vergilər (maliyyə sanksiyaların və cərimələrin məbləği);

81 >f**2**İi "Mənfəətin istifadəsi"- müəssisənin mənfəətindən ödənilən vergilərin (mənfəət vergisi, sadələşmiş vergi) məbləği.

Müəssisə və təşkilatlarda vergilərin hesablanması üzrə təsərrüfat əməliyyatlarına dair hesabların müxabirləşməsi **1.1**. saylı cədvəldə verilmişdir.

İndi isə müəssisələr tərəfindən vergilərin büdcəyə köçürülməsi (ödənilməsi) üzrə təsərrüfat əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi qaydasını nəzərdən keçirək.

Hesablanmış vergi məbləğlərinin büdcəyə ödənilməsi (əvəzləşdirilməsi) üzrə təsərrüfat əməliyyatları **68** saylı hesabın debeti ilə müxabirləşməklə aşağıdakı hesabların kreditinə əks etdirilir:

1) **19**K**2**İİ "Əldə edilmiş qiymətlilər üzrə əlavə dəyər vergisi" hesabı - əldə edilmiş (alınmış) mal-material qiymətlilərinə, işlərə, xidmətlərə və mülkiyyət hüququna görə malsatanlara (podratçılara) ödənilmiş ƏDV əvəzləşdiriləcək vergi məbləği kimi uçota alındıqda;

Cədvəl 18

Müəssisələrdə vergilərin hesablanması və ödənilməsi üzrə təsərrüfat əməliyyatlarının ikili yazılış qaydasında əks etdirilməsi

Sıra >ssi	Əməliyyatın məzmunu	---------- 1	
		Dt	Kt
l.	Məhsulun maya dəyərinə daxil edilən vergilər hesablanmışdır	20	68
2.	Köməkşi istehsalatda məhsulun maya dəyərinə daxil edilən vergilər hesablanmışdır	23	68
3.	Ümumistehsalat xərclərinə aid edilən vergilər he.sablanmışdır	25	68
4.	Ümumtəsərrüfat xərclərinə aid edilən vergilər hesablanmışdır	26	68
5.	Xidmətedici istehsalat və təsərrüfatlara aid xərclərin tərkibinə daxil edilən vergilər hesablanmışdır	29	68
6.	Qeyri-əsaslı işlərin dəyərinə daxil edilən vergilər hesablanmışdır	30	68
7.	Ticarət, ictimai iaşə və tədarük müəssisələrində satılmış mallara aid əlavə dəyər vergisi hesablanmışdır	42	68
8.	Kommersiya xərclərinin təricibino daxil edilən vergilər hesablanmışdır	43	68
9.	Ticarət, ictimai iaşə və tədarük' müəssisələrində tədavül xərclərinin tərkibinə daxil edilən vergilər hesablanmışdır	44	68
10.	istehsal müəssisələrində satılmış məhsullar üzrə ƏDV və aksiz vergisi hesablanmışdır	46	68
11.	Satılmiş əsas vəsaitlər üzrə ƏDV hesablanmışdır	47	68
12.	Satılmiş qeyri-maddi aktivlər üzrə ƏDV hesablanmışdır	48	68
13.	işçilərin əmək haqqından gəlir vergisi tutulmuşdur	70	68
14.	Başqa müəssisələrin nizamnamə kapitalında iştirakdan əldə edilən gəlirdən vergilər hesablanmışdır	75	68
15.	Hüquqi şəxslərin əmlak vergisi hesablanmışdır	80	68
16.	Hüquqi şəxslərin mənfəət vergisi hesablanmışdır	81	68
17.	İqtisadi sanksiyalar üzrə büdcəyə olan borclar hesablanmışdır	88	68
18.	Alınmış maddi qiymətlilər (mal, material, iş və xidmətlər) üzrə malsatanlann (sifarişçilərin) təqdim etdikləri vergi hesab-fakturalannda əks etdirilmiş ƏDV-nin məbləği əvəzləşdirilmişdir	68	19
19.	Vergi, rüsum və iqtisadi sanksiyalara görə yaranmış borclar müəssisənin kassasından ödənmişdir	68	50
20.	Vergi, rüsum və iqtisadi sanksiyalara görə yaranmış borclar müəssisənin bankdakı hesablaşma hesabından köçürülmüşdür	68	51
21.	Vergi, rüsum və iqtisadi sanksiyalara görə yaranmış borclar müəssisənin bankdakı valyuta hesabından köçürülmüşdür	68	52
22.	Vergilər, rüsumlar və iqtisadi sanksiyalara görə yaranmış borclar büdcəyə müəssisənin bankdakı xüsusi hesabından köçürülmüşdür	68	55
23.	Vergi, rüsum və iqtisadi sanksiyalara görə yaranmış borclar müəssisənin qısamüddətli bank kreditləri hesabından ödənilmişdir	68	90
24.	Vergi, rüsum və iqtisadi sanksiyalara görə yaranmış borclar təhtəlhesab şəxslər vasitəsi ilə ödənilmişdir	68	71
25.	Büdcəyə bir və ya bir neçə vergi üzrə olan borc məbləği, vergi orqanının yazılı razılıq məktubuna əsasən artıq ödənilmiş başqa vergi növü ilə əvəzləşdirilmişdir	'68	68

2) 51>T2İİ “Hesablaşma hesabı” hesabı - hesablanmış vergilər (rüsumlar, maliyyə sanksiyaları, cərimələr) büdcəyə köçürüldükdə ;

3) SOJSToli “Kassa” hesabı - vergi, rüsum və iqtisadi sanksiyalar büdcəyə müəssisənin kassasından ödənildikdə;

4) 90JV2İİ “Qısamüddətli bank kreditləri” hesabı - vergilər üzrə büdcə qarşısında olan borc bank kreditləri hesabına ödənildikdə;

5) 52JSfeli “Valyuta hesabı” hesabı - vergi, rüsum və maliyyə sanksiyalarına görə yaranmış borelar büdeəyə müəssisənin bankdakı valyuta hesabında xariei valyuta ilə ödənildikdə;

6) SSXoli “Banklarda olan xüsusi hesablar” hesabı - vergi, rüsum və iqtisadi sanksiyalara görə yaranmış borelar büdeəyə müəssisənin bankdakı xüsusi hesabından ödənildikdə;

7) 71 JVsli “l'əhtəl hesab şəxslərlə hesablaşmalar” hesabı - vergi, rüsum və maliyyə sanksiyaları üzrə yaranmış borclar təhtəl hesab şəxslər vasitəsilə ödənildikdə.

Müəssisə və təşkilatlarda hesablanmış vergi, rüsum və iqtisadi sanksiya məbləğlərinin büdcəyə ödənilməsi və əvəzləşdirilməsi üzrə təsərrüfat əməliyyatları 18. saylı cədvəldə verilmişdir.

Müəssisə və təşkilatlarda onların vergi öhdəlikləri üzrə büdcə ilə hesablaşmaların təşkili prinsiplərini nəzərdən keçirdikdən sonra, ayrı-ayrı vergilərin hesablanması və ödənilməsi üzrə təsərrüfat əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi qaydasını nəzərdən keçirək.

3.3. Maliyyə nəticələri və mənfəətdən istifadənin uçotu

3.3.1. Satışdan olan maliyyə nəticələrinin uçotu

İndiki bazar iqtisadiyyatına keçid şəraitində istənilən təsərrüfat subyektinin sahibkarlıq fəaliyyətinin əsas məqsədi mənfəət əldə edilməsidir. Müəssisənin təsərrüfat-kommersiya fəaliyyətinin son maliyyə nəticəsi olan mənfəət istehsalın inkişafının stimullaşdınimasında böyük rol oynayır. Son maliyyə nəticəsi (balans mənfəəti) satışdan olan maliyyə nəticələrindən, həmçinin satışdankənar əməliyyatlardan olan və həmin əməliyyatlar üzrə xərclərin məbləği qədər azaldılmış gəlirlərdən formalaşır. Müəssisələr təsərrüfat fəaliyyəti prosesində mənfəətlə yanaşı nəzərdə tutulmamış zərər və itkilərə də malik ola bilərlər. Bu səbəbdən həm mənfəət, həm də zərərlər müvafiq maddələr üzrə və bütövlükdə maliyyə nəticələri uçotda öz əksini tapmalıdır.

İndi isə müəssisələrdə maliyyə nəticələrinin formalaşması üzrə təsərrüfat əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi metodikasını nəzərdən keçirək.

Müəssisənin hesabat ilindəki fəaliyyətinin maliyyə nəticələri haqqında informasiyanı ümumiləşdirmək üçün mühasibat uçotunun hesablar planında 80 jYe li “Mənfəət və zərərlər” adlı aktiv-passiv sintetik hesab nəzərdə tutulmuşdur. Təsərrüfat əməliyyatları bu hesabda kamulyasiya prinsipi üzrə ilin əvvəlindən artan ye

kunla (istifadə olunmuş mənfəət məbləği də daxil olmaqla) əks etdirilir. Bu hesabın krediti üzrə mənfəət (gəlir), debeti üzrə isə zərər (itkilər) əks olunur.

Maliyyə nəticələrinin elementləri arasındakı fərq ondan ibarətdir ki, müəssisə əmlakının satışından olan maliyyə nəticələri əvvvəlcə satış hesablarında (46,47,48) müəyyən edilir və yalnız bundan sonra bu hesablardan 80 saylı hesaba silinir. Satışdankənar əməliyyatlardan olan gəlirlər isə satış hesablarına əks etdirmədən birbaşa maliyyə nəticələrinə silinir.

Satışdan olan maliyyə nəticələrinə hazır məhsulların (işlərin, xidmətlərin), əsas vəsaitlərin, qeri-maddi aktivlərin, materialların, qiymətli kağızların və digər aktivlərin satışından olan mənfəət daxildir. Məhsulların satışından olan mənfəət (zərər) hər ay 46 "Məhsulların (işlərin, xidmətlərin) satışı", əsas vəsaitlərin satışından olan mənfəət 47 "Əsas vəsaitlərin satışı və sair xaric olması", qeyri maddi aktivlərin satışından olan mənfəət isə 48 saylı"Sair aktivlərin satışı" hesabında aşkar edilir. Aşkar edilmiş maliyyə nəticələri 80 "Mənfəət və zərərlər" hesabına silinir: mənfəət müvafiq satış hesabları ilə müxabirləşməklə mənfəət 80 saylı hesabın kreditinə, zərər isə müvafiq satış hesabları ilə müxabirləşməklə 80 saylı hesabın debetinə silinir.

Müəssisələr mənfəətin əsas hissəsini malların, məhsullann, işlərin və xidmətlərin satışından əldə edirlər (satışdan olan maliyyə nəticələri). Məhsulların və malların satışından olan mənfəət mövcud bazar qiymətləri ilə (ƏDV və aksiz nəzərə alınmadan) məhsulların satışından əldə edilmiş pul vəsaitləri (satış pulu) ilə onların istehsalına (satışına) çəkilən və maya dəyərinə daxil edilən məsrəflər arasındakı fərq kimi müəyyən edilir. Satış pulu (satışdan olan gəlir) müəssisənin hesabat ili üçün uçot siyasəti qəbul edilərkən "ödəmə üzrə" (kassa) və ya "yükləmə üzrə" (hesablama) metodu üzrə müəyyən edilir.

Məhsullann satışından olan maliyyə nəticələri satış prosesinin cari uçot məlumatlarına əsasən müəyyən edilir. Məhsullann (işlərin, xidmətlərin) satışından olan maliyyə nəticələri 46 "Məhsullann (işlərin, xidmətlərin) satışı" adlı aktiv-passiv hesabda müəyyən edilir. 46 saylı hesabın krediti üzrə satışdan olan pul vəsaitləri, debeti üzrə aşağıdakılar əks olunur:

- satılmış məhsullann faktiki istehsalat maya dəyəri;
- satılmış məhsullara aid edilən kommersiya xərcləri;
- satılmış aksizli məhsullar üzrə hesablanmış aksiz məbləği;
- satılmış məhsullar üzrə ƏDV məbləği;
- frank-stansiya təyinatlı buraxılış qiymətləri üzrə məhsullann dəyərində alıcılar tərəfindən ödənilən (kommersiya xərclərinin tərkibinə aid olmayan) məhsulların yüklənməsi və satışı üzrə nəqliyyat xərcləri.

Ayın axırında 46 "Məhsul satışı" hesabının debet və kredit dövriyyələri hesablanılır. Bu hesabın kredit dövriyyəsini debet dövriyyəsi ilə tutuşdurmaqla məhsul satışından olan maliyyə nəticələri (mənfəət və ya zərər) müəyyən edilir. Hesabın kredit dövriyyəsinin (satış pulunun) debet dövriyyəsindən (satış pulu hesabına ödənilən xərclərdən) çox olması mənfəət, əksinə olduqda isə zərər məbləğini göstərir. Məhsullann satışından olan maliyyə nəticəsi hər ay 80 "Mənfəət və zərərlər" hesabına silinir: Dt 46; Kt 80 - mənfəət; Dt 80; Kt 46 - zərər.

46 sayii hesab üzrə yazılışların sxemi

Debet	Kredit
Satılmış məhsullann, görülmüş işlərin və göstərilmiş xidmətlərin faktiki maya dəyəri	Satılmış məhsullara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə alıcılardan (sifarişçilərdən) daxil olmuş pul vəsaiti (satış pulu)
Məhsul satışı ilə bağlı kommersiya xərcləri	
Satılmış məhsullar (işlər, xidmətlər) ÜtTƏ ƏDV	
	Məhsul satışından olan zərər
Məhsul satışından olan mənfəət	

Müəssisələr əsas məhsullardan (işlərdən, xidmətlərdən) başqa əsas vəsaitlər, qeyri-maddi aktivlər, istehsalat ehtiyatlan, qiymətli kağızlar və digər aktivlər də sata bilərlər. Əsas vəsaitlərin satışı üzrə təsərrüfat əməliyyatları 47 "Əsas vəsaitlərin satışı və sair xaric olması" hesabında uçota alınır.

Nəzərə almaq lazımdır ki, 47 saylı hesabda yalnız əsas vəsaitlərin satışı deyil, həmçinin onların müxtəlif səbəblərdən çıxması (silindikdə, ləğv edildikdə, əvəzsiz olaraq verildikdə, nizamnamə kapitalına maliyyə qoyuluşu kimi verildikdə) üzrə əməliyyatlar əks olunur. Bu zaman əsas vəsaitlərin əvəzsiz olaraq verilməsindən olan maliyyə nəticələri 47 saylı hesabından 87 "Əlavə kapital" (istehsal təyinatlı əsas vəsaitlər üzrə) və ya **88** "Bölüşdürülməmiş mənfəət" (qeyri istehsal təyinatlı əsas vəsaitlər üzrə) hesabına silinir. Digər səbəblərdən əsas vəsaitlərin istismardan çıxması üzrə maliyyə nəticələri 47 saylı hesabla müxabirləşməklə 80 "Mənfəət və zərərlər" hesabına silinir.

47 saylı hesab üzrə yazılışların sxemi

Debet	Kredit
Çıxmış əsa vəsaitlərin ilkin dəyəri	
	Çıxmış əsas vəsaitlər üzrə köhnəlmə məbləği
Çıxmış əsas vəsaitlərlə bağlı olan xərclər	Əsas vəsaitlərin satışından olan pul vəsaitləri və onlann ləğv olunması
Satılmış və əvəzsiz olaraq verilmiş əsas vəsaitlər üzrə ƏDV	zamanı alınmış materialların dəyəri
Əsas vəsaitlərin satışından olan mənfəət	
	Əsas vəsaitlərin satışından olan zərər

Hesabat dövrünün (ay, rüb) sonunda 47 saylı hesabın hər bir subhesab üzrə debet və kredit dövriyyələri hesablanır. Əsas vəsaitlərin satışından olan mənfəət onlann satış qiymətinin qalıq qiymətlərindən artıq olan hissəsi olmaqla, 47 hesabın kredit dövriyyəsinin debet dövriyyəsindən artıq olan hissəsi kimi müəyyən edilərək 80 saylı hesaba silinir. Debet dövriyyəsinin kredit dövriyyəsindən artıq olan hissəsi (zərər) isə 47 hesabın krediti ilə müxabirləşməklə 80 hesabın debetinə əks olunur.

Sair əmlakım (qeyri-maddi aktivlərin, mal-material qiymətlilərinin, pul sənədlərinin, qiymətli kağızların) satışından olan maliyyə nəticələri onların satış və qiymətləri və ilkin, yaxud qalıq (qeyri-maddi aktivlər və azqiymətli tezköhnələn əşyalar üçün) dəyərləri arasındakı fərq kimi müəyyən edilir.

Qeyri-maddi aktivlərin, material qiymətlilərinin, qiymətli kağızların satışından olan maliyyə nəticələrinin uçotu 48 "Sair aktivlərin satışı" hesabında aparılır. 48 saylı hesabın debeti üzrə satılmış əmlakın balans dəyəri, əmlak satışı ilə əlaqədar xərclər və ƏDV məbləği, krediti üzrə isə əmlakın satışından olan pul vəsaiti, satılmış qeyri-maddi aktivlər, azqiymətli və tezköhnələn əşyalar üzrə köhnəlmə məbləği əks olunur. 48 saylı hesab üzrə maliyyə nəticələri onun debet və krediti üzrə tutuşdurması yolu ilə müəyyən edilir. Dövriyyələr arasındakı fərq 46 saylı hesabda olduğu kimi 48 saylı hesabla müxabirləşməklə 80 "Mənfəət və zərərlər" hesabına silinir.

Satışdan olan maliyyə nəticələrindən başqa, müəssisələr bilavasitə 80 saylı hesabda uçota alınan və özlüyündə müxtəlif gəlir, xərc və itkilərdən ibarət olan satışdankənar maliyyə nəticələri də əldə edə bilərlər. Satışdankənar gəlir və xərclər (itkilər) müvafiq hesablarla müxabirləşməklə bu hesabın debet və kreditində əks olunur.

Qeyd etdiyimiz kimi müəssisələr təsərrüfat fəaliyyəti prosesində əsas fəaliyyətdən başqa satışdankənar əməliyyatlardan gəlir (zərər) əldə edirlər. Müəssisənin bilavasitə əsas fəali>7əti ilə bağlı olmayan gəlirləri satışdankənar gəlirlər adlanır. Satışdankənar əməliyyatlardan əldə edilən gəlirlər həmin əməliyyatlar üzrə çəkilmiş xərclərin məbləği qədər azaldılmış mənfəətdən ibarətdir.

İndi isə satışdankənar əməliyyatlardan əldə edilən gəlir və xərclərin mühasibat uçotunda əks etdirilməsi qaydasını nəzərdən keçirək. Satışdan olan gəlirlərdən fərqli olaraq satışdankənar əməliyyatlardan olan maliyyə nəticələri bilavasitə 80 "Mənfəət və zərərlər" hesabına silinir.

4$ saylı hesab üzrə yazılışların sxemi

Debet	Kredit
Satılmış əmlakın balans dəyəri Əmlakın satışı ilə əlaqədar xərclər və ƏDV məbləği Maddi aktivlərin satışından olan mənfəət	Maddi aktivlər, azqiymətli və tezköhnələn əşyalar üzrə köhnəlmə məbləği Maddi qiymətlilərin satışından olan pul vəsaiti Maddi qiymətlilərin satışından olan zərər

Satışdankənar əmoliyyatlardan əldə edilən gəlirlərlər aşağıdakı hesablarla müxabirləşməklə 80 "Mənfəət və zərərlər" hesabın krediti üzrə uçota almır:

Dt 46,47,48 - məhsulların, əsas vəsaitlərin və sair aktivlərin satışından mənfəət əldə edilmişdir;

Dt 76 - Azərbaycan Respublikası ərazisində və onun hüdudlarından kənarda başqa müəssisələrin fəaliyyətindəki pay iştirakından olan gəlirlər, səhmlər üzrə dividentlər, müəssisənin malik olduğu istiqraz və qiymətli kağızlar üzrə faizlərin hesablanması (Dt 51, 52; Kt 76 - daxil olması);

Dt 76 - təsərrüfat müqaviləsi şərtlərinin pozulmasına görə hesablanmış cərimə, peniya və digər sanksiya növləri, eləcə də dəymiş zərərlərin ödənilməsindən olan gəlirlər hesablandıqda (Dt 51,52; Kt 76 - daxil olduqda);

Dt 76 - iddia müddəti keçmiş kreditor (deponent) borclarının silinməsindən olan gəlirlər;

Dt 76 - əmlakın qısamüddətli icarəyə verilməsindən olan gəlirlər hcsablanıqda (Dt 51,52; Kt 76 - daxil olduqda);

Dt 83 - uzunmüddətli icarədən olan gəlirlərin cari hesabat dövrünə aid olan hissəsinin silinməsi;

Dt 83 - ilin sonunda valyuta məzənnəsinin dəyişməsi ilə əlaqədar yaranmış müsbət məzənnə fərqinin silinməsi;

Dt 83 - gələcək dövrlərin gəlirlərinin cari hesabat dövrlərinin maliyyə nəticələ- inə aid edilən hissəsinin silinməsi;

Dt 82 - ilin sonunda ümidsiz borclar üzrə yaradılmış ehtiyat fondunun istifadə olunmamış hissəsinin cari ilin mənfəətinə silinməsi;

Dt 09 - uzunmüddətli icarəyə müqaviləsi üzrə faiz hesablandıqda;

Dt 10, 12, 40 - istehsal ehtiyatlarının və hazır məhsulun yenidən qiymətləndirilməsindən olan gəlirlər;

Dt 51,52 - əvvəllər silinmiş ümidsiz borcların daxil olması;

Dt 51 - valyuta satışından müsbət məzənnə fərqi daxil olmuşdur;

Dt 51 - digər müəssisələrdə pay iştirakından gəlirlər daxil olmuşdur;

Dt 51 - əvəzsiz olaraq vəsait daxil olmuşdur;

Dt 50 - inventarizasiya zamanı artıq gəlmiş pul vəsaitlərinin mədaxil edilməsi;

Dt 51, 52,63, 76 - hesabat ilində aşkar edilmiş keçmiş illərin mənfəəti;

Dt 01, 04, 07, 08, 10, 12, 40, 41 - inventarizasiya zamanı artıq gəlmiş mal- material qiymətlilərinin dəyəri;

Dt 52 - valyuta hesabı və valyuta əməliyyatları üzrə müsbət məzənnə fərqi.

80 "Mənfəət və zərərlər" hesabının debeti üzrə uçota alınan **satışdankənar zərər və itkilər** aşağıdakılardır:

Kt 46,47,48 - məhsulların, əsas vəsaitlərin və sair aktivlərin satışından zərər əldə edilmişdir;

Kt 20,21,23,25,26 - ləğv edilmiş istehsalat sifarişləri və məhsul verməyən istehsal üzrə məsrəflər (geri qaytarılan material qiymətliləri və kompensasiya məbləğləri çıxılmaqla);

Kt 10,12,12,70,69,23,25,26 - dayandırılmış istehsal güclərinin (obyektlərinin) saxlanılması üzrə məsrəflər (digər mənbələr hesabına ödənilən məsrəflərdən başqa);

Kt 26,76 - kənar səbəblərdən olan boşdayanmaların günahkarları tərəfindən kompensasiya olunmayan itkilər;

Kt 10,12,40 - hazır məhsulun və istehsalat ehtiyatlarının qiymətinin aşağı salınmasından olan itkilər;

Kt 51 - tara əməliyyatlarından olan zərərlər;

Kt 51 - hesabat ilində aşkar edilmiş keçmiş illərin zərəri;

Kt 51 - məhkəmə və arbitraj xərcləri;

Kt 51 - ödənilmiş cərimə, peniya, dəbbə pulu və təsərrüfat müqaviləsinin pozulmasına görə ödənilən digər sanksiyalar, eləcə də müəssisə tərəfindən zərərlərin ödənilməsi üzrə xərclər;

Kt 76 - iddia müddəti ötmüş debitor borclarının silinməsindən olan itkilər;

Kt 82 - alıcılardan (sifarişçilərdən) alınmamış borcların ödənilməsi üçün qüvvədə olan qanunvericiliyə uyğun olaraq yaradılmış ümidsiz borclar üzrə ehtiyat fonduna ayırmalann məbləği;

Kt 83 - ilin sonunda valyuta məzənnəsinin dəyişməsi ilə əlaqədar yaranmış mənfi məzənnə fərqindən yaranan zərər;

Kt 10, 12, 20, 40, 41, 70, 69, 60, 51 - təbii fəlakət, yanğın, qəza və digər fövqəladə hallar nəticəsində dəymiş konpcnsasiya olunmayan zərərlər;

Kt 76, 84 - günahkarı məhkəmə tərəfindən müəyyən edilməmiş oğurluq və çalışmamazlıqlardan olan zərərlər;

Kt 02 - **qısamüddətli icarəyə verilmiş əsas vəsaitlərin köhnəlmə məbləği;**

Kt 73 - borclu olan şəxsin ödəmə qabiliyyəti olmaması səbəbindən çatışma- mazlıq və oğurluqlar üzrə onun ödəməli olduğu borclann silinməsindən olan zərər;

Kt 52,60 - valyuta hesablan və xarici valyuta əməliyyatları üzrə mənfi məzənnə fərqləri;

Kt 68,76 - ümumi gəlir hesabına ödənilən vergilərin (əmlak, torpaq) məbləği;

Kt 63 - alıcılar (sifarişçilər) tərəfindən müqavilə öhdəliklərinin yerinə yetiril-məməsinə görə hesablanmış və tutulması mümkün olmayan cərimə sanksiyalarının silinməsindən olan zərər;

Kt 65 - sığorta orqanları tərəfindən kompensasiya olunmayan itkilər.

Satışdankənar əməliyyatlardan olan son maliyyə nəticəsi satışdankənar gəlirlərdən satışdankənar xərclərin çıxılması yolu ilə müəyyən edilir.

Ayın axırında 80 “Mənfəət və zərərlər” hesabının krediti üzrə müəssisənin əldə etdiyi ümumi mənfəətin, debeti üzrə isə çəkdiyi zərərin (itkinin) ümumi məbləği hesablanır. Müəssisə işinin son maliyyə nəticəsi (mənfəət və ya zərər) 80 saylı hesabın debet və kredit dövriyyələri arasındakı fərq kimi müəyyən edilir. Əgər bu hesabın kredit dövriyyəsi debet dövriyyəsindən çox olarsa, onda yaranmış fərq müəssisənin hesabat ilində əldə etdiyi mənfəət, əksinə olduqda isə zərər məbləğini göstərir. 80 saylı hesab birtərəfli saldoya malikdir. Əldə edilmiş mənfəət

müəssisə balansının passivində, zərər isə aktivində göstərilir. Alınmış mənfəət balans mənfəəti (zərəri) adlanır.

Beləliklə, balans mənfəəti (zərəri) müəssisə tərəfindən həyata keçirilmiş bütün təsərrüfat əməliyyatlarının mühasibat uçotuna və balans maddələrinin qiymətləndirilməsinə əsasən hesabat dövründə aşkar edilmiş son maliyyə nəticələrindən (mənfəət və zərər) ibarətdir.

Hesabat dövründə alınmış, lakin gələcək hesabat dövrlərinə aid olan gəlirlər mühasibat uçotu və hesabatında ayrıca maddədə gələcək dövrlərin gəlirləri kimi əks olunur. Bu gəlirlər vaxtı gəldikdə onların aid olduqları müvafiq hesabat dövrlərinin maliyyə nəticələrinə aid edilir.

Hesabat dövrünün balans mənfəəti (zərəri) və onun istifadə olunması balansda ayrıca əks olunur: alınmış mənfəət və onun avans olaraq istifadə olunması, bölüşdürülməmiş mənfəət balansın pasivində, faktiki alınmış zərər isə aktivində. Balansın valyutasına yalnız hesabat və keçmiş illərin bölüşdürülməmiş mənfəəti, yaxud ödənilməmiş zərəri daxil edilir.

Qüvvədə olan qanunvericiliyə əsasən mülkiyyət formasından və tabeçiliyindən asılı olmayaraq bütün müəssisələrin əldə etdiyikləri mənfəət vergiyə cəlb olunur. Mənfəət vergisi ödədikdən sonra yerdə qalan xalis mənfəət müəssisənin sərəncamında qalır və təsis sənədlərinə müvafiq olaraq xüsusi təyinatlı fondlar üzrə bölüşdürülür. Müəssisənin sərəncamında qalan bölüşdürülməsi üzrə təsərrüfat əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi qaydasını növbəti paraqrafda daha ətraflı nəzərdən keçirəcəyik

3.3.2. **Məhsul satışının uçotu**

Satış prosesi məhsulların (işlərin, xidmətlərin) satışı ilə bağlı təsərrüfat əməliyyatlannın məcmusundan ibarətdir. Məhsulların satışı alıcılarla (sifarişçilərlə) bağlanmış müqavilələrə əsasən həyata keçirilir. Məhsulların satışı Ü**2**trə təsərrüfat əməliyyatlarının mühasibat uçotu hesablarında əks etdirilməsində əsas məqsəd onların satışından olan maliyyə nəticələrinin müəyyən edilməsidir. Maliyyə nəticələri satış pulunun müəyyən edilməsi metodundan asılı olaraq hesablanır.

Mövcud qanunvericiliyə uyğun olaraq məhsulun satılma vaxtı iki metod üzrə müəyyən edilə bilər: "ödəmə üzrə" və "yükləmə üzrə". Azərbaycan Respublikasının Vergi Məcəlləsində bu metodlar müvafiq olaraq kassa və hesablama adlandırılır. "Ödəmə üzrə" (kassa) metodunun tətbiqi zamanı məhsul yüklənmiş mallara görə pul vəsaitləri hesablaşma hesabına daxil olduğu andan satılmış hesab edilir. Yükləmə üzrə (hesablama) metodu zamanı isə məhsul onun dəyərinin alıcılar tərəfindən ödəmilib-ödənilməməsindən asılı olmayaraq yükləndiyi və hesablaşma sənədlərinin alıcıya təqdim edildiyi (həmin mallara görə mülkiyyət hüququnun keçdiyi) andan satılmış hesab olunur. Müəssisələr məhsul satışının hansı metodunu tətbiq edəcəyini müstəqil seçir və özünün uçot siyasətində əks etdirir.

Vergilərin toplanma səviyyəsinin yüksəldilməsi məqsədləri üçün məhsul satışının hesablama metodu ilə müəyyən edilməsini məqsədəuyğun hesab etmək

olar. Lakin bu uçot metodu üzrə pul vəsaitlərinin dövriyyəsi başa çatmır. Metodiki baxımdan məhsul satışının ödəmə üzrə metodunun tətbiqi daha məqsədəuyğundur.

"Ödəmə üzrə" (kassa) metodunun tətbiqi zamanı bank çıxarışlarına, kassa mədaxil orderlərinə və digər pul sənədlərinə əsasən satışdan əldə edilən pul vəsaitləri satış hesabının krediti, pul vəsaitlərini uçota alan hesabların isə debeti üzrə əks olunur (Dt 50, 51, 52 - Kt 46). Alıcılar tərəfindən ödənilmiş nəqliyyat xərclərinin məbləği 45 "Yüklənmiş mallar" hesabının krediti ilə müxabirləşməklə pul vəsaitlərini uçota alan hesabların debetinə əks olunur (Dt 50, 51, 52 - Kt 45). Dəyəri ödənilmiş məhsullar satılmış hesab edildiyi üçün dəyəri ödənilənədək 45 saylı hesabda uçota alınan məhsulların faktiki istehsalat maya dəyəri bu hesabın kreditindən satış hesabının debetinə silinir (Dt 46 - Kt 45). Əgər yüklənmiş məhsullar **45**JV**2**İİ hesabda uçot qiymətləri ilə uçota alınarsa, onda satılmış məhsullann maya dəyəri də uçot qiyməti ilə silinəcək, çünki bu halda faktiki istehsalat maya dəyərinin planda kənarlaşması birbaşa 37 >feli hesab bağlanarkən 46 Jf**2**İi hesaba silinir.

Əgər hazır məhsul 45 saylı hesabda faktiki maya dəyəri üzrə, cari uçotda isə kənarlaşmalar əks olunmaqla uçot (normativ) maya dəyəri ilə qiymətləndirilirsə, onda bu halda eyni mühasibat yazılışı tərtib etməklə (Dt 45 - Kt 46) əvvəlcə satılmış məhsulun normativ (plan) istehsalat maya dəyəri, sonra isə faktiki maya dəyərindən kənarlaşmaların məbləği silinəcək. Artıq məsrəf (faktiki maya dəyəri plandan çox olduqda) əlavə (adi), qənaət (faktiki maya dəyəri plandan aşağı olduqda) olduqda isə qırmızı stomo mühasibat yazılışı tərtib etməklə silinir. 46 saylı hesaba silinəcək kənarlaşma məbləği yüklənmiş mallar üzrə cari ayda formalaşmış orta kənarlaşma faizinə əsasən müəyyən edilir.

"Ödəmə üzrə" metodunun tətbiqi zamanı yüklənmiş məhsullar onlara görə alıcılardan ödəniş daxil olduqdan sonra satılmış hesab edildiyi üçün mövcud qanunvericiliyə uyğun olaraq müəssisələr satılmış mallar üzrə əlavə dəyər vergisi hesablamalıdır. Bu zaman hesablanmış vergi məbləği **68** "Büdcə ilə hesablaşmalar" hesabının krediti ilə müxabirləşməklə satış hesabına silinir (Dt 46 - Kt **68**).

Məhsulların satışı zamanı alıcılar tərəfindən ödənilən və satılmış mallara aid edilən (kommersiya xərclərinə deyil, məhsulun satış qiymətinə daxil olan) nəqliyyat (kommersiya) xərcləri həmçinin 46 saylı hesabın debetinə silinir. Bu xərclər 45 "Yüklənmiş mallar" hesabında uçota alınır və yalnız onların aid olduğu məhsullar satıldıqdan .sonra bu hesabın kreditindən satış hesabının debetinə silinir (Dt 46 - Kt 45). Onlar satılmış malların maya dəyərinə daxil olmadığı üçün bəzi müəssisələr onları alıcılardan ödəniş daxil olan kimi silirlər (Dt 50, 51, 52 - Kt 45).

Əgər müəssisələr 45 saylı hesabdan istifadə etmirsə, onda satılmış məhsulun faktiki istehsalat maya dəyəri və alıcılar tərəfindən ödənilən nəqliyyat xərcləri birbaşa 20 "Əsas istehsalat" və ya 40 "Hazır məhsul" hesabının kreditindən 46 saylı hesabın debetinə silinir. Nəhayət, malsatan müəssisənin satılmış mallar üzrə Ödədiyi ƏDV və aksizli mallar üzrə isə aksiz vergisinin məbləği həmçinin 46 saylı hesabın debetinə əks olunur.

"Ödəmə üzrə" metodu ilə məhsul satışı zamanı təsərrüfat əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi qaydası aşağıdakı kimidir:

1) Dt 45 "Yüklənmiş mallar";

Kt 40 “Hazır məhsul” - hazır məhsul alıcılara yüklənmişdir;

2) Dt 45 “Yüklənmiş mallar”;

Kt 43 “Kommersiya xərcləri”- satılmış məhsullara düşən kommersiya xərcləri silinib;

3) Dt 51 “Hesablaşma hesabı” (52, 50);

Kt 46 “Məhsullann (işlərin, xidmətlərin) satışı” - yüklənmiş məhsullara görə alıcılardan satış pulu daxil olmuşdur;

4) Dt 46 “Məhsullann (işlərin, xidmətləri) satışı”

Kt 45 “Yüklənmiş mallar” - satılmış məhsulların faktiki maya dəyəri silinmişdir;

5) Dt 46 “Məhsulların (işlərin, xidmətlərin) satışı”

Kt 68, subhesab “ƏDV üzrə hesablaşmalar” - satılmış məhsullar üzrə ƏDV məbləği hesablanıb.

Qeyd etdiyimiz kimi məhsul satışı uçotunun digər variantı satış pulunun “yükləmə üzrə” metodu ilə müəyyən edilməsidir. Bu metodun mahiyyəti ondan ibarətdir ki, məhsullar onların yükləndiyi və ödəniş üçün hesablaşma sənədlərinin alıcılara təqdim edildiyi andan satılmış hesab edilir. Yəni alıcılara yüklənmiş məhsullar onların dəyərinin alıcılar (sifarişçilər) tərəfindən ödənilib-ödənilməməsindən asılı olmayaraq satılmış hesab edilir. Bu halda 45>feli hesab tətbiq edilmir. Sənaye müəssisələri yüklənmiş mallara, yerinə yetirilmiş işlərə və göstərilmiş xidmətlərə görə hesablaşma sənədlərini alıcılara (sifarişçilərə) təqdim etdikcə, həmin malların (işlərin, xidmətlərin) dəyərini 46 “Məhsulların (işlərin, xidmətlərin) satışı” hesabının krediti ilə müxabirləşməkiə 62 “Alıcılar və sifarişçilərlə hesablaşmalar” hesabının debetinə əks etdirirlər. Eyni zamanda həmin malların (işlərin, xidmətlərin) maya dəyəri 40 “H^ır məhsul”, 20 “Əsas istehsalat” və ya 37 “Məhsul buraxılışı” hesabının kreditindən 46 “Məhsulların (işlərin, xidmətlərin) satışı” hesabının debetinə silinir. Məhsul satışı üzrə digər bütün əməliyyatlar (kommersiya və satış qiyməti ilə məhsullann dəyərindən əlavə ödənilən digər xərclər, ƏDV və aksizlər)birinci variantda, yəni “ödəmə üzrə” metodunda olduğu kimi əks olunur.

Birinci variantdan fərqli olaraq, məhsul satışının “yükləmə üzrə” metodunun tətbiqi zamanı ƏDV pul vəsaitləri hesablaşma hesabına daxil olduqdan sonra deyil, mallar alıcılara yükləndikcə və onlara görə tərtib edilmiş hesablaşma sənədləri alıcılara təqdim edildikcə hesablanır (Dt 46 - Kt 68).

“Yükləmə üzrə” metodu ilə məhsul satışı zamanı təsərrüfat əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi qaydası aşağıdakı kimidir:

1) Dt 62 “Alıcılar və sifarişçilərlə hesablaşmalar”;

Kt 46 “Məhsulların (işlərin, xidmətlərin) satışı” - yüklənmiş hazır məhsullara görə alıcıların borcu əks olunmuşdur;

2) Dt 46 “Məhsulların (işlərin, xidmətlərin) satışı”;

Kt 40 “Hazır məhsul” - yüklənmiş məhsullann faktiki maya dəyəri silinmişdir;

3) Dt 46 “Məhsulların (işlərin, xidmətlərin) satışı”;

Kt 68, subhesab “ƏDV üzrə hesablaşmalar”- satılmış məhsullar üzrə ƏDV məbləği hesablanıb;

4) Dt 46 “Məhsulların (işlərin, xidmətlərin) satışı”;

Kt 43 “Kommersiya xərcləri”- satılmış məhsullara düşən kommersiya xərcləri silinib;

5) Dt 51 “Hesablaşma hesabı” (52, 50);

Kt 62 - yüklənmiş məhsullara görə alıcıların borcu daxil olmuşdur.

Müəssisənin məhsul satışı üzrə hansı metod tətbiq etməklərindən aslı olmayaraq, hər iki halda məhsulların (işlərin, xidmətlərin) satışından olan maliyyə nəticələri 46 saylı hesabın debet və kredit dövriyyələrinin tutuşdurulması yolu ilə müəyyən edildikdən sonra 80 “Mənfəət və zərərlər” hesabına silinir

3.3.3. Müəssisənin sərəncamında qalan mənfəətdən istifadənin uçotu

Mənfəət müəssisənin bütün tələbatlarının əsas maliyyələşmə mənbəyi olduğu üçün onun bölüşdürülməsi sisteminin düzgün və iqtisadi eəhətdən əsaslandırılmış olması indiki bazar iqtisadiyyatı şəraitində mühüm əhəmiyyət kəsb edir. Mənfəətin bölüşdürülməsinin tətbiq edilən sistemi təsərrüfat subyektləri ilə yanaşı, həm də dövlətin maraqlarını təmin etməlidir.

Müəssisələr haqqında qanuna uyğun olaraq dövlət büdcəsinə vergi və digər məcburi ödənişləri ödədikdən sonra xalis mənfəət vergi ödəyicisinin sərəncamında qalır və ondan müstəqil istifadə edilməkdə sərbəstdirlər. Müəssisənin sərəncamında qalan mənfəət bazarın konyunkturası nəzərə alınmaqla müəyyən edilmiş normalar əsasında bölüşdürülür.

Müəssisənin əldə etdiyi mənfəət il ərzində artan yekunla ilin əvvəlindən balansda tam (bölüşdürülməmiş) göstərilir. Onun bölüşdürülməsi yalnız ilin sonunda (dekabrda) həyata keçirilir. Lakin hesabat ili (vergi) ərzində müəssisənin əldə etdiyi mənfəət müəyyən məqsədlər üçün istifadə olunur. Belə ki, alınmış mənfəət hesabına hər rüb büdcəyə mənfəət vergisi ödənilir, ehtiyat fonduna ayırmalar edilir, təsis sənədlərinə uyğun olaraq müvafiq istiqamətlər üzrə istifadə edilir, xalis mənfəət hesabına qanunvericilikdə nəzərdə tutulmuş xərclər ödənilir. Müəssisənin əldə etdiyi balans mənfəəti qeyd etdiyimiz kimi ilk növbədə mənfəət vergisinə cəlb olunur.

Müəssisə mövcud qanunvericiliyə və təsis sənədlərinə uyğun olaraq təqvim ili ərzində əldə etdiyi mənfəətdən istifadə edir. Mənfəət vergisi ödənildikdən sonra müəssisənin sərəncamında qalan mənfəət qanunvericilikdə müəyyən edilmiş normativlər üzrə xüsusi təyinatlı fond və ehtiyatların (istehlak, yığım və təsis sənədlərində müə>7ən edilmiş digər fondların və maliyyə ehtiyatlarının) yaradılmasına yönəldilir. Həmin fond və ehtiyatlar hər biri müəssisənin gələcəkdəki mümkün xərclərinin ödənilmə mənbəyi kimi məqsədli təyinata malikdir.

Hal-hazırda müəssisə mənfəəti (gəliri) aşağıdakı qaydada istifadə olunur:

> dövlət büdcəsinə mənfəət vergisi ödənilir;

> ehtiyat və digər xüsusi təyinatlı fondlara ayırmalar edilir;

> müəssisənin təsis sənədlərində nəzərdə tutulmuş digər ehtiyat və fondlar yaradılır.

Əgər müəssisədə xüsusi təyinatlı fondların yaradılması nəzərdə tutulmayıbsa, onda mənfəət vergisi ödənildikdən sonra onun sərəncamında xalis mənfəət təsərrüfat subyektinin istəyindən asılı olaraq aşağıdakı istiqamətlərdə istifadə olunur:

- elmi-tədqiqat, sınaq-konstruksiya, layihə və texnoloji işlər üzrə məsrəflərin ödənilməsinə;
- avadanlığın modernizə edilməsinə;
- yeni obyektlərin tikintisinin, genişləndirilməsinin, texniki cəhətdən yenidən təchiz edilməsinin, fəaliyyətdə olan istehsalın rekonstruksiyasının, avadanlıq və qeyri-maddi aktivlərin alınmasının maliyyələşdirilməsi;
- xüsusi dövriyyə vəsaitləri artımının maliyyələşdirilməsi;
- uzunmüddətli bank kreditlərinin ödənilməsi;
- qiymətli kağızların buraxılması (emissiyası) və onların digər müəssisələrin nizamnamə kapitalına maliyyə qoyuluşu kimi yerləşdirilməsi;
- kadr hazırlığı və onların ixtisasının artırılması;
- mədəni-maarif və idman-sağlamlıq bina və qurğularının saxlanması;
- məktəbəqədər uçaq müəssisələrinin saxlanması;
- yaşayış və qeyri-istehsal təyinatlı obyektlərin tikintisi, mənzil-kommunal təsərrüfatı, sanatoriya və müəssisə balansında olan digər obyektlərin zərərlərinin ödənilməsi;
- səhm və müəssisənin əmlakına əmək kollektivinin qoyuluşları üzrə dividentlərin ödənilməsi, işçilərə maddi yardım, əmək haqqına əlavə və pensiyaların verilməsi;
- xeyriyyə və digər məqsədlərə;
- işçilərə maddi yardım göstərilməsinə;
- kapital qoyuluşunun maliyyələşdirilməsinə;
- qeyri-istehsal təyinatlı fondların saxlanmasına;
- uzunmüddətli bank kreditlərinin ödənilməsinə;
- qiymətli kağızların buraxılması və yayılmasına;
- büdcə və büdcədənkənar fondlara cərimələrin (ətraf mühitin çirkləndirilmə- sinə və vergidən yayınmaya görə və s.) ödənilməsinə.

Müəssisələrdə xüsusi təyinatlı fondların yaradılması nəzərdə tutulduğu hallarda, ayrıca olaraq hər bir yığım və istehlak fondları üçün ayırmaların, eləcə də həmin vəsaitlərdən istifadənin smetası tərtib edilir. Fondlar yaradılmadıqda isə mənfəət vahid smeta üzrə istifadə olunur.

Təqvim ili ərzində mənfəətdən cari istifadənin uçotu 81 "Mənfəətin istifadəsi" adlı tənzimləyici kontraktiv hesabda uçota alınır. Bu hesabın debetində istifadə olunmuş bütün mənfəət məbləği, kreditində isə dekabr ayının son dövriyyəsinə əsasən istifadə olunmuş mənfəət məbləğinin silinməsi əks olunur.

Hal-hazırda 81 X**2** li hesabda bütün istifadə olunmuş mənfəət məbləği deyil, yalnız mənfəət vergisi üzrə dövlət büdcəsinə köçürülən cari vergi ödəmələri əks olunur. Bununla əlaqədar olaraq bu hesaba iki subhesab açılır:

81-1 "Mənfəətdən büdcəyə ödəmələr":

81-2 "Mənfəətin digər məqsədlər üçün istifadəsi".

81-1 "Mənfəətdən büdcəyə ödəmələr" subhesabında il ərzində mənfəətdən büdcəyə cari vergi ödəmələrinin məbləği və faktiki mənfəətə görə hesablanmış vergi məbləği uçota alınır. Büdcəyə ödəmələrin hesablanmış məbləği 68 saylı hesabın

"Mənfəət vergisi üzrə hesablaşmalar" subhcsabmm krediti ilə müxabirləşməklə bu subhesabın debetinə əks olunur.

Adətən 81-1 "Mənfəətdən büdcəyə ödəmələr" subhesabı üzrə analitik uçot aparılmır. Lazım olan analitik informasiya mənfəət vergisi üzrə bəyannamədən alınır. Uçotun jurnal-order formasında büdcə ilə hesablaşmaların sintetik uçotu **68** saylı hesabın krediti üzrə **8**>f**2**İi jurnal-orderdə, analitik uçot isə bu hesabın debeti üzrə **7**K**9**İİ cədvəldə aparılır (cədvəl 19.). 7>Toli cədvəl ay, rüb və il üçün açıla bilər. Bunun üçün cədvəldə qoyma vərəqlər nəzərdə tutulmuşdur. Hər bir debitor (kreditor) üçün cədvəldə müvafiq sayda sətir ayrılmışdır. Bütün hallarda **68** saylı hesabın krediti üzrə məbləğlər debetləşən hesablarla müxabirləşməklə əks olunur. Ayın sonunda ayn-ayn debitorlar (kreditorla) üzrə növbəti ayın əvvəlinə qalıq və bütövlükdə cədvəl üzrə yekun hesablanılır. Ay ərzində müxabirləşən hesabların kreditləri üzrə dövriyyələr **8**X**2**Ii jurnal-orderə köçürülür.

Cədvəl 19

Debitorlar (kreditorlar)	Ayın əvvəlinə qalıq			68 hesabın debet dövriyyəsi			Hesablann debeti ilə müxabirləşməklə 68 hesabın kredit dövriyyəsi		
	Dt	Kt	Borcun əmələgəlmə tarixi	Yaəilışın məzmunu və əsası	Müxabirləşən hesab	Məbləğ	Əməliyyatın məzmunu	81	
2	3	4	5	6	7	8	9	10	11
Dövlət vergi xidməti orqanları	*	-		Hesablaşma hesabından çıxarış	51	25000			
-//-	-	-		-//-	51	30000			
							Vergi bəyannaməsi	60000	
-//-					51	5000			
Cəmi						60000		60000	

Uçotun jurnal-order forması zamanı 81 saylı hesab üzrə sintetik uçot 15Jf2İi jurnal orderdə aparılır. 81 saylı hesabın analitik uçotu mənfəətdən istifadənin hər bir istiqaməti üzrə "81 və 83 saylı hesablann analitik məlumatları" adlanan ISJVbli jurnal-orderə əlavədə aparılır. ISJfeli jurnal-orderin bu hissəsi sintetik hesablar üzrə dövriyyə cədvəlinə malikdir: ayın əvvəlinə qalıq (debet), cari ayın dövriyyəsi (debet və kredit), ayın axırına qalıq (debet). Analitik məlumatların yazılışı mənfəətin istifadə olunma istiqamətləri (növləri) üzrə ilkin sənədlərə əsasən apanlır.

81 -2 "Mənfəətin başqa məqsədlərə istifadəsi" subhesabında müəssisənin ehtiyat kapitalına, müəssisə fəaliyyətinin və kollektivin sosial inkişafının həyata keçirilməsi üçün nəzərdə tutulmuş digər fondlara ayırmalar, eləcə də mənfəətdən istifadənin digər istiqamətləri əks olunur. Fondların yaradılması və mənfəətin digər

məqsədlər üçün istifadə edilməsi qaydası qanunvericilik və digər təsis sənədləri ilə tənzimlənir.

Beləliklə, 81 saylı hesab ilin sonunda bağlanır və müəssisənin illik balansında öz əksinin tapmır. 81 "Mənfəətin istifadəsi" əməliyyatların sintetik uçotu üçün **12**JN**9**İİ jurnal-orderdən istifadə olunur. Bu hesab üzrə analitik uçot ödəmə və ayırmaların növləri üzrə aparılır.

İndi isə mənfəətin digər məqsədlər üçün istifadəsi üzrə təsərrüfat əməliyyatlarının mühasibat uçotu hesablarında əks olunması qaydasını nəzərdən keçirək. Qeyd etdiyimiz kimi büdcəyə mənfəət vergisi ödənildikdən sonra qanunvericiliyə uyğun olaraq yerdə qalmış xalis mənfəət müəssisənin sərəncamına daxil olur. Həmin mənfəət hesabına müəssisə xüsusi təyinatlı fondlar (yığım, istehlak, sosial sfera) yaradır.

Xüsusi təyinatlı fondlar yaradılarkən mühasibat uçotunda aşağıdakı yazılış tərtib edilir:

Dt 81-1 "Mənfəətin digər məqsədlərə istifadəsi" ;

Kt 88 "Bölüşdürülməmiş mənfəət", müvafiq subhesablan.

Müəssisənin sərəncamında qalan mənfəət həmçinin qısa və uzunmüddətli kreditlər (xüsusi dövriyyə aktivlərinin əldə edilməsinə yönəldilmiş kreditlər istisna olmaqla) üzrə faizlərin ödənilməsi, əsas vəsaitlərin və qeyri-maddi aktivlərin əldə edilməsi üçün istifadə edilə bilər. Mənfəətin bu məqsədlərə yönəldilməsinə uçotda aşağıdakı yazılış tərtib edilir :

Dt 81-2 "Mənfəətin digər məqsədlərə istifadəsi"

Kt 51 "Hesablaşma hesabı" və ya 52 "Valyuta hesabı".

Bəzi hallarda vergitutulan mənfəətin gizlədilməsinə (azaldılmasına), qadağan olunmuş fəaliyyət növü ilə məşğul olduğuna və yaxud həmin fəaliyyətin göstərilməsi üçün lisenziyanın (xüsusi icazənin) olmadığına görə və digər qanun pozuntularına görə təsərrüfat subyektlərinə qarşı maliyyə sanksiyası tətbiq olunur. Bu cərimələr müəssisənin sərəncamında qalan mənfəət hesabına ödənilir. Həmin cərimələrin məbləği 68 "Büdcə ilə hesablaşmalar" hesabının krediti ilə müxabirləş- məklə 81-2 "Mənfəətin digər məqsədlərə istifadəsi" hesabının debetinə silinir.

Ezamiyyə xərclərinin qanunvericilikdə nəzərdə tutulmuş normalardan artıq olan hissəsi müəssisə rəhbərinin sərəncamına əsasən, həmçinin müəssisənin sərəncamında qalmış mənfəət hesabına ödənilir.

Beləliklə, hesabat ili ərzində 80 saylı hesabın krediti üzrə artan yekunla müəssisə mənfəətinin formalaşması, 81 saylı hesabın debeti üzrə isə mənfəət hesabına həyata keçirilən ödəmələrin məbləği əks olunur.

Qeyd etmək lazımdır ki, ilin sonunda illik balans tərtib edilərkən müəssisənin əldə etdiyi ümumi mənfəət məbləği istifadə olunmuş mənfəət məbləği qədər azaldılır. Yəni hər hesabat ili başa çatdıqdan sonra balans islahatı zamanı dekabr annın son mühasibat yazılışı tərtib edilməklə 80 və 81 Xb li hesablar bağlanır. Başqa sözlə, 81JNb li "Mənfəətin istifadəsi" hesabında uçota alınan hesabat ilinin mənfəətindən hesablanmış ödəmə və ayırmaların məbləği bu hesabın kreditindən 80Jsfo li "Mənfəət və zərərlər" hesabının debetinə silinir. Yəni balans islahatı nəticəsində

hesabat ilinin mənfəəti onun istifadə edilmiş məbləği qədər azaldılır və bu aşağıdakı mühasibat yazılışı tərtib edilməklə rəsmiləşdirilir

Dt 80 "Mənfəət və zərərlər";

Kt 81 "Mənfəətin istifadəsi".

Lakin qeyd etmək lazımdır ki, bir çox müəssisələrdə il ərzində 81 "Mənfəətin istifadəsi" hesabının debetində uçota alınmış istifadə olunmuş mənfəət məbləği, hesabat (təqvim) ili ərzində alınmış balans mənfəətinin məbləğindən (80 saylı hesabın kredit saldosundan) çox olur. Bu müəssisənin hesabat ilində maliyyə nəticələrini zərərlə başa vurduğunu göstərir. Belə hallarda həmin zərər məbləği tərtib edilmiş illik mühasibat balansında birbaşa "Hesabat ilinin zərəri" maddəsində əks olunur.

Büdcəyə vergi ödənildikdən sonra yerdə qalan mənfəət müəssisənin sərəncamında qalır. Hər yeni hesabat ilində 80 saylı hesab üzrə sıfınncı saldodan başlamaq lazım gəldiyi üçün müəssisənin sərəncamında qalan bölüşdürülməmiş mənfəət məbləği bu hesabın debetindən 88 "Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)" hesabının kreditinə silinir (Dt 80 - K.t 88). Əgər müəssisə maliyyə-təsərrüfat fəaliyyətini zərərlə başa vurarsa, onda hesabat ilinin zərəri 88 -1 saylı hesabın krediti ilə müxabirləşməklə 80 saylı hesabın debetinə əks olunur.

Müəssisələr qanunvericiliyə və təsis sənədlərinə uyğun olaraq sərəncamında qalan xalis mənfəət hesabına yığım, istchlak, ehtiyat və digər xüsusi təyinatlı fondlar (ehtiyatlar) yarada bilər. Xüsusi təyinatlı fondlara ayırmaların normativləri təsisçilərlə razılaşmaqla müəssisələrin özü tərəfindən müəyyən edilir. Xüsusi fondlara ayırmalar hər rüb aparılır. Bu zaman müəssisə mənfəətinin mənfəətdən ayırmaların məbləği qədər yenidənbölüşdürülməsi baş verir. Yəni müəssisənin bölüşdürülməmiş mənfəəti azalır, onun vəsaitləri hesabına yaradılmış fond və ehtiyatların məbləği isə artır. Bu əməliyyat nəticəsində 88 X**9**İİ hesabın "Hesabat ilinin bölüşdürülməmiş mənfəəti" subhesab debetləşir, həmin hesabın fondlarını uçota alan sub- hesabları isə kreditləşir.

Yaradılmış xüsusi təyinatlı fondlann (yığım, istehlak, sosial sfera) ayrıca uçota alınması məqsədilə 88 saylı hesaba ayrıca olaraq "Yığım fondu", "Sosial sfera fondu", "İstehlak fondu" subhesabları açılır. Müəssisədə istehsalın genişlənməsinə və təsis sənədlərində nəzərdə tutulmuş analoji məqsədlərə (yeni müəssisə əmlakının yaradılmasına) yönəldilmiş vəsaitlər yığım fondu adlanır. İstehlak fondunun vəsaitləri sosial inkişaf tədbirlərinin (kapital qoyuluşundan başqa) həyata keçirilməsi, müəssisə kollektivinin maddi həvəsləndirilməsi (mükafatlandırılması) və müəssisədə yeni əmlakın yaradılması ilə nəticələnməyən digər analoji tədbirlərin (işlərin) həyata keçirilməsi üçün nəzərdə tutulmuşdur. Hər bir fondun yaradılması və istifadə olunması üçün smeta tərtib olunur.

Bazar iqtisadiyyatı şəraitində sahibkarlıq fəaliyyəti hər bir müəssisənin fəaliyyət göstərməsi müəyyən risk tələb edir, yəni onun işgüzar riski artır. Bu məqsədlə müəssisələrdə xalis mənfəət hesabına yaradılan fondlardan biri də ehtiyat (risk) fondudur. Ehtiyat (risk) fondu - müəssisələrdə onların fəaliyyətinin dayandığı hallarda kreditor borclannm ödənilməsi, bu məqsədlər üçün müəssisənin xalis mənfəəti çatışmadığı hallarda istiqraz sahiblərinə müəssisənin istiqrazları üzrə faizlərin və qanunvericilikdə müəyyən edilmiş hallarda təsərrüfat fəaliyyətinin zərərlə

rinin ödənilməsi məqsədilə yaradılır. Ehtiyat fondu müəssisənin sərəncamında qalan faktiki mənfəət məbləğindən rüblük ayırmalar hesabına yaradılır. Ehtiyat fondunun həcmi müəssisənin Nizamnamə kapitalının 15 faizindən yuxarı olmamalıdır. Səhmdar cəmiy>'ətlər bu fonda həmçinin səhmlərin onların nominal dəyərindən yuxarı qiymətə satışından əldə edilmiş emissiya gəliri (səhmlərin nominal və satış dəyərləri arasındakı fərq) də daxil edilir.

Ehtiyat fondunun uçotu 86 "Ehtiyat kapitalı" adlı passiv, fond hesabında uçota almır. Mənfəət hesabına həyata keçirilən ehtiyat fonduna ayırmaların məbləği 88-1 "Cari ilin bölüşdürülməmiş mənfəəti" hesabının debeti, 86 saylı hesabın isə krediti üzrə əks olunur. Əldə edilmiş emissiya gəlirlərinin ehtiyat fonduna yönəldilmiş məbləği pul vəsaitlərini uçota alan hesablarla müxabirləşməklə bu hesabın kreditinə silinir (Dt 51, 52; Kt 86).

Konkret istehsalat və sosial tədbirlərin maliyyələşdirilməsinə yönəldilmiş mənfəət məbləği 88 "Bölüşdürülməmiş mənfəət" hesabının debeti, 96 "Məqsədli maliyyələşmə və daxilolmalar" hesabının krediti üzrə əks olunur.

Müəssisənin sərəncamında qalan xalis mənfəətdən vaxtı keçmiş kreditlər, eləcə də bəzi yerli vergi və yığımlar (məsələn, spirtli içkilərin və tütün məmulatlarının satışı üçün lisenziya alınmasına görə) üzrə faizlərin ödənilməsi üçün istifadə edilir. Xalis mənfəət hesabına ödənilən bütün bu xərclər xüsusi təyinatlı vəsaitlər hesabına silinir:

Dt 88-1 "Hesabat ilinin bölüşdürülməmiş mənfəəti"

Kt 68 "Büdcə ilə hesablaşmalar" - büdcəyə ödənişlərin məbləği

Kt 51 "Hesablaşma hesabı", 52 "Valyuta hesablan" - bank faizləri üzrə məbləğlər.

Hesabat ilinin bölüşdürülməmiş mənfəəti müəssisə təsisçilərinə gəlirlərin (dividentlərin) verilməsi üçün istifadə edilə bilər. Müəssisənin sərəncamında qalan xalis mənfəət hesabına təsisçilərə hesablanmış dividentlər kənar təsisçilərə hesablandıqda 75 "Təsisçilərlə hesablaşmalar", müəssisənin öz işçiləri olan iştirakçılara hesablandıqda isə 70 "Əməyin ödənişi üzrə işçi heyəti ilə hesablaşmalar" hesabının krediti ilə müxabirləşməklə 88-1 "Hesabat ilinin bölüşdürülməmiş mənfəəti" hesabın debetinə silinir. Hesabat ilinin bölüşdürülməmiş mənfəəti balansda aynca maddədə göstərilir.

Müəssisənin təsisçilərinə dividentlər ödənildikdən sonra yerdə qalan bölüşdürülməmiş mənfəət qalığı 88-1 "Hesabat ilinin bölüşdürülməmiş mənfəəti" subhesabında 88-2 "Keçmiş illərin bölüşdürülməmiş mənfəəti (örtülməmiş zərəri)" subhesabına keçirilir (Dt 88-1; Kt 88-2).

Keçmiş illərin bölüşdürülməmiş mənfəəti ehtiyat fondunun tamamlanması, xüsusi təyinatlı fondların artırılması və təsisçilərə əlavə gəlirlərin ödənilməsi üçün sərf edilə bilər. Həmin əməliyyatlara uçotda aşağıdakı mühasibat yazılışları tərtib edilir:

Dt 88-2 "Keçmiş illərin bölüşdürülməmiş mənfəəti"

Kt 86 "Ehtiyat fondu" - ehtiyat fonduna yönəldilmiş mənfəət məbləği;

Kt 88, müvafiq subhesablar - xüsusi təyinatlı fondların artınimasına sərf edilmiş mənfəət məbləği;

Kt 75 "Təsisçilərlə hesablaşmalar" - təsisçilərə verilmiş divident məbləği.



Şəkil 22. Mənfəətin istifadəsi və bölüşdürülməsi

Müəssisələr hesabat ilini zərərlə başa vurduğu hallarda həmin zərər müəssisənin öz xüsusi vəsaitləri hesabına örtülür (ödənilir) və bu əməliyyat uçotda aşağıdakı kimi əks olunur:

Dt 86 "Ehtiyat fondu" - ehtiyat fondunun vəsaitləri hesabına ödənildikdə;

Dt 75 "Təsisçilərlə hesablaşmalar" - təsisçilərin məqsədli ödənişləri hesabına ödənildikdə;

Kt 88-1 "Hesabat ilinin ödənilməmiş zərəri".

Cədvəl 20

MALİYYƏ NƏTİCƏLƏRİ VƏ MƏNFƏƏTDƏN İSTİFADƏNİN UÇOTU ÜZRƏ TƏSƏRRÜFAT ƏMƏLİYYATLARI

Sıra >fesi	ƏMƏLİYYATIN MƏZMUNU	Hesabların müxabirləşməsi	
		Dt	Kt
1	2	3	4
1.	Qiymətli kağızların nominal və alış dəyərləri arasındakı fərq hesablanmışdır (alış qiyməti nominal dəyərindən aşağıdır)	06,58	80
2.	İnventarizasiya zamanı aşkar edilmiş mal-material qiymətliləri mədaxil edilmişdir	10,12,40,41	80
3.	Uzunmüddətli icarə müqaviləsi üzrə faiz hesablanmışdır	09	80
4.	Məhsul (iş, xidmət) satışından mənfəət əks etdirildikdə	46	80
5.	Əsas vəsaitlərin satışından mənfəət əks etdirildikdə	47	80
6.	Qeyri-maddi aktivlərin, qiymətli kağızların, valyuta satışı üzrə mənfəət əks etdirildikdə	48	80
7.	Verilmiş borclar və alınmış istiqrazlardan faizlər, səhimlərdən dvidentlər, bəzi növ əmlakın icarəyə verilməsindən alınacaq vəsaitlər əks etdirildikdə	76	80
8	Müqavilə şərtlərinin yerinə yetrilməməsinə görə alınacaq cərimələr, müamilələr və dəbbə pulları	76	80
9	Hesablaşmalar üzj^ məzənnə fərqi əks olunduqda	60,62,76	80
10	Nominal dəyərdən aşağı qiymətə alınmış səhimlərin dəyəri artdıqda	06	80
11	Alınmış veksellər üzrə faiz hesablanmışdır	62	80
12	Təmin olunmuş iddialar üzrə alınası müamilələr	63	80
13	Ehtiyat və xüsusi fondlar hesabına hesabat ilinin zərəri ödənildikdə	86,88	80
14	Törəmə müəssisələr üzrə mənfəət hesablanmışdır	79	80
15.	Aşağıdakılar hesabat ilinin mənfəətinə birləşdirilmişdir; • əvvəlki ildə hesablanmış şübhəli borclar üzrə ehtiyatın istifadə olunmamış məbləği; • gələcək dövrlərin xərcləri və ödəmələri üçün yaradılmış ehtiyatın məbləği.	82 89	80 80
16.	İlin sonunda valyuta hesabı üzrə məzənnə fərqi silindikdə	83	80
17	Aşkar edilmiş çatışmamazlıqlar üzrə qiymətlər arasındakı müsbət fərq silinmişdir	84	80
18	Şübhəli borclar üzrə ehtiyat məbləğinin istifadə olunmamış hissəsi mənfəətə silinir	82	80
19	Müqaviləyə əsasən əvəzsiz olaraq daxil olmuş və qutaşdınımağa ehtiyacı olan əsas vəsaitləri mədaxili	07	80
20	Ovəzsiz olaraq alınmış əsas vəsaitlər	08	80
21	Əvəzsiz olaraq daxil omuş malların mədaxili	41	80
22	inventarizasiya zamanı aşkar edilmiş xammal və materialların uçota alınması	10	80
23	inventarizasiya zamanı aşkar edilmiş hazır məhsulun uçota alınması	40	80
24	inventarizasiya zamanı aşkar edilmiş malların uçota alınması	41	80

1	2 i 3 ! 4		
25	**Inventarizasiya zamanı kassada aşkar.edilmiş artıq pul , vəsaitlərinin uçota alınması**	50 ¡80	
26	**Əvəzsiz olaraq kassaya ödənilmiş nəğd pul vəsaiti**	50 i 80	
27	**Xarici valyuta ilə nəğd əməliyyatlann aparılması zamanı yaranmış müsbət məzənnə fərqi**	50	80
28	**Əmlakın icarəyə verilməsindən yaranan gəlir**	51	80
29	**Keçmiş illərin mənfəəti hesablaşma hesabına daxil olmuşdur**	51	80
30	**Əvəzsiz olaraq hesablaşma hesabına ödənilmiş pul vəsaiti**	51	80
31	**Səhimlərin və digər qiymətli kağızların satışından hesablaşma hesabına daxil olmuş vəsait**	51	80
32	**İcarəyə kötürən müqavilə müddəti bitdikdən sonra geri qaytarılacaq əsas vəsaitə köhnəlmə nesablamışdır**	80	02
33	**İstifadə hüququ başqa hüquqi şəxsə verilmiş qeyri maddi aktivlərə hesablanmış köhnəlmə**	80	05
34	**öz ilkin keyfiyyətini itirmiş xammal və materiallann yenidən qiymətləriİməsi**	80	10
35	**Məhsul, iş və xidmətlərin satışından zərər əks olunduqda**	80	46
36	**Əsas vəsaitlərin satışından zərər əks olunduqda**	80	47
37	**Qeyri-maddi aktivlərin, qiymətli kağızların, valyuta satışından zərər**	80	48
38	**Əskikgəlmələr üzrə məsrəflər zərərə silindikdə**	80	84
39	**İl ərzində istifadə olunmuş mənfəət məbləği silindikdə**	80	81
40	**İlin sonuna bölüşdürülməmiş mənfəət silindikdə**	80	88
41	**Nominal dəyərdən yuxan qiymətə alman qiymətli kağızlar üzrə həmin dəyərdən artıq olan hissə zərərə silinir**	80	06
42	**Çatışmayan quraşdınlası avadanlığın məbləği silinmişdir**	80	07
43	**Təbii fəlakət zamanı məhv olmuş və onun nəticələrinin aradan qaldınlması üçün istifadə edilmiş mal-material qiymətlilərinin dəyəri silinmişdir**	80	10,11,12,40,41
44	**Ləğv olunmuş sifarişlər üzrə məsrəflər və bitməmiş istehsalat itkiləri silinmişdir**	80	20,23,25, 26
45	**Mənfi məzənnə fərqi silinmişdir**	80	83
46	**İddia müddəti başa çatmış təqdim edilmiş iddia məbləğləri silinmişdir**	80	63
47	**Xarici valyuta hesablaşmaları uçota alınan hesablar üzrə məzənnə fərqi silinmişdir**	80	60,62,76, 90,92
48	**Alıcı tərəfindən kompensasiya edilməmiş borc silinmişdir**	80	62
49	**Cərimə, peniya, məhkəmə xərcləri və yığımlar ödənilmişdir**	80	50,51,52
50	**Mənfəət vergisi üzrə cari vergi ödəmələri hesablanmışdır**	81	68
51	**Şübhəli borclar üzrə ehtiyat məbləği hesablanmışdır**	81	82
52	**Uzunmüddətli maliyyə qoyuluşu əməliyyatları üzrə məzənnə fərqi silinmişdir:** • **müsbət** • **mənfi**	 06 80	 80 06
53	**Filiallarla hesablaşmalar üzrə məzənnə fərqi silinmişdir:** • **müsbət** • **mənfi**	 78 80,83	 80,83 78

1	2	3	4 j
54	Balans islahatı qaydasında istifadə olunmamış mənfəət məbləği silinmişdir	80	81
55	Hesabat ilinin bölüşdürülməmiş mənfəəti silinmişdir	80	88
56	Ehtiyat kapitalına və xüsusi təyinatlı fondlara ayırmalar aparılmışdır	81	86.88
57	Keçmiş illərin örtülməmiş zərəri silinmişdir	81	88
58	Hesabat ilinin zərəri silinmişdir	88	80
59	Gələcək dövrlərin gəlirləri hesabına ödənişlər daxil olmuşdur	50.51,52	83
60	Gələcək dövrlərin gəlirləri hesabına müxtəlif ödəmələr hesablanmışdır	76	83
61	Müəssisədək! iştirakına görə təsisçilərə (iştirakçılara) gəlir (divident) hesablanmışdır	81.86,88	75,70
62	Təsisçilərə pul vəsaiti və mal-material qiymətliləri verilmişdir	70,75	50,51,52, 46,47,48

Əgər zərərin mühasibat balansında saxlanılması və gələcək hesabat dövrlərinin gəlirləri (vəsaitləri) hesabına ödənilməsi haqqında qərar qəbul edilərsə, onda zərər məbləği 88 saylı hesabın bir subhesabından digərinə köçürülür (Dt 88-2; Kt 88-1).

Keçmiş illərin zərərinin silinməsi 88-2 "Keçmiş illərin ödənilməmiş zərəri" hesabının kreditindən onun ödənilməsinə yönəldilmiş vəsaitləri uçota alan hesabların debetinə silinir (Dt 86, 75; Kt 88-2).

Mənfəətin son bölgüsünün uçotu və 80 "Mənfəət və zərərlər" hesabının bağlanması xüsusi cədvəllərdə müvafiq hesabların debet və kreditləri üzrə əks olunur. Uçotun jurnal-order formasında bu yazılışlar 12 və 15 Keli jurnal-orderlərdə aparılır. İ 5 >f**2**İi jurnal-orderlərdə 81 "Mənfəətin istifadəsi" hesabının krediti, 80 "Mənfəət və zərərlər" hesabının debeti üzrə əməliyyatlar uçota alınır. İstifadə olunmuş mənfəətin silinməsi hər bir ödəniş və məsrəf üzrə ayrıca sətirdə aparılır.

3.4. **Mənfəət vergisi üzrə büdcə ilə hesablaşmalann uçotu**

Mühasibat uçotunun əsas vəzifələrindən biri müəssisənin büdcə qarşısında olan vergi öhdəliklərinin vaxtında və düzgün uçotunun təşkilindən ibarətdir. Qüvvədə olan vergi qanunvericiliyinə uyğun olaraq mülkiyyyət formasından və tabeçiliyindən asılı olmayaraq mənfəət əldə etmək məqsədilə sahibkarlıq fəaliyyəti göstərən hər bir hüquqi şəxsin vergilər üzrə büdcə qarşısında vergi öhdəlikləri yaranır. Qanunvericiliyin tələblərinə uyğun olaraq vergi öhdəlikləri üzrə büdcə ilə hesablaşmalann apaniması müəssisənin mühasibat xidməti qarşısında duran əsas vəzifələrdən biridir.

Verqi qanunvericiliyinə uyğun olaraq mülkiyyət formasından və tabeçiliyindən asılı olmayaraq mənfəət əldə etmək məqsədilə sahibkarlıq fəaliyyəti göstərən hər bir hüquqi şəxsin vergi öhdəlikləri üzrə büdcə ilə hesablaşmalar aparmaq öhdəlikləri yaranır. Dövlət büdcəsinə ödənilən mənfəət vergisinin həcmi, kommersiya fəaliyyətinin əsas məqsədi və vergilərin ödənilmə mənbəyi olan təsərrüfat subyektlərinin maliyyə nəticələrindən asılıdır. Mənfəət vergisi üzrə büdcə ilə hesablaşmalann apaniması müəssisələrin mühasibatlığı qarşısında duran əsas vəzifələrdən biridir.

indiki bazar iqtisadiyyatı şəraitində istənilən təsərrüfat subyektinin sahibkarlıq fəaliyyətinin əsas məqsədi mənfətin alınmasıdır. Mənfəət müəssisə fəaliyyətinin səmərəliliyini xarakterizə edən mühüm iqtisadi göstərici olmaqla yanaşı dövlər bü- cə gəlirlərinin əsas gəlir mənbələrindən biridir. Təsərrüfat subyektləri tərəfindən büdcəyə ödənilən və ümumilikdə büdcə vergi daxilolmaları arasında önəmli yer tutan vergilərdən biri də mənfəət vergisidir.

Vergiyə müəssisənin təsərrüfat-kommersiya fəaliyyətinin əsas məqsədi və vergilərin ödənilmə mənbəyi olan mənfəət cəlb olunur. Mənfəət vergisi dövləti iqtisadi prosesləri tənzimləmək, hökumətin inkişafına lazımınca effektiv təsir göstərmək imkanı verir. Eyni zamanda nəzərə almaq lazımdır ki, vergiqoyma olduqca kəskin alətdir. Bu baxımdan birbaşa vergi olmaqla mənfəət vergisi özününün əsas funksional təyinatını yerinə yetirməlidir. Başqa sözlə, mənfəət vergisi məhsul istehsalı sferasında investisiya proseslərinin stabil inkişafına, onun kapital-fiskal funksiyasının qanunu inkişafına maneçilik törətməməlidir. Məhz müəssisə fəaliyyətinin son maliyyə nəticəsindən ödənilən mənfəət vergisi dövlətə iqtisadiyyatın tənzimlənməsində vergi metodlarından istifadə etmək və əhəmiyyətli büdcə gəlirləri mənbəyinə malik olmaq imkanı verir.

Ölkəmizin rezident müəssisələri üçün vergitutma obyekti onun mənfəətidir. Vergi ödəyicisinin bütün gəlirləri (vergidən azad edilən gəlirdən başqa) ilə Vergi Məcəlləsinin X fəslində göstərilən gəlirdən çıxılan xərc arasındakı fərq mənfəət hesab olunur.httD://wvAv.e-Qanun.az/cache/code/0/c C 12.html- edn289

Azərbaycan Respublikasında özünün daimi nümayəndəliyi vasitəsilə fəaliyyət göstərən qeyri-rezident müəssisəsi bu fəaliyyətdən əldə etdiyi mənfəətindən, yəni daimi nümayəndəliyi ilə bağlı Azərbaycan mənbəyindən əldə etdiyi ümumi gəlirinin məcəlləyə uyğun olaraq həmin gəlirin əldə edilməsinə çəkilən xərclər çıxıldıqdan sonra qalan məbləğindən vergi ödəyir.

Qeyri-rezidentin daimi nümayəndəliyi ilə bağlı olmayan ümumi gəliri. Vergi Məcəlləsinin 125-ci maddəsində nəzərdə tutulduğu hallarda xərclər çıxılmadan ödəmə mənbəyində vergiyə cəlb olunur.

Azərbaycan Respublikasındakı daimi nümayəndəliklə bağlı olmayan əmlak təqdim edilməsindən gəlir əldə edən qeyri-rezident müəssisəsinin təqvim ili ərzində Azərbaycan mənbəyindən əldə etdiyi bu növ ümumi gəlirindən məcəllədə göstərilən və həmin dövrdə bu cür gəlirə aid olan xərclər çıxıldıqdan sonra vergi tutulur.

İndiki bazar iqtisadiyyatına keçid şəraitində fəaliyyət gösterən bütün müəssisə və təşkilatlar apardıqlan mühasibat uçotunu vergitutma məqsədləri üçün apanlan vergi uçotunun tələblərinə uyğunlaşdırmağa çalışırlar. Mənfəət vergisinin hesablanması sahəsində mühasibat mühasibat uçotunun əsas məqsədi Vergi Məcəlləsinin X fəslinin normaları üzrə mühasibat və vergi uçotlannm maksimum uyğunlaşdırılmasıdır. Mənfəət və zərərlər haqqında hesabat formasında göstərilən mühasibat mənfəəti (zərəri), bir qayda olaraq, təsərrüfat subyektlərinin tərtib etdikləri mənfəət vergisi üzrə bəyannamə-dəki vergitutulan mənfəətə (zərərə) uyğun gəlmir. Bu səbəbdən müəssisələr uçotu elə qurmağa çalışırlar ki, mühasibat mənfəəti və faktiki olaraq büdcəyə ödəniləcək mənfəət məbləği arasındakı fərqi əks etdirməyə imkan versin.

Qeyd etmək lazımdır ki, mənfəətin formalaşması üçün lazım olan əsas (vergi dövründə müəssisənin həyata keçirdiyi təsərrüfat əməliyyatları) eynidir. Ona görə hər iki uçot növündə əks olunan eyni əməliyyatları müqayisə etməklə vergi və mühasibat uçotlarındakı məlumatlannm uyğunsuzluq səbəblərini müəyyən etmək olar. Məhz bu səbəbdən hazırda bütün müəssisələr fərqlərin aşkar olunmasının bu prinsiplərinə əsasən hesablanmış mənfəət vergisinin mühasibat uçotunda əks etdirilməsinə çalışırlar.

Vergi uçotu anlayışı 1 yanvar 200l-ci ildən qüvvəyə minmiş yeni qəbul edilmiş Vergi Məcəlləsinə daxil edilmişdir. Həmin tarixə qədər vergitutma məqsədləri üçün mənfəət mühasibat uçotunun məlumatlarına əsasən müəyyən edilirdi. Vergitu- tulan mənfəəti müəyyən etmək üçün mühasibat mənfəəti (zərəri) korrektə olunurdu.

Mənfəət vergisinin vergitutma obyekti təsərrüfat subyektinin əldə etdiyi ümumi mənfəətdir. Ümumi mənfəət - məhsulların (işlərin, xidmətlərin), əsas vəsaitlərin (torpaq sahələri də daxil olmaqla), digər müəssisə əmlakının satışından və satışdankənar əməliyyatlardan olan və bu əməliyyatlar üzrə çəkilmiş xərclərin məbləği qədər azaldılmış gəlirlərdən formalaşır.

Ümumi mənfəət aşağıdakı kimi müəyyən edilir:

$$\mathbf{Msm = M_{„}s + Mdig + M_{„} - M_{Sg}} \qquad \mathbf{(1)}$$

burada Mms- məhsulların (işlərin, xidmətlərin) satışından olan mənfəət;

Mdig ~ sair satışdan olan mənfəət;

Msg - satışdankənar gəlirlər, man;

Msx - satışdankənar xərclər.

Müəssisə fəaliyyətinin maliyyə nəticələrinin hesablanmasında maliyyə-təsərrüfat əməliyyatlarının spesifikasını və bu məbləğlərin hesablanması xüsusiyyətlərini əks etdirən mənfəət və zərərlər, gəlir və xərclər haqqında mühasibat uçotu re- gistrlərində qeyd olunmuş çoxsaylı məlumatlardan istifadə olunur.

Bundan başqa, vergi tənzimlənməsinə satışdankənar gəlir və xərclərin müəyyən edilməsinə münasibətdə çoxlu yanaşmalar mövcuddur. Bəzi iqtisadçılar müəssisələrin əvəzsiz olaraq aldıqları mal-material qiymətlilərinin dəyərini gəlirlərin tərkibinə daxil edirlər ki, bu da fıskal məqsədlər üçün vergi ödəyicisinin onsuz da ağır olan vergi yükünü artırır. Balans mənfəətinə həmçinin başqa müəssisələrdə pay iştirakından olan gəlirlər də daxil edilir. Bu qəbildən olan gəlirlərdən ödəmə mənbəyində fərqli faiz dərəcəsi ilə vergi tutulduğu üçün Vergi Məcəlləsinə uyğun olaraq onlann təkrarən vergiyə cəlb olunmasına icazə verilmir.

Mühasibat uçotunda "ümumi mənfəət" anlayışından istifadə olunmadığı üçün mənfəət vergisinin hesablanması məqsədilə Vergi Məcəlləsinin tələbləri nəzərə alınmaqla korrektə olunmuş balans mənfəətindən istifadə edilir.

Müəssisənin əldə etdiyi ümumi mənfəət vergiqoyma məqsədləri üçün aşağıdakı formula üzrə korrektə edilir:

$$\mathbf{M\ kor. = Müm.- Mqal. + Myh^{*} + X_{„}a. + Əav. + Zqf. + Zjfc.,} \qquad \mathbf{(2)}$$

burada Mom. - ümumi mənfəət məbləği

Mqai.- yüklənmiş, lakin dəyəri ödənilməmiş məhsullar üzrə mənfəət (yükləmə üzrə metodu zamanı);

Myh- ~ faktiki maya dəyərindən yuxan olmayan qiymətlər üzrə məhsulların (işlərin, xidmətlərin) satışı, dəyişilməsi və əvəzsiz olaraq verilməsi zamanı, satış pulunun yenidən hesablanmasından olan mənfəət;

Xna* - normadan artıq xərclər;

Əav. - əvəzsiz olaraq alınmış əmlakın dəyəri;

Zs. - sair satışdan olan zərərlər;

Zqf- qiymətli kağızlann bazar və faktiki qiymətləri arasındakı fərq (müəyyən edilmiş tərəddüd həddi nəzərə alınmaqla);

Zsk - satışdankənar əməliyyatlardan olan xərclər.

Müəssisənin balans mənfəətinin formalaşması olduqca mürəkkəb proses olmaqla qarşılıqlı surətdə bağlı olaraq üç mərhələdə həyata keçirilir. *Birinc mərhələdə,* vergi orqanlan istisna olmaqla daxili və xarici istifadəçilər və yalnız mühasibat uçotu məqsədləri üçün nəz.ərdə tutulmuş maliyyə nəticələri hesablanır. Bu maliyyə nəticəsi gəlir və xərclər haqqında hesabatda (2 saylı formada) əks olunur və "yükləmə üzrə" (hesablama) metodu ilə müəyyən edilmiş hesabat məlumatlarını əks etdirir. Sözsüz ki, səyyar vergi yoxlaması həyata keçirdən auditor müəssisələrin tərtib edildiyi mühasibat məlumatlarının dürüstlüyünü 2 saylı hesabat formasının əsasında müfəssəl yoxlayır. Çünki mənfəət vergisi üzrə büdcəyə ödənilən cari vergi ödəmələri və hesabat dövrünün vergi öhdəlikləri üzrə sonrakı hesablamalar məhz həmin hesabat formasında göstərilən məbləğlərə əsasən müəyyən edilir.

İkinci mərhələdə, vergitutma məqsədləri üçün maliyyə nəticələrinin formalaşması, yəni onun vergitutma bazasının hesablanması üçün korrektə edilməsi həyata keçirilir. Təcrübə göstərir ki, məhz bu mərhələ çoxsayı sualların ortaya çıxması, səhvlər və vergilərin tam hesablanmaması ilə müşahidə olunur.

Sonuncu mərhələdə mənfəət vergisi üzrə cari vergi ödəmələri hesabat ilində faktiki alınmış mənfəətə görə hesablanmış vergi məbləği müqayisə edilərək büdcəyə ödəniləcək vergi məbləği dəqiqləşdirilir. Bu aşağıda göstərilən qaydada həyata keçirilir.

Mənfəət vergisi üzrə vergitutma bazasının düzgün hesablanması üçün müəssisənin gəlir və xərclərinin vcrgitutulan mənfəətin müəyyən edildiyi hesabat dövrünə düzgün aid edilməsi olduqca vacibdir. Qeyd etmək lazımdır ki, mühasibat uçotunda xərclər pul vəsaitlərinin ödənilməsi vaxtından asılı olmayaraq onların faktiki çəkildiyi hesabat dövrünün xərcləri kimi uçota alınır. Mühasibat uçotunda bu təsərrüfat fəaliyyəti faktlarının müvəqqəti müəyyənləşdirilməsi prinsipi adlanır. Həmin prinsipə əsasən müəssisələr satış pulunu müəyyən etmək üçün "ödəmə üzrə" və ya "yükləmə üzrə" metodundan istifadə edə bilərlər.

Vergi qanunvericiliyinə uyğun olaraq mənfəət vergisinin ödəyiciləri mənfəət vergisinin vergitutma bazasını hesablamaq üçün öz gəlir və xərclərinin ayrıca uçotunu aparmalıdır. Qeyd etmək lazımdır ki, bu zaman yalnız cari hesabat dövrünə aid olan gəlir və xərclər nəzərə alınmalıdır. Çünki müxtəlif hesabat dövrlərinə aid olan gəlir və xərclərinin tutuşdurulması vergitutma bazasını təhrif etməklə yanaşı, eyni obyektin təkrarən vergiyə cəlb olunması ilə nəticələnə bilər.

Bu baxımdan vergitutma məqsədləri üçün gə'llr və xərclərin uçotu qaydası hüquqi şəxslərin mənfəət vergisinin müəyyənləşdinİməsində həlledici amildir. Müəssisələr (sahibkarlar) vergi uçotunun təşkili məqsədilə vergitutulan mənfəətin (gəlirin) dəqiq əks etdirilməsi üçün sənədləşdirilmiş məlumatlara əsasən özünün gəlir və xərclərini onların əldə edildiyi və ya çəkildiyi müvafiq hesabat dövrlərinə aid etməlidir.

Vergi Məcəlləsinə uyğun olaraq vergi ödəyiciləri hesabat (vergi) ili ərzində eyni uçot metodunu tətbiq etmək şərti ilə gəlir və xərclərinin uçotunu kassa və ya hesablama metodu ilə apara bilərlər. Uçot metodu seçərkən istifadə ediləcək hesablar, onların müxabirləşməsi və təyinatını nəzərə almaq lazımdır. Çünki hər iki metodda gəlir və xərclərin uçota alınması vaxtı fərqlənir və bu səbəbdən hansı metodun tətbiq edilməsindən asılı olaraq məhsul satışı üzrə əməliyyatların uçotda əks etdirilməsi qaydası müxtəlifdir.

Hesablama metodu ilə vergi uçotu aparan müəssisələr (sahibkarlar) gəlirin faktiki əldə edilməsi vaxtından asılı olmayaraq, gəlir və xərclərini müvafiq olaraq gəlir almaq hüququnun əldə edildiyi və ya xərcin çəkilməsi öhdəliyinin yarandığı andan (vaxtdan) uçota almalıdırlar.

Hesablama metodu ilə uçotun mahiyyəti ondan ibarətdir ki, gəlirlər pul vəsaitlərinin, əmlakın (işlərin, xidmətlərin) və ya əmlak hüququnun faktiki daxil olub-olmamağından asılı olmayaraq, onların mövcud olduqları hesabat (vergi) dövrlərinin gəlirləri kimi hesab olunur.

Hesablama metodunda pul vəsaitlərinin (digər ödəniş formasının) faktiki ödənilməsi vaxtından asılı olmayaraq, xərclər onların aid olduqları hesabat (vergi) dövründə müəyyən edilir. Xərclər konkret icra müddəti göstərilmiş müqavilənin şərtləri, .həmçinin gəlir və xərclərin bərabər ölçülərlə, proporsional formalaşdın İması prinsipi nəzərə alınmaqla, onlann meydana çıxdığı hesabat (vergi) dövründə müəyyən edilir.

Əgər müqavilədə bir neçə hesabat dövrü ərzində gəlir əldə edilməsi və mal- İşrın (işlərin, xidmətlərin) mərhələlərlə verilməsi nəzərdə tutulmuşdursa, onda xərclər gəlir və xərclərin bərabər ölçülərlə müəyyən edilməsi prinsip üzrə bölüşdürülür. Xərclərin konkret olaraq hər hansı fəaliyyət növü üzrə çəkilmiş məsrəflərə bilavasitə aid edilməsi mümkün olmadığı hallarda isə, onlar müvafiq gəlirin (xərcin) vergi ödəyicisinin bütün gəlirlərinin (xərclərinin) ümumi həcmindəki müvafiq payına (xüsusi çəkisinə) mütənasib olaraq bölüşdürülür.

Kassa metodunun mahiyyəti ondan ibarətdir ki, pul vəsaitlərinin bankdakı hesaba (müəssisənin kassasına) daxil olduğu, malların (işlərin, xidmətlərin) daxil olduğu, əmlak hüququnun keçdiyi və debitor borclarının başqa üsullarla ödənildiyi gün gəlirlərin əldə olunma tarixi hesab olunur.

Qarşılıqlı hesablaşmalar zamanı vergi ödəyicisinin maliyyə öhdəliyinin ləğv edilmə və ya ödənilmə vaxtı gəlirin əldə olunma vaxtı sayılır.

Mallann dəyərinin alıcılar tərəfindən ödənilməsi onlann malsatanlar qarşısındakı öhdəliklərinin (borclannm) yerinə yetirilməsi (ödənilməsi) kimi qiymətləndirilir.

Vergi uçotu məqsədləri üçün kassa metodundan istifadə edildikdə, məsrəflərin faktiki çəkildiyi vaxt xərclərin çəkilmə vaxtı hesab olunur. Başqa sözlə, müəssisələr çəkilmiş məsrəflərin dəyərini faktiki olaraq ödədikdən sonra onun xərcləri sayılır. Əgər vergi ödəyicisi pul vəsaitini ödəyirsə, onda nağd pulların ödənildiyi an.

nağdsız ödəmələr zamanı isə pul vəsaitlərinin köçürülməsi haqqında ödəniş tapşırığının banka daxil olduğu tarix xərclərin çəkilmə vaxtı sayılır.

Bu metodun tətbiqi zamanı gəlirin əldə edilməsi vaxtı onun əldə edilmə hüququnun yarandığı vaxt hesab edilir. Yəni, vergi ödəyicisi müqavilə üzrə bütün öhdəliklərini yerinə yetirmişdirsə və müvafiq məbləğ vergi ödəyicisinə qeyri şərtsiz ödənilmişdirsə, onda gəlir almaq hüququ əldə edilmiş sayılır.Vergi qanunvericiliyinə uyğun olaraq müəssisələr vergitutma məqsədləri üçün öz gəlir və xərclərinin uçotunu yalnız kassa və ya hesablama metodu ilə apara bilərlər.

Vergi Məcəlləsinə uyğun olaraq mənfəət vergisi üçün hesabat dövrü təqvim ilidir. Ona görə də müəssisələr (fərdi sahibkarlar) mənfəət vergisi üzrə bəyannaməni hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanlarına təqdim etməlidirlər. Lakin məcəllənin 151-ci maddəsinə əsasən hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi Məcəlləsində cari vergi ödəmələrinin müəyyən edilməsinin iki metodu nəzərdə tutulmuşdur. Cari (avans) vergi ödəmələrinin birinci metoduna əsasən hər ödəmənin məbləği əvvəlki vergi ilində hesablanmış vergi məbləğinin 1/4 hissəsini təşkil edir.

İkinci metoduna əsasən vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini bu rübdəki gəlirinin həcmini onun keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyənləşdirə bilər. Bu halda ümumi gəlir hesablanarkən gəlirdən çıxılan xərclərin məbləği nəzərə alınmır, yəni verginin hesablanması üçün ümumi mənfəətin məbləği əsas götürülür. İkinci metodun tətbiqi zamanı cari (avans) vergi ödəmələrinin məbləği aşağıdakı düstur üzrə hesabların

$$\mathbf{Be = Vo/CoXCı} \qquad \mathbf{(3)}$$

Burada Bc - cari (avans) vergi ödəmələrinin məbləği;

Bo - keçən ildə ödənilən vergi məbləği;

CQ-keçən ildə müəssisənin aldığı ümumi gəlirin məbləği;

Cı - hesabat ilində alınmış gəlir.

Qeyd etmək lazımdır ki, vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dək bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda vergi orqanı birinci metodu tətbiq edir və həmin metod vergi ilinin sonunadək dəyişdirilmir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı məcəllənin 151-1-ci maddəsində nəzərdə tutulan, yəni birinci metodu tətbiq edir. http://wwvv.e-qanun.az/cache/code/0/c c 12.html- edn351

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən hüquqi şəxslərin və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslərin, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyici- lərinin (əvvəllər fəaliyyəti olmayan vergi ödəyiciləri) cari vergi ödəmələri aşağıda göstərilən qaydada həyata keçirilir:

Əvvəllər fəaliyyəti olmayan vergi ödəyicilərinin mənfəət vergisi üzrə cari vergi ödəmələri təqvim ili ərzində rüblər üzrə artan yekunla vergi dərəcəyə əsasən hesablanır. Bu zaman cari vergi ödəmələrinin məbləği mənfəətdən vergisi məbləğinin 75 faizindən az olmamalıdır.

Əvvəllər fəaliyyəti olmayan vergi ödəyiciləri rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidirlər. http://www.e-qanun.az/cache/code/0/c c 12.html - edn352

Cari vergi ödəmələri müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün əvvəllər fəaliyyəti olmayan vergi ödə- yicisindən ödənilməmiş cari vergi ödəmələrinə görə ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən və ya vergi agentindən ödənilməmiş vergi və ya cari vergi ödəməsi məbləğinin 0,1 faizi məbləğində faiz tutulur. Tutulmuş faiz aparılmış vergi yoxlaması nəticəsində aşkar edilmiş vaxtında ödənilməmiş vergilər üzrə cari vergi ödəmələrinə münasibətdə bütün ötmüş müddətə ancaq bir ildən çox olmamaq şərti ilə tətbiq edilir.

Cari vergi ödəmələri vergi ili üçün əvvəllər fəaliyyəti olmayan vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Sadələşdirilmiş verginin ödəyiciləri əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyata alındıqdan sonra cari vergi ödəmələrinin məbləği ümumi müəyyən olunmuş qaydada müəyyən edilir.

Əvvəllər fəaliyyəti olmayan vergi ödəyiciləri məcəllənin 16.2-ci və 151.5.3- cü maddələrində nəzərdə tutulmuş müvafiq arayışı təqdim etmədikləri halda, vergi orqanı cari vergi ödəmələrinin məbləğini məcəllənin 67-ci maddəsinə uyğun olaraq vergini əlaqəli məlumatlar əsasında hesablayır və vergi ödəyicisinə müvafiq bildiriş göndərir. http://www.e-qanun.az/cache/code/0/c c 12.html- edn353

Cari vergi ödəmələri hesabat ili başa çatdıqdan sonra yenidən haqq-hesab edilir və bu zaman hesablanmış cari vergi məbləği hesabat üzrə vergi məbləğindən çox olduğu halda artıq hesablanmış cari vergi və ona uyğun faiz məbləğləri azaldılır. http://wvm.e-qanun.az/cache/code/0/c c 12.html - edn354

Vergi ödəyiciləri vergi ili üçün bəyannamənin verilməsinin müəyyən edilmiş vaxtınadək son hesablamanı aparmalı və vergini ödəməlidirlər.

Müəssisələrin mənfəət vergisi üzrə hesabat ili ərzində hesabladığı və ödədiyi cari (avans) vergi ödəmələrinin uçota alınması üçün mühasibat uçotunun hesablar planında 68 “Büdcə ilə hesablaşmalar” hesabın “Mənfəət vergisi üzrə hesablaşmalar” subhesabı və 81 “Mənfəətin istifadəsi” hesabının “Mənfəətdən büdcəyə ödəmələr” subhesabı nəzərdə tutulmuşdur. Bu hesabların tətbiqi zamanı cari vergi ödəmələrinin hesablanması və ödənilməsi üzrə təsərrüfat əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi qaydası aşağıdakı kimidir.

Müəssisələrdə gəlir və xərclərin tətbiq olunan uçot metodundan asılı olaraq cari vergi ödəmələrinin uçotda əks etdirilməsi praktikasında müxtəlif mühasibat yazılışları tətbiq olunur. Məsələn, bəzən hesabat ili ərzində büdcəyə köçürülən cari vergi ödəmələri uçotda aşağıdakı yazılışlar tərtib etməklə rəsmiləşdirilir:

Dt **68**, "Mənfəət vergisi üzrə hesablaşmalar" ;

Kт 51 "Hesablaşma hesabı".

Bu cür yazılışa daha çox "kassa" metodu tətbiq edən müəssisələrdə rast gəlinir. Lakin nəzərə almaq lazımdır ki, bu yazılışın tətbiqi bir sıra çatışmamazlıqlara malikdir. Məsələn, hesabat ili ərzində **68** saylı hesabın debetində vergi məbləğinin toplandığı hallarda bu hesabın debet qalığı yaranır ki, bu da büdcənin müəssisəyə olan borcunu, yaxud müəssisənin büdcəyə artıq vergi ödədiyini göstərir.

Məlumdur ki, mühasibat uçotunun əsas vəzifələrindən biri də müəssisənin büdcə qarşısında olan vergi öhdəliyinin vaxtında və düzgün uçotunun təşkilindən ibarətdir. Bu məqsədlə il ərzində cari vergi ödəmələrinin dəqiq uçota alınması üçün hesablar planında **8**IJV**2**-İİ "Mənfəətin istifadəsi" adlı sintetik hesab nəzərdə tutulmuşdur. Bu hesabın tətbiqi zamanı cari vergi ödəmələrinin hesablanması və ödənilməsi mühasibat uçotunda aşağıdakı kimi əks olunur:

1) Dt 81 "Mənfəətin istifadəsi"
   Kt **68**, subhsab "Mənfəət vergisi üzrə hesablaşmalar" - hesablandıqda;
2) /1,T **68**, subhsab "Mənfəət vergisi üzrə hesablaşmalar";
   Kт 51 "Hesablaşma hesabı" - ödənildikdə.

Göründüyü kimi cari (avans) vergi ödəmələrinin mühasibat uçotunda nəzərdən keçirdiyimiz qaydada əks etdirilməsi **68** saylı hesab üzrə debet qalığının mümkünlüyü barədə xəbərdarlıq edir və müəssisənin vergi öhdəliklərinin mühasibat uçotunda düzgün qiymətləndirilməsini şərtləndirir.

Bundan başqa, **68** saylı hesabın debet və kredit dövriyyələrini müqayisə etməklə vergi öhdəliklərinin son vəziyyəti müəyyən edilir. Vergi Məcəlləsinin 151.4- cü maddəsinə uyğun olaraq hesabat ili ərzində ödənilmiş cari (avans) vergi ödəmələrinin məbləği vergi ilinə görə vergi ödəyicisindən tutulacaq vergi məbləğinə aid edilir. Ona görə, nəzəri cəhətdən **68** saylı hesabın debet və kredit dövriyyələrinin məbləğindən asılı olaraq bu hesabın həm kredit, həm də debet qalığı ola bilər. Hesabın debet qalığı büdcədən əvəzləşdiriləcək, kredit qalığı isə müəssisənin büdcə qarşısında ödənilməmiş vergi öhdəliyinin olduğunu göstərir.

Məhz buna görə də Vergi Məcəlləsinin 152.1-ci maddəsinə uyğun olaraq vergi ödəyiciləri hesabat ilinə görə son hesablama aparmalı və vergi bəyannaməsinin təqdim edilməsi üçün müəyyən edilmiş müddətədək vergi məbləğini ödəməlidir. Mənfəət vergisinin illik məbləği aşağıdakı formula üzrə müəyyən edilir:

$$V = (M - G) \times D/100; \qquad (4)$$

Burada V - verginin ümumi məbləği;

M - vergi qanunvericiliyində nəzərdə tutulmuş məbləğə qədər korrektə edilmiş ümumi mənfəət;

G - vergi güzəşti;

D - vergi dərəcəsi.

Hesabat ilinin sonunda müəssisə tərəfindən son maliyyə nəticələri müəyyən edildikdən sonra əldə edilmiş taktiki mənfəət məbləqinə əsasən mənfəət vergisi hesablanır. Əgər hesabat ilinin faktiki mənfəəti üzrə hesablanmış vergi məbləği hesabat ili ərzində ödənilmiş cari (avans) vergi ödəmələrinin məbləğindən çox olarsa, onda yaranmış fərq əlavə olaraq vergiyə cəlb olunur:

$$V \text{ əlavə} = (Vf\text{-}Va), \qquad (5)$$

burada Vf - mənfəət vergisinin faktiki məbləği;

Va-təqvim ili ərzində ödənilmiş avans vergi ödəmələrinin məbləği.

Bu əməliyyat aşağıdakı mühasibat yazılışı tərtib edilməklə rəsmiləşdirilir:

Dt 81-1, "Vergilər üzrə büdcə ilə hesablaşmalar"

Kt 68, subhsab "Mənfəət vergisi üzrə hesablaşmalar"

Əksinə, əgər hesabat ilinin nəticələrinə görə hesablanmış vergi məbləği hesabat ili ərzində ödənilmiş cari (avans) vergi ödəmələrindən çox olarsa, onda yaranmış fərq "qırmızı storno" üsulu ilə 68, hesabın "Mənfəət vergisi üzrə hesablaşmalar" subhsabı ilə müxabirləşməklə 81-1, "Vergilər üzrə büdcə ilə hesablaşmalar" hesabın debetinə silinir. Yaxud büdcədən geri qaytarılacaq artıq ödənilmiş vergi məbləği aşağıdakı mühasinat yazılışı tərtib etməklə birbaşa müəssisənin sərəncamında qalan mənfəət məbləğinə aid edilir:

Dt 68, subhsab "Mənfəət vergisi üzrə hesablaşmalar Kt

88, "Bölüşdürülməmiş mənfəət" .

Büdcəyə mənfəət vergisi ödənildikdən sonra yerdə qalan müəssisə tərəfindən müstəqil istifadə olunur. Bir qayda olaraq xalis mənfəətdən ehtiyat kapitalı yaradılır, xüsusi təyinatlı fondlara (yığım, sosial-sfera, istehlak) ayırmalar edilir və digər xərclər ödənilir. Xalis mənfəət hesabına həyata keçirilən xərclərin tərkibi məsrəflərin tərkibi haqqında qayda ilə müəyyən edilir.

Sxem 3.1. Mənfəət vergisi üzrə büdcə ilə hesablaşmaların prinsipial sxemi

3.5. Fiziki şəxslərin gəlir vergisinin uçotu

Bütün dünya ölkələrində fiziki şəxslərdən tutulan gəlir vergisi əhali tərəfindən ödənilən vergilər arasında mühüm yer tutur. Çünki bu vergi növünün əsas üstünlüyü ondadır ki, ölkənin bütün əmək qabiliyyətli əhalisi gəlir vergisinin ödəyici- sidir. Eyni zamanda, digər vergilərə nisbətən bu verginin hesablanması və tutulmasına vergi orqanlarının nəzarət etməsi daha asandır və ondan yayınma halları olduqca çətindir.

Ölkəmizin vergi sistemində xüsusi çəkisinə görə böyük əhəmiyyətə malik olan vergi növlərinən biri də gəlir vergisidir. Fiziki şəxslərdən tutulan gəlir vergisi istər əhali tərəfindən ödənilən vergilər, istərsə də büdcə vergi daxiolmalan arasında mühüm yer tutur. Qeyd etmək lazımdır ki, fiziki şəxslərdən tutulan gəlir vergisi büdcə vergi daxilolmalarında çəkisinə görə mənfəət və əlavə dəyər vergisindən sonra üçüncü yer tutur.

Fiziki şəxslərdən tutulan gəlir vergisinin əsas səciyyəvi xüsusiyyətlərindən biri də verginin bir vergi ödəyicisi əvəzinə başqası tərəfindən ödənilməsinin yolverilməzliyidir. Yəni, vergi ödəyicisinin şəxsi gəlirlərinə görə hesablanır və həmin gəlir hesabına ödənilir. Mülkiyyət formasından asılı olmayaraq fiziki şəxslərə gəlir ödəyən müəssisə və təşkilatlar gəlir vergisini öz vəsaitləri hesabına ödəmək hüququna malik deyillər. Əksər inkişaf etmiş ölkələrdə fiziki şəxslərin vergiyə cəlb olunma sistemi demək olar ki, bu prinsiplərə əsasən qurulmuşdur. Eyni zamanda, digər vergilərə nisbətən bu verginin hesablanmasına və tutulmasına vergi orqanlarının nəzarət etməsi daha asandır və ondan yayınma halları olduqca çətindir.

Bu vergi növünün əsas üstünlüyü ondadır ki, ölkənin bütün əmək qabiliyyətli əhalisi gəlir vergisinin ödəyicisidir. Belə ki, Azərbaycan Respublikasının vətəndaşları, xariei ölkə vətəndaşlan və vətəndaşlığı olmayan şəxslər vergi ödəyicilərinə aid edilir. Vergi ödəyicisinin ölkə və xarici vətəndaş olmasından asılı olmayaraq onların gəlirləri eyni dərəcələrlə vergiyə cəlb olunur.

Vergi ödəyici olan ölkə vətəndaşlarının həm Azərbaycan Respublikası və onun hüdudlarından kənarda, qeyri-rezinent fiziki şəxslərin isə yalnız Azərbaycan Respublikası mənbələrindən əldə etdikləri gəlirlərdən vergi tutulur.

Qeyd ermək lazımdır ki, mövcud qanunvericiliyə uyğun olaraq əmək haqqından tutulmalar yalnız qanunvericilikdə nəzərdə tutulmuş aşağıdakı hallarda aparıla bilər:

1 .Məcburi ödəmələr:
   4- işçinin dövlət qarşısındakı öhdəliyinin ödənilməsi məqsədilə;
   4 işçinin üçüncü şəxs qarşısındakı öhdəliyinin ödənilməsi məqsədilə.
2. İşəgötürənin təşəbüsi ilə:
   4- onlann qəranna əsasən;
   4- icra vərəqələrinə əsasən.
3. İşçinin öz təşəbbüsinə əsasən.

İşçinin büdcə qarşısında öhdəliyinin yerinə yetirilməsi məqsədilə gəlir vergisinin ödənişi əmək haqqından məcburi tutulmalara aiddir.

Vergi Məcəlləsinin 98-ci maddəsinə əsasən fiziki şəxs tərəfindən muzdlu işlə

əlaqodar alınan gəlir (əmək haqqı, bu işdən alınan hər hansı ödəmə və ya fayda, o cümlədən əvvəlki iş yerindən, yaxud gələcək muzdlu işdən alınan gəlir), yəni işçinin əmək öhdəliklərinin yerinə yetirilməsinə görə aldığı ödəniş fiziki şəxslərin gəlir vergisi üzrə vergitutma obyektidir.

Gəlir verişinin hesablanması, tutulması və büdcəyə ödənilməsi üzrə təsərrüfat əməliyyatlarının mühasibat hesablarında əks etdirilməsi qaydasını nəzərdən keçirməzbən əvvəl, fiziki şəxslərin müxtəlif mənbələrdən əldə etdikləri gəlirlərin tərkibini və gəlir vergisinin hesablanması metodlarını nəzərdən keçirməyə çalışaq.

Fiziki şəxslərin əldə etdikləri gəlirlər əmələgəlmə mənbəyinə görə aşağıdakı kimi qruplaşdırılır:

- ❖ əsas iş (xidmət, təhsil) yeri üzrə (muzdlu işdən alınan) alınan gəlirlər;
- ❖ əsas iş (xidmət, təhsil) yeridən kənar əldə olunan (muzdlu işdən olmayan) gəlirlər;
- ❖ sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlər;
- ❖ sair vergitutulan gəlirlər



Şəkil 23. Əmək haqqından tutulmaların təsnifatı

Yuxarıda sadalanan qruplara aid edilən gəlirlər ümumi prinsiplər əsasında vergiyə cəlb olunurlar. Bununla yanaşı gəlirlərin uçota alınması, bəyannamələrin təqdim edilməsi və son illik vergi öhdəliklərinin müəyyən olunması xüsusiyyətləri hər qrup üzrə xüsusi vergitutma rejiminin tətbiq olunmasını şərtləndirilir.

Vergidən azad edilən gəlirlərdən başqa, işəgötürən tərəfindən ödənilən istənilən gəlir (bütün növdən olan əmək haqqı, mükafat, əmək haqqına əlavələr, qonorar, təqaüd və mülki-hüquqi əmək müqavilələrinə əsasən yerinə yetirilmiş işlərə

görə ödənilən haqqlar) *əsas iş (xidmət, təhsil) yeri üzrə, başqa sözlə muzdlu işdən alman gəlirlərə* aid ed i 1 i r.

Həmçinin məcəllənin 98.1-ci maddəsinə uyğun olaraq,işçinin aşağıda göstərilən gəlirinin, onların əldə etdiyi gəlirə görə ödədiyi hər hansı xərc çıxıldıqdan sonra qalan məbləği muzdlu işdən əldə olunan gəlirlərə tutulur:

❖ *fiziki şəxsə banklararast kredit hərracında olan faiz dərəcəsindən aşağı faiz dərəcəsi ilə ssuda verildiyi halda* - bu tipli ssudalar üzrə banklararası kredit hərracında olan faiz dərəcəsinə uyğun faizlə ödənməli olan məbləğlə aşağı faiz dərəcəsinə uyğun ödənməli olan məbləğ arasındakı fərq; *işəgötürənin öz işçisinə mal, iş və xidmət təqdim etdiyi, yaxud hədiyyə verdiyi halda* - bu cür mal, iş və xidmətlərin bazar qiyməti ilə dəyəri; *işçinin xərclərinin əvəzi ödənildiyi halda* - ödənən vəsaitin məbləği; *işçinin işəgötürənə olan borcunun və ya öhdəliyinin bağışlanıldığı halda* - həmin borcun və ya öhdəliyin məbləği; *işəgötürən tərəfindən ödənilən sığorta haqları;*

hər hansı digər halda - normativ-hüquqi aktlarda başqa qiymətləndirmə metodu göstərilmirsə. Vergi Məcəlləsinin 14-cü maddəsinə uyğun olaraq müəyyən edilən dəyər.

Yuxarıda göstərilən məbləğlərə aksizlər, əlavə dəyər vergisi və qiymətləndirilən əqdiə əlaqədar işəgötürənin ödəməli olduğu hər hansı digər vergi daxildir

Qeyd etmək lazımdır ki, Nazirlər Kabinetinin təsdiq etdiyi normalar həddində işçilərə ödənilən faktiki ezamiyyə xərcləri, habelə dəniz nəqliyyatında ezamiyyə xərcləri əvəzinə üzücü heyətin üzvlərinə verilən sutkalıq ödənişlər və digər işgüzar xərclər gəlirə daxil deyildir.

Fiziki şəxslərin əsas iş yerindən əlavə (həmçinin daimi iş yeri olmadığı hallarda) digər işəgötürənlərdən natural və pul formasında aldığı istənilən gəliri *əsas iş yeridən kənar əldə olunan (muzdlu işdən olmayan) gəlirlərə* aid edilir. Fiziki şəxslərin muzdlu işlə bağlı olmayan gəlirləri iki yerə bölünür: sahibkarlıq fəaliyyətindən olan gəlirlər və qeyri-sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlər. *Sahibkarlıq fəaliyyətindən olan gəlirlərə* aşağıdakılar aid edilir:

K sahibkarlıq məqsədləri üçün istifadə olunan aktivlərin təqdim edilməsindən olan gəlir (o cümlədən, məhsulların (işlərin, xidmətlərin) satışından əldə edilən gəlirlər);

a sahibkarlıq fəaliyyətinin məhdudlaşdırılmasına və ya müəssisənin bağlanmasına razılıq verilməsinə görə alman gəlir; a əsas vəsaitlərin təqdim edilməsindən alınan gəlir;

a gəlirdən çıxılan kompensasiya edilən məbləğlərin və ya ehtiyatların azaldılmasından olan gəlir. Yəni əvvəllər gəlirdən çıxılmış xərc, zərər və ya şübhəli borclar ödənilirsə, əldə edilən məbləğ onların ödənildiyi vaxt gəlir sayılır. Əvvəllər gəlirdən çıxılmış ehtiyat azalırsa, həmin ehtiyatın azalmış məbləqi fiziki şəxsin gəlirinə daxil edilir.

Qeyri-sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlərə aşağıdakılar aiddir:

■ əmlakın icarəyə verilməsindən alınan gəlir;

- vergi ödəyicisinə bağışlanmış borcun məbləği (işçinin işəgötürənə olan borcunun və ya öhdəliyinin bağışlandığı hallar istisna olmaqla);
- sahibkarlıq məqsədləri üçün istifadə olunmayan aktivlərin təqdim edilməsindən olan gəlir;
- təqvim ili ərzində alınan hədiyyə və mirasların məbləği (mal, iş və xidmətlərdən başqa);
- fiziki şəxsin mükafat şəklində əldə etdiyi gəlir, fayda);
- borc öhdəliyi ilə bağlı hər hansı ödəmə;
- vergi ödəyicisinin aktivlərinin ilkin qiymətinin artdığını göstərən hər hansı digər gəlir;
- həyatın yığım sığortası üzrə sığortaolunanın ödədiyi (onun xeyrinə ödənilən) sığorta haqqı ilə sığorta ödənişləri arasındakı fərq;
- royalti, faiz gəlirləri və dividendlər.

İndi isə gəlir **vergisinin hesablanması** və **tutulması metodlarını** nəzərdən keçirək.

Vergi məcəlləsi gəlir vergisinin tutulması və büdcəyə köçürülməsi mexanizmini müəyyən etmişdir. Qanunvericiliyə uyğun olaraq gəlir vergisi ödəmə mənbəyində muzdlu işdən olan gəlirlərdən işəgötürənlər (müəssisələr, fərdi sahibkarlar, vergi agentləri) tərəfindən tutulur. Sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirlərə görə vergi isə fiziki şəxslər tərəfindən bəyannamə üzrə hesablayır və büdcəyə ödənilir. Beləliklə, muzdlu işə görə ödənilən gəlirlərdən verginin tutulmasına görə təsərrüfat subyektləri (vergi agentləri), fərdi sahibkarlıq fəaliyyətindən əldə olunmuş mənfəətdən isə konkret fiziki şəxslər - fərdi sahibkarlar məsuliyyət daşıyır.

Beynəlxalq təcrübədə qəbul edilmiş qaydalara uyğun olaraq Vergi Məcəlləsi fiziki şəxslərdən gəlir vergisi tutulmasının aşağıdakı formalarını müəyyən etmişdir:

- verginin gəlir əldə edilənədək mənbədə tutulması;
- verginin bəyannamə üzrə tutulması (gəlir əldə edildikdən sonra) Müəssisələrin

bücə ilə hesablaşmalarda ödəmə mənbəyində tutulan vergilərin xüsusi çəkisi əhəmiyyətli dərəcədədir. Ödəmə mənbəyində tutulan vergilərin əhatəsi olduqca genişdir. Bunladan ən əsasları isə muzdla işləyən işçilərdən tutulan gəlir vergisi, divident, faiz, icarə haqqı və royaltilərdən tutulan vergilərdir.

Vergi qanunvericiliyinə uyğun olaraq ödəmə məndəyində vergi tutmalı olan şəxslər (vergi agentləri) kimi aşağıdakılar müəyyən edilmişdir:

- ❖ müzdla işləyən fiziki şəxslərə gəlir ödəyən hüquqi şəxslər;
- ❖ müzdla işləyən fiziki şəxslərə gəlir ödəyən fərdi sahibkarlar;
- ❖ digər şəxslərə pensiya (dövlət təminat sistemi vasitəsilə ödənilən pensiyalar istisna edilməklə) ödəyən hüquqi şəxslər və sahibkarlar;
- ❖ hüquqi şəxslər və fiziki şəxslərə divident, faiz, icarə haqqı, royalti ödəyən rezident hüquqi şəxslər və ya sahibkarlar;;
- ❖ hüquqi şəxslər və fiziki şəxslərə faizlər ödəyən hüquqi şəxslər
- ❖ vergi ödəyicisi kimi vergi orqanlarında uçota alınmayan və VÖEN təqdim etməyən fiziki şəxslərə göstərdikləri xidmətlərə (işlərə) görə haqq ödəyən hüquqi şəxslər və ya sahibkarlar.

Vergitutulan gəlirlərin təsni^tı



s bOtOn növdən olan əmək haqqı n mükafat
p. əmək haqqına əlavələr n qonorar Q təqaüd
s mülki-hüquqi əmək müqavilələrinə əsasən yerinə yetirilmiş işlərə görə ödənilən haqqlar

sahibkarlıq məqsədləri üçün istifadə olunan aktivlərin təqdim edilməsindən
olan gəlir (o cümlədən, məhsulların (işlərin, xidmətlərin) satışından əldə edilən gəlirlər);
sahibkarlıq fəaliyyətinin məhdudlaşdınmasına və ya müəssisənin
bağlanmasına razılıq verilməsinə görə
alman gəlin
əsas vəsaitlərin təqdim edilməsindən alman gəlir;
gəlirdən əvvəlki kompensasiya edilən

əmlakın icarəyə verilməsindən alınan gəlir;
vergi ödəyicisinə bağışlanmış borcun məbləği (işçinin işəgötürənə olan borcunun və ya öhdəliyinin bağışlandığı hallar istisna olmaqla);
sahibkarlıq məqsədləri üçün istifadə olunmayan aktivlərin təqdim edilməsindən olan gəlir;
təqvim ili ərzində alınan hədiyyə və miraslann məbləği (mal, iş və xidmətlərdən başqa);
fiziki şəxsin mükafat şəklində əldə etdiyi gəlir, fayda); borc öhdəliyi ilə bağlı hər hansı ödəmə;
vergi ödəyicisinin aktivlərinin ilkin qiymətinin artdığını göstərən hər hansı digər gəlir;
həyatın yığım sığortası üzrə sığortaolunanın ödədiyi (onun xeyrinə ödənilən) sığorta haqqı ilə sığorta ödənişləri arasındakı fərq; royalti, faiz gəlirləri və dividendlər.

Şəki] 24. Fiziki şəxslərin vergitutulan gəlirlərin təsnifatı

Müzdla işləyən fiziki şəxslərə gəlir ödəyən hüquqi şəxslər (sahibkarlar) gəlir vergisinin hesablanmasına və dövlət büdcəsinə görə məsuliyyət daşıyırlar. Əgər vergi məbləği tutulmursa yə ya tutulmuş vergi büdcəyə köçürülmürsə, onda gəlir ödəyən şəxslər tutulmamış (ödənilməmiş) vergi məbləğindən əlavə faiz və maliyyə sanksiyaları ödəməlidirlər

Vergi qanunvericiliyi ödəmə məndəyində vergi tutmalı olan şəxslər (vergi agentləri, sahibkarlar) qarşısında aşağıdakı vəzifələr qoymuşdur:

B işçilərin aylıq gəlirlərindən vergiləri tutmaq və növbəti hesabat ayının 20- dən gec olmayaraq büdcəyə köçürmək;

cs dividend, faiz, icarə haqqı, royaltilərdən tutulmuş vergiləri gəlirin ödənildiyi rübdən sonakı ayın 20-dən gec olmayaraq büdcəyə köçürmək; ö rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq ödəmə mənbəyində tutulan vergilər barədə Vergilər Nazirliyinin müəyyən etdiyi formada vergi orqanına bəyannamə vermək.

Vergi agenti vətəndaşın əsas iş yeri üzrə aldığı aylıq gəlirlərindən vergi tutmağa borcludur. Qeyd etmək lazımdır ki, bəyannamə verməli olmayan fiziki şəxs verginin yenidən hesablanması və vəsaitlərin geri qaytarılması barədə tələb irəli sürən bəyannamə verə bilər. Əgər o bu hüquqdan istifadə etməzsə, onda tutulmuş vergi gəlir vergisinin tam məbləği sayılır.

Ödəmə mənbəyində tutulan vergilər arasında aparıcı yeri məhz fiziki şəxslərin gəlir vergisi tutur. Bu onunla bağlıdır ki, vətəndaşlara ödənilən gəlirlər arasında ən böyük xüsusi çəkiyə malik olanı muzdlu işdən əldə edilən aylıq əmək haqqlarıdır. Bundan əlavə demək olar ki, əhalinin əksər əmək qabiliyyəti olan vətəndaşları gəlir vergisinin ödəyiciləridir.

Müəssisələr tərəfindən ödəmə mənbəyində işçilərə ödənilən əmək haqqından gəlir verişinin tutulması praktikası mühasiblər üçün yeni deyil. Əmək haqqından ödəmə mənbəyində gəlir verişinin tutulması və büdcəyə köçürülməsi yeni Vergi Məcəlləsi qüvvəyə minənədək də mövcu idi. Lakin yeni məcəllənin qəbulu bu sahədə müəyyən sistemlik yaratdı.

Vergitutma praktikasında vergitutulan gəlirin və vergi məbləğinin müəyyən edilməsinin iki əsas foması formalaşmışdır: uçot və bəyannamə. Hər bir metodun özünəməxsus sənəd dövriyyəsi, ödənilmə müddəti, hesablanma xüsusiyyətləri və öz icraçıları var.

Uçot metodu verginin gəlirin ödənilmə mənbəyində tutulması deməkdir. Vergitutmanın bu metodu daha geniş yayılmışdır və vətəndaşların əsas iş yerləri, əvəzçilik, mülki-hüquqi müqavilələr üzrə əldə edilən gəlirlərdən vergilərin hesablanması zamanı tətbiq olunur. Verginin hesablanması və büdcəyə köçürülməsi üzrə bütün hərəkətləri mühasibin timsalında vergi agenti rolunu oynayan işəgötürən (gəlirlərin ödənmə mənbəyi) həyata keçirir.

Beləliklə, əsas iş yeri üzrə çalışan işçilərin bütün gəlirlərindən gəlir vergisi ödəmə mənbəyində tutulur. Gəlir vergisini vergi agentləri funksiyanı yerinə yetirən müəssisə və təşkilatların mühasibatlığı (sahibkarlar) yerinə yetirir. Vergi hər ayın sonunda fiziki şəxslərin ümumi gəlirindən hesablanaraq tutulur.

Mövcud vergi qanunvericiliyinə əsasən gəlir vergisinin ödəyicilərini üç kateqoriyaya ayrılır. Birinci kateqoyiyaya muzdlu işdən gəlir əldə edən fiziki şəxslər aid edilir. Həmin şəxslərin təqvim ili ərzində muzdlu işdən əldə etdiyi istənilən vergitutulan gəlirindən heç bir xərc çıxılmadan vergi tütulur. Gəlir vergisi hər ay ödəmə mənbəyində vergi agenti funksiyasını yerinə yetirən müəssisənin mühasibatlığı tərəfindən tutulur. Yəni mülkiyyət formasından və tabeçiliyindən asılı olmayaraq müəssisə və təşkilatlarda çalışan işçilərə onların gəlirlərindən vergi tutduqdan sonra əmək haqqı ödəyirlər.

Beləliklə, müəssisələr gəlir ödədikləri hər bir işçinin aylıq əmək haqqından 21 saylı cədvəldə göstərilən müvafiq dərəcələrlə gəlir vergisi hesablamalı, tutmalı və vaxtlı-vaxtında dövlət büdcəsinə ödəməlidirlər.

Cədvəl 21

Aylıq gəlirdən aşağıdakı dərəcələrlə vergi tutulur:
http://vmw.e-qanun.az/cache/code/0/c c 12.html - edn256

Vergi tutulan aylıq gəlirin məbləği	Verginin məbləği
2500 manatadək	14 faiz
2500 manatdan çox olduqda	350 manat + 2500 manatdan çox olan məbləfiin 25 faizihttD://www.e-aanun.az/cache/code/O/c c 12.html - edn257

İşçi məzuniyyətə gedərkən mühasibatlıq tərəfindən gəlir vergisi onun keçən aydakı əmək haqqından və məzuniyyət günlərinin şamil edildiyi tam ay üçün hesablanmış gəlirlərindən tutulur. Tam olmayan və növbəti təqvim ayına düşən məzuniyyət haqqı məbləğindən vergi yalnız həmin işçi məzuniyyətdən qayıtdıqdan sonra tutulur.

Müəssisənin işçiləri işdən çıxan zaman gəlir vergisi keçən ayın və işdən çıxdığı ayın əmək haqqları üzrə ayrılıqda tutulur. Verqi ganunvericiliyinə uyğun olaraq, əmək qanunvericiliyinə əsasən işçilər işdən çıxarkən onlara faktiki işlənmiş dövr üçün istifadə edilməmiş məzuniyyət günlərinə görə verilən kompensasiya məbləği vergitutulan gəlirlərin tərkibinə daxil edilir.

Əgər işdən çıxan işçiyə bir neçə təqvim ili üçün istifadə olunmamış məzuniyyət günlərinə görə kompensasiya ödənilərsə, onda gəlir vergisi cari il də daxil olmaqla müvafiq illərə düşən məzuniyyət məbləğləri üzrə aynca tutulur.

Müəssisə ləğv edilərkən işçilərin aldığı gəlirin bütün məbləği (həmin müəssisənin əmlakının satılmasından əldə edilmiş vəsait hesabına işçilərə verilmiş əlavə gəlir məbləği də daxil olmaqla) aylara bölünmədən həmin gəlirin ödənildiyi ayın digər gəlirləri ilə toplanaraq vergiyə cəlb edilir.

Bu metod üzrə əsas vergi hesabatı sənədləri bunlardır: vergi kartoçkası; gəlirlərdən və əmək haqqından tutulan vergi məbləğləri haqqında məlumat (gəlirlər haqqında arayış); yekun gəlir məbləği haqqında hesabat; il ərzində gəlirlər haqqında məlumatlın reyestri.

Vətəndaşlara muzdlu işlə əlaqədar gəlir ödəyən təsərrüfat subyektləri və sahibkarlar gəlir əldə edən işçilərin tələbi ilə onlara özündə həmin işçinin vergi ödə- yicisinin eyniləşdirmə nömrəsini, gəlirin növünü və məbləğini, tutulmuş vergi məbləğini əks etdirən arayış verməyə borcludurlar. Bununla yanaşı, müəssisələr vergi ili başa çatdıqdan sonra 20 gün ərzində vergi orqanına özündə vergi ödəyici- sinin adını, atasının adını və soyadını, vergi ödəyicisinin eyniləşdirmə nömrəsini, onun yaşadığı ünvanı, gəlirin ümumi məbləğini, təqvim ili ərzində tutulmuş verginin ümumi məbləğini əks etdirən arayış təqdim etməlidirlər.

İki və ya daha çox yerdə muzdla işləyən fiziki şəxslərin gəlirlərindən gəlir vergisi hər bir iş yerində ödənilən məbləğdən ayrıca hesablanır və dövlət büdcəsinə ödənilir.

Vergi Məcəlləsinin 150-ci maddəsinə əsasən hüquqi şəxslər və fərdi sahibkarlar (vergi agentləri) ödəmə mənbəyində vergini tutmağa borcludur və onun büdcəyə köçürülməsi üçün cavabdehdirlər. httD://www.e-qanun.az/cache/code/0/c c 12.html - edn343 Vergi məbləği tutulmursa və ya tutulmuş vergi büdcəyə köçürülmürsə, gəliri ödəyən hüquqi şəxslər və sahibkarlar tutulmamış və ya köçürülməmiş verginin məbləğini, həmçinin müvafiq faizləri və sanksiyaları büdcəyə ödəməyə borcludurlar.

Vergi ili ərzində müxtəlif mənbələrdən qeyri-sahibkarlıq fəaliyyətindən gəlir əldə edən fiziki şəxslər ikinci kateqoriyaya aid edilirlər. Birincilərdən fərqli olaraq bu kateqoyiya aid edilən vergi ödəyicilərinin gəlirlərindən hər ay deyil, ildə bir dəfə vergi tutulur. Bu ondan irəli gəlir ki, həmin şəxslər müəyyən fəaliyyət növünün həyata keçirilməsindən və müxtəlif mənbələrdən gəlir əldə edirlər.

Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslər (fərdi sahibkarlar) isə üçüncü kateqoriya vergi ödəyicilərinə aid edilir. Fərdi sahibkarlar təqvim ili ərzində əldə etdikləri gəlirləri üzrə vergitutma obyekti - vergi ili ərzindəki ümumi gəlir və həmin dövrdə bu gəlirin alınması ilə əlaqədar çəkilən və gəlirdən çıxılan xərclər arasındakı fərqdən ibarətdir. Göründüyü kimi həmin şəxslərin əldə etdikəri gəlirlər müəyyən xərclərlə bağlıdır. Məhz bu səbəbdən onlar müəyyən edilmiş müddətdə bəyyannamə üzrə ildə bir dəfə vergi ödəyirlər.

Cədvəl 22

Qeyri-sahibkarlıq fəaliyyəti üzrə illik gəlirdən aşağıdakı dərəcələrlə vergi tutulur: httD://www.e-Qanun.az/cache/code/0/c c 12.html - edn259

Vergi tutulan illik gəlirin məbləği	Verginin məbləği
30000 manatadək	14 faiz
30000 manatdan çox olduqda	4200 manat + 30000 manatdan çox olan məblə&in 25 faizihttp://www.e-oanun.az/cache/code/O/c c 12.html - edn260

Bəyannamə metodu hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərdən (fərdi sahibkarlardan) gəlir vergisinin tutulması üçün nəzərdə tutulmuşdur. Sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərdən gəlir vergisinin tutulması qaydası, ödəmə mənbəyində verginin tutulması qaydasından fərqlənir. Belə ki, vergiyə fərdi sahibkarların illik gəlirləri 20 faiz dərəcə ilə vergiyə cəlb olunur.

Xüsusi notarius üçün məcəllənin 96.1-ci maddəsinin ikinci bəndi ilə müəyyən edilmiş vergitutma obyektindən 10 faiz dərəcə ilə vergi tutulur.

Sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərin gəlir vergisi üçün vergitutma obyekti onların ümumi gəlirləri və bu gəlirləgin əldə edilməsi ilə bağlı olan vergi qanunverriciliyinə əsasən gəlirdən çıxılmalı olan xərclər arasındakı fərqdən ibarətdir. Qeyd etmək lazımdır ki, fərdi sahibkarın gəlirdən çıxılan bütün xərcləri müvafiq sənədlərlə təsdiqlənməlidir.

Sahibkarlıq fəaliyyətindən əldə edilmiş gəlirlərdən vergi ödənilməsinə görə məsuliyəti vergi ödəyicisi daşıyır. Bunun üçün onların vergi orqanlarında uçota alınması zərurəti ortaya çıxır. Bu məqsədlə vergi qanunvericiliyinə uyğun olaraq fərdi sahibkarlar yaşadıqları yer üzrə vergi uçotuna durmalı və vergi ödəyicisinin eyniləşdirmə nömrəsini almalıdırlar. Bu mexanizmin tətbiqi həmin şəxslərin gəlirlərinin vergidən gizlədilməsi hallarının qarşısını almaq imkanı verir.

Sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslər vergi ödəyicisinin eyniləşdirmə nömrəsini (VÖEN) almaq üçün vergi orqanına aşağıdakı sənədi təqdim etməlidir:

- VÖEN alınması üçün ərizə;
- fəaliyət göstərəcək obyekt və onun mülkiyyət hüququnu təsdiqləyən sənəd (şəhadətnamə və ya natorial qaydada təsdiq olunmuş icarə müqaviləsi);
- obyektin texniki sənədləri;
- şəxsiyyət vəsiqəsi;
- yaşayış yerindən arayış.

Fiziki şəxslər sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə vergi hesablayarkən, yəni vergitutma bazasını məyyənləşdirərkən ikiqat vergiqoy- manın aradan qaldırılması məqsədilə öz gəlirlərinin dəqiqləşdirilməsini həyata keçirir. Çünki sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərin bəzi gəlirlərindən fərqli dərəcələrlə vergi tutulur. Belə ki, gəlirlərin təsnifatında qeyd etdiyimiz kimi, fiziki şəxslərin əldə etdikləri gəlir növlərindən biri də onların qeyri-sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirlərdir. Fiziki şəxslərin qeyri-sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlir növləri və onlara tətbiq edilən vergi dərəcələri aşağıdakı kimidir:

- divident-10%;
- rezident və qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən (onun adından) ödənilən faizlərlə - 10%;
- həyatın yığım sığortası üzrə sığorta olunanın ödədiyi (onun xeyrinə ödənilən) sığorta haqları ilə sığorta ödənişləri arasındakı fərq kimi alınan gəlir - 10%;
- daşınan (daşınmaz) əmlaka görə icarə haqqından, həmçinin rezident və ya qeyri-rezidentin Azərbaycandakı daimi nümayəndəliyinin ödədiyi royalti - 14%;

icarə haqqı vergi ödəyicisi kimi uçota alınmayan fərdi sahibkar tərəfindən ödənilmədikdə, vergini icarəyə verən özü ödəyir və o vergi uçotuna alınaraq vergi orqanlarına bəyannamə verməlidir.

Əgər dividentlərdən, faizlərdən, icarə haqqı və royaltidən gəlir əldə edən fiziki şəxslərdən ödəmə mənbəyində vergi tutulmuşdursa (onun tərəfindən ödənilmişdirsə), onda həmin gəlirlərdən bir daha vergi tutulmur.

Məhz bu səbəbdən gəlirlər dəqiqləşdirildikdən sonra qanunvericiliyə uyğun olaraq həmin məbləğdən verqi qanunvericiliyinə uyğun olaraq bu gəlirlərin əldə edilməsi ilə bağlı xərclər çıxılır.

Gəlir vergisinin hesblanması üçün aşağıdakı vergitutma elementləri müəyyən edilməlidir: ümumi gəlir, gəlirlərin əldə edilməsi ilə bağlı xərclər, illik cəmi təmiz gəlir, vergi güzəşti və çıxılmalar, illik vergiyə cəlb olunan gəlir (vergitutma bazası), vergi dövrü, vergi dərəcəsi, vergi məbləği, verginin ödənilmə müddəti.

Ümumi gəlir - forma və xarakterindən asılı olmayaraq fiziki şəxsin digər hüquqi və fiziki şəxslərə işlər görməsindən və xidmətlər göstərməsindən əldə etdiyi bütün gəlirlərindən formalaşır. Ümumi gəlirə vergi qanunvericiliyinə müvafiq olaraq vergiyə cəlb olunmayan gəlirlərin məbləği daxil edilmir.

Gəlirlərin əldə edilməsi ilə bağlı xərclərin tərkibinə fiziki şəxslərin bilavasitə gəlirlərin əldə edilməsi ilə bağlı faktiki çəkdikləri sənədlərlə təsdiq olunmuş məsrəfləri daxil edilir. Vergi ödəyicisinin çəkdiyi bütün xərclər aşağıdakı qruplara bölünür:

■4 Gəlirdən çıxılan xərclər.

4- Gəlirdən çıxılması məhdudlaşdırılan xərclər.

4 Gəlirdən çıxılmayan xərclər.

Fərdi sahibkarların gəlirdən çıxılan xərclərinin tərkibi Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş mohsullann (işlərin, xidmətlərin) maya dəyərinə daxil edi- Iqn xərclərin tərkibinə daxil olan xərc elementlərindən (material məsrəfləri, əməyin ödənişi üzrə məsrəflər, sosial ehtiyaclara ayırmalar, amortizasiya ayırmaları, sair məsrəflər) ibarətdir. Bundan başqa. Vergi Məcəlləsində fərdi sahibkarlara aşağıdakı xərcləri vergitutulan gəlirdən çıxmaq hüququ vermişdir:

- elmi-tədqiqat, layihə-axtarış və təcrübə-konstruksiya işlərinə çəkilən xərclər;
- ümidsiz və şübhəli borcların silinməsindən olan zərər məbləği;
- sahibkarlıq fəaliyyətində istifadə edilən əsas vəsaitlərin amortizasiya ayırmaları;
- əsas vəsaitlərin satışından olan zərər məbləği;
- sığorta haqqları.

Gəlirdən çıxılması məhdudlaşdırılan xərclər müəyyən faiz dərəcəsi, ya da kəmiyyətcə konkret norma daxilində gəlirlədən çıxılır. Bu xərclərin normadan artıq olan hissəsi isə yalnız vergi ödəyicisinin sərəncamında qalan gəlir hesabına şilinə bilər. Məsələn borclar üzrə faizlər, ehtiyat (sığorta) fonduna ayırmalar və əsas vəsaitlərin təmiri üzrə xərcləri bu qəbildən olan xəclərə aid edmək olar. Bundan başqa, əsas vəsaitlərin və qeyri-maddi aktivlərin amortizasiya məbləği, geoloji-kəşfiyyat işlərinə və təbii ehtiyatların hasilatına hazırlıq işlərinə çəkilən xərclər, qeyri- maddi aktivlərə çəkilən xərclər yalnız konkret norma və faizlər daxilində gəlirdən çıxılır.

illik təmiz gəlir (vergiyə cəlb edilən gəlir) - təqvim ili ərzində alınmış ümumi gəlir və həmin gəlirlərin əldə edilməsi ilə bağlı sənədlərlə təsdiqlənmiş xərclər arasındakı fərqdən ibarətdir. İllik təmiz gəlirə təqvim ili ərzində gəlir mənbəyinin əməlgəlmə vaxtından asılı olmayaraq əldə edilən bütün gəlirlərin məbləği daxil edilir. Əgər gəlir mənbəyi il ərzində daimi deyil, fasilələrlə mövcud olmuşdursa, onda faktiki alınmış gəlir məbləğləri illik gəlir məbləğini təşkil edir.

Vergi Məcəlləsinin 130-cu maddəsinə uyğun olaraq sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslər vergitutulan gəlirlərinin dəqiq əks etdirilməsi üçün sənədləşdirilmiş məlumatlara əsasən vaxtlı-vaxtında öz gəlir və xərclərinin uçotunu aparmalıdır. Aparılan uçot vergi ödəyicisinin sahibkarlıq fəaliyyəti ilə bağlı olan bütün əməliyyatlarının gedişatını özündə əks etdirməlidir. Vergi ödəyicisi təqvim ili ərzində eyni metodu tətbiq etmək şərtilə, gəlir və xərclərinin uçotunu kassa və ya hesablama metodu ilə apara bilər.

Tətbiq edilən uçot metodundan asılı olaraq vergi ödəyicisi özünün gəlir və xərclərini onların əldə edildiyi (çəkildiyi) müvafiq hesabat dövrlərinə aid etməlidir. Uçot metodu xərclərin və daxilolmaların müddəti və uçotu qaydasına dair bütün tələbləri nəzərə almalıdır.

Beləliklə, sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxs vergi ilinin sonunda gəlir vergisini ödəmək üçün özünün təqvim ili ərzində əldə etdiyi gəlirlərini və vergi qanunvericiliyinə uyğun olaraq həmin gəlirlərdən çıxılması nəzərdə tutulan xərclərini dəqiqləşdirməlidir.

Vergi ödəyicisi əldə etdiyi ümumi gəlirindən oniın əldə edilməsilə bağlı çəkilən xərclərin məbləğini çıxmaqla vergitutulan gəlir məbləğini müəyyən edir. Bundan sonra vergitutulan gəlirdən vergi qanunvericiliyində nəzərdə tutulmuş güzəşt və azadolmaların məbləğini çıxmaqla vergilutma bazasını müəyyənləşdirir.

Vergitutulan gəlir (VG) - gəlir vergisinin hesablanması üçün yekun hesablama məbləğidir və aşağıdakı kimi müəyyən edilir:

$$VG = ÜG - \mathbf{X} - G - Ç, \qquad (7)$$

burada ÜG - ümumi gəlir;

X - xərclər;

G - güzəştlər;

Ç - çıxılmalar.

Gəlir vergisi müəyyən edilməsinin ikinci mərhələsində hesablanmış vergi məbləğindən, fərdi sahibkarın vergi ili ərzində ödədiyi cari vergi ödəmələrinin və ödəmə mənbəyində tutulmuş vergilərin məbləği çıxılmaqla, faktiki olaraq büdcəyə ödəniləcək vergi məbləği dəqiqləşdirilir. Vergi ödəyicisi olan vətəndaşlar il ərzində aldıqları bütün gəlirləri vergi bəyannaməsində göstərməyə borcludurlar.

Vergi qanunvericiliyinə əsasən gəlirdən çıxılmalı olan xərclərin fiziki şəxsin sahibkarlıq fəaliyyətindən əldə edilən ümumi gəlirindən artıq olan hissəsi onun digər gəlirlərindən çıxıla bilməz. Belə ki, həmin zərər məbləği fiziki şəxsin sahibkarlıq fəaliyyətindən əldə edilən ümumi gəlirindən kompensasiya edilməsi üçün üç ilədək davam edən sonrakı hesabat dövrünə keçirilə bilər.

Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin vergiyə cəlb edilən gəlirlərindən 20 faiz dərəcə ilə vergi tutulur.

Sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxsin Azərbaycan Respublikasının hüdudlarından kənarda əldə eldiyi gəlirlərindən ödədiyi vergi məbləği ölkəmizdə gəlir vergisi ödənilərkən nəzərə alınır. Nəzərə alman vergi məbləği vergi ödəyicisinin ümumi gəlirindən tutulmalı olan vergi məbləğindən çox olmamalıdır.

Nəhayət, vergi ödəyicisi vergi ili üçün bəyannamənin verilməsi üçün müəyyən edilmiş vaxtadək son hesablama aparmalı və faktiki əldə etdiyi gəlir məbləğinə görə vergi ödəməlidir. Fiziki şəxslər gəlir vergisini dövlət büdcəsinə Ödəyirlər. Hesabat (vergi) ili ərzində ödənilmiş (tutulmuş) və faktiki ümumi illik gəlirə görə hesablanmış vergi məbləğləri arasındakı fərq ödəyiciyə qaytarılmalı, yaxud büdcəyə ödənilməlidir.

Qeyd etmək lazımdır ki, sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərin gəlir vergisi vergi orqanları tərəfindən hesablanılır. Vergi orqanları tərəfindən gəlir vergisi aşağıdakı mənbələrdən birinə əsasən hesablanır:

- fiziki şəxsin il ərzində göstərilən (proqnozlaşdırılmış) və faktiki aldıqlan gəlirləri haqqında təqdim etdikləri bəyannaməyə;
- vergi orqanları tərəfindən fiziki şəxslərin fəaliyətinin araşdırılması üzrə materiallara;
- ödəyiciyə gəlirlərin ödənilmisi barədə müəssisə, idarə, təşkilatlar və fiziki şəxslərin təqdim etdiyi məlumatlara;
- vergi yoxlamasının materiallarına.

Yuxarıda göstərilən mənbələrə əsasən fiziki şəxsin illik gəlirlərindən verginin hesablanması onların daimi yaşayış yerində, başqa ərazidə fəaliyyət göstərdiyi hallarda isə faktiki fəaliyyət göstərdiyi ərazidəki vergi orqanı həyata keçirilir. İkinci halda fiziki şəxs özünün gəlirləri və ödədiyi vergi məbləği haqqında özünün yaşadığı ərazidəki vergi orqanına məlumat verməlidir.

/ Vergi ödəyicisi kimi vergi orqanlarında uçota alınmayan fiziki şəxslərdən gəlir vergisini onlara gəlir ödəyən işəgötürənlər tutmalıdır. Vergi orqanlarının ödə- yici kimi uçata alınmış və büdcəyə avans ödənişləri ödəyən fiziki şəxslərin gəlirlərinin təkrarən vergiyə cəlb edilməməsi məqsədilə, vergi orqanları ödəmə mənbəyində verginin tutulmaması üçün onlara vergi uçotuna alınması barədə şəhadətnamə təqdim edirlər. Fiziki şəxslərdə sözügedən sənəd olmadıqda onlara ödənilən məbləğlərdə vergini işəgötürən tutur. Bu halda həmin işəgötürən müəyyən edilmiş qaydada ödənilmiş gəlirlər və onlardan tutulan vergi məbləğləri barədə müvafiq vergi orqanlarına məlumat verməlidirlər. Əgər vergi tutulmamışdırsa, onda bunun səbəbləri göstərilməlidir. Ödəmə mənbəyində fiziki şəxsin gəlirlərindən tutulmuş vergi məbləğləri onun tərəfindən ödənilmiş vergi məbləği kimi uçota alınır.

Sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslər tərəfindən gəlir vergisinin ödənilməsi qaydası, ödəmə mənbəyində muzdlu işdən əldə edilən gəlirlərdən tutulan vergilərin ödənilməsi qaydasından tamamilə fərqlənir. Belə ki, gəlir vergisi üçün hesabat dörü təqvim ili olmasına baxmayaraq Vergi Məcəlləsində vergi ödəyiciləri tərəfindən hər rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari (avans) vergi ödəmələrinin aparılması nəzərdə tutulmuşdur. Cari vergi ödəmələri təqvim ili üçün vergi ödəyici-

sindən tutulan vergi məbləğinə aid edilir. Avans vergi ödəmələri iki formada hesablanılır, Birinci formaya əsasən avans (cari) vergi ödəmələrinin məbləği əvvəlki hesabat ilində ödənilmiş vergi məbləğinin 1/4 hissəsi kimi müəyyən edilir.

İkinci metodun tətbiqi zamanı, müəssisələr avans vergi ödəmələrinin məbləğini özünün cari hesabat rübündə əldə etdiyi faktiki gəlirinin (gəlirdən çıxılan xərclər nəzərə alınmadan) həcmini verginin keçən ilin ümumi gəlirindəki xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edirlər.

Onu da qeyd etmək lazımdır ki, vergi ödəyicisi hesabat ili ərzində cari vergi ödəmələri məbləğinin müəyyənləşdirməyin yuxarıda göstərilən iki mümkün metoddan yalnız birini seçməli və bu barədə uçota aldığı vergi orqanına məlumat verməlidir. Vergi ödəyicisi ikinci metodu tətbiq etdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində əldə etdiyi mənfəətdən (gəlirdən) hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir. Əks halda vergi orqanı birinci metodu tətbiq etməklə vergini özü hesablayır. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi hallarda, həmçinin vergi orqanları birinci metodu tətbiq edirlər.

Vergi ödəyicisi vergi ili üçün bəyannamənin verilməsi üçün müəyyən edilmiş vaxtadək son hesablama aparmalı və faktiki əldə etdiyi gəlir məbləğinə görə vergi ödəməlidir. Əgər bu zaman hesabat ili ərzində ödənilmiş cəri vergi ödəmələrinin məbləği faktiki ümumi illik gəlirə görə hesablanmış vergi məbləğlərindən az olarsa, onda çatışmayan vergi məbləği əlavə olaraq dövlət büdcəsinə ödənilir. Avans vergi ödəmələrinin hesabat üzrə vergi məbləğindən çox olduğu hallarda isə artıq ödənilmiş vergi məbləği ya vergi ödəyicisinin ərizəsinə əsasən ona qaytarılır, ya da həmin fiziki şəxsin istəyi ilə növbəli ilin cari vergi ödəməsi kimi uçota alınır.

Qeyri-əsas iş yerindən və sahibkarlıq fəaliyyətindən gəlir əldə edən fiziki şəxslər, təqvim ili ərzində aldıqları faktiki gəlirlər və bu gəlirlərin əldə edilməsi ilə bağlı çəkdikləri xərcləri haqqında, yaşadıqları yer üzrə vergi orqanına hesabat ilindən sonrakı ilin mart aiının 31-dən gec olmayaraq bəyannamə verməlidirlər.

Beləliklə, fiziki şəxslərin gəlirlərinin təsnifatını, hesablanması metodlarını müəyyən etdikdən sonra, əməyin ödənişi üzrə təsərrüfat əməliyyatlarının (əmək haqqının hesablanması, əmək haqqından tutulmalar) mühasibat hesablarında ikili yazılış üsulu ilə əks etdirilməsi qaydasını nə/.ərdən keçirək.

Müəssisələrdə əməyin ödənişi və gəlirlərə görə işçi heyəti ilə hesablaşmaların uçotu 70 "Əməyin ödənişi üzrə işçi heyəti ilə hesablaşmalar" adlı sintetik passiv hesabda aparılır. Bu hesabın kreditində əmək ödənişinin (bütün növdən olan əmək haqqı, mükafatlar, müavinətlər, işləyən işçilərə ödənilən pensiyalar, müəssisənin səhm və digər qiymətli kağızlar üzrə dividentlər) hesablanması, debeti üzrə isə əmək haqqından tutulmaların, işçilərə verilmiş ödəmələrin məbləği və vaxtında ödənilməmiş əmək haqqı əks olunur. Bu hesabın qalığı (saldosu) onun kreditində olur və bir qayda olaraq müəssisənin əmək haqqı üzrə işçilərinə olan borcunu göstərir.

Hesablanmış əmək haqqı işçinin harada işləməsi və hansı işi yerinə yetirməsi nəzərə alınmaqla, istehsal məsrəflərin uçota alan hesablan üzrə bölüşdürülür. Örnəyin ödənişi üzrə hesablanmış məbləğ, müəssisənin istehsal xərclərinin əsas elementi sayılır. Ona görə əməyin ödənişi üzrə işçilərə olan borc hesablandıqca.

hesablanmış əmək haqqının məbləği istehsal məsrəflərinin uçotu olan hesabların debetinə yazılır. Bununla əlaqədar olaraq, əməyin ödənişinin hesablanmış məbləğinin istehsal məsrəflərini uçota alan hesablar üzrə bölüşdürülməsi və onun prinsiplərinin müəyyən edilmisi məsələsi meydana çıxır.

İstehsal və tədavül xərclərinə daxil edilən əməyin ödənişi üzrə məsrəflər 70 saylı hesabının krediti ilə müxabirləşməklə aşağıdakı hesabların debetinə əks olunur:

Dt 20 "Əsas istehsalat"- Məhsulun hazırlanmasına görə əsas istehsalat sexinin fəhlələrinə hesablanmış əsas və əlavə əmək haqqı;

Dt 23 "Köməkçi istehsalat"- köməkçi sexlərin istehsalat fəhlələrinə hesablanmış əsas və əlavə əmək haqqı;

Dt 25 "Ümumistchsalat xərcləri"- sexlərdə işləyən kiçik xidmətedici heyətə, mühəndis-texniki işçilərə, avadanlıqlara xidmət edən fəhlələrə (yağlayıcıla- ra, sazlayıcılara) hesablanmış əsas və əlavə əmək haqqı;

Dt 26 "Ümumtəsərrüfal xərcləri" - inzibati işçilərə hesablanmış əsas və əlavə əmək haqqı;

Dt 28 "İstehsalatda zay"- zay məhsula və onun düzəldilməsinə görə əsas istehsalat sexinin fəhlələrinə hesablanmış əmək haqqı;

Dt 20,23,25,26 - işçilərə işlədikləri yerlərə müvafiq olaraq hesablanmış məzuniyyət haqqı (əgər xüsusi ehtiyat fondu yaradılmayıbsa);

Dt 89 "Qarşıdakı xərc və ödəmələr üçün ehtiyatlar"- hesablanmış məzuniyyət haqqının məbləği;

Dt 29 "Xidmətedici istehsalat və təsərrüfatlar"- qeyri-sənaye istehsalat və təsərrüfatların işçilərinə hesablanmış əsas və əlavə əmək haqqı;

Dt 10 "Materiallar"- material qiymətlilərinin müəssisənin anbarına gətirilməsinə, onların yüklənməsinə və boşaldılmasına görə fəhlələrə hesablanmış əmək haqqı"

/ Dt 43 "Kommersiya xərcləri"- müəssisənin öz məhsulunun anbarda qablaşdırılması və onun alıcılara yüklənməsinə görə fəhlələrə hesablanmış əmək haqqı;

Dt 44 "Tədavül xərcləri"- ticarət və ictimai iaşə müəssisələrində çalışan işçilərə hesablanmış əmək haqqı.

Müvəqqəti əmək qabiliyyətinin olmamasına görə xəstəlik vərəqəsi üzrə hesablanmış müavinətlər və sosial sığorta orqanlarının vəsaitləri hesabına həyata keçirilən digər ödəmələr 70 Xbli hesabın krediti ilə müxabirləşməklə 69 "Sosial sığorta və təminat üzrə hesablaşmalar" hesabının debetinə əks olunur.

Mükafat, maddi yardım və müavinətlərin, eləcə də satışdankənar və ya əməliyyat gəlirlərinin alınması prosesində məqsədli maliyyələşmənin vəsaitləri hesabına apanimış işlər üzrə əməyin ödənişinin hesablanmış məbləği 70 Xsli hesabın krediti, 88 Jfeli "Bölüşdürülməmiş mənfəət" hesabının debeti üzrə əks olunur.

Səhmlər və müəssisənin əmlakına maliyyə qoyuluşları üzrə işçilərə hesablanmış gəlirlər (dividendlər) aşağıdakı mühasibat yazılışı tərtib etməklə rəsmiləşdirilir:

Dt 88, subhesab "İstehlak fondu" ;

Kt 70 "Əməyin ödənişi üzrə işçi heyəti ilə hesablaşmalar"

Bəzi müəssisələrdə istehsalın mövsümi olması ilə əlaqədar işçilərə məzuniyyət il ərzində qeyri-bərabər verilir. Buna görə məhsulun maya dəyərinin daha dəqiq hesablanması üçün məzuniyyət pulunun hansı ayda ödənilməsindən asılı olmayaraq, bu məqsədlər üçün nəzərdə tutulmuş ehtiyat yaradılır. Həmin ehtiyata ayırmaların məbləği il ərzində bərabər hissələrlə istehsal xərclərinə aid edilir. Müəssisələr eyni zamanda çoxillik xidmətə görə mükafatlandırma məbləğlərinin ödənilməsi üçün ehtiyat yarada bilərlər.

Bu məqsədlər üçün rezervləşdirilmiş məbləğlər, işçilərə hesablanmış əmək haqqının aid edildiyi istehsal məsrəflərini uçota alan müvafiq hesabların (20,23,25,26) debetinə, 89 Xeli "Qarşıdakı xərclər və ödəmələr üçün ehtiyatlar" hesabının kreditinə aid edilir.

Müəssisənin işçiləri məzuniyyətə getdikcə, məzuniyyət dövrü (günləri) üçün onlara faktiki hesablanmış məzuniyyət pulunun məbləği yaradılmış ehtiyatın azalmasına silinir. Bu zaman aşağıdakı yazılış tətbiq olunur:

Dt 89 "Qarşıdakı xərclər və ödəmələr üçün ehtiyatlar";

Kt 70 "Əməyin ödənişi üzrə işçi heyəti ilə hesablaşmalar".

Çoxillik xidmətinə görə işçilərə hesablanmış mükafatlandırma məbləğinə görə analoji yazılış tərtib edilir.

İllik və əlavə məzuniyyət pulunu hesablayarkən nəzərə almaq lazımdır ki, hesabat ayının əmək haqqı fonduna hesablanmış məzuniyyət məbləğlərinin yalnız hesabat ayına düşən məzuniyyət günlərinin məbləği aid edilir. Məzuniyyətin növbəti təqvim ayına keçdiyi hallarda, həmin günlərə görə işçilərə ödənilmiş məzuniyyət məbləği hesabat ayında verilmiş avans kimi əks olunur (Dt 70; Kt 50). Növbəti ayda isə həmin məbləğ əməyin ödənişi fonduna daxil edilir və adətən məzuniyyət məbləğinin hesablanması üzrə yazılışda olduğu kimi əks olunur (Kt 70, Dt 89 və ya istehsal məsrəflərini uçota alan hesablar - 20,23,25,26).

Əməyin natural formada ödənişi zamanı, başqa sözlə əməyin ödənişi kimi işçilərə hazır məhsul, mal və s. verildikdə aşağıdakı mühasibat yazılışları tərtib edilir:

1) hesablanmış əmək haqqının məbləği: Dt 20,23,25,26,28,31,43,44 - Kt 70;
2) ƏDV və aksizlərdə daxil olmaqla satış qiymətləri ilə naturada verilmiş məhsulların, malların, materialların məbləğinə: Dt 70; Kt 46;
3) natural ödəniş qaydasında verilmiş mal və materialların faktiki maya dəyərinə, hazır məhsulların isə istehsalat maya dəyərinə: Dt 46; Kt 43,40,41,10.

Qeyd etmək lazımdır ki, mövcud qanunvericiliyə uyğun olaraq əmək kollektivi üzvlərinə və müəssisədə mülki-hüquqi müqavilələr üzrə muzdla işləyən işçilərə əmək haqqı tam deyil, müxtəlif növ tutulmalar həyata keçirilirdikdən sonra ödənilir.

Bu səbəbdən əmək haqqının hesablanması və ödənişi qanunvericilikdə müəyyən edilmiş tutulma və çıxılmalann hesablanması ilə sıx bağlıdır. Belə ki, hər bir tutulma növü qanunla ciddi surətdə reqlamentləşdirilir. Məhz bu səbəbdən əmək haqqı hesablayan mühasib (vergi agenti) vergi qanunvericiliyini və əmək haqqından tutulmalara aid digər normativ aktları yaxşı mənimsəməlidir.

Əmək haqqından tutulmaları iki qrupa ayırmaq olar: məcburi və müəssisənin təşəbbüsü ilə. Məcburi tutulmalar gəlir vergisindən, pensiya fonduna ayırmalardan.

icra vərəqələri və digər sənədlərə üzrə müxtəlif hüquqi və fiziki şəxslərin xeyrinə tutulmalardan İbarətdir.

Müəssisənin təşəbbüsü ilə işçilərin gəlirlərindən mühasibatlıq vasitəsilə aşağıdakılar tutula bilər: işçinin müəssisəyə olan borcu (əvvəllər verilmiş avanslar, təhtəlhesab şəxslərə verilmiş məbləğlər); müəssisənin tabeçiliyində olan yataqxanaların təqdim etdiyi sənədrlər üzrə kirayə haqqı və körpələrin məktəbəqədər uçaq baxçalarında saxlanmasına görə; istehsalata vurulmuş zərərə və zay məhsula görə; çatışmayan, itirilmiş və oğurlanmış mal-material qiymətlilərinə görə; çatışmayan nağd pul vəsaitlərinə görə; kreditə alınmış mallara görə; dövri nəşriyyata abunə haqqı; həmkarlara üzvülük haqqı; əmanət bankının filiallarına köçürmələr (işçinin ərizəsinə əsasən) və s.

İşçilərin əmək haqqından gəlir vergisi müəssisələr (fərdi sahibkarlar) tərəfindən ilin əvvəlindən başlayaraq hər ay başa çatdıqdan sonra onların ümumi gəlirindən Vergi Məcəlləsində müəyyən edilmiş dərəcələrlə tutulur. Vətəndaşların ümumi gəlirləri əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumu, qanunvericilikdə nəzərdə tutulmuş vergi güzəşti və azadolmaların məbləği qədər azaldıldıqdan sonra vergiyə cəlb olunur.

Gəlir vergisi üzrə öhdəliklər yalnız vətəndaşların əldə etdikləri gəlirlərdən tutulmaqla yerinə yetirilir. Gəlir vergisinin səciyyəvi xüsusiyyətlərindən biri verginin bir vergi ödəyicisi əvəzinə başqası tərəfindən ödənilməsinin yolverilməzliyidir. Yəni bu vergi fiziki şəxsin gəlirlərinə görə hesablanır və həmin gəlir hesabına ödənilir. Mülkiyyət formasından asılı olmayaraq müəssisə və təşkilatlar gəlir vergisini öz vəsaitləri hesabına ödəyə bilməz.

Qeyd etmək lazımdır ki, gəlir vergisinin stimullaşdırıcı (tənzimləyici) funksiyasını yerinə yetirən əsas elementlərindən biri də vergi güzəştləridir. Qanunvericilikdə geniş vergi ödəyici kateqoriyası üçün müxtəlif güzəşt və çıxılmalar nəzərdə tutulmuşdur. Vergi ödəyicisinə təqdim edilən hər bir güzəşt müəyyən vergi elementinin azalmasına təsir edir və bu səbəbdən vergitutma bazasının hesablanması mexanizmində xüsusi yer tutur. Bu səbəbdən gəlir vergisi hesablanılarkən mühasi- batlıq (vergi agenti, sahibkarlar) qanunvericilikdə nəzərdə tutulmuş digər vergi güzəştlərini də nəzərə almalıdır.

Natural və pul formasında işçilərə ödənilmiş gəlirlərdən tutulmuş gəlir vergisi üzrə öhdəliklərin uçotunu aparmaq üçün mühasibat uçotunun hesablar planında **68** "Büdcə ilə hesablaşmalar" hesabı nəzərdə tutulmuşdur. Bu məqsədlə həmin hesaba "Gəlir vergisi üzrə hesablaşmalar" subhesabı açılır..

Vergi Məcəlləsinə uyğun olaraq fəhlə və qulluqçuların əmək haqqından qanunvericilikdə müəyyən edilmiş dərəcələrlə ödəmə mənbəyində gəlir vergisi tutulur. Qeyd etmək lazımdır ki, respublikamızda gəlir vergisi proqressiv dərəcələrlə tutulur və onun həcmi 14-25% həddində müəyyən edilmişdir. Gəlir vergisinin tutulması və büdcəyə kğçürülməsi aşağıdakı mühasibat yazılışları tərtib etməklə rəsmiləşdirilir:

1) Dt 70 "Əməyin ödənişi üzrə işçi heyəti ilə hesablaşmalar"
Kt **68**, subhesab "Gəlir vergisi üzrə hesablaşmalar"- əmək haqqından tutulduqda;
2) Dt **68**, subhesab "Gəlir vergisi üzrə hesablaşmalar"

Kt 51 “Hesablaşma hesabı”- büdcəyə köçürüldükdə.

Qeyd etmək lazındır ki, iqtisadi ədəbiyyatda, dərsliklərdə və metodiki göstərişlərdə hüquqi şəxs yaratmadan fərdi sahibkarlıq foaliyyəti-göstərən fiziki şəxslər tərəfindən həyata keçirdikləri təsərrüfat əməliyyatlarının necə uçota alınması haqqında heç informasiya verilməmişdir. Bu səbəbdən fərdi sahibkarlar tərəfindən hesablanmış avans vergi Ödəmələrinin məbləğinin ikili yazılış qaydasında necə əks olunması məsələsi mühasiblər üçün qaranlıq qalmışdır.

Əgər vergi qanunvericiliyi fərdi sahibkarlardan özlərinin gəlir və xərclərinin vergi uçotunu tələb edirsə, onda belə çıxır ki, onlar da heç olmasa sadələşdirilmiş sistem üzrə təsərrüfat subyektləri kimi həyata keçirdikləri təsərrüfat əməliyyatlarının mühasibat uçotunu aparmalıdırlar. Belə olan halda fikrimizcə, mənfəər vergisi üzrə cari vergi ödəmələrində olduğu kimi fərdi sahibkarlar tərəfindən hesablanmış avans vergi ödəmələrinin məbləği **68** hesabın “Gəlir vergisi üzrə hesablaşmalar” subhesabının krediti ilə müxabirləşməklə 81 “Mənfəətin istifadəsi” hesabının debetinə əks olunmalıdır.

Veri qanunvericiliyinə əsasən ödəmə mənbəyində vergi tutan təsərrüfat subyektləri (vergi agentləri, fərdi sahibkarlar) işçilərin gəlirlərindən (əmək haqqından) tutulmuş vergi məbləğini əməyin ödənişi üzrə nağd pul vəsaitlərini bankdan faktiki alındığı gün dövlət büdəsinə köçürməlidirlər. Bunun üçün müəssisələr (vergi agentləri, fərdi sahibkarlar) verginin köçürülməsi üçün tərtib etdikləri ödəniş tapşırığını müvəkkil banka təqdim etməlidirlər. Bank ödəniş tapşırığını həmin gün icra etməlidir. Təsərrüfat subyektlərinin bankdakı hesabında pul vəsaitlərinin olub-olmamasından asılı olmayaraq bank ödəniş tapşırığı icra üçün qəbul etməlidir.

Banklarda hesablan olmayan və əməyim ödənişini məhsulları (işlərin, xidmətlərin) satışından əldə edilmiş (nağd qaydada kassaya ödənilmiş) pul vəsaitləri hesabına həyata keçirən müəssisələr, hesablanmış vergi məbləğini ödənişlərin aparıldığı gündən sonrakı iş günündən gec olmayaraq banklara köçürməlidirlər.

Müəssisənin mühasibathğı bank çıxarışına əsasən büdcəyə köçürülmüş gəlir vergisinin məbləğinə aşağıdakı yazılış tərtib edir:

Dt **68** “Büdcə ilə hesablaşmalar”, subhesab “Gəlir vergisi üzrə hesablaşmalar”;

Kt 51 “Hesablaşma hesabı”.

Müəssisənin bankdakı hesablarında pul vəsaitlərinin olmaması səbəbindən büdcəyə ödəniləsi vergi məbləği alınmış bank krediti hesabına dövlət büdcəsinə ödənildiyi halda mühasibatlıqda aşağıdakı yazılış verilir:

Dt **68**, subhesab “Gəlir vergisi üzrə hesablaşmalar”;

Kt 90 “Qısamüddətli bank kreditləri”

Qeyd etmək lazımdır ki, mövcud qanunvericiliyə uyğun olaraq mülki-hüquqi və əvəzçilik müqavilələri üzrə işləyən işçilərə (hər hansı şəxsə) gəlir ödəyən təsərrüfat subyektləri (fərdi sahibkarlar) həmin şəxslərin tələbi ilə özündə onlara hesablanmış gəlir və onlardan tutulan vergi məbləğini əks etdirən arayış (işçinin adı, soyadı və atasının adı, VÖEN, gəlirin növü və məbləği, həmin vətəndaşların daimi yaşadığı ünvan göstərilməklə), eləcə də müəyyən edilmiş müddətlərdə (rübdə bir dəfədən az olmayaraq) özünün uçota alındığı vergi orqanına məlumat verməlidirlər.

Bu məlumatları almış vergi orqanları isə öz növbəsində onları gəlirləri almış vətəndaşların yaşadığı yer üzrə müvafiq vergi orqanlarına göndərir. Həmin vergi orqanları bu məlumatları vətəndaşların əldə etdikləri gəlirlər haqqında təqdim etdikləri bəyannaməni yoxlayarkən nəzərə alırlar.

Fikrimizcə, vergi nəzarətinin operativliti və effektivliyini artırmaq məqsədilə yaxşı olardı ki, mülki-hüquqi və digər müqavilələr üzrə çalışan işçilərə gəlirlər ödəyən müəssisələr (fərd sahibkarlar) onlara ödədikləri gəlirlər və həmin gəlirlərdən tutulan vergilər haqqında məlumatları özlərinin vergi uçotuna alındıqları vergi orqanlarına deyil, həmin vətəndaşların şəxiyyət vəsiqələrində göstərilən daimi yaşayış yerlərindəki ərazi vergi orqanlarına göndərilsin.

İndi isə əmək haqqından digər tutulmaların mühasibat uçotunda əks etdirilməsi qaydasını nəzərdən keçirək. Müəssisədə çalışan hər bir işçinin əmək haqqından müvafiq dərəcələrlə gəlir vergisi tutulduqdan sonra, yerdə qalan məbləğdən mühasibatlıqda olan sənədlərə (icra vərəqələri, cərimə məzmunlu sənədlər, kredit sənədləri) əsasən qanunvericilikdə nəzərdə tutulmuş digər tutulmalar aparılır. Əməyin ödənişi üzrə hesablanmış məbləğlərdən aparılan tutulmalar müvafiq hesabların kreditləri ilə müxabirləşməklə 70 saylı hesabın debetinə əks olunur.

Müəssisənin işçilərinə əmək haqqı və müavinətlər verildikdə aşağıdakı mühasibat yazılışı tərtib edilir:

Dt 70 "Əməyin ödənişi üzrə işçi heyəti ilə hesablaşmalar Kt
50 "Kassa"

Vaxtında alınmamış əmək haqqı deponent edildikdə isə:

Dt 70 "Əməyin ödənişi üzrə işçi heyəti ilə hesablaşmalar"
Kt 76 "Müxtəlif debitor və kreditorlarla hesablaşmalar"

Qeyd etmək lazımdır ki, vaxtında alınmamış əmək haqqı qalığı (deponent-ləşdirilmiş məbləğ) və əmək haqqının ödənilməsi üçün müəyyən edilmiş müddət (3 iş günü) başa çatdıqdan sonra bankdakı hesablaşma hesabına qaytarılmalıdır. Bu zaman belə yazılış tərtib edilir:

Dt 51 "Hesablaşma hesabı"
Kt 50 "Kassa"

Deponentlərlə hesablaşmaların uçotu verilməmiş əmək haqqı reyestrinin məlumatlarına əsasən deponentləşdirilmiş əmək haqqının uçotu kitabında apanlır. Kitab təqvim ili üçün açılır. Hər bir deponent üçün ayrıca sətir ayrılır və orada işçinin tabel nömrəsi, familiyası, adı, atasının adı, deponent edilmiş məbləğ və onun verilməsi haqqında qeyd əks olunur. İlin axırına qalmış ödənilməmiş məbləğlər, yeni il üçün açılmış kitaba keşirilir.

Sonradan deponent olunmuş məbləğlər işçilərə onların ödənilməsi üçün müəssisə rəhbərliyinin müəyyən etdiyi günlərdə ödənilir. Deponentləşdirilmiş əmək haqqının ödənilməsi işçilərin sayı çox olduqda ödəniş cədvəlinə, digər hallarda isə kassa məxaric orderinə əsasən verilir. Kassadan ödənilmiş deponentləşdirilmiş əmək haqqının məbləği 76 hesabla müxabirləşməklə 50 "Kassa" hesabının kreditinə silinir.

Bəzi müəssisələrdə əmək haqqı hesabına ayın birinci yarısı üçün avans və digər borc məbləğləri verilə bilər. Geri qaytarılmamış avans məbləğləri işçilərin əmək haqqından tutulur. Bu əməliyyatlar uçotda aşağıdakı kimi rəsmiləşdirilir:

1) Dt 76 “Müxtəlif debitor vo kreditorlarla hesablaşmalar”
Kt 50 “Kassa” - avans verildikdə;
2) Dt 70 “Əməyin ödənişi üzrə işçi heyəti ilə hesablaşmalar”;
Kt 76 “Müxtəlif debitor və kreditorlarla hesablaşlnalar” avans məbləği əmək haqqından tutulduqda.

Müxtəlif müəssisə və şəxslərin hesabına tutulmalar qüvvədə olan qanunvericiliyə və işçilərin razılığına əsasən həyata keçirilir. Məsələn, hal-hazırda işçilərin əmək haqqından 3 faiz pensiya fonduna, **1** faizi isə həmkarlara üzvlük haqqı tutulur. Həmin əməliyyatlara aşağıdakı yazılışlar tərtib edilir:

Dt 70 “Əməyin ödənişi üzrə işçi heyəti ilə hesablaşmalar”;
Kt 69 “Sosial təminat və müdafiə fonduna ayırmalar” - pensiya fonduna tutulmalann məbləği;
Dt 70 “Əməyin Ödənişi üzrə işçi heyəti ilə hesablaşmalar”
Kt 76 “Müxtəlif debitor və kreditorlarla hesablaşmalar” - həmkarlara üzvlük haqqının məbləği.

Mövcud qanunvericiliyə uyğun olaraq mülkiyyət formasından və tabeçiliyindən asılı olmayaraq i.stənilən təsərrüfat subyekti əməyin ödəniş fondundan, yəni öz işçilərinə hesabladığı ümumi əmək haqqı məbləğindən Dövlət Sosial Müdafiə Fonduna məcburi sığorta ayırmaları etməlidir. Vergi qanunvericiliyində nəzərdə tutul- mamasına baxmayaraq sosial ehtiyaclara ayırmaları vergi kimi dəyərləndirmək olar. Burda fərq yalnız ondan ibarətdir ki, vergilər dövlət büdcəsinə, məcburi sosial sığorta ayırmalan isə büdcədənkənar fondlara köçürülür və bu vəsaitlər yalnız məqsədli təyinatı üzrə xərclənir.

Qeyd etmək lazımdır ki, məcburi sosial sığorta ayırmaları müstəqil xərc maddəsidir, yəni bu ayırmaların məbləği məhsulların (işlərin, xidmətlərin) maya dəyərinə daxil edilir. Bu səbəbdən hər ay əmək haqqı hesablandıqdan sonra əməyin ödəniş fondundan hesablanmış ayırmaların məbləği 69 “Sosial sığorta və ehtiyaclara ayırmalar” hesabının krediti ilə müxabirləşməklə məsrəf hesablarına (20,23,25,26,44) silinir.

Əməyin ödəniş fondundan hesablanmış ayırmaların məbləği hər ay əmək haqqının ödənilməsi üçün bankdan nağd pul vəsaitlərinin alındığı gün müəssissələ- rin təqdim etdikləri ödəniş tapşırığına əsasən Dövlət Sosial Müdafiə Fondunun hesabına köçürülür. Bank çıxarışına əsasən köçürülmüş vəsaitlərin məbləğini 51 “Hesablaşma hesabı” hesabının krediti ilə müxabirləşməklə 69 “Sosial sığorta və ehtiyaclara ayırmalar” hesabm debetinə silinir.

Bundan başqa işçilərin yazılı xahişinə əsasən onlar tərəfindən kreditə alınmış mallara görə kredit borcunun, kirayə haqqının və kommunal xidmətlərin ödənilməsi üçün əmək haqqından tutulmalar aparılır. Həmin tutulmalann məbləği isə 70 saylı hesabın debeti ilə müxabirləşməklə 73 Jfs li “Sair əməliyyatlar üzrə işçi heyəti ilə hesablaşmalann uçotu” hesabının kreditinə silinir. Qeyd etmək lazımdır ki, kreditə alınmış mallara göm tutulmalar, işçinin ticarət şəbəkəsi ilə bağladığı öhdəlik- tapşırığına əsasən və həmin sənəddə göstərilən məbləğdə tutularaq həmin müvafiq ticarət şəbəkəsinə göndərilir. İşçinin işdən çıxdığı hallarda isə ona çatası puldan kre

dit üzrə bütün borc məbləği tutulur. Bunu etmək mümkün olmadığı hallarda isə öhdəlik-tapşırığı ticarət şəbəkəsinə göndərilmək üçün işçinin yeni iş yerinə göndərilir.

Bəzi hallarda, işçilərin ərizəsinə əsasən onların əmək haqqı ərizədə göstərdikləri bankdakı şəxsi hesabına köçürülür. Bu əməliyyat aşağıdakı kimi rəsmiləşdirilir: Dt 70 - Kt 76 "Müxtəlif debitor və kreditorlarla hesablaşmalar".

Əksər hallarda praktikada mühasiblər azyaşlı uşaqların saxlanması üçün məhkəmə orqanları tərəfindən göndərilmiş icra vərəqələrinə əsasən tutulmalar həyata keçirirlər. Aliment (alimentlərin ödənilməsi barədə natorial qaydada təsdiq olunmuş razılaşmaya və ya icra vərəqələrinə əsasən) ödəməli olan şəxsin çalışdığı müəssisənin rəhbərliyi həmin şəxsə əmək haqqı və digər gəlir ödədikdən sonrakı 3 iş günü ərzində, hər ay onun əmək haqqı və digər gəlirindən aliment məbləğini tutmağa və alimenti alan şəxsə nağd ödəməyə, yaxud onun hesabına köçürməyə borcludur.

Məhkəmənin və nolarial orqanların icra sənədlərinə (yetkinlik yaşına çatmamış uşaqlara görə aliment, müəssisə və şəxslərə dəymiş maddi zərərə görə) əsasən tutulmalar qanunda nəzərdə tutulmuş qaydada həyata keçirilir. Məsələn, yetkinlik yaşı çatmamış uşaqlara görə cavabdeh şəxsin əmək haqqının: 1 uşağa görə 1/4; iki uşağa görə 1/3; üç və daha çox uşağa görə isə 1/2 həcmində tutulur. Tutulmalar sosial sığortaya ayırmaların cəlb olunan bütün ödəmələrdən, eləcə də cavabdehin aldığı sosial sığorta üzrə müavinətlərdən, pensiya və stipendiyadan aparılır.

Misal. Əmək müqaviləsi bağlanmış və vəzifə maaşı 500 manat təyin edilmiş işçinin əmək haqqından məhkəmənin təqdim etdiyi icra vərəqəsinə əsasən fevral ayından başlayaraq, bir azyaşlı uşağın saxlanması üçün 25% aliment tutulur.

Bu halda işçinin gılir vergisi məbləğini hesablayaq. Qeyd etmək lazımdır ki, işçi ayda 315 manat (1 qrup əlil olduğu üçün 200 man. məcburi köçkün olduğu üçün 100 man. -^ pensiya fonduna ayırmalar 15 man.) məbləğində standart vergi çıxılmaları hüququna malikdir.

Fiziki şəxsin ay ərzində gəlir vergisi üzrə vergitutma bazası aşağıdakı kimi olacaq:

500 man. 315 man. = 185 man.

Ay ərzində hesablanmış və tutulmuş vergi məbləği 25 man. 90 qəpik (185 x 14%) təşkil edəcək.

Ay ərzində işçinin əmək haqqından tutulan aliment məbləği aşağıdakı qaydada hesablanır:

(500 man. - 25 man. 90 qəp.) x 25% = *118 man. 52 qəp.*

İşçinin alacağı gəlir məbləği aşağıdakı kimi müəyyən edilir:

500 man. - 25 man. 90 qəp. - 118 man. 40 qəp. = 355 man. 70 qəp.

İcra vərəqələrinə əsasən hesablanmış aliment məbləğinin hesablanması, ödənilməsi və köçürülməsi üzrə təsərrüfat əməli>'yallan mühasibat uçotunda aşağıdakı kimi əks olunur:

1) Dt 70 “Əməyin ödənişi üzrə hesablaşmalar”

Kt 76 “Müxtəlif debitor və kreditorlarla hesablaşmalar”-- əmək haqqından tutulmuş aliment məbləği (müvafiq subhesabd^;

2) Dt 76 “Müxtəlif debitor və kreditorlarla hesablaşmalar”

Kt 50 “Kassa” - işçiyə əmək haqqı ödənilmişdir;

3) Dt 76 “Müxtəlif debitor və kreditorlarla hesablaşmalar”

Kt 51 “Hesablaşma hesabı”- tutulmuş aliment onu alan şəxsin hesabına köçürülmüşdür.

Əgər işçinin günahı üzündən istehsalatda zay məhsul əmələ gələrsə, onda həmin şəxsin əmək haqqından xarab olmuş materialların dəyəri tutulur (Dt 70 - Kt 28).

İnventarizasiya zamanı mal-material qiymətlilərinin çatışmamazlığı aşkar edildiyi hallarda, onların dəyəri həmçinin maddi-məsul şəxsin əmək haqqından tutulur (Dt 70-Kt73).

Cədvəl 23

Əmək haqqının hesablanması və ödənilməsi üzrə təsərrüfat əməliyyatları

Sıra Jfesi	Əməliyyatın məzmunu	Hesablaırın müxabirlə^məsi	
		Dt	Kt
1	**2**	3	4
1.	Əsas və köməkçi istehsalat fəhlələrinə, məhsulların satışı ilə məşğul olan işçilərə və ticarət, ictimai iaşə, ticarət-tədarük və təchizat işçilərinə əmək haqqı	20,23,43,44	70
2.	Müəssisənin sex və inzibati-idarəetmə heyətinə, eləcə də xidmətedici istehsalat və təsərrüfatlann işçilərinə əmək haqqı hesablanıb	25,26,29	70
3.	Zay məhsulun düzəldilməsi ilə məşğul olan fəhlələrə əmək haqqı hesablanmışdır	28	70
4.	Materialların tədarükü və əldə edilməsi, kapital qoyuluşu, qeyri-əsaslı işlərlə məşğul olan işçilərə əmək haqqı hesablanmışdır	10,12,08,30	70
5.	Əsas vəvaitlərin, qeyri-maddi aktivlərin və materiallann satışı əməliyyatları üzrə əmək haqqı hesablanmışdır	47,48	70
6.	Müəssisə fəaliyyətində iştirak payına görə işçilərə dividendlər (gəlirlər) hesablanıb	**86,88**	70
7.	Təsisçilərə dividendlər hesablanıb	**86,88**	75
8.	Müəssisə öz iştirakçılanna dividendlər hesablanıb	**88**	70
9.	Xüsusi təyinatlı fondlar hesabına işçilərə mükafat hesablanıb	**88**	70
10.	Məqsədli maliyyələşmə vəsaitləri hesabına işçilərə ödəmələr hesablanıb	96	70
11.	Artıq ödənilmiş əmək haqqı məbləği kassaya ödənilmişdir	50	70
12.	Əvvəllər işçinin hesabına aid edilmiş çatışmamazhq məbləği bərpa edilmişdir	84	70

Hesablanmış smək haqqı fondundan sosial ehtiyaclara görə sosial müdafiə fonduna məcburi sığorta ayırmaları hesablanmışdır (1-8-ci : 20,23,25,26 İ 29,10,12,08 ; 30,44,47,48,28 | 86,88,96 69

14.	Müəyyən edilmiş qaydada məzuniyyətlərin hesablanması və əsas vəsaitlərin cari təmiri üçün ehtiyatlar yaradılmışdır	89	70
15.	Müvəqqəti əmək qabiliyyətini itirdiyinə görə işçilərə əmək haqqı hesablanıb (xəstəlik vərəqinə əsasən)	69	70
16.	Sosial ehtiyaclara ayırmalar üzrə borc ödənilmişdir	69	51
17.	Əmək haqqından tutulmuşdur: • gəlir vergisi • pensiya fonduna (3%) • həmkarlara üzvülük haqqı (1%) • könüllü tibbi sığorta üzrə • icra vərəqələri üzrə aliment, forma geyimləri, mənzil haqqı • zay məhsula görə • maddi zərərə görə • alınmış borca görə • əmanət bankına köçürmək üçün	 70 70 70 70 70 70 70 70 70 70 70	 68 69 76 69 76 28 73 73 76 76
18.	Əmək haqqı işçinin əmanət bankındakı şəxsi hesabına köçürülmüşdür	76	51
19.	Əmək haqqı ödəmək üçün nağd pul alınmışdır	50	51
20.	Əmək haqqından tutulmuş gəlir vergisi büdcəyə köçürülmüşdür	68	51,90
21.	Müəssisənin işçilərinə əmək haqqı verilmişdir	70	50
'22.	İşçilərin əmək haqqı bankdakı hesablardan köçürülmüşdür	70	51,52,55
23.	Vaxtında alınmamış əmək haqqı deponent edilmişdir	70	76
24.	Təhtəl hesab olaraq verilmiş avans borcu tutulmuşdur	70	94
25.	Mallann xarab olmasından olan çatışmamazlıq məbləği əmək haqqmdan tutulmuşdur	70	84
26.	Deponent edilmiş əmək haqqı hesablaşma hesabına köçürülmüşdür	51	50
27.	Əməyin natural ödənişi qaydasında satış (bazar) qiməti ilə işçilərə material və hazır məhsul verilmişdir	70	48,46
28.	Natural ödəniş formasında verilmiş material və hazır məhsulların maya dəyəri silinmişdir	48,46	10,40
29.	Deponent edilmiş əmək haqım ödəmək üçün nağd pul alınmışdır	50	51
30.	Deponent borcu ödənilmişdir	76	50

Sonunda qeyd elmək istərdik ki, əmək haqqından tutulmaların ümumi həcmi qanunla məhdudlaşdırılmışdır. Belə ki, istənilən halda əmək haqqından tutulmaların ümumi həcmi, işçiyə çatası məbləğin 50 faizdən çox olmamalıdır. Lakin, bundan asılı olmayaraq müəssisə əmək haqqı hesabına verilmiş avans məbləğini, səhv hesablamalar nəticəsində ödəmələrin və vaxtında qaytarılmamış təhtəlhesab məbləğləri tutmaq hüququna malikdir.

Əmək haqqının hesablanması və ondan müəyyən edilmiş tutulmaların aparılmasının nəzərdən keçirdiyimiz qaydası, bunu deməyə əsas verir ki, mühasib (vergi agenti) əməyin ödənişini hesabladığı hər bir işçi haqqında ona lazım olan məlumatları yaxşı bilməli və işçinin malik olduğu bütün güzəştləri təsdiq edən sənədləri müvafiq işçilərdən tələb etməlidir.

Digər tərəfdən, mühasib işçinin əmək haqqından qanun və ya digər sənədlərə əsasən həyata keçirilən bütün tutulmalar haqqında işçiyə əvvəlcədən məlumat verməlidir. Bunun üçün isə vergi agenti funksiyasını yerinə yetirən mühasib qüvvədə olan qanunverici aktlarla yaxından tanış olmalı, tutulmaların aparılması qaydasını yaxşı bilməli və xüsusilə minimum əmək haqqının, əmək haqqının vergi tutulmayan minimum məbləğinin, gəlir vergisinin dərəcələrinin, vergi ödəyicilərinə verilən güzəştlərin dəyişdiyi indiki şəraitdə qanunvericilikdə baş verən dəyişiklikləri diqqətlə izləməlidir. Çünki, müəssisə mühasibatlığının əməyin ödənişi aparılan şöbəsi onun ən çətin və məsuli>'yətli sahəsidir.

3.6. Əlavə dəyər vergisi üzrə büdcə ilə hesablaşmaların uçotu

Dolayı vergilər öz təbiətinə, təyinatına və tutulması üsullarına görə praktikada bir neçə əhəmiyyətli xüsusiyyətlərə malikdir. Bu vergilər istehlak vergiləri olduğu üçün ədalətsiz və antisosialdır. Bununla yanaşı, dolayı vergilər əksər ölkələrin dövlət büdcəsinin stabil gəlir mənbəyi hesab olunur. Bu vergilərin vergitutma bazası həcminin mühasibat uçotundakı aşkarlığı səbəbindən vergidən yayınmağa maneçilik törədir. Dolayı vergilər inkişaf etmiş keçid iqtisadiyyatlı dövlətlərdə əsas iqtisadi dayaq kimi xidmət edir.

Dolayı vergilər milli vergi sistemində də əsas ver tutur. Qeyd etmək lazımdır ki, istər dolayı vergilər, istərsə də büdcə vergi daxilolmaları arasında ƏDV əhəmiyyətli yer tutur. Əlavə dəyər vergisi malların istehsalı, işlərin görülməsi, xidmətlərin göstərilməsi və tədavülü prosesində onların dəyərinə əlavənin, həmçinin Azərbaycan Respublikası ərazisinə gətirilən vergitutulan bütün malların dəyərinin bir hissəsinin büdcəyə tutulması formasıdır.

Əlavə dəyər vergisi - istehsal və tədavülün bütün mərhələlərində yaradılan satılmış malların (işlərin, xidmətlərin) dəyəri və istehsal xərclərinin tərkibinə daxil edilən maddi məsrəflər arasındakı fərq kimi müəyyən edilən əlavə dəyərin bir hissəsinin büdcəyə tutulması formasıdır.

Əlavə dəyər vergisi istehsal-kommersiya fəaliyyəti ilə məşğul olan müəssisə və təşkilatlar tərəfindən ödənilən vergilər arasında daha əhəmiyyətli olduğu üçün, hər bir mühasib bu verginin tutulması prinsiplərini, onun vergitutma bazasının düzgün müəyyən edilməsi, hesablanması və ödənilməsi qaydasını mükəmməl bilməli

dir. Çünki, müəssisələr tərəfindən ödənilən vergilər arasında bu vergi növünün hesablanması metodikası və mühasibat uçotunda əks etdirilməsi qaydası olduqca mürəkkəb və əməktutiımlu prosesdir. ƏDV xüsusi əhəmiyyət kəsb etdiyindən öz növbəsində vergi orqanları onun hesablanması və dövlət büdcəsinə köçürülməsi üzərində nəzarəti gücləndirir.

Əlavə dəyər vergisi vergi daxiolmaları arasında böyük xüsusi çəkiyə malik olmaqla mənfəət vergisindən sonra ikinci, dolayı vergilər arasında isə birinci yer tutur. Onu da qeyd etmək lazımdır ki, ƏDV məhsul istehsalı, işlər görülməsi və xidmətlər göstərilməsi üzrə bütün əməliyyatlar ƏDV cəlb olunur. Məhz bu səbəbdən bu verginin hesablanması, vergitutulan dövriyyənin müəyyən edilməsi və büdcəyə ödənilməsi qaydası özünəməxsus xüsusiyyətlərə malikdir. Bununla yanaşı, nəzərə almaq lazımdır ki, əldə edilmiş qiymətlilər üzrə ƏDV hesablanması və büdcədən əvəzləşdirilməsi üzrə bütün təsərrüfat əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi qaydası olduqca mürəkkəb və əməktutumlu işdir.

Vergi ödəyiciləri ƏDV üzrə vergitutulan dövriyyəni dəqiq müəyyən etmək, vergi öhdəliyini tam və vaxtında icra etmək məqsədilə mühasibat uçotunun operativ məlumatları əsasında əldə edilən material ehtiyatları üzrə ödənilən və ödənilməyən ƏDV məbləğinin ayrıca uçotunu aparmalıdırlar. ƏDV istehlak vergisi olmaqla təsərrüfat prosesinin bütün mərhələlərində (material ehtiyatlarının istehasal sferasına daxil olunmasından məhsul satışına qədər, hətta əsas vəsait və sair aktivlərin daxil olması və satışında) özünü büruzə verir. Buna görə də ƏDV-nin mühasibat uçotunda tam, vaxtında, bütün qanuni tələblərə əməl etməklə əks etdirilməsi mühasiblərdən yüksək peşəkarlıq və dəqiqlik tələb edir.

Əlavə dəyər vergisinin hesablanması, vergi bəyannamələrinin tərtib edilməsi, vergilərin tam və vaxtında büdcəyə ödənilməsinə görə birbaşa məsuliyyət daşıyan mühasiblərdən böyük diqqət və bilik tələb edir.

Əlavə dəyər vergisi istehsal və kommersiya fəaliyyəti ilə məşğul olan müəssisələr (fərdi sahibkarlar) tərəfindən ödənilən vergilər arasında daha əhəmiy>'ətli yer tutduğu üçün, hər bir mühasib (vergi agenti) bu verginin tətbiqi prinsiplərini, hesablanması və ödənilməsi qaydasını mükəmməl bilməlidir. Bundan əlavə, əlavə dəyər vergisi xüsusi əhəmiyyət kəsb etdiyindən öz növbəsində vergi orqanlan onun hesablanması və dövlət büdcəsinə köçürülməsi üzərində öz nəzarətini gücləndirməlidir.

Əlavə dəyər vergisi ilə əlaqədar əməliyyatların mühasibat uçotunda əks etdirilməsi qaydası Azərbaycan Respublikası Maliyyə Nazirliyinin göstərişləri ilə müəyyən edilir. İndi isə əlavə dəyər vergisinin hesablanması və ödənilməsi üzrə təsərrüfat əməliyyatlarının mühasibat uçotu hesablarında əks etdirilməsi qaydasını nəzərdən keçirək.

Qeyd etmək lazımdır ki, əlavə dəyər vergisi ilə bağlı olan təsərrüfat əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi üçün mühasibat uçotunun hesablar planında 19 "Əldə edilmiş qiymətlilər üzrə əlavə dəyər vergisi" və **68** "Büdcə ilə hesablaşmalar" hesabının "Əlavə dəyər vergisi üzrə hesablaşmalar" subhesabı nəzərdə tutulmuşdur. **68** saylı hesabın "ƏDV üzrə hesablaşmalar" subhesabının krediti üzrə büdcəyə ödəniləcək, debeti üzrə isə büdcədən əvəzləşdiriləcək (qaytarılacaq) ƏDV məbləği əks olunur.

19 saylı "Əldə edilmiş qiymətlilər üzrə əlavə dəyər vergisi" hesabı əldə edilmiş qiymətlilər üzrə müəssisələrin ödədiyi (ödəyəcəyi) ƏDV məbləği haqqında informasiyanın ümumiləşdirilməsi üçün nəzərdə tutulmuşdur.'

Lazım gəldikdə 19 saylı hesaba aşağıdakı subhesablar açıla bilər:

19-1 "Alınmış material resursları üzrə əlavə dəyər vergisi"

19-2 "Alınmış azqiymətli və tezköhnələn əşyalar üzrə əlavə dəyər vergisi"

19-3 "Kapital qoyuluşu zamanı əlavə dəyər vergisi"

19-4 "Qeyri-maddi aktivlər üzrə dlavə dəyər vergisi"

19-5 "İstehsal xarakterli işlər (xidmətlər) üzrə əlavə dəyər vergisi".

*19-1 "Əldə edilmiş (alınmış) material resursları üzrə əlavə dəyər vergisi*** subhesabında əldə edilmiş materiallar, yanmfabrikatlar və istehsalat ehtiyatlannın digər növləri üzrə hesablaşma sənədlərində göstərilmiş (ödəniləcək) əlavə dəyər vergisinin məbləği uçota alınır.

*19-2 "Alınmış azqiymətli və tezköhnələn əşyalar üzrə əlavə dəyər vergisi*** subhesabında malsatanlardan alınmış təsərrüfat inventarlan, alətləri, ümumi və xüsusi təyinatlı ləvazimatlar və müvafiq qaydada dövriyyə vəsaitlərinin tərkibinə daxil edilən digər əmək əşyaları üzrə hesablaşma sənədlərində göstərilən və müəssisə tərəfindən ödənilən (ödəniləcək) əlavə dəyər vergisi məbləği uçota alınır.

*19-3 "Kapital qoyuluşu zamanı əlavə dəyər vergisi*** subhesabında əldə edilmiş vəsaitlərin (ayn-ayn əsas vəsait obyektləri, torpaq sahələri və təbiətdən istifadə obyektləri də daxil olmaqla) əldə edilmiş və inşası üzrə hesablaşma sənədlərində göstərilən və müəssisələr (sifanşçilər) tərəfindən ödənilən əlavə dəyər vergisi məbləği uçota alınır.

*19- 4 "Qeyri-maddi aktivlər üzrə əlavə dəyər vergisi*** subhesabında əldə edilmiş qeyri-maddi aktivlər üzrə müəssisələrin ödədikləri (ödəyəcəkləri) əlavə dəyər vergisinin məbləği əks olunur.

İndi isə əvvəlcə mal-material qiymətlilərinin əldə edilməsi üzrə əlavə dəyər vergisi məbləğinin mühasibat uçotu hesablarında əks etdirilməsi qaydasını nəzərdən keçirək.

Material qiymətlilərinin əldə edilməsi üzrə əlavə dəyər vergisinin uçotu. Bildiyimiz kimi ki, vergi qanunvericiliyinə uyğun olaraq müəssisələr tərtib etdikləri ilkin (qaimələr) və hesablaşma sənədlərində (ödəniş tapşınqları, ödəniş tələbna- mələri) ƏDV məbləğini ayrıca göstərməlidir. Malsatanlardan (podratçılardan) daxil olmuş mal-material qiymətliləri mədaxil edilərkən alıcı müəssisə materialların dəyərini və vergi məbləğini mühasibat uçotu hesablarında ayrıca əks etdirməlidir. Əldə edilmiş mallar (işlər, xidmətlər) mədaxil edilərkən ilkin sənədlərdə göstərilən vergi məbləği onların dəyərinə daxil edilmədən 19 saylı hesabda uçota almır. Bu əməliyyat uçotda aşağıdakı kimi rəsmiləşdirilir.

Malların (işlərin, xidmətlərin) ilkin sənədlərdə göstərilən dəyərinə aşağıdakı mühasibat yazılışları tərtib edilir:

Dt 07 "Quraşdırılası avadanlıqlar"- quraşdırılmaq üçün daxil olmuş avadanlığın dərəyi;

Dt 08 "Kapital qoyuluşları"- kapital qoyuluşu ilə əlaqədar daxil olmuş işlərin, xidmətlərin və quraşdırma tələb etməyən avadanlığın dərəyinə;

Dt 10 “Materiallar” (11,20,23,25,26,28,41,43 və b.) - daxil olmuş materialların (yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin) dəyərinə;

Kt 60 “Malsatan və podratçılarla hesablaşmalar” (76) - malların (işlərin, xidmətlərin) dəyəri;.

Əldə edilmiş mallar (işlər, xidmətlər) üzrə malsatanlann (podratçıların) təqdim etdikləri vergi məbləğinə aşağıdakı yazılış tərtib edilir:

Dt 19 “Əldə edilmiş qiymətlilər üzrə ƏDV”

Kt 60 “Malsatan və podratçılarla hesablaşmalar” (76) - malsatanlann təqdim etdikləri ƏDV məbləği.

Alınmış material resurslarının dəyəri nağdsız qaydada malsatanlara ödənildikdən sonra (Dt 60,76 - Kt 51) büdcədən ödəniləcək (əvəzləşdiriləcək) əlavə dəyər vergisinin məbləği 19 saylı hesabın müvafiq subhesablarınm kreditindən **68** “Büdcə ilə hesablaşmalar” hesabın “Əlavə dəyər vergisi üzrə hesablaşmalar” sub- hesabmın debetinə silinir (Dt **68** - Kt 19) və vergi ödəyicisi həmin ƏDV məbləğini dövlət büdcəsindən əvəzləşdirmək hüququ əldə edir. Büdcədən kompensasiya edilməyən vergi məbləği isə başqa hesabların debetinə silinir (Dt88;Ktl9).

Mallar ölkəmizin gömrük ərazisinə daxil olarkən ödənilmiş ƏDV məbləği uçotda aşağıdakı kimi əks olunur:

Dt 19 “Əldə edilmiş qiymətlilər üzrə ƏDV”

Kt51 “Hesablaşma hesabı”(52,55).

Mallar gömrük ərazisinə daxil olarkən ödənilmiş və büdcədən əvəzləşdiril- məli olan ƏDV məbləği hesablarda aşağıdakı kimi əks olunur:

Dt **68**, subhesab “ƏDV üzrə hesablaşmalar”

Kt 19 “Əldə edilmiş qiymətlilər üzrə ƏDV”.

Əvvəlcədən ödəniş qc^dasmda malsatanlara (podratçılara)^ malların ölkəmizin ərazisinə idxalı zamanı, eləcə də xarici təşkilatlara köçürülmüş vəsaitlər (Azərbaycan Respublikasında vergi uçotunda olmayan xarici təşkilatlardan onun ərazisində əldə edilmiş mal, iş və xidmətlərə görə) hesabına ödənilmiş ƏDV məbləğinə aşağıdakı yazılış tərtib edilir:

Dt 19 “Əldə edilmiş qiymətlilər üzrə ƏDV”

Kt 60 “Malsatan və podratçılarla hesablaşmalar” (76).

Vergi ödəyicisi tərəfindən hesablanmış ƏDV məbləği malsatanın (podratçının) uçotunda aşağıdakı qaydada əks olunacaq:

1) Dt 46 “Məhsulların (işlərin, xidmətlərin) satışı”

Kt **68**, subhesab “ƏDV üzrə hesablaşmalar”;

2) Dt 31 “Gələcək dövrlərin xərcləri”

Kt **68**, subhesab “ƏDV üzrə hesablaşmalar”- vergi ödəyicisi (alıcı, sifarişçi) tərəfindən satış pulunun (dəlirin əldə edilmə vaxtının) “ödəmə üzrə” (kassa) metodu ilə əks (müəyyən) etdirdiyi hallarda, yüklənmiş mallar (görülmüş işlər, göstərilmiş xidmətlər) üzrə vergi məbləğinə;

3) Dt 46 “Məhsulların (işlərin, xidmətlərin) satışı”

Kt 31 “Gələcək dövrlərin xərcləri” (76) - əvvəllər yüklənmiş məhsullara pul vəsaitləri daxil olarkən ödənilmiş vergi məbləğinin silinməsinə;

4) Dt 80 “Mənfəət və zərərlər”

Kt **68**, subhesab ‘‘ƏDV üzrə hesablaşmalar”- vergiyə cəlb edilən satışdankənar əməliyyatlar üzrə vergi məbləğinə;

5) Dt 60 “Malsatan və podratçılarla hesablaşmalar” (76)

Kt **68**, subhesab “ƏDV üzrə hesablaşmalar”- Azərbaycan Respublikasında vergi uçotunda olmayan xarici təşkilatlardan onun ərazisində əldə edilmiş mal, iş və xidmətlər üzrə vergi məbləğinə.

Mallar (işlər, xidmətlər) qeyri-istehsal ehtiyacları üçün istifadə olunduğu hallarda 19 saylı hesabdan silinmiş əvəzləşdirilməli olan vergi məbləği aşağıda göstərilən“^tor«o” yazılışı tərtib etməklə bərpa olunmalıdır:

Dl **68,** subhesab “ƏDV ü/Jə hesablaşmalar”

Kt 19 “Əldə edilmiş qiymətlilər üzrə ƏDV.

Alıcılar tərəfindən təqdim edilmiş və vergi ödəyicisi tərəfindən ödənilmiş əvəzləşdirilməyən (çıxılmalı olmayan) vergi məbləği 19 saylı hesabdan aşağıdakı qaydada silinir:

1) Dt 20 “Əsas istehsalat” (23,25,26,28,29,31,44) - müəyyən edilmiş normalar həddində məhsulların (işlərin, xidmətlərin) istehsalı zamanı istifadə və onların maya dəyərinə daxil edilən mallar, işlər, xidmətlər üzrə vergi məbləğinə;

Dt 80 “Mənfəət və zərərlər” - normadan artıq məhsullann istehsalı zamanı istifadə olunan mallara (işlərə, xidmətlərə) düşən vergi məbləğinə;

Kt 19 “Əldə edilmiş qiymətlilər üzrə ƏDV

2) Dt 20 “Əsas istehsalat” (23,25,26,28,29,31,44)

Kt 19 “Əldə edilmiş qiymətlilər üzrə ƏDV- vergidən azad edilən məhsulların istehsalı zamanı istifadə olunan mal, iş və xidmətlər (əsas vəsait və qeyri- maddi aktivlərdən başqa) üzrə vergi məbləğinə;

3) Dt 29 “Xidmətedici istehsalat və təsərrüfatlar”

Kt 19 “Əldə edilmiş qiymətlilər üzrə ƏDV”- qeyri-istehsal ehtiyacları üçün istifadə olunan mallar, işlər, xidmətlər üzrə vergi məbləğinə;

4) Dt 96 “Məqsədli maliyyələşmələr”

Kt 19 “Əldə edilmiş qiymətlilər üzrə ƏDV” - büdcədən məqsədli maliyyələşmə, yaxud qanunvericiliyə uyğun olaraq yaradılmış və məqsədli təyinatı üzrə istifadə olunan vəsaitlər hesabına əldə edilmiş mal, iş və xidmətlər üzrə vergi məbləğinə;

5) Dt 84 “Qiymətlilərin çatışmamazlığı və xarab olmasından olan itkilər”

Kt 19 “Əldə edilmiş qiymətlilər üzrə ƏDV” - aşkar edilmiş çatışmayan qiymətlilər üzrə vergi məbləğinə.

Əvəzləşdiriləcək vergi məbləği 19 saylı hesabdan silindikdən sonra çatışmamazlıqların aşkar edildiyi hallarda, vergi məbləği aşağıdakı mühasibat yazılışı tərtib edilməklə bərpa edilir:

6) Dt 84 “Qiymətlilərin çatışmamazlığı və xarab olmasından olan itkilər”

Kt **68**, subhesab “ƏDV üzrə hesablaşmalar”

7) Dt 80 “Mənfəət və zərərlər”

Kt 19 “Əldə edilmiş qiymətlilər üzrə ƏDV” - əvəzsiz olaraq verilmiş mallar üzrə vergi məbləğinə.

Vergi Məcəlləsinin 159.5 maddəsinə uyğun olaraq, əgər vergi ödəyicisi malları (işləri, xidmətləri) ƏDV ödəməklə əldə edirsə və müvafiq əvəzləşdirmə aparırsa (əvəzləşdirmə hüququna malikdirsə), onda bu malların qeyri-kommersiya məqsədləri üçün istifadə edilməsi, onların itməsi, xarab olması və ya oğurlanması (fövqəladə hallar istisna olmaqla) vergitutulan əməliyyatlar hesab olunur.

Əgər qeyri-istehsal ehtiyacları üçün istifadə olunmuş materiallar üzrə vergi məbləği büdcədən əvəzləşdirilmişdirsə, onda müəssisə materialların qeyri-istehsal ehtiyaclarına buraxıldığı hesabat dövründə aşağıdakı bərpaedici mühasibat yazılışları tərtib etməlidir:

1) Dt **68**, subhesab "Əlavə dəyər vergisi üzrə hesablaşmalar";

Kt 19, müvafiq subhesabı - "qırmızı stomo" yazılışı ilə təmirin aparılması üçün istifadə edilmiş materiallar üzrə ƏDV bərpa edildikdə;

2) Dt **88** "Bölüşdürülməmiş mənfəət", müvafiq subhesab;

Kt 19, subhesab "Kapital qoyuluşu zamanı əlavə dəyər vergisi".

Mal-material qiymətlilərinin həm istehsal, həm də qeyri-istehsal ehtiyacları üçün istifadə olunduğu hallarda, 19 saylı hesabın kreditindən **68** saylı hesabın debetinə silinməli olan əvvəllər alınmış və dəyəri ödənilən mal-material qiymətliləri üzrə əvəzləşdirilməli olan ƏDV məbləği, istehsal və qeyri-istehsal ehtiyaclarına silinən mal-material qiymətlilərinin sayına əsasən hesablama yolu ilə müəyyən edilir. 19 saylı hesabdan silindikdən sonra mal-material qiymətliləri qeyri-istehsal ehtiyacları üçün buraxıldığı hallarda, müvafiq vergi məbləği onların maliyyələşmə mənbəyini uçota alan hesablarla müxabirləşməklə **68** saylı hesabın kreditinə silin- məklə bərpa olunur.

Əgər müəssisə güzəştli mallar üzrə ödənilmiş ƏDV məbləğini istehsal (tədavül) xərclərinə aid etmək əvəzinə büdcədən əvəzləşdirmək üçün təqdim etmişdirsə, onda vergi ödəyicisinin bu səhvi vergiqoymanın gedişatma təsir edəcək aşağıdakı nəticələrə səbəb ola bilər:

- əvəzləşdirmə üçün büdcəyə təqdim edilmiş faktiki vergi məbləği, uçot sənədlərində və mühasibatlıqda hesablanmalı (əks olunmalı) olan məbləğdən az olmasına;
- müəssisədə məhsulların (işlərin, xidmətlərin) maya dəyəri təhrif olunacaq ki, bu da büdcəyə həqiqətdə olduğundan çox mənfəət vergisinin daxil olmasına. Bu halda vergi ödəyicisi mühasibat uçotunda aşağıdakı yazılışları aparacaq:

1) Dt 19; Kt 60 (76) - alınmış mallar üzrə ƏDV əks olunmuşdur;

2) Dt **68**; Kt 19 - ƏDV məbləği əvəzləşdirmə üçün təqdim edilmişdir.
Düzəliş yazılışlan:

3) Dt **88** "Bölüşdürülməmiş mənfəət";

Kt **68**, subhesab "Əlavə dəyər vergisi üzrə hesablaşmalar"- maliyyə sanksiyası (peniya) hesablandıqda;

4) Dt **68**; Kt 19 müvafiq subhesabları - *"qırmızı storno "* yazılışı ilə;

5) Dt 26 "Ümumtəsərrüfat xərcləri", 44 "Tədavül xərcləri";

Kt 19, müvafiq subhesab - istehsal xərclərinə aid edilən ƏDV.

Analoji səhvlərə yol vermiş, lakin müstəqil olaraq onlan aşkar etmiş vergi ödəyiciləri maliyyə sanksiyasının tətbiqindən yayınmaq məqsədilə aşağıdakı tədbirləri həyata keçirməlidirlər:

Düzəliş yazılışları aparmaqla mühasibat uçotunda düzəlişlər aparmalı:

Dt 19; Kt 60 (76)-alınmış mallar üzrə ƏDV ayrılmışdır;

Dt **68**; Kt 19 - ƏDV əvəzləşdirməyə təqdim edilmişdir;

Dt 19; Kt **68** - ikinci mühasib yazılışının əksi;

Dt 29,26,88,44 (müvafiq olaraq)

Kt 19, müvafiq subhesabı - ƏDV xərclərə aid edilmişdir.

Düzəliş aparılmış vergi bəyannamələri tərtib edib vergi orqanlarına təqdim etməli. Bu zaman hesablamalarda əvvəllər təqdim edilmiş hesablamalarla müqayisədə yalnız aşkar edilmiş məbləğ göstərilməlidir.

Büdcəyə çatacaq vergi məbləğini köçürmək. Mal-material qiymətlilərinin yalnız istehsalatda deyil, həm də qeyri-istehsal ehtiyacları üçün istifadə olunduğu hallarda, əvvəllər əldə edilmiş və dəyəri ödənilmiş mal-material qiymətliləri üzrə 19 saylı hesabın kreditindən **68** hesabın "ƏDV üzrə hesablaşmalar"subhesabına silinəcək vergi məbləği, istehsal ehtiyaclarına silinmiş mal-material qiymətlilərinin kəmiyj'ətinə və dəyərinə əsasən hesablama yolu ilə hesablanılır. 19 saylı hesabdan silindikdən sonra mal-material qiymətlilərinin qeyri-istehsal ehtiyaclarına silindiyi hallarda isə müvafiq vergi məbləğləri, yuxarıda nəzərdən keçirdiyimiz qaydada onların ödənilməsi mənbələrini uçota alan hesabların (88,29,44) debeti ilə müxa- birləşməklə **68** hesabın kreditinə silinir.

Vergidən azad edilmiş əməliyyatların həyata keçirilməsi zamanı istifadə olunan mal-material resursları üzrə ƏDV məbləği istehsal məsrəflərini uçota alan hesabların (20,23,25,26 və b.) debetinə silinir. Əsas vəsaitlər və qeyri-maddi aktivlər üzrə ƏDV məbləği onların əldə edilməsi üzrə məsrəflərin tərkibində uçota alınır.

Vergi Məcəlləsinin 159.5 maddəsinə uyğun olaraq, əgər vergi ödəyicisi malları ƏDV ödəməklə əldə edirsə və müvafiq əvəzləşdirmə aparırsa (əvəzləşdir- mə hüququna malikdirsa), onda bu malların qeyri-kommersiya məqsədləri üçün istifadə edilməsi, onların itməsi, xarab olması və ya oğurlanması (fövqəladə hallar istisna olmaqla) vergitutulan əməliyyatlar hesab olunur.

Əgər material resurslarının istehsalata (istismara) buraxıldığı anadək *onların xarab olması və ya oğurlanması* faktı aşkar edilərsə, onda həmin maddi qiymətlilərin əldə edilməsi zamanı ödənilmiş ƏDV məbləği 19 saylı hesabın müvafiq sub- hesablarımn kreditindən material qiymətlilərin çatışmamazlığı uçota alan hesabın (84) debetinə siinir. Material resurslarının dəyəri ödənildikdən sonra istehsalata buraxıldığı anadək onların çatışmamazlığı, xarab olması və ya oğurlanması aşkar edilərsə, onda əvvəllər büdcədən əvəzlşdirilmiş vergi məbləği material resurslarının çatışmamazlığını (84) və hesabat ilinin istifadə olunmuş mənfəətini (81) uçota alan hesabların debeti ilə müxabirləşməklə **68** saylı hesabın krediti üzrə bərpa olunur (Dt 81,84,88-Kt **68**).

Əgər müəssisə əldə etdiyi materialları xüsusi vəsaitləri (istehsalın inkişafı fondu) hesabına maliyyələşən qeyri-istehsal təyinatlı binanın təmirinin aparılması üçün istifadə edərsə, onda həmin materialların dəyəri istehsal (tədavül) xərclə

rinə aid edilmir. Nəzərə almaq lazımdır ki, vergi <!|anunvericiliyinə əsasən göstərilən materiallar üzrə ƏDV məbləği büdcədən əvəzləşdirilmir. Bu səbəbdən, yuxarıda qeyd etdiyiz kimi həmin materiallar üzrə vergi məbləği maliyyələşmə mənbələrinə əks olunmalıdır. Müəssisənin mühasibat uçotunda bu aşağıdakı kimi əks olunacaq:

1) Dt 10 "Materiallar";
Kt 60 "Malsatan və podratçılarla hesablaşmalar"- təmir üçün alınmış materiallar mədaxil edildikcə;
2) Dt 19, subhesab "Əldə edilmiş material qiymətliləri üzrə əlavə dəyər vergisi";
Kt 60 "Malsatan və podratçılarla hesablaşmalar"- alınmış materiallar üzrə əlavə dəyər vergisinin məbləğinə;
3) Dt **88**, subhesab "Sosial sfera fondu" ;
Kt 19 müvafiq subhesabı - ƏDV müəssisənin sərəncamında qalan mənfəət hesabına aid edildikdə.

Əgər qeyri-istehsal ehtiyacları üçün istifadə olunmuş materiallar üzrə vergi məbləği büdcədən əvəzləşdirilmişdirsə, onda müəssisə materialların qeyri-istehsal ehtiyaclarına buraxıldığı hesabat dövründə aşağıdakı bərpaedici mühasibat yazılışları tərtib etməlidir:

1) Dt **68**, subhesab "Əlavə dəyər vergisi üzrə hesablaşmalar";
Kt 19, müvafiq subhesabı - "qırmızı stomo" yazılışı ilə təmirin aparılması üçün istifadə edilmiş materiallar üzrə ƏDV bərpa edildikdə;
2) Dt **88** Bölüşdürülməmiş mənfəət", müvafiq subhesab;
Kt 19, subhesab "Kapital qoyuluşu zamanı əlavə dəyər vergisi".

Alıcılardan (sifarişçilərdən) göndəriləcək mallara, yerinə yetiriləcək işlərə və göstəriləcək xidmətlərə görə *avans məbləği daxil olduqda və onların dəyəri qismən ödənildikdə* əlavə dəyər vergisinin uçotu xüsusi qaydada aparılır. Göndərilmiş mal-material qiymətlilərinə, yaxud görülmüş işlərə, göstərilmiş xidmətlərə görə qabaqcadan ödəniş formasında avans məbləğləri alındıqca, eləcə də məhsulun (işlərin, xidmətlərin) dəyəri sifarişçilər tərəfindən məhsul (işlər, xidmətlər) qismən hazır olduqca ödənildikdə, alınmış avansın bütün məbləği pul vəsaitlərini uçota alan hesabların (50,51,52,55) debeti ilə müxabirləşməklə 64 "Alınmış avanslar üzrə hesablaşmalar" hesabının kreditinə əks olunur.

Eyni zamanda avansların alınması haqqında bank sənədlərinə əsasən hesablanmış ƏDV məbləği 64 "Alınmış avanslar üzrə hesablaşmalar" hesabının debeti ilə müxabirləşməklə **68** hesabın "Əlavə dəyər vergisi üzrə hesablaşmalar" subhesabının krediti üzrə əks olunur.

Məhsullar faktiki olaraq yükləndikdə, işlər yerinə yetirildikdə və xidmətlər göstərildikdə isə əvvəllər alınmış avans üzrə hesablanmış vergi məbləğinə görə ilk öncə yuxanda qeyd etdiyim yazılışın əksi tərtib olunur (Dt **68**; Kt 64), sonra satılmış məhsullann (işlərin, xidmətlərin) dəyəri əks edilir (Dt 46, Kt 64).

Qeyd etmək lazımdır ki, vergitutulan əməliyyatların həyata keçirilmə tarixi bu əməliyyatlar üzrə hesab-fakturasının alıcılara təqdim edildiyi gün hesab edilir. Əgər vergi hesab-fakturası 5 gün müddətində təqdim edilməzsə, onda mallann da

şındığı və ya təqdim edildiyi gün vergitutulan əməliyyatların həyata keçirilmə tarixi hesab edilir. Əgər ödənişlər həyata keçirildikdən sonra vergi hesab-fakturası müəyyən edilmiş müddətdə təqdim edilməzsə,onda ödənişin aparılma tarixi vergi- tutulan əməliyyatın həyata keçirildiyi tarix hesab olunur.

Əgər material resurslarının (ATƏ) istehsalata (istismara) buraxıldığı ana qədər xarab olması və ya oğurlanması aşkar edilərsə, onda həmin maddi qiymətlilərin əldə edilməsi zamanı ödənilmiş ƏDV məbləği, material qiymətlilərinin çatışma-mazlıqlarının silinməsi üçün nəzərdə tutulmuş ümumi qaydada 19 hesabın müvafiq subhesablarından silinir (Dt 84, Kt 19).

Müəssisələr kənar təşkilatlara göstərilmiş xidmətlərin dəyərinin ödənişi kimi sifarişçilərdən aldığı malları əməyin ödənişinə yönəltdiyi hallarda, ƏDV aşağıdakı kimi uçota alınır.

Bu halda ƏDV əvəzləşdirilməsi üçün aşağıdakı şərtlər yerinə yetirilməlidir:

- material resurslannın əldə edilməsi (işlərin görülməsi, xidmətlərin göstərilməsi);
- material resurslarının (işlərin,xidmətlərin) dəyərinin malsatanlara (podratçılara) ödənilməsi;
- satınalma sənədlərinin lazımi qaydada rəsmiləşdirilməsi;
- elektron vergi hesab-fakturalarının olması.

Bu zaman nəzərə almaq lazımdır ki, əsasında ƏDV əvəzləşririldiyi bu şərtlər bir halda nəzərə alınır ki, əldə edilmiş material resurslarının (işlərin, xidmətlərin) dəyəri sonradan istehsal (tədavül) xərclərinə silinəcək. Əks halda, o cümlədən xüsusi maliyyələşmə mənbəyinə malik olan material resursları istehsal ehtiyaclarına silindiyi hallarda, müəssisə aşağıdakı mühasibat bərpa yazılışı etməlidir: Dt 88,96- Kt**68.**

Nəzərdən keçirilən vəziyyətə münasibətdə yuxarıdakı şərtlərə əsa.sən aşağıdakıları qeyd etmək olar.

Bir halda ki, satılmış xidmətlərə görə müəssisələr tərəfindən alınmış mallar mədaxil edilmişdir, deməli əsasında müəssisənin ƏDV əvəzləşdirmək hüquqi əldə etdiyi yuxarıda nəzərdən keçirdiyimiz **1** və **2**-ci şərtlər yerinə yetirilmişdir.

Alınmış mallar sonradan işçilərin əməyinin ödənişinə yönəldildiyi və qeyri-istehsal ehtiyaclarına istifadə edildiyi üçün demək olar ki, yuxarıda qeyd ctdiyimiş 3-cü şətrdə yerinə yetirilmişdir. Beləliklə, müəssisənin ƏDV əvəzləşdirmək üçün bütün əsasları var.

Bu əməli>**7**atlar mühasibat uçotunda aşağıdakı kimi əks olunacaq:

1) Dt 60 - Kt 46 - kənar təşkilatlara xidmətlər göstərilmişdir;
2) Dt 46 - Kt **68** - göstərilmiş xidmətlər üzrə büdcəyə ödəniləcək ƏDV məbləği hesablanmışdır.

Müəssisələr vergitutma məqsədləri üçün özünün uçot siyasətində gəlir və xərclərin kassa metodunu ("ödəmə üzrə") seçdikdə 2-ci yazılışın əvəzinə 3-cü yazılış tərtib edilir:

3) Dt 46 - Kt 76 - ödənilməmiş ƏDV məbləği əks olunmuşdur;
4) Dt 41 - Kt 60 - göstərilmiş xidmətlərin dəyəri ödənilmişdir;
5) Dt 19 - Kt 60 - göstərilmiş xidmətlərə görə ƏDV hesablanmışdır;

6) Dt 76 - Kt **68** - ödənilmiş xidmətlər üzrə ƏDV hesablanmışdır (kassa metodu zamanı);
7) Dt **68** - Kt 19 - ƏDV əvəzləşdirməyə silinmişdir;
8) Dt 20 - Kt 70 - əmək haqqı hesablanmışdır;
9) Dt 70 - Kt 46 - natura formasında əmək haqqı verilmişdir;
10) Dt 70 - Kt **68** - gəlir vergisi hesablanmışdır;
11) Dt 46 - Kt **68** - ƏDV hesablanmışdır (vergitutma məqsədləri üçün bazar qiymətləri tətbiq edilməklə maya dəyərindən >aıxan qiymətə satıldığı hallarda);
12) Dt 46 - Kt 41 - satılmış malların maya dəyəri silinmişdir.

İcarədarm icarəyə götürəndən aldığı (alacağı) icarə haqqının tərkibindəki ƏDV məbləği, **68** saylı hesabın "ƏDV üzrə hesablaşmalar" subhesabının kreditindən 80 "Mənfəət və zərərlər" hesabının debetinə silinir. İcarədann əmlakın icarəyə verilməsi ilə əlaqədar təsərrüfat əməliyyatları üzrə ödədiyi (ödəməli olduğu) ƏDV məbləği və 80 "Mənfəət və zərərlər" hesabın debetinə silinən xərclər 19 saylı hesabın müvafiq subhesabının debetinə silinir. Bu vergi məbləğlərinin 19 saylı hesabdan silinməsi vergi qanunvericiliyinə əsasən həyata keçirilir.

Əmlakın icarəyə verilməsi ilə əlaqədar məsrəflərin istehsal və tədavül xərclərinə daxil edilməsinə icazə verilmədiyi və onların satışdankənar xərclərin tərkibində 80 saylı hesabın debetində uçota alındığı üçün vergi qanunvericiliyinə uyğun olaraq ƏDV məbləğinin əvəzləşdirilməsinə icazə verilmir. Bu halda əmlakın icarəyə verilməsi ilə əlaqədar əldə edilmiş material resursları (işlər, xidmətlər) üzrə ƏDV məbləğinin 80 saylı hesabın debeti üzrrə əks olunması məsləhət görülür.

Qeyd etmək lazımdır ki, Vergi Məcəlləsinin 159.4 maddəsinə uyğun olaraq *müəssisənin öz işçilərinə (digər şəxslərə) ödənişli və ya əvəzsiz olaraq mallar təqdim etməsiy işlər görməsi və xidmətlər göstərməsiy eləcə də barter əməliyyatları* vergitutulan əməliyyatlar hesab olunur. Hesabat məlumatlarına əsasən natural formada əməyin ödənişi (verilmiş mükafatlar da daxil olmaqla) kimi təqdim edilmiş, əvəzsiz olaraq təqdim edilmiş və bazar qiymətindən aşağı satılmış mallar (işlər, xidmətlər) üzrə hesablanmış vergi məbləği müvafiq maliyyələşmə mənbələrini uçota alan hesablarla (87, 88,96) müxabirləşməklə **68** hesabın krediti üzrə əks olunur.

Komissiya müqaviləsi üzrə malların satışı zamanı alıcılar (sifarişçilər) tərəfindən ödənilməli olan məbləğ (həmin mallar üzrə ƏDV məbləği də daxil olmaqla), mallann alıcılara (sifarişçilərə) yükləndiyi gün komissioner tərəfindən 62 "Alıcılarla (sifarişçilərlə) hesablaşmalar" hesabı ilə müxabirləşməklə 76 "Müxtəlif debitor və kreditorlarla hesablaaşmalar" hesabının müvafiq subhesabının krediti üzrə əks olunur.

Komitent (mallann sahibi) mühasibat uçotunda mallann satışından daxil olan pul vəsaitlərini və ƏDV məbləğini malların alıcılara (sifarişçilərə) yüklənməsi barədə komissionerdən bildiriş aldıqdan sonra əks etdirir. Bu zaman bidiriş komissioner tərəfindən müəyyən edilmiş müddətdən gec olmaayaraq təqdim edilməlidir.

Komissioner tərəfindən satılmış mallar üzrə göstərilmiş xidmətlərə görə ona düşən komission Ödənişlərinə görə vergi qanunvericiliyinə əsasən büdcəyə ödənilməli olan ƏDV məbləği 46 "Məhsulların (işlərin, xidmətlərin) satışı" hesabının, satılmış mallara görə alıcılardan daxil olmuş və komitentə ödənilməli olan kreditor

borcuna düşən vergi məbləğini isə 76 “Müxtəlif debitor və kreditorlarla hesablaşmalar” hesabının debetindən **68** saylı hesabın “ƏDV üzrə hesablaşmalar” subhesa- bının kreditinə silir.

Komissioner tərəfindən göstərilmiş xidmətlərə görə ödənilməli olan ƏDV məbləği, həmin xidmətlərin göstərilməsi ilə bağlı olan xərcləri (borcları) uçota alan hesabların krediti ilə müxabirləşməklə 19 saylı hesabın müvafiq subhesabmın debetinə əks olunur. Həmin vergi məbləğinin **68** saylı hesaba silinməsi ümumi müəyyən edilmiş qaydada həyata keçirilir.

Məhsulların (işlərin, xidmətlərin) satışı üzrə ƏDV uçotu. Mövcud qanunvericiliyə uyğun olaraq müəssisələrin mühasibatlığında malların satışından əldə edilmiş gəlirlərin (satış pulunun) müəyyən edilməsinin iki metodu tətbiq olunur: “ödəmə üzrə” və “yükləmə üzrə”. Vergi qaninvericiliyində gəlir və xərclərin müəyyən edilməsinin həmçinin iki metodu müəyyən edilmişdir: kassa və hesablama. Bəzi istisnalar olmaqla prinsipcə bu metodların tətbiqi prinsipləri eynidir.

Birinci metodun (ödəmə üzrə, kassa metodu) mahiyyəti ondan ibarətdir ki, müəssisənin alıcılara (sifarişçilərə) yüklədiyi mallar (işlər, xidmətlər) onların dəyəri ödənildikdən sonra satılmış hesab olunur. Nağdsız hesablaşmalar zamanı mallara görə pul vəsaitləri hesablaşma hesabına daxil olduqca; nağd hesablaşmalar zamanı isə pul vəsaitləri müəssisənin kassasına ödənildikdə.

İkinci metod zamanı (yükləmə üzrə, hesablama metodu) məhsullar (işlər, xidmətlər) onların dəyərinin ödənilib-ödənilməməsindən asılı olmayaraq alıcılara (sifarişçilərə) yükləndiyi və hesablaşma sənədləri alıcılara təqdim edildiyi andan satılmış hesab edilir. Bu metod ona əsaslanır ki, malların yüklənmə anından müəssisə onlara görə mülkiyyət hüququnu itirir.

Qeyd etməl lazımdır ki, hər iki metodun tətbiqi zamanı həm məhsullann satışı, həm də satılmış məhsullar üzrə ƏDV hesablanması üzrə təsərrüfat əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi qaydası fərqlidir.

Satışın “yükləmə metodunun (hesablama metodu) tətbiqi zamanı məhsullar alıcılara yükləndiyi andan satılmış hesab edildiyi üçün satılmış məhsullara görə ƏDV hesablanılır. Hesablanmış ƏDV-nin məbləği **68** hesabın krediti ilə müxabirləşməklə 46 saylı hesabın debetinə silinir. Bu mühasibat yazılışı (Dt 46; Kt **68**) müəssisənin büdcəyə olan borcunu göstərir, hansı ki sonradan pul vəsaitlərini köçürməklə ödənilir (Dt **68**; Kt 51, 52, 50).

Satışın “ödəmə üzrə” (kassa) metodunda müəssisənin ƏDV üzrə büdcəyə olan borcu məhsulun dəyəri alıcılar tərəfindən ödənildikdən sonra yaranır. Ona görə müəssisələr məhsulu alıcılara yüklədikdən sonra satılmış məhsullar üzrə ƏDV məbləğini əvvəlcə 76 “Müxtəlif debitor və kreditorlarla hesablaşmalar” hesabının krediti ilə müxabirləşməklə 46 hesabın debetinə əks etdirir. Alıcılardan satılmış malların pulu daxil olduqdan sonra isə ƏDV üzrə büdcəyə olan borc əks olunur və bu zaman mühasibatlıqda eyni zamanda iki mühasibat yazılışı tərtib edilir:

1) Dt 51 “Hesablaşma hesabı”;
Kt 62 “Alıcılar və sifarişçilərlə hesablaşmalar”- satış pulunun məbləğinə;
2) Dt 76, subhesab “ƏDV üzrə hesablaşmalar”;

Kt **68**, subhesab "ƏDV üzrə büdcə ilə hesablaşmalar" - satılmış mallar üzrə hesablanmış ƏDV məbləği.

Məhsul satışının bu iki üsulunun tətbiqi zamanı ƏDV mühasibat uçotunda 24 saylı cədvəldə göstərildiyi qaydada əks etdirilir.

Cədvəl 24

Əməliyyatların məzmunu	Müxabirləşən hesablar		Əməliyyatların məzmunu	Müxabirləşən hesablar	
	debet	kredit		debet	kredit
Məhsul alıcıya yola salınmış və hesablaşma sənədləri ödənmək üçün müvəkkil bank vasitəsilə alıcıya təqdim olunmuşdur (əməliyyat mühasibat uçotunda faktiki maya dəyəri ilə əks etdirilir)	45	40	Məhsul alıcıya yola salınmış və hesablaşma sənədləri ödənmək üçün müvəkkil bank vasitəsilə alıcıya təqdim olunmuşdur (ƏDV daxil olmaqla müqavilə qiyməti ilə)	62	46
Alıcıdan malın haqqı (ƏDV daxil olmaqla müqavilə qiyməti ilə) daxil olmuşdur.	51	46	Satılmış məhsulun maya dəyəri silinir	46	40
Alıcıdan alınmış ƏDV əks etdirilmişdir	46	68	Satışın maliyyə nəticəsi müəyyənləşdirilir (mənfəət)	46	80
Satılmış məhsulun tam maya dəyəri silinir	46	45	Alıcıdan malın haqqı daxil olmuşdur (ƏDV daxil olmaqla müqavilə qiyməti ilə)	51	62
Satışın maliyyə nəticəsi müəyyənləşdirilir	46	80	Alıcıdan alınmış ƏDV əks etdirilir	46	68

Vasitəçilik qaydasında həyata keçirilən ticarət əməliyyatında bir tərəf (vasitəçi) digər tərəfin tapşırığı ilə onun göndərdiyi malı öz adından satmağı öhdəsinnə götürür və bunun müqabilində əvvəlcədən müəyyən edilmiş (komisyon müqavilə əsasında) komisyon haqqı alır. Vasitəçi komissiyaya götürdüyü malı öz balansına daxil etmir (mülkiyyət hüququ komitentə məxsusdur) və onun uçotunu 004 saylı "Komissiyaya götürülmüş mallar" hesabında aparır. Vasitəçi təşkilatda və komitent təşkilatda uçotun aparılması və satışın maliyyə nəticələrinin müəyyənləşdirilməsi 25 saylı cədvəldə verilmişdir.

Cədvəl 25

Vasitəçi təşkilatda əməliyyatların məzmunu	M Qxa birləşən hesablar		Əməliyyatların məzmunu	Müxabirləşən hesablar	
	debet	kredit		debet	kredit
Komissiyaya götürülmüş mallar müqavilə qiyməti ilə balansarxası uçota alınır	004	-	Məhsul satış üçün anbardan vasitəçiyə yola salınır (o cümlədən ƏDV)	45	40
Mallar topdansatış qaydasında alıcıya göndərilmişdir (satış qiyməti ilə)	62	76	Satışa göndərilmiş məhsula düşən kommersiya xərcləri silinir	45	43
Alıcıdan malın haqqı daxil olmuşdur	51	62	Satılmış məhsulun haqqı vasitəçidən daxil olmuşdur (müqavilə qiyməti ilə)	51	46
Vasitəçinin komissiyon haqqı əks etdirilir	76	46	Alıcıdan alınmış ƏDV əks etdirilir	46	**68**
Satılmış malın müqavilə qiyməti komitentə köçürülür	76	51	Satılmış məhsulun maya dəyəri (kommersiya xərcləri daxil olmaqla) silinir	46	45
Komisyon haqqından büdcəyə ƏDV hesablanır	46	**68**	Satışın maliyyə nəticəsi müəyyənləşdirilir	46	80
Vasitəçinin satışla bağlı xərcləri silinir	46	44			
Satışın maliyyə nəticəsi müəyyənləşdirilir	46	80			

İstehsal ehtiyatları satılarkən hesablanmış ƏDV məbləği 48 "Sair aktivərin satışı" hesabının debetində, 68 "Büdcə ilə hesablaşmalar" hesabının kreditində əks etdirlir.

İstehsal ehtiyatları əvəzsiz olaraq verildikdə onu verən tərəf ƏDV ödəyicisi hesab edilir. Hesablanmış ƏDV məbləği 87 "Əlavə kapital" hesabının debetində, 68 "Büdcə ilə hesablaşmalar" hesabmm kreditində əks etdirilməklə uçota alınır

Barter müqaviləsi üzrə satış pulunun həcmini müəyyən edərkən, gəlirlərin müəyyən edilməsinin tətbiq olunan metodundan asılı olaraq ƏDV aşağıdakı sxem üzrə uçota alınmasını məqsədəuyğun hesab edirik:

"Kassa" (ödəmə üzrə) metodunun tətbiqi zamanı:

1) Dt 10 “Materiallar”;
Kt 60 “Malsatan vo podratçılarla hesablaşmalar”;
2) Dt 60 “Malsatan və podratçılarla hesablaşmalar”;
Kt 46 “Məhsulların (işlərin, xidmətlərin) satışı”;
3) Dt 46 “Məhsulların (işlərin, xidmətlərin) satışı”;
Kt **68**, subhesab “ƏDV üzrə hesablaşmalar”;
4) Dt 46 “Məhsulların (işlərin, xidmətlərin) satışı”;
Kt 10 “Materiallar”, 20 “Əsas istehsalat”;
5) Dt 19 “Əldə edilmiş material resursları üzrə ƏDV”;
Kt 10 “Materiallar”;
6) Dt **68**, subhesab “ƏDV üzrə hesablaşmalar”;
Kt 19 “Əldə edilmiş material resursları üzrə ƏDV”;
Hesablama (yükləmə üzrə) metodunun tətbiqi zamanı:
1) Dt 62 (76) “Alıcılar və sifarişçilərlə hesablaşmalar”;
Kt 46 (47,48) “Məhsulların (işlərin, xidmətlərin) satışı”;
2) Dt 46 “Məhsulların (işlərin, xidmətlərin) satışı”;
Kt **68**, subhesab “ƏDV üzrə hesablaşmalar”;
3) Dt 46 “Məhsulların (işlərin, xidmətlərin) satışı”;
Kt 10 “Materiallar” (20);
4) Dt 10 “Materiallar” (20);
Kt 60 (76) “Malsatan və podratçılarla hesablaşmalar”;
5) Dt 19 “Əldə edilmiş material resursları üzrə ƏDV”;
Kt 60 “Malsatan və podratçılarla hesablaşmalar”;
6) Dt 60 (76) “Malsatan və podratçılarla hesablaşmalar”;
Kt 62 (76) “Alıcılar və sifarişçilərlə hesablaşmalar”;
7) Dt **68**, subhesab “ƏDV üzrə hesablaşmalar
Kt 19 “Əldə edilmiş material resursları üzrə ƏDV”;
8) Dt 46 “Məhsulların (işlərin, xidmətlərin) satışı”;
Kt 80 “Mənfəət və zərərlər” (Dt 80; Kt 46).

Azərbaycan Respublikasının ərazisinə gətirilmiş (idxal edilmiş) və onun ərazisindən çıxarılmış (ixrac edilmiş) mallar üzrə hesablanmış (ödənilmiş) əlavə dəyər vergisi (aksizlər) məhsul satışından olan pul vəsaitləri hesabına ödənilir və büdcədən kompensasiya edilir. Ona görə də həmin vergi məbləği ümumi müəyyən edilmiş qaydada 19 və **68** saylı hesablarda əks olunur. İdxal malların qiymətini formalaşdıran və müəssisə tərəfdən gömrük orqanlarında ödənilən ƏDV məbləği, satılmış mallara görə büdcəyə ödəniləcək vergi məbləğini azaltmaq üçün hesabat ayının vergi bəyannaməsində ayrıca sətirdə göstərilir.

Material qiymətlilərinin əldə edilməsi (tədarükü), məhsulların (işlərin, xidmətlərin) satışı üzrə mühasibat uçotu registrlərində, müvafiq sənədlərə (hesablar; hesab fakturalar, qaimələr, mədaxil-məxaric orderləri, işlərin yerinə yetirilməsi haqqında aktlara) əsasən ƏDV-nin məbləği ayrıca göstərilməlidir. Bundan başqa, ƏDV-nin uçotu vergi bəyannaməsinin doldurulması üçün lazım olan bütün informasiyanı təmin etməlidir.

indi isə əsas vəsaitlərin alışı və satışı (istismardan çıxması) üzrə təsərrüfat əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi qaydasını nəzərdən keçirək.

Müəssisələr əsas vəsaitləri müxtəlif yollarla (satın almaqla, nizamnamə fonduna pay şəklində, öz gücü və ya podratçı cəlb etməklə tikməklə, əvəzsiz olaraq, icarəyə və ya lizinq yolu ilə) əldə edə bilər.

Əsas vəsaitlərin təsərrüfata daxil olması zamanı vergi Ödəyicilərinin əsas vəzifələrindən biri əlavə dəyər vergisinin düzgün hesablanması və uçotda düzgün əks etdirilməsinin qanunauyğun aparılmasıdır.

Əsas vəsaitlər uçotda ilkin dəyəri ilə, yəni onların alınmasına, quraşdırılma- sına və hazırlanmasına çəkilən faktiki xərclər (onlann alınması zamanı digər təşkilatlara Ödənilmiş əlavə dəyər vergisi istisna olmaqla) məbləğində əks etdirilir.

Əsas vəsaitlər ƏDV məqsədləri üçün qeydiyyatdan keçmiş *hüquqi şəxslərdən və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərdən almırsa,* həmin şəxslərdən alınmış vergi hesab-fakturaları üzrə nağdsız qaydada Ödənilmiş verginin məbləğini dövlət büdcəsindən əvəzləşdirmək hüququ yaranır. Bu əməliyyat aşağıdakı mühasibat yazılışı ilə rəsmiləşdirilir:

1) Dt 08 “Kapital qoyuluşlarj”
Kt 60 “Malsatan və podratçılarla hesablaşmalar”- əsas vəsaitlərin dəyəri;
2) Dt 19 “Alınmış sərvətlər üzrə ƏDV”
Kt 60 “Malsatan və podratçılarla hesablaşmalar”- ƏDV məbləği.

Əsas vəsaitlər əldə edilərkən malsatanlara ödənilmiş və 19 saylı hesabın müvafiq subhesabının debeti ilə müxabirləşməklə 60 “Malsatan və podratçılarla hesablaşmalar”,76 “Müxtəlif debitor və kreditorlarla hesablaşmalar” hesabının kreditində uçota alınan ƏDV əsas vəsait istismara verildikdə, qanunvericilikdə müəyyən edilmiş qaydada əvəzləşdirilməli olan vergi məbləği 19 saylı hesabın “Kapital qoyuluşları zamanı ƏDV” subhesabının krediti ilə müxabirləşmədə **68** hesabının “Əlavə dəyər vergisi üzrə hesablaşmalar” subhesabının debetinə silinir.

Əsas vəsait obyektinin alqışı üzrə vasitəçi təşkilatın xidmətindən istifadə edildikdə aşağıdakı mühasibat yazılışları tərtib edilir:

1) Dt 08 “Kapital qoyuluşları”
Kt 76 “Müxtəlif debitor və kreditorlarla hesablaşmalar”- göstərilmiş xidmətin dəyəri;
2) Dt 19 “Alınmış sərvətlər üzrə ƏDV”
Kt 76 “Müxtəlif debitor və kreditorlarla hesablaşmalar”- xidmət haqqından ƏDV hesablandıqda.

Əsas vəsait obyekti istismara verilərkən (Dt 01 - Kt 08) vasitəçi təşkilatın xidmət haqqı (Dt 76 - Kt 51) və həmin obyektlərin dəyəri malgöndərənə ödənildikdən (Dt 60 - Kt 51) sonra (nağdsız qaydada) dövlət büdcəsindən əvəzləşdiriləcək ƏDV məbləği 19 saylı hesabın krediti ilə müxabirləşməklə **68** saylı hesabın debetinə silinir.

Əsas vəsaitlər ƏDV məqsədləri üçün qeydiyyatdan keçməmiş hüquqi və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərdən alındıq

da, onda onu alan şəxs ödənilmiş ƏDV məbləğini əvəzləşdirmək hüququna malik olmur. Bu halda uçotda belə müxabirləşmə verilir;

Dt 08 - Kt 76 - əsas vəsaitlərin dəyəri;

Dt 01 - Kt 08 - ƏDV məbləği;

Əsas vəsaitlər xarici partnyorlardan alınarkən ƏDV onlar gömrük rəsmiləşdirilməsindən keçirilərkən tutulur. Bu zaman vergi tutulan idxal əməliyyatın dəyəri Vergi Məcəlləsinin 162-ci maddəsinə əsasən Azərbaycan Respublikasının gömrük qanunvericiliyinə uyğun olaraq müəyyən edilən gömrük dəyərindən, ödənilməli olan gömrük rüsumlarından və yığımlarından ibarət olur. İdxal zamanı gömrük qanunvericiiyinə əsasən hesablanıb ödənilmiş ƏDV dövlət büdcəsindən əvəzləşdirilir.

Vergi Məcəlləsinin 176.5 maddəsinə görə gömrük orqanları tərəfindən verilmiş ƏDV ödənildiyini göstərən idxal sənədləri ödənişin formasından asılı olmayaraq əlavə dəyər vergisinin əvəzləşdirilməsinə əsas verir. Bu zaman həmin əməliyyatlar üzrə aşağıdakı müxabirləşmələr tərtib olunur:

1) Dt 08 "Kapital qoyuluşları"

Kt 60 "Malsatan və podratçılarla hesablaşmalar" - xarici partnyora ödəniləcək borc məbləği;

2) Dt 08 "Kapital qoyuluşları"

Kt 76 - gömrük dəyərinə görə hesablanmış gömrük rüsumunun və gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımının məbləği;

3) Dt 19 "Alınmış sərvətlər üzrə ƏDV"

Kt 76 "Müxtəlif debitor və kreditorlarla hesablaşmalar"- gömrükdə ödəniləcək ƏDV məbləği;

4) Dt **68**, subhesab "ƏDV üzrə hesablaşmalar"

Kt 19 - obyekt istismara verildikdən sonra gömrük orqanlarında ödənilmiş dövlət büdcəsindən əvəzləşdiriləcək ƏDV.

Podrat və təsərrüfat üsulu ilə yerinə yetirilmiş tikinti-quraşdırma işləri üzrə qanunvericilikdə müəyyən edilmiş qaydaya uyğun olaraq hesablanmış vergi məbləği inşaat işlərinin aparıldığı dövr ərzində sifarişçidə 08 "Kapital qoyuluşu" hesabının debeti ilə müxabirləşməklə 60 və ya 76 saylı hesabın krediti üzrə əks olunur. 08 "Kapital qoyuluşu" hesabına uçota alınan vergi məbləği əsas vəsait obyektləri istismara verildikcə, müəyyən edilmiş qaydada köhnəlmə (amortizasiya) vasitəsilə maya dəyərinə daxil edilmiəklə 01 "Əsas vəsaitlər" hesabına silinir (Dt 01;Kt08).

Sifarişçinin aldığı quraşdırma tələb edən və etməyən avadanlıqlar üzrə əlavə dəyər vergisi məbləği 19 hesabın "Kapital qoyuluşu üzrə ƏDV" subhesabının debeti, 60 "Malsatan və podratçılarla hesablaşmalar" və ya 76 "Müxtəlif debitor və kreditorlarla hesablaşmalar" hesabının krediti üzrə əks olunur. Həmin avadanlıqlar istismara verildikdə isə onlara aid olan ƏDV məbləği hər ay bərabər məbləğlərlə **6** ay ərzində 19 hesabın müvafiq subhesabmdan **68** hesabın "Əlavə dəyər vergisi üzrə büdcə ilə hesablaşmalar" subhesabının debetinə silinir.

Kənd təsərrüfatı müəssisələrində əsas vəsaitlər və qeyri-maddi aktivlər əldə edilərkən malsatanlara ödənilmiş ƏDV məbləği onlar istismara verilərkən dövlət

büdcəsinə ödəniləcək vergi məbləği müəyyən edilərkən hesablanmış ümumi vergi məbləğindən çıxılır. Ona görə də belə müəssisələr 19 hesabdan istifadə etməyə də bilərlər. Bu halda, uçota alınmış əsas vəsaitlər və qeyri-maddj aktivlər üzrə ödənilmiş bütün vergi məbləği 08 "Kapital qoyuluşu" hesabının kreditindən **68** hesabın "Əlavə dəyər vergisi üzrə büdcə ilə hesablaşmalar" debetinə silinir.

Qeyri-istehsal məqsədləri üçün istifadə olunan əsas vəsaitlər, qeyri-maddi aktivləri üzrə vergi məbləği 19 hesabın müvafiq subhesabından onun maliyyələşməsi mənbələrini uçota alan hesabların debetinə silinir.

Əldə edilmiş qeyri-maddi aktivlər üzrə ƏDV məbləği 60 və 76 hesabla müxabirləşməklə 19 hesabın "Alınmış qeyri-maddi aktivlər üzrə ƏDV" subhesa- bında uçota alınır. Onların dəyəri ödənildikdən və müvüfiq qaydada uçota alındıqdan sonra ƏDV məbləği altı ay ərzində bərabər məbləğlərlə 19 hesabın müvafiq subhesabından 08 hesabın debetinə silinir.

Vergi ödəyicisinin əsas vəsaitləri müxtəlif yollarla istismardan (təsərrüfatdan) çıxa bilər. Belə ki, əsas vəsaitlər onların satılması, təsisçi kimi başqa müəssisənin nizamnamə fonduna pay şəklində qoyulması, icarəyə, lizinqə, girov və ipoteka müqaviləsi əsasında verilməsi, əsas vəsaitlərin əskik gəlməsi, xarab olması, oğurlanması və istifadə, üçün yararsız hala düşməsi ilə təsərrüfatdan çıxa bilər. Əsas vəsaitlərin təsərrüfatdan çıxması zamanı vergi ödəyicilərinin əsas vəzifələrindən biri ƏDV-nin düzgün hesablanması və uçotda əks etdirilməsinin qanunauyğun aparılmasıdır.

Vergi Məcəlləsinin 159-cu maddəsinə əsasən əsas vəsaitlərin satışı ölkəmizin ərazisində həyata keçirilirsə ƏDV məqsədləri üçün vergitutma obyektidir. Əsas vəsaitlərin satışı üzrə ƏDV uçotu aşağıdakı ardıcıllıqla həyata keçirilir:

Dt 47 - Kt 01 - əsas vəsaitin ilkin dəyəri silinir,

Dt 02 - Kt 47 - köhnəlmə məbləği silinir,

Dt 62 - Kt 47 - hesab-faktura alıcıya təqdim olunur,

Dt 47 - Kt **68** - ƏDV hesablanır,

Dt 51 - Kt 62 - alıcı tərəfindən əsas vəsaitin məbləği ödənilir.

Əsas vəsaitlərin satış əməliyyatlannın aparıldığı tarixə mövcud olan bazar qiymətindən aşağı qiymətə satışı zamanı ƏDV bazar qiymətinə müvafiq olaraq hesablanıb ödənilməlidir.Vergi ödəyicisi bazar qiymətinə görə vergi hesablamaqla öz gəlirini vergitutma məqsədləri üçün artırır.Buna vergi diskontu deyilir.

Əsas vəsaitlər əvəzsiz əldə edilərkən ƏDV ödənilmədiyindən onlar bazar qiyməti ilə qiymətləndirilərək uçotda əks etdirilir və əvəzləşdirilmə aparılmır. *Əvəzsiz aimmtş əsas vəsaitlərin satışı* zamanı ƏDV üzrə vergituma obyekti yaranır. Vergi ödəyicisi təqdim olunan əsas vəsaitin alqı-satqı müqaviləsi üzrə qiymətini və vergi dəmcəsini əsas götürərək vergini hesablamalı və hesablanmış məbləği vergi bəyannaməsində əks etdirməlidir.

Vergi Məcəlləsinin 159.1 maddəsinə görə *b&h yarımçıq tikinti* təqdim olunması ƏDV üzrə vergitutma obyektidir. Obyektin alqı-satqı müqaviləsində razılaşdırılmış qiymət əsas götürülməklə vergi hesablanılır.

Dt 62 - Kt 47 - yarımçıq tikinti obyekti satılır,

Dt 47 - Kt **68** - ƏDV hesablanılır;

Dt 47 ~ Kt 08 - yarımçıq tikinti obyektinin dəyəri silinir;

Dt 51 - Kt 62 - əməliyyatın dəyəri ödənilir.

Vergi Məcəlləsinin 164.1.5 maddəsinə görə idxal olunan əmlak istisna olmaqla *müəssisənin nizamnamə fonduna (kapitalına) pay şəklində* hər hansı əmlakın verilməsi (əmlakın pay şəklində qoyuluşu, onun müqabilində bilavasitə digər əmlakın əldə edilməsilə əlaqədar olmadıqda) ƏDV azad olunan əməliyyatlardır. Ona görə də bu halda ƏDV hesablanmır. Həmçinin, Vergi Məcəlləsinin 163.1.2-ci maddsəinə görə əməliyyatın xarakteri dəyişdiyindən vergi tutulan dövriyyə dəqiqləşdirilməlidir. Yəni əsas vəsait alınarkən nağdsız qaydada ödənilmiş və dövlət büdcəsindən əvəzləşdirilmiş ƏDV büdcəyə bərpa edilməlidir.

Dt 06 - Kt 47 - nizamnamə kapitalındakı pay əks etdirilir;

Dt 47 - Kt 01 - dəzgahın ilkin dəyəri silinir;

Dt 02 - Kt 47 - dəzgahın köhnəlmə məbləği silinir;

Dt **68** - Kt 19 ~ əvəzləşdirilmiş ƏDV bərpa edilir.

Birgə fəaliyyətə verilmiş əsas vəsaitlər müəssisənin balansından silinmir. Yəni əsas vəsaitlər üzrə mülkiyyət hüququ bir şəxsdən başqa şəxsə keçmədiyindən bu malların təqdim olunması sayılmır. Bu zaman ƏDV üzrə vergitutma obyekti yaranmır. Vergi Məcəlləsinin 154.5 maddəsinə görə hüquqi şəxs yaratmadan göstərilən birgə sahibkarlıq fəaliyyəti ƏDV-nin məqsədləri üçün ayrıca şəxs sayılır.

Əsas vəsait obyekti icarəyə verilərkən icarəyə verənin balansından silinmə- yərək digər subhesaba köçürülməklə qeydə alınır. Hesablanmış köhnəlmə məbləği icarə haqqından ödənilir. İcarəyə verənin icazəsi olmadan obyekt üzərində heç bir dəyişiklik apanimasına icazə verilmir. Vergi Məcəlləsinin 218.3 maddəsinə görə əmlakın icarəyə verilməsindən və royaltidən gəlir əldə edən şəxslərin sadələşdirilmiş vergitutma sistemini tətbiq etmək hüququ yoxdur. Odur ki, apardığı əməliyyatların həcmindən asılı olaraq icarə haqqından gəlir əldə edən hüquqi şəxslər ƏDV- njin məqsədləri üçün qeydiyyata alınmalıdırlar. Qisamüddətli icarə müqavilələri üzrə apanlan əməliyyatların mühasibat yazılışlarına baxaq:

Dt 0-4 - Kt 01-3 - icarəyə verilmiş əsas vəsaitlərin dəyəri birindən digərinə keçirilir;

Dt 76 - Kt 80 - aylıq hesablanmış icarə haqqı əks etdirilir;

Dt 80 - Kt **68** - icarə haqqı tərkibində olan ƏDV hesablanır;

Dt 80 - Kt 02 - köhnəlmə məbləği əks etdirilir;

Dt 50,51 - Kt 76 - icarə haqqı daxil olur.

Vergi Məcəlləsinin 138.2 maddəsinə görə vergi ödəyicisi hesablama metodu ilə uçot apanrsa, uzunmüddətli müqavilələrlə bağlı gəlir və bu gəlirdən çıxılan məbləğlər vergi ili ərzində müqavilələrin yerinə yetirilməsinin faktiki həcminə uyğun olaraq uçota almır. Müqavilənin yerinə yetirilməsinin faktiki həcmi vergi ili ərzində çəkilmiş xərcin həmin müqavilədə nəzərdə tutulan ümumi qiymətləndirilən xərclərlə müqayisə edilməsi yolu ilə müəyyənləşdirilir.

Vergi Məcəlləsinin 13.2.14.1-ci maddəsinə görə *maliyyə lizinqi əməliyyatla- rı* maliyyə xidmətlərinə aid edilmişdir. Həmin məcəllənin 164.1.2-ci maddəsinə əsasən maliyyə xidmətlərinin göstərilməsi ƏDV azad olunan əməliyyatdır. Bu sə- bədən də maliyyə lizinqi əməliyyatları ƏDV-yə cəlb olunmur. Lizinq müqaviləsi

əsasında verilən əsas vəsaitlərin alınması zamanı dövlət büdcəsindən əvəzləşdiril- miş ƏDV əməliyyatın xarakteri dəyişdiyindən bərpa edilməlidir. VM-nin 163-cü maddəsinə görə vergi tutulan dövriyyə dəqiqləşdirilməlidir. Dəqiqləşdirmə qiymətləndirmə bazasında dəyişiklik baş verdiyi hesabat dövründə aparılır. Yəni ƏDV-yə cəlb olunan əməliyyat nəticəsində əldə edilmiş əsas vəsaitlər sonradan ƏDV-dən azad olunan əməliyyat nəticəsində təqdim edildiyindən dəqiqləşdirmə apanlır.Bu zaman aşağıdakı mühasibat yazılışları verilir:

Dt 47 - Kt 01 - əsas vəsaitin ilkin dəyəri silinir;

Dt 02 - Kt 47 - köhnəlmə məbləği əks etdirilir;

Dt **68** - Kt 19 - büdcədən əvəzləşdirilmiş ƏDVbərpa edilir;

Dt 47 - Kt 19 - bərpa edilmiş ƏDV satışın nəticələrinə aid edilir.

Əsas vəsaitlərin əvəzsiz verilməsi onların təqdim edilməsi sayılır və bu ƏDV üzrə vergi tutulan əməliyyat hesab olunur. Vergi Məcəlləsinin 159.4-cü maddəsinə görə vergi ödəyicisinin haqqı ödənilməklə və ya əvəzsiz qaydada öz işçilərinə və digər şəxslərə mal verməsi, iş görməsi və ya xidmət göstərməsi, habelə barter əməliyyatı vergi tutulan əməliyyat sayılıtr. Vergi tutulan əmləliyyatın baş verdiyi tarix əgər vergi hesa-fakturası təqdim edilmirsə, əsas vəsaitin əvəzsiz verildiyi gün ver- gitutulan əməliyyat baş vermiş sayılır. Əsas vəsaiti əvəzsiz verən müəssisə bazar qiyməti nəzərə alınmaqla vergi hesab-fakturasını tərtib edir.

Dt 47 - Kt 01- əsas vəsait ilkin dəyərlə silinir;

Dt 02 - Kt 47 - köhnəlmə əks etdirilir;

Dt 87,88 - Kt 47- əvəzsiz verilən əsas vəsaitin qalıq dəyəri silinir;

Dt 47 - Kt **68** - ODV əsas vəsaitin təqdimolunma anı təşəkkül tapan bazar qiyməti əsasında hesablanır.

Əsas vəsaitlərin girov və ipoteka müqaviləsi əsasında verilməsi Vergi Məcəlləsinin 3.2.10-cu maddəsinə əsasən mallar üzərində mülkiyyət hüququnun başqasına verilməsi, o cümlədən mallann satışı, mübadiləsi, hədiyyə verilməsi, natura şəklində digər ödəmələr, həmçinin girov qoyulmuş mallar üzrə mülkiyyət hüququnun girov saxlayana keçməsi malların təqdim olunması sayılır. Vergi məbləği girov qoyulmuş əmlakın açıq hərracda satışından əldə olunan məbləğə (hərraca çkilmiş xərclər çıxıldıqdan sonra) əsasən müəyyən edilir.

Dt 47 - Kt-01 - girov qoyulmuş əsas vəsaitin ilkin dəyəri ilə hərracda satıldıqda silinir;

Dt 02 - Kt-47 - köhnəlmə məbləği silinir;

Dt 76 - Kt-47 - hərracda satışın nəticəsi əks etdirilir;

Dt 47 - Kt-76 - girov saxlayana olan borc əks etdirilir;

Dt 51- Kt-76 - girov qoyana qaytarılan məbləğ əks etdirilir;

Dt 47 - Kt**-68** - ƏDV hesablanır;

Əsas vəsaitlərin əskik gəlməsi və ya xarab olması zamanı əsas vəsaitlər üzrə digər təşkilatlara ödənilmiş ƏDV dövlət büdcəsindən əvəzləşdirildiyindən, həmin əvəzləşdirmə əskik gələn və ya xarab olan əsas vəsaitlərin qalıq dəyəri məbləğinə mütənasib olaraq hesablanan ƏDV dövlət büdcəsinə bərpa edilməlidir.Bunu üçün əskik gəlmiş və ya xarab olmuş əsas vəsaitlər üzrə qalıq dəyərinə vergi dərəcəsini tətbiq etməklə ƏDV hesablanır.

Dt-47, Kt-01 - xarab olan əsas vəsaitin ilkin*dəyəri silinir;

Dt-47, Kt-02 - köhnəlmə məbləği əks etdirilir;

Dt-84, Kt-47 - xarab olma, əskik gəlmə və ya çatışmamazlıq əks etdirilir;

Dt-84, Kt-**68** - xarab olmuş əsas vəsaitə görə ƏDV dövlət büdcəsinə bərpa edilir;

Dt-73, Kt-84 - günahkar şəxsin hesabına aid edilməsi;

Dt-80, Kt-84 - xarab olan əsas vəsaitin günahkar şəxsdən tutulan hissəsindən sonra qalan hissəsi müəssisənin maliyyə nəticələrinə aid edilir.

Qeyri-maddi aktivlərin əldə edilməsi (satın alınması) zamanı ödənilmiş əlavə dəyər vergisinin məbləği 19 saylı hesabın "Alınmış qeyri maddi aktivlər üzrə əlavə dəyər vergisi" subhesabının debetində 60 "Malsatan və poadratçılarla hesablaşmalar", yaxud 76 "Müxtəlif debitor və kreditorlarla hesablaşmalar" hesablarının kreditində mühasibat yazılışı tərtib etməklə rəsmiləşdirlir. Hesablanmış (ödənilmiş) vergi məbləği qeyri-maddi aktivlərin müəssisənin balansına qəbul edildiyi dövrdən **6** ay ərzində bərabər hissələrlə 19 "Alınmış qeyrİ-maddi aktivlər üzrə əlavə dəyər vergisi" subhesabının kreditindən **68** "Əlavə dəyər vergisi üzrə hesablaşmalar" subhesabın debetinə silinir.

Qeyri maddi aktivlər satılarkən hesablanmış ƏDV məbləğinə 48 "Sair aktivlərin satışı" hesabının debetinə, **68** "Büdcə ilə hesablaşmalar" hesabının kreditinə mühasibat yazılışı tərtib edilir.

Qeyri-maddi aktivlərin əvəzsiz verilməsi üzrə dövriyyə ƏDV-yə cəlb edilir. Bu zaman onların əvəzsiz verilməsi zamanı həmin aktivləri verən tərəf ƏDV ödə- yicisi, qəbul edən tərəf isə mənfəətdən vergi ödəyən hesab edilir. Vergiyə cəlb edilən dövriyyə, qeyri maddi aktivlərin qalıq dəyərindən aşağı olmayan orta satış qiyməti (ƏDV xaric) əsas götürülməklə müəyyən edilir.

ƏDV ödənilmədən alınan qeyri maddi aktivlər satılarkən isə həmin aktivlərin satış qiyməti ƏDV-yə cəlb edilir. Belə halda hesablanılan vergi məbləği üçün 48 saylı hesabın debetinə, **68** saylı hesabın kreditinə yazılış verilir.

Beləliklə, əsas vəsaitlər və qeyri-maddi aktivlər uçota alındıqdan sonra hesablanmış və 19 hesabın "Kapital qoyuluşu zamanı ƏDV" subhesabmda uçota alınan ƏDV, əldə edilmiş obyektlərin istifadə olunma istiqamətindən asılı olaraq bu hesabın kreditindən aşağıdakı hesablann debetinə silinir:

Dt **68**, subhesab "Əlavə dəyər vergisi" üzrə ƏDV - istehsalatda istifadə zamanı; Dt 29, **88**, 84, 96 - qeyri-istehsal məqsədləri üçün istifadə olunduqca;

Dt 47 "Əsas vəsaitlərin satışı", 48 "Sair aktivlərin satışı"- bu əmlakın satışı zamanı.

Ticarət müəssisələrində əlavə dəyər vergisinin uçotu xüsusiyyətləri. Mövcud qanunvericiliyə uyğun olaraq pərakəndə ticarət, ictimai iaşə və komission ticarət müəssisələrində ƏDV aşağıdakı qaydada müəyyən edilən vergitutulan dövriyyəyə əsasən hesablayırlar:

sərbəst bazar (pərakəndə) qiymətləri əri ilə satılmış mallar üzrə - mallann satış və vergi məbləği də daxil olmaqla malsatanlara ödənilmiş qiymətləri arasındakı fərq məbləği kimi;

^ vergi güzəştləri çıxılmaqla, vergilər də daxil olmaqla dövlət qiymətləri ilə satılmış mallar üzrə - ticatər güzəştlərinin məbləği kimi;

Alınmış və mədaxil edilmiş malların mühasibat uçotu 41 “Mallar” hesabında aparılır. Alınmış mallar onların əldə edilməsi üzrə xərclər nəzərə alınmaqla qiymətləndirilir. Belə ki, malların alış dəyəri malsatanların hesablaşma sənədlərində göstərdiyi qiymətdən, nəqliyyat xərcləri (əgər onlar tədavül xərclərinə aid edilmirsə), tara və qablaşdırma xərclərindən formalaşır.

Vergi qanunvericiliyinə uyğun olaraq malsatanların yüklənmiş mallara görə təqdim etdikləri hesablarda ƏDV məbləği ayrıca sətrdə göstərilir. Pərakəndə ticarətdə ƏDV məbləği malın dəyərinə daxil edi ir, topdan ticarət müəssisələrində isə 19 “Əldə edilmiş qiymətlilər üzrə ƏDV” hesabında uçota almır.

Mədaxil sənədlərinə əsasən malların alınması üzrə təsərrüfat əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi qaydası 26 saylı cədvəldə verilmişdir.

Cədvəl 26

Malların alınması ilə əlaqədar təsərrüfat əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi

Jfo	Əməliyyatların məzmunu	Debet	Kredit
1.	Pərakəndə ticarətdə mallar mədaxil edilmişdir (ƏDV daxil olmaqla)	41	60
2.	Alınmış malların dəyəri malsatanlara ödənilmişdir (ƏDV daxil olmaqla)	60	51,52,55
3.	Topdan ticarət müəssisəsində mədaxil edilmiş mallar üzrə ƏDV hesablanıb	19	60
4.	Çatışmamazlıq aşkar edilib	84	60
5.	Malsatan tərəfindən müqavilə şərtlərinin pozulmasına görə cərimə, peniya və dəbbə pulu hesablanış	63	60
6.	Malsatan tərəfindən cərimə, peniya və dəbbə pulu ödənilib	51	63

Bəzi hallarda ticarət müəssisələri malları ƏDV üzrə güzəştə malik olan malsatanlardan alır. Bu halda istehsalçı müəssisə malları yükləyərkən hesablaşma və ilkin uçot sənədlərində ƏDV məbləğini ayrıca sətirdə göstərmədiyi üçün həmin sənədlərdə “ƏDV-siz” sözü və ya ştanpı vururlar. Belə hallarda pərakəndə ticarət müəssisələrində ƏDV hesablanması qaydası dəyişmir.

Topdan ticarət müəssisələrində büdcəyə ödəniləcək vergi məbləği satılmış mallara görə alıcılardan alınmış vergi məbləği və alınmış material resurslarına (işlərə, xidmətlərə) görə faktiki olaraq malsatanlara ödənilmiş (əvəzləşdiriləcək) vergi məbləğləri arasındakı fərq kimi müəyyən edilir.

Deməli, istehsalçı müəssisənin ƏDV ödəyicisi olmadığı halda, topdan ticarət müəssisəsi büdcəyə ödəniləcək vergi məbləğini aldığı malların satış dəyərindən hesablayacaq.

Topdan ticarət müəssisəsinin mühasiballığmda hesablar planının tətbiq olunması qaydasına uyğun olaraq ƏDV-siz daxil olmuş malların satışı ilə bağlı olan təsərrüfat əməliyyatları 27 saylı cədvəldə göstərildiyi kimi əks etdirilir.

Cədvəl 27

ƏDV-siz daxil olmuş malların satışı ilə bağlı olan təsərrüfat əməliyyatlannın mühasibat uçotunda əks etdirilməsi

JVs	Əməliyyatların məzmunu	Debet	Kredit
1.	Malsatanlardan alınmış mallar mədaxil edilmişdir (ƏDV xaric)	41	6Ö
2.	Malsatanın təqdim etdiyi hesablaşma sənədinə əsasən alınmış malların dəyəri önilmişdir (ƏDV xaric)	60	51,52,55
3.	Hesablaşma sənədləri təqdim etməklə mallar alıcılara yüklənmişdir	45	41
4.	Satılmış mallann satış dəyəri silinmişdir	62	46
5.	Satılmış mallann alış dəyəri (maya dəyəri) əks olunmuşdur	46	45
6.	Yüklənmiş mallar üzrə ƏDV hesablanıb	46	68
7.	Yüklənmiş mallann dəyəri alıcılar tərəfindən ödənilmişdir	51	62

Ayın sonunda dəyəri ödənilmiş yolda olan malların (anbara daxil olmayan) dəyəri 41 ‘‘Mallar” hesabının debeti ilə müxabirləşməklə 60 “Malsatan və podratçılarla hesablaşmalar” hesabının kreditinə əks olunur (həmin mallar anbara mədaxil olunmadan). Növbəti hesabat ayının əvvəlində bu məbləğ stomo edilir və cari uçotda 60 saylı hesab üzrə debitor borcu kimi uçota alınır.

Daxil olmuş mal və taraların anbara mədaxil edilməsi uçotda 60 “Malsatan və podratçılarla hesablaşmalar” və 42 “Ticarət əlavəsi” (mallar satış qiymətləri ilə uçota alındığı zaman) hesablarının kreditləri ilə müxabirləşməklə 41 “Mallar” hesabının debetinə əks olunur. Nəqliyyat və digər xərclər 60 “Malsatan və podratçılarla hesablaşmalar” hesbın krediti, 44 “Tədavül xərcləri” hesabının debeti üzrə əks olunur (Cədvəl 28.).

Cədvəl 28

Mallann daxil olması ilə əlaqədar təsərrüfat əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi

JV	Əməliyyatların məzmunu	Debet	Kredit
1.	Pərakəndə ticarətdə mallar alış dəyərləri üzrə mədaxil edilmişdir (ƏDV daxil)	41	60
2.	Topdan ticarətdə ƏDV məbləğinə	19	60
3.	Daxil olmuş taranın dəyəri	41	60
4.	Nəqliyyat xərclərinin məbləği	44	60
5.	Malsatan və ya nəqliyyat təşkilatının günahı üzündən malların xarab olması və çatışmamazlığından olan itkilərin dəyəri	63	60
6.	42 saylı hesab tətbiq edildikdə, mallar mədaxil edilən zaman ticarət əlavəsi əks olunur	41	42
7.	Alınmış mallarm dəyəri malsatanlara ödənilmişdir	51	60

Digər müəssisələrə emala verilmiş mallar 41 saylı hesabdan silinmir və aynca uçota almır. Bu məqsədlə 41 saylı hesaba "Emala verilmiş mallar adlı" ayrıca subhesab açıla bilər. 41 saylı hesab üzrə analitik uçot maddi-məsul şəxslər, mallann adlan (növləri, partiyalar, kiplər), lazım olduqda isə malların saxlanması yerləri üzrə apanlır.

Məsuliyyətli saxlanmaya qəbul edilmiş mallar *002 "Məsuliyyətli saxlanmaya qəbul edilmiş mal-material qiymətliləri",* komissiyaya qəbul edilmiş mallar isə *004 "Komissiyaya qəbul edilmiş mallar"* balansarxası hesabda uçota alınırlar.

Malların satışı və onların satışından olan maliyyə nəticələrinin müəyyən edilməsinin uçotu *46 "Məhsulların (işlərin, xidmətlərin) satışı"*

Hesablar planı və onun tətbiqi üzrə təlimata uyğun olaraq ticarət, təchizat və satış müəssisələrində 46 saylı hesabın krediti üzrə satılmış mallann satış dəyəri (hesablaşmalar və pul vəsaitlərini uçota alan hesablarla müxabirləşməklə), debeti üzrə isə - onlann uçot dəyəri (Dt 46 - Kt 41) və stomo yazılışı ilə ticarət müəssisələrində satılmış məhsullara düşən ticarət əlavəsi (Dt 46; Kt 42 - mallar satış qiyməti ilə uçota alındıqda) əks olunur.

Bundan başqa, 46 saylı hesabda tranzit qaydada mallann satışı üzrə əməliyyatlar (bu mallara görə hesablaşmalarda iştirak etməklə) əks olunur: debeti üzrə malsatanların hesablaşma sənədlərinə əsasən mallann dəyəri (Dt 46 -Kt 60), krediti üzrə alıcılardan daxil olmuş pul vəsaitləri (Dt 46 - Kt 62). 46 saylı hesabın krediti üzrə həmçinin mallann tranzit qaydada satışından olan ümumi gəlir (bu mallara görə hesablaşmalarda iştirak etmədikdə), sistemdən kənar malların satışından olan dövriyyə uçota alınır.

Malların satışından olan maliyyə nəticələri hər ay 46 saylı hesabdan *80 "Mənfəət və zərərlər"* hesabına silinir.

Malların buraxılışı uçotunun ən mühüm anı onlann ticarət müəssisənin balansından silindiyi dəyərin müəyyən edilməsidir. Bu məqsədlə hazırda geniş tətbiq olunan material ehtiyatlarının (malların) orta qiymətləndirmə maya dəyəri üzrə, alınma vaxtına görə birincinin maya dəyəri üzrə (FİFO metodu), alınma vaxtına görə sonuncunun maya dəyəri üzrə (LİFO metodu) kimi qiymətləndirmə metodlarından istifadə oluna bilər.

Topdan ticarət müəssisələrində 41 saylı hesabda malların uçotu onların əldə edilmə dəyəri üzrə (ƏDV xaric) uçota alınır. Alınmış mallar üzrə ƏDV məbləği 60 "Malsatan və podratçılarla hesablaşmalar" və 76 "Müxtəlif debitor və kreditorlarla hesablaşmalar" hesabının krediti ilə müxabirləşməklə 19 "Əldə edilmiş qiymətlilər üzrə ƏDV" hesabının debetinə əks olunur. Alınmış malların dəyəri malsatanlara ödənildikdən (Dt 60,76 - Kt 51,52,55) və mədaxil edildikdən (Dt 41 - Kt 60,76) .sonra, həmin malların satılıb-satılmamasından asılı olmayaraq vergi məbləği 19 saylı hesabdan bu vergi üzrə büdcəyə olan borcun azalmasına (əvəzləşdirilməsinə) silinir (Dt **68**-Kt 19).

Topdan müəssisələr malları satarkən vergitutulan dövriyyəni malların buraxılış (satış) qiymətlərinə əsasən (ƏDV xaric) müəyyən edirlər. Bu zaman malların buraxılışı üçün tərtib edilmiş qaimə hesablarda və digər ilkin sənədlərdə onların satış qiymətləri (ƏDV xaric) göstərilir.

Mülki Məcəllə və Mərkəzi Bankın təlimatına uyğun olaraq hüquqi şəxslər arasında hesablaşmalar nağdsız qaydada həyata keçirilir. Əgər qanunvericilikdə

başqa nəzərdə tutulmayıbsa, onda bu şəxslər arasında hesablaşmalar nağd pulla da aparıla bilər.

Bir hüquqi şəxs tərəfindən eyni gündə digər hüquqi şəxsin ünvanına bir müqavilənin (kontraktın) həyata keçirilməsi qaydasında çoxsaylı pul sənədləri üzrə nağd hesablaşmaların müəyyən edilmiş limiti həddində apardığı ödənişlər vahid ödəniş məbləği kimi qiymətləndirilir.

Müəssisələr eyni zamanda topdan və pərakəndə ticarət fəaliyyəti ilə məşğul olduqda, malların topdan və pərakəndə satışı üzrə əməliyyatlartın ayrıca uçotunu aparmaq lazım gəlir, çünki topdan və pərakəndə ticarətdə vergitutma üsulları fərqlidir.

Ayrıca apanimış uçot malların satışından olan pul vəsaitlərinin həcmindən və maliyyə nəticələrindən asılı olan vergilərin düzgün hesablanması üçün lazımı informasiyanını alınmasını təmin etməlidir.

Hazırda topdan və pərakəndə ticarət müəssisələrində vergitutma sahəsindəki yeganə fərq əlavə dəyər vergisinin hesablanması qaydasıdır.

Pərakəndə ticarətdə mallar ƏDV də daxil olmaqla alış dəyəri üzrə əks olunur:

Dt41 “Mallar”

Kt 60 “Malsatan və podratçılarla hesablaşmalar”

Daxil olmuş avans məbləğlərindən ƏDV ticarət əlavəsinə görə hesablanır.

Topdan ticarətdə mallar alış dəyəri üzrə (ƏDV xaric) əks olunur (ilkin sənədlərdə ƏDV məbləğinin ayrıca göstərildiyi hallarda):

Dt41 “Mallar”

Kt 60 “Malsatan və podratçılarla hesablaşmalar”- mallar alış dəyəri üzrə mədaxil edilib (ƏDV xaric);

Dt 19 “Əldə edilmiş qiymətlilər üzrə ƏDV”

Kt 60 “Malsatan və podratçılarla hesablaşmalar”- mədaxil edilmiş mallar üzrə ƏDV əks olunub.

Malsatanlarla hesablaşmalar aparıldıqdan sonra ƏDV məbləği (ilkin uçot və hesablaşma sənədlərində onun ayrıca göstərildiyi halda) büdcə ilə hesablaşmalara aid edilir:

Dt 60 “Malsatan və podratçılarla hesablaşmalar”,

Kt 51 “Hesablaşma hesabı”- mallann dəyəri malsatana ödənilib;

Dt **68**, subhesab “ƏDV üzrə hesablaşmalar”,

Kt 19 “Əldə edilmiş qiymətlilər üzrə ƏDV”- mədaxil edilmiş mallar üzrə ödənilmiş ƏDV məbləği əvəzləşdirilmişdir.

Topdan ticarətdə mallar satış qiymətləri üzrə uçota alınmır.

Büdcəyə ödəniləcək vergi məbləği hesablama dərəcələri üzrə satılmış ticarət əlavəsindən hesablanmış vergi məbləği və dəyəri tədavül xərclərinə aid edilmiş material resursları üzrə malsatanlara ödənilmiş vergi məbləği arasındakı fərq kimi müəyyən edilir.

Pərakəndə ticarət və ictimai iaşə müəssisələri üçün ƏDV hesablanması və ödənilməsinin ümumi qaydasından fərqli olan xüsusi qaydası müəyyən edilmişdir. Bu qaydaya uyğun olaraq ƏDV üçün vergitutma bazası satılmış ticarət əlavəsinin məbləği hesab olunur.

Cədvəl 29

Topdan ticarət müəssisələrində mallann satışı ilə əlaqədar təsərrüfat əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi

Jfs	Əməliyyatların məzmunu	Debet	Kredit
1.	Göndəriləcək mallara görə alıcılardan avans ödənişi daxil olmuşdur	51,52	64
2.	Daxil olmuş avans ödənişi üzrə ƏDV hesablanıb	64	**68**
3.	Mallar alıcılara yüklənmişdir: ■ satış qiymətləri üzrə ■ taranm dəyəri	 62 62	 46 41-3
4.	Satılmış mallann alış qiyməti ilə dəyəri silinib	46	41-1
5.	Satılmış mallar üzrə büdcəyə ödəniləcək ƏDV məbləği hesablanıb	**68**	64
6.	Satılmış mallara görə alıcılardan alınmış avans məbləği əvəzləşdirilmişdir	64	62
7.	Satılmış mal və taralann dəyəri alıcılar tərəfindən ödənilmişdir	51,50	62
9.	Ezamiyyə xərcləri silinmişdir	44	71
10.	Konkret günahkarların müəyyən edilməsi mümkün olmadığı hallarda, material qiymətlilərinin çatışmamazlığı və itkisindən olan zərər silinmişdir	44	84
11.	Hesabat dövrünün tədavül xərcləri silinib	46	44

Cədvəl 30

Pərakəndə ticarət müəssisələrində təsərrüfat əməliyyatlannm mühasibat uçotunda əks etdirilməsi

JV	Əməliyyatların məzmunu	Debet	Kredit
1.	Satılmış mallara görə kassaya pul daxil olmuşdur	50	46
2.	Mallarm satışmdan olan pul vəsaitləri banka təhvil verilmişdir	51	50
3.	Mallann satışından olan pul vəsaitləri rabitə müəssisəsinə verilmişdir	57	50
4.	Satılmış mallara görə nağdsız qaydada alıcılardan ödəniş daxil olmuşdur	51	62
5.	Dəyəri ödənilmiş mallar alıcılara yüklənmişdir	62	46
6.	Satılmış mallar satış qiyməti üzrə silinmişdir	46	41-2
7.	Qumızı stomo üsulu ilə satılmış mallara düşən ticarət əlavəsi silinmişdir	46	42-1
8.	Ticarət əlavəsindən ƏDV məbləği hesablanmışdu	46	**68**
9.	Satılmış mallara düşən tədavül xərcləri silinmişdir	46	44
10.	Satışdan olan maliyyə nəticələri silinmişdir: ■ mənfəət ■ zərər	 46 80	 80 46

Malların satışı ilə məşğul olan topdan ticatət müəssisələrində büdcəyə ödəniləcək vergi məbləği satılmış mallara görə alıcılardan alınmış ƏDV məbləği və dəyəri istehsal (tədavül) xərclərinə daxil edilən həmin malların (material resurslarının) malsatanlarına ödənilmiş vergi məbləği arasındakı fərq kimi müəyyən edilir.

Bu zaman satılmaq üçün alınmış və mədaxil edilmiş mallar üzrə ƏDV məbləği, onların dəyəri malsatanlara faktiki ödənildikdən sonra büdcədən əvəzləşdirilir (onların satılıb-satılmamasından asılı olmayaraq).

Qiymətlər arasındakı fərq, ticarət əlavəsi, ticarət artırması, mükafatlandırma məbləğləri, komission haqları şəkilində gəlirlər əldə edən topdan ticarət müəssisələri vergitutulan dövriyyəni, tətbiq edilən qiymətlərlə (ƏDV xaric) alıcılara satılmış malların dəyərinə əsasən müəyyən edirlər.

Bu təşkilatlar satılmış mallarına görə tərtib etdikləri hesablaşma sənədlərində onların satış qiymətlərini və bunu onlara görə hesablanmış ƏDV məbləğini ayrıca sətirdə göstərirlər.

Topdan ticarətdə ƏDV ilə bağlı təsərrüfat əməliyyatlarının mühasibat uçotunda əks etdiriləsi üçün 19 saylı hesabdan istifadə olunur.

Malların topdan və pərakəndə satışının həcmi əvvəlcədən müəyyən olmadığı halda, onların uçotda aşağıdakı kimi əks etdirilməsi mümkündür.

ƏDV məbləğinin 19 saylı hesabda uçota alındığı hallarda mallar pərakəndə qaydada satılarkən, vergi məbləği 41 "Mallar" hesabının "Pərakəndə ticarətdə mallar" subhesabının (41-2) debeti, 68 saylı hesabın "ƏDV üzrə hesablaşmalar" subhe- sabmın krediti üzrə əks olunmaqla bərpa edilir. Bu halda vergi pərakəndə ticarət üçün müəyyən edilmiş qaydada, yəni malların alış və satış qiymətləri arasındakı fərq məbləğindən (ƏDV daxil) hesablanır.

Cədvəl 31

Pərakəndə ticarət müəssisələrində ƏDV ilə bağlı əməli>'yatlannın mühasibat uçotunda əks etdirilməsi (misal)

JHb	Əməliyyatların məzmunu	Məbləğ	Debet	Kredit
1.	Alınmış mallara görə malsatanlarm təqdim etdikləri hesab ödənilmişdir (ƏDV daxil)	1200	60	51
2.	Malsatanlardan alınmış mallar mədaxil edilmişdir	1200	41	60
3.	Nəqliyyat müəssisəsinin təqdim etdiyi hesab ödənilmişdir (ƏDV daxil)	10%	60	51
4.	Nəqliyyat xidmətlərinin dəyəri məsrəflərə silinmişdir (ƏDV xaric)	12	44	60
5.	Nəqliyyat müəssisəsinə ödənilmiş ƏDV məbləği əvəzloşdirilmişdir	81	68	60
6.	Mallar 25% ticarət əlavəsi ilə satılmışdır (1200+300)	1500	50	46
7.	Satılmış mallara görə ƏDV hesablanıb (300x18)	54	46	68
8.	ƏDV məbləği büdcəyə köçürülmüşdür (54-18)	36	68	51

Cədvəl 32

Topdan ticarət müəssisələrində ƏDV ilə bağlı
əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi (misal)

Ko	Əməliyyatların məzmunu	Məbləğ	Debet	Kredit
1.	Malsatanlardan alınmış mallar mədaxil edilmişdir	1000	41	60
2.	Alınmış mallar üzrə ƏDV əks olunmuşdur	180	19	60
T. J •	Alınmış mallara görə malsatanlann təqdim etdikləri hesab ödənilmişdir	1180	60	51
4.	Satılmış malların dəyəri silinmişdir	1000	46	41
5.	Malların satışı faktı əks edilmişdir (malların dəyəri 1000 man.+ 25% ticarət əlavəsi + 18% ƏDV - çünki topdan ticarətdə ticarət əlavəsi qiymətlərə ƏDV nəzərə alınmadan tətbiq olunur)	1475	51	46
6.	Satılmış mallara üzrə ƏDV hesablanıb (1250 x 18%)	225	46	68
7.	Malsatanlara ödənilmiş ƏDV məbləği əvəzləşdirilməyə silinmişdir	180	68	19
8.	ƏDV məbləği büdcəyə köçürülmüşdür (225-180)	50	68	51
	Əvvəlcədən ödəniş zamanı (avans ödənişi) uçot variantı			
1.	Göndəriləcək (satılacaq) mallara görə daxil olmuş avans ödənişlərinin məbləği əks olunub	1500	51	64
2.	Alınmış avans ödənişləri üzrə ƏDV hesablanıb	225	64	68
3.	Mallar yüklənərkən (satılarkən); > əvvəl hesablanmış ƏDV məbləğinə > avans ödənişinin əvəzləşdirilmiş məbləğinə	 225 1500	 68 64	 64 46
4.	Satılmış malların dəyəri silinmişdir və i.a.(yuxandakı 6-8 əməliyyatlara bax)	1000	46	41,45

ƏDV məbləğinin 19 saylı hesabda uçota alınmadığı hallarda malların topdan satışı zamanı vergi məbləği ayrılaraq 41 saylı hesabın debeti, 68, "ƏDV üzrə hesablaşmalar" hesabının krediti üzrə əks olunur. Bu halda vergi topdan ticarət müəssisələri üçün müəyyən olunmuş qaydada, yəni alınmış mallar üzrə malsatanlara ödənilmiş ƏDV məbləği əvəzləşdirilməklə (çıxılmaqla), satılmış malların ümumi dəyərindən hesablanır.

Nəhayət, vergi qanunvericiliyinə uyğun olaraq büdcəyə ödəniləcək vergi məbləği vergitutulan dövriyyədən hesablanmış və büdcədən əvəzləşdirilməli olan vergi məbləğləri arasındakı fərq kimi müəyyən edilir. Hesabat ayının sonunda büdcəyə ödəniləcək əlavə dəyər vergisi məbləği müəyyən olunur və büdcəyə köçürülür.

Hesabat dövrünün sonunda hesablanmış vergi məbləği büdcəyə köçürüldükdə aşağıdakı mühasibat yazılışı tərtib edilir;

Dt 68, subhesab "ƏDV üzrə hesablaşmalar"

Kt 51 "Hesablaşma hesabı" (52,55).

Vergi ödəyiciləri başa çatmış vergi dövründən sonrakı ayının 20-dən gec olmayaraq uçota alındıqları yer üzrə vergi orqanına bəyannamə təqdim edirlər. Bəyannamənin təqdim olunma müddəti qeri iş gününə düşdüyü hallarda bu müddət növbəti ilk iş gününə keçirilir.

Cədvəl 33

ƏDV hesablanması və ödənilməsi üzrə təsərrüfat əməliyyatları

Jfs	Əməliyyatın məzmunu	Müxabirləşən hesablar	
		Debet	Kredit
1.	Materiallar (işlər, xidmətlər) alınıb	10	60
2.	Əldə edilmiş material resurslan, iş və xidmətlər, satın alınmış əsas vəsaitlər üzrə ƏDV məbləği əks olunub	19	60,76
3.	Podrat üsulu ilə yerinə yetirilmiş təmir işləri, istehsal ehtiyatlarının gətirilməsi üzrə xidmətlər üzrə ƏDV məbləği hesablanıb	19	60,76
4.	Mədaxil edilmiş və dəyəri ödənilmiş istehsal ehtiyatları, əsas vəsaitlər Üıxə büdcədən əvəzləşdiriləcək vergi məbləği əks olunub	68	19
5.	ƏDV azad edilən məhsulların hazırlanması və əməliyyatların həyata keçirilməsi zamanı istifadə olunmuş material resurslan (işlər, xidmətlər) üzrə vergi məbləği silinib (ödənilməmiş - 19, ödənilmiş - 68)	20,23, 25,26, 28,29, 31,43,44	19, 68
6.	İstehsal ehtiyacları üçün istifadə olunmuş əsas vəsaitlər və istehsal ehtiyaclan, məhsullar və mallar (işlər, xidmətlər) üzrə ƏDV məbləği silinib	29, 88, 96	19, 68
7.	Oğurlanmış material resurslan üzrə ƏDV məbləği silinib	84	19, 68
8.	istehsal ehtiyatlan və əsas vəsaitlər üzrə ƏDV məbləği silinib	87, 88	19, 68
9.	İlkin sənədlərə əsasən alınmış avans məbləğləri üzrə ƏDV məbləği hesablanıb	64	68
10.	Avans məbləği alındıqdan sonra yüklənmiş məhsullar (yerinə yetirilmiş işlər, göstərilmiş xidmətlər) üzrə ƏDV məbləği silinib	68	64
11.	Yüklənmiş məhsullar (yerinə yetirilmiş işlər, göstərilmiş xidmətlər) üzrə hesablaşma sənədlərində aynca göstərilmiş, onların satışından olan pul vəsaitlərinin tərkibində olan ƏDV məbləği əks olunub	46,47,48	68, 76
12.	ƏDV büdcəyə köçürülüb	68	51,50, 55

ƏDV uçotunun prinsipial sxemi aşağıdakı kimidir:

müəssisə tərəfindən ƏDV cəlb olunan məhsullar (işlər, xidmətlər) satılarkən:

Dt 19 Kt

Kt 60, 76

Mədaxil edilmiş material iş və xidmətlər ƏD\' məbləği

Dəyəri ödənilmiş və mədaxil material qiymətliləri, iş və . xidmətlər üzrə büdcədən əvəzləşdiriləcək ODV məbləği

Dt 68 ƏDV Kt

Dt 46,47,48, 62,64,80

Satılmış məhsullar, işlər, xidmətlər, mallar, xidmətlər üzrə alıcılardan aUnmış vəsaitlər (satış am - "yükləmə üzrə'"), alınmış avanslar, mallar (işlər, xidmətlər) hesablaşmalarla bağlı digər müəssisələrdən abnmış vəsaitlər üzrə ƏD\" məbləği; müqavilə öhdəliklərinin görə daxil olmuş cərimə, peuiya və dəbbə məbləğləri üzrə ƏDV məbləği: alınmış icarə baqlan üzrə

Dt 64 Kt ^ Dt 76

.A^hcılardan alınmış ƏDV məbləği (satış anı - "ödəmə

Əwəlcədən ödəuiş və avaiıs məbləğləri üzrə əwəllər hesablammş ƏDV

Dt 51 Kt

Dt 29,84, 88

Qeyri-istehsal məqsədləri üçün istifadə olunmuş material qiymətliləri üzrə bərpa edilmiş ƏDV məbləği

ƏDV büdcəyə ödənilməsi

Dt 51

Büdcədən ƏDV qaytarılması

• müəssisə tərəfindən ƏDV cəlb olunmayan məhsullar (işlər, xidmətlər) satılarkən (ixracat mallan və qiymətli metallardan başqa):

Dt 60 **Kt** **Dt** **19** **Kt** **Dt 08,10,12 Kt**

Alınmış material qiymətliləri, işlər, xidmətlər üzrə malsatanlara ödəniləcək ƏDV məbləği	Malsatanlara ödənilmiş ƏDV məbləği əldə edilmiş material qiymətlilərinin dəyərinə daxil edilmişdir Dt 20,23,25,26,44	Kt
	4 ----------► Göstərilmiş xidmətlərin malsatanlanna ödənilmiş ƏDV məbləği istehsai və tədavül xərclərinə daxil edilir	

müəssisə tərəfindən ƏDV cəlb olunmayan mallar (işlər, xidmətlər) satılarkən (ixracat malları və qiymətli metallar):

Dt 60 Kt Dt 19 Kt Dt 68 Kt

istehsalatda istifadə olunacaq material qiymətliləri, iş vo xidmətlər üzrə ƏDV məbləği

İstehsalatda istifadə olunacaq matenal qiymətliləri, iş və xidmətlər üzrə ƏDV məbləğinin büdcədən əvəzləşdinnəyə silinməsi

Müxtəlif növ ticarət fəaliyyətləri üçün nəzərdə tutulmuş mallar üzrə ƏDV uçotunun prinsipial sxemi aşağıdakı kimidir:

• topdan ticarət müəssisələrində mallar üzrə:

Dt 19 Kt Dt 68 (ƏDV) Kt

Kt60 Dt 46

Mədaxil edilmiş mallar üzrə ƏDVməbləgi

Mədaxil edilmiş və dəyəri ödənilmiş ƏDV məbləğinin əvəzləşdirihnosi (onların satılıb-satılmamasındanasılı olmayaraq)

Mallann alıcılaından aimmış ƏDV məbləği (satış am - "yükləmə üzrə")

^Dt76 _____

Malların alıcılardan alınmış ƏDV məbləği (satış anı - "ödəmə üzrə")

pərakəndə ticarət və ictimai iaşə müəssisələrində mallar üzrə: Dt

68 (ƏDV) _____ Kt

Dt46

Satılmış mallar üzrə hesablanmış ƏDV məbləği

• komissionerdə olan və satılmış mallar üzrə: Dt

68 (ƏDV) Kt

TCtir Dt 76

Komitent tərəfindən mallar verilərkən ödənilmiş ƏDV məbləği

Komissiyaya qəbul edilmiş satılmış mallar üzrə ƏDV məbləği

• **komitentdə onun tərəflndən komissiyaya verilmiş və komissioner tərə- ündən satılmış mallar üzrə:**

Dt	19	Kt	Dt	68 (ƏDV)	Kt
Kt 60 , M.'HİaxiI eılilmiş" mallar üzrə ƏDV məbləği	Malsatanlara ildətiilmiş məbləğinin əvəzləşdirilməsi		ODV	Dt46 Komissioner tərəfindən satılmış mallar U7jə ODV	

19 "Əldə edilmiş qiymətlilər üzrə ƏDV" hesabının quruluşu aşağıdakı kimidir:

Debet		Kredit	
Əldə edilmiş qiymətlilər, işlər, xidmətlər üzrə ODV	Hesabların mflxabirləşməsi	Mədaxil edilmiş və dəyəri ödənilmiş qiymətlilər, işlər, xidmətlər üzrə ƏDV	Hesabların möxabirləşməsi
Saldo - hesabat dövrünün əvvəlinə əldə edilmiş, lakin dəyəri ödənilməmiş qiymətlilər, işlər, xidmətlər üzrə ƏDV			
Malsatanlann (podratçıların) hesabları üzrə qəbul edilmiş ƏDV əks olunub	60, 76	Müəssisənin vergiyə cəlb edilən məhsulları (işləri, xidmətləri) üzrə ƏDV silinib	68
		Müəssisənin vergiyə cəlb edilməyən məhsulları (işləri, xidmətləri) üzrə ODV silinib:	
		■ əsas vəsaitlərə görə malsatanlara ödənilmiş ƏDV	08,10
		materiallara görə malsatanlara ödənilmiş ƏDV	
		ATƏ görə malsatanlara ödənilmiş ƏDV	12
		■ istehsal təyinatlı işlərin yerinə yetirilməsinə və xidmətlərin göstərilməsinə görə malsatanlara ödənilmiş ƏDV	20,23, 25,26
Saldo - hesabat dövrünün sonuna əldə edilmiş, lakin dəyəri ödənilməmiş qiymətlilər, işlər, xidmətlər üzrə ƏDV			

68, subhesab “ƏDV üzrə hesablaşmalar” quruluşu aşağıdakı kimidir:

Budcayə olan borcun azalması	Hesabların müxabirləşməsi	Büdcəyə olan borcun artması	1 Hesabların müxabirləşməsi
Saldo - hesabat dövrünün əvvəlinə ƏDV üzrə büdcənin müəssisəyə olan	-	Saldo - hesabat dövrünün əvvəlinə müəssisənin ƏDV üzrə büdcəyə olan borc	-
Əvvəlcədən ödəniş və avans məbləğləri əvəzləşdirilmişdir	64		
		***'Ödəmə uzrə” (Kassa metodu) məhsulların (işlərin, xidmətlərin) satışı zamanı.** ƏDV hesablanıb: ■ satılmış məhsullar, işlər, xidmətlər üzrə ■ satılmış əsas vəsaitlər üzrə ■satılmış qeyri-maddi aktivlər və materiallar üzrə • təsərrüfat üsulu ilə yerinə yetirilmiş tikinti işləri üzrə • alınmış avanslar üzrə ■müqavilə öhdəliklərinin pozulmasına görə alınmış cərimə, peniya və dəbbə məbləğləri üzrə; alınmış icarə haqqları üzrə	46 47 48 08 64 80
ƏDV büdcəyə köçürülüb	51,55		
		“Yükləmə üzrə” (Hesablama metodu) məhsulların (işlərin, xidmətlərin) satışı zamanı. Satılmış məhsullar, işlər, xidmətlər, əsas vəsaitlər və digər aktivlərə görə alıcılardan alınmış vəsaitlər üzrə ƏDV hesablanıb	76
		Sair əməliyyatlar Qeyri-istehsal ehtiyaclan üçün istifadə olunmuş material qiymətliləri üzrə ƏDV məbləği bərpa olunub	29,88
		ƏDV büdcədən geri qaytarılıb	51
Saldo - hesabat dövrünün sonuna ƏDV üzrə büdcənin müəssisəyə olan borcu	-	Saldo - hesabat dövrünün sonuna müəssisənin ƏDV üzrə büdcəyə olan borcu	-

3.7. Aksiz vergisi və aksiz markalarının uçotu

Aksizlərlə bağlı təsərrüfat əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi üçün 19 "Əldə edilmiş qiymətlilər üzrə ƏDV" hesabın, "Dəyəri ödənilməmiş material qiymətliləri üzrə aksizlər" subhesabı, 68 "Büdcə ilə hesablaşmalar" hesabın "Aksizlər üzrə hesablaşmalar" subhesabmdan, 31 "Gələcək dövrlərin xərcləri" hesabın "Aksiz markaları üzrə avans ödənişləri" subhesabmdan istifadə olunur.

Müəssisələr aksizli malların istehsalı üçün xammal kimi istifadə etdikləri ak- sizli mallar üzrə malsatanların təqdim etdikləri (onlara ödəniləcək) aksiz vergisinin məbləğini, 60 "Malsatan və podratçılarla hesablaşmalar", 76 "Müxtəlif debitor və kreditorlarla hesablaşmalar" hesabların kreditləri ilə müxabirləşməklə, 19 hesabın "Dəyəri ödənilmiş material qiymətliləri üzrə aksizlər" subhesabmın debeti üzrə əks etdirirlər.

Vcrgitutma məqsədləri üçün satış anının *hesablama metodu ('yükləmə üzrə")* üzrə müəyyən edildiyi hallarda, satılmış aksizli mallar üzrə alıcılardan (sifarişçilərdən) alınmış aksiz məbləği, 46 "Məhsullann (işlərin, xidmətlərin) satışı" hesabının debeti ilə müxabirləşməklə 68 hesabın, "Aksizlər üzrə hesablaşmalar" subhesabının krediti üzrə əks olunur. Təbii qaz üzrə məhsulun satılma (gəlirin əldə edilmə) vaxtı nağdsız hesablaşmalar zamanı pul vəsaitlərinin vergi ödəyicisinin hesablaşma və digər hesablarına daxil olduğu, kassasına isə nağd ödənildiyi an hesab edilir.

Satılmış məhsullar üzrə hesablanmış aksiz məbləği 68, "Aksizlər üzrə hesablaşmalar" (məhsul satışının "yükləmə üzrə" (hesablama) metodunun tətbiqi zamanı) və ya 76 "Müxtəlif debitor və kreditorlarla hesablaşmalar" (məhsul satışının "ödəmə üzrə" (kassa) metodunun tətbiqi zamanı) hesabın krediti ilə müxabirləşməklə 46 "Məhsullann (işlərin, xidmətlərin) satışı" hesabının debeti üzrə əks olunur. Göndərilmiş məhsulların (işlərin, xidmətlərin) dəyəri alıcılar (sifarişçilər) tərəfindən ödənildikcə müəssisənin aksizlər üzrə büdcə qarşısında olan borcu aşağıdakı mühasibat yazılışı tərtib edilməklə rəsmiləşdirilir:

Dt 76 "Müxtəlif debitor və kreditorlarla hesablaşmalar"

Kt 68, "Aksizlər üzrə hesablaşmalar"

Qeyd etmək lazımdır ki, təcrübədə 47 "Əsas vəsaitlərin satışı və sair xaric olması" və 48 "Sair aktivlərin satışı" hesablarında əks olunmuş satışdan daxil olmuş pul vəsaitlərindən aksiz məbləğinin hesablanması üçün istifadə olunması da mümkündür.

Əgər vergitutma məqsədləri üçün məhsullann (işlərin, xidmətlərin) satışından olan gəlirlərin əldə olunma vaxtı *kassa metodu (ödəmə üzrə)* üzrə müəyyən edilirsə, onda alıcılardan (sifarişçilərdən) alınmalı olan aksiz məbləği və vergi qanunvericiliyinə uyğun olaraq ayın sonunda hesablanmış büdcəyə ödənilməli olan 46 "Məhsullann (işlərin, xidmətlərin) satışı" hesabın krediti üzrə uçota alınmış aksiz məbləği 76 "Müxtəlif debitor və kreditorlarla hesablaşmalar" krediti üzrə əks olunur. Satılmış məhsullann dəyəri alıcılar (sifarişçilər) tərəfindən ödənildikcə, aksizlər üzrə büdcəyə olan borc 68, "Aksizlər üzrə hesablaşmalar" krediti ilə müxabirləşməklə 76 "Müxtəlif debitor və kreditorlarla hesablaşmalar" hesabının debetinə silinir.

Vergi Məcəlləsinin 191.1-ci maddəsinə uyğun olaraq aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməlidir.

Hesabat dövrünün sonunda bank çıxarışı və digər sənədlərə əsasən büdcəyə ödənilən vergi məbləği 51 "Hesablaşma hesabı" (55) hesabının krediti, 68, "Aksizlər üzrə hesablaşmalar" hesabın isə debeti üzrə əks olunur.

Vergi ödəyicisinin aksizin ödənişi üzrə borcu varsa, həmin borc yaranandan ödənilənədək həyata keçirilən vergi tutulan əməliyyatlar üzrə aksizlər məcəllənin 191.1-ci maddəsinin tələblərinə baxmayaraq həmin əməliyyatların apanldığı vaxt ödənilir və vergi ödəyicisinin həmin malları bu mallar üzrə aksizi ödəyənədək istehsal binasının hüdudlarından kənara çıxartmağa hüququ yoxdur.

Aksizli mallar idxal edildikdə, aksiz gömrük orqanları tərəfindən gömrük rüsumlarının tutulduğu qaydada tutulur.

Hazırlanmış aksizli malların aksiz vergisinə cəlb olunmayan məhsulların istehsalı üçün istifadə olunduğu hallarda, yəni digər məhsulun istehsalı üçün xammal kimi istifadə olunduqda, büdcəyə ödəniləcək aksiz vergisi istehsal olunan məhsulun maya dəyəri hesabına həyata keçirilir, başqa sözlə həmin məhsulun maya dəyərinə daxil edilir. Bu halda vergitutulan dövriyyə aksiz məbləği də daxil olmaqla həmin məhsulların faktiki maya dəyərinə əsasən müəyyən edilir. Bu zaman aksizlərin hesablanmasına mühasibat uçotunda aşağıdakı yazılış tərtib olunur:

Dt 20 "Əsas istehsalat";

Kt 68, "Aksizlər üzrə hesablaşmalar".

Aksizli malların istehsalı üçün istifadə olunan aksizli xammal üzrə malsatan- lara ödəniləcək vergi məbləği 19 "Dəyəri ödənilmiş material qiymətliləri üzrə aksizlər" subhesabın debeti üzrə əks olunur. Aksizlər üzrə büdcəyə olan borc 19 saylı hesabdan yalnız alınmış aksizli malların dəyəri malsatanlara ödənildikdən sonra silinir.

Belə ki, mədaxil olunmuş materialların dəyəri malsatanlara ödənildikcə və istehsalata silindikcə aksiz vergisinin məbləği 19 hesabın "Dəyəri ödənilmiş material qiymətliləri üzrə aksizlər" subhesabmın kreditindən 68 hesabın müvaviq sub- hesabmın debetinə silinir.

Aksiz məbləği, lazımı qaydada rəsmiləşdirilmiş sənədlərə (hesab-fakturalar, qaimələr, kassa mədaxil orderi, işlərin yerinə yetirilməsi haqqında akt və digər analoji sənədlər) əsasən, material qiymətlilərinin tədarük edilməsi, məhsulların (işlərin, xidmətlərin) və digər aktivlərin satışı üzrə mühasibat uçotu registrlərində (jurnal-orderlərdə, cədvəllərdə) ayrıca sütunda göstərilməlidir.

Dolayı vergi olduğu üçün əlavə dəyər vergisində olduğu kimi aksizlərin istehsalın müxtəlif mərhələləri prosesində onların əvəzləşdirilməsi məzərdə tutulmuşdur. İstehsal ehtiyacları üçün aksizlərin əvəzləşdirilməsi Vergi Məcəlləsinin 189-cu maddəsi ilə tənzimlənir. Belə ki, həmin maddəyə uyğun olaraq aksizli malları (xammal və materialları) alan və bu malları vergi tutulan digər aksizli malların istehsalı üçün istifadə edən şəxs xammal və materialları alarkən ödənilmiş aksizin məbləğini əvəzləşdirmək və ya geri almaq hüququna malikdir.

Aksizin məbləği yalnız xammal və materialların istehsalçısı tərəfindən aksi- zin ödənildiyini (yalnız nağdsız hesablaşmalar zamanı) təsdiq edən elektron vergi hesab-faktura, xammal və materiallar idxal edildikdə isə - müvafiq sənədlər vergi orqanına verildiyi zaman əvəzləşdirilir və ya geri qabarılır. Sənədlər vergi orqanına verildikdən sonra 45 gün ərzində tutulmuş aksiz məbləği vergi ödəyicisinə qaytarılır.

Beləliklə, büdcəyə ödəniləcək aksiz məbləği müəyyənləşdirilərkən xammal və materialların tədarükü və alınması prosesində malsatanlara ödənilmiş aksiz məbləğləri nəzərə alınmalıdır. Qeyd etmək lazımdır ki, mühasibat uçotunun hesablar planında büdcədən əvəzləşdiriləcək aksiz məbləğlərinin uçota alınması üçün hər hansı hesab nəzərdə tutulmamışdır. Bildiyimiz kimi ƏDV üçün bu məqsədlə 19 "Əldə edilmiş qiymətlilər üzrə ƏDV" hesabı nəzərdə tutulmuşdur və bu hesaba müxtəlif subhesablar açılır.

Hazırda əksər müəssisələrin mühasibat uçotu prakrikasmda büdcədən əvəz- ləşdirilməli olan aksizlərin uçotunu aparmaq üçün sadəcə 19 saylı hesaba əlavə olaraq "Dəyəri ödənilmiş material resurslan üzrə aksizlər" adlı 5-ci subhesabın açılması ilə kifayətlənirlər. Zənnimizcə, bu onsuz da mürəkkəb vergi növü olan ƏDV hesablanması, tutulması, əvəzləşdirilməsi və ödənilməsi üzrə əməliyyatların mühasibat uçotunda əks etdirilməsi ilə əlaqədar mühasibin işini daha da qəlizləşdirir.

Ona görə büdcədən əvəzləşdirilməli olan aksizlər üzrə bu qəbildən olan əməliyyatların uçota alınması üçün müəssisələr hesablar planındakı boş nömrələrdən birini istifadə edə bilərlər.

Fikrimizcə, aksizlə əlaqədar təsərrüfat əməliyyatlannın mühasibat uçotunda əks etdirilməsi məqsədilə mühasibat uçotunun hesablar planına 18 "Dəyəri ödənilmiş material resurslan üzrə aksizlər" hesabın daxil edilməsi və bu hesabın 68, "Aksizlər üzrə hesablaşmalar" hesabı ilə yanaşı istifadə olunması daha məqsədəuyğundur.

18 "Dəyəri ödənilmiş material resursları üzrə aksizlər" hesabda (yaxud 19-5 "Dəyəri ödənilmiş material resursları üzrə aksizlər") aksizli mallann istehsalı üçün xammal kimi istifadə olunan aksizli mallara görə malsatanlara ödənilmiş və əvəzləşdirilməli olan aksiz məbləğləri əks olunur.

Müəssisələr malsatandan (sifarişçidən) alınmış aksizli mallar (xammal və materiallar) mədaxil edilərkən uçotda aşağıdakı mühasibat yazılışı tərtib olunur:

Dt 10 "Materiallar"; 41 "Mallar" - materialların bazar qiyməti (ƏDV və aksizlər xaric);

Dt 18 "Dəyəri ödənilmiş material resursları üzrə aksizlər" (19/5) - alınmış xammal və materiallar üzrə aksiz məbləği;

Kt 60 "Malsatan və podratçılarla hesablaşmalar", 76 "Müxtəlif debitor və kreditorlarla hesablaşmalar" - malsatanlara ödənilmiş ümumi məbləğ.

Alınmış aksizli xammal və materialların dəyəri nağdsız qaydada (ödəniş tap- şırığına əsasən) malsatanlara ödənildikdən sonra (Dt 60,76 - Kt 51,52,55) vergi qanunvericiliyinə əsasən (VM maddə 189) vergi ödəyicisi həmin vergi məbləğini əvəzləşdirmək hüququ əldə edir. Bu əməliyyat mühasibat uçotunda aşağıdakı qaydada əks olunur:

Dt 68, "Aksizlər üzrə hesablaşmalar"

Kt 18 "Dəyəri ödənilmiş material resursları üzrə aksizlər" (19/5).

Aksizli malların satışından olan pul vəsaitləri 62 “Alıcılar və sifarişçilərlə hesablaşmalar” hesabının kredi ilə müxabirləşməklə (“yükləmə üzrə” və ya hesablama metodunun tətbiqi zamanı) 51 “Hesablaşma hesabı” (52) hesabın debeti üzrə əks olunur. Eyni zamanda satılmış aksizli mallar üzrə aksiz məbləğinə növbəti yazılış tərtib edilir:

Dt 46 “Məhsulların (işlərin, xidmətlərin) satışı” (48)

Kt 68, “Aksizlər üzrə hesablaşmalar”

Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməlidir.

Müəssisə tərəfindən büdcəyə ödəniləcək aksiz vergisinin məbləği (Abad.) aşağıdakı kimi müəyyən edilir:

Abüd. Aaiın* “ Asdan*) (f)

burada Aai,n* ~ alıcılardan alınmış və satılmış məhsullar üzrə büdcəyə ödəniləcək aksiz məbləği;

Aödan* - aksizli malların malsatanlarına ödənilmiş və aksizli malların istehsalı üçün istifadə olunmuş xammal üzrə aksiz məbləği.

Aksiz vergisinin bəyannaməsi aksizli malların satışı üzrə yığım cədvəllərinə əsasən tərtib edilir. Aksizli malların satışı üzrə yığım cədvəllərində, ilkin hesablaşma sənədlərinə əsasən ayrı-ayrılıqda satılmış hər bir malın miqdarı, onların buraxılış qiymətləri üzrə dəyəri (aksizlər də daxil olmaqla) haqqında məlumatlar əks olunmalıdır. Satış cədvəllərinin yekunu hesabat dövrü ərzində aksizlərin ödənilməsi üçün müəyyən edilmiş müddətdə hesablanır. Aksizli malların satışı üzrə yığım cədvəlləri müəyyən edilmiş dərəcələr həddində mallar və mal qruplan üzrə aparılır.

Beləliklə, vergi dövrünün sonuna 68, “Aksizlər üzrə hesablaşmalar” hesabının kredit saldosu aksiz verişi üzrə müəssisənin büdcəyə olan borcunu göstərir və həmin borc büdcəyə köçürüldükdə bank çıxarışına əsasən mühasibatlıqda aşağıdakı yazılış tərtib edilir:

Dt 68, “Aksizlər üzrə hesablaşmalar”

Kt 51 “Hesablaşma hesabı” (52,55).

Aksizli mallar idxal edildikdə, aksiz gömrük orqanları tərəfindən gömrük rüsumlarının tutulduğu qaydada tutulur.

Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallann istehsalı zamanı vcrgitutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməlidir. Aksiz vergisinin ödəyicilori hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq vergi tutulan əməliyyatlarını göstərməklə, özünün fəaliyyət göstərdiyi yer üzrə vergi orqanına bəyannamə verməlidir.

Vergi ödəyicisi olan hüquqi şəxs ləğv edildikdə və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxsin (fərdi sahibkarlann) fəaliyyətinə xitam verildikdə, aksiz bəyannaməsi məcəllədə nəzərdə tutulmuş müddətdən gec olmamaq şərti ilə 30 gün müddətində vergi orqanına təqdim edilməlidir. Bu zaman vergi dövrü hesabat dövrü sayılan müddətin əvvəlindən vergi ödəyicisi fəali>7ətini dayandırdığı günə qədər olan dövrü əhatə edir. http://www.e-qanun.az/cache/code/0/c c 12.html- edn437

Vergi bəyannamələri aksizli malların satışı üzrə yığma cədvəllərin məlumatlarına əsasən tərtib olunur. Aksizli malların satışı üzrə yığma cədvəllərdə ilkin hesablaşma sənədlərinə əsasən hər bir satılmış malın miqdarı, s§tış (buraxılış) qiyməti ilə dəyəri (aksizlər də daxil olmaqla) haqqında məlumatlar əks olunmalıdır. Cədvəllərin yekunu müəyyən dövr ərzində aksizlərin ödənilməsi üçün lazım olan müddətdə hesablanır. Aksizli malların satışı üzrə yığma cədvəllər vergi ödəyicisi tərəfindən müəyyən edilmiş vergi dərəcələri üzrə mallar və mal qrupları üzrə aparılır.

Aksiz vergisinin hesablanmasının düzgünlüyünə və büdcəyə vaxtında ödənilməsinə görə məsuliyyəti bütünlüklə vergi ödəyiciləri və onların vəzifəli şəxsləri daşıyır.

18 “Dəyəri ödənilmiş material resursları üzrə aksizlər” (19/5) hesabının quruluşu aşağıdakı kimidir

Debet		Kredit	
Əldə edilmiş aksizli xammal üzrə aksizlər	Hesabların müxabirləşməsi	Dəyəri ödənilmiş və istehsalata buraxılmış aksizli xammal Uzrə aksizlər	Hesabların müxabirləşməsi
Saldo - hesabat dövrünün əvvəlinə əldə edilmiş aksizli xammal üzrə aksizlər			
Malsatanlardan (podratçılardan) daxilolmuş aksizli xammal üzrə aksizlər	60, 76	Malsatanlardan (podratçılardan) daxil olmuş və satılmış aksizli malların istehsalına buraxılmış aksizli xammal üzjə aksiz məbləği silinib (əvəzləşdirilib)	68
Saldo- hesabat dövrünün sonuna əldə edilmiş aksizli xammal üzrə aksizlər			

68, “Aksizlər üzrə hesablaşmalar” hesabının quruluşu aşağıdakı kimidir:

Debet		Kredit	1
Büdcəyə olan borcun azalması	Hesabların müxabirləşməsi	Büdcəyə olan borcun artması	Hesabların müxabirləşməsi
		Saldo - hesabat dövrünün əvvəlinə aksizlər üzrə müəssisənin büdcəyə olan borcu	
Dəyəri malsatanlara ödənilmiş və satılmış aksizli mallann istehsalı UçUn istifadə olunmuş aksizli xammal üzrə aksiz məbləği silinmişdir (əvəzləşdirilmişdir)	19	Aksiz hesablanıb: ■ satılmış aksizli mallar üzrə (satış anı - “yükləmə üzrə”, hesablama metodu); ■ aksizsizli malların istehsalı üçün istifadə olunan öz istehsalı olan aksizli mallar üzrə; ■ əməyin natural ödənişi kimi, əvəzsiz olaraq, bazar qiymətindən aşağı qiymətə satılmış aksizli mallar üzrə; ■ mallann ödənişi üzrə hesablaşmalarla əlaqədar alınmış pul vəsaitləri üzrə (aksiz dərəcəsi - faizli)	46 20 88 88,96
Aksiz vergisi büdcəyə köçürülüb	51,55		
		Saldo - hesabat dövrünün sonuna aksizlər üzrə müəssisənin büdcəyə olan borcu	

Aksizlərin uçotunun prinsipial sxemi aşağıdakı kimidir:



Aksiz markalarının mühasibat uçotu. Son zamanlar ölkəmizdə fəaliyyət göstərən təsərrüfat subyektləri aksiz markalarının əldə edilməsi, istifadə olunması və uçotu problemləri ilə rastlaşırlar. Bu səbəbdən biz aksiz markalarının saxlanması, istifadə olunması, silinməsi və mühasibat uçotunun təşkili qaydasını nəzərdən keçirməyə çalışacağıq.

Qeyd etmək lazımdır ki, markalanmalı olaıvaksizli məhsulların Azərbaycan Respublikası ərazisində istehsalı və ya onların ölkə ərazisinə idxalı yalnız aksiz markalarının əldə edilməsindən sonra həyata keçirilir.

Azərbaycan Respublikasının ərazisində istehsal olunan markalanmalı məhsullara tətbiq edilən aksiz markalarının dövriyyəsinə nəzarəti həyata keçirmək məqsədi ilə, ölkədə markalanmalı məhsulları istehsal edən şəxsə, aksiz markaları QKDK tərəfindən verilir.

Markalanmalı məhsulları istehsal edən şəxs aksiz markalarının əldə edilməsi üçün QKDK-ya aşağıdakı sənədləri təqdim etməlidir;

- ❖ QKDK tərəfindən müəyyən olunmuş formada yazılı surətdə müraciət;
- ❖ «Dövlət aksiz markalarının alınması haqqında» arayış;
- ❖ vəkalətnamə;
- ❖ şəxsiyyəti təsdiq edən sənədin əsli və surəti (üzləşdirildikdən sonra sənədin əsli şəxsə qaytarılır).

Aksiz markalarını əldə edən şəxsə və ya markalanmalı məhsulları müsadirə etmiş müvafiq dövlət orqanına QKDK tərəfindən təsdiq olunmuş formada «Dövlət aksiz markalarının əldə edilməsi haqqında» arayış (Forma JVs 1) verilir. «Dövlət aksiz markalarının əldə edilməsi haqqında» Arayış aksiz markalannın əldə edilməsini təsdiq edən sənəddir.

İstifadə olunmamış və yaxud zədələnmiş aksiz markalan alındığı tarixdən 1 (bir) il ərzində Maliyyə Nazirliyinə qaytarılmalıdır. İstifadə olunmamış aksiz markaları qaytarıldıqdan sonra Maliyyə Nazirliyi şəxs tərəfindən aksiz markalarının alınması üçün ödənilmiş pul vəsaitinin 75 faizini şəxsə geri qaytanr. Qalan 25 faizi həmin aksiz markalarının gətirilməsi və saxlanılması xərclərinin ödənilməsi məqsədi ilə Maliyyə Nazirliyinin hesabında saxlanılır. Göstərilmiş müddət keçdikdən sonra şəxsin vəsaiti geri qaytarılmır.

, Aksiz markalarının sifarişinə, satışına, uçotunun aparılmasına və onların dövriyyəsinə nəzarəti QKDK həyata keçirir.

Mülkiyyət formasından asılı olmayaraq aksiz markaları ilə markalanmalı olan məhsulların istehsal və idxalını həyata keçirmək üçün müvafiq lisenziya almış hüquqi və fiziki şəxslərə aksiz markaları Maliyyə Nazirliyi tərəfindən onların hazırlanması, daşınması, saxlanılması üzrə xərclərə bərabər qiymətə satılır.

Qanunvericilik normalanna uyğun olaraq aksiz markalan məhsulların (işlərin, xidmətlərin, malların) maya dəyərinə, həmçinin vergitutma zamanı nəzərə alınan, yəni gəlirlərdən çıxılan satışdankənar xərclərin tərkibinə daxil edilir.

Ciddi hesabat blankı olan aksiz markalarının əldə edilməsi və silinməsi üzrə təsərrüfat əməliyyatlarının mühasibat uçotunda aşağıdakı qaydasını nəzərdən keçirək.

Müəssisələr məcburi qaydada markalanmalı olan aksizli mallar üzrə aksiz markalarının alış dəyəri həcmində avans ödənişləri ödəyir (Dt 31 - Kt 51) və onla- nn alınmasına çəkilən məsrəfləri aksizli malların maya dəyərinə daxil edirlər (Dt 20,23,26,44-Kt 31).

Aksiz məbləği, lazımı qaydada rəsmiləşdirilmiş sənədlərə (hesab-fakturalar, qaimələr, kassa mədaxil orderi, işlərin yerinə yetirilməsi haqqında akt və digər ana

loji sənədlər) əsasən, material qiymətlilərinin tədarük edilməsi, məhsulların (işlərin, xidmətlərin) və digər aktivlərin satışı üzrə mühasibat uçotu registrlərində (jurnal-orderlərdə, cədvəllərdə) ayrıca sütunda göstərilməlidir.

İdxalatçı müəssisələr aksizlərin hazırlanması üçün materialları kənar təşkilatlara emala verdikdə aşağıdakı mühasibat yazılışları tərtib olunur:

1) Dt 10, "Kənara emala verilmiş materiallar"
Kt 10, "Sair materiallar" - blanklar istehsalçıya yüklənib
eyni zamanda:
Dt 006, subhesab "Malsatanda olan ciddi hesabat blanklan"
Kt 006, subhesab "Mühasibatlıqda olan ciddi hesabat blanklan"

2) Dt 43 "Kommersiya xərcləri" (44)
Kt 10, "Sair materiallar"- mal satanlardan aksizli (markalanmış) mallar (sənədlər) alınarkən, eyni zamanda:
Kt 006, subhesab "Malsatanda olan ciddi hesabat blanklan"

Alınmış aksiz markaları hüquqi şəxslər tərəfindən alındıqdan sonra müəssisə rəhbərinin əmrinə əsasən onların uçotunun aparılması, saxlanması və sonradan kassada və ya digər xüsusi avadanlıqla təchiz olunmuş binada saxlanması üçün məsul olan şəxsə təhvil verilir. Aksiz markaları təhvil alan məsul şəxs ciddi hesabat blanklannın uçotu üzrə mədaxil-məxaric kitabında imza edir və həmin andan onların qorunub saxlanmasına görə məsuliyyət daşıyır. Aksiz markalarını malsatanlara göndərən şəxslər bu kitabda imza edirlər.

Daxil olmuş aksiz markaları maddi-məsul şəxslər tərəfindən mədaxil edilməli və uçotda 10 "Materiallar" hesabının "Sair materiallar" subhesabında uçota alınmalıdır. Eyni zamanda mühasibat uçotunun hesablar planı üzrə təlimata uyğun olaraq 006 "Ciddi hesabat blanklan" adlı balansarxası hesabda ciddi hesabat blankları- nın hər bir növü və onların saxlanma yerləri üzrə analitik uçotu (maddi-məsul şəxslər və saxlanma yerləri üzrə) aparılmalıdır. Aksiz markalarının uçotu onlann əldə edilmə qiymətləri üzrə aparıla bilər. Bu məqsədlə 006 saylı balansarxası hesaba "Mühasibatlıqda olan ciddi hesabat blanklan", "Maddi-məsul şəxslərdə olan ciddi hesabat blanklan" və "Malsatanda olan ciddi hesabat blanklan" adlı subhesablar açıla bilər.

Malsatanlardan daxil olmuş aksiz markaları mədaxil edildikdə aşağıdakı mühasibat yazılışı tərtib edilir:

Dt 10, subhesab "Sair materiallar"
Kt 60 "Malsatan və podratçılarla hesablaşmalar" (76)

Eyni zamanda mədaxil edilmiş aksiz markaları ciddi hesabat blankı olduğu üçün onların dəyəri 006 "Mühasibatlıqda olan ciddi hesabat blanklan" adlı balans- arxası hesabda əks olunur.

Daxil olmuş aksiz markalarının hazırlanmasına görə malsatana köçürülmüş ödənişlərinin məbləği 51 "Hesablaşma hesabı" hesabının krediti, 60 "Malsatan və podratçılarla hesablaşmalar" (76) hesabının debeti üzrə əks olunur.

Aksizli mallar istehsal edon müəssisədə aksiz markalarının istehsalata buraxılması zamanı aşağıdakı mühasibat yazılışları tərtib edilir:

1) Dt 20 (44), subhesab "Kommersiya xərcləri"

Kt 10, "Sair materiallar" - aksiz markasının dəyərinin silinməsi;

2) Dt 006, subhesab "Maddi-məsul şəxslərdə olan ciddi hesabat blanklan"

Kt 006, subhesab "Mühasibatlıqda olan ciddi hesabat blanklan";

eyni zamanda

Kt 006, subhesab "Maddi-məsul şəxslərdə olan ciddi hesabat blanklan"

İstifadə olunmayan aksiz markaları hüquqi şəxslər tərəfindən geri qaytarıldıqda onların alındığı zaman olan sıra ardıcıllığına riayət etmək şərti ilə əmtəə-nəqliyyat qaiməsi tərtib edilir. Bu zaman aşağıdakı mühasibat yazılışı verilir:

Dt 60 "Malsatan və podratçılarla hesablaşmalar" (76)

Kt 10, subhesab "Sair materiallar" - istifadə olunmayan aksiz markalannm dəyəri. Aksiz markalarının itirildiyi və ya oğurlandığı hallarda təyin edilmiş komissiya yoxlama apararaq oğurluq, itki, xarab olmanın səbəbləri, nömrə və seriyaları göstərilməklə ciddi hesabat blanklannm sayı göstərilən akt tərtib edir. Akt itki faktı üzrə qərarın qəbul edilməsi üçün müəssisənin rəhbərinə, bir nüsxəsi isə vergi orqanlarına təqdim olunur.

İstifadə olunmamış zədələnmiş aksiz markaları məhv edilir. Məhv edilməmişdən vergi və gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən aksiz markalarının əsilliliyi yoxlanılır. Vergi və gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən onların əsilliliyi yoxlandıqdan sonra, yoxlamanı aparan vergi müfəttişinin iştirakı ilə müəssisə rəhbərinin əmri ilə yaradılmış komissiya tərəfindən məhv edilir.

Məhv edilmiş aksizli mallara görə onların əldə edilməsi üçün ödənilmiş pul vəsaitləri geri qaytarılmır. Zədələnmiş və məhv edilmiş aksiz markalarının silinmə-sindən olan zərər satışdankənar xərclərin tərkibinə daxil edilir və vcrgitutma zamanı nəzərə alınır.

İdxal malları üzrə aksiz markalarının uçotu. Qanunvericiliyin tələblərinə uyğun olaraq aksiz markaları ilə markalanmalı olan tütün məmulatları və alkoqollu içkilərin idxalı üzrə xarici ticarət müqaviləsi bağlamış hüquqi şəxslər və fərdi sahibkarlar aşağıdakıları təmin etməyə borcludurlar:

- ölkə ərazisindən kənarda əldə edilmiş tütün məmulatları və alkoqollu içkilər üçün aksiz markalan almaq və markalanmağa (gömrük anbarı rejimində olan alkoqollu içkilərin qanunvericilikdə nəzərdə tutulmuş hallarda aksiz markalan ilə markalanmasına icazə verilir);
- qanunvericiliklə müəyyən edilmiş qaydada və məbləğdə avans ödəmələrinin köçürülməyə;
- müəyyən olunmuş müddətlərdə tütün məmulatları və alkoqollu içkilərin mədaxil edilməsi və gömrük rəsmiləşdirilməsinə təqdim edilməsi, eləcə də qanunvericilikdə müəyyən olunmuş qaydada gömrük və digər ödənişlərin ödəniləcəyi barədə gömrük orqanlarına zəmanət vermək.

Beləliklə, aksiz markaları idxalatçılar tərəfindən mallar ölkəmizin gömrük ərazisinə faktiki gətirildiyi anadək müvəkkil gömrük orqanından əldə edilir. İdxa- latçı aksiz markalarının əldə edilməsi üçün ərizə verilənədək, pespublikanın ərazi

sində sərbəst dövriyyə üçün mallar gömrük buraxılış rejimində yerləşdirilərkən, büdcəyə köçürülmək üçün gömrük orqanlarının tranzit və ya valyuta hesabına ak- sizlər üzrə avans ödəməlidirlər. Bu əməliyyat uçotda aşağıdakı kimi əks olunur:

Dt 76 "Müxtəlif debitor və kreditorlarla hesablaşmalar" (68)

K.t 52 "Valyuta hesabı" (51) - aksizlər üzrə avans ödənişlərinin məbləği.

Onu da qeyd etmək lazımdır ki, dövlət müəssisələri və istehlak kooperasiya müəssisələri tərəfindən aksiz markaları alınarkən aksizlər üzrə avans ödənişləri ödəmirlər. Bu kimi hallarda ərizə verilənə qədər yalnız aksiz markalarının dəyəri ödənilir:

Dt 76 "Müxtəlif debitor və kreditorlarla hesablaşmalar" (68)

Kt 51 "Hesablaşma hesabı" .

Ciddi hesabat blanklannın istifadə olunması qaydası haqqında qaydaya əsasən daxil olmuş aksiz markalan maddi-məsul şəxslər tərəfindən mədaxil edilməlidir. Aksiz markalann aparılması həvalə olunmuş maddi-məsul şəxslərin siyahısı müəssisə rəhbərinin əmri ilə təsdiq edilir. Digər ciddi hesabat blanklan kimi ak- sizlərin uçotu ciddi hesabat blanklannın uçotu üzrə mədaxil-məxaric kitabında aparılır.

Aksiz markalarının daxil olması aşağıdakı müxabirləşmə ilə rəsmiləşdirilir:

Dt 10, "Sair materiallar"

Kt 76 "Müxtəlif debitor və kreditorlarla hesablaşmalar" (68) - daxil olmuş markaların dəyəri

Eyni zamanda Dt 006 - markaların dəyəri.

Analitik uçot ciddi hesabat blanklannın hər bir növü və onlann saxlanma yerləri üzrə aparılır. Satılmış idxal aksiz markalan kassa və ya digər xüsusi avadanlıq siqnalizasiya sistemi ilə təchiz olunmuş binada saxlanılmalı və həmin yer möhürlənməlidir.

Əvvəl qeyd etdiyimiz kimi tütün məmulatlan və alkoqollu içkilər aksiz markaları ilə ölkəmizin gömrük ərazisindən kənarda markalanmalıdır. Bununla əlaqədar olaraq təsərrüfat subyektləri bir çox hallarda əldə etdikləri aksiz markalarını özünün qeyri-rezident malsatanlarına verməli olurlar. Alınmış aksiz markaları, müəyyən olunmuş qaydada tütün məmulatları və alkoqollu içkilərin markalanması üçün verildiyi, eləcə də yararsız olduğu üçün qaytarıldığı hallar istisna olmaqla öz- gəninkiləşdirə və ya digər formada başqa şəxslərə verilə bilməz.

Qeyd etmək lazımdır ki, aksiz markalan qeyri-rezidentə verildiyi hallarda onlara görə mülkiyyət hüququ idxalatçıda qalır. Ona görə aksiz markalarından istifadə olunması qaydası mütləq idxal kontraktlarında əks olunmalıdır. Xüsusilə kont- raktlannda aşağıdakılar göstərilməlidir:

- aksiz markalarının təhvil-təslim qaydası;
- malların markalanması qaydası;
- istifadə olunmamış və zədələnmiş aksiz markalannın geri qaytanlması qaydası;
- aksiz markalannın geri qaytanlacağı barədə zəmanətin verilmə qaydası;
- aksiz markalarından istifadə olunması şərtlərinin pozulmasına görə ödəniləcək cərimə sanksiyaları.

Aksiz markalarının avtomobil nəqliyyatı ilə daşınması haqqında qaydanı nəzərə alsaq idxalatçılar tərəfindən onların qeyri-rezidentlərə avtomobil nəqliyyatı ilə verilməsi daha məqsədəuyğundur. Əmtəə-nəqliyyat qaimələrinin doldurulması barədə təlimata əsasən bu sənəd ciddi hesabat blankıdır və mal-material qiymətlilərinin hərəkətini (onlann daşınması avtomobil nəqliyyat vasitəsilə həyata keçirildikdə), eləcə də nəqliyyat vasitəsi ilo yerinə yetirilmiş işlərin və onlann daşınması üzrə hesablaşmaların uçota alınması üçün nəzərdə tutulmuşdur. Bu sənəd yükü göndərən müəssisədə mal-material qiymətlilərinin silinməsi, onu alan müəssisədə isə mədaxil edilməsi, eləcə də anbar, operativ və mühasibat uçotlarının aparılması üçün əsas sənəd sayılır. Mühasibatlıqda aksiz markası almış hər bir alıcı üçün verilmiş və istifadə edilmiş ciddi hesabat blankları üzrə arayış-kartoçka açılmalıdır. Arayış-kartoçkalarda aşağıdakılar göstərilməlidir: əsasında markalann verildiyi sənədin tarix və nömrəsi; alınmış, istifadə olunmuş və qalan aksiz markalarının seriya və nömrələri

Verilmiş aksiz markaları mühasibat uçotunda aşağıdakı kimi əks olunur Dt

10, subhesab “Kənar təşkilatlara emala verilmiş materiallar”

Kt 10, subhesab “Sair materiallar” - verilmiş aksiz markalarının dəyəri.

Aksiz markalarının dəyəri aksizli malların dəyərinə daxil edildiyi üçün aksiz markaları ilə markalanmış idxal malları mədaxil edilərkən, onların mədaxil edildiyi gün markaların dəyəri həmin malların dəyərinə daxil edilir:

Dt41 “Mallar”

Kt 10, subhesab “Sair materiallar”.

Aksiz markalarının silinməsi istifadə olunmuş ciddi hesabat blanklannın silinməsi aktı ilə rəsmiləşdirilir.

Fikrimizcə, aksiz markalarının istifadə olunması üzərində nəzarət edilməsi məqsədilə onların uçotunu 006 saylı balansarxası hesabda idxal olunan alkoqollu içkilər və tütün məmulatları yüklənən anadək uçota alınmalıdır. Məsələ ondadır ki, həmin malların yüklənməsi xüsusi əmtəə-nəqliyyat və mal qaimələri ilə rəsmiləşdirilir. Bu blanklarda məcburi rekvizitlər arasında aksiz markalarının seriya və nömrələri də mövcuddur. Ona görə markaların 006 saylı balansarxası hesabda uçota alınması malların yüklənməsini rəsmiləşdirən qaimələrdə göstərilən məlumatları alınmış aksiz markalarındakı məlumatlarla uyğuluğuna nəzarət etmək imkanı verir. Bu halda malların yüklənməsi anında həmin mallara yapışdırılmış aksiz markalan- nın dəyəri 006 “Mühasibatlıqda olan ciddi hesabat blankları” subhesabın kreditinə əks olunur.

Xarici ticarət müqaviləsinin (kontraktın) yerinə yetirilmədiyi və ya qismən yerinə yetirildiyi hallarda idxalçı bütün istifadə olunmamış aksiz markalarını onların satışını həyata keçirmiş gümrük orqanlarına qaytarmalıdır. Bu zaman aksiz markaları, özündə onların geri qaytanima səbəbini və onların alınmsı zamanı ödənilmiş pul vəsaitlərinin geri qaytarılması xahişini əks etdirən, gömrük orqanının rə- sinin adına yazılmış xüsusi formalı ərizəyə əsasən geri qaytarılır. İstifadə olunmamış aksiz markaları idxalçı tərəfindən təkrarən satılması üçün onlann alındığı şəkildə, yəni zavodda qablaşdırıldığı formada və sıra nömrəsi ardıeıllığı ilə gömrük orqanına qaytarmalıdır. Qeyd etdiyimiz tələblər pozulduqda aksiz

markaları zədələnmiş kimi qəbul olunur. Aksiz markalarının gömrük orqanlarına qaytarılması həmçinin əmtəə-nəqliyyat qaiməsi ilə rəsmiləşdirilir və bu zaman aşağıdakı mühasibat yazılışı tərtib edilir:

Dt 76 (68)

Kt 10 - geri qaytarılmış aksiz markalarının dəyəri.

Eyni zamanda Kt 006.

Qeyd etmək lazımdır ki, aksiz markaları gömrük orqanlarına qaytarıldıqdan sonra 10 gün ərzində onların əsil olmasının ekspertizası aparılır. Aksiz markalarının əsilliyi təsdiq edildikdən sonra gömrük orqanları idxalatçıya onların tütün məmulatları və spirtli içkilərin markalanması üçün qəbul edildiyini təsdiq edən sənəd verir. Bundan sonra gömrük orqanları aksizlər üzrə ödənilmiş avans məbləğini və geri qaytarılan aksiz markalarının dəyərini idxalatçıya ödəyir. Geri qaytarılan avans məbləği uçotda aşağıdakı qaydada əks olunur:

Dt51(52)

Kt 76 (68) - istifadə olunmamış aksiz markalarının dəyəri;

Dt51(52)

Kt 76 (68) - aksizlər üzrə avans ödənişlərinin məbləği.

Aksiz markalarının xarab olduğu hallarda onların dəyəri idxalatçının öz vəsait mənbələri hesabına silinir və bu zaman aşağıdakı yazılış tərtib edilir:

Dt 84 (88)

Kt 10 - xarab olmuş aksiz markalarının dəyəri.

Yuxarıda qeyd etdiyimiz kimi zədələnmiş və məhv edilmiş aksiz markalarının silinməsİndən olan zərər satışdankənar xərclərin tərkibinə daxil edilir və vergi- tutma zamanı nəzərə alınır.

3.8. Gömrük vergi, rüsum və yığımlann uçotu

Respublikamızın bazar iqtisadiyyatına keçməsi ilə əlaqədar son dövrlərdə xarici ölkələrlə iqtisadi, ticarət əlaqələri ildən-ilə genişlənməkdədir. Artıq ölkəmizdə iqtisadi cəhətdən inkişaf etmiş dövlətləri təmsil edən dünyanın tanınmış firmalarının, şirkətlərinin nümayəndəlik və filiallan fəaliyyət göstərir. Eyni zamanda respublikamızda təsisçisi xarici hüquqi və fiziki şəxs olan, yaxud müştərək müəssisə kimi iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən xeyli firma və şirkət vardır. Bununla yanaşı, yerli müəssisələrin əksəriyyəti xarici ticarət fəaliyyətindən müvafiq müəssisələr tərəfindən böyük miqdarda mal-material qiymətliləri idxal (ixrac) olunur. Diqqət yetirdiyimiz bu iqtisadi proseslər Azərbaycan Respublikası Gömrük Məcəlləsi və idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydalarına uyğun olaraq həyata keçirilir.

Mallann və nəqliyyat vasitələrinin gömrük sərhəddindən keçirilməsi qaydaları və şərtləri, gömrük ödənişlərinin alınması, gömrük rəsmiləşdirilməsi, gömrük nəzarəti və gömrük siyasətinin həyata keçirilməsi gömrük işi adlanır. Gömrük orqanlarının əsas funksiyası bunlardır: gömrük siyasətini işləyib hazırlamaq və onun icrasına nəzarət etmək; gömrük işində müəssisə və sahibkarlara köməklik etmək;

ölkənin iqtisadi təhlükəsizliyini və mənafeyini qorumaq; gömrük sərhədlərində olan qanun pozuntularının qarşısını almaq; xarici iqtisadi fəaliyyətin gömrük statistikasını və mal nomenklaturasını aparmaq; öz səlahiyyətləri daxilində valyuta nəzarətini həyata keçirmək; gömrük sahəsində beynəlxalq öhdəlikləri yerinə yetirmək; bu sahədə elmi-tədqiqat işləri aparmaq.

Gömrük orqanları tərəfindən tutulan vergi, rüsum və yığımlar dövlət büdcəsinin formalaşması üçün mühüm əhəmiyyət kəsb edir. Mövcud qanunvericiliyə uyğun olaraq gömrük orqanları ölkə ərazisinə daxil olan fiziki və hüquqi şəxslərdən ƏDV, aksizlər və yol vergisi tuturlar. Vergilərdən başqa, gömrük orqanları çoxsaylı gömrük rüsumu, yığım və digər ödənişlər tutur.

Gömrük rüsumları dolayı dövlət vergisi olmaqla Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən malların Ölkəmizin gömrük ərazisinə gətirilməsi və ya bu ərazidən aparılması zamanı tutulan ödənişdir. İqtisadi kateqoriya kimi gömrük rüsumları ayrı-ayrı dövlətlər arasında maldəyişmə əməliyyatlarının meydana gəlməsi mərhələsində tətbiq edilməyə başlanmışdır. Gömrük rüsumları əvvəlcədən yalnız dövlətin öz gəlirlərini artırmasının fiskal aləti kimi çıxış etmişdir. Gömrük rüsumları ölkə daxilindəki iqtisadi proseslərə dərindən təsir edir.

İndi isə gömrük orqanları tərəfindən vergi, rüsum, yığım və digər ödənişlər tutulması üzrə təsərrüfat əməliyyatlarının mühasibat uçotunda əks olunması qaydasını nəzərdən krçirək.

Vergi tutulan idxal üzrə ƏDV vergi və gömrük qanunvericiliyinə uyğun olaraq gömrük rüsumlarının ödənilməsi üçün nəzərdə tutulan qaydada gömrük orqanları tərəfindən hesablanır və alınır.

Vergi Məcəlləsinin 154.3-cü maddəsinə uyğun olaraq Azərbaycan Respublikasına ƏDV tutulan malları idxal edən şəxslər bu cür idxal malları üzrə ƏDV-nin ödəyiciləri sayılırlar. Məcəllənin 159.1-ci maddəsinə əsasən vergi tutulan idxal ver- gitutma ƏDV vergitutma obyektidir. Əlavə dəyər vergisinə Azərbaycan Respublikasının ərazisinə idxal edilən mallar cəlb olunur.

Vergi Məcəlləsinin 162.1-ci maddəsinə uyğun olaraq vergi tutulan idxalın dəyəri malların Azərbaycan Respublikasının gömrük qanunvericiliyinə uyğun olaraq müəyyən edilən gömrük dəyərindən və mallar Azərbaycan Respublikasına gətirilərkən ödənilməli olan rüsumlardan və vergilərdən (ƏDV nəzərə alınmadan) ibarətdir. Məcəllənin 171.2-ci maddəsinə uyğun olaraq idxalın bir hissəsi kimi sayılan xidmət göstərildikdə, onun ƏDV nəzərə alınmadan dəyəri onlann gümrük dəyərinə əlavə edilir.

Gömrük qanunvericiliyinə uyğun olaraq mallara gömrük rüsumları tutulduğu vaxt malların idxal edilməsi vaxtı sayılır. Əgər idxal olunan mallar gömrük rüsumlarından azad edilirsə, malların idxal edilməsi vaxtı onların gömrük xidmətinin nəzarətindən çıxdığı vaxt sayılır.

ƏDV malların idxal gömrük rüsumlarının, aksizli mallar üzrə aksiz məbləğlərinin də daxil edildiyi gömrük dəyərinə əsasən hesablanır.

Gömrük orqanlannda ödənilmiş ƏDV uçotu 19 hesabın "Gömrükdə ödənilmiş ƏDV" subhesabında və 76 hesabın "Gömrükdə ödənilmiş ƏDV" subhesabın- da uçota alınır.

Gömrükdə ödəniləcək vergi məbləğinin hesablanması aşağıdakı mühasibat yazılışı ilə əks olunur:

Dt 19, subhesab "Gömrükdə ödənilmiş ƏDV";

Kt 76, subhesab "Gömrükdə ödənilmiş ƏDV".

ƏDV gömrük orqanına ödənilməsi növbəti mühasibat yazılışı ilə rəsmiləşdirilir:

Dt 76, subhesab "Gömrükdə ödənilmiş ƏDV";

Kt 51 "Hesablaşma hesabı", 52 "Valyuta hesabı".

76 saylı hesabda yaranmış məzənnə fərqi uçot siyasətinə uyğun olaraq ya 80 "Mənfəət və zərərlər", ya da 83 "Gələcək dövrlərin gəlirləri" hesabının "Məzənnə fərqi" subhesabına silinir:

Dt 76, subhesab "Gömrükdə ödənilmiş ƏDV";

Kt 80 "Mənfəət və zərərlər" və ya 83, subhesab "Məzənnə fərqi" - müsbət məzənnə fərqi;

Dt 80 "Mənfəət və zərərlər" və ya 83, subhesab "Məzənnə fərqi";

Kt 76, subhesab "Gömrükdə ödənilmiş ƏDV" - mənfi məzənnə fərqi.

Gömrük orqanlarında ödənilmiş və 19 saylı hesabda uçota alınmış ƏDV məbləğinin bu hesabdan silinməsi Azərbaycan Respublikasının ərazisində əldə edilmiş material resursları üzrə ödənilmiş ƏDV məbləğinin silinməsi qaydasında olduğu kimi həyata keçirilir.

Malların idxalı zamanı ƏDV-nin ödənildiyini göstərən gömrük orqanlan tərəfindən verilmiş idxal sənədləri ödənişin formasından asılı olmayaraq Vergi Məcəlləsinin 175-ci maddəsinin məqsədləri üçün verginin əvəzləşdirilməsinə əsas verir.

Aksiz vergisinə Azərbaycan Respublikasının ərazisinə idxal edilən bəzi mallar cəlb edilir. Aksiz dərəcələri aşağıdakı kimi müəyyən edilir:

- malların gömrük rüsum və yığımlarının məbləği qədər artırılmış gömrük dəyərinə görə faizlə;
- natural ifadədə Azərbaycan Respublikasının ərazisinə idxal edilən mallann bir vahidinin həcminə görə manatla (alkoqollu içkilər və tütün məmulatları üzrə).

Alkoqollu içkilər və tütün məmulatları aksiz markaları ilə markalanmalıdır. İdxalatçı əvvəlcədən aksiz markaları üçün avans ödənişləri həyata keçirir və sonradan həmin məbləğ aksiz markaları ilə markalanmış mallar Azərbaycan Respublikasının ərazisinə daxil olarkən aksizlər üzrə son hesablama apanlarkən nəzərə alınır. Gömrükdə ödənilmiş aksiz vergisi (Agom.) aşağıdakı kimi müəyyən edilir:

$$\text{göm.} \quad A_{hes}^{*} \; A \;] \qquad (2)$$

burada Ahes* - hesablamalara əsasən gömrükdə ödənilməli olan aksiz məbləği;

Amar.- aksizli mallar idxal edilərkən aksiz markaları üçün ödənilmiş avans ödənişləri.

Aksizli mallar idxal edilərkən aksiz markaları üçün ödənilmiş avans ödənişləri məbləğinin malların gömrük rəsmiləşdirilməsi zamanı ödənilməli olan vergi məbləğindən çox olduğu hallarda, yaranmış fərq geri qaytanimır və əvəzləşdirilmir.

Mallar MDB ölkələrindən gətirilərkən gömrük rəsmiləşdirilməsi zamanı ödənilməli olan vergi məbləği (Agsm.) aşağıdakı kimi hesablanır:

göm ■A. hes* ^ mar. A.MDB) (3)

burada Ahes- - hesablamalara əsasən gömrükdə ödənilməli olan aksiz məbləği;

Amar. ” üksizli mallar idxal edilərkən aksiz markaları üçün ödənilmiş avans ödənişləri;

AMDB- Vergilər Nazirliyinin MDB ölkələri üzrə aksiz məbləğlərinin əvəzləşdirilməsi haqqında göstərişinə uyğun olaraq malların istehsal olunduğu ölkədə ödənilmiş aksiz verişinin məbləği.

Gömrükdə ödənilmiş aksizlərin uçotu aşağıdakı hesablarda aparılır:

19, subhesab “Gömrükdə ödənilmiş aksizlər”;

31 “Aksiz markalarının satışı formasında aksizlər üzrə avans ödənişləri”;

76, subhesab “Gömrük orqanları ilə hesablaşmalar”.

Aksizli mallar Azərbaycan Respublikasının gömrük ərazisinə daxil olarkən ödənilməli olan aksiz məbləği hesablanması üzrə əməliyyatlar uçotda aşağıdakı qaydada əks olunur:

1) əsas vəsaitlərin tərkibinə daxil ediləcək minik avtomobilləri üzrə:

Dt 08 “Kapital qoyuluşu”

Kt 76, subhesab “Gömrük orqanları ilə hesablaşmalar”.

2) satılmaq üçün alınmış mallar üzrə:

Dt41 “Mallar”

Kt 76, subhesab “Gömrük orqanları ilə hesablaşmalar”

3) istehsal prosesində istifadə olunmaq üçün alınmış xammal və materiallar üzrə:

Dt 19, subhesab “Gömrükdə ödənilmiş aksizlər”

Kt 76, subhesab “Gömrük orqanları ilə hesablaşmalar”.

İdxal olunan malların markalanması üçün istifadə olunan aksizli markalarının əldə edilməsi üçün ödənilmiş avans ödənişlərinin məbləği 31 “Aksiz markalarının satışı formasında aksizlər üzrə avans ödənişləri” hesabının krediti ilə müxabir- ləşməklə, 76, subhesab “Gömrük orqanları ilə hesablaşmalar” hesabının debetinə əks olunur.

Aksizlərin ödənişi üzrə son hcsalaşma aparıldıqda növbəti yazılış tərtib olunur:

Dt 76, subhesab “Gömrük orqanları ilə hesablaşmalar”

Kt 51 “Hesablaşma hesabı”, 52 “Valyuta he.sabı”.

76 saylı hesabda yaranmış məzənnə fərqi uçot siyasətinə uyğun olaraq ya 80 ya da 83 hesaba silinir:

Dt 76, subhesab “Gömrük orqanları ilə hesablaşmalar”;

Kt 80 “Mənfəət və zərərlər” və ya 83, subhesab Kt 80 “Məzənnə fərqi” - müsbət məzənnə fərqi;

Dt 80 “Mənfəət və zərərlər” və ya 83, subhesab “Məzənnə fərqi”;

Kt 76, subhesab “Gömrük orqanları ilə hesablaşmalar” - mənfi məzənnə fərqi.

Gömrük orqanlarında ödənilmiş və 19 saylı hesabda uçota alınmış aksiz məbləğinin bu he.sabdan silinməsi Azərbaycan Respublikasının ərazisində əldə edilmiş material resursları üzrə ödənilmiş aksiz məbləğinin silinməsi qaydasında olduğu kimi həyata keçirilir.

Gömrük yığımlarının ödənilməsi uçotda aşağıdakı yazılışla əks olunur:

Dt 76, subhesab “Gömrük orqanları ilə hesablaşmalar”;

Kt 51 “Hesablaşma hesabı”, 52 “Valyuta hesabı”.

İxrac gömrük rüsumları kommersiya xərclərinin tərkibinə daxil edilir:

Dt 43 “Kommersiya xərcləri”;

Kt 76, subhesab “Gömrük orqanları ilə hesablaşmalar”.

İxrac gömrük rüsumlarının ödənişi uçotda aşağıdakı kimi əks olunur:

Dt 76, subhesab “Gömrük orqanları ilə hesablaşmalar”;

Kt 51 “Hesablaşma hesabı”, 52 “Valyuta hesabı”.

76 saylı hesabda yaranmış məzənnə fərqi uçot siyasətinə uyğun olaraq ya 80 “Mənfəət və zərərlər”, ya da 83 “Gələcək dövrlərin gəlirləri” hesabının “Məzənnə fərqi” subhesabına silinir.

İdxal malları üzrə gömrük yığımlarının məbləği onların dəyərinə daxil edilir: Dt 10 “Materiallar”, 12 “Az qiyməti və tez köhnələn əşyalar”, 41 “Mallar”;

Kt 76, subhesab “Gömrük orqanları ilə hesablaşmalar”.

76 saylı hesabda gömrük yığımları üzrə yaranmış məzənnə fərqi uçot siyasətinə uyğun olaraq ya 80 ya da 83 hesaba silinir:

Dt 76, subhesab “Gömrük orqanları ilə hesablaşmalar”;

Kt 80 “Mənfəət və zərərlər” və ya 83, subhesab “Məzənnə fərqi” - müsbət məzənnə fərqi;

Dt 80 “Mənfəət və zərərlər” və ya 83, subhesab “Məzənnə fərqi”;

Kt 76, subhesab “Gömrük orqanlan ilə hesablaşmalar” - mənfi məzənnə fərqi.

Gömrük ödənişlərinin prinsipial uçot sxemi aşağıdakı kimidir:



Dt 80,(83) Kt		Dt 43 Kt
	Müsbət məzənnə fərqi Mənfi məzənnə fərqi ^^	İxrac mallan üzrə gömrük rüsum və yığımlannm hesablanması

4.1. Vergi auditinin mahiyyəti, vəzifələri və əmələgəlmə zəruriliyi

Ölkəmizin bazar iqtisadiyyatına keçməsi, ölkədə sahibkarlığın yüksək templə inkişafı, yeni təşkilatı-hüquqi formalı müəssisələrin yaradılması nəzarətin təşkili, metodologiyası və aparılması praktikasının yeni sisteminin qurulmasını tələb edir. Demokratiyanın inkişafı, əhalinin hüquqi müdafiə səviyyəsinin yüksəlməsi bilavasitə hər bir ölkədə maliyyə resurslarından istifadə olunması üzərindəki mövcud nəzarət sistemindən asılıdır. Belə ki, məhz bu mexanizm maliyyə resurslarından istifadənin şəffaflığını təmin edir.

Bazar münasibətlərinin inkişafı, bazara xas olan strukturlann (səhmdar cəmiyyətlərinin, kommersiya banklarının, maliyyə və fond biıjalannın, investisiya institutlannın) əmələ gəlməsi maliyyə nəzarəti sisteminin kökündən dəyişməsini tələb edir.

Məlum olduğu kimi nəzarət idarəetmənin mühüm funksiyası olmaqla, cəmiyyətin iqtisadi həyatında mühüm yer tutur. İqtisadiyyatda geniş islahatlann aparılması (dövlət əmlakının iri miqyaslı özəlləşdirilməsi, çoxsaylı təsərrüfat subyektlərinin əmələ gəlməsi) və bazar münasibətlərinin əksər hissəsinə dövlət tənzimlənməsinin ləğv edilməsi, dövlət tərəfindən iqtisadiyyatın vəziyyətinə nəzarət sistemində əhəmiyyətli dəyişikliklərin həyata keçirilməsini şərtləndirdi.

İndiki yeni şəraitdə sahibkarlar əmlak və vəsaitlərin qorunub saxlanmasında və onlardan daha səmərəli istifadə edilməsində maraqlıdır. Lakin dövlətlə sahib- karlann maraqlan, xüsusilə vergi və digər məcburi ödəmələrin ödənilməsi sahəsində üst-üstə düşmür. Məhz bu səbəbdən dövlət vergi orqanlannm timsalında təsərrüfat subyektlərinin maliyyə-təsərrüfat fəaliyyəti üzərində nəzarəti gücləndirir.

Bazar münasibətlərinə keçid ölkənin maliyyə sisteminin keyfiyyət islahatına səbəb olmuşdur. Müasir şəraitdə maliyyənin təşkilinə ümumi rəhbərlik və müvafiq olaraq maliyyə nəzarəti flınksiyalan dövlət hakimiyyəti orqanlan arasmda bölüşdürülmüşdür.

Ölkə iqtisadiyyatında bazar münasibətlərinin teşəkkül tapması və bazar iqtisadiyyatı üçün xarakterik olan institutlann əmələ gəlməsi həm də müstəqil auditin əmələ gəlməsini tələb edir. Azərbaycanda aparılan islahatların bariz nümunəsi kimi auditin yaranmasmı göstərmək olar. Belə ki, son illərdə respublikamızda bazar münasibətlərinin təşəkkülü nəticəsində təbii olaraq audit sistemi də formalaşmağa başlamışdır.

Audit - müəssisənin maliyyə təsərrüfat fəaliyyətinin yoxlanması və bu barədə auditor rəyinin verilməsidir. Auditin əsas məqsədi müəssisənin maliyyə hesabatının etibarlı və düzgün olmasının müəyyən edilməsi, eləcə də iqtisadi subyekt tərəfindən qüvvədə olan qanun və normalara, vergi qanunvericiliyinə riayət olunmasına nəzarət etməkdir.

Təsərrüfat subyektlərinin tam müstəqillik əldə etdiyi indiki yeni şəraitdə vergitutma sferasında nəzarət fəaliyyətinin həyata keçirilməsinin forma və metodları əhəmiyyətli dərəcədə dəyişmişdir. Belə ki, mövcud nəzarət formaları (metodlan) hüquqi əhəmiyyətə malikdir və öz əksini vergi qanunvericiliyində tapır. İlk dəfə olaraq

ləşdirilmiş, müxtəlif vergi nəzarəti obyektlərinə münasibətdə vergi yoxlamalarının spesifik xüsusiyyətlərinin məzmunu müəyyən edilmişdir.

Dövlət mülkiyyətinin kütləvi surətdə özəlləşdirilməsi, təsərrüfatçılığın bazar prinsiplərinin formalaşması və iqtisadiyyatda baş vermiş bu kimi əsaslı dəyişikliklər iqtisadiyyat üzərində dövlət nəzarət sisteminin köklü surətdə yenidən qurulmasını şərtləndirir. Maliyyə vəsaitlərinin idarə edilməsi üzərində nəzarət tənzimləmə sisteminin aynimaz hissəsidir.

Qeyd etdiyimiz kimi, bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq maliyyə-təsərrüfat (kommersiya) fəaliyyətini iqtisadiyyatın müxtəlif sferalannda həyata keçirən yeni müəssisələr yaradılır. Yeni yaranmış müxtəlif mülkiyyət formalı təsərrüfat subyektlərinin fəaliyyəti yalnız maliyyə-vergi üsullan ilə tənzimlənə bilər. Onlann çoxu uçot sahəsini mükəmməl bilən ixtisaslaşdınimış mütəxəssislərə malik deyil və bu səbəbdən məhz həmin müəssisələrdə, bir qayda olaraq vergilərin hesablanmasmda, vergi hesabatlannın (bəyannamələrinin) tərtib edilməsində, vergilər üzrə büdcə ilə hesablaşmaların uçotunda səhvlərə yol verilir. Nəticədə həmin müəssisələr vergi qanunvericiliyinin pozulmasına görə maliyyə sanksiyaları ödəmək məcburiyyətində qalırlar.

Əksər hallarda isə hesabat məlumatları bilərəkdən təhrif olunur ki, bu da son nəticədə vergitutma bazası və vergi daxilolmalannın azalmasına səbəb olur. Belə bir şəraitdə bütün səviyyələrdə vergi qanunvericiliyinə riayət olunması, vergilərin düzgün hesablanması, tam və vaxtında büdcəyə köçürülməsi üzərində nəzarətin təşkili məsələsi xüsusi əhəmiyyət kəsb edir.

İqtisadi idarəetmənin ən vacib funksiyalarından sayılan uçot və nəzarət bazar münasibətləri şəraitində daha aktual xarakter daşıyır. Maliyyə vəsaitlərinin idarə edilməsi üzərində nəzarət tənzimləmə sisteminin aynimaz hissəsidir.

Maliyyə sisteminin sabitləşdirilməsi, büdcənin ardıcıl olaraq gəlirlərlə təmin edilməsi, fiziki və hüquqi şəxslərin dövlət qarşısında vergi öhdəliklərinin yerinə yetirilməsinin keyfiyyət göstərici vergi intizamının gözlənilməsi kimi tələblər dövlət maliyyə nəzarətinin yeni bir i.stiqamətinin - vergi nəzarətinin meydana çıxmasını şərtləndirir.

İstənilən ölkənin maliyyə-büdcə sisteminin formalaşması üçün əsas şərt maliyyə vəsaitlərinin formalaşmasıdır. Dövlət büdcəsinin formalaşmasının əsas mənbəyi vergilərdir və onların yığılması vergi ödəyicilərinin nə dərəcədə intizamlı olmasından əhəmiyyətli dərəcədə asılıdır. Vergi orqanları vergilərin tam və vaxtında yığılmasını təmin etmək məqsədilə vergi nəzarətini həyata keçirirlər.

Vergi nəzarəti - dövlət idarəçiliyinin funksiyalarından biri olmaqla vergi ödəyicilərinin maliyyə-təsərrüfat fəaliyyətinin optimallaşdırılması, vergi ödəyiciləri və vergitutma obyektlərinin uçotu, vergi qanunvericiliyinə riayət olunması və dövlət büdcə gəlirlərinin formalaşması üzərində həyata keçirilən vahid nəzarət sistemidir.

Dövlət vergilərinin qanunvericiliyə uyğun olaraq hesablanması, tam və vaxtında ödənilməsi üzərində vergi nəzarətini Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi, yerli vergilər üzrə isə bələdiyyələrin vergi xidməti orqanları tərəfindən həyata keçirilir. Nəzarət sistemi vergi və gömrük orqanları, onların vəzifəli şəxslərinin səlahiyyətləri çərçivəsində vergi və gömrük məcəlləsinə, eləcə də digər



Şəkil 25. Vergi nəzarətini həyata keçirən orqanların strukturu

Vergi nəzarəti vergi orqanlarının vəzifəli şəxsləri tərəfindən (təsərrüfat subyektləri, sahibkarlar) və vergitutma obyektlərinin uçota alınması, vergi Ödəyiciləri barəsində məlumatların əldə edilməsi, vergi yoxlamalarının keçirilməsi, v6rgi daxilolmalarının operativ-mühasibat uçotu, uçot və hesabat məlumatlarının təhlili, vergi ödəyiciləri və digər şəxslər arasında sorğu aparması, gəlir əldə edilmək üçün istifadə edilən obyektlərin aşkar edilməsi məqsədilə istehsal sahələri və ərazilərinə baxış keçirilməsi, xronometraj və inventarizasiya aparması yolu ilə həyata keçirilir.

Vergi nəzarəti eyni zamanda idarəetmə sisteminin səmərəlilik səviyyəsinin qiymətləndirilməsi, vergi orqanları fəaliyyətinin kompleks yoxlanması, başqa sözlə idarədaxili nəzarətin köməkliyi ilə həyata keçirilir. Daxili nəzarətin məqsədi vergi orqanları fəaliyyətinin dövlətin vergi siyasətinin əsas istiqamətlərinə uyğunluğunu müəyyənləşdirməkdir.

Vergi orqanlannın vəzifəsi həmçinin kriminal hadisələrin mümkün inkişaf yollannı aşkara çıxarmaq və onlann qarşısını almaqdan ibarətdir. Bu məqsədlə sosial-iqtisadi sahədəki dəyişikliklər, gəlirlərin vergi potensialını təşkil edən mühüm təsərrüfatçılıq sahələri, xarici-iqtisadi fəaliyyətin intensivliyi, respublikada strateji resurslann mövcudluğu, maliyyə-kredit sahəsinin vəziyyəti və bu kimi digər məsələlər təhlil edilməlidir. Bununla yanaşı, iqtisadi cinayətkarlıq haqqında məlumatlar, vergidən yayınmanın aşkar edilmiş ənənəvi üsulları ilə yanaşı, prin

sipcə yeni formaları da araşdırılmalı, onlann mexanizmi öyrənilməli və qarşısının alınması yollan müəyyənləşdirilməlidir.

Beləliklə, vergi nəzarəti vergi qanunvericiliyinə riayət olunması üzərində vahid nəzarət sistemi olub dövlət vergi orqanları tərəfindən vergilərin tam və vaxtında yığılması üzərində həyata keçirilən nəzarət sistemidir. Onun əsas məqsədi büdcə vergi daxilolmalarını və ümumilikdə dövlətin iqtisadi təhlükəsizliyini təmin etməkdən ibarətdir.

4.2. Vergi auditinin məqsəd və vəzifələri

İndiki bazar iqtisadiyyatına keçid şəraitində təsərrüfat-kommersiya fəaliyyəti göstərən müəssisələrin (sahibkarların) əksəriyyəti vergi qanunvericiliyini yaxşı mənimsəmədikləri üçün səhvlərə yol verir və nəticədə maliyyə sanksiyaları ödəmək məcburiyyətində qalırlar. Bu isə həm təsərrüfat subyektləri, həm də vergi orqanlan tərəfindən vergi qanunvericiliyinə riayət olunması, vergilərin düzgün hesablanması, tam və vaxtında büdcəyə köçürülməsi üzərində nəzarətin gücləndirilməsini tələb edir.

İlkin nəzarətçilər kimi hər şeydən əvvəl müəssisənin mühasibat xidmətinin işçiləri çıxış edə bilər. Bu nəzarət istehsal olunmuş və satılmış məhsulların (işlərin, xidmətlərin) həcminin, maya dəyərinin, mənfəətin, əmlakın dəyərinin, digər vergi- tutma obyektlərinin və büdcəyə ödənilən vergilərin uçotunun dürüstlüyünün, mühasibat (maliyyə) hesabatlarının və vergi bəyannamələrinin keyfiyyətli tərtib edilməsinin təmin edilməsindən ibarətdir.

Vergi orqanları tərəfindən həyata keçirilən nəzarət isə maliyyə nəzarətinin yeni forması olan vergi auditi vasitəsilə həyata keçirilir. Vergi auditi - iqtisadi subyektlərin (sifarişçinin) mühasibat və vergi hesabatlarının, ödəmələrin və müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətinin ümumi vəziyyətinin yoxlanılmasından, onların aktiv və passivlərinin qiymətləndirilməsindən ibarətdir.

Vergi auditinin məqsədi iqtisadi subyektlər tərəfindən müxtəlif səviyyəli büdcə və büdcədənkənar fondlara ödənilən vergilərin (ayırmalarm) formalaşması və uçotda əks etdirilməsinin mövcud qanunvericilikdə müəyyən edilmiş normalara (normativ aktlara) uyğunluğu və etibarlıq dərəcəsi haqqında auditor rəyinin tərtib edilməsidir.

Vergi auditi dövlət idarəçiliyinin əsas elementlərindən biri kimi vergi qanunvericiliyinin keyfiyyətli icrası və optimallaşdınıması məqsədilə təsərrüfat subyektlərinin maliyyə-təsərrüfat fəaliyyəti üzərində müşahidə sistemidir.

Beləliklə, vergi auditi dövlət idarəetmə funksiyalarından biri olmaqla vergi qanunvericiliyinə düzgün əməl olunması üçün vergi ödəyicisinin maliyyə-təsərrüfat fəaliyyətinin optimallaşdınıması məqsədi güdən müşahidə sistemidir. İqtisadiyyatın dövlət tərəfindən idarə olunması funksiyasının yerinə yetirilməsi və vergi qanunvericiliyinin icra edilməsi üzərində nəzarət fəaliyyətinin həyata keçirilməsi vergi auditinin mahiyyətini təşkil edir.

Vergi auditinin əsas məqsədi aparılmış vergi hesablamalarının düzgünlüyünü, vergilərin tam və vaxtında dövlət büdcəsinə köçürülməsinin eləcə də maliyyə-

təsərrüfat əməliyyatlarının qüvvədə olan qanunvericiliyə uyğunluğunun təsdiq edilməsindən ibarətdir.

Audit vergi orqanları tərəfindən aparılan nəzarətin əsas məzmunu olmaqla özünü onların fəaliyyətinin bütün istiqamətlərində büruzə verir ki, bu da onun taktiki məqsəd və vəzifələrinin müxtəlifliyi ilə müəyyənləşdirilir.

Vergi auditinin əsas məqsəd və vəzifələri aşağıdakılardan ibarətdir:

Ä vergi qanunvericiliyinə əməl olunması;

Ä vergi və digər məcburi ödənişlərin hesablanmasının düzgünlüyünün yoxlanması;

« uçotun sistemliliyinin və vergitutma bazalarının formalaşmasının düzgünlüyünün yoxlanması;

iK tətbiq edilmiş vergi dərəcələri və güzəştlərinin düzgünlüyünün yoxlanması;

Ä tətbiq edilmiş vergi bəyannamələrinin düzgünlüyünün yoxlanması və onlann vergi orqanlarına vaxtında təqdim edilməsi;

m vergitutma obyektlərinin mühasibat uçotunun qurulması və aparılmasının keyfiyyətinin yoxlanması;

Ä ödənilməli olan vergi məbləğlərinin büdcəyə tam və vaxtında köçürülməsinin təmin edilməsi;

« kriminal hadisələrin mümkün inkişaf yollarının aşkara çıxarılması və onların qarşısının alınması;

Ä' vergi qanunvericiliyini pozanlara qarşı maliyyə və inzibati sanksiyaların tətbiq edilməsi.

Yuxanda sadalanan vəzifələrin yerinə yetirilməsi üçün dövlət vergi orqanlarına geniş səlahiyyətlər və nəzarət tədbirlərinin həyata keçirilməsi üçün böyük imkanlar verilmişdir. Bu nəzarət tədbirlərinə aşağıdakıları aid etmək olar:

- vergi orqanının məsul işçiləri və vəzifəli şəxsləri tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq bütün müəssisələrdə vergilərin hesablanması və ödənilməsi üzrə sənədləri yoxlamaq;
- sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün istifadə edilən ərazi və binalara daxil olmaq;
- vergi ödəyicisinin ərazi, bina, sənəd və əşyalarının baxışını keçirmək;
- yoxlama üçün zəruri olan sənədləri tələb etmək;
- sənəd və nümunə kimi əşyaları götürmək;
- zəruri hallarda ekspertiza təyin etmək, tərcüməçi və müşahidəçi dəvət etmək;
- vergi yoxlamasının keçirilməsinə köməklik göstərilməsi üçün mütəxxəsislər dəvət etmək;
- inventarizasiya keçirmək;
- xronometraj keçirmək və s.

Vergi auditi onun qarşısında qoyulmuş məqsədlərin daha səmərəli yerinə yetirilməsi məqsədilə müxtəlif nəzarət formalardan istifadə edir. Vergi auditi sistemində vergi yoxlamalan (cameral), mərkəzi yer tutmaqla onun həlledici elementi hesab olunur. Vergi yoxlamaları vergilərin tam və düzgün hesablanması üzərində bilavasitə nəzarət etmək imkanı verir. Bu isə vergi ödəyicilərinin təqdim etdikləri vergi bəyannamələrinin onun maliyyə-təsərrüfat fəaliyyətinin faktiki məlumatları.

daha doğrusu mühasibat (maliyyə) və vergi uçotunun məlumatianmn tutuşdurulması yolu ilə həyata keçirilir.

Vergi orqanları təqdim edilən vergi hesabatlarının etibarlılığı və vergi qanunvericiliyinə riayət olunmasına iki mərhələdə nəzarət edir: mühasibat (maliyyə) hesabatı və vergi bəyannamələri vergi orqanlanna daxil olduqda, kameral yoxlama və ilkin mühasibat uçotu sənədlərinin bilavasitə müəssisələrdə səyyar yoxlanması yolu ilə həyata keçirilir.

4.3. Vergi auditinin mərhələləri

Vergi auditi üzrə işlərin yerinə yetirilməsi aşağıdakı mərhələlərdən ibarətdir:

> vergi ödəyicisinin vergitutma sisteminin qiymətləndirilməsi;
> müəssisələr tərəfindən büdcəyə (büdcədənkənar fondlara) ödəniləcək vergilərin (yığım və ayırmaların) hesablanması və ödənilməsinin düzgünlüyünün yoxlanması və təsdiq edilməsi.

Təsərrüfat subyektinin vergitutma sisteminin ilkin qiymətləndirilməsi aşağıdakı proseduralardan ibarətdir:

- müəssisənin vergitutma sisteminin ümumi təhlili və onun elementlərinin nəzərdən keçirilməsi;
- vergi ödəyicilərinə təsir edən əsas amillərin müəyyən edilməsi;
- vergi ödəmələrinin hesablanması metodikasının yoxlanması;
- mövcud təsərrüfat münasibətləri sisteminin hüquqi və vergi ekspertizası;
- vergilərin hesablanması və ödənilməsinə görə məsul olan xidmətlərin funksiya və səlahiyyətlərinin öyrənilməsi və sənəd dövriyyəsinin qiymətləndirilməsi;
- iqtisadi subyektin vergi göstəricilərinin ilkin hesablanması.

Göstərilən proseduraların yerinə yetirilməsi müəssisələrin (sahibkarların) maliyyə-təsərrüfat fəaliyyətinin spesifikasını, mövcud vergitutma obyektlərini, tətbiq olunan vergitutma qaydasının qüvvədə olan qanunvericilik normalanna müva- fiqliyi kimi əhəmiyyətli faktorları nəzərdən keçirməyə, onların vergi öhdəliklərinin və potensial vergi qanun pozuntularının səviyyəsini qiymətləndirmək imkanı verir.

Müəssisələr tərəfindən vergilərin (yığımların) hesablanması və büdcəyə (büdcədənkənar fondlara) köçürülməsinin düzgünlüyünün yoxlanması və təsdiq edilməsi mərhələsi həm bütövlükdə vergilər, həm də onların ayrı-ayrı vergi növləri, eləcə də vergitutma ilə bağlı digər məsələlər üzrə aparıla bilər.

Auditor yoxlamanın gedişatı zamanı təsərrüfat subyektlərinin müəyyən edilmiş formalar üzrə tərtib etdikləri vergi bəyannamələrini (hesabatlarını, vergi haqq-hesablarını, avans ödəmələri haqqında arayışları) və istifadə olunan vergi güzəştlərinin qanunauyğunluğunu yoxlayır.

Vergi bəyannamələrində olan məlumatlar yoxlandıqdan sonra mühasibat uçotunun sintetik və analitik uçot registrlərinin, eləcə də hesabatların məlumatları ilə tutuşdurmaqla təhlil edilir.



Sxem 4.1. Vergi nəzarətinin mərhələləri

Vergi müfəttişi yoxlamanın gedişatı zamanı ödəniş tapşırığına əsasən vergilərin büdcəyə köçürülməsini həyata keçirən bank və digər kredit təşkilatlarını, bəzi müqavilələr barədə vergi orqanlarına məlumat verməyə borclu olan notariusları yoxlamaq, yoxlanılan müəssisələrin rəhbərindən (fərdi sahibkarlardan) yoxlama zamanı aşkar edilmiş qanun pozuntularının aradan qaldırılmasını tələb etmək hüququna malikdir.

4.4. Vergi auditinin təşkili prinsipləri

Vergitutma sahəsində nəzarət tədbirlərinin səmərəliliyi təşkilati-metodoloji amillərdən bilavasitə asılıdır. Vergi auditinin qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün onun əsas prinsipləri gözlənilməlidir. Bu prinsiplərdən ən başlıcası qanunçuluqdur. Belə ki, vergi orqanları nəzarət fəaliyyətini qanunvericilikdə müəyyən edilmiş hüquq və səlahiyyətləri çərçivəsində həyata keçirməlidir.

İkinci mühüm təşkilati prinsip vergi auditinin hərtərəfli və tam olmasıdır. Büdcəyə daxil olan vergilərin həcmindən asılı olmayaraq bütün vergi növləri və istisnasız olaraq bütün vergi ödəyiciləri nəzarətlə əhatə olunmalıdır.

Üçüncü prinsip vergi ödəyicisinə zərər yetirilməməsinə əməl olunmasıdır. Vergi auditi vergi sisteminin fiskal və iqtisadi istiqamətlərinin optimal qarşılıqlı əlaqə imkanlarını nəzərə almaqla həyata keçirilməlidir. Vergi sisteminin fiskal tərəfinə üstünlük verilməsi işgüzar fəallığın zəifləməsinə və potensial vergitutma obyektlərinin azalmasına gətirib çıxara bilər. İqtisadiyyatın struktur dəyişikliklərinə məruz qaldığı indiki yeni şəraitdə bu istiqamətə üstünlük verilməsi olduqca təhlükəlidir.



Vergi auditinin prinsipləri

- Qanunçuluq
- Vergi auditinin hərtərəfli və tam olması
- Vergi ödəyicisinə zərər yetirilməməsinə əməl olunması
- Vergi orqanlarının gündəlik işi ilə onların nəzarət fəaliyyətlərinin uzlaşdırılması
- Vergi qanunlarının keyfiyyət səviyyəsinin

□ C 31

Dördüncü prinsip kimi preventivlik (qarşısını almaq) prinsipini göstərmək olar. Bu prinsipə əsasən vergi orqanları vergi qanunvericiliyinin pozulmasının qarşısının alınması istiqamətində profilaktik iş aparmalıdır. Bu baxımdan vergi auditinin beşinci prinsipi vergi orqanlarının gündəlik işi ilə onların nəzarət fəaliyyətlərinin uzlaşdırılması prinsipi xüsusi əhəmiyyət daşıyır.

Vergi qanunvericiliyinə əməl olunması üzərində nəzarətin səmərələşdirilmə- si prosesi iki əsas istiqamət üzrə həyata keçirilir. Əwəla, vergi auditinin obyekt və subyektləri arasındakı qarşılıqlı əlaqəni daha yaxşı tənzimləmək imkanı verən vergi qanunlannm keyfiyyət səviyyəsinin yüksəldilməsi yolu ilə. İkincisi, vergi orqanlarının fəaliyyətinin optimallaşdınıması yolu ilə. Bu məqsədlə vergi auditinə təşkila- ti, uçot, təhlil, nəzarət və tənzimləmə fəaliyyətlərinin uzlaşmasını təmin edən idarəetmə sistemi kimi baxılmalıdır.

4.5. Vergi öhdəlikləri üzrə büdcə ilə heablaşmaların auditinin məqsəd və vəzifələri

Məlum olduğu kimi bazar iqtisadiyyatına keçmiş ölkələr iqtisadiyyatını bazar prinsiplərinə əsasən qurmağa çalışırlar. Bu məqsədlə həmin ölkələr qiymətləri liberallaşdırır, yeni ticarət siyasəti tətbiq edir, maliyyə-bank sektorunu modernləşdirir, müəssissələri özəlləşdirir və nəhayət vergi sistemində islahatlar aparırlar. Miqyasına görə aparılan yenidənqurma işləri olduca geniş olduğu üçün çoxlu zaman tələb edir. Belə ki, bu ölkələrdə əksər müəssisələr, o cümlədən vergi orqanları bazar iqtisadiyyatı şəraitindən asılı olaraq onların qarşısında duran vəzifələrə və onların təkmilləşdirilməsi məsələlərinə yenidən baxmalıdırlar.

Vergi auditini həyata keçirən vergi orqanları onun aparılması sisteminin, audit proqramının beynəlxalq standartlara müvafiq olaraq təkmilləşdirilməsi mexanizmini əsaslı surətdə dəyişməlidir. Sovetlər dövründə vergi xidmətinin əsas rolu gəlirlərin bir dövlət hesabından digərinə köçürülməsinin güzgünlüyünün yoxlanmasından ibarət olduğu halda, indiki bazar iqtisadiyyatına keçid şəraitində vergi auditi öz fəaliyyətini müəssisələrin bazar stimulları ilə tənzimlənməsinə və vergi

qanunvericiliyinə riayət etmələrinə yönəltməlidirlər. Bu isə vergi ödəyiciləri tərəfindən vergi qanunvericiliyinə riayət olunması üzərində lazımi nəzarət fəaliyyətinin həyata keçirilməsi üçün vergi orqanı (auditorlardan) əməkdaşlarından öz bilik və bacarıqlarının təkmilləşdinİməsini tələb edir.

Qeyd etmək lazımdır ki, vergilərin toplanmasına çəkilən ümumi məsrəflər həm dövlətin tənzimləyici qaydaların işlənib-hazırlanmasına və onun icrasının təmin olunmasına, həm də vergi ödəyicilərinin (agentlərinin) vergitutma ilə əlaqədar hüquqi tələblərin riayət olunmasına çəkdikləri xərclərdən (vergilərin özündən başqa) ibarətdir. Hökumətin vergilərin idarə edilməsi ilə əlaqədar çəkdiyi məsrəflərə gəldikdə isə onlar fəaliyyət dairəsinin genişləndirilməsi hesabına qənaət prinsipi əsasında həyata keçirilir. Dünya təcrübəsi göstərir ki, vergilərin torlanmasına çəkilən məsrəflər orta hesabla toplanmış vergi məbləğlərinin təxminən bir faizini təşkil edir.

Ölkəmizin bazar iqtisadiyyatına keçməsi, ölkədə sahibkarlığın yüksək templə inkişafı, yeni təşkilatı-hüquqi formalı müəssisələrin yaradılması nəzarətin təşkili, metodologiyası və aparılması praktikasının yeni sisteminin qurulmasını tələb edir.

Demokratiyanın inkişafı, əhalinin hüquqi müdafiə səviyyəsinin yüksəlməsi bilavasitə hər bir ölkədə maliyyə resurslarından istifadə olunması üzərindəki mövcud nəzarət sistemindən asılıdır. Bu mexanizm maliyyə resurslarından istifadənin şəj[Tavlığını təmin edir.

Bazar münasibətlərinin inkişafı, bazara xas olan strukturların (səhmdar cəmiyyətlərinin, kommersiya banklarının, maliyyə və fond birjalarının, investisiya institutlarının və b.) əmələ gəlməsi maliyyə nəzarəti sisteminin kökündən dəyişməsini tələb edir.

Məlum olduğu kimi nəzarət idarəetmənin mühüm funksiyası olmaqla, cəmiyyətin iqtisadi həyatında mühüm yer tutur. İqtisadiyyatda geniş islahatlann aparılması (dövlət əmlakının irimiqyaslı özəlləşdirilməsi, çoxsaylı təsərrüfat subyektlərinin əmələ gəlməsi) və bazar münasibətləinin əksər hissəsinə dövlət tənzimlənməsinin ləğv edilməsi, dövlət tərəfindən iqtisadiyyatın vəziyyətinə nəzarət sistemində əhəmiyyətli dəyişikliklərin həyata keçirilməsini şərtləndirdi.

İndiki yeni şəraitdə sahibkarlar əmlak və vəsaitlərin qorunub saxlanmasında və onlardan daha səmərəli istifadə edilməsində maraqlıdır. Lakin dövlətlə ayrı-ayrı sahibkarların maraqları, xüsusilə vergi və digər məcburi Ödəmələrin ödənilməsi sahəsində üst-üstə düşmür. Məhz bu səbəbdən dövlət vergi orqanlarının timsalında təsərrüfat subyektlərinin maliyyə-təsərrüfat fəaliyyəti üzərində nəzarəti gücləndirir.

Digər tərəfdən Azərbaycanda aparılan islahatların bariz nümunəsi kimi auditin yaranmasını göstərmək olar. Ölkə iqtisadiyyatında bazar münasibətlərinin təşəkkül tapması və bazar iqtisadiyyatı üçün xarakterik olan institutlann əmələ gəlməsi həm də müstəqil auditin əmələ gəlməsini tələb edir.

Maliyyə sisteminin stabitliyinin labüdlü>m, büdcə gəlirlərinin ardıcıl daxil olmasının təmin edilməsi, fiziki və hüquqi şəxslər tərəfindən onların dövlət qarşısındakı öhdəliklərin keyfiyyətlə yerinə yetirməsi şərti kimi vergi intizamına riayət olunması dövlət maliyyə nəzarətinin xüsusi istiqamətinin - vergi auditinin yaradılmasım şərtləndirir.

Mövcud qanunvericiliyə uyğun olaraq tabeçiliyindən və mülkiyyət formasından, mənfəət əldə etmək və ya etməmək məqsədilə Azərbaycan Respublikasının ərazisində sahibkarlıq, kommersiya və digər fəaliyyət növü jlə məşğul olan bütün təsərrüfat subyektləri (fərdi sahibkarlar) mühasibat uçotu aparmağa borcludurlar. Bu ondan irəli gəlir ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olan iqtisadi subyektlər istehsal-kommersiya fəaliyyəti prosesində müxtəlif bazar subyektləri ilə biznes əlaqələrinə girmək məcburiyyətində qalır. Eyni zamanda həmin sahibkarlar müxtəlif mülkiyyət sahibləri olması səbəbindən onlar müəyyən vergi öhdəliklərinin ödəyici- sinə çevrilirlər. Vergi öhdəliklərinin bazasını təşkil edən əsas göstəricilər (məhsulların satışı və alınmış mənfəət məbləği) sistemli qaydada müəssisənin mühasibat uçotunda əks olunur.

Bundan başqa, yalnız mühasibat uçotu göstəriciləri müəssisənin əmlak və maliyyə vəziyyəti haqqında tam informasiyanı, material və pul resursları haqqında, investisiya və kredit siyasətinin nəticələri, məsrəflər və istehsalın səmərəliliyi haqqında sintetik və analitik informasiyanı təmin edir. Bundan başqa, uçot məlumatları təsərrüfat fəaliyyətini idarə və mənfəət üzrə planın yerinə yetirilməsinə nəzarət etmək, perspektiv istehsal planları hazırlamaq imkanı verir. Beləliklə, qeyd edilənlərdən belə bir nəticəyə gəlmək olar ki, mühasibat uçotu müəssisənin idarəetmə və informasiya sisteminin tərkib hissəsidir.

Digər tərəfdən dolayı maliyyə marağı olan vergi orqanları, auditor firmalan, investorlar, eləcə də digər müəssisələr mühasibat uçotunun kənar (xarici) istifadəçilərinə aid edilir. Vergi orqanları digər kənar informasiya istifadəçilərindən fərqli olaraq nəinki yalnız hesabat, eləcə də dövlət (bələdiyyə) vergilərinin ödənilməsinin düzgünlüyünün yoxlanması üçün lazım olan bütün digər uçot informasiyası ilə tanış ola bilər. Vergi orqanlannı vergi bazasının formalaşmasının və vergilərin hesablanmasının düzgünlüyü, hesablaşma intizamına riayət olunması, müəssisələrin fəaliyyət növlərinin onlann nizamnamələrinə uyğunluğu maraqlandırır.

Vergi orqanları qanunvericilikdə müəyyən edilmiş qaydada müəssisələrin (fərdi sahibkarların) bütün maliyyə sənədlərini, mühasibat kitablarını, hesabatlan, smetaları, nağd pul vəsaitlərini, qiymətli kağızları, bəyannamələri və vergilərin hesablanması (ödənilməsi) ilə bağlı digər sənədləri yoxlamaq, eləcə də səyyar yoxlama zamanı vergi ödəyicilərindən və onun vəzifəli şəxslərindən məlumatları, arayışları və yoxlama ilə əlaqədar lazımi izahatlar almaq hüququna malikdirlər.

Öz növbəsində vergi qanunvericiliyinə uyğun olaraq kommersiya fəaliyyəti göstərən istənilən təsərrüfat subyekti (fərdi sahibkarlar) vergilərin hesablanması, tutulması, müvafiq bəyannamə və məlumatlann təqdim edilməsi kimi öhdəliklərin yaranmasına səbəb olan bütün əməliyyatlar üzrə müəyyən edilmiş qaydada uçot sənədlərini aparmağa borcludur.

Bununla yanaşı, vergi qanunvericiliyinə əsasən təsərrüfat subyektləri (fərdi sahibkarlar) aşağıdakı hərəkətləri etməyə borcludurlar:

i'3 vergi orqanları və onun vəzifəli şəxslərinə Vergi Məcəlləsinin müəyyən etdiyi hallarda və qaydada lazımi sənəd və məlumatları təqdim etmək;

K qanunvericilikdə müəyyən edilmiş müddət ərzində vergilərin hesablanması və ödənilməsi üçün lazım olan bütün mühasibat və digər sənədlərin, eləcə də

gəlirlərin alınmasını, xərclərin çəkilməsini və vergilərin ödənilməsini (tutulmasını) təsdiq edən sənədlərin qorunub saxlanmasını təmin etmək.

Dövlət tərəfindən həyata keçirilən vergi nəzarəti sistemində vergi auditi əsas yer tutur və vergi ödəyicilərinin fəaliyyətinə dövlət nəzarətinin əsas üsuludur. Vergi auditi vergi ödəyicilərinin ilkin mühasibat və digər sənədlərinə əsasən verginin hesablanması və vaxtında ödənilməsini təyin etmək üçün həyata keçirilən aktdır.

Ümumiyyətlə, vergi nəzarət sisteminin bir qolu olan vergi auditinin həyata keçirilməsində əsas məqsəd vergi ödəyicisinin hesabat məlumatları ilə vergi orqanlarında olan məlumatların tutuşdurulması yolu ilə vergi qanunvericiliyinə əməl edilməsinə, vergilərin tam və vaxtında ödənilməsinə nəzarət etməklə vergidən yayınma hallarının qarşısının alınmasıdır.

Vergidən yayınma hallarının qarşısının alınması ilk növbədə onu yaradan faktorların öyrənilməsini və təhlilini tələb edir. Vergi inzibatçılığının gücləndirilməsi, habelə vergi auditi təbii ki, vergidən yayınma hallarının qarşısının alınmasında mühüm vasitədir. Lakin vergi auditinin səmərəliliyi xeyli dərəcədə audit məqsədləri üçün vergi ödəyicilərinin seçilməsindən asılıdır. Audit məqsədləri üçün vergi ödəyicilərinin səmərəli şəkildə seçimi vaxtdan və insan resurslarından səmərəli istifadə edilməsi ilə yanaşı, inzibati xərcləri də aşağı salır.

Müəssisələrin vergi öhdəliklərinin yerinə yetirilməsi üzərində nəzarət növlərindən ən effektlisi səyyar vergi yoxlamalarıdır. Büdcə ilə hesablaşmalann audit yoxlaması zamanı vergi müfəttişlərinin (auditorların) qarşısında müvafiq məqsəd və vəzifələr durur. Büdcə ilə hesablaşmaların auditi zamanı auditorların əsas məq- .səd və vəzifəsi təsərrüfat subyektləri tərəfindən vergi öhdəliklərinin yerinə yetirilməsi vəziyyətini öyrənmək, bu sahədə yol verilmiş nöqsan və çatışmamazlıqların, normativ hüquqi aktların tələblərinə uyğun olmayan hərəkətləri aşkarlayıb qiymətləndirməkdən ibarətdir.

Qeyd etmək lazımdır ki, müəssisələr tərəfində ödənilən vergilərin məzmun və ödənilmə mənbəyi müxtəlif olduğuna görə hər bir vergi öhdəliyinə audit qiymətinin verilməsi yoxlamanı aparan auditordan spesefik yanaşma tələb edir. Vergilərin vaxtında və tam ödənilməsini qiymətləndirmək üçün auditor müxtəlif metod və üsullardan istifadə etməlidir. Büdcə ilə hesablaşmalann audit yoxlamasında qeyd olunanlarla yanaşı, bir sıra prinsipial məsələlərin audit qiymətləndirməsi də mühüm əhəmiyyət kəsb edir. Daha doğrusu auditor, təsərrüfat subyektlərinin büdcə qarşısındakı vergi öhdəliklərinin yerinə yetirilməsində qanunverici və normativ hüquqi aktların tələblərinin qorunması səviyyəsinə diqqət yetirməlidir.

Büdcə ilə hesablaşmalar uçotunun vaxtında və düzgün aparılması, vergi bəyannamələrinin düzgün tərtib edilib vaxtında vergi orqanlarına təqdim edilməsi bu tip əməliyyatların tərkib hisələrindəndir. Büdcə ilə hesablaşmalarda yol verilmiş qanun pozuntuları, çatışmamazhq və nöqsanların aradan qaldınlması auditorun qarşısında duran vəzifələrdən biridir.

Büdcə ilə hesablaşmaların auditi dedikdə, büdcəyə ödəniləcək vergi və məcburi ödəmələrin auditi nəzərdə tutulur. Auditor fəaliyyəti müəssisənin mühasibat (maliyyə) hesabatının yoxlanılmasından, ödəmələrin və müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin ümumi vəziyyətinin yoxlanılmasından, onun aktiv və passivləri

nin qiymətləndirilməsindən, həmçinin audit yoxlaması zamanı auditor tərəfindən izlənilməsi iki istiqamətdə həyata keçirilən təsərrüfatçı lığın digər tərəflərinin yoxlanılmasından ibarətdir. Bu istiqamətlər aşağıdakılardır:

1) vergi hesabatının büdcə qarşısında olan borc məbləğini əks etdirən müvafiq maddələrinin təsdiq edilməsi üçün vergi ödəmələrinin, eləcə də vergilərin hesablanması və ödənilməsinin düzgünlüyünün obyektiv təhlilinin aparılması;
2) vergi qanunvericiliyinin pozulması hallarının aşkar edilməsi və vergi ödəmələrinin minimallaşdırılması üzrə layihələr baxımından alınmış informasiyanın istifadə edilməsi üçün sonrakı vergi ekspertizasının müəyyən edilməsi, vergi uçotu və sənəd dövriyyəsinin təçkil edilməsi, eləcə də müəssisələr və digər təsərrüfat subyektləri, həmçinin dövlət arasında qarşılıqlı əlaqələr sisteminin qurulması məqsədilə, maliyyə axınlarının tərkib hissəsi kimi vergi ödəmələrinin könüllü təhlili.

Vergi auditinin əsas məqsədi təsərrüfat subyektləri tərəfindən vergilərin formalaşması və uçotda əks etdirilməsi və büdcəyə ödənilməsi qaydasının müvafiqliyi qanunvericiliklə müəyyən edilmiş normaların mövcud olan bütün aspektlərinə uyğunluğu və etibarlılığı barədə rəy verməkdən ibarətdir

Vergi nəzarəti dövlət idarəçiliyinin funksiyalarından biri kimi özlüyündə vergi ödəyicilərinin maliyyə-təsərrüfat fəaliyyətinin optimallaşdırılması və vergi qanunvericiliyinin keyfiyyətli icra edilməsi üzərində nəzarət sistemindən ibarətdir.

Vergi auditi onun qarşısında qoyulmuş məqsədlərin daha səmərəli yerinə yetirilməsi məqsədilə müxtəlif təşkilati formalardan istifadə edir. Vergi auditi sistemində vergi yoxlamaları (kameral, səyyar) mərkəzi yer tutmaqla onun həlledici elementi hesab olunur. Vergi yoxlamaları vergilərin tam və düzgün hesablanması üzərində bilavasitə nəzarət etmək imkanı verir. Bu isə vergi ödəyicilərinin təqdim etdikləri vergi bəyannamələrinin onun maliyyə-təsərrüfat fəaliyyətinin faktiki məlumatları, daha doğrusu mühasibat (maliyyə) və vergi uçotunun məlumatlan ilə tutuşdurmaq yolu ilə həyata keçirilir.

Vergi orqanlan təqdim edilən vergi hesabatlarının etibarlılığını və vergi qanunvericiliyinə riayət olunmasına iki mərhələdə nəzarət edir: mühasibat (maliyyə) hesabatı və vergi bəyannamələri vergi orqanlarına daxil olduqda (kameral yoxlama) və ilkin mühasibat uçotu sənədlərinin bilavasitə müəssisələrdə yoxlanması yolu ilə (səyyar vergi yoxlaması).

Vergi öhdəlikləri üzrə büdcə ilə hesablaşmaların auditi zamanı onun məqsədi kimi aşağıdakılan göstərmək olar:

> vergitutma bazalarının müəyyən edilməsinin və vergi bəyannamələri tərtib edilərkən büdcəyə ödəniləcək vergi məbləğlərinin dəqiq hesablanmasının təyin edilməsi;
> maliyyə-təsərrüfat əməliyyatlarının qüvvədə olan vergi qanunvericiliyinə uyğunluğunun təsdiq edilməsi.

Büdcə ilə hesablaşmaların auditinin əsas məqsədi apanimış hesablamalann düzgünlüyünün, vergilərin tam və vaxtında dövlət büdcəsinə köçürülməsinin təsdiq edilməsindən ibarətdir.

Audit vergi orqanlarının gördüyü işin əsas məzmunu olmaqla vergi ödəyicilərinin maliyyə-təsərrüfat fəaliyyətlərinin istənilən istiqamətlərini əhatə edir ki, bu da vergi auditinin məqsəd və vəzifələrinin çoxsaylı olmasını şərtləndirir. Qarşıya qoyulmuş məqsədlərdən asılı olaraq, büdcə ilə hesablaşmaların auditinin aşağıdakı **əsas vəzifələri** müəyyən edilmişdir:

- vergi məbləğlərinin büdcə ilə hesablaşmalara aid edilməsinin nə dərəcədə əsaslı olması və düzgünlüyünün yoxlanılması;
- vergitutma bazasının formalaşmasının düzgünlüyünün və uçotunun sistemliliyinin yoxlanması;
- tətbiq edilmiş vergi dərəcələri və güzəştlərinin düzgünlüyünün yoxlanması;
- tətbiq edilmiş vergi bəyannamələrinin düzgünlüyünün və onların vergi orqanlarına vaxtında təqdim edilməsinin yoxlanmsı;
- üfiqi və maili istiqamətdə informasiyalar daxil olarkən nəzarət səviyyəsinin müəyyən edilməsi;
- vergi qanunvericiliyində baş verən cari dəyişikliklər haqqında vergi hesablamalarına görə cavabdeh olan əməkdaşların informasiyaya malik olması dərəcəsinin və normativ-hüquqi aktların onlar tərəfindən düzgün edilib-edilməməsinin yoxlanması.
- vergi qanunvericiliyinə riayət olunmasının yoxlanması;
- vergi və digər məcburi ödəmələrin hesablanmasının düzgünlüyünün yoxlanması;
- vergitutma obyektlərində mühasibat uçotunun qurulması və aparılmasının keyfiyyətinin yoxlanması;
- ödəniləcək vergi məbləğlərinin büdcəyə tam və vaxtında Ödənilməsinin təmin edilməsi;
- vergi qanunvericiliyinin pozulmasına görə günahkarlara tətbiq edilmiş maliyyə və inzibati sanksiyaların yaranması səbəblərini;
- vergi qanun pozuntularının profilaktikası.

Büdcəyə ödənilən vergi və digər məcburi ödəmələrin çoxsaylı olması, vergi qanunverici iyinin qeyri-sabit və qeyri-təkmil olması səbəbindən, vergilərin düzgün hesablanması və büdcəyə ödənilməsi məsələsi çox əməktutumlu və mürəkkəbdir.

Vergilər üzrə hesablaşmaların auditinin aparılması zamanı auditor tərəfindən yerinə yetirilməli olan **əsas vəzifələr** aşağıdakılarıdır:

- təsərrüfat subyektinin fəaliyyət sferasından asılı olaraq hesablanan və ödənilən vergilər barədə məlumat almaq, bütün vergi öhdəliklərinin hesabatlarda tam əks etdirildiyinə və hər bir vergi üzrə analitik uçotun aparıldığına əmin olmaq;
- hər bir verginin auditlə əhatə edilən dövrdəki dövriyyəsini (ilin əvvəlinə qalıq, hesablamalar və ödənişlər, ilin sonuna qalıq əks etdirilməklə) araşdırmaq və mühasibat uçotunun məlumatları ilə tutuşdurmaq. Hər bir vergi üzrə riyazi hesablamaların düzgünlüyünü yoxlamaq;
- Baş kitaba və ilkin sənədlərə əsasən aylar üzrə vergilərin hesablanması və ödənilməsi haqqında məlumatları əldə etmək, vergilər üzrə vaxtı keçmiş və ya gecikdirilmiş ödənişlərin olmadığına əmin olmaq.

- ❖ dövlət vergi orqanları tərəfindən auditlə əhatə edilən dövrdə aparılmış yoxlamaların (əgər bu dövrdə aparılmamışdırsa, sonuncu yoxlamanın) nəticələri barədə aktı tələb etmək, göstərilmiş nöqsan və çatışmazlıqların hesabatlarda necə əks etdirildiyinə və aradan qaldırılıb-qaldırılmadığına xüsusi diqqət yetirmək.
- ❖ vergi orqanları ilə yazışmaları və tərtib edilmiş üzləşmə aktlarını əldə etmək, vergi borclarının qarşılıqlı əvəzləşdirilmə hallarına xüsusi diqqət yetirmək, vergi orqanından alınmış üzləşmə aktlarındakı məlumatların mühasibat uçotunun məlumatları ilə uyğunluğuna əmin olmaq.
- ❖ hesablanmış vergilərin mühasibat uçotunda mövcud vergi qanunvericiliyinə uyğun şəkildə əks etdirildiyinə, vergi dərəcələrinin düzgün tətbiq edildiyinə əmin olmaq.
- ❖ daha çox əhəmiyyətli olan vergi öhdəlikləri üzrə nəzarət testləri hazırlamaq və keçirmək.
- ❖ əlavə dəyər vergisi (ƏDV) üzrə təqdim edilmiş və ya alınmış vergi hesab-fakturalarınm mühasibat uçotunda vaxtında və düzgün əks etdirildiyini, aylıq bəyannamələrin vaxtında və düzgün tərtib edilərək təqdim edildiyini yoxlamaq.
- ❖ satış əməliyyatlarının auditi zamanı tətbiq edilmiş audit prosedurlarının nəticələrindən ƏDV və mənfəət vergisinin auditi zamanı istifadə etmək.
- ❖ vergilər hesablanarkən tətbiq edilən güzəştlərin mövcud qanunvericiliyə əsasən həyata keçirildiyinə əmin olmaq.
- ❖ əmlak vergisinin düzgün hesablanmasını yoxlayarkən əsas vəsaitlərin və qeyri-maddi aktivlərin auditi bölməsində əldə edilmiş məlumatlardan istifadə etmək.
- ❖ ödəniş mənbəyindən tutulmuş vergilər üzrə hesablaşmaların düzgün aparıldığına, tutulmaların müvafiq normalara uyğun həyata keçirildiyinə, vaxtında təyinatı üzrə köçürüldüyünə və bu növ vergilər üzrə hesabatların düzgün tərtib edildiyinə əmin olmaq.
- ❖ vergi orqanlan tərəfindən tətbiq edilmiş maliyyə sanksiyalarının və hesablanmış faizlərin mühasibat uçotunda düzgün əks etdirildiyini yoxlamaq.
- ❖ vaxtı keçmiş, gecikdirilmiş ödənişlər, hesabatlarda düzgün əks etdirilməmiş vergilər üzrə yarana biləcək cərimə və maliyyə sanksiyalannın təsərrüfat subyektinin maliyyə vəziyyətinə təsiri ehtimalını təhlil etmək və bu barədə rəhbərliyə məlumat vermək.

Bundan başqa, auditor yoxlamanın gedişatı zamanı vergilərin hesablanmasında, əvəzləşdirilməsində, büdcəyə Ödənilməsində və bəyannamələrin təqdim edilməsində müvafiq olaraq kənarlaşmalar aşkar etmişdirsə, onun səbəblərini araşdırmalı və Özündə əminlik yarandıqdan sonra hesabatında əks etdirməli, aşkar edilmiş nöqsan və çatışmazlıqlar barədə təsərrüfat subyektinin rəhbərini və ya sifarişçini xəbərdar etməlidir. Eyni zamanda, göstərilən qanun pozuntularına görə təsərrüfat subyektinə hesablanacaq faizlər və maliyyə sanksiyalan barədə sifarişçini məlumatlandırmalı və dəqiqləşdirilmiş hesabatın təqdim edilməsini təklif etməlidir. Bu zaman auditor vergi qanunvericiliyinin pozulmasında şəxsin təqsirini istisna edən

halların, vergi qanunvericiliyinin pozulmasına göro məsuliyyətə cəlb olunmanı istisna edən halların mövcudluğunu Vergi Məcəlləsinin V fəslinin maddələri əsas götürülməklə diqqətlə araşdırmalıdır. Vergi orqanları tərəfindən təsdiq edilmiş şəxsi uçot vərəqəsinə əsasən qalıq göstəriciləri sifarişçi təsərrüfat subyektinin göstəriciləri ilə üzləşdirilməli, kənarlaşma halları aşkar edilərsə, onda bunun səbəbləri aydınlaşdırılmalıdır.

Vergi auditi qarşısında duran vəzifələrin daha səmərəli yerinə yetirilməsi üçün onun təşkilinin müxtəlif formalarından istifadə edilir. Vergi auditinin təşkili formalarının təsnifatı yalnız nəzəri deyil, həm də vergi nəzarəti üçün praktiki əhəmiyyətə malikdir. Bu və ya digər formanın seçilməsi nəzarət subyektinin konkret vəziyyətinə və vergi yoxlamasının son məqsədlərinə əsaslanaraq vergi orqanlarının müstəqil surətdə qəbul edilən qərarından asılıdır.

4.6. **Büdcə ilə hesablaşmaların auditinin təşkili prinsipləri**

Məlum olduğu kimi, respublikamızın iqtisadiyyatının sürətli inkişafı, sosial məsələlərin müsbət həlli, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi və digər məsələlərin müvəffəqiyyətlə həll edilməsi dövlət büdcəsinin ödəmə imkanlarından çox asılıdır. Respublikamızın bazar iqtisadiyyatına keçdiyi hazırkı dövrdə, dövlət büdcəsinə daxil olan vəsaitlərin əsasını hüquqi və fiziki şəxslərdən alınan vergilər təşkil edir. Bunun da xeyli hissəsi hüquqi şəxslərin payına düşür.

Dövlət büdcəsinin formalaşmasında müəssisələrdən alman vergilərin mühüm rol oynamasını nəzərə alsaq, onda hər bir müəssisə büdcəyə ödəyəcəyi vergi məbləğlərini düzgün hesablamalı və büdcəyə çatan vəsaitin vaxtında ödənilməsini təmin etməlidir.

Eyni zamanda dövlət vergi orqanlan tərəfindən təsərrüfat subyektləri və fərdi sahibkarlar tərəfindən vergilərin düzgün hesablanması, vaxtında və tam həcmdə dövlət bücəsinə ödənilməsi, eləcə də ümumilikdə vergi qanunvericiliyinə riayət olunması üzərində ciddi nə/.arət sistemi həyata keçirilməlidir.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq maliyyə-təsərrüfat (kommersiya) fəaliyyətini iqtisadiyyatın müxtəlif sferalarında həyata keçirən yeni müəssisələr yaradılır. Onlann çoxu uçot sahəsini mükəmməl bilən ixtisaslaşdırılmış mütəxəssislərə malik deyil və bu səbəbdən məhz həmin müəssisələrdə bir qayda olaraq vergilərin hesablanmasında, vergi bəyannamələrinin tərtib edilməsində, vergilər üzrə büdcə ilə hesablaşmaların uçotunda səhvlərə yol verilir. Nəticədə həmin müəssisələr vergi qanunvericiliyinin pozulmasına görə maliyyə sanksiyaları ödəmək məcburiyyətində qalırlar.

Əksər hallarda isə he.sabat məlumatları bilərəkdən təhrif olunur ki, bu da son nəticədə vergitutma bazasının azalmasına və vergilərin büdcəyə daxil olmamasına gətirib çıxarır. Belə bir şəraitdə bütün səviyyələrdə vergi qanunvericiliyinə riayət olunması, vergilərin düzgün hesablanması, tam və vaxtında büdcəyə köçürülməsi üzərində nəzarətin təkmilləşdirilməsi məsələsi xüsusi əhəmiyyət kəsb edir. Bu səbəbdən büdcə ilə hesablaşmaların auditi üç səviyyədə aparıla bilər: daxili auditor

yoxlaması, müstəqil auditorlar tərəfindən aparılan yoxlama və bilavasitə dövlət vergi orqanları tərəfindən aparılan yoxlama.

İlkin nəzarətçilər kimi hər şeydən əvvəl müəssisənin jnühasibat xidmətinin işçiləri çıxış edə bilər. Onların nəzarəti istehsal olunmuş və satılmış məhsullann (işlərin, xidmətlərin) həcminin, maya dəyərinin, mənfəətin, əmlakın dəyərinin, digər vergitutma obyektlərinin və büdcəyə ödənilən vergilərin uçotunun dürüstlüyünün, eləcə də mühasibat (maliyyə) hesabatları və vergi bəyannamələrinin keyfiyyətli tərtib edilməsinin təmin edilməsindən ibarətdir.

Qeyd etmək lazımdır ki, vergi qanunvericiliyinin qeyri-təkmil olması, vergi məsələlərinin şərhləri arasmdakı ziddiyyətlər, lazımi informasiyanın və ixtisaslaş-dınlmış köməyin olmaması konkret vergi məsələsinin düzgün həlli yolunun tapılmasında çətinliklər yaradır. Vergi məsələləri üzrə yeni şərhlərin və qanunverici aktların çıxması yeni vergi səhvlərinin yaranması üçün potensial zəmin yaradır.

Müəssisələrin (fərdi sahibkarların) iş təcrübəsində bir sıra obyektiv və subyektiv səbəblərdən vergi və digər məcburi ödənişlərin vaxtında ödənilməməsi hallarına yol verilir. Hüquqi və fiziki şəxslər tərəfindən vergilərin vaxtında və tam ödənilməsi, vergi öhdəliklərinin yerinə yetirilməsi üzərində nəzarət vergi orqanları tərəfindən həyata keçirilir. Bu vəzifəni vergi orqanları müxtəlif üsullarla realizə edirlər. Məsələn, bir qayda olaraq səyyar vergi yoxlamalan daha effektivdir. Çünki bu nəzarət forması büdcə ilə hesablaşmalann mühasibat uçotunun təşkili və ödəniş intizamı səviyyəsinin artmasına şərait yaradır.

Hal-hazırda müəssisələr hər tərəfdən çoxsaylı vergilərə (ödəmələrə) cəlb olunurlar ki, bu da dövlətin fiskal siyasətinə bağlıdır. Bu isə iqtisadi böhran, inflyasiya prosesləri və müxtəlif səviyyəli büdcələrin defisit artımı kimi neqativ hallarla müşahidə olunan indiki bazar iqtisadiyyatına keçid dövründə lazımi tədbirdir.

Vergi və ödəmələrin bir qismi ayırmalar şəklində məhsulların (işlərin, xidmətlərin) maya dəyərinin tərkibinə daxil edilir ki, bu da maya dəyərinin artmasına və son nəticədə mənfəətin azalmasına səbəb olur.

Elmi araşdırmalar göstərir ki, əgər bütün vergi və ödəmələrin mütləq ifadədə məbləğini realizə olunmuş məhsullann dəyərindən çıxsaq onda belə çıxır ki, ayrı- ayn müəssisələrdən vergi və ödəmələr şəklində bütün əlavə olunmuş dəyərin, eləcə də dövriyyə kapitalının bir hissəsi tutulur. Nəticədə müəssisələrdə nəinki istehsal prosesinin artınıması, hətta adi təkrar istehsal üçün belə vəsait qalmır. Məhz buna görə praktikada müəssisələr (sahibkarlar) "vergilərin optimallaşdırılmasının", başqa sözlə vergidən yayınmanın qanuni və qeyri-qanuni metodlanndan istifadə edirlər.

Belə bir şəraitdə vergi orqanı işçilərinin ən mühüm vəzifəsi vergilərin və büdcəyə ödənilən digər məcburi ödənişlərin hesablanmasının düzgünlüyünün yoxlanmasından ibarətdir. Burada həmin vergilərin düzgün və vaxtında hesablanması, büdcəyə tam köçürülməsi və bu vergilər üzrə büdcə ilə hesablaşmalann vaxtında apaniması, həmçinin artıq vergi ödənişindən və maliyyə sanksiyalarından qaçmaq məqsədilə auditorların vergiqoyma məsələləri üzrə müəssisələrlə (sahibkarlarla) apardığı konsultasiyalar mühüm rol oynayır.

Qnu da qeyd etmək vacibdir ki, vergi ödəyicilərinə ümumi, yayğın məsləhətlər deyil, qüvvədə olan normativ sənədə istinad etməklə, konkret məsləhətlər veril

məlidir. Auditor büdcə ilə hesablaşmaların auditini' apararkən, vergi planlaşdırılması üzrə məsləhətlər verməmişdən əvvəl vergi ödəyicisinin təsərrüfat fəaliyyətinin struktur xüsusiyyətlərini yaxşıca öyrənməli və yalnız bundan sonra vergiqoymaya dair mövcud normativ sənədlər əsasında vergi ödəmələrinin planlaşdırılması mərhələsində onların hesablanmasına kömək etməlidir.

Büdcə ilə hesablaşmaların auditi dedikdə, təsərrüfat subyektlərində (fərdi sahibkarlarda) büdcəyə çatası vergilərin hesablanması, tutulması və ödənilməsinin düzgünlüyünün səyyar yoxlanması başa düşülür. Bu vergilərin dərəcələri, hər bir verginin obyekti, onların hesablanması və büdcəyə ödənilməsi qaydaları Vergi Məcəlləsi və müvafiq normativ hüquqi aktlarla tənzimlənir.

Büdcəyə çatası vergilərin hesablanması və ödənilməsinin düzgünlüyünün yoxlanması auditordan yüksək peşəkarlıq tələb edir. Təcrübə göstərir ki, heç də bütün təsərrüfat subyektləri vergilərin hesablanması və ödənilməsi prosesini düzgün həyata keçirmirlər. Məhz bu səbəbdən dövlət vergi orqanları tərəfindən onlara qarşı maliyyə sanksiyalan tətbiq edilir.

Bu səbəbdən büdcə ilə hesablaşmaların auditi prosesində auditor riski daha yüksəkdir. Auditorun mühüm vəzifələrindən biri audit prosesində vergi və digər məcburi ödənişlərin düzgün hesablanmasını və büdcəyə köçürülməsini dəqiqliklə yoxlamaqdır. Burada yoxlama aparılan təşkilata (sahibkara) vergilərin vaxtında və düzgün hesablanıb ödənilməsi barədə məsləhətlər və vergi orqanları tərəfindən tətbiq oluna biləcək maliyyə sanksiyaları barədə məlumat vermək mühüm rol oynayır.

Büdcə ilə hesablaşmalar iqtisadi subyektdə ümumilikdə aparılan hesablaşmaların ən mürəkkəb və vaciblərindən biridir. Belə ki, büdcə ilə hesablaşmaların vaxtında və düzgün aparılması, büdcəyə çatası məbləğin vaxtında və tam ödənilməsi nəinki müəssisə üçün vacibdir, o eyni zamanda respublika büdcəsinin formalaşmasında, ölkənin iqtisadi qüdrətinin daha da yüksəldilməsi üçün onun gəlir hissəsinin artırılmasında misilsiz əhəmiyyət kəsb edir. Hazırki dövrdə büdcəyə çatası məbləğin düzgün hesablanması ilə yanaşı, müəyyən olunmuş məbləğin büdcəyə vaxtında və tam ödənilməsi xüsusilə böyük əhəmiyyətə malikdir.

Büdcəyə ödənilən vergi və digər məcburi ödəmələrin çoxsaylı olması, vergi qanunvericiliyinin qeyri-sabit və təkmil olması səbəbindən vergilərin düzgün hesablanması və büdcəyə ödənilməsi məsələsi çox əməktutumlu və mürəkkəb prosesdir. Bu səbəbdən büdcə ilə hesablaşmaların auditi prosesində auditor riski daha çoxdur. Auditorun mühüm vəzifələrindən biri audit prosesində vergilərin büdcəyə köçürülməsinin dəqiq yoxlanmasıdır.

Praktikada vergi müfəttişləri yoxlama aparılan təşkilatın məsul işçilərinin mövcud vergi qanunvericiliyinə olduğu kimi deyil, başa düşdükləri kimi əməl etməsi halları ilə tez-tez rastlaşırlar. Belə hallarda auditor mövcud qanunverici və normativ sənədlərə əsaslanaraq təsərrüfat subyektinin xahişi ilə öz fikrini yazılı və ya şifahi bildirə bilər. Bu zaman o qoyulmuş suala düzgün, qərəzsiz və obyektiv cavab verməyə borcludur.

Vergilər üzrə büdcə ilə hesablaşmaları yoxlayarkən auditor yadda saxlamalıdır ki, bir sıra vergilərin hesablanması şərtləri, dərəcələri və digər parametrləri tez- tez dəyişir və bu səbəbdən onlar bütün lazımi qanun və təlimatlara malik olmalıdır.

Vergilər üzrə audit yoxlamasının aparılması metodikasının şərhinə keçməzdən əvvəl qeyd etmək istərdik ki, gələcəkdə vergi siyasətində böyük dəyişikliklərin edilməsi nəzərdə tutulduğundan hər bir vergi, rüsum, yığım və digər ödəmələr üzrə büdcə ilə hesablaşmaların auditi üzrə bütün məsələlərin, onun aparılması qaydasının şərhinə lüzum yoxdur. Biz yalnız istənilən halda nəzarətin predmetini təşkil edən və auditorun öyrənməli olduğu mühüm məsələlərin üzərində dayanmaqla kifayətlənəcəyik.

Vergi auditi planlaşdırılarkən auditor təsərrüfat subyektinin gəlir və xərclərinin uçotunu hansı metodla (hesablama və ya kassa) apardığını müəyyən etməli, bütün vergilər üzrə dəqiq məlumat toplamalı və hər bir vergi növünün necə yoxlanacağını müəyyənləşdirməlidir. Auditor vergilər üzrə büdcə ilə hesablaşmaların auditi metodikasını dərindən mənimsəməlidir. Bununla yanaşı auditor yoxlama zamanı hər bir verginin dərəcəsini, onların hesablanması qaydasını mükəmməl bilməli və bu zaman mövcud qanunvericilik aktlarından, normativ sənəd və təlimatlardan istifadə etməlidir.

Büdcə ilə hesablaşmalar auditinin metodikası dedikdə, təsərrüfat subyektlərinin büdcə qarşısında öhdəliklərinin yerinə yetirilməsi prosesinin yoxlama-ekspertiza işlərinin prosedur qaydaları nəzərdə tutulur. Digər sahələrdə olduğu kimi büdcə ilə hesablaşmaların audit yoxlaması ümumi metodika ilə yanaşı, xüsusi metodlardan istifadə olunmasını da nəzərdə tutur.

Vergi sferasında aparılan nəzarət tədbirlərinin səmərəliliyi bilavasitə təşkila-ti-metodoloji amillərdən asılıdır. Vergi auditi onun qarşısında duran tapşırıqların yerinə yetirilməsinin təmin edilməsi üçün onun təşkili prinsiplərinə riayət etməsi lazımdır. Bu prinsiplərə aşağıdakıları aid etmək olar:

tam səlahiyyətinik prinsipləri. Vergi orqanları nəzarət hərəkətlərini (fəaliyyətini) qanunvericiliyin müəyyən etdiyi səlahiyyətlər çərçivəsində həyata keçirməlidirlər;

^ *tam nəzarətin hərtərəfli təmin edilməsi prinsipləri.* Bütün vergi növləri və vergi ödəyiciləri istisnasız olaraq, onlar tərəfindən büdcəyə daxil olan vergilərin həcmindən asılı olmayaraq nəzarət sisteminə daxil edilməlidir;

^ *vergi ödəyicisinə heç bir zərər vurmamaq prinsipi.* Vergi auditi vergi siyasətinin fıskal və iqtisadyönümlü qarşılıqlı əlaqəsini maksimum təmin etməklə həyata keçirilməlidir;

* *vergi orqanlarının nəzarət hərəkətlərinin və işinin əlaqələndirilməsi prinsipləri.* Auditor yoxlama işini yüksək səviyyədə təşkil etmək və başa çatdırmaq üçün yoxlama proqramına malik olmalıdır. Bu proqramda büdcə qarşısında olan vergi öhdəliklərinin yerinə yetirilməsi və hesablaşmaların vəziyyətinin qiymətləndirilməsi strategiyası müəyyənləşdirilməlidir. Büdcə ilə hesablaşmalar auditinin proqramı əsasən dörd prinsipial məsələni əhatə etməlidir:

- büdcə ilə hesablaşmaların normativ-hüquqi bazasının yoxlanması və qiymətləndirilməsi;
- büdcə ilə hesablaşma əməliyyatlarının yoxlanması və qiymətləndirilməsi metodikası;
- büdcə ilə hesablaşmalara dair uçot-hesabat işlərinin vəziyyəti;

■ büdcə ilə hesablaşma əməliyyatlan auditinin nəticələrinin qiymətləndirilməsi və rəsmiləşdirilməsi.

Büdcə ilə hesablaşmalann *normativ-hüquqi bazasının qiymətləndirilməsinə* təsərrüfat subyektləri tərəfindən bu sahədə mövcud qanunvericilik və normativ aktlara əməl olunması kimi baxılmalıdır. Respublikamızda vergi öhdəlikləri üzrə büdcə ilə hesablaşmalar bir sıra qanunverici normativ hüquqi aktlarla yanaşı, əsasən Vergi Məcəlləsi, Vergilər Nazirliyinin təlimat, metodiki göstəriş və qaydaları ilə tənzimlənir. Normativ-hüquqi bazasının qiymətləndirilməsində əsas məqsəd büdcəyə çatası vergilərin, onların hesablanması və büdcəyə ödənilməsinin düzgünlüyünün müəyyən edilməsidir.

Auditor yoxlamanın gedişatı zamanı müəssisənin ayrı-ayrı vergi öhdəliklərinin yerinə yetirilməsini hüquqi baxımdan qiymətləndirərkən vergilərin Vergi Məcəlləsinə müvafiq düzgün hesablanması, tutulması və vaxtında təyinatı üzrə köçürülməsinə xüsusi diqqət yetirməlidir.

Təsərrüfat subyektlərində mühasibat uçotu ilə vergi uçotu arasında fərqlərin olması, vergi ödəyiciləri tərəfindən vergilərin düzgün hesablanmasına və vaxtında büdcəyə ödənilməsinə əminliyin yaranması, vergi orqanlarına təqdim edilmiş vergi bəyannamələrində şəffaflığın təmin edilməsi bu qərarın qəbul edilməsini zəruri etmişdir. Belə ki, vergi auditi Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Vergi Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi və digər qanunvericilik aktları, Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının təsdiq etdiyi milli audit standartları rəhbər tutulmaqla, habelə hər bir vergi növünün spesifik xüsusiyyətləri nəzərə alınmaqla həyata keçirilməlidir. Vergi auditi məcburi formada həyata keçirilir. Vergi auditinin aparılması zamanı Azərbaycan Respublikası Vergi Məcəlləsinin tələblərinə ciddi əməl olunmalı, bunun üçün ilk öncə, müəssisənin uçot siyasəti öyrənilməli, mənfəət və zərərin müəyyən edilməsi metoduna diqqət yetirilməlidir.

. Auditor yoxlama işini yüksək səviyyədə təşkil etmək və başa çatdırmaq üçün yoxlama proqramına malik olmalıdır. Bu proqramda büdcə qarşısında olan vergi öhdəliklərinin yerinə yetirilməsi və hesablaşmaların vəziyyətinin qiymətləndirilməsi strategiyası müəyyənləşdirilməlidir.

Büdcə ilə hesablaşmaların auditi zamanı yoxlamaya məruz qalacaq prinsipial məsələlər aşağıdakılardan ibarətdir:

- ❖ müəssisə tərəfindən ödənilən vergilərin ümumi həcmində daha çox xüsusi çəkiyə malik olan vergilərə diqqət yetirməklə, yoxlanılan müəssisənin ödə- yicisi olduğu bütün vergilərin nəzərdən keçirilməsi;
- ❖ vergi orqanlan tərəfindən müəssisədə aparılmış yoxlamaların və müəssisənin vergi müfəttişliyi ilə apardığı yazışmaların nəticələri üzrə aktlarla tanışlıq;
- ❖ vergilər üzrə hesablaşmalarla tanışlıq. Bu hesablaşmalarda göstərilən bütün məbləğlərin mühasibat uçotunun məlumatlanna uyğunluğunun yoxlanması;
- ❖ ƏDV, aksizlər və digər vergilər üzrə əvəzləşdirmələrin düzgün aparılması;
- ❖ sadələşdirilmiş verginin düzgün tətbiq edilməsi;
- ❖ vergi tutulan dövriyyənin tam və düzgün müəyyən edilməsinin yoxlanması;
- ❖ mühasibat və vergi uçotunun tamlığının qiymətləndirilməsi;

- ❖ vergiyə cəlb olunan dövriyyənin müəyyən edilməsi və ödəniləsi vergi məbləğinin düzgünlüyünü;
- ❖ büdcəyə çatan məbləğin tam və vaxtında ödənilmə vəziy>'əti;
- ♦> sadələşdirilmiş verginin düzgün tətbiq edilməsi;
- ❖ vergilər üzrə hesablaşmalarla tanışlıq. Bu hesablaşmalarda göstərilən bütün məbləğlərin mühasibat uçotunun məlumatlanna uyğunluğunun yoxlanması;
- ❖ hesablanan və ödənilən vergi məbləğlərinə tərtib olunmuş mühasibat köçürməsinin düzgünlüyü;
- ❖ büdcə ilə hesablaşmaların sintetik və analitik uçotunun apanlmasımn düzgünlüyünü;
- ❖ iqtisadi subyektdə daxili nəzarətin büdcə ilə hesablaşmalar sahəsində təşkilinin vəziyyəti;
- ❖ 68 saylı hesab üzrə aparılmış sintetik və analitik uçotun təşkilinin vergi qanunvericiliyinə müvafiq olub-olmaması;
- ❖ vergilər üzrə mühasibat uçotunun aparılmasının düzgünlüyünün qiymətləndirilməsi;
- ❖ sintetik və analitik uçotun təşkilinin vergi qanunvericiliyinə müvafiq olub-olmaması;
- ❖ müəssisənin Baş kitabındakı sintetik hesablar üzrə göstəricilərin analitik uçot göstəricilərinə uyğunluğu;
- ❖ vergi bəyannamələrinin düzgün tərtib və müvafiq vergi orqanlarına vaxtında təqdim edilməsinin, vergilərin vaxtında və tam həcmdə ödənilməsinin yoxlanılması;
- ❖ vergi orqanlan tərəfindən tətbiq edilən maliyyə sanksiyalannın icrasının vəziyyəti. Göstərilən mərhələlərin həyata keçirilməsi üçün hər bir vergi növü üzrə Vergi Məcəlləsinin əsas müddəaları, Vergilər Nazirliyinin təlimat və metodiki göstərişləri nəzərə alınmalıdır.

Vergilər üzrə büdcə ilə hesablaşmaları yoxlayarkən auditor yadda saxlamalıdır ki, bir sıra vergilərin hesablanması şərtləri, dərəcələri və digər parametrləri tez- tez dəyişir. Bu səbəbdən auditorların yuxarıda qeyd olunan məsələlərin **3**niksək səviyyədə həll edilməsi (yoxlaması) üçün onlar lazımi normativ bazaya (təlimatlara, qaydalara, əsasnamələrə, vergi dərəcələri haqqmda normativ sənədlərə) malik olmalıdır.

Vergilər üzrə büdcə ilə hesablaşmaların auditinin səmərəli aparılmasında lazımi və dolğun məlumatlann əldə edilməsi mühüm şərtlərdən biridir. Çünki, büdcə ilə hesablaşmalar mühasibatlıq işinin əhəmiyyətli hissəsini təşkil etməklə yanaşı, gəlir və mənfəətin bölüşdürülməsində iştirak edir. Ona görə büdcə qarşısında öhdəliklərin yerinə yetirilməsi, fondlara müvafiq ayırmaların aparılması üzrə hcsablaş- malann dəqiq uçota alınmasına dair əsaslı məlumatlann olması mütləqdir. Bu məlumatları müxtəlif mənbələrdən əldə etmək olar.

Məlumat mənbələri istiqamət, xarakter və təyinatına görə qruplaşdırılır. Büdcə ilə hesablaşmaların normativ-hüquqi bazasını xarakterizə edən məlumatları əsas etibarı ilə qanunverici normativ aktlardan əldə etmək olar. Bu normativ-hüquqi bazalarda tərəflərin öhdəliklərinə, onların hüquq və vəzifələrinə dair lazımi məlumatlar əldə etmək

Audit yoxlamasında büdcə ilə hesablaşmalara dair analitik məlumatlar müxtəlif mənbələrdən əldə edilir. Belə ki, vergi öhdəliklərinin hər bir növü üzrə fərdi məlumat mənbələri mövcuddur. Məsələn, fiziki şəxslərin gəlirlərindən tutulan gəlir vergisinin düzgünlüyü və qanuniliyinə, tətbiq edilən vergi dərəcələrinin düzgünlüyünə dair məlumatları hesablama-ödəniş cədvəllərindən əldə etmək mümkün olduğu halda, hüquqi şəxslərdən tutulan mənfəət vergisinin güzgünlüyü haqqında məlumatları mənfəət vergisi üzrə bəyannamədən və ona əlavə olunan 1, 2, 3 saylı əlavələrdən əldə etmək mümkündür.

İstehsal olunmuş məhsullann (görülmüş işlərin, göstərilmiş xidmətlərin) satışı üzrə gəlirlərdən ƏDV məbləğinin düzgün hesablanıb ödənilməsini müəyyən etmək üçün bəyannamə formasından və 8 formadan ibarət əlavələrdən istifadə etmək olar.

Bununla yanaşı, büdcə ilə hesablaşmaların audit yoxlamasında informasiya mənbəyi kimi mühasibat uçotunun sintetik və analitik uçot məlumatlanndan istifadə etmək olar. Uçot və hesabat məlumatlarını 68 "Büdcə ilə hesablaşmalar" hesabının debet və kredit dövriyyələrindən, müəssisənin illik hesabat balansının aktivindəki II bölməsinin 230-cu sətri, passivinin isə II bölməsinin 700-cü sətrindən əldə etmək mümkündür.

Büdcə ilə hesablaşmaların yoxlanması üçün informasiya mənbəyi kimi aşağıdakı sənədlərdən istifadə etmək olar:

müəssisənin balansı (formaJfol);

maliyyə nəticələri və onlardan istifadə olunması haqqında hesabat (formaJVo2);

Baş kitab;

S'3 əmək haqqının hesablanması üzrə hesablama-ödəniş cədvəli;

s uçot registrləri (kartoçkalar, cədvəllər);

&3 jurnal orderlər;

£3 46,47,48, 68, 69,70, 76, 80, 81, 88 hesablar üzrə maşınoqramlar;

S3 vergi bəyannamələri;

K ayrı-ayrı vergi növləri üzrə haqq-hesablar;

B 68 saylı hesab üzrə sintetik və analitik uçot məlumatlan və i.a.;

Yoxlamanın gedişində auditor göstərilən normativ bazadan və informasiya mənbələrindən bacarıqla istifadə etməklə mövcud nöqsanları aşkara çıxarmalı və onların aradan qaldınimasını təmin edə biləcək əməli təkliflər verməlidir.

Büdcə ilə hesablaşmaların auditində yoxlama metodunun əsasını seçmə və tam (başdan-başa) üzləşdirmə üsulu təşkil edir. Təcrübə göstərir ki, təsərrüfat subyektləri tərəfindən büdcə qarşısında öhdəliklərin yerinə yetirilməsində bir sıra neqativ hallara yol verilir. Nəticədə isə büdcəyə çatası vəsait müxtəlif yollarla vergidən yayındırılaraq mənimsənilir. Bu səbəbdən yoxlama aparılan müəssisələrdə bəzi vergi növlərinin başdan-başa yoxlanılması daha məqsədəuyğundur.

Audit yoxlama metodikasının prosedur qaydaları hər bir vergi növü üzrə fərqli ola bilər. Belə ki, əgər auditor fiziki şəxslərdən tutulan gəlir vergisinin düzgünlüyünü bir neçə ayın hesablama-ödəniş cədvəlində əmək haqqından tutulan vergi məbləğlərini tarif cədvəlləri ilə üzləşdirmək yoly ilə qiymətləndirə bilərsə, mənfəət vergisinin qiymətləndirilməsi üçün başqa metodikadan istifadə etməlidir. Bunun üçün məsrəflərin tərkibini və məhsul satışından əldə edilən gəlirin həcmini də

qiqləşdirmək tələb olunur. Auditor mənfəət vergisi üzrə öhdəlikləri qiymətləndirərkən müəssisənin gəlir və xərclərini hansı metodla uçota aldığını müəyyən etməlidir.

Azərbaycan Respublikasında mühasibat uçotu və hesabatı haqqında qaydaya əsasən vergi orqanları ilə hesablaşmalar üzrə məbləğlər hesabatlarda onlara müvafiq olaraq əks etdirilməli və eynilik təşkil etməlidir. Bu hesablaşmalar üzrə tənzimlənməmiş (müəyyənləşdirilməmiş) məbləğlərin balansda saxlanılmasına icazə verilmir.

Sonrakı mərhələdə ilk növbədə büdcə ilə hesablaşmalar üzrə *daxili nəzarətin vəziyyəti* öyrənilməli, vergiyə cəlb edilən vergitutma bazasının tamlığı və düzgünlüyü yoxlanmalıdır. Tətbib edilmiş vergi dərəcələrinin və hesablanmış vergi məbləğlərinin düzgünlüyünə xüsusi diqqət yetirmək lazımdır. Ödəniş sənədləri və vergi orqanlarına təqdim edilən vergi bəyannamələri üzrə büdcəyə çatası vergilərin (məcburi ödəmələrin) vaxtında və düzgün ödənilməsi, vergi öhdəlikləri üzrə borclar təhlil edilməlidir.

Bundan sonra auditor vergi orqanları tərəfindən aparılmış yoxlamaların nəticələrini təhlil etməlidir. Auditor həmçinin müəssisəyə qarşı tətbiq edilmiş maliyyə sanksiyalarının nə dərəcədə əsaslı olub-olmamasını müəyyən etmək məqsədilə dövlət vergi orqanlan tərəfindən bu müəssisədə aparılmış vergi yoxlamasının nəticələri, yəni yoxlama aktı ilə yaxından tanış olmalı, aşkar edilmiş vergu qanunvericiliyinin pozulmasına görə təsərrüfat subyeklərinə qarşı tətbiq edilmiş maliyyə sanksiyalarının (əgər belə hallar varsa) nə dərəcədə düzgün olduğuna qiymətləndirməlidir. Çünki praktikada mühasiblər (auditorlar) vergi qanunvericiliyinin dövlət vergi orqanları tərəfindən səhv və istədikləri kimi şərh edilməsi ilə rastlaşırlar. Belə ki, vergi xidməti orqanları və onun vəzifəli şəxsləri vergi qanunvericiliyinin qayda- lannı öz bildikləri kimi başa düşürlər. Bu səbəbdən auditor müəssisənin xahişinə əsasən müvafiq normativ sənədlərə istinad edərək mübahisəli məsələlər üzrə öz fikrini söyləyə və yazılı obyektiv qərar verə bilər. Bu zaman auditor heç bir halda qəti fikir söyləməməli, yalnız qoyulmuş məsələyə obyektiv və nəzakətlə cavab verməlidir.

Auditor büdcə ilə hesablaşmaların yoxlanmasına başlayarkən, yoxlamanın ilk mərhələsində şifahi testləşdirmə yolu ilə müəssisənin hansı vergilər üzrə büdcə ilə hesablaşmalar apardığını öyrənməlidir. Auditor həmçinin vergi orqanlarının yoxlanılan müəssisədə apardığı vergi yoxlamalarının nəticələri ilə tanış olmalıdır. Bu əvvəlki vergi dövrlərində yol verilmiş və öz əksini yoxlama aktlarında tapmış pozuntuların xarakterini və daha dərindən nəzarət edilməli olan obyektləri müəyyən etməyə imkan verir. Bunu müəyyənləşdirdikdən sonra müfəttiş vergi və digər məcburi ödəmələr üzrə büdcə ilə hesablaşmaların hər bir növü üzrə aşağıdakıları müəyyən etməlidir:

4- büdcə ilə hesablaşmaların daxili nəzarətinin vəziyyətini (testləşdirmə yolu ilə);

4 vergitutma bazasının müəyyən edilməsinin düzgünlüyünü (burada mühasibat uçotu sənədlərinin və registrlərinin izlənməsi, üzləşdirilməsi və tutuşdurulması kimi nəzarət üsullarından istifadə etmək olar);

4- tətbiq edilən vergi dərəcələrinin düzgünlüyünü (yenidən hesablama, tədqiq etmə yolu ilə);

4 vergi məbləğlərinin hesablanmasının düzgünlüyünü (yenidən hesablama yolu ilə);

4 əldə edilmiş aktivlər (işlər, xidmətlər) üzrə əvəzləşdirilmiş ƏDV-nin düzgünlüyünü (sənədlərin tədqiq edilməsi, oxunması və cəbri məlumatların yenidən hesablanması yolu ilə);

vergilərin hesablanması və ödənilməsi zamanı tətbiq edilən güzəştlərin düzgünlüyünü (normativ materiallarla üzləşdirmək, tədqiq etmək, istehsalın xarakterini, müəssisənin qrupunun öyrənilməsi yolu ilə);

-4- vergi, yığım və ödəmələrin büdcəyə tam və vaxtında köçürülməsinin düzgünlüyünü (ödəniş sənədlərinin, xüsusilə ödəniş tapşırıqlarının, vergi deklarasiyalarının yoxlanması yolu ilə);

4 vergi, yığım və ödəmələrin hesablanmasıı, büdcəyə köçürülməsi, əlavə dəyər vergisinin ayrılması və malsatanlara ödənilməsi üzrə mühasibat yazılışlarının tərtib edilməsinin və məcburi normativ sənədlərdən istifadə olunmasının düzgünlüyünü (68 saylı hesabla müxabirləşən hesabların, müxtəlif registrlə- rin məlumatlarının üzləşdirilməsi və tədqiq edilməsi yolu ilə);

4^ vergi növləri üzrə bəyannamələrin tərtib edilməsi və vergi orqanlarına vaxtında təqdim olunmasının düzgünlüyünü (alternativ hesablamaların aparılması, hesabatların təqdim edilməsi və vergi orqanlanndan yazılı sorğunun alınma tarixinin yoxlanması yolu ilə);

4»^ ilkin sənədlərin tərtib edilməsinin, büdcə ilə hesablaşmalar üzrə sintetik və analitik uçotun aparılmasının düzgünlüyünü.

Mövcud vergi qanunvericiliyinə uyğun olaraq bir sıra hallarda müəyyən vergilər üzrə güzəştlər nəzərdə tutulmuşdur. *Güzəştlərin düzgün tətbiq edilməsinin yoxlanması* üçün auditor təsərrüfat subyektinin fəaliyyət xüsusiyyətlərini öyrənməli və güzəştlərin nə dərəcədə düzgün tətbiq edilməsinə qiymət verməlidir. Əgər mənfəət vergisi üzrə güzəştlər olarsa, onda həmin güzəştlərin nə dərəcədə əsaslı olduğu xüsusilə diqqətlə araşdırılmalıdır. Onu da qeyd etmək lazımdır ki, praktikada çox vaxt ƏDV üzrə hesablaşmalar aparılarkən vergi ödəyiciləri tərəfindən vergidən azad edilən və sıfır (0) dərəcə ilə vergiyə cəlb edilən mallar (işlər, xidmətlər) anlayışları ya bilərəkdən ya da səriştəsizlikdən qarışdırılır.

Audit yoxlaması zamanı büdcəyə vergi daxilolmalan arasında böyük xüsusi çəkiyə malik olan əlavə dəyər vergisinin hesablanması və Ödənilməsinə xüsusi diqqət yetirmək lazımdır. Yoxlama zamanı malsatanlardan daxil olmuş resurslar üzrə (19 saylı hesabda), onların dəyəri ödənildikdən sonra əvəzləşdirilən (68 saylı hesabın debeti, 19 saylı hesabın krediti), satılmış mallar (işlər, xidmətlər) üzrə hesablanmış (46,47,48, 80, 81, 82, 88 saylı hesabların debeti, 68 saylı hesabın krediti) və büdcəyə köçürülmüş (68 saylı hesabın debeti; 51,52, 90 saylı hesabın krediti) əlavə dəyər vergisinin uçotunun düzgünlüyünü müəyyənləşdirmək lazımdır.

Əldə edilmiş aktivlər üzrə malgöndərənlərə ödənilmiş əlavə dəyər vergisi hesabına büdcəyə ödəniləcək vergi məbləğinin əvəzləşdirilməsi (azaldılması) hallarına xüsusilə diqqət yetirmək lazımdır. Belə ki, əgər alınmış mal-material qiymətlilərinin dəyəri təsərrüfat subyektləri tərəfindən malsatanlara ödənilməzsə, onda vergi ödəyicisinin büdcəyə çatacaq vergi məbləğini alınmış qiymətlər üzrə malsatanın təqdim etdiyi ƏDV-nin məbləği qədər azaltmaq, daha doğrusu əvəzləşdirmək hü

ququ yoxdur. Bu məqsədlə 19K2İİ hesabın müvafiq subhesabı üzrə əks olunmuş hər bir təsərrüfat əməliyyatının düzgünlüyünə əmin olmaq lazımdır.

Mənfəət vergisi üzrə büdcə ilə hesablaşmalar daha müfəssəl yoxlanmalıdır. Çünki müəssisənin büdcəyə ödədiyi vergi ödəmələrinin əsas əhəmiyyətli hissəsi, eləcə də vergi qanunvericiliyinin pozulması və bununla əlaqədar ödənilən maliyyə sanksiyaları məhz bu verginin payına düşür. Hesablanmış vergilərin onlann müvafiq ödənilmə mənbələrinə (satış pulu hesabına, xalis mənfəət və ya heyətin əmək haqqı) aid edilməsinin düzgünlüyü xüsusilə diqqətlə yoxlanmalıdır.

Fiziki şəxslərdən gəlir vergisinin tutulması və yoxlanılması da auditordan xüsusi diqqət tələb edir. Belə ki, müəssisələr (sahibkarlar) tərəfindən muzdla işləyən işçilərə əmək haqqına əlavələr, mükafatlar, maddi yardımlar, məzuniyyət haqqı və digər istənilən formada ödənilmiş gəlirlər vergitutma obyekti sayılır. Təcrübədə çox vaxt mülki-hüquqi müqavilələrə əsasən görülmüş işlərə və göstərilmiş xidmətlərə görə ödəmə mənbəyində vergi tutulmadan işçilərə gəlirin ödənilməsi hallarına təsadüf edilir. Analoji hal respublika ərazisindəki fəaliyyəti ilə əlaqədar ödəmə mənbəyində gəlir əldə edən xarici fiziki şəxslərdən gəlir vergisinin tutulması zamanı da müşahidə olunur.

Hesablanmış vergilərin onlann müvafiq ödənilməsi mənbələrinə (satış pulu hesabına, xalis mənfəət və ya heyətin əmək haqqı) aid edilməsinin düzgünlüyü xüsusilə diqqətlə yoxlanmalıdır. Məhz bu vergilərin hesablanmasında tez-tez səhvlərə, bəzi hallarda isə sui-istifadə hallarına yol verilir. Məsələn, əvəzsiz olaraq işçiyə verilmiş mənzili (yaşayış binasını) bəzən bir neçə illiyə verilmiş borc kimi rəsmiləşdirilir və yaxud əməyin ödənişinin əvəzinə saxta sənədlər üzrə ezamiyyə xərcləri hesablanır.

Yoxlamanın gedişatı zamanı *sadələşdirilmiş verginin* ödəyiciləri olan müəssisələrdə bu verginin hesablanması üzrə əməliyyatların güzgünlüyünə xüsusi diqqət yetirmək lazımdır. Aksizli mallar istehsal edən müəssisələr, kredit və sığorta təşkilatları, investisiya fondları, qiymətli kağızlar bazarının peşəkar iştirakçılan istisna olmaqla ƏDV-nin məqsədləri üçün Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 155.1-ci maddəsində nəzərdə tutulmuş qaydada qeydiyyata alınmamış müəssisələr sadələşdirilmş sistem üzrə verginin ödəyiciləri olduğu üçün auditor buna xüsusi diqqət yetirməlidir.

Sadələşdirilmiş sistem üzrə vergi məbləği hesabat dövrü ərzində vergi ödəyi- cisi tərəfindən təqdim edilmiş malların (işlərin, xidmətlərin, əmlakın) satışı və satışdankənar fəaliyyət üzrə ümumi hasilatın həcmi vergitutma obyekti olduğu üçün auditor onun müəyyənləşdirilməsinə xüsusi fikir verməlidir. Sadələşdirilmiş verginin ödəyiciləri olan müəssisələr ƏDV, mənfəət vergisi, torpaq vergisi və əmlak vergisinin ödəyicisi olmadıqları üçün həmin təsərrüfat subyektlərində digər vergilərin hesablanmasının düzgünlüyü və ödənilib-ödənilmoməsi ayditor tərəfindən diqqətlə yoxlanılmalıdır.

Auditor həmçinin *müəssisəyə qarşı tətbiq edilmiş maliyyə sanksiyalarının* nə dərəcədə əsaslı olub-olmamasını müəyyən etmək məqsədilə dövlət vergi orqanları tərəfindən bu müəssisədə aparılmış vergi yoxlamasının nəticələri, yəni yoxlama aktı ilə yaxından tanış olmalıdır. Çünki praktikada mühasiblər (auditorlar) vergi qa

nunvericiliyinin dövlət vergi orqanları tərəfindən səhv və istədikləri kimi şərh edilməsi ilə rastlaşırlar. Belə ki, vergi orqanları və onun vəzifəli şəxsləri vergi qanunvericiliyinin qaydalarını öz bildikləri kimi başa düşürlər. Bu səbəbdən auditor yoxlama aparılaan müəssisənin xahişinə əsasən müvafiq normativ sənədlərə istinad edərək mübahisəli məsələlər üzrə öz fikrini söyləyə bilər və yazılı obyektiv qərar verə bilər. Bu zaman auditor heç bir halda qəti fikir söyləməməli, yalnız qoyulmuş məsələyə obyektiv və nəzakətlə cavab verməlidir.

İdxal-ixrac əməliyyatları və əməliyyatların müxtəlif vergilər üzrə vergiyə cəlb edilməsi, həmçinin müstəqil yoxlama obyektidir.

Büdcə ilə hesablaşmaların auditinin növbəti prosedur mərhələsi ayı-ayn *vergi növləri üzrə sintetik və analitik uçotun təşkilinin vəziyyətinin öyrənilməsi, analitik və sintetik uçot arasında kənarlaşmaların olub-olmaması yoxlanılmasıdır (uçot-hesabat işlərinin vəziyyətinin qiymətləndirilməsidir).* Bu məqsədlə büdcə ilə hesablaşmaların uçotda düzgün əks etdirilməsi, apanimış mühasibat yazılışlarının büdcə ödənişləri üzrə analitik uçotun aparılması qaydasının düzgünlüyü, analitik və sintetik uçot arasında kənarlaşmaların olub-olmaması yoxlanılmalıdır.

Büdcə ilə hesablaşmalara dair uçot-hesabat işlərinin vəziyyətini müəyyən etmək üçün üzləşdirmə üsulundan istifadə olunur. Bu üsuldan istifadə etməklə hesabat dövrlərində müvafiq vergi dərəcələri üzrə hesablanmış ayrı-ayrı vergi məbləğlərinin vergi bəyannamələrində əks etdirilməsi və büdcəyə köçürülən vəsaitlərin düzgünlüyü müəyyən edilir.

Müəssisənin ödədiyi vergilərin uçotunun aparılmasının düzgünlüyünü müəyyən elmək üçün auditor informasiya mənbəyi kimi **68** "Büdcə ilə hesablaşmalar" adlı sintetik hesab və **8** saylı jurnal-orderdən istifadə etməlidir. **68** saylı hesaba hər bir vergi növü üzrə ayrıca subhesab açılır və hənin subhesablarda müvafiq vergilərin analitik uçotu apanlır. Bu hesabın kreditində büdcəyə çatası, debetində isə faktiki olaraq büdcəyə köçürülmüş (büdcədən qaytarılacaq, əvəzləşdiriləcək) vergi məbləğləri əks etdirilir.

Sonra auditor **68** saylı "Büdcə ilə hesablaşmalar" hesabı üzrə analitik uçotun baş kitabdakı sintetik uçotun və bəyannamələrdəki məlumatların uyğun olub-olmamasını yoxlayır. Belə hallarda vergilərin hesablanmasının düzgünlüyünə, tam və vaxtında ödənilməsinə görə məsuliyyəti müəssisə daşıyır. Auditor ayı-ayrı vergi növləri üzrə sintetik və analitik uçotun təşkilinə qiymət verməklə yanaşı, vergilərin hesablanması və ödənilməsi üzrə mühasibat yazılışlarının düzgünlüyünə də diqqət yetirməlidir.

Büdcə ilə hesablaşmalann uçotda düzgün əks etdirilməsi, aparılmış mühasibat yazılışlarının, büdcə ödənişləri üzrə analitik uçotun aparılması qaydalarının düzgünlüyü, analitik uçotla sintetik uçot arasında kənarlaşmaların olub-olmaması yoxlanılmalıdır.

Bunun üçün ilk növbədə müxtəlif hesablarla müxabirləşməklə **68** saylı hesabda aparılan yazılışları müəyyən etmək, **68** saylı hesabın **8**X**2**İ jumal-orderdəki kredit dövriyyəsini aşağıdakı hesablarla üzləşdirmək lazımdır: 70 saylı hesab üzrə - işçilərlə hesablaşmalar üzrə icmal cədvəlin məlumatları ilə; 81 saylı hesab üzrə 15

JV9İİ jumal-orderdə analitik məlumatlar cədvəli ilə; 46, 47, 48 saylı hesablar üzrə - 16 J^2İi cədvəlin məlumatları ilə.

8 Xeli jurnal-orderdə 68 jV2İi hesabın debet dövriyyəsi ümumi məbləğdə verilir. Ona görə bu hesabın bütün debet yazılışlarını ödənişlərin növləri üzrə ilkin sənədlərin məlumatları ilə tutuşdurmaq lazımdır. Bundan sonra 68 saylı hesabın analitik uçot məlumatlannm baş kitabdakı sintetik uçotun və hesablaşmadakı məlumatlara müvafiqliyini müəyyən etmək lazımdır.

Nəhayət, audit yoxlamasının sonuncu tədqiqat obyekti *vergi bəyannamələrinin düzgün tərtibi olunması, vaxtında təqdim edilməsi və vaxtında təqdim edilməməsi səbəbindən vergi orqanları tərəfindən maliyyə sanksiyalarının tətbiq edilib-edilməməsi hallarının* araşdırılmasıdır.

Azərbaycan Respublikasında mühasibat uçotu və hesabatı haqqında qaydaya əsasən 68 "Büdcə ilə hesablaşmalar" hesabının krediti üzrə əks olunmuş məbləğlər vergi orqanlanna təqdim edilən bəyannamələrdəki müvafiq göstəricilərlə eynilik təşkil etməlidir. Hesablaşmalar üzrə müəyyənləşdirilməmiş məbləğlərin balansda saxlanılmasına icazə verilmir.

Hazırda respublikamızda ayrı-ayrı vergi növləri üzrə beynəlxalq standartlara uyğun vergi bəyannamələri tətbiq edilir. Yeni bəyannamələr informasiya baxımından olduqca zəngin məzmuna malikdir və bu hesabat formalarının tətbiqi informasiyaların işlənməsinin avtomatlaşdırılması üçün olduqca əlverişlidir. Vergi bəyannamələrinin dolğun və tam tərtib edilərək təqdim edilməsi çox vacib məsələdir. Çünki, onlar audit yoxlaması zamanı faktiki hesablanmış vergi məbləğlərini təsdiq edən əsas hüquqi sənəd hesab olunur.

Məhz bu səbəbdən auditin gedişatı zamanı diqqət mərkəzində olan məsələlərdən biri də vergi bəyannamələrinin tərtib və vaxtında təqdim edilməsi üzərində təsərrüfatdaxili nəzarətin vəziyyətinin öyrənilməsi və qiymətləndirilməsidir. Bunun üçün aşağıdakı meyarlardan istifadə oluna bilər: cari dövrdə yoxlama zamanı aşkar edilmiş vergi qanun p02mntularinin ötən dövrlərə aid olması, məqsədli və ya məqsədsiz şəkildə vergidən yayındırılmış məbləğlərin auditor tərəfindən aşkar edilməsi, vergi bəyannamələrinin düzgün tərtib edilib vergi orqanlarına vaxtında təqdim olunması, bəyannamələrin düzgün tərtib edilməməsinə görə cərimələrin tətbiti, səyyar vergi yoxlaması zamanı aşkar edilmiş vergi qanun pozuntulan və onlara görə tətbiq olunan maliyyə sanksiyaları.

Əgər auditor yoxlamanın gedişatı zamanı vergilərin hesablanmasında, əvəz-ləşdirilməsində, büdcəyə ödənilməsində və bəyannamələrin təqdim edilməsində kənarlaşmalar aşkar etmişdirsə, onda bunun səbəbini araşdırmalı və özündə əminlik yarandıqdan sonra bu qanun pozuntulannı öz aktında əks etdirməli, aşkar edilmiş nöqsan və çatışmazlıqlar barədə təsərrüfat subyektinin rəhbərini xəbərdar etməlidir. Eyni zamanda, göstərilən qanun pozuntularına görə təsərrüfat subyektinə hesablanacaq faiz və maliyyə sanksiyaları barədə vergi ödəyicisini məlumatlandırmalı və dəqiqləşdirilmiş hesabatın təqdim edilməsini təklif etməlidir. Bu zaman auditor vergi qanunvericiliyinin pozulmasına görə şəxsin təqsirini və məsuliyyətə cəlb olunmanı istisna edən hallann mövcudluğunu Vergi Məcəlləsinin beşinci fəslinə müvafiq olaraq diqqətlə araşdırmalıdır. Vergi orqanları tərəfindən təsdiq edilmiş

şəxsi uçot vərəqəsinə əsasən qalıq göstəriciləri təsərrüfat subyektinin göstəriciləri ilə üzləşdirilməli və əgər kənarlaşma hallan aşkar edilərsə, bunun səbəbləri aydınlaşdırılmalıdır.

Sonda qeyd etmək istərdik ki, vergi qanunvericiliyinin qeyri-təkmil olması, vergi məsələlərinin şərhləri arasındakı ziddiyətlər, lazımi informasiyanın və ixtisaslaşdırılmış köməyin olmaması konkret vergi məsələsinin düzgün həlli yolunun tapılmasında çətinliklər yaradır. Vergi məsələləri üzrə yeni şərhlərin və qanunverici aktların çıxması yeni vergi səhvlərinin yaranması üçün potensial zəmin yaradır. Fikrimizcə, yaxşı olardı ki, təsərrüfat subyektləri (fərdi sahibkarlar) vergitutma sahəsində yol verilə biləcək səhvlərin qarşısını almaq üçün auditor firmaları (vergi agentləri) ilə bağlanmış müqaviləyə əsasən müəssisələrdə vergi məsələləri üzrə məsləhət xidməti şöbəsi yaratsınlar.

4.7. Vergi auditi prosesslər metodikası

4.7.1. Vergi auditi prosesslər metodikası ilə tənzimlənən münasibətlər

Vergi Auditi Prosesslər Metodikasının hazırlanmasında məqsəd Vergilər Nazirliyinin apardığı vergi siyasətinin strateji məqsədlərinin həyata keçirilməsinə nail olmaqdan və vergi auditinin funksiyalarını müəyyən etməkdən ibarətdir.

Vergi auditi - vergi orqanı tərəfindən vergi ödəyicisinin faktiki fəaliyyət göstərdiyi yerdə vergi bəyannamələrinin, habelə vergilərin hesablanmasını və ödənilməsini özündə əks etdirən və vergi ödəyicisinin fəaliyyəti haqqında vergi orqanında olan və digər bəlli mənbələrdən alınan məlumatlar əsasında həyata keçirilən səyyar vergi yoxlamasıdır.

Vergi Auditi Prosesslər Metodikası səyyar vergi yoxlamalarının yönləndirmə prosesslərini, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkət qaydalarını müəyyən edir.

Metodika ilə vergi ödəyicilərinin hansı yolla və nə kimi hədəflərlə audit üçün seçiləcəyi izah edilir, Vergilər Nazirliyinin audit strukturlan tərəfindən həyata keçirilən vergi auditi zamanı yönləndirici prosesslərin ardıcıllığı müəyyən edilir, metodika ilə müəyyən olunan anlayışlar və yönləndirici prosesslər Vergi Məcəlləsi və onun ə.sasında qəbul edilmiş digər normativ hüquqi aktlar ilə tənzimlənən vergi nəzarəti ilə bağlı münasibətlər hüdudlarında tətbiq olunur.

Metodikanın əsasında və ya onun icrası məqsədi ilə qəbul edilmiş qərarlar Vergi Məcəllənin və vergi qanunvericiliyi ilə bağlı digər normativ hüquqi aktların müddəalarına zidd olmamalıdır.

Vergi Auditinin Prosesslər Metodikası qüvvəyə minənədək Səyyar vergi yoxlamsının metodikası və ona aid digər normativ sənədlərdə nəzərdə tutulmuş müddəalar tətbiq edilir.

Vergi Auditinin Prosesslər Metodikası vergi qanunvericiliyinin təkmilləşdirilməsinə və mütərəqqi vergi inzibatçılığına keçirilməsinə əsaslanmaqla aşağıdakı məqsədlərə xidmət etməlidir:

- vergi qanunvericiliyini təkmilləşdirmək;
- mütərəqqi informasiya texnologiyalannın tətbiqi ilə vergi orqanlarını formalaşdırmaq;
- səyyar vergi yoxlamalarının səmərəliliyini artırmaq;
- vergi potensialının optimal qiymətləndirilməsinə əməl etmək.

Vergi Auditi Prosesslər Metodikası ilə tənzimlənən münasibətlərin iştirakçılan aşağıdakılardır:

> Vergi Məcəlləsinə uyğun olaraq vergi ödəyicisi hesab edilən hüquqi və fiziki şəxslər;
> Vergi Məcəlləsinə uyğun olaraq vergi agenti hesab edilən hüquqi və fiziki şəxslər;
> Vergi orqanlarının auditin aparılmasına müvəkkil edilən şəxsləri.

Vergi auditi strukturlarının vəzifəli şəxslərinin aşağıda göstərilən vəzifələri vardır:

■ Vergi Məcəlləsinə, Azərbaycan Respublikasının digər qanunlarına və bu metodikanın tələblərinə ciddi riayət etmək;
■ səyyar vergi yoxlamaları zamanı vergi orqanlarının hüquq və vəzifələrini öz səlahiyyətləri daxilində yerinə yetirmək;
■ vergi ödəyicilərinə, onların nümayəndələrinə və vergi münasibətlərinin digər iştirakçılarına diqqət və nəzakətlə yanaşmaq;
■ vergi işçisinin etik davranış kodeksinin tələblərinə tam əməl etmək.

Vergi auditi strukturlarının aşağıdakı hüquqları vardır:

- Vergi Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada səyyar vergi yoxlamaları aparmaq;
- vergi ödəyicilərinin maliyyə-təsərrüfat fəaliyyətini özündə əks etdirən uçot sənədlərini, bəyannamələri və vergilərin hesablanması və ödənilməsi ilə bağlı olan digər sənədləri qanunvericiliklə müəyyən edilmiş qaydada yoxlamaq;
- yoxlamaların keçirilməsi zamanı yoxlamaya aid olan məsələlərlə bağlı vergi ödəyicilərindən və ya onların vəzifəli şəxslərindən izahatlar, arayışlar, şivafı və yazılı məlumat almaq;
- səyyar vergi yoxlamaları zamanı vergi ödəyicisinin sahibkarlıq fəaliyyəti ilə ilk tanışlıq məqsədi ilə sahibkarın biznes fəaliyyətlərini xarakterizə edən məlumatların əldə edilməsi üçün vergi auditinin tədqiqini həyata keçirmək;
- vergi ödəyicilərinin gəlir götürmək üçün istifadə etdikləri, yaxud vergi tutulan obyektlərin saxlanılması ilə bağlı olan istehsal, anbar, ticarət və digər binalarına ərazilərinə, (yaşayış binaları istisna olmaqla) qanunvericiliklə müəyyən olunmuş hallarda və qaydada daxil olmaq və baxış keçirmək;
- Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada sənədləri və nümunə kimi əşyaları götürmək, əmlakın və pul vəsaitlərinin, xammal və sərvətlərin inventarizasiyasını aparmaq;

qanunvericilikdə nəzərdə tutulmuş hallarda, bazar qiymətləri barədə məlumat bazasından istifadə etməklə vergilərin hesablanması üçün tədbirlər görmək; vergi qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada əlaqəli məlumatlara əsasən vergitutma obyektlərini müəyyən etmək;

vergi ödəyicisinin xərcləri, o cümlədən fərdi istehlakı üçün malların (daşınan və daşınmaz əmlakın), işlərin və xidmətlərin alınmasına çəkilən xərcləri barədə rəsmi məlumatlar almaq;

qanunla müəyyən edilmiş qaydada vergi qanunvericiliyinin pozulması ilə bağlı vergi ödəyicilərinə maliyyə sanksiyaları və inzibati cərimələr tətbiq etmək və ya onlann cinayət məsuliyyətinə cəlb edilməsi ilə əlaqədar aidiyyəti üzrə təkliflər vermək;

vergi nəzarətini həyata keçinnək məqsədi ilə mütəxəssislərin, ekspertlərin, tərcüməçilərin və müşahidəçilərin dəvət edilməsi üçün zəruri tədbirlər görmək;

vergi ödəyic i lorindən vergi qanunvericiliyinin pozulması hallarının aradan qaldırılmasını tələb etmək;

vergi ödəyicilərinin yazılı müraciətlərinə baxmaq, onları cavablandırmaq; səyyar vergi yoxlamalan zamanı zəruri məlumatların əldə edilməsi məqsədi ilə aidiyyəti üzrə sorğular vermək;

səaliyyət istiqamətlərinə uyğun təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, müvafiq sahə üzrə tədqiqatlar aparmaq, təkliflər vermək;

fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqlan həyata keçinnək.

4.7.2. **Vergi auditinin əhatə etdiyi elementlər və onun təşkili prinsipləri**

Vergi auditi Vergi Məcəlləsinin 38.1 maddəsində təsbit edildiyi kimi növbəti və növbədənkənar ola bilər. Vergi auditi Vergi Məcəlləsinin 38-ci maddəsinin müddəalarına uyğun olaraq vergi orqanının qərarına əsasən həyata keçirilir.

Növbəti səyyar vergi yoxlaması ildə bir dəfədən çox olmayaraq keçirilir. Növbəti səyyar vergi yoxlaması vergi auditi məqsədi ilə risk modellərinə əsaslanan seçmə üsulu ilə təyin edilir.

Növbədənkənar səyyar vergi yoxlaması Vergi Məcəlləsinin 38.3 maddəsində nəzərdə tutulmuş tələblərə uyğun olaraq təyin edilir.

Vergi ödəyicisi səyyar vergi yoxlamasının nəticələri ilə razılaşmadıqa onun tələbi ilə Vergi Məcəlləsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq yenidən yoxlama təyin edilə bilər.

Vergi auditi Vergi Məclləsi ilə müəyyən edilən müddətlərə uyğun olaraq həyata keçirilir.

Vergi auditi ih əhatə edilməli elementər aşağdakılardır:

- vergi ödəyicilərinin dövlət vergi orqanlarında qeydiyyatı və onların təsərrüfat subyektlərinin, filiallarının və nəzarət kassa aparatlarının uçotunun aparılması qaydalarına əməl edilməsi vəziyyəti;

- ❖ vergi ödəyicisini təsis edən şəxslər və onların nizamnamə kapitalında payı barədə məlumatlar;
- ❖ əvvəlki səyyar vergi yoxlamalarının nəticələri və onların aradan qaldırılması vəziyyəti;
- ❖ təsdiq edilmiş nizamnaməyə (əsasnaməyə) əsasən nəzərdə tutulmuş fəaliyyət növləri barədə məlumatlar;
- ❖ xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinə razılığın verilməsi qaydaları;
- ❖ qanunvericiliklə qadağan olunmuş fəaliyyət növləri ilə məşğul olması barədə məlumatlar,
- ❖ vergi ödəyicisinin mühasibat uçotunun forması və uçot siyasəti barədə məlumat;
- ❖ bəyannamələrin təqdim edilməsi xüsusiyyətləri;
- ❖ gəlirlər və gəlirlərin əldə edilməsi ilə bağlı xərclər barədə məlumatlar;
- ❖ vergi tutma obyektləri;
- ❖ vergilərin hesablanması və büdcəyə ödənilməsi;
- ❖ xarici-iqtdisadi fəaliyyət barədə məlumatlar.

Növbəti səyyar vergi yoxlaması vergi orqanının rəhbərinin (rəhbərin müavini) razılığı ilə Vergi Auditinin Prosesslər Metodikası və Vergi Məcəlləsinin tələblərinə uyğun olaraq təyin edilir.

Vergi Məcəlləsinin 36.5-ci və 38.3-cü maddəsində nəzərdə tutulan bütün hallarda növbədənkənar səyyar vergi yoxlamaları aidiyyəti struktur vahidlərinin səlahiyyətləri daxilində razılığı ilə təyin edilir.

Aşağıdakı vergi ödəyicilərində səyyar vergi yoxlamaları Vergilər Nazirliyi yanında Vergi Auditi Departamenti tərəfindən təşkil edilir:

1. Xarici investisiyalı (birgə) müəssisələrdə
2. Bank və digər maliyyə-kredit təşkilatlannda
3. Lombardlarda
4. Sığorta təşkilatlarında
5. İnvestisiya fondlarında
6. Qiymətli kağızların tədavülü ilə bağlı əməliyyat aparan şəxslərdə.

Yuxarıda qeyd edilən və Vegilər Nazirliyi yanında Xüsusi Rejimli Vergi Xidməti Departamentində uçotda olan həmin vergi ödəyicilərində səyyar vergi yoxlamaları Vegilər Nazirliyi yanında Xüsusi Rejimli Vergi Xidməti Departamenti tərəfindən müstəqil təyin edilir.

Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik, daimi nümayəndəlik və konsulluqlarında vergi auditi Vergilər Nazirliyi tərəfindən həyata keçirilir. Yuxarıda qeyd edilənlər Naxçıvan MR Vergilər Nazirliyinə şamil edilmir. Yerli vergi orqanları tərəfindən aparılan səyyar vergi yoxlamalarının nəticələri üzrə tərtib edilmiş aktda dürüst olmayan və təhrif olunmuş məlumatlar aşkar edildikdə və ya vergi ödəyicisinin yoxlamanın nəticələri ilə razılaşmaması barədə tələbi olduqda yoxlanılan dövrün yenidən yoxlanılması Vergilər Nazirliyi tərəfindən təşkil edilə bilər.

Cinayət prosessual qanunvericiliyinə uyğun olaraq məhkəmənin və ya hüquq-mühafizə orqanlarının səyyar vergi yoxlamasının keçirilməsi barədə müvafiq

qərarı olduqda vergi auditinin həyata keçirilməsi Vergilər Nazirliyi tərəfindən təşkil edilə bilər.

Vergi orqanı tərəfindən yoxlanılmış vergi dövrü üçün vergi ödəyicisinin ödədiyi və ya ödəməli olduğu vergilər üzrə səyyar vergi yoxlamasının keçirilməsi Vergi Məcəlləsinin 38.3-cü maddəsində göstərilən hallar istisna olmaqla qadağandır.

Vergi ödəyicisinin hüquqi şəxs olan fıliallannda və ya nümayəndəliklərində səyyar vergi yoxlamasının təyin edilməsi vergi ödəyicisinin özünün yoxlanılmasından asılı olmayaraq bu metodikanın və Vergi Məcəlləsinin müddəalarına riayət edilməklə həyata keçirilə bilər.

4.7.3. **Vergi auditi ilə əhatə edilən dövr və müddətlərin müəyyən edilməsi**

Vergi bəyannamələrinin vergi orqanına təqdim etmə müddəti bitmədiyi halda həmin dövrün səyyar vergi yoxlaması ilə əhatə edilməsi yol verilməzdir.

Vergi ödəyicisi olan hüquqi şəxsin ləğv edilməsi (başqa şəxslə birləşməsi), yenidən təşkil edilməsi və ya fiziki şəxsin hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətinə xitam verilməsi barədə müraciəti olduqda, ərizənin vergi orqanına təqdim edildiyi tarix yoxlama ilə əhatə edilməli dövrün son dövrü hesab edilir.

Vergi ödəyicilərinə təyin edilən səyyar vergi yoxlamaları aşağıdakı vergi növlərinə görə Vergi Məcəlləsi ilə müəyyən edilən dövr üzrə fəaliyyət dövrlərini əhatə etməlidir;

Mənfəət, gəlir, əmlak, yol və torpaq vergiləri üzrə vergi ödəyicisinin son 3 təqvim ilindən cox olmayan fəaliyyətini;

Digər vegilər üzrə səyyar vergi yoxlamasının keçirildiyi il də daxil olmaqla vergi ödəyicisinin son 3 ildən cox olmayan fəaliyyətini.

Cinayət prosessual qanunvericiliyinə uyğun olaraq məhkəmənin və ya hüquq-mühafizə orqanlarının səyyar vergi yoxlamasının keçirilməsi barədə müvafiq qərarında vergi ödəyicisinin fəaliyyəti üzrə qeyd edilən dövr yoxlama ilə əhatə edilə bilər.

Səyyar vergi yoxlaması /.amanı yoxlanılan dövrün dəyişidirilməsi zərurəti yarandığı halda vergi orqanının rəhbərinin (rəhbərin müavinin) müvafiq qərarı ilə səyyar vergi yoxlamasının aparılması haqqında qərara əlavələr (dəyişikliklər) edilə bilər.

Yoxlanılan dövrün dəyişdirilməsi zamanı Vergi Məcəlləsinin 36.3-cü maddəsinin tələblərinə riayət edilməlidir.

Yoxlanılan dövrün ilk tarixinin dəyişdirilməsi bu metodikanın 11.3.3 maddəsində göstərilən hal istisna olmaqla yol verilməzdir.

Yoxlanılmış dövrün yenidən yoxlanılması üçün səyyar vergi yoxlaması aşağıdakı hallarda təyin edilə bilər:

Vergi ödəyicisi olan hüquqi şəxsin ləğv edilməsi (başqa şəxslə birləşməsi), yenidən təşkil edilməsi və ya fiziki şəxsin hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətinə xitam verildikdə,

Vergi Məcəlləsinin 36.5-ci və 38.3-cü maddələrində nəzərdə tutulan hallar olduqda.

Səyyar vergi yoxlaması zamanı *vergi ödəyicisi olan hüquqi şəxsin ləğv edilməsi, yenidən təşkil edilməsi və ya fiziki şəxsin hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətinə xitam verilməsi barədə müraciəti olduqda,* vergi orqanının rəhbərinin (rəhbərin müavinin) müvafiq qərarı ilə səyyar vergi yoxlamasının aparılması haqqında qərarda vergi yoxlamasına əsas verən maddənin dəyişdirilməsi barədə əlavələr (dəyişikliklər) edilə bilər.

Müddət mülki hüquq və vəzifələrin əmələ gəlməsinin, dəyişdirilməsinin və xitamının bağlı olduğu vaxtdır.

Müddətlərin müəyyən edilməsi Azərbaycan Respublikasının Mülki Məcəlləsi və Vergi Məcəlləsi ilə tənzimlənir.

Yarımillə hesablanan müddət altı aya, rüblə hesablanan müddət üc aya bərabərdir və bu müddərlər ilin əvvəlindən hesablanır.

Vergi Məcəlləsi ilə müəyyən edilən hər hansı müddətin axımı onun hesablanmasını şərtləndirən hüquqi hərəkətin və ya faktiki hadisənin həyata keçirildiyi sonrakı gündən başlanır.

Metodikada nəzərdə tutulan hər hansı müddət qeyri-iş gününə təsadüf edərsə, həmin müddət onun ardınca gələn ən yaxın növbəti iş gününə keçir. Hər hansı müddət göstərilən dövrün sonuncu gününün axırında və ya aşağıdakı vaxtlarda qurtarır:

- illərlə hesablanan müddət müddətin sonuncu ilinin müvafiq ayında və günündə;
- aylarla hesablanan müddət müddətin sonuncu ayının müvafiq günündə;
- həftə ilə hesablanan müddət müddətin sonuncu həftəsinin müvafiq günündə;
- günlərlə hesablanan müddət müddətin sonuncu gününün başa çatması ilə bir vaxtda.

Əgər müddətin sonuncu günü qeyri iş gününə düşürsə, ondan sonrakı iş günü müddətin qurtardığı gün sayılır.

Yanm ayla müəyyənləşdirilmiş müddət günlərlə hesablanan müddət kimi qiymətləndirilir və on beş günə bərabər sayılır.

Əgər müddət bir və ya bir neçə aydan və ayın yarısından ibarətdirsə, on beş gün axırda hesablanmalıdır.

Müddət uzadıldıqda yeni müddət bitmiş müddətin sonundan yəni növbəti gündən hesablanır.

Vergi auditi 30 gündən artıq davam edə bilməz.

Müstəsna hallarda, yəni səyyar vergi yoxlamasının başa çatdırılması mümkün olmadıqda yoxlama müddəti 90 günə qədər artınla bilər.

Yoxlama müddətinin artınıması müvafiq vergi orqanının qərarına əsasən həyata keçirilir.

Aşağıda göstərilən hallarda müvafiq vergi orqanının əsaslandınimış qəranna əsasən səyyar vergi yoxlamasının nəticələri üzrə aktın tərtibi müddəti 30 gündən çox olmayan müddətə uzadıla bilər:

1. Səyyar vergi yoxlamasının obyektiv və dolğun keçirilməsi üçün zəruri olan sənədlər, o cümlədən vergi orqanının sorğusuna cavab xarici ölkədən alındıqda;

2. Nümunə kimi götürülən əşyalann tədqiqi, səyyar vergi yoxlaması zamanı ekspertizanın keçirilməsi və ya mütəxəssis tərəfindən rəy verilmə üçün müxtəlif bilik sahələrindən istifadə etməklə apanidıqda;
3. Səyyar vergi yoxlaması ilə əlaqədar vergi orqanları tərəfindən göndərilən sorğulara cavabların alınma müddətləri cavab göndərən şəxslər tərəfindən pozulduqda.
4. Səyyar vergi yoxlaması zamanı inventarizasiyanın aparılması müddəti bir qayda olaraq 10 gün müəyyən edilir.

Müstəsna hallarda (inventarizasiya aparılan obyektlərin müxtəlif ərazilərdə yerləşməsi, iş həcminin çox olması, vergi ödəyicisi inventarizasiyanın nəticələri ilə razılaşmadıqda və s.) inventarizasiyanın müddəti müvafiq vergi orqanının əsaslandırılmış qərarı ilə səyyar vergi yoxlamasının keçirildiyi müddətdən çox olmayaraq artırila bilər.

Vergi auditi vergi ödəyicisinin iş günü və iş vaxtı ərzində həyata keçirilməlidir. Müvafiq vergi orqanının razılığı ilə əsaslı hallar olduğu zaman səyyar vergi yoxlamasının aparılması müvəqqəti dayandırıla bilər.

4.7.4. **Yoxlamada iştirak edən şəxslərin müəyyən edilməsi, vergi ödəyiciləri ilə yazışma və vergi auditi zamanı tövsiyyə olunan xüsusiyyətlər**

Vergi auditinə audit strukturunun bir və ya bir necə əməkdaşı, o cümlədən digər struktur vahidlərinin şəxsi heyəti də müvafiq vergi orqanın razılığı ilə səyyar vergi yoxlamalarına cəlb edilə bilər.

Zərurət yarandığı hallarda audit şöbəsinin rəisləri (müavinləri) "Səyyar vergi yoxlamasının keçirilməsi haqqında Qəraf'da adları qeyd edilməklə səyyar vergi yoxlamalarında iştirak edə bilərlər.

Bir vergi ödəyicisində əvvəlki səyyar vergi yoxlamasında iştirak etmiş yoxlayıcı həmin vergi ödəyicisində sonrakı səyyar vergi yoxlamalannda müvafiq vergi orqanının razılığı ilə iştirak edə bilər.

Yoxlanılan dövrün yenidən yoxlaması üçün vergi orqanlarının əvvəlki səyyar vergi yoxlamasının aparılması həvalə edilmiş vəzifəli şəxsləri tərəfindən keçirilə bilməz.

Səyyar vergi yoxlamasının keçirildiyi dövrdə vergi orqanının qəranna əsasən yoxlama qrupunun tərkibi genişləndirilə və ya dəyişdirilə bilər.

Yerli vergi orqanı tərəfindən aparılan səyyar vergi yoxlaması qrupunun tərkibinə zəruri hallarda müvafiq vergi orqanın qəranna əsasən digər vergi orqanının əməkdaşı əlavə edilə bilər.

Səyyar vergi yoxlaması zamanı vergi orqanının vergi ödəyicisinə tələbi yazılı şəkildə tərtib edilməmişdirsə və vergi ödəyicisinə verilməmişdirsə, belə tələblərin hec biri vergi ödəyicisi üçün hüquqi qüvvəyə malik deyildir.

Vergi orqanının vergi ödəyicisinə göndərdiyi hər hansı bildiriş və ya digər sənəd vergi orqanının rəhbəri (onun müavini) tərəfindən imzalanmalı və möhürlə təsdiq edilməlidir.

Sənədlər vergi ödəyicisi olan hüquqi şəxsin dövlət qeydiyyatı haqqında sənədlərində və ya vergi ödəyicisi olan fiziki şəxsin uçot sənədlərində sonuncu ünvan kimi qeyd olunmuş ünvana zərfin qəbul edildiyinə dair bildiriş yazılan sifarişli məktubla çatdırıldıqda və ya imza edilməklə şəxsən verildikdə lazımi qaydada vergi ödəyicisinə verilmiş sayılır.

Vergi auditi zamanı əlavə vergi hesablamalarına dair tətbiq edilən və tərtibi zəruri olan digər sənədlər öz məzmununa və mahiyyətinə görə vergi qanunvericiliyinə uyğun olmalıdır.

Səyyar vergi yoxlamalarının səmərəli keçirilməsi üçün uyğun üsullar müəyyənləşdirilməli, auditin iş həcmi yaxşı və dəyərli işlər üçün uyğunlaşdırılmalı və müəyyən edilmiş müddətlərdən tam istifadə edilməlidir.

Vergi ödəyiciləri ilə müsahibələrin planlaşdırılması və aparılması üsulları dərk edilməli, vergi ödəyicisinin biznes fəaliyyətləri ilə birbaşa və müfəssəl tanış olunmalı və vergi ödəyicisi ilə görüşməzdən öncə aparılması nəzərdə tutulan işlər təhlil edilməlidir.

Vergi orqanında vergi ödəyicisi haqqında mövcud məlumatlar toplanmalı, vergi ödəyicisi ilə görüşməzdən əvvəl planlaşdırılan məsələlər struktur bölmənin rəhbəri ilə müzakirə edilməlidir.

Mənfi reaksiyaları yarada bilən amillərdən uzaq durulmalı, təkrarlanan təxirə salmalar müzakirə edilməli, vergi ödəyicisi ilə görüşə vaxtında gəlməli, vaxt cədvəlinə əməl edilməli və bütün işlər həmişə vergi ödəyicisinin vaxtına münasib uyğunlaşdırılmalıdır.

Yoxlama yerinə gedən zaman vergi ödəyicisi ilə görüşə hazırlıqlı olmalı, səliqəli geyim tərzinə və Xüsusi geyim formalarının daşınması qaydalarına əməl edilməli, salamlaşma, danışıq, əyləşmə və qulaq asma texnikalanna diqqət yetirilməlidir.

Vergi ödəyicisinin vəzifəli şəxsləri ilə müsahibə zamanı onlara arxa və yan çevirməməli, danışdıqda və yaxud dinlədikdə barmaq və əl jestlərindən və yaxud üz ifadələrindən istifadə edilməməlidir.

Vergi ödəyicisinə sual verildikdə onu dinləmə prosessində məlumat alan zaman və yaxud kənarlaşma işləri aşkar etdikdə qanun pozuntusuna yol verilməsinə tam əmin olunmadan onlann dəyəri barəsində fikir söylənilməməlidir.

Müsahibələrə, əraziyə baxış işlərinə əgər bir görüş kifayət etməzsə, digəri təşkil edilməli, müəyyən edilmiş hədəfə nail olmaq üçün fikri cəmləşdirmək məqsədi ilə bir vaxtda eyni mövzu üzərində dayanılmalı və peşəkarlıqla təəssüratlar bildirilməlidir.

Yanlış mənalardan, səhv başa düşülmüş fikirlərdən və ya münaqişələrdən uzaq olmaq üçün və yaxud müsahibin hər hansı fikirdən imtina etməsindən çəkin- dinnək məqsədi ilə vergi ödəyicisi ilə aparılan sorğulardan dərk edilən məsələlər haqqında fikir mübadiləsi aparılmalıdır.

Vergi yoxlamaları hər hansı vergi ödəyicisi üçün xoşagələn bir təcrübə olmadığından, onun xoşagəlməz təbiətini azaltmaq üçün yoxlama həvalə edilmiş şəxs vergi bəyannamələrinin düzgünlüyünü yoxlamaq məqsədilə ən yaxşı təcrübələri və ən asan yanaşma üsullarını Öyrənməli və bu üsullardan səmərəli istifadə etməlidir.

Vergi auditində iştirak edən hər bir əməkdaş yoxladıqları biznes sahələrinin hamısında ekspert biliiklərinə uyğun mühakimələr irəli sürməlidir.

Yoxlama zamanı vergi ödəyicisinə verilən suallar üzrə verilmiş məlumatların dərk edilməsi qısaca bildirilməli və vergi ödəyicisinə onun tərəfindən vaxtın ayrılması, məlumatların verilməsi və tələb olunan sənədlərin təqdim edilməsi onun diqqətinə çatdırılmalıdır.

Yoxlamanın gedişatında və yaxud onun yekunu müddətində sual doğuran məqamlar üzrə heç bir zaman tələsik nəticə çıxarılmamalı və yaxud iş üzrə fərdi ideyalar büruzə verilməməlidir.

Səyyar vergi yoxlamasında aparılmış bütün riyazi hesablamalar düzgün və səliqəli olmalıdır.

Qanunvericiliyin pozulması hallarını özündə əks etdirən sübutlar haqqında müfəssəl məlumatlar toplanmalı və aydın formada səyyar vergi yoxlaması aktında qeyd edilməlidir.

Səyyar vergi yoxlaması zamanı tərtib edilən sənədlər əlavə izahata ehtiyac qalmayan aydın və dərk edilən formada olmalıdır ki, onlardan istifadə edən hər bir şəxs onun məqsədini, auditin həcmini və nəticələrini müəyyənləşdirmək imkanına malik olsun.

Tərtib edilən sənədlər standartlaşdırılmış formada hazırlanmalıdır ki, onlann əldə edilməsi, daşınması və saxlanılması asan olmalı, hazırlıq prosessi obyektiv formada olmalı, onlara peşəkar görünüş verilməli, sonrakı auditlərə yardımçı olmalıdır.

Səyyar vergi yoxlaması zamanı tətbiq edilən cədvəllər, siyahılar informasiya texnoloğiyalarmdan istifadə edilməklə və həmçinin əl ilə yazılmaqla doldurula bilər.

Xüsusi ilə inventarizasiya siyahıları mürəkkəblə və ya diyircəkli qələmlə aydın və dəqiq yazılmalı, pozuntulara və qaralamalara yol verilmədən doldurulmalı, doldurulmamış sətirlər qalmamalı, sonuncu səhifələrdə doldurulmamış sətirlər xətlənməldir.

Xüsusiyyətindən asılı olaraq tərtib edilən hər bir cədvəldə ad, say, sahə, ölçü vahidləri və s. dolğun göstərilməlidir.

Yerində tətbiqi zəruri olan sənədlərdə səhvlərin düzəldilməsi bütün nüsxələrində düzgün olmayan məlumatlann üstündən xətt çəkilməli və onun üstündən düzgün məlumatlar yazılmalı, düzəlişlərin aparıldığı bütün hallarda izahatlar əlavə olunmalı və düzəlişlər vergi auditini həyata keçirən şəxs tərəfindən imzalanmalıdır.

Səyyar vergi yoxlaması həyata keçirilən vergi ödəyicisi barədə müfəssəl məlumatlar əldə etmək məqsədi ilə əvvəlki yoxlamanı aparan və ya digər analoji vergi ödəyicisini yoxlamış yoxlayıcıdan yoxlama zamanı yardımçı ola biləcək hər hansı üsullar öyrənilə bilər.

Səyyar vergi yoxlaması zamanı vergi orqanının vəzifəli şəxsinin tələbi yerinə yetirilmədikdə İnzibati Xətalar Məcəlləsinin 325-ci maddəsinə əsasən həmin vergi ödəyicisinin rəhbərinin (səlahiyyətli nümayəndəsinin) və fərdi sahibkarın inzibati məsuliyyətə cəlb edilməsi üçün tədbir görülə bilər.

Yoxlama zamanı yoxlama həvalə edilmiş şəxslərin subyektiv fikirləri olmamalıdır.

4.7.5. Vergi auditinin mərhələləri

Vergi auditi aşağıdakı mərhələlərdən ibarətdir:

1. Vergi auditi məqsədi ilə seçim tələbləri
2. Vergi auditində tədqiq
3. Vergi auditinin planlaşdırması
4. Vergi auditində yönləndirmə prosessləri
5. Vergidən yayınma risklərinin təhlili və müəyyən edilməsi
6. Vergi auditi nəticələrinin rəsmiləşdirilməsi
7. Vergi auditinin nəticələrinin müzakirəsi və qiymətləndirilməsi

Vergi auditi məqsədi ilə seçim - səyyar vergi yoxlaması üçün bir seçim planıdır.

Vergi auditinin təyin edilməsi əsaslandırma xarakterinə görə aşağıdakı nəticələri özündə əks etdirir:

- > vergi auditi məqsədi üçün vergi bəyannamələrinin təhlili zamanı istifadə olunan seçmə metodları;
- > risk modellərinə əsaslanan nəticələri;
- > Vergi Məcəlləsinin 38.3 maddəsində nəzərdə tutulan halların yaranmasını.

Vergi auditi məqsədi ilə risk modellərinə əsaslanan seçimin nəticələri növbəti səyyar vergi yoxlaması üçün əsasdır.

AVİS layihəsi daxilində audit işlərinin avtomatlaşdırılmasında istifadə edilmək üzrə inkişaf etdiriləcək audit seçmə sistemi, bəyannamələrdəki məlumatlardan audit üçün lazımlı olan vergilər və xarici mənbələrdən əldə ediləcək məlumatlar bu metodikada tərif edilməkdədir.

Növbəti .səyyar vergi yoxlaması məqsədi ilə vergi ödəyicisinin seçilməsi aşağıdakı metodlara əsaslanaraq yerinə yetirilməsi tələb edilir:

Təsadüfi audit seçilməsi: Bir sıra vergi ödəyiciləri arasında vergidən yayınmaya meyilli olan şəxslərin vergi auditinə cəlb edilməsidir.Qanunvericilikdə nəzərdə tutulmuş digər halların olması bu metodun tərkib hissəsidir.

Bəlli mənbələrə əsaslanan audit seçilməsi: Xüsusilə böyük şirkətlər və qabaqcıl sektorlar üzərində aparılması lazımlı bir audit seçmə texnikasıdır.Gömrük orqanlarının və digər mənbələrin rəsmİ məlumatları ilə vergi ödəyicisi tərəfindən təqdim edilmiş hesabatlardakı məlumatlar arasında, eyni zamanda bəyannamələrdə və ya vergi orqanlarına təqdim olunmuş digər sənədlərdə vergidən yayınmaya səbəb olan uyğunsuzlann araşdırılması səyyar vergi yoxlaması aparmadan mümkün olmaması kimi hallar bu metodun tərkib hissəsidir.

Digər məlumatlara istinad edən audit seçilməsi: Audit işini aparan şəxslərin illərcə təşkil etdikləri araşdırma təcrübələri əsasında doğru qərar verməyi təmin edəcək bir metoddur.Bu metodun tərkib hissəsinə digər vergi və dövlət orqanlan- nın məlumataları, materiallan, vergi ödəyicisinin sonuncu üç hesabat ili ərzində fəaliyyətinin vergi orqanları tərəfindən yoxlanılmaması aiddir.

Proqram təminatlı modellərlə audit seçilməsi:^erg auditi məqsədi üçün risklərə əsaslanan avtomatlaşdırılmış seçmə metodudur.

Qeyd edilən metodların hamısı bir-birini dəstəkləyəcək şəkildə vahid modellərdə cəmləşdirilərək istifadə edilməsi vergidən yayınma risklərini müəyyənləşdirir.

, Vergi auditi məqsədi ilə risk modelləri tərəfindən istifadəçiyə bütün model və altmodellərin nəticələri avtomatik olaraq təqdim edilir. Bu sistem bir köməkçi və altı seçim modelindən ibarətdir ki, bu modellər də öz növbəsində hər biri müstəqil fəaliyyət göstərərək eyni göstəriciləri fərqli istiqamətlərdən şərh edir. Bütün modellərin əhatə dairəsi vergi ödəyicilərinin əhatə dairəsinə görə müəyyənləşdirilir.

Risk modellərinin əhatə dairəsinə aşağıdakı parametrlər daxildir:

- fəaliyyət sahəsi (vergi ödəyiciləri fəaliyyət kodlan üzrə);
- vergi ili;
- ərazi məlumatı;
- vergi ödəyicisinin fəaliyyət müddəti (yaşı);
- işçilərin sayı.

Əhatə dairəsi vasitəsilə sistem daha oxşar vergi ödəyicilərini bir araya gətirərək, daha etibarlı işləməyə şərait yaradır.

AVİS-də hazır nəticələrin müəyyən vaxt intervallarında sürətli əldə edilməsi üçün vergi ödəyicilərinin vergilər barədə hesablamaları və ödəmələri üzrə məlumatlar təzələnəcəkdir.

Risklərə əsasən seçimin nəticəsi olaraq sistem tərəfindən hər bir vergi ödəyi- cisi üzrə bir sətrlə göstəriciləri və digər əsas altı modelin (o cümlədən, altmodellərin) risk balını və yekun risk balını verilir.

Bu metodika ilə seçimin daha etibarlı nəticə göstərməsi üçün bütün modellərin eyni əhatə dairəsində çalışması müəyyən edilmişdir.

Vergi ödəyicisinin hər hansı bir model üzrə bazada göstəricisi olmadıqda, modelin nəticə göstəricisi yekun risk balına təsir etmir.

Bu metodikada təsbit edilən köməkçi model vasitəsilə əhatə dairəsində bir və ya birdən çox olan vergi ödəyicilərinin göstəriciləri alınır.

Köməkçi model vasitəsi ilə aşağıdakı göstəricilərin alınması müəyyən edilmişdir: fəaliyyət növü, mülkiyyət növü, təşkilatı hüquqi forması, mənfəət üzrə dövriyyə, vergiyə cəlb olunan mənfəət, ƏDV üzrə dövriyyə, əvəzləşdirilən ƏDV məbləği, idxal və ixrac məbləğləri, əmlakın dəyəri, torpaq sahəsi, hesablanmış və ödənilmiş vergi, vergilər üzrə borc və ya artıq ödəmə məbləği, sonuncu SVY-nın tarixi, dövrü, əlavə hesablanmış vergi və tətbiq edilmiş maliyyə sanksiyası məbləği, SVY-nı aparmış müfəttiş, sonuncu xronometrajm tarixi və müəyyən edilmiş orta aylıq dövriyyə məbləği, təsisçilər, təsisçilərin digər müəssisələri, bank hesabları.

Vergi auditində tədqiq - səyyar vergi yoxlaması ərəfəsində vergi ödəyicisinin rəhbəri və digər vəzifəli şəxsləri ilə yoxlamanın aparılması həvalə edilmiş müfəttiş arasında aparılan müsahibədir.

Vergi auditində tədqiq işləri vergi ödəyicisinin sahibkarlıq fəaliyyəti ilə ilk tanışlıq xarakteri daşıyır və yoxlama prosessinin aynimaz tərkib hissəsidir.Vergi ödəyicisi ilə aparılan tədqiq işləri sahibkarın biznes fəaliyyətlərini xarakterizə edən məlumatların əldə edilməsinə imkan yaradır.

Vergi auditinin tədqiqi məqsədi ilə vergi ödəyicisi ilə müsahibə aparılır. Müsahibələr növbəti səyyar vergi yoxlamasında bildiriş təqdim edildiyi və növbədən

kənar səyyar vergi yoxlamasında isə yoxlamanın başlandığı gündən sonra 7 gün müddətində aparılır.

Vergi ödəyicisinə verilən suallar vergi ödəyicisinin sahibkarlıq fəaliyyətinə uyğun olmalı və səyyar vergi yoxlamaları zamanı məhsuldar müsahibələrin keçirilməsi üçün məqsədyönlü üsullar müəyyənləşdirilərək istifadə edilməlidir.

Müsahibələr elə bir tərzdə qurulmalıdır ki, vergi ödəyicisinin işi düzgün aparmaması (yalançılıq) hallarının aşkara çıxarılması mümkün olsun.

Vergi Ödəyicisi ilə görüşməzdən öncə onun işləri təhlil edilməli, vergi ödəyicisinin həyat tərzi mümkün dərəcədə onun gəlir səviyyəsi ilə əlaqələndirilməlidir (yalnız fiziki şəxslər və yaxud işçilər).

Vergi ödəyicisində tədqiq işlərinə biznes üslubuna uyğun yanaşılmalı və münasib mühitin yaradılmasına nail olunmalı, vaxt vergi ödəyicisinin cədvəlinə münasib təşkil edilməli, bütün müzakirələr zamanı işgüzarlıq, hörmət və yüksək peşəkarlıq nümayiş etdirilməlidir.

Biznes fəaliyyəti, mühasibatlıq və vergi qanunvericiliyi ilə əlaqədar suallara tədricən keçilməli, mövzular ədəb-ərkanla və öz vaxtında dəyişdirilməlidir.

Yoxlamaya bir nəfərdən cox əməkdaş cəlb edildikdə vergi ödəyicisi ilə müsahibəni aparmalı olan şəxs struktur rəhbəri (müavini) tərəfindən təyin edilir.

Suallar verilən zaman hər hansı bir mövzu hədəf olmalı və hədəfə alınmış mövzu haqqında sadə, spesifik və birbaşa suallar verilməlidir.

Vergi ödəyicisində danışmaq qorxusunu azaltmaq üçün onun ifadə etdiyi hər bir fikir qısa cümlələrlə yazılmalı və təfərrüatlar mümkün qədər qeyd edilməlidir.

Əsas elementlər barədə yəni adlar, yerlər, nömrələr, rəqəmlər üzrə suallann cavabları yazı ilə qeyd edilə bilər.

Müsahibə prosessinin bir hissəsi vergi ödəyicisi tərəfindən mühasibat kitablarının və qeydlərinin necə aparıldığı və gündəlik biznes əməliyyatlarını necə sənədləşdirdiyi barədə məlumat almaqdan ibarət olmalıdır.

Struktur bölmənin rəhbəri (müavini) tərəfindən təklif olunan suallar vergi ödəyicisinin fəaliyyətinə uyğun gəlmədikdə və rəhbərliyi maraqlandıran mövzu üzrə hər hansı spesifik sual yarandıqda "Vergi auditi tədqiqinin sorğu anketi"nə əlavə edilə bilər.

Vergi ödəyicisi ilə müsahibə zamanı aşağıdakı məlumatları özündə əks etdirən suallar verilə və müəyyənləşdirilə bilər:

- tədqiq işlərində açıq sonluqlu suallardan istifadə edilməlidir. Məsələn "Malları haradan və kimdən alırsınız?". Bu cür suallar vergi ödəyicisinin əməliyyatı haqqında bilgi əldə edən zaman çox səmərəli olur. Cavabları "bəli və yaxud xeyr" kimi nəticələnən şullar məhsuldar hesab olunmur. Məsələn "Tərəfdaş şirkətdən mal alırsınız?";
- nəzarət kitabçasının mövcudluğu;
- sahibkarlıq fəaliyyəti haqqında ümumi məlumat;
- təsisçilər mövcudluğu;
- təsərrüfat subyektləri və ya filialları;
- Azərbaycan Respublikasının hüdudlarından kənar investisiya qoyuluşları və sonuncu dəfə əldə edilən əmlaklar;

- mühasibatlığa dair məsul şəxs;
- vergi ödəyicisinin ucot siyasəti;
- dövlət tərəfindən əvvəllər aparılan hər hansı yoxlamalar;
- daxili audit və ya digər auditor xidmətləri;
- mühasibat balansının hazırlanması və sahibkar tərəfindən nəzərdən keçirilməsi;
- bəyannamələrin hansı qaydada təqdim edilməsi;
- dövriyyə jurnallarına daxil edilən qeydlərin təsdiq edilməsi;
- nəğd ödəniş qəbzləri jurnalına, kassa kitabına mühasibdən başqa digərləri tərəfindən müdaxilə olunması;
- nəğd ödənişlər və pul vəsaitlərinin dövrü olaraq sahibkar və ya işçi tərəfindən yoxlanılması və s.

Suallar yoxlayıcı tərəfindən hazırlanmalı və şöbə rəisi ilə razılaşdırılmalıdır. Vergi ödəyicisinin fəaliyyətinə uyğun olaraq suallar müxtəlif ola bilər. Tədqiq işləri Vergilər Naziri tərəfindən təsdiq edilmiş formaya uyğun olaraq tərtib edilməlidir. Tədqiq işlərinin nəticələri yoxlama materiallarına əlavə edilməlidir.

Vergi auditində planlaşdırılma səyyar vergi yoxlamalarının səmərəli aparılmasını və səyyar vergi yoxlamaları zamanı tətbiqi zəruri olan hərəkətlərin ardıcıllığını müəyyən edir. Vergi auditində planlaşdırma vergi ödəyicisinə səyyar vergi yoxlaması təyin edildikdən sonra həyata keçirilir. Səyyar vergi yoxlaması zamanı audit planı genişləndirilə və ya məhdudlaşdırıla bilər.

Audit planının ilk iş sənədi *"Yoxlayıcmın məsələnin araşdırılması ilə bağlı gördüyü işlərin hesabatı"* tərtib edilməli və icra edilən işlərin xronoloji ardıcıllığını əks etdirməlidir. Bu o deməkdir ki, yoxlayıcı hər dəfə araşdınlan məsələyə toxunan zaman tarix və gördüyü iş barəsində qısa məlumatı qeyd edir.

Audit planlaşdırmasında aşağıdakı məsələlər plana daxil edilməlidir:

1. Vergi auditi aparılması nəzərdə tutulan hər bir vergi ödəycisi üçün iş qovluğu açılmalı və qovluqda vergi ödəyicisinin adı, VÖEN-i, yoxlama ilə əhatə edilən dövr, yoxlayıcmın adı, qovluğun iş nömrəsi və hazırlanma tarixinin qeyd edilməsi.
2. Hər bir vergi auditi üzjə iş həcmi və yoxlama aparılması nəzərdə tutulan vergi ödəyicisinin xüsusiyyətləri nəzərə alınmaqla yoxlamanın keçirilməsi müddətinin müəyyən edilməlməsi.
3. Audit planlaşdırması hər hansı bir vergi ödəyicisinin elektron iş qovluğunun və vergi ödəyicisi barəsində vergi orqanında olan digər məlumat bazalarının öyrənilməsindən başlanması.
4. Vergi ödəyicisinin fəaliyyətini xarakterizə edən digər mənbələrdən məlumatlar (reklam rolikləri, KİV-də reklam, internet saytlannda, sponsor fəaliyyəti barədə, vergi ödəyicisinin rəhbərinin əldə etdiyi əmlaklar, qiymətli kağızlarının biıjalarda satışı, alınan səhmlər barədə məlumatlar və yoxlama predmetinə aid digər məlumatlar) toplanmalı və zəruri hallarda yoxlama zamanı bu məlumatlardan istifadə edilməsi.

5. Əvvəlki səyyar vergi yoxlaması ilə aşkar edilmiş vergi qanunvericiliyinin pozulması səbəbləri və nəticələrinin aradan qaldırılması hallarının öyrənilməsi.
6. Vergi auditi aparılan vergi ödəyicisi tərəfindən Vergi Məcəlləsinə uyğun olaraq təqdim ediləcək sənədlərin müəyyən edilməsi.

Vergi auditinin ilkin tədqiqi zamanı vergi ödəyicisinin veridiyi cavablar təhlil edilməli və vergi ödəyicisinin biznes fəaliyyəti ilə uzlaşdınidıqdan sonra aşağıdakı prosedurlar həyata keçirilməlidir:

:s səyyar vergi yoxlaması zamanı vergi ödəycisində daxili audit məlumatları və ya digər auditor xidmətlərinin nəticələri öyrənilməlidir;

t: vergi ödəyicində apanimış kameral vergi yoxlamalannin və operativ vergi nəzarətinin (xüsusi ilə xronometraj metodu ilə müşahidə) nəticələri öyrənilməlidir;

13 vergi ödəyicisinin uçot metodu müəyyənləşdirilməlidir;

tj vergi ödəyicisinin faktiki göstərdiyi fəaliyyəti barədə məlumat vergi orqanlarında olan məlumatla uzlaşdınİmalıdır;

K vergi ödəyicisinin təsərrüfat subyektləri barədə məlumat vergi orqanlarında olan məlumatla uzlaşdırılmalıdır;

r: vergi ödəyicisinin rəhbərinin (təsisçisinin) digər hüquqi şəxslərin rəhbəri (təsisçisi) olduğu halda onların siyahısı və pay iştirakının həcmi müəyyənləşdirilməli, vergi orqanlarında bu barədə olan məlumatlar uzlaşdırılmalıdır;

£3 vergi ödəyicisinin fəaliyyətində iştirak edən və onun fəaliyyətinin nəticələrinə təsir edə biləcək qarşılıqlı əlaqəli şəxslərin olması araşdırılmalı və onların əhatələri tam öyrənilməlidir;

£3 vergi ödəyici.snin bank hesablan müəyyənləşdirilməlidir;

£3 xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növü ilə məşğul olması müəyyən edilməli və müvafiq Qaydalara əməl edilməsi vəziyyəti aydınlaşdırılmalıdır;

£3 vergi ödəyicisinin gəlir götürmək üçün istifadə etdiyi obyektlərdə nəzarət- kassa aparatlarının quraşdırılması qaydalarına əməl olunması aydmlaşdınl- malıdır;

£3 vergi ödəyicisinin rezident və ya qeyri-rezident olmasını şərtləndirən amillər tam araşdırılmalıdır;

£3 vergi orqanına təqdim edilməmiş bəyannamələr müəyyənləşdirilməlidir;

£3 təqdim edilən bəyyanamələr ilə tanış olunmalı, təhlil və müqayisələr aparılmalı və sual doğuran sətirlər qeyd edilməlidir;

£3 əldə edilən gəlirin xüsusiyyəti (satışdankənar gəlirlər də daxil olmaqla) və əldə edildiyi yer və hansı mənbədən olduğu müəyən edilməlidir;

£3 Azərbaycan mənbəyindən olan gəlir yoxlama ilə qeyd edilməli və sual doğuran məsələlər aydınlaşdırılmalıdır;

£3 vergi ödəyicisinin mülkiyyətində olan malların, iş və xidmətlərin təqdim edilməsi xüsusiyyətləri yoxlanılmalıdır;

£3 vergi ödəyicisinin maliyyə xidmətləri göstərməsi hallan müəyyənləşdirilməlidir;

£3 vergitutma obyektlərinin və vergi tutulan əməliyyatların düzgün müəyyən edilməsi yoxlama ilə əhatə edilməlidir;

u dövlət vergilərinin düzgün hesablanması və büdcəyə ödənilməsi tam aydınlaşdırmalıdır;

n xüsusi vergi rejimi tətbiq edildiyi halda, bu barədə qeyd edilməli və Azərbaycan Respublikasının qanunverciliyi ilə eləcə do digər normativ hüquqi aktlarla tənzimlənən tələblərə əməl edilməsi vəziyyəti aydınlaşdırılmalıdır;

u təqdim olunan malların, işlərin və xidmətlərin bazar qiymətlərinə uyğunluğu araşdırılmalı və uyğunsuzluq müşahidə edildiyi halda Vergi Məcəlləsinin tələblərinə uyğun olaraq vergilərin hesablanması bazar qiymətləri tətbiq edilməklə həyata keçirilməlidir;

K ƏDV məqsədləri üçün vergi öhdəliyinin yaranması və ƏDV qeydiyyatına dair vergi uçotuna dayanma qaydaları araşdırılmalıdır;

B ƏDV məqsədləri üçün vergi hesab fakturalannın tətbiqi qaydalarına əməl edilməsi vəziyyəti araşdırılmalıdır;

K səyyar vergi yoxlamasının səmərəli və keyfiyyətli keçirilməsi üçün vergitut- ma obyektlərinin düzgün müəyyən edilməsi məqsədi ilə vergi auditinin tədqiqinin aparıldığı müddətdə vergi ödəyicisinin ərazilərinə, binalanna, (yaşayış binaları istisna olmaqla) habelə əşyalarına baxış keçirilməlidir;

B vergi ödəyicisinin fəaliyyətini xarakterizə edən bilavasitə vergi orqanlarının fəaliyyət dairəsində olmayan sahələr araşdırılmalı və zərurət yarandıqda xüsusi biliyə malik mütəxəssis dəvət olunmalıdır;

K səyyar vergi yoxlaması zamanı zəruri olan sənədlər vergi ödəyicisindən Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada tələb edilməlidir;

[2 səyyar vergi yoxlaması ilə əlavə hesablanmış vergilər düzgün müəyyən edilməli və əsaslandırılmalıdır;

B vergi ödəyicisinin kommersiya sirri qorunmalıdır.

Vergi auditində yönləndirmə proscssləri. Vergi auditində tətbiq edilən sənədlər əlaqələndirici funksiyanı daşımaqla icra edilməli üsullann və prosedurların yönləndirmə prosesslərini özündə əks etdirir.

Vergi auditi zamanı yönləndirmə prosesslərində tətbiqi zəruri olan sənədlərin iki məqsədi vardır:

1) "Audit izi" kimi məlum olan audit fəaliyyətlərinin sənədləşdirilməsi;

2) fakt və nəticələri əsaslandırmaq üçün toplanmış məlumatlann sənədləşdirilməsi.

Yönləndirmə xarakterlərinə görə vergi auditində tətbiq edilən sənədlər aşağıdakı növlərə bölünür: məlumat, qərar, müraciət, bildiriş, protokol, akt, tələbnamə, yönlədirici vərəqələr, iş sənədləri.

Ardıcıllıq məqsədilə tətbiqi AVİS-in aidiyyəti altsistem vasitəsi ilə həyata keçirilən hər bir sənədə xarakterinə görə AVİS nömrəsindən əlavə seriya və sənəd kodu vcrilir.Tətbiq edilən sənədlərdə təyin edilmiş nömrə 001- dən başlayır və hər bir sənəd üçün ayrı rəqəm olmaqla sənəd xarakterinə görə ayrı seriyalar sənədlərdə öz əksini tapmalıdır.

Məlumat - audit fəaliyyəti zamanı tətbiqi zəruri olan sənədləşdirmələrin əsaslandırılması məqsədi ilə istifadəsi məcburi olan aşağıdakı sənədlərdən ibarətdir:

- "Vergi auditi üçün məlumat",
- "Səyyar vergi yoxlamasının müddətinin uzadılması barədə məlumat".

- “Səyyar vergi yoxlamasının müvəqqəti dayandırılması barədə məlumat”,
- “Səyyar vergi yoxlamasının dövrünün dəyişdirilməsi barədə məlumat”,
- “Səyyar vergi yoxlaması həvalə edilmiş əməİcdaşlarırr tərkibinin dəyişdirilməsi barədə məlumat”
- “Vergi ödəyicisinin qarşılıqlı əməliyyatları barədə məlumat”

Məlumat tipli sənədlər vergi orqanında AVİS-in aidiyyəti altsistemində hazırlanır və icra xarakterlidir.

Qərar tipli sənədlər səyyar vergi yoxlamasının təyin edilməsindən onun başa catmasınadək tərtib edilə biləcək aşağıdakı sənəd formalarından ibarətdir:

Səyyar vergi yoxlamasının keçirilməsi haqqında qərar;

Səyyar vergi yoxlamasının keçirilməsi haqqında qərara əlavələr (dəyişikliklər) edilməsi barədə qərar;

Səyyar vergi yoxlamasının müvəqqəti dayandınması haqqında qərar;

Səyyar vergi yoxlamasının keçirilməsi müddətinin artınması haqqında qərar;

Səyyar vergi yoxlamasının keçirilməsi haqqında qərarın ləğv edilməsi barədə qərar;

Səyyar vergi yoxlaması zamanı invenlarizasiyanın təyin edilməsi haqqında qərar;

Səyyar vergi yoxlamasının keçirilməsi zamanı vergi ödəyicisinin ərazisinin, binalarının habelə sənədlərin və əşyalann baxışının keçirilməsi haqqında qərar;

Sənədlərin və nümunə kimi əşyaların götürülməsi haqqında qərar; Tərcüməçinin dəvət edilməsi haqqında qərar;

Ekspertizanın təyin edilməsi haqqında qərar;

Mütəxəssisin dəvət edilməsi haqqında qərar;

Vergi yoxlaması keçirildikdə digər vergi ödəyicilərindən yoxlamanın pred-metinə aid sənədlərin götürülməsi haqqında qərar;

Səyyar vergi yoxlamasının nəticələri üzrə aktın tərtibi müddətinin uzadılması haqqında qərar;

Əlavə vergi yoxlaması tədbirlərinin keçirilməsi haqqında qərar;

Vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında qərar;

Vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsindən imtina olunması haqqında qərar;

Vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında vergi orqanının qərarının müvafiq vergi orqanı tərəfindən ləğvi haqqında qərar;

Ekspertizanın təyin edilməsi və keçirilməsi zamanı vergi ödəyicisinin hüquqları ilə əlaqədar vəsatətinin rədd edilməsi haqqında qərar;

Vergi ödəyicisi və ya borclu şəxs tərəfindən verilən şikayətə baxan vergi orqanı tərəfindən şikayət edilən qərarın (aktın) və ya hərəkətin tam və ya qismən dayandırılması haqqında qərar;

İnzibati tənbeh vermə haqqında qərar.

Qərarlar əsaslandınidığı halda AVİS-in audit altsistemində tətbiqinə yol verilir.

Müraciət - vergi ödəyicisinə yoxlayıcı tərəfindən edilən sorğunun rəsmi formasıdır və aşağıdakı sənədlərdən ibarətdir:

> "Vergi ödəyicisindən sənədlərin istənilməsi barədə müraciət"

> "Növbədənkənar səyyar vergi yoxlamasının başlanması barədə müraciət"

Müraciət tipli sənədlər AVİS-n aidiyyəti altsistemində hazırlanır və yoxlayıcı tərəfindən imzalanır.

Bildiriş-Vergi orqanı tərəfindən həyata keçirilməsi nəzərdə tutulan hərəkətlər barədə vergi ödəyicisinin əvvəlcədən məlumatlandınıması barədə rəsmi sənəd formasıdır və aşağıdakı sənədlərdən ibarətdir.

- Növbəti səyyar vergi yoxlamasının keçirilməsi haqqında bildiriş
- Hüquqi şəxsin və ya fərdi sahibkarın bank hesabı və əməliyyatları barədə məlumatların verilməsi haqqında bildiriş
- Vergi yoxlaması materiallarına baxılma haqqında bildiriş.

Bildiriş tipli sənədlər AVİS-in audit altsistemində avtomatik hazırlanır və vergi orqanın rəhbəri (rəhbərin müavini) tərəfindən imzalanır.

Protokol - əsas sənədin tətbiqindən asılı olaraq tərtibi zəruri olan aşağıdakı sənədlərdən ibarətdir:

» "Sənədlərin və nümunə kimi əşyaların götürülməsi haqqında protokol"

- "Vergi ödəyicisinin ərazisinə, binalarına, habelə sənədlərinə və əşyalarına baxışın keçirilməsi barədə protokol",
- "Ekspertizanın keçirilməsi haqqında qərarla tanış olma barədə protokol",

® "İnzibati xəta haqqında protokol",

- "Səyyar vergi yoxlaması aktına baxılma barədə protokol".

Protokol tipli sənədlər səyyar vergi yoxlamasının həyata keçirildiyi yerdə yoxlayıcı tərəfindən hazırlanır və tərtib edilmiş sənədlərdə əks olunmuş məlumatlar AVİS-in audit altsisteminə daxil edilir.

Akt - həyata keçirilən nəzarət işlərinin nəticələrinə uyğun olaraq rəsmiləşdirilmə məqsədi ilə tətbiq edilən sənəd formasıdır və aşağıdakı sənədlərdən ibarətdir:

- Səyyar vergi yoxlamasının keçirilməsi üçün vergi organının vəzifəli şəxslərinin ərazilərə və binalara (yaşayış binaları sahələri istisna olmaqla) daxil olmağa icazə verilməməsi baradə akt.
- Sənədlərin və nümunə kimi əşyaların verilməsindən imtina barədə akt.
- Səyyar vergi yoxlaması aktı.

Səyyar vergi yoxlaması aktı istisna olmaqla digər akt tipli sənədlər tətbiq edilmə xüsusiyyətlərindən asılı olaraq səyyar vergi yoxlaması həyata keçirildiyi yerdə tərtib edilir və qeyd edilmiş məlumatlar AVİS-in audit altsisteminə daxil edilir.

Tələbnamə - vergi qanunvericiliyinin icrası məqsədi ilə vergi ödəycisinə yönləndirilən tələblərin rəsmi formasıdır və aşağıdakı sənədlərdən ibarətdir:

- Vergi yoxlamasının keçirilməsi üçün zəruri olan sənədlərin təqdim olunması haqqında tələbnamə.
- Verqi borcunun, faizlərin, maliyyə sanksiyalarının məbləğlərinin, inzibati cərimələrin Ödənilməsi, habelə aşkar edilmiş pozuntuların aradan qaldırılması barədə tələbnamə.

Tələbnamə sənədləri AVİS-in audit altsistemində avtomatik olaraq tərtib olunur.

Yönləndirici vərəqələr - audit prosedurlannı göstərmək üçün yaddaş sənədidir və aşağıdakı sənədlərdən ibarətdir;

- Vergi auditi tədqiqinin sorğu anketi,
- Audit planı,
- Gəlirin yoxlanılması yönləndirici vərəqəsi,
- Xərclərin yoxlanılması yönləndirici vərəqəsi,
- Vergilərin yoxlanılması yönləndirici vərəqəsi,
- Risklərin təhlili cədvəli.

Gəlirin, xərclərin və vergilərin yoxlanılması zamanı təsnifatlarına uyğun olaraq hər bir gəlirin, xərclərin və vergilərin növləri üzrə ayrılıqda yönləndirici vərəqələr tətbiq edilir.

Bu növlü yaddaş sənədləri AVİS-in aidiyyəti altsistemində hazırlanır və yoxlayıcı tərəfindən səyyar vergi yoxlaması zamanı gəlir, xərclər və vergilər üzrə hər bir yoxlama predmetinə aid maddələrə ayrı-ayrılıqda yönləndirici vərəqə tətbiq edilir.

Yönləndirici sənəd yoxlayıcı tərəfindən hazırlanmalı və şöbə rəisi (müavini) tərəfindən təsdiq edilməlidir.

Yönləndirici sənəddə nəzərdə tutulan audit prosessləri zamanı yoxlamanın predmetinə aid sənədlər istənilməli və bu sənədlərin istənilməsi üçün vergi ödəyici- sinə rəsmi müraciət təqdim edilməlidir.

İş **sənədləri** - səyyar vergi yoxlaması zamanı müşahidələrdən, müsahibələrdən, kənar auditor rəylərindən, təhlillər zamanı toplanmış materiallardan və aşağıdakı digər sənədlərdən ibarətdir:

- Vergi ödəyicisi ilə yazışma
- Müsahibə protokolları
- Məlumat- analitik cədvəlləri və icmalları
- Müqavilələr və yardımçı sənədlərin nüsxələri
- Kompüter çap sənədləri və avtomatlaşdınimış məlumat qovluqları,
- Birbaşa müşahidələrin nəticəsində əldə olunmuş maddi sübutun və müsahibə yolu ilə əldə edilmiş ifadə xarakterli sübutun yazılı icmalları
- Audit zamanı əldə edilmiş digər sənədlərin nüsxələri
- Digər yazışmalar

İş sənədləri yoxlayıcı tərəfindən səyyar vergi yoxlamasında toplanır və vergi ödəyicisi ilə və ya digər rəsmi yazışmalann aparılması zərurəti yarandıqda AVİS- in aidiyyəti altsistemində tətbiq edilir.

Vergi auditinə başlama və ümumi tələblər. Qanunla nəzərdə tutulmuş hallarda vergilər və digər icbari ödənişlərə dair qanunvericiliyə əməl edilməsi vəziyyətinin düzgünlüyünün yoxlanılması məqsədi ilə Vergi auditinə başlanılır.

Vergi auditinin növbəti və ya növbədənkənar olmasından asılı olmayaraq "Vergi auditi üçün məlumat" (sənəd kodu YM-001) forması hazırlanmalıdır.

Növbəti və ya növbədənkənar səyyar vergi yoxlamaları vergi orqanının qəra- nna əsasən ləyin edilir və "Səyyar vergi yoxlamasının keçirilməsi haqqında qərar (sənəd kodu Q-002) forması hazırlanmalıdır.

Növbəti səyyar vergi yoxlamasının keçirilməsi üçün vergi orqanı vergi ödəyicisinə yoxlamadan azı 15 gün əvvəl bildirişi imza edilməklə əlbəəl və ya poçt vasitəsi ilə təqdim edilməlidir (Növbəti səyyar vergi yoxlamasının keçirilməsi haqqında bildiriş ~ sənəd kodu B-003)

Vergi ödəyicisinə göndərilən bildirişdə səyyar vergi yoxlamasının əsası və tarixi, habelə vergi ödəyicisinin və vergi orqanlarının hüquq və vəzifələri göstərilməlidir.

Növbəti səyyar vergi yoxlaması bildirişdə göstərilən tarixdən başlanmalıdır.

Vergi ödəyicisinin rəsmi müraciəti əsasında səyyar vergi yoxlaması müvafiq vergi orqanının razılığı ilə bildirişdə göstərilən tarixdən əvvəl və ya sonra başlana bilər.

Vergi ödəyicisi qərarla tanış olmaqdan və bildirişi qəbul etməkdən imtina eldikdə və ya vergi ödəyicisini tapmaq mümkün olmadıqda Bildiriş vergi ödəyicisinin hüquqi ünvanına poçt vasitəsilə göndərilir.

Vergi ödəyicisinin yoxlamanın müvəqqəti təxirə salınması barədə müraciəti olduqda müvafiq vergi orqanın razılığı ilə səyyar vergi yoxlaması müvəqqəti dayandırıla bilər və bu zaman "Səyyar vergi yoxlamasının müvəqqəti dayandırılması haqqında qərar" tətbiq edilir (sənəd kodu Q-004). Növbədənkənar səyyar vergi yoxlaması zamanı bildiriş təqdim edilmir.

Növbədənkənar səyyar vergi yoxlaması "Səyyar vergi yoxlamasının keçirilməsi haqqında qərar" imzalandığı tarixdən sonrakı gündən etibarən başlanmalıdır.

Yoxlamaya müvəkkil edilmiş şəxs səyyar vergi yoxlaması ərəfəsində vergi ödəyicisinə "Səyyar vergi yoxlamasının keçirilməsi haqqında Qərar"ı, yoxlama növbətidirsə "Növbəti səyyar vergi yoxlamasının keçirilməsi haqqında Bildiriş'M və xidməti vəsiqəsini təqdim etməlidir.

Yoxlamaya əsas verən sənədlər vergi ödəyicisinə təqdim edildikdən sonra yoxlamanın səbəb və məqsədləri ona izah edilməlidir.

Vergi ödəyicisində vergi auditinin başlanmasına dair müvafiq qeydlərin aparılması üçün Nəzarət kitabçası tələb edilməlidir.

Nəzarət kitabçasının olmaması səyyar vergi yoxlamasının aparılmasına təsir etmir.

Nəzarət kitabçası təqdim edildiyi halda yoxlamanın başlanması və kim tərəfindən aparılması barədə müvafiq qeydlər edilməlidir.

Vergi ödəyicisi ilə ilkin tanışlıq baş tutduqdan və Nəzarət kitabçasında müvafiq qeydlər apanidıqdan sonra vergi auditinin tədqiqinin apanlması məqsədi ilə maraq kəsb edən şullardan ibarət "Vergi auditi tədqiqinin sorğu anketi" foması tətbiq edilir, (sənəd kodu YV-005).

Vergi audtinin tədqiqi vergi ödəyicisinin iş günü ərzində aparılmalıdır.

Vergi auditinin tədqiqi başa çatdıqdan sonra səyyar vergi yoxlamasının planlaşdırılması aparılmalı və "Vergi auditi planı" yönləndirici vərəqəsi tərtib edilməlidir (sənəd kodu YV-006). Audit planı vergi ödəyicisinə təqdim edilmir.

Vergi auditinin başlanması üçün yoxlayıcı tərəfindən "Sənədlərin əldə edilməsinə dair müraciət" hazırlanmalı və vergi ödəyicisinə təqdim edilməlidir (sənəd kodu YV-007).

"Sənədlərin əldə edilməsinə dair müraciəf'də yoxlamanın predmetinə aid istənilən sənədlər tam və ardıcıllıqla açıqlanmalıdır.

Əgər vergi ödəyicisinin tapılması mümkün deyildirsə o zaman "Vergi auditi tədqiqinin sorğu anketi" və "Sənədlərin əldə edilməsinə dair müraciət" forması tərtib edilmir.

Vergi ödəyicisi tapılmırsa və ya müraciətdən sonra da sənədlər təqdim edilmirsə, vergi ödəyicisi tərəfindən hec bir səbəb göstərmədən yoxlayıcı qəbul edilmirsə və ya səyyar vergi yoxlamasının keçirilməsindən imtina edilirsə o zaman "Səyyar vergi yoxlamasının keçirilməsi üçün vergi organmın vəzifəli şəxslərinin ərazilərə və binalara (yaşayış binaları (sahələri) istisna olmaqla) daxil olmağa icazə verilməməsi baradə akt (sənəd kodu A- 008) tərtib edilməli, eyni zamanda vergi ödəyicisinə "Vergi yoxlamasının keçirilməsi üçün zəruri olan sənədlərin təqdim edilməsi haqqında tələbnamə" (sənəd kodu T-009) göndərilməlidir.

Sənədlərin verilməsi barədə tələb yönəldilən şəxs tərəfindən sənədlərin lazımi qaydada təsdiq edilmiş surətləri 5 gün müddətində vergi orqanına təqdim edil- mədikdə, sənədlərin istənilməsi barədə məhkəmə orqanlanna müraciət edilməlidir.

Vergi ödəyicisinin axtanlıb tapılması üçün Vergilər nazirliyinin aidiyyəti struktur bölməsinə müraciət edilə bilər.

Səyyar vergi yoxlamasını bilavasitə həyata keçirən vergi orqanmın vəzifəli şəxsinə tələb olunan sənədlər vergi ödəyicisi tərəfindən 5 gün müddətində təqdim edil- mədikdə və ya həmin sənədlərin onda olmaması vergi ödəyicisi təmfindən bildirildikdə, yoxlamanı həyata keçirən vergi orqanının vəzifəli şəxsləri Vergi Məcəlləsinin 42.2-ci və ya 43-cü maddələrində nəzərdə tutulan tədbirləri həyata keçirməlidirlər.

Səyyar vergi yoxlaması zamanı tələb olunan sənədlər təqdim edilmədikdə və Vergi Məcəlləsinin 43-cü maddəsində nəzərdə tutulan digər hallarda aşağıdakı sənədlər tərtib edilməlidir:

- "Sənədlərin və nümunə kimi əşyaların götürülməsi haqqında qərar (sənəd kodu Q-OlO);
- "Sənədlərin və nümunə kimi əşyaların götürülməsi haqqında protokol (sənəd P-kodu 011).

Sənədlərin və nümunə kimi əşyaların verilməsindən imtina edildikdə "Sənədlərin və nümunə kimi əşyaların verilməsindən imtina edilməsi barədə akf" tərtib edilir (sənəd kodu A-012).

Sənədləri əldə etmək mümkün olmadıqda Vergi Məcəlləsinin 67-ci maddəsində nəzərdə tutulan qaydalara uyğun olaraq vergi hesablanır və aktla rəsmiləşdirilir.

Digər hallarda sənədlərin və nümunə kimi əşyaların götürülməsi zərurəti yarandıqda, sənədlərin vergi ödəyicisi tərəfindən təsdiq edilmiş surətləri götürülür.

Vergi ödəyicisinin qanunvericiliklə müəyyən edilmiş qaydada gəlirlərinin və xərclərinin uçotunun aparılmaması, mühasibat və hesabat sənədlərinin məhv olunması (itirilməsi) hallan aşkar edildikdə, habelə vergi bəyannamələri müəyyən olunmuş müddətdə təqdim edilmədikdə və ya vergi yoxlamasının aparılması zamanı

vergi ödəyicisi tərəfindən vergi orqanlarının vəzifəli şəxslərinə sənədlər təqdim edilmədikdə, onlara ərazi və ya binalara (yaşayış binaları (sahələri) istisna olmaqla) daxil olmağa icazə verilmədikdə, vergi ödəyicisinin vergi öhdəliklərini müəyyənləşdirmək məqsədi ilə müvəkkil banka "Vergi ödəyicisinin bank hesabı və əməliyyatları barədə məlumatların verilməsi haqqında bildiriş" təqdim edilməlidir (sənəd koduB-013).

Sənədlərin əldə edilməsindən asılı olmayaraq "Ümumi məlumatlar" (sənəd kodu YV-014) yönləndirici vərəqəsi tətbiq edilməli və aşağıdakı məsələlər yoxlama ilə əhatə edilməlidir:

- vergi ödəyicisinin rezident və ya qeyri-rezident olmasını şərtləndirən amillər;
- vergi ödəyicisinin göstərdiyi faktiki fəaliyyət növü barədə məlumat;
- vergi ödəyicisinin rəhbərinin (təsisçisinin) digər hüquqi şəxslərin rəhbəri (təsisçisi) olduğu halda onların siyahısı və pay iştirakının həcmi;
- vergi ödəyicisinin təsərrüfat subyektləri barədə məlumatlar;
- vergi ödəyicisinin fəaliyyətində iştirak edən və onun fəaliyyətinin nəticələrinə təsir edə biləcək qarşılıqlı əlaqəli şəxslər barədə məlumat;
- vergi ödəyicisinin uçot metodu;
- vergi ödəyicisnin bank hesabları;
- xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növü ilə məşğul olub-olmaması və müvafiq qaydalara əməl edilməsi vəziyyəti;
- vergi ödəyicisinin gəlir götürmək üçün istifadə etdiyi obyektlərdə nəzarət- kassa aparatlarının quraşdırılması qaydalarına əməl etməsi vəziyyəti;
- əvvəlki səyyar vergi yoxlaması ilə aşkar edilmiş vergi qanunvericiliyinin pozulması səbəbləri və nəticələrinin aradan qaldınlması halları;
- səyyar vergi yoxlaması zamanı vergi ödəycisində daxili audit məlumatları və ya digər auditor xidmətlərinin nəticələri;
- vergi ödəyiçisində aparılmış kameral vergi yoxlamalarının və operativ vergi nəzarətinin (xüsusi ilə xronometraj metodu ilə müşahidə) nəticələri.

Yoxlama zamanı vergi ödəyicisinin faktiki məlumatları ilə onun AVİS-də olan dövlət qeydiyyatı və vergi uçotu məlumatları tutuşdurulmalıdır. Dövlət qey- di>7atı və vergi uçotu məlumatlarında nizamnamə kapitalı, təsisçilər, onlann payları, rəhbər, ünvanlar, əlaqə telefonları və s. üzrə olan fərq və ya kənarlaşmalar aşkar edildikdə yoxlama başa çatanadək həmin vergi ödəyicisi tərəfindən məlumat dəyişikliyi apaniması üçün müvafiq ərizə və qanunvericiliyə uyğun olaraq tələb edilən digər sənədlərin onun qeydiy>'atını həyata keçirən struktura təqdim olunması təmin edilməlidir.

Müstəsna hallarda müvafiq vergi orqanının "Səyyar vergi yoxlaması müddətinin artırılması haqqında Qərar" na (sənəd kodu Q-015) əsasən səyyar vergi yoxlamasının müddəti artırıla bilər.

Vergidən yayınma risklərinin təhlili və müəyyən edilməsi. Vergi auditinin aparılması zamanı ilk növbədə vergi ödəyicisi tərəfindən hesablanmış və ödənilmiş vergilərin hər biri üzrə ayrı-ayrılıqda yoxlama həyata keçirilməli və onların qarşılıqlı şəkildə araşdırılmasına xüsusi fikir verilməlidir.

Səyyar vergi yoxlaması zamanı Vergi Məcəlləsi əsas götürülməklə digər qanunvericilik aktları ilə əlaqələndirilməli və yoxlama aşağıdakılara riayət edilməklə vergilərin ardıcıllığı üzrə həyata keçirilməlidir.

Gəlirlərin yoxlanması. Ümumi gəlirlərin yoxlanılması zamanı "Ümumi gəlirin yoxlanılması" yönləndirici vərəqəsi (sənəd kodu YV-016) tətbiq edilməlidir.

Vergi auditindən əvvəl gəlirlərin yoxlanılması bəyannamənin planlaşdırılması həyata keçirilir. İlkin planlaşdınima bəyannamədə sadalanan gəlir maddələrinin nəzərdən keçirilməsi və yoxlama aparılan şirkətin biznes növü və xarakteri ilə əlaqədar qiymətləndirilməsindən ibarətdir.

Gəlirin tərkib hissələri, gəlirin müxtəlif növlərinin mənbələri vergitutma haqqında suallar yaradır. Bu hallan əhatə etmək üçün müvafiq qanunlar və digər normativ hüquqi sənədlər öyrənilməli, bu sahədə araşdırma aparılmalı və bu ilkin araşdırma ilə yaranan əlavə suallar və yaxud audit üsullan qeyd edilməlidir.

Hər bir müəssisənin yoxlanılması zamanı gəlir hesablarının təhlilləri aparılmalı və ən azından əvvəlki yoxlanılan illərin gəlirləri ilə müqayisə edilməlidir.Bu müqayisə əvvəlki illərə nisbətən gəlirdəki kənarlaşmaları və yaxud fərqləri müəyyənləşdirməyə kömək edəcəkdir.

İllər arasında mühüm fərqlər olduqda bu fərqləri yaradan səbəblərin müəyyənləşdirilməsində yardım edəcək suallar və audit üsulları işlənib hazırlanmalıdır.

Yoxlamada təhlillər zamanı vergi bəyannaməsindən ümumi gəlirlərlə malın (işin, xidmətin) dəyəri arasındakı fərq (Ümumi gəlir - mallann (işin, xidmətin) dəyəri = Ümumi mənfəət nisbəti), ümumi mənfəət nisbəti müəyyənləşdirilməli və bu nisbət əvvəlki illər ilə müqayisə edilməlidir. İllər arasındakı nisbətdəki mühüm fərqlər gəlirlərin və yaxud malların dəyərinin müvafiq olaraq aşağı göstərildiyini başa düşməyə imkan yaradır.Xüsusi ilə komisyon haqları, icarə gəliri və s. kimi gəlir hesablannm təhlili apanimalıdır.

Vergi ödəyicisinin fəaliyyəti, biznes əməliyyatları, mühasibat kitabları və qeydləri haqqında məlumat əldə etmək məqsədilə vergi ödəyicisi ilə müsahibə apanlmalıdır (Gəlir mənbələri, vergiyə cəlb olunan və olunmayan gəlirlər, barter və s. haqqında suallar verin).

Gəlirin formalaşması metodu və istifadə olunan metod zamanı gəlirin əldə edilməsi vaxtı müəyyən edilməlidir (Vergi Məcəlləsinin 132-ci və 135-ci maddələrinin tələblərinə riayət edilməsinə diqqət yetirilməlidir).

Vergi bəyannaməsində qeyd edilən göstəricilər vergi ödəyicisinin mühasibat yazılışlan ilə uzlaşdırılmalıdır.

Yoxlama ilə əhatə edilən dövrün gəlirlərinin tərkibi bəyannamələrdə gəlirlər sətirlərinin göstəricilərinə uyğun araşdınimalı, vergi ödəyicisinin sual doğuran gəlir maddələrinə dair qeydlər nəzərdən keçirilməli və vergi öhdəliyinə əməletmənin düzgünlüyü yoxlanılmalıdır.

Dövriyyə jumalındakı ilin sonuna və ya əvvəlinə edilmiş düzəlişlərdə (storo- no) sual doğuran qeydllər,bəndlər nəzərdən keçirilməlidir.

Gəlir balansmdakı sual doğuran debet, kredetlərin və yaxud hesabata salmmış gəlirdə mümkün kənarlaşmaların araşdırılması məqsədilə müvafiq qeydlərə

Mühasibat uçotu yazılışlarında (baş kitabda) müvafiq mühasibat hesabları yoxlanılmalıdır.

Müddətin sona çatması meyarından istifadə etməklə debitor və kreditor bordan araşdırılmalı, iri məbləğdə sual doğuran öhdəliklər haqqında izahat əldə edilməlidir.

Daxili və yaxud kənar auditor tərəfindən aşkar edilmiş düzəlişlər öyrənilməlidir.

Zəruri hallarda qaimələrdən nümunələr götürülməli və əməliyyatların düzgünlüyü yoxlanılmalıdır.

Mallann (işlərin, xidmətlərin) təqdim edilməsindən əldə edilən gəlirin analoji müəssisələrin gəlirlərinə və bazar qiymətlərinə uyğunluğuna diqqət yetirilməli və təhlillər apanimalıdır. Zəruri hallarda xronometraj metodu ilə müşahidələr keçirilməlidir.

Emal müəssisələrində gəlirlərin müəssisənin istehsal gücünə uyğunluğu araş-dınlmalı, zəruri hallarda mütəxəssis rəyindən istifadə edilməlidir.

Bütün hallarda səyyar vergi yoxlaması zamanı vergi ödəyicilərinin gəlir götürmək üçün istifadə etdikləri, yaxud vergi tutulan obyektlərin saxlanılması ilə bağlı olan istehsal, anbar, ticarət və digər binalarında *(ərazilərində)* qanunvericiliklə müəyyən edilmiş qaydada baxış keçirilməlidir.

Birgə fəaliyyətdən əldə olunan gəlir araşdınimalıdır.

Xərclərin yoxlanılması. Xərclərin yoxlanılması zamanı aşağıdakı xərclər üzrə yönləndirici vərəqələr tətbiq edilməlidir:

> Amortizasiya və təmir xərcləri üzrə - sənəd kodu YV- 017

> Baş ofis tərəfindən çəkilən xərclər üzrə - sənəd kodu YV- 018

> Əmək haqqı və ona bərabər tutulan xərclər və sosial sığorta ayırmalan üzrə - sənəd kodu YV- 019

> İcarə xərcləri üzrə - sənəd kodu YV- 020

> Kommunal xərclər (enerii, təbii qaz, su və kanalizasiya, rabitə) üzrə - sənəd kodu YV-021

> Mühafizə xərcləri üzrə - sənəd kodu YV- 022

> Bank xidmətinə və borca görə ödənilən faiz xərcləri üzrə - sənəd kodu YV-023

> Nəqliyyat və yanacaq xərcləri üzrə - sənəd kodu YV- 024

> Reklam xərcləri üzrə - sənəd kodu YV- 025

> Royalti üzrə - sənəd kodu YV- 026

> Sığorta xərcləri üzrə - sənəd kodu YV- 027

> Xammal və materiallar, satış üçün nəzərdə tutulmuş mallar üzrə - sənəd kodu YV- 028

> Xalis istismar zərərinin çıxılması üzrə - sənəd kodu YV- 029

> Vergiyə cəlb olunan mənfəətdən çıxılmalar üzrə - sənəd kodu YV- 030

> Ümidsiz borclar üzrə - sənəd kodu YV- 031

> Digər və sair xərclər üzrə - sənəd kodu YV- 032

Xərclərin yoxlanılması zamanı aşağıdakı prosedurlar həyata keçirilməlidir:

Bəyannamədəki xərc məbləğləri mühasibat uçotu yazılışları ilə (baş kitab) uzlaşdırılmalıdır.

Bəyannamədəki müvafiq kategoriyalar- iri və sual doğuran məbləğlər diqqətlə yoxlanılmalıdır.

Bütün aylıq məbləğlərin hesablara köçürüldüyü, həmçinin keçən ilə dair məbləğlərin hesabata salındığı və cari ilin heablanmış məbləğlərinin düzgünlüyü Vergi Məcəlləsinin 114-cü və 115-ci maddələrinin tələblərinə uyğunluğu yoxlanılmalıdır.

Əvvəlki səyyar vergi yoxlamasında nəzərdə tutulan düzəlişlərin tətbiq edildiyi araşdırılmalıdır.

İlin əvvəlinə olan əsas vəsaitlər üzrə dəyişikliklərin olub-olmaması əsas vəsaitlərin kateqoriyalar üzrə düzgün müəyyən edilib-edilməməsi və təmir xərclərinin çəkilməsi araşdırılmalıdır.

Əsas vəsaitlərin yenidən qiymətləndirilməsinin apanlıb-apanlmamasına diqqət yetirilməlidir.

Vergi Məcəlləsinin 114.8-ci maddəsinin tələblərinin yerinə yetirilməsi yoxlanılmalıdır.

Konservasiya olunmuş və istismara verilməmiş əsas vəsaitlərin siyahısı alınmalı və icarəyə götürülmüş əsas vəsaitlərin siyahısı araşdınimalıdır.

Əvvəlki ildə hesablanmamış amortizasiya və təmir xərclərinin növbəti ilə keçirilməsinin düzgünlüyü və əvvəlki illər üçün vergi bəyannaməsinin müvafiq sətrində əks etdirilməsi yoxlanılmalıdır.

Əsas vəsaitlərin mövcudluğunun yoxlanılması və zəruri hallarda baxışın keçirilməsi.

Qeyri-adi təmir xərclərinin olması halları araşdırılmalı və zəruri hallarda mütəxəssis dəvət edilməlidir.

Eyni növ bank xidmətlərinə görə alınmış xidmət haqqları arasında kəskin fərqlər olduqda səbəbi araşdırılmalı, müqavilə şərtinə diqqət yetirilməlidir.

Alınmış kreditlərə görə hesablanmış faizlərin müqavilə əsasında uyğunluğu yoxlanılmalı və Vergi Məcəlləsinin 140.4-cü maddəsinin tələblərinin yerinə yetirilməsinə diqqət yetirilməlidir.

Xaricdə olan bank hesabları barədə məlumat əldə edilməli, daxili və xarici banklardan alınmış kredit müqavilələrinin şərtləri araşdırılmalıdır.

Qarşılıqlı asılı şəxslərdən alınmış kreditlərə görə ödənilmiş faizlər yoxlanılmalı və alınmış kreditlərin sosial xarakterli olub-olmaması araşdırılmalıdır.

Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontrakt) bağlanmadan işçinin işə götürülməsi halları yoxlanılmalıdır.

Vergi ödəyicisində qəbul edilmiş əməyin ödənilməsi sisteminə və formasına uyğun olaraq faktiki görülən işlərə görə işəmuzd və vəzifə əmək haqqı ödənişləri araşdırılmalıdır.

Əmək haqqına əlavə güzəştlərin verilməsi və gəlir vergisindən azadolmala- rın düzgünlüyünü təsdiq edən sənədlər araşdırılmalıdır.

Hesablanmış əmək haqqı ölkə üzns orta aylıq əmək haqqı məbləğindən aşağı olduqda, fiziki şəxslərin işləməsi rəsmiləşdirilmədikdə və ya görülmüş iş və xidmətlərə görə hesablanmış əmək haqqı (gəlir) bazar qiymətlərindən aşağı olduqda Vergi Məcəlləsinin 67.5-ci maddəsinin tələblərinə uyğun müvafiq tədbirlər görülməlidir.

Əcnəbi vətəndaşların rezidentliyinin müəyyən edilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Təhtəl hesab üzrə iri məbləğlər və onların təyinatı araşdırılmalıdır.

Keçən və cari illərin icarə xərclərinin müqayisəli təhlili aparılmalı və sual doğuran dəyişikliklər araşdırılmalıdır.

Mövcud icarə müqavilələri öyrənilməli, müqavilələrdəki şərtlər aydınlaşdırılmalı və müqavilədəki məbləğlərin icarə xərclərinə salınan məbləğlərlə müqayisəsi aparılmalıdır.

Qarşılıqlı əlaqəli şəxslərə ödənilən icarə məbləğlərinin real olub-olmadığı müəyyən ləşdiri İməl idir.

İcarə haqlarının icarəyə götürülən əmlakın təmiri üçün təyinatı üzrə yoxlanılmalı, iri məbləğdə ödənilən icarə haqları ilə bağlı qarşı tərəfin balansında icarəyə verilmiş əmlakın olması araşdırılmalıdır.

Müqavilənin pozulma şərtlərinə diqqət yetirmək, nəzərdə tutulan dəbbə pulunun mühasibat sənədlərində əks etdirilməsi və icarə müqaviləsinin ləğv edilməsinə dair maddələr nəzərdən keçirilməli və müvafiq hallarda qaytarılan məbləğlərin qeydiyyata alındığı yoxlanılmalıdır.

Fiziki şəxslərə icarə haqları ödənilərkən ödəmə mənbəyindən verginin tutulması yoxlama ilə əhatə edilməlidir.

Bağlanmış müqavilələr üzrə bazar qiymətlərinə və müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi qiymətlərə uyğunluğu araşdırılmalıdır.

Daşınan əmlakın Azərbaycan Respublikasının hüdudlanndan kənarda icarəyə verilməsi halları sənədlərlə araşdırılmalıdır.

Ödənilmiş kommunal xərclərinin həqiqətən vergi ödəyicisinin balansında olan və yaxud icarəyə götürdüyü əmlak üçün ödənildiyi yoxlanılmalıdır.

Vergi ödəyicisi tərəfindən digər şəxslərdən alınmış kommunal ödənişlərin ^lirə aid edilməsi və vergi ödəyicisi tərəfindən xərclərə aid edilən kommunal ödənişlərin tənzimlənən qiymətlərə uyğunluğu yoxlanılmalıdır.

Ödənilmiş kommunal xərclərin məhsul istehsal edən müəssisələrin istehsal gücünə uyğunluğu yoxlanılmalıdır.

Mühafizə xərclərini təsdiq edən sənədlər tələb edilməli, əvvəlki yoxlama ilə nəzərdə tutulan düzəlişlərin tətbiq edildiyi araşdırılmalıdır.

Mühafizəsi tələb olunan obyektlərin siyahısı müəyyənləşdirilməli, mühafizə xidmətləri xərclərinin bazar qiymətləri ilə müqayisəsi aparılmalıdır.

Şəxsi nəqliyyat vasitələrinin müəssisənin, təşkilatın təsərrüfat fəaliyyətində istismarı zamanı hesabatların tərtib edilməsinə diqqət yetirilməlidir.

Nəqliyyat vasitələrinin istismarı zamanı çəkilən xərcə görə hesabatın tərtibinə məsul şəxslərin cavabdehliyi müəyyənləşdirilməlidir.

Müəssisə və təşkilatların balansında olan nəqliyyat vasitələrinin siyahısı əldə edilməli, zəruri hallarda inventarizasiyası apanimalıdır.

Nəqliyyat vasitələrinə verilən yanacağın silgisinin normativlərə və yol vərəqələrində qeyd edilən məsafələrə uyğunluğu və digər müəssisələr tərəfindən göstərilən nəqliyyat xidməti təsdiq edici sənədlərlə yoxlanılmalıdır.

iri məbləğdə ödənilən reklam xərcləri ilə bağlı müqavilələr araşdırılmalı, zəruri olduqda reklam çarxlarına baxış keçirilməli və media materiallarının tirajı yoxlanılmalıdır.

Bazar qiymətləri ilə reklam şirkətinin özünün təklif etdiyi qiymətlərin müqayisəsi aparılmalıdır.

Reklam kompaniyasının keçirilməsi zamanı bonuslarm, güzəştlərin, hədiyyələrin verilməsi məsələlərinə diqqət yetirilməli, diler və distribyüterlərin reklam kompaniya xərcləri araşdırılmalıdır.

Royalti haqqları ilə əlaqədar müqavilələr nəzərdən keçirilməli, royalti ödənilən hüququn satın alınması və ya istifadəyə götürülməsi, royalti hüquqlarının satışa əsaslandığı halda, satış həcminin və hüquqdan istifadənin düzgünlüyü müəyyənləşdirilməlidir.

Royaltinin dəyəri ödənilərkən ödəmə mənbəyində verginin tutulub-tutulmadığı yoxlama ilə əhatə edilməlidir.

Vergi Məcəlləsinin 106.2-ci maddəsinə əsasən bəyannamənin 244-cü kodu təsdiqedici sənədlərlə yoxlanılmalıdır.

Gəlirdə əks etdirilən faiz gəlirlərini təsdiq edən sənədlər (müqavilələr) yoxlanılmalıdır.

Bəyannamənin 245-ci sətirinin təsdiqedici sənədləri yoxlanılmalı və xaricdə əldə edilmiş ümiumi gəlirin tərkibində əks etdirilməsi araşdınlmalıdır.

Gəlirdən çıxılan vergilərin və ödənişin düzgünlüyü yoxlanılmalıdır.

Zərərlə başa vurulan ilin və ondan sonrakı illərin bəyannamələrinə və əvvəlki səyyar vergi yoxlaması aktına baxılmalı, zərərin keçirilməsinin düzgünlüyü araşdırılmalı və zərərin sonrakı illərə keçirilməsini Vergi Məcəlləsinin 122-ci maddəsinə uyğunluğu yoxlanılmalıdır.

Alınmış və ya birləşmiş müəssisələrdən irəli gələn xalis istismar zərərlərinin mərkəzləşdirilmiş bəyannamələrdə yer aldığı halda sözü gedən zərərlərin xalis istismar zərərləri üzrə çıxılan məbləğlərin məhdudlaşması normaları yoxlanılmalıdır.

Xalis istismar zərərləri üzrə çıxılmalann hesablarına baxılmalı və təkrar olunan düzəlişlərin olub-olmaması və əvvəlki illərə aid düzəlişlərin hesaba salınması araşdırılmalıdır.

Məbləğlərin həcmindən asılı olaraq aparılmış əməliyyatlardan nümunələr seçilib yoxlanılmalıdır.

Satılan malların dəyəri təhlil edilməli, səhv daxil edilmiş xərclər araşdırılmalıdır (zəruri hallarda mütəxəssis rəyi əlavə edilməlidir).

Hər bir bəyannamədə ilin əvvəlinə və sonuna olan mal qalıqları müqayisə edilməlidir.

İlin əvvəli və sonundakı balans məbləğləri müqayisə edilməli və böyük dəyişikliklərin olub-olmadığı müəyyənləşdirilməlidir.

Vergi ödəyicisindən ilin sonuna qalıqlan əks etdirən yekun və hesablama cədvəlləri əldə edilməli, yekun rəqəmlərini baş kitab və bəyannamə ilə üzləşdiril- məli, zəruri hallrda iri məbləğdə olan malların inventarizasiyası aparılmalıdır.

Mühasibat uçotu yazılışlarında (baş kitabda) düzəlişlər barədə qeydlər təsbit edilməlidir.

Mal-materialların mədaxili zamanı dəyərin düzgün müəyyənləşdirilməsi, bazar qiymətinə riayət edilməsi, satılan malların bazar qiymətlərinə uyğunluğuna diqqət yetirilməli, iri məbləğdə yazılış aparılmış malların itkisi, xarab olması, əskik gəlməsi və oğurlanması halları araşdırılmalı, qarşılıqlı əlaqəli şəxslərlə aparılan al- qı-satqı əməliyyatları yoxlanılmalıdır.

Fəaliyyət xüsusiyyətlərinə uyğun olaraq istehsalatda (emalda), xidmətdə, tikintidə və s, sahələrdə mal-matcrialm normativlərə uyğun silinməsi araşdırılmalı və zərurət yarandıqda mütəxəssis rəyi alınmalıdır.

Azərbaycan Respublikasındakı ofis ilə bağlı xaricdəki baş ofisdən apanimış ödənişləri təsdiq edən sənədlər (bank hesabının çıxarışı), alınmış invoysların (açıqlamaları ilə birlikdə) məbləğinin müqavilənin şərtlərinə uyğunluğu araşdırılmalıdır.

Görülmüş iş, xidmətin təhvil-təslim sənədlərinə əsasən həqiqətən Azərbaycan ofisi ilə bağlı olduğu yoxlama ilə əhatə edilməlidir.

İş, xidmətlər Azərbaycan Respublikası ərazisində göstərilmişdirsə, görülmüş iş, xidmətlərlə bağlı əməkdaşlara aparılmış ödənişlər araşdırılmalıdır.

İş, xidmətlər Azərbaycan Respublikası ərazisində göstərilmişdirsə əməkdaşların vaxt sərfiyyatı cədvəlləri (timesheet) əldə edilməli və təhlillər apanimalıdır.

Azərbaycan Respublikası ərazisində göstərilən fəaliyyətin tərkibi müəyyənləşdirilməli, şirkətlər arasında bağlanmış müqavilələr araşdırılmalıdır.

Bəyannamədəki digər və sair xərclərin məbləğləri ilkin sənədlərlə uzlaşdırılmalıdır.

Digər və sair xərclərin tərkibi müəyyənləşdirilməli və iri məbləğdə olan, sual doğuran xərclər araşdırılmalıdır.

Digər və sair xərclər mahiyyətindən asılı olaraq qanunvericiliyə uyğun yoxlama ilə əhatə edilməlidir.

Əvvəlki yoxlama məlumatlarında nəzərdə tutulan düzəlişlərin tətbiq edildiyi araşdırılmalıdır.

Elmi-tədqiqat, layihə-axtarış və təcrübə-konstruktor işlərinə çəkilən xərclər yoxlanılmalı və zəruri olduqda mütəxəssis rəyindən istifadə edilməlidir.

Mənfəət vergisi bəyannaməsinin Əlavə 3-də əks etdiirlən ümidsiz borc məbləğlərin yaranma tarixi və düzgünlüyü araşdırılmalıdır.

Əlaqədar tərəflər arasında aparılan silinmələr də daxil olmaqla müştərinin bütün iri məbləğdə silinən hesablan diqqətlə yoxlanılmalıdır.

Ümidsiz borcun silindiyi tarixdən sonra eyni müəssisə və həmin müəssisə ilə qarşılıqlı asılı olan şəxs ilə əməliyyatların aparılıb-aparılmadığı araşdırılmalıdır.

Silinmiş ümüdsiz borcun əvvəlki dövrlərdə gəlirlərin tərkibində əks etdirildiyi araşdınimalıdır.

Adma iri məbləğdə ümüdsiz borc silinmiş vergi ödəyicisinin təqdim etdiyi bəyannamədə müvafiq göstərici müqayisə olunmalı, zəruri hallarda qarşılıqlı sorğu apanimalıdır.

Vergi auditinin nəticələrinin rəsmiləşdirilməsi. Səyyar vergi yoxlamasının nəticələrinin rəsmiləşdirilməsi Vergi Məcəlləsinin 39-cu maddəsində nəzərdə tutulmuş qaydada apanlm. Səyyar vergi yoxlamasının nəticələri vergi orqanlannın səla

hiyyətli vəzifəli şəxsləri tərəfindən müəyyən edilmiş formada "Səyyar vergi yoxlaması aktı" (sənəd kodu YV-056) ilə rəsmiləşdirilir.

Səyyar vergi yoxlaması aktı vergi ödəyicisi tərəfindən vergi qanunvericiliyi normalarının pozulub-pozulmamasından asılı olmayaraq yoxlama prosesində aşkarlanmış, sistemləşdirilmiş halları əks etdirir.

Vergi yoxlaması aktında vergi ödəyicisinin maliyyə-təsərrüfat fəaliyyətinin göstəriciləri və nəticələri əks olunmalıdır.

Səyyar vergi yoxlaması aktı tərtib edilərkən yoxlama prosessində aşkar olunmuş və sənədlərlə təsdiq edilmiş vergi qanunvericiliyinin pozulması halları və yaxud vergi qanunvericiliyinin pozulması hallarının olmaması göstərilməlidir.

Vergi qanunvericiliyinin pozulması faktları yoxlama aktında dəqiq, aydın, ardıcıllıqla, sübutlara istinad edilməklə, təsdiqlənməklə əks etdirilməlidir.

Yoxlama zamanı vergi pozuntuları faktlarının təsdiq edilməsi üçün sübutlara aşağıdakılar aiddir:

1) yazılı sübutlar - ilkin sənədlər, hesabatlar, hesablamalar və qərarın çıxarılmasına əsas verən digər sənədlər;
2) vəzifəli şəxslərin (səlahiyyətli nümayəndələrinin), yoxlanılan vergi ödəyicisinin digər işçilərinin və fərdi sahibkarın yazılı formada verdikləri izahatları;
3) yoxlamaya cəlb edilmiş mütəxəssislərin, ekspertlərin rəsmi rəyləri;
4) maddi sübutlara aşağıdakılar aiddir:
   - vergi qanunvericiliyinin pozulmasının bilavasitə obyekti olan sənədlər, mallar, digər əmlak və əmtəə-material dəyərliləri;
   - pozuntunun törədilməsində istifadə edilən sənədlər və eyniləşdirilmə vasitələri;
   - pozuntunun izlərini özündə əks etdirən və ya bu pozuntunun aşkara çıxarılmasına, pozuntunu törətmiş şəxsin, həmçinin pozuntunun faktiki vəziyyətinin müəyyən edilməsinə xidmət edən digər maddi sübutlar.

Əldə edilmiş əlaqəli məlumatlar (sifarişçi təşkilatlarla bağlanmış müqavilələr, onlara təqdim edilmiş invoyslar, bank çıxarışları və sair) kimi maddi sübutlar akta əlavə edilməlidir (qoşulmalıdır).

Maddi sübutlar böyük həcmdə olduqda və ya müəyyən səbəblər üzündən onları akta əlavə etmək mümkün olmadıqda, bu halda vergi yoxlamasını həyata keçirən vəzifəli şəxs bu predmetləri ətraflı xarakterizə etməklə, onların yerləşdiyi ünvanı göstərməklə arayış tərtib edir. Arayış vergi ödəyicisinin rəhbəri, baş mühasibi və vergi orqanının vəzifəli şəxsi, fərdi sahibkar tərəfindən imzalanmalı və akta əlavə olunmalıdır.

Akt AVİS-in aidiyyəti altsistemində tərtib olunur və 2 nüsxədə çap edilir. Vergi orqanı tərəfindən vergi ödəyicisinin vergi cinayətləri və cinayət xarakterli digər hüquq pozuntuları barədə hallara yol verməsi aşkar edilərsə akt 3 nüsxədə çap edilir.

Səyyar vergi yoxlaması aktı vergi yoxlamasını həyata keçirən vəzifəli şəxs (şəxslər) və ya qrupun rəhbəri və yoxlanılan vergi ödəyicisinin rəhbəri (səlahiyyətli nümayəndəsi) və ya fərdi sahibkar tərəfindən imzalanır.

Vergi yoxlaması aktının bir nüsxəsi vergi ödəyicisinə (onun səlahiyyətli nümayəndəsinə) verilmə tarixini təsdiq edən üsulla aktın tərtib edildiyi tarixdən sonra 5 gündən gec olmayaraq təqdim edilir.

Vergi ödəyicisi vergi yoxlaması aktı ilə və ya onun hər hansı bir hissəsi ilə razılaşmadıqda vergi yoxlaması aktının verilməsi günündən 30 gün müddətində müvafiq vergi orqanına aktı imzalamamasının səbəblərini izah edə, yaxud akta və ya onun ayrı-ayrı hissələrinə öz etirazını yazılı surətdə bildirə bilər. Bu halda vergi ödəyicisinin yoxlama aktını imzalamamasını və ya etirazını ona öz yazılı izahatını (etirazını) təsdiq edən sənədlərin surətini əlavə edərək vergi orqanına təqdim etməyə hüququ vardır.

30 gün müddət bitdikdən sonra 15 gündən çox olmayan müddətdə vergi orqanının rəhbəri (onun müavini) vergi ödəyicisindən Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada götürülmüş, habelə vergi ödəyicisi tərəfindən təqdim edilmiş sənədlərə və vergi yoxlaması aktına, vergi qanunvericiliyinin pozulması hallarına və onların aradan qaldınlması və müvafiq sanksiyaların (cərimələrin) tətbiq edilməsi məsələlərinə baxır.

Səyyar vergi yoxlamasının nəticələri üzrə aktın tərtibi müddəti Vergi Məcəlləsi ilə müəyyən edilmiş zəruri hallarda müvafiq vergi orqanın əsaslandırılmış qərarına əsasən uzadıla bilər. Bu zaman "Səyyar vergi yoxlamasının nəticələri üzrə aktın tərtibi müddətinin uzadılması haqqında qərar" (sənəd kodu Q-057) tətbiq edilməlidir.

Səyyar vergi yoxlaması aktı giriş və 3 hissədən ibarətdir: ümumi müddəalar, əsas hissə və nəticə.

Səyyar vergi yoxlaması aktı AVİS-in audit altsistemində informasiya texnologiyalarına əsaslanaraq tərtib olunur.

Aktın giriş hissəsində aşağıdakı göstəricilər AVİS-dən alınan məlumatlar üzrə avtomatik olaraq əks olunur:

- vergi ödəyicisinin adı, vergi ödəyicisinin eyniləşdirilmə nömrəsi (VÖEN);
- təsisçilər barədə məlumat;
- yoxlamanın aparıldığı yer;
- aktın tarixi;
- vergi orqanının adı, yoxlama haqqında vergi orqanının Qərarının nömrəsi və tarixi;
- vergi yoxlamasının keçiriləcəyi müddət və tarix;
- səyyar vergi yoxlamasının forması (növbəti və ya növbədənkənar).

Aktın ümumi müddəalarına vergİ yoxlamasının obyekti, vergi nəzarətinin subyekti barədə AVİS-də məlumat olduğu halda həmin məlumatlar avtomatik tətbiq olunur.

Vergi ödəyicisinin yeni bank hesabları, təsərrüfat subyektləri və filialları barədə AVİS-də məlumat olmadığı halda yoxlayıcı tərəfindən məlumatlar əl ilə daxil edilir. Ümumi müddəalarda aşağıdakılar əks etdirilməlidir;

- yoxlamanın başlandığı və başa çatdığı tarix;
- yoxlanılan dövrdə vergi ödəyicisinin vəzifəli şəxsləri (rəhbər, baş mühasib və yaxud onların vəzifələrini icra edən şəxslər);

- ♦> yoxlamanın başlanması və bitməsi tarixi ilə əlaqədar vergi ödəyicisinin Nəzarət Kitabçasında qeydlər;
- ❖ vergi ödəyicisinin adı, vergi ödəyicisi kimi uçota alındığı tarix, vergi orqanının adı, vergi ödəyicisinin eyniləşdirilmə nömrəsi (VÖEN);
- ❖ vergi ödəyicisinin hesabları olan bankların adı, bildirişlərin JSfo-si və tarixi və bank hesabları barədə məlumat;
- ❖ vergi ödəyicisinin filialları, nümayəndəlikləri və digər təsərrüfat subyektləri barədə məlumat;
- ❖ bu filialların, nümayəndəliklərin və digər təsərrüfat subyektlərinin ərazi üzrə uçotda olduğu vergi orqanının adı, uçota alındığı tarix;
- ❖ hüquqi şəxsin adı və ya fərdi sahibkann soyadı, adı, atasının adı, lisenziya verən orqanın adı, lisenziyalaşdırılmış fəaliyyət növü və ayrı-ayn fəali>'yət növlərini həyata keçirməyə hüquq verən lisenziyanın olması barədə məlumat, lisenziyanın verilmə tarixi və qüvvədə olduğu müddət;
- ❖ yoxlanılan dövrdə faktiki olaraq vergi ödəyicisinin fəaliyyət növü (növləri);
- ❖ yoxlama zamanı aparılan işlər barədə məlumat (vergi ödəyicisində inventarizasiya aparılması, vergi ödəyicisinin binasına (ərazisinə) baxış keçirilməsi, ekspertizanın apanimasi, mütəxəssisin dəvət olunması, tərcüməçinin dəvət edilməsi və onun yerinə yetirdiyi işlər, müşahidəçilərin dəvət edilməsi); Bunlar müvafiq qaydada təsdiqlənmiş protokollar və əlavələr formasında tərtib edilir;
- ❖ bundan əvvəl aparılan yoxlama, yoxlamada aşkar olunmuş qanun pozuntuları, onların aradan qaldırılması və əvvəlki yoxlama aktının icra vəziyyəti haqqında məlumat;
- ❖ vergi ödəyicisinin mühasibat uçotunun forması və vergi uçotunun metodları.

Ümumi müddəalarda qeyd edilən bir çox məlumatlar, səyyar vergi yoxlaması zamanı yoxlayıcı tərəfindən AVİS-in audit altsistemində tətbiq edilən prosesslər avtomatik olaraq akt məlumatlarına daxil olur.

Yoxlamanın nəticələri üzrə düzgün qərarın qəbul edilməsi üçün mühüm əhəmiyyət kəsb edən məsələ yoxlama zamanı aşkar edilmiş vergi hüquq pozuntuları faktlarının sənədli təsdiqi və ya pozuntu hallannm olmaması faktlan barədə məlumatların səyyar vergi yoxlaması aktının əsas hissəsində qeyd edilməsidir.

Səyyar vergi yoxlaması aktının əsas hissəsindəki materiallar aşağıdakı tələblərə cavab verməlidir:

1. Aktda əks olunan faktlar, həyata keçirilmiş yoxlamanın nəticəsi tam və dəqiq olmalı, qeyri obyektivliyə yol verilməməlidir.
2. Aktda əks olunmuş hər bir vergi hüquq pozuntusu faktlarla əsaslandırılmalı, vergi hüquq pozuntusunun növü, onun mahiyyəti, onun törədilməsi vəziyyəti və üsulları, vergi hüquq pozuntusuna aid edilən vergi dövrü dəqiq qeyd edilməlidir.
3. Vergi ödəyicisi tərəfindən təqdim edilmiş vergi bəyannaməsində vergilərin hesablanması və ödənilməsi ilə bağlı göstəricilərlə, yoxlama zamanı faktiki müəyyən edilmiş göstəricilər arasındakı fərqin yaranma səbəbləri tam acıqlanmalıdır.

4. İlkin mühasibatlıq sənədlərinə və pozuntu faktının mövcudluğunu təsdiq edən digər sübutlara istinad edilməlidir.
5. Vergi ödəyicisi tərəfindən Vergi Məcəlləsinin və digər qanunvericilik aktlarının tələblərinin pozulması hallarına istinad edilməklə törədilmiş hüquq pozuntuları öz mahiyyətinə görə təsnifləşdirilməlidir.
6. Mütəxəssislərin, ekspertlərin rəyləri, əlaqəli şəxslərin izahatları, həmçinin vergi nəzarəti həyata keçirilən zaman tərtib edilmiş izahat və protokllara əsasən aşkar edilmiş pozuntular tam acıqlanmalıdır.
7. Vergi hüquq pozuntusu faktına aid olan bütün əhəmiyyətli məlumatlar aktda tam və kompleks şəkildə əks etdirilməlidir:
   > yoxlama zamanı aşkar edilmiş hər bir vergi pozuntusu faktı daha dəqiq və hərtərəfli açıqlanmalıdır;
   > aktda pozuntuların aşkar olunmasına aid edilən bütün məlumatlar əks olunmalıdır (məsələn, istehsal xərclərinin ödənilməsi mənbələri, malların alınması və məhsulun (iş və xidmətin) satışı bazarı haqqında məlumatlar, maliyyə-təsərrüfat əməliyyatlarının uçotda düzgün və tam əks etdirilməsi və s.). Aktda əks olunan ifadələr ikili məna kəsb etməməlidir, mürəkkəb cümlələrdən ibarət olmamalıdır. İfadə edilmiş məlumatlar qısa, dəqiq, aydın və ardıcıl olmalıdır. Yoxlamanın nəticələrinə və predmetinə aid olmayan məlumatların aktda əks etdirilməsi məqsədəuyğun deyildir.

Aktda ifadə olunan məlumatlar sistemli olmalı, yoxlama prosessində aşkar edilmiş pozuntular aktda bölmələr, bəndlər, vergi növləri üzrə vergi dövrlərinə uyğun törədilmiş hüquq pozuntulannm xarakterindən asılı olaraq qruplaşdırılmalıdır.

Aşkarlanmış eynicinsli kütləvi pozuntu faktları qruplaşdınlaraq (siyahı, cədvəl və ya məlumat formasında) akta əlavə olunmalıdır.

Əlavələrdə vergi qanunvericiliyinin eynicinsli pozuntularının hansı hesabat dövründə olması, qeyri-qanuni əməliyyat apanimış gün, sənədin nömrəsi, əməliyya- tm mahiyyəti, pozuntunun məbləği və pozulmuş qanunvericilik aktı qeyd edilməlidir.

Əlavələr vergi yoxlamasını həyata keçirən vəzifəli şəxs və ya qrupun rəhbəri və yoxlanılan vergi ödəyicisinin rəhbəri (onu əvəz edən şəxs) və ya fərdi sahibkar tərəfindən imzalanır.

Aktın tərtib olunmasına dair tələblərə müvafiq olaraq hər bir verginin yoxlanıldığı dövr göstərilməklə ayrı-ayn vergilərə və digər vergi hüquq pozuntularına dair sənədlərlə təsdiq olunmuş faktlar və ya belə faktın olmaması, bəyannamələrin Vergi Məcəlləsi ilə müəyyən edilən müddətdə verilməsi haqqında məlumatlar göstərilir.

Səyyar vergi yoxlaması zamanı yoxlanılan dövrün dəyişidirilməsi zərurəti yarandığı halda vergi orqanının rəhbərinin (rəhbərin müavinin) müvafiq qərarı ilə səyyar vergi yoxlamasının apaniması haqqında qərara əlavələr (dəyişikliklər) edilməsi məqsədi ilə "Səyyar vergi yoxlamasının keçirilməsi haqqında qərara əlavələr (dəyişikliklər) edilməsi barədə-Qərar"(sənəd kodu Q-058) tətbiq edilməlidir.

Aktın nəticə hissəsi rəqəmlərlə ifadə olunan məlumatlar və istinad edilən qanunvericilik maddələri AVİS-in aidiyyəti altsistemindən avtomatik olaraq doldurulur və aşağıdakı məlumatları özündə əks etdirir:

4. Vergi yoxlaması nəticəsində azaldılmış verginin məbləği (hər bir vergi üzrə);

4. Vergi yoxlaması nəticəsində aşkarlanmış artıq ödənilmiş verginin məbləği (hər bir vergi üzrə);

4 Vergi yoxlaması nəticəsində aşkarlanmış ödənilməmiş verginin məbləği (hər bir vergi üzrə);

4 Vergi və digər hüquq pozuntularına dair müəyyən edilmiş digər faktlar haqqında ümumiləşdirilmiş məlumat;

4 Yoxlamanın nəticələrinə görə təkliflər.

Vergi auditinin nəticələrinin müzakirəsi və qiymətləndirilməsi. Səyyar vergi yoxlamasının nəticələri üzrə vergi orqanının müəyyən edilmiş formada tərtib edilmiş vergi yoxlaması aktı yoxlama həvalə edilmiş şəxslər, yoxlanılan vergi ödə- yicisinin rəhbəri (səlahiyyətli nümayəndəsi) və ya fərdi sahibkar tərəfindən imzalanmalıdır.

Vergi ödəyicisi yoxlama aktında öz qeydlərini edə bilər, aktı imzalamaqdan imtina edə bilər. Bu zaman həmin aktda müvafiq qeydlər apanlmalıdır.

Vergi yoxlaması aktının bir nüsxəsi vergi ödəyicisinə (səlahiyyətli nümayəndəsinə) verilmə tarixini təsdiq edən üsulla aktın tərtib edildiyi tarixdən sonra 5 gündən gec olmayaraq verilməli və ya göndərilməlidir.

Vergi ödəyicisi tərəfindən vergi yoxlamsı aktı üzrə yazılı izahatlar və ya etirazlar təqdim edildikdə, vergi yoxlamasının materiallarına vergi ödəyicisinin vəzifəli şəxslərinin və ya fərdi sahibkarın (onların nümayəndələrinin) iştiarkı ilə baxılması məqsədilə baxılmanın yeri və vaxtı haqqında əvvəlcədən məlumat verilməlidir.

Vergi ödəyicisinin baxılmada iştirakından asılı olmayaraq "Səyyar vergi yoxlaması aktına baxılma barədə protokol" (sənəd kodu P-059) tətbiq edilməlidir.

Vergi ödəyicisi vergi yoxlaması aktı ilə və ya onun hər hansı bir hissəsi ilə razılaşmadıqda Protokolda müvafiq qeydlər aparılmalı və Vergi Məcəlləsinin 39.5- ci maddəsinin tələblərinə əməl edilməlidir.

Protokolda vergi ödəyicisinin mövqeyi qısa göstərilməli və vergi ödəyicisinin iddiası olarsa istinad edilmiş qanunvericiliyin müddəaları barədə qeyd aparılmalıdır. Vergi ödəyicisi öz mövqeyini yazılı formada təqdim edərsə bu bölməyə bütün iradlar daxil edilməli və yaxud həmin iradlar icmallaşdırılaraq maddi sübut kimi bütöv sənəd formasında protokola daxil edilməlidir.Vergi ödəyicisinin mövqeyi konkret deyilsə, bu barədə müvafiq qeydlər edilməlidir'.

Vergi ödəyicisinin yanlış və ya əsassız mövqeyinin səbəbi, eyni zamanda yoxlayıcının mövqeyinin düzgün olma səbəbləri izah edilməlidir.Yoxlayıcı öz mövqeyini əsaslandırmaq üçün Vergi Məcəlləsinin və digər qanunvericilik aktlarının müəyyən müddəalannın tətbiq edilmə səbəbini izah etməlidir.

Vergi orqanın mövqeyi qısa şəkildə bildirilməli, vergi ödəyicisi tərəfindən bildirilmiş mövqe şərh edilməli, bütün maddələrin nəzərə alınmasından sonra düzgün vergi öhdəliyinin həyata keçirilməsi və yaxud digər xidməti tədbirlər yerinə yetirilməlidir.

İş ilə əlaqədar bütün faktların toplanmasına diqqət yetirilməli, vergi ödəyicisi tərəfindən yanlış və ya əsassız tətbiq edilmiş Qanuna istinad edildiyi ona izah edilməlidir.

Aparılan işin potensial nəticəsi araşdırılan məsələni əsaslandırmaq üçün faktların, qanunvericiliyin və əsaslı iddiaların necə işlənib hazırlanmasından asılıdır.

Baxılma protokolu vergi orqanın rəhbərinin (rəhbərin müavinin) razılığı olmadan vergi ödəyicisinə verilmir.

Yoxlama materiallanna baxılması və müvafiq Qərar çıxarılması üçün Vergi Məcəlləsinin 49-cü maddəsində nəzərdə tutulmuş müddət 10 gün müəyyən edilmişdir.

Akta və ona əlavə olunmuş materiallara baxılmasının nəticələri üzrə vergi orqanının rəhbəri (rəhbərinin müavini) aşağıdakı qərarlardan birini qəbul edir:

- Vergi qanunvericiliyinin pozulmasına görə şəxsin məsuliyyətə cəlb edilməsi barədə (sənəd kodu Q-060);
- Vergi qanunvericiliyinin pozulmasına görə şəxsin məsuliyyətə cəlb olunmasından imtina barədə (sənəd kodu Q- 061);
- Əlavə vergi yoxlaması tədbirlərinin keçirilməsi barədə (sənəd kodu Q-062).

Vergi qanunvericiliyinin pozulmasına görə şəxsin məsuliyyətə cəlb edilməsi barədə Qərarda yol verilmiş pozuntunun səbəbləri şərh edilməli, göstərilən səbəbləri təsdiq edən sənədlər və digər məlumatlar qeyd olunmalı, məsuliyyətə cəlb edilən şəxsin özünü müdafiə etmək üçün gətirdiyi dəlillər və bu dəlillərin yoxlanılmasının nəticələri göstərilməlidir.

Vergi Məcəlləsinin baxılan qanun pozuntusuna və müvafiq məsuliyyət tədbirlərini nəzərdə tutan maddəsi göstərilməklə vergi ödəyicisinin məsuliyyətə cəlb edilməsi barədə Qərarda müvafiq qeydlər aparılmalıdır.

Vergi qanunvericiliyinin pozulmasına görə vergi ödəyicisinin məsuliyyətə cəlb edilməsi barədə vergi orqanının Qərar forması informasiya texnologiyalarına əsaslanaraq AVİS-in audit altsistemində tərtib edilir.

Məlumatlar səyyar vergi yoxlaması aktının nəticə hissəsindən alınır.

Vergi yoxlamasının əldə olan materialları əsasında vergi ödəyicisinin vergi məsuliyyətinə cəlb olunması haqqında, yaxud cəlb olunmasından imtina edilməsi haqqında düzgün və əsaslandırılmış qərarın çıxarılmasını istisna edən səbəblər olduqda vergi orqanının rəhbəri (rəhbərin müavini) vergi nəzarətinə dair əlavə tədbirlərin keçirilməsi barədə Qərar qəbul edə bilər.

"Əlavə vergi yoxlaması tədbirlərinin keçirilməsi haqqında Qərar"da vergi ödəyicisinin vergi məsuliyyətinə cəlb edilməsi barədə qərarda göstərilənlərlə analoji məlumatlar əks etdirilir.

Həmin qərarda vergi nəzarətinə dair əlavə tədbirlərin keçirilməsinin zəruriliyini doğuran səbəblər şərh edilməli, vergi nəzarətinə dair konkret əlavə tədbirlərin təyin edilməsi və əlavə tədbirlərin keçirilmə müddəti öz əksini tapmalıdır.

"Vergi borclarının, faizlərin, maliyyə sanksiyalannm məbləğlərinin, inzibati cərimələrin ödənilməsi, habelə aşkar edilmiş pozuntuların aradan qaldırılması barədə Tələbnamə" (sənəd kodu T-066) avtomatik yaradılır.

Vergi yoxlamasının həyata keçirilməsi üzrə hərəkətlərin icraatı zamanı aşağıdakı digər sənədlər də tərtib edilə bilər.

1. "Səyyar vergi yoxlamasının keçirilməsi haqqında qərarın ləğv edilməsi barədə qərar" (sənəd kodu 063).

2. “Vergi yoxlaması keçirildikdə digər vergi ödəyicilərindən yoxlamanın predmetinə aid sənədlərin götürülməsi haqqında qərar” (sənəd kodu 064).
3. “Vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında vergi organının qərarının yuxarı vergi orqanı tərəfindən ləğvi haqqında qərar” (sənəd kodu 065).

Yuxarıda göstərilən qəraralar Vergilər Nazirliyinin razılığı ilə müstəsna hallarda tətbiq edilə bilər.

4. “Vergi Ödəyicisinin qarşılıqlı əməliyyatlan barədə məlumat” (sənəd kod 068).

Bu məlumat səyyar vergi yoxlamasının həyata keçirilməsi həvalə edilmiş vəzifəli şəxsi tərəfindən tərtib edilir.

Vergi ödəyicisinin vergi orqanının qərarlanndan (aktlarından), vergi orqanının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayətinə yuxan vergi orqanı və ya onun vəzifəli şəxsi tərəfindən həmin şikayət alındığı gündən 30 gün müddətində baxılır və şikayət vermiş şəxsə yazılı cavab verilir.

Vergi ödəyicisi tərəfindən vergi orqanına (vəzifəli şəxsə) verilən şikayət, Vergi Məcəlləsinin 63.2-ci maddəsinin ikinci abzasında müəyyən edilən hallar istisna olunmaqla, şikayət edilən qərarın (aktın) və ya hərəkətin icrasını dayandırmır. Şikayət edilən qərar (akt) və ya hərəkət Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olmadıqda şikayətə baxan vergi orqanı (vəzifəli şəxsi) onun icrasım tam və ya qismən dayandıra bilər. Qərarın (aktın) və ya hərəkətin icrasını tam və ya qismən dayandırmaq barədə “Vergi ödəyicisi və ya borclu şəxs tərəfindən verilən şikayətə baxan vergi orqanı tərəfindən şikayət edilən qərarın (aktın) və ya hərəkətin tam və ya qismən dayandırılması haqqında qərarı” (sənəd kodu 067) həmin aktı qəbul etmiş vergi orqanmm rəhbəri və ya müvafiq vergi orqanı tətbiq edir.

Vergi orqanlarının qərarlan (aktları), onlann vəzifəli şəxslərinin hərəkətləri (hərəkətsizliyi) barəsində məhkəməyə verilmiş şikayətlərə (iddia ərizələrinə) Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır.

4.8. Vergi auditinin forma və üsulları

Vergi nəzarəti sistemində vergi auditi əsas yer tutur və vergi ödəyicilərinin fəaliyyətinə dövlət nəzarətinin əsas üsuludur. Vergi auditi vergi ödəyicilərinin ilkin mühasibat və digər sənədlərinə əsasən verginin hesablanması və vaxtında ödənilməsini təyin etmək üçün həyata keçirilən aktdır.

Bu nəzarət sisteminin həyata keçirilməsində əsas məqsəd vergi ödəyicisinin hesabat məlumatları ilə vergi orqanlannda olan məlumatlarm tutuşdurulması yolu ilə vergi qanunvericiliyinə əməl edilməsinə, vergilərin tam və vaxtında ödənilməsinə nəzarət etməklə vergidən yayınma hallarının qarşısının alınmasıdır.

Vergi auditi qarşısında duran vəzifələrin daha səmərəli yerinə yetirilməsi üçün onun təşkilinin müxtəlif formalarından istifadə edilir. Vergi auditinin təşkili formalarının təsnifatı yalnız nəzəri deyil, həm də vergi nəzarəti üçün praktiki əhəmiyyətə malikdir. Bu və ya digər formanın seçilməsi nəzarət subyektinin konkret vəziyyətinə və vergi yoxlamasının son məqsədlərinə əsaslanaraq vergi orqanlannın müstəqil surətdə qəbul etdiyi qərardan asılıdır.

Vergi auditi müxtəlif əlamətləri üzrə əsasən aşağıdakı kimi təsnifləşdirilir:

H aparılması yerinə görə;

M yoxlanılan məsələlərin həcminə görə:

H planlaşdırma (təyinat) üsuluna görə;

K aparılma vaxtına görə;

H aparılması üsuluna görə;

u təsərrüfat fəaliyyətini əhatəetmə səviyyəsinə görə;

a informasiya təminatının müxtəlifliyinə görə;

a aparılma mənbəyinə və keçirilməsi müddətinə görə.

İndi isə yuxanda sadaladığımız ayrı-ayrılıqda hər bir audit yoxlamasına xas olan səciyyəvi xüsusiyyətləri və onların aparılması qaydasını nəzərdən keçirək.

Aparılması yerinə görə vergi auditi iki cür olur: kameral və səyyar. Vergi yoxlaması apanimasının əsas baza üsulu vergi ödəyicilərinin müəyyən edilmiş qaydada vergi orqanlarına təqdim etdikləri bəyannamələrinin kameral yoxlanmasıdır. Kameral yoxlama nəzarət obyektinə getmədən vergi ödəyicilərinin təqdim etdikləri sənədlərin (mühasibat balansı və hesabat formalan, vergi bəyannamələri və hesablamaları, arayışlar və s.) məlumatlarına əsasən, vergi orqanlarının vəzifəli şəxsi tərəfindən qəbul edilən vaxt vergi orqanında apanlır.

Kameral yoxlama zamanı əsasən aşağıdakıların qiymətləndirilməsinə imkan verən vizual və analitik nəzarət metodları tətbiq edilir:

- ❖ balans və vergi bəyannamələri göstəriciləri arasındakı uyğunluğunu;
- ❖ başa çatmış hesabat dövrü ərzində konkret vergi ödəyicisinin ödəməli olduğu vergi məbləğlərinin düzgünlüyünü;
- ❖ güzəştlərinin tətbiqinin düzgünlüyünü;
- ❖ hesablanmış vergilərin tamlığını;
- ❖ mühasibat və vergi hesabatlarının vaxtında təqdim edilib-edilməməyini. Kameral yoxlamaların nəticələri vergi bəyannaməsinin "Vergi xidmətinin

məlumatları üzrə" adlanan xüsusi sütunda əks etdirilir. Əgər vergi orqanı və ödəyicilərinin məlumatları uyğun gəlmirsə, onda hesablamalarda edilmiş düzəlişlər bir qayda olaraq aktlarda əks etdirilir. Kameral yoxlama vergi orqanlarında olan məlumatlara və vergi ödəyicisinin izahatına əsasən də aparıla bilər. Yoxlamanın gedişatı zamanı vergi orqanlarına verilmiş məlumatlar faktiki məlumatlarla tutuşdurulur və əgər məlumatlar arasında kənarlaşmalar aşkar edilərsə, onda qanunvericiliyə uyğun olaraq müvafiq tədbirlər görülür.

Nəzarət obyektinə çıxmaqla aparılan səyyar vergi yoxlaması vergi bəyannamələrinin düzgünlüyünü daha obyektiv qiymətləndirmək imkanı verir (mühasibat hesabatı, sintetik və analitik uçot, eləcə də ilkin uçot sənədlərindəki məlumatlarla müqayisə edilməsi yolu ilə). Ümumiyyətlə, yerlərdə aparılan səyyar vergi yoxlaması vergi auditinin ən əsas və səmərəli üsulu hesab olunur. Səyyar vergi yoxlaması zamanı sənədli forma ilə yanaşı, faktiki auditin üsullanndan da geniş istifadə olunur.

Vergi nəzarətinin ən səmərəli formalarından biri olan *səyyar vergi yoxlamasının əsas vəzifələri aşağıdakılardır:*

- ❖ vergilərin tam və vaxtında ödənilməsi, onların düzgün hesablanması məqsədilə yoxlanılan şəxsin maliyyə-təsərrüfat fəaliyyətinin hərtərafli tədqiqi;

- ❖ tədqiq edilən sənədlərin məzmunundakı uyğunsuzluqlann, vergi bəyannamələrinin tərtib edilməsində, mühasibat uçotunun aparılması qaydalarında pozuntu faktlarımın aşkar edilməsi;
- ❖ müxtəlif növ vergilər üzrə vergitutma bazasının formalaşmasına aşkar edilmiş pozuntuların təsirinin təhlili;
- ❖ aşkar edilmiş vergi qanunvericiliyinin pozulması faktları üzrə dəlillərin toplanması və bu pozuntuların sənədlər əsasında öz əksini tapmasının təmin edilməsi;
- ❖ vergi ödəyicisinin vergitutma bazasını azaltması və ya vergini düzgün hesab-lamaması nəticəsində qismən və ya tam ödənilmiş vergi məbləğlərinin hesablanması;
- <* aşkar edilmiş pozuntuların aradan qaldırılması üçün təkliflərin hazırlanması və vergi ödəyicisinin məsuliyyətə cəlb edilməsi.

Yoxlama təyin edilməzdən əwəl vergi ödəyicisi barədə vergi orqanında olan informasiyanın hərtərəfli təhlili mühüm əhəmiyyət kəsb edir. Çünki yoxlamanın aparılacağı vergi ödəyicisi haqqında məlumatın ilkin təhlili yoxlamanın aparılma müddətinə və ona sərf olunacaq əməyə xeyli qənaət etməyə, onun səmərəliliyini və məhsuldarlığını yüksəltməyə imkan verir. Növbəti səyyar vergi yoxlaması məqsədi ilə vergi ödəyicisinin seçilməsi aşağıdakı metodlara əsaslanaraq yerinə yetirilir.

Təsadüfi audit seçilməsi: bir sıra vergi ödəyiciləri arasında vergidən yayınmaya meyilli olan şəxslərin vergi auditinə cəlb edilməsi. Qanunvericilikdə nəzərdə tutulmuş digər halların olması bu metodun tərkib hissəsidir.

Bəlli mənbələrə əsaslanan audit seçilməsi: xüsusilə böyük şirkətlər və qabaqcıl sektorlar üzərində aparılması üçün lazımlı bir audit seçmə texnikası. Gömrük orqanlarının və digər mənbələrin rəsmi məlumatları ilə vergi ödəyicisi tərəfindən təqdim edilmiş hesabatlardakı məlumatlar arasında, eyni zamanda bəyannamələrdə və ya vergi orqanlarına təqdim olunmuş digər sənədlərdə vergidən yayınmaya səbəb olan uyğunsuzluqlann araşdınlmasmın səyyar vergi yoxlaması aparmadan mümkünsüzlüyü bu metodun tərkib hissəsidir.

Digər məlumatlara istinad edən audit seçilməsi: audit işini aparan şəxslərin illərcə təşkil etdikləri araşdırma təcrübələri əsasında doğru qərar verməyi təmin edəcək metod. Bu metodun tərkib hissələrini digər vergi və dövlət orqanlarının məlumatları, materiallan, mənbəyi bəlli olan məlumatlar, vergi ödəyicisinin sonuncu 3 hesabat ili ərzində fəaliyyətinin vergi orqanlan tərəfindən yoxlanılmaması təşkil edir.

Proqram təminatlı modellərlə audit seçilməsi: vergi auditi məqsədi üçün risklərə əsaslanan avtomatlaşdırılmış seçmə metodu.

Qeyd edilən metodlarm hamısının bir-birini dəstəkləyəcək şəkildə vahid modellərdə cəmləşdirilərək istifadə edilməsi vergidən yayınma risklərini müəyyənləşdirir.

Sənədli yoxlama aşağıdakı mərhələlər üzrə apanlır: yoxlamaya hazırlıq, yoxlamanın apaniması, yoxlama nəticələrinin rəsmiləşdirilməsi, aktın imzalanması və onun ödəyiciyə təqdim edilməsi, yoxlama materiallarına baxılması və müvafiq qə- rann qəbul edilməsi və yoxlama materiallarının realizə edilməsi.

Sənədli yoxlamanın aparılma müddəti nəzarət obyektinin həcmindən, iqtisadi

il olaraq müəyyən edilir. Səyyar (sənədli) vergi yoxlamasının müddəti otuz gün müəyyən edilmişdir, lakin müstəsna hallarda bu müddət vergi orqanı rəhbərliyinin müvafiq qərarına əsasən doxsan günə qədər uzadıla bilər.

Hüquq pozuntularının əsas hissəsi vergi orqanı işçilərindən vergitutmadan yayınma cəhdlərinin qarşısının alınması məqsədilə yeni səmərəli metod və üsulların işlənib hazırlanmasını tələb edir. Bu baxımdan yoxlamaya hazırlıq sənədli audit yoxlamasının ən mühüm mərhələsidir. Belə ki, vergi orqanının rəhbəri (onun müavini) tərəfindən təsdiq edilən proqram məhz vergi yoxlamasının bu mərhələsində müəyyən edilir (dəqiqləşdirilir).

Hazırlıq mərhələsində əvvəlki hesabat dövrlərinin analoji göstəricilərinin dinamikası ilə müqayisədə ödəyicilərin vergi bəyannamələri və şəxsi hesablarının öyrənilməsi həyata keçirilir. Bundan başqa, bu mərhələdə daxili məlumatlar kənar informasiya mənbələrindən alınmış materiallarla müqayisə edilir, iqtisadi subyektin inkişaf tempi analoji müəssisələrin inkişaf tempi ilə müqayisə edilməklə qiymətləndirilir. Balans göstəricilərinin və yoxlanılan dövrdə onlarda baş vermiş dəyişikliklərin və onlann əvvəlki hesabat dövrünün göstəriciləri ilə müqayisəli təhlili xüsusi metodoloji əhəmiyyətə malUcdir. Yoxlama zamanı iqtisadi subyektin gəlirlilik göstəriciləri, satışdan olan maliyyə nəticələri, kapital və maliyyə qoyuluşunun olub-olmaması, ehtiyatların və borc öhdəliklərinin vəziyyəti, maliyyə-təsərrüfat fəaliyyətini xarakterizə edən digər göstəricilər vergi orqanlannda xüsusi maraq



Sxem 4.1. Səyyar vergi yoxlamasının aparılması mərhələləri

Vergi auditi obyektinin seçilməsi üçün aşağıdakı meyarlardan istifadə oluna bilər:

1. Təqdim edilmiş hesabatların vizual olaraq nəzərdən,keçirilməsi. Məsələn, müəssisə aktiv fəaliyyət göstərir, bazar konyunkturası əlverişlidir, ötən ili gəlirlə başa vurmuşdur, lakin hesabatda onun zərərlə işlədiyi göstərilir.
2. Nisbətən kiçik xərclərlə çox böyük gəlir əldə edilməsi. Belə vəziyyət qiymət intizamının pozulmasından irəli gələ bilər.
3. Yoxlanılan müəssisənin ödədiyi ödənişlərin müvafiq ərazidə dövlət büdcəsinə daxil olmuş ümumi vergi daxilolmalarındakı payının qiymətləndirilməsi.
4. Azad edilmiş işçilərdən daxil olmuş siqnallar, kütləvi informasiya vasitələrində dərc olunmuş materialların təhlil edilməsi.
5. Bankdan alınmış informasiyanın təhlil edilməsi.
6. Yoxlanılan müəssisə ilə qarşılıqlı işgüzar münasibətlərdə olan digər müəssisələrdə aparılmış qarşılıqlı yoxlamaların nəticələrinin təhlili.
7. Sorğular, digər vergi orqanlarının məlumatı, hüquq-mühafizə orqanlarının informasiyası və digər materialların öyrənilməsi.

Yoxlamaya başlamazdan əvvəl vergi orqanının vəzifəli şəxsinə müəyyən formalı yazılı vəsiqə verilir. Vəsiqə yoxlama zamanı nəzarət hərəkətlərinin aparılması üçün vergi müfəttişinə müəyyən səlahiyyətlərin verilməsini təsdiq edən ciddi sənəd formasıdır. Vəsiqənin əsas rekvizitləri yoxlamanın yekunları Ü**2**Tə tərtib edilmiş aktda əks etdirilir.

Təşkilati tədbirlərlə yanaşı, vergi auditinin mühüm elementlərindən biri də vergi yoxlamasının aparılması taktikasıdır. Nəzarət metodlanmn xarakteri, onların tətbiq edilmə ardıcıllığı və mümkün olan digər texniki üsullar yoxlamanı aparan vergi müfəttişi tərəfindən müstəqil müəyyən edilir. Bu zaman müfəttiş müvafiq vergi orqanının metodiki göstərişləri və yoxlama proqramının tələblərini əldə rəhbər tutmalıdır. Bu vergi müfəttişləri tərəfindən fərdi metodiki üsulların tətbiqi və öz dəsti-xəttinin işlənib hazırlanması üçün şərait yaradır ki, bu da heç də vergi ödəyi- ciləri ilə münasibətlərdə və nəzarət işinin nəticələrində müsbət əksini tapmır.

Vergi işi praktikası yoxlayıcılan potensial vergi hüquq pozuntularına yönəldən strateji istiqamətlər formalaşdırmışdır. Məsələn, müəssisənin alqı-satqı fəaliyyəti yoxlanılarkən eyni zamanda onun əsas tərəf müqabilləri yoxlanılır, malların əldə edilmə və satılma mənbələri təhlil edilir. Qarışıq mülkiyyət formalı müəssisələr yoxlanılarkən təsisçi müəssisə ilə yeni yaradılmış müəssisənin rəhbərlərinin eyni olduğu hallarda birgə aparılmış əməliyyatların qarşılıqlı yoxlamasının aparılması məqsədəuyğundur. Holdinq şirkətlər birliyi yoxlanılarkən transfert qiymətləndirmə metodu ilə vergidən yayınmanın qarşısının alınması məqsədilə törəmə kompaniyalarla əsas müəssisənin birgə yoxlanması daha məqsədyönlüdür.

Maliyyə-təsərrüfat fəaliyyətinin müxtəlif tərəflərini əhatəetmə səviyyəsinə, yəni yoxlanılan məsələlərin həcminə görə vergi auditi tam, qismən (tematik) və məqsədli ola bilər. Bu formalardan hansının seçilməsi aparılacaq vergi auditinin istiqamətindən asılıdır.

Kompleks vergi yoxlaması, təsərrüfat subyektinin yoxlanılan dövr ərzindəki təsərrüfat-kommersiya fəaliyyətinin qarşılıqlı əlaqədə olan bütün elementlərini.

xüsusilə vergi qanunvericiliyinə əməl edilməsi məsələlərini əhatə etməklə, onun haqqında daha geniş informasiyanın hərtərəfli öyrənilməsini nəzərdə tutur. Təsərrüfat-kommersiya fəaliyyətinin kompleks yoxlanması zamanı vergi ödəyicisinin ödəməli olduğu bütün vergilərin hesablanması, vaxtında və ödənilməsinin düzgünlüyü yoxlanılır.

Tematik (qismən) yoxlamalar - ayrı-ayrı məsələlər üzrə vergi ödəyicisinin maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanması üsuludur. Bu cür yoxlamalar adətən hüquq-mühafizə orqanlanndan daxil olmuş operativ informasiyaya, yaxud yuxarı vergi orqanlarının qərarına əsasən aparılır. Hüquq-mühafizə orqanlarının tələbinə əsasən aparılan tematik yoxlamalar maliyyə-təsərrüfat fəaliyyətinin əvvəlcədən müəyyən edilmiş konkret məsələlərinin araşdırılması ilə məhdudlaşır.

Vergi orqanları tərəfindən seçmə qaydasında aparılan audit yoxlaması zamanı ayrı-ayrı əməliyyatların (məsələn, valyuta əməliyyatları, əvəzsiz olaraq alınmış vəsaitlərdən vergi tutulması) mühasibat uçotunda əks etdirilməsi, müəssisələr tərəfindən ödənilən ayrı-ayrı vergi növlərinin hesablanması və ödənilməsinin düzgünlüyü tədqiq edilir.

Məqsədli yoxlama - vergi ödəyicisinin təsərrüfat (kommersiya) fəaliyyətinin ayrı-ayrı istiqamətləri üzrə və ya konkret təsərrüfat əməliyyatının keçirilməsi zamanı vergi qanunvericiliyinə əməl edilməsinin yoxlanmasıdır.

Planlaşdırma (təyinat, təşkili) üsuluna görə vergi yoxlamaları iki cür olur: planlı və plandankənar (qəfləti). Vergi yoxlamalarının əksər hissəsini təşkil edən planlı (növbəti) yoxlamalar təqvim ili üçün işlənib hazırlanan və vergi orqanının rəhbərliyi tərəfindən təsdiq edilən yoxlama qrafikinə əsasən aparılır.

Növbədənkənar (plandankənar) yoxlamalar aşağıdakı hallarda apanlır:

mühasibat hesabatlarında, bəyannamələrdə, vergi haqq-hesablarında və vergi orqanlarına təqdim olunmuş digər sənədlərdə olan uyğunsuzluqların araşdırılması sənədli yoxlama aparılmadan mümkün olmadıqda; uçotdan yayman vergi ödəyiciləri aşkar edildikdə;

vergi qanunvericiliyi və dövlət qiymət intizamına aid qanun pozuntuları barədə anonim olmayan ərizə, şikayət və məlumatlar daxil olduqda; hüquqi şəxslərin ləğv edilməsi barədə məhkəmə orqanının qərarı və ya vergi ödəyicisinin rəsmi ərizəsinə əsasən;

vergi ödəyiciləri tərəfindən ardıcıl olaraq altı ay müddətində fəaliyyətlərinin olma- mağı barədə məlumatlar (vergi hesabatlan, haqq-hesablar) təqdim edilmədikdə; qanunvericiliklə nəzərdə tutulmuş digər hallarda.

Aparılması vaxtına görə nəzarət tədbirləri ilkin (qabaqcadan), cari və sonrakı olmaqla üç cür olur.

İlkin nəzarət xəbərdarlıq xarakteri daşıyır və maliyyə-təsərrüfat fəaliyyətinə başlanmazdan əvəl həyata keçirilir. Qabaqcadan nəzarət təsərrüfat-maliyyə əməliyyatları baş verməzdən əvəl həyata keçirilir və onun əsas məqsədi qeyri-qanuni hərəkətlərin, çatışmamazlıq və qanun pozuntularının qarşısını almaqdır. İlkin nəzarətdən optimal qərarlann qəbul edilməsi üçün vergi auditinin planlaşdırılması mərhələsində istifadə olunur. Bu nəzarət formasının əhəmiyyəti ondan ibarətdir ki, nəzarət tədbirləri daha keyfiyyətlə həyata keçirilir.

Cari nəzarət operativ idarəetmənin ayrılmaz tərkib hissəsidir və qısa müddət ərzində (istehsal, təsərrüfat və maliyyə əməliyyatlarının başvermə prosesində) aparılır. Vergi işi praktikasında cari nəzarət, tədqiqat, xronometraj, müşahidə kimi üsullarla (metodlarla) həyata keçirilir və vergi yığımlarının artırılması üçün istifadə edilir. Belə ki cari nəzarət təsərrüfat əməliyyatlarının (proseslərinin) kəmiyyət və keyfiyyət baxımından qarşılıqlı əlaqəsini təmin edir.

Sonrakı nəzarət - müəyyən hesabat dövrü bitdikdən sonra həyata keçirilən nəzarət formasıdır. Vergi auditinin bu forması əsasən, vergi ödəyicisinin maliyyə-təsərrüfat əməliyyatlannı dərindən araşdırmaq və onun çatışmamazlıqlarını aşkar etmək imkanı verən sənədli yoxlama üsulu ilə aparılır.

İlkin sənədlərin və mühasibat uçotu registrlərinin yoxlanması metoduna görə vergi nəzarəti tam (kompleks) və seçmə olmaqla iki yerə ayrılır. Tam (kompleks) yoxlama bütün ilkin sənədlərin, sintetik və analitik uçot registrlərindəki yazılışların yoxlanmasını nəzərdə tutur. Vergi auditinin bu formasına məsuliyyətsiz və vergi qanunvericiliyinin pozulması ehtimalı daha çox olan müəssisələrin təsərrüfat əməliyyatları məruz qalır. Bir qayda olaraq pul vəsaitlərinin hərəkəti üzrə kassa və bank əməliyyatları, maya dəyəri və müəssisənin maliyyə nəticələrinin formalaşması üzrə əməliyyatlar bu qəbildən olan əməliyyatlara aid edilir. Yoxlama proqramında nəzərdə tutulduğu hallarda debitor və kreditorlarla hesablaşmalar, eləcə də müəssisə fəaliyyətinin digər sahələri kompleks yoxlanıla bilər.

Seçmə yoxlama forması iki cür təşkil oluna bilər: ya hesabat ilinin ayrı-ayrı dövrlərinin bütün sənədləri, ya da bütün hesabat ili sənədlərinin bir qismi yoxlanılır. Əgər seçmə üsulu ilə yoxlama zamanı əhəmiyyətli qanun pozuntulan müəyyən edilərsə, onda dövlətə dəymiş ziyanın tam aşkar edilməsi məqsədilə yoxlama kompleks şəkildə aparılır.

informasiya təminatının müxtəlifliyi baxımından vergi auditinin iki forması müəyyən edilmişdir: sənədli və faktiki. Sənədli nəzarət yoxlanılan obyekt haqqında ilkin sənədlərdəki məlumatların yoxlanmasına əsaslanır.

Sənədli yoxlama aşağıdakı üsullarla həyata keçirilir:

- sənədlərin formal, məntiqi və riyazi yoxlanması;
- sənədlərdə əks etdirilmiş təsərrüfat əməliyyatlarının hüquqi cəhətdən qiymətləndirilməsi;
- qarşılıqlı yoxlama (sənədlərdə əks etdirilmiş əməliyyatların kontragent müəssisənin analoji sənədlərdə və ya bu əməliyyatın digər sənəd və uçot rc-gistrlərində əks etdirilməsinin aydınlaşdırılması);
- ilkin sənədlərdə göstərilən məlumatların mühasibat yazılışlarında düzgün əks etdi ril ib-etdiri Iməmə ayd ın laşdırı İması;
- iqtisadi təhlil.

Vergi praktikasına sənədlərin öyrənilməsinin iki üsulu tətbiq edilir:

1) ilkin sənədlərdən uçot göstəricilərinə (analitikdən sintetik uçota), daha sonra isə mühasibat hesabatı göstəricilərinə doğru;
2) hesabat göstəricilərindən uçot registrlərinə, daha sonra isə ilkin sənədlərə doğru.



Şəkil 26. İlkin sənədlərin yoxlanılması üsulları

Müəssisə fəaliyyətinin hərtərəfli öyrənilməsi, ilkin sənədlərin mükəmməlliyi və onlardakı məlumatların düzgünlüyü faktiki nəzarətin xüsusi üsulları ilə müəyyən edilir. Faktiki nəzarətin metodlarına aşağıdakılar aid edilir: inventarlaşdırma, tədqiqat və ekspertiza

İnventarizasiya vergi auditində gəlir və digər vergitutma obyektlərinin gizlədilməsi faktlarının yoxlanması, müəssisənin vergi borclarının vəziyyətinin qiymətləndirilməsi zamanı xüsusilə böyük rol oynayır. İnventarlaşdırma prosesində sayma, ölçmə, çəkmə və vergi ödəmələrinin düzgün hesablanması üçün lazım olan kəmiyyət göstəricilərinin digər analoji dəqiqləşdirmə formalan tətbiq oluna bilər.

Təsərrüfat subyektlərində (fərdi sahibkarlarda) faktiki mal qalığının müəyyən edilməsi və aktlaşdırılmasında inventarlaşdırma metodu əsas rol oynayır

Tədqiqat üsulu vergi ödəyicisi fəaliyyətinin fakt və hadisələri ilə vergi müfəttişinin şəxsən tanış olmasına əsaslanır. Tədqiqat vergitutma obyektlərinin aşkara çıxarılması məqsədilə istehsal sahələrinin nəzərdən keçirilməsi, vergi ödəyiciləri və digər şəxslərin sorğuya cəlb edilməsi yolu ilə həyata keçirilə bilər. Tədqiqat prosesində materialların istehsala buraxılmasının sınaq yolu ilə yoxlanması, xronometraj və digər nəzarət üsulları ilə həyata keçirilə bilər.

Vergi qanun pozuntusu faktlarının sübut edilməsini və onların kəmiyyətcə müəyyənləşdirilməsini tələb edən mürəkkəb hallarda, mütəxəssislər cəlb edilməklə ekspertiza formasında aparılan yoxlamalar xüsusi əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, audit yoxlaması aparan vergi müfəttişi bəzən yoxlama nəticələrinin əsaslandırılmasında çətinlik çəkir. Çünki yoxlama nəticələrinin əsaslandırılması, qarışıq iqtisadi və hüquq, konkret istehsal prosesinin təşkili və texnologiyası sahəsində xüsusi biliklərin olmasını tələb edir. Əks halda yoxlayıcının səriştəsizliyi vergidən yayınma vasitələrinin gizlədilməsi kanallarını yaratmaqla, qanun pozuntusunun ört-basdır edilməsi kimi taktiki səhvlərlə nəticələnə bilər. Aydındır ki, belə problemlərlə üzləşən vergi müfəttişi yuxarıda göstərilən sahələrdə kifayət qədər lazımi biliklərə malik olmadığı üçün və taktiki səhvlərə yol verməmək məqsədilə vergi yoxlamasına mütəxəssislər cəlb edir. Məhz bu səbəbdən ekspertiza vergi auditinin səmərəliliyini artıran metodlardan biri hesab olunur.

Vergi nəzarətinin növləri onlann keçirilmə müddətindən və aparılma mənbəyindən asılı olaraq müəyyən edilir. Aparılma müddətinə görə vergi nəzarəti operativ və dövri olmaqla iki yerə bölünür.

Operativ nəzarət - hesabat dövrü daxilində nəzarətdə saxlanılan əməliyyatla- nn kəmiyyət və keyfiyyət səciyyələrinə uyğun olaraq həyata keçirilən nəzarət formasıdır. Bu nəzarətin həyata keçirilməsi üçün əsas informasiya mənbəyi plan, ope- rativ-texniki, statistik və mühasibat məlumatlarından istifadə olunur.

Dövrü nəzarətin əsas məqsədi vergi qanunvericiliyinin tələblərinə əməl edilməsi, vergilərin tam və vaxtında ödənilməsinin müəyyənləşdirilməsi, yoxlanılan obyektin fəaliyyətindəki çatışmamazlıq və qanun pozuntularının aşkar edilməsi və onların aradan qaldırılması üçün tədbirlər görülməsidir. Bu' nəzarət forması müəyyən hesabat dövründə plan, smeta, normativlər, ilkin sənədlər, hesabatlar, uçot re- gistrləri və digər mənbələrdəki məlumatlara əsasən həyata keçirilir.

Mənbəyinə görə vergi auditi sənədli və faktiki nəzarətə ayrılır. Sənədli nəzarət zamanı yoxlanılan obyektin məzmununun onun təyinatına uyğunluğu müəyyənləşdirilir. Bu yoxlama sənədlərdə əks olunmuş plan və hesabat məlumatlarının müqayisə edilməsi yolu ilə aparılır.

Faktiki nəzarət zamanı yoxlanılan obyektin kəmiyyət və keyfiyyət göstəriciləri baxış keçirmə, ölçmə, yenidən hesablama, ekspertiza və digər tədqiqat üsulları ilə müəyyən edilir.



Şəkil 27. Vergi auditinin təsnifləşdirmə sxemi

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2002-ci il 13 dekabr tarixli 196 nömrəli qərarı ilə
təsdiq edilmişdir.

«Nəzarət kitabçasım haqqında

ƏSASNAMƏ

1. Umumi müddəalar

1.1. Bu Əsasnamə «Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında» Azərbaycan Respublikası Prezidentinin 2002- ci il 28 sentyabr tarixli 790 nömrəli Fərmanının 10-cu bəndinin 9-cu abzasının və 11-ci bəndinin 2-ci abzasmın icrasını təmin etmək məqsədilə hazırlannuşdır.

1.2. Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən bütün sahibkarlıq subyektlərində (hüquqi və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdə) bu Əsasnaməyə əlavə edilmiş formaya uyğun olaraq «Nəzarət kitabçasım tətbiq edihr.

1.3.Sahibkarlıq subyektlərinin «Nəzarət kitabçasım ilə təmin edilməsi və onun reyestrinin aparılması Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi (bundan sonra-Nazirlik) tərəfindəq dövlət büdcəsindən ayrılmış vəsait hesabına həyata keçirilir.

1.4. «Nəzarət kitabçasım fərdi nömrəyə malikdir. «Nəzarət kitabçasımnın çapı Nazirlik tərəfindən təşkil olunur. Bu Əsasnamənin mətni kitabçanın titul vərəqinin iç üzündə dərc edilir. «Nəzarət kitabçasımnın səhifələri mətbəə üsulu ilə nömrələnir.

1.5. Sahibkarlıq subyektlərinin «Nəzarət kitabçasımm filial və nümayəndəliklərini də nəzərə almaqla, lazım olan miqdarda rəsmi müraciətlər əsasında, onun çap edilməsinə çəkilmiş xərci ödəməklə Nazirlikdən alırlar. Nazirlik «Nəzarəl kitabçasımnın verilməsini və bunun üçün sahibkarlıq subyektlərindən haqqın alınmasını müvafiq qaydada rəsmiləşdirir və toplanmış vəsaiti bütünlüklə dövlət büdcəsinə köçürür.

2. Nəzarət kitabçalarının saxlanılması və ondan istifadə

2.1. Sahibkarlıq subyektlərində «Nəzarət kitabçasımnın saxlanılmasını obyektin rəhbəri və yaxud onun müavini, filial və nümayəndəliklərdə isə rəhbərlik tərəfindən müəyyən edilmiş şəxs təmin edir.

2.2. Qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada yoxlamalar həmin yoxlamanı aparan şəxsin adı, soyadı, atasının adı, vəzifəsi və təmsil etdiyi təşkilatın adı, yoxlamanın məqsədi, yoxlamaya hüquq verən sənədin tarixi və nömrəsi, yoxlamaya başlanılan vaxt «Nəzarət kitabçasımna qeyd edildikdən sonra həyata keçirilir.

2.3. Qanunvericilikdə nəzərdə tutulmuş hallarda və qaydada yoxlama aparmağa başlanan sahibkarlıq subyektlərində «Nəzarət kitabçasımnın olma

ması qanuni yoxlamanın aparılmamasına əsas vermir. Bu halda yoxlama aparan şəxs yoxlamanın nəticəsinə dair tərtib etdiyi sənəddə bu barədə müvafiq qeyd aparmalı, yoxlanılan sahibkarlıq subyektinin rəhbəri isə qısa müddət ərzində müəyyən edilmiş qaydada «Nəzarət kitabçası»nı almalıdır.

2.4. Sahibkarlıq subyektlərində yoxlama aparan şəxslərin qanunvericilikdə nəzərdə tutulmuş qaydada yoxlamaya hüquq verən sənədləri olmalıdır.

2.5. Qanunvericilikdə nəzərdə tutulmuş hallarda və qaydada dövlət orqanları tərəfindən sahibkarlıq subyektlərində həyata keçirilən bütün yoxlamalar «Nəzarət kitabçası»nda qeyd edilir.

2.6. Vergi orqanlan istisna olmaqla, digər dövlət orqanları tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş hallarda və qaydada sahibkarlıq subyektlərində aparılan yoxlamalarda iştirak edən Nazirliyin nümayəndəsi haqda «Nəzarət kitabçası»nda müvafiq qeydlər aparılır.

2.7. Yoxlamanın nəticəsinə dair tərtib edilmiş sənədlər barədə «Nəzarət kitabçası»nda müvafiq qeydlər aparılır.

2.8. Yoxlamanın nəticəsi üzrə tərtib edilmiş sənədlərin eyni qüvvəyə malik bir nüsxəsi sahibkarlıq subyektində, ikinci nüsxəsi isə yoxlama keçirən orqanın nümayəndəsində saxlanılır. Nazirliyin nümayəndəsinin iştirakı ilə keçirilən yoxlamalarda eyni qüvvəyə malik üçüncü nüsxə tərtib olunur və nümayəndəyə təqdim edilir.

2.9. Sahibkarlıq subyektləri yoxlamanın nəticəsi ilə razılaşmadıqlan hallarda, qanunvericilikdə müəyyən edilmiş qaydada yoxlamanı aparan orqanın qəranndan Nazirliyə və məhkəməyə şikayət edə bilərlər.

2.10. «Nəzarət kitabçası» itirildikdə və yaxud istifadəyə yararsız hala salındıqda, sahibkarlıq subyekti onun dublikatının alınması haqqında Nazirliyə müraciət etdikdən sonra üzərində «Dublikat» sözü yazılmış yeni «Nə- zarət kitabçası» ilə təmin olunur.

2.11. Yoxlayıcı orqanın nümayəndələri tərəfindən apanimış, qeydiyyatlarla dolmuş «Nəzarət kitabçası» yeni kitabça alınarkən rəsmi qaydada Nazirliyə təhvil verilir və həmin kitabçalar 5 il müddətində Nazirlikdə saxlanılır.

2.12. Bu Əsasnamənin 2-ci bəndində göstərilən tələblər yerinə yetirilmədən aparılan yoxlama qeyri-qanuni hesab edilir.

3. «Nəzarət kitabçası» üzrə məlumatların ümumiləşdirilməsi

3.1. Sahibkarlıq subyektləri hər altı aydan bir onlarda apanlan yoxlamaya dair məlumatları Nazirliyin yerli qurumlan vasitəsilə Nazirliyə təqdim edir.

3.2. Nazirlik daxil olmuş məlumatları ümumiləşdirərək təhlil edir və bu haqda ildə iki dəfə Azərbaycan Respublikası Prezidentinə məlumat verir.



S/N

Yoxlama aparan şəxsin adı, soyadı, atasının adı, vəzifəsi,
təmsil etdiyi təşkilətın adı, ünvanı, əlaqə

Yoxlamanın apanimasına hüquq verən sənədin tarixi və nömrəsi

Yoxlamamn aparılmasının məqsədi

İqtisadi İnkişaf Nazirliyinin yoxlamada iştirak edən Nümayəndəsinin adı, soyadı, vəzifəsi və yoxlamada iştirak etməyə hüquq verən sənədin

Yoxlamanın məzmunu və yoxlama ilə əhatə olunan dövr

Yoxlamamn başlama vaxtı (tarix, saat). Yoxlamanı aparan şəxsin imzası və İqtisadi İnkişaf Nazirliyinin nümayəndəsinin iştirak etdiyi halda, həmçinin nümayəndənin imzası __ _____

Aşkar edilən faktlar, yoxlamanın nəticəsi üzrə tərtib edilən sənədlər, görülmüş tədbirlər və nöqsanların aradan qaldınhnasına dair təkliflər

Yoxlamanın bitmə vaxtı (tarix, saat). Yoxlama aparan şəxsin imzası və İqtisadi İnkişaf Nazirliyinin nümayəndəsinin iştirak etdiyi halda, həmçinin nümayəndənin imzası _____
Yoxlamamn nəticəsi üzrə tərtib edilmiş yekun sənədlərinin onlara çatacaq nüsxələrini almalanna dair sahibkarbq subyekti rəhbərinin (İqtisadi İnkişaf Nazirliyinin nümayəndəsinin iştirak etdiyi halda, həmçinin nümayəndənin) qeydi və imzası__

Əlavə 5

Mənfəət vergisinin bəyənnaməsinin yoxlanılması

Sıra N-si	Əməliyyatlar və görüləcək tədbirlər !
1	İş qovluğunun götürülməsi
2	Cari hesabat dövründən əvvəlki hesabat dövrü üzrə bəyannamənin göstəricilərinin şəxsi hesab vərəqəsinə işlənib-işlənilmoməsini nəzərdən
3	Verginin hesablanmasının düzgünlüyünü yoxlamaq
3.1	Bəyannamə üzrə vergi ödəyicisi tərəfindən hesablanmış vergi məbləğinin düzgünlüyünü hesabi qaydada yoxlamaq
3.2	Vergi ödəyicisinin fəaliyyəti ilə əlaqədar vergi orqanında olan və hesabat dövrü üzrə vergitutma bazasına təsir edən məlumatları (idxal-ixrac əməliyyatları barədə Gömrük Komitəsindən alınmış məlumatlar, xronometraj metodu ilə aparılmış müşahidələrin məlumatları, digər səlahiyyətli orqanlardan alınmış məlumatlar və vergi orqanınm əldə etdiyi mənbəyi bəlli olan hər hansı digər məlumatlar, o cümlədən vergi ödəyicisi tərəfindən təqdim edilmiş ƏDV və aksiz vergisi bəyannamələrinin məlumatları) bəyannamənin müvafiq göstəriciləri ilə müqayisə edərək kənarlaşmanm olub-olmamasmı araşdırmaq.
3.3	Gəlirlər və xərclərin uçotunu hesablama metodundan istifadə etməklə aparan vergi ödəyicilərində mənfəət vergisi bəyannaməsinin ***«Mallann təqdim edil****məsindən, iş və xidmət göstərilməsindən gəlir»* sətrində göstərilmiş məbləğin hesabat ili üçün təqdim edilmiş Əlavə dəyər vergisi üzrə bəyannamələrində 303 kodda göstərilmiş məbləğə və ya Aksiz bəyannamələrində 400 kodda göstərilmiş məbləğə uyğun olmasına diqqət
3.4	Dividendlərin 210 və 220-ci kodlarda göstərilmiş məbləğlərin bir-birinə bərabər olmasına diqqət yetirmək.
3.5	Gəlirdən çıxılan torpaq vergisi, əmlak vergisi və mədən vergisi məbləğlərinin hesabat ili üçün təqdim edilmiş müvafiq vergi bəyannamələri üzrə vergi məbləğlərinə bərabər olmasına diqqət yetirmk.
3.6	Bəyannamədə kemiş illərin çıxılası zərərləri göstərildikdə, hesabat ilindən əvvəlki son beş ilin mənfəət vergisi bəyannamələri, habelə həmin dövr üzrə keçirilmiş səyyar vergi yoxlamalarının nəticələri üzrə müəyyən edilmiş zərər məbləğinə uyğun olmasma diqqət yetirmək.
3.7	Mənfəət vergisi üzrə güzəşt məbləğlərinin qanunvericiliyə uyğun olub-olmamasını araşdırmaq.
3.8	Bəyannaməyə əlavə olunmalı sənədlərin təqdim edilməməsi ilə əlaqədar məktub göndərilmiş vergi ödəyicisi tərəfindən bu sənədlərin təqdim edilib-edilməməsini araşdırmaq.
3.9	Bəyannamənin göstəricilərinin vergi ödəyicisinin fəaliyyəti ilə əlaqədar vergi orqanında olan göstəricilərlə müqayisəsi nəticəsində kənarlaşmalar aşkar edildikdə, habelə bəyannaməyə əlavə olunmalı sənədlərin təqdim edilməməsi ilə əlaqədar məktub göndərilmiş vergi ödəyicisi tərəfindən bu sənədlər təqdim edilmədikdə vergiləri yenidən hesablamaq.
4	Kameral yoxlamamn nəticələri vergİ ödəyicisinin bəyannamə üzrə məlumatları ilə müqayisə edilməli və əlavə hesablanmalı və ya azaldılmalı olan verginin olub-ohnaması müəyyən edilməlidir.
5	Kameral yoxlama başa çatdıqdan sonra bəyannamə müfəttiş və «Bəyannamə-lər» şöbəsinin rəisi tərəfindən imzalanmalıdır.

Əlavə 5

Fiziki şəxsin sahibkarlıq fəaliyyətindən gəliri və muzdla olmayan işdən digər gəlirləri haqqında bəyannaməsinin yoxlanılması

Sıra N-si	Əməliyyatlar və görüləcək tədbirlər
1	İş qovluğunun götürülməsi
2	Cari hesabat dövründən əvvəlki hesabat dövrü üzrə bəyannamənin göstəricilərinin şəxsi hesab vərəqəsinə işlənib-işlənilməməsini nəzərdən keçirmək
3	Verginin hesablanmasının düzgünlüyünü yoxlamaq
3.1	Bəyannamə üzrə vergi ödəyicisi tərəfindən hesablanmış vergi məbləğinin düzgünlüyünü hesabi qaydada yoxlamaq
3.2	Vergi ödəyicisinin fəaliyyəti ilə əlaqədar vergi orqanmda olan və hesabat dövrü üzrə vergitutma bazas'ma təsir edən məlumatlan (idxal-ixıac əməliyyatlan barədə Gömrük Komitəsindən alınmış məlumatlar, xronometraj metodu ilə aparılmış müşahidələrin məlumatlan, digər səlahiyyətli orqanlardan alınmış məlumatlar və vergi orqanmm əldə etdiyi mənbəyi bəlli olan hər hansı digər məlumatlar, o cümlədən vergi ödəyicisi tərəfindən təqdim edilmiş ƏDV və aksiz vergisi bəyannamələrinin məlumatlan) bəyannamənin müvafiq göstəriciləri ilə müqayisə edərək kənarlaşmanm olub-olmamasmı araşdırmaq.
3.3	Gəlirlər və xərclərin uçotunu hesablama metodundan istifadə etməklə aparan vergi ödəyicilərində bəyannamənin gəlirin məbləği sütununda göstərilmiş məbləğin hesabat ili üçün təqdim edilmiş Əlavə dəyər vergisi üzrə bəyannamələrində 303 kodda göstərilmiş məbləğə və ya Aksiz bəyannamələrində 400 kodda göstərilmiş məbləğə uyğun olmasma diqqət
3.4	Gəlir vergisi üzrə güzəşt məbləğlərinin qanunvericiliyə uyğun olub-olmamasmı araşdırmaq.
3.5	Bəyannaməyə əlavə olunmalı sənədlərin təqdim edilməməsi ilə əlaqədar məktub göndərilmiş vergi ödəyicisi tərəfindən bu sənədlərin təqdim edilib-edilraə- məsini araşdırmaq.
3.6	Bəyannamənin göstəricilərinin vergi ödəyicisinin fəaliyyəti ilə əlaqədar vergi orqanmda olan göstəricilərlə müqayisəsi nəticəsində kənarlaşmalar aşkar edildikdə, habelə bəyannaməyə əlavə olunmalı sənədlərin təqdim edilməməsi ilə əlaqədar məktub göndərilmiş vergi ödəyicisi tərəfindən bu sənədlər təqdim edilmədikdə vergiləri yenidən hesablamaq.
4	Kameral yoxlamamn nəticələri vergi ödəyicisinin bəyannamə üzrə məlumatları ilə müqayisə edilməli və əlavə hesablanmalı və ya azaldılmalı olan verginin olub-olmaması müəyyən edilməlidir.
5	Kameral yoxlama başa çatdıqdan sonra bəyannamə müfəttiş və «Bəyannamə-lər» şöbəsinin rəisi tərəfindən imzalanmalıdır.

Ödəmə mənbəyində tutulan vergilər barədə bəyannamənin yoxlanılması

Sıra N-si	Əməliyyatlar və görüləcək tədbirlər
1	İş qovluğunun götürülməsi
2	Cari hesabat dövründən əvvəlki hesabat dövrü üzrə bəyannamənin göstəricilərinin şəxsi hesab vərəqəsinə işlənib-işlənilməməsini nəzərdən keçirmək
3	Verginin hesablanmasının düzgünlüyünü yoxlamaq
3.1	Bəyannamə üzrə vergi ödəyicisi tərəfindən hesablanmış vergi məbləğinin düzgünlüyünü hesabi qaydada yoxlamaq
3.2	Vergi ödəyicisinin mənbəədə vergiyə cəlb edilən ödənişləri ilə əlaqədar vergi orqamnda olan və hesabat dövrü üzrə vergitutma bazasına təsir edən məlumatları (digər səlahiyyətli orqanlardan alınmış məlumatlar və vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı digər məlumatlar) bəyannamənin müvafiq göstəriciləri ilə müqayisə edərək kənarlaşmanın olub-oiraamasmı araşdırmaq.
4	Kameral yoxlama üzrə məlumatlar bəyannamənin «kameral yoxlamanın nəticələrinə əsasən» sütununda tam əks etdirilməli, kameral yoxlamanın nəticələri vergi ödəyicisinin bəyannamə üzrə məlumatları ilə müqayisə edilməli və əlavə hesablanmalı və ya azaldılmalı olan verginin olub-olmaması müəyyən edilməlidir.
5	Kameral yoxlama başa çatdıqdan sonra bəyannamə müfəttiş və «Bəyannamələr» şöbəsinin rəisi tərəfindən imzalanmalıdır.

ƏLAVƏ DƏYƏR VERGİSİNİN BƏYANNAMƏSİNİN YOXLANILMASI

Sıra N-si	Əməliyyatlar və görüləcək tədbirlər
1	tş qovluğunun götürülməsi
2	Cari hesabat dövründən əvvəlki hesabat dövrü üzrə bəyannamənin göstəricilərinin şəxsi hesab vərəqəsinə işlənib-işlənilməməsini nəzərdən keçinnək.
3	Verginin hesablanmasının düzgünlüyünü yoxlamaq
3.1	Bəyannamə üzrə vergi ödəyicisi tərəfindən hesablanmış vergi məbləğinin düzgünlüyünü hesabi qaydada yoxlamaq.
3.2	Vergi ödəyicisinin fəaliyyəti ilə əlaqədar vergi orqanında olan və hesabat dövrü üzrə vergitutma bazasına təsir edən məlumatları (idxal-ixrac əməliyyatları barədə Gömrük Komitəsindən alınmış məlumatlar, xronometraj metodu ilə apanimış müşahidələrin məlumatlan, digər səlahiyyətli orqanlardan alınmış məlumatlar və vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı digər məlumatlar) bəyannamənin müvafiq göstəriciləri ilə müqayisə edərək kənarlaşmanın olub-olmamasını araşdırmaq.
3.3	ƏDV-dən azad olunan və ƏDV-nə sıfır dərəcə ilə cəlb edilən əməliyyatların olub- olmamasını araşdırmaq.
3.4	Təqdim edilmiş bəyannaməyə əlavə olunmuş wAlınmış mallara (işlərə, xidmətlərə) görə əldə edilmiş vergi hesab-fakturalan və onu əvəz edən digər sənədlər barədə məlumaə>a daxil edilmiş vergi hcsab-fakturalannın seriyalannm onlan çap etmiş mətbəələrə Maliyyə Nazirliyi tərəfindən verilmiş seriyalara uyğunluğunu, hesab-fakturanın nömrəsinin altı rəqəmdən ibarət olmasını yoxlamaq. Kənarlaşma olduqda həmin vergi-hesab-fakturası üzrə əvəzləşmə məbləğini nəzərə almamaq. Əvəzləşməyə qəbul edilən vergi hesab- fakturalan üzrə əvəzləşdirilən məbləğin bəyannamənin 304-cü kodunda göstərilən məbləğlərə uyğun olub-olmamasım araşdırmaq.
3.5	Bəyannamədə ƏDV-dən azad olunan əməliyyatlar olduqda əvəzləşdirilməsinə yol verilən ƏDV-nin vergi tutulan əməliyyatlara uyğunluğunu yoxlamaq. Bunun üçün ƏDV-dən azad olunan əməliyyatlann ümumi əməliyyatlann (kod 301) tərkibində xüsusi çəkisini (kod 303), alınmış hesab-fakturalar və onu əvəz edən digər sənədlər üzrə mallara (işlərə, xidmətlərə) görə ödənilmiş ƏDV-nin məbləğinə (kod 304) vurulur.
3.6	Bəyannaməyə əlavə olunmalı sənədlərin təqdim edilməməsi ilə əlaqədar məktub göndərilmiş vergi ödəyicisi tərəfindən bu sənədlərin təqdim edilib-edilməməsini araşdırmaq. Təqdim edilməli olan, lakin təqdim edilməmiş sənəd ƏDV-dən azad olunan və ya ƏDV-yə sıfır dərəcə ilə cəlb edilən əməliyyatlarla əlaqədar olduqda, bu əməliyyatlar üzrə bəyannamədə göstərilmiş dövriyyəni vergi dərəcəsinə vurmaqla vergini hesablamaq. Təqdim edilməli olan, lakin təqdim edilməmiş sənəd əvəzləşdirilən ƏDV ilə əlaqədar olduqda, bu əvəzləşməiəri nəzərə almamaq.
4	Kameral yoxlama üzrə məlumatlar bəyannamənin «kameral yoxlamanın nəticələrinə əsasən» sütununda tam əks etdirilməli, kameral yoxlamanın nəticələri vergi ödəyicisinin bəyannamə üzrə məlumatlan ilə müqayisə edilməli və əlavə hesablanmalı və ya azaldılmalı olan verginin olub-olmaması müəyyən edilməlidir.
5	Kameral yoxlama başa çatdıqdan sonra bəyannamə müfəttiş və «Bəyannaməloo> şöbəsinin rəisi tərəfindən imzalanmalıdır.

Əlavə 5

QEYDİYYATA ALINMAYAN QEYRİ-REZİDENTƏ ÖDƏNİLMİŞ MƏBLƏĞDƏN TUTULMUŞ ƏLAVƏ DƏYƏR VERGİSİ BƏYANNAMƏSİNİN YOXLANILMASI

Sıra N-si	Əməliyyatlar və görüləcək tədbirlər
1	İş qovluğunun götürülməsi
2	Cari hesabat dövründən əvvəlki hesabat dövrü üzrə bəyannamənin göstəricilərinin şəxsi hesab vərəqəsinə işlənib-işlənilməməsini nəzərdən keçirmək.
3	Verginin hesablanmasımn düzgünlüyünü yoxlamaq
3.1	Bəyannamə üzrə vergi ödəyicisi tərəfindən hesablanmış vergi məbləğinin düzgünlüyünü hesabi qaydada yoxlamaq
3.2	Görülmüş işlərə, göstərilmiş xidmətlərə görə vergi ödəyicisi tərəfindən hesabat dövrü ərzində qeyri-rezidentə ödənilmiş vəsaitlərin məbləğləri barədə vergi orqanında olan məlumatları (digər səlahiyyətli orqanlardan alınmış məlumatlar və vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı digər məlumatlar) bəyannamənin müvafiq göstəriciləri ilə müqayisə edərək kənarlaşmanın olub-olmamasını araşdırmaq.
4	Kameral yoxlamanın nəticələri vergi ödəyicisinin bəyannamə üzrə məlumatlan ilə müqayisə edilməli və əlavə hesablanmalı və ya azaldılmalı olan verginin olub-olmaması müəyyən edilməlidir.
5	Kameral yoxlama başa çatdıqdan sonra bəyannamə müfəttiş və «BəyannaməlƏD> şöbəsinin rəisi tərəfindən imzalanmalıdır.

Əlavə 5

Aksiz bəyannaməsinin yoxlanılması

Sıra N-si	Əməliyyatlar və görüləcək tədbirlər İ
1	İş qovluğunun götürülməsi
2	Cari hesabat dövründən əvvəlki hesabat dövrü üzrə bəyannamənin göstəricilərinin şəxsi hesab vərəqəsinə işlənib-işlənilməməsini nəzərdən keçirmək
3	Verginin hesablanmasının düzgünlüyünü yoxlamaq
3.1	Bəyannamə üzrə vergi ödəyicisi tərəfindən hesablanmış vergi məbləğinin düzgünlüyünü hesabi qaydada yoxlamaq
3.2	Vergi ödəyicisinin fəaliyyəti ilə əlaqədar vergi orqanında olan və hesabat dövrü üzrə vergitutma bazasına təsir edən məlumatlan (idxal-ixrac əməliy-yatlan barədə Gömrük Komitəsindən alınmış məlumatlar, xronoraetraj metodu ilə aparılmış müşahidələrin məlumatlan, digər səlahiyyətli orqanlardan alınmış məlumatlar və vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı digər məlumatlar) bəyannamənin müvafiq göstəriciləri ilə müqayisə edərək kənarlaşmanın olub-olmamasını araşdırmaq.
3.3	Aksizə sıfır dərəcə ilə cəlb edilən əməliyyatlarm olub-olmamasmı araşdumaq.
3.4	Təqdim edilmiş bəyannaməyə əlavə olunmuş vergi hesab-fakturasmın surə-tindəki seriyalarmm onları çap etmiş mətbəələrə Maliyyə Nazirliyi tərəfindən verilmiş seriyalara uyğunluğunu, hesab-fakturanm nömrəsinin altı rəqəmdən ibarət olmasım yoxlamaq. Kənarlaşma olduqda həmin vergi hesab-fakturası üzrə əvəzləşmə məbləğini nəzərə almamaq. Əvəzləşməyə qəbul edilən vergi hesab-fakturaları üzrə əvəzləşdirilən məbləğin bəyannamənin 401-ci kodunda göstərilən məbləğlərə uyğun olub-olmamasmı araşdumaq.
3.5	Bəyannaməyə əlavə olunmalı sənədlərin təqdim edilməməsi ilə əlaqədar məkmb göndərilmiş vergi ödəyicisi tərəfindən bu sənədlərin təqdim edilib-edilməməsini araşdırmaq. Təqdim edilməli olan, lakin təqdim edilməmiş sənəd aksizə sıfır dərəcə ilə cəlb edilən əməliyyatlarla əlaqədar olduqda, bu əməliyyatlar üzrə bəyannamədə göstərilmiş dövriyyəni müvafiq mallar üçün vergi dərəcəsinə vurmaqla vergini hesablamaq. Təqdim edilməli olan, lakin təqdim edilməmiş sənəd əvəzləşdirilən aksizlə əlaqədar olduqda, bu əvəzləşmələri nəzərə almamaq.
4	Kameral yoxlama üzrə məlumatlar bəyannamənin «kameral yoxlamamn nəticələrinə əsasən» sütununda tam əks etdirilməli, kameral yoxlamanın nəticələri vergi ödəyicisinin bəyannamə üzrə məlumatları ilə müqayisə edihnəli və əlavə hesablanmalı və ya azaldılmalı olan verginin olub-olmaması müəyyən edilməlidir.
5	Kameral yoxlama başa çatdıqdan sonra bəyannamə müfəttiş və «Bəyanna-mələr» şöbəsinin rəisi tərəfindən imzalanmalıdır.

Əlavə 5

Torpaq verqisinin bəyannaməsinin yoxlanılması

Sıra N-si	Əməliyyatlar və görüləcək tədbirlər
1	İş qovluğunun götürülməsi
2	Cari hesabat dövründən əvvəlki hesabat dövrü üzrə bəyannamənin göstəricilərinin şəxsi hesab vərəqəsinə işlənib-işlənilməməsini nəzərdən keçirmək.
3	Verginin hesablanmasınm düzgünlüyünü yoxlamaq
3.1	Bəyannamə üzrə vergi ödəyicisi tərəfindən hesablanmış vergi məbləğinin düzgünlüyünü hesabi qaydada yoxlamaq
3.2	Vergi ödəyicisinin vergiyə cəlb edilən torpaq sahəsi ilə əlaqədar vergi orqanında olan və hesabat dövrü üzrə vergitutma bazasına təsir edən məlumatları (digər səlahiyyətli orqanlardan ahnmış məlumatlar və vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı digər məlumatlar) bəyannamənin müvafiq göstəriciləri ilə müqayisə edərək kənarlaşmanın olub-olmamasını araşdırmaq.
4	Kameral yoxlama üzrə məlumatlar bəyannamənin «kameral yoxlamanın nəticələrinə əsasən» sütununda tam əks etdirilməli, kameral yoxlamanın nəticələri vergi ödəyicisinin bəyannamə üzrə məlumatları ilə müqayisə edilməli və əlavə hesablanmalı və ya azaldılmalı olan verginin olub-olmaması müəyyən edilməlidir.
5	Kameral yoxlama başa çatdıqdan sonra bəyannamə müfəttiş və «Bəyanna-mələr» şöbəsinin rəisi tərəfindən imzalanmalıdır.

Əlavə 5

Əmlak vergisinin bəyannaməsinin yoxlanılması

Sıra N-si	Əməliyyatlar və görüləcək tədbirlər
1	İş qovluğunun götürülməsi
2	Cari hesabat dövründən əvvəlki hesabat dövrü üzrə bəyannamənin göstəricilərinin şəxsi hesab vərəqəsinə işlənib-işlənilməməsini nəzərdən
3	Verginin hesablanmasının düzgünlüyünü yoxlamaq
3.1	Bəyannamə üzrə vergi ödəyicisi tərəfindən hesablanmış vergi məbləğinin düzgünlüyünü hesabı qaydada yoxlamaq
3.2	Vergi ödəyicisinin vergiyə cəlb edilən əmlakı ilə əlaqədar vergi orqanında olan və hesabat dövrü üzrə vergilutma bazasma təsir edən məlumatlan (idxal-ixrac əməliyyatlan barədə Gömrük Komitəsindən alınmış məlumatlar, digər səlahiyyətli orqanlardan alınmış məlumatlar və vergi orqanmm əldə etdiyi mənbəyi bəlli olan hər hansı digər məlumatlar) bəyannamənin müvafiq göstəriciləri ilə müqayisə edərək kənarlaşmanm olub-olmamasını araşdırmaq.
4	Kameral yoxlama üzrə məlumatlar bəyannamənin «kameral yoxlamanm nəticələrinə əsasən» sütununda tam əks etdirilməli, kameral yoxlamanm nəticələri vergi ödəyicisinin bəyannamə üzrə məlumatlan ilə müqayisə edilməli və əlavə hesablanmalı və ya azaldılmalı olan verginin olub-olmaması müəyyən edilməlidir.
5	Kameral yoxlama başa çatdıqdan sonra bəyannamə müfəttiş və «Bəyanna-mələr» şöbəsinin rəisi tərəfindən imzalanmalıdır.

Əlavə 5

Mədən vergisi bəyannaməsinin yoxlanılması

Sıra N-si	Əməliyyatlar və görüləcək tədbirlər
1	İş qovluğunun götürülməsi
2	Cari hesabat dövründən əvvəlki hesabat dövrü üzrə bəyannamənin göstəricilərinin şəxsi hesab vərəqəsinə işlənib-işlənilraəməsini nəzərdən
3	Verginin hesablanmasının düzgünlüyünü yoxlamaq
3.1	Bəyannamədə ölçü vahidi məhsula uyğun göstərilməlidir
3.2	Bəyannamə üzrə vergi ödəyicisi tərəfindən hesablanmış vergi məbləğinin düzgünlüyünü hesabi qaydada yoxlamaq
3.3	Vergi ödəyicisinin fəaliyyəti ilə əlaqədar vergi orqamnda olan və hesabat dövrü üzrə vergitutma bazasma təsir edən raəlumatlan ^dxal-ixrac əməliyyatlan barədə Gömrük Komitəsindən alınmış məlumatlar, xronometraj metodu ilə apanimış müşahidələrin məlumatları, digər səlahiyyətli orqanlardan alınmış məlumatlar və vergi orqanmm əldə etdiyi mənbəyi bəlli olan hər hansı digər məlumatlar) bəyannamənin müvafiq göstəriciləri ilə müqayisə edərək kənar- laşmanm olub-olmamasmı araşdırmaq.
4	Kameral yoxlama üzrə məlumatlar bəyannamənin «kameral yoxlamanm nəticələrinə əsasən» sütununda tam əks etdirilməli, kameral yoxlamanm nəticələri vergi ödəyicisinin bəyannamə üzrə məlumatları ilə müqayisə edilməli və əlavə hesablanmalı və ya azaldılmalı olan verginin olub-olmaması
5	Kameral yoxlama başa çatdıqdan sonra bəyannamə müfəttiş və «Bəyannamə-lər» şöbəsinin rəİsi tərəfindən imzalanmalıdır.

Əlavə 5

Sadələşdirilmiş sistem üzrə vergi bəyannaməsinin yoxlamiması

Sıra N-si	Əməliyyatlar və görüləcək tədbirlər
l	İş qovluğunun götürülməsi
2	Cari hesabat dövründən əvvəlki hesabat dövrü üzrə bəyannamənin göstəricilərinin şəxsi hesab vərəqəsinə işlənib-işlənilməməsini nəzərdən keçirmək.
3	Verginin hesablanmasının düzgünlüyünü yoxlamaq
3.1	Bəyannamə üzrə vergi ödəyicisi tərəfindən hesablanmış vergi məbləğinin düzgünlüyünü hesabi qaydada yoxlamaq
3.2	Vergi ödəyicisinin fəaliyyəti ilə əlaqədar vergi orqanmda olan və hesabat dövrü üzrə vergitutma bazasma təsir edən məlumatları (idxal-ixrac əməliyyatları barədə Gömrük Komitəsindən alınmış məlumatlar, xronoraetraj metodu ilə apanimış müşahidələrin məlumatlan, digər səlaliiyyətli orqanlardan alm- mış məlumatlar və vergi orqanmm əldə etdiyi mənbəyi bəlli olan hər hansı digər məlumatlar) bəyannamənin müvafiq göstəriciləri ilə müqayisə edərək kənarlaşmanm olub-ohnamasmı araşdırmaq.
3.3	Təqdim edilmiş bəyannamə üzrə vergi ödəyicisinin ƏDV öhdəliyinin yaranıb-yaranmamasma diqqət yetirmək.
4	Kameral yoxlama üzrə məlumatlar bəyannamənin «kameral yoxlamanm nəticələrinə əsasən» sütununda tam əks etdirilməli, kameral yoxlamanın nəticələri vergi ödəyicisinin bəyannamə üzrə məlumatlan ilə müqayisə edilməli və əlavə hesablanmalı və ya azaldılmalı olan verginin olub-olmaması müəyyən edilməlidir.
5	Kameral yoxlama başa çatdıqdan sonra bəyannamə müfəttiş və «Bəyannamə-lər» şöbəsinin rəisi tərəfindən imzalanmalıdu.

Əlavə 5

Azərbaycan Respublikasında daimi nümayəndəlik vasitəsilə fəaliyyət göstərən qeyri-rezident hüquqi şəxsin vergi bəyənnaməsinin yoxlanılması

Sıra N-si	Əməliyyatlar və görüləcək tədbirlər
'	İş qovluğunun götürülməsi
2	Cari hesabat dövründən əvvəlki hesabat dövrü üzrə bəyannamənin göstəricilərinin şəxsi hesab vərəqəsinə işlənib-işlənilməməsini nəzərdən keçirmək.
3	Verginin hesablanmasının düzgünlüyünü yoxlamaq
3.1	Bəyannamə üzrə vergi ödəyicisi tərəfindən hesablanmış vergi məbləğinin düzgünlüyünü hesabi qaydada yoxlamaq
3.2	Vergi ödəyicisinin fəaliyyəti ilə əlaqədar vergi orqanında olan və hesabat dövrü üzrə vergitutma bazasına təsir edən məlumatları (idxal-ixrac əməliyyatları barədə Gömrük Komitəsindən alınmış məlumatlar, xronometraj metodu ilə aparılmış müşahidələrin məlumatlan, digər səlahiyyətli orqanlardan alınmış məlumatlar və vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı digər məlumatlar, o cümlədən vergi ödəyicisi tərəfindən təqdim edilmiş ƏDV və aksiz vergisi bəyannamələrinin məlumatları) bəyannamənin müvafiq göstəriciləri ilə müqayisə edərək kənarlaşmanın olub-olmamasını araşdırmaq.
3.3	Gəlirlər və xərclərin uçotunu hesablama metodundan istifadə etməklə aparan vergi ödəyicilərində mənfəət vergisi bəyannaməsinin ***«Malların taqdim edilmasindan, iş və xidmət göstərilməsindən gəlirə*** sətrində göstərilmiş məbləğin hesabat ili üçün təqdim edilmiş Əlavə dəyər vergisi üzrə bəyannamələrində 303 kodda göstərilmiş məbləğə və ya Aksiz bəyannamələrində 400 kodda göstərilmiş məbləğə uyğun olmasına diqqət yetirmək.
3.4	Dividendlərin 210 və 220-ci kodlarda göstərilmiş məbləğlərin bir-birinə bərabər olmasına diqqət yetirmək.
3.5	Gəlirdən çıxılan torpaq vergisi, əmlak vergisi və mədən vergisi məbləğlərinin hesabat ili üçün təqdim edilmiş müvafiq vergi bəyannamələri üzrə vergi məbləğlərinə bərabər olmasına diqqət yetirmək.
3.6	Bəyannamədə kemiş illərin çıxılası zərərləri göstərildikdə, hesabat ilindən əvvəlki son beş ilin mənfəət vergisi bəyannamələri, habelə həmin dövr üzrə keçirilmiş səyyar vergi yoxlamalannın nəticələri üzrə müəyyən edilmiş zərər məbləğinə uyğun olmasına diqqət yetirmək.
3.7	Mənfəət vergisi üzrə güzəşt məbləğlərinin qanunvericiliyə uyğun olub-olmamasını araşdırmaq.
3.8	Bəyannaməyə əlavə olunmalı sənədlərin təqdim edilməməsi ilə əlaqədar məktub göndərilmiş vergi ödəyicisi tərəfindən bu sənədlərin təqdim edilib-edilməməsini
3.9	Bəyannamənin göstəricilərinin vergi ödəyicisinin fəaliyyəti ilə əlaqədar vergi orqanında olan göstəricilərlə müqayisəsi nəticəsində kənarlaşmalar aşkar edildikdə, habelə bəyannaməyə əlavə olunmalı sənədlərin təqdim edilməməsi ilə əlaqədar məktub göndərilmiş vergi ödəyicisi tərəfindən bu sənədlər təqdim edilmədikdə vergiləri yenidən
4	Kameral yoxlamanın nəticələri vergi ödəyicisinin bəyannamə üzrə məlumatlan ilə müqayisə edilməli və əlavə hesablanmalı və ya azaldılmalı olan verginin olub-olmaması müəyyən edilməlidir.
5	Kameral yoxlama başa çatdıqdan sonra bəyannamə müfəttiş və «Bəyannamələn> şöbəsinin rəisi tərəfindən imzalanmalıdır.

Vergilər Nazirliyinin 24 yanvar 2003-cü il
tarixli A-17 saylı əmri ilə təsdiq edilmişdir

Səyyar vergi yoxlamasının keçirilinəsi haqqında (a)

Qərar JVs ____

(şohər. rayon) **(tarix)**

(vergi orqanının adı)

rəhbəri (rəhbərin müavini)

(fərdi rütbəsi, soyadı, adı və atasının adı)

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 23-cü, 36>cı və 38-ci maddələrini əsas tutaraq

Qərara alıram:

1,.
(vergi ödəyicisi olan hüquqi şəxsin tam adı və ya fərdi sahibkann soyadı, adı, atasının adı, VÖEN-i)

(səyyar vergi yoxlamasının mövzusu)

məsələlər üzrə_____ _tarixdən_ _____tarixə qədər olan vergi dövrü üzrə (o cümlədən (_____ _ _____ tarixə qədər olan vergi dövrü yenidən yoxlanılmaqla) _____ səyyar vergi yoxlaması təyin edilsin.
(növbəli və ya növbədənkənar-müddət göstərilməklə)

2,Yoxlamanın keçirilməsi _____ _____
(yoxlamanın apanimasına müvəkkil edilmiş

vergi orqanının vəzifəli şəxslərinin soyadı, adı. atasının adı. vəzifəsi və .tapşırılsın
(fərdi rütbəsi)

3. Yoxlamanın müddəti **İŞ günü müəyyən edilsin.**
(rəqəmlə və sözlə)

rəhbəri (rəhbərin müavini)
(vergi orqanının adı)

(fərdi rütbəsi) **(imzası)** **(soyadı, adı, atasının adı)**
M.Y.

Vergilər Nazirliyinin 24 yanvar 2003-cü il tarixli A-17 saylı əmri ilə təsdiq edilmişdir

Növbəti səyyar vergi yoxlamasının keçirilməsi haqqında

Bildiriş

Seriya VN JVQ ____

_____ _____ _____ nin

(vergi orqanın adı)

tarixli JSfo-li qərarına əsasən

(vergi ödoyicisinin tam adı

vo yaxud fordi sahibkarın soyadı, adı. atasının adı, VÖEN-i)

(vergi yoxlamasının osası)

_uçun

_____ ^əhatə edilməklə tarixdən

(yoxlama ilo ohatə olunacaq vergi dövrü)

jş günü müddətində növbəti səyyar vergi yoxlamasının

(rəqəmb və sözlə)

keçirilməsi nəzərdə tutulmuşdur.

Vergi ödəyicisinin və vergi orqanlannm Vergi Məcəlləsinin 15-ci, 16-cı, 23-cü, və 24-cü maddələrində nəzərdə tutulmuş hüquq və vəzifələri vardır.

_____ ^rəhbəri (rəhbərin müavini) (vergi orqanının adı)

(fərdi rütbəsi)	**(imza)**	**(soyadı, adı, atasının adı)**

M.Y.

(tarix)

Bildirişi aldım;

(vergi ödəyicisinin rəhbərinin (onu əvəz edənin) soyadı, adı, atasının adı)	**(imza)**	**(tarix)**

M.Y.

* - Bildiriş sifarişli məktubla göndərildikdə vergi ödəyicisi tərəfindən imzalanmır.
Qeyd: Bildiriş iki nüsxədə tərtib olunur. Bir nüsxəsi vergi orqanında qalir, digər nüsxəsi isə vergi ödəyicisinə göndərilir.

Vergilər Nazirliyinin 24 yanvar 2003-cü il
tarixli A-17 saylı əmri ilə təsdiq edilmişdir

Səyyar vergi yoxlamasının keçirilməsi haqqında

(b) Qərar JVs ___

(şəhər, rayon) **(tarix)**

(vergi orqanının adı)

rəhbəri (rəhbərin müavini)

(fərdi rütbəsi, soyadı, adı və atasının adı)

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 23-cü, 36-cı və 38-ci maddələrini əsas tutaraq

Qərara alıram:

1.

(vergi ödəyicisi olan hüquqi şəxsin tam adı və ya fərdi sahibkarın soyadı, adı. atasının adı. VÖEN-i)

(səyyar vergi yoxlamasının mövzusu)

məsələlər üzrə___ __ tarixdən_____ ^tarixə qədər olan vergi dövrü üzrə (o cümlədən

(- tarixdən yoxlanılmaqla) .tarixə qədər olan vergi dövrü yenidən səyyar vergi yoxlaması təyin edilsin.

(növbəti və ya növbədənkənar

2. Yoxlamanın keçirilməsi.

(yoxlamanın aparılmasına müvəkkil edilmiş

vergi orqanının vəzifəli şəxslərinin soyadı, adı, afasmm adı, vəzifəsi və _____ ^tapşırılsın

fərdi rütbəsi)

3. Yoxlamanın müddəti iş günü müəyyən edilsin.

(rəqəmlə və sözlə)

rəhbəri (rəhbərin müavini)

(vergi orqanının adı)

(fərdi rütbəsi) **(imzası)** **(soyadı, adı. atasının adı)**

M.Y.

Azərbaycan Respublikası vergilər nazirinin 10 yanvar 2005-ci il tarixli F-11 saylı əmri ilə təsdiq edilmişdir.

Səyyar vergi yoxlamasının müvəqqəti dayandırılması haqqında

QƏRAR

_____ _____
(şəhər, rayon) **(tarix)**

_____
(vergi orqanının adı)

rəhbəri (rəhbərin müavini)

(fərdi rütbəsi, soyadı, adı və atasının adı)

_____

_____

Maddə n. (səyyar vergi yoxlamasının keçirilməsi haqqında qərar qəbul etmiş vəzifəli şəxsin işlədiyi vergi orqanının adı. vəzifəsi və fərdi rütbəsi)

_____ tərəfmdən

Maddə m. (səyyar vergi yoxlamasının keçirilməsi haqqında qərar q.əbul etmiş vəzifəli şəxsin adı soyadı və atasının adı)

«səyyar vergi yoxlamasının keçirilməsi haqqında qərar çıxanlmış vergi ödəyicisi olan hüquqi şəxsin tam adı və ya fərdi sahibkarın soyadı, adı. atasının adı. VÖEN-i »

səyyar vergi yoxlamasının keçirilməsi haqqında qəbul edilmiş tarixli VN seriyalı saylı _____ Qərara və

(səyyar vergi yoxlamasının müvəqqəti dayandmlmasına əsas verən səbəblər)

_____ baxaraq

Qərara alıram:

1._____

Maddə rV. (səyyar vergi yoxlamasının keçirilməsi haqqında qərar qəbul etmiş vəzifəli şəxsin işlədiyi vergi orqanının adı. vəzifəsi və fərdi rütbəsi)

_____ ^tərəfindən

Maddə V. (səyyar vergi yoxlamasının kcqrilməsi haqqında qərar qəbul etmiş vəzifəli şəxsin adı soyadı və atasının adı)

«səyyar vergi yoxlamasının keçirilməsi haqqında qərar çıxanlmış vergi ödəyicisi olan hüquqi şəxsin tam adı və ya fərdi sahibkann soyadı, adı. atasının adı. VÖEN-i »

təyin edilmiş səyyar vergi yoxlaması _____ tarixdən tarixədək olan müddətdə müvəqqəti dayandırılsın.

rəhbəri (rəhbərin müavini)

(vergi orqanının adı)

(fərdi rütbəsi) **(imzası)** **(soyadı, adı, atasının adı)**

M.Y.

Qərarın surətini aldım:
(vergi ödəyicisinin rəhbərinin
(onu əvəz edənin soyadı, adı, atasının adı))

(imza) **(tarix)**

M.Y.

Qərar sifarişli məktubla göndərildikdə vergi ödəyicisi tərəfindən imzalanmır.

Vergilər Nazirliyinin 24 yanvar 2003-cü il
tarixli A-17 saylı əmri ilə təsdiq edilmişdir

Səyyar vergi yoxlamasının keçirilməsi müddətinin artırılması haqqında

Qərar JYS_

(şəhər, rayon) **(tarix)**

(yuxan vergi orqanının adı)

rəhbəri (rəhbərin müavini) _____

(fərdi rütbəsi, soyadı, adı. atasının adı)

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 23-cü və 38-ci maddələrini əsas tutaraq və həmçinin

(Səyyar vergi yoxlamasının keçirilməsi haqqında qərar
_____ tərəfindən_____ _ tarixli _X**9**-İİ qərar əsasında

çıxarmış vergi orqanının adı)

(vergi ödəyicisi olan hüquqi şəxsin adı və ya fərdi sahibkann soyadı, adı və atasının adı. VÖEN-i)

keçirilmiş səyyar vergi yoxlamasının müddətinin

(səyyar vergi yoxlamasının keçirilməsi müddətinin artırılmasını

(zəruri edən hallar sadalanır)

artırılması zərurətini nəzərə alaraq

Qərara alıram:

1_____

(vergi ödəyicisi olan hüquqi şəxsin adı. fərdi sahibkann soyadı, adı və atasının adı. VÖEN-i)
keçirilən səyyar vergi yoxlamasının nəticələri üzrə aktın tərtibi

müddəti. İş günü artmisın.

(rəqəmlə və sözJə)

rəhbəri (rəhbərin
müavini) (yuxan vergi

(fərdi rütbəsi) **(irnza)** **' (soyadı, adı. alasının adı)**

M.Y.

Səyyar vergi yoxlamasının nəticələri üzrə aktın tərtibi müddətinin uzadılması haqqmda qərarla tanış oldum:*

(hüquqi şəxsin rəhbərini (onu əvəz edənin) və ya fərdi sahibkann soyadı, adı. atasının adı)

M.Y.

(tarix) **(imza)**

* - Qərar sifarişli məktubla göndərildikdə vergi ödəyicisi tərəfindən imzalanmır.

Vergilər Nazirliyinin 18 avqust 2003-cü il
tarixli A-160 saylı əmri ilə təsdiq edilmişdir

Səyyar vergi yoxlaması zamanı İnventarizasiyanın təyin edilməsi haqqında

Qərar JV®

(şəhər, rayon) **(tarix)**

.rəhbərinin (rəhbərii və müavinin)

səyyar vergi
(vergi orqanının adı)

yoxlaması keçirilməsi haqqında tarixli JVo-li qəran əsasında

(vergi orqanının yoxlamanı həyəta keçirən vəzitəli şəxslərinin vəzilələri, fərdİ rülbələləri.

soyadı.adıva atasının adı)

tərəfindən
(vergi ödəyicisi olan hüquqi şəxsin adı.

fərdi sahibkənn soyadı, adı və aiasının adı. VÖEN-i)

keçiriiən səyyar vergi yoxlaması zamanı əmləkın uçotdən yayındırılması hallannın aşkar edilməsi və aradan qaldırılması məqsədilə
(vergi ödəyicisinin mülkiyyətində və ya isliladəstnda olanəmlakın adı)

İnventarizasiyanın aparılması zəruriyyətinin yaranmasını və Azərbaycan Respublikası Vergi Məcəlləsinin 38.5-ci maddəsini əsas tutaraq

Qərara alıram:

1. _____
(vergi ödəyicisi olan hüquqi şəxsin, fardı sahlbkann soyadı, adı və atasının adı. VÖEN-i)
mülkiyyətində və ya istifadəsində olən əmlakın

(mülkiyyətdə və yə ıslıfadədə olan əmlakın adı)

invenlarizasiyasmm aparılması təyin edilsin. 2.
inventarizasiyanın apaniması müddəti _____ jş günü müəyyən edilsin.

rəhbəri (rəhbərin müavini)
(vergi orqanının adı)

(fərdi rütbəsi) **(imza)** **(soyadı, adı, atasının adı)**

M.Y.
Qərarla tanış oldum:

(hüquqi şəxsin rəhbərinin {onu svəz edənin və ya fərdi sahibkarın soyadı, adı. alasının adı)

M.Y.

tanx **imza**

Azərbaycan Respublikası Vergilər Nazirinin
24 yanvar 2003-cğ il tarixli A-17 saylı əmri ilə
təstiq edilmişdir

SƏYYAR VERGI YOXLAMASI

AKTI

(Vergi ödəyicisinin adj)

(vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN). təsisçiləri barədə məlumat)

(yoxlamanın apanidığı yer) **(aktın tarixi)**

rəisinin (onun müavinin)

(vergi orqanının adı)

tarixli _____saylı qəranna əsasən

(tarix)

(vergi yoxlamasını həyata keçirən şəxslərin vəzifəsi, fərdi rütbəsi. S. A. A.)

tərəfindən

(vergi ödəyicisinin adı)

tarixdən_____ tarixədək olan dövrdə vergilər

(gün, ay, il) **(gün, ay, il)**

VƏ digər icbari ödənişlərə dair qanunvericiliyə əməl edilməsi vəziyyətinin (vergilərin və digər icbari ödənişlərin hesablanması, tutulması və ödənilməsi) _____ səyyar vergi yoxlanılması apanidı.
(növbəti və ya növbədənkənar - maddələrin tərkibi göstərilməklə)

Yoxlama Azərbaycan Respublikasmın Vergi Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun olaraq apanidı.

1. Ümumi müddəalar

1.1. Yoxlama __ tarixdə başlanıldı və

(gün. ay. il) **(gün. ay. il)**

tarixdə başa çatdırıldı.

1.2.Yoxlanılan dövrdə vergi ödəyicisinin vəzifəli şəxsləri (rəhbər, baş mühasib və yaxud onlann vəzifələrini icra edən şəxslər) aşağıdakılar olmuşdur:

(vəzifəsi) **(soyadı, adı. atasının adı)**

(vəzifəsi) **(soyadı, adı. atasının adı)**

Vergi ödəyicisinin hüquqi ünvanı

Fəaliyyətinin həyata keçirildiyi yer

1.3. __ ^fərdi Xo si olan Nəzarət Kitabçasında yoxlamanın____ .tarixdə başlaması və _____tarixdə başa çatması barədə, həmçinin aktın vergi ödəyicisi tərəfindən qəbul edilməsinə dair müvafiq qeydlər aparıldı.

1.4 _____ vergi ödəyicisi kimi_____ ^tarixdə _____ - də uçota

(vergi ödəyicisinin adı) **(vergi orqanının adı)**

duraraq _____ saylı VÖEN almışdır.

1.5

(vergi ödəyicisinin hesabları olan bankların adı. bildirişlərin Jfo si və taixi

və bank hesabları barədə məlumat)

1.6 _____ ^filialları, nümayəndəliyi və digər təsərrüfat subyektləri aşağıdakılardır:

(vergi ödəyicisinin adı)

a.

a.

1. ərazi uzrə -də

(fıliallan, nümayəndəliyi və digər təsərrüfat subyektlərinin adı) **(vergi orqanının adı)**

tarixdə ərizə ilə uçota alınmışdır.

1.8 _____

(hüquqi şəxsin adı və ya fərdi sahibkarın soya'dı.adı. atasının adı)

_____ tərəfindən

(lisenziyanı verən orqanın adı) **(lisenziyalaşdınlmış fəaliyyət növü və**

ayrı-ayrı fəaliyyət növlərini həyata keçirmək hüququ verən lisenziyaların olması barədə

_ _____ _____ fəaliyyətini

məlumatlar, eləcs də lisenziyanın qüvvədə olduğu müddət göstərilir)

həyata keçirmək üçün verilmiş _____ saylı tarixli lisenziyası vardır.

1.9. Yoxlanılan dövrdə_

(vergi ödəyidsinin adı)

faktiki olaraq_____ İlə məşğul olmuşdur.

(fəaliyyət növü göstərilir)

Mövcud qanunvericiliklə qadağan olunmuş fəaliyyət növləri ilə məşğul olması haqqında məlumat

(belə fəaliyyət növləri olmadıqda doldurulmur)

Lazımi lisenziya olmadan həyata keçirilən fəaliyyət növləri haqqında məlumat

(belə fəaliyyət növləri olmadıqda doldurulmur)

Vergi yoxlaması təqdim olunmuş

(yoxlamaya təqdim olunmuş sənədlərin adlan (jurnal-orderlər, analitik və sintetik .uçot

cədvəlləri, baş kitab, vergilərin hesablanması üçün istifadə olunan sənədlər və s.)

_____ əsasında aparıldı.

(Vergilərin hesablanması və ödənilməsi ilə bağlı sənədlər yoxlamaya tam təqdim edilmədikdə müvafiq qeydlər aparılmalıdır)

1.10. Yoxlama zamanı aparılan işlər barədə məlumatlar:
- Vergi ödəyicisinin əmlakının inventarizasiyası.

İnvertarizasiya materiallan əlavə olunur (Əlavə X**9** _____);
- Vergi ödəyicisinin binasına (ərazisinə) baxış keçirilməsi.

Baxış protokolu (protokolları) əlavə edilir (Əlavə Xg ____);
- Ekspertizanın aparılması.

Ekspertin rəyi əlavə edilir (Əlavə Kg ____)
Mütəxəssisin dəvət edilməsi.
Mütəxəssisin rəyi əlavə olunur (Əlavə Xg ____)
Tərcüməçinin dəvət edilməsi. Tərcüməçinin yerinə yetirdiyi işlər. Müşahidəçilərin dəvət edilməsi.
Müşahidənin aparılması barədə protokol əlavə olunur (Əlavə >fg _____*)*

1.11.

(bundan əwəl apanlan yoxlama, yoxlamada aşkar olunmuş qanun pozuntuları

onlann aradan qaldmlma.st və yoxlama aktının icra vəayyəti barədə məlumat)

1.12.

(vergi ödəyicisinin mühasibat uçotunun forması.

vergi uçotunun metodları)

2. Yoxlama nəticəsində aşağıdakılar müəyyən edilmişdir:

2.1. Gəiir vergisinin yoxlanılması üzrə;
2.2. Əlavə Dəyər Vergisinin yoxlanılması üzrə;
2.3. Aksiz vergisinin yoxlanılması üzrə;
2.4. Əmlak vergisinin yoxlanılması üzrə;
2.5. Torpaq vergisinin yoxlanılması üzrə;
2.6. Mədən vergisinin yoxlanılması üzrə;
2.7. Sadələşdirilmiş veginin yoxlanılması üzrə;
2.8. Mənfəət vergisinin yoxlanılması üzrə;
2.9. Ödəmə mənbəyindən tutulan vergilərin yoxlanılması üzrə;
2.10. Digər icbari ödənişlərin yoxlanılması üzrə;
2.11. Vergi lohdəliklərinin yerinə yetirilməsi üzrə;
2.12. Xarici iqtisadi əlaqələr barədə;
2.13. Qarşılıqlı əlaqələr barədə.
2.14. Digər hüquq pozuntuları üzrə

aktın tərtib olunmasına dair tələblərə müvafiq olaraq hər bir verginin yoxlandığı dövr güstəriİməklə ayn-ayn vergilərə və digər vergi hüquq pozuntularına dair sənədlərlə təsdiq olunmuş faktlar və ya belə faktların

olmaması, bəyannamələrin Vergi Məcəlləsi ilə müəyyən edilən müddətdə verilməsi haqqında məlumatlar göstərilir

3. Nəticə

3.1. Vergi yoxlaması nəticəsində vergilərin azaldılması müəyyən edildi:
3.1.1. _____ min manat məbləğində __ _____

(veı^inin adı)

vergisinin azaldılması; o
cğmlədən:
_____ ərzində min manat
(vergi dövrü)
ərzində min manat.
(vergi dövrü)
(Vergilərin azaldılması müəyyən edildiyi hallarda aynlıqda hər bir vergi növü üzrə yuxarıdakı qaydada qeydlər aparılmalıdır).
3.1.2. Yoxlama ilə əhatə edilən dövrdə ümumilikdə _____min manat verginin azaldılması müəyyən edildi.
3.2. Vergi yoxlaması nəticəsində vergilərin _____ ^min manat artıq hesablanması müəyyən edildi:
3.2.1._____ min manat məbləğində_____

(verginin adı)

vergisinin artıq hesablanması; **o**
cümlədən:
_____ ərzində min manat
(vergi dövrü)
ərzində min manat.
(vergi dövrü)

3.3. Vergi yoxlaması nəticəsində vergilərin ödənilməməsi (artıq ödənilməsi) müəyyən edildi:
3.3..._____min manat məbləğində _____

(verginin adı)

ödənilməməsi (artıq ödənilməsi) o
cümlədən:
_____ ərzində _____ mm manat
(vergi dövrü)
ərzində min manat.
(vergi dövrü)

(Vergilərin ödənilmədiyi müəyyən edildiyi hallarda ayrılıqda hər bir vergi növü üzrə yuxarıdakı qaydada qeydlər aparılmalıdır).
3.3.2. Yoxlamanın nəticəsində ümumilikdə_____ min manat məbləğində vergilərin və icbari
ödənişlərin_____ müəyyən edildi:

(azaldıldığı və ya artıq hesablandığı)

3.4.

(vegi və ya digər hüquq pozuntlulanna dair müəyyən edilmiş digər faktlar haqqında ümumiləşdirilmiş

molumatiar giostərəlir)

3.4. Yoxlamanın nəticələrinə əsasən təklif olunur;

3.5.1. Vergilərin (icbari ödənişlərin) azaldılmasına və qanunvericiliyinin digər pozuntularına gÖrə:

(yoxlanılan vergi ödəyicisinin adı)

aşağıdakı maliyyə sanksiyaları tətbiq edilməklə məsuliyyətə cəlb edilməsi təklif olunur.

3.5.1.1. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin ____ maddəsinə əsasən

(vergi hüquq pozuntusunun lorkibi gösiorilir)

_____ görə min manat məbləğində maliyyə sanksiyası tətbiq edilməlidir;

3.5.1.2. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin maddəsinə əsasən

(vergi hüquq pozuntusunun tərkibi göstərilir)

^orə

min manat məbləğində maliyyə sanksiyası tətbiq edilməlidir;

3.5.1.3 Azərbaycan Respublikasının Vergi Məcəlləsinin maddəsinə əsasən

(vergi hüquq pozuntusunun tərkibi göstərilir)

_____ görə min manat məbləğində maliyyə sanksiyası tətbiq edilməlidir;

3<^.2.Vergilərin vaxtında ödənilməməsinə görə

_____-dan (dən) aşağıdakı faizlər tutulmalıdır:

(yoxlanılan vergi ödəyicisinin adı)

3.5.2.1. Azərbaycan Respublikasınm Vergi Məcəlləsinin maddəsinə əsasən

(vergi hüquq pozuntusunun tərkibi göstərilir)

_____ görə _____ min manat məbləğində faiz;

3.5.2.2. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin maddəsinə əsasən

(vergi hüquq pozuntusunun tərkibi göstərilir)

_____ görə min manat məbləğində faiz;

3.5.3. Mühasibat uçotunda lazımi dəyişikliklər edilməlidir.

3.5.4. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin maddəsinə əsasən

jorə

(vergi hüquq pozuntusunun tərkibi göstərilir)

Azərbaycan Respublikasının Vergi Məcəlləsində bu vergi pozuntusuna görə məsuliyyət nəzərdə tutlmadığı üçün ____ barəsində

(vergi ödəyicisinin adı)

tarixli saylı protokol (protokollar) tərtib edildi.

3.5.5

(aşkar edilmiş vergi və digər hüquq pozuntulanmn aradan qaldınlmasına dair

yoxlayıcıların ləklitləri)

Əlavə: ___ vərəqədə.

Vergi orqanının vəzifəli şəxslərinin imzası

Rəhbər (onun vəzifələrin icra edən şəxsin) imzası

(vəzifəsi, rütbəsi, vergi orqanının adı) **(vergi ödəyicisi)**

(imza) **(soyadı, adı. atasının adı)**

(imza) **(soyadı, adı. atasının adı)**

Aktın bir nüsxəsini _____
əlavələrlə birlikdə aldım və bu **(əlavələrin sayı)**

barədə Nazarat Kitabçasinda qeyd apa ıb imza eldim:
Rəhbər (onun vəzifələrini icra edən şəxs):

(verg ödəyicisinin adı) **(imza)** **(soyadı, adı, atasının adı)**

Vergilər Niäzirliyinin 24 yanvar 2003-cü il
tarixli A-17 saylı əmri ilə təsdiq edilmişdir

Səyyar vergi yoxlamasının nəticələri üzrə aktın tərtibi müddətinin uzadılması haqqında

Qərar JV2_

_____ _____
(şəhər, rayon) **(tarix)**

.....

(yuxan vergi orqanının adı) rəhbəri (rəhbərin

(fərdi rütbəsi, soyadı, adı, atasının adı)

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 23-cü və 38-ci maddələrini əsas tutaraq və həmçinin

(Səyyar vergi yoxlamasının keçirilməsi haqqında qərar

_____tərəfindən _____tarixli_____ Ke-li qərar əsasında

çıxarmış vergi orqanının adı)

(vergi ödəyicisi olan hüquqi şəxsin adı və ya fərdi sahibkann soyadı, adı və atasının adı. VÖEN-i)

keçirilmiş səyyar vergi yoxlamasının nəticələri üzrə aktın tərtibi müddətinin

(aktın tərtibi müddətinin uzadılmasını zəruri edən hallar sadalanır)

uzadılması zərurətini nəzərə alaraq

Qərara alıram:.

1.

(vergi ödəyicisi olan hüquqi şəxsin adı. fərdi sahibkann soyadı, adı və atasının adı. VÖEN-i)
keçirilən səyyar vergi yoxlamasının nəticələri üzrə aktın tərtibi

müddəti **İŞ günü uzadılsın.**

(rəqəmlə və sözlə)

rəhbəri (rəhbərin müavini)

(yuxan vergi orqanın adı)

(fərdi rütbəsi) **(imza)** **(soyadı, adı. atasının adı)**

M.Y

Səyyar vergi yoxlamasının nəticələri üzrə aktın tərtibi mütidətinin uzadılması haqqmda qərarla tanış oldum:*

(hüquqi şəxsin rəhbərini (onu əvəz edənin) və ya fərdi sahibkann soyadı, adı. atasının adı)

M.Y.

(tarix) **(imza)**

* - Qərar sifarişli məktubla göndərildikdə vergi ödəyicisi tərəfindən imzalanmır.

Vergiləp nazirinin 24 yanvar 2003-cü il
tarixli A-17 saylı əmri ilə təsdiq edilmişdir

Vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına

görə məsuliyyətə cəlb edilməsi haqqında

QƏRAR JNb.

(şəhər, rayon) **(tarix)**

(vergi orqanının adı)

rəhbəri (rəhbərin müvanı).

(fərdi rütbəsi, soyadı, adı. atasının adı)

(yoxlanılan hüquqi şəxsin tam adı (fərdi sahibkarın soyadı, adı, atasının adı). VÖEN)

keçirilmiş səyyar vergi yoxlamasının tarixli aktına, eləcə də

(vergi ödəyidsi tərəfindən təqdim edilən sənəd və materiallar)

baxıb müəyyən etdim:.

(vergi yoxlaması ilə müəyyən edilən vergi qanunveridliyinin pozulmasının

şəraiti, həmin şəraiti təsdiq edən sənədlər və gigər məlumatlar, vergi ödəyicisinin özünün

/ müdafiəsi üçün gətirdiyi dəlillər və bu dəlillərin yoxlamlmasımn nəticələri)

Azərbaycan Respublikası Vergi MəcəUəsinin 23-cu və 49-cu maddələrini əsas tutaraq

Qərara alıram:

1.

(yoxlanılan hüquqi şəxsin tara adı, fərdi sahibkann soyadı, adı və atasının adı)

tərəfindən aşağıdakı vergilərin və digər icbari ödənişlərin az hesablandığı (və ya hesabat təqdim etməməklə yayındırıldığı) müəyyən edilsin:

1.1. _____ üzrə _____ min manat
(verginin və ya digər icbari ödənişin növü)

1.2. uzrə .min manat
(verginin və ya digər icbari ödənişin növü)

1.3. uzrə min manat
(verginin və ya digər icbari ödənişin növü)

Cəmi: _____min manat

(yoxlanılan hüquqi şəxsin tam adı, fərdi sahibkann soyadı, adı və atasının adı)

tərəfindən aşağıdakı vergilərin və digər icbari ödənişlərin artıq hesablandığı müəyyən edilsin:

2.1 _____ ^üzrə_____ min manal
(verginin və ya digər icbari ödənişin növü)

2.2. **uzrə** min manat
(verginin və ya digər icbari ödənişin növü)

2.3 uzrə _mm manat
(verginin və ya digər icbari ödənişin növü)

Cəmi: min manat

3. Yoxlama nəticəsində ümumilikdə, min manat məbləğində vergilərin və icbari ödənişlərin_____ __ müəyyən edilsin.
(azaldıldığı və ya artıq hesablandığı)

4. Vergilərin (icbari ödənişlərin) azaldılmasına və vergi qanunvericiliyinin digər pozuntularına görə _____
(yoxlanılan hüquqi şəxsin tam adı, fərdi sahibkarın soyadı, adı və atasımn adı)

aşağıdakı maliyyə sanksiyalan tətbiq edilməklə məsuliyyətə cəlb edilsin:

4.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin _ maddəsinə əsasən ___ _____ görə _____ .min manat məbləğində;
(vergi hüquq pozuntusunun tərkibi göstərilir)

4.2. Azərbaycan Respublikası Vergi Məcəlləsinin maddəsinə əsasən _____ görə _____ min manat məbləğində;
(vergi hüquq pozuntusunun tərkibi göstərilir)

4.3. Azərbaycan Respublikası Vergi Məcəlləsinin ____ ^maddəsinə _____ görə _____ min manat məbləğində;
(vergi hüquq pozuntusunun tərkibi göstərilir)

5.Vcrgilərin vaxtında ödənilməməsinə gÖrə

_-dan (dən)
(yoxlanılan hüquqi şəxsin tam adı. fərdi sahibkarın soyadı, adı və atasının adı)

aşağıdakı faizlər tutulsun:

5.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin _____ min manat məbləğində;
(vergi hüquq pozuntusunun tərkibi göstərilir)

5.2. Azərbaycan Respublikası Vergi Məcəlləsinin maddəsinə əsasən _____görə_____ min manat məbləğində;
(vergi hüquq pozuntusunun tərkibi göstərilir)

5.3. Azərbaycan Respublikası Vergi Məcəlləsinin maddəsinə əsasən
_____görə_____ min manat məbləğində.
(vergi hüquq pozun tuşunun tərkibi göstərilir)

6. Mühasibat uçotunda lazımi dəyişikliklər edilsin.
7. _____

_____

8. _____ rəhbəri (rəhbərin müavini)
(vergi orqanının adı)

_____

(fərdi rütbəsi) **(imzası)** **(soyadı, adı. atasının adı)**

M.Y.

_____

Qərarın surətini aldım:*

_____

(vergi ödəyicisinin rəhbərinin (onu əvəz edənin) soyadı, adı. alasının adı) **(imza)** **(tarix)**

M.Y.

*- Qərar sifarişli məktubla göndərildikdə vergi ödəyicisi tərəfindən imzalanmır.

Vergilər nazirinin 24 yanvar 2003-cü il
tarixli A-17 saylı əmri ilə təstiq edilmişdir

Vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına gorə məsuliyyətə cəlb edilməsindən imtina olunması barədə

QƏRAR JVo_

(şəhər, rayon) **(tarix)**

(vergi orqanının adı)

rəhbəri (rəhbərin müvam)_

(fərdi rütbəsi, soyadı, adı. atasının adı)

(yoxlanılan hüquqi şəxsin tam adı (fərdi sahibkarın soyadı, adı, atasının adı). VOEN)

keçirilmiş səyyar vergi yoxlamasının_____ tarixli aktına, eləcə də

(vergi ödəyicisi tərəfindən təqdim edilən sənəd və materiallar)

baxıb müəyyən etdim:_

(yoxlama nəticəsində aşkar edilmiş vergi qanunvericiliyinin

VƏ eləcə də vergi hüquqpozmaları üzrə işlərə baxılarkən müəyyən edilmiş və vergi ödəyicisinin vergi qanunvericiliyinin

pozulmasına görə məsuliyyətə cəlb edilməsini istisna cd-ən hallar)

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 23-cu və 49-cu maddələrini əsas tutaraq

Qərara alıram:

1. _____ ^ _____

(yoxlanılan hüquqi şəxsin tam adı. fərdi sahibkann soyadı. adı Və atasının adı)

vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb olunmasından imtina edilsin:

2 _____

(yoxlanılan hüquqi şəxsin tam adı, fərdi sahibkann soyadı, adı və atasının adı)

tərəfindən aşağıdakı vergilərin və digər icbari ödənişlərin az hesablandığı (və ya hesabat təqdim etməməklə yayındırıldığı) müəyyən edilsin:

2.1 _____ ^üzrə _____ ^min manat

(verginin və ya digər icbari ödənişin növü)

2.2. _____ ^üzrə _____ min manat

(verginin və ya digər icbari ödənişin növü)

2.3. uzrə min manat

(verginin və ya digər icbari ödənişin növü)

Cəmi: min manat

3. _____

(yoxlanılan hüquqi şəxsin lam adı. fərdi sahibkann soyadı, adı və atasının adı)

tərafindəD aşağıdajkı vergilərin və digər icbari ödənişlərin artıq hesablandığı müəyyən edilsin:

3.1 _____üzrə _____^min manat

(verginin və ya digər icbari ödənişin növü)

3.2._____Üzrə _____^min manat

(verginin və ya digər icbari ödənişin növü)

3.3._____Üzrə _____

_mın manat

(verginin və ya digər icbari ödənişin növü)

Cəmi:_____ min manat

4. Yoxlama nəticəsində ümumilikdə _____min manat məbləğində vergilərin və icbari ödənişlərin_____ müəyyən edilsin.

(azaldıldığı və ya artıq hesablandığı)

5.Vergilərin vaxtında ödənilməməsinə görə _____ _>dan (dən)

(yoxlanılan hüquqi şəxsin tam adı. fərdi sahibkann soyadı, adı və atasının adı)

aşağıdakı faizlər tutulsun:

5.1. Azərbaycan Respublikası Vergi MəcəUəsinin _____^maddəsinə əsasən

(vergi hüquq pozuntusunun tərkibi göstərilir)

_____görə _____^min manat məbləğində;

5.2. Azərbaycan Respublikası Vergi Məcəlləsini, maddəsinə əsasən _____

(vergi hüquq pozuntusunun tərkibi göstərilir)

^örə _____ min manat məbləğində;

5.3. Azərbaycan Respublikası Vergi Məcəlləsini maddəsinə əsasən

(vergi hüquq pozuntusunun tərkibi göstərilir)

.görə_____ min manat məbləğində.

6. Mühasibat uçotunda lazımi dəyişikliklər edilsin.

7. _____

8. _____

.rəhbəri (rəhbərin müavini)

(vergi orqanının

adı) (fərdi (imzası) (soyadı, adı. atasının adı)

Qərarın surətini aldım:'

(vergi ödəyicisinin rəhbərinin (onu əvəz edənin) soyadı, adı. atasının adı) (tarix) (imza)

M.Y.

*- Qərar sifarişli məktubla göndərildikdə vergi ödəyicisi tərəfindən imzalanmır.

Vergilər nazirinin 24 yanvar 2003-cü il
tarixli A-17 saylı əmri ilə təstiq edilmişdir

Əlavə vergi yoxlaması tədbirlərinin keçirilməsi haqqında

Qərar JVs__

(şəhər, rayon) **(tarix)**

(vergi orqanının adı)

rəhbəri (rəhbərin müvanı)_

(fərdi rütbəsi, soyadı, adı. atasının adı)

(yox)anılan hüquqi şəxsin tam adı və ya fərdi sahibkarın soyadı, adı. atasının adı. VÖEN-i)

keçirilmiş səyyar vergi yoxlamasının
tarixli aktma, və həmçinin

(vergi ödəyicisi tərəfindən təqdim olunmuş

sənədlər və materiallar)

baxıb müəyyən etdim;.

(vergi nəzarətinin əlavə tədbirlərinin

keçirilməsini zəruri edən hallar)

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 23-cü və 49>cu maddələri əsas tutularaq

Qərara alıram:

1.

(vergi nəzarətinin əlavə tədbirləri)

(tələb olunan sənədlərin adı)

3. Əlavə vergi yoxlaması tədbirlərinin keçirilməsi müddəti ^iş

günü müəyyən edilsin.

(rəqəmlə və sözlə)

.u ___rəhbəri (rəhbərin müavini)

(yuxan vergi orqanın adı)

(fardi rütbəsi) **(imza)** (soyadı, adı, atasının adı)

M.Y.

Qərarın surətini aldım;*

(vergi ödəyicisinin rəhbərinin (onu əvəz edənin) soyadı, adı, atasının adı) **(tarix)** **(imza)**

M.Y.

***- Qərar sifarişli məktubla göndərildikdə vergi ödəyicisi tərəfindən imzalanmır.**

Vergilər Nazirinin 24 yanvar 2003-cü il
tarixli A-17 saylı əmri ilə təstiq edilmişdir

Vergi odəyicisinin vergi qanunvericiliyinin pozulmasına gorə məsuliyyətə cəlb edilməsi haqqında vergi orqanının Qərarımn yuxarı vergi orqam tərəfindən ləğvi haqqında

(şəhər, rayon) **(tarix)**

(yuxan vergi orqanının adı)
rəhbəri (rəhbərin müavini) _____
(fərdi rütbəsi, soyadı, adı. atasının adı)

(yoxlanılmış hüquqi şəxsin tam adı və ya fərdi sahibkann soyadı, adı. atasının adı. VÖİN-i)

keçirilmiş səyyar vergi yoxlamasının nəticələri üzrə «Vergi odəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında»
__Vergilər İdarəsi (Departamenti) tərəfindən çıxarılmış
_____ tarixli__ ___ saylı Qərara, həmçinin

(Qərar əsasında göndərilmiş bildiriş. Qərarın və tələbnamənin vergi ödəyicisinə verilməsi və s. barədə)

baxıb müəyyən etdi:

(müəyyən edilmiş qanun pozuntulan)

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 49-cu maddəsini əsas tutaraq

Qərara alıram:

(vergi orqanının adı. Vergi odəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi

.tarixli__ saylı Qərarı _____ , yəni_____ ləğv edilsin.
(tam və ya qismən) **(qismən ləğv edilmiş Qərarın bəndləri)**

(vergi orqanının adı) _____ rəhbəri (rəhbərin müavini)

M.Y.
(fərdi rütbəsi) **(imzası)** **(soyadı, adı. atasının adı)**

Vergilər Nazirinin 24 yanvar 2003-cü il
tarixli A-17 saylı əmri ilə təstiq edilmişdir

Vergi ödəyici və ya başqa borclu şəxs tərəflndən verilən şikayətə baxan vergi orqanı tərəflndən şikayət edilən qərarın(aktın) və ya hərəkətin tam və ya qismən dayandırılması haqqında

Qərar JV® _

(şəhər, rayon) **(tarix)**

(şikayətə baxan vergi orqanının adı)
rəhbəri (rəhbərin müavini)

(fərdi rütbəsi, soyadı, adı. atasının adı)

(şikayət verən hüquqi şəxsin tam adı və ya fərdi sahibkann soyadı, adı. atasının adı, VÖİN-i)
Vergilər İdarəsi (Departamenti)
tərəfindən çıxarılmış

(şikayət verilən Qərar, akt. hərəkət barədə məlumat
həmçinin
(şikayət edilən qərar (aki) və ya hərəkət haqqında tam məlumat və şikayət üzrə zəruri sənədlər, qərann

tam və ya qisəmn dayandırılmasına dair qeyd)
baxıb müəyyən etdi:

(müəyyən edilmiş qanun pozuntuları)

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 63-cu maddəsini əsas tutaraq

Qərara alıram:

(hərəkətindən şikayət edilən vergi orqanının adı. şikayət edilən qərar (akt. hərəkət və ya hissələri)

_tarixli _____ .saylı Qərarının (aktın, hərəkətin) icrası 200 -ci il tarixdən _____yəni

(tam və ya qismən) dayandırılsın. **(qismən dayandınimış Qərarın, aktın.hərəkətin bəndləri)**

rəhbəri (rəhbərin müavini)
(vergi orqanının adı)

(fərdi rütbəsi) **(imzası)** **(soyadı, adı. atasının adı)**

Azərbaycan Respublikası vergilər nazirinin 02 aprel 2004-cü-il tarixli F-74 N-li Əmri ilə təsdiq olunmuşdur.

Səyyar vergi yoxiamasmın nəticəsi barədə

MƏLUMAT

Yoxlanılan şəxsin adı və VÖEN

Qərar qəbul edən orqanın adı

Qərarın nömrəsi və tarixi

Yoxlamamn novu (növbəti və ya növbədənkənar) _____
Yoxlamanın təyin edilməsinə əsas verən VM-nin müvafiq maddəsi.
Yoxlamamn mövzusu _____
Yoxlanılan dövr _____
Aktın tarixi _____
Yoxlanılan şəxsin təşkilati hüquqi forması.
Yoxlanılan şəxsin mülkiyyət növü _____
Yoxlama materiallarına baxılmanın nəticəsinə görə çıxarılmış Qərarın tarixi və Jsfo-si

_____

Yoxlanılan şəxsin qarşılıqlı əməliyyatları barədə VN-nin İT və

UTİ-nə məlumatın verildiyi məktubun tarixi və Xs-si

«Nəzarət kitabçası»nın Xg-si. ___ Qeydin sıra X9-si_

Yoxlamanın başlanması barədə qeydin tarixi

Yoxlamanın başa çatması barədə qeydin tarixi

Yoxlama materiallan VCİAD-nə təqdim edilmişdirmi ?

HƏ YOX

(düzgün olmayanın üstündən xətt çəkilməlidir)

Sıra .Yo-si	Düzgün hesablanmaması aşkar edilmiş verginin və ya vergi ödəyicisinə maliyyə sanksiyasının və inzibati cərimənin tətbiq edilməsinə səbəb olan pozuntunun adı	Əlavə hesablanmış vergi məbləği, min manatla	Tətbiq edilmiş maliyyə sanksiyası		Artıq 1 hesablan- ı maçı t	
			VM-nin tətbiq olunan maddəsi	ıMəbləği min manatla	müəyyən edilmiş vergi məbləği, min manatla	ınzıoatı cərimə məbləği min manatla
1						
2						
3						
4						
	CƏMİ					
İnzibati xətalara görə tətbiq edilmiş protokolların sayı						
Azadılmış balans zərəri						

QOŞMA*’

1	Yoxlanılan şəxsin dövriyyəsi barədə məlumat (Əlavə 1)	
2	Yoxlanılan şəxs tərəfindən əvəzləşmənin aparılması üçün ƏDV bəyannamələrində əks etdirilmiş, lakin yoxlama zamanı əvəzləşdirilməsi nəzərə alınmamış vergi hesab fakturalan barədə məlumat (Əlavə 2)	
3	Yoxlanılan şəxs tərəfindən ƏDV bəyannamələrində əks etdirilməmiş, lakin yoxlama zamanı əvəzləşdirmələrin aparılması üçün təqdim edilən vergi hesab-fakturalan barədə məlumat (Əlavə 3)	

Vergi yoxlamasını aparan şöbənin rəisi

(imza) **(soyadı. A.A.)**

Yoxlayıcı(lar) _____

(imza) **(soyadı. A.A.)**

(imza) **(soyadı. A.A.)**

« » **___ 2004-CÜ İl**

Məlumatı şəxsi vərəqəyə və vergi hesab
fakturalar bazasına daxil edən müfəttiş

(imza)" **(soyadı. A.A.)**

Bəyannamələr şöbəsinin rəisi

(imza) **(soyadı. A.A.**

« » **2004-CÜ İl**

*Növbəti səyyar vergi yoxlaması zamanı bu sətirdə VM-nin 38.1-ci maddəsi, ləğv olunan vergi ödəyicilərində aparılan yoxlamalar zamanı VM-nin 36.4-cü maddəsi, növbədənkənar yoxlamalar zamanı isə müvafiq olaraq VM-nin 38.3.1 - 38.3.6-cı maddələri göstərilməlidir.

**Məlumata əlavələr daxil edildikdə qarşıdakı damada «X» işarəsi, daxil edilmədikdə isə «—» işarəsi qoyulmalıdır.

Azərbaycan Respublikası vergilər nazirinin 02 aprel 2004-cü il tarixli F-74 N-li Əmri ilə təsdiq edilmiş «Səyyar vergi yoxlamasının nəticəsi barədə məlumat»a 1 nömrəli əlavə.

Yoxlanılan şəxsin faktiki dövriyyəsi barədə məlumat

Ko ' Hesabat ayları	Ümumi dövriyyə, min manatla	ƏDV tutulan dövriyyə	O cümlədən ; ƏDV-dən ! azad ƏDV-si • edilən **1** dövriyyə	ƏDV-yə (0) dərəcə ilə cəlb edilən dövriyyə
CƏMİ				

Yoxlayıcı(lar)

(imza) **(soyadı. A. A.)**

« » 200 _ -**CÜ** il **(imza)** **(soyadı. A.A.)**

Yoxlayıcı(lar) _____ _____

(imza) (soyadı, A.A.)

_____ _____

(imza) (soyadı, A.A.)

«___» _____ 200__-cü i

Azərbaycan Respublikası vergilər nazirinin 02 aprel 2004-cü il tarixli F-74 N-li Əmri ilə təsdiq edilmiş «Səyyar vergi yoxlamasının nəticəsi barədə məlumat»a 2 nömrəli əlavə.

Yoxlanılan şəxs əvəzləşdirmələrin aparılması üçün ƏDV bəyannamələrində əks etdirilmiş, lakin yoxlama zamanı əvəzləşdirməsi nəzərə alınmamış vergi hesab-fakturaları barədə məlumat

№	Vergi hesab-fakturası təqdim edən şəxsin adı	VÖEN	VHf-nin tarixi VHf-nin seriya və nömrəsi	Alınmış malın (işin, xidmətin) ümumi dəyəri (ƏDV-siz), min manatla	Alınmış malın (işin, xidmətin) ƏDV-si, min manatla	Alınmış malın (işin, xidmətin) ödənilmiş dəyəri (ƏDV-siz), min manatla	Alınmış malın (işin, xidmətin) ödənilmiş ƏDV-si, min manatla	Əvəzləşdirmə-nin nəzərə alınmamasının səbəbi
CƏMİ								

Azərbaycan Respublikası vergilər nazirinin 02 aprel 2004-cü il tarixli F-74 N-li Əmri ilə təsdiq edilmiş «Səyyar vergi yoxlamasının nəticəsi barədə məlumat»a 3 nömrəli əlavə.

Yoxlanılan şəxs tərəfindən ƏDV bəyannamələrində əks etdirilməmiş, lakin yoxlama zamanı əvəzləşdirmələrin aparılması üçün təqdim edilən vergi hesab-fakturaları barədə məlumat

№	Vergi hesab-fakturası təqdim edən şəxsin adı	VÖEN	VHf-nın tarixi	VHf-nın seriya və nömrəsi	Alınmış malın (işin, xidmətin) ümumi dəyəri (ƏDV-siz), min manatla	Alınmış malın (işin, xidmətin) ƏDV-si, min manatla	Alınmış malın (işin, xidmətin) ödənilmiş dəyəri (ƏDV-siz), min manatla	Alınmış malın (işin, xidmətin) ödənilmiş ƏDV-si, min manatla	Əvəzləş-dirmənin nəzərə alındığı hesabat dövrü	Əvəzləşdirmə-nin nəzərə alınmaması barədə qeyd
CƏMİ										

Yoxlayıcı(lar) _____ (imza) _____ (soyadı, A.A.)

_____ (imza) _____ (soyadı, A.A.)

«___» _____ 200__-cü il

Azərbaycan Respublikası vergilər nazirinin 07 yanvar 2004-cü il tarixli F-05 Ne-li Əmri ilə təsdiq edilmişdir

Vergi orqanının adı

Qərarın JV»-si VÖEN

Səyyar vergi yoxlaması apanlan vergi ödəyidsinin adı

Vergi ödəyidsinin qarşılıqlı əməliyyatları barədə məlumat

Sıra	Vergi ödəyicisinin VOEN adı	Əməliyyatın Məzmunu	Tarixi	Alınmış mallann (işlərin, xidmətlərin) dəyəri, ƏDV ilə birlikdə	Ödənişin Məbləği	Tarixi
	CƏMİ					

Vergi orqanının nümayəndəsi Vergi ödəyicisinin rəhbəri Vergi ödəyicisinin baş mühasibi

(imza) **(soyadı. A. A.)**

(imza) **(soyadı. A.A.)**

(imza) **(soyadı. A.A.)**

M.Y.

Vergi orqanlarında hesablanmış və ödənilmiş
vəsaitlərin uçotunun aparılması qaydaları
haqqında Metodiki Göstərişlər»ə

2 saylı əlavə

_____
(vergi orqanının adı)

Vergi orqanının rəhbəri _____ _____
(imza) (soyadı, a. a.)

M. Y.

_____**üzrə daxilolmaların**
(verginin və ya büdcəyə çatası digər icbari ödənişin adı)

və qaytarılan məbləğlərin REYESTRİ

manatla

Sıra N-si	Ayın tarixi	Daxil olmuşdur				Qaytarılmışdır				Qaytarılmalar çıxılmaqla daxil olmuşdur				Qeyd
		Gün ərzində	Ayın əvvəlindən artan yekunla	Rübün əvvəlindən artan ynkunla	İlin əvvəlindən atran yekunla	Gün ərzində	Ayın əvvəlindən artan yekunla	Rübün əvvəlindən artan ynkunla	İlin əvvəlindən atran yekunla	Gün ərzində	Ayın əvvəlindən artan yekunla	Rübün əvvəlindən artan ynkunla	İlin əvvəlindən atran yekunla	
1	2	3	4	5	6	7	8	9	10	11	12	13	14	15

«Vergi orqanlarında hesablanmış və ödənilmiş vəsaitlərin uçotunun aparılması qaydalan haqqında Metodiki Göstərişlər»ə

1 saylı əlavə

(vergi orqanının adı)

Vergi orqanının rəhbəri

(imza) **(soyadı, a. a.)**

M. Y.

200 İl üçün şəxsi hesab vərəqəsi

(verginin və ya büdcəyə çatası digər icbari ödənişin adı)

Şəxsi hesab-vərəqəsinin nömrəsi

Vergi ödəyicisinin tam adı _____
VÖEN_____
VÖEN-nin verildiyi tarix _1.
Dövlət qeydiyyatına alındığı tarix
Dövlət qeydiyyatının N-si_____
Tabeçiliyi _____
Mülkiyyət növü_____
Təşkilati-hüquqi forması
Fəaliyyət növü _____
Ünvanı _____
Telefon JVfo-si_____
Hüquqi şəxsin rəhbəri_____
Hesablaşma hesablarının sayı.

manatla

Vergilərin, digər icbari ödənişlərin, maliyyə

Faiz hesablanması və ödənilməsi

Əvəzləşdirilmişdir		**Hesablaşmanın**								
	***c5 u.**									
8	**9**	10	12		**14**	**15**	**16**	**17**		

4.9. Məhsulun maya dəyərinin və məsrəflərin uçotunun auditi

Vergi orqanları tərəfindən aparılan yoxlamanın əsas istiqamətlərindən biri də istehsal və tədavül xərclərinin formalaşmasının düzgünlüyü üzərində nəzarətdən ibarətdir. Çünki məhsulun maya dəyəri müəssisə fəaliyyətinin səmərəliliyini göstərən əsas keyfiyyət göstəricilərindən biridir. Maya dəyərinin səviyyəsi mənfəətin həcminə və mənfəət vergisinin məbləğinə birbaşa təsir edir.

Məhz bu səbəbdən audit yoxlamasının əsas məqsədi məhsul istehsalı və satışına çəkilən məsrəflərin məqsədyönlüyü üzərində nəzarətdən, onların nə dərəcədə əsaslı olmasının müəyyən edilməsindən və məsrəflərin qanuniliyinin yoxlanmasından ibarətdir. Bu məqsədlərə çatı İması üçün maya dəyərinin auditi qarşısında aşağıdakı vəzifələr durur:

- > məsrəflərin satılmış (yüklənmiş) və mal qalıqları arasında düzgün bölüşdürülməsinin düzgünlüyünün müəyyən edilməsi;
- > maya dəyərini formalaşdıran məsrəflərin tərkibinin dəqiqləşdirilməsi;
- > məsrəflərin uçotu üzrə əməliyyatların mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyünün yoxlanması.

Maya dəyərinin hesablanması prosesini müəyyən edən əsas normativ sənəd Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Məhsulun maya dəyərinə daxil edilən məsrəflərin tərkibi haqqında" 111 saylı 16 avqust 1996-cı il tarixli qərarıdır.

Maya dəyərinin formalaşmasının düzgünlüyü üzərində nəzarət edilməsi üçün informasiya mənbəyi kimi Baş kitabdan (dövriyyə balansından), 10,10/1 və lOa Jfe li jurnal-orderlərin məlumatlarından və ilkin sənədlərdən istifadə etmək lazımdır.

Məhsulların məhsulun maya dəyərinə silinməsinin düzgünlüyü yoxlanarkən aşağıdakı məqamlara diqqət yetirmək lazımdır:

- ■ məsrəfləri uçota alan hesablarda əks olunmuş xərclərin sənədli təsdiqinə;
- / ■ məsrəflərin həyata keçirilmə vaxtının hesabat dövrünə müvafiqliyinə;
- ■ müəssisənin mənfəətinə aid edilən məsrəflərin məhsulun maya dəyərində olmamasına;
- ■ bəzi xərc növlərinin (ezamiyyət, nümayəndəlik, reklam, kadrların hazırlanması və yenidən hazırlanması, auditor xidmətləri üzrə faktiki xərclər) maya dəyərinə aid edilməsi normalarına müvafiqliyinə;
- ■ üstəlik xərclərin silinməsi və onların kalkulyasiya obyektləri üzrə bölüşdürülməsinə;
- ■ bilavasitə istehsal təyinatlı məhsulların maya dəyərinə aid edilən məsrəflərin sənədlərlə rəsmiləşdirilməsinə;
- ■ məsrəf elementləri üzrə maya dəyərinin formalaşmasına;
- ■ istehsal məsrəfləri uçotunun və məhsulun maya dəyəri kalkulyasiyasmın ilin əvvəlindən seçilmiş metodunun dəyişməzliyinə, onun sahəvi və müəssisənin təşkilati xüsusiyyətlərinə müvafiqliyinə;
- ■ silinmiş məsrəflərin buraxılmış məhsulların növünə və ya müəssisə fəaliyyətinin xarakterinə uyğunluğuna;
- ■ məsrəflərin hesabat dövrləri üzrə məhdudlaşdırılmasma;
- ■ məsrəflərin ayn-ayn məhsul növləri və bitməmiş istehsalat üzrə bölüşdürülməsinə;

■ məhsulun maya dəyərinin aşağı salınması üzrə ehtiyatlann aşkar edilməsinə. Belə səhvlərin müəyyən edilməsi üçün vergi müfəttişindən təkcə xərcləri rəsmiləşdirən sənəd növləri deyil, həm də məsrəflərin maya dəyərinə aid edilməsi qaydaları haqqında da biliklər tələb olunur. Vergi müfəttişi sadalanan qanun pozuntularını aşkar etmək üçün kassa məxaric orderlərini, eləcə də hesablaşma hesabı üzrə sənədləri nəzərdən keçirməlidir.

Məhsulun maya dəyərini formalaşdıran məsrəflər aşağıdakı elementlər üzrə qruplaşdırılır:

1. Material məsrəfləri (geri qaytarılan tullantılar çıxılmaqla)
2. Əməyin ödənişi üzrə məsrəflər
3. Sosial ehtiyaclara ayırmalar
4. Amortizasiya ayırmalan
5. Sair məsrəflər

Material məsrəflərinin məhsulun maya dəyərinə silinməsi yoxlanarkən auditor aşağıdakılara diqqət yetirməlidir:

> təsdiq edilmiş material məsrəf normalarının mövcudluğu və onların istehsalata faktiki olaraq necə silinməsi;
> konkret məhsul növünün istehsalına aid olmayan materiallann istehsalata silinib-silinməməsi;
> istehsalatda zay məhsulun uçotunun aparılıb-aparılmaması və zaydan olan itkilərin hara silinməsi;
> geri qaytarılan tullantıların qiymətləndirilməsi və silinməsinin düzgünlüyü;
> 16 saylı hesabda uçota alınan materialların dəyərindən kənarlaşmaların istehsalata silinməsinin düzgünlüyü;
> təbii itki normaları çərçivəsində qiymətlilərin çatışmamazlıq və itkisindən olan zərərin istehsalata aid edilməsinin düzgünlüyü.

Məhsulun maya dəyərinin yoxlamaya məruz qalan ən mühüm elementi əməyin ödənişi üzrə məsrəflərdir. Auditor yoxlamanın gedişatı zamanı nəzərə almalıdır ki, faktiki yerinə yetirilmiş işlərə görə müəssisələrdə qəbul edilmiş əməyin ödəniş formalarına (elementlərinə) müvafiq işəmuzd qiymətləndirməyə, tarif dərəcələrinə və vəzifə maaşlanna əsasən hesablanmış əmək haqqı hesablaşma sənədlərinə əsasən tam məbləğdə maya dəyərinə daxil edilir. Yoxlama zamanı auditor yalnız qanunvericilikdə nəzərdə tutulmuş normalar həddində maya dəyərinə daxil edilən konpensasiya ödəmələrinə (qiymətlərin qalxması və indeksasiya gəlirləri ilə əlaqədar əməyin ödənişi; a^aşlı uşaqlara xidmətə görə analara ödənilən ödənişlər) də diqqət yetirməlidir.

Əməyin ödənişi üzrə məsrəflər yoxlanarkən nəzərə almaq lazımdır ki, natural ödəniş qaydasında verilən məhsulun və ayrı-ayrı işçi kateqoriyalarına əvəzsiz olaraq verilmiş əşyalann dəyəri həmçinin bu xərc elementinə daxil edilir.

Audit yoxlaması zamanı maya dəyərinə qeyri-istehsal təyinatlı xərclərin (xüsusi təyinatlı fondların və məqsədli daxilolmaların vəsaitləri hesabına ödənilən mükafatlar, maddi yardımlar, pensiyaya əlavələr, ictimai nəqliyyatla iş yerinə getmək üçün ödəmələr, istirahət və müalicə yerlərinə göndərişlərin ödənişi və bilavasitə

əməyin ödənişi ilə bağlı olmayan digər ödənişlər) maya dəyərinə daxil edilməsi faktlarının olub-olmamasına xüsusi diqqət yetirilməlidir.

Auditor yoxlamaları praktikasında ayrı-ayn xərclərin məsrəflərə qeyri-qanuni aid edilməsi və sənədlərlə düzgün rəsmiləşdirilməməsi hallanna tez-tez rast gəlinir. Bu hər şeydən əvvəl mühasiblərin həmin xərclər (nümayəndəlik, reklam, ezamiyyə, kadrların hazırlanması və yenidən hazırlanması üzrə xərclər) üzrə normativ qaydaları lazımınca dəqiq bilmələri ilə əlaqədardır.

Mövcud qanunvericiliyə uyğun olaraq müəssisənin istehsal fəaliyyəti ilə bağlı olan nümayəndəlik xərcləri, xaricilər də daxil olmaqla digər müəssisələrin nümayəndələrinin rəsmi qəbulu üzrə xərclər, mədəni-əyləncə tədbirlərinə çəkilən xərclər, ştatda olmayan tərcüməçilərin xidmətlərinin ödənişi istehsal məsrəflərinə aid edilir.

Nümayəndəlik xərclərinin istehsal məsrəflərinə silinməsi şərtləri bunlardır: qanunvericilikdə nəzərdə tutulmuş norma və normativlər əsasında müəyyən və direktorlar (idarəetmə) şurası tərəfindən hesabat ili üçün təsdiq edilmiş smetalar həddində (yəni auditor hesabat ili üçün xərc smetasının olub-olmadığını yoxlamalıdır) olmalı və xərclər sənədlərlə təsdiqlənməlidir.

Normadan artıq olan nümayəndəlik xərcləri vergitutma məqsədləri üçün müəssisənin mənfəətinə əlavə olunmalıdır.

Xidməti ezamiyyə xərclərinin istehsal məsrəflərinə silinməsi üçün aşağıdakı şərtlər yerinə yetirilməlidir:

- ezamiyyə təsdiq edilmiş xərclər həddində istehsal-kommersiya fəaliyyəti ilə bağlı olmalıdır;
- müəssisənin rəhbəri (onun müavini) tərəfindən imzalanmış əmr, müvafiq qeydlər olan ezamiyyə vəsiqəsi, gediş-gəliş biletləri, mehmanxana hesablan və kassa çekləri olmalıdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin ezamiyyə xərclərinin normaları haqqında 25 yanvar 2008-ci il tarixli 14 saylı qərarına əsasən Azərbaycan Respublikasının ərazisində ezamiyyə xərclərinin 1 günlük norması Bakı şəhərində 65,0 manat, Gəncə, Sumqayıt və Naxçıvan şəhərlərində 50,0 manat, respublika tabeli digər şəhərlərdə, rayon mərkəzlərində, şəhər tipli qəsəbələrdə və kəndlərdə 45,0 manat müəyyən edilmişdir. Azərbaycan Respublikasının ərazisində ezamiyyə xərclərinin müəyyən edilmiş 1 günlük normasının 80 faizini mehmanxana xərcləri təşkil edir.

Azərbaycan Respublikasının ərazisində ezamiyyə zamanı mehmanxana xərcləri barədə müvafiq təsdiqedici sənədlər təqdim edilmədiyi hallarda, ezamiyyə xərclərinin 1 günlük normasının mehmanxana xərcləri üçün müəyyən edilmiş hissəsinin 50 faizi Ödənilir.

Kadrların hazırlanması və yenidən hazırlanması üzrə xərcləri istehsal məsrəflərinə silinməsi şərtləri aşağıdakılardır: təhsil fəaliyyəti ilə məşğul olmaq haqqında xüsusi icazəsi olan tədris müəssisəsi ilə bağlanmış müqavilə və normalar həddində xərcləri təsdiq edən sənədlər.

Mal-material qiymətlilərinin çatışmamazlığı üzrə məbləğlərin istehsal xərclərinə silinməsi üçün aşağıdakı şərtlərə riayət olunmalıdır:

- özündə çatışmamazlıq məbləğini əks etdirən invenlarizasiya aktı;
- təbii itki normasında çatışmamazlıq;
- çatışmayan qiymətlilərin dəyərinin istehsal rnəsrəflərinə silinməsi haqqında müəssisə rəhbərinin əmri (sərəncamı).

Bitməmiş istehsalatın qiymətləndirilməsi metodları müəssisənin uçot siyasəti ilə müəyyən edilir. Audit yoxlamasının gedişatı zamanı bitməmiş istehsalatın uçotunun vəziyyəti, vaxtında və düzgün inventarizasiya olunması, inventarizasiya nəticələrinin mühasibat uçotunda əks etdirilməsinin və qiymətləndirilməsinin düzgünlüyü yoxlanmalıdır.

Yarımfabrikat, detal və hissələrin qorunub saxlanması və uçota alınmayan zay məhsulların yoxlanması üçün inventarizasiya böyük əhəmiyyət kəsb edir. Yoxlamalar göstərir ki, bəzi müəssisələrdə bitməmiş istehsalatın inventarizasiyası keyfiyyətsiz və qeyri-ardıcıl aparılır, inventarizasiya bitməmiş istehsalatı tam deyil, qismən əhatə etmir və inventarizasiyanın nəticələri uçotda əks etdirilmir. Mühasibat işçilərinin bitməmiş istehsalatın inventarizasiyasına az diqqət yetirməsi vəzifəli şəxslərin məsuliyyətsizliyinə səbəb olur ki, bu da son nəticədə material qiymətlilərinin istehsalatda istifadə olunması üzərində nəzarətin zəifləməsi ilə nəticələnir. Ona görə bitməmiş istchsalat^n uçotunun aparılması və inventarizasiyanın aparılma müddətlərinə riayət olunması auditor tərəfindən müfəssəl yoxlanılmalıdır. Auditor inventarizasiyanın gedişatı zamanı aşkar edilmiş çatışmamazlıq və artıq gəlmələrin uçotda əks etdirilməsinin düzgünlüyünü yoxlamalıdır.

İstehsal məsrəflərinin uçotu vəziyyətinin əsaslı qiymətəndirilməsi üçün aşkar olunmuş bütün qanun pozuntulannın xüsusi işlənib hazırlanmış cədvəllərdə əks olunması məqsədəuyğun hesab edilir. Bu cədvəllərdə aşağıdakı xüsusi göstəricilər əks olunmalıdır: əməliyyatın məzmunu, sənədin adı, sənədin tərtib olunma tarixi və nömrəsi, məbləğ, müxabirləşən hesablar, qeydlər.

Auditor qeydlərdə çatışmamazlıqların aradan qaldırılması üzrə nəticə və təkliflərini yazır.

Auditin ən mürəkkəb və əməktutumlu sahəsi məhsul istehsalı və satışına çəkilən məsrəflərin 46 "Məhsulların (işlərin, xidmətlərin) satışı" hesabının debetinə aid edilməsi haqqında hesabat məlumatlarının nə dərəcədə əsaslı olub-olmamasının müəyyən edilməsidir. Bunun üçün vergi müfəttişi xərclərin hansı hesabların kreditindən maya dəyərinin formalaşdığı, hansı məsrəf hesabının (20, 23,29) debetinə silindiyini və onlann uçot registrlərində (jurnal-orderlərdə, kitablarda, cədvəllərdə, mühasibat yazılışlarında) əks olunmasının qanunauyğunluğunu müəyyən etməlidir.

Bu məqsədlə vergi müfəttişi nəzarət prosesini aşağıdakı mərhələlərdə aparmalıdır

- məsrəflərin satılmış (yüklənmiş) və anbarında olan hazır məhsullar arasında bölüşdürülməsinin əsaslı və düzgünlüyünün yoxlanması;
- məsrəflərin tərkibini formalaşdıran xərclərin düzgünlüyünün yoxlanması.

Maya dəyərinin formalaşmasının düzgünlüyünü yoxlayarkən 10, 10/1 və lOa JV**2**İİ jurnal-orderlərin məlumatlarından istifadə etmək lazımdır. Çünki, bu mühasibat registrlərində istehsal məsrəflərini uçota alan hesablarla (20, 23, 25, 26, 28, 31) qarşılıqlı surətdə əlaqədar olan material qiymətlilərini (10, 12, 15, 16), azqiymətli və tezköhnələn

malan (65), sosial sığorta və təminat üzrə hesablaşmaları (69), əməyin ödənişi üzrə işçi heyəti ilə hesablaşmaları (70), əsas vəsaitlərin və qeyri-maddi aktivlərin köhnəlməsini (02, 05) uçota alan hesabların kredit dövriyyələri əks olunur. Yoxlama zamanı istifadə olunmuş hesabların siyahısına və onlarda əks olunmuş məsrəf məbləğlərinin düzgün və tamlığına xüsusi diqqət yetirmək, xərc elementləri və məsrəf maddələri üzrə informasiyanın analitikliyinin təmin edilməsini qiymətləndirmək lazımdır. İstehsal məsrəfləri uçotunun yanmfabrikat variantında 10 və 10/1 Jfali jurnal-orderlərdə 21 "Öz istehsalının yarımfabrikatları" hesabının krediti üzrə dövriyyə əks olunur.

Əgər cari uçotda satılmış (yüklənmiş) məhsullar, yerinə yetirilmiş işlər, göstərilmiş xidmətlər uçot qiymətləri (plan maya dəyəri, yaxud müqavilə qiyməti) üzrə qiymətləndirilmişdirsə, onda yüklənmiş mallar faktiki maya dəyəri müəyyən edilir və hesabat dövrünün sonuna anbarda olan hazır məhsul qalığı isə qiymətləndirilir. Bunun üçün hazır məhsulun faktiki maya dəyərinin plan maya dəyərindən (uçot qiymətindən) kənarlaşma faizi müəyyən edilir. Hesabat dövrü ərzində yüklənmiş malların faktiki maya dəyərini hesablamaq üçün uçot qiyməti ilə qiymətləndirilmiş malların sayı kənarlaşma faizi qədər konektə olunur. Hazır məhsul qalığının faktiki maya dəyəri analoji qaydada müəyyən olunur. Kənarlaşma faizinin hesablanması nəticələrin daha dəqiq müəyyən edilməsi üçün kənarlaşma faizləri hazır məhsulun qrupları üzrə aparılır.

Hazır məhsulun faktiki maya dəyəri aşağıdakı düstur üzrə müəyyən edilir;

$$Mf = BI,+ UM\text{-}B\dot{I}s\text{-}T, \qquad \textbf{(5)}$$

burada, Mf- hazır məhsulun faktiki maya dəyəri;

Bİ^ BİS - müvafiq olaraq hesabat dövrünün əvvəlinə və sonuna olan bitməmiş istehsalat qalıqları;

ÜM - hesabat dövrünün ümumi məsrəfi;

T- istehsalat tullantıları.

Hazır məhsulun faktiki istehsalat maya dəyərini hesablayarkən mühasibat uçotunda hesabat dövrünün sonuna bitməmiş istehsalat qalığının qiymətləndirilməsi problemi yaranır. Cari uçotun əlverişliliyi və hazır məhsulun buraxılışı üzərində nəzarət edilməsi məqsədilə əksər müəssisələrdə hazır məhsulun anbara mədaxil edildiyi uçot qiymətləri tətbiq olunur. Bu halda uçot qiyməti kimi əsasən müəssisənin satış (topdan) qiyməti və ya hazır məhsulun plan (istehsalat) maya dəyəri tətbiq olunur.

Cari hesabat dövründə istehsalatdan buraxılmış hazır məhsul uçot qiyməti ilə anbara mədaxil edilərkən mühasibat uçotunda aşağıdakı mühasibat yazılışı tərtib olunur;

Dt 40 "Hazır məhsul"

Kt 20 "Əsas istehsalat" və ya 23 "Köməkçi istehsalat"

Hesabat dövrünün sonunda müəssisənin mühasibatlığı anbara verilmiş hazır məhsulun faktiki istehsalat maya dəyərini hesablayır və çəkilmiş məsrəfləri korrektə edir. Hazır məhsulun faktiki istehsalat maya dəyərinin uçot qiymətindən

çox olduğu hallarda, yaranmış fərq məbləği əlavə yazılış tərtib etməklə 20 (23) saylı hesabın krediti ilə müxabirləşməklə 40 saylı hesabın debetinə əks olunur.

Qənaət olunduğu hallarda, yəni məhsulun uçot qiymətj faktiki istehsalat maya dəyərindən çox olduqda, kənarlaşma (qənaət) məbləği "qırmızı stomo" yazılışı ilə 40 saylı hesabın debeti, 20 saylı hesabın isə krediti üzrə əks olunur.

Beləliklə, uçotun bu variantında hesabat dövrünün sonuna anbarda qalan hazır məhsul faktiki istehsalat maya dəyəri ilə əks olunur.

Hazır məhsul buraxılışı uçotunun ikinci variantında 37 "Məhsulların (işlərin, xidmətlərin) buraxılışı" adlı əməliyyat-nəticə hesabından istifadə olunur. Mühasibat uçotunda bu hesabın tətbiq edilməsinin mühüm şərti müəssisədə normativ uçot sisteminin mövcudluğunu sübut edən plan (istehsalat) maya dəyərinin olmasıdır.

Uçotun bu variantının tətbiqi zamanı normativ (plan) maya dəyəri üzrə anbara təhvil verilmiş hazır məhsulun dəyəri 37 saylı hesabın krediti ilə müxabirləşməklə 40 "Hazır məhsul" hesabının, yerinə yetirilmiş işlər və ya göstərilmiş xidmətlər isə 45 "Yüklənmiş mallar" ("ödəmə üzrə" və ya kassa metodunun tətbiqi zamanı), yaxud 46 "Məhsulların (işlərin, xidmətlərin) satışı" hesabının ("yükləmə üzrə" və ya hesablama metodunun tətbiqi zamanı) debetinə əks olunur.

37 saylı hesabın tətbiqi zamanı həmin hesabda aşkar edilmiş kənarlaşma (faktiki maya dəyərinin normativ maya dəyərindən) birbaşa 46 saylı hesaba aid edilir, anbarda olan hazır məhsul qalığı və yüklənmiş mallar isə balansda normativ (plan) maya dəyəri üzrə əks olunur. Maya dəyərinə daxil edilən məsrəflərin uçotu müvafiq qaydada tərtib edilmiş sənədlərə əsasən apanlır. Qeyd etmək lazımdır ki, maliyyə-təsərrüfat (sahibkarlıq) fəaliyyətinin istiqamətindən asılı olaraq müəssisələr yuxarıda sadalanan hesabların hamısından deyil, yalnız müəyyən qismindən istifadə edə bilərlər.

Bu səbəbdən audit yoxlamasının gedişatı zamanı istifadə olunan məsrəf hesablannın siyahısına diqqət yetirmək, məsrəflərin əks olunmasının tamlığı, dəqiqliyi və qanuniliyi, eləcə də məsrəf maddələri və xərc elementləri üzrə analitik informasiyanın təmin edilməsi baxımından onlann tətbiqinin məqsədəuyğunluğunu qiymətləndirmək lazımdır.

Maya dəyərinə aid edilmiş məsrəflərin düzgünlüyünün audit yoxlamasının apaniması sxemi məsrəflərin uçotunun tam və ya məhdud maya dəyəri üzrə aparılmasından asılıdır.

Məsrəflərin uçotunun ənənəvi kalkulyasiya variantının tətbiqi zamanı istehsal resurslarını uçota alan hesabların (10, 12) krediti ilə müxabirləşməklə məsrəf hesablarının (20,23, 25, 26 və b.) debeti üzrə hesabat dövrünün məsrəfləri əks olunur. Bu zaman bilavasitə konkret məhsul növünün istehsalı (işin görülməsi, xidmətin göstərilməsi) ilə bağlı olan birbaşa (müstəqim) məsrəflər 20 "Əsas istehsalat" və ya 23 "Köməkçi istehsalat" hesabının, istehsalın təşkili, istehsala xidmət və onun idarə edilməsi ilə şərtləndirilən və bilavasitə konkret məhsul növünün istehsalı ilə bağlı olmayan dolayı (qeri-müstəqim) xərclər isə 25 "Ümumistehsalat xərcləri" və 26 "Ümumtəsərrüfat xərcləri" adlı toplayıcı-bölüşdürücü hesablann debetində uçota alınır. Ayin axırında 25 və 26 saylı hesablarda toplanmış dolayı xərclər müvafiq bazaya mütənasib olaraq kalkulyasiya obyektləri üzrə bölüşdürülərək 20

və ya 23 saylı hesabın debetinə silinərək həmin hesablar bağlanır. Bundan sonra müəssisənin mühasibatlığı tərəfindən hazır məhsulun tam faktiki istehsalat maya dəyəri kalkulyasiya edilir

Ölkəmizin uçot praktikası üçün yeni olan digər prinsipial variant hesabat dövründəki bütün məsrəflərin iki yerə bölünməsini nəzərdə tutur:

- ❖ bilavasitə istehsal prosesi ilə bağlı olan birbaşa (müstəqim, istehsal) məsrəflər;
- ❖ hesabat dövrü ilə daha sıx bağlı olan dövrü məsrəflər.

Müstəqim istehsal məsrəfləri istehsal və maliyyə resurslannı uçota alan hesabların krediti ilə müxabirləşməklə 20 (23) saylı hesabın, dolayı xərclər isə 25 saylı hesabın debetində toplanır. Hesabat dövrünün sonunda ayrı-ayrı məhsul növlərinin maya dəyərinə birbaşa istehsal məsrəfləri ilə yanaşı, hesabat dövrü ərzində 25 saylı hesabda uçota alınan məsrəflər də silinir (Dt 20 - Kt 25). 26 saylı hesabda uçota alman dolayı (dövri) xərclər isə kalkulyasiya obyektlərinə deyil, hesabat dövrünün sonunda bilavasitə məhsulların satışından olan gəlirlərin azalmasına silinir (Dt46-Kt 26).

İstənilən hər iki variantın tətbiqi zamanı nəzərə almaq lazımdır ki, bəzi məsrəflər məhsulun maya dəyərinə daxil edilmir. Bu səbəbdən vergi müfəttişi sözügedən xərclərin məhsulun maya dəyərinə daxil edilməsi hallarının olub-olmamasına xüsusi diqqət yetirməlidir.

Vergi praktikasında rast gəlinən tipik səhvlərdən biri kimi müvafiq maliyyələşmə mənbələri hesabına həyata keçirilməli olan kapital qoyuluşlarının (avadanlıqların montaj və quraşdırılması, fəaliyyətdə olan istehsal güclərinin rekonstruksiyası (modemizə) edilməsinə görə əməyin ödənişi üzrə xərclər) məsrəf hesablarına aid edilməsini göstərmək olar. Bundan başqa, bir çox hallarda proqram məhsullan, lisenziya, istifadə hüququna görə şəhadətnamə və digər maddi aktivlərin alınması üzrə xərclər məsrəf hesablarına aid edilir.

Təsərrüfat subyektlərində yol verilən səhvlərdən biri də xüsusi təyinatlı fondlar hesabına ödənilməli olan xərclərin məsrəf hesablarına silinməsini göstərmək olar. Məsələn, bəzən müəssisələr səhvən qeyri-istehsal sferasında çalışan işçilərin əmək haqqı məbləğindən Sosial Müdafiə Fonduna hesablanmış ayırmaların məbləğini məsrəf hesablanna aid edirlər. Nəzərə almaq lazımdır ki, bu ayırmaların məbləği, qeyri-istehsal sferasında çalışan işçilərin müvafiq əmək haqqı kimi müvafiq maliyyələşmə mənbələri hesabına ödənilməlidir (Dt 88 - Kt 69).

Qeyd etmək lazımdır ki, aşağıda göstərilən xərclərin məhsulun maya dəyərinə daxil edilməsinə icazə verilmir və onlar müəssisənin sərəncamında qalan mənfəət hesabına ödənilir:

- ■ işçilərə göstərilən tibbi xidmətin dəyəri;
- ■ işçilər və onların ailə üzvləri üçün sanatoriya və istirahət evlərinə verilən putyovkaların dəyəri;
- ■ nümayəndəlik xərcləri ilə bağlı olmayan kollektiv tədbirlərin keçirilməsinə və verilmiş hədiyyələrin alınmasına çəkilən xərclər;
- ■ qanunvericilikdə nəzərdə tutulmuş müddətdən əlavə işçilərə verilmiş əlavə məzuniyyətlərin ödənişi;
- ■ fərdi abunə üzə xərclər;

- sosial-mədəni sferanın əsas vəsaitləri üzrə hesablanmış amortizasiya ayırmaları;
- ictimai təşkilatların saxlanmasına çəkilən xərclər.

Yoxlamanın gedişatı zamanı auditor həmçinin müəssisənin sərəncamında qalan mənfəət hesabına Ödənilməli olan aşağıdakı xərclərin məhsulun maya dəyərinə daxil edilib-edilməməsinə diqqət yetirməlidir.

- normativ aktlarda nəzərdə tutulmamış könüllü və məcburi sığortalar üzrə xərclər;
- ətraf mühitə normadan artıq tullantılara görə ödənilən cərimələr;
- müəyyən edilmiş normativlərdən artıq (müvafiq təsdiqedici sənədlər olma-dıqda) xərclər;
- məsrəflərin tərkibi haqqında qaydada nəzərdə tutulmuş məqsədlər üçün alınmış bank kreditləri üzrə faizlər.

Maya dəyərinin auditi zamanı istehsal və tədavül xərclərinin tərkibinə daxil edilmiş material resurslarının düzgün qiymətləndirilməsinə diqqət yetirmək lazımdır. İstehsalatda istifadə olunmuş xammal, material və satın alınmış yarımfabrikat- lann faktiki maya dəyəri onlann əldə edilməsi, tədarükü və gətirilməsinə çəkilmiş xərclərə əsasən müəyyən edilir. Bu xərclərin düzgün müəyyən edilməsinə nəzarət etmək üçün 10 "Materiallar", 1-5 "Materialların əldə edilməsi və tədarükü" və 16 "Materialların qiymətindəki kənarlaşmalar" hesablarında aparılmış mühasibat yazılışlarına diqqət yetirmək lazımdır.

Material resurslarının dəyərini müəyyən edərkən nəzərə almaq lazımdır ki, müəssisələr materialların uçotunu faktiki maya dəyəri üzrə 10 "Materiallar" hesabında, yaxud əldə edilmə qiyməti üzrə 15 və 16 saylı hesablardan istifadə etməklə apara bilərlər.

Material qiymətlilərinin tədarükü və əldə edilməsi üzrə əməliyyatların uçotu variantından asılı olaraq material resurslan balansda pərakəndə qiymətlə əks etdirilə bilər. Milli uçot sistemi üçün ənənəvi və əsas qiymətləndirmə sistemi faktiki maya dəyəri üzrə qiymətləndirmə prinsipidir.

Material resurslannm faktiki maya dəyəri onların əldə edilməsinə görə alınmış kreditlər üzrə faizlər də daxil olmaqla onlann əldə edilməsinə çəkilmiş məsrəflərə, ticarət əlavələrinə, xarici iqtisadi və təchizat müəssisələrinə ödənilmiş komis- siyon mükafatlandırmalarına, əmtəə birjaları xidmətlərinin dəyərinə, gömrük rüsumlarına, materiallann saxlanması və gətirilməsi üzrə kənar təşkilatlar tərəfindən həyata keçirilən xidmətlərin dəyərinə əsasən müəyyən edilir.

Məhsulun maya dəyərinə daxil edilən material məsrəfləri geri qaytarılan tul-lantılann (ilkin xammalın istehlak keyfiyyətlərini tam və ya qismən itirmiş emal edilmiş xammal, material və yarımfabrikatların qalığı) dəyəri qədər azaldılır. Onlar istehsalatda aşağı qiymətlərlə (mümkün istifadə olunma qiymətləri ilə), yaxud artırılmış məsrəf normaları və azaldılmış məhsul hasilatı ilə, eləcə də xalq istehlakı mallannın istehsalı üçün istifadə oluna bilər. İstehsalatda istifadə olunmayan tullantılar müqavilə qiyməti üzrə kənara satıla bilər.

Material qiymətlilərini faktiki maya dəyəri üzrə 10 saylı hesabda uçota alan müəssisələri yoxlayarkən auditor materialların uçotu cədvəlinin dövriyyələri üzrə hazır məhsulun faktiki maya dəyərinin tənzimlənməsi məqsədilə bir material növü

nün dəyərini digərinin üzərinə atmaqla (məsrəf hesablarına silinərkən), 10 saylı hesabın qalığında faktiki məsrəflərin olub-olmadığını müəyyən etməlidir.

Materiallann uçotunun ikinci variantını tətbiq edən müəssisələrdə materialların əldə edilmə və pərakəndə qiymətləri arasındakı fərq 16 saylı hesabda müəyyən edilir və ayın axırında 15 saylı hesaba silinir. Auditor belə müəssisələrdə satılmış məhsulun maya dəyərinə silinməli olan kənarlaşma məbləğinin hesablanmasının düzgünlüyünə diqqət yetirməlidir.

Satılmış məhsulun maya dəyərinə silinməli olan kənarlaşma məbləğini müəyyən edərkən müvafiq hesablama aparılır. Hesablar planının tətbiq olunması haqqında təlimatda nəzərdə tutulmuşdur ki, 16 saylı hesabda toplanmış qiymət fərqi istehsalatda istifadə olunmuş materialların uçot qiymətləri üzrə dəyərinə mütənasib olaraq məsrəf hesablarına silinir. Aparılmış hesablamada nəzərdə tutulmuş kənarlaşmadan artıq məbləğin maya dəyərinə daxil edilməsi aşkar edildiyi hallarda vergidən yayındırılmış gəlir məbləğini müəyyən etmək lazımdır.

Material məsrəflərinin maya dəyərinə aid edilməsinin düzgünlüyünü təhlil edərkən auditor faktiki olaraq sosial-mədəni sfera, yaxud müəssisənin sərəncamında qalan mənfəət hesabına maliyyələşməli olan digər obyektlərində təmir-tikinti işlərinin aparılmasına, sərf olunmuş, yaxud struktur bölmələrinə (sex, sahə, briqada) verilmiş xammal və materialların (o cümlədən ƏDV məbləğinin) maya dəyərinə silinməsi hallarının olub-olmamasına xüsusi diqqət yetirməlidir.

Bununla yanaşı, auditor istehsalatda istifadə olunmayan materiallara aid olmayan məsrəflərin maya dəyərinə, eləcə də 19 "Əldə edilmiş qiymətlilər üzrə əlavə dəyər vergisi" hesabında uçota alınan ƏDV məbləğinin məsrəf hesablarına silinməsi hallarının olub-olmamasını araşdırmalıdır. Belə hallar müəyyən edildikdə isə vergidən yayındırılmış mənfəət məbləğini müəyyən etmək lazımdır.

Yoxlamada nəzərdən keçirdiyimiz yoxlama metodları 12 "Azqiymətli və tezköhnələn əşyalar" hesabında uçota alınan mal-material qiymətlilərinə də şamil edilir. Fərq yalnız ondan ibarətdir ki, bu əşyalar faktiki əldə edilmə qiymətləri üzrə uçota alınır. Auditor bu sahəni yoxlayarkən istehsal məsrəflərinin tərkibində əks olunmuş ATƏ üzrə hesablanmış köhnəlmə məbləğinin düzgünlüyünü təhlil etməlidir. Bu proses aşağıdakı qaydada həyata keçirilir.

Vergi müfəttişi əvvəlcə balansda olan ATƏ tərkibini müəyyən etməlidir. Bunun üçün dövriyyə cədvəlləri və Al'Ə adı, sayı və ümumi dəyəri əks olunmuş digər registrlər nəzərdən keçirilərək tədqiq edilir. Bu cədvəllərin yekun məbləğləri Baş kitabda (dövriyyə balansında) 12 saylı hesabda əks olunmuş məbləğlə eynilik təşkil etməlidir. Kənarlaşma aşkar edildiyi hallarda onun səbəbləri müəyyən edilməli və bu barədə aktda müvafiq qeydlər edilməlidir.

İstismarda olan ATƏ dəyəri köhnəlmə hesablanması yolu ilə ödənilir. Müəssisələr uçot siyasətində əks etdirilməklə köhnəlmə məbləği hesablanmasının aşağıda göstərilən sxemlərindən birini seçə bilərlər:

- ATƏ anbardan istismara verilərkən 50%, yararsız hala düşməsi səbəbindən isti.smardan çıxdıqda isə 50% həcmində köhnəlmə silinməsi;
- əşyalar istismara verilərkən 100% köhnəlmə hesablamaqla;

istehsalat və ya istismara buraxıldıqca xərclərə silmək.

Auditor tətbiq edilən metodların düzgünlüyünü yoxlayır və bu barədə müvafiq qeydlər edir. Qeyd etmək lazımdır ki, köhnəlmə məbləği yalnız istismarda olan əşyalar üzrə hesablanır və həmin məbləğ məsrəf hesablarına silinir. Sosial-mədəni təyinatlı obyektlərə verilmiş əşyalar (xüsusi tapşırıqların yerinə yetirilməsinə görə ayrı-ayrı işçilərə birdəfəlik yardım, fəhlə və qulluqçulara maddi yardım, təqaüdə çıxan işçilərə birdəfəlik müavinət kimi) üzrə köhnəlmə məbləği məsrəf hesablarına deyil, müəssisənin sərəncamında qalan mənfəət hesabına ödənilir.

Məsrəflərin auditi zamanı auditorun diqqət yetirməli məqamlardan biri də amortizasiya ayırmalarıdır. Qeyd etmək lazımdır ki, mövcud qanunvericiliyə uyğun olaraq əsas vəsaitlər və qeyri-maddi aktivlər üzrə Vergi Məcəlləsində nəzərdə tutulmuş normalarına əsasən amortizasiya ayırmalan hesablanır. Əsas vəsaitlər və qeyri-maddi aktivlər üzrə hesablanmış amortizasiya ayırmaları müvafiq olaraq 02 "Əsas vəsaitlərin amortizasiyası (köhnəlməsi)" və 05 "Qeyri-maddi aktivlərin köhnəlməsi" hesabında uçota alınır. Hc.sablanmış amortizasiya ayırmaları 02 və 05 saylı hesablann krediti ilə müxabirləşməklə müvafiq məsrəf hesablama əks olunur.

Yoxlamanın gedişatı zamanı auditor əsas vəsaitlərin qrupları üzrə tətbiq edilmiş amortizasiya nomalarının, onların qiymətləndirilməsi və uçotu qaydasının düzgünlüyünü, amortizasiya olunan əsas vəsaitlər haqqında məlumatların nə dərəcədə etibarlı olmasını, istismara yeni verilmiş və istismardan çıxan əsas vəsaitlər üzrə ilkin amortizasiya məbləğlərinin vaxtında korrektə edilib-edilməməsini, başa çatmış tikinti obyektlərinin balansda uçota alınmasının nə dərəcədə əsaslı olub-olmamasını təhlil etməlidir.

Qeyri-maddi aktivlər əsas vəsaitlər kimi balansda onların əldə edilməsinə çəkilmiş məsrəflər üzrə əks olunur. Onlar öz dəyərlərini faydalı istifadə olunma müddətinə görə müəyyən edilmiş normalara əsasən hesablanan köhnəlmə məbləği vasitəsilə hazır məhsulun üzərinə keçirirlər.

Audit zamanı nəzərdən keçirilən məsələlərdən biri də kənar təşkilatlar tərəfindən göstərilmiş xidmətlərin dəyərinin maya dəyərinə aid edilməsinin düzgünlüyünün yoxlanmasıdır. Nəzərə almaq lazımdır ki, məsrəflərin tərkibi haqqında qaydaya uyğun olaraq istehsal xarakterli həmin işlərin (xidmətlərin) dəyəri istehsal xərclərinə "Material məsrəfləri" maddəsi üzrə daxil edilir. Vergi orqanlannda fərdi sahibkar kimi qeydiyyatdan keçmiş fiziki şəxslərin göstərdikləri xidmətlərin dəyəri həmçinin analoji qaydada əks olunur.

Əgər istehsal xarakterli iş və xidmətləri müəssisənin ştatında olmayan və vergi orqanlarında vergi ödəyicisi kimi qeydiyyatdan keçməmiş şəxs yerinə yetirərsə, onda onun gördüyü işin dəyəri mülki-hüquqi müqavilə üzrə ödənilir və əməyin ödənişi üzrə məsrəflərin tərkibinə daxil edilir.

Hesablaşma hesabı üzrə bank çıxarışları və ona əlavə edilmiş sənədlərini yoxlamaqla xüsusi maliyyə mənbələri (88 saylı hesab) hesabına həyata keçirilməli olan tikinti, elmi-tədqiqat işləri və sosial-mədəni tədbirlər üzrə xərclərin, eləcə də dövriyyə və dövriyyədənkənar aktivlərin əldə edilməsi üçün alınmış bank kreditləri üzrə faizlərin istehsal məsrəflərinə daxil edilməsi faktını müəyyən etmək olar.

Digər müəssisələrin (o cümlədən xarici) nümayəndələrinin rəsmi qəbulu üzrə xidmətlərə görə kənar təşkilatlara hesablaşma hesabından pul vəsaitlərinin köçü

rülməsini yoxlayarkən nəzərə almaq lazımdır ki, nümayəndəlik xərcləri qanunvericiliklə müəyyən edilmiş norma və normativlərə əsasən hesabat ili üçün işlənib hazırlanmış smeta çərçivəsində maya dəyərinə daxil edilir. Həmin xərclər müəyyən edilmiş limitdən artıq olduqda, yaxud smeta olmadığı hallarda bütün xərclər müəssisənin sərəncamında olan mənfəət hesabına həyata keçirilir.

Kadr hazırlığı üzrə məsrəflərin maya dəyərinə daxil edilməsi analoji qaydada həyata keçirilir. Tədris müəssisələri ilə bağlanmış müqavilələrə əsasən kadrların hazırlanması, yenidən hazırlanması və ixtisasının artırılması üzrə göstərilmiş xidmətlərin dəyəri, məhsulun maya dəyərinə qanunvericiliklə müəyyən edilmiş norma və normativlər həddində daxil edilir. İşçilərin tədris müəssisələrində saxlanması və onlara pulsuz xidmət göstərilməsi üzrə xərclər müəssisənin sərəncamında qalan mənfəət hesabına ödənilir.

Mühasibat uçotunda işçilərin iş yerlərinə və geriyə daşınması üzrə xərclərin əks etdirilməsinin düzgünlüyünü yoxlayarkən nəzərə almaq lazımdır ki, ictimai nəqliyyatda, şəhərlərarası elektrik qatarlarında, idarə avtobusları və maşınlarla iş yerlərinə gətirilməsinə görə fəhlə və qulluqçulara güzəştlərin verilməsi üzrə xərclər məhsulun (işlərin, xidmətlərin) maya dəyərinə daxil edilir.

Hesablaşma hesabından ödənilmiş və maya dəyərinə daxil edilmiş məbləğlərin düzgünlüyünün yoxlanması üçün 2K9İİ jurnal-orderdən, bank çıxarışlarından və ödənişlərin həyata keçirilməsini təsdiq edən ilkin sənədlərdən istifadə olunmalıdır. Mövcud normativlərə əsasən məhsulun maya dəyərinə aid edilməli olmayan məbləğlərin məsrəf hesablarına (20, 23, 25, 26, 31, 28) silinməsi aşkar edildiyi hallarda vergi müfəttişi vergidən gizlədilmiş mənfəət məbləğini müəyyən etməlidir.

Əmək haqqının hesablanması üzrə ilkin sənədlərin (tabellərin, hesablaşma-ödəniş cədvəllərinin) düzgünlüyünü yoxlayarkən auditor qeyri-istehsal sferasında (tikinti, səhiyyə, sosial-mədəni xidmət) fəaliyyət göstərən işçilərin əməyinin ödənişi, üzrə xərclərin əsas fəaliyyət üzrə məsrəflərə daxil edilməsi faktlarını aşkara çıxarmalıdır. Bu məqsədlə məsrəf hesabları ilə müxabirləşmədə 70 "Əməyin ödənişi üzrə işçi heyəti ilə hesablaşmalar" hesabının krediti üzrə əks olunmuş məlumatlar əməyin ödənişi üzrə icmal cədvəlin yekun məlumatları ilə tutuşdurulur. Kənarlaşmalar aşkar edildikdə onun səbəbləri araşdırılmalı və bu barədə aktda müvafiq qeydlər edilməlidir.

Mövcud qanunvericiliyə uyğun olaraq mülkiyyət formasından və tabeçiliyindən asılı olmayaraq istənilən təsərrüfat subyekti (sahibkar) öz işçilərinə hesabladığı bütün növdən olan əmək haqqmın(pul və natural formada) ümumi məbləğindən 22% həcmində Sosial Müdafiə Fonduna sığorta ayırmaları etməlidir. Hesablanmış sosial sığorta ayırmalarının məbləği hesablanmış əmək haqqı məbləğlərinin aid edildiyi müvafiq məsrəf hesabları ilə müxabirləşməklə 69 " Sosial sığorta və təminat üzrə hesablaşmalar" hesabının kreditinə əks olunur. Sosial ehtiyaclara ayırmalar eyni adlı müstəqil xərc maddəsi kimi məhsulun maya dəyərinə daxil edilir. Auditor yoxlamanın gedişatı zamanı qeyri-istehsal sferasında çalışan işçilərin əməyinin ödənişi üzrə xərclərin məhsulun maya dəyərinə daxil edilib-edilməməsini müəyyən etməlidir. Nəzərə alınmalıdır ki, bu sferada çalışan işçilərin əmək haqqı xüsusi maliyyələşmə mənbəyi hesabına ödənilir.

Mövcud qanunvericiliyə uyğun olaraq müəssisələr məhsulun maya dəyərinə daxil edilən ayırmalar hesabına gələcək dövrlərin xərcləri (fəhlələrə növbəti məzuniyyət pulunun ödənməsi, çoxillik xidmətə görə illik mükafatların verilməsi və gələcəkdə əsas vəsaitlərin cari təmiri) üçün ehtiyat fondu yaradırlar. Hər hesabat dövründə müvafiq normalar üzrə ehtiyat fonduna edilən ayırmaların məbləği məsrəf hesablarının debeti ilə müxabirləşməklə 89 "Gələcək dövrlərin xərc və ödəmələri" hesabının kreditinə əks olunur. Qüvvədə olan qanunvericiliyə əsasən bu hesabın qalığı ilin sonunda inventarizasiya olunur, bəzi hallarda isə balansdan silinir.

Yoxlaması zamanı bu ehtiyat məbləğlərin yaranmasının düzgünlüyü yoxlanılır və lazım gəldikdə qalıq məbləği korrektə edilir. Yəni artıq hesablanmış ehtiyat məbləği stomo yazılışı metodu ilə 89 saylı hesabın krediti, məsrəf hesablarının isə debeti üzrə əks olunur. Faktiki həyata keçirilmiş xərclərin məbləği qalıq məbləğindən çox olduğu hallarda isə yaranmış fərq əlavə yazılış tərtib etməklə məsrəflərə daxil edilir (Dt 20, 23, 25,26,44 - Kt 89). İllik məzuniyyətlərin və kompensasiyaların hesablanmasının düzgünlüyünü yoxlayarkən "Məzuniyyət haqqında" Qanun və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təsdiq etdiyi illik məzuniyyətlərin ödənişi qaydası rəhbər tutulmalıdır.

Əsas vəsaitlərin təmiri üzrə xərclərin maya dəyərinə daxil edilməsinin düzgünlüyü yoxlanarkən ehtiyat fondunun yaradılması qaydasını əhatə edən məsələlərlə yaxından tanış olmaq lazımdır. Müəssisələr təmir üzrə xərclərin maya dəyərinə bərabər ölçülərlə daxil edilməsi məqsədilə müəssisə tərəfindən onun əsas fondlarının həcmi nəzərə alınmaqla müəyyən edilmiş normativlər üzrə hər ay ayırmalar edir. Normativlərin müəyyən edilməsinin düzgünlüyünü yoxlayarkən nəzərə almaq lazımdır ki, hesablama zamanı yalnız əsas istehsal fondları nəzərə alınır, çünki qeyri-istehsal sferasında olan əsas vəsaitlərin cari təmiri xüsusi maliyyə mənbələri hesabına həyata keçirilir.

Başa çatmış təmir işləri üzrə xərclər 23 "köməkçi istehsalat" hesabının "Əsas vəsaitlərin təmiri" subhesabından 89 saylı hesabın debetinə silinir. Təmirə çəkilən faktiki məsrəflər ehtiyat fondunda olan vəsaitlərdən çox olduqda balansda gələcək dövrlərin xərcləri kimi 31 "Gələcək dövrlərin xərcləri" hesabda əks olunur. Əsas vəsaitlərin cari təmir üzrə xərclərin maliyyələşməsi üçün balansda ehtiyat fondunun vəsaitləri olduğu halda məsrəflərin maya dəyərinə silinməsi aşkar edildikdə, auditor vergidən yayındırılmış mənfəət məbləğini müə>7ən etməlidir

Maya dəyəri səviyyəsinin formalaşmasında dolayı xərclərin (ümumistehsalat xərclərinin) kalkulyasiya obyektləri üzrə bölüşdürülməsi böyük əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, müəssisələr ümumistehsalat xərclərini aşağıda göstərilən istənilən üsuldan birini tətbiq etməklə bölüşdürə bilər:

- S əsas istehsalat fəhlələrinin əmək haqqına və ya buraxılan məhsulun həcminə mütənasib olaraq;
- H smeta və normativ dərəcələrə mütənasib olaraq;
- H birbaşa (müstəqim) xərclərə mütənasib olaraq.

Dolayı xərclərin bölüşdürülməsinin bu və ya digər üsulunun tətbiq edilməsi sənayenin sahəsindən, texnologiya və istehsalın şərtlərindən asılıdır. Bu üsullardan hansının tətbiq edilməsi müəssisə tərəfindən müstəqil müəyyən edilir

Nəzərə almaq lazımdır ki, 46 saylı hesabırt debetinə yalnız maya dəyərinə daxil edilən məsrəflər deyil, həmçinin satışdan olan maliyyə nəticələri müəyyən edilərkən satış pulundan çıxılan və məhsul satışından olan maliyyə nəticələrinə təsir edən xərc və vergilər əks olunur. İlk növbədə onlara dolayı vergilər (ƏDV, aksizlər, gömrük rüsumları) və kommersiya xərcləri daxildir. Malsatanlar (podratçılar) tərəfindən alıcılara (sifarişçilərə) satılmış mallara üzrə hesablanmış ƏDV və aksiz vergisinin məbləği 68 "Büdcə ilə hesablaşmalar", satılmış mallara düşən kommersiya (tədavül) xərcləri isə 43 "Kommersiya xərcləri" (44 "Tədavül xərcləri") hesabının krediti ilə müxabirləşməklə 46 saylı hesabın debetinə əks olunur. Eyni zamanda büdcəyə ödəniləcək bütün vergilərin hesablanmasının və satış pulunun tərkibində uçota alman məsrəflərin əks olunmasının düzgünlüyü də yoxlanmalıdır.

4.10. Maliyyə nəticələrinin auditi

Hal-hazırda müəssisələr (sahibkarlar) hər tərəfdən çoxsaylı vergi və digər məcburi ödəmələrə məruz qalır. Bu dövlətin fıskal siyasəti ilə bağlıdır və iqtisadi böhran, inflyasiya prosesləri və müxtəlif səviyyəli büdcələrdə artım qıtlığı ilə müşahidə olunan bazar iqtisadiyyatına keçid dövründə lazımı tədbirdir. Vergi vo ödəmələrin bir qismi məhsulun maya dəyərinə daxildir ki, bu son nəticədə mənfəətin azalması deməkdir.

Elmi tədqiqatlar göstərir ki, bütün vergi və yığımları mütləq ifadədə əks etdirsək və bu məbləği bütün realizə edilmiş məhsulun dəyərindən çıxsaq, onda bəzi .müəssisələrdə vergilər şəklində bütün əlavə dəyər, həmçinin dövriyyə kapitalının bir hissəsi tutulur və nəticədə vergi ödəyicilərində nəinki geniş, hətta adi təkrar istehsalının aparılması üçün vəsait qalmır. Ona görə təcrübədə təsərrüfat subyektləri "vergilərin optimallaşdırılmasının" qanuni və qeyri-qanuni metodlarından istifadə edirlər.

Belə şəraitdə vergi yoxlaması aparan auditorun əsas vəzifəsi büdcə və büdcədənkənar fondlara ödənilən vergi və digər məcburi ödəmələrin hesablanmasının düzgünlüyünün yoxlanmasıdır. Yoxlamanın gedişatı zamanı vergi məbləğləri və digər məcburi ödəmələrin büdcə ilə (büdcədənkənar fondlarla) hesablaşmalara düzgün aid edilməsi və əsaslı olmasının müəyyən edilməsi olduqca vacibdir.

Vergilərin düzgün hesablanması və ödənilməsində auditorun vergilər üzrə büdcə ilə hesablaşmaların düzgün və vaxtında aparılması, həmçinin artıq ödəmələrə yol verilməməsi və maliyyə sanksiyalarının ödənilməməsi məsələləri üzrə müəssisələrə vaxtlı-vaxtında məsləhətlər verilməsi mühüm rol oynayır.

Maliyyə nəticələrinin audit yoxlanması istehsalla bağlı olmayan xərclərin istehsal məsrəflərinə daxil edilməsi, eləcə də vergitutma obyekti olan mənfəətin, mənfəət vergisi üzrə vergitutma bazasının, çəkilmiş xərclərin, vergi məbləğinin düzgün hesablanmaması faktlarının aşkar edilməsi, cari vergi ödəmələrinin büdcəyə vaxtında ödənilib-ödənilmədiyini, mənfəətin təsisçilər arasında bölüşdürülməsi və xüsusi fondların yaradılmasının düzgünlüyünü yoxlamaq məqsədilə aparılır. Ümumiləşdirici göstərici olan hesabat dövrünün mənfəətinin (zərərinin) yoxlanma

sı məhsul istehsalı ilə bağlı olmayan məsrəflərin istehsal xərclərinə daxil edilməsi, eləcə də vergitutma obyekti olan mənfəətin (vergitutma bazasının) düzgün hesab- lanmaması faktlarının aşkar edilməsi məqsədilə aparılır.

Beləliklə, maliyyə nəticələri auditinin əsas vəzifəsi mənfəət vergisinin vergitutma bazasını formalaşdıran məhsulların satışından, sair aktivlərin satışından və satışdankənar əməliyyatlardan olan maliyyə nəticələrinin hesablanmasının düzgünlüyünün müəyyən edilməsindən, bu sahədə yol verilmiş vergidən yayınma hallarının, eləcə də nöqsan, çatışmamazlıq, qanun pozuntulannın aşkar edilməsi və onların aradan qaldınimasından, vergi qanunvericiliyinin pozulmasına görə maliyyə sanksiyalarının tətbiq edilməsindən ibarətdir.

İstehsal xərclərinin hesablanması və məhsul satışı ilə bağlı olan maliyyə-təsərrüfat fəaliyyəti sferası vergi hüquq pozulmalarının potensial sahəsi kimi vergi orqanlarının diqqətini xüsusilə cəlb edir. Bir çox hallarda mənfəət vergisinin hesablanmasının düzgünlüyünü, tam və vaxtında büdcəyə köçürülməsini yoxlayarkən həm məsrəflərin maya dəyərinə düzgün aid edilməməsi, həm də istehsal xərclərinə aid edilən məsrəf normalarının artırılması ilə əlaqədar kənarlaşma hallarına rast gəlinir. Bu qəbildən olan qanun pozuntularına daha çox əsas vəsaitlərin və digər əmlakın dəyəri və onlar üzrə köhnəlmə məbləği, ezamiyyə xərclərinin məbləği, nümayəndəlik xərcləri və digər analoji xərclər müəyyən edilərkən yol verilir.

Qüvvədə olan normativ sənədlər rəhbər tutmaqla maliyyə nəticələrinin auditi zamanı əsasən aşağıdakı ümumi məsələlər yoxlanılmalıdır:

- özündə müəssisə fəaliyyətinin qısa xarakteristikasını, müəssisənin qeydiyyatdan keçmə, yerli (regional) vergi orqanlarında uçota durma və vergi ödə- yicisinin eyniləşdirmə nömrəsinin alınma tarixini əks etdirən təsis sənədləri; müəssisənin hansı fəaliyyəti növü ilə məşğul olduğu; onun qanunvericiliyə uyğun olub-olmamağı və təsisedici sənədlərlə təsdiqlənməsi;
- müəssisənin bank və digər kredit müəssisələrindəki hesablaşma (valyuta, cari) hesabının vəziyyəti, açılmış hesablann sayı və onların qanuni olub-olmaması;
- müəssisənin xüsusi lisenziya tələb edən və qanunvericiliklə qadağan edilmiş fəaliyyət növü ilə məşğul olub-olmaması;
- yoxlama aktında müəssisə, onun hüquqi ünvanı, struktur bölmə və filiallan haqqında konkret məlumatm olub-olmaması;
- müəssisənin nə vaxtdan sahibkarlıq fəaliyyətinə başlaması, onun nizamnamə kapitalının formalaşması və hansı təsisçilər tərəfipdən təsis edilməsi və s. Daha çox səciyyəvi olan səhvlər, bir çox hallarda isə bilərəkdən vergitutulan

mənfəətin azaldılması məqsədilə edilən hərəkətlər aşağıdakılardır:

- qanunvericilikdə müəyyən edilmiş normalardan artıq məsrəflərin istehsal (tədavül) xərclərinə aid edilməsi;
- məsrəflərin tərkibi haqqında qaydada nəzərdə tutulmamış məsrəflərin istehsal (tədavül) xərclərinə aid edilməsi;
- ayrı-ayrı məsrəflərin istehsal (tədavül) xərclərinin tərkibində uçota alınması;
- əsas vəsaitlərin düzgün olmayaraq az qiymətli və tezköhnələn əşyaların və əksinə ATƏ əsas vəsaitlərin tərkibinə aid edilməsi;
- amortizasiya və köhnəlmə məbləğinin düzgün hesablanmaması;

- malların (məhsulların, işlərin, xidmətləriru) maya dəyərinə daxil edilən material məsrəflərin həcminin əsassız olaraq artırılması (azaldılması), yoxlanılan dövrün sonuna bitməmiş istehsalat qalığının, yüklənmiş malların (yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin), mal-material qiymətliləri çatışmamazlıqlarının və iddialar üzrə debitor borclarının düzgün qiymətləndirilməməsi nəticəsində büdcəyə ödəniləcək vergi məbləğlərinin müəyyən edilməsi üçün vergiyə cəlb olunan mənfəət məbləğinin təhrif olunması;
- qüvvədə olan qanunvericiliyə uyğun olaraq balansın passivində əks olunan xüsusi mənbələr hesabına ödənilməli olan xərclərin istehsal məsrəflərinə daxil edilməsi;
- xalis mənfəət hesabına ödənilməli olan xərclərin istehsal məsrəflərinə daxil edilməsi, həmçinin malların (məhsullann) satışından və digər əməliyyatlardan olan maliyyə nəticələrinin əməliyyat və satışdankənar gəlirlərin tərkibinə daxil edilməsi yolu ilə onlann qeyri-əsassız artırılması ("şişirdilməsi") hesabına büdcəyə ödəniləcək vergi məbləğlərinin müəyyən edilməsi üçün istifadə olunan maliyyə nəticələrinin təhrif edilməsi;
- malların (məhsulların) satışından olan gəlirlərin digər balans hesablarına əks etdirilməsi yolu ilə gəlirin gizlədilməsi;
- xüsusi təyinatlı fondların formalaşması normalarının düzgün tətbiq olunmaması.

Maliyyə nəticələrinin auditində aşağıdakı məsələlər yoxlamaya məruz qalır:

a məhsullann faktiki maya dəyəri haqqında uçot məlumatlarının doğruluğu, onun istehsalı və satışına çəkilən faktiki məsrəflərin uçotda tam və düzgünlüyü, istehsal məsrəfləri uçotunun və hazır məhsulun maya dəyərinin kalkul- yasiya qaydasına riayət olunub-olunmaması;

/ E: satılmış məhsulun istehsalına çəkilən faktiki məsrəflərin hesabatda əks etdirilməsi;

a məhsullann (işlərin, xidmətlərin) satışından olan faktiki satış pulunun (ümumi gəlirin) hesabatda əks etdirilməsi;

B sair satışdan olan mənfəətin hesabatda əks etdirilməsi;

£s satışdankənar gəlirlərin hesabatda əks etdirilməsi;

E3 fövqəladə gəlir və xərclərin mühasibat hesabatında əks etdirilməsinin qanuniliyi və düzgünlüyü;

13 əsas fəaliyyətlə məşğul olan işçi heyətinin əməyinin ödənişinə çəkilən xərclərin onların normalaşdırılmış həcmindən artıq olub-olmaması;

a mənfəət vergisi üzrə aparılmış hesablamaların düzgünlüyü və s..

Tam təsərrüfat (kommersiya) hesabında olmayan, lakin təsərrüfat-kommersiya fəaliyyətini həyata keçirən müəssisələri yoxlayarkən vergi müfəttişi bu əməliyyatların mühasibat uçotunun harada aparıldığını və xüsusi bölməyə ayrılıb-ayrılmadığını, eləcə də onların rəsmiləşdirilməsi üçün nəzərdə tutulmuş ilkin sənədlərin hara verildiyini müəyyənləşdirməlidir. Faktiki daxil olmuş satış pulunun mühasibat uçotu registrlərində 46 hesabın krediti üzrə əks olunmadığı aşkar edildiyi hallarda

(belə əməliyyatlar olduqda) vergitutmadan yayındırılmış (gizlədilmiş) gəlirin məbləğini müəyyən etmək lazımdır.

Məhsul satışından daxil olan faktiki pul vəsaitlərinin (satış pulunun) yoxlanması üçün aşağıdakı informasiya bazasından istifadə olunur:

- ❖ hesabat ili üçün uçot siyasətinin təsdiq edilməsi haqqında müəssisə rəhbərinin əmri;
- ❖ Baş kitab, balans və digər hesabat formaları);
- ❖ 1,2, 10, 10/1, 15 li jumal-orderlor;
- ❖ 16, 16a>Teli cədvəllər;
- ❖ sintetik və analitik uçot məlumatları;
- ❖ ilkin sənədlərin məlumatları.
- ❖ anbardan hazır məhsulların buraxılması haqqında ilkin sənədlər;
- ❖ hesablaşma hesabında pul vəsaitlərinin hərəkəti haqqında bank çıxarışı;
- ❖ yüklənmiş məhsulların ödənişi üçün yazılmış ödəniş tələbnamələri;
- ❖ satılmış mallara görə nağd pul vəsaitlərinin kassaya ödənilməsini təsdiq edən kassa mədaxil orderləri;
- ❖ yüklənmiş məhsulların ödənişinə aid olan digər ödəniş sənədləri, qiymətli kağızlar, məktublar;
- ❖ hazır məhsulun müəssisənin ərazisindən çıxarılması üçün tərtib edilmiş buraxılış vərəqələri və s.

Müəssisənin faktiki mənfəəti yoxlanarkən vergi müfəttişi ilkin sənədlərdən, vergi və mühasibat uçotu registrlərindən, müəssisə tərəfindən mənfəətin alınmasını təsdiq edən digər mühasibat uçotu və hesabatlarından istifadə etməlidir. İlkin sənədlər və mühasibat uçotu registrlərindəki yazılışlar bütünlüklə yoxlanılır.

Seçmə yolu ilə auditin keçirildiyi dövrün hər təqvim ayının ilkin sənədlərinin bir qismi yoxlanılır. Ayrı-ayrı əməliyyatların yoxlanması metodu yoxlamanı aparan müfəttiş tərəfindən müstəqil müəyyən edilir.

Vergi ödəyicisi tərəfindən həyata keçirilən maliyyə-təsərrüfat əməliyyatlarının doğruluğu sənədlərin formal və riyazi yoxlanması, yaxud sənədli nəzarətin digər xüsusi üsullarından istifadə etməklə həyata keçirilir.

Formal yoxlama zamanı sənədlərdəki bütün rekvizitlərin düzgünlüyü, mətn və şifrlərdə razılaşdırılmamış düzəliş, pozuntu və əlavə yazılışlann olub-olmaması, maddi-məsul şəxslərin imzalarının əsl olub-olmaması müəyyənləşdirilir. Riyazi yoxlama üsulu ilə sənədlərdəki hesablamaların düzgünlüyü müəyyən edilir.

İlkin sənədlərdə əks olunmuş təsərrüfat əməliyyatlarının düzgünlüyü lazım gəldikdə yoxlama aparılan müəssisənin təsərrüfat əlaqələrində olduğu müəssisələrdə qarşılıqlı yoxlamaların aparılması yolu ilə müəyyən edilir.

Auditor maliyyə nəticələrinin doğruluğunu yoxlayarkən maliyyə nəticələri haqqında hesabat məlumatlarının Baş kitab, balans, 11, 16 Xeli jumal-orderlərdəki məlumatlara uyğun gəlib-gəlmədiyini müəyyən etməlidir. Maliyyə nəticələrinin auditi prosesini aşağıdakı obyektlərə bölmək olar:

^ hesabat dövrünün mənfəətinin (zərərinin) auditi;

vergitutulan mənfəətin auditi;

> xalis mənfəətin auditi.

Auditi prosesində maliyyə nəticələrinin əsas tərkib hissələrinə - məhsulların satışından olan maliyyə nəticələrinə, əsas vəsaitlər və digər aktivlərin satışından olan maliyyə nəticələrinə və satışdankənar fəaliyyətdən olan nəticələrə nəzarət olunur.

Mənfəətin auditi metodikasının modeli 34 saylı cədvəldə verilmişdir.

Cədvəl 34

Mənfəətin auditi metodikası

Audit yoxlaması metodikasının tərkib hissələri	Auditin nəzarət prcdmeti				
	Satışın maya dəyəri	Kommersiya xərcləri	Buraxılmış məhsulun həcmi	Satılmış məhsulların həcmi	Məhsulların satışından olan gəlirlər
Auditin məqsədi	Çəkilmiş xərclərin real və etibarlılığının, onlann istehsal məsrəflərinin uçotu metoduna müvafiq silinməsinin məqsədəuyğun	Çəkilmiş xərclərin real və etibarlılığı - nın	Buraxılmış məhsulların həc-minin doğruluğu-nun və faktiki ehtiyatların qiymətləndirilmə si üçün onların anbara mədaxil edilməsinin tam-lığının, eləcə də maliyyə nəti-	Mühasibat uçotu hesablarında əks etdirilmə.si metodikasına müvafiq olaraq maliyyə nəticələrinin formalaşması üçün məlumatlann məhsul satışı həcminə tam daxil edilməsinin	Müəyyən dövr ərzində məhsul satışından daxil olan vəsaitlərin mühasibat uçotu hesablarında əks etdirilməsinin tam və doğruluğunun
İnformasiya bazası	20,23,25,26, 28, 29,31,89 saylı hesablar üzrə təsərrüfat əməliyyatlan, qruplaşdırma cədvəlləri, partiya pasportlannın məlumatları, xammalın tədarük aktlan, məhsul növləri üzrə plan kalkulyasiyalan, istehsalatın analitik uçot kartoçkalan, I, 6,8,9, 13,14 saylı		Xammalın qəbulu aktları, partiya pasportları, hazır məhsulun istehsalatdan anbara təhvil aktları, hazır məhsul qalığının inventarizasiya aktı, material hesabatları, 20, 40 saylı	20,40,45,46, 62, 72 saylı hesablar üzrə təsərrüfat əməliyyatlan, 5, 11, 15,16Jf9İi yığma cədvəlləri, hazır məhsul anbarının və marketinq şöbəsinin məxaric orderləri, əmtəə-nəqliyyat qaimələri, materiallann çıxarılması haqqında buraxılış, çeşidlər üzrə məhsullann hərəkəti haqqında material hesabatlan, anbar uçot kartoçkalan - M-	50,51,57, 62 saylı hesablar üzrə təsərrüfat əməliyyatlan, kassa mədaxil orderləri, ödəniş tələbnamə-tapşınqlan, veksellər, 1,2 X® I i jurnal-

Auditin istiqaməti	Vergi	Vergi	Vergi	Vergi	Vergi
Üsul və prosedurları	Sənədli araşdırma, normativ-hüquqi tənzimləmə, hesablama, müqayisə, üzləşdirmə, nəzarət ölçməsi,	Sənədli araşdınna, analitik, hesablama, avtomatlaş	**Sənədli** araşdırma, hesablama, analitik, avtomatlaşdırm	Sənədli araşdırma, hesablama, analitik,	Sənədli araşdırma, hesablama, analitik, avtomatlaşdır ma
Mömkün olan qanun pozuntuları	Artiq məxaricə silinmə, xərclərin mühasibat uçotu hesablarına aid edilməsi sahəsində normativ-hüquqi aktların pozulması, əsassız xərc	Artiq məxaricə silinmə, xərclərin mühasibat uçotu hesablarına aid edilməsi sahəsində normativ-hüquqi aktların pozulması, əsassız xərc normaların	Hazır məhsulun vaxtında mədaxil	Satılmış məhsulun bir hissəsinin gizlədilməsi, maldəyişmə (barter) əməliyyatlarının hesablarda	Satış pulunun bir hissəsinin gizlədilməsi
Auditorun qərar qəbul etməsi	Auditor rəyində əks olunur, hesablamalar işçi sənədlərinə əlavə olunur				

Cədvəl 35

Vergiyə cəlb edilən mənfəətin auditi metodikası

Audit yoxlaması metodikasının tərkibi	Auditin nəzarət predmeti					
	Hesabat dövrflnün mənfəəti	Vergi-tutma məqsədləri QçQn korrektə olunmuş hesabat dövrünün mənfəəti	Hesabat dövrünün mənfəətindən fərqli qaydada vergiyə cəlb olunan gəlirlər (mənfəət)	Ehtiyat və digər fondlara ayırmalar	Mənfəət vergisi üzrə güzəştlər	Vergiyə cəlb olunan mənfəət
A	1	2	3	4	5	6
Auditin məqsədi	Maliyyə nəticələrinin müəyyən edilməsi üzrə tərtib edilmiş hesablamaların doğruluğunun yoxlanması	Vergitutma bazasına daxil edilən göstəricilərin tam və doğruluğun yoxlanması	Digər fəaliyyət növləri üzrə hesablanmış vergilərin doğruluğun və onların köçürülməsinin yoxlanması	Fondlara hesablanmış ayırmaların doğruluğunun və müvafiq mühasibat uçotu hesablarına əks olunmasının yoxlanması	Hesablanmış vergi güzəştlərinin doğruluğun yoxlanması	Vergiyə cəlb olunan mənfəət məbləğinin düzgün və doğru olmasının, mənfəət vergisi bəyannaməsinin reallığının və onun büdcəyə
İnformasiya bazası	Maliyyə nəticələri haqqında 2 Xsli hesabat forması	Maliyyə nəticələri haqqında 2 X9İİ hesabat forması, 46,47, 48, 80 və digər hesablar üzrə təsərrüfat əməliyyatları	Müəssisənin təsis sənədləri və nizamnamə s i, fəaliyyət növləri üzrə məsrəflərin uçot jurnalı	Müəssisənin təsis sənədləri və nizamnaməsi, məqsədli fondlardan istifadənin formalaşma smetası, 86 saylı hesab üzrə əməliyyatlar	Güzəştlərin təqdim olunmasına dair vergi qanunvericiliyi (Vergi Mxəlləsi), Mənfəət vergisi üzrə bəyannamə	Mənfəət vergisi üzrə bəyannaməyə əsasən müxtəlif yollarla müəyyən edilir, avans ödənişləri üzrə ödəniş sənədləri, 81,51, 68 saylı hesablar üzrə əməliyyatlar,
Auditin istiqaməti	Təşkilati-hüquqi, maliyyə-analitik, təsdiqedici,	Təsdiqedici, vergi	Vergi	Vergi	Vergi	Vergi
Üsöl və prosedurları	Müqayisə, Üzləşdirmə	Sənədli araşdırma, normativ-hüquqi tənzimləmə, hesablama, müqayisə,	Sənədli araşdırma, normativ-hüquqi tənzimləmə, hesablama, müqayisə,	Sənədli araşdırma, normativ-hüquqi tənzimləmə, hesablama, müqayisə, üzləşdirmə	Normativ-hüquqi tənzimləmə, hesablama, müqayisə, üzləşdirmə	Normativ-hüquqi tənzimləmə, hesablama, müqayisə, üzləşdirmə

A	1	2	3	4	5	6
Mümkün ola biləcək qanun pozuntuları	Mənfəətin bir hissəsinin gizlədilməsi	Mənfəətin azaldılması, bəzi gəlir növlərinin gizlədilməsi, xərclərin əsassız olaraq istehsal məsrəflərinə daxil	Digər fəaliyyət növlərindən alınmış mənfəətin gizlədilməsi	Bu fondların formalaşması haqqında məlumatların mühasibat uçotu registrlə-rində əks olunmaması və ya digər hesablara əks olunması	Vergi güzəştləri üzrə müvafiq təsdiqedici sənədlərin olmaması	Vergiyə cəlb olunan mənfəətin bir hissəsinin gizlədilməsi
Maddi vəziyyətin qiymətləndirilməsi	Əhəmiyyət **inik**	Əhəmiyyətilik				
Auditor qərarının qəbul edilməsi	Auditor rəyində əks olunacaq	Auditor rəyində əks olunacaq				

Maliyyə nəticələrinin audit yoxlanması hesabat ili üçün müəssisənin uçot siyasəti haqqında sənədlərin təhlilindən başlanır.

Mənfəət vergisinin audit yoxlaması zamanı ilk növbədə vergitutma obyektinin, yəni təsərrüfat subyektinin balans mənfəətinin düzgün müəyyən edilib-edilmədiyini təhlil etmək lazımdır. Bu məqsədlə vergi müfəttişi müəssisənin (sahibkarın) əldə etdiyi gəlirləri və gəlirdən çıxılan xərclərinin hesablanması və uçota alınmasının düzgünlüyü yoxlayır.

Bunun üçün ilk növbədə auditor təsərrüfat subyekti tərəfindən gəlir və xərclərin uçotunun hansı metodla (kassa və ya hesablama) apardığını dəqiqləşdirməlidir. Nəzərə almaq lazımdır ki, vergi ödəyicisi təqvim ili ərzində gəlir və xərclərinin uçotunu ya kassa, ya da hesablama metodu ilə apara bilər və təqvim (vergi) ili ərzində dəyişdirilə bilməz. Gəlir və xərclərin hansı metodla aparıldığını müəyyən etmək üçün vergi müfəttişi müəssi.sənin uçot siyasəti ilə tanış olur.

Yoxlamanın gedişatı zamanı auditor gəlir və xərclərin uçota alınması üçün hansı metoddan i.stifadə etməsindən asılı olaraq, yoxlama aparılan müəssisədə gəlirlərin əldə edilməsi və xərclərin çəkilməsi vaxtının dü^.gün müəyyən edilib-edilməməsinə xüsusi diqqət yetirməlidir.

Sonrakı mərhələdə yoxlamanın gedişatı zamanı auditor tərəfindən təsərrüfat subyektinin vergi qanunvericiliyinə əsasən mənfəət vergisindən azad olunan gəlirləri və bu vergi növü üzrə güzəşt hüququnun olub-olmaması araşdırılmalıdır. Bu zaman nəzərə almaq lazımdır ki, vergi qanunvericiliyinə uyğun olaraq güzəşt hüququ olan təsərrüfat subyektləri güzəşt şamil edilən və edilməyən gəlirlərinin uçotunu ayrıca aparmalıdır. Əks halda həmin təsərrüfat subyekti güzəşt tətbiq etmək hüququnu itirir.

Auditin növbəti mərhələsi satılmış məhsulların maya dəyəri göstəricilərinin yoxlanmasıdır (forma Jfe2). Bunun üçün məhsul istehsalı və satışı üzrə məsrəflərin

tərkibi və maliyyə nəticələrinin formalaşması haqqında qaydaların tələblərinə riayət olunması tam qaydada yoxlanmalı, maya dəyərinə daxil edilmiş, eləcə də balans mənfəəti və ya müəssisənin sərəncamında qalan mənfəət hesabına silinmiş xərclərin əsaslı olması müəyyənləşdirilməlidir.

Xərclərin tərkibi yoxlanarkən auditor həmin xərclərin tərkibində gəlirdən çıxılmayan xərclərin olmadığına əmin olmalıdır. Vergi qanunvericiliyi vergitutma məqsədləri üçün nəzərə alınmayan xərclərin siyahısını müəyyən etmişdir. Başqa sözlə, bu xərclər məhsulun maya dəyərinə daxil edilmir, vergitutulan mənfəət hesablanarkən müəssisənin əldə etdiyi gəliri, vergi bazasını və mənfəət vergisi məbləğini azaltmır. Həmin xərclər mənfəət vergisi ödənildikdən sonra müəssisənin sərəncamında qalan xalis mənfəət hesabına maliyyələşir.

Vergitutma bazası hesablanarkən nəzərə alınmayan xərclər aşağıdakılardır:

- ❖ əsas vəsaitlərin alınması və quraşdırılmasma çəkilən xərclər;
- ❖ qeyri-kommersiya fəaliyyəti ilə bağlı olan xərclər;
- ❖ əyləncə və yemək, həmçinin işçilərin mənzil və digər sosial xarakterli xərcləri;
- ❖ faktiki ezamiyyə xərclərinin normadan artıq olan hissəsi;
- ❖ vergilərin vaxtında ödənilməməsinə görə hesablanmış peniya, cərimə, faiz və maliyyə sanksiyaları;
- ❖ ölkə və onun hüdudlarından kənarda ödənilmiş mənfəət vergisi və gəlirdən hesablanmış digər verginin;
- ❖ hesablanmış dividentlərin məbləği;
- ❖ nizamnamə kapitalına qoyuluşlar və s.

Qeyd etmək lazımd.ır ki, müəssisə gəlirlərindən çıxılmalı olan xərclərin gəlirlərdən artıq olan hissəsi beş ilədək davam edən sonrakı hesabat dövrlərinə keçirilir və gələcək dövrlərin mənfəəti hesabına kompensasiya edilir.

Eyni zamanda auditor vergitutulan mənfəətdən çıxılan xərclərin tərkibini təhlil edərkən aşağıdakılara xüsusi diqqət yetirməlidir:

- ❖ gəlirdən faizlər üzrə çıxılan xərclərin məhdudlaşdırılan norma çərçivəsində olmasına;
- ❖ ehtiyat sığorta fondlarına ayırmaların müəyyən edilmiş normalara uyğunluğuna;
- ❖ elmi-tədqiqat, layihə-axtarış və təcrübə-konstruktor işlərinə çəkilən xərclərin (əsas vəsaitlərin alınması və quraşdırılması ilə bağlı xərclər, həmçinin kapital qoyuluşu xarakterli digər xərclər istisna olmaqla) gəlirdən güzgün çıxılmasma.

Yoxlama zamanı *ümidsiz borcların gəlirdən çıxılması* hallarının mövcudluğu araşdırılmalıdır. Əgər belə hallar aşkar edilərsə, onda auditor həmin debitor borcunun əvvəllər sahibkarlıq fəaliyyətindən əldə edilən ümumi gəlirə daxil edilməsinə və bu borcun ümidsizliyinin sənədlərlə təsdiq edilməsinə əmin olmalıdır. Əks halda həmin məbləğlər gəlirdən çıxıla bilməz. Nəzərə almaq lazımdır ki, ümidsiz debitor borcları müəssisələrdə bu məqsədlər üçün yaradılmış ehtiyat fondunun vəsaitləri hesabına silinir. Bu məqsədlər üçün ehtiyat fondunun yaradılmasına isə yalnız gəlir və xərclərin uçotunu hesablama ("yükləmə üzrə") metodu ilə aparan müəssisələrdə icazə verilir.

Auditor gəlirdən çıxılan xərclərin tərkibinə aid edilən *amortizasiya ayırmalarının* düzgünlüyünü yoxlayarkən bu hesablamaların Vergi Məcəlləsinin 114-cü maddəsinə uyğunluğunu təhlil etməlidir! Bunun üçün vergi^müfəttişi yoxlamanın gedişatı zamanı aşağıdakılara diqqət yetirməlidir;

- amortizasiya olunmayan aktivlərə ayırmaların hesablanmasına;
- əsas vəsaitlərin kateqoriyalara aid edilməsinin düzgünlüyünə;
- əsas vəsaitlərin kateqoriyalar üzrə müəyyən edilmiş amortizasiya normaları üzrə hesablanmış amortizasiya ayırmalarının düzgünlüyünə;
- kateqoriyalar üzrə əsas vəsaitlərə müəyyən edilmiş normadan aşağı amortizasiya hesablanıb-hesablanmadığına;

Gəlirdən çıxılan xərclərin tərkibində *təmir xərclərinin* mövcudluğu yoxlanarkən nəzərə alınmalıdır ki, vergi qanunvericiliyinə əsasən təmirlə bağlı xərclərin gəlirdən çıxılması məhdudlaşdırılır. Bu səbəbdən yoxlama zamanı auditor gəlirdən çıxılan təmir xərclərinin məhdudlaşdınlan məbləğdən artıq, eləcə də əvvəlki illərdə hər hansı kateqoriyaya aid olan əsas vəsaitlər üzrə hesabat ili üçün müəyyən edilmiş həddən aşağı məbləğdə təmir xərclərinin olub-olmamasını araşdırmalıdır. Əgər gəlirdən çıxılan təmirlə bağlı xərclərin faktiki məbləği vergi qanunvericiliyində nəzərdə tutulmuş normadan artıq olması faktı aşkar edilərsə, onda həmin fərq müvafiq hesabat dövrünün vergitutma bazasına daxil edilərək vergidən yayındırılmış gəlir məbləği müəyyən edilir. Əksinə, hesabat ili üçün müəyyən edilmiş həddən aşağı məbləğdə təmir xərclərinin silinməsi faktı aşkar edildikdə isə yaranmış fərq cari hesabat ilində təmir xərclərinin gəlirdən çıxılan məbləğinə əlavə edilir. Nəzərə almaq lazımdır ki, amortizasiya olunmayan (köhnəlmə hesablanmayan) əsas vəsaitlərin təmirinə çəkilmiş xərclər gəlirdən çıxılmır və həmin obyektlərin balans dəyərinə əlavə edilir.

Gəlirdən çıxılan xərclərin tərkibi yoxlanarkən nəzərə almaq lazımdır ki, ölkə ərazisində və onun hüdudlarından kənarda ödənilmiş mənfəət vergisi və gəlirdən hesablanan hər hansı digər vergilərin, maliyyə sanksiyaları və vergilərin vaxtında ödənilməmiş faizlərin gəlirdən çıxılmasına yol verilmir. Mövcud qanunvericiliyə uyğun olaraq ölkənin hüdudlanndan kənarda rezident vergi ödəyicisinin ölkə ərazisində əldə etdiyi faktiki mənfəətə görə dövlət büdcəsinə ödəməli olduğu mənfəət vergisi, onun xarici ölkələrdə ödədiyi mənfəət vergisinin məbləği qədər azaldılır. Maliyyə sanksiyaları və vergilərin vaxtında ödənilməmiş faizlərinə gəldikdə isə onlar müəssisənin (sahibkarın) sərəncamında qalan mənfəət hesabına ödənilir.

Auditor yoxlamanın gedişatı zamanı təsərrüfat subyektinin gəlirdən çıxılma- sına yol verilən xərclərinin gəlirdən artıq olması faktlarına diqqət yetirməlidir. Nəzərə almaq lazımdır ki, əgər müəssisənin gəlirdən çıxılmalı olan xərcləri onun hesabat ilində əldə etdiyi gəlirlərindən çox olarsa, yəni vergi ödəyicisi hesabat ilini zərərlə başa vurarsa, onda həmin zərər məbləği vergi qanunvericiliyində müəyyən edilmiş müddət ərzində bərabər hissələrlə cari və növbəti hesabat illərinin mənfəəti hesabına kompensasiya edilir.

Auditor yoxlama aparılan müəssisə tərəfindən qeyri-rezident hüquqi şəxsə ödənilən gəlirlərdən (dividentlər, faizlər, riskin sığortası müqaviləsi üzrə sığorta ödəmələri, icarə haqqı, royalti) verginin tutulmasının düzgünlüyünü araşdırmalıdır.

Nəzərə almaq lazımdır ki, qeyri-rezident hüquqi şəxsin daimi nümayəndəliklə bağlı olmayan gəlirlərindən ödəmə mənbəyində xərclər çıxılmadan vergi tutulur.

Auditor tərəfindən xarici firma və müəssisələr yoxlandıqda isə nəzərə almaq lazımdır ki, həmin daimi nümayəndəliklərin əldə etdikləri gəlirlərindən mənfəət vergisindən əlavə onların sərəncamında qalan xalis mənfəətindən ana müəssisələrinə köçürdükləri (verdikləri) hər hansı məbləğdən **10** faiz dərəcəsi ilə vergi tutulur.

Mənfəət vergisinin düzgün hesablanması həmçinin malların (məhsulların, işlərin, xidmətlərin) satışından olan pul vəsaitlərinin mühasibat uçotu hesablarında düzgün əks etdirilməsindən bilavasitə asılıdır. Ona görə **68** saylı hesabın krediti üzrə dövriyyənin düzgünlüyünü vergiyə cəlb edilən satış pulunun yoxlanmasından başlamaq lazımdır.

Məhsulların (iş və xidmətlərin) satışından əldə edilmiş gəlirin formalaşmasının düzgünlüyünü yoxlamaq üçün ilk növbədə müəssisənin uçot siyasətində satış pulunun müəyyən edilməsinin hansı metodunun ("ödəmə üzrə" və ya "yükləmə üzrə".) seçildiyini, onun tətbiq olunduğu müddəti, əvvəllər başqa metodun tətbiq olunub-olunmamasını və olunubsa hansı səbəbdən dəyişdirildiyini müəyyən etmək lazımdır.

Qeyd etmək lazımdır ki, satış pulu müəyyən edilməsinin "ödəmə üzrə" (kassa) metodunun tətbiqi zamanı, məhsulların (işlərin, xidmətlərin) dəyəri alıcılar (sifarişçilər) tərəfindən müəssisənin bankdakı hesablaşma, valyuta və digər hesabına daxil olduğu və ya müəssisənin kassasına nağd ödənildiyi andan satılmış hesab olunur. Satış pulunun "yükləmə üzrə" (hesablama metodu) metodu ilə müəyyən edildiyi zaman məhsullar yükləndiyi və onlara görə tərtib olunmuş hesablaşma sənədlərinin alıcılara təqdim edildiyi andan satılmış hesab olunur (onlann dəyərinin alıcılar tərəfindən ödənilib-ödənilməməsindən asılı olmayaraq).

Məhsulların (işlərin, xidmətlərin) satışından əldə edilmiş pul vəsaitlərinin düzgünlüyünü yoxlamaq üçün vergi müfəttişi aşağıdakı ilkin sənədləri, uçot re- gistrləri və hesabatlardan istifadə etməlidir:

hesabat dövrü üçün müəssisənin uçot siyasəti haqqında əmri;

alıcı və sifarişçilərlə bağlanmış təsərrüfat müqavilələri;

2 >f**2** li "Maliyyə nəticələri və onlardan istifadə haqqında" hesabat;

Baş kitab və dövriyyə cədvəlləri;

1,2, 11 və **1** İs Jfs li jurnal-orderlər (uçotun jumal-ordcr forması zamanı);

hesablar üzrə memorial-orderlər (mühasibat uçotunun memorial-order forması zamanı);

hesablaşma hesabında pul vəsaitlərinin hərəkəti üzrə bank çıxanşlan; nağd pulların hərəkəti barədə kassa kitabı;

hazır məhsulun anbardan buraxılışına görə tərtib edilmiş ilkin sənədlər (mə- xarie qaimələri, əmtəə-nəqliyyat qaimələri);

yüklənmiş məhsullara görə alıcılar tərəfindən kassaya ödənilmiş nağd pul vəsaitlərinin kassaya ödənilməsi barədə kassa mədaxil orderləri (kassa kitabı);

yüklənmiş məhsullann ödənişi üçün tərtib edilmiş tədiyyə tələbnamə tapşınqlan;

müəssisənin ərazisindən hazır məhsullann buraxılışı üçün tərtib edilmiş buraxılış vərəqələri;

- zəmanət məktubları, qiymətin razılaşma protokolları;

■ satılmış hazır məhsulların kalkulyasiyası və s.

Alıcılara satılmış və malsatanlardan alınmış mallar üçün tərtib edilmiş ilkin mühasibat sənədlərində vergi ödəyicisini'n eyniləşdirmə nömrəsinin (VÖEN) göstərilməsinə xüsusi fikir vermək lazımdır.

Hesabatlarda məhsul satışı üzrə əks olunmuş göstəricilərin düzgünlüyünü yoxlamaq üçün əvvəlcə müəssisənin hesabat ili üçün təsdiq edilmiş uçot siyasətində əks olunmuş satışın qiymətləndirmə metodu ilə tanış olunmalı, yoxlanılan dövr ərzində onun dəyişməzliyinə diqqət yetirilməlidir. Auditor sözügedən nəzarət obyektinin yoxlaması prosesində məhsul satışından olan gəlirlərin və mənfəətin müəyyən edilməsinin seçilmiş variantının düzgünlüyünü təhlil etməlidir.

Yoxlama zamanı məhsulların satışı üzrə müqavilələrin olub-olmamasını və onların tərtib olunmasını, hesabat ili ərzində 46,47, 48 saylı hesablar üzrə satış pulunun müəyyən edilməsi və uçotu variantının seçilmiş variantına riayət olunmasını, 45, 46, 47, 48 və 62 saylı hesablar üzə sintetik və analitik hesabların aparılmasını müəyyən etmək və onlann düzgünlüyünü yoxlamaq lazımdır.

Daxili auditin güclü və zəif tərəflərini testləşdirmə tərtib etmək və aparmaq yolu ilə müəyyənləşdirmək olar. Daxili nəzarətin qiymətləndirilməsində məqsəd auditor yoxlamasının yekun proqramının işlənib hazırlanmasıdır. Yuxanda göstərilən bütün mühasibat registrləri bir-biri ilə əlaqədar olduğu üçün onlarda aşağıdakı məqamları yoxlamaq lazımdır:

> yüklənmiş məhsulların maya dəyərinin və onlann satışından olan gəlirlərin tam və vaxtında əks olunması;

> real məhsulun maya dəyərinin silinməsinin düzgünlüyü;

^ kommersiya xərclərinin əsaslı olması və düzgünlüyü;

> silinmiş ticarət əlavələrinin düzgünlüyü;

^ məhsulların (işlərin, xidmətlərin) satışından olan maliyyə nəticələrinin dü^nlüyü.

Auditor məhsulların satışı üzrə analitik uçot göstəricilərinin sintetik uçot göstəricilərinə uyğunluğunu müəyyən etməlidir. Bunun üçün məhsul satışı üzrə müxtəlif registrlərdəki yazılışları üzləşdirmək yolu ilə bu əməliyyatlar üzra əks olunmuş məbləğlərin dəqiqliyi və hesablann müxabirləşməsinin düzgünlüyü yoxlanmalıdır. Məsələn, baş kitabın məlumatları **1**IJV**2** li jurnal orderin, lUf® li jurnal orderin yekun məlumatları isə 16, 17 Jfo li cədvəllərin analoji göstəricilərinə uyğun gəlməlidir.

Auditor hesabat göstəricilərini uçot registrlərinin göstəriciləri ilə üzləşdirdikdən sonra məhsullann yüklənməsi və satışının sənədli yoxlanmasını həyata keçirməlidir. Məhsulların yüklənməsini rəsmiləşdirən ilkin sənədlər aşağıdakılardır:

- hazır məhsul anbarının məxaric orderləri;
- əmtəə-nəqliyyat qaimələri - məhsullar avtonəqliyyat vasitələri ilə daşınarkən;
- nəqliyyat qəbzləri - məhsullar digər nəqliyyat vasitələri ilə daşınarkən;
- etibarnamə;
- məhsullann müəssisə ərazisindən çıxarılması üçün buraxılışlar - müəssisələrdə buraxılış rejimi olduqda.

Auditor yuxarıda göstərilən sənədləri yoxlayarkən müvafiq yükləmə sənədlərinin tərtib edilmə tarixlərini müvafiq uçot registrində yükləmə üzrə əməliyyatla-

nn oks olunduğu və bank çıxarışları üzrə yüklənmiş məhsullann dəyərinin ödənilmə tarixlərini tutuşdurmalıdır. Kənarlaşmalar aşkar edildiyi hallarda uçot və hesabat göstəricilərində düzəlişlər edilməsi barədə mühasibatlıq işçilərinə göstərişlər verilməlidir.

Məhsullann (işlərin, xidmətlərin) satışı üzrə əməliyyatları uçota almaq üçün 16a, 16 (yükləmə) JVe li cədvəllər və **11** X**2**İ jurnal-order nəzərdə tutulmuşdur. 16 a JVe li cədvəl satış pulunun "ödəmə üzrə" metodu ilə müəyyən edildiyi zaman tərtib olunur və yüklənmiş məhsullara görə tərtib edilmiş hesablaşma sənədlərinin yığılması və qruplaşdınıması üçün nəzərdə tutulmuşdur. Sonradan hər bir sənəd üzrə onun ödəniş məbləği qeyd olunur. Cədvəl məhsul və sair aktivlərin satışı üzrə ayrıca aparılır.

16 "yükləmə" cədvəl məhsul satışından əldə edilən pul vəsaitinin yükləmə üzrə metodu ilə müəyyən edildiyi zaman aparılır. Bu cədvəldə alıcılarla (62) hesablaşmaların və məhsul satışının (46) uçotu birləşdirilmişdir.

11 li jurnal-orderdə müxabirləşən hesablarla 40, 41, 43, 45 və 62 saylı hesabların kreditləri üzrə aylıq yekunlar əks olunur. Eyni zamanda bu jurnalda məhsullann yüklənməsi, buraxılışı və satışı üzrə 16 a və 16 "yükləmə" cədvəllərin- dəki məlumatlar ümumiləşdirilir.

Satış pulunun formalaşdırılmasınm düzgünlüyünə 11 K**2** H jurnal orderdə aparılmış aşağıdakı yazılışlara əsasən nəzarət edilir:

Dt 62 "Alıcılar və sifarişçilərlə hesablaşmalar";

Kt 46 "Məhsulların satışı" ("yükləmə üzrə" metodu zamanı);

və yaxud:

Dt 50 "Kassa", 51 "Hesablaşma hesabı", 52 "Valyuta hesabı";

Kt 46 "Məhsulların satışı" ("kassa üzrə" metodu zamanı).

Vergi müfəttişi yuxarıda göstərilən ilkin uçot və hesabat sənədlərinə əsasən məhsulların satışından əldə edilmiş gəlirlərin düzgünlüyünü aşağıdakı qaydada yoxlamalıdır.

1.2 JNoli "Maliyyə nəticələri və onlardan istifadə olunması haqqında" hesabat formasında məhsulların satışından olan ümumi gəlir maddəsindəki göstəricisi (hesabatın birinci bölməsi, kod sətri 010), Baş kitabın (dövriyyə balansının) 46 saylı hesabın kredit göstəricisi ilə tutuşdurulur. Bu zaman kənarlaşmanın məbləği aksiz- lər və əlavə dəyər vergisinin (dolayı vergilərin) ümumi məbləğinə bərabər olmalıdır. Baş kitabda 46 saylı hesabın krediti üzrə əks olunmuş məbləğin 2 Jfe li hesabat formasının müvafiq sətrində göstərilən satış pulu (ümumi gəlir) məbləğinə (ƏDV və aksizlər nəzərə alınmadan) uyğun gəlmədiyi hallarda, yoxlayıcı bu uyğunsuzlu- ğun səbəblərini müəyyən etməli və bu barədə aktda müvafiq qeyd etməlidir.

2. Baş kitab üzrə məlumatlar 11 Xeli jurnal-order və ya 46 X**2**İ hesabın krediti üzj-ə hazır məhsul satışının məbləğini əks etdirən uçot registrlərindəki məlumatlar tutuşdurulur. Hesabat məlumatlarını uçot registrlərindəki məlumatlarla tutuşdurul- duqdan sonra auditor hazır məhsulun yüklənməsi və ödənişi üzrə əməliyyatların rəsmiləşdirilməsinin düzgünlüyünün yoxlanmasına başlayır. Bu zaman aşağıdakı ilkin sənədlər nəzərdən keçirilməlidir: hazır məhsul anbarmın məxaric qaimələri, yükün daşınması barədə əmtəə-nəqliyyat qaimələri, vəkalətnamələr və s.

Yoxlama apararkən nəzərə almaq lazımdır ki, hazır məhsulların daşınmasına (işlərin görülməslinə, xidmətlərin göstərilməsinə) görə tərtib edilmiş müqavilələr təsdiq edilmiş uçot siyasətinə uyğun gəlməlidir. Hazır məhsulun göndərilməsi ilə əlaqədar həyata keçirilən təsərrüfat əməliyyatlarının qeydiyyata alınmasının qanuniliyi və düzgünlüyü yoxlanmalıdır. Bunun üçün aşağıdakı ilkin sənədlərə baxılmalıdır: hazır məhsul anbarının məxaric qaimələri, əmtəə-nəqliy>'at qaimələri, nəqliyyat qaimələri, vəkalətnamələr.

Məhsul satışının audit yoxlamasının gedişatı zamanı yük qaimələri üzrə göstəricilərin hazır məhsulların buraxılışına görə tərtib edilmiş buraxılış vərəqələrinin analoji göstəricilərinə uyğunluğuna xüsusi diqqət yetirilməlidir. Belə ki, belə yoxlamalar zamanı buraxılış vərəqələrində məhsulların həcmi yükləmə qaimələrində və ödəniş sənədlərində göstərildiyindən az göstərilməsi halları aşkar edilir. Bu zaman mühasibat uçotunda yüklənmiş məhsulları müşahidə edən sənədlərdə (qaimə- lərdə) göstərilən məbləğ əks olunur və qəfləti yoxlamalar zamanı anbarda artıq gəlmə müəyyən edilir. Əksinə, buraxılış vərəqələrində məhsullann həcmi yükləmə qaimələrində və ödəniş sənədlərində göstərildiyindən çox göstərildiyi hallarda isə qəfləti yoxlamalar zamanı anbarda məhsul çatışmamazlığı aşkar edilir. Bəzən bu çatışmamazlıqları aşkar etmək -mümkün olmur. Bu isə müəssisənin ərazisindən uçota alınmamış məhsul çıxarıldığını, yəni oğurluq edildiyini göstərir. Bu nəticəyə yalnız yükləmə sənədləri və buraxılış vərəqələrindəki kənarlaşmaların səbəblərini müfəssəl surətdə araşdırdıqdan sonra gəlmək olar. Belə qanun pozuntulan aşkar edildikdə auditor müvafiq vəzifəli şəxslərdən izahat tələb etməli, uçot və hesabatlarda məhsul satışı və maliyyə göstəricilərində müvafiq dəyişikliklər edilməsini təklif etməlidir. Auditor tərkibinə komplektləşdirici məmulat və detallar daxil olan məhsulların satışını diqqətlə yoxlamalıdır. Əgər bu zaman hər hansı pozuntu aşkar edilərsə, onda satış və mənfəət üzrə göstəricilərdə dəyişikliklər olunmasını təklif etməlidir.

Yoxlamanın gedişatı zamanı əsas proseduralardan biri sifarişçilərə (alıcılara) təqdim edilmiş hesablaşma sənədlərdə 46 saylı hesabın krediti üzrə əks olunmuş məbləğlərin mühasibat uçotunda 62 “Malalan və sifarişçilərlə hesablaşmalar” hesabının debeti üzrə əks olunmuş məbləğlərlə tutuşdurulmasıdır.

İlkin sənədlərə əsasən yüklənmiş və dəyəri ödənilmiş məhsullann dəyərinin müvafiq uçot sənədlərində 46 saylı hesabın krediti üzrə əks etdirilməməsi faktiki aşkar edildiyi hallarda, auditor faktiki əldə edilmiş gəlirin yenidən hesablanmasını təmin etməli, vergitutmadan yayındırılmış (gizlədilmiş) gəlir məbləğini müəyyənləşdirməli və qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər görülməklə həmin faktları yoxlama aktında əks etdirməlidir.

Yoxlama zamanı yanmfabrikatlarm kənara satılıb-satılmaması faktına fikir vermək lazımdır. Bunun üçün seçmə üsulu ilə alıcı müəssisələr tərəfindən dəyəri ödənilmiş yarımfabrikatların məbləği, malsatanm 46 saylı hesabının kreditində əks olunmuş məbləğlə müqayisə edilməlidir.

Xarici valyutada əldə edilmiş gəlirlər yoxlanılarkən nəzərə almaq lazımdır ki, bu gəlir məbləği valyuta məzənnə fərqi nəzərə alınmaqla göndəriş sənədlərinə əsasən 46 saylı hesabın kreditində əks olunmuş məbləğə bərabər olmalıdır. Valyu

tanın mütləq satışını həyata keçirən müəssisələr əldə edilən gəliri 46 saylı hesabın krediti üzrə bank müəssisəsinin sənədləri ilə təsdiqlənən manat ekvivalenti ilə əks etdirirlər.

Valyutanın müvəkkil banklar tərəfindən sərbəst satışı zamanı valyutanın satış və balansda əks etdirilmiş məzənnə fərqləri arasında əmələ gəlmiş fərq (müsbət və ya mənfi) məbləğləri 83 saylı hesabın "Məzənnə fərqi" subhesabında uçota alınır. İlin sonunda isə bu hesabda yığılmış məzənnə fərqinin məbləği satışdankənar gəlir (zərər) kimi 80 "Mənfəət və zərərlər" hesabına silinir.

Yoxlamanın gedişatı zamanı diqqətdə olan məsələlərdən biri də maldəyişmə əməliyyatlarıdır. Auditor nəzərə almalıdır ki, bir çox hallarda barter qaydasında buraxılmış məhsulun (işin, xidmətin) dəyəri 40 "Hazır məhsul" hesabının krediti ilə müxabirləşməklə istehsal ehtiyatlarını uçota alan, yəni kontragentlərdən barter qaydasında alınmış xammal və materialların mədaxil edildiyi hesabların (10, 12, 41) debetinə silinir ki, bu da satış pulunun həcmini azaldır.

Maldəyişmə əməliyyatlarının uçotu özünəməxsus xüsusiyyətlərə malikdir və qanunvericilikdə müəyyən edilmiş qaydada apanlır. Barter əməliyyatlarının uçotu xüsusiyyətləri həm malsatan və alıcılar arasında malların dəyişilməsi xüsusiyyətlərindən, həm də satış uçotunun müəssisədə tətbiq edilən variantından asılıdır.

Əgər müəssisə məhsul satışını "ödəmə üzrə" metodu ilə uçota alırsa, onda malsatan barter əməliyyatları üzrə alıcılardan alınmış malların (işlərin, xidmətlərin) dəyərini 60 "Malsatan və podratçılarla hesablaşmalar" və ya 76 "Müxtəlif debitor və kreditorlarla hesablaşmalar" hesabının krediti ilə müxabirləşməklə, maL-materi- al qiymətlilərini uçota alan hesabların (01, 04, 10, 12, 40,41,45) debetinə əks etdi- .rir. Eyni zamanda barter əməliyyatları üzrə alıcılara yüklənmiş məhsullann (işlərin, xidmətlərin) dəyəri 60 (76) Jfsli hesabın debetindən və yüklənmiş qiymətlilərin növündən asılı olaraq müvafiq olaraq 46,47,48 Jfeli hesabların kreditinə silinir ki, bu d^ alınmış qiymətlilərə görə malsatanlann alıcılara olan borcunun azalmasını əks etdirir. Bundan sonra satılmış qiymətlilərin dəyəri (müqavilədə razılaşdırılmış) mal-material qiymətlilərini uçota alan hesabların (01, 04, 10, 12, 40, 41, 45) kreditindən müvafiq satış hesablarının (46, 47, 48) debetinə silinir. Maldəyişmə əməliyyatları üzrə digər əməliyyatlar ümumi müəyyən edilmiş qaydada uçota alınır. Hər bir maldəyişmə əməliyyatı üzrə satış hesablannda (46, 47, 48) müəyyən edilmiş maliyyə nəticələri adi qaydada 80 "Mənfəət və zərərlər" hesabına silinir.

Müəssisələr məhsul satışının "yükləmə üzrə" metodunu tətbiq etdiyi hallarda isə malsatan maldəyişmə əməliyyatları hesabına yüklənmiş mal və ya digər əmlakın dəyərini (müqavilə qiymətləri üzrə) alıcıların debitor borcu kimi müvafiq satış hesablarının (46, 47, 48) krediti ilə müxabirləşməklə 62 "Alıcılar və sifarişçilərlə hesablaşmalar", yaxud 76 "Müxtəlif debitor və kreditorlarla hesablaşmalar" hesabının debetinə əks etdirir. Eyni zamanda alıcılara yüklənmiş mal-material qiymətlilərinin faktiki maya dəyəri müvafiq hesabların (01, 04, 10, 12, 40, 41) kreditindən satış hesablarının (46,47,48) debetinə silinir.

Maldəyişmə əməliyyatları üzrə daxil olmuş malların (işlərin, xidmətlərin) və digər əmlakın dəyəri 60, 76 ali hesabların krediti ilə müxabirləşməklə müvafiq hesabların debetinə əks olunur (Dt 10, **12**, **01**, 04 - Kt 60, 76).

Eyni zamanda barter əməliyyatları üzrə qarşı tərəflərin bir-birinə olan borcu aşağıdakı əlavə mühasibat yazılışı tərtib etməklə əvəzləşdirilir: Dt 60 - Kt 62.

Maldəyişmə əməliyyatlarından olan maliyyə nəticələrinin, kommersiya xərclərinin, gömrük rüsumlarının, eləcə də həmin əməliyyatlar üzrə ƏDV və aksizlərin uçotu ümumi müəyyən edilmiş qaydada həyata keçirilir.

Auditor vergitulma məqsədləri üçün balans mənfəətinin (zərərinin) korrektə olunmasının düzgünlüyünü yoxlayarkən vergi bəyannaməsinin müvafiq kod sətirlərində əks olunmuş balans mənfəətini artırıb-azaldan məbləğlərə fikir verməlidir. Bu zaman vergi müfəttişi yoxlama zamanı təsərrüfat əməliyyatlarının mühasibat uçotunda əks olunması qaydasını və vergi qanunvericiliyinin tələblərini nəzərə almalıdır.

Auditor mühasibat uçotu registrlərində *veksel və xarici valyuta əməliyyatları* üzrə dövriyyəni yoxlayarkən nəzərə almalıdır ki, əksər hallarda mühasibat uçotunda 46 saylı hesab üzrə ("ykləmə üzrə" metodu zamanı) əks olunmuş məbləğ ver- gitutma obyektlərinin həcminə uyğun gəlmir.

46 saylı hesabın krediti üzrə əks olunmuş məhsulların satışından olan gəlirlər, həmçinin digər müəssisələrin nizamnamə kapitalına verilmiş malların dəyəri qədər azaldılır. Çünki vergi qanunvericiliyinə uyğun olaraq investisiya məqsədləri üçün əmlakın verilməsi malların satışı kimi qiymətləndirilmir.

Bundan başqa, nəzərə almaq lazımdır ki, 46 hesab üzrə kredit dövriyyəsi ödənilməmiş satış pulunun (alıcıların debitor borcunun) məbləği qədər korrektə olunur.

Podrat müqaviləsi üzrə işbr yerinə yetirilərkən sifarişçinin verdiyi materiallardan istifadə olunduğu üçün sifarişçidə materialların podratçı təşkilata buraxılması onların satışı sayılmır. Çünki podratçı təşkilat məhsulların emalı, yaxud işlərin yerinə yetirilməsi üçün sifarişçidən aldığı xammalın (materialın) dəyərini onlara ödəmir. Podratçı müəssisədə alınmış xammal və materiallar 003 "Emala qəbul edilmiş materiallar" adlı balansarxası hesabda, sifarişçidə isə 46 saylı hesabda uçota alınır və vergitutma bazasına daxil edilmir.

Auditor yoxlamanın gedişatı zamanı 46 saylı hesabın krediti üzrə əks olunmuş məbləğlərin 20 "Əsas istehsalat", 40 "Hazır məhsul" və ya 37 "Məhsul buraxılışı" hesablarının kreditləri ilə müxabirləşmoklə bu hesabın debetinə əks olunub-olunmamasına diqqət yetirməlidir. Kredit dövriyyəsi olmadan yalnız 46 saylı hesabın yalnız debeti üzrə məbləğin əks olunduğu hallarda, auditor vergidən yayındırılmış (gizlədilmiş) gəlir məbləğini müəyyən etməlidir.

Auditor *əvəzsiz alınmış əmlakın uçotda əks və vergiyə cəlb etdirilməsinə* diqqət yetirməlidir. Vergi qanunvericiliyinə uyğun olaraq müəssisənin vergitutulan mənfəəti əvəzsiz alınmış əsas vəsaitlərin dəyəri qədər artınlır. Lakin nəzərə almaq lazımdır ki, əvəzsiz alınmış aktivlərin dəyəri satışdankənar gəlirlərin tərkibində uçota alınır. Əvvəlcə əvəzsiz olaraq alınmış əsas vəsaitlər, materiallar və digər aktivlər əvvəlcə 83 "Gələcək dövrlərin gəlirləri" hesabının debetində uçota alınır. Sonra həmin məbləğ hər ay bu hesabdan 80 "Mənfəət və zərərlər" hesabının kreditinə silinir. İkiqat vergitutmadan yayınmaq üçün vergitutulan mənfəəti hər ay 83 saylı hesabdan 80 saylı hesabın kreditinə silinən satışdankənar gəlirlərin məbləği qədər azaltmaq lazımdır.

Yoxlamanın gedişatı zamanı auditor fövqəladə gəlir və xərclərin vergitutu- lan mənfəətə təsirini də müəyyən etməlidir. Çünki fövqəladə gəlir və xərclərin əksəriyyəti vergitutulan mənfəət hesablanarkən nəzərə alınır. Fövqəladə gəlir və xərclər satışdankənar maliyyə nəticələrinin tərkib hissəsi olduğu üçün birbaşa 80 "Mənfəət və zərər" hesabında uçota alınır.

Auditor yoxlama aparılan müəssisənin bir neçə fəaliyyət növü ilə məşğul olub-olmadığını müəyyənləşdirməlidir. Əgər müəssisə bir neçə fəaliyyət növü ilə məşğul olursa, onda ümum istehsalat və ümumtəsərrüfat xərclərinin bölüşdürülməsinə diqqət yetirməlidir. Belə ki, bu kateqoriyadan olan müəssisələr həmin xərcləri hər bir fəaliyyət növündən alınmış satış pulunun müəssisənin ümumi gəlirindəki müvafiq payına mütənasib olaraq bölüşdürülməlidir.

Bundan başqa, həmin müəssisələr hər bir fəaliyyət növü üzrə ayrıca uçot aparmalıdır. Əgər fəaliyyət növlərindən biti ticarətdirsə, onda yadda saxlamaq lazımdır ki, həmin müəssisələrin ümumi mənfəəti satılmış malların alış və satış qiymətləri (ƏDV və aksizlər xaric) arasındakı fərqdən ibarətdir. Həmin fərq məbləği ticarət müəssisələrinin alınmış malların qiymətinin üzərinə qoyulan ticarət əlavəsindən formalaşır.

Qüvvədə olan qanunvericiliyə əsasən əsas vəsaitlərin, qeyri-maddi aktivlərin, material resurslarının satışından əldə edilən gəlir sair satışdan əldə edilən gəlirlərə aid edilir. Sair satışdan olan maliyyə nəticələrinin düzgünlüyünün yoxlanması zamanı aşağıdakı sənədlərə diqqət yetirmək lazımdır:

« **2**>f**9** li "Maliyyə nəticələri və onlardan istifadə haqqında" hesabat forması;

^ Baş kitab (dövriyyə balansı);

Ä kənara satılmaq üçün materialların, komplekslə şdirici detalların və digər əsas vəsaitlərin, mal-material qiymətlilərinin anbara mədaxil edilməsinə görə tərtib edilmiş qaimələr;

əsas vəsaitlərin satışı və ya əvəzsiz olaraq digər müəssisələrə verilməsi zamanı tərtib edilmiş təhvil-təslim aktlan(ƏV-lJf**2** li forma); ft səhmlər, istiqrazlar və digər qiymətli kağızlar, qısa və uzunmüddətli maliyyə qoyuluşlarının dəyərini təsdiq edən ilkin sənədlər; hesablaşma hesabında pul vəsaitlərinin hərəkəti üzrə bank çıxanşları;

* əsas vəsaitlərin, qeyri-maddi aktivlərin və material qiymətlilərinin nağd satışına görə kassaya ödənilmiş pul vəsaitləri üçün tərtib edilmiş mədaxil orderləri (kassa kitabı);

Ä əsas vəsaitlərin və mal-material qiymətlilərinin müəssisə ərazisindən kənara çıxarılmasına görə tərtib edilmiş buraxılış vərəqələri;

^ 1, 2, **8**, 9, 13 Jfo li jurnal-orderlər (uçotun jurnal-order forması zamanı); əsasında sair satışdan olan nəticələrin 47 və 48 saylı mühasibat uçotu hesablarında yazılışların aparıldığı digər ilkin uçot sənədləri.

Sair satışdan olan maliyyə nəticələrini və satılmış əsas vəsaitlərin, eləcə də digər aktivlərin maya dəyərinin yoxlaması aşağıdakı qaydada apanr.

47 "Əsas vəsaitlərin satışı və sair xaric olması" hesabının krediti üzrə əks olunan əsas vəsaitlərin satışından olan mənfəət (zərər) məbləği, **2**Jfs li "Maliyyə nəticələri və onlardan istifadə haqqında" hesabat formasının "Sair satışdan olan nəti-

cəbr" adlı maddəsində (kod sətri 060) əks olunmuş məbləğlər və baş kitabda 47 saylı hesabın kreditində əks olunmuş məbləğlər tutuşdurulur. Bu zaman 47 saylı hesabın kredit dövriyyəsi bu hesabın debeti üzrə əks olunmuş satılmış əsas vəsaitlərin ilkin dəyəri qədər azaldılır.

Əsas fondların və digər əmlakın satışından əldə edilən mənfəət onların ilkin və qalıq dəyərləri arasındakı fərq kimi müəyyən edilir. Bu zaman əsas fondların və digər əmlakın ilkin və qalıq dəyərləri mövcud qanunvericiliyə uyğun olaraq müəyyən edilir. Əgər **2**JS**9**İİ hesabat formasında əks olunmuş məbləğ müəyyən edilmiş qaydada hesablanmış məbləğdən az olarsa, onda vergitutmadan yayındırılmış gəlirin məbləğini müəyyən etmək lazımdır.

Yoxlama zamanı əsas vəsaitlərin ilkin dəyəri və onların satışdan daxil olmuş pul vəsaitləri arasındakı fərqin müəyyən edilməsinin düzgünlüyünə fikir vermək lazımdır. Bunun üçün bank çıxarışındakı və ya kassa məxaric orderlərindəki məbləğləri əsas vəsaitlərin təhvil-təslim aktmdakı (ƏV-lJlbli forma) məbləğlə, eləcə də əsas vəsait obyektlərinin investor uçotu kartoçkalarındakı məbləğlərlə tutuşdurmaq lazımdır.

Təhvil-təslim aktlarında (ƏV-IX**2**İİ forma) və əsas vəsaitlərin uçot kartlarında (ƏV**-6** və ƏV-7 X**2**İİ forma) göstərilən məbləğlər arasında kənarlaşma aşkar edildiyi hallarda, onun səbəblərini müəyyən etmək lazımdır. Müsbət fərq aşkar edildiyi zaman, vergitutmadan yayınma halının olub-olmamağını müəyyən etmək məqsədilə ilkin dəyərlə başqa əsas vəsaitin satılıb-satılmadığını (qeyri-rəsmi şəkildə əsas vəsaitin verilib-verilməməyini) araşdırmaq lazımdır. Mənfi fərq olduqda isə yaranmış zərərin qanunauyğun olub-olmadığını müəyyən etmək lazımdır.

Əgər alınmış pul vəsaiti təhvil-təslim aktında göstərilən məbləğdən az olarsa, onda vergitutulan mənfəətin azaldılmış məbləğini müəyyənləşdirmək lazımdır. Əksinə, alınmış pul vəsaitlərinin aktda göstərilmiş məbləğdən çox olduğu hallarda isə yoxlayıcı təhvil-təslim aktmdakı məbləği 47 hesabın krediti üzrə əks olunmuş məbləğlə tutuşdurmaqla vergitutulan mənfəətin hesablanmasının düzgünlüyünü müəyyən edir.

Əsas vəsaitlərin başqa müəssisələrə, həmçinin özünün hesablaşma (valyuta) hesabı və müstəqil balansa malik olan struktur bölmələrinə əvəzsiz olaraq verilməsi faktiki aşkar edildiyi hallarda, bu əməliyyatdan olan maliyyə nəticələrinin sair satışdan olan nəticələrə aid edilib-edilmədiyini müəyyən etmək lazımdır. Maliyyə Nazirliyinin mühasibat uçotu hesablar planının tətbiq edilməsi haqqında təlimata əsasən qiymətlilərinin əvəzsiz olaraq verilməsindən olan maliyyə nəticələri (zərər) vergitutulan mənfəətin azalmasına deyil, xüsusi maliyyələşmə mənbələrinə (**88**, 87) silinir. Əsas vəsaitlərin əvəzsiz olaraq verilməsindən olan zərərin "Sair satışdan olan gəlir" maddəsində əks olunduğu hallarda isə 2 JV**2** li "Maliyyə nəticələri və onlardan istifadə olunması haqqında" hesabat formasında və 47 saylı hesabda əks olunmuş mənfəət (zərər) bu əməliyyatdan olan mənfəət (zərər) məbləği qədər azaldılmalıdır.

Müəssisənin malik olduğu mal-material qiymətlilərinin, qiymətli kağızların, qeyri-maddi aktivlərin satışından olan maliyyə nəticələri 48 "Sair aktivlərin satışı" hesabının kreditində əks olunur. Qeyri-maddi aktivlərin, əsas vəsaitlərin ləğv olunması zamanı mədaxil edilmiş mal-material qiymətlilərinin (xammal, materiallar, öz

istehsalı olan və satın alınmış komplektləşdirici məmulatlar, ATƏ, detallar, hissələr), satılmaq Üçün alınmış malların (ticarət və təchizat müəssisələri istisna olmaqla), valyuta qiymətliləri, qiymətli kağızlar və maliyyə qoyuluşlarının satışından olan mənfəət sair satışdan olan maliyyə nəticələrinə aid edilir:

2 >To li "Maliyyə nəticələri və onlardan istifadə olunması haqqında" hesabat fomasının "Sair satışdan olan nəticələr" maddəsində (şifrə kodu 060) əks olunmuş məlumatlar, Baş kitabda 48 saylı hesabın krediti üzrə əks olunmuş məbləğlə (48 saylı hesabın debet üzrə əks edilmiş sair aktivlərin balans dəyəri qədər azaldılmış) tutuşdurulur.

Başqa müəssisələrdəki iştirak payının (başqa müəssisələrin Nizamnamə kapitalına uzunmüddətli maliyyə qoyuluşu), səhm, istiqraz və digər qiymətli kağızlara görə alınan depozitlərindən istifadə hüququnun satışı üzrə əməliyyatları, maliyyə qoyuluşlarını yoxlayarkən auditor onlara aid olmayan məsrəflərin silinməsi hesabına həmin qiymətlilərin nominal və ya balans dəyərlərinin artırılıb-artırılmamasmı müəyyən etməlidir. Bunun üçün 06 "Uzunmüddətli maliyyə qoyuluşları" və 58 "Qısamüddətli maliyyə qoyuluşlan" hesabların debetində uçota alman məbləğləri 48 "Sair aktivlərin satışı" hesabının debeti üzrə əks olunan məbləğlə tutuşdurmaq lazımdır.

Kənarlaşmaların aşkar edildiyi hallarda (48 hesabın debetindəki məbləğ 06 və 58 hesabların debetindəki məbləğdən çox olarsa) yoxlayıcı vergitutmadan gizlədilən gəlirin həcmini müəyyən etməlidir. Eyni zamanda nəzərə almaq lazımdır ki, səhm, istiqraz və digər qiymətli kağızların dəyəri 06 və 58 hesablarda əks olunan dəyəri onların nominal dəyərinə uyğun gəlməlidir.

Yoxlama zamanı auditor mühasibat sənədlərinin və təsərrüfat əməliyyatlarının vaxtında əks etdirilməsinin dürüstlüyünü yoxlamalıdır. Bunun üçün aşağıdakı sənədlərin tarixini tutuşdurmaq lazımdır:

/ ❖ əsas vəsaitlərin, əsas vəsaitlərin ləğv edilməsindən alınmış komplektləşdirici detal və hissələrin, əsas vəsaitlərin və kənara satılmaq üçün nəzərdə tutulmuş digər mal-material qiymətlilərinin anbardan buraxılması üçün tərtib edilmiş qaimənin;
- ❖ əsas vəsaitlərin və mal-material qiymətlilərinin müəssisə ərazisindən çıxarılması üçün tərtib edilmiş buraxılış vərəqinin;
- ❖ hesablaşma hesabında pul vəsaitlərinin hərəkəti üzrə bank çıxarışları və ya satılmış əsas vəsaitlərin, material qiymətlilərinin, qeyri-maddi aktivlərin, qiymətli kağızların və digər qiymətlilərin ödənişi kimi müəssisənin kasasına nağd pulun mədaxili üçün tərtib edilmiş mədaxil orderləri;
- ❖ Baş kitabda (dövriyyə balansında), **8**,9 və 13JV2 li jurnal-orderlərdə əks olunmuş məlumatlar.

Bu sənədlərin mühasibat uçotunda əks olunmuş tarix və dövrlərinin uyğun gəlməməsi faktı aşkar edildiyi hallarda, yoxlayıcı bu uyğunsuzluğun 2 Xs ü hesabat formasında əks olunmuş sair satışdan olan mənfəətin ümumi məbləğinə təsirini təhlil etməlidir. Dəyəri ödənilmədən və ya hesabların kreditinə əks olunmadan əsas vəsaitlərin, mal-material qiymətlilərinin və qiymətli kağızların ilkin dəyərinin mü

hasibat uçotunda 47 və 48 saylı hesabların debetinə əks olunması faktı aşkar edildikdə, vergitutmadan yayındırılmış mənfəət məbləğini müəyyən etmək lazımdır.

Audit yoxlamasının gedişatı zamanı əsas diqqət yetirilməli olan predmetlərindən biri satışdankənar əməliyyatlardan olan maliyyə nəticələrinin formalaşmasıdır. Auditor maliyyə nəticələri auditinin gedişatı zamanı müəssisənin əsas fəaliyyəti ilə bilavasitə bağlı olmayan satışdankənar gəlir və xərclərin vergitutulan mənfəətə təsirini müəyyən etməlidir.

Audit yoxlaması apararkən aşağıda göstərilən satışdankənar xərclərin düzgün sənədləşdirilmosinə və silinmosinin qanuniliyinə diqqət yetirmək lazımdır:

- debitor borclarının;
- təbii fəlakətdən olan itkilərin, yanğın, qəza və digər fövqəladə hallar nəticəsində konpensasiya olunmayan itkilərin (istehsal ehtiyatlarının, hazır məmulatların və digər material qiymətlilərinin xarab və məhv olması; onun nəticələrinin qarşısının alınması və ya ləğv edilməsi ilə bağlı məsrəflər; istehsalın dayanmasından olan itkilər);
- günahkarları məhkəmə tərəfindən müəyyən edilməmiş oğurluqlardan olan zərərlər;
- təsərrüfat müqaviləsi üzrə şərtlərin yerinə yetirilməsinə aid olmayan pozuntulara görə ödənilən cərimələr;
- digər müəssisələrlə hesablaşmalar üzrə ümidsiz borclar.

Yuxarıda sadalananların audit yoxlama təcrübəsi göstərir ki, bu əməli>'yatlar üzrə sənədlər lazımi qaydada tərtib olunmur, bir çox hallarda onların silinməsi barədə qərar müəssisənin rəhbəri və baş mühasib tərəfindən qəbul edilir, bu cür borcların yaranma səbəbləri araşdırılmır, müəssisənin borcları üzləşdirmə aktları ilə təsdiqlənmir. Və belə silinmə hallarının dərindən yoxlanması sui-istifadə, bəzən isə istər ayrı-ayrı vəzifəli şəxslər, istərsə də bir qrup şəxslər tərəfindən material qiymətlilərinin oğurlanması faktlarını aşkara çıxarır.

Bir çox hallarda təsərrüfat müqaviləsi üzrə şərtlərin yerinə yetirilməsinə aid olmayan və ya konkret vəzifəli şəxsin ödəməli olduğu cərimə məbləğləri müəssisənin sərəncamında qalan mənfəət və ya günahkar şəxslərə deyil, maliyyə nəticələrinə aid edilir.

Təbii fəlakət və digər ekstrimal hallardan olan itkilərin silinməsi zamanı xarab olmuş əmlakın inventarizasiyası aparılmır, dəymiş zərər isə tərtib edilmiş aktlara əsasən silinir. Lakin qeyd etmək lazımdır ki, bir qayd^ olaraq belə silinmələr zamanı əsas kimi həmin yerdə təbii fəlakətin baş verməsi faktını təsdiq edən müvafiq yerli orqanlar tərəfindən verilən sənədlər əlavə olunmalıdır.

Auditor fövqəladə şəraitin olması faktını təsdiq edən müvafiq sənədlərlə təsdiq olunduğunu, yəni fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə məşğul olan müvafiq orqanların (Fövqəladə Hallar Nazirliyinin, Dövlət Yanğından Mühafizə Xidmətinin, Daxili İşlər Nazirliyinin) yazılı rəyinin və mövcud müəssisə əmlakının vəziyyətini və qiymətləndirilməsini əks etdirən inventarizasiya aktının olub-olmadığını müəyyən etməlidir. Yoxlama zamanı nəzərə almaq lazımdır ki, istənilən analoji vəziyyət fövqəladə hal kimi qiymətləndirilmir. Qeyri-fövqəladə hal

lar nəticəsində müəssisəyə dəymiş zərər müəssisənin öz maliyyələşmə mənbələri hesabına ödənilir.

Satışdankənar gəlir və xərclər satışdan olan maliyyə nəticələrindən fərqli olaraq satış hesablanna əks etdirilmədən bilavasitə 80 "Mənfəət və zərərlər" hesabında uçota alınır. Satışdankənar gəlir və xərclərin mühasibat uçotunda əks olunmasının nə dərəcədə düzgün (əsaslı) olub-olmadığını yoxlamaq üçün bir tərəfdən Baş kitaba və 15>feli jurnal-orderə əsasən 80 saylı hesabın kredit dövriyyəsi, digər tərəfdən isə müxabirləşən hesablar üzrə Baş kitabda toplanan bütün debet dövriyyəsi, eləcə də 80 saylı hesab üzrə debet yazılışları yoxlanmalıdır. Lazım gəldiyi hallarda uçot yazılışlarının aparılması üçün əsas sayılan ilkin sənədlərə müraciət etmək olar.

Yoxlama zamanı informasiya mənbəyi kimi aşağıdakılardan istifadə olunur:

- Baş kitab (dövriyyə balansı);
- "Maliyyə nəticələri və onlardan istifadə olunması haqqında" **2**>foli hesabat forması;
- hesablaşma hesabında pul vəsaitlərinin hərəkatı haqqında bank çıxarışları;
- təsərrüfat müqavilələri;
- əsasında 80 saylı hesabın debet və krediti üzrə mühasibat yazılışlarının aparıldığı ilkin sənədlər.

Satışdankənar gəlir və xərclərin əks olunmasının düzgünlüyünün yoxlanması aşağıdakı qaydada həyata keçirilir. **2**JN**2**İİ "Maliyyə nəticələri və ondan istifadə olunması haqında" formada "Satışdankənar gəlir və xərclər" maddəsi üzrə əks olunmuş məlumatlar, Baş kitabda 80 saylı hesabın debeti və krediti üzrə əks olunmuş (46,47,48 saylı hesablarla müxabirləşmələr istisna olmaqla) məlumatlarla tutuşdurulur. Kənarlaşma aşkar edildiyi hallarda vergidən yayındırılmış gəlir məbləği müəyyən edilir.

Satışdankənar gəlir və xərclərin əmələgəlmə mənbələrinin təhlilini apararkən onların tərkibində aşağıdakı əməliyyatların əks olunmasının düzgün və etibarlılığına diqqət yetirmək lazımdır.

Digər müəssisələrin *qiymətli kağızlarına, dövlət istiqrazlarına maliyyə qoyuluşu* etmiş müəssisələr, həmin qiymətli kağızlar üzrə alacaqları divident və faizləri debitor borcu kimi 76 "Müxtəlif debitor və kreditorlarla hesablaşmalar" hesabının debeti ilə müxabirləşməklə 80 saylı hesabın kreditinə əks etdirir. Daxil olmuş gəlir məbləğləri isə 76 saylı hesabın kreditindən 51 "Hesablaşma hesabı" hesabının debetinə silinir.

Səhmlər üzrə divident formasında müəssisənin xeyrinə daxil olmuş xarici valyutanın daxili valyuta bazarında satılması məcburi deyil. Bu halda daxil olmuş valyuta məbləği 76 saylı hesabın krediti ilə müxabirləşməklə 52 "Valyuta hesabı" hesabını "Tranzit valyuta hesabı" subhesabmın debetinə əks olunur. Bütün lazımı bank proseduraları yerinə yetirildikdən sonra həmin vəsaitlər 52 saylı hesabın "Tranzit valyuta hesabı" subhesabından "Carı valyuta hesabı" subhesabmın debetinə keçirilir.

Nəzərə almaq lazımdır ki, nizamnamə kapitalına maliyyə qoyuluşları istisna olmaqla, müəssisə tərəfindən əvəzsiz olaraq alınmış bütün növ maliyyə yardımları

(əvəzsiz maliyyə yardımı, xüsusi təyinatlı fondların artırılması və digər məqsədli daxilolmalar) satışdankənar gəlirlərin tərkibində uçota alınır və mənfəət vergisi üzrə vergitutma bazasına daxil edilir.

Yoxlamanın gedişatı zamanı məzənnə fərqlərinin hesablanmasına xüsusi diqqət yetirmək lazımdır. Mühasibat uçotunda məzənnə fərqləri (xarici valyutada nizamnamə kapitalma maliyyə qoyuluşu kimi əmlakın verilməsi və müqaviləyə əsasən gətiriləcək mallara görə verilmiş avanslar üzrə debitor borcları ilə bağlı məzənnə fərqləri istisna olmaqla) əsasən 80 "Mənfəət və zərərlər" hesabında apanlır. Lakin mühasibat uçotunun hesablar planında məzənnə fərqlərinin uçota alınması üçün 83 "Gələcək dövrlərin gəlirləri" hesabının "Məzənnə fərqləri" subhesabı nəzərdə tutulmuşdur. İkinci halda müəssisələr məzənnə fərqlərini il ərzində 83 saylı hesabın eyni adlı subhesabında uçota alır və yalnız hesabat ilinin sonunda mövcud qalıq maliyyə nəticələrinə (80) silinir.

80 (83) saylı hesab üzrə yazılışlar aşağıdakı hesablarla müxabirləşmədə aparılır:

6, 58 - istiqrazlar ödənildikdə və depozitlər geri qaytarıldıqda; 60 - alınmış əsas vəsaitlərin, qeyri-maddi aktivlərin, material resurslarının dəyəri və verilmiş veksellər ödənildikdə; 62 - yüklənmiş məhsulların (görülmüş işlərin, göstərilmiş xidmətlərin) dəyəri və alınmış veksellər alıcılar (sifarişçilər) tərəfindən ödənildikdə; 65 - müəssisə tərəfindən sığorta ödəmələri aparıldıqda; **68** - vergilər xarici valyutada ödənildikdə; 71 - əvvəllər verilmiş təhtəlhesab məbləğlər geri qaytarıldıqda; 75 - müəssisə fəaliyyətində iştiraka görə gəlir və dividentlər ödənildikdə; 76 - qeyri-ticarət xarakterli əməliyyatlar üzrə; 78 - törəmə müəssisələrlə hesablaşmalar üzrə; 79 - filial və nümayəndəliklərlə hesablaşmalar üzrə; 90, 92, 94, 95 - bank, kredit təşkilatları və digər müəssisələrdən alınmış kredit və borclar ödənildikdə.

Müəssisənin nizamnamə kapitalına xarici valyutada vəsaitlərin qoyuluşu zamanı yaranmış məzənnə fərqi 75 "Təsisçilərlə hesablaşmalar" hesabından 87 "Əlavə kapital" hesabına silinir.

Debitor bordan (təsərrüfat müqavilələri) üzrə məzənnə fərqi 83 saylı hesabda uçota alınır və material resurslannın mədaxil edildiyi zaman müsbət məzənnə fərqi 83 saylı hesabla müxabirləşməklə 87 "Əlavə kapital" hesabının kreditinə, mənfi məzənnə fərqi isə material resurslarını uçota alan hesablann (07, 08, 40, 41) debetinə silinir. Yolda olan materiallar qiymətliləri üzrə məzənnə fərqi həmçinin analoji qaydada silinir (əgər həmin materiallara görə mülkiyyət hüququ müəssisəyə keçməmişdirsə).

Satışdankənar gəlir və xərclərin yaranmasını təhlil edərkən müqavilə şərtlərinin pozulmasına və dəymiş zərərin ödənilməsinə görə cərimə, peniya, dəbbə və digər sanksiyalan formasında alınmış (ödənilmiş) gəlirlərin (zərərin) düzgünlüyünə diqqət yetirmək lazımdır.

Yoxlamanın gedişatı zamanı 80 saylı hesabda əks olunmuş alınmış (ödənilmiş) cərimə, peniya və digər maliyyə sanksiyalarını bağlanmış təsərrüfat müqavilə- lərindəki məbləğlərlə tutuşdurmaq lazımdır. Bu məbləğlərin tam alınmaması faktı aşkar edildikdə onlann tutulmaması səbəbini və bununla əlaqədar azaldılmış mənfəət məbləğini müəyyən etmək lazımdır.

Sözügedən əməliyyatların mühasibat uçotunda əks etdirilməsinin tamlığını nəzərdən keçirərkən 51 "Hesablaşma hesabı" (50) hesabının debetində əks olunan alınmış cərimə, peniya və digər iqtisadi sanksiyaları 63 "İddialar üzrə hesablaşmalar" hesabının krediti üzrə əks olunmuş alınacaq məbləğlərlə fərqləndirmək lazımdır. 63 saylı hesabın debeti üzrə əks olunmuş məbləğlərin alınmaması faktı aşkar edildiyi hallarda, onun səbəbləri araşdırılmalı və bilərəkdən alınmayan məbləğin maliyyə nəticələrinə silinib-silinməməsi müəyyən edilməlidir. Ümumiyyətlə auditor 80 saylı hesabın debetində əks olunmuş ödənilmiş hər bir cərimə, peniya və maliyyə sanksiyasının nə dərəcədə qanunauyğun olub-olmadığını diqqətlə araşdınimalıdır.

Yoxlama zamanı həmçinin depozit hesablarında olan məbləğlərdən alınan gəlirlər nəzərdən keçirilir. Bu qəbildən olan gəlirlərin yoxlanma xüsusiyyəti Mərkəzi Bankdan lisenziya almış bank müəssisəsi ilə bağlanmış müqavilə ilə yanaşı, həmin gəlirlərin tam və vaxtlı-vaxtında alınmasının təhlil edilməsidir. Bunun üçün depozit gəlirlərinin müqavilədə ödənilmə müddətində nəzərdə tutulmuş və pul vəsaitlərinin alınma tarixinə olan faiz dərəcələrini, eləcə də 80 saylı hesabın krediti və 51(50) saylı hesabın debeti üzrə əks olunmuş məbləğin 58 "Qısamüddətli maliyyə qoyuluşlan" hesabının "Depozitlər" subhesabmm debeti üzrə əks olunmuş vəsait məbləğinə bölünməsi yolu ilə alman faiz dərəcəsini tutuşdurmaq lazımdır. Hesablaşmaların aparılma müddətinə riayət olunmaması, yaxud gəlir faizinin aşağı salınması müşahidə edildiyi hallarda auditor vergidən yayındırılmış gəlir məbləğini müəyyən etməlidir.

Bütün növdən olan borclar üzrə alınmış (ödənilmiş) gəlirlər (zərərlər) yoxlanarkən borc müqaviləsinin şərtlərinə əməl olunub-olunmamasına diqqət yetirmək lazımdır. Verilmiş borclar üzrə gəlirlərin vaxtında alınmaması aşkar edildikdə, onun 80 saylı hesabın krediti üzrə əks olunduğu dövr və müqavilə öhdəliklərinə riayət olunmamasının səbəblərini, eləcə də borcluya tətbiq edilən sanksiyanın tamlığını müəyyən etmək lazımdır. Borcalan tərəfindən faizlərin vaxtında ödənilmədiyi hallarda bu vəsaitlərdən istifadəyə görə alınmamış gəlir məbləğini müəyyənləşdirmək lazımdır.

Müqavilədə göstərilən faiz dərəcəsi, faizlərin ödənişi kimi daxil olmuş pul vəsaitlərinin məbləğini verilmiş borc məbləğinə bölmək yolu ilə alınmış faiz dərəcəsinə uyğun gəlmədikdə, verilmiş borclara görə faktiki daxil olmalı gəlirin azaldılmış məbləğini müəyyən etmək lazımdır. Bunun üçün 51 saylı hesabla (borc müqaviləsində hesablaşmaların ödəmə üzrə aparılması nəzərdə tutulduğu hallarda), yaxud 58 saylı hesabın "Akkreditivlər" subhesabı ilə (hesablaşmaların borc yarandıqdan sonra aparılması nəzərdə tutulduğu hallarda) müxabirləşməklə 80 saylı hesabın kreditində əks olunmuş məbləğləri verilmiş borcun məbləğinə bölünür. Sonra alınmış nəticəni borc müqaviləsində nəzərdə tutulmuş faizlə üzləşdirmək lazımdır.

Ödənilmiş faiz gəlirinin borcalan müəssisənin müqaviləsində göstərilən faizə uyğun gəlmədiyi müəyyən edildikdə (alınmış nəticə müqavilədə nəzərdə tutulmuş faizdən çox olduqda), auditor azaldılmış mənfəət məbləğini müəyyən etməlidir.

Valyuta əməliyyatlan üzrə məzənnə fərqinin mühasibat uçotunda əks etdirilməsinin doğruluğu məsələsini təhlil edərkən nəzərə almaq lazımdır ki, müsbət məzənnə fərqi satışdankənar gəlirlər (xərclər) kimi maliyyə nəticələrinə silinir. La

kin qeyd etmək lazımdır ki, mövcud qanunvericiliyə uyğun olaraq müəssisənin nizamnamə kapitalının formalaşması ile bağlı yaranmış məzənnə fərqi maliyyə nəticələrinə aid edilmir. Məzənnə fərqlərinin uçota alınması üçün 83 saylı hesabdan istifadə olunduğu hallarda, bu hesabın saldosu ilin sonunda 80 saylı hesaba silinir.

Müəssisələr maliyyə nəticələrini formalaşdıran xarici valyutada olan gəlir və xərclərini, xarici valyuta əməliyyatlarının həyata keçirildiyi müvafiq tarixə mövcud olan Milli Bankın rəsmi məzənnəsinə əsasən manata çevirməlidirlər.

Yoxlamanın gedişatı zamanı həmçinin hesabat ilində aşkar edilmiş keçmiş illərin əməliyyatları üzrə gəlirlərin (itkilərin) uçotda əks etdirilməsinin düzgünlüyünü də təhlil etmək lazımdır. Bu qəbildən olan ayrı-ayrı gəlir və xərclərin auditi xüsusiyyətlərini nəzərdən keçirək.

Keçən hesabat ilində alınmış və istifadə olunmuş xidmət və material qiymətlilərinə görə aparılmış yenidən hesablamalar üzrə ödənilmiş (daxil olmuş) məbləğlərin auditi zamanı nəzarət prosesində mühasibat uçotunda 80 saylı hesabda yazılışlann aparıldığı malsatanların təqdim etdikləri ilkin sənədlərdəki (üzləşdirmə aktı, məktublar, inventarizasiya aktları) məlumatlar, keçən il bu xərclərin maya dəyərinə silinməsi üzrə tərtib edilmiş ilkin sənədlərin (materiallann anbardan alınması üçün tərtib edilmiş tələbnamə, iş və xidmətlərin yerinə yetirilmə aktı) məlumatları ilə tutuşdurulur. Bundan başqa, istifadə olunmuş material qiymətlilərinin balansda uçota alınan və **6X2** li jurnal-orderdə 60 "Malsatan və podratçılarla hesablaşmalar'' hesabında uçota alınan fakturalaşdırılmamış daşınmalann tərkibində olub-olmadığını müəyyən etmək lazımdır.

Keçən il satılmış məhsullara (işlərə, xidmətlərə) görə tərtib edilmiş hesablar üzrə alıcılardan (sifarişçilərdən) daxil olmuş məbləğləri nəzərdən keçirərkən əsasında 80 saylı hesabda mühasibat yazılışlannın apanldığı ilkin uçot sə- nədlərindəki məlumatları məhsullann buraxılması (işlərin görülməsi, xidmətlərin göstərilməsi) faktını təsdiq edən ilkin sənədlərin məlumatlan tutuşdurulur. Sözügedən məbləğlərin keçən il maya dəyərinə silinməsi aşkar edilərsə, onda auditor iqtisadi sanksiyanı tətbiq etmək üçün keçən il vergidən yayındınimış mənfəət məbləğini müəyyən etməlidir.

Keçmiş illərdə hesablaşmaların aparıldığı sifarişlər üzrə əlavə xərcləri yoxlayarkən ilkin sənədlərə əsasən həqiqətən bu xərclərin çəkilib-çəkilmədiyini, pnlarm keçən ilin maya dəyərinə vaxtmda daxil edilməməsi səbəbləri və bu məsrəflərin 80 saylı hesabda əks olunmuş məbləğə uyğun gəlib-gəlməməsi müəyyənləşdirilməlidir.

Dəyəri keçmiş illərdə ödənilmiş məhsullara görə alıcılarla (sifarişçilərlə) hesablaşmalar üzrə məbləğlərin qaytarılması faktı aşkar edildikdə, həmin məbləğin keçən hesabat ilində müvafiq müqavilə tərtib edilmədən faizsiz borcların tərkibinə daxil edilib-edilmədiyini araşdırmaq lazımdır.

80 saylı hesabın debetinə əks olunmuş təbii fəlakətdən olan kompensasiya edilməmiş zərərləri (istehsalat ehtiyatları, hazır məmulat və digər material qiymətlilərinin məhv və xarab olması, istehsalın dayanmasından olan itkilər), eləcə də təbii fəlakətin qarşısının alınması və ya ləğv edilməsi ilə bağlı çəkilmiş məsrəfləri (alınmış metal qınntılan, yanacaq və digər materialların dəyəri çıxılmaqla) təhlil edərkən onların bu məsrəflərin tərkibinə silinməsinin qanunauyğunluğuna diqqət

yetirmək lazımdır. Təbii fəlakətin olması faktını təsdiq edən müvafiq orqanların sənədlərinin olmadığı, yaxud məsrəflərin təbii fəlakətdən olan xərclərin tərkibinə düzgün aid edilməsi aşkar edildikdə yoxlayıcı auditor vergidən yayındırılmış gəlir məbləğini müəyyən etməlidir.

Auditor debitor və digər borcların silinməsindən olan itkiləri yoxlayarkən bu silinmənin nə dərəcədə qanuni olub-olmadığını dəqiqləşdirməlidir. İddia müddəti bitməmiş borcların şübhəli borclar üzrə ehtiyatın vəsaitləri hesabına silinməsi müəyyən edildikdə, yoxlamanı aparan vergi müfəttişi vergidən yayındırılmış gəlir məbləğini müəyyən etməlidir

Ümidsiz borclar kimi keçmiş illərdə zərərə silinmiş debitor borclarının ödənilməsi üçün daxil olmuş məbləği təhlil edərkən auditor 80 saylı hesabın kreditində əks olunmuş məlumatları 007 "Ümidsiz debitor borcları" balansarxası hesabda əks olunmuş məlumatlarla müqayisə edir. Əgər bu zaman balansarxası he- sabdakı məbləğ 80 saylı hesabın kreditindəki müvafiq məbləğdən az olarsa, onda həmin vəsaitlərin keçmiş illərdə hazır məhsulların inventarizasiyası zamanı aşkar edilmiş çatışmamazlıq məbləği kimi qeyri-qanuni maya dəyərinə silinmiş hazır məhsula görə daxil olub-olmadığını müəyyən etmək lazımdır.

Digər müəssisələrdə pay iştirakından, müəssisənin malik olduğu səhmlər üzrə dividentlərdən, istiqraz və digər qiymətli kağızlar üzrə gəlirlər 51 "Hesablaşma hesabı" (50) və 76 "Müxtəlif debitor və kreditorlarla hesablaşmalar" hesabının debetində əks olunmuş məbləğlərin, bağlanmış müqavilələrdəki və 80 saylı hesabın krediti üzrə əks olunmuş məbləğlərlə tutuşdurulması yolu ilə müəyyən edilir. Göstərilən məbləğlər arasında kənarlaşma aşkar edildikdə, auditor bu fərqin vergitutulan mənfəətə təsirini təhlil etməlidir.

Digər hüquqi və fiziki şəxslərə (səhmdarlara) gəlir, divident və faizlərin verilməsi müəyyən edildiyi hallarda bu əməliyyatların qanunauyğunluğunu müəyyənləşdirmək lazımdır. Bu zaman nəzərə almaq lazımdır ki, bu cür köçürmələr səhmdar cəmiyyətləri tərəfindən yalnız dövlət büdcəsinə mənfəət vergisi və səhmdarlara gəlirlər ödənildikdən sonra həyata keçirilə bilər. 76 saylı hesabla müxabirləşmədə 80 "Mənfəət və zərərlər" hesabının debetində əks olunmuş bütün məbləğlər müfəssəl olaraq təhlil edilməlidir.

Əmlakın icarəyə verilməsindən olan gəlirlər yoxlanarkən daxil olmuş pul vəsaitlərinin müqavilədə nəzərdə tutulmuş icarə haqqına uyğun olub-olmamasına diqqət yetirmək lazımdır. Əgər daxil olmuş vəsait icarə müqaviləsindəki məbləğlə eynilik təşkil edərsə, onda gəlirin gizlədilməsi icarə haqqının hesablaşma hesabına (kassaya) vaxtlı-vaxtında ödənilib-ödənilməməsinin (ödəmə üzrə hesablaşmalar zamanı) və ya hesablanmamasınm (hesablaşmaların borcun yaranması üzrə aparılması zamanı) müə>ʒən edilməsi yolu ilə realizə edilir. Əgər icarə müqaviləsində gəlir məbləği faizlə ifadə olunubsa, onda auditor vergidən gizlədilmiş gəlir məbləğinin hesablanmasını apanr.

Dayandınlmış istehsal gücləri və obyektlərinin saxlanması üzrə xərclər (qüvvədə olan qanunvericiliyə əsasən mənfəət hesabına ödənilən) yoxlanarkən auditor 80 saylı hesabın debeti ü/.rə əks olunmuş müvafiq məbləğləri 10, 70, 51 və digər hesabların krediti üzrə əks olunmuş məbləğlərlə tutuşdurur. Nəzərə almaq la

zımdır ki, sözügedən məsrəflər bu obyektlərin saxlanması üçün nəzərdə tutulmuş smetadakı məbləğdən çox olmamalıdır.

Yoxlamanın gedişatı zamanı 80 saylı hesabın debetində bu xərclərə aid olmayan məsrəflər aşkar edilərsə, onda auditor vergidən yayındırılmış gəlir məbləğini müəyyən etməlidir.

Geri qaytarılan icra sənədlərinə əsasən çatışmamazlıq və oğurluq məbləğləri üzrə əvvəllər hesablanmış vergi məbləğinin silinməsindən olan zərərlər yoxlanarkən 73-3 "Dəymiş maddi zərər üzrə hesablaşmalar" və ya 84 "Material qiymətlilərinin xarab olması və çatışmamazlıqlarından olan itkilər" hesabının debeti, 80 "Mənfəət və zərərlər" hesabın krediti üzrə əks olunmuş məbləğləri tutuşdurulmaq lazımdır.

4.11. Hüquqi şəxslərin mənfəət vergisi üzrə büdcə ilə hesablaşmaların auditi

Mövcud qanunvericiliyə uyğun olaraq hüquqi şəxslər ölkəmizin veri sistemində tətbiq olunan çoxsaylı vergi və digər məcburi ödəmələr üzrə dövlət büdcəsi ilə hesablaşmalar aparırlar. Bu isə hər bir müəssisənin mühasibatlığı qarşısında ciddi və məsuliyyətli vəzifələr qoyur. Ona görə də müəssisələr yuxanda qeyd olunan vergi növünün hər biri üzrə düzgün əməliyyat aparmağı, büdcəyə çatası məbləği dəqiq müəyyən etməli və həmin məbləğlərin büdcəyə vaxtında ödənilməsini təmin etməlidirlər.

Qeyd etmək lazımdır ki, müəssisələr tərəfindən dövlət büdcəsinə ödənilən vergilər arasında mənfəət vergisi böyük xüsusi çəkiyə malikdir. Eyni zamanda mənfəət vergisi büdcə vergi daxilolmaları arasında liderlik edir. Mənfəət vergisi birbaşa vergi kateqoriyasına aid edildiyi üçün bu verginin məbləği bilavasitə təsərrüfat subyektinin maliyyə nəticələrindən asılıdır. Bu səbəbdən əksər müəssisələr istənilən yolla vergiyə cəlb olunan mənfəət məbləğini azaltmağa (gizlətməyə), bir sözlə bütün vasitələrdən istifadə etməklə vergidən yayınmağa çalışırlar.

İstehsal xərclərinin hesablanması və məhsul satışı ilə bağlı olan maliyyə təsərrüfat fəaliyyəti sferası vergi hüquq pozulmalarının potensial sahəsi kimi vergi orqanlarının diqqətini xüsusilə cəlb edir. Bir çox hallarda mənfəət vergisinin hesablanmasının düzgünlüyünü, tam və vaxtında büdcəyə köçürülməsini yoxlayarkən həm məsrəflərin maya dəyərinə düzgün aid edilməməsi, həm də istehsal xərclərinə aid edilən məsrəf normalarının artırılması ilə əlaqədar kənarlaşma hallanna rast gəlinir. Bu qəbildən olan qanun pozuntularına daha çox əsas vəsaitlərin və digər əmlakın dəyəri və onlar üzrə köhnəlmə məbləği, ezamiyyə xərclərinin məbləği, nümayəndəlik xərcləri və digər analoji xərclər müəyyən edilərək yol verilir.

Daha çox səciyyəvi olan səhvlər, bir çox hallarda isə bilərəkdən vergitutulan mənfəətin azaldılması məqsədilə edilən hərəkətlər aşağıdakılardır:

- qanunvericilikdə müəyyən edilmiş normalardan artıq məsrəflərin istehsal (tədavül) xərclərinə aid edilməsi;
- məsrəflərin tərkibi haqqında qaydada nəzərdə tutulmamış məsrəflərin istehsal (tədavül) xərclərinə aid edilməsi;

- ayrı-ayrı məsrəflərin istehsal (tıdavül) xərclərinin tərkibində uçota alınması;
- əsas vəsaitlərin düzgün olmayaraq az qiymətli və tezköhnələn əşyaların və əksinə ATƏ əsas vəsaitlərin tərkibinə aid edilməsi;
- amortizasiya və köhnəlmə məbləğinin düzgün hesablanmaması;
- xüsusi təyinatlı fondların formalaşması normalarının düzgün tətbiq olunmaması.

Bütün qeyd edilənlər vergi orqanlarının işçilərindən səyyar vergi yoxlaması zamanı mənfəət vergisinin yoxlanmasına daha məsuliyyətlə yanaşmalarını tələb edir. Vergi müfəttişi (auditor) vergitutulan mənfəət məbləği nəzərə alınmaqla qüvvədə olan dərəcələr üzrə vergi hesablanmasının düzgünlüyünü nəzərdən keçirməlidir. Bu zaman o, büdcəyə köçürülməli olan vergi məbləğinin vaxtında və tam ödənilməsi, vergi güzəştlərindən istifadə qaydasına əməl olunması və digər bu kimi məsələlərdə yol verilən nöqsanlan aşkar etməlidir. Bu məqsədlə yoxlayıcı vergi bəyannamələrini dəqqətlə nəzərdən keçirməli, dövlət büdcəsinə çatası məbləğin az göstərilməsi (gizlədilməsi) kimi nöqsanları aşkara çıxartmalı, onlann büdcəyə ödənilməsini təmin etməlidir.

Qüvvədə olan normativ sənədləri rəhbər tutmaqla mənfəət vergisinin hesablanmasının düzgünlüyünü və büdcəyə ödənilməsini yoxlayarkən auditor tərəfindən ilkin olaraq əsasən aşağıdakılar xüsusi olaraq müəyyənləşdirilməlidir:

£<2 özündə müəssisə fəaliyyətinin qısa xarakteristikasmı, müəssisənin Ədliyyə Nazirliyində qeydiyyatdan keçmə və yerli (regional) vergi orqanlannda uçota durma və vergi ödəyicisinin eyniləşdirmə nömrəsinin alınma tarixini əks etdirən təsis sənədləri; müəssisənin hansı fəaliyyət növü ilə məşğul olduğu; onun qanunverciliyə uyğun olub-olmaması və tesisedici sənədlərlə təsdiqlənməsi;

s**-2** müəssisənin bank və digər kredit müəssisələrindəki hesablaşma hesabmın (valyuta, cari) vəziyyəti, açılmış hesablann sayı və onlann qanuni olub-olmaması;

n yoxlama aktında müəssisə haqqında, onun hüquqi ünvanı, struktur bölmə və filialları, eləcə də digər təsərrüfat subyektləri haqqında konkret məlumatın olub-olmaması;

K müəssisənin hansı vaxtdan sahibkarlıq fəaliyyətinə başlaması, onun nizamnamə kapitalının formalaşması və hansı təsisçilər tərəfindən təsis edilməsi və s. Müəssisədə audit yoxlaması aparan vergi müfəttişi (auditor) vergitutulan mənfəətdən büdcəyə çatası vergi məbləğinin düzgünlüyünü müəyyən etmək üçün aşağıdakılara xüsusi fikir verməlidir:

> satılmış məhsulların (təhvil verilmiş işlərin və xidmətlərin) tam maya dəyərinin (onu təşkil edən bütün xərclər nəzərə alınmaqla) düzgün hesablanmasına (müəyyən edilməsinə);
> məhsulların satışından (iş və xidmətlərin təhvil verilməsindən) əldə olunan vəsaitin (pul məbləğinin) düzgün müəyyən olunmasına;
> məhsullann satışından (iş və xidmətlərin təhvil verilməsindən) əldə olunan mənfəət (zərər) məbləğinin (vergiyə cəlb olunan məbləğin) dəqiq müəyyən edilməsinə;
> vergi dərəcəsinin düzgün tətbiqinə;
> məhsulların (işlərin, xidmətlərin) satışından olan mənfəətin (əlavə dəyər vergisi və aksizlər çıxılmaqla) satışdan əldə edilən gəlirlə onlann maya dəyəri

nə daxil edilən məsrəflərin (istehsal və satışla əlaqədar olan) arasındakı fərq məbləğindən ibarət olmasına; .

> xarici iqtisadi fəaliyyətlə məşğul olan müəssisədə isə^ mənfəət məbləği hesablanarkən məhsulların (işlərin, xidmətləriny satışından əldə edilən gəlirlərdən ödənilmiş ixrac rüsumlarının çıxılmasma.

Mənfəət vergisinin yoxlanması proqramına daxil olan əsas məsələlər aşağıdakılardan ibarətdir:

a məhsullann (işlərin, xidmətlərin) satışından olan faktiki mənfəətin (zərərin) mühasibat uçotu və hesabatda əks etdirilməsinin düzgünlüyünün yoxlanması;

a satılmış məhsulların (işlərin, xidmətlərin) faktiki maya dəyəri haqqında uçot məlumatlarının dürüstlüyü; onun istehsalı və satışına çəkimiş faktiki məsrəflərin uçotda tam və düzgün əks etdirilib-etdirilməməsi; istehsal məsrəflərinin uçotu və məhsulun maya dəyərinin kalkulyasiya edilməsi qaydasına riayət olunub-olunmaması;

s sair satışdan olan mənfəətin (zərərin) mühasibat hesabatda əks etdirilməsinin düzgünlüyü və qanunauyğunluğunun yoxlanması;

K satışdankənar gəlirlərin hesabatda əks etdirilməsinin düzgünlüyü və qanunauyğunluğunun yoxlanması;

a fövqəladə gəlir və xərclərin mühasibat hesabatında əks etdirilməsinin düzgünlüyü və qanunauyğunluğunun yoxlanması;

1-3 mənfəət vergisi üzrə tətbiq edilmiş VCTgi güzəştlərinin düzgünlüyünün yoxlanması;

:-3 verginin hesablanmasının düzgünlüyü;

n əsas fəaliyyətlə məşğul olan işçi heyətinin əməyinin Ödənişinə çəkilən xərclərin onlann normalaşdınimış həcmindən artıq olub-olmamasının yoxlanması;

E3 mənfəət vergisi üzrə vergi bəyannamələrinin düzgünlüyünün yoxlanması. Tam kommersiya hesabında olmayan təsərrüfat-kommersiya fəaliyyətindən gəlir əldə edən müəssisəri (sahibkarları) yoxlayarkən, vergi müfəttişi bu əməliyyatların mühasibat uçotunun harada apanIdığmı və xüsusi bölməyə ayrılıb-ayrılmadığım, eləcə də onlann rəsmiləşdirilməsi üçün nəzərdə tutulmuş ilkin sənədlərin hara verildiyini müəyyənləşdirməlidir. 46 hesabın krediti üzrə satış pulunun mühasibat uçotu registrlərində əks olunmadığı aşkar edildiyi hallarda (belə əməliyyatlar olduqda) vergitutmadan yaymdınimış (gizlədilmiş) gəlirin məbləğini müəyyən etmək lazımdır.

Müəssisənin faktiki mənfəətini yoxlayarkən vergi müfəttişi ilkin sənədləri, vergi uçotunun uçot registrlərini, mühasibat uçotu və hesabatında müəsisənin mənfəətini təsdiq edən digər məlumtlan yoxlamalıdır.

Vergi müfəttişi müəssisənin faktiki mənfəətini yoxlayarkən kompleks və seçmə metodundan istifadə edə bilər. Seçmə metodunda yoxlamanı əhatə edən dövrdə ilkin sənədlərin yalnız bir hissəsi yoxlanılır. Ayrı-ayn əməliyyatlann yoxlanması metodu yoxlamanı aparan müfəttiş (auditor) tərəfindən müstəqil müəyyən edilir.

Tam (kompleks) yoxlama zamanı isə auditor bütün ilkin sənədləri, vergi uçotu registrlərini, mühasibat uçotu və hesabatında müəssisənin mənfəətini təsdiq edən məlumtlan bütünlüklə yoxlayır. İlkin sənədlərin və uçot registrlərindəki yazı- lışlann yoxlanması tam yoxlama metodu ilə həyata keçirilir. Yəni vergi auditi za

manı bütün ilkin sənədlər və mühasibat uçotu registrlərindəki bütün yazılışlar tam yoxlanılır.

Vergi auditinin bu formasına məsuliyyətsiz və vergi qanunvericiliyinin po-‘ zulması ehtimalı daha çox olan müəssisələrin təsərrüfat əməliyyatları məruz qalır.

Maliyyə-təsərrüfat əməliyyatlarının dürüstlüyü, sənədlərin riyazi və formal yoxlanması və ya sənədli nəzarətin digər xüxusi üsulları vasitəsilə müəyyən edilir.

Riyazi yoxlamada sənədlərdə aparılmış hesablamaların düzgünlüyü yoxlanılır. Formal yoxlama zamanı sənədlərin bütün rekvizitlərinin doldurulub-doldurul- maması; razılaşdınimamış düzəlişlərin, pozuntuların, mətn və rəqəmlərə əlavələrin edilib-edilməməsi; vəzifəli və maddi-məsul şəxslərin imzalarının əsl olub-olmaması müəyyənləşdirilir.

Lazım gəldikdə ilkin sənədlərdə əks olunmuş təsərrüfat əməliyyatlanmn dürüstlüyü (etibarlı olub-olmaması), yoxlama apanlan müəssisənin təsərrüfat əlaqəsində olduğu digər müəssisələrdə qarşılıqlı yoxlama aparmaqla müəyyən edilir.

Yoxlama zamanı məhsulların (işlərin, xidmətlərin) satışından əldə edilmiş pul vəsaitlərinin düzgünlüyünü yoxlamaq üçün aşağıdakı informasiya mənbələrindən istifadə olunur;

- hesabat dövrü üçün müəssisənin uçot siyasəti haqqında əmri;
- 2 X**2**İ “Maliyyə nəticələri və onlardan istifadə haqqında” hesabat;
- Baş kitab və dövriyyə balansı;
- 1,2 və 11 JVoli jurnal-orderlər (uçotun jurnal-order forması zamanı);
- anbardan hazır məhsulların buraxılışına görə tərtib edilmiş ilkin sənədlər (məxaric qaimələri, əmtəə-nəqliyyat qaimələri);
- hesablaşama hesabında pul vəsaitlərinin hərəkəti üzrə bank çıxarışları;
- yüklənmiş məhsullara görə alıcılar tərəfindən kassaya ödənilmiş nağd pul vəsaitlərinin kassaya ödənilməsi barədə kassa mədaxil orderləri (kassa kitabı);
- yüklənmiş məhsullann ödənişi üçün tərtib edilmiş ödəniş tapşınqlan və ödəniş tələbnamələri;
- müəssisənin ərazisindən hazır məhsulların buraxılışı üçün tərtib edilmiş buraxılış vərəqələri;
- zəmanət məktublan, qiymətin razılaşma protokolları;
- satılmış hazır məhsulların kalkulyasiyası;
- hesablar üzrə memorial-orderlər (mühasibat uçotunun memorial-order forması zamanı);
- alıcı və sifarişçilərlə bağlanmış müqavilələr və s.

Səyyar vergi yoxlaması aparan auditor ilkin olaraq *mənfəət vergisinin tutulma obyektinin müəyyən edilməsinin düzgünlüyünü yoxlamalıdır.* Bildiyimiz kimi, sadələşdirilmiş vergi ödəyicisi olmayan bütün hüquqi şəxslər mənfəət vergisi ödəyiciləridir. Mənfəət vergisinin tutulma obyekti təsərrüfat subyektinin əldə etdiyi mənfəətidir. Vergitutulan mənfəət - təsərrüfat subyektinin əldə etdiyi gəlirlərlə (vergidən azad edilən gəlirdən başqa) gəlirdən çıxılan xərcləri arasındakı fərqdən ibarətdir.

Mənfəətdən büdcəyə ödəniləsi verginin düzgün müəyyən edilməsində müəssisədə vergitutulan mənfəətin dəqiq hesablanmasının rolu böyükdür. Müəssisənin

mənfəət məbləğinin dəqiq müəyyən edilməsi isə məhsulların (işlərin, xidmətlərin) maya dəyərinə daxil edilən məsrəflərin düzgün hesablanmasından, mühasibat uçotunda və hesabatında əks etdirilməsindən asılıdır.

Mənfəət vergisinin auditi zamanı vergitutulan mənfəətin düzgün müəyyən edilməsi yoxlanılmalı, bu sahədə yolverilən nöqsanları aşkar etmək üçün dövri hesabatlarda əks etdirilmiş mənfəət məbləğinin düzgünlyünü nəzərdən keçirilməlidir. Bu məqsədlə təsərrüfat subyektinin gəlirinin və gəlirdən çıxılan xərclərin hesablanmasının düzgünlüyü dəqiqləşdirilir

Hüquqi şəxslərin mənfəət vergisi. konkret vergi dövrü üçün hesablanılır və vergiyə məhz həmin dövr ərzində əldə edilmiş mənfəət cəlb olunur. Bu səbəbdən vergitutulan mənfəət hesablanarkən, məhz həmin hesabat dövrünə aid olan gəlir və xərclər nəzərə alınmalıdır. Çünki müxtəlif vergi dövrlərinin gəlir və xərclərinin tutuşdurulması vergitutma bazasım təhrif etməklə yanaşı, eyni obyektin təkrarən vergiyə cəlb olunması ilə nəticələnə bilər.

Bu baxımdan vergitutma məqsədləri üçün gəlir və xərclərin uçotu qaydası hüquqi şəxslərin mənfəət vergisinin müəyyənləşdirilməsində həlledici amildir. Audit yoxlamasını başlamazdan əvvəl vergi müfəttişi ilk növbədə yoxlama aparılan müəssisədə gəlir və xərclərin hansı metodla aparıldığını müəyyən etməlidir. Mövcud qanunvericiliyə uyğun olaraq müəssisələr vergitutma məqsədləri üçün öz gəlir və xərclərinin uçotunu hesabat ili ərzində eyni metod tətbiq emək şərilə kassa və ya hesablama metodu ilə apara bilərlər. Nəzərə almaq lazımdır ki, vergi ödəyicisi vergi ili ərzində seçdiyi metodu dəyişdirə bilməz.

Gəlir və xərclərinin uçotunu Vergi Məcəlləsində nəzərdə tutulan kassa və hesablama metodlarını mühasibat uçotunda tətbiq olunan satış pulunun müəyyən edilməsi qaydalan ilə (“yükləmə üzrə”; “ödəmə üzrə”) eyniləşdirmək düzgün deyil. Belə ki, satışdan əldə edilən gəlir müəssisənin təsərrüfat fəaliyyətindən və bağlanmış müqavilələrin şərtindən asılı olaraq ya satılmış və dəyəri ödənilmiş (yəni nağd- sız hesablaşma zamanı müəssisənin bankdakı hesablaşma, yaxud cari hesabına ödəniş sənədlərinə əsasən daxil olan məbləğlər üzrə) məhsullara (mallara, işlərə, xidmətlərə) görə ya da yüklənib göndərilmiş məhsullara (mallara, təhvil verilmiş işlərə və göstərilmiş xidmətlərə) görə ödəniş sənədləri alıcıya (sifarişçiyə) təqdim edildikdə müəyyən edilir.

Vergitutma məqsədləri üçün gəlir və xərclərin uçotu zamanı vergi ödəyicisi- nin istifadə etdiyi uçot metodundan asılı olaraq, gəlirlərin əldə edilməsi və xərclərin çəkilməsi vaxtının Vergi Məcəlləsində müəyyən edilmiş bütün tələbləri nəzərə alınmalıdır. Auditor tərəfindən mənfəət vergisinin düzgün hesablanması yoxlanılarsa, mütləq hüquqi şəxsin aktivlərin təqdim edilməsi üzrə əməliyyatının nəticələrinin məcəllənin 142-ci maddəsinə uyğun olaraq mənfəət və zərərə düzgün aid edilməsi araşdırılmalıdır. Hesablanmış mənfəət vergisinin analitik və sintetik uçot re- gistrlərində düzgün əks etdirilməsinə əminlik əldə edilməli, analitik uçot göstəriciləri baş kitabla tutuşdurulmalıdır.

Qeyd etdiyimiz kimi, müəssisə tərəfindən büdcəyə ödəniləsi mənfəət vergisi məbləğinin düzgün və dəqiq müəyyən edilməsi məhsulların (işlərin və xidmətlə

rin) maya dəyərinə daxil edilən məsrəflərin düzgün hesablanmasından, mühasibat uçotu və hesabatında əks etdirilməsindən asılıdır.

Məhz bu səbəbdən, vergi orqanlan tərəfindən aparılan yoxlamanın əsas istiqamətlərindən biri də istehsal və tədavül xərclərinin formalaşmasının düzgünlüyü üzərində nəzarətdən ibarətdir. Vergi müfəttişi yoxlamanın gedişatı zananı xərclərin hansı hesabların kreditindən maya dəyərinin formalaşdığı hesabların debetinə silindiyini və onların uçot registrlərində (jurnal-orderdə, cədvəllərdə, kitablarda, mühasibat yazılışlarında) əks etdirilməsinin qanuniliyini yoxlamalıdır.

İstehsal olunmuş məhsulların (işlərin, xidmətlərin) maya dəyərini maddiləş- miş və canlı əmək məsrəfləri təşkil edir. Məhsulun maya dəyəri, məhsulun pul formasında ifadə olunan dəyərinin bir hissəsini təşkil edir. Maya dəyərinə daxil edilən istehsal xərcləri vergiqoyma məqsədilə müvafiq normativ aktlarda təsdiq edilmiş limit, norma və normativlər əsasında müəyyənləşdirilir.

Məhsulun (işin, xidmətin) istehsalına çəkilən xərclər, əvvəlcədən və ya sonradan ödənməsindən asılı olmayaraq hesabat dövrünə aid edilən məhsulun (işin, xidmətin) maya dəyərinə daxil edilir. Lakin bir sıra məsrəflər istehsal olunan məhsulların (işlərin, xidmətlərin) maya dəyərinə daxil edilmir və başqa mənbələr hesabına ödənilir.

Auditor məhsulun (işin, xidmətin) maya dəyərinin hesablanmasının düzgünlüyünü yoxlayarkən yuxarıda göstərilənlərə riayət olunub-olunmamasını müəyyən etməli və bu sahədə yol verilən nöqsanlara obyektiv qiymət verməlidir.

Məhsulun maya dəyəri müəssisə fəaliyyətinin keyfiyyət göstəricilərindən biridir. Maya dəyərinin səviyyəsi, mənfəətin həcminə və mənfəət vergisinin məbləğinə birbaşa təsir edir. Məhz bu səbəbdən yoxlamanın əsas məqsədi məhsulun istehsal və satışına aid edilən məsrəflərin nə dərəcədə məqsədəuyğun olub-olmamasını müəyyənləşdirməkdən ibarətdir. Məhsulun maya dəyərinə aid edilən məsrəflərin təılcibi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 111 saylı 16 avqust 1996-cı il tarixli "Məhsulların (işlərin, xidmətlərin) maya dəyərinə aid edilən məsrəflərin tərkibi haqqında" Qaydası ilə müəyyən edilir.

Vergi müfəttişi xərclərin hansı hesabların kreditindən maya dəyərinin formalaşdığı hesabların debetinə silindiyini və onların uçot registrlərində (jurnal-orderdə, cədvəllərdə, kitablarda, mühasibat yazılışlarında) əks etdirilməsinin qanuniliyini yoxlamalıdır.

Maya dəyərinin formalaşmasının düzgünlüyünü yoxlayarkən 10, 10/1 və lOa >f**2**İi jurnal-orderlərin məlumatlarından istifadə etmək lazımdır. Çünki, bu jurnal-orderlərdə istehsal məsrəflərini uçota alan hesablarla (20,23,25,26,28,31) qarşılıqlı surətdə material qiymətlilərini (10,12,15,16), azqiymətli və tezkönələn əşyaların köhnəlməsini (13), əmlak və şəxsi sığorta üzrə hesablaşmalan (65), sosial sığorta və təminat üzrə hesablaşmaları (69), əməyin ödənişi üzrə işçi heyəti ilə hesablaşmalan (70), əsas vəsaitlərin və qeyri-maddi aktivlərin köhnəlməsini uçota alan hesablann (02,05) kredit dövriyyəsi əks olunur. Yoxlama zamanı istifadə olunmuş hesablann siyahısına və onlarda əks olunmuş məsrəf məbləğlərinin düzgün və tamlığına xüsusi diqqət yetirmək, xərc elementləri və məsrəf maddələri üzrə informasiyanın analitikliyinin təmin edilməsini qiymətləndirmək lazımdır.

Yoxlama zamanı auditor hesablanmış vergi məbləğinin sintetik və analitik uçot registrlərində güzgün əks etdirilməsinə əmin olmalı, analitik uçot göstəricilərini baş kitabdakı sintetik göstəricilərlə tutuşdurmalıdır.

Auditor tərəfindən müəssisənin tam maya dəyərini əsassız olaraq artırdığı və bu səbəbdən satılmış məhsulların təqdim edilmiş hesabat üzrə tam maya dəyəri məbləğinin yoxlaması zamanı ilkin sənədlərə əsasən müəyyən edilmiş kənarlaşmalar həcmində mənfəətin azaldıldığı aşkar edildikdə, müəssisə büdcəyə gizlədilmiş mənfəət məbləğinin 100% həcmində maliyyə sanksiyası ödəməlidir.

Auditor yoxlamanın gedişatı zamanı yoxlama aparılan müəssisədə hesabat ilinin əvvəlinə gəlirdən çıxılmasına yol verilən xərclərin gəlirdən artıq olan hissəsinin mövcud olub-olmamasını müəyyənləşdirməlidir. Nəzərə almaq lazımdır ki, əgər belə hallar mövcud olarsa, onda həmin zərər məbləği illər üzrə məhdudiyyət qoyulmadan növbəti üç hesabat ilinin mənfəəti hesabına ödənilir.

Yoxlama zamanı auditor hesablanmış vergi məbləğinin sintetik və analitik uçot registrlərində düzgün əks etdirilməsinə əmin olmalı, analitik uçot göstəricilərini baş kitabdakı sintetik göstəricilərlə tutuşdurmalıdır.

Mənfəət vergisinin auditi zamanı nəzərdən keçirilməsi vacib olan məsələlərdən biri vergi güzəştlərinin tətbiqi və verginin hesablanmasının düzgünlüyünün yoxlanılmasıdır. Yoxlama zamanı auditor təsərrüfat subyektinin Vergi Məcəlləsinin 106-cı maddəsinə əsasən mənfəət vergisindən azad olunan gəlirinin və mənfəət vergisi üzrə güzəşt hüququnun olub-olmamasını araşdırmalıdır. Bu zaman nəzərə almaq lazımdır ki, güzəşt hüququ olan təsərrüfat subyektinin güzəşt şamil edilən mənfəətdən başqa digər fəaliyyəti də olduqda, o, güzəştə düşən və güzəşt hüququ olmayan fəaliyyət növləri üzrə uçotu ayrı-ayrılıqda aparmalıdır. Əks halda, güzəşt tətbiq edilmir.

Xərelərin tərkibi yoxlanılarkən auditor bu xərclərin tərkibində Vergi Məcəlləsinin 109-cu maddəsində nəzərdə tutulmuş gəlirdən çıxılmayan xərclərin olmamasına əmin olmalıdır. Bu zaman nəzərə alınmalıdır ki, qeyri-kommersiya fəaliyyəti ilə bağlı olan xərclərin, əyləncə və yemək xərclərinin, habelə işçilərin mənzil və digər sosial xarakterli xərclərinin gəlirdən çıxılmasına yol verilmir.

Eyni zamanda, auditor gəlirdən faizlər üzrə çıxılan məbləğlərin məhdudlaşdırılan norma çərçivəsində olmasına, ehtiyat sığorta fondlarına ayırmaların müəyyən edilmiş normalara uyğunluğuna, elmi-tədqiqat, layihə-axtarış və təcrübə- konstruktor işlərinə çəkilən xərclərin (əsas vəsaitlərin alınması və qurulması ilə bağlı xərclər, habelə kapital xarakterli digər xərclər' istisna olmaqla) gəlirdən düzgün çıxılmasına diqqət yetirməlidir.

Yoxlama zamanı *ümidsiz* və *şübhəli borcların* gəlirdən çıxılması hallarının mövcudluğu araşdırılmalı, belə hal aşkar edilərsə, auditor həmin gəlirin əvvəllər sahibkarlıq fəaliyyətindən əldə edilən ümumi gəlirə daxil edilməsinə, bu borcun ümidsizliyinin sənədlərlə təsdiq edilməsinə əmin olmalıdır. Əks halda, həmin məbləğlər gəlirdən çıxıla bilməz. Bu zaman nəzərə alınmalıdır ki, ümidsiz borc məbləğinin gəlirdən çıxılmasına vergi ödəyicisinin mühasibat hesablarında ümidsiz borc məbləğinin dəyəri olmayan borc kimi silindiyi vaxt yol verilir. Nəzərə almaq

lazımdır ki, ümidsiz borclar üzrə ehtiyat fondunu'yalnız gəlir və xərclərin hesablama metodunu tətbiq edən müəssisələr yarada bilər.

Auditor gəlirdən çıxılan xərclərin tərkibinə aid edilən *amortizasiya ayırmalarının hesablanmasının düzgünlüyünü* yoxlayarkən, amortizasiya hesablamalarının Vergi Məcəlləsinin 114-cü maddəsinə uyğun apanidığına əmin olmalıdır. Nəzərə almaq lazımdır ki, torpaq, incəsənət əsərləri, nadir tarixi və memarlıq abidələri olan binalar (qurğular, tikililər) və köhnəlməyə məruz qalmayan digər aktivlər amortizasiya olunmur. Amortizasiya olunan aktivlər üzrə illik amortizasiya normaları Vergi Məcəlləsinin 114-cü maddəsi ilə müəyyən edilir. Auditor əsas vəsaitlərin həmin maddəyə əsasən kateqoriyalara güzgün aid edilməsini yoxlamalıdır. Eyni zamanda amortizasiya ayırmalarının kateqoriyalara aid olan əsas vəsaitlərin hesabat ilinin sonuna olan balans qalıq dəyərinə tətbiq etməklə hesablanmasına əmin olmaq lazımdır. Bundan başqa, əvvəlki hesabat illərində hər hansı kateqoriyaya aid əsas vəsaitlər üzrə müəyyən edilmiş amortizasiya normalarmdan aşağı norma tətbiq olunması hallarının olub-olmaması araşdırılmalıdır. Əgər belə hallar aşkar edilərsə, onda yaranmış fərq cari hesabat ilində gəlirdən çıxılan amortizasiya məbləğlərinə əlavə olunmalıdır.

Gəlirdən çıxılan xərclərin tərkibində *təmir xərclərinin* mövcudluğuna da diqqət yetirmək lazımdır. Qeyd etmək lazımdır ki, Vergi Məcəlləsinin 115-ci maddəsinə əsasən təmirlə bağlı xərclərin gəlirdən çıxılması məhdudlaşdmlır. Yoxlama zamanı auditor gəlirdən çıxılan təmir xərclərinin məhdudlaşdırılan məbləğdən artıq olmadığına əmin olmalıdır. Əvvəlki hesabat illərində hər hansı kateqoriyaya aid əsas vəsaitlər üzrə vergi ili üçün müəyyən olunmuş həddən aşağı məbləğdə təmir xərcinin olub-olmaması araşdınimalıdır. Əgər belə hallar aşkar edilərsə, onda yaranmış fərq cari hesabat ilində gəlirdən çıxılan təmir xərclərinə əlavə edilir. Bu zaman nəzərə almaq lazımdır ki, amortizasiya olunmayan (köhnəlmə hesablanmayan) əsas vəsaitlərin təmirinə çəkilən xərclər vergitutulan gəlirdən çıxılmır. Həmin xərclər sözügedən əsas vəsaitlərin balans dəyərinə əlavə edilir.

Gəlirdən çıxılan xərclərin tərkibi yoxlanarkən nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikası və onun hüdudlarından kənarda ödənilən mənfəət vergisi və gəlirdən hesablanan istənilən verginin, vergilərin vaxtında ödənilməməsinə görə hesablanmış *maliyyə sanksiyaları və faizlərin* vergitutulan gəlirdən çıxılmasına icazə verilmir.

Qeyd etmək lazımdır ki, rezident müəssisənin Azərbaycan Respublikasının hüdudlarından kənarda göstərdiyi fəaliyyətdən əldə etdiyi mənfəətə görə ödədiyi mənfəət vergisinin məbləği Azərbaycanda mənfəət vergisi ödənilərkən nəzərə alınır. Mövcud qanunvericiliyə uyğun olaraq rezident müəssisənin Azərbaycan Respublikasının hüdudlanndan kənarda xarici valyutada əldə etdiyi mənfəət, onun ölkəmizə köçürüldüyü günə Mərkəzi Bankın müəyyən etdiyi məzənnəyə uyğun olaraq milli valyutaya çevrilir. Bundan sonra həmin mənfəət məbləği rezident müəssisənin ölkəmizin ərazisində əldə etdiyi vergitutulan mənfəət məbləğinə əlavə edilərək ümumi müəyyən edilmiş qaydada vergiyə cəlb olunur. Sonra hesablanmış vergi məbləği rezident müəssisənin xarici dövlətlərdə ödədiyi vergi məbləği qədər azaldılır (verginin ödənilməsini təsdiq edən sənədlər təqdim edilmək şərti ilə). Bu

zaman nəzərə almaq lazımdır ki, rezidentin xarici dövlətlərdə ödədiyi vergi məbləği ölkə ərazisində ödənilməli olan vergi məbləğindən çox olmamalıdır. Əgər xarici dövlətlərdə ödənilən vergi məbləği ölkə ərazisində ödənilməli olan vergi məbləğindən çox olarsa, onda yaranmış fərq müəssisənin sərəncamında qalan mənfəətə əlavə edilir.

Vergilərin vaxtında ödənilməməsinə görə hesablanmış maliyyə sanksiyaları və faizlərə gəldikdə isə onlar müəssisələrin sərəncamında qalan mənfəət hesabına ödənilir.

Yoxlamanın gedişatı zamanı auditor yoxlama aparılan təsərrüfat subyektində digər hüquqi və fiziki şəxslərə ödənilən passiv gəlirlərdən (icarə haqqından, faizlərdən, dividentlərdən, royaltidən) ödəmə mənbəyində vergilərin tutulmasının düzgünlüyünə diqqət yetirməlidir. Qeyd etmək lazımdır ki, həmin gəlirlərdən heç bir xərc çıxılmadan ödəmə mənbəyində müvafiq faizlərlə vergi tutulur.

Auditor qeyri-rezidentin daimi nümayəndəliklərində audit yoxlaması apararkən nəzərə almalıdır ki, mənfəət vergisindən əlavə həmin nümayəndəliklərin öz xalis gəlirlərindən qeyri-rezidentlərə ödədikləri (köçürdükləri) istənilən məbləğdən ödəmə mənbəyində 10 faiz vergi tutulur.

Eyni zamanda yoxlamanın gedişatı zamanı gəlirdən faizlər üzrə çıxılan məbləğlərin məhdudlaşdırılan norma çərçivəsində olmasına, ehtiyat sığorta fondlarına ayırmaların müəyyən edilmiş normalara uyğunluğuna, elmi-tədqiqat, layihə axtarış və təcrübə konstruksiya işlərinə çəkilən xərclərin (əsas vəsaitlərin alınması və quraşdırılması ilə bağlı xərclər, eləcə də kapital xarakterli digər xərclər istisna olmaqla) vergitutulan gəlirdən çıxılmasma diqqət yetirmək lazımdır.

Auditor həmçinin rezidentin qeyri-rezidentə, daimi nümayəndəliyə aid olmayan ödədiyi ümumi məbləğdən xərclər çıxılmadan ödəmə mənbəyində verginin düzgün tutulmasına fikir verməlidir.

Auditor yoxlamanın gedişatı zamanı yoxlama apanlan müəssisədə hesabat ilinin əvvəlinə gəlirdən çıxılmasma yol verilən *xərclərin gəlirdən artıq olan hissəsinin* mövcud olub-olmamasını müəyyənləşdirməlidir. Nəzərə almaq lazımdır ki, əgər belə hallar mövcud olarsa, onda həmin zərər məbləği illər üzrə məhdudiyyət qoyulmadan növbəti üç hesabat ilinin mənfəəti hesabına ödənilir.

Audit yoxlamasının gedişatı zamanı vergi müfəttişinin diqqət yetirməli olduğu əsas məsələlərdən biri də məhsulların (işlərin, xidmətlərin), sair aktivlərin satışından olan faktiki mənfəətin (zərərin), eləçə də satışdankənar gəlir və xərclərin mühasibat uçotu və hesabatda əks etdirilməsinin düzgünlüyünün yoxlanmasıdır.

Auditor mənfət vergisinin yoxlamasının gedişatı zamanı təsərrüfat əməliy-yatlannın mühasibat uçotunda əks etdirilməsi qaydasını və vergi qanunvericiliyinin tələblərini də nəzərə almalıdır.

Vergitutma məqsədləri üçün balans mənfəətinin (zərərinin) korrektə edilməsinin düzgünlüyünü yoxlayarkən auditor mənfəət vergisi üzrə vergi boyannamə- sindəki məlumatlarla yaxından tanış olmalıdır.

Bunun üçün auditor ilk növbədə yoxlama apardığı müəssisədə gəlir və xərclərin hansı metod ilə aparıldığını müəyyən etməlidir. Mövcud vergi qanunvericiliyə

uyğun olaraq vergi ödəyiciləri gəlir və xərclərim hesabat (vergi) ili ərzində iki mptodla apara bilər: hesablama və kassa. Hər hansı bir metodun seçilməsi həm uçot işlərinin təşkilinə, həm də mühasibat yazılışlarının tərtibinə və əməliyyatların uçotda əks etdirilməsinə öz təsirini göstərmiş olur. Odur ki, uçot metodu seçərkən istifadə ediləcək hesablar, onların müxabirləşməsi və təyinatını nəzərə almaq lazımdır. Çünki hər iki metodda gəlir və xərclərin uçota alınması vaxtı fərqlənir.

Burada diqqəti cəlb edən məsələlərdən biri də hansı metodun tətbiq edilməsindən asılı olaraq məhsul satışı üzrə əməliyyatların uçotda əks etdirilməsi qaydasının fərqli olmasıdır. Belə ki, hesablama metodundan istifadə olunarkən gəlirin əldə edilməsi vaxtı onun əldə edilmə hüququnun yarandığı vaxt hesab olunur. Yəni vergi, ödəyicisi müqavilə üzrə bütün öhdəliklərini yerinə yetirmişdirsə və müvafiq məbləğ vergi ödəyicisinə qeyri şərtsiz ödənilmişdirsə, onda gəlir almaq hüququ əldə edilmiş sayılır. Bu halda malların satışını həyata keçirən müəssisə alıcılara (sifarişçilərə) göndərdiyi malların (göstərdiyi xidmətlərin, yerinə yetirdiyi işlərin) faktiki maya dəyərini 40 K**2**-İ "Hazır məhsul" hesabın krediti ilə müxabirləşməklə 46 Ke-li "Məhsul satışı" hesabın debetinə silir. Eyni zamanda satılmış mallara görə alıcılardan daxil olacaq məbləğə (debitor borcuna) aşağıdakı müxabirləşmə tərtib edilir:

Dt 62 "Alıcılar və sifarişçilərlə hesablaşmalar";

Kt 46 "Məhsul (iş, xidmət) satışı".

Nəzərə almaq lazımdır ki, əgər müəssisə əlavə dəyər vergisinin ödəyicisidir- sə, onda satılmış mallar üzrə hesablanmış vergi məbləğinə aşağıdakı mühasibat yazılışı tərtib edilir:

Dt 46 "Məhsul (iş, xidmət) satışı";

Kt 68, subhesab "ƏDV üzrə büdcə ilə hesablaşmalar".

Sonra ümumi qaydada 46 saylı hesabın debet və kredit dövriyyələri müqayisi edilərək maliyyə nəticələri 80 saylı hesaba silinir. Gəlirlərin hesablama metodu ilə uçota alınması, satış pulunun (debitor borcunun) faktiki olaraq hesablaşma hesabına (kassaya) daxil olmadığı halda belə, maliyyə nəticələrinin müəyyən edilməsi və vergiyə cəlb edilməsinə gətirib çıxarır.

Gəlirlərin uçotunun kassa metodunu tətbiq edən müəssisələr 45 Xe-li "Yüklənmiş mallar" adlı hesabdan istifadə edirlər. Bu zaman alıcılara göndərilmiş malların dəyəri 40 "Hazır məhsul" hesabın krediti ilə müxabirləşməklə 45 saylı hesabın debetinə əks olunur. Nəzərə almaq lazımdır ki, "kassa" metodunun tətbiqi zamanı yüklənmiş malların dəyəri alıcılar tərəfindən ödənildiyi gün onlar satılmış hesab olunur.

Alıcılar tərəfindən göndərilmiş malların dəyəri ödənildikdə sonra, yəni pul vəsaitləri müəssisənin kassa və ya hesablaşma hesabına daxil olduqda aşağıdakı mühasibat yazılışlan tərtib edilir:

1) Dt 51 "Hesablaşma hesabı" (50)

Kt 46 "Məhsul (iş və xidmətlər) satışı" - satılmış malların tam maya dəyəri;

2) Dt 46 "Məhsul (iş və xidmətlər) satışı" hesabı

Kt 45 "Yüklənmiş mallar" hesabı - satılmış malların faktiki maya dəyəri.

Əgər təsərrüfat subyekti əlavə dəyər vergisi ödəyicisidirsə, onda yüklənmiş malların dəyəri alıcılar tərəfindən ödənildikdən sonra satılmış mallar üzrə vergi hesablanır və bu aşağıdakı mühasibat yazılışı tərtib etməklə rəsmiləşdirilir:

Dt 46 "Məhsul (iş, xidmət) satışı";

Kt 68, subhesab "ƏDV üzrə büdcə ilə hesablaşmalar".

Sonra 46 JVsli hesabın debet və kredit dövriyyəsi tutuşdurularaq hesabat dövrünü maliyyə nəticəsi müəyyən edildikdən sonra 80 saylı hesaba silinir.

"Yükləmə üzrə" və "ödəmə üzrə" məhsullann (işlərin, xidmətlərin) satışı üzrə əməliyyatların uçotu üçün mühasibat uçotunda 16, I6a K**2**İİ cədvəllər və llKsli jurnal-order nəzərdə tutulmuşdur. 16 Jfeli cədvəl məhsul satışından əldə edilən pul vəsaitinin yükləmə üzrə metodu ilə müəyyən edildiyi zaman aparılır. Bu cədvəldə alıcılarla hesablaşmalann (62) və məhsul satışının (46) uçotu birgə aparılır.

16a Xsli cədvəl məhsullann yüklənməsi zamanı satış pulunun "ödəmə üzrə" müəyyən edilməsi zamanı istifadə olunur və yüklənmiş məhsulllara görə tərtib edilmiş hesablaşma sənədlərinin yığılması və qruplaşdırılması üçün nəzərdə tutulmuşdur.

11 Jfoli Jurnal-orderdə müxabirləşən hesablann (40, 41,43,45, 62) kreditləri üzrə aylıq yekunlar əks olunur. Bununla yanaşı jurnalda 16 və 16a cədvəllərində məhsullann yüklənməsi, buraxılışı və satışı üzrə məlumatlar ümumiləşdirilir.

Satış pulunun formalaşdınlmasının düzgünlüyünə 11 Jfoli jurnal orderdə aparılmış aşağıdakı yazılışlara əsasən nəzarət edilir:

Dt 62 "Alıcılar və sifarişçilərlə hesablaşmalar";

Kt 46 "Məhsulların satışı" ("yükləmə üzrə"metodu zamanı); və

yaxud:

Dt 50 "Kassa", 51 "Hesablaşma hesabı", 52 "Valyuta hesabı";

Kt 46 "Məhsullann satışı" ("kassa üzrə"metodu zamanı).

Satılmış və alınmış mallar üçün tərtib edilmiş ilkin mühasibat sənədlərində vergi ödəyicisinin eyniləşdirmə nömrəsinin (VÖEN) göstərilməsinə xüsusi fikir vermək lazımdır.

Podrat müqavihsi üzrə işlər yerinə yetirilərkən (sifarişçilərin təqdim etdikləri xammaldan istifadə edilərkən) sifarişçi müəssisədə podratçılara materialların buraxılışı onlann satışı kimi uçota alınmamalıdır. Çünki belə hallarda müqavilənin şərtlərinə görə həmin xammalın dəyəri podratçılar tərəfindən ödənilmir və yalnız yenidən emal edilmək üçün podratçı təşkilata verilir. Emal üçün qədul edilmiş xammal podratçı müəssisədə 003 saylı "Emala qəbul edilmiş materiallar" adlı balansarxası hesabda, sifarişçi müəssisədə isə 46 saylı hesabda uçota alınır və onun dəyəri mənfəət vergisi üzrə vergitutma bazasına daxil edilmir.

Müəssisələr vergitutma məqsədləri üçün satış pulunu kassa metodu ilə müəyyən etdiyi hallarda, məhsulların satışından daxil olmuş pul vəsaitləri 46 saylı hesabın krediti üzrə əks olunduqdan sonra (Dt 51,52 - Kt 46), satılmış mallann faktiki maya dəyəri 45 saylı hesabın krediti ilə müxabirləşməklə 46 saylı hesabın debetinə silinir.

Satış pulunun hesablama metodu ilə müəyyən edildiyi hallarda isə gəlir əldə etmək hüququnun yarandığı an (Dt 62 - Kt 46), satılmış malların faktiki maya də-

yəri 40, 20 və ya 37 hesabın krediti ilə müxabirləşməklə 46 saylı hesabın debetinə silinir.

46 saylı hesabın kredit dövriyyəsi olmadan bu hesabın debetinə məbləğlərin əks olunması aşakar edildiyi hallarda, auditor vergitutulan gəlirdən gizlədilmiş məbləği müəyyən etməlidir.

Auditor *əvəzsiz olaraq alınmış əmlakın* vergi və mühasibat uçotunda əks olunmasına da diqqət yetirməlidir. Vergi qanunvericiliyinə uyğun olaraq müəssisənin vergitutulan mənfəəti əvəzsiz olaraq alınmış əsas vəsaitlərin dəyəri qədər artırılır. Nəzərə almaq lazımdır ki, əvəzsiz olaraq alınmış əsas vəsaitlərin dəyəri satış- dankənar gəlirlərin tərkibində uçota alınır. Həmin əsas vəsaitlər müəssisəyə daxil olduqda, onların dəyəri əvvəlcə 01 saylı hesabla müxabirləşməklə 87 saylı hesabın kreditinə, hesabat ilinin sonunda isə maliyyə nəticələrinə silinir (Dt 87 - Kt 80). Bu qayda mühasibat hesabatı göstəricilərinin formalaşması qaydası haqqında metodik tövsiyyələrdə nəzərədə tutulmuşdur. Əvəzsiz olaraq alınmış əsas vəsaitlər üzrə amortizasiya məbləğləri həmçinin mənfəət vergisi üzrə vergitutma bazası hesablanarkən nəzərə alınır.

Yoxlama zamanı *yarımfabrikatiarın kənara satılıb-satılmaması faktına* fikir vermək lazımdır. Bunun üçün seçmə üsulu ilə alıcı müəssisələr tərəfindən dəyəri ödənilmiş yarımfabrikatiarın mələği, malsatanın 46JV2İİ hesabının kreditində əks olunmuş məbləğlə müqayisə edilməlidir.

Xarici valyuta əldə edilmiş satış pulu (gəlir) yoxlanılarkən nəzərə almaq lazımdır ki, bu gəlir məbləği valyuta məzənnə fərqi məbləğinin artıb-azalması nəzərə alınmaqla göndəriş sənədlərinə əsasən 46Jf2İi hesabın kreditindəki məbləğə bərabər .olmalıdır.

Valyutanın mütləq satışını həyata keçirən müəssisələr 46 saylı hesabın krediti üzrə əldə edilən gəlirin bank müəssisəsinin sənədləri ilə təstiqlənən manat ekvivalenti ilə əks etdirilir. Valyutanın müvəkkil banklar tərəfindən sərbəst satışı zamanı bu satışın nəticələri valyutanın satış və balansda əks etdirilmiş məzənnə fərqləri arasında əmələ gəlmiş fərq (müsbət və ya mənfi) məbləğləri 83 saylı hesabın "Məzənnə fərqi" subhesabında uçota alınır. İlin sonunda isə bu hesabda yığılmış məzənnə fərqinin məbləği satışdankənar gəlir (zərər) kimi 80 "Mənfəət və zərərlər" hesaba silinir.

Mal mübadiləsi və barter üsulu ilə dəyəri ödənildikcə müəsisəyə daxil olan məhsullar (mallar, əsas vəsaitlər və sair əmlak), təhvil alınmış iş və xidmətlər uçota alınmaqla müvafiq hesabların (01,10,12,40,41) debeti ilə müxabirləşməklə 60 "Malsatan və podraçılarla hesablaşmalar", yaxud 76 "Müxtəlif debitor və kreditorlarla hesablaşmalar" hesabının kreditinə əks olunur. Eyni zamanda, müvafiq olaraq 46 və 48 saylı hesabların krediti, 60 saylı hesabın debeti üzrə əks olunan borclar, mal mübadiləsi qaydasında satış üçün yola salınmış mallann, yerinə yetirilmiş işlərin və göstərilmiş xidmətlərin maya dəyəri müvafiq satış hesablannin debetinə silinir.

Barter əməliyyatları dəyəri ödənilmədən yola salınmış məhsullara, təhvil verilmiş işlərə və göstərilmiş xidmətlərə görə həyata keçirildikdə, onlann dəyəri müvafiq satış hesablannin krediti ilə müxabirləşməklə 60 (76) saylı hesabın debetində əks etdirilir. Eyni zamanda, satış hesabının debeti yola salınmış məhsullan uçota

alan hesabların krediti ilə müxabirləşir. Bu əməliyyatlar üzrə maliyyə nəticələri həmçinin 80 saylı hesaba silinir.

Mal mübadiləsi şəklində müəssisəyə daxil olmuş mallar (işlər, xidmətlər, məhsullar) müvafiq hesabların debeti ilə müxabirləşməklə 60 (76) hesabın kreditində uçota alınır. Xarici şəxslərlə bağlanmış müqavilələrə (kontraktlara) əsasən həyata keçirilən konsiqnasiya yolu ilə ixrac əməliyyatları, ölkə ərazisində malların müəyyən müddət ərzində ixracında nəzərdə tutulur

Beləliklə, vergi müfəttişi ilkin uçot və hesabat sənədlərinə əsasən *məhsulların satışından əldə edilmiş gəlirlərin düzgünlüyünü* aşağıdakı qaydada yoxlamalıdır.

1. **2**JSoli "Maliyyə nəticələri və onlardan istifadə olunması haqqında" hesabat formasında məhsulların satışından olan ümumi gəlir maddəsindəki göstəricisi (hesabatın birinci bölməsi, kod sətiri 010), Baş kitabın (dövriyyə balansının) 46 saylı hesabın kredit göstəricisi ilə tutuşdurulur. Kənarlaşmanın məbləği ƏDV bəyannaməsindəki "Satılmış məhsullara görə hesablanmış ƏDV" sətirində göstərilən məbləğə və **2**JV**9**İİ "Maliyyə nəticələri və onlardan istifadə olunması haqqında" hesabat formasının 015 kod sətirindəki ƏDV- nin və 020 kod sətirindəki "Aksizlər" maddəsindəki məbləğlərə bərabər olmalıdır. Başqa sözlə, kənarlaşmanın ümumi məbləği aksizlər və əlavə dəyər vergisinin (dolayı vergilərin) ümumi məbləğinə bərabər olmalıdır. Baş kitabda 46 saylı hesabın krediti üzrə əks olunmuş məbləğin **2**X**2**İİ hesabat formasının müvafiq sətirində göstərilən satış pulu (ümumi gəlir) məbləğinə (ƏDV və aksizlər nəzərə alınmadan) uyğun gəlmədiyi hallarda yoxlayıcı bu uyğunsuzluğun səbəblərini müəyyən etməli və bu barədə aktda müvafiq qeyd etməlidir.
2. Baş kitab üzrə məlumatlar **11** X**2**İİ jurnal-orderin (hesabdarlığın Jurnal-order forması zamanı) və ya 46 X**2**İİ hesabın krediti üzrə hazır məhsul satışının məbləğini əks etdirən uçot registrlərindəki məlumatlar tutuşdurulur. Hesabat məlumatlarını uçot registrlərində əks olunmuş məlumatlarla tutuşdurul- duqdan sonra yoxlayıcı hazır məhsulun (işin, xidmətin) yüklənməsi (görülməsi, göstərilməsi) və ödənişi üzrə əməliyyatların rəsmiləşdirilməsinin düzgünlüyünün yoxlanmasına başlayır. Bu zaman aşağıdakı ilkin sənədlər nəzərdən keçirilməlidir: hazır məhsul anbarının məxarici qaimələri, yükün daşınması barədə əmtəə-nəqliyyat qəimələri, vəkələtnamələr).

Yoxlama apararkən nəzərə almaq lazımdır ki, hazır məhsulların (işlərin, xidmətlərin) daşınmasına görə tərtib edilmiş müqavilələr təsdiq edilmiş uçot siyasətinə uyğun gəlməlidir.

Əsas yoxlama növlərindən biri də sifarişçilərə (alıcılara) təqdim edilmiş hesablaşma sənədlərində 46 "Məhsul satışı" hesabının krediti üzrə əks olunmuş məbləğlərin mühasibat uçotunda 62 "Malalan və sifarişçilərlə hesablaşmalar" hesabının debeti üzrə əks olunmuş məbləğlərin üzləşdirilməsidir.

Nəzərə almaq lazımdır ki, 46 saylı üzrə kredit dövriyyəsi Ödənilməmiş satış pulunun məbləği qədər korrektə olunur. Bundan başqa, xarici valyuta aparılan mal dəyişmə əməliyyatları üzrə veksellərdən istifadə etməklə aparılan əməliyyatların mühasibat uçotu registrlərindəki dövriyyəsini (şərti vahidlərlə), yoxlayıcı yadda

saxlamalıdır ki, əksər hallarda mühasibat uçotunda 46 saylı hesab üzrə ("yükləmə üzrə" metodu zamanı) əks olunmuş məbləğ vergiqoyma obyektlərinin həcminə uyğun gəlmir.

ilkin sənədlərə əsasən yüklənmiş və dəyəri ödənilmiş məhsulların müvafiq üçot sənədlərində 46 "Məhsul satışı" hesabının krediti üzrə əks etdirilməsi faktiki aşkar edildiyi hallarda, auditor faktiki əldə edilmiş gəlirin yenidən hesablanmasını təmin etməli, vergitutmadan yayındırılmış (gizlədilmiş) gəlir məbləğini müəyyən etməli və qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər görülməklə həmin faktlar yoxlama aktında əks olunmalıdır.

Nəzərə almaq lazımdır ki, hesababat dövründə məhsulların satışından daxil olmuş pul vəsaitlərinin məbləği (ümumi gəlir), digər müəssisələrin nizamnamə kapitalına maliyyə qoyuluşu kimi verilmiş və 46 saylı hesabın krediti üzrə əks olunmuş hazır məhsulların (malların, işlərin, xidmətlərin) dəyəri qədər azaldılır.

Maliyyə nəticələrinin auditi zamanı vergi müfəttişinin diqqət yetirməli olduğu məsələlərdən biri də müəssisə gəlirlərinin tərkib hissəsi olan **sair satışdan gəlirlərin yoxlanmasıdır.** Qüvvədə olan qanunvericiliyə əsasən əsas vəsaitlərin və sair aktivlərin saışından əldə edilən gəlirlər bu kateqoriyadan olan gəlirlərə aid edilir. Əsas vəsaitlərin satışından olan maliyyə nəticələri 47 "Əsas vəsaitlərin satışı və sair xaric olması", sair aktivlərin satışından olan maliyyə nəticələri isə 48 "Sair aktivlərin satışı" hesabı üzrə müəyyən edilir.

Sair satışdan olan maliyyə nəticələrinin düzgünlüyünün yoxlanması zamanı aşağıdakı sənədlərə diqqət yetirmək lazımdır:

^ "Maliyyə nəticələri və onlardan istifadə haqqında" **2**>f**2** li hesabat forması;

Ä Baş kitab (dövriyyə balansı);

» kənara satılmaq üçün materialların, komplekslşdirici detalların və digər əsas vəsaitlərin, mal-material qiymətlilərinin anbara mədaxil edilməsinə görə tərtib edilmiş qaimələr;

« əsas vəsaitlərin satışı və ya əvəzsiz olaraq digər müəssisələrə verilməsi zamanı tərtib edilmiş təhvil-təslim aktları (ƏV-IK**2** li forma);

Ä səhmlər, istiqrazlar və digər qiymətli kağızlar, qısa və uzunmüddətli maliyyə qoyuluşlannm dəyərini təsdiq edən ilkin sənədlər;

^ hesablaşma hesabında pul vəsaitlərinin hərəkəti üzrə bank çıxarışları;

* əsas vəsaitlərin, qeyri-maddi aktivlərin və material qiymətlilərinin nağd satışına görə kassaya ödənilmiş pul vəsaitləri üçün tərtib edilmiş mədaxil orderləri (kassa kitabı);

Ä əsas vəsaitlərin və mal-material qiymətlilərinin müəssisə ərazisindən kənara çıxarılmasına görə tərtib edilmiş buraxılış vərəqələri;

1,2, **8**, 9, 13J^o li jurnal-orderlər (uçotun jurnal-order forması zamanı);

* əsasında sair satışdan olan nəticələrin 47 və 48 saylı mühasibat uçotu hesablarında yazılışların aparıldığı digər ilkin uçot sənədləri.

Yoxlama zamanı auditor tətbiq edilən mühasibat hesablarının, xüsusilə təsərrüfat əməliyyatlarının vaxtında əks etdirilməsinin dürüstlüyünü yoxlamalıdır. Bunun üçün aşağıdakı sənədlərin tarixini yoxlamaq lazımdır:

- ❖ əsas vəsaitlərin ləğv edilməsindən alınmış komplektləşdirici detalların və hissələrin, əsas vəsaitlərin və kənara satılmaq, üçün nəzərdə tutulmuş digər mal-material qiymətlilərinin material anbarından buraxılması üçün tərtib edilmiş qaimənin;
- ❖ əsas vəsaitlərin və mal-material qiymətlilərinin müəssisə ərazisindən çıxarılması üçün tərtib edilmiş buraxılış vərəqinin;
- <* hesablaşma hesabında pul vəsaitlərinin hərəkəti üzrə bank çıxarışları və ya əsas vəsaitlərin, material qiymətlilərinin, qeyri-maddi aktivlərin, qiymətli kağızların və 47, 48 hesablarda uçota alınan digər qiymətlilərin satışı üzrə hesabların ödənişi kimi müəssisənin kassasına nağd pulun mədaxili üçün tərtib edilmiş mədaxil orderləri;
- ❖ Baş kitabda (dövriyyə balansında) və hesabdarlığın jurnal-order forması ilə apardığı zaman **8**,9 və 13>f2 li jurnal-orderlərdə əks olunmuş məlumatlar.

Bu sənədlərin mühasibat uçotunda əks olunmuş tarix və dövriyyələrinin uyğun gəlməməsi faktı aşkar edildiyi hallarda, yoxlayıcı bu uyğunsuzluğun **2**X**2** li hesabat formasında əks olunmuş sair satışdan olan mənfəətin ümumi məbləğinə təsirini təhlil etməlidir.

Vergitutma məqsədi ilə müəssisənin əsas fondlarının və digər əmlakının satışından olan mənfəət məbləği, onların satış qiyməti ilə ilkin (qalıq) dəyərləri arasındakı fərq kimi müəyyən edilir. Dəyərləri köhnəlmə hesablamaq yolu ilə ödənilən əsas fondlar, qeyri-maddi aktivlər, azqiymətli və tezköhnələn əşyalar üzrə verginin hesablanmasında qalıq dəyəri əsas götürülür.

Dəyəri ödənilmədən və ya hesabların kreditinə əks olunmadan əsas vəsaitlərin, mal-material qiymətlilərinin və qiymətli kağızlann ilkin dəyərinin mühasibat uçotunda 47 və 48 saylı hesablann debetinə əks olunması faktı aşkar edildikdə, vergitutmadan yaymdınimış mənfəət məbləğini müəyyən etmək lazımdır.

Sair satışdan olan faktiki satış pulu məbləğini, eləcə də satılmış əsas vəsaitlərin və sair aktivlərin maya dəyərini müəyyən edərkən yoxlama aşağıdakı qaydada aparılır.

47 "Əsas vəsaitlərin satışı və sair xaric olması" hesabının krediti üzrə əks olunan əsas vəsaitlərin satışından olan mənfəət (zərər) məbləği, "Maliyyə nəticələri və onlardan istifadə haqqında" **2**K**2** li hesabat formasının "Sair satışdan olan nəticələr" adlı maddəsində (kod sətri 060) və 47 hesabın kreditində əks olunmuş və satılmış əsas vəsaitlərin ilkin dəyəri qədər azaldılmış (47 hesabın debeti) məbləğlə müqayisə etmək lazımdır.

Əgər **2**JS**2** li hesabın formasında əks olunmuş məbləğ müəyyən edilmiş qaydada hesablanmış məbləğdən az olarsa, onda vergitutmadan yayındırılmış gəlirin məbləğini müəyyən etmək lazımdır.

Yoxlama zamanı əsas vəsaitlərin ilkin dəyəri və onların satışmdan daxil olmuş pul vəsaitləri arasındakı fərqin müəyyən edilməsinin düzgünlüyünə fikir vermək lazımdır. Bunun üçün bank çıxarışındakı və ya kassa məxaric orderlərindəki məbləği əsas vəsaitlərin təhvil-təslim aktmdakı (ƏV-IK**2**İ forma), məbləğlə eləcə də bina, tikili və ötürücü qurğulann inventar uçotu kartoçkaları, yaxud digər əsas

vəsaitlərin uçotu üçün nəzərdə tutulmuş ƏV-7ƔYO li əsas vəsaitlərin investor uçotu kartoçkaları ilə tutuşdurmaq lazımdır.

Təhvil-təslim aktlarında və əsas vəsaitlərin uçot kartlarında göstərilən məbləğlər arasında kənarlaşma aşkar edildiyi hallarda isə onun səbəblərini müəyyən etmək lazımdır. Müsbət fərq zamanı, vergitutmadan yayınma halının olub-olmamasını müəyyən etmək məqsədilə ilkin dəyərlə başqa əsas vəsaitin satılıb-satılmadığını (qeyri-rəsmi şəkildə əsas vəsaitin verilib-verilməməsini) araşdırmaq lazımdır. Mənfi fərq oduqda isə yaranmış zərərin nə dərəcədə qanuna uyğun olub-olmadığını müəyyən etmək lazımdır.

Əgər alınmış pul vəsaiti təhvil-təslim aktında (ƏV-IX**2** li forma) göstərilən məbləğdən az olarsa, onda vergitutulan mənfəətin azaldılmış məbləğini müəyyənləşdirmək lazımdır.

Əksinə alınmış pul vəsaitlərinin aktda göstərilmiş məbləğdən çox olduğu hallarda isə yoxlayıcı təhvil-təslim aktındakı məbləği 47 hesabın krediti üzrə əks olunmuş məbləğlə tutuşdurmaqla vergitutulan mənfəətin hesablanmasının düzgünlüyünü müəyyən edir.

Əsas vəsaitlərin başqa müəssisələrə, eləcə də özünün hesablaşma (valyuta) hesabı ilə müstəqil balansa malik olan filial və struktur bölmələrinə əvəzsiz olaraq verilməsi faktiki aşkar edildiyi hallarda, bu əməliyyatdan olan maliyyə nəticələrinin sair satışdan olan nəticələrə aid edilib-edilmədiyini müəyyən etmək lazımdır. Mövcud qanunvericiliyə uyğun olaraq, qiymətlilərinin əvəzsiz olaraq verilməsindən olan maliyyə nəticələri (zərər) vergitutulan mənfəətin azalmasına deyil, xüsusi maliyyələşmə mənbələrinə (88,87) silinir. Əsas vəsaitlərin əvəzsiz olaraq verilməsindən olan zərərin "Sair satışdan olan gəlir" maddəsində əks olunduğu hallarda isə **2**X**2**-İİ "Maliyyə nəticələri və onlardan istifadə olunmas haqqında" hesabat formasında və 47 saylı hesabda əks olunmuş mənfəət (zərər) məbləği qədər azaldılmalıdır.

48 "Sair aktivlərin satışı" hesabının kreditində müəssisənin malik olduğu mal-material qiymətlilərinin, qiymətli kağızların, qeyri-maddi aktivlərin satışından olan, 46 və 47 hesablarda əks olunmayan maliyyə nəticələri əks olunur.

2X**2** li "Maliyyə nəticələri və onlardan istifadə olunması haqqında" hesabat formasının "Sair satışdan olan nəticələr" maddəsində (şifrə kodu 060) əks olunmuş məlumatlar, sair aktivlərin balans dəyəri qədər azaldılmış (48 saylı hesabın debet dövriyyəsi) və Baş kitabda 48 saylı hesabın krediti üzrə əks olunmuş məbləğlə tutuşdurulur.

Başqa müəssisələrdəki iştirak payından (başqa müəssisələrin Nizamnamə kapitalına uzunmüddətli maliyyə qoyuluşu), səhm depozitlərindən, istiqraz və digər qiymətli kağızlardan, eləcə də maliyyə qoyuluşlanndan (həm qısa, həm də uzunmüddətli) istifadə etmək hüququnun satışı zamanı, auditor onlara aid olmayan məsrəflərin silinməsi hesabına həmin qiymətlilərin nominal və ya balans dəyərlərinin artırılıb-artırılmamasını müəyyən etməlidir. Bunun üçün 06 "Uzunmüddətli maliyyə qoyuluşları" və 58 "Qısamüddətli maliyyə qoyuluşları" hesabının debetində hesaba alınan məbləğləri 48 "Sair aktivlərin satışı" hesabının debeti üzrə əks olunan məbləği ilə tutuşdurmaq lazımdır.

Kənarlaşmaların aşkar edildiyi hallarda (o cümlədən 48 hesabın debetindəki məbləğin 06 və 58 hesabların debetindəki məbləğdən çox olarsa) yoxlayıcı vergi-qoymadan gizlədilən gəlirin həcmini müəyyən etməlidir. Eyni zamanda nəzərə almaq lazımdır ki, səhm, istiqraz və digər qiymətli kağızların dəyəri- 06 və 58 hesablarda əks olunan dəyəri, onların nominal dəyərinə uyğun gəlməlidir.

Müəsisələrə məxsus səhmlərdən, istiqrazlardan və digər qiymətli kağızlardan əldə edilən gəlirlərdən, habelə digər müəssisələrdə pay iştirakından əldə edilən gəlirlərdən vergi bu gəlirlərin ödəmə mənbəyində tutulur. Gəliri ödəyən müəssisə vergilərin tutulmasına və büdcəyə ödənilməsinə görə məsuliyyət daşıyır.

Auditor **satışdankənar fövqəladə gəlir və xərclərin** vergitutulan mənfəətə təsirini müəyyən etməlidir. Belə ki, satışdankənar gəlir və xərclərin əksəriyyəti mənfəət vergisinin vergitutma bazası hesablanarkən nəzərə alınır. Qeyd etmək lazımdır ki, satışdankənar gəlir və xərclər bilavasitə 80 "Mənfəət və zərərlər" hesabında əks olunur.

Qanunvericiliyə uyğun olaraq müəssisənin satışdankənar xərclərinin tərkibinə vergiqoyma məqsədləri üçün aşağıdakı fövqəladə xərclər daxil edilir:

- ❖ təbii fəlakətdən olan itkilərin kompensasiya olunmayan hissəsi (istehsal ehtiyatlan, hazır məhsul və digər material qiymətlilərinin məhv və xarab olması; istehsalın dayandırılmasından olan itkilər; təbii fəlakətin nəticələrinin aradan qaldırılması ilə bağlı məsrəflər);
- ❖ yanğın, qəza və digər ekstremal şəraitdən irəli gələn fövqəladə vəziyyət nəticəsində yaranmış zərərin kompensasiya olunmayan hissəsi.

Auditor yuxarıda göstərilən hallara rast gəldikdə, onun fövqəladə fəziyytin meydana çıxması faktına əmin olması lazımdır. Başqa sözlə, auditor fövqəladə faktları təstiq edən sənədlərin bu cür halların nəticələrinin aradan qaldırılması ilə məşğul olan xidmətlərin (Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi, Dövlət Yanğından Mühafizə Xidməti və s.) yazılı rəyini və özündə müəssisə əmlakı obyektlərinin mövcudluğunu, onların vəziyyəti və qiymətini əks etdirən inven- tarizasiya aktının olub-olmamasına əmin olmalıdır. Yoxlama zamanı yadda saxlamaq lazımdır ki, istənilən şərait fövqəladə fəziyyət kimi qiymətləndirilə bilməz. Qeyri-föqəladə hallar nəticəsində müəssisəyə dəymiş zərərlər müssisənin xüsusi vəsaitləri hesabına ödənilir.

Bir neçə fəaliyyət növü ilə məşğul olan müəssisələrdə auditor hər bir fəaliyyət növü üzrə aynca uçotun apanlıb-aparılmadığını müəyyən etməlidir. Əgər fəaliyyət növlərindən biri ticarətdirsə onda yadda saxlamaq lazımdır ki, ümumi gəlir ticarət fəaliyyətindən alınmış satış pulundan, yəni satılmış malların satış və alış qiymətləri arasındakı fərqdən (ƏDV və aksizlərsiz) ibarətdir. Auditor müxtəlif fəaliyyət növü ilə məşğul olan müəssisələrdə kommersiya xərclərinin necə bölüşdürüldüyünü yoxlamalıdır.

Mənfəət vergisinin auditinin apanimasmın sonuncu mərhələsində **hesablanmış veı^ilərin mənfəət veı^isi üzrə bəyannamədə düzgün əks etdirilməsi yoxlanılmalı,** cari vergilərin və ilin yekunu üzrə hesablanmış verginin büdcəyə vaxtında ödənilib-ödənilməməsi araşdırılmalıdır.

Əgər mənfəət vergisinin hesablanmasında və ya ödənilməsində kənarlaşmalar aşkar edilərsə, bu zaman yarana biləcək faiz borclarının və maliyyə sanksiyalarının təsərrüfat subyektinin maliyyə vəziyyətinə nə cür təsir edəcəyi müəyyənləşdirilməli və bu barədə rəhbərliyə məlumat verilməlidir.

Xarici subpodratçıiardan ödəmə mənbəyində tutulan verginin yoxlanılması. "Xarici subpodratçıiardan ödəmə mənbəyində tutulan verginin yoxlanılması" üzrə sənəd kodu YV-045 olan yönləndirici vərəqə tətbiq edilməli və aşağıdakı məsələlər yoxlama ilə əhatə olunmalıdır.

Vergi müfəttişi yoxlamaya başlamazdan əvvvəl əvvəlki yoxlama aktına baxılmalı və edilmiş düzəlişlərə diqqət yetirilməlidir.

Xarici subpodratçıların hansı saziş çərçivəsində fəaliyyət göstərdiyi müəyyənləşdirilməlidir. Xarici subpodratçı bir neçə saziş çərçivəsində fəaliyyət göstərirsə iş və xidmətlərin hansı sazişə aid olduğu aydınlaşdırılmalıdır.

Bəyannamədəki məbləğ xarici subpodratçılara görülmüş işlərə və göstərilmiş xidmətlərə görə aparılan ödənişlərlə uzlaşdırılmalıdır. Görülmüş işlərin və göstərilmiş xidmətlərin Azərbaycan Respublikası ərazisində və ya onun hüdudlarından kənarda göstərildiyi müəyyənləşdirilməli, müqavilələrə və invoyslara diqqət yetirilməlidir.

Alınmış mal-materialların Azərbaycan Respublikası ərazisində ticarət əlavəsi ilə alınması yoxlanılmalı, bəyannamədəki müvafiq göstərici diqqətlə yoxlanılmalı, iri və sual doğuran məbləğlər araşdırılmalıdır.

Xarici subpodratçı lara aparılmış ödənişlərdən tutulmuş vergi məbləğinin 30 gün ərzində dövlət büdcəsinə ödənildiyi müəyyənləşdirilməli, görülmüş işlərin və göstərilmiş xidmətlərin tərkibində olan kompensasiya edilən məsrəflərin ilkin sənədlər ilə düzgünlüyü yoxlanılmalıdır.

Vergi ödəyicisinin ilkin sənədlərində (təqdim edilmiş invoyslarda vergi məbləği ayrı göstərilmədikdə və ya müqavilədə nəzərdə tutulan məbləğ tam ödənildikdə) ödənilmiş məbləğdən vergi məbləğinin tutulmadığı şübhə doğurduqda, tutulmalı verginin alınması üçün müvafiq tədbirlər (vergi orqanına məlumat və ya vəsaiti ödəyən vergi ödəyicisinə könüllü ödəniş üçün məktub və s.) görülməlidir.

Vergi ödəyicisi kimi qeydiyyatda olmayan xarici fiziki şəxslərə (muzdla işləyənlər istisna olmaqla) aparılmış ödənişlərdən ödəmə mənbəyində verginin tutulmasına diqqət yetirilməlidir.

Xarici subpodratçıların fəaliyyət göstərdiyi sazişdə **6** aydan yuxarı olan müqavilələr üzrə təqdim olunmuş iş, xidmət və malların "Müəssisələrin və təşkilatların mənfəət vergisinə cəlb olunması haqqında" qanunamüvafiq olaraq mənfəət vergisinə cəlb olunması nəzərdə tutulmuşdursa, qeyd olunan məsələ yoxlanılmalıdır.

Karbohidrogen fəaliyj'əti ilə əlaqədar olaraq Azərbaycan Respublikasında təsərrüfat fəaliyyəti göstərən xarici subpodratçıların kompensasiya edilən məsrəflər çıxılmaqla gördükləri işlərin və ya göstərdikləri xidmətlərin müqabilində aldıqları ödəniş məbləğlərinin həcmi araşdırılmalıdır.

Hesablanan verginin saziş bağlanan vergi ilində qüvvədə olan Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilən mənfəət vergisinin dərəcəsinə uyğun hesablanıb-hesablanmaması yoxlanılmalıdır.

ödəmə mənbəyində tutulmuş vergilərin xarici subpodratçıya ödənmə tarixindən sonra otuz (30) gün ərzində ödəniş valyutası ilə Azərbaycan Respublikasının Dövlət büdcəsinə köçürülməsi araşdırılmaldır (gecikmə ila ödənilmişsə, vergini tutmağa məsuliyyət daşıyan tərəfin köçürməli olduğu verginin dövlət büdcəsinə ödənilməli olan ən son tarixdən yalnız faizlər (libör + 4%) hesablanmalıdır).

Xarici subpodratçının Azərbaycan Respublikası ərazisində malların ticarət əlavəsi ilə satılması halları araşdırılmalıdır.

İkiqat vergi qoyulması haqqında tətbiq edilə bilən bu və ya digər müqavilənin müddəalarına xarici subpodratçı tərəfindən əməl edilməsi vəziyyəti araşdırılmalıdır.

Neft-qaz əməliyyatları ilə əlaqədar olaraq istifadə etmək üçün hər hansı bir vergi ödəmədən idxal və ixrac edilən maşınlar, avadanlıqlar, əsas fondlar, mallar, qurğular, xidmətlər üzrə əməliyyatlar yoxlanılmalı, onların qeyri-karbohidrogen məqsədləri üçün istifadə edilib-edilməməyi araşdırılmalıdır.

Xarici subpodratçı larin Azərbaycan Respublikasında karbohidrogen fəaliyyəti ilə bağlı olmayan göstərdikləri digər fəaliyyət növlərinin olması araşdırılmalıdır (belə xarici subpodratçılar Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq vergiyə cəlb olunurlar).

Podrat müəssisələrin mənfəət vergisinin yoxlanılması. "Todrat müəssissə- lərin mənfəət vergisinin yoxlanılması (gəlir hissəsi)" üzrə sənəd kodu VY-046 olan yönləndirici vərəqə tətbiq edilməli və aşağıdakı məsələlər yoxlama ilə əhatə olunmalıdır.

Vergi müfəttişi yoxlamaya başlamazdan əwvəl əvvəlki yoxlama aktına baxılmalı və edilmiş düzəlişlərə diqqət yetirilməlidir.

Podrat tərəflərin hansı saziş çərçivəsində fəaliyyət göstərdiyi və onun iştirak payının faiz mənfəət vergisini ödəməli olan tərəf aydınlaşdırılmalıdır (podrat tərəf və ya ARDNŞ). Podrat tərəfin fəaliyyət göstərdiyi saziş üzrə nəzərdə tutulan mənfəət vergisinin dərəcəsi öyrənilməlidir.

Vergi auditi aparılan vergi ilinin bəyannamə göstəriciləri əvvəlki illərin bəyannamə göstəriciləri ilə müqayisəli təhlil edilməli, vergi orqanına təqdim edilmiş vergi bəyannamələrinin göstəriciləri vergi ödəyicisinin mühasibat yazılışları ilə uzlaşdırılmaldır.

Yoxlama ilə əhatə olunan dövrün gəlirlərinin tərkibi (satışdan əldə edilən gəlirlər və digər gəlirlərin sətirlərinin göstəricilərinə uyğun) araşdırılmalı, vergi ödəyicisinin sual doğuran gəlir maddələrinə dair qeydlər nəzərdən keçirilməlidir.

Balans mənfəəti (zərəri) hesablanarkən satışdan əldə edilən gəlirin kommersiya cəhətdən müstəqil və ya asılı olub-olmamasının düzgünlüyü yoxlanılmalıdır.

Mənfəət vergisi bəyannaməsində "Digər gəlirlər" kimi nəzərdə tutulmuş gəlirlərin sazişlərin tələblərinə müvafiq olaraq düzgünlüyü yoxlanılmalıdır.

Daxili və yaxud kənar auditor xidmətləri tərəfindən aşkar edilmiş düzəlişlər nəzərdən keçirilməlidir.

"Podrat tərəflərin mənfəət vergisinin yoxlanılması (xəclər hissəsi)" üzrə sənəd kodu YV-047 olan yönləndirici vərəqə tətbiq edilməli və aşağıdakı məsələlər yoxlama ilə əhatə olunmalıdır.

Hasilatın Pay Bölgüsü Haqqında (HPBH) Sazişlərə müvafiq olaraq Əməliyyat şirkəti tərəfindən faiz nisbəti ilə ötürülmüş xərclərin düzgünlüyü yoxlanılmalıdır.

Xərclərin təqvim ilinə aid olub-olmaması aydınlaşdırılmalıdır.

Vergi auditi aparılan vergi ilinin bəyannamə göstəriciləri əvvəlki illərin bəyannamə göstəriciləri ilə müqayisəli təhlil edilməlidir.

Vergi ödəyicisinin əməkdaşlarına (ailə üzvlərinə) yaşadığı ölkədən gəlib-getməyə, mənzilə, yeməyə, kommunal ehtiyaclara, uşaqların təhsilinə ödədiyi xərcləri, habelə əmək haqqı və ona bərabər tutulan digər ödənişlər yoxlanılmalıdır.

Azərbaycan Respublikasında sosial təminata çəkilən xərclərin düzgünlüyü yoxlanılmalıdır.

Kəşfiyyat və qiymətləndirmə, quyuların qazılması, satış məntəqəsinədək nəql etmə zamanı ödənilən bütün neft kəməri tarifləri, kommision və broker xərclərinin düzgünlüyü yoxlanılmalıdır.

İcarə, sığorta və işçilərin peşə hazırlığına çəkilən xərclərin düzgünlüyü yoxlanılmalıdır.

Karbohidrogen fəaliyyəti ilə əlaqədar xarici ölkədə göstərilən xidmətlərə görə hesablanan əmək haqqı, həmçinin xaricdəki podratçı tərəfin və onun adından işləyən ortaq şirkətin mərkəzləşdirilmiş xidmətlərə görə çəkdikləri əlavə ümumi və inzibati xərclərin düzgünlüyü yoxlanılmalıdır.

Amortizasiya ayırmalarının sazişdə nəzərdə tutulan qaydaya uyğün olaraq hesablanmasının düzgünlüyü yoxlanılmalıdır. Qruplaşdırılmış əsas vəsaitlərin növlərinə görə əvvəlki ildən keçirilmiş saldo məbləğinin düzgünlüyü müəyyən edilməlidir.

Təqvim ili ərzində əldə edilmiş və təqdim edilmiş (satılmış) əsas vəsaitlərin dəyərinin düzgünlüyü ilkin sənədlər əsasında yoxlanılmaUdır.

Borc xərclərinin faizlərə görə ödənilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Ödənilmiş faizlərin əsas məbləğinin karbohidrogen fəaliyyətinə aid olub-olmaması araşdırılmalıdır.

Karbohidrogen fəaliyyəti ilə əlaqədar əsas borca görə Ortaq şirkət tərəfindən hesablanan faiz dərəcəsinin müstəqil tərəflərin razılaşdıra biləcək faiz dərəcəsindən çox olub-olmaması yoxlanılmalıdır.

Ödənilmiş faiz məbləğinin gecikdirilmiş borca görə olub-olmaması yoxlanılmalıdır.

Hər cür itkilərin, iddiaların, zərərin və məhkəmə qərarlarının kompensasiyası verilərkən çəkilmiş və ödənilmiş bütün xərclərin sığorta hesabına ödənilib-ödənilməməsi yoxlanılmalıdır.

Neft-qaz əməliyyatları ilə bağlı Podratçının və onun Ortaq şirkətininin göstərdikləri texniki xidmətlərin mənfəətsİz və zərərsiz olduğu yoxlanılmalıdır.

Xüsusi vergi rejimli müəssisələrdə mənfəət vergisinin yoxlanılması. Xüsusi vergi rejimli müəssisələrdə səyyar vergi yoxlaması həyata keçirilən zaman həmin müəssisələrin xüsusi vergi rejimli statusa uyğunluğu, sazişləri imzalamış Podrat tərəflər və yaxud onların hüquqi varis və ya mümkün müvəkkili olmaları öyrənilməlidir.

Podratçı tərəflər adından fəaliyyət göstərən neft və qaz əməliyyatlarının gündəlik idarə olunması üçün onların göstərişlərini yerinə yetirən, hasil edilən karbo-

hidrigenlərin hər hansı payına sahib olmaq hüququna malik olmayan, yalnız mənfəətsiz və itkisiz əməliyyat aparan təsərrüfat hesablı qeyri-kommersiya şirkəti kimi işləyən birgə əməliyyat şirkətləri olmaları müəyyən edilməlidir.

Podratçı ilə birbaşa və ya vasitəli müqavilə üzrə, yaxud podratçının adından mallar göndərən, işlər görən və yaxud xidmət göstərən, eləcə də Azərbaycan Respublikasında karbohidrogen fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri olmaları, xarici ölkələrin Azərbaycan Respublikasının ərazisində yerləşən diplomatik və anoloji nümayəndəlikləri, konsulluq idarələri və xarici ölkələrin digər rəsmi nümayəndəlikləri olmaları araşdırılmalıdır.

Yoxlanılan şəxsin statusu öyrənildikdə yoxlanılan dövr ərzində şəxsin hansı saziş (sazişlər) çərçivəsində fəaliyyət göstərməsi, əməliyyat şirkəti, podratçı tərəf və ya xarici subpodratçı olması müəyyən edilməli və aşağıdakılara diqqət yetirilməlidir.

Hasilatın Pay Bölgüsü haqqında Saziş (HPBS), Əsas İxrac Boru Kəməri (ƏİBK) və Cənubi Qafqaz Boru Kəməri (CQBK) haqqında Sazişlərin iştirakçısı olan (payçı) şəxsin Podratçı tərəf statusunda olub-olmaması araşdırılmalıdır.

Həmin sazişlər çərçivəsində karbohidrogen fəaliyyəti üzrə əməliyyatlar aparan və Podratçı tərəflərin maliyyə vəsaitləri hesabına işlənmə, kəşfiyyat, hasilat və digər xərclər çəkən, məsrəflərin-və digər gəlirlərin Podratçı tərəflər arasında bölünməsi prinsipi əsasında işləyən şəxsin Əməliyyat şirkəti statusunda olub-olmaması yoxlanılmalıdır.

Podratçı tərəflərə və Əməliyyat şirkətlərinə karbohidrogen fəaliyyəti çərçivəsində hər hansı xidmət göstərən, iş görən və mal satan şəxsin Subpodratçı statusuna malik olması, xarici subpodratçı statusunda olan xidmət göstərən, iş görən və ya mal satan şəxsin qanunvericiliyə uyğun olaraq xaricdə təşkil olunması və ya yaradılması araşdırılmalıdır.

Ver%i ödəyicisinin mənfəət vergisinin ödəyicisi olub-olmaması müəyyən- ləşdirilərkən aşağıdakı məsələlər araşdırılmaldır:

- K Yoxlanılan şəxsin statusu müəyyən edilməklə fəaliyyətin Hasilatın Pay Bölgüsü haqqında Saziş(HPBS)-ə uyğunluğu və karbohidrogen fəaliyyətini həyata keçirən Podratçı tərəf olması;
- t**-2** Əməliyyat şirkətinin- HPBS müddəalarına müvafiq olaraq podratçı tərəflərin cavabdeh olduğu işlərin görülməsindən ötrü Podratçılann razılığı ilə yaradılmış hər hansı başqa təsərrüfat strukturu adından fəaliyyət göstərməsi, podratçı tərəflər üçün nəzərdə tutulmuş bütün imtiyazlardan və güzəştlərdən istifadə etməsi, ödənişlərdən azad edilməsi, kompensasiyalar alması və sair hüquqa malik olmalan;
- K Habelə, Əməliyyat şirkətinin Podrat tərəflər adından fəaliyyət göstərməsi, təlimat, göstərişləri yerinə yetirməsi və hasil edilən karbohidrogenlərin hər hansı payma sahib olmaq hüququna malik olması, eyni zamanda mənfəətsiz və itkisiz əməliyyatlar aparması;

Podratçı tərəfin mənfəət vergisinə dair fərdi öhdəlikləri həmin Podratçı tərəfin Azərbaycan Respublikasındakı digər daimi obyektlərinin mənfəəti və ya zərəri ilə birləşdirilmiş əlahiddə payma əsaslanmasını nəzərə alaraq, HPBS habelə ƏİBK və CQBK haqqında sazişlərin «Vergiqoyulma» maddələrinə aid olmayan fəaliyyət

lə, yəni qeyri-karbohidrogen fəaliyyəti ilə məşğul olan hər hansı şəxsin vergi öhdəliklərinin Azərbaycan Respublikasının Vergi Məcəlləsinin tələblərinə uyğun yerinə yetirilməsi yoxlama ilə əhatə edilməlidir.

ƏİKB və CQBK sazişlərə əsasən layihə iştirakçısının həmin layihələr üzrə əldə etdiyi gəlirlərdən mənfəət vergisinin ödəməsi yoxlanılmalıdır.Layihə iştirakçılarında mənfəət vergisindən başqa digər vergi və rüsumlar üzrə öhdəliklərin yaranması halları araşdırılmalıdır.

Mənfəət vergisinin yoxlanılması zamanı gəlirlərin düzgün müəyyən edilməsi ücün aşağıdakı meyarlar yoxlama ilə əhatə edilməlidir:

1. Sazişlərin xüsusiyyətlərini nəzərə alaraq yoxlanılan Podratçı tərəfin və ya Əməliyyat şirkətinin əməliyyatları üzrə hesablaşmalar neft sənayesinin mühasibat uçotunun beynəlxalq prinsiplərinə uyğun xəzinə metodu ilə apanlıb-aparıl- maması və təqvim ili ərzində əldə edilən gəlirin karbohidrogenlərin satışından və digər gəlirlərdən ibarət olması.
2. Karbohidrogenlərin satışından əldə edilən gəlirlər - təqvim ili ərzində Podratçı tərəfin karbohidrogen fəaliyj'əti çərçivəsində çıxarılan karbohidrogenlərin satışından, karbohidrogenlər mübadilə və ya svop əməliyyatı predmeti olduqda təqvim ili ərzində mübadilə və ya svop əməliyyatı nəticəsində əldə edilən gəlir:
   - > həyata keçirilən satış kommersiya cəhətdən müstəqil olduqda əldə edilən gəlir və həmin Podratçı tərəfin satdığı məhsulun faktiki dəyəri;
   - > kommersiya cəhətdən asılı satış zamanı isə "Platts Oylqram" nəşrində dərc edilmiş təqvim rübündə neftin orta satış qiymətləri (nəşrdə bu qiymət göstəril-mədikdə, xam neftin üç nümunə sortu üçün təqvim rübündə "Platts Oylqram"da dərc edilmiş xüsusi FOB qiymətlərinin orta kəmiyyəti götürülməlidir);
3. Digər gəlirlər - sığorta varidatı, valyuta əməliyyatlarından əldə edilən gəlirlər, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) iştirak payı barəsində həmin HPBS müddəalarına əsasən əldə edilən məbləğlər, ləğvet- mə işləri fondundan alman məbləğlər, ləğvetmə işləri fondundakı izafi vəsaitlərin bölüşdürülməsindən əldə edilən məbləğlər, faiz gəlirləri, qüsurlu materiallara və ya avadanlıqlara görə alınan məbləğlər, obyektlərdən, vəsaitlərdən və ya intellektual mülkiyyətdən istifadəyə görə xidmət haqqı kimi alınan, materiallann satışından və ya çarter haqqı olaraq əldə edilən məbləğlər.
4. Karbohidrogenlərin satışından əldə edilən məbləğlərin, əsas vəsaitlərin, daimi və ya müvəqqəti binalann satışından əldə edilən məbləğlərin, kredit şəklində alınan məbləğlərin və ya Podratçı tərəfə verilən pul vəsaitlərinin, Podratçı tərəfin sazişdən irəli gələn hüquq və öhdəliklərinin satışından əldə edilən məbləğlərin, vergilərin qaytarılmasından alınan məbləğlərin, ARDNŞ-ın iştirak payı ilə bağlı ARDNŞ-dən alınan məbləğlərin, balans mənfəətinin hesablanması baxımından Podratçı tərəfin hesabdan sildiyi və ya amortizasiya etdiyi xərclərdən əlavə çəkdiyi xərclərlə əlaqədar olaraq Podratçı tərəfin kompensasiya kimi və ya digər şəkildə aldığı məbləğlərin. Podratçı tərəfin tam sərəncamında olmayan və sərvətini artırmayan məbləğlərin digər gəlirlərə aid edilib-edilməməsi;

5. Gəlirlərin müəyyən edilməsi zamanı bir sıra HPBS-də «Vergiqoyulma haqqmda» maddələrin müddəalarına əsasən sazişdə iştirak paylarının satılmasından yaranan gəlirlərin digər gəlirlərdə əks olunub-olunmaması və bundan mənfəət vergisinin hesablanıb dövlət büdcəsinə ödənilib-ödənilməməsi, eyni zamanda HPBS-rin xüsusiyyətlərinə görə *Digər gəlirlərə* başqa gəlirlərin məbləğlərinin aid edilib-edilməməsi.

Mənfəət vergisinin yoxlanılması zamanı xərclərin müəyyən edilməsi ücün aşağıdakı meyarlar yoxlama ilə əhatə edilməlidir.

Podratçı tərəfdə və ya Əməliyyat şirkətində apanlan səyyar vergi yoxlamasında xərclərin tərkibinin düzgünlyünü yoxlayarkən xarici əməkdaşlarla, onların ailə üzvləri ilə bağlı xərclərin, HPBS-in müddəalarına əsasən Podratçı tərəfin və ya Əməliyyat şirkətinin əməkdaşlarına və onların ailə üzvlərinə mənzil, yemək və kommunal xidmətlərinə görə, təhsil xərclərinə görə, yaşadıqları ölkədən habelə Azərbaycan Respublikasına gəlmə və geriyə qayıtmaları üçün çəkilən xərclər ilə birlikdə, bütün əməkdaşlara verilən əmək haqqlarının, maaşların tam məbləğlərinin və buna oxşar digər ödəmələrin məsrəflərə aid edilməsinin düzgünlüyü.

Azərbaycan Respublikasında Dövlət Sosial Müdafiə Fonduna, Məşğulluq fonduna, tibbi sığorta fonduna aparılan ödəmələrin məsrəflərdə düzgünlüyü, xarici əməkdaşlara görə onların daimi yaşadıqları ölkələrdə sosial fondlara və ya digər bu kimi icbari ödənişlərin məsrəflərə aid edilib-edilməməsi.

Kəşfiyyat və qiymətləndirmə işlərinə çəkilən bütün xərclərin məsrəflərə aid edilməsinin düzgünlüyü.

Quyuların qazılması ilə bağlı bütün məsrəflər- yəni qazma işlərinə görə subpodratçılara aparılmış ödənişlər, qazma qurğularının icarəsi və istifadəsi üzrə çəkilən xərclər, istifadə edilmiş mal-materialların silinməsi, habelə quyuların qazılmasına Podratçı tərəfindən çəkilən digər xərclər; quyuların qazılmasına çəkilən xərclərin əsaslı xərclərə aid edilməsinin düzgünlüyü;

Xam neftin nəqli ilə bağlı çəkilən bütün xərclər, o cümlədən bütün neft kəməri tarifləri, komissiyon və broker xərcləri və digər xərclər. Bu xərclərin yalnız xam neftin satış məntəqəsinədək nəzərə alınması və məsrəflərə aid edilməsinin düzgünlüyü;

İcarə haqqlarının, sığorta xərclərinin və işçilərin peşə/hazırlığı ilə bağlı bütün ödənişlərin məsrəflərə aid edilməsinin düzgünlüyü.

Podratçı tərəfin daimi nümayəndəlikləri ilə bağlı çəkilən bütün xərclər və elmi tədqiqatlara, araşdırmarlara çəkilən xərclər, ümumi ıizibati xərclər.

Avadanlıq, əsas və qeyri-əsas fondlara çəkilən xərclər və bu xərclərin araşdırılması zamanı HPBS bağlandığı tarixə əsas fondlara aid edilən vahidlərin dəyəri 15000 ABŞ dollanndan artıq (sonrakı hər il üzrə 4% artım nəzərə alınmaqla) olduqda belə məsrəflərin dəyərinin birbaşa deyil, HPBS-də nəzərdə tutulmuş dərəcələrlə hesablanmış köhnəlmə ilə məsrəflərə aid edilməsinin düzgünlüyü;

Karbohidrogen fəaliyyəti ilə əlaqədar Podratçı tərəfin xaricdə yerləşən Ortaq şirkətlərinnin mərkəzləşdirilmiş qaydada çəkdiyi ümumi, inzibati xərclər və bu xərclərin HPBS-də müəyyən edilmiş düsturla Podratçı tərəfin birbaşa çəkdiyi əsaslı (kapital), əməliyyat xərcləri əsasında hesablamasının düzgünlüyü.

Belə xərclərə, Ortaq şirkətin əməkdaşları ilə bağlı inzibati, hüquq, maliyyə, vergi, habelə ekspert birliklərinin təqdim edilməsi, digər qeyri-texniki xarakterli xidmətlər üzrə və birmənalı konkrekt layihəyə aid olmayan ödəmələrin aid edilməsinin düzgünlüyü, eyni zamanda bu qəbildən olan xərclərin birbaşa nefl-qaz əməliyyatları üzrə məsrəflərə aid edilib-edilməməsi;

Tələf edilməsi və yararsız hala düşməsi nəticəsində material və əmlak itkiləri, valyuta əməliyyatlanndan itkilər, faizlərin ödənilməsi və beynəlxalq standart neft-mədən praktikasının tətbiq edilməsi ilə bağlı çəkilən bütün digər xərclərin məsrəflərə aid edilməsinin düzgünlüyü; faizlərin ödənilməsini araşdıran zaman borcun qaytarılmasının gecikdirilməsi üzündən ödənilməli olan faizlərin məsrəflərə aid edilib-edilməməsi;

Məsrəflərin hesablanmasının təqvim ili ərzində faktiki çəkilmiş xərclər əsasında xəzinə metodu ilə aparılması araşdırılmalıdır.

Mənfəət vergisinin hesablanması, ödənilməsi və məsuliyyət məsələləri araşdırılarkən aşağıdakı meyarlar yoxlama ilə əhatə edilməlidir.

Podratçı tərəfin vergiyə cəlb edilən mənfəətini (zərərini) hesablayarkən həmin Podratçı tərəfin karbohidrogen fəaliyyəti ilə əlaqədar HPBS-in qanuni qüvvəyə minməsi tarixinədək çəkilən bütün xərclər (danışıqlara, tibbi yardıma və mədəni fəaliyyətə çəkilən xərclər istisna olmaqla).

Hər Podratçı tərəfin HPBS-nə müvafiq olaraq hər təqvim ili üçün vergi maliyyə hesabatlannı və mənfəət vergisi haqqındakı bəyannamələri (auditorun müvafiq arayışı ilə birlikdə) HPBS-də nəzərdə tutulmuş müddətlərdə vergi orqanlanna təqdim etməsi və bütün hallarda təqvim ili üçün mənfəət vergisinin qəti məbləği mənfəət vergisinə dair bəyannamədə hesablanmış məbləğin vaxtında büdcəyə ödəməsi hallan.

Mənfəət vergisinin ödənilməsində rüblük mənfəət vergisi ödənişlərinin hə- y^a keçirilməsi;

Təqvim ili ərzində karbohidrogen fəaliyyəti nəticəsində Podratçı tərəfdə yaranmış zərərin məhdudiyyət qoyulmadan növbəti ilə keçirilməsi halları.

Vaxtında ödənilməmiş mənfəət vergisi məbləğinə yoxlama ilə faiz (Libor + 4%) hesablanmalıdır.

Əgər podratçı tərəf mənfəət vergisinə dair qəti bəyannaməni təqdim etmirsə ondan həmin mənfəət vergisinə dair bəyannamə üzrə ödəyəcəyi mənfəət vergisi məbləğinin **110**%-i həcmində cərimə hesablanmalıdır.

Əgər təqvim ili üçün mənfəət vergisinə dair bəyannamədə əks etdirilən mənfəət vergisinin məbləği podratçı tərəfin aldatması nəticəsində az göstərilirsə, azaldılmış məbləğin **200**% faizi həcmində cərimə hesablanmalıdır.

4*12. Fiziki şəxslərin gəlir vergisinin auditi

Səyyər vergi yoxlaması zamanı auditor tərəfindən yoxlamaya məruz qalan vergilərdən biri də gəlir vergisidir. Dövlət vergi xidməti orqanları tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq bütün təsərrüfat subyektlərində, habelə vətəndaşlarla əmək müqaviləsi bağlamış hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliy

yəti göstərən fiziki şəxslərdə (fərdi sahibkarlarda) gəlir vergisi tutulmasının düzgünlüyünü, tutulmuş verginin vaxtında və tam dövlət büdcəsinə köçürülməsini yoxlamalıdırlar. İri müəssisələrdə gəlir vergisinin yoxlanması çox vaxt və əmək tələb edir.

Gəlir vergisi auditinin aparılmasında əsas məqsəd vergi ödənilən dövrdə fiziki şəslərin əldə etdikləri bütün gəlirlərin uçotunun tamlığını, qüvvədə olan qanunvericiliyə müvafiq olaraq vergitutma bazasının düzgün müəyyən edilməsini və ondan çıxılmalı olan güzəşt məbləğlərinin düzgünlüyünü araşdırmaqdan ibarətdir. Bundan başqa audit zamanı gəlir vergisinin hesablanması, tutulması və büdcəyə köçürülməsi sahəsində müəyyən edilmiş mühasibat uçotu qaydalarına riayət olunub-olunmaması yoxlanılır.

Yoxlamanın gedişatı zamanı auditor əvvəlcə tutulmalar haqqında məlumatı, sonra isə hesablamanın özünü yoxlamalıdır. Gəlir vergisinin hesaslanmasının düzgünlüyünü yoxlayarkən vergi müfəttişi (auditor) Vergi Məcəlləsinin VII fəslini rəhbər tutmalıdır.

"Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan verginin yoxlanılması" üzrə sənəd kodu YV-036 olan yönləndirici vərəqə tətbiq edilməlidir. Gəlir vergisi üzrə büdcə ilə hesablaşmaların auditi zamanı nəzərdən keçirilməli olan ümumi məsələlər aşağıdakılardır.

Gəlir vergisinin auditi zamanı ilk növbədə müəssisələrdə *əmək qanunvericiliyinə necə əməl olunması yoxlantlmahdır.* Bununla əlaqədar auditor işçilərin işə qəbulu zamanı əmək müqaviləsinin bağlanıb-bağlanılmamasını (əmrlərə, əmək müqavilələrinə, əmək kontraktlarına əsasən), işçilərin iş vaxtı uçotunun necə aparıldığını (əməyin ödənişi üzrə ilkin sənədlərə - tabellorə, şəxsi hesablara, hesablama- ödəniş cədvəllərinə, ödəniş cədvəllərinə, deponcnt əmək haqqının ödəniş cədvəlinə, naryadlara, raportlara, marşrut vərəqələrinə əsasən), müəssisədə əməyin ödənişi üzrə hansı sistemin (işəmuzd və ya vaxtamuzd) tətbiq edildiyini və digər məsələləri yoxlamalıdır.

Əmək qanunvericiliyinə riayət olunmasını yoxlayarkən auditor aşağıdakılara xüsusi diqqət yetirməlidir:

- ❖ əmək qanunvericiliyinə riayət edilməsinə və əmək münasibətlərinə daxili nəzarətin vəziyyətinə;
- ❖ işəmuzd fəhlələrin əmək haqqının hesablanmasının və onların istehsal etdiyi hazır məhsulun uçotuna;
- ❖ vaxtamuzd və digər formada hesablanmış əmək haqqının uçotuna;
- ❖ əmək haqqından tutulmalann düzgünlüyünə;
- ❖ əmək haqqının analitik uçotuna (şəxsi hesablar üzrə);
- ❖ hesablanmış əmək haqqının yekununa;
- ❖ əmək haqqından vergilərin düzgün tutulmasına, əmək haqqı fondundan sosial müdafiə fonduna edilən ayırmaların və onların uçotunun düzgülüyünə;
- ❖ deponent edilmiş əmək haqqı uçotunun düzgünlüyünə.

Yoxlama proqramının tərtibi və auditor sübutlarının toplanması üçün yoxlayıcı tərəfindən sorğu vərəqəsinin tərtib edilməsi məqsədəyyğundur. Auditor sorğu vərəqinə əsasən müəssisədə mühasibat uçotonun əməyin ödənişi bölməsi üzrə daxi-

ii nəzarətin vəziyyətini qiymətləndirə bilər. Bundan əlavə onun məlumatlarına əsasən yoxlayıcı auditor sübutu toplamaq üçün lazım olan prosedurları və ayrı-ayrı he-sablaşmalann yoxlanması üçün lazım olan zəruri məqamları müəyyən etmək imkanı əldə edir.

Işəmuzd formasında hesablanmış əmək haqqının düzgünlüyünü yoxlayarkən auditor ilk növbədə aşağıdakılara diqqət yetirməlidir:

- ilkin sənədlərin (naryadların, marşrut vərəqələrinin, raportların, tabellərin) necə tərtib edildiyinə;
- norma və tariflərdən düzgün istifadə edilib-edilməməsinə;
- vəzifəli şəxslərin imzalarının mövcudluğuna;
- müvafiq rekyizitlərin doldurulmasına;
- apanlmış düzəlişlərin düzgünlüyünə.

Verginin hesablanmasının düzgünlüyü seçmə qaydasında işçilərin şəxsi vərəqləri, hesablaşma-ödəniş cədvəlləri və ödəniş cədvəllərinə əsasən yoxlanmalıdır. Auditor yoxlamanın gedişatı zamanı seçmə yolu ilə hesablama-ödəniş cədvəllərinin yekunlarının düzgünlüyünə, bir işçi tərəfindən etibarnamə olmadan bir neçə şəxsin əvəzinə imza edərək əmək haqqı alıb-almaması hallarının olub-olmamasına əmin olmalıdır. Eyni zamanda müfəttişin əvvəllər ödənmiş sənədlər (naryad və digər ödəniş sənədləri) üzrə təkrarən ödənişin aparılıb-aparılmamasma diqqət yetirməsi vacibdir. Əgər yoxlama aparılan təsərrüfat subyektinə əmək haqqının hesablanması və uçotu fərdi kompyuterlə aparılırsa, onda hesablaşmanın alqoritminə və istifadə edilən normativ sənədlərin düzgünlüyünə fikir verilməlidir. Əgər yoxlamanın gedi- şatı zamanı əhəmiyyətli səhvlər aşkar edilərsə, onda auditor şəxsi vərəqləri və əməyin ödənişi üzrə hesablaşma-ödəniş sənədlərinin hamısını nəzərdən keçirməlidir.

Yoxlama zamanı müəssisədə hazırlanmış sənədlərin yoxlanması, riyazi hesablamalara nəzarət (işəmuzd əmək haqqı məbləğini müəyyənləşdirmək üçün) kimi auditor sübutlannm yığım metodlanndan istifdadə edilir.

Vaxtamuzd ödəniş sistemi ilə əmək haqqının hesablanmasını yoxlayarkən auditor orta əmək haqqı, məzumiyyət günləri, mükafat və digər ödənişlər üzrə hesablanmaları yoxlayır.

Təstiq edilmiş vəzifə maaşı üzrə işçilərə hesablanmış əmək haqqını aşağıdakı düstura əsasən yoxlamaq lazımdır:

$$IVIgh — Mym * Tjv / Taiv \quad \textbf{(1)}$$

burada: M,h - hesablanmış əmək haqqı;
Mvm - işçinin vəzifə maaşı;
T}v ~ ay ərzində işlənmiş vaxt;
Taiv - aylıq iş vaxtı.

Vaxtamuzd sistemində təstiq edilmiş tarif və dərəcələr üzrə ödənilmiş əmək haqqını aşağıdakı düstüra əsasən yoxlamaq lazımdır:

$$\mathbf{M,h = TD} \quad \textbf{[2]}$$

burada: T - tarif; D - dərəcə (d = 1,2, ...**6**)

Yoxlama zamanı auditorun əldə etdiyi nəticə ilə mühasibat yazılışı üzrə kənarlaşma aşkar edildiyi hallarda, mütləq onun səbəbləri aydınlaşdırılmalıdır. Əgər mühasibin düzgün hesablama aparmadığı müəyyən edilərsə, onda bu fakt yoxlama aktında qeyd edilməklə öz əksini tapır.

Orta aylıq əmək haqqının hesablanması üzrə hesablaşmaların apanidığı hallarda, auditor orta aylıq əmək haqqının düzgün təyin edilməsini müəyyənləşdirdikdən sonra ödəmə növləri üzrə hesablaşmaları yoxlamalıdır. Bunun üçün auditor Əmək Məcəlləsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 iyul tarixli 126 saylı qərarı ilə təstiq edilmiş "Orta əmək haqqı hesablanarkən nəzərə alınan və alınmayan ödənişlərin siyahısı"ndan istifadə etməlidir. Auditor eyni zamanda sair ödəniş və əlavələrin ödənişləri də (məzuniyyətlərin ödənilməsini, bayram günlərinə görə Ödənişləri, gecə iş vaxtına görə əlavələri, iş vaxtından artıq işləmə vaxtına görə ödənişləri) yoxlamalıdır. Yoxlamanın gedişatı zamanı auditor tərəfindən əmək haqqının hesablanması üzrə aşkar edilmiş səhvlərə müəssisənin mühasibi tərəfindən müəyyən düzəlişlər edilir.

Fiziki şəxslərin əmək haqqından tutulmalar üzrə hesablaşmalar yoxlanılarkən nəzərə almaq lazımdır ki, qanunvericiliyə əsasən işçilərin əmək haqqından müəssisənin mühasibatlığı tərəfindən aşağıdakı tutulmalar həyata keçirilə bilər:

- gəlir vergisi;
- pensiya fonduna məcburi sığorta ödənişi (3%);
- icra vərəqələri üzrə tutulmalar (aliment, müəssisəyə vurulmuş maddi ziyan, verilmiş avanslar və artıq ödənilmiş məbləğlər üzrə borc);
- inzibati və məhkəmə cərimələri;
- şəxsi və əmlak sığorta müqavilələrinə əsasən .sığorta ödənişi;
- əmanət bankına köçürülən əmək haqqı (işçinin ərizəsinə əsasən onun ərizədə göstərdiyi şəxsi hesabına köçürülən);
- digər tutulmalar (zay məhsula görə, kreditə alınmış mallara görə, əskik gəlmələrə görə və s.).

Auditor verginin tutlmasında qanun pozuntusuna yol vermiş müəssisələrdə (sahibkarlarda) aparılmış yoxlama aktı üzrə irəli sürülmüş təkliflərin yerinə yetirilib-yetirilmədiyini aydınlaşdırmaq məqsədilə təkrar yoxlama aparmalıdır.

Nəzərə almaq lazımdır ki, istənilən təsərrüfat subyekti (fərdi sahibkar) vergi qanunvericiliyində yol vermiş olduqlan qanun pozuntularını aradan qaldırmaq üçün vergi orqanlarının tələblərini yerinə yetirməyə (məsələn, işçilərdən vaxtında tutulmamış vergi məbləğini tutmağa və onu müvafiq büdcƏyə köçürməyə) borcludurlar.

Yoxlamanın məqsədi yoxlamanın əhatə etdiyi dövrdə fiziki şəxslərin əldə etdikləri bütün gəlirlərin uçotunun tamlığını, qüvvədə olan qanunvericiliyə müvafiq olaraq vergitutma bazasının düzgün müəyyən edilməsini və ondan çıxılmalı güzəşt məbləğlərinin düzgünlüyünü araşdırmaqdan ibarətdir. Bundan başqa audit zamanı gəlir verişinin hesablanması, tutulması və büdcəyə köçürülməsi sahəsində müəyyən edilmiş mühasibat uçotu qaydalarına riayət olunub-olunmaması yoxlanılır.

Gəlir vergisi üzrə vergitutma obyektinin müəyyən edilməsi. Yoxlama başlanarkən ilk növbədə fiziki şəxslərin gəlir vergisinin vergitutma obyekti müəyyən olunur. Fiziki şəxslərin gəlir vergisinin yoxlanılması zamanı auditor tərəfindən ver-

gitutma obyektinin düzgün müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Ona görə yoxlamanın gedişatı zamanı auditor aşağıdakı istiqamətlər üzrə diqqətli araşdırmalar aparmalıdır:

B rezident vergi ödəyicisinin Azərbaycan Respublikasında və onun hüdudlarından kənarda muzdlu işlə əlaqədar əldə etdiyi gəlirlərdən, muzdlu işə aid olmayan fəaliyyətdən əldə etdiyi gəlirlərdən və vergidən azad edilən gəlirlərdən başqa, bütün digər gəlirlərinin (əmək haqqı, güzəştli ssuda faizləri, alınmış hədiyyələrin bazar qiyməti, borcun və ya öhdəliyin bağışlanması, mükafatlardan, maddi yardımlardan və digər gəlirlərdən gəlir vergisini müəyyən etməklə ayrıca yoxlanılmalıdır) həcminin müəyyən edilməsi;

B qeyri-rezident vergi ödəyicisinin Azərbaycan Respublikasında əldə etdiyi gəlirlərin həcminin müəyyən edilməsi;

B fiziki şəxslərin gəlirlərinin mövcudluğunun müəyyən edilməsi üçün gəlirdən çıxılan məbləğləri və vergi güzəştlərindən istifadə hüququnu təsdiqləyən sənədlərin mövcudluğu.

Vergitutma obyektinin müəyyənləşdirilməsi və vergi dərəcələrinin tətbiqinin düzgünlüyünün yoxlanılması üzrə yoxlama aparan zaman auditor ayrı-ayrılıqda aşağıdakıların mövcudluğunu müəyyənləşdirməlidir:

- muzdlu işlə əlaqədar əldə edilən gəlirləri;
- muzdlu işə aid olmayan hər bir fəaliyyət növündən (sahibkarlıq və qeyri-sahibkarlıq) əldə edilən gəlirləri.

Vergitutma obyektinin düzgün müəyyən edilməsi ilə bağlı Vergi Məcəlləsində nəzərdə tutulmuş gəlir vergisindən azadolmalar və güzəştlərin düzgün tətbiq edilməsi araşdınimalıdır.

Auditor vergi ödəyicisində Əmək Məcəlləsinin müddəalarına əsasən əmək müqaviləsi (kontraktı) bağlanmış, uçota alınmış və gəlir vergisi hesablanmış işçilərlə faktiki işləyənlərin sayı arasında uyğunluğu araşdırılmalıdır.

Səyyar vergi yoxlamasının əhatə etdiyi dövrdə vergi ödəyicisinə məxsus obyektdə yerinə yetirilən işlərin (xidmətlərin) həcminə nisbətdə fiziki şəxslərin faktiki sayının mütəxəssis və ekspert rəyinə əsasən düzgünlüyü araşdınimalıdır.

İşəgötürənin Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondunda qeydiyyatı öyrənilməlidir.

Səyyar vergi yoxlamaları zamanı vergi ödəyicisinin gəlir götürmək məqsədilə istifadə etdiyi ərazisinə, binalarına baxış həyata keçirilərkən vergi ödəyiciləri tərəfindən işlərin (xidmətlərin) görülməsi məqsədilə istifadə olunan obyektin tutduğu sahəyə nisbətdə fiziki şəxslərin sayının mütəxəssis və ya ekspert rəyinə əsasən düzgünlüyü araşdırıImalıdır.Vergi ödəyicisi tərəfindən görülmüş işlərin (xidmətlərin) həcminin, obyektin tutduğu sahənin son operativ vergi nəzarəti keçirilən dövrlə müqayisə edilməsi məqsədəuyğundur.

Son vergi nəzarəti tədbirləri zamanı işçilərə yoxlama ilə əhatə edilən dövrdə gəlir vergisinin hesablanmaması və həmin şəxslərin işləməsinin rəsmiləşdirilmə- məsi aşkar edildikdə, səyyar vergi yoxlaması zamanı Vergi Məcəlləsinin 67.5-ci maddəsinə müvafiq olaraq gəlir vergisinin hesablanması məsələsinə baxıla bilər.

Analoji fəaliyyət növləri üzrə faktiki fəaliyyət göstərən vergi ödəyicisi ilə müqayisə aparılmalı və zəruri hallarda mütəxəssis dəvət edilə bilər.

Vergi ödəyicisinin və ya onun səlahiyyətli nümayəndəsinin iştirakı ilə əmək müqavilələri bağlamadan işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilmiş fiziki şəxslərin sayı müəyyənləşdirilməlidir.

Bu sahəyə vergi nəzarətini həyata keçirmək məqsədilə zəruri sənədlərlə tanış olaraq vergi ödəyicisindən və ya onun vəzifəli şəxslərindən müvafiq izahatlar, arayışlar və məlumatlar alına bilər.

Vergi ödəyicində işləyən xarici fiziki şəxslərə işləmək hüququnun verilməsi ilə bağlı sənədlərin və əldə edilmiş aylıq gəlirlərindən verginin tutulmasının düzgünlüyü araşdırılmalıdır.

Hesablanmış əmək haqqı məbləği ilə müəyyən edilmiş minimum əmək haqqı məbləği və fəaliyyət növündən asılı olaraq orta statistik əmək haqqı məbləği müqayisə olunmalıdır.

Gəlir vergisi üzrə vergitutma bazasının düzgünlüyünün yoxlanması. Yoxlamanın bu mərhələsi əsas və əməktutumludur. Vergitutma bazasının düzgün müəyyən edilməsi üçün vergi güzəştlərinin dəqiq və tam həcmdə tətbiqi mühüm əhəmiyyət kəsb edir. Vergitutma bazasının düzgün müəyyən edilməsi üçün auditorun vergi qanunvericiliyində gəlir vergisi üzrə nəzərdə tutulmuş vergi güzəşti və çıxıl- maların (Vergi Məcəlləsi, maddə 102) mükəmməl və tam həcmdə mənimsəməsi mühüm şərtlərdən biridir.

Vergitutma məqsədləri üçün gəlir vergisi üzrə vergitutma bazasım müəyyən edərkən, həmçinin Vergi Məcəlləsinin X fəslinin maddələrini əsas götürmək lazımdır. Fərdi sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərin gəlirlərindən çıxılan xərclər bu fəslin madddələri ilə tənzimlənir. Belə ki, vergi ödəyicisinin gəlirlərin əldə edilməsi ilə bağlı gəlirdən çıxılan, gəlirdən çıxılmayan və qanunvericiliklə müəyyən edilmiş həddə gəlirdən çıxılmasma icazə verilən "normalaşdırılan" xərcləri məhz bu fəsildə əks olunmuşdur.

Tətbiq edilən güzəştlərin əsaslı və qanuniliyinin, fiziki şəxslərin vergi güzəştlərini təsdiq edən müvafiq sənədlərin mövcudluğunun yoxlanması. Qeyd etmək lazımdır ki, fiziki şəxslərə verilən güzəşt və çıxı İmalar Vergi Məcəlləsinin 102-ci maddəsində göstərilmişdir. Auditor yoxlama zamanı gəlirdən çıxılan məbləğlər və vergi güzəştlərindən istifadə hüququnu təsdiqləyən sənədlərin mövcudluğunu yoxlamalıdır. Bu zaman nəzərə alınmalıdır ki, iki və ya daha çox yerdə muzdla işləyən fiziki şəxslər yalnız əmək kitabçalarının olduğu yerdə güzəşt hüququndan istifadə edə bilərlər.

Vergi dərəcələrinin tətbiq edilməsinin, vergi məbləğinin riyazi hesablanmasının düzgünlüyünün yoxlanması. Fiziki şəxslərin gəlir vergisi üzrə vergitutma bazasını müəyyənləşdirildikdən sonra auditor tərəfindən vergi dərəcələrinin tətbiqinin düzgünlüyünün yoxlanılması həyata keçirilir. Bu zaman auditor nəzərə almalıdır ki, muzdlu işlə əlaqədar ödənilən gəlirdən (əmək haqqından), VÖEN təqdim etməyən fiziki şəxslərə ödənilən haqdan, digər aylıq ödəmələrdən Vergi Məcəlləsinin **101.1**-ci maddəsində göstərilən dərəcələrlə gəlir vergisi tutulur. İki və ya daha çox

yerdə muzdla işləyən fiziki şəxslərin gəlirlərindən gəlir vergisi hər bir iş yerində ödənilən məbləğdən ayrıca hesablanıb dövlət büdcəsinə ödənilir.

Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərin illik gəlirindən gəlir vergisi Vergi Məcəlləsinin 101.2-ci maddəsində göstərilən dərəcələrlə tutulur.

Fiziki şəxslərə daşınan və daşınmaz əmlak üçün icarə haqqının və royaltinin ödənilib-ödənilməməsi, bu cür ödənişlər aparıldığı halda, həmin məbləğlərdən Vergi Məcəlləsinin 124-cü maddəsinə müvafiq olaraq verginin tutulub-tutul- maması yoxlanılmalıdır.

Hüquqi və fiziki şəxslərə dividend ödənilib-ödənilməməsi, bu cür ödənişlər aparıldığı halda, həmin məbləğlərdən Vergi Məcəlləsinin 122-ci maddəsinə əsasən verginin tutulub-tutulmaması yoxlanılmalıdır.

Gəlir vergisinin tutulması üzrə ən çox yayılmış qanun pozuntusu hallarına aşağıdakıları aid etmək olar:

- müəssisədən alınmış bəxşişlərin, maddi yardım məbləğlərinin, işçiyə və onun ailə üzvlərinə müəssisə tərəfindən ödənilmiş putyovkaların (sosial müdafiə fondunun vəsaitləri hesabına verilmiş putyovkalar istisna olmaqla) dəyərinin, müəyyən edilmiş normativdən artıq kompensasiya ödənişlərinin (təzminatlann) işçinin ümumi gəlirinə daxil edilməməsi;
- müvafiq sənədlərlə təsdiq edilməmiş güzəştlərin tətbiq edilməsi;
- işçilərin gəlir vergisinin müəssisə vəsaitləri hesabına ödənilməsi. Qeyd etmək lazımdır ki, vergi qanunvericiliyinə görə belə hallar qanuna zidd sayılır. Vergi orqanının işçiləri sahibkarlıq fəaliyyəti göstərən vətəndaşlar tərəfindən

özlərinin gəlirləri haqqında bəyannamənin vaxtında verilməsi üzərində nəzarət etməli, vergi orqanlarında olan materiallara, eləcə də müəssisələr (fərdi sahibkarlar) tərəfindən ödənilmiş gəlirlər və onlardan tutulmuş vergilər haqqında vergi orqanlarına təqdim etdikləri məlumaylara əsasən bəyannamələrdəki məlumatlann düzgünlüyünü yoxlamaldırlar.

Vergi orqanları vətəndaşların iş yerlərindən əlavə gəlirlər əldə etməsi barədə məlumatlar daxil olduğu hallarda, həmin şəxslərin vergitutulan gəlirlərinin tədqiqini həyata keçirməlidir. Vergiyə cəlb edilən gəlirlərin aşkar edilməsi üçün vergi orqanları vətəndaşlann hazırladığı məmulatları (göstərdiyi xidmətləri) satdığı yerlərdə yoxlamalar aparır.

Audit yoxlaması zamanı verginin tam tutulmaması hallan aşkar edildikdə, vergi borcu təsərrüfat subyekti tərəfindən bu cür qanun pozuntusunun yol verildiyi zaman qüvvədə olan qaydada və müvafiq vergi dərəcələrinə əsasən hesablanılır. İşçilərdən tutulmamış, yaxud tam tutulmamış vergi məbləği müəssisənin mühasibat- lığı tərəfindən həmin şəxslərdən tam məbləğdə tutulmalıdır. Bu zaman nəzərə almaq lazımdır ki, istənilən işçinin gəlirlərindən tutulmaların ümumi məbləği onun aylıq gəlirinin 50 faizindən çox olmamalıdır.

İşçidən vergi borcunun onun gəlir əldə etdiyi mənbədən tutulması mümkün olmadığı və ya borc məbləğinin uzun illər ərzində tutulması mümkün olmadığı hallarda, vergi agenti funksiyasını yerinə yetirən hüquqi şəxslər və fərdi sahibkarlar bu barədə onların yerləşdiyi yer üzrə bir ay ərzində vergi orqanlarına məlumat vermə

l id irlər. Sonradan vergi borcu vergi orqanı tərəfindən borclu fiziki şəxsə təqdim edilən ödəmə bidirişinə əsasən tutulur.

Ödənilməmiş vergi borcu fiziki şəxs tərəfindən bir ay müddətində ödənilir. Zəruri hallarda verginin hissə-hissə, yaxud təxirə salınmaqla (möhlət verilməklə) ödənilməsi üçün fiziki şəxsə imkan verilməsi barədə qərar onun daimi yaşayış yerindəki maliyyə orqanı tərəfindən müəyyən edilmiş qaydada qəbul edilərək müvafiq vergi orqanına xəbərdarlıq edilir. Gəlirləri bəyannamə üzrə vergiyə cəlb edilən vətəndaşların vergiyə vaxtında və ya düzgün cəlb edilmədiyi hallarda, vergi borcu son iki təqvim ili üçün tutula bilər. Hüquqi şəxs yaratmadan sahibkarlıq fəayiyyəti göstərən fiziki şəxslərin vergidən yayındığı hallarda isə, vergi həmin vergi ödəyici- sindən onun vergidən yayındığı bütün dövr üçün tutulur.

Vətəndaşlar tərəfindən verginin vaxtında ödənilməməsi və ya onların gəlirlərindən verginin düzgün hesablanmaması aşkar edildiyi hallarda, verginin əlavə hesablanması, yaxud artıq hesablanmış vergi məbləğinin onlara geri qaytarılması belə faktlann aşkar edildiyi əvvəlki 3 illik dövrdən artıq müddəti əhatə edə bilməz.

Vətəndaşlar tərəfindən onların güzəşt hüquqlannı təsdiq edən müvafiq sənədlər təqdim edildikdən sonra, verginin yenidən hesablanması yalnız belə hüququn yarandığı aydan başlayaraq vergitutulan təqvim ili ərzində aparıla bilər.

Vətəndaşın vergidən yayınması nəticəsində tutulmamış vergi məbləği onun vergidən yayındığı bütün dövr üçün tutulur. Ödəmə mənbəyində vaxtında tutulmamış (tam tutulmamış) və ya büdcəyə tam köçürülməmiş vergi məbləği və vergi orqanları tərəfindən tətbiq edilmiş müvafiq cərimə məbləği mübahisəsiz qaydada vətəndaşlara gəlir ödəyən müəssisələrdən tutulur. Cərimə yoxlamanın gedişatı zamanı müəssisələrdə tutulmamış (tam tutulmamış), büdcəyə köçürülməmiş (tam köçürülməmiş) vergi məbləğinə görə hesablanılır və bu barədə yoxlama aktıda müvafiq qeyd edilir.

Müəssisənin bankdakı hesablannda pul vəsaitlərinin olub-olmamasından asılı olmayaraq vergilərin vaxtında dövlət büdcəsinə köçürülməməsinə görə, əməyin ödənişi üçün bankdan nağd pul vəsaitinin alındığı gündən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən (agentindən) ödənilməmiş vergi məbləğinin **0,1** faizi məbləğində peniya hesablanır. Həmin faiz vergi yoxlaması zamanı aşkar edilmiş vergi məbləğinə münasibətdə vergi məbləğinin hesablandığı gündən tətbiq edilir. Fərdi sahibkarlardan analoji qanun pozuntusuna görə cərimə məbləği vergi orqanlarının yoxlamanın nəticələrinə görə onlara göndərdikləri ödəniş bildirişinə əsasən tutulur. Peniyanın tutulması müəssisələri (sahibkarları) digər məsuliyyət növlərindən azad etmir.

Vergi orqanının işçiləri sahibkarlıq fəaliyyəti göstərən vətəndaşlar tərəfindən özlərinin gəlirləri haqqında bəyannamənin vaxtında verilməsi üzərində nəzarət etməli, vergi orqanlannda olan materiallara, eləcə də müəssisələr (fərdi sahibkarlar) tərəfindən ödənilmiş gəlirlər və onlardan tutulmuş vergilər haqqında vergi orqanla- rma təqdim etdikləri məlumaylara əsasən bəyannaələrdəki məlumatların düzgünlüyünü yoxlamaldırlar.

Gəlirləri vergiyə cəlb edilən vətəndaşların fəaliyyəti vergi orqanları tərəfindən müəyyən edilmiş müddətlərdə və vətəndaşların əsas iş yerlərindən kənarda gəlirlə əldə etməsi haqqında məlumatlar daxil olduqda tədqiq edirlər.

Vergiyə cəlb olunan gəlirlər əldə edən vətəndaşları aşkar etmək məqsədilə vergi orqanları həmçinin onların hazırladığı məmulatların (göstərdikləri xidmətlərin) satışı yerlərində yoxlama aparırlar.

Auditor verginin tutulmasında qanun pozunlusuna yol vermiş müəssisələrdə (sahibkarlarda) aparılmış yoxlama aktı üzrə irəli sürülmüş təkliflərin yerinə yetirilib-yetirilmədiyini aydınlaşdırmaq məqsədilə təkrar yoxlama aparmalıdır.

Əməyin ödənişi və əmək haqqından tutulmalar üzrə əməliyyatların mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyünün yoxlanması. Müəssisələrin siyahı sayma daxil olan və olmayan işçi heyəti ilə əməyin ödənişi (əmək haqqının bütün növləri, müavinət, işləyən pensiyaçılara təqaüd), habelə həmin müəssisənin səhm və digər qiymətli kağızlara görə ödəniləsi gəlirlər üzrə hesablaşmalar haqqında məlumatlar 70 "Əməyin ödənişi üzrə işçi heyəti ilə hesablaşmalar" adlı sintetik hesabda ümumiləşdirilir.

Uçotun jumal-order formasım tətbiq edən müəssisələrdə əməyin ödənişi üzrə sintetik uçot məlumatlarının düzgünlüyünü yoxlamaq üçün auditor 70 saylı hesabın krediti (əmək haqqının hesablanması) üzrə əməliy>'atlann əks olunduğu **10** və **10/1** Jfe jumal-orderləri; əmək haqqından tutulmalar, əmək haqqının ödənişi üzrə (bu hesabın debeti üzrə) əməliyyatların əks olunduğu 1 >f**2** li "Kassa" və 2J'Te li "Hesablaşma hesabı" jurnal-orderləri; gəlir vergisi üzrə büdcə ilə hesablaşmaların, de- ponent olunmuş əmək haqqı uçotunun aparıldığı **8**X**2**Ii Jurnal-orderi yoxlamalıdır.

Mühasibat uçotunun avtomatlaşdırılmış sistemini tətbiq edən müəssisələrdə əməyin ödənişi üzrə məlumatlar debet və kredit üzrə yazılışların aparıldığı dövriyyə cədvəlində toplanır. Bundan başqa həmin məlumatların doğruluğunu Baş kitabda (70 və 69 saylı hesablar üzrə) yoxlamaq olar.

Büdcəyə daxil olmuş vergi məbləğləri barədə vergi orqanlarında olan qeydlərlə, büdcəyə köçürülmüş vergi məbləğləri haqqında mühasibat uçotu məlumatları **(68** saylı hesab üzrə qeydlər) arasında uyğunsuzluq aşkar edildiyi hallarda, vergi müfəttişi verginin büdcəyə köçürülməsi barədə bank sənədlərindəki, xüsusilə ödəniş tapşırıqlarındakı məlumatları yoxlamalı və bu uyğunsuzluğun səbəbləri barədə müəssisə rəhbərliyindən izahat tələb etməlidir.

Hesablanmış aylıq vergi məbləği mühasibat ucotundakı (baş kitabdakı) yazılışla üzləşdirilməlidir. Bu zaman iri məbləğdə edilmiş düzəlişlərə və dəqiqləşdirilmiş dövriyyələrə xüsusi fikir verilməlidir. Əvvəlki yoxlama aktına baxılmalı və edilmiş düzəlişlərə diqqət yetirilməlidir.

Gəlir verigisinin büdcəyə vaxtında və tam köçürülməsini yoxlayarkən yol verilən əsas səhvlərdən biri də ondan ibarətdir ki, borc məbləği əvəzinə **68**K**2**İİ "Büdcə ilə hesablaşmalar" hesabı üzrə ayın birinə olan kredit saldosu götürülür. Bu saldo əvvəlki hesabat ayı üçün tutulmuş gəlir vergisi üzrə müəssisənin büdcəyə olan borcunu əks etdirir. Həmin borc məbləği cari hesabat ayı üçün əmək haqqını ödəməkdən ötrü nağd pul vəsaitinin bank müəssisəsindən alınması üçün müəyyən edilmiş gündən gec olmayaraq dövlət büdcəsinə köçürülməlidir. Əgər tutulmuş

vergi məbləği təmamilə, lakin müəyyən edilmiş müddətdən gec köçürülmüş olarsa, onda gecikdirilmiş hər gün üçün peniya (müamilə) hesablanılır.

Mühasibat uçotu hesablar planının tətbiqi üzrə təlimata uyğun olaraq hesablanmış əmək haqqından və digər əməyin ödənişi formalarından tutulmuş gəlir vergisinin məbləği 68 "Büdcə ilə hesablaşmalar" hesabının krediti, onun büdcəyə köçürülməsi isə debet üzrə əks olunmalıdır. Bu o deməkdir ki, bu hesabın krediti üzrə ayın əvvəlinə olan qalıq məbləği yoxlama aparılan müəssisənin gəlir vergisi üzrə büdcəyə olan borcunu göstərir.

Vergilərin hesablanmasının düzgün olub-olmamasını müəyyən etmək üçün mühasibatlıqda hər bir işçi üçün açılmış şəxsi vərəqələr, eləcə də gəlirlərin hesablanması və ödənilməsi üçün nəzərdə tutulmuş digər sənədlər üzrə seçmə qaydasında, vergilərin hesablanmasında ciddi səhvlərə yol verildiyi hallarda isə tam yoxlanılmalıdır.

Vergilərin düzgün hesablanmasım, tam və vaxtında büdcəyə köçürülməsini yoxlayarkən auditor aşağıdakı prosedurlar həyata keçirməlidir:

1) müəssisənin təsis sənədləri. Nizamnamə kapitalının yaradılması, mənfəətin bölüşdürülməsi, əməyin ödənişi və xüsusi təyinatlı fondlardan istifadə olunması qaydaları, eləcə də vergitutma ilə bağlı normativ aktlarla yaxından tanış olmalı;
2) vergilərin hesablanması üçün əsas kimi xidmət edən sənədlər (hesablama cədvəlləri, şəxsi hesablar) üzrə hesablanmış vergi məbləğlərinin mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyünü yoxlamalı;
3) mühasibat uçotuda 68 "Büdcə ilə hesablaşmalar" hesabının krediti üzrə əks etdirilmiş vergi məbləğini vergilərin hesablanması üçün xidmət edən sənədlərdə (şəxsi hesablar, hesablama cədvəlləri) hesablanmış vergi məbləğlərinin yekunu ilə tutuşdurmaq;
4) hesablanmış vergi məbləği barədə mühasibat uçotu qeydlərini (68"Büdcə ilə hesablaşmalar" hesabı üzrə yazılışlan) vergi qanunvericiliyi üzrə sənədlərlə, şəxsi vərəqlərdə hesablanmış və hesablama-ödəniş cədvəlində əks olunmuş vergilərin yekun məbləği ilə tutuşdurulmalıdır. Yoxlama zamanı bütün sənədlərin təqdim edilib-edilmədiyini aydınlaşdırmaq üçün həmin sənədlər üzrə hesablanmış ümumi vergi məbləğini aşağıdakı mühasibat uçotu hesablan- mn məlumatları ilə tutuşdurmaq lazımdır: 46 "Məhsulların (işlərin, xidmətlərin) satışı", 47 "Əsas vəsaitlərin satıcı və sair xaric olması", 48 "Sair aktivlərin satışı", 50 "Kassa", 70 "Əməyin ödənişi üzrə işçi heyəti ilə hesablaşmalar", 71 "Təhtəlhesab şəxslərlə hesablaşmalar", 73 "Sair əməliyyatlar üzrə işçi heyəti ilə hesablaşmalar", 75 "Təsisçilərlə hesablaşmalar", 76 "Müxtəlif debitor və kreditorlarla hesablaşmalar", 93 "İşçilər üçün bank kreditləri". Bundan sonra seçmə yolu ilə bir neçə işçinin şəxsi vərəqini götürüb, həmin şəxsi vəraqlər üzrə tutulmuş vergi məbləğinin düzgün hesablanıb-hesablanmadığını yoxlamaq lazımdır. Bu məqsədlə işçilərin şəxsi hesablanndan əlavə, kassa və bank sənədlərindən, mühasibat kitablarından, jurnal orderlərdən, Baş kitabdan istifadə edilir.

5) vergi məbləğlərinin büdcəyə daxil olması barədə vergi orqanlarında olan məlumatlar, özündə vergilərin büdcəyə köçürülməsi barədə bank müəssisəsinin müvafiq qeydini əks etdirən müəssisələrin mühasibatlığında olan ödəniş tapşırıqlarının surətləri, bank çıxarışları və müəssisə mühasibatlığında olan digər sənədlərlə tutuşdurulmalı.

Sadalananlardan başqa, yoxlamanın gedişatı zamanı auditor aşağıdakı məsələlərə xüsusi diqqət yetirməlidir:

- mühasibatlıq tərəfindən əməyin ödənişi üzrə ilkin sənədlərin, hesablaşma və ödəniş sənədlərinin düzgün tərtib edilməsi, fəhlə və qulluqçularla hesablaşmaların düzgünlüyü, hesablanmış əmək haqqının qanuniliyi üzərində nəzarətin necə həyata keçirilməsinə;
- hesablaşma və ödəniş sənədlərinin məlumatlarına əsasən əmək haqqının sintetik və analitik uçotlarının üzloşdirilməsinin apanhb-aparılmamasına;
- vaxtında alınmamış əmək haqqının ayrıca uçotunun aparıldığı hallarda əməyin Ödənişi üzrə müəyyən edilmiş müddət ərzində alınmamış əmək haqqının deponent edilməsi qaydasına riayət olunmasına;
- hesablanmış vergilərin analitik və sintetik uçot registrlərində düzgün əks etdirilməsinə, analitik uçot göstəricilərin baş kitabla tutuşdurulmasına.

Qeyd etmək lazımdır ki, xarici valyutada gəlir əldə edən fiziki şəxslərin həmin gəlirlərin, onların əldə edilmə tarixinə Mərkəzi Bankın müvafiq valyutanın manata olan məzənnəsinə əsasən manatla hesablandıqdan sonra gəlir vergisinə cəlb edilir.

Hər ayın sonunda vergi agenti funksiyasını yerinə yetirən müəssisənin mühasibatlığı işçilərə hesablanmış əmək haqqından ödəmə mənbəyində gəlir vergisi və qanunvericilikdə müəyyən edilmiş digər tutulmalar çıxıldıqdan sonra gəlir ödəyirlər. Bu zaman işçilərin gəlir vergisi üzrə malik olduqları güzəştlər nəzərə alınmalıdır.

Hər ay başa çatandan sonra, lakin əmək haqqının ödənilməsi üçün vəsaitin bankdan alınması müddətindən gec olmamaqla, müəssisə əvvəliki ay üçün vətəndaşlara hesablanmış və onlardan tutulmuş verginin məbləğini büdcəyə köçürməyə borcludur. Gəlir vergisinin büdcəyə köçürülməsi müddəti aylıq əmək haqqı məbləğinin hesablaşma hesabından alındığı gün hesab edilir.

Bank və digər kredit təşkilatlarında hesablaşma hesabı olmayan, eləcə də əmək haqqını əldə etdikləri satış pulundan ödəyən müəssisələr (ticarət və ictimai iaşə müəssisələri) əmək haqqı məbləğinin hesablandığı günün səhəri gəlir vergisini büdcəyə köçürməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan verginin yoxlanılması z.a- manı auditor *xarici əməkdaşların Azarbaycan Respublikası mənbəyindən gəlirlərin düzgün müəyyən edilməsi məsələsinə diqqət yetirməlidir.*

Xarici əməkdaşların təqdim edilmiş sənədlər və kontraktlar əsasında rezident statusunun və Azarbaycan Respublikası mənbəyindən gəlirlərin düzgün müəyyən edilməsi məsələsinə diqqət yetirilməlidir.

Hasilatın Pay Bölgüsü Haqqında Sazişlər (HPBS) çərçivəsində fəaliyyət göstərən xarici əməkdaşlarla bağlanmış müqavilələrin müddəaları və müvafiq sənədlə

rə əsasən (invoys, taym-şit) əməkdaşların əsas iş yerinin Azərbaycan Respublikası olub-olması müəyyənləşdirilməlidir.

Hasilatın Pay Bölgüsü Haqqında Sazişlər (HPBS) çərçivəsində fəaliyyət göstərən xarici əməkdaşların fəaliyətinin qabaqcadan təsdiq edilmiş vaxt cədvəlinə uyğun olub-olmaması və əməkdaşlarla bağlanmış müqavilələrə əsasən ödənilmiş gəlirlərin gündəlik və ya aylıq olub-olmaması müəyyənləşdirilməlidir

Vergi ödəyicisi tərəfindən sifarişçilərlə bağlanmış müqavilələrə əsasən əməkdaşlara veriləcək əmək haqqı norması ilə faktiki ödənilmiş əmək haqqi məbləği yoxlanılmalıdır.

Hasilatın Pay Bölgüsü Haqqında Sazişlər (HPBS) çərçivəsində fəaliyyət göstərən xarici əməkdaşların Azərbaycan Respublikasındaki fəaliyəti nəticəsində əldə etdikləri bütün gəlirlərin müəssisə tərəfindən düzgün hesablanması və gəlirlərin haradan ödənilməsi araşdırılmalıdır.

Hasilatın Pay Bölgüsü Haqqında Sazişlər (HPBS) çərçivəsində fəaliyyət göstərən xarici əməkdaşlarla bağlanmış müqavilələrə əsasən ödənilmiş gəlirlərdən hesablanmış gəlir vergisi məbləğinin kim tərəfindən hesablanmalı və ödənilməli olduğu müəyyənləşdirilməlidir.

Ödəmə mənbəyində vergilərin tutulmasmm yoxlanılması zamanı sənəd kodu YV-037 olan yönləndirici vərəqə tətbiq edilməli və aşağıdakı məsələlər yoxlama ilə əhatə olunmalıdır.

Hesablanmış rüblük vergi məbləği mühasibat ucotundakı (baş kitabdakı) yazılışla üzləşdirilməlidir. Bu zaman iri məbləğdə edilmiş düzəlişlərə və dəqiqləşdirilmiş dövriyyələrə xüsusi fikir verilməlidir. Əvvəlki yoxlama aktına baxılmalı və edilmiş düzəlişlərə diqqət yetirilməlidir.

Vergi qanunvericiliyinə əsasən ödəmə mənbəyində tutulan verginin ödəyicisinin düzgün müəyyən edilməsinə diqqət yetirilməlidir. Bu zaman vergi ödəyicisi kimi vergi orqanlannda uçotda olmayan, VÖEN təqdim etməyən fiziki şəxslər tərəfindən işlərin görülməsi və xidmətlərin göstərilməsi hallan olduqda verginin tutulub-tutulmaması məsələsi araşdmlmalıdır.

Dividentdən, faizlərdən, icarə haqqından və royaltidən, qeyri-rezidentin gəlirindən və qeyri-rezidentin daimi nümayəndəliyinin xalis mənfəətindən ödəmə mənbəyində vergitutma obyekti və vergitutulan əməliyyatın dəyəri düzgün müəyyən edilməlidir (bağlanmış müqaviləyə əsasən).

Gəlirin əldə edilməsi mənbəyinin düzgün müəyyən edilməsinə diqqət yetirilməli, dividentlər ödənilərkən protokollara əsasən təsisçilərin payları (faizləri) araşdırılmalıdır. Hüquqi şəxsin ləğvi ilə bağlı əmlakın bölüşdürülməsi nəticəsində əldə edilən gəlir və səhmlərin nominal dəyəri hüdudlarında geri alınması ilə bağlı ödənişlərin dividendə aid edilib-edilməməsinə diqqət yetirilməlidir.

Bağlanmış icarə və royalti müqavilələrində qiymətlərin bazar qiymətlərinə və müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi qiymətlərə uyğunluğu araşdmlmalıdır.

Riskin sığortası və təkrar sığortası üzrə müqavilələr diqqətlə araşdırılmalı, beynəlxalq rabitə və beynəlxalq daşımalara aid olan fəaliyyətlər düzgün müəyyənləşdirilməlidir.

Qeyri-rezidentin gəlirindən ödəmə mənbəyində verginin tutulması zamanı Azərbaycan Respublikasının tərəfdar çıxdıqı ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrə diqqət yetirilməlidir.

Hesablanmış vergilərin "Ödəmə mənbəyində tutulan vergilər barədə bəyannamə'Mə düzgün əks etdirilməsi yoxlanılmalı, büdcəyə vaxtında ödənilib-ödənilməməsi araşdırılmalıdır. Əgər vergilərin hesablanmasında və ya ödənilməsində kənarlaşmalar aşkar edilərsə, bu zaman yarana biləcək faiz borclarının və maliyyə sanksiyalarının müəssisənin maliyyə vəziyyətinə necə təsir edəcəyi müəyyənləşdirilməli və bu barədə rəhbərliyə məlumat verilməlidir.

Xüsusi vergi rejimli müəsissələrdə əməkdaşların və fiziki şəxslərin gəlirlərindən tutulan vergilərin yoxlanılması xüsusiyyətləri.

Yoxlama zamanı ilk növbədə əməkdaşın vergi ödəyicisi olub-olmaması müəyyən edilməlidir. Podratçı tərəflərdə, əməliyyat şirkətlərində və subpodratçılarda çalışan Azərbaycan Respublikası vətəndaşı olan əməkdaşların, xarici əməkdaşların vergiyə cəlb edilməsi və bununla əlaqədar onların əldə etdikləri gəlirlər tam araşdırılmalıdır.

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq gəlir vergisini özü tərəfindən ödəməsi və xarici subpodratcı tərəfindən yerli əməkdaşa ödənilən gəlirlərdən Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq gəlir vergisinin tutulması və ödəməsi məsələləri araşdırılmalıdır.

Hər bir işəgötürənin vergi rezidenti olan xarici əməkdaşların bilavasitə Azərbaycan Respublikasında həyata keçirdiyi əmək fəaliyyəti nəticəsində qazandığı gəlirlərdən tutulan Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq gəlir vergisi yoxlanılmalıdır.

Yoxlama zamanı rezidentliyin müəyyənləşdirilməsi üçün xarici əməkdaşların Azərbaycan Respublikasındakı fəaliyyəti ilə bağlı vergi ödəyicisi tərəfindən tərtib edilən vaxt cədvəlləri, gediş-gəliş sənədləri, pasport, viza və sair sənədləri tutuş- durularaq araşdınimalıdır.

Xarici 9məkdaşlarm vergi tutulan gəlirinin müəyyən edilməsinin düzgünlüyü yoxlanılarkən aşağıdakı ödənişlərin vergi ödəyicisi tərəfindən nəzərə alınıb-alın- maması araşdırılmalıdır:

- 4 xarici əməkdaşın Azərbaycan Respublikasında gördüyü işin birbaşa nəticəsi olaraq ödəniş formasından və ödəniş yerindən asılı olmayaraq işverən tərəfindən və ya işverənin adından xarici əməkdaşa birbaşa və ya dolayısı ilə muzdlu işlə əlaqədar ödənilən əmək haqqı və ya hər hansı ödəmələr;
- 4 Azərbaycan Respublikasında özünün göstərdiyi bilavasitə əmək fəaliyyəti nəticəsində xarici əməkdaşın məzuniyyətlə əlaqədar aldığı və istifadəsinə heç bir məhdudiyyət qoyulmayan kompensasiya, maaş, mükafat və bonus- lar, avanslar, komission mükafatlandırılmalar və digər ödənişlər.
- 4 Azərbaycan Respublikasında keçirdiyi günlər üçün ödənilən əlavə ödəniş məbləğləri;
- 4 xarici əməkdaşa təqvim ili ərzində Azərbaycan Respublikasından hər hansı təyinat yerinə şəxsi gediş-gəlişi üçün ödənilən məbləğlər;

xarici əməkdaşın ailə üzvlərinin təhsilinə çəkilən xərclər; xarici əməkdaşın Azərbaycan gəlir vergisi üzrə öhdəliklərinin yerinç yetirilməsi məqsədilə həyata keçirilən ödənişlər.

Yoxlama zamanı aşağıda qeyd edilən ödənişlərin xarici əməkdaşın vergi tutulan ^lirinə daxil edilib-edilməməsi araşdırılmalıdır:

JR xarici əməkdaşın öz ölkəsində pensiya, sosial müdafiə və tibbi sığorta fondlarına ödədiyi məbləğlər və ya bu qəbildən olan digər ödənişlər;

Ä faktiki ezamiyyə və ya digər işgüzar xərclərin ödənilməsi və ya əvəzinin ödənilməsi;

^ işə götürən tərəfindən əyləncə və ya yemək xərclərinin, habelə yaşadığı mənzil və ya digər sosial xarakterli xərclərin ödənilməsi;

* karbohidrogen fəaliyyəti ilə əlaqədar əsasən biznes məqsədləri üçün nəqliyyat vasitələrindən istifadə olunmasına və ya nəqliyyat vasitələri ilə bilavasitə təmin edilməsinə görə xarici əməkdaş tərəfindən ödənilən məbləğlərin kompensasiyası;

^ xarici əməkdaşın peşə hazırlığı ilə bağlı ödənilən və ya kompensasiya edilən məbləğlər, yəni təlimin keçirildiyi yerdən asılı olmayaraq təlimin əsas məqsədi yalnız xarici əməkdaşlann öz işini yerinə yetirməsi üçün bilik və bacarığını artırmaqdan ibarət olduğu halda təlim ilə bağlı xərclər;

^ xarici əməkdaşa və onun ailə üzvlərinə və ya onlann adından Azərbaycan Respublikasında əmək fəaliyyətinə başlanması və ya sona çatması ilə bağlı köçmək xərcləri və bu xərclərdə şəxsi əmlakın daşınması, bütün nəqliyyat xərcləri, yemək və yaşamaq xərcləri.

4.13. Əlavə dəyər vergisi üzrə ay^HT yoxlamasının aparılması metodikası

Nəzərə almaq lazımdır ki, istər ölkəmizin vergi sistemində, istərsə də büdcə vergi daxilolmaları arasında dolayı vergilər (xüsusilə ƏDV) böyük xüsusi çəkiyə malikdir. Öz təbiətinə, təyinatına və tutulması üsullarına görə dolayı vergilər digər vergilərdən fərqlənirlər. Bu vergilər istehlak sferasında tutulduğu üçün prinsipcə ədalətsiz hesab olunur. Yəni bu vergilərin ödəyiciləri istehsalçılar (satıcılar) olduğu halda, vergi məbləğini faktiki olaraq istehlakçilar (alıcılar) ödəyir. Digər tərəfdən bu verginin ödənilməsində vergi ödəyisisi olan müəssisələrin (sahibkarlann) özləri də maraqlı deyil. Çünki dolayı vergilər süni olaraq müəssisələrin satdıqlan malların (işlərin, xidmətlərin) qiymətini şişirdir ki, bununla da əhalinin alıcılıq qabiliyyətini aşağı salmaqla yanaşı ümumi mal dövriyyəsini aşağı salır.

Digər tərəfdən dolayı vergilər dövlət büdcəsinin stabil gəlir mənbələrindən biri sayılır və keçid iqtisadiyyatlı dövlətlərin əsas iqtisadi dayağı kimi xidmət edir. Dolayı vergilərin vergitutma bazasının həcminin mühasibat uçotunda asanlıqla müəyyən edilməsi vergi ödəyicilərinin vergi ödənilməsindən yayınmasına maneçilik törədir.

Hesablanması və mühasibat uçotundaə ək5 etdirilməsi qaydasına görə ən mürəkkəb, eyni zamanda dövlət büdcəsinin ən əhəmiyyətli vergi növlərindən biri əlavə dəyər vergisidir. Bu verginin hesablanması və uçota alınması prosesini yaxşı mənimsənilməməsi səbəbindən müəssisələrdə vergi qanunvericiliyinin pozulması hallarına daha çox rast gəlinir. Məhz ona görə vergi audit yoxlaması zamanı ən çox diqqət mərkəzində olan vergilərdən biri əlavə dəyər vergisidir.

Hüquqi şəxslər (sahibkarlar) tərəfindən əlavə dəyər vergisinin hesablanması və vaxtında büdcəyə ödənilməsinin düzgünlüyü vergi orqanları tərəfindən əvvəlcə- dən tərtib olunan plan qrafikinə əsasən mütəşəkkil qaydada ildə bir dəfədən az olmayaraq yoxlanmalıdır.

Qeyd etmək lazımdır ki, ƏDV üzrə büdcə ilə hesablaşmaların auditi özünün mürəkkəbliyi, xüsusi biliklərin tələb olunması və yüksək dərəcədə diqqət tələb edilməsi baxımından digər vergi öhdəliklərinin auditindən fərqlənir. Vergi Məcəlləsində edilmiş dəyişikliklərə uyğun olaraq ƏDV auditinin aparılması forması və məzmunu da dəyişmişdir. Məsələn, malsatanlara ödənilmiş ƏDV məbləği o halda əvəzləşdirilir ki, onun əvəzləşdirilməsi üçün ərizə ilə müraciət etmiş vergi ödəyici- sində ƏDV audit yoxlaması apanlsın. Bu isə öz növbəsində vergi orqanlarından bu vergi növünün audit yoxlamasına daha da diqqətlə yanaşmasını şərtləndirir. Belə ki, ƏDV üzrə büdcə ilə hesablaşmaların auditi vergi müfəttişlərindən mühasibat uçotu sahəsində xüsisi biliklər və bacarıq tələb edir.

Əlavə dəyər vergisinin səyyar yoxlamasına dair metodik göstərişlər *("ƏDV- nin səyyar yoxlamasına dair metodiki göstərişlər^^ "Büdcədən əvəzləşdiriləcək ƏDV üzrə bəyannamənin səyyar vergi yoxlaması haqqında")* Azərbaycan Respublikası Vergilər Nazirliyinin 24 yanvar 2003-cü il tarixli A-16 saylı əmrilə təsdiq edilmişdir. Bu metodiki göstərişlər Vergi Məcəlləsinə, Nazirlər Kabinetinin qərarlarına, "Vergi hesab-fakturalarının tətbiqi qaydalarına", Vergilər Nazirliyinin sərəncam və göstərişlərinə müvafiq olaraq hazırlanmış və səyyar vergi yoxlaması zamanı auditorlann nəzərdən keçirməli olduqlan məsələləri müəyyən edir.

Yuxarıda göstərilən metodiki göstərişlərə əsasən ƏDV-nin əvəzləşdirilməsi üçün ərizə ilə müraciət etmiş vergi ödəyicisində audit yoxlaması apanlarkən aşağıdakı prosedurların həyata keçirilməsi qaydası müəyyən edilir:

- vergi bəyannamələrinin (əsasında büdcədən əvəzləşdiriləcək ƏDV məbləğinin müəyyən edildiyi) audit şöbəsinə daxil olması;
- audit şöbəsinin rəisi tərəfindən bəyannamələrin bölüşdürülməsi;
- auditor tərəfindən ƏDV üzrə bəyannamənin ilkin bölüşdürülməsi: auditor müvafiq vergi ödəyicisinin işçi (fərdi) qovluğunda büdcədən əvəzləşdiriləcək vergi məbləği ilə bağlı məlumatların və bütün yazılışların yoxlanması;
- qarşılıqlı auditin təyin edilməsi;
- vergi ödəyicisi tərəfindən onun maliyyə-təsərrüfat fəaliyyəti və ödənilmiş ƏDV məbləği haqqında məlumatların alınması;
- ƏDV üzrə vergi bəyannamənin tərtib edilməsi üçün vergi ödəyicisinin tətbiq etdiyi uçot sisteminin səyyar vergi yoxlamasının aparılması qaydası;
- auditor tərəfindən ƏDV üzrə vergi bəyannamənin vergi ödəyicisində olan sə- nədlərdəki göstəricilərə müvafiq olub-olmamsı;

- ❖ ƏDV-nin büdcədən əvəzləşdirilməsinə əsas verən xüsusi səbəblərin mövcudluğu;
- ❖ büdcədən əvəzləşdirilməyə əsas verən səbəblərin yoxlanması qaydası;
- ❖ büdcədən əvəzləşdirilməyə əsas verən vergi bəyannaməsinin tərtib edilməsi zamanı vergi ödəyicisinin tətbiq etdiyi uçot sistemindəki çatışmamazlıqlann yoxlanması;
- ❖ vergi ödəyicisinin uçot sistemində dəyişikliklər edilməsi haqqında auditorun təklifi;
- ❖ büdcədən əvozləşdiriləcək vəsaitlər üzrə vergi ödəyicisində aparılan səyyar yoxlamanın nəticələri.

Əlavə dəyər vergisinin yoxlanılması zamanı *"Əlav? dəyər vergisinin yoxlanılması üzrə"* yönləndirici vərəqə tətbiq edilməli (sənəd kodu YV-033) və aşağıdakı məsələlər yoxlama ilə əhatə olunmalıdır.

1. *Hesablanmış aylıq vergi məbləği mühasibat uçotu yazılışları ilə (baş kitabla) üzləşdirilməlidir.* Bu zaman iri məbləğdə edilmiş düzəlişlərə və dəqiqləşdirilmiş dövriyyələrə xüsusi fikir verilməlidir. Əvvəlki yoxlama aktına baxılmalı və edilmiş düzəlişlərə diqqət yetirilməlidir.
2. *ƏDV məqsədləri üçün vergi ödəyicisinin müəyyən edilməsi zamanı ƏDV məqsədləri üçün qeydiyyata dair ərizə vermə öhdəliyinin yaranıb-yaranma- masi araşdırılmalıdır.* Bu zaman vergi ödəyicisinin faktiki göstərdiyi fəaliyyətə, istənilən hesabat ayı ərzində vergi tutulan əməliyyatların həcminə (ƏDV-dən azad edilən dövriyyə istisna olmaqla,Vergi Məcəlləsi maddə 164), xronometraj metodu ilə müşahidə aparıldığı halda tərtib edilən aktın nəticələrinə xüsusi diqqət yetirilməlidir.
3. *Vergitutma obyektinin müəyyən edilməsi zamanı vergidən azad olunan və vergiyə "O" dərəcə ilə cəlb olunan əməliyyatların aparılmasına əsas verən sənədlərə (sertifikatılarm qüvvədə olma müddətlərinə və s.) diqqət yetirilməlidir.* Bu zaman 01.01.2001-ci il tarixədək aparılmış əməliyyatlara görə daxil olan vəsaitlər, vergi ödəyicisinin ƏDV qeydiyyatı ləğv edilibsə, sahibliyində qalan mal qalıqları və müəssisənin bir əməliyyat çərçivəsində təqdim edilən əməliyyatlan (alqı-satqı barədə məlumatın 10 gün müddətində vergi orqanına təqdim edilməsi məsələsi) ayrı-ayrılıqda araşdırılmalıdır.
4. *Vergi tutulan əməliyy'atın dəyərinin, o cümlədən vei^gi tutulan idxalın dəyərinin müəyyən ediməsində ƏDV nəzərə alınmadan dəyərin düzgün formalaşmasına, idxalın bir hissəsi kimi göstərilən xidmətlprə baxılmalıdır.* Vergi tutulan əməliyyatın dəyərini müəyyənləşdirərkən malların göndərilməsinə, işlərin görülməsinə və xidmətlərin göstərilməsinə, həmçinin ixracatçının idxalına yardımçı xarakter daşıyan malların göndərilməsinə, işlərin görülməsinə və xidmətlərin göstərilməsinə, eyni zamanda mövcud bazar qiymətlərinə xüsusi diqqət yetirilməlidir.
5. *Əməliyyatların aparıldığı (o cümlədən idxalın) vaxtın müəyyən edilməsi zamanı avans ödənişlərin olub-olmaması və vergi hesab-fakturalarının qeydiyyat kitabındakı yazılışlar yoxlanılmalıdır.* Vergi Məcəlləsinə əsasən malların təqdim edildiyi, iş və xidmətlərin göstərildiyi yerin müəyyən edilməsi zamanı bağlanmış müqavilələrin şərtləri də diqqətlə öyrənilməlidir.

6. *Aparılan yoxlama zamanı malların göndərilməsi, idlərin görülməsi və xidmətlərin göstərilməsi ilə bağlı müqavilələrin öyrənilməsi.* Bu zaman həmin müqavilədə göstərilən əməliyyatların agent vasitəsi ilə aparılan əməliyyatlara aid edilib-edilməməsi, digər şəxsin agent vasitəsi ilə həyata keçirdiyi əməliyyatlar üzrə ƏDV-nin hesablanmasının sahəvi xüsusiyyətlərinə xüsusi diqqət yetirilməlidir.
7. *Aparılmış əvəzləşdirmələrin yoxlanılması zamanı vergi qanunvericiHyinin müddəalarına və iri məbləğdə aparılmış əvəzləşdirilmələr araşdırılmalıdır.* Bu zaman əməliyyatın aparılması vaxtına, ƏDV-nin depozit hesaba ödənilməsinə, malların dəyəri ilə ƏDV məbləğinin eyni vaxtda ödənilməsinə. Vergi *Məcəlləsinin 175.1.3-cü maddəsinə müvafiq olaraq vergi ödəyicisi tərəfindən vergi-hesab fakturası üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV məbləğinin ödənilməsi vəziyyətinə* xüsusi diqqət yetirməlidir.
8. *Əvəzləşdirilməsinə yol verilməyən əməliyyatlar diqqətlə araşdırılmalıdır.*
9. *Vergi Məcəlləsində nəzərdə tutulmuş qaydada qeyri-rezidentin gördüyü işlərin və göstərdiyi xidmətlərin yerinin düzgün müəyyən edilməsinə xüsusi fikir verilməlidir.*
10. *Qeyri-rezidentə görə ödənilmiş ƏDV məbləği əvəzləşdirilərkən, ƏDV məbləğinin təyinatı üzrə ödənilməsinə diqqət yetirilməlidir.*
11. *Vergi hesab fakturalarının hərəkətlərinin qanunauyğunluğu, itirilmiş və ya məhv edilmiş VHF-nın siyahısı diqqətlə araşdırılmalıdır.*
12. *"ƏDVqeydiyyatında olmayan qeyri-rezidentin vergiyə cəlb edilməsi" üzrə ayrı yönləndirici vərəqə (sənəd kodu YV-034) tətbiq edilməlidir.*
13. *Qeyri-rezidentə ödənilməli olan məbləğdən hesablanan ƏDV-nin düzgünlüyü yoxlanılarkən* bağlanmış müqavilələrin şərtləri və işin görülməsi barədə təqdim edilən sənədlər (hesablar) araşdırılmalıdır.

" *14. Hesablanmış aylıq vergi məbləği mühasibat ucotundakı (baş kitabdakı) yazılışla üzləşdirilməlidir.* Bu zaman iri məbləğdə edilmiş düzəlişlərə və dəqiqləşdirilmiş dövriyyələrə xüsusi fikir verilməlidir. Əvvəlki yoxlama aktına baxılmalı və edilmiş düzəlişlərə diqqət yetirilməlidir.

15. *Vergi Məcəlləsində nəzərdə tutulmuş qaydada qeyri-rezidentin gördüyü işlərin və göstərdiyi xidmətlərin yerinin düzgün müəyyən edilməsi araşdırılmalıdır.*
16. *Vergi agentləri tərəfindən qeyri-rezidentin gördüyü iş və göstərdiyi xidmətlərə görə verginin qanunvericiliklə müəyyən edilmiş müddətdə hesablanıb ödənilməsi halları araşdırılmalıdır.*

Bundan başqa, ƏDV-nin auditinin aparılması zamanı yoxlamanın məqsədindən asılı olaraq vergi qanunvericiliyinə müvafiq olaraq aşağıdakı mövqelərdən yoxlama aparılmalıdır:

- ❖ şəxsin ƏDV ödəyicisi olub-olmamasının (vergi ödəyicisinin statusunun) müəyyənləşdirilməsi;
- ❖ vergitutma obyektlərinin müəyyənləşdirilməsinin düzgünlüyünün yoxlanması;
- ❖ vergi bazasının müəyyən edilməsi;
- ❖ vergi tutulan əməliyyatın dəyərinin müəyyənləşdirilməsinin düzgünlüyünün yoxlanması;

- ❖ vergi tutulan dövriyyənin dəqiqləşdirilməsinin düzgünlüyünün yoxlanması
- ❖ vergi güzəştlərinin tətbiqinin düzgünlüyünün yoxlanması;

*> əvəzləşmələrin tətbiqinin qanunauyğunluğunun yoxlanması;

- ❖ qeyri-rezidentlərə ödənilən vəsaitdən ƏDV tutulmasının düzgünlüyünün yoxlanmsı;
- ❖ ƏDV-nin hesablanmasının düzgünlüyünün yoxlanması;
- ❖ vergi hesab-fakturalarının tətbiqi qaydalarının yoxlanması;
- ❖ ƏDV üzrə vergi bəyannamələrinin verilməsi və verginin ödənilməsinin yoxlanması.

Əgər yoxlama zamanı sənədlərlə təsdiq edilmiş vergi qanunvericiliyinin pozulması halları aşkar edilərsə, onda bu barədə aktda müvafiq qeyd edilməlidir. Yoxlama aktında vergi qanunvericiliyinin pozulmasına görə Vergi Məcəlləsinin konkret olaraq hansı madddəsinə görə vergi ödəyicisinin məsuliyyət daşıdığı göstərilməlidir.

Vergi Ödəyicisinin statusunun yoxlanması. Əlavə dəyər vergisinin auditi zamana yoxlamanı apararan auditor ilk növbədə vergi ödəyicisinin statusunu müəyyən etməlidir. Əgər təsərrüfat subyekti (sahibkar) yoxlama ilə əhatə olunan dövr üzrə ƏDV ödəyicisi kimi qeydiyyatdan keçmişdirsə, onda yoxlama aktında "ƏDV məqsədləri üçün qeydiyyat haqqında" ərizənin vergi orqanına verilmə tarixi, "ƏDV ödəyicisinin qeydiyyat bildirişi"nin nömrəsi və qeydiyyatın qüvvəyə mindiyi tarix göstərilməlidir. Qeydiyyat vergi orqanının təşəbbüsü ilə aparıldığı hallarda isə yoxlama aktında vergi orqanının əsas götürdüyü səbəblər açıqlanmalıdır.

Auditor yoxlama aparılan təsərrüfat subyektinin yoxlanılan dövr çərçivəsində malların təqdim edilməsindən, işlərin görülməsindən, xidmətlərin göstərilməsindən və vergi tutulan idxaldan olan gəlirinin həcmini təhlil etməlidir. Əgər yoxlanılan təsərrüfat subyekti sadələşdirilmiş verginin ödəyicisidirsə, onda həmin təsərrüfat subyektinin ƏDV qeydiyyatına alınma öhdəliklərinin yaranıb-yaranmaması diqqətlə araşdırılmalıdır. Əgər yoxlama zamanı sahibkarlıq fəaliyyəti göstərən vergi ödəyicisinin (sərnişin və yük daşımalarını həyata keçirən şəxslər istisna olmaqla) ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi 120 000 manatdan artıq olduğu aşkar edilərsə, onda auditor bu barədə yoxlama aktında müvafiq qeyd etməli və Vergi Məcəlləsinin 157.3.1-ci maddəsində göstərilən tarixdən 10 gün ərzində ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borclu olduğunu müəssisə rəhbərinin nəzərinə çatdırmalıdır.

Əgər yoxlama ilə əhatə olunmuş dövr ərzində yoxlanılan müəssisənin (sahibkarın) ƏDV ödəyicisi qeydiyyatı ləğv olunmuşdursa, bju zaman yoxlama aktında qeydiyyatın ləğv olunmasının səbəbləri (vergi tutulan əməliyyatların apanimasınm dayandırılması, əvvəlki tam 12 təqvim ayı ərzində 60000 manatdan az olması və qanunvericilikdə nəzərdə tutulmuş digər səbəblər) və tarixi göstərilməli, həmçinin qeydiyyat bildirişinin geri alınması barədə qeydlər aparılmalıdır. Qeydiyyat bildirişi vergi orqanına təhvil verilməmişdirsə, onun vergi orqanına təhvil verilməsi təmin edilməlidir.

Əgər təsərrüfat subyekti hesabat dövrü ərzində bir vergi Ödəyicisi statusundan digər vergi ödəyicisi statusuna keçmişdirsə, onda auditor keçid dövrünün düzgünlüyünə diqqət yetirməlidir. Əgər təsərrüfat subyekti ƏDV ödəyicisidirsə və ona hesabat ili

auditor bunu öz hesabatında göstərməlidir. Bununla yanaşı, audit aparılan təşkilatda yoxlanılan dövr ərzində aşağıdakı əməliyyatların mövcudluğu yoxlanılmalıdır;

- vergi tutulan idxal əməliyyatı;
- əmlakın icarəyə verilməsi;
- ƏDV məqsədləri üçün qeydiyyatdan keçmədən iş görən və ya xidmət göstərən və Vergi Məcəlləsinin 169-cu maddəsinə müvafiq surətdə vergiyə cəlb edilməli olan qeyri-rezident şəxsə ödəmələr;
- Vergi Məcəlləsinin 137-ci maddəsinə uyğun olaraq hüquqi şəxs yaratmadan göstərilən birgə sahibkarlıq fəaliyyəti;
- aksizli malların istehsalı.

Vergitutma obyektlərinin müəyyənləşdirilməsinin düzgünlüyünün yoxlanması zamanı nəzərə almaq lazımdır ki, vergidən azad edilən malların göndərilməsindən, işlərin görülməsindən və xidmətlərin göstərilməsindən başqa, Azərbaycan Respublikasının ərazisində müstəqil və ya hüquqi şəxs yaratmadan birgə sahibkarlıq fəaliyyəti çərçivəsində malların göndərilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi vergi tutulan əməliyyatlar sayılır. Azərbaycan Respublikasının hüdudlarından kənarda işlərin görülməsi və xidmətlərin göstərilməsi vergi tutulan əməliyyatlara daxil edilmir.

Mallarm təqdim edilməsinin, işlərin görülməsinin və xidmətlər göstərilməsinin Azərbaycan Respublikasının ərazisində baş verib-verməməsi Vergi Məcəlləsinin 167 və 168-ci maddələrinə uyğun olaraq müəyyənləşdirilməlidir.

Yoxlama ilə əhatə olunan dövr üzrə vergi ödəyicisi tərəfindən ölkəmizin hüdudlarından kənarda mal (iş, xidmət) təqdim edilmişdirsə (ixrac əməliyyatları istisna olmaqla), həmin əməliyyatların məzmunu, tarixi, dəyəri, ödəniş vəziyyəti və digər məlumatlar yoxlayıcı tərəfindən yoxlama aktında əks etdirməlidir. Bütün yoxlama aktlarında aşağıdakı halların olub-olmaması əks etdirilməli və belə hallar vardırsa, vergitutma obyektlərinin Vergi Məcəlləsinin 159-cu maddəsində nəzərdə tutulmuş qaydada müəyyənləşdirilməsinin düzgünlüyü barədə qeydlər aparılmalıdır:

- malların (işlərin, xidmətlərin) haqqı ödənilməklə (o cümlələdən əmək haqqı və digər ödənişlər formasında) və ya əvəzsiz qaydada öz işçisinə və digər şəxslərə verilməsi;
- barter əməliyyatları;
- ƏDV ödəməklə əldə edilmiş və müvafiq əvəzləşdirmə aparılmış mallarm (işlərin, xidmətlərin) qeyri-kommersiya məqsədləri üçün istifadə edilməsi;
- ƏDV ödəməklə əldə edilmiş və müvafiq əvəzləşdirmə alınmış mallann itməsi, əskik gəlməsi, xarab olması (fövqəladə hallardan başqa) və oğurlanması;
- girov qoyulmuş əmlakın sahiblik hüququnun girovgötürənə keçməsi;
- borc öhdəliyi müqabilində əmlakın müsadirə edilməsi;
- hər hansı borc öhdəliyi əvəzinə mallann (işlərin, xidmətlərin) təqdim edilməsi;
- Vergi Məcəlləsinin 164.1.7. və 165.1.2-ci maddələrinə əsasən ƏDV cəlb edilməyən və ya sıfır (0) dərəcəsilə vergi tutulan əməliyyatlar çərçivəsində əldə edilmiş malların (işlərin, xidmətlərin) müəyyən olunmuş şərtləri pozmaqla digər məqsədlər üçün istifadə edilməsi.

Əgər vergi ödəyicisi tərəfindən yuxanda sadalanan əməliyyatlar aparılmışdırsa, onda yoxlama aktında həmin əməliyyatlar üzrə vergitutulan əməliyyatın dəyərinin hansı qaydada müəyyənləşdirildiyi göstərilməlidir. Yoxlamada həmçinin qarışıq əməliyyatlar üzrə vergitutma bazasının Vergi Məcəlləsinin 171-ci maddəsinə müvafiq olaraq müəyyənləşdirilib-müəyyənləşdirilməməsi də qeyd edilməlidir. Bu zaman nəzərə almaq lazımdır ki, malların göndərilməsinə, işlərin görülməsinə və xidmətlərin göstərilməsinə yardımçı xarakter daşıyan malların göndərilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi həmin əməliyyatların tərkib hissəsi sayılır.

İxracatçının Azərbaycan Respublikasına malların idxalına yardımçı xarakter daşıyan işlər görülməsi və xidmətlərin göstərilməsi malların idxalının bir hissəsidir.

Müstəqil elementlərdən ibarət olan əməliyyat bölünərkən vergiyə cəlb olunan və vergidən azad edilən əməliyyatlar ayrılırsa, onlara ayrı-ayn əməliyyatliar kimi baxılır.

Yoxlama aktında digər şəxsin (vəkalət verənin) agenti (vəkalət alan) olan şəxs mallann göndərilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi faktının olub-olmaması qeyd edilməli, belə hallar olduqda isə vergitutma bazasının Vergi Məcəlləsinin 172-ci maddəsinə müvafiq olaraq müəyyənləşdirilməsinin düzgünlüyünə xüsusi diqqət yetirmək və aşağıdakıları nəzərə almaq lazımdır:

- digər şəxsin (vəkalət verənin) agenti (vəkalət alan) olan şəxs tərəfindən malların göndərilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi;
- agentin vəkalət verənə göndərdiyi xidmətlər agentin həyata keçirdiyi əməliyyatlar sayılır;
- rezident olmayan və Azərbaycan Respublikasında ƏDV ödəyicisi kimi qeydiyyatdan keçməmiş rezident agentin ölkəmizin ərazisində mallar təqdim etməsi agent tərəfindən həyata keçirilən əməliyyat sayılır.

Xarici subpodratçıların əlavə dəyər vergisi ilə bağlı öhdəlikləri araşdınlan zaman auditor aşağıdakı hərəkətləri etməlidir:

- sazişlər və əlavə dəyər vergisi haqqında Protokollar öyrənilməlidir;
- hər bir podratçı tərəfin, əməliyyat şirkətinin və onun subpodratçılannm karbohidrogen fəaliyyətləri ilə bağlı sıfır (0) dərəcə ilə əlavə dəyər vergisinə cəlb edilməsi halları araşdınlmalıdır;
- hər bir əməliyyat şirkətinin və podratçı tərəfin sıfır (0) dərəcə ilə ƏDV-yə cəlb olunmaq barədə bildirən vergidən azad olunma sertifikatı yoxlanılmalıdır;
- alınmış sertifikatların təyinatına uyğun istifadə edilib-edilməməyi araşdırılmalıdır;
- mallar, işlər və xidmətlər karbohidrogen fəaliyyətlərinin yerinə yetirilməsi üçün deyil, başqa məqsədlər üçün gətirilərsə, onda belə malların, işlərin, xidmətlərin Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq ƏDV cəlb edilməsi vəziyyəti yoxlanılmalıdır.

Yoxlama ilə əhatə olunan dövr üzrə vergi ödəyicisinin ƏDV üzrə qeydiyyatı ləğv edilirsə, ləğvetmə vaxtı onun sahibliyində malların qalıb-qalmaması yoxlama aktında qeyd edilməli, belə mallar olduğu halda isə vergitutma obyektinin Vergi Məcəlləsinin 159.6-cı maddəsinə müvafiq olaraq müəyyənləşdirilməsi əks etdirilməlidir.

Yoxlamanın aparıldığı dövr ərzində vergi ödəyicisi tərəfindən qanunvericiliyə müvafiq olaraq vergitutma obyekti hesab edilməyən əməliyyatlar apanb-apar- maması, belə əməliyyatlar aparıldığı hallarda isə həmin əməliyyatların məzmunu, tarixi, dəyəri, ödəniş vəziyyəti və digər məlumatlar yoxlayıcı tərəfindən yoxlama aktında əks etdirilməli və bu zaman Vergi Məcəlləsinin həmin əməliyyatların vergitutma obyekti olmasına əsas verən müvafiq maddələrinə istinad edilməlidir.

Audit zamanı vergi ödəyicisinin ƏDV məqsədləri üçün qeydiyyatda olmadığı dövrdə ƏDV tətbiq etməklə əməliyyatlar aparıb-aparmaması, habelə ƏDV-dən azad və ya sıfır (0) dərəcəsi ilə cəlb edilən əməliyyatların ƏDV tətbiq etməklə aparılması hallarının olub-olmaması barədə aktda müvafiq qeydlər edilməlidir. Bu zaman nəzərə almaq lazımdır ki, yoxlanılan şəxs tərəfindən belə əməliyyatlar aparılmışdırsa, onda həmin əməliyyatlar Vergi Məcəlləsinin 159.8-ci maddəsinə əsasən vergitutma obyekti hesab edilir.

Vergi ödəyicisi mühasibat uçotu aparmırsa və ya müəyyən edilmiş qaydada aparmırsa, mühasibat və hesabat sənədləri məhv olunmuşdursa (itirilmişdirsə), onda ödənilməli olan ƏDV-nin məbləği Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23.02.2001-ci il tarixli 47 K**2**İ Qərarı ilə təsdiq olunmuş *"Birbaşa və dolayı qiymətləndirmə metodlarının təsdiq edilməsi Qaydaları* "-na müvafiq olaraq, müəyyənləşdirilməlidir.

Vergi ödəyicisi verginin hesablanması üçün zəruri olan mühasibat və hesabat sənədlərini təqdim etmədiyi halda, ƏDV Nazirlər Kabinetinin 23.02.2001 tarixli SlJffili Qəran ilə təsdiq olunmuş *"Vergi ödəyicisi tərəfin verginin hesablanması üçün zəruri olan hesabat məlumatlarını vermədiyi hallarda verginin əlaqəli məlumata əsasən hesablanması* " Qaydasına müvafiq olaraq müəyyənləşdirilməlidir.

Vergitutma bazasının müəyyənləşdirilməsinin düzgünlüyünün yoxlanması zamanı vergi auditinin əhatə etdiyi dövrdə vergi ödəyicisi tərəfindən vergi tutulan əməliyyatın dəyərinin Vergi Məcəlləsinin 161-ci maddəsinə müvafiq olaraq müəyyənləşdirilməsinin qanuna müvafıqliyi barədə aktda müvafiq qeyd edilməli, qanun pozuntusu aşkar edildikdə isə ƏDV yenidən hazırlanmalıdır.

Vergi tutulan əməliyyatın dəyəri vergi ödəyicisinin müştəridən və ya hər hansı digər şəxsdən aldığı, yaxud almağa hüququ olduğu haqqın ƏDV nəzərə alınmadan məbləği əsasında (hər hansı rüsumlar, vergilər və ya başqa yığımlar da daxil olmaqla) müəyyən edilir. Əgər yoxlama aparılan təsərrüfat subyektində barter əməliyyatı aparılıbsa, onda auditor vergitutma bazasının müəyyənləşdirilməsi zamanı bu əməliyyatlar üzrə bazar dəyərinin tətbiqinin (VM, maddə 161.2) düzgünlüyünə diqqət yetirməlidir.

Vergi ödəyicisi tərəfindən "vergitutma obyektinin müəyyənləşdirilməsi" bölməsində sadalanan əməliyyatlar aparılmışdırsa, onda yoxlama aktında həmin əməliyyatlar üzrə vergitutulan əməliyyatın dəyərinin hansı qaydada müəyyənləşdirildiyi göstərilməlidir. Yoxlamada həmçinin qarışıq əməliyyatlar üzra vergi bazasının Vergi Məcəlləsinin 171-ci maddəsinə müvafiq olaraq müəyyənləşdirilib-müəyyən-ləşdirilməməsi də qeyd edilməlidir. Bu zaman xüsusilə nəzərə almaq lazımdır ki, malların göndərilməsinə, işlərin görülməsinə və ya xidmətlərin göstərilməsinə ya-

radımçı xarakter daşıyan malların göndərilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi həmin əməliyyatların tərkib hissəsi sayılır.

Auditor ƏDV-nin düzgün hesablanmasını yoxlayan zaman vergi tutulan əməliyyatların vaxtının, malların təqdim edildiyi, işlərin görüldüyü və xidmətlərin göstərildiyi yerin Vergi Məcəlləsinin 166-168-ci maddələrinə müvafiq olaraq düzgün müəyyən edilməsinə diqqət yetirməlidir. Bu zaman nəzərə alınmalıdır ki, mallar təqdim edildikdən və ya avans ödənişi həyata keçirildikdən sonrakı 5 gün ərzində ƏDV hesab-fakturası verilməyibsə, onda əməliyyatın vaxtı malların təqdim edildiyi və ya avans ödənişinin aparıldığı gün hesab olunur. Əgər 5 gün müddəti ərzində ƏDV hesab-fakturası verilibsə, habelə müntəzəm və ya daimi əsasda xidmət göstərilirsə, onda ƏDV hesab-fakturasınm verildiyi tarix əməliyyatın aparıldığı vaxt hesab olunur.Auditor təsərrüfat subyektində agentin həyata keçirdiyi əməliyyatların mövcudluğunu yoxlamalıdır. Bu zaman aşağıdakı istiqamətlər üzrə araşdırma aparılmalıdır:

təsərrüfat subyektinin özünün agent kimi iştirakı;

K təsərrüfat subyektinin agent vasitəsi ilə əməliyyatlar həyata keçirməsi.

Birinci halda auditor təsərrüfat subyektinin ƏDV-yə cəlb olunan əməliyyatlannın düzgünlüyünü, yəni bu dövriyyənin vəkalət verəndən aldığı haqdan və ya mükafatdan ibarət olub-olmamasını yoxlamalıdır. Eyni zamanda, auditor agent tərəfindən ƏDV hesab-fakturalarının verilməsini və ƏDV üzrə əvəzləşmələrin Vergi Məcəlləsinə uyğunluğunu yoxlamalıdu*. İkinci halda auditor təsərrüfat subyektinin agent vasitəsilə apardığı əməliyyatları özünün vergi tutulan dövriyyəsinə daxil etməsinin və agentə ödədiyi haqqın xərcə aid edilməsinin düzgünlüyünə diqqət yetirməlidir.

Auditor təsərrüfat subyektinin ƏDV məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezidentin xidmətlərindən Azərbaycan Respublikasının ərazisində istifadə edib-etməməsini yoxlamalıdır. Belə hal aşkar edilərsə, onda həmin qeyri-rezidentə ödənilən məbləğlərə ƏDV hesablanması yoxlanılmalıdır. Bu zaman nəzərə alınmalıdır ki, vergi agenti rolunda çıxış edən təsərrüfat subyekti ƏDV məqsədləri üçün qeydiyyatdan keçməmişdirsə, onun qeyri-rezidentə ödədiyi məbləğə ƏDV hesablamasını və ödəniş günündən sonra 7 gün ərzində vergini büdcəyə ödəməsini və növbəti ayın 20-dək Vergilər Nazirliyi tərəfindən müəyyən edilmiş formada ƏDV bəyannaməsinin təqdim edilməsini yoxlamalıdır.

Unutmaq olmaz ki, vergi qanunvericiliyinə uyğun olaraq vergi agentinin qeyri-rezidentə ödəməli olduğu məbləği vergi agentinjn ƏDV məqsədləri üçün qeydiyyata alınmasına görə müəyyənləşdirilən vergi tutulan əməliyyatlarına aid edilmir. Ancaq vergi agenti qeyri-rezidentə ödənilməli olan məbləğə ƏDV hesablayaraq büdcəyə ödədikdə, ödəniş sənədlərində vergini qeyri-rezidentə ödədiyi məbləğdən hesabladığı barədə müvafiq qeyd aparmalıdır.

Əgər yoxlanılan təsərrüfat subyekti ƏDV ödəyicisidirsə, bu halda hesablanan vergi əməliyyatın aparıldığı ay üçün ƏDV bəyannaməsi verilərkən ödənilməlidir. Bu zaman auditor nəzərə almalıdır ki, hesablanan verginin ödənilməsini təsdiq edən ödəmə sənədi ƏDV məbləğini əvəzləşdirməyə hüquq verən hesab-faktura hesab edilir. Onu da yadda saxlamaq lazımdır ki, qeyri-rezidentə məxsus əmlak vergi agentinə icarəyə verilmək üçün idxal edildikdə, əmlakın sahibi olan qeyri-reziden-

tin icazəsi ilə vergi agenti idxaldan ödənilmiş vergidən ƏDV məbləğinin əvəzləşdirilməsini tələb edə bilər. Bu halda vergi agenti vergi ödəyicisi sayılır və sonradan əmlakı təqdim edərkən (onun ixracı istisna edilməklə) ƏDV-nin ödənilməsi üçün cavabdehdir.

ixracatçının Azərbaycan Respublikasına malların idxalına yardımçı xarakter daşıyan işlər görməsi və ya xidmətlər göstərməsi maların idxalının bir hissəsi sayılır. Müstəqil elementlərdən ibarət olan əməliy>^at bölünərkən vergiyə cəlb edilən və ƏDV-dən azad edilən əməliy>'atlara ayrılırsa, onlara ayn-ayrı əməliyyatlar kimi baxılır.

Yoxlama aktında digər şəxsin (vəkalət verənin) agenti olan (vəkalət olan) şəxs malların göndərilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi faktının olub-olmaması qeyd edilməli, belə hallar olduqda isə vergitutma bazasının Vergi Məcəlləsinin 172-ci maddəsinə müvafiq olaraq müəyyənləşdirilməsinin düzgünlüyünə xüsusi diqqət yetirmək və aşağıdakıları nəzərə almaq lazımdır:

- digər şəxsin (vəkalət verənin) agenti olan (vəkalət olan) şəxs tərəfindən malların göndərilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi;
- agentin vəkalət verənə göndərdiyi xidmətlər agentin həyata keçirdiyi əməliyyatlar sayılır;
- rezident olmayan və Azərbaycan Respublikasmda ƏDV ödəyicisi kimi qeydiyyatdan keçməmiş rezident agentinin respublika ərazisində mallar təqdim etməsi agent tərəfindən həyata keçirilən əməliyyat sayılır.

Vergitutulan əməliyyatın dəyərinin müəyyənləşdirilməsinin auditi zamanı nəzərə almaq lazımdır ki. Vergi Məcəlləsinin 161.2 maddəsinə əsasən, əgər vergi ödəyicisi vergi tutulan əməliyyatların əvəzində mal (iş, xidmət) alırsa, yaxud almaq hüququ varsa, onda bu mallann (işlərin, xidmətlərin) əlavə dəyər vcrgisiz bazar qiyməti (hər hansı rüsumlar, vergilər və başqa yığımlar da daxil olmaqla) vergi tutulan əməliyyatın dəyərinə daxil edilir. Eyni zamanda nəzərə almaq lazımdır ki. Vergi Məcəlləsinin 14-cü maddəsinə əsasən barter (mal mübadiləsi) və idxal-ixrac əməliyyatları apanidıqda, təsərrüfat müqavilələri qarşılıqlı surətdə asılı olan şəxslər arasında həyata keçirildikdə, elecə də 30 gün ərzində vergi ödəyicilərinin eyni xü- susiyyətli və ya eynicinsli mallara (işlərə, xidmətlərə) tətbiq etdikləri qiymətlərin səviyyəsi 30%-dan çox (asağı və ya yuxarı) dəyişdikdə vergi tutulan əməliyyatın dəyəri bazar qiymətləri nəzəzrə alınmaqla müəyyənləşdirilə bilər.

Müəssisədə yoxlama aparan auditor nəzərə almalıdır ki, mallar (işlər, xidmətlər) əmtəə mübadiləsi zamanı, əvəzsiz olaraq, dəyəri qismən ödənilməklə, habelə maliyyələşmə mənbəyindən asılı olmayaraq hüquqi şəxsin şəxsi istehlak məqsədləri üçün istifadə olunan mallar (işlər, xidmətlər) üzrə vergitutulan dövriy>'ə, həmin qiymətlilərin sərbəst bazar qiyməti, dövlətin tənzimlənən qiymətləri olduqda isə həmin qiymətlər nəzərə alınmaqla müəyyən edilir.

Sifarişçinin öz xammal və materiallarından hazırlanmış mallar üzrə vergitutulan dövriyyə onların emal dəyəri hesab olunur.

Tara istehsal edən hüquqi şəxslərin tara satışı istisna olmaqla, qaytarılan taraların, o cümlədən şüşə qabların dəyəri vergiyə cəlb olunmur. Əlavə dəyər vergi- siz alınmış taralar isə satıldıqda vergiyə cəlb olunmalıdır.

Audit yoxlamasının gedişatı zamanı yoxlamanın əhatə etdiyi dövr ərzində vergi ödəyicisi tərəfindən *vergitutulan dövriyyənin dəqiqləşdirilməsinin aparılıb-apardmaması* araşdırılmalıdır. Auditor dəqiqləşdirilməsinin Vergi Məcəlləsinin 163-cü maddəsinə uyğun aparılıb-aparılmaması və bəyannamədə əks etdirilməsinin düzgünlüyü barədə yoxlama aktında müvafiq qeydlər aparılmalıdır. Bu zaman nəzərə almaq lazımdır ki, əvvəlki dövrlərdə alınmış mallara (işlərə, xidmətlərə) və ya ödənilmiş vəsaitlərə görə cari hesabat dövründə əldə edilmiş vergi hesabat-faktura- ları (onu əvəz edən sənədlər) üzrə əvəzləşdirmələr, vergitutulan dövriyyənin dəqiqləşdirilməsi qaydalarına müvafiq olaraq aparılmalıdır. Həmin əməliyyatlar üzrə əvəzləşdirilməli olan verginin məbləği cari hesabat dövrünün ƏDV bəyannaməsinin "ƏDV- dən azaddır" sətrində əks etdirilməlidir.

Yoxlama aktında vergitutulan dövriyyənin dəqiqləşdirilməsini həyata keçirən şəxs tərəfindən malın (işin, xidmətin) alıcısına dəqiqləşdirilmiş hesab-faktura- nın və bu barədə qeydiyyatda olduğu vergi orqanına müvafiq məlumatın verilib-verilməməsi əks etdirilməlidir. Əgər vergitutulan dövriyyəsinin dəqiqləşdirilməsi zamanı keçmiş dövrlər üzrə yaranmış vergi öhdəliyinin vaxtında ödənilməmiş hissəsinə vergi orqanı tərəfindən faiz hesablanmamışdırsa, onda həmin məbləğə faiz hesablanmalıdır.

Auditor tərəfindən *qeyri-rezidenilərə ödənilən vəsaitdən ƏDV tutulmasının düzgünlüyü yoxlanarkən* yoxlama aktında ƏDV məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezident Azərbaycan Respublikasının ərazisində yoxlanılan şəxs üçün xidmət göstərib-göstərməməsi və ya iş görüb-görməməsi qeyd edilməli, belə hallar olduqda isə Vergİ Məcəlləsinin 169-cu maddəsinə müvafiq olaraq, qeyri-rezidentə ödənməli olan vəsaitdən ƏDV tutulub-tutulmaması açıqlanmışdır. Bu zaman nəzərə almaq lazımdır ki, vergi agentinin qeyri-rezidentə ödənilməli olan məbləğdən ƏDV tutması vergi ödəyicisi tərəfindən apanimış əməliyyatlar hesab edilir və bu əməliyyatlar vergi agentinin ƏDV məqsədləri üçün qeydiyyata alınması zamanı müəyyənləşdirilən vergi tutulan əməliyyatlarına aid edilmir. Qeyri-rezidentə ödənilməli olan vəsaitdən ƏDV tutulduğu hallarda verginin tutulmasının düzgünlüyü yoxlanılmalı, bu barədə vergi orqanına aynca bəyannamənin verilib-verilməməsi, həmin ƏDV-nin əvəzləşdirilməsinin qanunauyğun olub-olmaması qeyd edilməlidir.

Bu zaman nəzərə almaq lazımdır ki, qeyri-rezidentdən tutulan ƏDV-nin ödənilməsi üçün tərtib olunan və icra olunmuş ödəmə sənədi verginin əvəzləşdirilməsinə əsas verir.

Eyni zamanda nəzərə almaq lazımdır ki, qeyri-rezidentə ödənilməli olan vəsaitdən ƏDV tutulmadığı hallarda tutulmalı olan vergi yenidən hesablanmalı, Vergi Məcəlləsinin 57-ci və 58.4-cü maddələrində nəzərdə tutulduğu qaydada verginin tutulmamasma və bu barədə vergi orqanma bəyannamənin təqdim edilməməsinə görə vergi agentinə maliyyə sanksiyası tətbiq olunması, eyni zamanda verginin vaxtında büdcəyə ödənilməməsinə görə faiz hesablanır.

Audit yoxlaması zamanı ayri-ayn mallara (işlərə, xidmətləra) görə ƏDV üzrə tətbiq edilən vergi güzəştlərinin nə dərəcədə əsaslı olması, həmçinin vergi məbləğinin büdcəyə vaxtında köçürülüb-köçürülməməsi həmçinin müfəssəl surətdə yoxlanılmalıdır.

Vergi güzəştlərinin tətbiqinin düzgünlüyü yoxlanarkən vergi yoxlamasının aparıldığı dövrdə vergi ödəyicisi tərəfindən ƏDV azad edilən və sıfır (0) dərəcə ilə vergi tutulan əməli>7atlar aparılmışdırsa, onda yoxlama aktında həmin əməliyyatların məzmunu və dəyəri göstərilməlidir. Bu zaman Vergi Məcəlləsinin həmin əməliyyatlar üzrə güzəştin tətbiq edilməsinə əsas verən müvafiq maddələrinə istinad edilməlidir.

ƏDV-dən azad edilən və sıfır dərəcə (0) ilə vergi tutulan əməliyyatlar aparılması ilə əlaqədar "ƏDV məqsədləri üçün vergi ödəyicilərinin qeydiyyatı", "ƏDV- nin hesablanması və ödənilməsinə dair metodiki göstərişlər"də nəzərdə tutulduğu kimi vergi orqanlarına müvafiq sənədlərin (məlumatların) təqdim edilməsi nəzərdə tutulduğu hallarda, yoxlama aktında belə sənədlərin (məlumatların) vergi orqanına təqdim edilib-edilməməsi qeyd edilməlidir.

ƏDV hesablanmasının düzgünlüyü yoxlanarkən, vergi tutulan dövriyyədən hesablanmalı və büdcədən əvəzəşdirilməli olan vergi məbləğlərinin müəyyən-ləşdirilməsinin düzgünlüyü araşdırılmalı və yoxlamanın nəticələri cədvəldə əks etdirilməli, vergi ödəyicisinin rəhbəri və baş mühasibi tərafından imzalanmalıdır. Yoxlama ilə əhatə olunan dövrün ümumi nəticələrinə görə ƏDV azaldılmasından və ya artıq hesablanmasından asılı olmayaraq, maliyyə sanksiyaları hesabat dövrü (hər ay) üçün ayrı-ayrılıqda tətbiq olunmalıdır. Bu zaman hər hesabat dövrü üçün digər hesabat dövrlərinin bəyannamələrində dəqiqləşdirilmiş ƏDV məbləğləri nəzərə alınmalıdır. Əgər hər hansı dövrün azaldılmış vergi məbləği növbəti dövrlərin bəyannamələrində vergi orqanının yoxlamasına qədər dəqiqləşdirilmişdirsə, həmin azaldılmış məbləğə maliyyə sanksiyası tətbiq edilməlidir. Əgər azaldılmış məbləğ digər hesabat dövrlərinin bəyannamələrində qismən dəqiqləşdirilmişdirsə, onda maliyyə sanksiyası azaldılmış vergi məbləğinin dəqiqləşdirilməyən hissəsinə tətbiq edilməlidir.

Vergi ödəyicisinin təqdim etdiyi ƏDV hesabatında büdcədən qaytarılası ƏDV məbləğinin artıq göstərildiyi və ya büdcədən qaytarılası vergi məbləği əvəzinə büdcəyə vergi hesablanmalı olduğu aşkar edildiyi halda da maliyyə sanksiyası bütün fərqə tətbiq edilməlidir. Əgər verginin hesabatda azaldılması il ərzində təkrar edilmişdirsə, bu zaman vergi ödəyicisinə Vergi Məcəlləsinin 58.1-ci maddəsinə əsasən azaldılmış vergi məbləğinin 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilməlidir.

Bütün hallarda maliyyə sanksiyalannın tətbiq edilib-edilməməsindən asılı olmayaraq vergi ödəyicisi tərəfindən azaldılmış vergi məbləği büdcəyə ödənilməlidir.

Vergi ödəyicisi olmayan, lakin təqdim etdiyi mala (işə, xidmətə) görə vergi hesab-fakturası verən şəxs həmin hesab-fakturada göstərilən ƏDV məbləğini büdcəyə ödəməyə borcludur. Eyni zamanda, vergi ödəyicisi ƏDV azad olunan və sıfır (0) dərəcə ilə ƏDV cəlb edilən əməliyyatlara ƏDV tətbiq etməklə vergi hesab-fak- turası verərsə, həmin hesab-fakturada göstərilən ƏDV məbləğini büdcəyə ödəməyə borcludur.

Bütün hallarda vergi ödəyicisi tərəfindən azaldılmış və ya artıq hesablanmış vergi məbləğlərinə görə faizlərin hesablanması (azaldılması) məqsədi ilə yoxlama

nın nəticələrinə görə hər bir ay üzrə yoxlama ilə hesablanmış (azaldılmış) vergi məbləğində vergi ödəyicisinin vergi orqanındakı şəxsi hesabına düzəliş edilməlidir.

Vergi hesab-fakturalarımn tətbiqi qaydalarının düzgünlüyünün yoxlanması. Vergi hesab-fakturalarınm tətbiqi qaydaları Vergi Məcəlləsinə və Maliyyə Nazirliyi tərəfindən təsdiq olunmuş *"Vergi hesab-fakturalarınm tətbiq qaydaları"na* əsasən vergi tutulan hər bir əməliyyat üzrə ayrıca yoxlanmalıdır.

Bu zaman xüsusilə nəzərə almaq lazımdır ki, qəbzlər, çeklər "Vergi hesab-fakturalarınm tətbiq qaydalarf'na müvafiq sifariş, çap və tətbiq edilməyən vergi hesab-fakturalar, nağd aparılan əməliyyatların rəsmiləşdirildiyi sənədlər (mal, iş və xidmət təqdim edilən bank hesabına birbaşa nağd qaydada ödənişlər istisna edilməklə) ƏDV əvəzləşdirilməsinə əsas vermir.

Yoxlamanın gedişatı zamanı vergi hesab-fakturaları blanklannm mədaxil və məxarici *"Vergi hesab-fakturalarınm qeydiyyatı kitabı"* ilə üzləşdirilməli və bu zaman aşağıdakı məsələlər öz əksini tapmalıdır:

^ vergi hesab-fakturası blankları uçotunun ciddi uçotu aparılan sənəd kimi aparılıb-aparılmamasmın vəziyyəti;

"Vergi hesab-fakturalarınm qeydiyyatı kitabf'nm aparılması vəziyyəti; yoxlama ilə əhatə olunan -dövrün əvvəlinə vergi hesab-fakturası blanklannm qalığı;

i& yoxlama ilə əhatə olunan dövrdə sifariş olunmuş vergi hesab-fakturası blanklarmm miqdarı;

❖ yoxlama ilə əhatə olunan dövrdə təyinatı üzrə istifadə edilmiş vergi hesab-fakturası blanklarmm miqdarı;

NSi yoxlama ilə əhatə olunan dövrün sonuna vergi hesab-fakturası blanklarmm miqdarı;

^ "Vergi hesab-fakturalarınm qeydiyyatı kitabf'nın səhifələnməsi, qaytanlan- ması, imzalanması, möhürlənməsi və müvafiq maliyyə orqanının rəhbəri tərəfindən imzalanaraq möhürlə təsdiqlənməsinin vəziyyəti.

Yoxlama ilə əhatə olunan dövrdə zədələnmiş (yararsız hala düşmüş) vergi hesab-fakturası blanklanmn olub-olmaması yoxlama aktında qeyd olunmalıdır. Belə hallar olduqda, həmin vergi hesab-fakturalannin ləğv edilməsinin qanunauyğunluğu araşdınlmalı, ləşv edilmiş bianklann vergi ödəyicisində saxlanılıb-saxlanılma- ması və "Vergi hesab-fakturalannin qeydiyyatı kitabf'nda müvafiq qeydlərin aparılıb-aparılmaması yoxlama aktında əks etdirilməlidir. Yoxlama aktında ləğv edilmiş vergi hesab-fakturalannin sayı, seriyası və nömrələri göstərilməlidir.

Yoxlama ilə əhatə olunan dövr ərzində itirilmiş, oğurlanmış və digər səbəblərdən çatışmayan vergi hesab-faktura blanklannm olub-olmaması bərədə yoxlama aktında qeyd apanlmahdır. Belə hallar olduqda isə vergi Ödəyicisinin məsul şəxsindən izahat alınmaqla, bu barədə vergi orqanına məlumat verilib-verilməməsi və "Vergi hesab-fakturalannin qeydiyyatı kitabf'nda müvafiq qeydlərin aparılıb-apa- nlmaması aktda əks olunmalıdır. Yoxlama aktında çatışmayan vergi hesab-fakturalannin sayı, seriyası və nömrələri göstərilməlidir.

Yoxlama aktında vergi ödəyicisi tərəfindən dəqiqləşdirilən vergi hesab-fakturalarının verilib-verilməməsi, belə hallar olduqda isə vergi orqanlarına müvafiq məlumatın verilib verilməməsi əks etdirilməlidir.

Dəqiqləşdirilmiş əməliyyatların aparıldığı və bu barədə yoxlama başlayanadək vergi orqanlarına məlumat verilmədiyi halda, yoxlama aktında dəqiqləşdirilən əməliyyatların məzmunu, tarixi, səbəbi və məbləğləri barədə müvafiq məlumatlar öz əksini tapmalıdır.

Yoxlama ilə əhatə olunan dövrdə qanunvericilikdə nəzərdə tutulmuş hallarda (vergi ödəyicisi fəaliyyətini dayandırdıqda, ləğv edildikdə, digər şəxslə birləşdikdə, adını dəyişdikdə, habelə ƏDV məqsədləri üçün qeydiyyatı ləğv edildikdə) vergi ödəyicisi tərəfindən istifadə olunmamış vergi hcsab-fakturası blanklarının vergi orqanlarına təhvil verilib-verilməməsi, belə hallar olduqda isə təhvil verilmiş və verilməmiş blanklann sayı, seriyası və nömrələri yoxlama aktında əks etdirilməlidir.

Səyyar vergi yoxlaması zamanı ƏDV ödəyicisinin vergi məbləğinin əvəzləşdirilməsinə əsas verən vergi hesab-fakturası aldığı, lakin həmin faktura üzrə əvəzləşdirmə aparmadığı aşkar edilərsə, vergi müfəttişi Vergi Məcəlləsinin 175-ci maddəsində nəzərdə tutulmuş qaydada həmin vergi hesab-fakturası üzrə əvəzləşdirməni nəzərə almalıdır.

Bu zaman yoxlayıcı ƏDV-nin əvəzləşdirilməsinə əsas verən, lakin əvəzləş- dirmə aparılmamış vergi hesab-fakturaları barədə Vergilər Nazirliyinin müəyyən etdiyi formada vergi ödəyicisindən məlumatın alınmasını təmin edərək, həmin məlumatın məlumat bazasına işlənməsi üçün yoxlama aktının tərtib edilmə tarixindən sonrakı 5 gün ərzində Vergilər Nazirliyinin *"İqtisadi təhlil və uçotun təşkili idarə- sV'nə* təqdim etməli, bir nüsxəsi isə yoxlama aktına əlavə edilməlidir.

Bundan başqa, səyyar vergi yoxlaması zamanı vergi hesab-fakturaları və onu əvəz edən sənədlər barədə bəyannamələrə edilən əlavələrdə göstərilən məlumatlar müqayisə edilərək dəqiqləşdirilməlidir. Həmin məlumatlarda uyğunsuzluqlar aşkar edildikdə, bu barədə yoxlama aktında qeydlər edilməli və yoxlama aktının tərtib olunma tarixindən sonrakı 5 gün ərzində Vergilər Nazirliyinin "İqtisadi təhlil və uçotun təşkili idarəsi"nə müvafiq formada dəqiqləşdirilmiş məlumat verilməlidir.

Yoxlama zamanı ləğv edilməsi müəyyən olunan, eləcə də vergi ödəyicisinin vəzifəli şəxsinin izahatına əsasən itirilmiş, oğurlanmış və digər səbəblərdən çatışmayan, habelə yoxlamaya təqdim edilməyən vergi hesab-fakturalannın seriya və nömrələri barədə məlumatlar yoxlama aktının tərtib olunma tarixindən sonrakı 5 gün ərzində Vergilər Nazirliyinin "İqtisadi təhlil və uçotun təşkili idarəsi"nə təqdim edilməlidir.

Vergitutulan dövriyyənin dəqiqləşdirilməsinin yoxlanması zamanı vergi yoxlamasının aparıldığı dövr ərzində vergi ödəyicisi tərəfindən vergi tutulan dövriyyənin dəqiqləşdirilməsinin aparılıb-aparılmaması, vergi tutulan dövriyyənin dəqiqləşdirilməsi aparıldığı halda isə onun Vergi Məcəlləsinin 163-cü maddəsinə uyğun aparılıb-aparılmaması və bəyannamədə əks etdirilməsinin düzgünlüyü barədə yoxlama aktında müvafiq qeydlər aparılmalıdır. Bu zaman nəzərə almaq lazımdır ki, əvvəlki dövrlərdə alınmış mallara (işlərə, xidmətlərə) və ya ödənilmiş vəsaitə görə cari hesabat dövrünə aid tarixlə əldə edilmiş vergi hesab-fakturaları (onu əvəz

edən sənədlər) üzrə əvəzləşdirmələr vergi tutulan dövriyyənin dəqiqləşdirilməsi qaydalarına müvafiq olaraq aparılmalıdır. Həmin əməliyyatlar üzrə əvəzləşdirilməli olan verginin məbləği cari hesabat dövrünün ƏDV bəyannaməsinin "ƏDV-dən azaddır'' sətrində əks etdirilməlidir.

Yoxlama aktında vergitutulan dövriyyənin dəqiqləşdinİməsini həyata keçirən şəxs tərəfindən malın (işin, xidmətin) alıcısına dəqiqləşdirilmiş hesab-faktura verilib-verilməməsi, eləcə də bu barədə qeydiyyatda olduğu vergi orqanına müvafiq məlumatın verilib-verilməməsi əks etdirilməli, vergitutulan dövriyyəsinin dəqiqləşdirilməsi zamanı keçmiş dövrlər üzrə yaranmış vergi öhdəliyinin vaxtında ödənilməmiş hissəsinə vergi orqanı tərəfindən faiz hesablanmamışdırsa, onda həmin məbləğə Vergi Məcəlləsində nəzərdə tutulmuş qaydada faiz hesablanmalıdır.

Auditor tərəfindən *qeyri-rezidentlərə ödənilən vəsaitdən ƏDV tutulmasının düzgünlüyü yoxlanarkən* yoxlama aktında ƏDV məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezident Azərbaycan Respublikasının ərazisində yoxlanılan şəxs üçün xidmət göstərib-göstərməməsi və ya iş görüb-görməməsi qeyd edilməli, belə hallar olduqda isə Vergi Məcəlləsinin 169-cu maddəsinə müvafiq olaraq qeyri-rezidentə ödənməli olan vəsaitdən ƏDV tutulub-tutulmaması açıqlanmışdır. Bu zaman nəzərə almaq lazımdır ki, vergi agentinin qeyri-rezidentə ödənilməli olan məbləğdən ƏDV tutması vergi ödəyicisi tərəfindən aparılmış əməliyyatlar hesab edilir və bu əməliyyatlar vergi agentinin ƏDV məqsədləri üçün qeydiyyata alınması zamanı müəyyənləşdirilən vergitutulan əməliyyatlarına aid edilmir. Qeyri-rezidentə ödənilməli olan vəsaitdən ƏDV tutulduğu hallarda verginin tutulmasının düzgünlüyü yoxlanılmalı, bu barədə vergi orqanına ayrıca bəyannamənin verilib-verilməməsi, həmin ƏDV-nin əvəzləşdirilməsinin qanunauyğun olub-olmaması qeyd edilməlidir.

Bu zaman nəzərə almaq lazımdır ki, qeyri-rezidentdən tutulan ƏDV-nin ödənilməsi üçün tərtib olunan və icra olunmuş ödəmə sənədi verginin əvəzləşdirilməsinə əsas verir.

Eyni zamanda nəzərə almaq lazımdır ki, qeyri-rezidentə ödənilməli olan vəsaitdən ƏDV tutulmadığı hallarda tutulmalı olan vergi yenidən hesablanmalı. Vergi Məcəlləsinin 57-ci və 58.4-cü maddələrində nəzərdə tutulduğu qaydada verginin tutulmamasına və bu barədə vergi orqanına bəyannamənin təqdim edilməməsinə görə vergi agentinə maliyyə sanksiyası tətbiq olunması, eyni zamanda verginin vaxtında büdcəyə ödənilməməsinə görə faiz hesablanır.

ƏDV-nin əvəzləşdirilməsinin düzgünlüyününyoxlamlması zamanı auditor ilk növbədə əvəzləşməyə hüquq verən sənədlərin, o cümlədən vergi hesab-faktura- sının, idxal sənədlərinin, qeyri-rezidentə ödənilmiş məbləğlərə hesablanmış ƏDV- nin büdcəyə ödənilməsini təsdiq edən ödəmə sənədinin mövcudluğunu araşdırmalıdır. Daha sonra vergi hesab-fakturası üzrə ödəmələrin nağdsız qaydada aparılmasının, borcların qarşılıqlı əvəzləşdirilməsi zamanı üzləşmə aktlannm mövcudluğu yoxlanılmalı, alınmış malların, görülmüş işlərin və göstərilmiş xidmətlərin təsərrüfat subyekti tərəfindən kommersiya məqsədi üçün istifadə olunmasına əminlik əldə edilməlidir. ƏDV-dən azad olunan, yaxud ƏDV-yə cəlb edilməyən əməliyyatların apanlıb-apanimaması araşdırılmalı, belə halın mövcudluğu aşkar edilərsə, onda

əvəzləşdirilən məbləğin həmin əməliyyatların ümumi dövriyyədəki xüsusi çəkisinə görə müəyyənləşdirilməsinə diqqət yetirilməlidir.

Audit yoxlaması zamanı *bəyannamənin vaxtında tərtib edilməsi və verilməsi, verginin vaxtında büdcəyə ödənilməsinin yoxlanması* ən çox əhəmiyyət kəsb edən mərhələlərindəndir. Auditor hər hesabat dövrü (hər təqvim ayı) üçün ƏDV bəyannaməsinin vergi orqanlarına vaxtında təqdim edilməsini və müəyyən edilmiş müddətdə hər hesabat dövrü üzrə verginin büdcəyə ödənilməsinin düzgünlüyünü yoxlamalıdır.

ƏDV üzrə bəyannamələrin səyyar qaydada yoxlanması müəssisənin ilkin uçot sənədləri, hesab-fakturalar, alış-satış kitabları, sintetik və analitik uçot registr- lərindən istifadə etməklə mühasibat uçotu və hesabatlarının məlumatlarına əsasən aparılır.

Audit zamanı yoxlamaya ƏDV üzrə vergi bəyannamələrinin bütün göstəriciləri (vergiyə cəlb edilən satılmış malların, işlərin, xidmətlərin dəyəri; vergitutulan dövriyyə üzrə hesablanmış ƏDV məbləği; dəyəri ödənilmiş qiymətlilər üzrə ƏDV məbləği; dəyəri hesabat dövründə istehsal xərclərinə aid edilmiş material resursları üzrə ƏDV məbləği; əsas vəsaitlər və qeyri-maddi aktivlər üzrə ƏDV; ƏDV cəlb edilməyən satılmışmalların dəyəri) məruz qalır.

ƏDV üzrə bəyannamələr hesabat göstəricilərindən tutmuş sintetik və analitik uçot məlumatlarına və onlardakı yazılışlardan ilkin sənədlərədək yoxlama qaydasında həyata keçirilir. Bu metod ilkin təhlilə əsasən ətraflı öyrənmək üçün lazım olan mühasibat uçotu registrlərindəki uçot yazılışlarını və ilkin sənədləri seçməyə, mümkün ola biləcək pozuntulan aşkar etməyə və səmərəli nəzarət sistemi təşkil etməyə imkan verir.

Yoxlama zamanı nəzərə alınmalıdır ki, vergitutulan idxal üzrə ƏDV ödəyici- si olmayan təsərrüfat subyektlərindən əlavə dəyər vergisi vergi və gömrük qanunvericiliyinə uyğun olaraq gömrük rüsumlarının ödənilməsi üçün nəzərdə tutulan qaydada gömrük orqanları tərəfindən hesablanıb alındığına görə, malların idxalı üzrə vergi ödəyicisi olan şəxslər ƏDV bəyannaməsi vermirlər.

Yoxlama aktında bəyannamələrin vergi orqanına vaxtında verilib-verilməməsi, eləcə də büdcəyə çatası vergi məbləğinin vaxtında büdcəyə ödənilib-edənil- məməsi qeyd edilməlidir. Bəyannamələr vergi orqanına vaxtında verilmədikdə və büdcəyə çatası vergi məbləği büdcəyə vaxtında ödənilmədikdə, yoxlama aktında belə qanun pozuntularına görə vergi orqanları tərəfindən vergi ödəyicisinə maliyyə sanksiyalarının tətbiq edilib-edilməməsi və faizlərin hesablanıb-hesablanmaması əks olunmalıdır. Əgər vergi orqanı tərəfindən vergi ödəyicisinə maliyyə sanksiyası tətbiq edilməmişdirsə (faiz hesablanmamışdırsa), yoxlayıcı auditor yoxlama aktında vergi ödəyicisinə tətbiq edilməli olan maliyyə sanksiyası və hesablanmalı olan faizlərin məbləğini göstərməlidir.

Bəyannamələrin vergi orqanına vaxtında təqdim edilib-edilməməsi, eləcə də büdcəyə çatası vergi məbləğinin müəyyən edimiş müddətlərdə ödənilib-ödənilmə- məsi yoxlanarkən xüsusilə nəzərə almaq lazımdır ki, qeydiyyat Vergi Məcəlləsinin 157.3.3-cü maddəsinə uyğun olaraq keçmiş tarixlə aparıldıqda, vergi ödəyicisi qeydiyyatın qüvvəyə mindiyi tarixdən etibarən vergiyə cəlb edilən əməliyyatlar üzrə

ƏDV ödəməlidir və ümumi müəyyən edilmiş qaydada vergi məbləğini əvəzləşdir- mək hüququna malikdir. Müvafiq əməliyyatlar vergi ödəyicisi tərəfindən verilən birinci bəyannamədə əks edilməlidir və‘onlar bəyannamənijı verildiyi ay ərzində baş vermiş əməliyyatlar sayılır. Bu halda vergi ödəyicisi bəyannamədə əks etdirilmiş məlumatlar üçün ƏDV üzrə elektron vergi hesab-fakturaları təqdim etmək hüququna malikdir.

Yoxlama aktında vergi ödəyicisinə ƏDV qaytarılıb-qaytarılmaması qeyd edilməlidir. Əgər yoxlama ilə əhatə olunan dövrdə büdcədən vergi ödəyicisinə vergi qaytarılmışdırsa, onda yoxlama aktında vergi məbləğinin qaytarılmasının qanunauyğun olub-olmaması qeyd edilməlidir. Əgər verginin geri qaytarılması qanuna müvafiq surətdə həyata keçirilmişdirsə, onda həmin məbləğin vergilərin tutulması üçün müəyyən edilmiş qaydada qaytaniması vergi ödəyicisindən tələb olunmalıdır.

Əlavə dəyər vergisi üzrə vergituiulan dövriyyənin mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyünün yoxlanması. Əlavə dəyər vergisi üzrə bütün hesablamalar mühasibat uçotu və hesabatının məlumatlarına əsasən həyata keçirildiyindən, auditor yoxlama aparılan təsərrüfat subyektində bu verginin hesablanması üzrə bütün təsərrüfat əməliyyatlarının və vergitutulan dövriyyənin mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyünə xüsusi fikir verməlidir.

Qeyd etmək lazımdı ki, əlavə dəyər vergisinin hesablanması və ödənilməsi üzrə aparılan əməliyyatların mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyünü yoxlayan auditor, hökmən yoxlama apardığı tarixə bu sahədə qüvvədə olan qayda, təlimat və metodiki göstərişləri yaxşı bilməlidir. Çünki, bunları bilmədən auditor iqtisadi subyektdə öz nəzarət funksiyasını tələb olunan səviyyədə yerinə yetirə bilməz. Əlavə dəyər vergisinin auditinə aşağıdakı prosedurlar daxildir:

- daxili nəzarət sisteminin qiymətləndirilməsi;
- satış kitabının aparılmasının və satış üzrə ƏDV hesablanmasının düzgünlüyünün yoxlanması;
- ƏDV tutulmasının, büdcədən alınmasının (əvəzləşdirilməsinin) və alış kitabının aparılmasının düzgünlüyünün yoxlanması;
- ƏDV bəyannaməsindəki məlumatların mühasibat uçotundakı məlumatlara müvafiqliyinin yoxlanması.

Daxili nəzarətin vəziyyətinin qiymətləndirilməsi mühasibat hesabatının dəqiqliyi, ƏDV hesablanması və ödənilməsinin düzgünlüyü haqqında auditor rəyinin formalaşması üçün lazım olan görüləcək işin həcminin müəyyən edilməsi üçün lazımdır. Daxili nəzarət sisteminin qiymətləndirilməsi testlər vasitəsilə həyata keçirilir. Testlərdə suallar elə formalaşdınimışdır ki, onların cavablandırılması nəticəsində alınmış mənfi nəticə yoxlanılan təsərrüfat subyektinin zəif, müsbət nəticə isə üstün cəhətlərini göstərir. Auditor testləşdirmənin nəticələrinə əsasən daxili nəzarət sisteminin vəziyyətini qiymətləndirir.

Mühasibatıqda səhvlərə uçotun bütün mərhələlərində (ilkin sənədlərə əsasən uçot reqistirləri tərtib edilərkən, jumal-orderlərin yekunları baş kitaba köçürülərkən, balans tərtib edilərkən, vergi bəyannaməsi tərtib edilərkən) yol verilə bilər. Bu səhvlər çoxsaylı təlimatların düzgün dərk edilməməsi, iş təcrübəsinin az olması və digər bu kimi çoxsaylı səbəblərdən irəli gəlir. Əgər yoxlama aparılan müəssisədə

ayn-ayn məsələlər üzrə səhvlərə yol verilibsə (məsələn, müəssisə vergiyə cəlb edilən və güzəştli mallann ayrıca uçotunu aparmır, hesab-fakturalar yazılarkən səhvlərə yol verilir və s.) onda daxili nəzarət sistemi orta səviyyədə qiymətləndirilir. Daxili nəzarət sisteminin qiymətləndirilməsi auditor riskini müəyyən etmək və audit proqramını korrektə etmək imkanı verir.

Auditor yoxlaması proqramına aşağıdakılar daxil edilməlidir:

^ vergi bəyannamələri və mühasibat hesabatlarının tərtib edilməsinin vizual yoxlanması (bütün lazımi rekvizitlərin doldudulmasının, müvəkkil şəxslərin imzalannın olmasının, edilmiş düzəlişlərin müvafiq qaydada rəsmiləşdirilməsinin yoxlanması).

vergi bəyannamələrində verginin yekun məbləğinin riyazi hesablama yolu ilə yenidən hesablanması yolu ilə onun düzgün tərtib edilməsinin yoxlanması, tətbiq edilmiş vergi dərəcələrinin nə dərəcədə əsaslı olmasının müəyyən edilməsi, vergilərin hesablanması üçün lazım olan göstəricilərin düzgünlüyünün yoxlanması, bəyannamələrin vergi orqanlarına vaxtında təqdim edilməsinin araşdırılması. Yoxlama zamanı auditor aylar üzrə üç məbləği hesablayır: daxil olmuş və dəyəri ödənildiş materiallar (işlər, xidmərlər) üzrə əvəzləşdirilən ƏDV; məhsul (iş, xidmət) satışının həcmindən, yəni ver- gitutulan dövriyyədən hesablanmış ƏDV; alınmış avans məbləğlərindən hesablanmış ƏDV.

o hesabatda olan informasiyanın təhrif olunub-olunmamasmın məntiqi yoxlanması (ayrı ayrı hesabat və bəyannamə göstəriciləri arasındakı məntiqi əlaqənin yoxlanması, bəyannamə və balansdakı göstəricilərin tutuşdurulması).

hesabat məlumatlarının doğruluğunun, mümkün ola bilən vergi qanunvericiliyinin pozulması hallarının, yaxud şübhəli məqamların müəyyən edilməsi baxımından mühasibat hesabatı və ƏDV bəyannaməsinin qiymətləndirilməsi.

/ Vergi auditi zamanı ən çox aşkar edilən səhvlərdən bir də vergitutulan dövriyyənin müəyyən edilməsi qaydasının pozulmasıdır. Bu səbəbdən yoxlamaya ilk növbədə vergi bəyannaməsindəki *məhsulların satışı üzrə dövriyyənin mühasibat uçotundakı məlumatlara uyğun olub-olmamasının yoxlanmasından* başlamaq lazımdır. Auditor malların satışı üzrə bütün dövriyyənin tamlığını xüsusilə müfəssəl yoxlamalıdır. Bunun üçün bəyannamədəki müvafiq məbləğ baş kitabda 46,47,48 və 80 saylı hesablann kreditləri üzrə əks olunmuş məbləğlərlə tutuşdurulur. Bundan sonra isə həmin hesabların kredit dövriyyələrinin düzgünlüyü 11 və 13 X**2**İİ jumal- orderlərdəki 16 və 16a Jf**2**İi cədvəllərdəki məlumatlara əsasən dəqiqləşdirilir.

Məhsullann satışı cədvəllərini müfəssəl surətdə nəzərdən keçirmək yolu ilə vergitutulan dövriyyənin hesablanmasında yol verilmiş ayrı-ayrı səhv və çatışmamazlıqları aşkar etmək olar. Məsələn, hər bir satış pulu məbləğinə müvafiq ƏDV məbləği uyğun gəlməlidir, əks halda bunun səbəbləri araşdınlmalıdır. Bu məqsədlə tətbiq edilmiş vergi dərəcələrinin düzgünlüyünə əmin olmaq lazımdır.

Audit yoxlamasının sonrakı mərhələsində əlavə edilmiş sənədlərlə birlikdə hesablaşma hesabından bank çıxarışlannın kassa kitabı və nağd hesablaşmalar üzrə pul vəsaitlərinin qəbuluna görə tərtib edilmiş mədaxil orderləri, eləcə də alıcılara

təqdim edilmiş hesabların tutuşdurulması yolu ilə uçot registrlərindəki yazılışların doğruluğu yoxlanılır.

Yoxlamanın gedişatı zamanı auditor ilkin sənədlərə (məxaric qaimələri, əmtəə-nəqliyyat qaiməsi, ambardarın hesabatı və s.) əsasən 46 saylı hesab üzrə dövriyyəyə daxil etmədən barter müqaviləsi üzrə müəhsulların buraxılması hallarının olub-olmamasını araşdırmalıdır. Əgər belə hallar aşkar edilərsə, onda maldayişmə əməliyyatlarında daxil olan pul vəsaitlərinin satış hesablarına əks etdirilməsinin düzgünlüyünü yoxlamaq lazımdır.

Yoxlama zamanı həmçinin vergi orqanlarına təqdim edilmiş vergi bəyannaməsində əks olunmuş göstəricilərin mühasibat uçotundakı göstəricilərə müvafıqliyi yoxlanılmalıdır. Məsələn, bəyannamədə göstərilən büdcəyə ödəniləcək vergi məbləği müəssisə balansının (Forma X**2**I) passivində 68 saylı hesabın müvafiq subhesa-bmda və *"Maliyyə nəticələri və onların istifadə olunması haqqında hesabatam* (Forma >f22) "Maliyyə nəticələri" adlanan birinci bölməsinin *'"'Məhsulların (işlərin, xidmətlərin)satışından əldə edilmiş pul vəsaitlərr* adlanan 010 kodunda göstərilən vergi məbləğinə uyğun gəlməlidir. Vergiyə cəlb edilən və vergi tutulmayan məhsulların satışı üzrə dövriyyələrin vergi bəyannaməsində göstərilən məbləği, həmçinin "Maliyyə nəticələri və onların istifadə olunması haqqında hesabat"ın (Forma ^22) müvafiq sətrindəki məbləğə uyğun gəlməlidir. Bu zaman nəzərə almaq lazımdır ki, ƏDV üzrə bəyannamə hesabat dövrü üçün, 2 JST**2**İİ hesabat forması isə artan yekunla tərtib olunur.

ƏDV üzrə vergi bəyannaməsində əks olunmuş əldə edilmiş mal-material qiymətliləri üzrə malsatanlara ödənilmiş əvəzləşdirilməli olan vergi məbləği, 68 saylı hesabın debeti ilə müxabirləşməklə 19 saylı hesabın kreditində əks olunmuş vergi məbləğləri ilə eynilik təşkil etməlidir. Əgər yoxlama zamanı müəssisənin balansında 19 saylı hesabın qalığı olmadığı halda, müəssisənin malsatanlara kreditor borcunun olması aşkar edilərsə, onda bu ƏDV bəyəyannaməsindəki məlumatların təhrif olunduğunu göstərir.

Nəzərə almaq lazımdır ki, vergi ödəyicilərinin illik (rüblük) mühasibat hesabatı tərtib edilərkən səhvlər aşkar olunarsa, onda ödəyici yalnız vergi bəyannaməsinin vergi orqanına təqdim edilməsi üçün müəyyən edilmiş müddət ərzində onda müvafiq dəqiqləşdirmələr (düzəlişlər) apara bilər. Əks halda vergi qanunvericiliyinə uyğun olaraq vergi ödəyicisinə qarşı maliyyə sanksiyası tətbiq olunur.

ƏDV kimi kompleks verginin hesablanması üçün^ nəzərdə tutulmuş mühasibat uçotu hesablarının və registrlər formalarının çoxsaylı olması həm verginin hesablanması, həm də onun düzgünlüyünün yoxlanması zamanı çətinlik yaradır. Əlavə dəyər vergisinin uçota alınması üçün aparılan satış və alış kitablannm, eləcə də vergi hesab-fakturalarınm tərtib edilməsi vergi bəyannaməsinin düzgünlüyünün yoxlanması prosesini asanlaşdırır. Mövcuq vergi qanunvericiliyinə müvafiq olaraq satıcı müəssisə malların yükləndiyi gündən sonrakı 5 gündən gec olmayaraq alıcılara vergi-hesab fakturası təqdim edilməlidir. Alış və satış kitablarında qeydiyyat vergi məbləğini müəyyən etmək məqsədilə apanlır və bu səbəbdən müəssisənin qəbul etdiyi uçot siyasətindən çox aşlıdır. Məsələn, əgər ƏDV məbləği "yükləmə üzrə" (hesablama) metoduna əsasən hesablanırsa, onda satış kitabında yazılışlar he

sab-fakturanın tərtib edildiyi vaxt, "ödəmə üzrə" (İcassa) metodunda isə pul vəsaitlərinin daxil olduğu vaxt aparılır. Yüklənmiş mallara (yerinə yetirilmiş işlərə, göstərilmiş xidmətlərə) görə qismən ödəniş zamanı, satış kitabında hesab-fakturalann qeyd>7atı onun rekvizitləri göstərilməklə və daxil olmuş hər məbləğin yanında *"qismən ödəniş* " qeydi edilməklə aparılır.

Hesabat dövrü ərzində satış kitabında hesab-fakturalann məlumatları toplandıqdan sonra hesabat dövrü üçün kitabın yekun göstəricisi hesablanır. Auditor nəzərə almalıdır ki, satış kitabının ümumi yekunu bəyannamələrdəki müvafiq məbləğə uyğun gəlməlidir. Bu bərabərlik qabaqcadan ödəniş (avans) alarkən müəssisə tərəfindən hesab-fakturanın yazıldığı və satış kitabında qeydiyyatdan keçirildiyi ballada təmin edilmiş olur. Alınmış avanslara görə buraxılmış mallara (işlərə, xidmətlərə) görə yazılmış fakturaya əsasən satış kitabında stomo yazılışı aparılır. Bundan sonra, malların yükləndiyi hesabat dövrü ərzindəki ƏDV üzrə yekun məbləği, avans ödəmələri üzrə əvvəllər hesablanmış vergi məbləği qədər azaldılmaqla kor- rektə edilir (avans ödənişləri daxil olarkən tərtib edilmiş hesab-fakturalann rekvizitləri göstərilməklə). Alınmış avanslara görə mallar faktiki göndərildikdə (yükləndikdə), işlər görüldükdə, xidmətlər göstərildikdə yüklənmiş mallara görə hesab- faktura tərtib edilir və satılmış mallar üzrə ƏDV məbləği əks olunmaqla satış kitabında qeydiyyatdan keçirilir.

Malsatanların təqdim etdikləri hesab-fakturalann alış kitabında qeyd olunmasına xüsusi fikir vermək lazımdır. Qeyd etmək lazımdır ki, qanunvericiliyə əsasən vergi yalnız alınmış malların dəyərini təsdiq edən və müvafiq qaydada alış kitabında qeydiyyatdan keçmiş hesab-fakturalar olduğu hallarda əvəzləşdirilir. Hesab- faktura müəssisənin orijinal möhürü ilə təsdiqlənməlidir. Digər tərəfdən vergi məbləği bir şərt ilə əvəzləşdirilir ki, əldə edilmiş malların (işlərin, xidmətlərin) dəyəri malsatanlara (podratçılara) nağdsız qaydada ödənilmiş olsun. Deməli, əgər müəssisiyə alınmış mallara (işlərə, xidmətlərə) görə malsatanlar tərəfindən hesab-fakturalar təqdim edilməmişdirsə, yaxud o alınmış mal-material qiymətlilərinin dəyərini nağd qaydada ödəmişdirsə, onda vergi ödəyicisi ƏDV məbləğini əvəzləşdirmək (büdcədən geri almaq) hüququnu itirir.

Hesab-faktura ƏDV ödənilməsi üzrə əlavə nəzarət alətidir və vergidən yayınma faktlannm, eləcə də əldə edilmiş mallar (işlər, xidmətlər) üzrə vergi məbləğinin əsassız olaraq əvəzləşdiriimə yə təqdim olunması hallarının aşkar edilməsi məqsədilə, vergi ödəyicilərinin qarşılıqlı yoxlanması üçün istifadə oluna bilər.

ƏDV üzrə bəyannamələr Jurnal-orderlər, maşinoqramlar, material qiymətlilərinin əldə edilməsi (tədarükü) və məhsullann (işlərin, xidmətlərin) satışı üzrə digər mühasibat uçotu registrlərində olan, 46 və 80 saylı hesablarda əks olunan məlumatlara əsasən tərtib edilir. Auditor tərəfindən vergi bəyannamələrinin yoxlanması mühasibat uçotu və hesabatlanndakı məlumatlara əsasən aparılır. Lakin bir çox hallarda mühasibat uçotunun məlumatları vergi hesabatındakı məlumatlara uyğun gəlmir ki, bu da həm mühasiblər, həm də auditorların işində çətinliklər yaradır.

Satış üzrə dövriyyələrin müəssisənin mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü satış pulunun müəssisənin uçot siyasətində müəyyən olunmuş metoduna əsasən yoxlanılmalıdır. Qeyd etmək istərdik ki, satış pulunun müəyyən edilmə

sinin iki metodu mövcuddur: "yükləmə üzrə" (hesablama metodu) və "ödəmə üzrə" (kassa metodu). Birinci metodun ("yükləmə üzrə") tətbiqi zamanı məhsullar yükləndiyi və hesablaşma sənərlərinin alıcılara təqdim edildiyi an satılmış hesab olunur. "Ödəmə üzrə" metodunda isə məhsullar pul vəsaitlərinin malsalanın hesablaşma və digər hesabına daxil olduğu (nağdsız hesablaşmalar zamanı), nağd hesablaşmalar zamanı isə pullar müəssisənin kassasına ödənildiyi anda satılmış hesab olunur.

Əgər müəssisə satış pulunun "ödəmə üzrə" (kassa metodu) müəyyən edilməsini seçmişdirsə, onda analitik uçot satılmış məhsulların (işlərin, xidmətlərin) növləri üzrə 16 JNfeli "Məhsullar və material qiymətlilərinin satışının uçotu cədvəli"ndə aparılır. Müəssisə satış pulunun "yükləmə üzrə" (hesablama metodu) müəyyən edilməsi metodunu seçdikdə isə analitik uçot üçün analoji məzmunlu 16a JI**2**İİ cədvəldən istifadə olunur. Bu registrlər müəssisələrdə uçotun jumal-order forması tətbiq olunduqda yoxlanılır. Mühasibat uçotunun digər formalarında isə analoji yığma registrləri, yaxud uçotun sadə formasında təsərrüfat əməliyyatlarının uçotu jurnalı yoxlanılır.

Auditor nəzərə almalıdır ki, ƏDV məbləği hesablaşma sənədlərinə əsasən analitik uçotda ayrıca sütunda göstərilməlidir, yəni güzəştli dövriyyələr istisna olmaqla hər satış pulunun məbləğinə müvafiq ƏDV məbləği ayrıca əks olunmalıdır. Əgər satış pulunun tərkibində ƏDV olmazsa, onda bunun səbəbi aydınlaşdırılmalıdır.

16 və 16a K**2**İİ cədvəllərin təhlili malların (məhsulların, işlərin, xidmətlərin) satışından daxil olmuş pul vəsaitlərinin satış hesablarının (46,47,48) deyil, 62 "Alıcılar və sifarişçilərlə hesablaşmalar" hesabına əks etdirilməsi hallarını aşkar etməyə imkan verir.

"Ödəmə üzrə" metodu ilə satış pulunu müəyyən edən müəssisələrdə auditor *ümidsiz debitor borclarının* silinməsi zamanı ƏDV əks olunmasına xüsusi diqqət yetirməlidir. Qanunvericiliyə uyğun olaraq əgər alıcı (sifarişçi) müqavilə üzrə öhdəliklərini yerinə yetirməzsə, onda aşağıda göstərilən tarixlərdən ən tezi mallann dəyərinin ödənildiyi gün kimi qəbul edilir:

^ iddia müddətinin başa çatdığı tarix;

^ debitor borclarının silindiyi gün.

Beləliklə, mövcud qanunvericiliyə uyğun olaraq zərərə silinmiş iddia müddəti keçmiş debitor borcu ödənilmiş hesab olunur və bu səbəbdən həmin məbləğ üzrə əlavə dəyər vergisi hesablanmalıdır.

Qeyd etmək lazımdır ki, iddia müddəti başa çatmış *kreditor borcları* müəssisə rəhbərinin sərəncamına əsasən maliyyə nəticələrinə silinir. Başqa sözlə, iddia müddəti keçmiş kreditor borcları satışdankənar gəlirlər kimi 76 "Müxtəlif debitor və kreditorlarla hesablaşmalar" hesabının debeti ilə müxabirləşməklə 80 "Mənməət və zərərlər" hesabının kreditinə silinir. Həmin məbləğ ümumi müəyyən edilmiş qaydada vergitutma bazasına daxil edilərək mənfəət vergisinə cəlb olunur.

Malsatanlardan alınmış, lakin dəyəri ödənilməmiş materiallar üzrə ƏDV məbləği büdcədən əvəzləşdirilə, yaxud satışdankənar xərclərin tərkibinə daxil edilə bilməz. Həmin material qiymətliləri mədaxil edilərkən ümumi müəyyən edilmiş qaydada uçotda aşağıdak; kimi əks etdirilir:

i)Dt 10 “Materiallar”

Kt 60 “Malsatan və podratçılarla hesablaşmalar” ~ materialların dəyəri;

2) Dt 19 “Əldə edilmiş qiymətlilər üzrə ƏDV”

Kt 60 “Malsatan və podratçılarla hesablaşmalar” - ƏDV məbləği.

Həmin kreditor borcunun iddia müddəti başa çatdıqdan sonra həmin alınmış materialların dəyəri maliyyə nəticələrinə silinir. Bəzi iqtisadçıların fikrincə, kreditor borcları üzrə ƏDV məbləği vcrgitutulan mənfəət məbləğinə daxil edilməlidir. Belə olan halda aşağıdakı mühasibat yazılışı tərtib olunmalıdır:

Dt 60; Kt 80 - iddia müddəti keçmiş kreditor borcunun məbləği (ƏDV daxil olmaqla).

Fikrimizcə, kreditor borcunu maliyyə nəticələrinə silərkən belə yazılışın aparılması düzgün deyil, çünki belə olan halda materiallar alınarkən 19 sayı hesabda əks olunmuş ƏDV məbləği həmin hesabda debet qalığı kimi qalır. Bu səbəbdən təklif edirik ki, bu əməliyyat mühasibat uçotunda aşağıdakı kimi əks etdirilsin:

1) Dt 60; Kt 80 - iddia müddəti keçmiş kreditor borcunun məbləği;
2) Dt 80; Kt 19 - kreditor borcu üzrə ƏDV məbləği.

Yuxarıdakı mühasibat yazılışlarından göründüyü kimi silinmiş kreditor borcu olan ƏDV məbləği satışdankənar xərc kimi müəssisənin gəlirlərini azaldır və bu səbəbdən həmin məbləğin təkrarən mənfəət vergisinin vergitutma bazasına daxil edilməsi düzgün deyil.

Auditor nəzərə almalıdır ki, kapital qoyuluşunun tərkibində uçota alman və istismara verilməyən əsas vəsaitlər üzrə amortiz.asiya ayırmalan, həmin obyektlər istismara vergildikdən sonra hesablanır. Əsas vəsait obyektləri əldə edilərkən mal-satanlara (podratçılara) ödənilmiş ƏDV məbləği, həmçinin onlar istismara vergildikdən sonra əvəzləşdirilir. Əsas vəsaitlər təhvil-təslim aktına və qanunvericilikdə müəyyən edilmiş hallarda bu obyektlərin dövlət qeydiyyatını təsdiq edən sənədlərə əsasən uçota alınırlar. Əsas vəsait obyektləri dövlət qeydiyyatından keçənədək mühasibat uçotunda 08 “Kapital qoyuluşları” hesabında uçota alınır. Belə olan halda, dövlət qeydiyyatından keçməmiş əsas vəsait obyektləri üzrə hesablanmış ƏDV məbləği yalnız onlar dövlət qeydiyyatından keçdikdən və istismara verildikdən sonra əvəzləşdirilə bilər.

Əsas vəsaitlərin satışı zamanı ƏDV hesablanmasının düzgünlüyünü yoxlayarkən nəzəra almaq lazımdır ki, vergi məbləği obyektlərin ilkin dəyəri və satış qiymətləri arasındakı fərqə görə hesablanılır (aparılmış yenidənqiymətləndirmələr nəzərə alınmaqla). Auditor yoxlamanın gedişatı zamanı ƏDV məbləğinin əsas vəsait obyektlərinin ilkin dəyərlərinə daxil edilməsi hallarının mövcud olub-olmadığını araşdırmalıdır.

Yoxlama zamanı həmçinin alınmış mal-material qiymətliləri üzrə malsatan- lara olan borcun silinməsinə, eləcə də satılmış mallara (görülmüş işlərə, göstərilmiş xidmətlərə) görə alıcılardan (sifarişçilərdən) alınmış pul vəsaitlərinin vaxtında uçota alınması üzrə işin təşkilinə xüsusi diqqət yetirilməlidir.

Təbii fəlakət və fövqəladə hallar nəticəsində məhv olmuş material qiymətliləri üzrə ƏDV büdcədən əvəzləşdirilimir və fövqəladə xərclərin tərkibinə aid edilməklə 80”Mənfəət və xərclər” hesabına silinir.

Əgər məhv olmuş material qiymətliləri üzrə ƏDV büdcədən kompensasiya edilmişdirsə, yəni vergi məbləği 68 hesabın debetinə əks edilmişdirsə, onda uçotda aşağıdakı stomo yazılışı aparmaq lazımdır: Dt 68 - Kt 19.

Məhv edilmiş material qiymətliləri üzrə ƏDV məbləği bərpa edildikdə aşağıdakı yazılış tərtib edilir: Dt 80 - Kt 19.

Auditor həmçinin yoxlama zamanı yoxlanılan müəssisənin *filial və struktur bölmələri tərəfindən ƏDV ödənilməsi qaydasım yoxlamalıdır.* Vergi qanunvericiliyinə uyğun olaraq struktur bölmələrinin yerləşdiyi yerlərdə ƏDV onlar tərəfindən malların satılıb-satılmamasından asılı olmayaraq hesablanmalıdır.

Struktur bölmələrinin yerləşdiyi yerlər üzrə müəssisənin ödəməli olduğu ƏDV məbləğinin yoxlanılması qaydası aşağıdakı kimidir:

1) struktur bölməsi tərəfindən ödənilməli olan vergi məbləğini hesablamaq üçün müəssisənin hansı göstəricidən istifadə etdiyini yoxlamaq (bu göstərici işçilərin orta siyahı sayı və ya əməyin ödəniş fondu ola bilər);
2) hesabat dövrünün axınna ayrıca götürülmüş struktur bölmələri və bütövlükdə müəssisə üzrə işçilərin orta siyahı sayının (əməyin ödəniş fondunun) düzgünlüyünü yoxlamaq;
3) struktur bölmənin işçilərinin orta siyahısının (əməyin ödəniş fondunun) xüsusi çəkisinin düzgünlüyünü yoxlamaq;
4) əvvəlki təqvim (hesabat) ili ərzində struktur bölmələri və bütövlükdə müəssisə üzrə əsas istehsal fondlarının qalıq dəyərinin müəyyən edilməsinin düzgünlüyünü yoxlamaq. İl ərzində əsas fondların qalıq dəyəri aşağıdakı formula üzrə hesablanır:

$$\frac{\text{ƏV}_1 + \text{ƏV}_2 + \text{ƏV}_3 + \text{ƏV}_4 + \text{ƏV}_5}{5}$$

Burada, ƏV - hesabat ilindən əsas istehsal fondlarının orta qalıq dəyərini,

ƏV_1 ƏV_2 .ƏV_3 ƏV_4 ƏV_5 - müvafiq olaraq ilin əwəllinə, ikinci rübün əvvəlinə, üçüncü rübün əwəlinə, dördüncü rübün əwəluinə, ilin axırına əsas fondların qalıq dəyərini göstərir.

5) struktur bölməsinin əsas fondlarının dəyərinin müəssisənin əsas fondlarının ümumi dəyərindəki xüsusi çəkisinin müəyyən edilmnəsinin düzgünlüyünü yoxlamaq;
6) struktur bölməsinin işçilərinin orta sayının (əməyin ödəniş fondunun) və əsas istehsal fondlarının xüsusi çəkisinin orta həcminin hesablanmasının düzgünlüyünü yoxlamaq;
7) müəssisə üzrə ümumi vergi məbləğini struktur bölməsinin əsas istehsal fondlannın dəyərinin xüsusi çəkisinin orta kəmiy>'ətinə vurmaqla struktur bölməsinin payına düşən vergi məbləğinin düzgünlüyünü yoxlamaq.

Vergitutulan dövriyyənin qeyri-əsassız olaraq azaldılması və hesablanmış ƏDV məbləğinin aşağı salınması hallarının qarşısının alınması məqsədilə vergi müfəttişi tərəfindən ƏDV bəyannaməsində göstərilmiş *vergitutulan dövriyyənin*

düzgünlüyü yoxlanmalıdır. Belə faktlar mütləq qaydada yoxlanmalı, xüsusilə stor- no üsulu ilə mühasibat yazıhşlanna əsas verən sənədlər müfəssəl öyrənilməlidir.

Nəzərə almaq lazımdır ki, ƏDV üzrə yenidən hesablamalar yalnız o halda aparılır ki, dəyəri alıcılar (sifarişçilər) tərəfindən ödənilmiş malların pulunun onlara geri qaytarılması və ya sifarişçilər tərəfindən imtina edilməsi üzrə əməliyyatlara görə uçotda satış hesablarında düzəlişlər edilmiş və bununla yanaşı vergi məbləğinin büdcəyə daxil olduğu gündən üç il keçmiş olsun.

Vergitutulan dövriyyənin müəyyən edilməsinin düzgünlüyünün yoxlanması yalnız satış hesablan deyil, material qiymətlilərinin hərəkətinin uçota alındığı hesablar üzrə də apanimalıdır. Auditor ilkin sənədləri (mallann buraxılışına görə tərtib edilmiş qaimələr, əmtəə-nəqliyyat qaiməsi, material hesabatları və s.) yoxlayarkən vergitutulan dövriyyəyə daxil edilmədən barter müqavilələri üzrə məhsulların buraxılışı hallanna, eləcə də malların (işlərin, xidmətlərin) digər müəssisələrə əvəzsiz olaraq verilməsi hallarına da fikir verməlidir. Vergi qanunvericiliyinə uyğun olaraq mal-material qiymətlilərinin əvəzsiz olaraq verilməsi zamanı ƏDV-ni onları verən tərəf ödəyir. Lakin buna baxmayaraq müəssisələr bəzən əvəzsiz qaydada verilmiş həmin qiymətlilərin dəyərini vergitutulan dövriyyəyə daxil etmir və ya onların faktiki dəyərini bilərəkdən azaldırlar.

Vergi müfəttişi yoxlamanın gedişatı zamanı həmçinin satış hesabları üzrə əks olunmuş dövriyyələrin həcmini pul vəsaitlərini uçota alan hesablann (50 "Kassa", 51 "Hesablaşma hesabı", 52 "Valyuta hesabı", 55 "Bankdakı xüsusi hesablar", 56 "Pul sənədləri", 57 "Yoldakı köçürmələr") debet dövriyyələrinin tərkibindəki satış pulunun məbləği ilə tutuşdurmalıdır. Barter əməliyyatlarının iqtisadi məzmunu və sənədlərdə təsdiq olunmasının nə dərəcədə əsaslı olub-olmaması həmçinin yoxlama predmeti olmalıdır.

Yoxlamanın gedişatı zamanı həm müəssisənin yerləşditi hüquqi ünvanda, həm də digər yerlərdə banklardakı hesablarında pul vəsaitlərinin olub-olmaması nəzərə alınmalıdır. Lazım gəldikdə vergi ödəyicisinin bankdakı hesabında pul vəsaitlərinin hərəkəti haqqında bank təşkilatına sorğu göndərilə bilər.

Sənədli yoxlama aparılarkən nəzərə almaq lazımdır ki, hesablaşma hesabına yalnız malların (işlərin, xidmətlərin) satışından əldə edilən pul vəsaitləri deyil, satışla heç bir əlaqəsi olmayan, daha doğrusu satışdankənar əməliyyatlardan olan vəsaitlər də daxil olur. Bu məbləğlərin yoxlanması 2 Jf**2**İi jurnal-orderin cədvəl bölməsindəki 51 saylı hesab (həmçinin digər hesablar) üzrə aparılır. Bu zaman qeyri- satış əməliyyatları üzrə daxil olmuş pul vəsaitlərinin haradan daxil olması, hesablaşma, valyuta və ssuda hesablannın hansı hesablarla müxabirləşdiyi, bu daxilolmaların faktiki olaraq satış pulu olub-olmadığını diqqətlə yoxlamaq lazımdır. Auditor kassa sənədləri (kassa kitabı) üzrə əhaliyə və ya müəssisənin öz işçilərinə göstərdiyi xidmətlər zamanı material qiymətlilərinin satışına görə kassaya nağd pulun ödənilib-ödənilmədiyini yoxlamalıdır. Yoxlamanın gedişatı zamanı müəssisənin öz ticarət şəbəkəsində satışdan olan pul vəsaitlərinin hərəkətini diqqətlə yoxlamalı və daxil olmuş həmin vəsaitlərin əmələ gəlmə mənbələri açıqlamalıdır.

Əlavə dəyər vergisinin audit yoxlamasının gedişatı zamanı auditor vergitutu- lan dövriyyənin aşağı salınması və ya gizlədilməsi nəticəsində ən çox xarakterik olan aşağıdakı qanun pozuntularının mövcud olub-olmamasına xüsusi diqqət yetirməlidir.

L Maya dəyərindən aşağı olan qiymətin tətbiq olunması nəticəsində vergi- tutulan dövriyyənin aşağı salınması.

Qeyd olunan faktların aşkar edilməsi məqsədilə vergi müfəttişi yoxlama apardığı müəssisənin tətbiq etdiyi qiymətlərin nə dərəcədə əsaslı olub-olmadığını müfəssəl yoxlamalıdır. Nəzərə almaq lazımdır ki, vergitutulan dövriyyəni müəyyən etmək üçün satılmış malların (işlərin, xidmətlərin) dəyəri bazar qiymətlərinə (ƏDV xaric), eləcə də dövlət tərəfindən tənzimlənən qiymətlərə əsasən hesablanılır. Malların (işlərin, xidmətlərin) maya dəyərindən aşağı qiymətə satıldığı hallar aşkar edildikdə, vergitutulan dövriyyə həmin malların satıldığı anda analoji malların (işlərin, xidmətlərin) mövcud bazar qiymətlərinə (faktiki maya dəyərindən aşağı olmayan) əsasən hesablanır. Daimi dəyişən konyuktura müəssisənin məhsuluna olan tələbatın gözlənilməz dərəcədə aşağı düşməsinə təhrik edə bilər ki, bu da öz növbəsində obyektiv olaraq qiymətlərin aşağı düşməsinə və ya malların saxlanması prosesində onların istehlak xassələrinin pisləşməsinə səbəb ola bilər. Sənədlərlə (qiymətlər üzrə müfəttişliyin və stasistika orqanlarının arayışı, mü.stəqil analitiklərin ekspert rəyi) təsdiqlənmiş belə hallar müşahidə edildikdə vergitutma məqsədləri üçün məhsulların faktiki satış qiyməti əsas götürülə bilər. Lakin əgər maya dəyərindən aşağı qiymətlər üzrə məhsulların satıldığı 30 gün ərzində müəssisə tərəfindən daha artıq qiymətə məhsul yüklənmişdirsə, onda bütün satış üzrə onlann faktiki satış qiyməti əsas götürülür.

2. Natural hesablaşma formalarının düzgün tətbiq olunmaması.

Bu qanun pozuntusu barter (mal mübadiləsi) əməliyyatları sferasında əməyin natural ödənişi və ya mal-material qiymətlilərinin əvəzsiz olaraq verilməsi zamanı meydana çıxır. Belə hallar aşkar edildikdə, müqavilənin həyata keçirilməsinə bir ay qalmış orta satış qiymətinə əsasən hesablanmış vergi tutulan dövriyyənin müəyyən edilməsinə nəzarət etmək lazımdır. Bu qaydada məhsul satışı olmadığı hallarda isə onların faktiki maya dəyərindən aşağı olmayan axırıncı satış qiyməti tətbiq olunur. Əgər maldəyişmə obyekti kimi yeni əldə edilmiş məhsul çıxış edirsə, onda vergitutma məqsədləri üçün analoji məhsuların satıldığı anda həmin ərazidə faktiki mövcud olan bazar qiyməti (faktiki maya dəyərindən aşağı olmayan) tətbiq olunur. Onu da qeyd etmək lazımdır ki, həmin bazar qiymətlərinə kommersiya xərcləri də daxil edilir.

3. Hazırlanmış məhsulların dəyərinin müəssisənin vergitutulan dövriyyədən çıxarılması.

Sonradan istehsal prosesində istifadə olunması məqsədilə emal edilmək üçün dəyəri ödənilmədən digər müəssisələrə verilmiş məhsullar (xammal və materiallar) uzun müddətə müəssisənin dövriyyəsindən yayındırılır və sonradan qarşılıqlı hesablaşmalar zamanı istifadə olunur ki, bu da vergidən yayınmağa imkan verir.

*4. 4 MU **Banklardakı xüsusi hesablar** jurnal-orderdə satış hesablarında əks olunmayan faktorinq əməliyyatları üzrə dövriyyələrin əks olunması.*

Faktorinq xidməti haqqında müqaviləyə əsasən bank müvafiq komission məbləği müqabilində yüklənmiş məhsullara və göstərilmiş xidmətlərə görə alıcıların borcunu ödəyir. Bu əməliyyat müştərinin mühasibat uçotunda 46 "Məhsulların (işlərin, xidmətlərin) satışı" hesabının krediti ilə müxabirləşməklə 90 "Qısamüddətli bank kreditləri" hesabının debetinə əks olunmalıdır. Bundan başqa, xüsusi ayrılmış sütunda dəyəri ödənilmiş məhsullar üzrə ƏDV-nin məbləği əks olunmalıdır. Yoxlamanın gedişatı zamanı həmçinin satış dövriyyəsinin banka ödənilmiş komission məbləği qədər azaldılması hallarının olub-olmaması araşdırılmalıdır. Çünki, sözügüdən xidmətlərə görə banklara ödənilmiş komission ödənişlərinin məbləği istehsal (tədavül) xərclərini uçota alan hesablarla (20,23,26,43,44) müxabirləşməklə 51 "Hesablaşma hesabı" hesabının kreditinə silinir.

5. Xüsusi təyinatlı fondlarla əməliyyatlar hesabına satış üzrə dövriyyənin azaldılması.

Burada iki variant ola bilər. Birincisi, satılmış mal, iş və xidmətlərə görə daxil olmuş pul vəsaitləri satış hesabına (46) əks olunmadan birbaşa 86 "Ehtiyat kapitalı", 88 "Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)" və digər hesabla şilinə bilər. İkinci halda isə satış pulu hesablaşma hesablarına (60,61,76) aid edilərək, olduqca uzun müddətdə dövriyyədə olduqdan sonra satış hesablarında əks edilmədən birbaşa xüsusi təyinatlı fondlarda uçota alınır.

6. Məsrəflərin satış pulu hesabına silinməsi.

2 J^**2**İi jurnal-orderdə yerinə yetirilmiş işlər (xidmətlər) üzrə daxil olmuş ödəniş məbləğləri məsrəf hesablannın (20, 23, 26, 43, 44) krcdirinə şilinə bilər ki, bu da məhsul satışı həcminin və ƏDV cəlb olunan dövriyyənin azalmasına səbəb olur.

7. Nağd hesablaşma qaydasında satış dövriyyəsinin azaldılması.

Kassa sənədlərinə əsasən xammal və materiallann (xidmətlərin) satışından olan pul vəsaitlərinin tam mədaxil edilməsi yoxlanmalıdır. Çünki praktikada isthe- sal müəssisələrinin köməkçi sexlərinin həyata keçirdiyi satışın 76 "Müxtəlif debitor və kreditorlarla hesablaşmalar" hesabının kreditinə aid edilməsi və ya 23 "Köməkçi istehsalat" hesabının kreditinə silinməsi hallarına rast gəlinir.

8. Yüklənmiş mallara görə kənar təşkilatlardan daxil olmuş məbləğ və kompensasiya ödəmələrinin uçotu.

Bəzi hallarda hesablaşnma hesabına itirilmiş mallara görə daxil olmuş pul vəsaitləri satışın uçotu cədvəlində əks olunmur. Əlavə məsrəflərin kompensasiyası, işin dəyərinin bahalaşmasına görə inflyasiya əlavəsi kimi tutulmuş məbləğlərin vergitutulan dövriyyəyə daxil edilib-edilməməsinə də fikir vermək lazımdır.

9. Təsisçilərlə hesablaşmalar üzrə satış həcminin ixtisar edilməsi.

Təsisçilərə mal-material qiymətliləri buraxılarkən 75 "Təsisçilərlə hesablaşmalar" və 79 "Təsərrüfatdaxili hesablaşmalar" hesabının tətbiqi səbəbindən mühasibat yazılışlarında 46 "Məhsulların (işlərin, xidmətlərin) satışı" hesabından istifadə edilməyə də bilər.

10. Təqdim ediləcək mallara (işlərə, xidmətlərə) görə hesablaşma hesabına daxil olmuş avans və digər ödəmə məbləğlərindən, eləcə də hesablaşma sənədləri üzrə qismən ödəniş qaydasında alınmış məbləğlərdən ƏDV-nin ayrilmaması.

Sözügüdən qanun pozuntuları 51 “Hesablaşma hesabı” hesabının debeti üzrə daxil olmuş pul vəsaitlərinin yoxlanması yolu ilə aşkar edilir.

İL Qarşılıqlı hesablaşmalar qaydasında mal və materialların buraxılması. Qarşılıqlı hesablaşmaların yoxlanması zamanı 46 saylı hesab deyil, 60, 62 və 76 saylı hesablar, eləcə də müqavilə, smeta və kalkulyasiyaları müfəssəl yoxlamaq lazımdır. Çünki geri qaytarılan materialların və avtomobil nəqliyyatı vasitəsi ilə göstərilmiş xidmətlərin dəyəri, satışın həcmi azaldıla bilər. Malsatan və alıcılarla hesablaşmalar üçün banklarda açılmış ssuda hesabları üzrə qarşılıqlı hesablaşmalar zamanı dövriyyənin gizlədilməsi olduqca realdır. Öz istehsalı olan məhsullarla icarə haqqını ödəmə formasında qarşılıqlı hesablaşma hallan da ola bilər. Qarşılıqlı hesablaşmaların aparılması uzun müddətli vaxt tələb edilr ki, bu həmin əməliyyatlar üzlərində apanlan nəzarəti zəflədir. Nəzərə almaq lazımdır ki, qarşılıqlı hesablaşmalar zamanı satış vaxtı, müəssisənin öz məhsulunun, çəkiləcək xərclərin və təqdim edilmiş xidmətlərin ödənişi üçün tələb olunan müddət hesab olunur.

12. Pul vəsaitlərinin əvəzsiz olaraq verildiyi hallarda verginin ödənilməməsiL Bu halda ƏDV-ni maliyyə resurslarını alan tərəf ödəyir.

Yoxlama zamanı auditor ayn-ayn mallara (xidmətlərə) görə ƏDV üzrə tətbiq olunan vergi güzəştlərinin nə ^ dərəcədə əsaslı olub-olmamasına xüsusi diqqət yetirilməli, vergi güzəştlərinin tətbiqinin düzgünlüyü diqqətlə təhlil olunmalıdır,

ƏDV məbləğinin ayrıca sətirdə əks olunduğu hesablaşma və ödəniş sənədlərinin düzgün tərtib edilib-edilməməsinə xüsusi diqqət yetirmək lazımdır. Əgər satılan mal ƏDV cəlb olunmursa, onda hesablaşma sənədinə *“Əlavə dəyər vergisiz”* qeydi edilir. Müvəkkil banklar vergi məbləğinin ayrıca göstərilmədiyi hesablaşma sənədlərini qəbul etməməlidir.

Beləliklə, vergitutulan dövriyyənin uçotda əks etdirilməsinin düzgünlüyünü yoxlayarkən müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin bütün istiqamətlərini, eləcə də hesablaşma və vergiqoyma sistemini də yoxlamaq lazımdır.

Əlavə dəyər vergisi üzrə büdcə ilə hesablaşmalar çoxşaxəli prosesdir. Ona görə də auditor yoxlama prosesində *əlavə dəyər vergisinin hesablanması, əvəzləş- dirilməsi və ödənilməsi üzrə təsərrüfat əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyünü* xüsusilə diqqətlə yoxlamalıdır.

Əlavə dəyər vergisi üzrə büdcə ilə hesablaşmalann uçotunu aparmaq üçün 68 saylı “Büdcə ilə hesablaşmalar” və 19 saylı “Əldə edilmiş qiymətlilər üzrə əlavə dəyər vergisi” adlı sintetik hesablar nəzərdə tutulmuşdur. Əlavə dəyər vergisi üzrə əməliyyatların əks etdirilməsi üçün 68 saylı hesaba “Əlavə dəyər vergisi üzrə hesablaşmalar” adlı subhesab açılır.

ƏDV üzra büdcə ilə hesablaşmalann auditi zamanı 68 saylı hesabın “ƏDV üzrə hesablaşmalar” subhesabının debet və kredit dövriyyələrinin uçotunun düzgünlüyünü yoxlamaq lazımdır. Bunun üçün qeyri-istehsal ehtiyacları üçün alınmış mal-nmateria! qiymətlilərinin dəyərinin, həmçinin onlar üzrə ƏDV-nin 68 saylı hesabın debetinə əks olunub-olunmamasına xüsusi fikir vermək lazımdır. Bundan başqa, satılmış mallar (işlər, xidmətlər) üzrə hesablanmış ƏDV məbləğinin 68 hesab üzrə əks olunmuş dövriyyənin düzgünlüyü yoxlanılır.

Audit prosesində qeyri-istehsal ehtiyacları üzrə istifadə olunan mallar üzrə hesablanmış, vergi məbləğinin silinməsinin düzgünlüyü də ətraflı yoxlanılmalıdır. Audit yadda saxlamalıdır ki, müəssisənin tədarük etdiyi mal-material qiymətliləri (işlər, xidmətlər) qeyri-istehsal sahələrinin ehtiyacına sərf edildikdə, ödənilmiş əlavə dəyər vergisi xüsusi maliyyələşmə mənbələri hesabına bərpa edilməli və bu əməliyyata müvafiq mühasibat yazılışı tərtib olunmalıdır.

Mövcud qanunvericiliyə uyğun olaraq istehsal fəaliyyətində istifadə olunan material qiymətliləri (xidmətlər) üzrə malsatanlara ödənilmiş əlavə dəyər vergisinin məbləği istehsal (tədavül) xərclərinə daxil edilmir. Bundan başqa, kapital qoyuluşları və qeyri-maddi aktivlərin alınması üçün ödənilmiş ƏDV onların balans dəyərinə daxil edilmir. Yoxlama zamanı bunlara əməl olunmasının vəziyyəti ətraflı öyrənilməli və bu sahədəki nöqsanlar müəyyən edilməlidir.

Tədarük edilmiş mal-material qiymətliləri, yerinə yetirilmiş işlər və göstərilmiş xidmətlər üzrə alıcıların (sifarişçilərin) malsatanlara (podratçılara) ödədikləri ƏDV məbləğinə aşağıdakı kimi mühasibat yazılışları tərtib edilməlidir:

Dt 19 "Əldə edilmiş qiymətlilər üzrə əlavə dəyər vergisi;

Kt 60 "Malsatan və podratçılarla hesablaşmalar" və ya 76 "Müxtəlif debitorlar-la və kreditorlarla hesablaşmalar".

Qeyd etmək lazımdır ki, vergi qanunvericiliyinə uyğun olaraq ƏDV məbləği vergi ödəyicilərinin bütün sənədlərində (o cümlədən hesablaşma sənədlərində) ayrıca göstərilməlidir, əks halda həmin sənədlər heç bir hüquqi qüvvəyə malik olmur. Material qiymətlilərinin daxil olması və malsatanlarla hesablaşmaların uçotu üzrə mühasibat uçotu registrlərində (jurnal-orderlərdə, cədvəllərdə, maşinoqramlarda) hesablaşma sənədlərinə əsasən ödənilmiş vergi məbləği xüsusi ayrılmış sütunda əks etdirilir.

ƏDV bəyannaməsinin müvafiq sətr və sütununda göstərilmiş daxil olmuş mal-material qiymətliləri üzrə dövriyyələr 10 "Materiallar", 12 "Az qiymətli və tezköhnələn əşyalar", 20 "Əsas istehsalat", 23 "Köməkçi istehsalaf", 25 "Ümumis-tehsalat xərcləri", 26 "Ümumtəsərrüfat xərcləri", 01 "Əsas vəsaitlər", 04 "Qeyri- maddi aktivlər" hesablarını məlumatları üzrə yoxlanılır.

Yoxlama zamanı ayrı-ayrı mallara (işlərə, xidmətlərə) görə ƏDV üzrə tətbiq edilən vergi güzəştlərinin nə dərəcədə əsaslı olub-olmaması, eləcə də malsatanlarda alınmış vergi məbləğinin alıcılardan alınmış vergi məbləğindən artıq olan hissəsinin büdcədən əvəzləşdirilməsi üzrə hesablamalann düzgünlüyü müfəssəl öyrənilməlidir.

Konkret müəssisələrin təsərrüfat fəaliyyətinin xüsusiyyətləri və onlann həyata keçirildikləri əməliyyatlann çoxsaylı olması malsatanlara ödənilmiş *ƏDV məbləğinin əvəzləşdirilməsi* prosedurunu çətinləşdirir. Məhz bu səbəbdən vergi nəzarəti praktikası ən çox rast gəlinən xarakterik qanun pozuntusu hallarının olduğunu göstərir ki, onlara aşağıdakıları aid etmək olar.

L Malsatanlara ödənilmiş ƏDV-nin əvəzləşdirilməsi məqsədilə material resurslarının anbardan istehsalata saxta buraxılışı.

Əgər yoxlama zamanı müəyyən hesabat dövrünə görə vergi hesabatının (bəyannaməsinin) təqdim edilməsi müddətindən sonra material qiymətlilərinin sexlərdən anbara qaytanlması faktı aşkar edilərsə, onda yoxlamanı aparan müfəttiş büd

cəyə ödəniləcək vergi məbləğinin süni surətdə aşağı salınması hallarının qarşısını almaq məqsədilə bu cür halların hər birini diqqətlə təhlil etməlidir.

2. *Gələcək dövrlərin xəcləri üzrə ƏDV məbləğinin əvəzləşdirməyə təqdim edilməsi.*

Əgər ödənilməsi bir neçə hesabat dövrünə keçirilə bilən (keçirilməli olan) xərclər (məsələn, icarə haqqı) müəssisə tərəfindən vaxrmdan əvvəl ödənilərsə, onda belə hallarda ƏDV əvəzləşdirməyə ümumi məbləğdə deyil, aylar üzrə təqdim edilib-edilmədiyinə nəzarət etmək lazımdır.

i. *Alıcılardan daxil olmuş vergi məbləğindən hesablaşma sənədlərində ayrıca göstərilməyən, lakin malsatanlara ödənilən verginin çıxılması.*

Müəssisələr ƏDV məbləğini yalnız hesablaşma sənədlərində (ödəniş tapşırığında) göstərmək hüququna malikdir. Hesablar, hesab-fakturalar, əmtəə-nəqliyyat qaimələri və digər analoji sənədlər ƏDV-nin ayrıca göstərilməsi üçün əsas sayıla bilməz.

4. *Nağd pula alınmış mallar üzrə ƏDV hesablama yolu ilə ayrıca gösrərilməsi.*

Topdan və pərakəndə müəssisələrdən, eləcə də əhalidən istehsal ehtiyacları üçün nağd pula material qiymətliləri alarkən, onların dəyəri ƏDV ilə birlikdə istehsal xərclərinə daxil edilir. Əgər' istehsal ehtiyacları üçün lazım olan material qiymətliləri (xidmətlər) nağd pula istehsalçı müəssisədən alınarsa, onda kassa mədaxil orderi və üzərində ayrıca sətirdə ƏDV məbləği göstərilmiş qaimə olarsa, müvafiq vergi məbləği ümumi müəyyən edilmiş qaydada 19 hesabın debeti üzrə əks olunur və əvəzləşdirmə üçün təqdim oluna bilər.

Əldə edilmiş mal-material qiymətliləri üzrə malsatanlara ödənilmiş *əvəzləş-diriləcək ƏDV məbləğinin doğruluğu yoxlanarkən,* istehsalata silinmiş material resursları üzrə vergi məbləğinin müəyyən edilməsi üçün müəssisənin apardığı hesablamaları yoxlamaq lazımdır. Nəzərə almaq lazımdır ki, təsərrüfat subyektləri tədarük etdikləri mal-material qiymətlilərinin dəyərini yalnız nağdsız qaydada Ödədikləri halda ƏDV məbləğini əvəzləşdirmək hüququna malikdirlər. Əlavə dəyər vergisi də daxil olmaqla alınmış mal-material qiymətlilərinin (işlərin, xidmətlərin) dəyəri malsatanlara ödənildikdən sonra (Dt 60,76 - Kt 51,52,55), büdcədən əvəz- ləşdiriləcək ƏDV məbləğinə aşağıdakı mühasibat yazılışı tərtib edilir:

Dt 68, "Əlavə dəyər vergisi üzrə hesablaşmalar" subhesabı;

Kt 19 "Əldə edilmiş qiymətlilər üzrə əlavə dəyər vergisi" hesabı.

Vergi müfəttişi nəzərə almalıdır ki, müəssisəyə daxil olmuş material resurslarının faktiki alış qiymətləri ilə dəyəri (ƏDV xaric) 60 "Malsatan və podratçılarla hesablaşmalar" (6 Jfsli jumal-order) və 71 "Təhtəlhesab şəxslərlə hesablaşmalar" (7 Jfali jurnal-order) hesabı ilə müxabirləşməklə 10 "Materiallar" hesabının debetinə əks olunur (bu qayda azqiymətli və tezköhnələn əşyalara da şamil olunur). Dəyəri ödənilmiş, lakin daxil olmamış (alınmamış) material resurslarının (ATƏ) dəyəri və onlara görə təqdim edilmiş ƏDV məbləği onların faktiki daxil olduğu ayda uçota alınmalıdır. Əgər material resursları hesablaşma sənədləri (ödəniş tapşırığı, tələb- namə-tapşırıq, hesab-faktura) olmadan mədaxil edilmişdirsə, onda həmin qiymətlilərin dəyəri vergi məbləği ayrılmadan uçota alınmalıdır. Belə hallarda ƏDV-nin

məbləği hesablaşma sənədlərinin daxil olduğu hesabat dövrünün vergi bəyannaməsində uçota almır.

Əgər hesablaşma sənədlərində ƏDV ayrıca göstərilməyibsə, onda təqdim edilmiş hesabda göstərilən bütün məbləğ həmin dövrdə resursların daxil olmasını xarakterizə edən göstəriciyə daxil edilir.

Vergi bəyannaməsində əks olunmuş istehsalata silinmiş material resursları üzrə dövriyyə 10, 10/1 JSTeli jurnal-orderlər, 10, 11, 12, 13, İSaXsli cədvəllərdə, istehsal məsrəflərinin sintetik və analitik uçotunun aparıldığı digər registrlər üzrə yoxlanılır.

Audit yoxlamasının gedişatı zamanı istehsal xərclərinə aid edilən mal-material qiymətlilərinin (iş və xidmətlərin) dəyərinin və vergi məbləğinin tam əks olunması, eləcə də əsas vəsaitlər və qeyri-maddi aktivlər üzrə büdcə ilə hesablaşmalara aid edilən vergi məbləğinin, satılmış malların (işlərin, xidmətlərin) dəyərinin nə dərəcədə əsaslı olub-olmaması müəyyən edilir.

İstehsal ehtiyaclan üçün istifadə olunmuş material resurslarının həcmi haqqında məlumatlar, vergiyə cəlb olunan məhsulların istehsalına çəkilən məsrəfləri uçota alan hesabların (20,23,25,26) debeti ilə müxabirləşməklə 10 "Materiallar" və 12 "Az qiymətli və tezköhnələn əşyalar" hesabının kredit dövriyyələri üzrə yoxlanılır. Nəzərə almaq lazımdır ki, müəssisədaxili dövriyyə, yəni istehsal ehtiyacları üçün müəssisənin struktur bölmələri arasında məhsulların satışı üzrə əməliyyatlar ƏDV cəlb olunmur. Ona görə belə əməliyyatlar üzrə material resurslarının dəyəri, orta faiz dərəcəsi hesablanarkən nəzərə alınmır.

Çoxdövriyydli taralar üzrə ƏDV məbləğinin müəyyən edilməsi özünəməxsus xüsusiyyətlərə malikdir. Nəzərə almaq lazımdır ki, girov qiyməti olan taralar üzrə (məsələn, şüşə qablar) ƏDV-nə yalnız onu hazırlayan zavod satarkən hesablanılır. Sonradan çoxdövriyyəli taranı məhsulların qablaşdırılması üçün istifadə edən müəssisələrdə, onları əldə edərkən malsatanlara ödədikləri vergi məbləğini əvəzləşdirməyə təqdim etmədən ƏDV ilə birlikdə girov qiymətləri üzrə uçota alırlar.

Əgər müəssisədə dəyəri hazır məhsulun qiymətinə daxil edilən birdəfəlik taralardan və ya dəyəri hazır məhsulun qiymətindən əlavə ödənilən nəqliyyat tarala- rından (taxta, karton) istifadə olunursa, onda həmin taranın dəyəri vergitutulan dövriyyəyə daxil edilir, yaxud məhsulun dəyərində və ya ayrıca satılan mal kimi uçota alınır. Birdəfəlik taralarda mal alan müəssisə onlara görə ƏDV məbləğini əvəzləş- dirmək üçün bütün, nəqliyyat tarasında məhsul alan müəssisələr isə yalnız məhsulun qiymətindən əlavə ödənilmiş məbləği təqdim edir.

Əldə edilmiş azqiymotli və tezköhnələn əşyalar üzrə əvəzləşdirməyə təqdim edilən ƏDV məbləği material resurslannda olduğu qaydada müəyyən edilir.

Yoxlama zamanı nəzərə almaq lazımdır ki, material resursları (işlər, xidmətlər) üzrə ƏDV məbləği, həmin qiymətlilərə görə təqdim edilmiş hesablaşma sənədlərinin faktiki daxil olduğu vergi dövrü üçün əvəzləşdirilir. Bu zaman qeyri-istehsal ehtiyacları üçün istifadə olunmuş mallar (xidmətlər) üzrə hesablanmış ƏDV, büdcəyə ödəniləcək vergi məbləğindən çıxılmamalıdır, çünki bu halda vergi müvafiq maliyyələşmə mənbələri hesabına ödənilir. Vergi tutulmayan məhsulların istehsalı üzrə əməliyyatların həyata keçirilməsi üçün istifadə olunan mallar (işlər, xid

mətlər) üzrə ƏDV, həmçinin ümumi vergi məbləğindən çıxılmır. Bu halda malsa- tanlara ödənilmiş vergi məbləği istehsal (tədavül) xərclərinə daxil edilir.

Əsas vəsaitlər və qeyri-maddi aktivlərin əldə edilməsi zamanı ödənilmiş ƏDV məbləği, əsas vəsaitlər istismara verildikcə əvəzləşdirilməyə təqdim olunur. Yoxlama zamanı qeri-istehsal məqsədləri üçün əsas vəsaitlər və qeyri-maddi aktivlərin əldə edilməsi faktına diqqət yetirmək lazımdır. Belə ki, bu obyektlər üzrə vergi məbləği büdcə ilə hesablaşmalara aid edilməyərək müvafiq maliyyələşmə mənbələri hesabına ödənilməlidir.

Sifarişçilərin hesabına alınmış avadanlıqlar üzrə əlavə dəyər vergisi, 19 saylı hesabın "Kapital qoyuluşlarının həyata keçirilməsi üzrə əlavə dəyər vergisi" subhe-sabının debetində və 60, 76 saylı hesabların kreditində əks etdirilməlidir. Bu məbləğ malsatanlara ödənildikdə aşağıdakı mühasibat yazılışı tərtib olunur:

Dt 60 "Malgöndərənlər və podratçılarla hesablaşmalar";
Kt 51 "Hesablaşma hesabı";
Eyni zamanda,
Dt 68 "Büdcə ilə hesablaşmalar";
Kt 19 "Əldə edilmiş qiymətlilər üzrə əlavə dəyər vergisi".

Podratçı təşkilatlarda əlavə dəyər vergisi daxil edilməklə, yerinə yetirilmiş ti-kinti-quraşdırma işləri görülərkən aşağıdakı mühasibat yazılışları tərtib olunmalıdır: Dt 01 "Əsas vəsaitlər"
Kt 08 "Kapital qoyuluşları"
Dt 08 "Kapital qoyuluşları"
Kt 60 "Malgöndərənlər və podratçılarla hesablaşmalar" (ƏDV xaric)
Dt 19 "Əldə edilmiş qiymətlilər üzrə əlavə dəyər vergisi"
Kt 60 "Malgöndərənlər və podratçılarla hesablaşmalar" hesabı (ƏDV xaric)
Qeyri-maddi aktivlərin dəyəri ödənildikdə köçürülən məbləğə aşağıdakı mühasibat yazılışı tərtib olunmalıdır:
Dt 60 "Malgöndərənlər və podratçılarla hesablaşmalar" (ƏDV xaric)
Kt 51 "Hesablaşma hesabı";
Dt 68 "Əlavə dəyər vergisi üzrə hesablaşmalar" subhesabı;
Kt 19 "Əldə edilmiş qiymətlilər üzrə əlavə dəyər vergisi".

Məlum olduğu kimi bəzi müəssisələr öz nəzdində təsərrüfat üsulu ilə uşaq bağçası, körpələr evi və mədəniyyət obyekti inşa edirlər. Onlar bu cür işlər üzrə xərcləri 29 saylı "Xidmətedici istehsalatlar və təsərrüfatlar" adlı hesabda uçota alırlar. Həmin obyektlər üzrə tikinti-quraşdırma işləri görülərkən baş vermiş əməliyyatlara aşağıdakı kimi mühasibat yazılışı tərtib olunmalıdır:

Dt 08 "Kapital qoyuluşları";
Kt 23 "Köməkçi istehsalat";
Yerinə yetirilmiş işlərə əlavə dəyər vergisi hesablandıqda:
Dt 19 "Əldə edilmiş qiymətlilər üzrə əlavə dəyər vergisi";
Kt 68, "Əlavə dəyər vergisi üzrə hesablaşmalar" subhesabı;
Əlavə dəyər vergisi ödənildikdə:
Dt 68 "Əlavə dəyər vergisi üzrə hesablaşmalar" subhesabı;
Kt 51 "Hesablaşma hesabı".

Eyni zamanda büdcədən əvəzləşdiriləcək vergi məbləği 19 saylı hesabın kreditindən 68 saylı hesabın debetinə silinir.

Alınmış qeyri-maddi aktivlər üzrə əlavə dəyər vergisi, ümumi qaydada 19 saylı hesabın "Əldə edilmiş maddi resurslar üzrə əlavə dəyər vergisi" subhesabının debetində, 60 və 76 saylı hesabların kreditində əks olunmalıdır.

Qeyri maddi aktivlərin dəyəri ödənildikdə və uçota qəbul olunduqdan sonra aşağıdakı mühasibat yazılışı verilir:

Dt 60 "Malsatan və podratçılarla hesablaşmalar" (76)

Kt 51 "Hesablaşma hesabı";

Eyni zamanda,

Dt 68 "Büdcə ilə hesablaşmalar";

Kt 19 "Əldə edilmiş qiymətlilər üzrə əlavə dəyər vergisi";

Yuxarıda qeyd edilənlərdən göründüyü kimi əlavə dəyər vergisinin hesablanması və müvafiq hesablarda əks olunması mühasibat əməliyyatları tərtib etməklə həyata keçirilir.

Təlimata əsasən 68 saylı hesab üzrə kredit qalığı (alınmış və ödənilmiş vergi məbləğlərinin fərqi) büdcəyə köçürülür (Dt 68 - Kt 51).

Yuxanda qeyd edilənlər belə bir nəticəyə gəlməyə əsas verir ki, mühasibat uçotunu və onun apanima qaydasını dərindən bilməyən auditor onun qarşısmda duran vəzifələri lazımi səviyyədə yerinə yetirə bilməz. Ona görə də hər bir auditor mühasibat uçotunu dərindən bilməli, mühasibat uçotunda və vergilərin hesablanma qaydasında, vergi dərəcələrində və sair sahədə baş verən dəyişikilikləri diqqətlə izləməli, qüvvədə olan qanunvericiliyə və normativ sənədlərə yoxlama apanlan müəssisədə əməl olunmanın vəziyyətini aşkar etməyi və onlara obyektiv qiymət verməyi bacarmalıdır.

Yoxlama materiallarının və auditor yoxlamasında əldə olunan informasiyanın yayılması və elan olunması təsərrüfat subyektinin icazəsi olmazsa, yolverilməzdir. Bir qayda olaraq auditor yoxlama zamanı yoxladığı müəssisənin mənafeyini müdafiə etməli, müəssisənin fəaliyyəti barədə obyektiv informasiya verməlidir.

Auditor yoxlamasının keyfiyyətsiz aparıldığı və bu səbəbdən iqtisadi subyektə (dövlətə) ziyan dəydiyi müəyyən edildikdə, həmin zərərin məbləği və yenidən yoxlama apaniması ilə əlaqədar olan bütün xərclər məhkəmənin (arbitrajın) qərarı ilə qüvvədə olan qanunvericiliyə uyğun olaraq vergi orqanları (auditor, auditor firması) tərəfindən ödənilir.

4.14. Aksiz vergisinin auditi

Aksizlərin hesablanmasının düzgünlüyü, tam və vaxtında ödənilməsi üzərində nəzarəti vergi orqanları həyata heçirir. Bundan başqa, alkoqollu içkilərin istehsalı ilə qeyri-leqal məşğul olan istehsal sferasında vergitutmadan yayınmanın qarşısını alan vergi postları fəaliyyət göstərir.

Vergi orqanları tərəfindən ilkin sənədlərə əsasən müəssisələr tərəfindən satılmış aksizli mallar üzrə aksizlərin hesablanması və ödənilməsinin düzgünlüyünün yoxlanması, vergi orqanlarının müəyyən etdiyi müddətlərdə müəssisələrə çıxmaqla, yəni səyyar vergi yoxlaması aparmaqla həyata keçirilir. Lakin sənədli yoxlama

dan əvvəl müəssisələrin (sahibkarların) vergi orqanlanna təqdim etdikləri vergi bəyannamələrinə əsasən kameral yoxlama aparılır. Vergi orqanları tərəfindən bəyannamələrin kameral yoxlanması onların vergi orqanlarına daxi4 olduğu an həyata keçirilir ki, bu da aksizlərin tam və güzgün hesablanmasına, eləcə də vaxtında ödənilməsinə nəzarət etməyə imkan verir.

Müəssisələr üzrə aksiz məbləğlərinin uçotu vergi orqanlarında hər bir vergi ödəyicisi üçün açılmış şəxsi hesablarda (vərəqlərdə) aparılır. Vergi orqanlarına bank müəssisəlrindən ödəniş sənədləri (ödəniş tapşınqları) daxil olduqca, başa çatmış hesabat dövrü üçün vergi ödəyicilərinin ödədikləri aksiz vergisinin məbləği şəxsi hesabın müvafiq sütununda yazılır.

Aksiz məbləğinin hesablanmasının düzgünlüyü və büdcəyə vaxtında köçürülməsi, vergi orqanlarının müəyyən etdiyi müddətdə vergi müfəttişlərinin müə.ssi-sələrdə səyyar veri yoxlaması aparmaları yolu ilə yoxlanılır.

"Aksiz vergisinin yoxlanılması" üzrə sənəd kodu YV-039 olan yönləndirici vərəqə tətbiq edilməli və aşağıdakı məsələlər yoxlama ilə əhatə olunmalıdır.

1. Hesablanmış aylıq vergi məbləği mühasibat ucotundakı (baş kitabda) yazılışla üzləşdirilməlidir. Bu zaman iri məbləğdə edilmiş düzəlişlərə və dəqiqləşdirilmiş dövriyyələrə xüsusi fikir verilməlidir. Əvvəlki yoxlama aktına baxılmalı və edilmiş düzəlişlərə diqqət yetirilməlidir.

2. Mövçud qanunvericiliyə uyğun olaraq aksiz vergisi ödəyicisinin müəyyən edilməsi zamanı Azərbaycan Respublikasının rezidenti olan müəssisənin respublika hüdudlanndan kənarda özü və ya podratçı vasitəsilə aksizli mallar istehsal edib-etməməsinə və sifarişçinin göndərdiyi xammaldan Azərbaycan Respublikası ərazisində aksizli mallar istehsal etməsinə (bu zaman aksiz məbləğinin sifarişçidən alınmasına baxmaq) diqqət yetirilməlidir.

3. Vergitutma obyektinin (o cümlədən vergidən azadolma) və vergi tutulan əməliyyatın vaxtının düzgün müəyyən edilməsinə diqqət yetirilməli, istehsal edilən aksizli mallardan müəssisənin ərazisində yerləşən yeməkxana, bufet və bu kimi obyektlərə (vergitutma məqsədləri üçün) buraxılması zamanı aksiz vergisinin hesab-lanıb-hesablanmaması vəziyyətinə baxılmalıdır.

Vergi tutulan əməliyyatın məbləğinin müəyyən edilməsi zamanı neft məh- sullan və tütün məmulatları üzrə müştəridən alınmalı olan haqqın topdansatış bazar qiymətindən aşağı olub-olmamasına, həmçinin respublikada istehsal olunan digər aksizli mallar üzrə isə mallann miqdanna xüsusi diqqət yetirilməlidir. İdxal olunan malların dəyərinin Gömrük Məcəlləsi ilə müəyyən edilən dəyərlə uyğunlaşdı- rılmasına baxılmalıdır.

4. İstehsal ehtiyaclan üçün alınmış mallar üzrə aksizlərin əvəzləşdirilməsinin qanunamüvafiqliyinə, bu mallardan digər məqsədlər üçün istifadə edilib-edilməməsinə və həmçinin malların "müvəqqəti idxal", yəni təkrar ixrac rejimində olub-olmaması vəziyyətinə xüsusi diqqət yetirilməlidir.

5. Zəruri hallarda aksizli mallar istehsalçısı olan vergi ödəyicilərində nəzarət postlannın qoyulması barədə təklif verilməlidir.

6. Aksiz markalarının hərəkətinin qanunauyğunluğu araşdırılmalı və zəruri halda istehsal sahəsində inventarizasiya aparılmalıdır.

7. İstehsal gücünün və həcminin müəyyənfəşdirilməsi üçün zəruri hallarda mütəxəssis rəyi alınmalı və xronometraj metodu ilə müşahidənin aparılması üçün təklif verilməlidir.

8. Aksizli malların istehsalına lisenziyaların verilməsi məsələsi və istehsal həcminin ayrılmış kvotalara uyğunluğu diqqətlə araşdırılmalıdır.

Aksiz vergisinin vergi ödəyiciləri tərəfindən hesablanmasının düzgünlüyünün audit yoxlaması zamanı vergi müfəttişi aşağıdakı prosedurları həyata keçirməlidir:

- ■4 yoxlama zamanı aksizli məhsullara aksiz dərəcələrinin düzgün tətbiq edilməsinin araşdırılması;
- 4^ səhv hesablanmış aksiz (ƏDV) məbləğlərinə görə maliyyə sanksiyalarının tətbiq olunması;
- 4-əgər satılmış (göndərilmiş) aksizli mallara aksiz tətbiq edilməyibsə, onda topdansatış qiymətilə məhsulun dəyərinin üzərinə aksiz və ümumi məbləğə ƏDV hesablanması;
- 4- aksizli mallara görə daxil olmuş satış pulunun tərkibindəki vergi məbləğinin büdcə ilə hesablaşmalarda əks etdirilməsinin düzgünlüyünün müəyyən edilməsi;
- 4 yoxlanılan dövr ərzində ölkə ərazisində və MDB ölkələrində satılmış aksizli mallara vergi dərəcələrinin güzgün tətbiq edilməsinə diqqət yetirilməsi;
- 4 ay ərzində alıcılar tərəfindən geri qaytarılan mallara görə ödənilmiş vergi məbləğlərinin araşdırılması və bu əməliyyatların mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyünün yoxlanması;
- 4 keçirilmiş yoxlamanın nəticəsini əks etdirən xüsusi müəyyən edilmiş formada cədvəl tərtib edilməsi və onun göstəricilərinə əsasən yoxlama dövrünü əhatə edən bütün aylar üzrə nəticələrin tutuşdurulması;
- 4 keçirilmiş yoxlamanın nəticəsi üzrə tərtib edilmiş cədvəlin vergi müfəttişləri və müəssisənin baş mühasibi tərəfindən imzalanması;
- ' 4 müəssisələr tərəfindən aksizlərin vaxtında və tam ödənilməsinin yoxlanılma sı və şəxsi hesabın məlumatları ilə tutuşdurulması;
- 4 yoxlamanın nəticəsi nəzərə alınmaqla auditin aparıldığı günə qalıq çıxarılması və bu barədə aktda qeyd edilməsi;
- 4 uçot şöbəsi tərəfindən gecikdirilmə ilə ödənilmiş aksiz məbləğlərinə peniya hesablanmışdırsa, yoxlama zamanı peniyanın hesablanması və cədvəlin akta əlavə olunması.

Gömrük orqanlannda tutulan aksizlər dolayı vergitutma sistemində xüsusi yer tutur. Bir qayda olaraq gömrük vergi reqlamentinin normativ təminatı bütün dolayı vergilər kompleksini (ƏDV, aksizlər və rüsumlar) əhatə edir. Bu normativ sənədlər Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə birlikdə Vergilər Nazirliyi tərəfindən işlənib hazırlanır. Aksizlərin tuitulması üzrə bütün normativ sənədlər Maliyyə Nazirliyi ilə razılaşdınlır. MDB üzvü olan dövlətlərin ərazisində istehsal olunan və onun ərazisindən ixrac edilən aksizli mallar üzrə ödənilməli olan aksiz məbləği, həmin malların istehsal olunduğu ölkələrdə ödənilmiş aksiz məbləği qədər azaldılır.

Aksiz məbləğlərinin düzgün hesablanması üçün vergitutulan dövriyyənin müəyyənləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Vergi müfəttişi həm hesablanmanın aparılması üçün baza rolunu oynayan satış qiymətlərinin (maya

dəyərinin) dürüstlüyü, həm də tətbiq olunan hesablama metodunun düzgünlüyü baxımından müəssisənin apardığı hesablamanın dəqiqliyini müəyyən etməlidir. Nəzərə almaq lazımdır ki, müəssisənin aksizli malların istehsalında iştirak dərəcəsindən asılı olaraq vergitutma bazasının hesablanması metodu da dəyişə bilər.

Qeyd etmək lazımdır ki, vergitutulan dövriyyə bir neçə üsulla müəyyənləşdirilir. Onlardan bir neçəsini nəzərdən keçirək:

1. Aksizli malların faktiki maya dəyəri, mənfəət və aksizlərin də daxil olduğu buraxılış qiymətləri üzrə - bu halda aşağıdakı hesablaşma sxemi tətbiq olunur:

$$VD = (S + M) *100/100-Ad$$

burada, VD - vergitutulan dövriyyə;
S - maya dəyəri (aksizli malın);
M - mənfəət;
Ad - aksiz dərəcəsidir.
Bu zaman aksiz aşağıdakı formula üzrə müəyyən edilir:

$$A = VD*Ad /100;$$

2. Əgər aksizli mallar aksiz vergisinə cəlb olunmayan digər məhsulların hazırlanması üçün istifadə olunursa, onda vergitutulan dövriyyə aksizlər də nəzərə alınmaqla faktiki maya dəyərinə əsasən aşağıdakı sxem üzrə hesablanır:

$$VD = M*100/100-Ad;$$

3. Sifarişçinin verdiyi xammaldan aksizli məhsul hazırlanarkən vergitutulan dövriyyənin müəyyən edilməsi üçün, verilən xammaldan hazırlanan məhsulun yüklədiyi ana qədər olan 10 gün ərzindəki analoji aksizli malın maksimal buraxılış qiyməti tətbiq olunur. Əgər alınmış xammal üzrə aksiz vergisi ödənilmişsə, onda əvəzləşdirməni aparmış vergi orqanının qeydiyatı olan ödəniş sənədinin olib-olmamasına fikir vermək lazımdır.

Əhalinin sifarişi ilə onların verdiyi xammaldan məmulat hazırlanarkən, vergitutulan dövriyyə sifarişçinin verdiyi materiallann dəyprinə (sifarişçi tərəfindən müstəqil müəyyən edilmiş və sifarişin qəbulu haqda qəbzdə göstərilmiş), eləcə də hazır məmulatın dəyərinə əsasən aşağıdakı düstur üzrə müəyyən edilir:

$$VD = MQ + MD / 100-Ad;$$

Burada, Mq - materialların qiymətləndirilmiş məbləği;
MD - hazır məmulatın dəyəri (sifarişçi yerinə yetirən müəssisənin istehsal xərcləri və mənfəəti).

Aksizlər üzrə hesablamaların düzgünlüyü yoxlanarkən öz istehsalı olan aksizli mallarla əmək haqqının natura şəklində ödənilməsinə, aksizli mallarla maldəyişmə

(barter) əməliyyatlarına, eləcə də onların bazar qiynıotlərindən aşağı verilməsinə (satışına) xüsusi diqqət yetirmək lazımdır. Sözügedən bütün hallarda, vergitutulan dövriyyə bu və ya analoji məhsulların mövcud bazar qiymətinə əsasən hesablanmalıdır.

Vergi müfəttişi yoxlamanın gedişatı zamanı yenidənhesablama üsulundan istifadə etməklə seçmə yolu ilə aksizlərin hesablanmasının düzgünlüyünü yoxlayır. Miqdar, kütlə və həcm vahidinə görə aksiz dərəcəsi manatla müəyyən edilmiş mallar üzrə aksiz məbləği aşağıdakı düstur üzrə hesablanılır:

$$Am = Ad \times O \qquad (1)$$

burada, An,-' aksiz məbləği, man.;
Ad - aksiz dərəcəsi, man.;
O - natural ifadədə vergitutma obyekti.

Məhsulun dəyərinə görə aksiz dərəcəsi müəyyən edildiyi hallarda, aksiz məbləği aşağıdakı düstur üzrə hesablanılır:

$$Am = O \; X \; Ad/100 \; \% \qquad (2)$$

burada, An, - aksiz məbləği, man.;
O - natural ifadədə vergitutma obyekti.
Ad - aksiz dərəcəsi, man.

Praktikada auditorlara aksizlərin də daxil olduğu yalnız malların satış qiyməti məlum olur. Bu halda büdcəyə ödəniləcək aksiz vergisinin məbləği aşağıdakı düstur üzrə müəyyən etmək olar:

$$M = S q * A_{„}/(100\% + Ad) \qquad (3)$$

burada, Sq-aksizlə birgə satış qiyməti (ƏDV xaric);
An, - aksiz məbləği, man.;
Ad - aksiz dərəcəsi, man.

Auditor yoxlama zamanı yalnız aksizlərin hesablanmasının düzgünlüyünü deyil, həmçinin aksizli malların istehsalı üçün istifadə olunan xammal üzrə *aksiz məbləğinin büdcədən əvəzləşdirilməsi üçün bütün şərtlərə riayət olunub-olunmamasını yoxlamalıdır.* Vergi qanunvericiliyinə uyğun olaraq əvəzləşdirilmə o halda aparılır ki, bütün hesablaşma sənədlərində (ödəniş tapşırıqlannda, ödəniş tələbna-mə-tapşınqlarmda, əmtəə-nəqliyyat qaimələrində, kassa məxaric orderlərində və s.) aksiz məbləği aynca sətrdə göstərilmiş olsun və bütün hesablaşma sənədlərində he-sab-fakturalann nömrəsi göstərilməlidir.

Vergi Məcəlləsinə uyğun olaraq aksiz məbləği yalnız xammal və materialların istehsalçılan tərəfindən hesab-fakturalarm, aksizli mallann idxalı zamanı isə müvafiq sənədlər (gömrük bəyannaməsi) vergi orqanlarına təqdim edildikdən sonra əvəzləşdirilir və ya geri qaytarılır. Tutulmuş aksiz məbləği sənədlər vergi orqanlarına təqdim edildikdən sonra 45 gün ərzində vergi ödəyicisinə qaytarılır.

Sonradan reeksport edilmək məqsədilə ölkə ərazisinə gətirilmiş mallara görə ödənilən aksiz vergisi, sonradan faktiki reeksportun (vergidən azad olunan idxal

mallarından başqa) həcminə müvafiq ölçüdə həmin vergini tutan gömrük orqanları tərəfindən 15 gün ərzində geri qaytarılır.

Aksizlərin əvəzləşdirilməsinin ikinci şərti xammal və ondan istehsal olunmuş aksizli mallara vergitutma obyektlərinin ölçülməsi üçün eyni ölçü vahidinin olmasıdır. Əgər xammal və mallara görə müxtəlif ölçü vahidləri müəyyən edilərsə, onda həmin qiymətlilər üzrə ödənilmiş aksiz məbləği hazır aksizli malların maya dəyərinə daxil edilməlidir.

Hazır məhsullara görə hesablanmış aksiz məbləğindən, təbii itki kimi (norma həddində) dəyəri məhsulun maya dəyərinə daxil edilən xammal üzrə ödənilmiş ak- siz məbləğini çıxmaq olar. Belə ki, vergitutulan aksizli malların istehsalı üçün istifadə edilən xammal və materiallar əldə edən şəxslər, bu qiymətlilər üzrə onların dəyəri ilə birlikdə malsatanlara ödədikləri aksiz məbləğini əvəzləşdirmək və ya geri almaq hüququna malikdir.

Qeyri-aksiz mallarının istehsalı üçün istifadə olunmuş aksizli məhsullar üzrə ödənilmiş aksiz məbləği həmin mallann maya dəyərinə daxil edilir.

Aksizli mallann satılması faktını təsdiq edən ilkin sənədlərin yoxlanmasına başlanarkən, auditor müəssisənin uçot siyasətinə uyğun olaraq məhsulun satılması vaxtının müəyyən edilməsinin hansı metodunun ("yüklənmə üzrə" və ya hesablama, "ödəmə üzrə" və ya kassa) tətbiq olunduğunu və ona nə dərəcədə riayət olunduğunu müəy>'ənləşdirməlidir.

Auditin gedişatı zamanı satılmış aksizli mallara görə alıcılardan daxil olmuş vəsaitlərin tərkibində vergi məbləğinin və onun büdcə ilə hesablaşmalarda əks etdirilməsinin düzgünlüyünə diqqət yetirilməlidir. Yoxlama zamanı hesabatda göstərilmiş aksizli malların satışı üzrə dövriyyənin və aksizlərin öSJfsli "Büdcə ilə hesablaşmalar" hesabının "Aksizlər üzrə hesablaşmalar" subhesabında əks etdirilməsinin, eləcə də büdcəyə aksiz məbləğlərinin vaxtında hesablanmasının düzgünlüyü müəyyən edilir.

Hesablaşma sənədləri alıcılar tərəfindən ödənildikdən sonra aksizli malların geri qaytarılması faktlan xüsusilə diqqətlə nəzərdən keçirilməlidir. Nəzərə almaq lazımdır ki, həmin mallar üzrə ödənilmiş aksiz məblığı malların faktiki qaytarıldığı hesabat dövründə büdcəyə ödəniləcək vergi məbləğindən çıxılır. Əvəzləşdirmənin aparılması üçün əsas şərt odur ki, 46 JSali "Məhsulların satışı" hesabının dövriyyələri üzrə müvafiq düzəlişlər edilsin və verginin büdcəyə daxil olduğu gündən bir il keçməsin (təminat verilmiş və həmin müddət ərzində istehlakçılar tərəfindən geri qaytarılmış mallardan başqa). ^

Aksiz məbləğlərinin büdcəyə vaxtında ödənilməsini yoxlayarkən yadda saxlamaq lazımdır ki, faktiki dövriyyədən vergi məbləği hesabat ayından sonrakı ayın 20-dən gcc olmayaraq ödənilməlidir. Əgər vergilər müəyyən olunmuş vaxtda ödənilməzsə, onda verginin qanunla müəyyən edilmiş ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən və ya vergi agentindən ödənilməmiş vergi və ya cari vergi ödəməsi məbləğinin 0,1 faizi məbləğində faiz tutulur.

Əgər vergi ödəyicisinin aksizlərin ödənişi üzrə borcu varsa, onda həmin borcun yarandığı dövrdən ödənildiyi ana kimi olan müddət ərzində həyata keçirilmiş vergitutulan əməliyyatlar üzrə aksiz vergisi bu əməliyyatların aparıldığı müddətlər

də ödənilir. Bu zaman vergi ödəyicisi həmin əməliyyatlar üzrə aksizləri ödəməyənədək malları istehsal binasının hüdudlarından kənara buraxa bilməz.

Azərbaycan Respublikasında aksiz vergisi tutulan mallara aksiz markası tətbiq edilir. Aksizli malları markasız idxal etmək, saxlamaq (şəxsi məqsədlər üçün istifadə etmək üçün istisna olmaqla) və satmaq qadağandır. Əks halda həmin mallar dövlətin xeyrinə müsadirə edilir. Müsadirə edilmiş aksiz markası olmayan malların satışı Vergi Məcəlləsində müəyyən edilmiş qaydada həyata keçirilir.

Aksizli mallar üzərində vergi nəzarətinin həyata keçirilməsi və aksizlər ödəmədən aksizli malların istehsal binasının hüdudlarından kənara çixanimasının qarşısının alınmasının təmin edilməsi məqsədilə vergi orqanları tərəfindən markalanmalı olan aksizli mallar istehsal edən vergi ödəyic ilərin in müvafiq binalarında (anbarlarında) nəzarət postları yaradılır, ölçü cihazları quraşdınlır, plomblar vurulur və digər tədbirlər görülür. Vergi orqanları həmin tədbirləri həyata keçirməklə aksizli malların uçota alınmadan, markalanmadan və aksizləri ödəmədən istehsal binasının hüdudlarından kənara çixanimasının qarşısının alınmasını təmin etmiş olurlar.

Nəzarət postlan müvafiq icra hakimiyyəti orqanının qəranna əsasən telefon və digər zəruri avadanlıqla təchiz edilməklə markalanmalı olan aksizli mallan istehsal edən vergi ödəyicilərinin istehsal sahələrinin əsas giriş və çıxış qapısının yaxınlığında yaradılır.

Nəzarət postları yaradıldıqda markalanmalı olan aksizli malları istehsal edən və vergi ödəyicilərinin texnoloji avadanlıqlarının, ölçü vəsaitlərinin və laboratoriya cihazlarının texniki sazlığının, standartlara uyğunluğunun yoxlanması və həmin cihazların plomblanması müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

Nəzarət postlarının işçiləri aksiz markalarının qalıqlarını inventarizasiya etməklə, istehsal həcmi üzrə nəz.arət-ölçü cihazlarını, xammal, material və hazır məhsul anbarlarını, istehsal sahələrindəki texnoloji avadanlıqları plomblamaqla, eləcə də hazır məhsul satılarkən malların ilkin təsdiqedici sənədlərinə (qaiməsinə, mal-nəqliyyat qaiməsinə, vergi hesab-fakturasına və s.) baxış keçirməklə markalan- malı olan mallann markalanmaqla istehsal sahələrindən kənara çıxanimasına, hazır məhsulun anbara və oradan alıcılara buraxılmasına, markalanmn yapışdın İması qaydalarına riayət olunmasına nəzarət edirlər.

İstehsal həcmi üzrə nəzarət-ölçü cihazlarının, xammal, material və hazır məhsul anbarlannm, istehsal sahələrindəki texnoloji avadanlıqlann plomblanması nəzarət postlannm işçiləri tərəfindən istehsalçının nümayəndəsi ilə birlikdə vergi orqanının təsdiq etdiyi forma üzrə kitabda müvafiq qeydlər, o cümlədən istehsal həcmi üzrə nəzarət-ölçü cihazlannın göstəriciləri barədə qeydlər aparmaqla, iş gününün sonunda, növbələrarası fasilədə, həmçinin lisenziyaların qüvvədə olma müddətinin dayandınıması və ya onların ləğv edilməsi, hazır məhsulun markalanması üçün aksiz markalarının, istehsal üçün xammalın, yardımçı və qablaşdıncı materi- allann olmaması, habelə teniki səbəblərdən avadanlığın daha uzun müddət dayanması zamanı həyata keçirilir.

Avadanlığın dayandınıması zamanı istehsal güclərinin qapanmasi istehsal üzrə texnoloji xərclərin və avadanlığın elə yerlərdə plomblanması vasitəsilə həyata keçirilməlidir ki, onların istifadə olunması mümkün olmasın.

Plomblann vurulması və çıxarılması nəzarət postunun işçiləri və istehsalçının nümayəndəsinihn iştirakı ilə müvafiq aktla rəsmiləşdirilir.

Nəzarət postlarının işçiləri iş başladığı vaxtda postlarda olmadıqda istehsalçı müəssisənin məsul şəxsləri tərəfindən vergi orqanına məlumat verilməklə, səbəbi və vaxtı göstərilməklə müvagiq akt tərtib edilərək plomblar açıla bilər.

Nəzarət postlarının işçiləri satışa buraxılan hazır məhsullann sənədlərdə göstərilən say, həcm və çəkisinin onlann faktiki say, həcm və çəkisi ilə düzgünlüyünü yoxlamalı və sənədlərdəki göstəriciləri xüsusi jurnalda qeyd etməlidirlər. Bundan sonra nəzarət postlanmn işçiləri malların ilkin təsdiq edici sənədlərində (qaimə, mal-nəqliyyat qaiməsi, vergi-hesab fakturası və s.) "Buraxılışa icazə veriliri' qeydini aparmalıdırlar.

Plomblann vurulması və çıxarılması arasındakı müddət ərzində nəzarət-ölçü cihazlarının göstəricilərində dəyişikliklər edildikdə, texnoloji avadanlıqlardakı plomblar zədələndikdə və istehsal olunmuş məhsulların aksİz markası ilə marka- lanmasında, tam uçota alınmasında, aksiz markalarının inventarizasiyasında kənarlaşma aşkar edildikdə, eləcə də Vergi Məcəlləsinin 191.2-ci maddəsinin tələblərini pozmaqla hazır məhsulun istehsal sahəsindən kənara çıxanlması müəyyən edildikdə, nəzarət postunun işçiləri müvafiq akt tərtib etməli və bu barədə vergi orqanına dərhal məlumat verməlidirlər.

Aksizlər üzrə audit yoxlamasının nəticələri vergi orqanının yoxlamanı aparan məsul şəxsi (şəxsləri) tərəfindən tətib edilmiş müvafiq formalı vergi yoxlaması aktı ilə rəsmiləşdirilir.

4.15, Əmlak vergisinin yoxlanması

"Əmlak vergisinin yoxlanılması" üzrə sənəd kodu YV-038 olan yönləndirici vərəqə tətbiq edilməli və aşağıdakı məsələlər yoxlama ilə əhatə olunmalıdır.

Hesablanmış vergi məbləği mühasibat ucolundakı (baş kitabdakı) yazılışla üzləşdirilməlidir. Bu zaman iri məbləğdə edilmiş düzəlişlərə və dəqiqləşdirilmiş dövriyyələrə xüsusi fikir verilməlidir. Əvvəlki yoxlama aktına baxılmalı və edilmiş düzəlişlərə diqqət yetirilməlidir.

Əmlak ver^psinin hesablanmasmın düzgün müəyyən olunması məqsədilə vergi ödə- yicilərinin balansında olan veıgiyə cəlb olunan əsas vəsaitlərin orta illik qalıq dəyəri düzgün müəyyən edilməli və verginin hesablanması zamanı verilən güzəşt və veı^idən azad- olmalann əsas vəsaitlərin kateqoriyalan üzrə düzgün aid edilməsinə diqqət yetirilməlidir.

Əvvəlki yoxlama aktına baxmaqla əvvəlki yoxlama ilə əsas vəsaitlərin qalıq dəyərinə düzəlişlər verilməsi təkliflərinin olub-olmamasına baxılmalıdır. Əvvəlki illərdə əmlak vergisi ödəyicisi olmayan, yeni yaradılan, birləşən, qoşulan və ya ləğv olunan vergi ödəyicilərində əmlak vergisinin hesablanması qaydasına xüsusi diqqət yetirilməlidir.

Vergi ilində təhvil götürülmüş əsas vəsaitlərin (obyektlərin, tikililərin və.s) müvafiq mühasibat hesabatlarında və balansda düzgün əks etdirilməsinə diqqət yetirilməlidir (yəni 08 hesab üzrə "kapital qoyuluşları" yığılmış məsrəflərin əsas vəsaitlərin istismara buraxıldığı andan 01 hesabın debetində əks etdirilməsi). Eyni za-

manda təmir xərclərinin normadan artıq hissəsinid əsas vəsaitlərin dəyərinə əlavə olunmasının düzgünlüyünə baxılmalıdır.

Əsas vəsaitlərin mövcudluğunun yoxlanılması üçün zəruri hallarda baxış keçirilməlidir.

Zəruri hallarda mülkiyyətdə olan əmlakının dəyərinin bazar qiymətlərinə uyğunluğunun müəyyənləşdirməsi üçün mütəxəssis rəyi alınmalıdır.

4.16. Torpaq vergisinin yoxlanması

"Torpaq vergisinin yoxlanılması" üzrə sənəd kodu YV-040 olan yönləndirici vərəqə tətbiq edilməli və aşağıdakı məsələlər yoxlama ilə əhatə olunmalıdır;

Hesablanmış vergi məbləği mühasibat ucotundakı (baş kitabdakı) yazılışla üzləşdirilməiidir. Bu zaman iri məbləğdə edilmiş düzəlişlərə və dəqiqləşdirilmiş dövriyyələrə xüsusi fikir verilməlidir. Əvvəlki yoxlama aktına baxılmalı və edilmiş düzəlişlərə diqqət yetirilməlidir.

Mülkiyyətində olan torpaq sahələrinin və müqavilə ilə icarəyə götürülmüş torpaq sahələrinin həcmi bəyannamənin Əlavə >f**2**İ-də və Əlavə >T22-də olan məlumatlarla uzlaşdırılmalıdır.

Torpaq sahələrinin əvvəlki dövrlərə nisbətən artıb-azalmasına diqqət yetirilməlidir.

Vergi ödəyicisinin mülkiyyətində və ya istifadəsində olan faktiki torpaq sahələri vergitutma məqsədləri üçün torpaq qeydiyyat şəhadətnamələri ilə uzlaşdırılmalıdır.

Vergi ödəyicisinin fəaliyyətinə əsasən mülkiyyətində və ya istifadəsində olan torpaq sahələrinə vergi güzəştinin tətbiq edilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Zəruri hallarda ərazilərə baxış keçirilməli və torpaq sahəsinin təyinatı üzrə istifadə edilməsi müəyyənləşdirilməlidir.Bu zaman müvafiq qurumlara və ya mütəxəssislərə müraciət edilməlidir.

4.17. Yol vergisinin yoxlanması

"Yol vergisinin yoxlanılması" üzrə sənəd kodu YV-043 olan yönləndirici vərəqə tətbiq edilməli və aşağıdakı məsələlər yoxlama ilə əhatə olunmalıdır;

Hesablanmış vergi məbləği mühasibat ucotundakı (baş kitabdakı) yazılışla üzləşdirilməiidir. Bu zaman iri məbləğdə edilmiş düzəlişlərə və dəqiqləşdirilmiş dövriyyələrə xüsusi fikir verilməlidir. Əvvəlki yoxlama aktına baxılmalı və edilmiş düzəlişlərə diqqət yetirilməlidir.

Nəqliyyat vasitələrinin əvvəlki dövrlərə nisbətən artıb-azalmasına diqqət yetirilməlidir (yeni alınmış nəqliyyat vasitələrinin vergiyə cəlb edilməsi araşdınlmahdır).

Əsas vəsaitlərin siyahısında olan nəqliyyat vasitələri bəyannamənin Əlavə JV**2**İ-da olan siyahı ilə üzləşdirilməiidir (zəruri hallarda baxış keçirilməlidir).

Vergi ödəyicisinin mülkiyyətində və ya istifadəsində olan nəqliyyat vasitələrinin vergitutma məqsədləri üçün texniki göstəriciləri qeydiyyat şəhadətnamələri ilə uzlaşdınimalıdır.

Vergi ödəyicisinin fəaliyyətinə əsasən mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələrinin kənd təsərrüfatı texnikasına aid olub-olmaması və büdcə təşkilatlarında vergi güzəştinin tətbiq edilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Bəyannamədəki vergi məbləğinin Vergi Məcəlləsinin 221.2-ci maddəsinə əsasən düzgün hesablanması yoxlanılmalıdır.

Zərurət yarandıqda Daxili İşlər Nazirliyinin müvafiq qurumuna sorğu edilməlidir.

4.18. Sadələşdirilmiş verginin yoxlanması

Sadələşdirilmiş vergitutma sisteminin tətbiq edilməsində əsas məqsəd, ilk növbədə kiçik sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər üçün vergilərin hesablanması, bununla əlaqədar mühasibat uçotunun aparılması və müvafiq olaraq vergilərin hesablanıb tam və vaxtmda büdcəyə ödənilməsi üzərində dövlət nəzarətinin həyata keçirilməsi prosedurunu mümkün qədər sadələşdirmək və kiçik biznesin inkişafı üçün lazımı şərait yaratmaqdır. Çünki kiçik sahibkarlıqla məşğul olan vergi ödəyicilərinin iri şirkətlərdə olduğu kimi mühasibat və vergi uçotunun aparılmasını təşkil etmək imkanı yoxdur.

"Sadələşdirilmiş verginin yoxlanılması üzrə" *səmd kodu YV-035* olan yönləndirici vərəqə tətbiq edilməli və aşağıdakı məsələlər yoxlama ilə əhatə olunmalıdır.

Yoxlamaya başlarkən auditor ilk növbədə *vergi ödəyicisinin stasusunu* və fəaliyyət növünü müəyyənləşdirməlidir. Çünki mövcud vergi qanunvericiliyinə uyğun olaraq yalnız aşağıda göstərilən şəxslər sadələşdirilmiş verginin ödəyiciləri ola bilər:

Əlavə dəyər vergisinin ödəyicisi kimi qeydiyyatdan keçən və qeydiyyatdan keçməli olan şəxslər ƏDV-nin ödəyicilərıdir. Qeydiyyatdan keçən şəxs qeydiyyatın qüvvəyə mindiyi andan vergi ödəyicisi statusu alır. Qeydiyyata dair ərizə verməli olan, lakin qeydiyyatdan keçməmiş şəxslər isə qeydiyyata dair ərizə vermək öhdəliyinin yarandığı dövrdən sonrakı hesabat ayınm əvvəlindən etibarən vergi ödəyicisi sayılır. Bundan başqa, aşağıda göstərilənlər ƏDV ödəyiciləri sayılır:

- Azərbaycan Respublikasına ƏDV tutulan malları idxal edən şəxslər (idxal malları üzrə);
- ƏDV məqsədləri üçün qeydiyyatdan keçmədən iş görən və ya xidmət göstərən qeyri-rezident şəxslər;
- hüquqi şəxs yaratmadan birgə sahibkarlıq fəaliyyət göstərən fiziki şəxslər;
- aksizli malların istehsalçıları;
- mənzil tikintisi fəaliy>'əti ilə məşğul olan şəxslər (mülkiyyətində və ya icarəsində olan, habelə məqsədli şəkildə ayrılan ərazidə (torpaq sahəsində) özünəməxsus və ya cəlb edilən vəsait hesabına əhalinin fərdi (şəxsi) ehtiyaclarını ödəmək və ya kommersiya məqsədləri üçün öz gücü ilə və yaxud müvafiq ixtisaslı peşəkar sifarişçi və ya podratçı cəlb etməklə bina tikdirən, habelə bu tikintinin və ya başa çatmış obyektin mülkiyyətçisi olan hüquqi və ya fiziki şəxslər);
- ƏDV məqsədləri üçün qeydiy>'ata alınmamış sahibkarlıq fəaliyyəti göstərən və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliy

yatlarının həcmi 120.000 manatdan artıq olan şəxslər (sərnişin və yük daşımalarını həyata keçirən şəxslər istisna olmaqla).

Eyni zamanda, fəaliyyət növləri müəyyənləşdirilərkən aksizli mallar istehsalı, kredit və sığorta, investisiya fondları, qiymətli kağızlar bazannın peşəkar iştirakçıları, lombard, qeyri-dövlət pensiya fondları, əmlakın icarəyə verilməsi, royaltidən gəlir əldə edilməsi fəaliyyətlərinə və mülkiyyətində olan əsas vəsaitlərin ilin əvvəlinə (istisnalar nəzərə alınmaqla) qalıq dəyəri 1000000 manatdan artıq olan ödəyi- cilərə xüsusi diqqət verilməlidir. Belə ki, bu fəaliyyət növü ilə məşğul olan müəssisə və təşkilatlar sadələşdirilmiş verginin ödəyiciləri ola bilməz.

Bundan sonra vergi müfəttişi hər bir vergi ödəyicisi kateqoyiyası tərəfindən sadələşdirilmiş verginin *vergitutma obyektinin düzgün müəyyən edilib-edilmədiyini yoxlamalıdır*. Mövcud vergi qanunvericiliyinə əsasən hər bir vergi ödəyicisi üçün müvafiq vergitutma obyekti müəyyən edilmişdir.

Hesabat dövri ərzində vergi ödəyicisi tərəfindən və əmlaka görə əldə edilmiş ümumi hasilatın, habelə satışdankənar gəlirlərin həcmi vergitutma obyektidir.

Mülkiyyətində (istifadəsində) olan avtonəqliyyat vasitələri ilə (o cümlədən taksi ilə) Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalanm (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) həyata keçirən vergi ödəyicilərinin mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri vergitutma obyektidir.

Mənzil tikintisi fəaliyyətini həyata keçirən şəxslər üçün zirzəmilər, mərtəbələr və çardaqlar daxil olmaqla, tikilən binanın ümumi sahəsi (dövlətə aynlan hissə, dövlət büdcəsi, büdcədənkənar fondlar, dövlət zəmanəti və dövlətə ayrılan yardımlar hesabına tikilən yaşayış sahəsi, başqa tikintilərlə təmasda olmayan ayrıca tikilən fərdi və ya şəxsi yaşayış və ya bağ evlərinin, yaxud tikililərinin sahəsi istisna olmaqla) vergitutma obyektidir.

Sadələşdirilmiş vergini ödəyən (avtonəqliyyat vasitələri sərnişin və yük daşı-malannı həyata keçirən şəxslər şəxslər istisna olmaqla) hüquqi şəxslər ƏDV-nin, mənfəət vergisinin və əmlak vergisinin, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər bu fəaliyyət üzrə gəlir vergisinin və ƏDV-nin ödəyicisi deyildirlər.

Mənzil tikintisi fəaliyyəti ilə məşğul olan sadələşdirilmiş vergi ödəyicisi olan hüquqi şəxslər mənfəət vergisinin və əmlak vergisinin, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər bu fəaliyyət üzrə gəlir vergisinin ödəyicisi deyildirlər.

Sonrakı mərhələdə yoxlayıcı tərəfindən vergi ödəyicisinin *vergi tutulan əməliyyatlarının həcmi* müəyyənləşdirilməlidir. Hesablanmış rüblük vergi məbləği mühasibat ucotundakı (baş kitabdakı) yazılışla üzləşdirilməlidir. Bu zaman iri məbləğdə edilmiş düzəlişlərə və dəqiqləşdirilmiş dövriyyələrə xüsusi fikir verilməlidir. Əvvəlki yoxlama aktına baxılmalı və edilmiş düzəlişlərə diqqət yetirilməlidir.

Bu zaman ƏDV öhdəliyinin yaranması məsələsinə diqqət yetirilməlidir. Belə ki, əgər sahibkarlıq fəaliyyəti göstərən və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarmda) vergi tutulan əməliyyatlarının həcmi 120.000 manatdan artıq olan şəxslər (sərnişin və yük daşımalarını həyata keçirən şəxslər istisna olmaqla), eləcə də Azərbaycan Respublikasındakı daimi nümayəndəlik vasitəsilə mallar göndərən, iş

lər görən və xidmətlər göstərən qeyri-rezidentlər, sadələşdirilmiş vergi ödəyicisini itirmiş hesab olunur və həmin dövr başa çatdıqdan sonra 10 gün ərzində vergi or- qanına ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludurlar.

Vergi ödəyicisi tərəfindən vergi məbləğinin hesablanması zamanı yük və sərnişin daşıma, mənzil tikintisi fəaliyyəti ilə məşğul olan ödəyicilərin *mövcud əmsalları tətbiq etməsinin düzgünlüyünə* xüsusi diqqət yetirilməlidir.

Yük və sərnişin daşınmasının növündən və həyata keçirildiyi ərazidən asılı olaraq, sərnişin və yük daşıyan vergi ödəyiciləri üçün sadələşdirilmiş məbləğinə aşağıdakı əmsallar tətbiq edilməklə müəyyən edilir:

- Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) və Bakı şəhəri ilə ölkənin digər yaşayış məntəqələri arasında - 2,0;
- Abşeron rayonu, Sumqayıt, Gəncə şəhərlərində və həmin rayon və şəhərlərlə digər yaşayış məntəqələri arasında - 1,5;
- digər şəhər və rayonlarda və həmin şəhər və rayonlarla digər yaşayış məntəqələri arasında - 1,0.

Avtomobil nəqliyyatı vasitələrində (taksi istisna olmaqla) oturacaq yerlərinin sayı və ya yük götürmə qabiliyyəti avtomobil nəqliyyatı vasitələrinin qeydiyyat şəhadətnaməsinə əsasən müəyyən edilir.

Avtomobil nəqliyyat vasitələrindəki (taksi istisna olmaqla) oturacaq yerlərinin sayı və ya yükgötürmə qabiliyyəti avtomobil nəqliyyatı vasitələrinin qeydiyyat şəhadətnaməsində göstərilmədikdə həmin göstəricilər müvafiq icra hakimiyyəti orqanı tərəfindən vergi orqanlarma verilmiş arayışlar əsasında müəyyən edilir. Oturacaq yerlərinin saymı avtomobil nəqliyyat vasitələrinin qeydiyyat şəhadətnaməsi və ya Daxili İşlər Nazirliyi tərəfindən verilmiş arayışlar əsasmda müəyyən etmək mümkün olmadıqda, sadələşdirilmiş verginin məbləği yerlərin faktiki sayına görə müəyyən edilir.

Mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən sadələşdirilmiş vergi vergitutma obyektinin hər kvadrat metri üçün 10 manat məbləğinə ölkənin şəhər və rayonlarının ərazilərinin zonalar üzrə Nazirlər Kabinetinin müəyyən etdiyi əmsallar tətbiq edilməklə hesablanır.

Yoxlamanın gedişatı zamanı *vergi ödəyicisinin xüsusi razılıq tələb edilən fəaliyyət növləri ilə məşğul olub-olmaması müəyyənləşdirilməlidir.* Zəruri hallarda xronometraj metodu ilə müşahidənin aparılmasına təklif verilməlidir.

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalannı həyata keçirən şəxslər hər bir avtomobil nəqliyyatı vasitəsi üçün müvafiq icra hakimiyyəti orqanından təqvim ayının sonunadək öz istəklərinə uyğun olaraq növbəti ay, rüb, yarım il və ya il üçün ciddi hesabat blankı olan «Fərqlənmə nişanı» almalıdırlar.

Auditor zəruri hallarda baxış keçirilməli, ödəyicinin idxal-ixrac əməliyyatlarına diqqət yetirməlidir.

Vergi ödəyicisinin vergi tutulan əməliyyatlarının dəqiqləşdirilməsi üçün bağlanmış müqavilələr üzrə qiymətlərin bazar qiymətlərinə və müvafiq icra hakimiyyəti orqanmın təsdiq etdiyi qiymətlərə uyğunluğu araşdınimalıdır.

Əgər vergi ödəyicisinin vergi tutulan əməliyyatları müxtəlif vergi dərəcələri ilə vergiyə cəlb edilmişdirsə apanlmış uçot araşdınimalıdır.

Mənzil tikintisi fəaliyyətini həyata keçirən şəxslərdə ƏDV-nin, mənfəət vergisinin və əmlak vergisinin hesablanıb-hesablanmaması yoxlanılmalıdır. Mənzil tikintisi fəaliyyəti göstərən vergi ödəyicisinin təməlqoyma işlərinə başlamasının, təməlqoyma sahəsinin və faktiki tikinti həcminin düzgünlüyünün müəyyən edilməsi zamanı zəruri hallarda mütəxəssis rəyindən istifadə edilməlidir. Bu zaman digər dövlət orqanlanndan alınmış razılıq sənədlərinə baxılmalı və azadolmalara diqqət yetirilməlidir.

Daşımalarda sadələşdirilmiş vergi yoxlanılarkən fərqlənmə nişanlarının alınması qaydalarının düzgünlüyü yoxlanılmalı, vergilərin hesablanması zamanı faktiki texniki göstəricilər ilkin sənədlərlə üzləşdirilməlidir.

((Fərqlənmə nişam» vergi ödəyicisinin ərizəsinə əsasən iki iş günündən gec olmayaraq verilir. «Fərqlənmə nişanı» almaq üçün vergi ödəyicisinin ərizəsinə həmin fəaliyyət üçün sadələşdirilmiş verginin ödənilməsini təsdiq edən bank ödəniş sənədi əlavə edilməlidir. Bank ödəniş sənədində avtomobil nəqliyyatı vasitəsinin dövlət qeydiyyat nişanının seriya və nömrəsi aydın göstərilməlidir.

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər hesablanmış vergini tam məbləğdə dövlət büdcəsinə ödədikdən sonra onlara «Fərqlənmə nişanı» verilir. Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər tərəfindən ödənilmiş vergi onların həmin ayda fəaliyyət göstərib-göstərməməsindən asılı olmayaraq geri qaytarılmır və növbəti ayın vergiləri ilə əvəzləşdirilmir.

Avtonəqliyyat vasitəsinin sahibi və ya istifadəçisi dəyişdikdə, həmin nəqliyyat vasitəsinə sonrakı aylar üçün əvvəlki sahib və ya istifadəçi tərəfindən qabaqcadan ödənilmiş vergilər nəzərə alınır və verginin ödənildiyini təsdiq edən «Fərqlən- mə nişanı»nın yenidən rəsmiləşdirilməsi tələb olunmur.

4.19. Mədən vergisinin yoxlanması

"Mədən vergisinin yoxlanılması" üzrə sənəd kodu YV-041 olan yönləndirici vərəqə tətbiq edilməli və aşağıdakı məsələlər yoxlama ilə əhatə olunmalıdır.

Hesablanmış aylıq vergi məbləği mühasibat ucotundakı (baş kitabdakı) yazılışla üzləşdirilməlidir. Bu zaman iri məbləğdə edilmiş düzəlişlərə və dəqiqləşdirilmiş dövriyyələrə xüsusi fikir verilməlidir.

Əvvəlki yoxlama aktına baxılmalı və edilmiş düzəlişlərə diqqət yetirilməlidir.

Vergi Məcəlləsinin müddəalarına əsasən vergitutma obyektinin düzgün müəyyən edilməsinə diqqət yetirilməlidir (yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisini müə>7ən etməklə ayrıca yoxlamaq).

Faydalı qazıntıların növündən asılı olaraq topdansatış qiymətlərinin müəyyən edilməsinə baxılmalıdır. Bu zaman bazar qiymətləri, birja katirovkaları və rəsmi mənbələrin məlumatlarından istifadə etmək məqsədə müvafiqdir.

Xam neft və qazın hasilatı zamanı texnoloji prosesslə əlaqədar quyuya geri vurulan neftin və qazın normativlərə uyğunluğu araşdırılmalıdır (zəruri hallarda mütəxəssis dəvət edilməldir).

Yerin təkindən faydalı qazıntılar çıxarılması ilə məşğul olan vergi ödəyicilərinin mülkiyyətində olan torpaq sahəsinin həmin ərazidə hasilat göstəricilərinə uyğunlaşdınlması və istehsalat həcminin müəyyən edilməsində mütəxəssis rəyinin alınması məsələsinə diqqət yetirilməlidir(zəruri hallarda əraziyə baxış keçirilməlidir).

Çıxarılan faydalı qazıntıların xammal və material kimi öz tələbatı üçün istifadə edildiyi hallarda hasilata çəkilən xərclər nəzərə alınmaqla həmin qazıntının maya dəyərinə aid edilmiş qiyməti verginin hesablanmasında düzgün müəyyən edilməlidir.

Xüsusi razılıq tələb olunan fəaliyyət növü ilə məşğul olub-olmaması müəyyənləşdirilməlidir.

Zəruri hallarda xronometraj metodu ilə müşahidənin keçirilməsi barədə təklif edilməlidir.

İstifadə olunmuş ədəbiyyatların siyahısı

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. 2014.
2. Kəlbiyev Y.A. Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi lemləri. Monoqrafiya. B.:, "Elm" 2005, - 468 s.
3. Məmmədov F.Ə., Musayev A.F., Sadıqov M.M., Kəlbiyev. Y. A. lər və vergitutma. Dərslik. B.: 2012, - 430 s.
4. Abbasov İ. M. Audit. Dərslik. B.: 2007.- 530 s.Б.: 2002. – 482 c.
5. D.A. Bağırov. Vergi nəzarəti. Dərslik. B.: 2006, - 412 s.
6. D.A. Bağırov. "Vergi auditi" B.: "Maarif", 1999.
7. Багиров Д. "Налоговые проверки" Б.: 1997
8. Sadıqov Ə.A. Sadıqov T.Ə. Mühasibat (maliyyə) uçotu. Dərslik, 20(
9. Sadıqov Ə.A. Sadıqov T.Ə. İdarəetmə uçotu. Dərslik, 2012.
10. Аббасов Q.Ə. Mühasibat (maliyyə) uçotu. B.: 2003. – 574 s.
11. B.A. Xankişiyev B.A. Maliyyə nəzarəti. Turan nəşriyyatı.B.: 2002. -
12. Аудит: Учебник для вузов / Под редакцией профессора В.И.По ского – М.: Аудит, ЮНИТИ, 1997. – 432 с.
13. Аудит: Учебник для вузов / Под ред.проф. В.И.Подольского. изд, перераб.и доп. – М.: 2003.
14. Бобоев М.Р., Мамбетолиев Н.Т., Тютюрюков Н.Н. Налоговые темы зарубежных стран: Содружество Независимых Государств: Учебно собие.-М.: Гелиос АРВ, 2002. – 624 с.
15. Бухгалтерский учет: Учебное пособие / Под общ. ред. И.Е. Т ва Мн.: Выш. шк., 1994. – 592 с.
16. Бухгалтерский учет: Учебник / Под ред. П.П.Новиченко.– 2-е Перераб. и доп. – М.: Финансы и статистика, 1990. – 464 с.
17. Бухгалтерский учет / под редакцией Л.В.Соколова. – М.: 2004
18. Безруких П.С., Власенко Л.И., Горшков Н.П. Бухгалтерско-торский портфель. М.: «Соминтекс», 1994. –752 с.
19. Бухгалтерский учет: Учебник / Под редакцией П.С.Безруких 1994. – 528.
20. Бухгалтерский учет. Учебник /Под ред. А.Д.Ларионова. – М.: спект", 1999.
21. Барышников Н.П. Организация и методика общего аудита Информационно- издательский дом «ФИЛИНГ», 1995. – 448 с.
22. Вестник ИПБ: Институт профессиональных бухгалтеров Ро Информационное агентство. ИПБ-БИНФАК, 2002. – 167 с.
23. Вещунова Н.Л., Фомина Л.Ф. Бухгалтерский учет: Учебное бие. – М.: Финансы и статистика, 2000.
24. Глушков И.Е. Аудит на современном предприятии. Москва-Н сибирск: КНОРУС – ЭКОР, 1997. – 288 с.

25. Грачева Ю.В., Соколова Э.Д. Налоговое право: Вопросы и ответы. – попр. и доп. – М.: ИД Юриспруденция, 2003. – 160 с.

26. Демина И.Д., Криштелева Т.И. Аудит налогов: Курс – М.: Издательство – книготорговый центр «Маркетинг», МУПК, 2001. – 50 с.

27. Данилевский Ю.А. Аудит промышленных аукционных обществ-М.: АО «Финстатинформ», 1995. – 78 с.

28. Зайцев Н.Е. Теория налогов. БГЭУ 2002. 220 с.

29. Климова М.А. Налоговый учет. Практическое руководство – М.: «Налоговый вестник», 2003, - 224 с.

30. Камышанов П.И. Практическое пособие по аудиту – М.: ИНФРА. М.: 1996. – 522 с.

31. Камышанов П.И. "Практическое пособие по бухгалтерскому учету, 2002.

32. Камышанов П.И. «Практическое пособие по аудиту». М.: ИНФРА-М, 2005;

33. Кармайкл Д.Р., Бенис М. Стандарты и нормы аудита. Перевод с английского. – М.: Аудит, ЮНИТИ, 1995. – 527 с.

34. Карп М.В. Налоговый менеджмент: Учебник для вузов. – М.: ЮНИТИ-ДАНА. 2001. – 477 с.

35. Караваева Н.В. Налоговое регулирование рыночной экономики: Учебное пособие для вузов. – М.: ЮНИТИ-ДАНА. 2000. – 215.

36. Коновалова Н.Р. Развития учета прибыли в условиях трансформации отношений собственности. – М.: Экономист, 2003.

37. Кочетков А.И. Анализ налоговых ошибок. Учебное пособие-М.: Издательство «Дело и Сервис», 2002, 422 с.

38. Козлова Е.П. Бабченко Т.Н., Галанина Е.Н. Бухгалтерский учет в организациях. М.: Финансы и статистика, 1999.

39. Козлова Е.П. "Бухгалтерский учет в организациях", 2002.

40. Карасев В. Законодательство об акцизах в схемах – Право и экономика №7, 1999.

41. Карасев В. Законодательство о налоге на добавленную стоимость в схемах - Право и экономика №10, 1999.

42. Кондраков Н.П. Бухгалтерский учет. М.: 2004.

43. Кондраков Н.П. Бухгалтерский учет: Учебное пособие – ИНФРА - М.: 1999-564 с.

44. Ларичев В.Д., Бембетов А.П. Налоговые преступления. М.:, 2001, - 336 с.

45. Матрукова О.Н. Налоги и налогообложение. Курс лекций: Учеб. пособие М.: НКФ Омега, 2003, - 304 с.

46. Миляков Н.В. Налоги и налогообложение. Практикум. ИНФРА – М.: 2000. – 224 с.

47. Миляков Н.В. Налоги и налогообложение: Курс лекций. – 3-е издательство, перераб. и доп. – М.: ИНФРА-М, 2002. – 320 с.

48. Мудрых В.В. Ответственность за нарушения налогового законнодательства: Учеб. пособие для вузов-М.: ЮНИТИ-ДАНА, 2001. – 319 с.

49. Мизиковский Е.А., Елманова Е.Н., Пуреховская Е.В. Лабораторный практикум по бухгалтерскому учету: Учеб.пособие / Под.ред. д.э.н. проф Е.А.Мизиковского. М.: Юристь, 2003.

50. Медведев А. Н. Налог на добавленную стоимость: практика применения – М. - Главбух, 1999.

51. Ногина О.А.Налоговый контроль: вопросы теории – СПб: Питер, 2002.

52. Новиков Д.Ю. «Налог на прибыль в 2000 году», «Главбух», - М.: 2000. – 230 с.

53. Незамайкин Н.В., Юрзинова И.Л.. Налогообложение юридических и физических лиц. М.: – 2004.

54. Налоги. Под редакцией Д.Г.Черника – М.: 2004.

55. Налоги и налогообложение / сост. Е.П. Богданов. – М.: АСТ. Полиграфиздат; СПб.; Сова, 2010. – 159 с.

56. Суйц В.Р. "Аудит: общий, банковский, страховой" М.: 2002.

57. Седельникова Л.Б. Налоговый учет и учетная политика организаций для целей налогообложения – Москва.: НКФ Омега Л, 2002, - 208 с.

58. Сквордцов О.В. «Налоги. Экспресс-курс»: Учебно-справочное пособие. – М.: Издательство «дело и сервис», 2002. – 240 с.

59. Староверова О.В. Налоговое право: Учебное пособие для вузов / Под ред. проф. М.М.Рассолова, проф.Н.М.Коршунова. – М.: ЮНИТИ-ДАНА; Закон и право, 2001. – 413 с.

60. Суттрин С.Ф., Погордецкий А.Н. Налоги и налоговое планирование в мировой экономике / Под ред. Сутырина С.Ф. СПб.: Изд-во В.А. Михайлова, Изд-во Полиус, 1998. – 577 с.

61. Суглобов А.Е. Бухгалтерский учет и аудит: учебное пособие / А.Е. Суглобов Б.Г. Жарылгасова. - М.: КНОРУС, 2005. – 496 с.

62. Толстопятенко Г.П. Европейское налоговое право. Сравнительно-правовое исследование.-М.: Издательство НОРМА, 2001. – 386 с.

63. Толкушкин А.В. Налоги и налогообложения: Энциклопедический словарь. – М.: Юристь, 2001. – 512 с.

64. В.Ф.Палий, В.В.Палий. Финансовый учет. М.: 2004.

65. Под редакцией профессора П.С.Безруких. Бухгалтерский учет.– М.: 2004

66. Правовые основы бухгалтерского учета и аудиторской деятельности: Учебник/ Отв. Редактор проф. С.Г.Чаадаева. – Гл.: Юристь, 1999.

67. Пипко, Бережной. "Бухгалтерский учет (финансовый) учет", 2002.

68. Подольский В.И. «Аудит: Учебник для вузов». М.: Аудит, ЮНИТИ, 2005;

69. Полисюк Г.Б. «Аудит предприятия». М.: Экзамен, 2001;

70. «Практический аудит на современном предприятии». М.: Кнорус-Экор, 2000.

71. Экономика предприятия под редакцией доктору экономических наук, профессор В.П.Грузинова. – М.: 199.

72. Иванова Н.Г., Вайс Е.А., Катцуба Н.А., Петухова П.А. Налоги и налогообложение. Схемы и таблицы – СПБ: 2001, 304 с.

73. Ивашкин Б. Н. Бухгалтерский учет в торговле – М. - Дело и сервис, 1999

74. Фларов С.П. Налог на доходы физических лиц. – М.: "Главбух", 2002. – 180 с.

75. Финансы организаций (предприятий) Под. ред. профессора Н.В. Колчиной. М.: 2004.

76. Чернявский С.П. Международный овшорный бизнес и банки.-М.: Финансы и статистика. 2002. – 144 с.

77. Овсийчук М.Ф. Аудит. Организация. Методика проведения. – М.: ТОО «Интелтех», 1996. – 151 с.

78. Обжалование актов налоговых органов./Составитель В.В.Кашнин. – М.: Юрант-М.: 2002. – 340 с.

79. Т.Ф.Юткина "Налоги и налогообложение" ИНФРА - М.: 2001.

80. Ушаков Д.Л. Офшарные зоны в практике российских налогоплательщиков. – М.: Юрист

81. Шишкин А.К., Микруков В.А., Дышкант И.Д. Учет, анализ, аудит на предприятии: Учебное пособие для вузов.-М.: Аудит, ЮНИТИ, 1996. – 496 с.ть, 2002. – 496 с.

82. Шеремет А.Д. «Аудит: Учебник». М.: Инфра-М, 2005.

83. Ерофеева В.А. «Аудит: Учебное пособие». М.: Высшее образование, 2005;

84. Юткина Т.Ф. "Налоги и налогообложение" ИНФРА - М.: 2001

85. www.google.ru

86. www.aport.ru

87. www.taxes.gov.az

88. www.rambler.ru

89. http://www.yurclub.ru/

90. www. audit.ru

91. www. buh.ru

92. www. gaap.ru

93. http://referat.ru/

94. www.dtkt.com.ua/debet/rus/2000/14/14_podl.html

95. http://masters.donntu.edu.ua/

Tahir Əli oğlu Sadıqov
İmran Mirzə oğlu Rzayev

VERGİ UÇOTU VƏ AUDİTİ

"ELM" PUEDAKSİYA-NƏŞRİYYAT
VƏ POLİQRAFİYA MƏRKƏZİ

Direktor: H.Abıyev

Redaktorlar: £.Sadıqov
V.Babayeva

Kompyuter tərtibatı: R.Seyid-Rzayeva